

HEYDƏR ƏLİYEV

**AZƏRBAYCAN RESPUBLİKASI**
**XARİCİ İŞLƏR NAZİRLİYİ**

# AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİYA TARİXİ
## (1991-2003)


**Baş redaktor:**
*Azərbaycan Respublikasının xarici işlər naziri,*
*tarix üzrə fəlsəfə doktoru* ***Elmar Məmmədyarov***

**Redaksiya heyəti:**
*xarici işlər nazirinin müavinləri:*
***Araz Əzimov, Hafiz Paşayev, Xələf Xələf ov.***
***Mahmud Məmmədquliyev, Nadir Hüseynov***
*Xarici İşlər Nazirliyinin məsul əməkdaşları:*
*tarix üzrə fəlsəfə doktoru* ***Cavanşir Məmmədov,***
*tarix üzrə fəlsəfə doktoru* ***Cavanşir Vəkilov***

**MUSA QASIMLI**

# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİ
**(1991-2003)**

## *II HISSƏ*

MUTORCIM I

**Bakı** -2015

Azərbaycan Respublikasının diplomatiya tarixi / M.C.Qasımlı. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. 11 hissə. - Bakı: Mütər- cim, 2015. - 664 səh.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin qərarı ilə "Azərbaycan Respublikasının diplomatiya tarixi" seriyasından hazırlanan və iki hissədən ibarət olan bu kitab 1991-2003-cü illərin xarici siyasətini əhatə edir. Tarix üzrə elmlər doktoru, professor Musa Qasımlınm yazdığı monoqrafiyada göstərilən illərdə Azərbaycan diplomatiyasının keçdiyi yol araşdırılmışdır. Müəllif Azərbaycan. Rusiya, Gürcüstan. Türkiyə, ABŞ, Böyük Britaniyanın və digər ölkələrin mötəbər mənbələri. Praqada ATƏT arxivinin, Vyanada BMT və AEBA kitabxanalarının materialları əsasında Azərbaycan diplomatiya tarixinin bu müddət ərzində keçdiyi yolu işıqlandırmışdır.

Əsərin II hissəsində Azərbaycan Respublikasının Avropa dövlətləri, ABŞ, Asiya, Afrika ölkələri ilə münasibətləri, beynəlxalq təhlükəsizlik və əməkdaşlıq sistemində tutduğu yer, xarici siyasətində iqtisadiyyat amilinin rolu və s. məsələlər araşdırılmışdır. Mənbələrin əksəriyyəti elmi dövriyyəyə ilk dəfə gəlirilmişdir.

Kitab diplomatlar, siyasətçilər, beynəlxalq münasibətlər tarixi ilə məşğul olan mütəxəssislər, bu ixtisas üzrə təhsil alan tələbələr və Azərbaycan diplomatiya tarixi ilə maraqlanan şəxslər üçün nəzərdə tutulmuşdur.

ISBN: 978-9952-28-217-7

© Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, 2015
© M.C.Qasımlı, 2015

# İÇİNDƏKİLƏR

**VI FƏSİL.**
**AVROPA ÖLKƏLƏRİ İLƏ MÜNASİBƏTLƏR AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN MÖHKƏMLƏNDİRİLMƏSİNİN BEYNƏLXALQ AMİLLƏRİNDƏN BİRİ KİMİ ...................................... ..**

*Almaniya Federativ Respublikası ilə diplomatik-siyasi münasibətlərin qurulması və inkişafı. İlk addımlar - 10. Qarşılıqlı münasibətlərdə yeni keyfiyyət mərhələsi - 12. Azərbaycan Respublikası Prezidentinin AFR-ə ilk rəsmi səfəri - 22. Əməkdaşlıq genişlənir - 24. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı ilə münasibətlər. Qarşılıqlı münasibətlərin ilk addımları - 28. Azərbaycan Prezidentinin Böyük Britaniyaya ilk rəsmi səfəri - 35. Səfər bəhrəsini verir - 38. İki ölkə strateji tərəfdaşa çevrilir - 42. Əməkdaşlıq dərinləşir - 49. Fransa Respublikası ilə münasibətlər. Qarşılıqlı münasibətlərin təzadlı yolları - 53. Münasibətlərin yeni dövrü. Avropaya ilk səfər Fransadan başlayır. Niyə məhz Fransa? - 55. Şübhələr və etimadsızlıq aradan qaldırılır. "Avropa Atlantikdən başlayıb Xəzərdə qurtarır. Fransa öz üzünü ayrı-ayrı xalqların qüvvələri nisbətində xüsusi yer tutan strateji bir ölkə kimi Azərbaycana çevirir" - 59. Azərbaycan - Fransa münasibətlərində yeni mərhələ - 62. Italiya Respublikası ilə münasibətlərin qurulması və inkişaf. İlk əlaqələr - 69. Yeni mərhələnin başlanması - 71. İki ölkə arasında münasibətlərin maddi təməlləri möhkəmləndirilir - 74. Yeni addımlar - 75. Vatikan ilə münasibətlər - 76. Avstriya Respublikası ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi. İlk əlaqələr - 80. Qarşılıqlı münasibətlərdə mühüm mərhələ - 84. Əməkdaşlıq genişlənərək yeni sahələri əhatə edir - 86. Ruminiya ilə münasibətlər. Azərbaycanın dövlət müstəqilliyini tanıyan ikinci dövlət - 92. Dostluq və əməkdaşlıq münasibətləri haqqında bəyannamə imzalanır - 94. Rumıniya Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsində maraqlıdır - 96. Əməkdaşlıq yeni sahələri əhatə edir - 100. Rumıniya Prezidenti ion llieskunun Azərbaycana rəsmi səfəri əməkdaşlığa impuls verir -102. Polşa Respublikası ilə münasibətlərin qunıl- masi və inkişaf etdirilməsi. İki ölkə arasında birbaşa əlaqələr qurulur. Qarşılıqlı münasibətləri şərtləndirən amillər - 104. Münasibətləri sıxlaşdırmaq üçün yeni imkanlar - 108. Münasibətlər genişlənir - 110. Ukrayna ilə münasibətlərin qurulması və inkişaf yolu. İlk addımlar - 112. Qarşılıqlı münasibətlərdə yeni mərhələ - 112. ikitərəfli münasibətləri inkişaf etdirməyə ehtiyac vardır - 115. Ukrayna Azərbaycanın həyata keçirdiyi beynəlxalq layihələrə maraq göstərir. Strateji tərəfdaşlığa doğru - 116. Strateji tərəfdaşlıq konkret məzmunla zənginləşdirilir - 118. Belarus Respublikası ilə münasibətlərin qurulması. İlk addımlar - 121. Münasibətlərin maddi təməlləri möhkəmləndirilir -123. Moldova Respublikası ilə qarşılıqlı müna-*

*sibətbr. Münasibətlərin mücjavilə-hüquq bazasının qurulması. Dövlətlərin ərazi bütövlüyü toxunulmazdır - 125. Münasibətlərdə dinamizm artır - 127. Belçika Krallığı ilə münasibətlərin qurulması və inkişaf dinamikası. İlk addımlar - 128. Yeni mərhələnin başlanması - 129. Qarşılıqlı münasibətlər dərinləşir - 130. Niderland Krallığı ilə münasibətlər - 134. Norveç Krallığı ilə münasibətlər. İlk addımlar - 136. Yeni mərhələnin başlanması - 138. Bolqarıstan Respublikası ilə qarşılıqlı münasibətlərin qurulması və inkişafı. İlk təmaslar - 142. Münasibətlərin yeni keyfiyyət mərhələsinin başlanması -144.*

**VII FƏSIL.**
**AZƏRBAYCAN RESPUBLİKASININ AMERİKA QİTƏSİ DÖVLƏTLƏRİ İLƏ MÜNASİBƏTLƏRİNİN QURULMASI VƏ İNKİŞAFI** ........................................................................... .149

*Amerika Birləşmiş Ştatları ilə münasibətlər. Münasibətlərin qurulmasına təsir edən amillər - 149. llk əlaqələr -151. Anlaşılmaz münasibətlər: Səbəb nədir? - 154. Anlaşılmazlığı aradan qaldırmaq üçün diplomatik fəaliyyət - 157. Dönüş anı. Strateji tərəfdaşlığa doğru - 189. Əməkdaşlıq genişlənir - 205. Təhlükəsizlik məsələləri önə çıxır. ABŞ fəallığını artırır - 220. Azərbaycan-ABŞ münasibətlərində yeni keyfiyyət mərhələsi - 226. Kanada ilə münasibətlər - 247. Meksika Birləşmiş Ştatları ilə münasibətlərin qurulması və inkişaf - 250. Latın Amerikasının digər ölkələri ilə münasibətlər - 253.*

**VIII FƏSIL.**
**ASİYA VƏ AFRİKA ÖLKƏLƏRİ İLƏ MÜNASİBƏTLƏR.** .257

*Pakistan İslam Respublikası ilə münasibətlərin qurulması və inkişaf. İlk addımlar - 257. Qarşılıqlı münasibətlərdə yeni keyfiyyət mərhələsi - 260. Azərbaycan Prezidentinin Pakistana səfəri - 263. Münasibətlər dərinləşir - 267. Çin Xalq Respublikası ilə münasibətlər. Birbaşa əlaqələrin qurulması - 270. Təmas nöqtələri axtarışında - 271. Münasibətlərin yeni inkişaf mərhələsi - 274. Yaponiya ilə münasibətlərin qurulması və inkişaf. İlk təmaslar - 282. Münasibətlərdə yeni dövr - 284. Əməkdaşlıq dərinləşir - 289. Səudiyyə Ərəbistanı Krallığı ilə münasibətlər. Münasibətləri şərtləndirən amillər - 294. İlk əlaqələr - 296. Əməkdaşlığın gələcək inkişaf yolları müəyyənləşdirilir - 298. Əməkdaşlıq genişlənir - 299. Misir Ərəb Respublikası ilə münasibətlərin qurulması və inkişaf. İlk əlaqələr - 313. Münasibətlərin yeni mərhələsi - 315. Əməkdaşlıq artır - 320. Birləşmiş Ərəb Əmirlikləri ilə münasibətlər - 324. İraq Respublikası ilə münasibətlər - 327. Küveyt Dövləti ilə münasibətlər - 334. Livan Respublikası ilə münasibətlər - 336. İsrail Dövləti ilə*

*münasibətbr - 342. Fələstin məsələsinə münasibət - 349. Özbəkistan Respublikası ilə münasibətlərin yeni əsaslar üzərində qurulması. İlk addımlar - 351. Soyuqluq aradan qaldırılır - 353. Münasibətlərin yeni mərhələsi - 355. Qırğızıstan Respublikası ilə münasibətlər. İlk təmaslar -361. Münasibətlərdə yeni səhifə - 363.*

**IX FƏSİL.**
**AZƏRBAYCAN RESPUBLİKASI BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIQ SİSTEMİNDƏ.** .368

*Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlıq. Azərbaycan Respublikasının BMT-yə üzv olması və əməkdaşlığın ilk addımları - 369. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT Baş Məclisində nitqi. Qaçqın və məcburi köçkünlər məsələsi - 372. Beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycanın iştirakı - 383. Azərbaycan tərəfi qaçqın və məcburi köçkünlərin vəziyyəti məsələsini yenidən gündəliyə gətirir - 386. Azərbaycan terrorizmə qarşı mübarizədə əməkdaşlığı genişləndirir. Əsir, girov və qaçqınlar məsələsi - 389. Azərbaycan Respublikası BMT-də islahatların aparılmasını istəyir - 393. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlığın qurulması və inkişafı. İlk addımlar - 397. Azərbaycan Respublikası Paris xartiyasına qoşulur - 398. İstanbul zirvə görüşü. Avropada adi silahlı qüvvələr haqqında müqavilə məsələsi və Azərbaycan - 400. Əməkdaşlıq davam etdirilir - 405. Terrorizm əleyhinə mübarizə məsələsi - 406. Avropa Şurası ilə əməkdaşlığın qurulması və inkişaf dinamikası. İlk əlaqələr. Avropa Şurası Azərbaycan ərazilərinin işğalından narahatdır - 410. Avropa Şurasına üzv olmaq üçün Azərbaycanın səyləri. Xüsusi dəvət olunmuş qonaq statusu - 413. Əməkdaşlıq genişlənir. Tanı hüquqlu üzvlük üçün Azərbaycanın tədbirləri - 416. Azərbaycan nümayəndə heyəti təşkil edilir. Avropa Şurası azərbaycanlı qaçqın və məcburi köçkünlər məsələsini müzakirə edir - 419. Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının ikinci zirvə görüşü və Azərbaycan - 423. Əməkdaşlıq dərinləşir - 426. Azərbaycan Respublikası Avropa Şurasına tam hüquqlu üzv qəbul edilir. Yeni imkanlar - 430. NATO ilə əməkdaşlıq xarici siyasətin istiqamətlərindən biri kimi. Yeni şəraitdə NATO-nun roluna qısa bir baxış - 439. Azərbaycan - NATO əlaqələrində ilk addımlar - 441. Sülh naminə tərəfdaşlıq proqramı və Azərbaycan - 444. Əməkdaşlıqda yeni addımlar. NATO-nun Şərqə doğru genişlənməsi - 449. NATO baş katibinin Azərbaycana ilk səfəri - 453. NATO-nun Madrid zirvə görüşü və Azərbaycan - 455. Azərbaycan əməkdaşlığı genişləndirmək üçün əlavə addımlar atır - 456. NATO baş katibinin Azərbaycana ikinci səfəri - 458. NATO-nun yaradılmasının 50 illik yubileyində Azərbaycanın iştirakı - 459. Əməkdaşlıq genişlənir. Azərbaycan NATO-nun sülhməramlı proqramlarında iştirak edir - 460. NATO-nun*

*baş katibi Corc Robertsonun Azorbaycana səfəri - 464. 11 sentyabr terror aktlarının Azərbaycan - NATO əməkdaşlığına təsiri - 465. NATO/AATŞ üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Praqa zirvə görüşündə Azərbaycanın iştirakı - 474. Azərbaycan İraqda sülhməramlı əməliyyatlarda iştirak üçün dəvət edilir - 477. Kütləvi qırğın silahlarının yayılmaması istiqamətində Azərbaycan diplomatiyasının fəaliyyəti - 479. İslam Konfi-ansı Təşkilatı ilə əməkdaşlıq. Əməkdaşlığı şərtləndirən amillər - 487. Azərbaycanın IKT-yə üzv olması - 488. Əməkdaşlığın başlıca istiqamətləri - 489. Əməkdaşlığın yeni mərhələsi - 493. Azərbaycan Respublikası və Müstəqil Dövlətlər Birliyi. MDB-nin yaradılması və ona münasibət - 505. Müstəqil dövlətlərin fövqündə duran qurum, yoxsa əməkdaşlıq vasitəsi? - 507. GUAM-in qurulması və fəaliyyətinin əsas istiqamətləri. GUAM-ın yaradılmasını şərtləndirən amillər - 522. Qurumun formalaşması və Azərbaycan üçün prioritet sahələri - 523.*

**X FƏSİL.**
**AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİNDƏ İQTİSADİYYAT AMİLİ ........ 542**

*Beynəlxalq maliyyə və iqtisadi qurumlaıia əməkdaşlıq ölkənin sosial-iqtisadi həyatının yenidən qurulmasının vasitələrindən biri kimi - 544. Azərbaycan nəqliyyat-kommunikasiya mərkəzinə çevrilir. Avropa İttifaqı ilə əməkdaşlıq - 557. Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq - 580. iqtisadi Əməkdaşlıq Təşkilatı ilə əlaqələr - 585.*

NƏTİCƏ........591
BİBLİOQRAFİYA........603
ƏLAVƏLƏR........633

# VI FƏSIL

# AVROPA ÖLKƏLƏRİ İLƏ MÜNASİBƏTLƏR AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN MÖHKƏMLƏNDİRİLMƏSİNİN BEYNƏLXALQ AMİLLƏRİNDƏN BİRİ KİMİ

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının xarici siyasətinin mühüm istiqamətlərindən biri Avropa ölkələri ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi oldu. Qeyd etmək lazımdır ki, Avropa qitəsi ölkələri ilə Azərbaycanın əlaqələrinin zəngin və qədim tarixi vardır. Hələ orta əsrlərdən Avropa ölkələri ilə Azərbaycan arasında əlaqələr mövcud idi. Bu əlaqələr XIX əsrdə və XX əsrin əvvəllərində də saxlanılmışdı. Avropa ölkələrinin kapitalı Azərbaycanda müxtəlif sahələrə, xüsusən neft sənayesinə qoyulmuşdu. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin, 1920-1922-ci illərdə isə Azərbaycan SSR-in Avropa ölkələri ilə əlaqələri var idi. Bakıda bəzi Avropa ölkələrinin nümayəndəlikləri fəaliyyət göstərirdi. Sonrakı illərdə xarici siyasət fəaliyyəti Mərkəzi hakimiyyətin əlində cəmləşdiyindən Azərbaycanın Avropa ölkələri ilə birbaşa əlaqələri də kəsildi. İkinci dünya müharibəsindən sonra yaranmış yeni şəraitdə Mərkəzi hökumət müttəfiq respublikaların, o cümlədən Azərbaycanın xarici ölkələrlə əsasən mədəni əlaqələrinə məhdud çərçivədə icazə verdi. Lakin bu əlaqələr bilavasitə Mərkəzin göstərişi və nəzarəti altında həyata keçirilirdi.

Dövlət müstəqilliyinin bərpa edilməsi Azərbaycanın Avropa ölkələri ilə münasibətlərdə yeni keyfiyyət mərhələsi açdı. Bu münasibətlər əvvəlki dövrlərdəki əlaqələrdən əsaslı surətdə fərqlənirdi.

Azərbaycanın maraqları baxımından Avropa ölkələri ilə münasibətlərin qurulmasını bir sıra amillər şərtləndirirdi. “Qoca dünya” adlandırılan Avropa qitəsi dünyanın ən əlverişli coğrafi ərazilərindən biridir. Qitədə yerləşən çaylar gəmiçilik üçün açıqdır və isti dənizlərə çıxış üçün əlverişli imkanlar vardır. Avropa İttifaqı dünyanın iqtisadi güc mərkəzlərindən biridir. Qərbi Avropa sənaye və kənd təsərrüfatının inkişafı, texnoloji səviyyə, turizm sənayesi və s. sahələrin infrastruktur imkanları baxımından

dünyada qabaqcıl yerlərdən birini tutur. Avropada bir sıra iri korporasiyalar, beynəlxalq və regional təşkilatlar yerləşir. Qərbi Avropa dövlətləri dünya siyasətinə ciddi təsir imkanlarına malikdirlər. BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən üçü - Böyük Britaniya, Fransa və Rusiya bu qitədə yerləşir. Avropa dünyaya bir sıra demokratik dəyərlər vermişdir. Demokratik inkişaf yolunu tutan Azərbaycan üçün həmin dəyərlərə sahib olan ölkələrlə əlaqələrin qurulması və inkişafı əhəmiyyətli idi. Bu ölkələrlə münasibətlər Azərbaycanın dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsinin beynəlxalq amillərindən biri hesab edilirdi.

Azərbaycan da bir sıra şərtlər baxımından Avropa ölkələri üçün müstəsna əhəmiyyət kəsb edirdi. Əlverişli coğrafi-siyasi mövqedə yerləşməsi, Şərq ilə Qərb arasında "qızıl körpü" rolu oynaması, demokratik, dünyəvi, hüquqi dövlət quruculuğu, azad bazar İqtisadiyyatı yolu seçməsi, zəngin təbii sərvətləri, Avropa ölkələri ilə münasibətləri xarici siyasətinin üstün istiqaməti seçməsi bu ölkələrin siyasətində Azərbaycanın yerini və rolunu artırırdı. Əməkdaşlıq Avropa ölkələrinin də, Azərbaycanın da maraqlarına uyğun idi.

Bəs Azərbaycan Respublikasının Avropa dövlətləri ilə diplomatik-siyasi münasibətlərinin inkişaf dinamikası necə olmuşdur?

## ALMANIYA FEDERATİV RESPUBLİKASI İLƏ DİPLOMATİK-SİYASİ MÜNASİBƏTLƏRİN QURULMASI VƏ İNKİŞAFI

### İlk addımlar

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının xarici siyasətinin Avropa istiqamətində mühüm yerlərdən birini Almaniya Federativ Respublikası ilə münasibətlər tutdu. Bu da səbəbsiz deyildi. Azərbaycan ilə Almaniya arasında münasibətlərin qədim tarixi kökləri var idi. Bu köklər əsasən bir neçə amildən ibarətdir. Hər şeydən əvvəl, hələ XIX əsrin əvvəllərində Azərbaycanın qərb rayonlarına almanların köçürülməsinə başlanılmışdı. Heç şübhəsiz, çarizm həmin siyasəti ilə dövlət maraqlarını həyata keçirməyi düşünürdü. Azərbaycan torpaqlarına köçürülən almanlar, xüsusilə Bürtemberqdən olanlar Yelenendorf (Göygöl), Annenfeld (Şəmkir) və Rufbergenin (Daşkəsən) əsasını qoymuşdular. Gəncə şəhərində də almanlar məskunlaşdırılmışdılar. Almanların

köçürülməsinin və koloniyalarının yaradılmasının əsas səbəblərindən biri, ilk növbədə azərbaycanlıların bütün dinlərə hörmət bəsləməsi, Azərbaycanın əlverişli təbii iqlim şəraiti, zəngin təbii sərvətləri və neft sənayesinin mövcudluğu olmuşdu. Almaniyadan gələnlər neft və dağ-mədən sənayesinin inkişafına kapital qoyaraq XD( əsrin ikinci yarısı - XX əsrin əvvəllərində Azərbaycan sənayesinin dirçəldilməsi və inkişafında mühüm rol oynamışlar. O vaxtdan uzun bir dövr keçməsinə baxmayaraq, Azərbaycan - Almaniya əlaqələrində, Bakı, Gəncə, Şəmkir və Xanlar şəhərlərində və kəndlərdə alman izləri hələ də qalır. Sonrakı dövrlərdə də Azərbaycan - Almaniya əlaqələri müxtəlif səviyyələrdə qorunmuşdu. Qarşılıqlı münasibətlərdə alman icması müəyyən yer tuturdu. Qeyd etmək lazımdır ki, dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycandakı alman icması 700- dən çox ailəni birləşdirirdi. Bakı kirxası faktiki olaraq alman mədəniyyəti mərkəzinə çevrilmişdi.

Almaniyada da azərbaycanlı diasporası mövcud idi. Onlar əsasən İkinci dünya müharibəsindən sonra Stalin repressiyalarından qorxaraq Azərbaycana dönməyənlər və 1978-1979-cu illər inqilabından sonra İrandan mühacirət edən azərbaycanlılar idi. Almaniyada onlann təşkilatları fəaliyyət göstərir, qəzet və jurnalları nəşr edilirdi.

Müstəqil qarşılıqlı münasibətlərə doğru ilk addımlar 80-ci illərin sonlarında atıldı. Hələ SSRİ mövcud olduğu bir zamanda iki Almaniyanın birləşməsi Azərbaycan xalqı tərəfindən hərarətlə qarşılandı. 1990-cı il sentyabrın 30-da Azərbaycan Respublikasının Baş Naziri Həsən Həsənov AFR-in federal kansleri Helmut Kola məktub göndərərək bu tarixi hadisə münasibəti ilə alman xalqını təbrik etdi'.

SSRİ-nin dağılması ilə qarşılıqlı münasibətlərdə yeni şərait yarandı. AFR 1992-ci il yanvarın 12-də Azərbaycanın dövlət müstəqilliyini tanıdı, iki ölkə arasında diplomatik əlaqələr həmin ilin fevralın 20-də quruldu.
1992- ci il mayın 29-da Azərbaycan Respublikasının AFR-də səfirliyinin açılması haqqında fərman imzalandı^. Görkəmli diplomat, əvvəllər xarici işlər naziri işləmiş Hüseynağa Sadıqov Azərbaycan Respublikasının AFR- də ilk səfiri təyin edildi. Ona fövqəladə və səlahiyyətli səfir dərəcəsi verildi. Hüseynağa Sadıqov eyni zamanda Avstriya, İsveçrə, Hollandiya və Lüksemburqda da səfir oldu. Azərbaycanın Avropada ilk səfirliyi

**' FacanoB F. TejıerpaMMa (jıeaepanbHOMy Kancjıepy cpeaepaTHBHon PecnyÖJiHKH FepMaHHH, ero npeBocxoflHTejibCXBy r-ny FeabMyry Kojiıo. 30 ceHTHÖpa 1990 r. - Həsən Həsənovun şəxsi arxivindən.**
**^ ARXINA. 1992.**

1992-ci ilin iyun ayında Bonn şəhərində fəaliyyətə başladı. Hüseynağa Sadıqov sentyabrın 2-də etimadnaməsini AFR Prezidenti Rixard fon Vaytzekkerə^ təqdim etdi. AFR-in Azərbaycandakı səfirliyi isə bundan az sonra, sentyabrın 22-də açıldı'*.

Qarşılıqlı münasibətlərdə ilk addımlar atılmağa başladı. Bunlar əsasən iqtisadiyyat sahəsini əhatə edirdi. Belə ki, 1992-ci ilin sentyabrında Azərbaycan Respublikası Ticarət Nazirliyinin, noyabr ayında isə baş nazirin birinci müavini başda olmaqla hökumət nümayəndə heyətinin Almaniyaya səfəri zamanı keçirilən danışıqlarda iki ölkə arasında iqtisadi əlaqələrin qurulması və genişləndirilməsi məsələləri müzakirə edildi, müvafiq sənədlər imzalandı. Az sonra, 1993-cü ilin yanvar ayında Azərbaycan Respublikası dövlət katibinin Almaniyaya səfərinin yekununda imzalanan sənədlərə əsasən həmin ilin yayında iki dövlət arasında birbaşa hava xətti açıldı. Bütün bunlar ilk addımlar kimi böyük əhəmiyyət daşıyırdı.

## Qarşılıqlı münasibətlərdə yeni keyfiyyət mərhələsi

İki ölkə arasında münasibətlərdə yeni keyfiyyət mərhələsi 1993-cü ildən etibarən başladı. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycan Respublikasının Avropa ölkələri ilə münasibətlərinin genişləndirilməsinə xüsusi diqqət yetirildi. Bu zaman Azərbaycanın Bonndakı səfirliyinin mühüm fəaliyyəti cərgəsinə iki ölkə arasında münasibətləri genişləndirmək, ölkə haqqında həqiqətləri alman ictimaiyyətinə çatdırmaq daxil idi. Azərbaycan Respublikasının xarici işlər naziri Həsən Həsənov 1993-cü il sentyabrın 13-də Bonndakı səfir Hüseynağa Sadıqova məktub göndərərək keçirdiyi görüşlərdə Azərbaycanın demokratik inkişaf yolu seçdiyi barədə geniş məlumat vermək, iki ölkə arasında münasibətləri yaxşılaşdırmaq üçün fəal olmaq təlimatını verdi^. Məktubda ölkədə baş verən siyasi proseslər barədə gündəlik operativ məlumatların verilməsi və əlaqələri daha da yaxşılaşdırmaq üçün təkliflərin irəli sürülməsi tövsiyə edilirdi.

Səfirlik münasibətlərin inkişafı üçün bir sıra təkliflər hazırladı. Həmin təkliflər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində öyrənildi.

^ Rixard Kari fon Vaytzekker (1920)- AFR Prezidenti (1984-1994). “ ARXİNA. 2008.
^ ARXİNA. 13.09.1993-30.09.1993. Qovluq Nb22, v.l 18-119.

Bundan sonra Almaniya ilə Azərbaycan arasında mövcud olan əlaqələri dərinləşdirib yeni səviyyəyə qaldırmaq, dünya ictimaiyyətinə respublikanın daha dolğun tanıdılması işində mədəni, elmi, humanitar əlaqələrin mühüm rolu olduğunu nəzərə alaraq, eyni zamanda erməni lobbisinin yaratdığı informasiya blokadasını yarmaq üçün Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi 1993-cü il sentyabrın 17-də elmi, ictimai, mədəniyyət, ədəbiyyat, kütləvi informasiya vasitələri və s. əhatə edən təkliflərini hazırlayaraq AFR-dəki səfirliyə göndərdi®. Təkliflər münasibətləri yeni səviyyəyə çıxarmağa yönəlmişdi.

Qeyd etmək lazımdır ki, 1992-ci ildə Azərbaycanın Almaniya ilə ticarətdə idxalı 9620, 6 dollar, ixracı 12941,5 dollar olmuşdusa, 1993-cü ildə idxalı 10292,4 dollar, ixracı isə 3680,9 dollar təşkil etmişdi. Azərbaycan Almaniyadan əsasən ərzaq məhsulları və xalq istehlakı malları alır, öz növbəsində Almaniyaya neft emalı sənayesi məhsulları, əlvan metallar, kimya və neft kimyası, maşınqayırma, toxuculuq sənayesi məhsulları və s. göndərirdi.

Hər iki tərəfin səyləri nəticəsində qarşılıqlı münasibətlərdə canlanma yarandı. Almaniya tərəfi Dağlıq Qarabağ münaqişəsinin həllinə maraq göstərməyə başladı. AFR bundestaqının üzvü doktor Şperlinq 1993-cü il oktyabrın 1-4-də Azərbaycana səfəri zamanı bu istəyi irəli sürdü. O, Azərbaycan və Ermənistanın hər birindən üç deputatı dəvət edərək müzakirələr keçirmək istəyirdi. Azərbaycan tərəfi təklifə etiraz etmədi^.

Şperlinqdən sonra, dekabr ayında bundestaqın üzvü Villi Vimmer Azərbaycana səfər etdi. Keçirilən görüşlərdə iki ölkə arasında əməkdaşlıq və parlament əlaqələrinin qurulması məsələləri müzakirə edildi. Almaniya ölkələrin sərhədlərinin zorla dəyişdirilməsinin əleyhinə idi. İkitərəfli münasibətlərin inkişaf etdirilməsi və regional məsələlərə baxışda Azərbaycan ilə Almaniyanın mövqeləri üst-üstə düşürdü.

Bu səfərlərin nəticəsində AFR Ermənistanda aparılan etnik təmizləmə və Azərbaycana qarşı hərbi təcavüz nəticəsində qaçqın və məcburi köçkünə çevrilmiş azərbaycanlıların vəziyyətini yüngülləşdirmək üçün tədbirlərə başladı. 1993-cü ilin dekabr ayında Almaniyanın Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Tomas Terstegen Yaşmada məcburi köçkünlərə qəsəbə salınması üçün Almaniyanın 400 min dollar (600 min marka) məbləğdə vəsait ayırmasına hökumətinin hazır olduğunu və

® ARXİNA. 13.09.1993-30.09.1993. Qovluq Xs22, v. 71.
’ ARXİNA. 10.11.1993.-29.11.1994. Qovluq Xe9, v.201.

buna dair iki ölkənin xarici işlər nazirlikləri arasında protokol imzalanmasını təklif etdi*. Belə bir təklif Almaniya tərəfinin Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzünün nəticələrini aydın gördüyünü göstərirdi.

Bu zaman AFR-in Bakıdakı səfirliyi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə müraciət edərək İkinci dünya müharibəsi illərində əsir düşmüş və Azərbaycan ərazisində dəfn olunmuş alman hərbi əsirlərinin qəbiristanlıqları barədə məlumat verilməsini xahiş etdi. Azərbaycanın xarici işlər naziri Həsən Həsənov 1993-cü il dekabrın 3-də Sumqayıt şəhər icra hakimiyyətinə məktub göndərərək şəhərdəki alman qəbirləri barədə məlumat istədi. Dekabrın 14-də Sumqayıt şəhər Xalq Deputatları Sovetindən Xarici İşlər Nazirliyinə göndərilən məktubda Sumqayıt arxivində göstərilən məsələ barədə heç bir məlumat olmadığı bildirilirdi. Qeyd etmək lazımdır ki, Sumqayıtda qəbiristanlıq şəhərin Köhnə Kotec adlanan yerində yerləşirdi. Qəbiristanlıq əsasən 1945-1949-cu illərdə salınmışdı. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi bununla kifayətlənmədi. Keçmiş SSRİ DTK Mərkəzi Arxivindən toplanmış məlumatlar əsasında alman qəbirlərinin sayını müəyyənləşdirmək mümkün oldu. Onların sayı aşağıdakı kimi idi: Sumqayıt şəhəri 328 X2-Iİ qəbiristanlıqda 311 nəfər; Bakı şəhəri Keşlə qəbiristanlığında 71 nəfər; Qaradağ rayonu 6 X2-Iİ həbs düşərgəsinin qəbiristanlığında 12 nəfər; Oktyabr rayonu (indiki Yasamal) 468 FTs-li düşərgənin qəbiristanlığında 12 nəfər; Gəncə şəhəri Qırıxh kəndi 223 İN2-Iİ həbs düşərgəsinin qəbiristanlığında 601 nəfər; Xanlar (indiki Göygöl) şəhəri 223 İN2-İİ həbs düşərgəsinin qəbiristanlığında 51 nəfər; Şəki şəhəri 429 M-li həbs düşərgəsinin qəbiristanlığında 17 nəfər; 1552 X2-Iİ xüsusi hospitalın və Xanlar şəhər 498 Ffo-li həbs düşərgəsinin qəbiristanlığında 909 nəfər; 444 Xe-li həbs düşərgəsinin və 5030 X2-İİ hospitalın Mingəçevir şəhər qəbiristanlığında 822 nəfər; 5030 X2-Iİ xüsusi hospitalın Mingəçevir şəhər həbs düşərgəsinin qəbiristanlığında 89 nəfər. Verilən məlumata görə, Azərbaycan Respublikası ərazisində 2986 nəfər alman hərbi əsirinin məzarı var idi^. Əslində məzarların sayı dəqiq müəyyənləşdirilməmişdi. Həm də dəfn edilənlərin heç də hamısı alman deyildi. Onların arasında SSRİ-yə qarşı müharibədə iştirak etmiş digər ölkələrin də vətəndaşları var idi.

**ARXINA. 10.11.1993-29.11.1994. Qovluq Jfo9, v.200.**
**’ ARXİNA. 10.11.1993-29.11.1994. Qovluq N29, v. 191 -192.**

Məlumatı aldıqdan sonra Azərbaycan Respublikasının xarici işlər naziri Almaniya tərəfinin müraciəti ilə bağlı olaraq 1994-cü il yanvarın 3-də Bakı , Gəncə , Sumqayıt , Şəki , Daşkəsən , Mingəçevir şəhər , Xanlar rayon'® icra hakimiyyətinin başçılarına məktubla müraciət edərək yuxarıdakı müvafiq məlumatları göndərdi.

İki ölkə arasında münasibətlərin inkişaf etdirilməsi istiqamətində də fəaliyyət genişləndirildi. Azərbaycan Respublikasının AFR-dəki səfirliyi 1994- cü il aprelin 13-də iki ölkə arasında kapital qoyuluşunun təşviq edilməsi və qorunmasına dair müqavilənin, hər iki ölkədə olan məzarların qorunması və qaydaya salınmasına dair sazişin, xarici işlər nazirlikləri arasında əməkdaşlığa dair protokolun imzalanması təklifini irəli sürdü''. Qarşılıqlı əlaqələrin nəticəsi olaraq Avropa İttifaqı Almaniyanın Texniki əməkdaşlıq cəmiyyəti və Texniki yardım göstərilməsi üzrə təşkilata Azərbaycanda məcburi köçkünlər üçün 8 düşərgə tikməyi tapşırdı'*. Alman mütəxəssisləri Yaşma qəsəbəsində 500 köçkün üçün 42, Beyləqanda isə 200 ev quraşdırdılar'^.

Bütün bunlar tərəflərin qarşılıqlı münasibətləri etibarlı və möhkəm əsaslarda qurmaq niyyətlərindən xəbər verir, iki ölkə arasında əməkdaşlığın geniş müzakirəsini keçirməyi və müvafiq sənədləri imzalamağı zəruri edirdi. 1994-cü il iyunun 1-də Azərbaycan Respublikası ilə AFR arasında münasibətlərin əsasları haqqında birgə bəyanat qəbul edildi'". Tərəflər dostluq və əməkdaşlıq münasibətlərini hərtərəfli inkişaf etdirmək və ona yeni keyfiyyət halı vermək istəklərini bəyan etdilər. Hər iki ölkə BMT və ATƏM sənədlərinə sadiq olduqlarını nümayiş etdirdilər. Almaniya tərəfi Azərbaycanın azad bazar iqtisadiyyatı yolu ilə inkişafına kömək etmək niyyətində idi. Dövlətlər hərtərəfli əməkdaşlığın qurulub genişləndirilməsinə böyük əhəmiyyət verir, iki ölkə arasında sosial və humanitar

---

| | | | | |
|---|---|---|---|---|
| ARXİNA. | 10.11.1993 | -29.11.1994. | Qovluq | X29, |
| " ARXİNA. | 10.11.1993- | 29.11.1994. | V.193. | Qovluq |
| ARXİNA. | : | 29.11.1994. | X29, | V.194. |
| ARXİNA. | 10.11.1993 | 29.11.1994. | Qovluq | X°9, v.l95. |
| ARXİNA. | 10.11.1993 | 29.11.1994. | Qovluq | X29, |
| ARXİNA. | 10.11.1993 | -29.11.1994. | V.196. | Qovluq |
| ARXİNA. | 10.11.1993 | -29.11.1994. | X29, | V.197. |
| ARXİNA. | 10.11.1993 | -04.11.1996. | Qovluq | J429, v.l98. |
| ARXİNA. | 21.05.1994 | -29.11.1994 | Qovluq | IN29, |
| ARXİNA. | 10.11.1993 | . | V.199. | Qovluq |
| " ARXİNA. | 10.11.1993 | -29.11.1994 | X2II, **V.8.** | Qovluq |

sahələrdə əməkdaşlığı dərinləşdirəcəklərinə dair ümumi rəyə gəlirdilər. İki ölkə arasında münasibətləri inkişaf etdimıək baxımından ciddi əhəmiyyət daşıyan bu sənəd eyni zamanda əməkdaşlıq məsələlərini müzakirə etmək üçün geniş imkanlar açırdı.

AFR-in Bakıdakı səfirliyi Azərbaycan Respublikası XİN-ə iyulun 1-də göndərdiyi notasında danışıqların keçirilməsini iyulun 11-dən 13-dək təklif etdi^'. Almaniya tərəfdən danışıqlarda iştirak edəcək nümayəndə heyətinin tərkibinə diplomatik nümayəndə Platç, Hərbçi məzarlarına xidmət üzrə xalq şurasının baş katibi Xolç və Almaniyanın Azərbaycandakı müvəqqəti işlər vəkili Mixail Şmunk daxil idilər.

Qeyd etmək lazımdır ki, bu zaman Azərbaycan Memorial cəmiyyətinin məlumatına görə, 1944-1949-cu illər ərzində Azərbaycan ərazisində 12 hərbçi qəbiristanlığı var idi. Onlar əsasən Bakı, Sumqayıt, Mingəçevir və Gəncə şəhərlərində yerləşirdi. Verilən digər bir məlumata görə, həmin qəbiristanlıqlarda 3 minə yaxın - 2991 məzar var idi. Onlardan 2328 nəfəri Almaniya, 391 nəfəri Macarıstan, 165 nəfəri Rumıniya, 97 nəfəri Avstriya və 17 nəfəri Çexoslovakiya vətəndaşları idi. Bundan başqa Daşkəsən və Xanlar rayonlarında da almanlar dəfn edilmişdi^^.

AFR tərəfi Azərbaycandakı alman məzarlarının bərpası və onların yenidən dəfn olunması üçün ayrıca bir yer ayrılmasım istəyirdi. Azərbaycan təqdim edilən saziş layihəsini öyrəndi. Xarici İşlər Nazirliyinin müqavilə-hüquq idarəsinin rəisi Xələf Xələfov xarici işlər naziri Həsən Həsənova iyulun 7-də yazdığı məktubunda saziş layihəsinə analoji olaraq AFR ərazisindəki azərbaycanlı məzarlarının qaydaya salınması maddəsini də daxil etməyi təklif etdi. Qəbiristanlığa alman hərbi əsirlərinin dəfh olduğu yer statusu vermək təklifi məqsədəmüvafıq hesab edilmirdi^^. Buna ehtiyac yox idi. Çünki qəbiristanlıqdakı bütün məzarlar Azərbaycanın müvafiq qurumları tərəfindən mühafizə edilirdi. Onları digər məzarlardan ayırmağa lüzum yox idi.

Müzakirələrdən sonra 1994-cü il iyulun 12-də ümumi razılıq əldə edildi. Almaniya tərəfi saziş layihəsini təqdim etdi^'*. Layihə Xarici İşlər Nazirliyində və Azərbaycanın digər qurumlarında öyrənildi. Alman hərb-

ARXINA. 21.05.1994-04.11.1996. Qovluq Xsl 1, v. 114.

ARXİNA.21.**05**.1**994-04.**11.1**996.** Qovluq Xal 1, v. 1**90.**

“ ARXİNA.27.07.1993-20.11.1995. Qovluq Xal 1 ,v.59-60.

^"ARXİNA. 21.05.1994-04.11.1996. Qovluq Xali, v.65; ARXINA. 21.05.1994-04.11.1996. Qovluq Xal 1, v.170-173.

çilərinin məzarlarının bir yerə cəmlənməsi və yenidən dəfn edilməsi məqsədəuyğun sayılmadı^^.

İki ölkənin xarici işlər nazirlikləri arasında məsləhətləşmələr davam etdirilirdi. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin nümayəndə heyəti noyabrın 8-9-da AFR-ə səfər edərək Bonnda AFR Xarici İşlər Nazirliyində bir neçə məsləhətləşmə keçirdi. Gündəlikdə əsasən üç məsələ dururdu: birgə bəyanatın mətni üzərində iş; ikitərəfli münasibətlərə dair məsləhətləşmələr; Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişin imzalanması məsələsinə dair məsləhətləşmələr.

Məsləhətləşmələrdə Azərbaycan tərəfdən xarici işlər nazirliyinin idarə rəisi Aqşin Mehdiyev və digər şəxslər, Almaniya tərəfindən XİN İkinci siyasi idarənin şöbə müdiri Fon Ştudniç, Şərqi Avropa bölməsinin müdiri Noybert, Azərbaycan, Ermənistan və Gürcüstan üzrə kurator xanım C.Velter, bölmənin Azərbaycanla iqtisadi əlaqələr məsələləri ilə məşğul olan əməkdaşı xanım Lüter, AFR-in Azərbaycan Respublikasındakı müvəqqəti işlər vəkili Mixail Şmunk, XİN-in Avropa İttifaqı məsələləri üzrə şöbəsinin rəhbəri Bart, MDB ölkələri ilə iqtisadi münasibətlər bölməsinin müşaviri Şlotte, beynəlxalq sazişlər bölməsinin rəhbəri Be- melmans, əmək və sosial hüquq bölməsinin rəhbəri Platç iştirak edirdilər.

İki ölkə arasında imzalanacaq birgə bəyannamənin mətni əsasən razılaşdırıldı. Bəyannamənin yalnız 8 və 17-ci maddələrini razılaşdırmaq mümkün olmadı. Bunlar keçmiş SSRİ-nin borclarına münasibətdə varisliyinə və AFR ilə imzaladığı müqavilələrə aid idP®. Bu da səbəbsiz deyildi. Çünki Azərbaycan Respublikası SSRİ-nin varisi deyildi. Digər tərəfdən, imzalanan bütün müqavilələr parlamentdə müzakirə edilməli idi.

Azərbaycan Respublikası ilə AFR arasında ikitərəfli münasibətlərə dair məsələlər üzrə də məsləhətləşmələr keçirildi. Məsləhətləşmələr zamanı Almaniya tərəfinə Azərbaycandakı siyasi şərait, həyata keçirilən iqtisadi islahatlar, Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həlli yolları, Ermənistanın Minsk qrupunun səylərini pozmaq, xüsusən Şuşa və Laçını azad etmək istəməmək cəhdləri barədə məlumat verildi. Vurğulandı ki, Ermənistan işğal etdiyi əraziləri azad etməyincə regionda daimi və möhkəm sabitlik mümkün deyildir. ATƏM- in sülhməramlı qüvvələrinin formalaşdırılması məsələsi də müzakirə

[25] ARXİNA. 21.05.1994-04.11.1996. Qovluq Xal 1, v. 110.
' ARXİNA. 21.05.1994-04.11.1996. Qovluq Xal 1, v.147-149

edildi. Almaniya tərəfi bu məsələyə xüsusi maraq göstərir və regiondakı proseslərdən kənarda qalmaq niyyətində deyildi.

Məsləhətləşmələr zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlıq haqqında sazişin imzalanması məsələsi müzakirə edildi. AFR diplomatı Bart oktyabrın 4-də Brüsseldə Avropa İttifaqı Nazirlər Şurası səviyyəsində Azərbaycan tərəfinə birgə komissiya yaratmaq təklif ediləcəyi barədə qərar qəbul olunduğuna dair məlumat verdi. İlk iclası 1995-ci ilin əvvəllərində keçirilməsi nəzərdə tutulan komissiya haqqında AFR-in Bakıdakı səfirliyinin Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə rəsmi məlumat verməsi barədə razılıq əldə edildi. İki ölkə arasında iqtisadi əlaqələr və onun genişləndirilməsi məsələsi də müzakirə olundu.

Alman hərbçi məzarlarının qaydaya salınması üzrə sazişin mətninin başa çatdırılmasına dair müzakirələr noyabrın 9-da oldu. Saziş mətninin Azərbaycan, alman və rus dillərində hazırlanması razılaşdırıldı.

Noyabrın 10-da alman tərəfinin təşəbbüsü ilə Almaniyanın Minsk qrupundakı nümayəndəsi F.Lambax ilə görüş oldu^’. Azərbaycan nümayəndə heyəti işğal edilmiş Azərbaycan ərazilərinin, o cümlədən Şuşa və Laçının azad edilməsi və ATƏM-in sülhməramlı qüvvələrinin təşkili məsələsində Almaniyanın mövqeyini öyrəndi. F.Lambax Şuşa və Laçının Azərbaycan ərazisi və onun yurisdiksiyası altında olması barədə Almaniya hökumətinin qəti mövqeyini bildirdi. Almaniya tərəfinin fikrincə, erməni silahlı qüvvələri Şuşa və Laçından qeyd-şərtsiz çıxmalı idilər. Bu məsələ imzalanacaq siyasi sazişdə lazımi qaydada əks olunmalı, Azərbaycan isə ermənilərə Laçın dəhlizindən beynəlxalq nəzarət altında keçid imkanları verməli idi. Alman hökuməti ATƏM-in sülhməramlı qüvvələrinin formalaşdırılması məsələsinə münasibətini AFR kansleri seçildikdən və kabinet formalaşdırıldıqdan sonra bildirəcəkdi.

Siyasi məsləhətləşmələr başa çatdı. Müzakirələr səmərəli keçmişdi. Məsləhətləşmələr iki ölkə arasında münasibətlərin geniş perspektivlərinin olduğunu göstərirdi. Bu məsləhətləşmələrdən az sonra AFR Xarici İşlər Nazirliyi Azərbaycana nota göndərərək iki ölkə arasında sərmayələrin qorunması haqqında müqaviləyə dair məsələni qaldırdı. Almaniya tərəfi həmin müqaviləni 1989-cu il iyunun 13-də SSRİ ilə imzalanmış müqavilə ilə əlaqələndirirdi. Xarici işlər naziri Həsən Həsənov 1994-cü il noyabın 23-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə məktub yazaraq müvafiq təklif barədə məlumat verdi. Məlumatdan aydın olurdu

[27] **ARXİNA. 21.05.1994-04.11.1996. Qovluq X211, v. 150.**

ki, Azərbaycan Respublikası SSRİ-nin varisi olmadığından onun imzaladığı müqavilələr də iki ölkə arasında münasibətlərdə qüvvədə deyildi^*.

Almaniyanın Bakıdakı səfirliyi 1995-ci il yanvarın 20-də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə nota göndərərək Bonnda keçirilən məsləhətləşmələr zamanı razılaşdırılmayan məsələlər - SSRİ ilə AFR arasında imzalanmış müqavilələrin Azərbaycana aid olmaması, birgə bəyanatın və digər ikitərəfli sazişlərin imzalanmasına dair mövqeyi barədə cavab verməsini xahiş etdi^®.

Bu məsələlərə dair müzakirələr davam edərkən iki ölkə arasında əlaqələrin genişləndirilməsi üçün bir sıra digər addımlar atıldı. Davosda dünya iqtisadi forumu çərçivəsində, 1995-ci il yanvarın 28-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin AFR Prezidenti Roman Hersoq ilə görüşü ikitərəfli münasibətlər, Qafqazda baş verən proseslər. Çeçenistanda aparılan müharibə və s. məsələlər barədə fikir mübadiləsi edilməsi baxımından əhəmiyyətli oldu. Roman Hersoq siyasi, iqtisadi və mədəni əlaqələrin qurulub inkişaf etdirilməsinin hər iki ölkə xalqlarının mənafeyinə uyğun olduğu qənaətində idi^°.

Dövlət başçılarının görüşündən sonra Azərbaycanın AFR-dəki səfirliyinə Bonnda müzakirələr keçirmək və qarşılıqlı münasibətləri daha da möhkəmləndirmək üçün əməli işlərin həyata keçirilməsinə hazırlıq aparmaq tapşırıldı. Azərbaycan Respublikasının AFR-dəki səfiri Hüseynağa Sadıqov 1995- ci il fevralın 14-də AFR Xarici İşlər Nazirliyinin Zaqafqaziya və Orta Asiya respublikaları üzrə 212-ci bölməsinin müdiri Enno Barker ilə görüşərək Azərbaycan Prezidentinin Davosa səfəri zamanı AFR Prezidenti R.Hersoq ilə görüşü haqqında geniş məlumat verdi İki ölkə arasında imzalanmaq üçün hazırlanmış birgə bəyanata dair müzakirə aparıldı. Almaniya tərəfi birgə bəyanatın tezliklə imzalanmasını istəyirdi. Çünki SSRİ dağıldıqdan sonra yeni yaranmış dövlətlərlə AFR arasında münasibətlərdə hüquqi boşluq yaranmışdı. Alman hökuməti keçid dövrü üçün AFR ilə SSRİ arasında imzalanmış müqavilələrin qüvvədə qalmasını məqsədəuyğun hesab edirdi. H.Sadıqov və Enno Barkerin fikrincə, artıq Azərbaycan Prezidentinin AFR-in federal kansleri Helmut Kol ilə görüşü üçün əlverişli şərait yaranmışdı. Almaniya diplomatının dediyinə görə. Heydər Əliyevin AFR-ə səfəri kanslerin 1995-ci ildə nəzərdə tutulmuş görüşlərinin siyahısı-

ARXİNA. 21.05.1994-04.11.1996. Qovluq Xsl 1, v. 151 -152.
ARXINA. 21.05.1994-04.11.1996. Qovluq 11, v. 154.
Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri, s. 98.
ARXİNA. 21.05.1994-04.11.1996. Qovluq Xçl 1, v.181-182.

na daxil edilmişdi. Son illərdə iki ölkə arasında münasibətlər inkişaf edirdi. Birgə bəyanatın mətninin tezliklə hazırlanması və səfərə hazırlığın gedişinə dair müntəzəm əlaqə saxlamaq barədə razılıq əldə edildi.

Bundan sonra Azərbaycan Respublikası ilə AFR arasında münasibətlərin yeni mərhələyə çıxarılması üçün hazırlıqlara başlandı. AFR Xarici İşlər Nazirliyinin siyasi departamentinin direktor müavini, Şərqi və Cənub-Şərqi Avropa, həmçinin yeni müstəqil dövlətlər üzrə məsul şəxs Ernst fon Ştudniç 1995-ci il martın 27-dən 29-dək Azərbaycana səfər edərək Prezident Heydər Əliyev, parlamentin sədri və xarici işlər naziri ilə görüşdü^^. Keçirilən görüşlərdə Azərbaycanda daxili siyasi şərait, siyasi islahatların, ikitərəfli siyasi və iqtisadi münasibətlərin vəziyyəti, Azərbaycanın Rusiya, Türkiyə, İran və b. ilə münasibətləri, Çeçenistanda vəziyyət, həmçinin Azərbaycan-AFR birgə bəyanatı, hərbçi məzarlarının mühafizəsi, sərmayələrin qorunması və mədəni əlaqələr haqqında saziş layihələri müzakirə edildi. Səfər zamanı Dağlıq Qarabağ münaqişəsi üzrə azərbaycanlı ekspertlərlə müzakirələr də keçirildi.

Səfərdən az sonra, 1995-ci il aprelin 11-də Azərbaycan Respublikası hökuməti ilə Almaniya Federativ Respublikası hökuməti arasında maliyyə əməkdaşlığı haqqında saziş imzalandı^^. Bu saziş qaçqınlara təcili yardım proqramını nəzərdə tuturdu.

Azərbaycan - Almaniya münasibətlərinin inkişafında növbəti addım 1995-ci ilin may ayında Moskvada faşizm üzərində qələbənin 50 illiyi ilə əlaqədar keçirilən toplantı çərçivəsində AFR-in federal kansleri Helmut Kol ilə Heydər Əliyevin görüşündə ikitərəfli münasibətlərin inkişaf perspektivlərinə dair məsələnin müzakirəsi oldu. Helmut Kol ölkəsinin Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Minsk qrupunun səyləri ilə həllinə tərəfdar olduğunu bəyan etdi. Azərbaycan tərəfi AFR-ə böyük tərəfdaş kimi baxırdı. Daha sonra, qələbənin 50 illiyi ilə əlaqədar olaraq mayın 7-də Londonda keçirilən tədbirlərdə AFR-in vitse-kansleri, xarici işlər naziri Klaus Kinkel ilə görüşən Azərbaycan Prezidenti ikitərəfli münasibətlərin inkişaf perspektivlərini müzakirə etdi. Heydər Əliyev ölkədə yaranmış əlverişli sərmayə mühiti haqqında danışaraq Almaniya kapitalını Azərbaycana dəvət etdi.

Aparılan müzakirələr əməkdaşlığın genişləndirilməsinə imkan yaradırdı. AFR-in iqtisadi əməkdaşlıq və inkişaf üzrə naziri K.Şpranger 1995-ci il mayın 25-28-də Azərbaycana səfər edərək iki ölkə arasında iqtisadi

ARXİNA. 21.05.1994-04.11.1996. Qovluq Xbll, v.168-169. ”
ARXİNA. 2008.

əməkdaşlıq məsələlərini müzakirə etdi. Danışıqlar zamanı AFR nümayəndə heyəti ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan etdi. AFR hökuməti azərbaycanlı məcburi köçkünlərə yardım üçün 5 milyon, demokratik islahatlar üçün 1,8 milyon, digər layihələrin həyata keçirilməsi üçün 13 milyon marka vəsait ayırdı^"*. Səfər zamanı Almaniyanın Virtgen və Simens şirkətlərinin iştirakı ilə tikilmiş Bakı hava limanının enib-qalxma zolağının açılışı oldu. Bu, iki ölkə arasında əməkdaşlığın konkret nümunəsi olub münasibətlərin maddi təməllərini möhkəmləndirirdi. Az sonra, iyun ayında Bakı - Frankfurt hava xətti ilə AFR-in Lüfthanza şirkəti uçuşları həyata keçirməyə başladı.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi bu zaman ikitərəfli münasibətlərə dair hazırlanmış bütün sənədlər paketini ölkənin müvafiq nazirlik və idarələri ilə razılaşdırmışdı. Sənədlər paketi iyulun 18-də Azərbaycan Respublikasının Prezidentinə təqdim edildi.

Bütün bunlar Azərbaycan Prezidentinin AFR-ə rəsmi səfərinə hazırlıqlar idi. Heydər Əliyev 1995-ci ilin oktyabr ayında Nyu Yorkda Klaus Kinkel ilə görüşərək onun Azərbaycana qarşıdakı səfərinə dair müzakirələr apardı. Azərbaycan tərəfi Almaniya ilə münasibətlərin inkişafına böyük əhəmiyyət verirdi. Bununla bağlı olaraq Azərbaycan Prezidenti dedi: “Almaniya Avropanın ən böyük ölkəsidir və mədəniyyət, elm, incəsənət sahəsində zəngin ənənələrə, zəngin demokratik ənənələrə, geniş iqtisadi və intellektual potensiala malik ən böyük ölkələrdən biridir. Alman xalqı bəşər tarixinə, bəşər sivilizasiyası tarixinə öz dahi nailiyyətləri ilə olduqca böyük töhfə vermişdir”^".

Klaus Kinkelin 1995-ci il dekabrın 22-də Azərbaycana səfəri qarşılıqlı münasibətlərin böyük perspektivləri olduğunu göstərdi. Danışıqlarda iki ölkə arasında siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi. Azərbaycan Prezidenti Ermənistanın təcavüzü nəticəsində yaranmış şəraiti izah etdi. “Nə müharibə, nə də sülh” vəziyyətinin Azərbaycanı qane etmədiyini bildirdi. Münaqişənin həlli istiqamətində ölkəsinin mövqeyini şərh etdi.

İki ölkə arasında münasibətləri inkişaf etdirmək baxımından səfərin konkret nəticələri oldu. Dekabrın 22-də Azərbaycan Respublikası höku-

Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri, s.lOO.
ARXİNA. 21.05.1994-04.11.1996. Qovluq Kal 1, v.207-208.
Əliyev H.Ə. Bakıda rəsmi səfərdə olan Almaniya Federativ Respublikasının xarici işlər naziri Klaus Kinkelin şərəfinə verilən ziyafətdə nitq. 22 dekabr 1995-ci il. - Müstəqilliyimiz əbədidir. V kitab, s.203.

məti ilə AFR hökuməti arasında mədəni əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikası və AFR arasında münasibətlərin əsasları haqqında birgə bəyanat, sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında müqavilə, alman hərbçi qəbirləri barədə saziş imzalandı. Bu sənədlər Azərbaycan Prezidentinin 1996-cı ildə imzaladığı sərəncam ilə qüvvəyə mindi.

Səfərin böyük əhəmiyyəti var idi. İmzalanan sənədlər qarşılıqlı münasibətlərin hüquq-müqavilə əsasını yaradırdı. K.Kinkelin səfəri Azərbaycan Prezidentinin AFR-ə səfərinin vacib olduğunu bir daha göstərdi. 1996- cı ilin aprel ayında Heydər Əliyevin Lüksemburqa səfəri zamanı Klaus Kinkel ilə növbəti görüşündə də bu mövqe bəyan edildi.

## Azərbaycan Respublikası Prezidentinin AFR-ə ilk rəsmi səfəri

Nəhayət, iki ölkə arasında münasibətlərdə tarixi bir hadisə baş verdi. 1996-cı il iyulun 1-4-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev AFR-ə rəsmi səfər etdi. Bu, Azərbaycan Prezidentinin AFR-ə ilk rəsmi səfəri idi.

Səfərin zəngin proqramı tərtib edilmişdi. Heydər Əliyev səfər çərçivəsində AFR Prezidenti R.Hersoq, kansler H.Koll, xarici işlər naziri K.Kinkel, bundestaqın sədr müavini A.Folmer, siyasi partiyaların nümayəndələri, bundestaqın Qafqaz parlament qrupu. Almaniyadakı Azərbaycan diasporasınm nümayəndələri və Alman Sənayeçiləri İttifaqında işgüzar dairələrin nümayəndələri ilə görüşdü. Danışıqların başlıca mövzusu iki ölkə arasında iqtisadi əlaqələri inkişaf etdirmək idi.

Danışıqların yekununda ikitərəfli münasibətlərə dair bir sıra sənədlər imzalandı. İyulun 2-də Azərbaycan Respublikası və AFR arasında Sovet Sosialist Respublikaları İttifaqı ilə AFR arasında bağlanmış müqavilələrin qüvvədə qalması haqqında protokol imzalandı. Bu protokol Azərbaycan Respublikasının 1996-cı il 16 iyul tarixli qanunu ilə təsdiq edildi. Həmin gün iki ölkə hökumətləri arasında maliyyə əməkdaşlığı haq- qında saziş imzalandı. Saziş Bakı hava limanı haqqında idi . Bu saziş iyulun 17-də Azərbaycan Respublikasının qanunu ilə təsdiq edildi. Azərbaycan Respublikası hökuməti və Almaniya Federativ Respublikası

Azərbaycan - Almaniya: respublikamız Avropa ölkələri ailəsində öz mövqeyini möhkəmləndirir. Bakı, 1996, s.l6.

hökuməti arasında tədqiqatlar və mütəxəssislər fondunun yaradılması haqqında saziş də imzalandı.

Səfər zamanı Azərbaycan Prezidenti Almaniyadakı Azərbaycan cəmiyyətlərinin sədrləri və Azərbaycan federasiyasının nümayəndələri ilə görüşdü. Onların qarşısında etdiyi çıxışında Azərbaycanın tarixi keçmişi, dövlət müstəqilliyinin bərpasından sonra aparılan islahatlar, xarici siyasəti, Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində səylər haqqında danışdı və dünya azərbaycanlıları arasında birliyin qurulmasının əhəmiyyətini vurğuladı^*. O, həmçinin Azərbaycan diasporasmm nümayəndələri ilə görüşərək Almaniya ilə münasibətlərin vəziyyəti və perspektivlərindən danışdı^®. Diaspora quruculuğunun əhəmiyyətini vurğuladı.

Heydər Əliyev Almaniya - Azərbaycan forumu idarə heyətinin və rəyasət heyətinin üzvləri ilə görüşdə Almaniyanın birləşməsinin böyük tarixi hadisə olduğunu qeyd etdi. İki ölkə xalqları arasında münasibətlərin tarixi keçmişi və perspektivləri haqqında fikirlərini söylədi.

Almaniyanın iş adamları ilə görüşdə Heydər Əliyev Simens, Mannesman, ABB, Alkotel və digər iri şirkətləri Azərbaycanda əməkdaşlığa dəvət etdi‘'°. Qeyd etmək lazımdır ki, bu zaman Almaniyanın 45 şirkətinin Azərbaycanda nümayəndəliyi fəaliyyət göstərirdi. Almaniya Azərbaycan ilə iqtisadi münasibətlərdə daha çox energetika, metallurgiya, neft, qaz, kimya və maşınqayırma sahələrində əməkdaşlığa maraq göstərirdi. İqtisadiyyat iki ölkə arasında əməkdaşlığın əsası idi.

Azərbaycan Prezidentinin AFR-ə səfərinin böyük tarixi əhəmiyyəti var idi. Aparılan danışıqlar iki ölkə arasında münasibətlərin inkişafında keyfiyyətcə yeni bir mərhələ açır, iqtisadi sahədə əməkdaşlıq üçün hüquqi-siyasi əsas yaradırdı Alman kapitalının cəlb edilməsi Azərbaycan iqtisadiyyatının böhrandan çıxmasına kömək edirdi. Ölkəyə qabaqcıl tex-

Əliyev H.Ə. Almaniyadakı Azərbaycan cəmiyyətlərinin sədrləri və Azərbaycan cəmiyyətləri federasiyasının nümayəndələri ilə görüşdə çıxış. 1 iyul 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VII kitab, s. 14-23.

Əliyev H.Ə. Almaniyadakı Azərbaycan diasporunun nümayəndələri ilə görüşdə çıxış. 1 iyul 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VII kitab, s.24-25.

Əliyev H.Ə. Almaniyanın iş adamları ilə görüşdə çıxış. 3 iyul 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VII kitab, s.37-54.

Əliyev H.Ə. Almaniya Federativ Respublikasına rəsmi səfərə həsr olunmuş mətbuat konfransında bəyanat. 3 iyul 1996-cı il. Müstəqilliyimiz əbədidir. VII kitab, s.55-62.

nologiyanın gətirilməsi üçün şərait yaranırdı. Siyasi münasibətlərin inkişafı iki ölkə arasında mədəniyyət və humanitar sahələrdə əməkdaşlıq üçün geniş imkanlar açır, Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin Almaniya rəsmi dairələrinə və ictimaiyyətinə yayılmasına kömək edirdi.

## Əməkdaşlıq genişlənir

Səfərin faydası özünü çox da gözlətmədi. İlk növbədə iqtisadi və texniki sahələrdə əməkdaşlıq genişləndirildi. Simens şirkətinin prezidenti Haynrix Fon Piererin başçılıq etdiyi nümayəndə heyətinin 1996-cı il iyulun 22-də Bakıya səfəri zamanı elektrik stansiyalarının tikintisinə dair sənədlər imzalandı. Bundan bir neçə gün sonra, iyulun 27-də Azərbaycan Respublikası hökuməti ilə Almaniya Federativ Respublikası hökuməti arasında hava daşımaları haqqında saziş bağlandı. Sentyabr ayında isə AFR-in Daymier Bens konserninin vitse-prezidentləri Klaus Oberlender və Ulrix Fişer başda olmaqla nümayəndə heyəti Azərbaycana səfər edərək avtomobil sənayesi sahəsində əməkdaşlığın perspektivlərini müzakirə etdi. Oktyabr ayında Azərbaycana səfər edən Almaniya nümayəndə heyətinin prezident Heydər Əliyev ilə görüşündə sərmayə qoyuluşu və şəhər təsərrüfatı sahələrində əməkdaşlıq məsələləri müzakirə edildi"". Dekabrın 5-də Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında maliyyə və texniki əməkdaşlıq sahəsində hökumətlərarası danışıqlar haqqında protokol imzalandı.

Azərbaycan - AFR əlaqələri 1997-ci ildə daha intensiv oldu. Həmin il fevralın 4-6-da keçirilmiş Azərbaycan - Almaniya ortaq komissiyasının mədəni əməkdaşlığa dair ikinci iclasının protokolu, avqustun 4-də Azərbaycan Respublikası hökuməti və Almaniya Federativ Respublikası hökuməti arasında maliyyə əməkdaşlığı, dekabrın 8-də texniki, maliyyə əməkdaşlığı haqqında sazişlər, Azərbaycan Respublikası Nazirlər Kabineti və Almaniya Federativ Respublikasının Kreditanştalt FYUR Videraufbau (Frankfurt Mayn) maliyyələşdirmə müqaviləsi imzalandı.

Azərbaycan Respublikası Nazirlər Kabineti və Almaniya Federativ Respublikasının Kreditanştalt FYUR Videraufbau 1998-ci il iyulun 9-da maliyyələşdirmə müqaviləsi, Azərbaycan Respublikası və Almaniya

Əliyev H.Ə. Almaniya nümayəndə heyəti ilə görüşdə söhbət. 7 oktyabr 1999- cu il. - Müstəqilliyimiz əbədidir. XXII kitab, s. 126-131.

Federativ Respublikası arasında 1998-ci il üçün maliyyə və texniki əməkdaşlıq sahəsində dövlətlərarası danışıqların nəticələri haqqında memorandum, dekabrın 21-də isə Azərbaycan Respublikası hökuməti və Almaniya Federativ Respublikası hökuməti arasında maliyyə əməkdaşlığı haqqında saziş imzalandı.

Bu işlər növbəti ildə də davam etdirildi. Azərbaycan Respublikası hökuməti və Almaniya Federativ Respublikası hökuməti arasında 1999-cu il sentyabrın 24-də maliyyə əməkdaşlığı haqqında saziş imzalandı. Qarşılıqlı münasibətlərin maddi təməlləri möhkəmləndirildi.

AFR bundestaqının xarici əlaqələr komissiyasının sədri Hans Ulrix Klozenin başçılıq etdiyi nümayəndə heyəti 2000-ci il aprelin 28-də Azərbaycana səfər etdi. Nümayəndə heyəti ilə görüşdə Fleydər Əliyev ikitərəfli münasibətlər, regionda baş verən hadisələr və Minsk qrupunun fəaliyyəti, Ermənistanın təcavüzü və nəticələri haqqında danışdı'*^. Aprelin 30-da Azərenerji Səhmdar Cəmiyyəti ilə Bayerische Landesbank Girozentrale Bankı arasında 1 nömrəli Bakı Elektrik Mərkəzi ikinci qaz-turbin istilik elektrik blokunun tikintisinə dair maliyyə sazişi, Azərenerji Səhmdar Cəmiyyəti ilə Bayerische Landesbank Girozentrale Bankı arasında 1 nömrəli Bakı Elektrik Mərkəzi ikinci qaz-turbin istilik elektrik blokunun tikintisinə dair maliyyə sazişi ilə bağlı ödəniş üzrə dövlət təminatı sənədi, iyulun 21-də Azərbaycan Respublikası hökuməti ilə Almaniya Federativ Respublikası Yenidənqurma Kredit Bankı arasında (KfW) kommunal infrastruktura təcili yardım proqramı çərçivəsində kreditin ayrılması və layihənin maliyyələşdirilməsi haqqında müqavilə və bu müqavilə üzrə xüsusi saziş imzalandı. Bütün bunlar münasibətlərin əsaslarını möhkəmləndirmək baxımından əhəmiyyətli olub hər iki tərəfə fayda gətirirdi.

Azərbaycan - Almaniya qarşılıqlı münasibətlərinin inkişaf dinamikası baxımından 2001-ci il daha da intensiv oldu. AFR-in vitse-kansleri, xarici işlər naziri Yoşka Fişer və AFR bundestaqı sədrinin müavini Antye Follmer mayın 20-21-də Azərbaycana səfər etdilər. Səfərin əsas məqsədi Almaniya sərmayələrinin Azərbaycana cəlb edilməsi idi. Nümayəndə heyətinin tərkibinə alman sənayeçilərinin və bank sektorunun nümayəndələri daxil idi. İki ölkə ənənəvi olan neft-qaz, maşınqayırma, tikinti.

Əliyev H.Ə. Almaniya Federativ Respublikası bundestaqının xarici əlaqələr komissiyasının sədri Hans Ulrix Klozenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş də söhbət. 28 aprel 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXVII kitab, s. 15-25.

avadanlıq sahələrində olduğu kimi, mədəniyyət müəssisələrinin təmiri və b. sahələrdə də əməkdaşlıq etmək istəyirdi.

Danışıqlarda ikitərəfli münasibətlər, regionda təhlükəsizlik məsələləri, iqtisadi əlaqələrin inkişafı və s. müzakirə edildi. Almaniya ATƏT- in Minsk qrupunun üzvü kimi Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə tərəfdar idi'*'*.

Keçirilən müzakirələr alman kapitalı və texnologiyasının Azərbaycana gətirilməsində mühüm rol oynadı. Bu işdə Bakıdakı Almaniya səfirliyinin fəaliyyəti diqqəti cəlb edirdi. İki ölkə arasında münasibətlərdə xüsusi xidmətləri olan AFR-in Bakıdakı səfiri Kristian Zibekin"^ fəaliyyət müddəti 2001-ci ilin iyulunda başa çatdı. Bundan bir müddət sonra, avqustun 23-də Almaniyanın Azərbaycana yeni təyin olunmuş səfiri K.Qrevlix fəaliyyətə başladı.

Azərbaycanın Bonndakı səfiri Hüseynağa Sadıqov oktyabr ayında AFR-in federal İqtisadiyyat və Texnologiya Nazirliyində faydalı qazıntılar və beynəlxalq enerji agentliyi üzrə direktor Harmut Şnayderlə görüşərək energetika sahəsində əməkdaşlıq məsələlərini müzakirə etdi"*^. Almaniya tərəfi Azərbaycan ilə əməkdaşlığa maraq göstərirdi. Azərbaycan - Almaniya əməkdaşlığının inkişafına dair hökumətlərarası danışıqların keçirilməsi məqsədi ilə Azərbaycan nümayəndə heyəti dekabrın 11-13-də Almaniyaya səfər etdi. Danışıqların nəticəsində Almaniya Azərbaycana 13,5 milyon alman markası məbləğində texniki yardım ayırdı. Əməkdaşlığın genişləndirilməsi üçün imkanlar artdı.

AFR dövlət katibi Aksel Gerlaxm rəhbərlik etdiyi 60 nəfərdən ibarət nümayəndə heyəti 2002-ci il iyulun 8-9-da Azərbaycana səfər etdi. O, dünya ölkələri ilə iqtisadi əlaqələrə məsul şəxs idi. Nümayəndə heyəti iri sənayeçilərin nümayəndələrindən təşkil edilmişdi. Səfərdə məqsəd iki ölkə arasında iqtisadi əlaqələri daha da inkişaf etdirmək idi. Almaniya Azərbaycan nefti və qazının alınmasına maraq göstərirdi.

" Azərbaycan Prezidenti Heydər Əliyev Almaniya nümayəndə heyətini qəbul etmişdir. -Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 508- 511.

Kristian Zibek (1948) - 1981-1984-cü illərdə AFR-in Çindəki səfirliyində, 1984-1986-cı illərdə Nyu Yorkdakı baş konsulluğunda, 1986-1989-cu illərdə Xarici İşlər Nazirliyində, 1989-1992-ci illərdə Türkiyədəki səfirliyində, 1992-
1997- ci illərdə nazirlik aparatında çalışmışdır. 1997-2001-ci illərdə isə AFR-in Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri işləmişdir.

'ARXINA. 18.09.2001 -13.10.2001. Qovluq Xs 8, v. 11

Nümayəndə heyəti Azərbaycanda bir sıra görüşlər keçirdi və Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən qəbul edildi"'. Görüşdə iqtisadi əməkdaşlığın genişləndirilməsi, alman kapitalının Azərbaycan iqtisadiyyatına qoyulması və s. məsələlər haqqında fikir mübadiləsi aparıldı. Nümayəndə heyəti, həmçinin, Azərbaycan - Almaniya iqtisadi forumunda iştirak etdi. Geniş məsləhətləşmələr oldu. 2002-ci il sentyabrın 24-26-da Bakı şəhərində Almaniya Federativ Respublikasının və Azərbaycan Respublikası hökumətlərinin nümayəndə heyətləri arasında ikitərəfli maliyyə və texniki əməkdaşlıq üzrə məsləhətləşmələrin nəticələrinə dair sənəd imzalandı.

Azərbaycan ilə AFR arasında təhlükəsizlik sahəsində də əməkdaşlığa dair müzakirələr aparılırdı. Sentyabrın 24-29-da alman generalı, hərbi- siyasi və təhlükəsizlik məsələləri üzrə mütəxəssis Ditrix Genşel Azərbaycana səfər etdi. O, xarici işlər nazirinin müavini Araz Əzimov, milli təhlükəsizlik naziri Namiq Abbasov, daxili işlər naziri Ramil Usubov, müdafiə naziri Səfər Əbiyev, Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev, Azərbaycan Respublikası Prezidentinin icra aparatının rəhbəri Ramiz Mehdiyev ilə görüşdü. Xarici İşlər Nazirliyində dəyirmi masa keçirildi"^. İkitərəfli Azərbaycan - Almaniya hərbi-siyasi əməkdaşlığı məsələləri müzakirə edildi.

Bundan sonra sərhəd təhlükəsizliyi sahəsində AFR-in müvafiq qurumları ilə əməkdaşlıq quruldu. 2002-ci il noyabrın 18-22-də AFR sərhəd xidməti rəisinin dəvəti ilə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi general-mayor Elçin Quliyevin başçılığı altında 5 nəfərdən ibarət nümayəndə heyəti AFR-ə səfər etdi. Keçirilən görüşlərdə Azərbaycan sərhəd xidmətinin təkmilləşdirilməsi sahəsində ehtiyac duyduğu əsas tələbatlar AFR tərəfə çatdırıldı.

2003-cü il qarşılıqlı münasibətlərin daha da genişləndirilməsi ilə səciyyələndi. Belə ki, fevralın 16-da Azərenerji Səhmdar Cəmiyyəti ilə Almaniya Federativ Respublikasının Kreditanştalt fur Videraufbau (KfW) Bankı arasında elektrik enerjisinin ötürülmə sisteminin bərpası proqramı layihəsinin maliyyələşdirilməsi üçün kredit ayrılması haqqında müqavilə imzalandı. İyunun 29-da Bakıda Azərbaycan Respublikası hökuməti və AFR hökuməti arasında maliyyə əməkdaşlığı haqqında saziş bağlandı.

Azərbaycan Prezidenti Heydər Əliyev Almaniya nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 463-465.

ARXİNA. 2002. Qovluq Rbio, v. 136-137.

İki ölkə arasında əməkdaşlığın konkret nümunələrindən biri Neftçalada Xıllı balıqartırma zavodunun tikintisi oldu. Zavodun tikintisində Almaniyanın Ferrostaal şirkəti iştirak etdi. Oktyabrın 1-də zavodun açılış mərasimində Baş Nazir İlham Əliyev iştirak etdi. Oktyabrın 2-də isə Bakının Xətai rayonu ərazisində yerləşən Eupec Azərbaycan Almaniya - Azərbaycan birgə müəssisəsinin açılış mərasimi oldu.

Qeyd etmək lazımdır ki, iki ölkə arasında münasibətlərin inkişafında Almaniyadakı azərbaycanlılar da mühüm rol oynayırdılar. Bəzi məlumatlara görə, 2002-ci ildə Almaniyada 13 min 972 nəfər azərbaycanlı yaşayırdı.

Beləliklə, 1991-2003-cü illərdə Azərbaycan - AFR münasibətləri dinamik inkişaf etmişdir. İki ölkə arasında qarşılıqlı münasibətlərin inkişafı problemsiz olmuşdur. Bu illərdə münasibətlərin maddi təməlləri möhkəmləndirildi. Azərbaycana alman texnologiyaları gətirildi. Almaniyanın Azərbaycana sərmayə qoyması və alman texnologiyalarının tətbiqi ölkədə iqtisadi islahatların uğurla aparılmasına kömək edən xarici amillərdən biri oldu. Almaniya Azərbaycanı regionda və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli bir ölkə olaraq qəbul edirdi. Almaniya üçün Azərbaycanın strateji əhəmiyyətini yüksəldən amillər - Azərbaycanın Şərq ilə Qərb arasında əlverişli mövqedə yerləşməsi, müsəlman dünyasının əhəmiyyətli bir ölkəsi, iqtisadi inkişafı və potensialı ilə Cənubi Qafqazda sabitliyə çalışan bir dövlət olması, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynaması istəyi ilə bağlı idi. İki ölkə arasında elmi-texniki, mədəni və humanitar əlaqələr də genişləndi.

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞI İLƏ MÜNASİBƏTLƏR

### Qarşılıqlı münasibətlərin ilk addımları

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının əməkdaşlıq qurduğu Avropa ölkələrindən biri Böyük Britaniya oldu. Qeyd etmək lazımdır ki, hələ SSRİ-nin mövcudluğunun son illərində Azərbaycan ilə Böyük Britaniya arasında müəyyən əlaqələr qurulmuşdu. Böyük Britaniyanın SSRİ-dəki səfiri Rodrik Kventin 1991-ci il martın 30-

da Bakıya səfər edərək Azərbaycan Respublikasının Prezidenti Ayaz Mütəllibov, Ali Sovetin sədri Elmira Qafarova və Baş Nazir Həsən Həsənov ilə görüşmüşdü. Diplomat Azərbaycan xalqının dərin siyasi və sosial-iqtisadi islahatlar keçirməyə can atmasının dünya birliyi ölkələri ilə siyasi, iqtisadi, ticarət əlaqələrinin hər vasitə ilə inkişafı üçün yaxşı əsas və təminat olduğunu demiş, Azərbaycanın neft yataqlarının qarşılıqlı fayda əsasında işlənilməsinə ölkəsinin işgüzar dairələrinin maraq göstərdiyini bildirmişdi"^. Azərbaycan rəhbərləri də əməkdaşlıqda maraqlı olduqlarını bəyan etmişdilər.

Həmin səfərdən az sonra, may ayında Böyük Britaniyanın Moskvadakı səfirliyinin əməkdaşları Devid Loqan və Devid Manninq Ermənistanın təcavüzünün nəticələri haqqında məlumat toplamaq üçün Bakıda səfərdə olmuşdular^". Azərbaycan rəhbərləri ilə keçirilən görüşlər Böyük Britaniyanın Azərbaycan siyasətinin ilk cizgilərinin yaranmasına kömək etmişdi.

SSRİ bu zaman artıq dağılma ərəfəsində idi. Nəhayət, 1991-ci ilin sonlarında SSRİ-nin mövcudluğuna rəsmi olaraq son qoyuldu. Bu hadisədən bir neçə gün sonra, dekabrın 31-də Böyük Britaniya Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı^'. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş Naziri Con Meycor^^ Azərbaycanın və digər yeni müstəqil dövlətlərin rəhbərlərinə məktub göndərərək tezliklə diplomatik əlaqələrin qurulması ümidini ifadə etdi^". Cavab məktubunda Azərbaycan rəhbərliyi belə münasibətlərin qurulmasına hazır olduğunu bildirdi.

İki ölkə arasında münasibətlərin qurulmasına bir sıra amillər təsir edirdi. Məlumdur ki, iki xalq və ölkə arasında münasibətlərin zəngin tarixi vardır. XIX əsrin sonları - XX əsrin əvvəllərindən etibarən Bakı neft sənayesinə ingilis kapitalı qoyulmuşdu. Birinci dünya müharibəsinin son mərhələsində Azərbaycan nefti uğrunda mübarizədə Böyük Britaniya da iştirak etmişdi. 1918-ci ilin avqust ayında general L.Denstervil və noyab-

---

OpucM nocaa Eaa. “BaKHHCKHH paöoHHfi”, BaKy, 1991, 2 BejiHKOÖpHxaHHn.

Böyük Britaniya diplomatları qəbul edilmişdir. - “Kommunist” qəzeti, Bakı, 1991, 21 may.

ARXİNA. 14.10.1993-05.04.1995. Qovluq Xs 14, v.100-104.

Con Meycor (1946) - 1979-cu ildə İcmalar palatasının üzvü seçilmişdir. Müxtəlif dövlət vəzifələrində işləmişdir. Baş Nazir (1990-1997).

States are recognized. - “The Daily Telegraph” 1992, 1 January.

rında isə general G.Tomson başda olmaqla ingilis hərbi hissələri Bakıya gəlmişdi. 1918-1920-ci illərdə Azərbaycanda ingilis konsulluğu fəaliyyət göstərmişdi. Azərbaycanın dövlət müstəqilliyi 1920-ci ilin yanvarında Parisdə məhz Böyük Britaniya hökumətinin təklifi ilə tanınmışdı. Azərbaycanlılar bu addımı daim xeyirxahlıqla xatırlayırlar. 1920-ci ilin aprelində bolşevik Rusiyası tərəfindən işğal edildikdən sonra Azərbaycanda olan ingilislər respublika ərazisindən çıxarılmışdılar. Sonrakı illərdə ingilis kapitalı Azərbaycana qayıtmağa çalışsa da, sovet hakimiyyəti buna icazə verməmişdi. Azərbaycan xalqı İkinci dünya müharibəsi illərində Avropanın faşizm zülmündən xilas edilməsində Böyük Britaniyanın da daxil olduğu antihitlerçi koalisiya ölkələrinin xalqları ilə ön cəbhələrdə, partizan və antifaşist müqavimət hərəkatında fəal iştirak etmişdi. İkinci dünya müharibəsindən sonrakı illərdə Azərbaycan Böyük Britaniya ilə Mərkəzin vasitəsi ilə mədəniyyət sahəsində müəyyən əlaqələr saxlamışdı.

Azərbaycan əlverişli coğrafi-siyasi, strateji mövqeyi ilə Böyük Britaniyanın maraq dairəsində idi. Şərq ilə Qərbin qovuşağmda yerləşən Azərbaycan əlverişli bir məkan idi. Azərbaycanın zəngin təbii sərvətlərinə maraq göstərən Böyük Britaniya Xəzər dənizinin enerji ehtiyatlarının hasil edilməsində, dünya bazarına çıxarılmasında və əməkdaşlıqda mühüm rol oynaya biləcək həm böyük maliyyə imkanları, həm də geniş beynəlxalq iqtisadi əlaqələri mövcud olan ölkələrdən biri idi. İngiltərə Azərbaycanın neft və qaz ehtiyatlarının işlənilməsində, ağır və yüngül sənayesinin yenidən qurulmasında yardımçı ola bilərdi. Bu ölkə Azərbaycanda yeni texnologiyaları tətbiq etməklə yüksək gəlirlər əldə etməkdə maraqlı idi. İngiltərə eyni zamanda Azərbaycanı regionda özünə tərəfdaş kimi qazanmaq istəyirdi.

Böyük Britaniya da Azərbaycan üçün xüsusi maraq kəsb edirdi. İngiltərə nüvə dövləti və BMT Təhlükəsizlik Şurasının daimi üzvü, müasir dünyanın aparıcı dövlətidir. Beynəlxalq münasibətlərə təsir etmə gücünə görə, dünya siyasətinin yönümünü müəyyənləşdirən və beynəlxalq həyatın ən vacib problemlərinin həllində xüsusi çəkisi olan ölkələrdən biridir. İngiltərə qabaqcıl ictimai-siyasi və iqtisadi quruluşu, mədəni inkişaf səviyyəsi ilə bir sıra dövlətlərə nümunədir. Böyük Britaniya Azərbaycanın Avropaya inteqrasiyasına yardım edə bilərdi. Bütün bu amillər iki ölkə arasında münasibətlərin qurulması və inkişafını şərtləndirir, möhkəmləndirilməsi üçün konkret addımlar atılmasını zəruri edirdi.

Bu zaman Azərbaycan diplomatiyasının başlıca vəzifələrindən biri Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ

münaqişəsi haqqında həqiqətlərin Böyük Britaniya rəsmi dairələrinə və ictimaiyyətinə çatdırmaq idi. Həmin məqsədlə 1992-ci il yanvarın 13-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası Böyük Britaniya parlamentinə müraciət qəbul etdi^'*. Müraciətdə deyilirdi; “Azərbaycan Respublikası Qarabağ bölgəsinin tərkib hissəsi olan Dağlıq Qarabağda yaranmış vəziyyətə Böyük Britaniya parlamentinin kifayət qədər bələd olduğuna ümid edir və eyni zamanda aşağıdakı cəhətləri nəzərə çatdırmağı məqsədəuyğun sayır. Azərbaycan Respublikası ərazisinin bir hissəsini qopartmaq məqsədilə Ermənistan Respublikasının başladığı təcavüz hər iki xalqa saysız-hesabsız fəlakətlər gətirmişdir. Təcavüzün güclənməsi müasir dünya üçün real təhlükəyə çevrilmişdir”^^

Belə bir şəraitdə Azərbaycan - İngiltərə münasibətlərində ilk addımlar atıldı. Birləşmiş Krallığın xarici işlər və birlik işləri üzrə naziri Duqlas Hoqq 1992-ci il martın 11-də Bakıya səfər etdi. O, Azərbaycan Respublikası Ali Sovetinin sədri Yaqub Məmmədov ilə keçirdiyi görüşdə ölkəsinin Azərbaycanın beynəlxalq birliyin subyektinə çevrilməsini böyük razılıq hissi ilə qarşıladığını, ATƏM-in işinə fəal cəlb olunduğundan məmnunluq ifadə etdi^®. Danışıqlar zamanı Böyük Britaniya Dağlıq Qarabağ münaqişəsinin ATƏM prinsiplərinə uyğun həllinə tərəfdar çıxdı”. Elə həmin gün Duqlas Hoqq və Azərbaycan Respublikasının Baş Naziri Həsən Həsənov iki ölkə arasında diplomatik əlaqələrin qurulması haqqında memorandum imzaladılar^^. Bu, iki ölkə arasında münasibətlərin hüquqi bazasını təşkil edən ilk sənəd idi. Beləliklə, martın 11-də Azərbaycan - İngiltərə diplomatik əlaqələri quruldu”. Lakin qarşılıqlı münasibətlər hələ zəif olub, yenicə qurulurdu.

Münasibətlərin inkişafına xüsusi əhəmiyyət verən Böyük Britaniya Azərbaycana ilk səfirini təyin etdi. 1992-ci il iyulun 15-də Böyük

Böyük Britaniya parlamentinə müraciət haqqında Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının qərarı. 13 yanvar 1992-ci il. - Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 15 fevral 1992-ci il, JfsS (856), s. 6.

Böyük Britaniya parlamentinə. 13 yanvar 1992-ci il. - Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 15 fevral 1992-ci il, Bakı, 1992. N°3 (856), s. 6-7. Duqlas Hoqqun sülh məramı. - “Xalq qəzeti”, Bakı, 1992, 12 mart.

Əzizağaoğlu V. Duqlas Hoqq: sərhədlərin toxunulmazlığı əsas amildir. - “Xalq qəzeti”, Bakı, 1992, 13 mart.

Diplomatik münasibətlər yaradılması haqqında memorandum imzalanmışdır. - “Xalq qəzeti”, Bakı, 1992, 12 mart.

” ARXİNA. 14.10.1993-05.04.1995. Qovluq Xs 14, v.100-104.

Britaniyanın Rusiyadakı səfiri Brayan Foll etimadnaməsini Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə təqdim etdi^°. Təqdimetmə mərasimindən sonra keçirilən qısa söhbət zamanı Azərbaycan ilə Böyük Britaniya arasında münasibətlərin inkişafının qarşılıqlı əhəmiyyəti qeyd edildi. Azərbaycan Prezidenti iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının bir qədər gecikdiyini və itirilmiş zamanın əvəzini çıxmaq üçün var qüvvə ilə çalışmağın vacibliyini bildirdi.

Böyük Britaniyanın Azərbaycana maraqlarında enerji siyasəti mühüm yer tuturdu. Buna görə də Azərbaycanda neft kəşfiyyatı, hasilatı və bölüşdürülməsi sahəsində iş aparmağa yenicə başlayan ingilis neft şirkətləri Birləşmiş Krallığın keçmiş Baş Naziri Marqaret Tetçerin yardımlarından istifadə etdilər. Azərbaycan Prezidentinin dəvəti ilə o, 1992- ci il sentyabrın 7-də Bakıya səfər etdi®’. Marqaret Tetçerin “Çıraq” yatağının və perspektivli “Şahdəniz” sahəsində ehtiyatların dəqiqləşdirilməsi və hazırlıq işlərinin görülməsi haqqında Azərbaycan hökuməti ilə Böyük Britaniyanın BP, Noveçin Statoyl şirkətləri arasında sazişin imzalanması mərasimində iştirak etməsi və keçirdiyi görüşlər iki ölkə arasında əməkdaşlığın perspektivlərindən xəbər verirdi.

Səfərdən sonra, sentyabrın 23-də Azərbaycan Respublikasının Milli Məclisi Böyük Britaniyanın paytaxtı London şəhərində Azərbaycan Res publikasının səfirliyinin təsis edilməsi haqqında qərar qəbul etdi . Bu, Azərbaycanın xarici siyasətində Böyük Britaniyanın əhəmiyyətini və tutduğu yeri göstərirdi. İki ölkə arasında əməkdaşlığı genişləndirmək üçün yeni imkanlar açılırdı.

Həmin qərarın qəbulundan bir müddət keçmiş, sentyabrın 28-də Böyük Britaniya Ticarət Şurasının prezidenti, ticarət və sənaye naziri Maykl Hezaltayn başda olmaqla nümayəndə heyəti Azərbaycan Respublikasına səfər etdi. Tərkibinə bir sıra kimya və iri bank, yeyinti və tibb avadanlığı ilə məşğul olan şirkətlərin nümayəndələrinin daxil olduğu nümayəndə heyətini Azərbaycan Prezidenti Əbülfəz Elçibəy qəbul etdi. Maykl

° Böyük Britaniyanın Azərbaycandakı səfiri etimadnaməsini təqdim etmişdir. - “Xalq qəzeti”, Bakı, 1992, 16 iyul.

Böyük Britaniyanın keçmiş Baş Naziri Marqaret Tetçerin Bakıya səfəri. - “Xalq qəzeti”, Bakı, 1992, 8 sentyabr.

“ Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Krallığında (London şəhərində) səfirliyinin açılması haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. 23 sentyabr 1992-ci il. — Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 30 sentyabr 1992-ci il. fts 18 (871), s.43.

Hezaltyan Baş Nazir Con Meycorun məktubunu Azərbaycan Prezidentinə təqdim etdi. Məktubda Birləşmiş Krallığın Baş Naziri yazırdı: "Böyük Britaniya hökuməti bildirir ki, Dağlıq Qarabağın rəsmi statusu məsələsi müzakirə mövzusu ola bilməz - bu, Azərbaycan ərazisidir. Biz həmin bölgədə və onun ətrafında baş verən məhvedici münaqişəni bölgədə sabitlik üçün təhlükə, Azərbaycan və Ermənistanın sovet kommunist hakimiyyətindən demokratiyaya keçməsi yolunda ciddi maneə kimi qiymətləndiririk"^^. Böyük Britaniya Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində ATƏM səylərini müdafiə edirdi. Görüşdə ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsinin zəruriliyi, siyasi, iqtisadi və mədəni əlaqələrin qurulmasının Qərb ölkələrində Azərbaycana etimadın artmasına xidmət etdiyi qeyd olundu^.

Səfər çərçivəsində Azərkimya dövlət şirkəti ilə Böyük Britaniyanın Con Braun İncinirinq ənd Konstrakşn Limitid, Saymon-Karvz Limitid və İpesko İntənəşnl Limitid şirkətləri arasında Azərbaycan Respublikasında kimya və neft-kimya komplekslərinə aid məsələlər üzrə sənədlər imzalandı. Həmin sənədlər Qərb texnologiyasının Azərbaycana gətirilməsində mühüm rol oynayırdı.

Bütün bunlar yüksək səviyyəli görüş üçün zəmin hazırlayırdı. İngiltərənin Rusiya və Azərbaycandakı səfiri Brayan Foll 1993-cü il martın 20-də Bakıya səfər edərək Baş Nazir Con Meycorun şəxsi məktubunu Prezident Əbülfəz Elçibəyə təqdim etdi. Məktubda Con Meycor Azərbaycan Prezidentini Böyük Britaniyaya səfərə dəvət edirdi*'^ Brayan Foll ilə keçirilən görüşdə ikitərəfli münasibətlərin inkişaf perspektivləri və imzalanacaq neft müqaviləsinə dair məsələlər müzakirə edildi.

Azərbaycan Prezidentinin İngiltərəyə səfərinə hazırlıqlara başlandı. Bu məqsədlə xarici siyasət məsələləri üzrə dövlət müşaviri Vəfa Quluzadə Londona səfər etdi*^^. Azərbaycan Prezidentinin səfərinin müddəti iyun ayının sonuna müəyyənləşdirildi.

Böyük Britaniya ilə münasibətlər genişləndirildiyi bir zamanda,
1993- cü ilin yazında Ermənistan silahlı qüvvələri Kəlbəcər rayonunu işğal

^ Con Meycorun Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə məktubu. - "Xalq qəzeti", Bakı, 1992, 30 sentyabr.

Qərbdə Azərbaycana etimad artır. - "Xalq qəzeti", Bakı, 1992, 29 sentyabr.

Əbülfəz Elçibəyə Böyük Britaniya Baş Nazirinin məktubu. — "Azərbaycan" qəzeti, Bakı, 1993, 21 mart.

Məmmədli E. Azərbaycan - Böyük Britaniya münasibətləri (1991-2003-cü illər), **S.24.**

etdi. Buna etiraz olaraq Böyük Britaniya hökuməti aprelin 14-də bəyanat verdi. Bəyanatda Böyük Britaniya hökuməti Azərbaycanın Dağlıq Qarabağ regionunda və onun ətrafında döyüş əməliyyatlarının, xüsusilə Azərbaycan Respublikasının Kəlbəcər rayonuna müdaxilədən sonra uzanmasından dərin narahatlıq keçirir, buraya soxulmuş qüvvələri çıxarmağa, hərbi əməliyyatları dayandırmağa və ATƏM çərçivəsində sülh prosesini bərpa etməyə çağırır, son döyüşlərin mülki əhaliyə böyük müsibətlər gətirdiyini, adamların bir çoxunun ev-eşiklərini itirdiyini vurğulayırdı.

Böyük Britaniya yalnız bəyanat verməklə kifayətlənmədi. Azərbaycana humanitar yardım etmək üçün BMT-nin Qaçqınların işi üzrə Ali Komissarlığına 100 min funt sterlinq verdi*^’. Bu, Britaniya hökumətinin Ermənistanın təcavüzünə münasibətinin göstəricisi idi.

Həmin münasibət aprelin 30-da BMT Təhlükəsizlik Şurasının iclasında 822 saylı qətnamə qəbul edilərkən də özünü göstərdi. Böyük Britaniya ədalətli mövqe tutaraq Azərbaycana qarşı Ermənistanın təcavüzünü pislədi.

1993-cü ilin may ayında Azərbaycanda səfərdə olan Böyük Britaniya parlament nümayəndə heyəti ilə keçirilən görüşlərdə ölkədəki ictimai-siyasi proseslər, qarşıya çıxan çətinliklər, Ermənistanın davam edən təcavüzü məsələləri müzakirə edildi'"*. Böyük Britaniya Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini müdafiə edirdi.

Böyük Britaniya üçün Azərbaycanın əhəmiyyəti artırdı. 1993-cü ilin may ayında Böyük Britaniya hökuməti Avstraliyada (Kanberra) ticarət nümayəndəsi işləmiş nümayəndəsi Tomas Yanqı Azərbaycan Respublikasında səfir təyin etdi^^. Bundan sonra əlaqələr daha da genişləndi. Az sonra Bakıda 24 ingilis şirkətinin iştirakı ilə Böyük Britaniyanın neft və qaz sənayesi texnologiyasına həsr edilmiş seminar keçirildi. Bu, iki ölkə arasında münasibətlərin maddi təməllərinin möhkəmləndirilməsi istiqamətində mühüm bir addım idi.

Azərbaycan Prezidentinin səfərinə hazırlıq məqsədi ilə 1993-cü ilin may ayında Baş Nazir Pənah Hüseynov başda olmaqla hökumət nümayəndə heyəti Böyük Britaniyaya səfər etdi™. Səfər zamanı iki ölkə arasında iqtisadi əlaqələr və sərmayələrin qorunması haqqında sənədlər imzalandı.

“Azərbaycan” qəzeti, Bakı, 1993, 16 aprel.

Azərbaycan İngiltərənin obyektivliyinə bel bağlayır. - “Azərbaycan” qəzeti, Bakı, 1993, 1 iyun.

Məmmədli E. Azərbaycan - Böyük Britaniya münasibətləri, s.25.

ARXINA. 14.10.1993-05.04.1995. Qovluq fto 14, v.100-104.

Lakin şərait mürəkkəbləşdiyindən və hakimiyyət dəyişikliyi baş verdiyindən Azərbaycan Prezidentinin Londona rəsmi səfəri baş tutmadı.

## Azərbaycan Prezidentinin Böyük Britaniyaya ilk rəsmi səfəri

Azərbaycan Prezidenti Heydər Əliyev 1994-cü il fevralın 19-23-də Böyük Britaniyaya rəsmi səfər etdi''. Geniş məna daşıyan bu səfərə ciddi hazırlıq işləri aparılmışdı'^. Azərbaycan Prezidentinin səfərinin konkret məqsədləri var idi. Səfər ərəfəsində jurnalistlərə verdiyi müsahibəsində Heydər Əliyev deyirdi: "...Azərbaycan Prezidentinin İngiltərəyə səfəri respublikamızla Böyük Britaniya arasında əlaqələrin yaranması və inkişaf etdirilməsi məqsədi daşıyır... İngiltərə dünyanın böyük dövlətlərindən biridir. BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən, dünyanın ən inkişaf etmiş yeddi ölkəsindən biridir. İngiltərə həm keçmiş tarixinə, həm də bugünkü mövqeyinə görə dünya siyasətinə və iqtisadiyyatına çox güclü təsir göstərən bir ölkədir. Ona görə də Azərbaycan Respublikası ilə İngiltərə arasında sıx əlaqələr yaranması ilk növbədə bizim ölkəmizin milli mənafeyi üçün olduqca əhəmiyyətlidir"'^.

Artıq qeyd edildiyi kimi. Böyük Britaniya Azərbaycan ilə münasibətlərə xüsusi maraq göstərirdi. Bu, ilk növbədə Azərbaycanın zəngin təbii sərvətləri və əlverişli strateji mövqedə yerləşməsi ilə bağlı idi. İngiltərənin Azərbaycanda böyük iqtisadi maraqları var idi''*.

Səfər zamanı Azərbaycan Prezidenti Baş Nazir Con Meycor, xarici işlər naziri Duqlas Herd'^, ticarət naziri Maykl Hezaltayn, energetika və kənd təsərrüfatı nazirləri və b. ilə görüşdü. Danışıqlarda Heydər Əliyev daxili və xarici siyasət məsələlərində Azərbaycanın mövqeyini izah etdi. Daha sonra Ermənistanın Azərbaycana qarşı təcavüzü üzərində dayanaraq

ARXİNA. 22-12.1994-25.02.1994. Qovluq No 14, v. 1-5.

" ARXİNA. 22.12.1994-25.02.1995. Qovluq Xa 14, v. 86-89.

" Əliyev H.Ə. Böyük Britaniyaya rəsmi səfərə yola düşməzdən əvvəl Binə hava limanında jurnalistlərə müsahibə. 22 fevral 1994-cü il. - Müstəqilliyimiz əbədidir. 1 kitab, s. 414.

ARXİNA. 1994. Qovluq X2 14, v. 209-210.

Duqlas Herd (1930). - Böyük Britaniyanın xarici işlər və birlik işləri üzrə naziri (1979-1983, 1989-1995), dövlət naziri (1983-1984), daxili işlər naziri. Şimali İrlandiya işləri üzrə nazir (1984-1985). Bir sıra kitabların müəllifi.

Böyük Britaniya hökumət rəhbərlərinə artıq beş il davam edən işğalın nəticələri barədə məlumat verdi. BMT Təhlükəsizlik Şurasının iclaslarında münaqişəyə dair məsələ müzakirə edilərkən obyektiv mövqe tutduğu üçün Böyük Britaniya hökumətinə təşəkkürünü bildirdi. Münaqişənin dinc yolla həllinə dair Azərbaycanın mövqeyini, Rusiya, Türkiyə və İranın münaqişədə tutduqları mövqeyi izah etdi. Ermənistanın təcavüzünün aradan qaldırılması üçün Böyük Britaniyadan səylərini artımıasım xahiş etdi.

Danışıqlar zamanı Böyük Britaniya Dağlıq Qarabağ münaqişəsinin həllində mövqeyini bir daha bəyan etdi. Buna görə, işğal edilmiş Azərbaycan əraziləri boşaldılmalı, məcburi köçkünlər daimi yaşayış yerlərinə qayıtmalı və münaqişə dünya birliyinin səyləri ilə dinc yollarla həll edilməli idi. Dağlıq Qarabağ Azərbaycan daxilində muxtariyyət ala bilərdi. Bunu yalnız Azərbaycan həll etməli idi. Böyük Britaniya münaqişənin bir dövlət tərəfindən həlli cəhdlərini məqbul hesab etmirdi. İngilis hökuməti Xəzər dənizinin hüquqi statusu məsələsində də fəal mövqe tuturdu. Bu məsələyə yanaşmada Böyük Britaniya və Azərbaycanın mövqeləri üst-üstə düşürdü.

Fevralın 23-də iki ölkə arasında 8 sənəd imzalandı. Bunların içərisində “Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında dostluq və əməkdaşlıq haqqında birgə bəyannamə” xüsusilə diqqəti cəlb edirdi’®. 12 maddədən ibarət olan bəyannamədə tərəflər dostluq və qarşılıqlı anlaşmanın daha da inkişaf etdirilməsi istəyini ifadə, dost və tərəfdaş dövlətlər olduqlarını bəyan edir, ATƏM-in aparıcı prinsipləri olan sərhədlərin toxunulmazlığı, zor işlətməmə və zor işlətməklə hədələməmə prinsiplərinə sadiq qaldıqlarını bir daha təsdiq edir, münaqişələrin qarşısının birgə alınmasında səylərini birləşdirəcəklərini və beynəlxalq hüququn aliliyinə zəmin yaradacaqlarını bəyan edirdilər. Dövlətlər silahlı qüvvələrini yalnız müdafiə məqsədləri üçün istifadə edəcəkdilər. Silahların və silahlı qüvvələrin azaldılması sahəsində birgə əməkdaşlıq edəcəkdilər. İki ölkənin qanunverici və icraedici orqanları arasında əməkdaşlıq saxlanılacaqdı. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Böyük Britaniya Xarici İşlər və Birlik İşləri üzrə Nazirliyi regional məsələlər daxil olmaqla, ikitərəfli və beynəlxalq məsələlər üzrə məsləhətləşmələr həyata keçirəcəkdilər. İki ölkə iqtisadi və ticarət sahəsində geniş əməkdaşlıq edəcəkdilər.

Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında dostluq və əməkdaşlıq haqqında birgə bəyannamə. 23 fevral 1994-cü il. - Müqavilələr toplusu. 1 cild, s.29-31.

Azərbaycan Respublikası hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında hava əlaqələri haqqında saziş, energetika sahəsində əməkdaşlıq, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Xarici İşlər və Birlik İşləri üzrə Nazirliyinin bəyannaməsi və s. sənədlər imzalandı.

İmzalanan sənədlərin böyük əhəmiyyəti var idi. Hər şeydən əvvəl, bu sənədlər iki ölkə arasında münasibətlərin hüquq-müqavilə əsasını təşkil edir və onun inkişafında yeni mərhələnin əsasını qoyurdu. İri neft şirkətlərinin rəhbərləri ilə danışıqlar iqtisadi əməkdaşlığa impuls verir və geniş perspektivlər açırdı.

Səfər zamanı Azərbaycan Prezidenti Böyük Britaniya sənayeçiləri konfederasiyasında. Beynəlxalq Kral İnstitutunda etdiyi çıxışlarında iki ölkə arasında münasibətləri, Azərbaycanın daxili ictimai-siyasi və iqtisadi vəziyyətini xarakterizə etdi, Ermənistanın təcavüzünün nəticələri və münaqişənin həllində Azərbaycanın mövqeyi üzərində dayandı.

Azərbaycan Respublikasının Prezidenti eyni zamanda Londonda yaşayan azərbaycanlılarla görüşdü. Məlumatlara görə, bu dövrdə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında 30 min nəfərə yaxın azərbaycanlı yaşayırdı. Azərbaycanlılar yığcam halda Londonda məskunlaşmışdılar. Orada onların sayı 1000 nəfərə yaxın idi. Azərbaycan diasporasının əsasını İranda şah rejimi devrildikdən sonra Cənubi Azərbaycandan mühacirət edənlər, həmçinin İkinci dünya müharibəsindən sonra vətənə qayıtmayanlar təşkil edirdilər. Onlar əsasən ticarət və bizneslə məşğul olurdular. Böyük Britaniyada yaşayan 12 min nəfər erməninin Böyük Britaniya siyasi dairələrinə ciddi təsiri yox idi’^.

Azərbaycan Prezidentinin Londona səfəri böyük əhəmiyyət daşıyırdı. Bu səfər iki ölkə arasında münasibətlərin başlıca prinsip, istiqamət və vəzifələrini müəyyənləşdirir, qarşılıqlı faydalı əməkdaşlığın və tərəfdaşlığın bünövrəsini qoyur, münasibətlərdə yeni mərhələ açırdı. Tərəflər iki ölkə arasında əlaqələrin daha intensiv inkişaf etdirilməsi sahəsində görüləcək tədbirlər barəsində razılığa gəlirdilər. Səfər zamanı dövlətlər- arası münasibətləri, siyasi, iqtisadi, elmi-texniki və mədəni əlaqələri inkişaf etdirməyin yolları müzakirə edilmişdi. Səfər qarşılıqlı münasibətlərin möhkəm təməllərini yaradırdı.

ARXİNA. 14.10.1993-05.04.1995. Qovluq Ns 14, v.l05.

## Səfər bəhrəsini verir

Azərbaycan Prezidentinin Londona səfərindən sonra iki ölkə arasında münasibətlər inkişaf edərək yeni sahələri əhatə etdi. Səfərdən bir neçə gün sonra, martın 30-da Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Krallığındakı səfiri Mahmud Məmmədquliyev etimadnaməsini Böyük Britaniya kraliçası II Yelizavetaya^* təqdim etdi. Azərbaycan səfiri ilə etdiyi söhbətində kraliça İngiltərənin Azərbaycan ilə əlaqələrə böyük əhəmiyyət verdiyini vurğuladı. M.Məmmədquliyev isə yenicə müstəqillik qazanmış Azərbaycan üçün İngiltərə ilə əlaqələrin əhəmiyyət kəsb etdiyini bildirdi^'.

Səfirliyin açılmasından sonra iki ölkə arasında əlaqələr daha da intensivləşdi. Heydər Əliyev 1994-cü il iyunun 9-da Türkiyəyə qısamüddətli səfəri zamanı Böyük Britaniyanın xarici işlər və birlik işləri üzrə naziri Duqlas Herd ilə görüşdü*®. Söhbət zamanı iki ölkə arasında siyasi, iqtisadi, ticarət, mədəni və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi. Onlar Dağlıq Qarabağ münaqişəsində atəşkəs elan edildikdən sonra yaranmış şəraiti şərh etdilər. Atəşkəsin davam etdirilməsinin vacibliyini bildirdilər.

Qeyd etmək lazımdır ki, Azərbaycan - Böyük Britaniya münasibətlərində, xüsusən iki ölkə arasında iqtisadi əlaqələrdə neft çıxarılmasında Britiş Petrolium, neft kəşfiyyatında Con Braun Kompani, alüminium zavodunun yenidən qurulmasında Kayzer İncinirinq, telefon rabitəsi sahəsində Ci-Pi-Ti Kommunikeyşn şirkətləri mühüm rol oynayırdılar.

Əlaqələr 1995-ci ildə bir qədər də genişləndi. Həmin ilin yanvar ayında Böyük Britaniya kraliçasının xüsusi müşaviri, BP şirkəti direktorlar şurasının sədri lord Eşbertonun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfərə gələrək neft müqaviləsini həyata keçirən rəhbər komitənin ilk iclasında iştirak etdi.

Bu zaman qarşılıqlı münasibətlərdə prioritet məsələ Böyük Britaniyanı ATƏM ilə fəal əməkdaşlığa cəlb etmək, münaqişənin həllində

II Yelizaveta (1926) - 1952-ci ildə atası VI Georqun ölümündən sonra Böyük Britaniya kraliçası.

” riocoa A3ep5aiiÄX<aHa в BejiHKOöpHxaHHH **epyHHa BepHxejibHbie** rpaMoxbi. - **raa. “BaKHHCKnfi** padoanu”, **Bany,** 1994, 8 **anpejıa.**

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Duqlas Herdi qəbul etmişdir. - “Azərbaycan” qəzeti, Bakı, 1994, 16 iyun.

ATƏM prinsiplərini müdafiə etmək, işğal edilmiş ərazilərdən Ermənistan silahlı qüvvələrinin çıxarılmasını tələb etmək, münaqişə zonasına sülhməramlı qüvvələri yerləşdirmək idi*’. Həmin məsələlər Azərbaycan Prezidentinin 1995-ci il mayın 6-7-də İkinci dünya müharibəsinin başa çatmasının 50-ci ildönümü münasibətilə keçirilən toplantı zamanı Böyük Britaniya kraliçası II Yelizaveta və Baş Nazir Con Meycor ilə keçirdiyi görüşlərdə müzakirə edildi*". Heydər Əliyev Böyük Britaniya hökumətinə Azərbaycanın ərazi bütövlüyünün qorunması məsələsində müxtəlif vaxtlarda verdiyi bəyanatlar üçün təşəkkür etdi. Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəsinin mövqeyini izah etdi, münaqişə zonasına ATƏM-in sülməramh qüvvələrinin yerləşdirilməsinə razı olduğunu, danışıqlar prosesində böhranlı şəraitin yarandığını, bunun Ermənistanın və Dağlıq Qarabağ regionu ermənilərinin danışıqları davam etdirməkdən imtina etmələri ilə bağlı olduğunu bildirdi. Yaranmış vəziyyəti aradan qaldırmaq üçün edilən səyləri xatırlatdı. ATƏM-in sülhməramlı qüvvələrinin tərkibinə Böyük Britaniya hərbi kontingentinin ayrılmasını xahiş etdi. Qeyd etmək lazımdır ki, bu zaman Britaniya hökuməti sülhməramlı qüvvələrin tərkibində yalnız rabitəçiləri ayırmaq məsələləri barədə düşünürdü. Heydər Əliyev Azərbaycanın qonşuları olan Rusiya, Türkiyə və İranın münaqişəyə dair mövqeyini izah etdi.

Danışıqlarda Heydər Əliyev Böyük Britaniya neft kompaniyalarının gələcək əsas ixrac neft boru kəmərinin marşrutuna dair qəti mövqelərini bildirməmələri məsələsini qaldırdı. Onların konkret mövqelərini bildirmələrini istədi. Tərəflər məsələyə dair müzakirələrin aparılmasının vacibliyini qeyd etdilər.

Azərbaycan Prezidenti xarici işlər və birlik işləri üzrə nazir Duqlas Herd, ticarət və sənaye naziri Maykl Hezaltayn, energetika naziri Tim Eq- qar, BP şirkətinin prezidenti Con Braun, Leyboristlər Partiyasının lideri Toni Bler və b. şəxslərlə keçirdiyi danışıqlarda ikitərəfli əlaqələrin genişləndirilməsinin vacibliyini vurğuladı. Danışıqlarda dünyada və Qafqaz regionunda baş verən hadisə və proseslər, iki ölkə arasında bütün sahələrdə əməkdaşlıq. Dağlıq Qarabağ münaqişəsi və s. məsələlər müzakirə edildi, dövlətlərin mövqeləri bildirildi.

ARXİNA. 14.10.1993-05.04.1995. Qovluq JSç 14, v.l06.
ARXİNA. 14.10.1993-05.04.1995. Qovluq Xs 14, v. 4-5.

Səfər zamanı iki ölkə arasında əlaqələrdə mühüm bir hadisə baş verdi. Londonda Azərbaycan mədəniyyət mərkəzi açıldı*^.

Bu səfər əlaqələrin intensivləşdirilməsi baxımından əhəmiyyətli oldu. Belə ki, ondan az sonra, mayın 23-də Bakıda "Bütün dünyada neft və qaz ehtiyatlarının istismar edilməsi sahəsində əldə edilən təcrübə və praktikanın mübadilə edilməsi haqqında Britaniyanın Neft və Qaz Sənayesi adından hərəkət edən Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Ticarət və Sənaye Nazirliyini təmsil edən neft və qaz layihələri və təchizatı ofisi ilə Azərbaycan hökumətini təmsil edən Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və Azneftkimyamaş Şirkəti arasında anlaşma məramnaməsi" imzalandı. İyun ayında isə ARDNŞ ilə BP və Türkiyənin TPAO şirkətləri arasında "Şahdəniz" yatağının istismarı haqqında ilkin saziş imzalandı.

İngiltərə ilə əlaqələrdə başlıca məqsəd Azərbaycanı bu ölkənin işgüzar dairələrinə tanıtmaq, maliyyə və sərmayə imkanlarını ölkə iqtisadiyyatına yönəltmək, neft, neft-kimya, metallurgiya, yüngül və emal sənayesinin inkişafına dair layihələri hazırlamaq, onların həyata keçirilməsinə ingilis kapitalını cəlb etmək və iqtisadi əlaqələri genişləndirmək idi.

Həmin məqsədlərin həyata keçirilməsində 1995-ci il noyabrın 29- dan dekabrın 3-dək Londonda Adam Smit İnstitutunun təşkil etdiyi "Azərbaycanda investisiya imkanları" mövzusunda beynəlxalq konfrans mühüm rol oynadı. Müxtəlif maliyyə qurumları və şirkətlərin iştirak etdiyi konfrans Azərbaycanın qlobal biznesdə tutduğu yerə, sərmayə imkanlarına həsr edilmişdi. Konfransda çıxış edən Heydər Əliyev dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycanın keçdiyi yola diqqət yetirdi, ölkənin coğrafi mövqeyi, iqtisadi imkanlan, təbii sərvətləri, sənaye potensialı, daxili ictimai-siyasi vəziyyəti, Ermənistanın Azərbaycana qarşı təcavüzü və münaqişənin həlli istiqamətində ATƏT-in Minsk qrupunun səyləri barədə danışdı. O bildirdi: "Azərbaycan xarici investorlar üçün, investisiyalar üçün açıqdır. Azərbaycan qarşılıqlı surətdə faydalı əməkdaşlıq, fəal əməkdaşlıq üçün açıqdır"*"*.

Heydər Əliyev konfransda iştirak edən işgüzar dairələrlə söhbətində ölkəsinin iqtisadi imkanları barədə danışdı, suallara cavab verdi, iş adam-

^ Azərbaycanı dünyaya tanıdan daha bir tarixi səfər. - "Azərbaycan" qəzeti, Bakı, 1995, 16 may.

Əliyev H.Ə. "Azərbaycanda investisiya imkanları" beynəlxalq konfransın açılışı mərasimində çıxış. 29 noyabr 1995-ci il. - Müstəqilliyimiz əbədidir. V kitab, s.21-32.

larini Azərbaycana dəvət edərək dedi: "...Azərbaycanın zəngin təbii sərvətləri var, böyük sənaye potensialı var, güclü intellektual potensialı var, bir çox sahələrdə bacarıqlı mütəxəssislərimiz var. Bizdə lazımi qədər işçi qüvvəsi var"*^

Səfər zamanı Azərbaycan Prezidenti xarici işlər və birlik ölkələri üzrə nazir Malkolm Rifkind, ticarət və sənaye naziri Yanq Lanq, dövlət naziri Maykl Hezaltayn, energetika naziri Tim Eqqar ilə görüşərək Azərbaycana sərmayə qoyuluşu imkanlarını müzakirə etdi. Əməkdaşlığı gücləndirmək üçün yeni bir addım atıldı. Noyabrın 29-da Azərbaycan - Britaniya Ticarət və Sənaye Şurasının təsis edilməsi haqqında anlaşma memorandumu imzalandı.

Səfərin yekununda mühüm bir hadisə baş verdi. Londonda Azərbaycan səfirliyinin yeni binasının açılış mərasimi oldu*^. Mərasimdə çıxış edən Heydər Əliyev Azərbaycanın daxili və xarici siyasətinin qarşısında dayanan vəzifələrdən danışdı*^.

Azərbaycan Prezidentinin səfəri nəticələrini verdi. Azərbaycana ingilis kapitalının marağı artdı. Böyük Britaniya şirkətləri qısa müddətdə Azərbaycanda 40 ofis açdılar. İki ölkə arasında qarşılıqlı iqtisadi asılılıq gücləndi.

1996- cı il yanvarın 3-4-də Böyük Britaniyanın xarici işlər və birlik işləri naziri Malkolm Rifkindin Azərbaycana rəsmi səfəri zamanı ikitərəfli siyasi və iqtisadi münasibətlərin inkişafına dair məsələlər müzakirə edildi. Böyük Britaniya hökuməti Dağlıq Qarabağ regionunu Azərbaycanın ərazisi hesab edir və münaqişənin dinc yolla həllinə tərəfdar çıxırdı. Malkolm Rifkind və Həsən Həsənov yanvarın 4-də Azərbaycan Respublikası hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı hökuməti arasında sərmayələrin qorunması və təşviqi haqqında sazişi imzaladılar. Həmçinin mətbuat üçün birgə bəyanat qəbul edildi.

Digər sahələrdə də əməkdaşlıq genişləndirildi. 1996-ci ilin iyun ayında energetika naziri Tim Eqqar, avqust ayında Britaniya Yaxın Şərq

Əliyev H.Ə. "Azərbaycanda investisiya imkanları" beynəlxalq konfransda iştirak edən işgüzar dairələrin nümayəndələri ilə görüşdə çıxış. 30 noyabr 1995-ci il. - Müstəqilliyimiz əbədidir. V kitab, s.61.

**Top>KecTBeHHoe OTKpbixne** *zjxanm* **nocontCTBa AsepöaÜÄJKaHCKOH** Pecnyöjm- **KH** в **JIoHÄone.** - fas. **"BbimKa", BaKy,** 1995, 16 aeKaöpa.

Əliyev H.Ə. Azərbaycan Respublikası səfirliyinin yeni binasının təntənəli açılış mərasimində çıxış. 29 noyabr 1995-ci il. - Müstəqilliyimiz əbədidir. V kitab, s.41-43.

Bankının sədri U.Pervis, sentyabr ayında nəqliyyat naziri Çariz Qoşe, oktyabr ayında Secvik qrup broker sığorta şirkətinin nümayəndə heyəti, həmin ayda BP şirkətinin direktorlar şurasının sədri Devid Seymomn başçılıq etdiyi nümayəndə heyətlərinin Azərbaycana səfərləri zamanı müvafiq sahələrdə əməkdaşlığa dair sənədlərin imzalanması qarşılıqlı münasibətlərin maddi təməllərini möhkəmləndirdi**.

Qeyd etmək lazımdır ki, Böyük Britaniya hökuməti Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın ədalətli mövqeyini müdafiə edirdi. Belə ki, 1996-ci ilin noyabrında keçirilən ATƏT-in Lissabon sammitində Böyük Britaniya hökuməti Azərbaycanın mövqeyinə tərəfdar oldu.

İki ölkə arasında münasibətlər sonrakı illərdə də davam etdirildi.
1997- ci il mayın 1-də keçirilən parlament seçkilərində Leyboristlər Partiyası qalib gəldikdən və Toni Bler*^ Baş Nazir seçildikdən sonra da Böyük Britaniyanın Azərbaycan siyasəti dəyişmədi. Azərbaycanın Dağlıq Qarabağ regionunda separatçı qurum tərəfindən 1997-ci il sentyabrın 1-də keçirilmiş seçkilərlə əlaqədar olaraq Birləşmiş Krallıq hökuməti bəyanatla çıxış etdi. Bəyanatda qondarma “Dağlıq Qarabağ Respublikası”nın beynəlxalq ictimaiyyət tərəfindən tanınmadığı, keçirilmiş seçkilərin heç bir hüquqi əsası olmadığı qeyd edilir, bölgənin hüquqi statusunun ATƏT-in Minsk qrupunun danışıqlar prosesi çərçivəsində həll olunması vacib hesab edilirdi. Bəyanatda deyilirdi: “Biz Minsk qrupu həmsədrlərinin Lissabon sammitində ATƏT-in qəbul etdiyi prinsiplər üzərində qurulmuş, məsələnin ədalətli və sarsılmaz həllinə yönəldilmiş səylərini və Azərbaycanın ərazi bütövlüyünü tam surətdə dəstəkləyirik”^®. Belə mövqe Azərbaycan - Böyük Britaniya münasibətlərinə stimul verirdi.

## İki ölkə strateji tərəfdaşa çevrilir

İki ölkə arasında qarşılıqlı münasibətlərdə mühüm bir səhifəni
1998- ci il iyulun 19-24-də Azərbaycan Prezidenti Heydər Əliyevin Böyük Britaniyaya ikinci rəsmi səfəri təşkil etdi. Qeyd etmək lazımdır ki, bu vaxtadək iki ölkə arasında münasibətlərin dərin təməlləri qurulmuş, əmək-

* Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri, s.71.

Toni Bler (1953) - Böyük Britaniya və Şimali İrlandiya Krallığının Baş Naziri (1997-2007).

Azərbaycan - Böyük Britaniya: əməkdaşlıq və tərəfdaşlıq (1991-2001), s.324. 

daşlıq uğurlu olmuş, saziş və müqavilələr imzalanmış, lazımi hüquq-müqavilə bazası formalaşdırılmışdı. Belə ki, 1994-cü ildən 1998-ci ilədək iki ölkə arasında 14 müqavilə, saziş və memorandum imzalanmışdı. Çoxsaylı ingilis şirkətləri Azərbaycan Respublikasında fəaliyyət göstərirdilər.

Səfərdə məqsəd iki ölkə arasında artıq təşəkkül tapmış əməkdaşlığı yüksək səviyyəyə qaldırmaq və inkişaf etdirmək idi^’. Azərbaycan Prezidenti səfərin başlanğıcında Böyük Britaniyanın aparıcı kütləvi informasiya vasitələrinin yüksək vəzifəli nümayəndələri ilə görüşərək iki ölkə arasında münasibətlərin tarixinə, bu ölkəyə etdiyi səfərə və nəticələrinə toxundu, aparılan islahatlar, Ermənistanın Azərbaycana təcavüzü barədə danışdı, sualları cavablandırdı.

Heydər Əliyev Böyük Britaniyanın beynəlxalq inkişaf üzrə dövlət katibinin müavini Corc Foulks ilə görüşdü. Rəhbərliyinə onun da daxil olduğu qurum beynəlxalq inkişaf, maliyyə, ətraf mühitin qorunması, qanunvericilik və sosial sahədə islahatların aparılması məsələləri ilə məşğul olurdu. C. Foulks bu sahələrdə Azərbaycan - Böyük Britaniya əlaqələrinin daha da sıxlaşdırılmasını vacib hesab edirdi®".

Azərbaycan Prezidenti Şell şirkətinin icraçı direktoru Fili Bots ilə görüşərək əsasən neft və iqtisadi sahələrdə əməkdaşlıq məsələlərini müzakirə etdi. Heydər Əliyev Böyük Britaniyanın kəşfiyyat və istismar sahələrində ixtisaslaşan Lazma şirkətinin prezidenti Co Darbi və Brazilyanm Petrobraz şirkətinin icraçı direktoru Renato Bertar ilə görüşdü. Hər iki şirkət Azərbaycanda fəaliyyət göstərmək istəyirdi. Heydər Əliyev onları Azərbaycanda işləməyə dəvət etdi.

Dövlər başçısı daha sonra Monument Oyl ənd Qaz şirkətinin baş direktoru Tim Edqar və şirkətin icraçı direktoru Terri Adams ilə görüşdü. Tim Edqar eyni zamanda Böyük Britaniya - Azərbaycan cəmiyyətinin sədri idi. Bu görüşdə həm ikitərəfli iqtisadi, xüsusən neft və qaz sahəsində əməkdaşlığın dərinləşdirilməsi, həmçinin humanitar əlaqələrin genişləndirilməsi məsələləri müzakirə edildi.

Heydər Əliyev iyulun 20-də Böyük Britaniya - Azərbaycan cəmiyyətinin toplantısında iştirak etdi. Toplantını açan Tim Edqar çıxışında

Əliyev H.Ə. Böyük Britaniyaya yola düşməzdən əvvəl Binə hava limanında kütləvi informasiya vasitələri nümayəndələrinin suallarına cavab. 19 iyul 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVI kitab, s. 277.

Əliyev H.Ə. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının beynəlxalq inkişaf üzrə dövlət katibini müavini Corc Foulks ilə görüşdəki söhbətdən. 20 iyul 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVI kitab, s. 296-297.

Ölkəsinin Azərbaycan ilə əməkdaşlığa xüsusi əhəmiyyət verdiyini bildirdi. Azərbaycan Prezidenti cəmiyyət üzvləri qarşısında nitq söylədi. O, Azərbaycan - Böyük Britaniya dostluq münasibətlərinin tarixinə diqqət yetirdi, imzalanmış sənədlərin iki ölkə arasında möhkəm təməllər yaratdığını qeyd etdi.

İyulun 21-də Heydər Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının kraliçası ilə görüşdü. Görüş və müzakirə edilən məsələlər Böyük Britaniyanın xarici siyasətində Azərbaycanın mühüm yer tutduğunu göstərirdi. Kraliça II Yelizaveta Azərbaycan ilə əlaqələrə böyük əhəmiyyət verərək dedi: "...Birləşmiş Krallıq Azərbaycanla əlaqələrin inkişaf etdirilməsinə böyük maraq göstərir... Böyük Britaniya şirkətlərinin Azərbaycanda geniş fəaliyyət göstərməsi üçün yaradılan şəraitə görə Sizə minnətdarlığımı bildirirəm. Ölkələrimizin bütün sahələrdə, xüsusən elm, mədəniyyət, təhsil sahəsindəki əlaqələrinin durmadan inkişaf etdirilməsinin böyük əhəmiyyət daşıdığını vurğulayıram"®^.

Heydər Əliyev Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının işlənilməsində ingilis şirkətləri ilə qurulan əməkdaşlıqdan, Ermənistanın hərbi təcavüzü və nəticələrindən, münaqişənin sülh yolu ilə həlli üçün ATƏT-in Minsk qrupunun səylərindən, iki ölkə arasında tarixi əlaqələrdən, ölkədə aparılan islahatlardan danışdı. Sonda kraliça bir daha dedi: "...Azərbaycana həqiqətən böyük maraq göstərdiyimi vurğulayıram""'*.

Danışıqlardan sonra Heydər Əliyev Baş Nazir Toni Bler ilə görüşdü^^ Görüşdə iki ölkə arasında iqtisadi və siyasi əlaqələrin inkişafı məsələləri müzakirə edildi. Böyük Britaniyanın Baş Naziri Birləşmiş Krallığın Azərbaycan ilə siyasi-strateji tərəfdaşlıq münasibətlərini genişləndirmək arzusunda olduğunu, Azərbaycanın mühüm strateji mövqeyini qeyd etdi, Azərbaycanda aparılan demokratik dəyişikliklərin ölkənin müstəqilliyinin və suverenliyinin qorunmasında mühüm rol oynadığını, iki ölkə arasında iqtisadi əməkdaşlığın mövcud vəziyyəti, neft yataqlarının birgə işlənilməsi sahəsində əməkdaşlığı yüksək qiymətləndirərək dedi: "...Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsi sahəsində

Əliyev H.Ə. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının kraliçası II Yelizaveta ilə görüşündəki söhbətdən. London, Bukingem sarayı, 21 iyul 1998-cı il. - Müstəqilliyimiz əbədidir. XVI kitab, s. 332-336.

Yenə orada, s. 336.

Əliyev H.Ə. Böyük Britaniya və Şimali İrlandiya Krallığının Baş Naziri Toni Bler ilə görüşdəki söhbətdən. 21 iyul 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVI kitab, s. 337-346.

imzalanmış tarixi müqavilələr gənc müstəqil dövlətinizin iqtisadiyyatının dünya iqtisadiyyatı ilə sıx bağlanmasında mühüm rol oynayacaqdır"'®. Britaniya hökuməti Xəzər dənizinin Azərbaycan sektorundan hasil olunan neftin bir neçə marşrut üzrə dünya bazarına çıxarılmasını dəstəkləyir, onu boru kəmərlərinin etibarlılığı və təhlükəsizliyi, həmçinin iqtisadi cəhətdən əhəmiyyətli hesab edirdi.

Azərbaycan tərəfi Avropa Şurasına üzv olmaq üçün İngiltərədən dəstək istədi. Toni Bler Azərbaycan Respublikasının Avropa Şurasına tam hüquqlu üzv olmasını dəstəkləyəcəyini bəyan etdi. O, Avropa Birliyinin TRASEKA proqramı çərçivəsində qədim İpək yolunun bərpası sahəsində Azərbaycanda həyata keçirilən tədbirləri yüksək qiymətləndirdi, Avropa - Qafqaz - Asiya magistralının böyük perspektivlərə malik olduğunu vurğuladı. Qeyd etmək lazımdır ki, bu dövrdə Azərbaycanda Böyük Britaniyanın 100-dən çox şirkəti işləyirdi.

Britaniya hökuməti NATO-nun Sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində əməkdaşlığın genişləndirilməsini vacib hesab edirdi.

İngiltərə Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini müdafiə etdi. Baş Nazir Ermənistan - Azərbaycan münaqişəsi haqqında danışarkən ATƏT-in Lissabon zirvə görüşündə qəbul edilmiş prinsiplərə səs verdiyini xatırladaraq dedi: "Bizim ölkəmiz Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bu sahədə beynəlxalq hüquq normalan. Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in dəyişilməz prinsipləri vardır və onlara əməl olunmalıdır"". Toni Bler Azərbaycandakı ictimai-siyasi şərait, Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün ATƏT-in Minsk qrupunun çərçivəsində aparılan danışıqların gedişi ilə maraqlandı. Heydər Əliyev 1994-cü ilin fevralında Londona ilk rəsmi səfəri zamanı keçirilən görüşlərin və imzalanan sənədlərin əhəmiyyətini vurğuladı, iki ölkə arasında münasibətlərin inkişaf dinamikasına nəzər yetirdi, ölkədə aparılan iqtisadi və siyasi islahatlardan bəhs etdi. Xəzər dənizinin Azərbaycan sektorundakı yataqların işlənilməsində birgə əməkdaşlığı yüksək qiymətləndirdi, Ermənistanın təcavüzü, nəticələri və ATƏT-in Minsk qrupunun səyləri barədə geniş danışdı. Ölkəsinin mövqeyinin ATƏT-in Lissabon sammitində qəbul edilmiş üç prinsip əsasında münaqişənin həllinə yönəldiyini vurğulayan Azərbaycan Prezidenti birmənalı olaraq dedi; "Biz sülh istəyirik, münaqişə sülh yolu ilə həll olun

’

97

malıdır. Ancaq biz ərazimizin hər hansı bir kiçik hissəsinin də başqa ölkəyə verilməsinə heç vaxt razı ola bilmərik. Bu bizim qəti, prinsipial mövqeyimizdir. Biz mövqeyimizdən heç vaxt geri çəkilmərik"'^.

Danışıqlardan sonra Azərbaycan Prezidenti və Böyük Britaniyanın Baş Naziri neft və qaz hasilatının pay bölgüsü haqqında sazişlərin imzalanması mərasimində iştirak etdilər. Bu sazişlərdə ARDNŞ-in əsas tərəfdaşları, BP, Monument Oyl ənd Qaz və Ramko idi. BP ilə imzalanan sazişə görə, "Araz","Alov" və "Şərq" yataqlarının təşkil etdiyi bir blokda pay bölgüsünün 30%-i BP/Statoyl şirkətinə verilirdi. "İnam" yatağına dair BP ilə müqavilə imzalandı. Bu yataq barədə Monument Oyl ənd Qaz, ABŞ-m Amoko və Rusiyaya mənsub olan bir şirkət ilə müqavilə imzalandı. "Muradxanlı" yatağına dair isə Ramko şirkəti ilə müqavilə bağlandı. Qeyd etmək lazımdır ki. Böyük Britaniyanın Baş Naziri Xəzər dənizinin hüquqi statusu məsələsinin tezliklə həll olunması istiqamətində Azərbaycanın səylərini bəyənirdi.

Azərbaycan Respublikasının Prezidenti və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş Naziri dostluq münasibətləri və tərəfdaşlıq haqqında 16 bənddən ibarət birgə bəyannamə imzaladılar". Tərəflər bəyannamənin mövcud olan yaxşı ikitərəfli münasibətlər üçün əsas olduğunu təsdiq etdilər. Böyük Britaniya Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirdi. Sənəddə Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Lissabon zirvə görüşündə fəaliyyətdə olan sədrin bəyanatında əks olunmuş üç prinsipin bu münaqişənin həlli üçün əsas olması barədə Birləşmiş Krallığın mövqeyi bir daha təsdiq olunurdu. İngiltərə hökuməti Azərbaycanın NATO, Avropa İttifaqı və digər təşkilatlarla əməkdaşlığını, Avropa Şurasına və Ümumdünya Ticarət Təşkilatına tam üzv olmasını müdafiə edirdi.

Bəyannamənin imzalanmasının böyük tarixi əhəmiyyətindən danışan Heydər Əliyev dedi: "Dünyanın ən böyük dövlətlərindən biri olan Böyük Britaniya və Şimali İrlandiya Krallığı ilə Azərbaycan arasında belə

* Yenə orada, s. 345.

Azərbaycan Respublikası Prezidentinin və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Baş Nazirinin dostluq münasibətləri və tərəfdaşlıq haqqında birgə bəyannaməsi. 21 iyul 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVI kitab, s.352-356; Azərbaycan Respublikası Prezidentinin və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Baş Nazirinin dostluq münasibətləri və tərəfdaşlıq haqqında birgə bəyannaməsi. 21 iyul 1998-ci il. - Müqavilələr toplusu. I cild, s. 174-177.

əlaqələrin yaranması və belə bir siyasi bəyannamənin imzalanması Azərbaycan üçün çox böyük siyasi əhəmiyyət kəsb edir”'°°.

Səfər çərçivəsində Heydər Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Çariz Frank ilə görüşdü. Azərbaycanda siyasi və iqtisadi sahələrdə irəliləyişlərin paralel getməsi əməkdaşlığa əlverişli imkan yaradırdı. Görüşdən sonra Avropa Yenidənqurma və İnkişaf Bankı ilə Azərbaycan Respublikasının Beynəlxalq Bankı arasında bank-kredit xəttinin açılması haqqında saziş imzalandı. Bu sazişə uyğun olaraq Bank Azərbaycanda özəl sektorun inkişafına yardım edirdi.

Azərbaycan Prezidentinin Birləşmiş Krallığın müdafiə işləri üzrə dövlət katibi Corc Robertson”' ilə görüşündə sabitsizliyin ümumi düşmən olduğu qeyd edildi. Görüş zamanı Heydər Əliyev Ermənistanın təcavüzü və nəticələri haqqında danışdı. Corc Robertson isə Böyük Britaniyanın Azərbaycanın haqq işini müdafiə etdiyini bir daha vurğuladı.

Heydər Əliyev BP şirkətinin prezidenti Con Braun ilə görüşdü. Şirkət rəhbəri Azərbaycan Prezidentinin səfərinin iki ölkə arasında münasibətlərdə yeni mərhələ açacağı qənaətində idi. Danışıqlarda əlaqələri daha da möhkəmləndirmək məsələləri müzakirə edildi. Qeyd etmək lazımdır ki, bu vaxtadək BP şirkəti Azərbaycana 260 milyon dollar sərmayə qoymuşdu.

Ticarət və sənaye üzrə dövlət katibi Marqaret Bekett ilə görüşdə Britaniya naziri Azərbaycan Prezidentinin səfərini yüksək qiymətləndirdi'®^. İki ölkə arasında əməkdaşlığın strateji tərəfdaşlıq səviyyəsinə qalxması məmnunluq doğururdu.

Energetika naziri Con Batti ilə danışıqlarda iqtisadi əməkdaşlıq məsələləri müzakirə edildi. Böyük Britaniya hökuməti Azərbaycana iqtisadi sahədə mühüm tərəfdaş və açar ölkə kimi baxırdı. C.BattI dedi: “Birləşmiş Krallıq regionda açar rolunu oynayan Azərbaycan Respublikasını

Əliyev H.Ə. Azərbaycan Respublikası Prezidentinin və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Baş Nazirinin dostluq münasibətləri və tərəfdaşlıq haqqında birgə bəyannaməsinin imzalanması mərasimində çıxış. London, Baş Nazirin iqamətgahı, 21 iyul 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVI kitab, **S.348.**

Corc Robertson (1946) - İngiltərənin siyasi və dövlət xadimi. NATO-nun baş katibi (1999-2004).

Əliyev H.Ə. Böyük Britaniyanın ticarət və sənaye üzrə dövlət katibi xanım Marqaret Bekett ilə görüşdəki söhbətdən. 21 iyul 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVI kitab, s.367.

Özünün layiqli tərəfdaşı hesab edir”“. Nazir Azərbaycan tərəfinin qədim İpək yolunun bərpasına yönəlik səylərini fəal surətdə müdafiə edirdi.

Azərbaycan Prezidenti Böyük Britaniyanın Ay-Bi-Si şirkətinin təşkil etdiyi “Azərbaycanda biznes” mövzusunda beynəlxalq konfransda iştirak etdi. Konfransı Baş Nazir Toni Bler açdı. Azərbaycan Prezidenti çıxış etdi. Burada təkcə Böyük Britaniyanın deyil, dünyanın müxtəlif ölkələrinin iş adamları, Azərbaycanda iş görmək istəyən şəxslər toplaşmışdı. Çıxışında Heydər Əliyev Azərbaycanda aparılan islahatlar, iqtisadi inkişafın dinamikası, ölkənin beynəlxalq əlaqələri və xarici ticarət dövriyyəsinin artması barədə danışdı. Qeyd etmək lazımdır ki, təkcə 1997-ci ildə Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi 1 milyard 600 milyon dollar artmışdı. Azərbaycan beynəlxalq maliyyə və bank qurumları ilə səmərəli əməkdaşlıq edirdi. Bu da ümumi daxili məhsul istehsalında 10% təşkil e d i r d i Ö l k ə iqtisadiyyatını liberallaşdırmaq üçün 200-dən artıq qanun qəbul edilmişdi.

Böyük əhəmiyyət daşıyan bu konfrans dünyanın işgüzar dairələri arasında Azərbaycana marağın artdığını göstərirdi. Azərbaycan xarici iş adamlarının kapital qoymaları üçün sabit və etibarlı ölkəyə çevrilmişdi.

Azərbaycan Prezidenti Beynəlxalq münasibətlər üzrə kral institutunda siyasi xadimlər, yüksək vəzifəli dövlət adamları və hökumət nümayəndələri, diplomatlar və jurnalistlər qarşısında nitq söylədi. O, əsas diqqətini ölkədə aparılan islahatlar, Azərbaycanın imzaladığı neft müqavilələri və Ermənistanın hərbi təcavüzü məsələlərinə yönəltdi.

İyunun 22-də Azərbaycan Prezidenti Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının xarici işlər və birlik işlər üzrə naziri Robin Kuk'°^ ilə görüşdü. Robin Kuk bildirdi ki, ölkəsi Azərbaycan ilə əlaqələrə xüsusi maraq göstərir, iki ölkə arasında əməkdaşlıq strateji tərəfdaşlıq səviyyəsinə qalxmışdır, NATO-nun Sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində əməkdaşlığın genişləndirilməsi vacibdir. Azərbaycan Prezidenti ölkəsinin beynəlxalq əlaqələri, Ermənistanın Azərbaycana təcavüzü, nəticələri və ATƏT-in Minsk qrupunun səyləri haqqında danışdı.

^ Əliyev H.Ə. Böyük Britaniyanın enerji üzrə dövlət naziri Con Batti ilə görüş- dəki söhbətdən. 21 iyul 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVI kitab, s.371.

Əliyev H.Ə. Böyük Britaniyanın Ay-Bi-Si şirkətinin təşkil etdiyi “Azərbaycanda biznes” mövzusunda beynəlxalq konfransda çıxış. 22 iyul 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVI kitab, s.394.

Robin Kuk (1946-2005) - İngiltərənin siyasi və dövlət xadimi. İngiltərənin xarici işlər naziri (1997-2001). Nümayəndələr palatasının lideri (2001-2003).

Azərbaycan Prezidentinin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına səfərinin və imzalanan sənədlərin böyük tarixi əhəmdyyəti var idi. Səfər zamanı Azərbaycan Prezidenti 46 görüş keçirmişdi. Dövlət və hökumət rəhbərləri - kraliça, Baş Nazir, xarici işlər, müdafiə işləri və beynəlxalq inkişaf üzrə dövlət katibləri, energetika naziri, parla- m.ent üzvləri və digər təşkilatların, o cümlədən beynəlxalq təşkilatların rəsmi şəxsləri ilə yüksək səviyyədə keçirilən görüşlərdə və aparılan çoxsaylı danışıqlarda Böyük Britaniyanın dövlət strukturlarının və iş adamlarının Azərbaycana marağının artması bir daha təsdiq olundu. Danışıqlar zamanı dövlət rəhbərləri iki ölkə arasında iqtisadi əməkdaşlığa böyük diqqət yetirmişdilər. Onlar siyasi sahədə əməkdaşlığın genişləndirilməsi və inkişaf etdirilməsi haqqında da eyni fikirdə idilər. Səfər iki ölkə arasında münasibətlərdə böyük perspektivlər açırdı. İmzalanmış siyasi bəyannamədə əməkdaşlığın bütün sahələri əhatə olunmuş, siyasi, iqtisadi, elmi, mədəni, humanitar sahələrdə əməkdaşlıq haqqında lazımi müddəalar əksini tapmışdı. Böyük Britaniya tərəfi Azərbaycanın strateji tərəfdaşı olduğunu bəyan, müstəqilliyini və ərazi bütövlüyünü bir daha təsdiq etdi və iqtisadi əməkdaşlığa xüsusi maraq göstərərək onun müqavilə-hüquq bazasını yaratdı. Azərbaycan Böyük Britaniya üçün əhəmiyyətli bir ölkə idi.

## Əməkdaşlıq dərinləşir

Səfər başa çatdıqdan bir müddət sonra, avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti “Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında tərəfdaşlıq münasibətlərinin genişləndirilməsi tədbirləri haqqında” sərəncam imzaladı'®^. Sərəncamda Azərbaycan Respublikasının müvafiq strukturlarına iki ölkə arasında tərəfdaşlıq münasibətlərinin genişləndirilməsini və bütün imzalanmış ikitərəfli sənədlərin həyata keçirilməsini təmin etmək, siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin daha da genişləndirilməsinə nail olmaq məqsədilə Birləşmiş Krallığın müvafiq strukturları ilə dialoqu davam etdirmək tapşırılırdı; iki ölkə arasında parlament əlaqələrini genişləndirmək və inkişaf etdirmək tövsiyə edilirdi; Xarici İşlər Nazirliyi səfər za

Əliyev H.Ə. Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında partnyorluq münasibətlərinin genişləndirilməsi tədbirləri haqqında. 25 avqust 1998-ci - Müstəqilliyimiz əbədidir. XVII kitab. s. 181-186.

manı aparılmış danışıqların nəticələri əsasında ABŞ, Rusiya və Fransanın Minsk qrupundakı nümayəndə heyətləri ilə danışıqları intensivləşdirməli idi; Xarici İşlər Nazirliyi, Müdafiə Nazirliyi və digər əlaqədar təşkilatlar iki ölkə arasında təhlükəsizlik, silahlara nəzarət, müdafiə və digər sahələrdə, eləcə də Şimali Avroatlantika tərəfdaşlıq və NATO-nun Sülh naminə tərəfdaşlıq proqramları çərçivəsində əməkdaşlığın genişləndirilməsi üçün təkliflər verməli idilər; neft şirkətləri ilə imzalanmış sazişlərin müəyyən olunmuş qaydada təsdiq olunması və həyata keçirilməsi üçün müvafiq tədbirlər həyata keçirilməli idi və s.

Bu səfərdən sonra iki ölkə arasında təhlükəsizlik sahəsində əməkdaşlıq və parlamentlərarası əlaqələr genişləndi. Böyük Britaniya Dağlıq Qarabağ münaqişəsinin həlli məsələləri ilə yaxından maraqlanmağa başladı. 1999-cü ilin fevral ayında Böyük Britaniya parlamentinin üzvləri Robert Veyrinq və Vikont Ueverli Azərbaycana səfər edərək parlament- lərarası əməkdaşlıq məsələlərini müzakirə etdilər. Martın 17-də isə Böyük Britaniya parlamentinin lordlar palatasında Dağlıq Qarabağ münaqişəsinə dair müzakirələr keçirildi. Xarici işlər və birlik işləri üzrə nazir Coys Kvinin də iştirak etdiyi müzakirələrdə Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı dəstəkləndi.

İngiltərə hökuməti Cənubi Qafqaz siyasətini fəallaşdırdı. Birləşmiş Krallığın Mərkəzi Asiya və Cənubi Qafqaz regionundakı diplomatik nümayəndəliklərinin fəaliyyətinin səmərəli əlaqələndirilməsi məqsədi ilə martın 25-26-da Bakıda region ölkələrindəki ingilis səfirlərinin toplantısı keçirildi. Toplantıda regiondakı mövcud şərait və səfirliklərin fəaliyyətinin əlaqələndirilməsi məsələləri müzakirə edildi.

Azərbaycan ilə Böyük Britaniya arasında təhlükəsizlik sahəsində əməkdaşlıq intensivləşdi. 1999-cu ilin iyulun əvvəllərində Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Araz Əzimovun başçılıq etdiyi nümayəndə heyətinin Londona səfəri zamanı ikitərəfli təhlükəsizlik məsələlərinə dair dialoq keçirildi'®’.

Brüsseldə Şimali Atlantika Tərəfdaşlıq Şurasının xarici işlər nazirlərinin müşavirəsi çərçivəsində dekabrın 16-da xarici işlər naziri Vilayət Quliyev İngiltərənin xarici işlər və birlik işləri üzrə naziri Robin Kuk ilə görüşərək əsasən ikitərəfli siyasi münasibətlər və təhlükəsizliyə dair mə-

Məmmədli E. Azərbaycan - Böyük Britaniya münasibətləri (1991-2003-cü illər), **S.33.**

şələləri müzakirə etdi"^. Azərbaycan Böyük Britaniyanın Cənubi Qafqaz siyasətinin daha da fəallaşmasını istəyirdi.

Təhlükəsizlik məsələləri 2000-ci ildə aktual olaraq qaldı. Belə ki, may ayında İngiltərə Müdafiə Nazirliyinin nümayəndə heyəti Azərbaycana səfər etdi. Səfər zamanı iki ölkə arasında təhlükəsizlik və hərbi əməkdaşlıq məsələləri müzakirə edildi.

Böyük Britaniya parlamentinin lordlar palatasının üzvü Baronessa S.Qilmorhil və etnik münaqişələrin sülh yolu ilə həll olunması istiqamətində fəaliyyət göstərən Links qeyri-hökumət təşkilatının icraçı direktoru Dennis Sammit sentyabrın 20-22-də Bakıya səfər zamanı keçirdiyi danışıqlarda Cənubi Qafqazın üç ölkəsinin parlament üzvlərinin görüşünün keçirilməsini təklif etdi. Azərbaycan tərəfi etiraz etmədi. Görüşə hazırlıqlara başlandı.

İki ölkə arasında münasibətlər 2001-ci ildə də əvvəlki dinamizmini saxladı. Belə ki, yanvarın 25-də Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini, təhlükəsizlik və müdafiə məsələləri komitəsinin sədri Ziyafət Əsgərov'®^ Londona səfər etdi"°. Səfər zamanı iki ölkə arasında təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığı genişləndirmək məsələləri müzakirə olundu. Bundan sonra Azərbaycanın 10 hərbçisi Böyük Britaniyada kurslarda iştirak etdi*". Böyük Britaniya Xarici İşlər və Birlik İşləri üzrə Nazirliyin Şərq Departamentinin rəhbəri Enn Prinqlin fevralın 25-27-də Bakıya səfəri zamanı isə xarici işlər nazirlikləri arasında məsləhətləşmələr keçirildi*'^.

Artıq qeyd edildiyi kimi, 2001-ci il iyulun 23-də Xəzər dənizinin Azərbaycan sektorunun cənub hissəsindəki "Alov" yatağı rayonunda İran hərbi hava qüvvələrinin təyyarələri Azərbaycanın "Geofizik-3" və "Əlif Hacıyev" tədqiqat gəmiləri üzərində iki saat uçmuşdular'*^. Gəmilərin zonadan çıxarılmasını tələb etmişdilər. Bundan sonra İran Milli Təhlü

ARXİNA. 1999.

Ziyafət Əsgərov (1963) - Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini (2005-ci ildən).

Milli Məclisdə görüş. - "Azərbaycan" qəzeti, Bakı, 2001,26 yanvar.

Məmmədli E. Azərbaycan - Böyük Britaniya münasibətləri (1991-2003-cü illər), s. 35.

XİN-in Mətbuat mərkəzi xəbər verir. - "Azərbaycan" qəzeti, Bakı, 2001, 28 fevral.

Opya>KeB P. B uıare OT BOHHBI ua Kacunu. - faa. "3xo", Baxy, 2001, 24 HIOJİH.

kəsizlik Şurasının katibi Həsən Ruhani Böyük Britaniyanın Tehrandakı səfiri Nikolas Braun ilə görüşərək yataqda işlərin dayandırılmasını tələb etmişdi. İngilis səfiri Tehranın maraqlarına zidd olaraq Xəzər dənizindəki

yataqları istismar etməyəcəklərini söyləmişdi . Bundan bir neçə ay sonra, dekabrın 3-6-da Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin İdarə rəisi İ.Hacıyev Londonda siyasi məsləhətləşmələr keçirdi.

Böyük Britaniya parlamentinin lordlar və icmalar palatalarının üzvlərindən ibarət nümayəndə heyəti 2002-ci il mayın 31-dən-iyunun 3-dək Azərbaycanda səfərdə oldu. Nümayəndə heyəti ikitərəfli parlament əməkdaşlığı məsələlərini müzakirə etdi.

İyunun 27-dən-iyulun 1-dək Milli Məclisin nümayəndə heyətinin iştirakı və Links təşkilatının təşəbbüsü ilə üç Cənubi Qafqaz ölkəsinin parlament üzvləri arasında görüş keçirildi. Görüşdə Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq məsələləri müzakirə olundu.

2003-cü il iki ölkə arasında müzakirə edilən məsələlərin vacibliyi ilə seçildi. İyunun 17-də Londonda Böyük Britaniya və Şimali İrlandiya Krallığının Baş Naziri Toni Blerin təşəbbüsü və Beynəlxalq İnkişaf Məsələləri Nazirliyinin təşkilatçılığı ilə hasilat sənayelərinin şəffaflığı təşəbbüsünə həsr olunmuş beynəlxalq konfransda Avropa Şurası Parlament Assambleyasının vitse-prezidenti və büro üzvü, ARDNŞ-nin birinci vitse- prezidenti İlham Əliyev çıxış edərək əməkdaşlığın əhəmiyyətindən və gələcək perspektivlərindən danışdı.

Böyük Britaniyanın Xarici və Birlik İşləri üzrə Nazirliyinin Geniş Avropa İdarəsinin direktoru Linda Daffıld sentyabrın 16-18-də, Şərq İdarəsinin direktoru S.Bat, Şərqi Avropa və Orta Asiya İdarəsinin direktoru J.İrvin və Müdafiə Nazirliyinin nümayəndəsi K.Pay noyabrın 27-28- də Bakıda məsləhətləşmələr apardılar. Məsləhətləşmələr mövcud olan məsələlərə münasibətdə tərəflərin baxışlarının eyniliyini göstərirdi.

Azərbaycan Respublikası və Birləşmiş Krallıq BMT, ATƏT, NATO, Aİ və digər beynəlxalq təşkilatlar, o cümlədən Avroatlantik Tərəfdaşlıq Şurası, NATO-nun Sülh naminə tərəfdaşlıq proqramı və Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı çərçivəsində sıx əməkdaşlıq edirdilər. Azərbaycan tərəfi Britaniyanın imkanlarını nəzərə alaraq Avroatlantik strukturlarına inteqrasiyası prosesində maddi-texniki və məsləhətçi yardımlarından yararlanırdı. Bu əməkdaşlığın nəticəsi olaraq hər il 8-10 Azərbaycan

**Opya>KeB** P. AnranHan, **noxo>Ke,** npnnyrnyaH. - Taa. **"Əxo",** Baxy, 2001, 25 Hioaa.

zabiti Böyük Britaniyada təşkil olunan dil kurslarında iştirak edirdi. Hər il Çex Respublikasında yerləşən Sülhməramlı qüvvələr mərkəzində Britaniyanın təşəbbüsü ilə təşkil olunan kurslarda Azərbaycanın 1-2 zabiti iştirak edirdi. Azərbaycan Respublikasının Avroatlantik strukturlarına inteqrasiyası prosesində yeni mərhələ olan "Daha geniş Avropa: yeni qonşuluq" siyasəti təşəbbüsünə daxil edilməsinə Britaniya dəstək verdi. Böyük Britaniya Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzv olmasını müdafiə edirdi. Bundan başqa, Böyük Britaniya və Azərbaycan beynəlxalq terrorçuluq, təcavüzkar separatçılıq, narkotik maddələrin qeyri-qanuni dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri və qanunsuz silah alveri kimi beynəlxalq cinayətlərə qarşı mübarizə məsələləri üzrə də əməkdaşlıq edirdilər.

1991-2003-cü illərdə Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında iqtisadi əlaqələr də yüksələn xətt üzrə inkişaf etmişdir. Belə ki, 2003-cü il məlumatına görə, Azərbaycanda Böyük Britaniyanın 100-dən çox şirkəti fəaliyyət göstərirdi. Böyük Britaniya Azərbaycana əsasən əczaçılıq məhsulları, teleradio və telefon aparatları, elektron avadanlıq, müxtəlif növ cihazlar, alətlər, maşın hissələri, mühərrik, borular, kağız və s., Azərbaycan isə bu ölkəyə neft və neft məhsulları, əlvan metallar, müxtəlif maşın hissələri və cihazlar, pambıq mahhcı və s. ixrac edirdi. Azərbaycanın xarici ticarətində Böyük Britaniyanın çəkisi də artmışdı. Maliyyə sahəsində geniş əməkdaşlıq edilirdi. Azərbaycana ingilis kapitalının qoyuluşu artmışdı. İki ölkə arasında elm, texnika və mədəniyyət sahələrində də əlaqələr genişlənmişdi. Ümumiyyətlə, 1991-1993-cü illərdə iki ölkə arasında münasibətlər daim yüksələn xətt üzrə inkişaf etmiş, strateji tərəfdaşlıq səviyyəsinə qalxmış və tərəflərin maraqlanna cavab vermişdir.

## FRANSA RESPUBLİKASI İLƏ MÜNASİBƏTLƏR

### Qarşılıqlı münasibətlərin təzadlı yollan

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının xarici siyasətində mühüm yerlərdən birini Fransa Respublikası ilə münasibətlərin qurulması və inkişafı tutdu. Fransa Azərbaycanın dövlət müstəqilliyini 1992-ci il yanvarın 3-də tanıdı. Əlverişli coğrafi-siyasi mövqeyi və zəngin təbii sərvətləri baxımından Azərbaycan Fransa üçün

xüsusi maraq kəsb edirdi. Fransa Azərbaycan ilə əməkdaşlıqda maraqlı idi. Ona görə də 1992-ci il fevralın 19-20-də humanitar məsələlər üzrə dövlət katibi Bernar Kuşner başda olmaqla hökumət nümayəndə heyəti Azərbaycana səfər etdi. Keçirilən danışıqlarda Fransa tərəfi Azərbaycan ilə iqtisadi əməkdaşlığa və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində vasitəçiliyə hazır olduğunu bildirdi"^ Səfərdən dərhal sonra, fevralın 21-də iki ölkə arasında diplomatik əlaqələr quruldu”^. Bernar Kuşner daha sonra, martın 3-7-də və 20-22-də də Bakıda səfərdə oldu. Bu səfərlər qarşılıqlı münasibətlərdə ilk addımlar idi.

Azərbaycanda Fransa Respublikasının səfirliyi 1992-ci il martın 16- da açıldı. Martın 26-da isə Fransa Respublikasının ilk səfiri Jan Perren etimadnaməsini Azərbaycan rəhbərliyinə təqdim etdi”'. Həmin il sentyabrın 23-də Parisdə Azərbaycan Respublikasının səfirliyi təsis edildi”*. Jan Perren noyabr ayında Azərbaycan hökumətinə müraciət edərək ölkəsinin müxtəlif sahələrdə əməkdaşlıq etmək barədə təklifini çatdırdı. Azərbaycan tərəfi bu təklifləri öyrənəcəyini bildirdi. Lakin münasibətlərin maddi əsaslarının qurulması üçün ciddi addımlar atılmadı.

Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı hücumları Fransa tərəfindən narahatlıqla qarşılanırdı. Fransa Prezidenti Fransua Mitteran 1993-cü ilin may ayında Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə məktub göndərərək Dağlıq Qarabağ ətrafında hərbi əməliyyatların genişlənməsindən ölkəsinin narahat olduğunu, fransız hökumətinin erməni silahlı qüvvələrinin Kəlbəcərdən çıxması tələbi ilə müxtəlif səviyyələrdə çıxış etdiyini bildirdi”^. Bu, qarşılıqlı münasibətlərdə yaxşı bir addım idi. Lakin 1993-cü ilin ikinci yarısınadək Azərbaycan - Fransa münasibətləri inkişaf etməmişdi və tərəflərin imkanlarından aşağı səviyyədə idi. Azərbaycan geniş əməkdaşlığa meyil etmirdi. Bu da səbəbsiz

Azərbaycan - Fransa: münasibətlərin tarixində mühüm mərhələ. — “Xalq qəzeti”, Bakı, 1992, 22 fevral.

[116] ARXINA. 2008.

[117] Etimadnamələr təqdim olunmuşdur. - “Xalq qəzeti”, Bakı, 1992, 27 mart.

Azərbaycan Respublikasının Fransa Respublikasında (Paris şəhərində) səfirliyinin açılması haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. 23 sentyabr 1992-ci il. - Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 30 sentyabr 1992-ci il. Bakı, 1992, Ra 18 (871), s.43.

Fransa hökuməti erməni qüvvələrinin Kəlbəcərdən çıxmasını tələb edir. - “Azərbaycan” qəzeti, Bakı, 1993, 13 may.

deyildi. Fransanın ermənipərəst mövqe tutması qarşılıqlı münasibətlərdə boşluq yaradırdı. Belə vəziyyət hər iki tərəfə ziyanlı idi.

## Münasibətlərin yeni dövrü.
## Avropaya ilk səfər Fransadan başlayır. Niyə məhz Fransa?

İki ölkə arasındakı münasibətlərdə istiləşmə Azərbaycan Respublikasında Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra başladı. Azərbaycan tərəfi Fransa ilə münasibətləri yaxşılaşdırmaq xəttini seçdi. İki ölkə arasındakı münasibətlərin müsbət istiqamətdə inkişafı üçün addımlar atıldı. 1993-cü il avqustun 13-də Fransanın Azərbaycandakı səfiri Jan Perreni qəbul edən Heydər Əliyev dedi: "...iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətləri daim möhkəmlənəcəkdir""^®.

Qeyd etmək lazımdır ki, 1993-cü ilin noyabnnadək iki ölkə rəhbərləri arasında əlaqələr mövcud deyildi. Belə vəziyyət Azərbaycana da, Fransaya da faydalı deyildi. Ona görə tərəflər müəyyən addımlar atdılar. Azərbaycan Respublikasının xarici işlər naziri Həsən Həsənov 1993-cü il noyabrın 4-5-də Fransaya səfər etdi. Azərbaycan Prezidentinin Fransaya səfərinə hazırlıq məqsədi daşıyan bu səfər iki ölkə arasında dialoqun təməli oldu. Səfər zamanı Azərbaycanın xarici işlər naziri Fransa Prezidenti Fransua Mitteran ilə görüşdü. Onlar qarşılıqlı münasibətlərin geniş sahələrini müzakirə edərək mövcud vəziyyətin qənaətbəxş olmadığını vurğuladılar. Tərəflər münasibətlərə yeni keyfiyyət halı vermək barədə razılaşdılar.

Fransa Xarici İşlər Nazirliyində keçirilən danışıqlarda iki ölkə arasında əlaqələrə dinamizm vermək barədə ümumi razılıq əldə edildi. Səfərin nəticəsində, noyabrın 4-də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Fransa Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında protokol imzalandı.

Beləliklə, Azərbaycan Prezidentinin Fransaya səfəri hazırlandı. Heydər Əliyev ilk rəsmi səfərini 1993-cü il dekabrın 19-22-də Fransaya etdi. Azərbaycan Prezidentinin ilk səfərinin Fransaya edilməsi səbəbsiz deyildi. Məlum olduğu kimi, hələ orta əsrlərdən Azərbaycan və fransız xalqları arasında müəyyən əlaqələr olmuşdu. Onları bir sıra tellər bağ-

Fransa Azərbaycanın problemlərinə biganə deyil. "Azərbaycan" qəzeti, Bakı, 1993, 14 avqust.

layırdı'^'. Qarşılıqlı əlaqələrdə səyyahlar və yazıçılar mühüm rol oynamışdılar. Çarizm dövründə bir sıra fransız şirkətləri Bakıda çalışmışdılar. Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi ilk dəfə olaraq 1920-ci il yanvarın 11-də məhz Parisdə - dünya demokratiyasına böyük töhfələr vermiş bir ölkənin paytaxtında tanınmışdı. Azərbaycan Avropa dövlətləri ailəsinin üzvlüyünə qəbul edilmişdi. Prezidentin Fransaya səfəri Azərbaycanın müstəqilliyinin əbədi olacağına, ölkəsinin demokratiya yolu ilə irəliləyəcəyinə bir işarə idi.

Azərbaycan 1920-ci ilin aprelində işğal edildikdən sonra bəzi azərbaycanlı mühacirlər Fransada sığınacaq tapmışdılar. Fransa hökuməti bolşevik işğalına qarşı çıxaraq Azərbaycanın dövlət müstəqilliyinin bərpası məqsədi ilə hətta konkret planlar da hazırlamışdı'^^. Lakin Fransa bu planlarını reallaşdıra bilməmişdi.

Azərbaycanlılar İkinci dünya müharibəsi illərində Fransada antifaşist müqavimət hərəkatında fəal iştirak etmiş və bu ölkənin faşizm əsarətindən azad edilməsində qəhrəmanlıqlar göstərmişdilər. Fransanın görkəmli dövlət və siyasi xadimi Şari de Qoll müharibə illərində Bakıda olmuş, xoş xatirələrlə Azərbaycandan ayrılmışdı.

SSRİ-nin tərkibində olduğu müddət ərzində Azərbaycan Mərkəzi hökumət tərəfindən Fransa ilə mədəni əlaqələrdə iştirak etmişdi. Fransada Azərbaycan mədəniyyətinə bələd idilər.

Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra bəziləri belə hesab edirdi ki, Ermənistanın Fransa ilə münasibətləri isti, erməni di- asporası bu ölkədə güclü olduğu üçün Azərbaycan - Fransa münasibətləri yaxşı ola bilməz. Azərbaycan həmin baxışların yanlış olduğunu sübut etməli idi.

Azərbaycan Prezidentinin səfəri iki ölkə arasında münasibətləri yaxşılaşdırmaq və başqa ölkənin təsirindən asılı etməyə son qoymaq niyyəti güdürdü. Azərbaycanın Fransa üçün əhəmiyyətli bir ölkə olduğu fransız rəsmi dairələrinə göstərilməli idi.

Artıq qeyd edildiyi kimi, Böyük Fransa inqilabı Avropaya və dünyaya demokratik ideallar, azadlıq, bərabərlik və qardaşlıq ideyalarını vermişdi. Azərbaycan Respublikası dövləti də demokratik inkişaf yolunu qəbul etmişdi.

ARXİNA. 14.10.1993-05.04.1995. Qovluq Xb 14, v.128-131.

Qasımlı M. Azerbaycan türklerinin milli mücadele tarihi. 1920-1945. İstanbul, 2006, s.79-82.

Fransa BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri və NATO üzvü kimi dünya siyasətində mühüm yer tuturdu. O, nüvə dövləti idi. Beynəlxalq siyasətə ciddi təsir edirdi. Dünyanın bütün qitələrində geniş əlaqələri olan Fransa Avropa inteqrasiyasının fəal tərəfdarlarından və Avropa İttifaqının aparıcı dövlətlərindən biri idi. Bütün bu amillər iki ölkə arasında münasibətlərin inkişafını zəruri edirdi. Fransaya səfər çoxlu tərəfləri ilə ciddi əhəmiyyət daşıyırdı.

Azərbaycan Prezidentinin Fransa Prezidenti Fransua Mitteran ilə görüşündə ikitərəfli və regional məsələlər müzakirə edildi. Fransa tərəfmə iki ölkə arasında iqtisadi əməkdaşlığa dair təkliflər paketi təqdim olundu. Dağlıq Qarabağ münaqişəsinin həlli yollan müzakirə edildi. Fransa Azərbaycanın ərazi bütövlüyünü müdafiə edirdi. Bununla bağlı olaraq Fransua Mitteran dedi: “Biz sülh və təhlükəsizlik prinsiplərinə əsasən sərhədlərin silah və zor gücünə dəyişdirilməsinə yol vermərik. Biz müstəqillik və suverenliyin qanunla qorunmasını istəyirik”'^^. Danışıqlar zamanı Fransa Azərbaycanın düşməni olmadığını göstərdi.

Dekabrın 20-də iki ölkə arasında 20 maddədən ibarət dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında müqavilə imzalandı'^". Müqavilədə tərəflər iki xalq arasında anlaşma və dostluğa imkan yaradan bütün sahələrdə əməkdaşlıq münasibətlərini inkişaf etdirmək, zəruri hallarda bu müqavilənin müddəalarını həyata keçirmək üçün digər sazişlər bağlamaq, siyasi əməkdaşlıqdan həm ikitərəfli, həm də çoxtərəfli istqamətlərdə istifadə etmək; azadlıq və demokratiya kimi ümumi məqbul dəyərləri bəyənərək həmin sahələrdə əməkdaşlıq etmək; Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri üzrə həm ikitərəfli, həm də beynəlxalq problemlər üzrə fikir mübadiləsi üçün müvafiq səviyyələrdə müntəzəm məşvərətlər, işgüzar görüşlər keçirmək barədə öhdəlik götürürdülər. Fransa Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafına kömək edəcəkdi. İki ölkə ATƏM çərçivəsində əməkdaşlıq edəcəkdilər. Azərbaycan və Fransa hərbi sahədə əlaqələri inkişaf etdirib dərinləşdirəcəkdilər. Digər sahələrdə də əməkdaşlıq nəzərdə tutulmuşdu. Müqavilə üçüncü ölkələr qarşısındakı öhdəliklərə toxunmur və onlardan hər hansı birinə qarşı yönəlməmişdi.

Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Bakı, 1994, s.39.

Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında müqavilə. 20 dekabr 1993-cü il. - Müqavilələr toplusu. I cild, s. 17-23.

Səfər zamanı Azərbaycan Prezidenti hələ 1990-cı ildə qəbul edilmiş Avropa üçün Paris xartiyasını i m z a l a d ı H ə m i n sənədə qoşulmaqla Azərbaycan rəsmi şəkildə BMT nizamnaməsinə, təhlükəsizlik və əməkdaşlıq haqqında beynəlxalq normalara və prinsiplərə əməl edəcəyini təsdiqləməklə bərabər, təhlükəsizliyini beynəlxalq təhlükəsizlik ilə əlaqələndirirdi. Bu, Azərbaycan Respublikasının Avropa təhlükəsizlik sisteminə doğru atdığı ciddi bir addım idi.

Azərbaycan Prezidentinin səfərinin böyük əhəmiyyəti oldu. Bu, ölkə rəhbərlərinin müxtəlif sahələrdə ikitərəfli əməkdaşlığı qarşılıqlı inkişaf etdirmək istəklərini göstərdi. İki ölkə arasında münasibətlərdə şübhələr və etimadsızlıq aradan qalxmağa başladı. Səfər zamanı Fransa xüsusi bəyanatlar verərək Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini müdafiə etdiyini, zor yolu ilə ərazilər işğal edilməsini pislədi, dövlətlər- arası münasibətlərdə ümumi qəbul olunmuş normaların üstünlüyünü bəyan etdi. Bu səfərə qədər Fransanın Ermənistan - Azərbaycan münaqişəsində mövqeyi birmənalı olaraq ermənipərəst idisə, bundan sonra rəsmi mövqedə tarazlaşdırılmış elementlər, sülhə riayət etmək, ərazi bütövlüyü, insan hüquqları, dialoq və razılıq elementləri meydana gəldi. Azərbaycan haqqında həqiqətlər Fransada yayılmağa başladı. Fransa ATƏM-in Minsk qrupunun fəaliyyətini qətiyyətlə müdafiə etdi, tərəfləri atəşi təcili dayandırmağa və dialoqa başlamağa çağırdı'^*'. Fransa Azərbaycanın Dağlıq Qarabağ regionundan məcburi köçkünə çevrilmiş azərbaycanlı əhaliyə və blokada şəraitində olan Naxçıvana humanitar yardım göstərən ilk ölkələrdən biri oldu. Fransız hökuməti həmçinin Ermənistanda tarixi torpaqlarından qovulan azərbaycanlı qaçqınlara da yardım etdi.

Aparılan danışıqlar münasibətlərin səviyyəsinin tərəflərin imkanlarından aşağı olduğunu və onun geniş perspektivlərin mövcudluğunu göstərdi. Müzakirələr Azərbaycanın fransız kapitalı üçün cəlbedici ölkə olduğunu təsdiqlədi. Səfər ilə qarşılıqlı münasibətlərin inkişafında yeni imkanlar açılırdı. Bununla bağlı olaraq Heydər Əliyev deyirdi: “Biz Azərbaycan ilə Fransa arasında çoxsahəli əməkdaşlığın inkişafı üçün, Azərbaycanın Fransada daha yaxşı təmsil olunması üçün indi yaradılmış imkanlardan maksimum səmərə ilə istifadə olunmasından ötrü gələcəkdə də hər şeyi edəcəyik”'^'.

Heydər Əliyev Azərbaycam dünyaya tanıdır, s.39.

ARXINA. 14.10.1993-05.04.1995. Qovluq Xs 14, v. 129.

Əliyev H.Ə. Fransaya rəsmi səfər zamanı Parisdə mətbuat konfransında bəyanat. 21 dekabr 1993-cü il. - Müstəqilliyimiz əbədidir. 1 kitab, s.292.

## Şübhələr və etimadsızlıq aradan qaldırılır. "Avropa Atlantikdən başlayıb Xəzərdə qurtanr. Fransa öz üzünü ayn-ayn xalqların qüvvələri nisbətində xüsusi yer tutan strateji bir ölkə kimi Azərbaycana çevirir"

Danışıqlar və imzalanan sənədlər Azərbaycan - Fransa münasibətlərində yeni bir dövrün əsasım qoyurdu. Azərbaycan Respublikası və Fransa Respublikası arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında 1993-cü il dekabrın 20-də Paris şəhərində imzalanmış müqavilə 1994- cü il iyunun 14-də təsdiq edildi'^*. İki ölkə arasında münasibətlərdə dinamizm artdı. Əlaqələr intensivləşərək yeni sahələri əhatə etdi. Fransa Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi ilə yaxından maraqlanmağa başladı. 1994-cü ilin yayında Fransa Milli Məclisinin xarici əlaqələr komitəsinin üzvü Rolan Blüm Ermənistan - Azərbaycan münaqişəsini yerində öyrənmək məqsədi ilə Azərbaycana səfər etdi'^®.

Azərbaycan tərəfi münasibətləri inkişaf etdirmək üçün bəzi addımlar atdı. 1994-cü il iyulun 25-də Azərbaycan Respublikasının Fransa Respublikasında səfirinin təyin edilməsi və səfirliyin fəaliyyətinin təşkili haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı verildi'^”. Eleonora Elüseynova*^’ Azərbaycan Respublikasının Fransa Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri təyin edildi. Ona Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri dərəcəsi verildi'^^. Azərbaycan Respublikası həmin ilin oktyabrın 20-də Fransada səfirliyini açdı. Bundan sonra münasibətlər daha da intensiv xarakter almağa başladı. Dekabr ayında keçirilən ATƏT-in Budapeşt zirvə görüşündə Fransanın da mövqeyi nəticəsində Dağlıq Qarabağ münaqişəsinə dair qərar qəbul edildi.

Hər iki ölkə münasibətləri dərinləşdirməkdə maraqlı idi. Bu baxımdan 1995-ci il fevralın 6-da xarici işlər naziri Həsən Həsənovun və

ARXINA. 1994.

Fransa Azərbaycanın problemlərinə biganə deyil. - “Azərbaycan” qəzeti, Bakı, 1993, 14 avqust.

ARXİNA. 1994.

Eleonora Hüseynova (1947) - Fransada fövqəladə və səlahiyyətli səfir.

E. M. Hüseynovaya Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri dərəcəsinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. 25 iyul 1994-cü il.-ARXİNA. 1994.

faşizm üzərində qələbənin 50 illiyinin qeyd olunması ilə əlaqədar mayın 8-də Heydər Əliyevin Fransaya səfərləri mühüm rol oynadı'^^. Azərbaycan Prezidenti Fransanın Prezidenti Fransua Mitteran, xarici işlər naziri Alan Jupe'^" və b. şəxslərlə keçirdiyi görüşlərdə iki ölkə arasında münasibətlərin inkişaf tarixinə qısa nəzər yetirdi. 1993-cü ildəki səfəri zamanı imzalanmış dostluq, əməkdaşlıq və qarşılıqlı anlaşma haqqında müqavilənin hələ də Fransa parlamenti tərəfindən ratifikasiya edilmədiyini Fransa tərəfinin diqqətinə çatdırdı'^^. Daha sonra Dağlıq Qarabağ münaqişəsinə toxundu. Ermənistanın Şuşa və Laçın rayonlarını boşaltmaq istəmədiyini, belə vəziyyətin möhkəm sülh olmadığını qeyd etdi. Azərbaycan tərəfi Fransa hərbi kontingentinin münaqişə zonasına göndəriləcək sülhməramlı qüvvələrin tərkibində olmasını arzulayırdı. Bu mərhələdə Azərbaycanın strategiyası Ermənistan ilə münaqişənin dinc yolla həlli və işğal edilmiş ərazilərin geri qaytarılması idi. Danışıqlar prosesi Ermənistan və Dağlıq Qarabağ regionu ermənilərinin iştirakdan imtina etməsi ucbatından böhranlı hala düşmüşdü. Onlar Minsk qrupuna verilən 1992-ci il 24 mart tarixli mandatı təftiş etmək istəyirdilər. Azərbaycan Prezidenti ATƏM-in səylərini xatırlatdı. Danışıqlar prosesini bərpa etmək istəyən Azərbaycan tərəfi danışıqların ATƏM-in Minsk qrupunun işindən ayrı düşməsindən narahat idi. Azərbaycan münaqişənin Minsk qrupu çərçivəsində həllinə tərəfdar çıxırdı. Heydər Əliyev Rusiya hökumətinin Çeçenistandakı hadisələri bəhanə gətirərək Azərbaycan ilə kommunikasiyaları və sərhədi bağladığını, bunun nəticəsində Azərbaycanın blokadaya düşdüyünü qeyd etdi. Daha sonra Azərbaycanın Avropa İttifaqına verdiyi əhəmiyyət üzərində dayandı. Fransa tərəfi Avropa İttifaqı ilə Azərbaycan arasında dialoqa kömək etmək vədini verdi. Azərbaycan Fransa ilə mədəni əlaqələrə böyük əhəmiyyət verir, onun daha da inkişaf etdirilməsini arzulayırdı. Azərbaycan tərəfi fransız kapitalının ölkə iqtisadiyyatına cəlb edilməsini istəyirdi.

Səfərdən sonra iki ölkə arasında iqtisadi əlaqələri genişləndirmək üçün ciddi addımlar atıldı. Azərbaycan Respublikasının Baş Naziri Fuad Quliyevin 1995-ci il mayın 25-31-də Fransaya səfəri zamanı iki ölkə arasında iqtisadi əlaqələrin genişləndirilməsi məsələləri müzakirə olundu. Qarşılıqlı münasibətlərin maddi təməllərinin möhkəmləndirilməsi istiqamətində digər tədbirlər də həyata keçirildi. Heydər Əliyev 1995-ci il

ARXİNA. 14.10.1993-05.04.1995. Qovluq Xb 14, v. 13.
Alan Jupe (1945) - xarici işlər naziri (1993-1995). Baş Nazir (1995-1997).
ARXİNA. 14.10.1993-05.04.1995. Qovluq X2 14, v. 121-123.

oktyabrın 21-də Nyu Yorkda Fransua Mitteran ilə görüşərək ikitərəfli münasibətlərin ən vacib məsələlərini müzakirə etdi, dekabrın 3-5-də isə Ümumdünya Bankının Parisdə keçirdiyi və dünyanın müxtəlif şirkət və maliyyə qurumlarının nümayəndələrinin iştirak etdiyi "Azərbaycan üçün investisiyalar" adlı beynəlxalq konfransda nitq söylədi. O, nitqində Azərbaycanın tarixi keçmişi, daxili ictimai-siyasi vəziyyəti, imzalanmış neft müqavilələri, yaradılmış əlverişli sərmayə mühiti haqqında məlumat verərək xarici şirkətləri Azərbaycana dəvət etdi Səfər zamanı Fransanın Elf Akiten şirkətinin Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarında əməkdaşlıq etməsi barədə razılıq əldə edildi. Fransanın xarici işlər naziri Evre de Şarett ölkəsinin Xəzər dənizinin hüquqi statusu məsələsində Azərbaycanın mövqeyini və Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirdi.

Azərbaycan Fransa ilə energetika sahəsində əməkdaşlığını daha da genişləndirdi. 1996-cı il iyunun 4-də Fransanın Elf Akiten şirkəti ilə "Şahdəniz" yatağının işlənilməsinə dair imzalanan saziş iki ölkə arasında münasibətlərin maddi təməllərini möhkəmləndirirdi.

Qarşılıqlı münasibətlərdə mühüm addım 1996-cı il oktyabrın 11-də Fransanın xarici işlər naziri Erve de Şarett başda olmaqla nümayəndə heyətinin Azərbaycana səfəri oldu'^'. Bu səfər Azərbaycan Prezidentinin 1997-ci ilin yanvar ayında Fransaya səfərinə hazırlıq məqsədi daşıyırdı. Tərkibinə Fransa Milli Məclisi və senatının üzvlərinin də daxil olduğu nümayəndə heyətini Azərbaycan Prezidenti Heydər Əliyev qəbul etdi. Danışıqlarda ikitərəfli münasibətlər və Dağlıq Qarabağ münaqişəsinin həlli yolları müzakirə edildi. Qafqazda siyasi şərait. Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli, Azərbaycanın Avropa strukturlarına inteqrasiyası məsələsində Fransa ilə Azərbaycanın mövqeləri üst-üstə düşürdü. Azərbaycan tərəfi Fransa ilə münasibətlərin genişləndirilməsində maraqlı idi. Danışıqlarda iki ölkə arasında iqtisadi əlaqələr - Bakı sement zavodunun yenidən qurulması, Bakı şəhərinin su ilə təchiz edilməsində Fransa şirkətlərinin iştirakı məsələləri müzakirə edildi. Erve de Şarett bəyan etdi: "Avropa Atlantikdən başlayıb Xəzərdə qurtarır. Fransa öz üzünü ayrı-ayrı xalqların qüvvələri nisbətində xüsusi yer tutan strateji bir ölkə kimi Azər-

Əliyev H.Ə. Ümumdünya Bankının təşkil etdiyi "Azərbaycan üçün investisiyalar" beynəlxalq konfransının açılış mərasimində çıxış. 5 dekabr 1995-ci il. - Müstəqilliyimiz əbədidir. V kitab, s.l 18-131.

[137] ARXINA. 1996.

baycana çevirir”'^^. Bu fikirlər Azərbaycan ilə münasibətlərə Fransanın verdiyi əhəmiyyəti göstərirdi.

Fransa ATƏT-in Lissabon zirvə görüşündə Azərbaycanın ədalətli mövqeyini müdafiə etdi. Bu zaman Azərbaycan - Fransa münasibətləri artıq yeni keyfiyyət mərhələsinin astanasında idi.

## Azərbaycan - Fransa münasibətlərində yeni mərhələ

Azərbaycan Respublikasının Prezidenti Fleydər Əliyev 1997-ci il yanvarın 13-15-də Fransaya rəsmi səfər etdi'^^. Fleydər Əliyev ilə danışıqlarda Fransa Prezidenti Jak Şirak"*® ölkəsinin Azərbaycana xüsusi maraq göstərdiyini və əməkdaşlığın genişləndirilməsinin vacib olduğunu vurğuladı. Heydər Əliyev Azərbaycan - Fransa münasibətlərinin tarixindən danışdı. 1993-cü ildə imzalanmış sənədlər iki ölkə arasında münasibətlərin əsasını təşkil edirdi. Heydər Əliyev daha sonra Azərbaycan üçün ən ağrılı problem olan Ermənistanın hərbi təcavüzü məsələsini gündəliyə gətirdi, Fransanın Azərbaycan ilə əlaqələrə xüsusi diqqət yetirməsinin əhəmiyyətini qeyd etdi’"*'. Lissabon sammitində Fransanın Azərbaycanın haqq işini müdafiə etdiyi üçün təşəkkür etdi. Zirvə görüşünün müəyyənləşdirdiyi prinsiplərə Azərbaycan sadiq idi. Fransa tərəfi Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərini boşaltmasını, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpa olunmasını vacib hesab edirdi. Jak Şirak Fransa ilə Emıənistan arasında münasibətlərin tarixinə diqqət yetirdi. Buna baxmayaraq, Fransanın Azərbaycan ilə bütün sahələrdə əməkdaşlığın möhkəmləndirilməsinə böyük maraq göstərdiyini və münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirdi. Fransa münaqişənin həllində yaxından iştirak etmək istəyirdi.

Fransa xarici işlər nazirinin şərəfinə. —“Xalq qəzeti”, Bakı, 1996, 15 oktyabr. Azərbaycan - Fransa; əməkdaşlığın genişlənməsinə mühüm töhfə. Bakı, 1997. Jak Şirak (1932) - görkəmli siyasi və dövlət xadimi. Baş Nazir (1974-1976, 1977-1986). Fransa Respublikasının 22-ci prezidenti (1995-2007).

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fransa Prezidenti Jak Şirak ilə görüşdə çıxışı. Paris, Yelisey sarayı, 13 yanvar 1997-ci il. - Sabaha doğru, s. 45.

Səfərin gedişində enerji sahəsində əməkdaşlığa dair mühüm sənəd imzalandı. Yanvarın 13-də ARDNŞ ilə Fransanın Elf Akiten və Total şirkətləri arasında "Lənkəran dəniz" və "Talış dəniz" neft yataqlarının işlə- nilməsinə dair 25 illik müddəti nəzərdə tutan müqaviləni ARDNŞ-in prezidenti Natiq Əliyev, Elf Akitenin prezidenti Filipp Jofre və Totalın prezidenti Tyerii de More imzaladılar. Bu müqavilə ilə hər iki ölkə əlaqələri dərinləşdirmək və genişləndirmək səylərini sübut edirdi

İmzalanma mərasimində Jak Şirak və Fleydər Əliyev bəyanatla çıxış etdilər. Jak Şirak müqavilənin Parisdə imzalanması faktını yüksək qiymətləndirərək onu iki ölkə arasında siyasi, iqtisadi və mədəni əlaqələrin möhkəmləndirilməsi istiqamətində atılmış addım adlandırdı"*^. Heydər Əliyev isə müqavilənin hər iki ölkənin iqtisadiyyatına böyük fayda gətirəcəyinə ümid ifadə etdi"*'*.

Həmin gün Heydər Əliyev Fransa Milli Məclisinin sədri Filip Se- gen ilə görüşdü. Görüşdə iki ölkə arasında parlamentlərarası əlaqələrə dair məsələlər müzakirə edildi. Azərbaycan Prezidenti Ermənistanın təcavüzünün nəticələrini diqqətə çatdırdı.

Daha sonra Azərbaycan Prezidenti Paris şəhərinin meri Jan Tieri ilə görüşərək hər iki paytaxt şəhər arasında əlaqələrin qurulmasına dair fikir mübadiləsi etdi. Bu barədə razılıq əldə olundu.

Heydər Əliyevin Fransanın maliyyə və xarici ticarət üzrə dövlət naziri İv. Qalan ilə görüşündə iki ölkə arasında enerji və iqtisadiyyat sahələrində imzalanan müqavilələrin həyata keçirilməsi məsələləri müzakirə edildi. Həmin görüşdən sonra Azərbaycan Prezidenti Fransa Beynəlxalq Münasibətlər İnstitutunda "Azərbaycan və Qafqaz XXI əsrin astanasında" mövzusunda mühazirə oxudu və iştirakçıların suallarına cavab verdi'"*^. O, mühazirəsində Azərbaycanın tarixi keçmişinə qısa nəzər yetirdi. Dağlıq Qarabağ münaqişəsinin başlanması, ATƏT-in Minsk qrupunun səyləri.

"■ Əliyev H.Ə. Azərbaycan Dövlət Neft Şirkəti ilə Fransanın Elf Akiten və Total şirkətləri arasında neft müqaviləsinin imzalanması mərasimində bəyanat. 13 yanvar 1997-ci il. - Müstəqilliyimiz əbədidir. VIII kitab, s.244.

Fransa Prezidenti Jak Şirakm bəyanatı. - Azərbaycan - Fransa; əməkdaşlığın genişlənməsinə mühüm töhfə, s.7-8.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəyanatı. - Azərbaycan - Fransa: əməkdaşlığın genişlənməsinə mühüm töhfə, s. 8-9.

Əliyev H.Ə. Fransa Beynəlxalq Münasibətlər İnstitutunda "Azərbaycan və Qafqaz XXI əsrin astanasında" mövzusunda mühazirə. 13 yanvar 1997-ci il. - Müstəqilliyimiz əbədidir. VIII kitab, s. 140.

ARDNŞ-in xarici neft şirkətləri ilə imzaladıqları neft müqavilələri və Azərbaycanın xarici siyasəti haqqında danışdı. Daha sonra Heydər Əliyev Fransanın Dacco Abieyşn şirkətinin prezidenti Serj Dacco, Fransa Ticarət-Sənaye Palatasının prezidenti Huber Flano ilə görüşərək iş adamlarını Azərbaycana sərmayə qoymağa dəvət etdi. Azərbaycan Prezidenti Ticarət-Sənaye Palatasının üzvləri qarşısında çıxış etdi. Bu görüş başa çatdıqdan sonra Total şirkətinin prezidenti Tyerri de More ilə görüşərək imzalanmış müqavilənin şərtlərinin yerinə yetirilməsinin zəruriliyini qeyd etdi"*®.

Azərbaycan Prezidenti yanvarın 14-də Fransa senatının sədri Rene Monori ilə görüşdü. Senatın sədrinin fikrincə, imzalanan sənədlər iki ölkə arasında münasibətlərin daha da yaxşılaşdırılmasında mühüm rol oynayacaqdı. Görüşdə iki ölkə arasında parlamentlərarası əlaqələrin inkişafının vacibliyi vurğulandı.

Heydər Əliyev yanvarın 14-də Fransanın sənaye, poçt və rabitə naziri Frank Borotra ilə görüşərək iki ölkə arasında sənaye və qabaqcıl texnologiya sahəsində əməkdaşlığın əhəmiyyətini vurğuladı. Həmin gün Parisdə Fransa - Azərbaycan Ticarət-Sənaye Palatasının açılış mərasimi oldu. Bu, iki ölkə arasında münasibətlərin inkişafında mühüm hadisə idi.

Yanvarın 14-də Fransa Xarici İşlər Nazirliyində iki ölkə arasında sənədlərin imzalanma mərasimi oldu. Hava əlaqələri, iki ölkə vətəndaşlarının bu ölkələrin ərazisində azad yurddəyişməsi haqqında sazişlər və mədəni əlaqələr haqqında birgə bəyanat imzalandı.

Sənədlərin imzalanma mərasimindən sonra Heydər Əliyev Fransanın xarici işlər naziri Erve de Şarett ilə görüşdü. Azərbaycan Prezidenti iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi, Ermənistanın təcavüzünün nəticələri, Fransanın səylərinin artırılması haqqında məsələləri qaldırdı. Azərbaycan tərəfi Fransanın Cənubi Qafqaz siyasətinin fəallaşdırılmasmı arzu edirdi.

Heydər Əliyev yanvarın 15-də Fransa işgüzar dairələrinin nümayəndələri ilə görüşdü. Görüş isti bir mühitdə keçdi. Etdiyi çıxışında Azərbaycan Prezidenti onları ölkəsinə sərmayə qoymağa dəvət etdi.

Azərbaycan Prezidentinin Fransaya səfərinin böyük əhəmiyyəti var idi. İmzalanan sənədlər iki ölkə arasında münasibətlərin maddi və hüquq- müqavilə əsaslarını möhkəmləndirirdi. Neft müqaviləsi Azərbaycan iqtisadiyyatının böhrandan çıxarılmasına, iki ölkə arasında əlaqələrin güc-

Əliyev H.Ə. Fransa Ticarət-Sənaye Palatasında keçirilən görüşdə çıxış. 14 yanvar 1997-ci il. - Müstəqilliyimiz əbədidir. VIII kitab, s.258-267.

ləndirilməsinə yönəlmiş addımlardan biri idi. Səfər zamanı Fransa və bu ölkədə akkreditə olunmuş ölkələrin kütləvi informasiya vasitələrinə verilən müsahibələr Azərbaycan, xüsusən Dağlıq Qarabağ münaqişəsi haqqında obyektiv məlumatın yayılmasına kömək edirdi. Bu səfər münasibətlərə dinamizm verirdi. Fransa rəsmi dairələri Azərbaycan ilə əməkdaşlığın əhəmiyyətini daha yaxından anlamağa başladılar. Əməkdaşlıq genişlənirdi.

Siyasi münasibətlərin inkişaf etdirilməsinə xarici işlər naziri Erve de Şarettin həmin il aprelin 1-də Bakıya səfəri iki ölkə arasında təkan verdi. Qarşılıqlı əlaqələr daha da artdı. Münasibətlərin müqavilə-hüquq əsasları möhkəmləndirildi. İyunun 19-da Azərbaycan Respublikası hökuməti ilə Fransa Respublikası hökuməti arasında hava əlaqəsi, noyabrın 28-də ərzaq yardımının edilməsi haqqında saziş, ərzaq yardımından əldə edilən ekvivalent fondun tətbiqi. Birləşmiş Millətlərin "World Food Proqramme" və qeyri-hökumət təşkilatı "Ekilibr" arasında ərzaq yardımından əldə edilən ekvivalent fonda rəhbərlik haqqında konvensiyalar, dekabrın 2-də Azərbaycan Respublikası hökuməti və Fransa Respublikası hökuməti arasında maliyyələşdirmə haqqında protokol imzalandı.

1998-ci il ikitərəfli münasibətlərin möhkəmləndirilməsi ilə səciyyələndi. Belə ki, avqustun 31-də Bakıda Azərbaycan - Fransa iqtisadi komissiyasının 1-ci iclasında Sumqayıtda polipropilen zavodunun tikintisi, Gəncə avtomobil zavodunda Reno markalı yük avtomobillərinin istehsalı, Bakıda Oftalmologiya Mərkəzinin istifadəyə verilməsi və s. məsələlər müzakirə edildi. Komissiyanın iclasının sonuncu günü, sentyabrın 1-də Azərbaycan Respublikası hökuməti ilə Fransa Respublikası hökuməti arasında investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında saziş, Azərbaycan Respublikası - Fransa Respublikası iqtisadi komissiyasının iclasının protokolu imzalandı.

Bütün bunlar qarşılıqlı münasibətlərin maddi təməllərini möhkəmləndirir, Fransanın ATƏT-in Minsk qrupunun üzvü kimi səylərinin artırılmasına müəyyən təsir edirdi. Qeyd etmək lazımdır ki, Ermənistan bu dövrdə vaxt udmağa və münaqişənin həllini uzatmağa çalışırdı. Belə vəziyyət Azərbaycam qane edə bilməzdi. Ona görə də, Azərbaycanın xarici işlər naziri Tofiq Zülfüqarovun 1999-cu il fevralın 1-2-də Fransaya səfəri zamanı Dağlıq Qarabağ münaqişəsinin həlli yolları, Minsk qrupunun təklifləri, Ermənistanın danışıqlardan qaçması və Azərbaycanın mövqeyinə dair məsələlər müzakirə edildi.

Azərbaycan tərəfi Fransanın təşəbbüsü ilə edilən dinc nizamasalma prosesinə də tərəfdar idi. Heydər Əliyev 1999-cu il aprelin 24-də Jak Şirak ilə görüşərək Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli yolları məsələsini müzakirə etdi və Minsk qrupunun həmsədri kimi Fransanın rolunun artırılmasını xahiş etdi.

Bundan sonra Fransa tərəfi yeni təşəbbüslər etdi. Fransa senatının sədri Kristian Ponselenin başçılıq etdiyi nümayəndə heyəti 1999-cu il iyulun 22-də Azərbaycana səfər etdi. Səfər zamanı nümayəndə heyəti Milli Məclisdə və Xarici İşlər Nazirliyində görüşlər keçirdi. Senatın sədrini Heydər Əliyev qəbul etdi. Görüşdə ikitərəfli münasibətlərin inkişaf yoluna nəzər yetirildi. K.Ponsele keçirdiyi görüşləri zəngin xarakterli olaraq qiymətləndirdi. Avropanın bir hissəsi kimi Azərbaycan ilə əməkdaşlığa ölkəsinin böyük əhəmiyyət verdiyini qeyd etdi. Avropa Şurasına Azərbaycanın tam hüquqlu üzv qəbul edilməsinə Fransanın dəstək verəcəyini vurğuladı. K.Ponsele Azərbaycan, Gürcüstan və Ermənistan parlament sədrlərinin Parisdə görüşünün keçirilməsinə razılıq verilməsini xahiş etdi. Azərbaycan ilə Ermənistan arasında sülh yaradacaqlarına çalışacaqlarını dedi.

Heydər Əliyev ölkədə aparılan islahatlar, neft müqavilələri, Ermənistanın Azərbaycana təcavüzünün nəticələri və Minsk qrupunun səyləri barədə danışdı. Azərbaycan Prezidenti üç Cənubi Qafqaz respublikası parlamentləri sədrlərinin Parisdə görüşünün keçirilməsi ideyasım qəbul etdi'^'.

İstanbulda ATƏT-in zirvə görüşündə 1999-cu il noyabrın 18-də Heydər Əliyev Jak Şirak ilə görüşərək Xəzər dənizinin enerji daşıyıcılarının birgə işlənilməsində Fransa ilə əməkdaşlığı yüksək qiymətləndirdi. Fransa Prezidenti iki ölkə arasında əməkdaşlıq və Minsk qrupu çərçivəsində münaqişənin həlli üçün ölkəsinin səylərini artıracağını bildirdi.

Azərbaycanın Avropa Şurasına üzvlüyü münasibəti ilə keçirilən tədbirlərdə iştirak etmək üçün Heydər Əliyev 2001-ci il yanvarın 23-27-də Fransaya rəsmi səfər etdi"’’*. Yanvarın 24-də Heydər Əliyev və Jak Şirak

Əliyev H.Ə. Fransa senatının prezdenti Kristian Ponsele və onun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdəki söhbət. 22 iyul 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXI kitab, s. 44 -58.

Azərbaycan Prezidenti Heydər Əliyevin Fransaya rəsmi səfəri. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s.96-101.

arasında görüş oldu"*^. Fransa Prezidentinin fikrincə, bu səfər iki ölkə arasında qarşılıqlı faydalı əlaqələrin daha da möhkəmləndirilməsinə yeni güclü təkan verəcəkdi. O, Azərbaycanın Avropa Şurasına üzv olmasını, ölkədə insan hüquqlarının qorunmasını, demokratiyanın möhkəmlənməsini və daim inkişafda olmasını müsbət qiymətləndirdi.

Görüşdə Dağlıq Qarabağ münaqişəsinin həlli yolları müzakirə edildi. Fransa Prezidenti münaqişənin aradan qaldırılması üçün kompromislərin tapılması naminə Ermənistan və Azərbaycan prezidentlərinin müntəzəm görüşlərinin keçirilməsinin əhəmiyyətini vurğuladı. Minsk qrupunun həmsədri kimi Fransa problemin həllinin tarazlı xarakter daşımasına və hər iki tərəf üçün məqbul olmasına çalışacaqdı'^®. Jak Şirak Fransanın münaqişənin həllində səylərini artıracağını bildirdi. O, iki ölkə arasında iqtisadi əməkdaşlığı əhəmiyyətli hesab edirdi. Fransa Prezidenti ölkəsinin Azərbaycana daim maraq göstərdiyini qeyd etdi, enerji və qeyri-neft sektorunda əməkdaşlıq barədə danışdı.

İki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının gücləndirilməsi məsələləri də müzakirə edildi. Heydər Əliyev Fransa parlamentində uydurma "erməni soyqırımı" ilə bağlı qəbul edilən sənədlərə mənfi münasibətini bildirərək tənqidi fikirlərini söylədi'^'. Jak Şirak bunun Azərbaycan ilə Fransa arasında dostluğa və qardaşlığa əsla xələl gətirməyəcəyini, özünün Türkiyənin dostu olduğunu, bu dostluğun qurulmasında çox işlər gördüyünü bildirdi.

Fransa tərəfi Azərbaycan və Ermənistan prezidentlərinin görüşünün keçirilməsini təklif etdi. Azərbaycan bu təklifi qəbul etdi. Azərbaycan Prezidenti ATƏT-in Minsk qrupu formatında Dağlıq Qarabağ münaqişəsinin həlli yollarını Ermənistan Prezidenti ilə müzakirə etmək məqsədilə 2001-ci il martın 4-6-da Fransaya işgüzar səfər etdi. Lakin Parisdə Marini sarayında keçirilən görüş nəticəsiz başa çatdı.

Azərbaycan ilə Fransa arasında iqtisadi əlaqələr genişlənirdi. Baş Nazir Artur Rasizadə 2001-ci il dekabrın 19-21-də hökumətlərarası iqtisadi komissiyanın işində iştirak etdi. Müzakirələrin nəticəsində Azərbaycan Respublikası hökuməti ilə Fransa Respublikası hökuməti arasında iki-

Azərbaycan Prezidenti Heydər Əliyev ilə Fransa Prezidenti Jak Şirakın görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi, 2001. 1 hissə, s. 97-100.

Fransa Prezidenti Jak Şirakın bəyanatı. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s.lOO.

Yenə orada, s.lOO; Azerbaycan, daima Türkiyenin yanında. - "Hürriyet" gazetesi, İstanbul, 2001, 30 Ocak.

qat vergitutmanın aradan qaldırılması, gəlir və kapitala görə vergiləri ödəməkdən yayınmanın qarşısının alınması haqqında konvensiya, Azərbaycan - Fransa birgə ikitərəfli komissiyanın ikinci iclasının protokolu imzalandı. Protokolda iki ölkə arasında əməkdaşlığın vəziyyətinin və sərmayə mühitinin yaxşılaşdırılması qeyd edilirdi'^^.

İki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 10 ili 2002-ci ilin fevral ayında tamam oldu. Bu münasibətlə xarici işlər naziri Vilayət Quliyev fevralın 6-də Fransanın xarici işlər nazirinə bir məktub yazdı. Məktubda Azərbaycanın Avroatlantika strukturlarına inteqrasiyasında Fransanın dəstəyinə yardım etməsinə ümid ifadə olunur, Fransanın Azərbaycanı tanıyan və onunla diplomatik əlaqələr quran ilk ölkələrdən biri olduğu qeyd edilir. Cənubi Qafqazda sabitlik və sülhün bərqərar olunması, region xalqlarının inkişafı və dünya birliyinə tezliklə qovuşması naminə Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və onun ətrafındakı münaqişənin sülh yolu ilə həllində, Ermənistanın Azərbaycana qarşı təcavüzünün aradan qaldırılmasında Minsk qrupunun həmsədri kimi Fransanın dəstəyinə ümid bildirilirdi'^^.

İki ölkə arasında energetika sahəsində əməkdaşlığın dərinləşdirilməsində 2002-ci il aprelin 17-20-də energetika naziri M.Kərimovun Parisə səfəri mühüm yerlərdən birini tutdu. Fransa hökuməti gələcək enerji siyasəti ilə bağlı açıq, plüralist və demokratik müzakirələr keçirilməsini vacib və zəruri hesab edirdi. Belə fakt diqqəti cəlb edirdi ki, Fransa istifadə etdiyi enerjinin yarısını özü istehsal edirdi. Nefti olmayan, qaz ehtiyatları tükənməkdə olan və getdikcə kömür istehsalını artıran bir ölkə üçün bu yaxşı göstərici hesab olunurdu. Bunda ölkənin nüvə və su elektrik stansiyalarının da rolu böyük idi. Enerjiyə olan tələbatın yarısı idxal olunan neftin və qazın hesabına ödənilirdi’^'*.

İqtisadi əməkdaşlıq üzrə Azərbaycan - Fransa hökumətlərarası iqtisadi komissiyasının üçüncü iclası 2003-cü il mayın 13-14-də keçirildi. Baş Nazir Artur Rasizadə və Fransanın xarici iqtisadiyyat naziri F.Loos ko-

Azərbaycan - Fransa birgə ikitərəfli komissiyasının ikinci iclasının protokolu. 20 dekabr 2001-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. II hissə, s.40-43.

ARXİNA. 02.01.2002 -28.02.2003. Qovluq XaN, v. 26.

ARXİNA. 01.04.2003-11.04.2003. Qovluq X28, v.85-87.

missiyanın üçüncü iclasının yekun protokolunu imzaladılar'^^. Protokola görə, Azərbaycana 35 mln. avro məbləğində kredit ayrılırdı. Fransa hökuməti Naxçıvan və Gəncə hava limanlarının uçuşlara nəzarət avadanlığı ilə təmin edilməsi məqsədi ilə 14880 min avro məbləğində kredit ayrılmasına razılıq verirdi. Qeyd etmək lazımdır ki, 2002-ci illə müqayisədə iki ölkə arasında ticarət dövriyyəsi 2003-cü ildə 60% artmışdı'^^. Bu, qarşılıqlı münasibətlərin inkişaf dinamikası ilə bərabər onun maddi təməllərinin möhkəmləndiyini göstərirdi.

Azərbaycan - Fransa əlaqələrində 1990-cı illərdən sonra təsis edilmiş Azərbaycan evi assosiasiyası, Azərbaycanla mədəni əlaqələr cəmiyyəti, Fransada azərbaycanlı tələbələr assosiasiyası, Azərbaycan - Fransa azad mübadilələr assosiasiyası. Təhsil və tədqiqatların inkişafı üzrə Fransa - Azərbaycan tələbə assosiasiyası, Azərbaycan - Fransız gənclik assosiasiyası mühüm rol oynayırdı. Bütün bunlar iki ölkə arasında münasibətlərdə yeni mərhələnin başlanğıcı üçün təməllər hazırlamışdı.

## İTALİYA RESPUBLİKASI İLƏ MÜNASİBƏTLƏRİN QURULMASI VƏ İNKİŞAFI

### İlk əlaqələr

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının münasibətlər qurduğu Avropa ölkələrindən biri İtaliya Respublikası oldu. İtaliya Azərbaycanın dövlət müstəqilliyini 1992-ci il yanvarın 1-də t a n ı d ı M a y ı n 8-də isə iki ölkə arasında diplomatik əlaqələr quruldu'^*. İyulun 21-də Rüfət Ağayevin Azərbaycan Respublikasının İtaliya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında fərman i m z a l a n d ı L a k i n bu təyinat baş tutmadı.

Azərbaycanın İtaliya ilə əlaqələrə xüsusi diqqət yetirməsinin bir sıra səbəbləri var idi. Hər şeydən əvvəl, hələ orta əsrlərdə iki ölkə arasında

^ Azərbaycan - Fransa iqtisadi komissiyasının üçüncü iclasının protokolu. Bakı, 13-14 may 2003-cü il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2004. II hissə, s. 124-127.

Yenə orada, s. 124.

ARXİNA. 2008.

Kərimov E.Z. Azərbaycan - İtaliya əlaqələri, s.96.

ARXİNA. 1992.

əlaqələr mövcud olmuşdu. Çar Rusiyasının hakimiyyəti altında olan zaman Azərbaycana İtaliya kapitalı qoyulmuşdu. Azərbaycan Xalq Cümhuriyyəti illərində iki ölkə arasında müstəqil əlaqələr qurulmuşdu. Paris sülh konfransının qərarı ilə Azərbaycan üzərində mandat İtaliyaya verilmişdi. Lakin həmin mandat reallaşdırılmamışdı. Azərbaycanda İtaliya nümayəndəliyi fəaliyyət göstərmişdi. Bolşeviklər tərəfindən işğal edildikdən sonra da Azərbaycanda İtaliya nümayəndəliyi və şirkətləri işləyirdi. İkinci dünya müharibəsi illərində azərbaycanlılar İtaliyada partizan hərəkatında iştirak etmişdilər. Azərbaycan sovet hakimiyyəti altında olarkən mərkəz vasitəsi ilə İtaliya ilə əlaqələr saxlamışdı. Bakı ilə Neapol arasında qardaşlaşmış şəhərlər əlaqələri qurulmuşdu’™.

Avropanın böyük və iqtisadi cəhətdən inkişaf etmiş ölkələrindən biri, Avropa İttifaqı, NATO və Avropa Şurasının üzvü olaraq İtaliya qitənin həyatına ciddi təsir edirdi. İtaliya Dağlıq Qarabağ münaqişəsi üzrə Minsk konfransının sədri idi.

Bakı şəhər icra hakimiyyətinin nümayəndə heyəti iqtisadi əlaqələri qurmaq məqsədi ilə 1992-ci ilin dekabrında İtaliyaya səfər etdi’^'. 1993-cü ilin iyun ayında baş nazirin müavini Əli Məsimovun rəhbərliyi altında nümayəndə heyəti İtaliyaya səfər edərək ikitərəfli ticarət-iqtisadi əlaqələrin qurulub genişləndirilməsi məsələlərini müzakirə etdi. Qeyd etmək lazımdır ki, Azərbaycan İtaliyadan toxuculuq sənayesi malları, ərzaq məhsulları və xalq istehlakı malları alırdı. İtaliyaya isə neft sənayesi məhsulları, əlvan metallar, kimya və neft kimyası, maşınqayırma və s. malları göndərirdi. İki ölkə arasında ticarət-iqtisadi əlaqələrdə 1992-ci ildə Azərbaycanın idxalı 4838, 4 dollar, ixracı 18988, 1 dollar idisə, 1993-cü ilin yanvar-iyun aylarında idxal 1233,9 dollar, ixrac isə 11500,9 dollar təşkil edirdi'™.

Bununla belə, 1993-cü alədək iki ölkə arasında əlaqələr zəif idi. Yalnız ilk addımlar atılırdı. 1995-ci ildən etibarən Azərbaycan İtaliyanın Acip şirkəti ilə əməkdaşlıq etməyə başladı.

İtaliyanın Azərbaycanda səfirliyi yalnız 1997-ci ilin mart ayında açıldı. Alessandro Fallovollita İtaliyanın Azərbaycan Respublikasındakı ilk fövqəladə və səlahiyyətli səfiri təyin edildi.

Qasımov (Qasımlı) M. Bəşəriyyətin sağ qalması naminə. Bakı, 1991, s. 56; facbiMJibi M. A3ep6aH/ı>KaH в MeiKayHapottHbix KyjifarypHbix CBaaax (1946-1990 rr.). TÖHJIHCH, 2005, c. 242.

Qasımlı M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər), s. 57.

Yenə orada.

## Yeni mərhələnin başlanması

Münasibətlərin inkişafında yeni mərhələnin başlanğıcını 1997-ci il sentyabrın 24-27-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İtaliyaya rəsmi səfəri qoydu. Bu, Azərbaycan Prezidentinin İtaliyaya ilk rəsmi səfəri idi. Səfərdə başlıca məqsəd iki ölkə arasında əlaqələri inkişaf etdirmək idi. Azərbaycan İtaliya ilə münasibətlərin inkişafına böyük əhəmiyyət verir, ona Avropanın böyük demokratik ənənələrə, inkişaf etmiş iqtisadiyyata malik dövləti, əməkdaşlıq üçün çox yaxşı tərəfdaş kimi baxırdı.

Azərbaycan Prezidentinin İtaliyaya səfərinin zəngin proqramı tərtib edilmişdi. O, eyni zamanda Roma Papasının dəvəti ilə Vatikana da rəsmi səfər edəcəkdi. Bunların hamısı bir ümumi məqsədə xidmət edirdi: Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq.

İtaliya ilə əlaqələri inkişaf etdirməkdə əsas məqsədlərdən biri Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə daha çox ölkələri cəlb etmək idi. Məlum olduğu kimi, 1992-1993-cü illərdə İtaliya Minsk konfransının sədri olmuşdu və Minsk qrupunun üzvü idi"“.

İtaliya Respublikasının Prezidenti Oskar Luiçi Skalfaro’^ ilə danışıqlarda Heydər Əliyev Azərbaycanın daxili və xaricindən doğan çətinliklərinə baxmayaraq, ölkəsinin İtaliya ilə əlaqələrə xüsusi diqqət verdiyini vurğuladı, ölkədə sosial-iqtisadi və siyasi sahədə aparılan islahatlardan söz açdı. Azərbaycanın yalnız böyük bir probleminin olduğunu vurğuladı. Bu da Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi idi. Azərbaycan Prezidenti Ermənistanın təcavüzünün nəticələri barədə danışdı'®^.

Sentyabrın 25-də Acip ilə ARDNŞ arasında “Kürdaşı” blokunun kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında sazişin əsas kommersiya prinsipləri və müddəalarına dair sənəd imzalandı. Bu, iki ölkə

Əliyev H.Ə. İtaliyaya rəsmi səfərə yola düşməzdən əvvəl Binə hava limanında jurnalistlərin suallarına cavab. 25 sentyabr 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XII kitab, s. 179-180.

Oskar Luiçi Skalfaro (1918) - İtaliya Prezidenti (1992-1999).

Əliyev H.Ə. İtaliya Respublikasının Prezidenti Oskar Luiçi Skalfaro ilə tək-bətək görüşdə söhbətdən. 25 sentyabr 1997-ci il. Müstəqilliyimiz əbədidir. XII kitab, s. 181-185.

arasında qarşılıqlı münasibətlərin möhkəmləndirilməsində mühüm addım idi.

İtaliyanın Baş Naziri Romano Prodi"“ ilə danışıqlarda Azərbaycan Prezidenti ölkəsinin İtaliya ilə əlaqələrə xüsusi əhəmiyyət verdiyini diqqətə çatdırdı, münasibətləri inkişaf etdirmək üçün böyük imkanların olduğunu vurğuladı. Azərbaycanın xarici neft şirkətləri ilə imzaladığı müqavilələr, Ermənistanın təcavüzü barədə danışdı, ölkəsinin İtaliya ilə əlaqələri genişləndirməkdə maraqlı olduğunu bildirdi

Danışıqların sonunda Heydər Əliyev və Romano Prodi iki bəyannamə imzaladılar. Bunlardan biri siyasi, digəri isə iqtisadi məsələlərə aid idi. Həmin sənədlər iki ölkə arasında münasibətlər üçün yaxşı təməl, normativ-hüquqi baza yaradırdı. Sənədlərdə siyasi, iqtisadi, mədəni və humanitar əməkdaşlığın prinsipləri əksini tapmışdı.

Siyasi bəyannaməyə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmək, Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini Lissabon zirvə toplantısında qəbul olunmuş üç prinsip əsasında dinc yolla aradan qaldırmaq zəruriliyinə dair müddəalar daxil edilmişdi. Bu, İtaliyanın münaqişənin dinc yolla həllində mövqeyinin dəyişməz olduğunu göstərirdi.

İtaliya senatının sədri Nikola Mançino ilə görüşən Heydər Əliyev Azərbaycanın planlı təsərrüfat illərində iqtisadiyyat sahəsində böyük uğurlar qazandığını xatırlatdı, dövlət müstəqilliyinin bərpasından sonra ölkədə aparılan islahatlar barədə danışdı’®*. Qısa müddət ərzində qurulmasına baxmayaraq, Azərbaycan ilə İtaliya arasında əlaqələr inkişaf edirdi. İtaliya şirkətləri Azərbaycanda fəaliyyətə başlamışdılar. Azərbaycan Prezidenti xüsusi olaraq Ermənistanın təcavüzü üzərində dayanaraq konkret fakt və rəqəmlər əsasında təcavüzün vurduğu ziyanlardan danışdı.

Daha sonra Heydər Əliyev İtaliya deputatlar palatasının sədri Luçiano Violante’®^ ilə görüşərək parlamentlərarası əlaqələrin qurulması-

Romano Prodi (1939) - İtaliya Nazirlər Şurasının sədri (1996-1998; 2006- 2008). Avropa Komissiyasının sədri (1999-2004).

Əliyev H.Ə. İtaliya hökumətinin Baş Naziri Romano Prodi ilə görüşdə söhbətdən. 25 sentyabr 1997-ci il. — Müstəqilliyimiz əbədidir. XII kitab, s. 190-193.

Əliyev H.Ə. İtaliya parlamenti senatının rəhbəri Nikola Mancino ilə söhbətdən. 25 sentyabr 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XII kitab, s. 194-196.

Luçiano Violante (1941) — İtaliya parlamenti deputatlar palatasının sədri (1996-2001).

na dair məsələləri müzakirə etdi'™. Belə əlaqələrin qurulması ikitərəfli münasibətlərin inkişafı və Avropa Şurası, habelə Avropa İttifaqı çərçivəsində əməkdaşlıq üçün zəruri idi.

Luiçano Violante vəzifəsi Azərbaycan ilə Avropa İttifaqının üzvü olan dövlətlər və ona yaxın, yaxud uzaq zamanlarda daxil olacaq namizəd ölkələr arasında qarşılıqlı fəaliyyətə kömək etməkdən ibarət olan Avropa təşəbbüs mərkəzi arasında əməkdaşlığa dair təklif etdi. Bu təklif Azərbaycan Prezidenti tərəfindən müsbət qarşılandı. Luiçano Violantenin həmçinin təcrübə mübadiləsi, parlament komissiyaları arasında görüş keçirmək və danışıqlar aparmaq üçün hər iki ölkənin parlamentlərinin vəzifəli şəxsləri arasında müntəzəm münasibətlər qurmaq haqqında irəli sürdüyü təşəbbüsü də Heydər Əliyev razılıqla qarşıladı. İtaliya parlamentinin Qafqaz qrupu ilə əməkdaşlığa və bu qrup nəzdində Azərbaycan üzrə məsul şəxsin təyin edilməsi barədə təklifə də Heydər Əliyev tərəfdar oldu.

İtaliyanın Texnekol kimya şirkətinin rəhbərləri, Eni korporasiyasının direktorlar şurasının sədri Ulyelmo Moskota, alüminium istehsalı ilə məşğul olan Fata şirkətinin prezidenti Qaetano Di Roza, Roma şəhərinin meri Françesko Rutelli, Neapol şəhərinin meri Bassolini ilə keçirilən görüşlər qarşılıqlı faydalı münasibətlərin möhkəmləndirilməsi məqsədi güdürdü.

Sentyabrın 25-də Azərbaycan Respublikası və İtaliya Respublikası arasında münasibətlərin prinsiplərinə dair birgə bəyannamə, iki ölkə hökuməti arasında hava əlaqələri, investisiyaların təşviqi və qorunması, turizm sahəsində əməkdaşlıq haqqında sazişlər, 1997-1998-ci illərdə ikitərəfli texniki əməkdaşlıq haqqında anlaşma memorandumu, iqtisadi, mədəniyyət, elm və texnologiya sahəsində əməkdaşlıq haqqında birgə bəyannamələr imzalandı.

Azərbaycan Prezidentinin İtaliyaya səfərinin və keçirdiyi danışıqların böyük əhəmiyyəti var idi. Səfər qarşılıqlı münasibətlərin inkişafında yeni mərhələ açır və əməkdaşlıqda mühüm rol oynayırdı. Azərbaycan Respublikası Prezidentinin İtaliya kütləvi informasiya vasitələrinə verdiyi müsahibələr ölkə haqqında həqiqətlərin dünyaya çatdırılması baxımından faydalı idi. Azərbaycan və İtaliya yüksək səviyyədə siyasi dialoqun inkişaf etdirilməsində, qanunvericilik və icra hakimiyyəti orqanları arasında

Əliyev H.Ə. İtaliya deputatlar palatasının sədri Lüçiano Violante ilə görüşdə söhbətdən. 25 sentyabr 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XII kitab, s. 197- **200.**

əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını göstərdilər. Onlar BMT nizamnaməsinin prinsiplərini rəhbər tutaraq, beynəlxalq hüququn hamıhqla tanınmış prinsipləri və normaları, dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərin toxunulmazlığı əsasında Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini vacib hesab edirdilər.

## İki ölkə arasında münasibətlərin maddi təməlləri möhkəmləndirilir

Bu səfərdən sonra Azərbaycan ilə İtaliya arasında ticarət-iqtisadi əməkdaşlıq genişləndi. Azərbaycandan xam neft və neft məhsullarının ixracının istiqamətləndiyi əsas ölkə kimi İtaliya ən iri ticarət tərəfdaşına çevrildi. İtaliya işgüzar dairələri Azərbaycanda həyata keçirilən bəzi beynəlxalq əhəmiyyətli layihələrdə iştirak etməyə, eyni zamanda bir sıra böyük, eləcə də orta və kiçik həcmli şirkətlər fəal şəkildə Azərbaycanın qeyri-neft sektoruna sərmayələr qoymağa başladılar.

Azərbaycan ilə İtaliya arasında mədəniyyət, təhsil və elm sahələrində əməkdaşlıq genişləndi. İki ölkənin təhsil nazirlikləri, elmi-tədqiqat institutları, ali məktəbləri əməkdaşlığı və tələbə mübadiləsini artırdılar.

Qarşılıqlı maraqları əhatə edən məsələlərə dair müzakirələr genişləndi. 1998-ci ilin iyun ayında İtaliyanın sənaye naziri P. Bersani Bakıya səfəri çərçivəsində birgə müəssisələrin qurulmasına və fəaliyyətinə dair müzakirələr apardı. İtaliya xarici işlər nazirinin müavini P.Fassinonun Azərbaycana səfəri çərçivəsində oktyabrın 1-də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə İtaliya Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında protokol imzalandı.

Növbəti ildə də belə əlaqələr intensivləşdi. 1999-cu ilin aprelində xarici işlər nazirinin müavini Martellinin Azərbaycana səfəri zamanı, aprelin 14-də Azərbaycan Respublikası hökuməti və İtaliya Respublikasının Azərbaycandakı səfirliyi arasında İtaliya - Azərbaycan Qarşılıqlı Balans Fondunun yaradılması və işlədilməsi haqqında niyyət memorandumu imzalandı.

İki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 10 illiyi 2002-ci ilin aprel ayında tamam oldu. Bu münasibətlə xarici işlər naziri Vilayət Quliyev aprelin 18-də İtaliya Respublikası Nazirlər Kabinetinin sədri və xarici işlər nazirinin səlahiyyətlərini icra edən Silvio Berlusko-

niyə[471] məktub göndərdi'^". Məktubda ötən on ildə ikitərəfli münasibətlərin inkişaf etdiyi və xalqlar arasında əlaqələrin yaxşılaşdığı qeyd edilir, Azərbaycan ilə İtaliya arasında əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi məqsədi ilə yüksək səviyyəli dövlət rəsmilərinin qarşılıqlı səfərlərinin təşkili, nazirliklər arasında mütəmadi məsləhətləşmələrin keçirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın davam etdirilməsi və hüquq-müqavilə bazasının genişləndirilməsi məqsədəuyğun hesab edilirdi. İtaliyanın Azərbaycana Avropa və Avroatlantik qurumlarına, dünya iqtisadiyyatına inteqrasiyasına yardımının vacibliyi vurğulanır. Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində dəstəyinə ümid ifadə edilirdi.

2002-ci il iyunun 1-də Bakıda Azərbaycan Respublikası hökuməti və İtaliya Respublikası hökuməti arasında mədəniyyət, elm və texnologiya sahəsində əməkdaşlıq haqqında saziş imzalandı. Bu sənəd əməkdaşlığa yeni keyfiyyət halı verirdi.

## Yeni addımlar

Qarşılıqlı münasibətlərin inkişafı hər iki tərəfin maraqlarına uyğun olduğundan onun dərinləşdirilməsinə ehtiyac duyulurdu. 2003-cü il martın 1- də İtaliyada Azərbaycanın səfirliyinin təsis edilməsi haqqında qanun qüvvəyə mindi'^^. Avqust ayında Azərbaycan missiyası Romaya gəldi. Azərbaycan Respublikasının İtaliya Respublikasındakı ilk fövqəladə və səlahiyyətli səfiri olan Elmar Məmmədyarov'""* dekabrın 17-də etimadnaməsini Prezident Karlo Azelio Çampiyə təqdim etdi.

Müasir sənaye potensialı, zəngin mədəni, elmi-texnoloji imkanları, eləcə də Avropa İttifaqının əsas dövlətlərindən biri olan İtaliya Azərbaycan üçün böyük əhəmiyyətə malikdir. İtaliya Cənubi Qafqaz ölkələri ilə münasibətlərində Azərbaycana xüsusi əhəmiyyət verərək onu zəngin kar-

Silvio Berluskoni (1936) - İtaliyanın xarici işlər naziri (2002). İqtisadiyyat və maliyyə naziri (2004). Nazirlər Şurasının sədri (1994-1995; 2001-2006; 2008- 2011). Səhiyyə naziri (2006).

ARXINA. 2002. Qovluq XsN, v. 152.

Azərbaycan Respublikasının İtaliya Respublikasında (Roma şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının qanunu. 1 mart 2003- cü il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. II hissə, s.63.

Elmar Məmmədyarov (1960) - Azərbaycan diplomatı. İtaliyada səfir (2003- 2004). Xarici işlər naziri (2004-cü ildən).

bohidrogen ehtiyatları olan bir məmləkət, eləcə də Orta Asiyaya və ümumiyyətlə, Şərqə açılan əhəmiyyətli coğrafi-siyasi məkan kimi dəyərləndirirdi. Elə bu səbəbdən də İtaliya Cənubi Qafqazda səfirliyini məhz ilk olaraq Azərbaycanda təsis etmişdi.

İki ölkə arasında parlament əməkdaşlığı da quruldu. 2003-cü il iyunun 6-10-da ikitərəfli parlamentlərarası dostluq qrupunun italiyalı həmsədri, eyni zamanda senatın xarici əlaqələr və mühacirət komitəsinin rəhbəri Fiorello Proveranm Azərbaycana səfəri zamanı ikitərəfli əlaqələri genişləndirmək istəyi ifadə edildi’’^. Parlamentlərarası əlaqələr intensivləşdi.

İki ölkə arasında ticarət-iqtisadi əlaqələr də genişləndi. Belə ki, 2002-ci ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 1,1 milyard ABŞ dollarından çox, 2003-cü ildə isə təxminən 1,2 milyard dollar idi. Bu da Azərbaycanın ümumi xarici ticarət dövriyyəsinin müvafiq olaraq 2002- ci ildə 29%-ni, 2003-cü ildə isə təqribən 26%-ni təşkil edirdi''^. Azərbaycandan İtaliyaya ixrac olunan xam neft və neft məhsullarının bir hissəsi ölkəyə daxil olur, digər hissəsi isə limanlardan dünya bazarlarına gedirdi.

Ümumiyyətlə, 1991-2003-cü illərdə Azərbaycan - İtaliya münasibətləri inkişaf etmiş və qarşılıqlı fayda vermişdir. İki ölkə arasında müzakirə edilən əsas məsələlər Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli, münasibətlərin maddi təməllərinin möhkəmləndirilməsi, enerji sahəsində əməkdaşlıq, parlamentlər arasında əlaqələrin genişləndirilməsi, Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinə İtaliyanın yardımı və s. olmuşdur.

## VATİKAN ILƏ MÜNASİBƏTLƏR

Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa edildikdən sonra münasibətlərin qurulduğu ölkələrdən biri Vatikan oldu. Vatikan 1992- ci il mayın 23-də Azərbaycanın dövlət müstəqilliyini tanıdı'^’. İki ölkə arasında diplomatik əlaqələr 1994-cü il yanvarın 9-da quruldu.

Kərimov E.Z. Azərbaycan - İtaliya əlaqələri, s. 105.

Azərbaycanın İtaliyadakı səfiri Elmar Məmmədyarov ilə müsahibə. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2004, yanvar-mart, ffs6, s.l 19.

’’’ Azərbaycan Respublikası ilə Vatikan arasında münasibətlərə dair arayış. 1992-2008.-ARXİNA. 2008.

Azərbaycan tərəfinin Vatikan ilə münasibətlərin inkişafına xüsusi diqqət yetirməsinin bir sıra səbəbləri var idi. Vatikan katolik dünyasının mərkəzi hesab edilirdi. Roma Papası beynəlxalq həyatda kifayət qədər nüfuz sahibi idi. Ərazisi və əhalisinin sayının az olmasına baxmayaraq, Vatikan Ermənistanın təcavüzünün dayandırılmasında müəyyən rol oynaya bilərdi. Vatikan ilə əlaqələr Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsinə kömək edərdi. Bu baxımdan 1997-ci il sentyabrın 24-27-də Prezident Heydər Əliyevin İtaliyaya səfəri mühüm rol oynadı. Azərbaycan Prezidenti Vatikana gedərək Roma Papası II İohann Pavel"* ilə görüşdü. Görüş zamanı ikitərəfli əlaqələrin inkişaf etdirilməsi məsələləri müzakirə olundu. II İoann Pavel müstəqil Azərbaycan Respublikasın

da aparılan islahatları müdafiə edirdi . O, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həllinə dair möveyini bəyan edərək dedi: “Vatikan dövlətinin və bütün dünya katoliklərinin başçısı kimi mən də Ermənistan - Azərbaycan münaqişəsinin Lissabon zirvə görüşündə qəbul edilmiş prinsiplər əsasında həllinə tərəfdar olduğumu bildirirəm və hamını da bu işə yardım etməyə çağırıram. Vurğulayıram ki, yeni müstəqillik qazanmış ölkələrin ərazi bütövlüyünün qorunması çox vacibdir, separatçılığa qarşı birgə mübarizə aparılmalıdır...”'^®

Belə bir mövqenin bəyan edilməsinin ciddi əhəmiyyəti olub Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirirdi.

Heydər Əliyev İtaliyada keçirdiyi görüşlər, Azərbaycanda aparılan islahatlar və Ermənistanın Azərbaycana hərbi təcavüzünün nəticələri barədə Roma Papasına məlumat verdi. Münaqişənin sülh yolu ilə həllinə dair Azərbaycanın mövqeyini izah etdi.

Azərbaycan Prezidentinin Vatikana səfəri böyük tarixi əhəmiyyət daşıyırdı. Hər şeydən əvvəl, bu səfər Azərbaycan dövlət başçısının Vatikana ilk səfəri idi. Vatikan Azərbaycanın dövlət müstəqilliyini və ərazi bütövlüyünü müdafiə edirdi. Səfər və keçirilən danışıqlar qarşılıqlı münasibətlərdə yeni mərhələnin başlanğıcını qoyurdu.

* II İohann Pavel (1920-2005) - Roma katolik kilsəsinin və Vatikan dövlətinin rəhbəri. Tam titulu-Roma yepiskopudur. Mülki adı Karol Voytiladır. 1978-ci ildə Papa seçildikdən sonra II İohann Pavel adını almışdır. Bir sıra əsərlərin müəllifidir.

Əliyev H.Ə. Roma Papası II İohann Pavel ilə görüşdə söhbətdən. 26 sentyabr 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XII kitab, s.238.

Yenə orada, s.240.

Səfərdən sonra iki ölkə arasında əlaqələr genişləndi. 1998-ci il mayın 26-da Vatikan dövlətinin Gürcüstandakı Apostol nunsisi Peter Zur- briqqen eyni zamanda Azərbaycanda Apostol nunsisi təyin olundu. 2001- ci il oktyabrın 29-da isə Klaudio Qucerotti Vatikanın Azərbaycanda Apostol nunsisi təyin edildi. O, etimadnaməsini aprelin 12-də Azərbaycan Prezidentinə təqdim etdi. Keçirilən söhbətdə Azərbaycan Prezidenti Vatikan ilə əlaqələrə ölkəsinin xüsusi əhəmiyyət verdiyini vurğuladı.

Azərbaycan - Vatikan münasibətlərində xüsusi mərhələni 2002-ci il mayın 22-23-də Prezident Heydər Əliyevin dəvəti ilə Vatikan dövlətinin başçısı Roma Papası II İohann Pavelin Azərbaycana rəsmi səfəri təşkil etdi'*'. Səfər üçün belə bir tarixin seçilməsi səbəbsiz deyildi. Mayın 23-də Azərbaycanın dövlət müstəqilliyinin Vatikan dövləti tərəfindən tanınmasının 10 illiyi tamam olurdu. Bununla Roma Papası Azərbaycanın dövlət müstəqilliyinə olan ehtiramını göstərirdi. O, Azərbaycana səfər edən ilk Roma Papası idi.

Qarşılanma mərasimində çıxış edən Heydər Əliyev səfəri yüksək qiymətləndirdi. Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində yurd-yuvalarından didərgin düşmüş insanların Roma Papasının xeyirxah sözünə və təsəllisinə ehtiyac duyduğunu bildirdi'*^.

Daha sonra nitq söyləyən Roma Papası II İohann Pavel dedi: "Bu səfər Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında diplomatik münasibətlər yaradılmasının onuncu ildönümündə keçir. Yadellilərin uzun dövr ərzində hökmranlığından sonra qazanılmış müstəqillik heç də az olmayan çətinliklər və əzab-əziyyət şəraitində, lakin azadlıq şəraitində daha yaxşı gələcək qurulmasının mümkünlüyünə ümid heç vaxt itirmədən inkişaf etmişdir. Ölkə başqa xalqlarla əlaqələri inkişaf etdirmiş və möhkəmlətmişdir. Bunun sayəsində qarşılıqlı zənginləşmə baş vermişdir və bu, gələcək illərdə öz bəhrələrini verəcəkdir"'**.

Azərbaycanın dünya siyasətində tutduğu yerə xüsusi əhəmiyyət verən Roma Papası vurğulayırdı: "Azərbaycan Şərq ilə Qərb arasında qapıdır: buna görə də o, nəinki çox böyük strateji əhəmiyyətə, həm də azadlıq və mübadilə kimi rəmzi dəyərə malikdir... Qərbin Şərqə tam hörmət

Vatikan dövlətinin başçısı, Roma Papası II İohann Pavelin Azərbaycana rəsmi səfəri. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 268.

Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 268-269.

Vatikan dövlətinin başçısı, Roma Papası II İohann Pavelin nitqi. - Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2002.1 hissə, s. 269.

bəsləməklə yanaşı, onu yenidən kəşf etməsinin, mədəni və mənəvi baxımdan Şərqin dəyərlərini daha dərindən qavramaq istəyinin, həvəs göstərməsinin vaxtı gəlib çatmışdır. Azərbaycan bu mədəniyyətin pəncərəsidir və indi bu pəncərədən müdafiəsiz xalqların olmazın müsibətlərinin mənbəyinə çevrilmiş hərbi sarsıntılar meydanı olan ölkələrə qızğın çağırışla müraciət edirəm. Bütün insanların sülh haqqında düşünməsi zəruridir”'^".

Roma Papasının Azərbaycan Prezidenti Heydər Əliyev ilə təkbətək görüşündə ikitərəfli münasibətlərin tarixinə, Azərbaycanda aparılan dünyəvi dövlət quruculuğuna, Ermənistanın təcavüzü və onun nəticələrinə dair məsələlər müzakirə edildi'*^.

Daha sonra Roma Papası Azərbaycanın din, elm və incəsənət xadimləri ilə görüşdü'**. Toplantıda əvvəlcə Heydər Əliyev nitq söyləyərək Azərbaycanda ilk katolik kilsəsinin hələ XIX əsrin 30-cu illərində tikildiyini vurğuladı və ölkədəki katolik icmasının fəaliyyətinə diqqəti cəlb etdi.

Çıxış edən Roma Papası siyasət, elm və incəsənət dünyasının nümayəndələrini dinləri özlərinin müttəfiqləri saymağa dəvət etdi. Onun fikrincə, siyasət vicdanhhğa və aşkarlığa möhtac idi.

Səfərin ikinci günü Roma Papası Əl oyunları sarayında ibadət mərasimi keçirdi. Mərasimdə Azərbaycandakı müsəlman, xristian və yəhudi dinlərinin nümayəndələri, dövlət, hökumət rəsmiləri, ictimai xadimlər və diplomatik korpusun nümayəndələri iştirak edirdilər. İbadət mərasimi başa çatdıqdan sonra Roma Papası azərbaycanlı qaçqın və məcburi köçkünlərlə görüşdü. O, Bakıdakı katolik prixoduna gələrək, müsəlman, xristian, yəhudi icmaların rəhbərləri və katolik icmasının nümayəndələri ilə görüşdü.

Roma Papasının Azərbaycana səfərinin böyük əhəmiyyəti var idi. Bu səfər Azərbaycan - Vatikan münasibətlərini yeni keyfiyyət mərhələsinə çıxarırdı. Azərbaycanda dini tolerantlığın olduğunu, bütün dinlər üçün normal şərait yaradıldığını göstərirdi. Səfər zamanı xarici ölkələrin kütləvi informasiya vasitələri Azərbaycana dair çoxlu məlumatlar yaydılar.

Yenə orada, s. 270.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Roma Papası II İohann Pavel ilə təkbətək görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 272.

Roma Papası II İohann Pavelin Azərbaycanın din, elm və incəsənət xadimləri ilə görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. 1 hissə, s. 273.

Səfərdən sonra ikitərəfli münasibətlərdə intensivlik artdı. Belə ki, 2003-cü il sentyabrın 23-25-də Vatikan dövlət katibliyinin dövlətlərlə münasibətlər şöbəsinin katibi arxiyepiskop Monsenyor Jan-Lui Toran Azərbaycana səfəri zamanı Xətai rayonunda kilsənin inşa ediləcəyi yerə baxdı. Bakıda katolik kilsəsinin inşasına başlanıldı.

İki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 10 illiyi 2003- cü il dekabrın 18-də tamam oldu. Bu tarixi hadisə münasibəti ilə xarici işlər naziri Vilayət Quliyev Vatikan Dövlət Katibliyinə təbrik məktubu göndərərək qarşılıqlı münasibətlərin inkişaf etdirilməsi arzusunu ifadə etdi.

Ümumiyyətlə, 1992-2003-cü illərdə Azərbaycan - Vatikan münasibətlərinin hüquq-müqavilə əsasları qurulmuşdur. Qarşılıqlı səfərlər zamanı müzakirə edilən məsələlər üzrə tərəflərin baxışlarının oxşarlığı aydın olmuşdur.

## AVSTRİYA RESPUBLİKASI İLƏ MÜNASİBƏTLƏRİN QURULMASI VƏ İNKİŞAF ETDİRİLMƏSİ

### İlk əlaqələr

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının xarici siyasətinin Avropa istiqamətində mühüm yerlərdən birini Avstriya Respublikası ilə qarşılıqlı münasibətlər tutdu. Avstriya Azərbaycanın dövlət müstəqilliyini 1992-ci il yanvarın 15-də tanıdı. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il fevralın 20-də quruldu'*’. 1994-cü il noyabrın 11-də Avstriya Respublikasında (Vyana şəhərində) Azərbaycan Respublikasının səfirliyi təsis edildi'**. 1995-ci il sentyabrın 1-də Azərbaycanın Avstriyada səfirliyi açıldı. Vaqif Sadıqov fövqəladə və səlahiyyətli səfir təyin edildi.

Azərbaycan Respublikasının Avstriya ilə əlaqələrə xüsusi diqqət yetirməsinin bir sıra səbəbləri var idi. Hər şeydən əvvəl, Avstriya bitərəf bir ölkə idi. Burada ATƏT, BMT-nin Vyana bölməsi. Atom Enerjisi üzrə Beynəlxalq Agentlik və digər qurumlar yerləşirdi.

İlk vaxtlarda iki ölkə arasında müzakirə edilən əsas məsələlər hüquqi yardım göstərilməsi, SSRİ ilə imzalanmış sənədlərin hüquqi varisliyi

188 A R

və iqtisadi əməkdaşlığın qurulması yolları idi. Bu baxımdan 1996-ci ilin fevral ayında Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Xanlar Hacıyevin başçılıq etdiyi nümayəndə heyətinin Vyanaya səfəri zamanı Avstriyanın baş prokuroru, Ali Məhkəməsinin sədri, Daxili İşlər Nazirliyinin baş direktoru və Vyana prokuroru ilə keçirilən görüşlərdə Azərbaycan ilə Avstriya arasında hüquqi yardım və digər məsələlər müzakirə edildi.

Avstriya hökuməti Azərbaycan ilə münasibətlərin daha da inkişafı üçün Avstriya ilə SSRİ arasında imzalanmış sənədlərin hüquqi varisliyini qəbul etməsinin münasibətlərin hüquq-müqavilə bazasını möhkəmləndirəcəyinə inanırdı. Bu məsələlər 1996-cı il fevralın 8-də səfir Vaqif Sadıqovun Avstriya Xarici İşlər Nazirliyinin baş katibi Albert Roxan ilə görüşündə müzakirə edildi'*^. Avstriya tərəfinin fikrincə, Avstriya ilə SSRİ arasında imzalanmış sənədlərin hüquqi varisliyini Azərbaycan qəbul edərdisə, onda ikitərəfli münasibətlərin hüquq-müqavilə bazası möhkəmlənərdi. Avstriyanın təklifləri Xarici İşlər Nazirliyində öyrənildi'^". Xarici işlər naziri Həsən Həsənov Vaqif Sadıqova yazdığı 1996-cı il 7 mart tarixli məktubunda Avstriyanın keçmiş SSRİ ilə imzaladığı müqavilə və sazişlərin yalnız Azərbaycan Respublikası tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minəcəyini bildirdi. Eyni zamanda Avstriyaya müraciət edərək həmin müqavilə və sazişlərin mətnlərini almağı tövsiyə etdi'^'.

Avstriya tərəfi Azərbaycan ilə iqtisadi əməkdaşlığın qurulmasına xüsusi maraq göstərirdi. Ona görə də iki ölkə arasında iqtisadi əlaqələrin qurulması üçün ilk addımlar atıldı. 1996-cı il noyabrın 6-da Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin, 1997-ci il oktyabrın 24-də isə Ticarət Nazirliyinin nümayəndə heyətləri Vyanaya səfər edərək ikitərəfli iqtisadi əlaqələri genişləndirmək məsələlərini müzakirə etdilər. Qeyd etmək lazımdır ki, 1997-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 6,3 mln. ABŞ dolları olmuşdu. İdxal 5,4 mln., ixrac isə 0,9 mln. ABŞ dolları təşkil etmişdi. İqtisadi əlaqələrin inkişafı nəticəsində 1998-ci il iyunun 23- də Vyanada Avstriyanın bəzi şirkətlərinin və banklarının daxil olduğu Avstriya - Azərbaycan Ticarət Cəmiyyəti quruldu. Avstriyanın özəl şirkətləri, bankları, bir sıra təşkilatları və müəssisələri həmin cəmiyyətin üzvləri oldular. Bu isə əlaqələrin daha da genişlənməsinə təsir edirdi. Sentyabrın 24-26-da Avstriyanın 12 turist şirkətinin nümayəndələri turizm

[189] ARXİNA. 21.05.1994-04.11.1996. Qovluq Nçll, v.138-139. ARXİNA. 21.05.1994-04.11.1996. Qovluq Nal 1, v.l35.
ARXİNA. 21.05.1994-04.11.1996. Qovluq *No\l,*

sahəsində əməkdaşlıq imkanlarının öyrənilməsi məqsədi ilə Azərbaycanda səfərdə oldular. Səfər zamanı Avstriya sahibkarları dövlət təşkilatlarını və özəl sektoru təmsil edən Azərbaycan nümayəndələri ilə əməkdaşlıq yollarını müzakirə etdilər. Tərəflər əməkdaşlığın müqavilə-hüquq əsaslarının yaradılmasının vacibliyi qənaətinə gəldilər. İki ölkə arasında iqtisadiyyat sahəsində əməkdaşlığa dair bir sıra sənədlər hazırlandı. 1998-ci il noyabrın 13-də Azərbaycan Respublikası hökuməti və Avstriya Respublikası federal hökuməti arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq haqqında saziş imzalandı. Qeyd etmək lazımdır ki, 1998-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 3,6 mln. dollar təşkil etmişdi. Bunun 3,5 mln. dolları idxal, 0,1 mln. dolları ixrac olmuşdu.

Avstriya İqtisadiyyat Palatasının MDB ölkələri üzrə idarəsinin rəisi B.Braynşmidtin rəhbərliyi ilə nümayəndə heyətinin 1999-cu il mayın 25-27-də Azərbaycana səfəri zamanı Bakıda Avstriyanın Cənubi Qafqazda ilk ticarət nümayəndəliyi açıldı. Nümayəndəliyin açılması iki ölkə arasında iqtisadi əlaqələrin genişləndirilməsinə və münasibətlərin maddi təməllərinin möhkəmləndirilməsinə imkan verirdi. Lakin əvvəlki illərlə müqayisədə ticarət dövriyyəsinin həcmi azalmışdı. Belə ki, 1999-cu ildə iki ölkə arasında ticarət dövriyyəsi 2,4 mln. dollar təşkil etmişdi. Bunun 2 mln. dolları idxal, 0,4 mln. dolları isə ixrac idi. 1993-1999-cu illərdə Avstriyadan idxal olunan malların siyahısında qida məhsulları, əczaçılıq malları, dağ-mədən sənayesi avadanlığı, məişət malları və s. Azərbaycandan isə əlvan metallar, neft-mədən avadanlığı, dizel yanacağı, polietilen üstünlük təşkil etmişdi'^^.

İqtisadi əməkdaşlıqla paralel olaraq siyasi əlaqələr də inkişaf edir və bir-birini tamamlayırdı. 1999-cu il mayın 26-da Vaqif Sadıqovun Avstriyanın Azərbaycana yeni təyin olunmuş səfiri xanım Haydemariya Gürer ilə görüşündə sazişlərin qüvvədən düşməsi məsələləri ilə müzakirə edildi. Avstriya tərəfi 1994-cü ildə keçirilən danışıqlar zamanı razılaşdırılmış aşağıdakı məsələlərin müzakirəsini təklif etdi: ikitərəfli əlaqələrin genişləndirilməsi yolları; Avstriyanın 2000-ci ildə ATƏT-də sədrliyi; Ermənistan ilə Azərbaycan arasında münaqişənin nizamlanması; regional təhlükəsizlik; Azərbaycanın qonşu ölkələrlə münasibətləri; regional iqtisadi əməkdaşlıq, nəqliyyat dəhlizləri və enerji kəmərləri*^^.

■ ARXİNA. 03.04.2001-08.05.2001.Qovluq X26, v.33-34.

[193] ARXİNA. 1999. Qovluq fto 10, v. 112-113.

Azərbaycan tərəfi isə aşağıdakı məsələlərin müzakirəsini təklif etdi: ikitərəfli əlaqələr; yüksək səviyyəli qarşılıqlı səfərlərin davamı; bu səfərlər üçün müvafiq sənədlərin işlənib hazırlanması; iqtisadi əlaqələrin genişləndirilməsi (iqtisadi sərgilərin, konfransların keçirilməsi, birgə ticarət palatalarının yaradılması); humanitar sahədə əməkdaşlığın gücləndirilməsi (tələbə, müəllim, mütəxəssis mübadiləsi, mətbuat, radio, TV işçiləri və yaradıcılıq ittifaqları arasında əlaqələrin qurulması üçün şəraitin yaradılması; parlament əlaqələrinin qurulması; hər iki ölkənin regionları arasında əlaqələrin qurulması; beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq; ümumavropa təhlükəsizliyi; Avstriyanın 2000-ci ildə ATƏT-də sədrliyi; Ermənistan ilə Azərbaycan arasında münaqişənin həllində Avstriyanın oynaya biləcəyi rol; regional təhlükəsizlik (Balkan yarımadası, Moldova, Mərkəzi Asiya, Yaxın Şərq, Fars körfəzi); Avropa İttifaqının TRASEKA proqramı çərçivəsində Qərb-Şərq nəqliyyat dəhlizinin qurulmasına Avstriyanın potensial töhfəsi.

Azərbaycan ilə Avstriya cinayətkarlığa qarşı mübarizə sahəsində də əməkdaşlıq edirdilər. 2000-ci il aprelin 12-14-də Azərbaycan Respublikasının daxili işlər naziri Ramil Usubovun Vyanaya işgüzar səfəri zamanı Avstriyanın daxili işlər və ədliyyə nazirləri ilə görüşdə əməkdaşlığı dərinləşdirmək və möhkəm təməllər üzərinə qoymaq məsələləri müzakirə edildi. Keçirilən danışıqların nəticəsində Azərbaycan və Avstriya daxili işlər nazirlikləri arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalandı. Bu sənəd cinayətkarlığa qarşı mübarizədə Azərbaycan - Avstriya münasibətlərində mühüm rol oynayırdı.

İki ölkə arasında iqtisadi əlaqələri genişləndirmək məqsədi ilə iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə ortaq komissiya quruldu. Komissiyanın birinci iclası 2000- ci il iyunun 20-21-də Vyanada keçirildi. İqtisadi münasibətlərin inkişaf yollarının müzakirə edildiyi iclasın yekununda ortaq komissiyanın birinci iclasının protokolu imzalandı. Protokol iki ölkə arasında əməkdaşlığı genişləndirməyə və daha səmərəli etməyə yönəlmişdi. Eyni zamanda tərəflərin əməkdaşlıq etmək niyyətlərini göstərirdi. Bütün bunlar yüksək səviyyəli görüş üçün zəmin hazırlamışdı.

## Qarşılıqlı münasibətlərdə mühüm mərhələ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 2000-ci il iyulun 3-6-də Avstriyaya rəsmi səfər etdi. Avstriya Prezidenti Tomas Klestilin'^" dəvəti ilə baş tutan bu səfər Azərbaycan Prezidentinin Avstriyaya ilk səfəri idi. Səfərin zəngin proqramı tərtib edilmişdi Ölkə prezidenti, kansleri, parlamentin sədri və xarici işlər naziri ilə, həmçinin Vyanada beynəlxalq təşkilatların nümayəndəliklərində görüşlər nəzərdə tutulmuşdu.

Heydər Əliyev ilk olaraq iyulun 4-də Tomas Klestil ilə görüşdü. Avstriya zəngin iqtisadi potensialı olan Azərbaycan ilə əlaqələrə maraq göstərirdi. Azərbaycan Prezidenti ölkədə aparılan islahatlar, Ermənistanın hərbi təcavüzünün nəticələri, Minsk qrupunun səyləri barədə danışdı. Avstriya tərəfi Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə tərəfdar idi.

Həmin gün danışıqlar başa çatdıqdan sonra iki ölkə arasında sənədlərin imzalanması mərasimi oldu. Azərbaycan Respublikası hökuməti və Avstriya Respublikası hökuməti arasında investisiyaların təşviqi və qorunması, hava daşımaları, Bakı Dövlət Universiteti ilə Vyana Universiteti arasında elm və tədris sahələrində əməkdaşlıq haqqında sazişlər, Azərbaycan Respublikası hökuməti və Avstriya Respublikası hökuməti arasında ikiqat vergiyə cəlb etməyə yol verilməməsi, gəlir və əmlak vergilərinin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında konvensiya imzalandı.

Mərasimdə çıxış edən Tomas Klestil iki ölkə arasında münasibətlərə və ATƏT-in fəaliyyətdə olan sədri kimi Cənubi Qafqaz regionuna xüsusi əhəmiyyət verdiklərini vurğuladı'^*. Heydər Əliyev isə səfərini və imzalanan sənədləri iki ölkə arasında münasibətlərdə mühüm mərhələ adlandırdı [197]

Tomas Klestil (1932) - XİN baş katibi (1987-1992). Avstriya Prezidenti (1992-2004).

ARXINA. 2000, Qovluq Nsi ı, v. 33, 61.

Əliyev H.Ə. Azərbaycan və Avstriya hökumətləri arasında sənədlərin imzalanması mərasimindən sonra Avstriya federal Prezidenti Tomas Klestilin bəyanatı. 4 iyul 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXIX kitab, s. 13.

Əliyev H.Ə. Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı. 4 iyul 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXIX kitab, s.l4.

Dalıa sonra Heydər Əliyev Avstriyanın xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Benuta Ferrero-Valdner ilə görüşdü'^*. Danışıqlarda Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli səyləri, Minsk qrupu həmsədrlərinin fəaliyyəti müzakirə edildi. Avstriyanın xarici işlər naziri dedi: "...Azərbaycanın haqq işinin qalib gələcəyinə, münaqişənin sülh yolu ilə aradan qaldırılcağma əmin olduğumu bildirirəm”"’^

Heydər Əliyev Avstriya parlamentinin sədri Haynts Fişer ilə görüşərək iki ölkə arasında parlamentlərarası əlaqələrin inkişaf etdirilməsi məsələlərini müzakirə etdi^"®. Azərbaycan ilə Avstriya arasında par- lamentlərarası əlaqələrin inkişaf etdirilməsi niyyətləri ifadə olundu.

Azərbaycan Prezidentinin iyulun 4-də Avstriyanın federal kansleri Volfqanq ŞüsseP” ilə danışıqlarında ikitərəfli əlaqələrin möhkəmləndirilməsi məsələləri müzakirə edildi^’^. Avstriya Azərbaycanın ərazi bütövlüyünü və dövlət müstəqilliyini müdafiə edirdi. Bu ölkə Avropa İttifaqının TRA.SEKA proqramı çərçivəsində Şərq-Qərb nəqliyyat dəhlizinin qurulmasına çalışır və ona inteqrasiya proseslərində mühüm amil kimi baxırdı. Avstriya Azərbaycan ilə iqtisadi əməkdaşlığın genişləndirilməsinə və müxtəlif sahələrdə əlaqələrin qurulmasına tərəfdar idi.

Azərbaycan Prezidenti Vyana şəhər meriyasında oldu, iqtisadiyyat palatasında ölkənin xarici siyasət və beynəlxalq əlaqələr cəmiyyətinin üzvləri, BMT-nin Vyanadakı nümayəndəliyinin baş direktoru, baş katibin müavini Pino Arlaki, BMT-nin sənaye inkişafı təşkilatının - YUNİDO- nun baş direktorunun müavini Nilmadxabon Moxanti, baş direktoru Karlos Maqarinos, nüvə silahlarının hərtərəfli qadağan edilməsi üzrə təşkilatın hazırlıq komissiyasının icraçı katibi Volfqanq Hoffman, AEBA- nın baş direktoru Məhəmməd Elbarade, Avstriyanın işgüzar dairələrinin və Azərbaycan diasporasmm nümayəndələri ilə görüşlər keçirdi.

Əliyev H.Ə. Avstriyanın xarici işlər naziri, ATƏT-in hazırki sədri xanım Benuta Ferrero-Valdner ilə görüşdə söhbət. 4 iyul 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXIX kitab, s. 19-20.

Yenə orada, s.20.

Əliyev H.Ə. Avsrtiya Respublikası parlamentinin sədri Haynts Fişer ilə görüşdəki söhbətdən. - Müstəqilliyimiz əbədidir. XXIX kitab, s.23-24.

Volfqanq Şüssel (1945) - Federal kansler (2000-2007).

Əliyev H.Ə. Avstriya Respublikasının kansleri Volfqanq Şüssel ilə görüşdə söhbət. - Müstəqilliyimiz əbədidir. XXIX kitab, s.25-27.

Azərbaycan Prezidentinin Avstriyaya səfərinin böyük tarixi əhəmiyyəti var idi. Danışıqlar zamanı ölkələr arasında münasibətlərin inkişaf etdirilməsi məsələləri müzakirə edilmişdi. Ermənistanın təcavüzünün aradan qaldırılması istiqamətində səylərinin artırılmasının vacibliyi vurğulanmışdı. İmzalanan sənədlər iki ölkə arasında münasibətlərin müqavilə- hüquqi bazasını möhkəmləndirir və əməkdaşlıq üçün yeni imkanlar açırdı.

## Əməkdaşlıq genişlənərək yeni sahələri əhatə edir

Səfərdən sonra Azərbaycan - Avstriya əlaqələrində dinamizm artdı. Avstriya işgüzar dairələrinin nümayəndələri 2000-ci il dekabrın 3-9-da Bakıya səfər etdilər. Səfərdə başlıca məqsəd Avstriya sahibkarlarının Azərbaycan Respublikasının şirkət və müəssisələri ilə əlaqələrinin qurulması imkanlarının araşdırılması idi. Avstriya sahibkarları Azərbaycan Respublikasının müvafiq nazirlik və təşkilatlarında görüşərək əməkdaşlıq məsələlərini müzakirə etdilər. Qeyd etmək lazımdır ki, 2000-ci ilin 11 ayı ərzində iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 8,5 mln. dollar təşkil etmişdi. Bunun 7,5 mln dolları Azərbaycana idxalın, 1 mln. dolları isə ixracın payına düşürdü.

2001- ci ilin may ayına qədər olan müddətdə iki ölkə arasında iqtisadiyyat sahəsində əməkdaşlığa dair 4 sənəd imzalanmışdı. Bu sənədlər iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq, investisiyaların təşviqi və qarşılıqlı qorunması, hava daşımaları haqqında sazişlər, ikiqat vergiqoymanın aradan qaldırılması haqqında konvensiya idi.

Azərbaycan ilə Avstriya beynəlxalq və regional təşkilatlar çərçivəsində də əməkdaşlıq edirdilər. Belə ki, 2000-ci ilin dekabr ayının əvvəllərində ATƏT Nazirlər Şurasının illik iclası çərçivəsində xarici işlər naziri Vilayət Quliyev Avstriyanın xarici işlər naziri Benita Ferrero-Valdner ilə görüşdü^®^. Görüşdə Vilayət Quliyev iki ölkə arasında hələ 1998-ci ildən başlanmış siyasi məsləhətləşmələrin davam etdirilməsinin vacibliyini bildirdi. Azərbaycan Respublikası Milli Məclisində fəaliyyət göstərən Azərbaycan - Avstriya dostluq qrupu üzvlərinin 2002-ci ilin mart ayında Avstriyaya səfərinin planlaşdırıldığına dair məlumat verdi. Azərbaycan

ARXINA. 23.11.2001-19.12.2001. Qovluq XaO, v.131-134.

Respublikasının Prezidenti Heydər Əliyevin Avstriyaya rəsmi səfərinin iki ölkə arasında əlaqələrin inkişafında mühüm rol oynadığını vurğuladı. ATƏT üzvü kimi Avstriyanın Dağlıq Qarabağ münaqişəsinin həllində mühüm rol oynayacağına ümid ifadə etdi. Avstriya ilə elm, təhsil, idman, mədəniyyət və humanitar sahələrdə əməkdaşlıqda Azərbaycanın maraqlı olduğunu qeyd etdi. Gənclər, idman və turizm naziri Əbülfəs Qarayevin
2001- ci ilin dekabr ayında səfərinin iki ölkə arasında turizm əlaqələrinin inkişafı imkanlarının aydınlaşdırılması baxımından faydalı olacağına ümid ifadə etdi. Azərbaycanın Cənubi Qafqazda Avstriya ilə birbaşa hava əlaqəsi olmayan ölkə olduğunu qeyd edərək, hava rabitəsinin qurulması imkanları ilə maraqlandı. 1999-2000-ci illərdə "BMT və ATƏT arasında əməkdaşlıq" qətnaməsinin qəbulu zamanı Azərbaycanın irəli sürdüyü düzəlişin dəstəklənməsində Avstriyanın bitərəf qalmasına Azərbaycanın təəssüfünü bildirdi. Bu barədə Azərbaycanın xarici işlər naziri Avstriya xarici işlər nazirinə məktub da göndərmişdi. Avropa Şurasına tam hüquqlu üzvlük məsələsində Avstriyanın dəstəyinə görə təşəkkür etdi. 2002-ci ildə BMT-nin 57-ci iclası zamanı İqtisadi və Sosial Şuraya Azərbaycanın namizədliyinin dəstəklənməsi ilə bağlı Azərbaycanın müraciətinə Avstriyanın müsbət cavab verəcəyinə ümid və Azərbaycanın hələ 1996-cı ilin noyabrında BMT Baş Məclisinin 51-ci sessiyası zamanı Beynəlxalq Hüquq Komissiyasına seçkilərdə avstriyalı namizədi dəstəklədiyini qeyd etdi.

Dekabrın 10-13-də Azərbaycanın gənclər, idman və turizm naziri Əbülfəs Qarayevin turizm məsələləri üzrə dövlət katibi M.Rossmanm dəvəti ilə Avstriyaya səfəri zamanı idman və turizm sahəsində əlaqələrin genişləndirilməsi məsələləri müzakirə edildi. Bu, qarşılıqlı əlaqələrdə faydalı addım oldu.

Avstriyadakı Azərbaycan səfirliyi 2001-ci ildə başlıca diqqətini iki ölkə arasında siyasi, mədəni və humanitar sahələrdə əlaqələrin genişləndirilməsinə yönəltdi, Avstriya Xarici İşlər Nazriliyinin, prezident aparatının və parlamentinin nümayəndələri ilə mütəmadi görüşlər keçirdi, ölkənin siyasi partiyalarının nümayəndələri ilə əlaqələr saxladı, Avstriya siyasi dairələrində Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi və Cənubi Qafqazda şərait və digər qarşılıqlı maraq doğuran məsələlərin davamlı müzakirəsini apardı, ölkədəki diplomatik nümayəndəliklərlə əməkdaşlığı genişləndirdi, Azərbaycan ilə diplomatik əlaqələrin qurulmasına dair protokol layihələrini Zimbabve, Namibiya və Burkina-Fasonun səfirliklərinə təqdim etdi, Azərbaycan haqqında aktual məlumatlar, habelə uydurma erməni soyqırımının tanınması barədə Fransa parlamentində qəbul

edilmiş qərarla əlaqədar olaraq Azərbaycan Respublikası Milli Məclisinin və Xocalı soyqırımı barədə Qafqaz müsəlmanları dini idarəsinin rəisi Şeyxülislam Hacı Allahşükür Paşazadənin müraciətlərini Avstriya Xarici İşlər Nazirliyinə təqdim etdi^®'*.

Qarşılıqlı səylər nəticəsində əməkdaşlıq imkanları getdikcə artırdı. 2002- ci ildə iki ölkə arasında birgə elmi araşdırmaların aparılması imkanlarının öyrənilməsi, daxili və xarici siyasəti barədə məlumatların göndərilməsinin davam etdirilməsi, xarici işlər nazirlərinin qarşılıqlı səfərlərinin təşkili, Avstriya parlamenti sədrinin Azərbaycana səfərinin təşkili. Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın mövqeyinin Avstriya tərəfindən dəstəklənməsi, Xocalıda törədilən soyqırımın tanınması, Azərbaycan və türk icmalarının fəaliyyətinin əlaqələndirilməsi, Avstriyaya səfər etmiş bütün nümayəndə heyətlərinin səfərləri barədə məlumatların göndərilməsi, Avstriya parlamentində Qafqaz ölkələri ilə dostluq qrupunun yaradılması, Avstriyanın Bakıda konsulluq açmaq imkanlarının öyrənilməsi istiqamətində səylər Azərbaycanın Vyanadakı səfirliyinin fəaliyyətinin başlıca istiqamətləri oldu^°^.

İki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 10 ili 2002-ci ilin fevralında tamam oldu. Bu hadisə münasibəti ilə xarici işlər naziri Vilayət Quliyev fevralın 7-də Avstriyanın xarici işlər naziri Benita Ferrero- Valdnerə məktub göndərdi. Məktubda Avstriyanın Azərbaycanı tanıyan və onunla diplomatik əlaqələr quran ilk ölkələrdən biri olduğu qeyd edilir. Cənubi Qafqazda sabitlik və sülhün bərqərar olunması, region xalqlarının inkişafı və dünya birliyinə tezliklə qovuşması naminə Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində, Ermənistanın Azərbaycana qarşı təcavüzünün aradan qaldırılmasında Avstriyanın dəstəyinə ümid ifadə edilirdi

Qeyd etmək lazımdır ki, Avstriya tərəfi silahlı münaqişələr zamanı mədəniyyət abidələrinin qorunması sahəsində Azərbaycan ilə əməkdaşlıq etməkdə maraqlı idi. Bu baxımdan hələ 2001-ci il sentyabrın 24-28-də tarixlərində NATO-nun Sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində Avstriya hökumətinin təşəbbüsü və dəstəyi ilə "Silahlı münaqişələr zamanı mədəniyyət abidələrinin mühafizəsi - sülhməramlı əməliyyatlar problemi" mövzusunda keçirilmiş seminarın nəticələri Avstriyanın bu sa-

ARXİNA. 06.03.2002-04.04.2002. Qovluq XbS, v.176-179.

Yenə orada, v. 177.

206 ' ARXINA. 2002. Qovluq X2 N, v. 26.

hədə əməkdaşlığa maraq göstərməsindən xəbər verirdi^°^. Azərbaycan Respublikasının təklifi ilə “mədəniyyət mülkiyyətinin qorunması” ifadəsi 2002- 2004-cü illər üzrə Avroatlantik Şurasının əməliyyat planının sülhməramlı əməliyyatlar bölümünə salınmışdı. Həmin mövzu həmçinin Bakıda keçirilməsi təklif edilən “Qaçqınların və məcburi köçkünlərin geri qayıtması və millətlərarası barışıq” adlı seminarın da konsepsiya sənədinə daxil edilmişdi. Həmin məsələlərin Azərbaycan Respublikası üçün əhəmiyyət kəsb etdiyini nəzərə alaraq xarici işlər nazirinin müavini Araz Əzimov Avstriyadakı səfir Vaqif Sadıqova və NATO yanında nümayəndəliyin başçısı Mirhəmzə Əfəndiyevə 2002-ci il martın 3-də məktub göndərərək Avstriya tərəfi ilə bir sıra məsələlərin müzakirəsini keçirməyi tövsiyə etdi. Bildirdi ki, Avstriya silahlı qüvvələrində mədəniyyət mülkiyyətinin coğrafi atributları əks etdirən, xəritə və cədvəllər şəklində elektron bazası mövcuddur. Belə bir məlumat bazasının mövcudluğu həm hərbi münaqişələr və sülhməramlı əməliyyatlar zamanı, həm də turizm üçün olduqca faydalı idi. Azərbaycanda mədəniyyət abidələrinin belə təkmil inventar sisteminin olmadığını nəzərə alaraq Avstriya tərəfinə müraciət etmək əhəmiyyətli idi. Azərbaycanın da qoşulduğu silahlı münaqişələr zamanı mədəniyyət abidələrinin qorunmasına dair 1954-cü il Haaqa konvensiyasının VII maddəsinin 2-ci bəndində yazılmışdı: “...üzv dövlətlər hələ sülh dövründə öz silahlı qüvvələrində mədəni dəyərlərə hörmət olunmasına nəzarət edəcək xidmətlər və ya xüsusi heyət hazırlamağı və ya yaratmağı öhdələrinə götürürlər”. Avstriya silahlı qüvvələrində belə bir bölmə var idi. Avstriya hökuməti gələcək sülhməramlı əməliyyatlar üçün mədəni dəyərləri mühafizə edən zabitləri hazırlamağı düşünürdü. Ona görə də Azərbaycanda Avstriya silahlı qüvvələri tərəfindən belə təlimlərin keçirilməsi və Avstriya Sülh naminə tərəfdaşlıq təlim mərkəzlərində bu qəbildən olan kurslarda Azərbaycan silahlı qüvvələrinin yaxından iştirakına şərait yaradılması məsələsini müzakirə etmək təklif olundu^°*. Səfir göstərilən məsələləri Avstriya tərəfi ilə müzakirə etdi. Avstriya tərəfi əməkdaşlığa hazır olduğunu bildirdi. Az sonra müvafiq təlimlər keçirildi.

Əməkdaşlıq digər sahələrdə də genişləndi. 2002-ci il aprelin 16-17- də Vyanada Azərbaycan və Avstriya daxili işlər nazirlikləri ekspertlərinin görüşündə cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq, mayın 12-15-də Vyana şəhər meriyasının nümayəndələrinin Bakıya səfər edərək

ARXİNA. 06.03.2002-04.04.2002. Qovluq XsS, v. 114-118.

208 ARXİNA. 06.03.2002-04.04.2002. Qovluq XeS, v.112-113.

paytaxt şəhərlərinin problemlərinin həlli təcrübəsi barədə fikir mübadiləsi aparmaları, mayın 22-26-da Avstriyanın "Qara Xaç" müharibə qəbirlərinə qayğı cəmiyyətinin 10 nəfərdən ibarət nümayəndə heyətinin İkinci dünya müharibəsi dövründən Azərbaycanda qalan avstriyalı hərbi əsirlərin məzarlarına baş çəkmələri münasibətlərdə əhəmiyyətli addımlar oldu.

İki ölkə arasında iqtisadi əlaqələr də genişlənirdi. İyunun 3-5-də Bakıda keçirilən Azərbaycan ilə Avstriya arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə ortaq komissiyanın ikinci iclasının yekununda komissiyanın protokolu qəbul edildi"®®. İclasda iki ölkə arasında iqtisadi əlaqələrin prioritet sahələri müəyyənləşdirildi. Onların həyata keçirilməsi üçün addımlar atıldı. Noyabrın 18-də Vyanada "Azərbaycana sərmayə qoyuluşu və əməkdaşlıq imkanları" adlı beynəlxalq konfransın keçirilməsi iki ölkə arasında iqtisadi əməkdaşlığın geniş perspektivlərinin olduğunu göstərdi. Konfransdan bir gün sonra, noyabrın 19-da Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi ilə Avstriya Respublikasının Nəqliyyat, Yeniləşmə və Texnologiyalar Nazirliyi arasında beynəlxalq yük daşımaları haqqında, Azərbaycan Dövlət Dəmiryolu ilə Avstriya Dəmiryolu İxrac Sektorunun "Austria Rail Engineering (ARE)" İnfrastruktur Şirkəti arasında dəmiryolu sahəsində əməkdaşlıq haqqında, Azərbaycan Respublikası hökuməti və Avstriya Respublikası hökuməti arasında gömrük məsələləri üzrə qarşılıqlı yardım və əməkdaşlıq haqqında sazişlərin imzalanması münasibətlərdə qarşılıqlı asılılığı gücləndirir, maddi təməlləri möhkəmləndirirdi. Bu zaman Azərbaycanda Avstriyanın 30-dan çox şirkəti fəaliyyət göstərirdi.

Azərbaycandan Avstriyaya əsasən neft məhsulları, xam pambıq, təzə və quru meyvə və tərəvəz, paslanan metallardan məmulatlar ixrac edilirdi. Avstriyadan Azərbaycana xüsusi maşınlar, dəmir və ya poladdan tənəkə, dərman, o cümlədən baytarlıq preparatları; toxuculuq və dəri sənayesi üçün avadanlıq, ərzaq məhsulları və yemin emalı üçün avadanlıq ixrac olunurdu.

Əməkdaşlığın inkişaf dinamikası yeni istiqamətlər üzrə əlaqələrin qurulmasını zəruri edirdi. Belə sahələrdən biri təhlükəsizlik və sərhəd mühafizəsi məsələləri oldu. İki ölkə arasında sərhəd mühafizəsi sahəsində əməkdaşlıq imkanlarını müzakirə etmək məqsədi ilə 2003-cü il fevralın

' Azərbaycan Respublikası və Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə qarışıq komissiyanın ikinci iclasının protokolu. 3-5 iyun 2002-ci il. Bakı. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. II hissə, s. 522-526.

10-da Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin nümayəndə heyəti Avstriya Daxili İşlər Nazirliyinin Sərhəd Xidməti İdarəsinin dəvəti ilə Vyanaya səfər etdi. Bu idarə Avstriya ilə digər ölkələr arasında sərhəd mühafizəsi sahəsində əməkdaşlığa bilavasitə cavabdeh olan qurum idi. Danışıqların nəticəsində Azərbaycan sərhədçiləri üçün Avstriyada müvafiq təlimlərin keçirilməsinə dair razılıq əldə olundu. Dövlət Sərhəd Xidmətinin bir neçə əməkdaşı həmin təlimlərdə iştirak etdi.

Azərbaycan ilə Avstriya arasında təhlükəsizlik və hüquq mühafizə orqanları arasında əməkdaşlığın möhkəmləndirilməsi üçün yeni addımlar atıldı. İyunun 10-da Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini Fuad İsgəndərovun Avstriyaya səfəri zamanı tərəflər bir-birinin maraqlarına xələl gətirən addımlara yol verməyəcəklərinə dair razılığa gəldilər. Avstriyanın daxili işlər naziri E.Ştrasserin rəhbərlik etdiyi nümayəndə heyətinin iyulun 12-13-də Bakıya səfəri zamanı Azərbaycanın Baş Naziri, xarici işlər naziri, daxili işlər naziri, milli təhlükəsizlik naziri və dövlət sərhəd xidmətinin rəisi ilə keçirilən danışıqlar iki ölkənin təhlükəsizlik sahəsində əməkdaşlığında mühüm rol oynadı.

Avstriyanın ədliyyə naziri Dieter Böhmdorferin sentyabrın 19-20- də Azərbaycana səfəri zamanı tərəflər ərazilərində digərinə qarşı bədxah münasibətdə olan şəxslərin fəaliyyətinə yol verməmək haqqında razılığa gəldilər. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Avstriya Respublikasının Ədliyyə Nazirliyi arasında sentyabrın 19-da əməkdaşlıq haqqında anlaşma memorandumu imzalandı. Bu sənəd müvafiq sahədə əməkdaşlığı yeni səviyyəyə qaldırırdı.

İki ölkə arasında münasibətlərin inkişafında Avstriyada yaşayan azərbaycanlılar müəyyən rol oynayırdılar. Avstriyada özünü azərbaycanlı kimi tanıyanların sayı təqribən min nəfər idi. Avstriyada yaşayan azərbaycanlıların təqribən 70-75%-i İrandan, 15-20%-i Türkiyənin Kars və İqdır vilayətlərindən, 5-10%-i Azərbaycan Respublikası və vaxtilə SSRİ ərazisindən köçüb gələnlər idi. Azərbaycanlıların Avstriyada qeydə alınmış bir neçə cəmiyyəti fəaliyyət göstərirdi. Vyana şəhərində fəaliyyət göstərən Azərbaycan Akademik Birliyi əsasən Avstriyada təhsil alan azərbaycanlı tələbələri özündə birləşdirirdi. Həmin birliyin əsası 2002-ci ildə qoyulmuşdu. Digər bir birlik əsası 1990-cı ildə qoyulmuş Əl-Mehdi Məscidi idi. Qrats şəhərində 1991-ci ildə təsis edilmiş Avstriya - Azərbaycan iqtisadi cəmiyyəti, 1993-cü ildən Saltsburq şəhərində Əhlibeyt məscidi fəaliyyət göstərirdi. Lints şəhərində isə 2003-cü ildə Azərbaycan - Avstriya İqtisadi Birliyi təsis edilmişdi.

Ümumiyyətlə, dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycanın Avstriya ilə münasibətləri yüksələn xətt üzrə inkişaf etmişdir. Qarşılıqlı münasibətlərdə problemlər yaranmamışdır. İki ölkə arasında münasibətlərin müqavilə-hüquq bazası yaradılmışdır. İkitərəfli, regional və beynəlxalq məsələlərə dair məsləhətləşmələr keçirilmişdir. Avstriya Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımış. Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinə tərəfdar olmuşdur. İki ölkə təhlükəsizlik və sərhəd mühafizəsi sahəsində əməkdaşlıq etmişlər. Azərbaycan Avstriya ilə ticarət-iqtisadi tərəfdaşa çevrilmişdir.

## RUMINIYA ILƏ MÜNASİBƏTLƏR

### Azərbaycanın dövlət müstəqilliyini tanıyan ikinci dövlət

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycanın geniş münasibətlər qurduğu Avropa ölkələrindən biri Rumıniya oldu. Rumıniya Azərbaycan Respublikasının dövlət müstəqilliyini Türkiyədən sonra tanıyan ikinci dövlət oldu. 1991-ci il dekabrın 11-də Rumıniya Azərbaycanın dövlət müstəqilliyini tanıdı, 1992-ci il iyunun 19-də isə iki ölkə arasında diplomatik əlaqələr quruldu.

Rumıniya soyuq müharibə başa çatdıqdan sonra Avropanın quruluşunda, demokratikləşmə proseslərində və yeni müstəqil dövlətlərin qitə strukturlarına inteqrasiyasında mühüm rol oynayırdı. Lakin 1993-cü ilədək Azərbaycan - Rumıniya münasibətləri zəif olub hələ ilkin mərhələsində idi.

Yüksək səviyyəli təmaslar yalnız 1994-cü ildə quruldu. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Rumıniya Prezidenti İon İliesku^““ arasında ilk görüş həmin ilin dekabr ayında ATƏM-in Budapeşt sammiti çərçivəsində oldu. Görüş zamanı iki ölkə arasında siyasi, iqtisadi və mədəniyyət sahələrində əlaqələrin qurulmasının vacibliyi vurğulandı.

Lakin münasibətlərin normativ-hüquqi bazası hələ yaradılmamışdı. Ona görə də 1995-ci il martın 12-də Kopenhagendə keçirilən Ümumdünya sosial inkişafa dair konfransı zamanı prezidentlər iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsi üçün hüquqi-normativ sənədlərin işlənib-hazırlanmasının vacibliyi qənaətinə gəldilər. Rumıniya tərəfi Ermə-

İon İliesku (1930) - Rumıniya Prezidenti (1990-1996; 2000-2004).

nistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin ATƏT çərçivəsində həllinə çalışacağına söz verdi. Dövlət başçıları iki ölkənin müvafiq qurumalarına mövqeləri razılaşdırmaq və hüquqi-normativ sənədləri hazırlamaq tapşırığı verdilər.

Bu görüşdən az sonra, 1995-ci ilin aprel ayının sonlarında Rumıniyanın xarici işlər naziri Teodor Meleşkanu Azərbaycana səfəri zamanı qarşılıqlı faydalı əməkdaşlıq qurmaq, ikitərəfli siyasi, iqtisadi və mədəni əlaqələri inkişaf etdirmək niyyətini və hüquqi-normativ sənədlərin hazırlanmasının vacibliyini qeyd etdi. Rumıniya tərəfi Bakıda səfirlik açmaq istəyirdi^". Azərbaycan həmin təklifi qəbul etdi. Aprelin 27-də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Rumıniya Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında protokol və Azərbaycan Respublikası hökuməti və Rumıniya hökuməti arasında niyyət memorandumu imzalandı^'^. İki ölkə arasında siyasi məsləhətləşmələrin aparılmasını və əməkdaşlıq niyyətlərini nəzərdə tutan bu sənədlər qarşılıqlı münasibətlərin inkişafı üçün müsbət addım idi.

İkinci dünya müharibəsində faşizm üzərində qələbənin 50 illiyi münasibəti ilə 1995-ci ilin may ayında Parisdə keçirilən toplantı çərçivəsində görüşən Azərbaycan və Rumıniya prezidentləri ikitərəfli münasibətləri dərinləşdirmək yolları barədə fikir mübadiləsi apardılar^'^. Bunun üçün yüksək səviyyəli görüşün keçirilməsinə və qarşılıqlı münasibətlərin müqavilə-hüquq bazasının yaradılmasına ehtiyac duyulurdu. Həmin məqsədlə Azərbaycan Respublikası Prezidentinin Rumıniyaya səfərinə hazırlığa başlanıldı. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin idarə rəisi Aqşin Mehdiyevin Rumıniya Xarici İşlər Nazirliyinin Avropa idarəsinin rəisi Nikolae Niçu ilə 1995-ci il iyunun 27-də keçirilən görüşündə Azərbaycan Prezidentinin səfərinə dair məsələlər müzakirə edildi""*. Rumıniya tərəfi həmin səfər zamanı ölkədə və regionda şəraitə, Rumıniyanın qonşuları ilə münasibətlərinə, ölkənin NATO və Avropa İttifaqına inteqrasiyasına dair məsələləri müzakirə etmək niyyətində idi. Azərbaycan və Rumıniya rəhbərlərinin danışıqlarında Rumıniya Prezi-

---

Azərbaycan və Rumıniya əməkdaşlığı inkişaf etdirmək niyyətindədirlər. - “Azərbaycan” qəzeti, Bakı, 1995, 28 aprel.

ARXfNA. 2008.

^‘^Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Rumıniya Respubli kasının Prezidenti İon İliesku ilə görüşü. Azərbaycan” qəzeti, Bakı, 1995, 12 may.

ARXINA. 12.06.1995-28.06.1995. Qovluq XeM, v. 82-83.

denti Bakıda səfirlik açmaq istəyini bəyan edəcəkdi. Danışıqların nəticəsində imzalanacaq sənədlərin layihəsi hazırlandı.

### Dostluq və əməkdaşlıq münasibətləri haqqında bəyannamə imzalanır

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan nümayəndə heyəti 1995- ci il iyunun 30-da Rumıniyaya səfər edərək Qara dəniz İqtisadi Əməkdaşlığı təşkilatına daxil olan ölkələrin zirvə toplantısında iştirak etdi. Zirvə görüşü başa çatdıqdan sonra, iyulun 1-də Azərbaycan Respublikası Prezidentinin Rumıniyaya rəsmi səfəri başladı^'^. Səfər ərəfəsində Xarici İşlər Nazirliyi iki ölkə arasında hərbi əməkdaşlıq, hərbi texnika və silah alınması, iqtisadiyyat, maşınqayırma, kimya və neft kimyası sənayesi, yüngül sənaye, kənd təsərrüfatı, yeyinti sənayesi, elm və təhsil sahəsində əməkdaşlıq məsələlərini müzakirə etməyi təklif etmişdi^'®.

Azərbaycan və Rumıniya prezidentlərinin görüşündə beynəlxalq, regional və ikitərəfli münasibətlərə dair məsələlər müzakirə edildi. Heydər Əliyev Ermənistanın Minsk qrupu çərçivəsində danışıqları uzatmasından narazılığını bildirdi. Azərbaycan Dağlıq Qarabağ regionuna beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsinə tərəfdar idi və həmin qüvvələrin tərkibində Rumıniya hərbçilərinin də olmasını istəyirdi^'^. Rumıniya Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və sülhməramlı qüvvələrin tərkibinə hərbçilərini verməyə razı idi. Dövlət başçıları münasibətlərin daha da genişləndirilməsi zəruriliyini vurğuladdan

Daha sonra iki ölkə arasında iqtisadi əməkdaşlıq məsələləri müzakirə edildi. Bu sahədə əməkdaşlığın qurulmasını bir sıra amillər zəruri edirdi. Qeyd etmək lazımdır ki, sosialist düşərgəsi dağıldıqdan sonra Rumıniya və Azərbaycanın iqtisadiyyatı böhran içində idi. Ona görə də bu ölkələrin iqtisadi əməkdaşlıq etmələri faydalı nəticələr verə bilərdi. Tərəflər iqtisadi əməkdaşlığı genişləndirmək niyyətlərini ifadə etdilər.

Danışıqlar zamanı Azərbaycan üçün diplomatik kardlarm hazırlanması məsələsi də müzakirə edildi. Rumıniyada diplomatik kadrlar hazırlamaq üçün ixtisaslaşdırılmış ali məktəblər var idi.

[215] ARXINA. 12.06.1995-28.06.1995. Qovluq X2İ4, v.74-76.
' ARXINA. 12.06.1995-28.06.1995. Qovluq ftbM, v. 28.
ARXİNA. 12.06.1995-28.06.1995. Qovluq X2İ4, v.3-5.

İki xalq arasında mədəniyyət sahəsində əlaqələrin qurulmasının əhəmiyyəti vurğulandı. Xalq diplomatiyasına və ictimaiyyətin əlaqələrinə diqqət ayrılması lazım bilindi.

Həmin gün Heydər Əliyevin Baş Nazir Nikolae Vakaroyu^'^ və senatın sədri German Oliviyu ilə keçirilən görüşlərində hökumətlər və parlamentlər arasında əməkdaşlıq məsələləri müzakirə edildi. Tərəflər par- lamentlərarası əlaqələrin qurulmasını faydalı hesab etdilər.

Danışıqlar başa çatdıqdan sonra, iyulun 2-də Azərbaycan Respublikası və Rumıniya arasında sənədlərin imzalanması mərasimi oldu. Dövlət başçıları iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətləri haqqında bəyannaməni imzaladılar^'^. 9 maddədən ibarət olan bəyannamədə tərəflər münasibətlərini dostluq, əməkdaşlıq, qarşılıqlı hörmət və anlaşma ruhunda inkişaf etdirmək, beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq xüsusi təhlükəsizliyini təmin etmək üçün bütün dövlətlərin, xalqların iradəsinə müvafiq olaraq fəaliyyət göstərmək hüququnu tanıyır və ona riayət etmək, münasibətlərini inkişaf etdirmək və əməkdaşlığın yeni imkanlarını aşkar etmək məqsədi ilə dövlət və hökumət başçıları, parlamentlər arasında, siyasi partiyalar və habelə milli qanunvericiliyə uyğun olaraq yerli inzibati orqanlar səviyyəsində siyasi dialoqun genişləndirilməsini dəstəkləmək, ikitərəfli ticarət, iqtisadi, elmi-texniki, mədəniyyət, turizm, səhiyyə, idman, kütləvi informasiya vasitələri sahələrində münasibətləri genişləndirməyi həvəsləndirmək, sabitliyi qorumaq üçün regional və subregional səviyyədə digər dövlətlərlə əməkdaşlıq etmək barədə razılaşırdılar.

Bundan başqa, iki ölkə arasında elm, təhsil, mədəniyyət və idman, ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında sazişlər imzalandı^^°. Həmin sənədlər iki ölkə arasında əməkdaşlığın müqavilə-hüquq bazasını yaradırdı.

Azərbaycan Prezidentinin Rumıniyaya səfərinin böyük tarixi əhəmiyyəti var idi. Danışıqlarda iki ölkə arasında münasibətlərin ən vacib məsələləri müzakirə edilmişdi. Tərəflər qarşılıqlı münasibətlərin inkişaf etdirilməsinə dair razılığa gəlmişdilər. Azərbaycan Prezidentinin səfəri iki

Nikolay Vakaroyu (1943) - Baş Nazir (1992-1996). Senatın sədri (2000-2008).

Azərbaycan Respublikası ilə Rumıniya arasında dostluq və əməkdaşlıq münasibətləri haqqında bəyannamə. 2 iyul 1995-ci il. - Müqavilələr toplusu. I cild, s. 45-47.

[220] ARXINA. 12.06.1995-28.06.1995. Qovluq Rol4, v. 79.

ölkə arasında münasibətlərdə yeni bir səhifə açırdı. Bu səfərdən sonra əməkdaşlıq genişlənməyə başladı.

## Rumıniya Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsində maraqlıdır

Rumıniya Azərbaycanla neft və Xəzər dənizi ilə Qara dəniz arasında xüsusi nəqliyyat dəhlizinin qurulması sahələrində əməkdaşlıq etməkdə maraqlı idi. Rumıniya Prezidenti İon İlieskunun 1996-cı ilin mart ayında Azərbaycana rəsmi səfəri bu baxımdan əhəmiyyətli oldu. Bu, Rumıniya dövlət başçısının Azərbaycana ilk səfəri idi. Azərbaycan Prezidenti ilə keçirilən danışıqlarda ikitərəfli və regional məsələlər, iki ölkə arasında neft və nəqliyyat sahələrində əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri, Xəzər dənizi ilə Qara dəniz ətrafı ölkələri arasında sıx əməkdaşlığın qurulması məsələləri müzakirə edildi. İki dəniz arasında xüsusi nəqliyyat dəhlizinin yaradılmasının əhəmiyyəti qeyd olundu. Rumın hökuməti Qafqazda xüsusi mövqeyə malik olan Azərbaycan ilə Qara dəniz - Dünya hövzəsində mühüm yer tutan Rumıniya arasında əlaqələrin, Avropa - Asiya nəqliyyat dəhlizinin qurulmasına xüsusi maraq göstərirdi.

Danışıqlar zamanı Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycanın və ATƏT-in Minsk qrupunun səyləri müzakirə edildi. İon İlieskunun fikrincə, münaqişə region dövlətlərinin suverenliyi və müstəqilliyi prinsipləri əsasında həll edilməli idP'.

Rumıniya Prezidenti işgüzar dairələrin nümayəndələri və azərbaycanlı qaçqın və məcburi köçkünlərlə görüşlər keçirdi. O, ölkəsinin Azərbaycan ilə hərtərəfli əməkdaşlığına tərəfdar idi.

Səfərin yekununda iki ölkə arasında münasibətlərə dair bir sıra sənədlər imzalandı. Prezidentlər martın 27-də Azərbaycan Respublikası və Rumıniya arasında dostluq münasibətləri və əməkdaşlıq haqqında 21 maddədən ibarət müqaviləni imzaladılar”^". Müqavilə münasibətlərin inkişafı

Əliyev H.Ə. Azərbaycan - Rumıniya dövlətlərarası və hökumətlərarası sənədlər imzalandıqdan sonra birgə mətbuat konfransında bəyanat. 27 mart 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VI kitab, s.29.

Azərbaycan Respublikası ilə Rumıniya arasında dostluq münasibətləri və əməkdaşlıq haqqında müqavilə. 27 mart 1996-cı il. - Müqavilələr toplusu. I cild, s. 80-86.

baxımından ciddi bir sənəd idi. Azərbaycan Prezidenti Heydər Əliyev bununla bağlı olaraq deyirdi: "...müqavilə böyük tarixi əhəmiyyətə malikdir. Bu, Rumıniya ilə müstəqil Azərbaycan Respublikası arasında ilk belə sənəddir və dostluq münasibətlərimizin, ölkələrimiz, xalqlarımız arasında bütün istiqamətlərdə əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün zəmindir"^^^.

Həmin gün Azərbaycan Respublikası hökuməti və Rumıniya hökuməti arasında hava əlaqələri, ticarət gəmiçiliyi, beynəlxalq avtomobil daşımaları, turizm, Azərbaycan Respublikası Dövlət Elm və Texnika Komitəsi ilə Rumıniya Tədqiqatlar və Texnologiya Nazirliyi arasında elmi-texniki əməkdaşlıq, səhiyyə nazirlikləri arasında səhiyyə və tibb elmləri sahəsində əməkdaşlıq haqqında 1996-2000-ci illər üçün sazişlər, baytarlıq sahəsində əməkdaşlıq, bitkilərin mühafizəsi və fitosanitar karantini üzrə konvensiyalar imzalandı.

Rumıniya Prezidentinin Azərbaycana səfəri tarixi əhəmiyyət daşıyırdı. Danışıqlarda dövlətlərin ərazi bütövlüyü və suverenliyinin qorunması, mübahisəli məsələlərin danışıqlar yolu və beynəlxalq prinsiplərə uyğun olaraq həll edilməsi, bir-birinə qarşı zor işlədilməməsi, zor gücünə sərhədlərin dəyişdirilməsinin yolverilməzliyi təsdiqlənirdi. İmzalanan sənədlər iki ölkə arasında geniş sahələrdə əməkdaşlığa zəmin və münasibətlərin inkişafı üçün hüquqi baza yaradırdı.

Avropa - Qafqaz - Asiya nəqliyyat dəhlizinin qurulması, Azərbaycan neftinin alınması, ikitərəfli və regional məsələlər və s. 1998-ci il iyunun 29-dan iyulun 1-dək Rumıniya Prezidenti Emil Konstantineskunun^^" Azərbaycana rəsmi səfəri zamanı müzakirə olundu. Nümayəndə heyətinin tərkibinə iki ölkə arasında münasibətlərdə mühüm rol oynayan yüksək vəzifəli şəxslər daxil edilmişdilər. Həmin vaxtadək Azərbaycan və Rumıniya arasında faydalı əlaqələr yaranmışdı, müəyyən nailiyyətlər də mövcud idi^^^. Səfərdə məqsəd iki ölkə arasında əlaqələri inkişaf etdirmək üçün yeni addımlar atmaq idi.

Əliyev H.Ə. Azərbaycan - Rumıniya dövlətlərarası və hökumətlərarası sənədlər imzalandıqdan sonra birgə mətbuat konfransında bəyanat. 27 mart 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VI kitab, s.25.

Emil Konstantinesku (1939) - Rumıniya Prezidenti (1996-2000).

Əliyev H.Ə. Rumıniya Prezidenti Emil Konstantineskunun Binə hava limanında qarşılanma mərasimində bəyanat. 29 iyun 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVI kitab, s. 135.

Heydər Əliyev ilə Emil Konstantineksu arasında keçirilən təkbətək görüşdə iki ölkə arasında o zamanadək imzalanan sənədlər yüksək qiymətləndirildi. Azərbaycan Prezidenti ölkədə aparılan islahatlar, Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlənilməsi, 1997-ci ilin noyabrında "Çıraq" yatağından ilkin neftin hasil edilməsi, Bakı - Supsa neft boru kəmərinin tikintisinin davam etməsi, Bakı - Ceyhan əsas ixrac neft boru kəmərinin inşası üçün müəyyən hazırlıqların aparılması, Avropa - Qafqaz - Asiya nəqliyyat dəhlizinin dünya ölkələri arasında qarşılıqlı surətdə faydalı əlaqələrinin daha da möhkəmləndirilməsində böyük perspektivlərə malik olması, Ermənistanın Azərbaycana təcavüzü və onun nəticələri, ATƏT-in Minsk qrupunun səyləri barədə danışdı^^^. Emil Konstantinesku iki ölkə arasında münasibətlərin inkişafına xüsusi əhəmiyyət verirdi. Rumıniya tərəfi Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə beynəlxalq normalara uyğun surətdə tezliklə aradan qaldırılmasına tərəfdar idi.

Təkbətək görüş başa çatdıqdan sonra nümayəndə heyətlərinin iştirakı ilə danışıqlar başladı. Danışıqlarda ikitərəfli münasibətlərin ən aktual problemləri müzakirə edildi. Heydər Əliyev ölkədə aparılan islahatlar və neft sahəsində əməkdaşlıqdan danışdı^^'. Azərbaycan Prezidenti Ermənistanın təcavüzü və nəticələri, ATƏT-in Minsk qrupunun fəaliyyəti üzərində dayandı. Azərbaycan münaqişənin Lissabon zirvə görüşünün qəbul etdiyi prinsiplər əsasında həllinə tərəfdar idi. Qeyd etmək lazımdır ki, ikitərəfli münasibətlərə və regional məsələlərə yanaşmada tərəflərin baxışları üst- üstə düşürdü.

Rumıniya Azərbaycanın neft və qazının alınmasına xüsusi maraq göstərirdi. Rumıniyanın Qara dəniz sahilindəki Konstansa limanında neft terminalı var idi. Bu, gücünə görə Qara dənizdə ən böyük, Avropada isə beşinci liman idi. Rumıniyanın böyük neftayırma kombinatı fəaliyyət göstərirdi. Rumıniya ərazisi vasitəsi ilə Avropanın digər yerlərinə 30 milyon ton neft nəql etmək mümkün idi. Azərbaycan və Rumıniya bu sahədə

® Əliyev H.Ə. Azərbaycan Prezidentinin Rumıniya Prezidenti Emil Konstantinesku ilə təkbətək görüşdəki söhbətdən. 30 iyun 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVI kitab, s. 136-139.

Əliyev H.Ə. Azərbaycan Respublikası Prezidentinin və Rumıniya Prezidenti Emil Konstantineskunun təkbətək görüşü başa çatdıqdan sonra hər iki ölkənin nümayəndə heyətləri arasında Azərbaycan - Rumıniya danışıqlarında çıxış. 30 iyun 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVI kitab, s. 140-144.

əməkdaşlığa ciddi əhəmiyyət verirdilər. Rumıniya Böyük İpək yolunun bərpasına da maraq göstərirdi.

Danışıqlar başa çatdıqdan sonra, iyunun 30-da iki ölkə arasında sənədlərin imzalanma mərasimi oldu. Azərbaycan Respublikası və Rumıniya arasında dostluq münasibətlərinin və tərəfdaşlığın inkişafı haqqında 11 bənddən ibarət olan bəyannamə^"®, dövlət mətbuat agentlikləri arasında əməkdaşlıq, nəqliyyat, beynəlxalq qarışıq daşımalar haqqında sazişlər imzalandı.

Bəyannamədə yazılırdı ki, iki ölkə BMT nizamnaməsini və ATƏT sənədlərini rəhbər tutaraq münasibətlərini bir-birinin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına hörmət edilməsi və dəstəklənməsinə əsaslanan qarşılıqlı hörmət, etimad və tərəfdaşlıq ruhunda qururlar. Ölkələr dövlətin və cəmiyyətin demokratik qurumlarının və təsisatlarının fəaliyyət göstərməsi, bazar iqtisadiyyatının inkişafı məqsədi ilə həyata keçirilən toplantılarda bir-birinə qarşılıqlı dəstək verir, beynəlxalq təşkilatlar çərçivəsində ikitərəfli əməkdaşlığa əlverişli şərait yaratmağa çalışırdılar. Azərbaycan 2001-ci ildə ATƏT-də Rumıniyanın sədrliyini dəstəkləyirdi. Hər iki ölkə dövlətlərin ərazi bütövlüyünə və insan hüquqlarına hörmət edir, hər cür mübahisələrin yalnız sülh vasitəsilə, BMT nizamnaməsinə, ATƏT prinsiplərinə uyğun həllinə tərəfdar çıxırdı. Tərəflər dövlətlərarası münasibətlərdə zor işlətmənin və ya zor işlətməklə hədələməyin yolverilməz olduğu prinsipinə tərəfdar olduqlarını bir daha təsdiq edirdilər. BMT nizamnaməsinə və ATƏT prinsiplərinə uyğun olaraq münaqişələrin dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına hörmət və riayət edilməsi əsasında sülh yolu ilə nizamlanmasına, vahid və bölünməz Avropada etimad və təhlükəsizlik mühitinin möhkəmləndirilməsinə tərəfdar çıxır. Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Lissabon sammitinin üç prinsipi əsasında tezliklə sülh yolu ilə həll edilməsini dəstəkləyirdilər. Tərəflər müxtəlif səviyyələrdə siyasi dialoqu, o cümlədən parlamentlərarası əlaqələrin inkişafını, ikitərəfli və çoxtərəfli məsləhətləşmələri vacib hesab edirdilər. Onlar bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan qarşılıqlı surətdə faydalı iqtisadi əməkdaşlığın inkişafına və mal dövriyyəsinin əhəmiyyətli dərəcədə artmasına kömək edəcəkdilər. Tərəflər nəqliyyat və tranzit xətləri sahəsində əməkdaşlığı inkişaf etdirəcəkdilər. Bu baxımdan Avrasiya nəqliyyat dəhlizinin yara-

Azərbaycan Respublikası ilə Rumıniya arasında dostluq münasibətlərinin və tərəfdaşlığın birgə inkişafı haqqında bəyannamə. 30 iyun 1998-ci il. - Mü qavilələr toplusu. I cild, s. 178-182.

dılmasma və fəaliyyət göstərməsinə müstəsna əhəmiyyət verir və həmin dəhlizin sabit inkişafının təmin edilməsinə yönəlmiş səyləri dəstəkləyirdilər. Onlar iki ölkənin müdafiə strukturları arasında və hərbi-texniki sahədə qarşılıqlı fəaliyyəti həyata keçirirdilər. Tərəflər insan hüquqlarının qorunması və mütəşəkkil cinayətkarlığa qarşı birgə əməkdaşlıq edirdilər.

Sənədlərin imzalanması mərasimindən sonra prezidentlər bəyanatla çıxış edərək Xəzər dənizi ilə Qara dəniz arasında olan yollar, Avropa - Qafqaz - Asiya nəqliyyat magistralının qurulması və digər vasitələrin çox əhəmiyyətli olduğunu bildirdilər"'. Emil Konstantineskunun fikrincə, Rumıniya və Azərbaycan qədim ənənələrə, tarixə malik iki ölkə idi və onlar eyni proseslərlə, tamamilə yeni təcrübə ilə üzləşirdilər^^®.

Rumıniya Prezidentinin Azərbaycana səfərinin tarixi əhəmiyyəti var idi. İki ölkə arasında imzalanan bəyannamədə həm dövlətlər arasındakı əlaqələrin inkişaf etdirilməsi yolları, prinsipləri göstərilmiş, həm də çox vacib olan beynəlxalq hüquq normalarının hər iki dövlət tərəfindən şərtsiz qəbul olunması ifadə edilmişdi. Səfər və imzalanan sənədlər iki ölkə arasında qarşılıqlı münasibətlərdə yeni dövr açırdı. Bundan sonra Rumıniya Azərbaycan ilə əməkdaşlığa xüsusi diqqət yetirməyə başladı. Bu maraq özünü 1998-ci il sentyabrın 7-8-də Böyük Tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfransda Rumıniya Prezidenti Emil Konstantineskunun başçılıq etdiyi nümayəndə heyətinin iştirakında göstərdi. Həmin səfərdən bir müddət sonra, noyabrın 3-də Azərbaycanda Rumıniyanın səfirliyi fəaliyyətə başladı. Rumıniyanın Azərbaycandakı ilk səfiri Təhsin CəmiP^' oldu.

## Əməkdaşlıq yeni sahələri əhatə edir

Azərbaycan - Rumıniya münasibətləri inkişaf edərək yeni sahələri əhatə etməyə başladı. Belə sahələrdən biri hərbi-siyasi və təhlükəsizlik idi. Azərbaycanın müdafiə naziri Səfər Əbiyevin 1999-cu il iyulun 13-15-də

Əliyev H.Ə. Azərbaycan - Rumıniya sənədlərinin imzalanması mərasimindən sonra birgə mətbuat konfransında bəyanat. 30 iyun 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVI kitab, s. 145-153.

Əliyev H.Ə. Rumıniya Prezidenti Emil Konstantineskunun bəyanatı. 30 iyun 1998-ci il. — Müstəqilliyimiz əbədidir. XVI kitab, s. 147-148.

Təhsin Cəmil (1943) - Rumıniya tarixçi, tərcüməçi, diplomatı və siyasətçisi. Parlamentin deputatı (1990-1996). Azərbaycanda (1998-2003), Türkmənistanda (2004-2008) səfir.

Rumıniyaya səfəri zamanı ikitərəfli əməkdaşlıq məsələləri müzakirə edildi. Danışıqların nəticəsində, iyulun 14-də Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Rumıniyanın Milli Müdafiə Nazirliyi arasında əməkdaşlıq haqqında saziş imzalandı. Saziş hərbi əməkdaşlığın müxtəlif tərəflərini əhatə edirdi.

Hərbi sahədə əməkdaşlığın genişləndirilməsində mühüm addım 2000- ci il fevralın 14-17-də Rumıniyanın müdafiə naziri V.Babyukun Azərbaycana səfəri oldu. Səfər zamanı hərbi-texniki sahədə əlaqələri genişləndirməyə dair danışıqlar oldu. Fevralın 15-də Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Rumıniyanın Milli Müdafiə Nazirliyi arasında hərbi təhsil sahəsində əməkdaşlıq haqqında imzalanan protokol əməkdaşlığı dərinləşdirirdi.

İki ölkə arasında parlamentlərarası əlaqələr də quruldu. Rumıniya senatının xarici siyasət komissiyasının sədri Giorgi Prisakarunun başçılığı ilə nümayəndə heyətinin həmin il iyunun 11-14-də Azərbaycana səfərində məqsəd parlament əlaqələrini daha da inkişaf etdirmək idi. Nümayəndə heyətinin Azərbaycan Prezidenti Heydər Əliyev ilə görüşündə iki ölkə arasında əməkdaşlığın, o cümlədən parlament sahəsində əməkdaşlığın geniş perspektivləri müzakirə olundu^^". Həmin müzakirələrin konkret nəticəsi oldu. Belə ki, səfərdən bir müddət sonra, 2000-ci il noyabrın 5-də Azərbaycan Respublikası Milli Məclisində Azərbaycan - Rumıniya par- lamentlərarası dostluq qrupu yaradıldı.

İki ölkə arasında əməkdaşlığı yeni səviyyəyə qaldırmaq üçün Azərbaycanın Rumıniyada səfirliyinin açılması artıq zərurətə çevrilmişdi. 2001- ci il martın 17-də Buxarestdə Azərbaycan Respublikasının səfirliyinin açılması haqqında qanun qəbul edildi^^^. Eldar Həsənova fövqəladə və səlahiyyətli səfir dərəcəsi verildi^^'* O, Azərbaycanın Rummiyadakı ilk sə-

Əliyev H.Ə. Rumıniya senatının xarici siyasət komissiyasının sədri Giorgi Prisakarunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə söhbət. 13 iyun 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXVIII kitab, s.127-137.

Azərbaycan Respublikasının Rumıniyada (Buxarest şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının qanunu. 27 mart 2001-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. II hissə, s.106.

E.H.Həsənova Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri dərəcəsinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. 28 mart 2001-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. II hissə, s. 106.

fıri təyin edildi^^^. Azərbaycanın Rumıniyada səfirliyi mayın 19-da fəaliyyətə başladı.

İki ölkə arasında əməkdaşlıq və müzakirələr daha da genişləndirildi. Bu baxımdan Azərbaycanın xarici işlər naziri Vilayət Quliyevin 2001-ci il dekabrın 2-3-də Buxarestdə keçirilmiş ATƏT-in xarici işlər nazirlərinin görüşü zamanı Rumıniyanın xarici işlər naziri Mirço Ceona, ATƏT Parlament Assambleyasının sədri Adrian Severin, ATƏT-in baş katibi Yan Kubiş və digər şəxslərlə görüşərək Dağlıq Qarabağ münaqişəsinin həllinə, ikitərəfli münasibətlərin inkişafına dair fikir mübadiləsi etməsi əhəmiyyətli oldu"^^. Bütün bunlar qarşılıqlı münasibətlərdə yeni imkanlar açırdı.

## Rumıniya Prezidenti İon İlieskunun Azərbaycana rəsmi səfəri əməkdaşlığa impuls verir

İki ölkə arasında əməkdaşlıqda 2002-ci il oktyabrın 29-30-da Rumıniya Prezidenti İon İlieskunun rəhbərliyi altında nümayəndə heyətinin Bakıya rəsmi səfəri mühüm yer tutdu^^'. Azərbaycan və Rumıniya prezidentləri əvvəlcə təkbətək görüşərək iki ölkə arasında əlaqələrin vəziyyəti və genişləndirilməsinin perspektivləri, beynəlxalq terrorizmə qarşı mübarizədə səylərin birləşdirilməsi zərurəti, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq. Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli yolları məsələlərini müzakirə etdilər^^*. Onlar bu barədə ümumi rəydə idilər.

Daha sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danı şıqlar oldu"^^. Hər iki ölkə bu zaman siyasi və iqtisadi cəhətdən dərin də-

E.H.Həsənovun Azərbaycan Respublikasının Rumıniyada fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. 28 mart 2001-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. II hissə, S.107.

Xarici işlər nazirinin Buxarestə səfəri. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 1061-1063.

Rumıniya Prezidenti İon İlieskunun Azərbaycana rəsmi səfəri. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. 1 hissə, s. 821-822.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Rumıniya Prezidenti İon İliesku ilə təkbətək görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 822-823.

Geniş tərkibdə Azərbaycan - Rumıniya danışıqları. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 823-824.

yişikliklər dövrünü yaşayırdı. İqtisadi sahədə ortaq komissiya fəaliyyət göstərirdi. Rumıniya Azərbaycan ilə əlaqələrin genişləndirilməsinə xüsusi maraq göstərirdi.

Danışıqlar başa çatdıqdan sonra, oktyabrın 29-da sənədlərin imzalanma mərasimi oldu"'*'’. Azərbaycan Respublikası və Rumıniya arasında tərəfdaşlıq haqqında bəyannamə imzalandı^'". Bəyannamədə iki ölkə arasında münasibətlərin geniş inkişaf perspektivləri müəyyənləşdirilmişdi. Həmçinin kosmik məkanın sülh məqsədləri üçün istifadəsi və tədqiq olunması sahəsində əməkdaşlığa dair Azərbaycan Milli Aerokosmik Agentliyi və Rumıniya Kosmik Agentliyi arasında anlaşma memorandumu, investisiyalarının təşviqi və qarşılıqlı qorunması haqqında saziş, Azərbaycan Respublikası və Rumıniya arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında konvensiya imzalandı.

Rumıniya Prezidenti Milli Məclisdə görüş keçirdi, Gəncə və Mingəçevirə səfər etdi. Qeyd etmək lazımdır ki, İ.İliesku hələ Moskvada tələbə kimi təhsil alarkən Mingəçevir su elektrik stansiyasında praktikada olmuşdu. Gəncə və Mingəçevirə səfər Rumıniya Prezidentində dərin iz buraxmışdı.

İon İliesku Azərbaycan və Rumıniya iş adamları, Azərbaycan elm və mədəniyyət xadimləri, dostluq cəmiyyətinin üzvləri ilə görüşdü.

Rumıniya Prezidentinin Azərbaycana səfərinin böyük əhəmiyyəti var idi. Danışıqlar zamanı beynəlxalq və Cənubi Qafqaz məsələlərinə baxışda tərəflərin mövqelərinin eyniliyi bir daha məlum oldu. İmzalanan sənədlər münasibətlərin təməllərini möhkəmləndirir, hüquqi çərçivəni tamamlayırdı. Ticarət-iqtisadi əməkdaşlığı daha da genişləndirmək sahəsində niyyət ortaya qoyulmuşdu. Rumıniya ATƏT-in Minsk qrupu həmsədrlərinin səylərini dəstəkləyirdi.

2003-cü ildə iki ölkə arasında əlaqələr daha da intensivləşdi. Xüsusilə hərbi sahədə əməkdaşlıq genişləndi. Azərbaycanın müdafiə naziri Səfər Əbiyevin Rumıniyaya aprelin 1-4-də rəsmi səfəri zamanı iki ölkə arasında hərbi sahədə əməkdaşlıq məsələləri müzakirə edildi və müvafiq sənədlər imzalandı.

---

Sənədlərin imzalanması mərasimi, Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2002.1 hissə, s. 827-828.

Azərbaycan Respublikası ilə Rumıniya arasında tərəfdaşlıq haqqında bəyannamə. 29 oktyabr 2002-ci il. - Müqavilələr toplusu. 1 cild, s.246-250; Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. II hissə, s.543-546.

Xarici işlər naziri Vilayət Quliyevin mayın 27-30-da Rumıniyanın xarici işlər naziri Mirço Ceoananm dəvəti ilə bu ölkəyə rəsmi səfəri çərçivəsində müzakirə edilən məsələlər əməkdaşlığın inkişafı baxımından əhəmiyyətli oldu^'*^. Danışıqlarda ikitərəfli və beynəlxalq məsələlər müzakirə edildi.

Qeyd etmək lazımdır ki, Azərbaycan ilə Rumıniya arasında ticarət-iqtisadi əməkdaşlıq da inkişaf edirdi. 2003-cü ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 7,8 mln.dollar idi. Bunun 1,6 mln dolları Rumıniyaya ixracın, 6,2 mln. dolları isə Rumıniyadan idxalın payına düşürdü.

Ümumiyyətlə, 1991-2003-cü illərdə Azərbaycan - Rumıniya münasibətləri qurulmuş, inkişaf etdirilmiş və yeni sahələri əhatə etmişdir. Rumıniya Azərbaycanın dövlət müstəqilliyini tanıyan ikinci ölkə olmuşdur. İki ölkə arasında münasibətlərin müqavilə-hüquq bazası qurulmuşdur. Rumıniya Azərbaycanın müstəqilliyini və ərazi bütövlüyünü müdafiə etmişdir. Azərbaycanın zəngin neft və qaz ehtiyatları Rumıniyanı maraqlandırmış və neftin ərazisindən keçirilərək Avropaya nəqlinə maraq gös- tənnişdir. Rumıniya Böyük İpək yolunun bərpasına töhfəsini vermişdir. İki ölkə arasında əməkdaşlıq dərinləşərək müdafiə, təhlükəsizlik və s. sahələri də əhatə etmişdir. Ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq qarşılıqlı münasibətlərdə xüsusi yer tutmuşdur.

## POLŞA RESPUBLİKASI İLƏ MÜNASİBƏTLƏRİN QURULMASI VƏ İNKİŞAF ETDİRİLMƏSİ

### İki ölkə arasında birbaşa əlaqələr qurulur. Qarşılıqlı münasibətləri şərtləndirən amillər

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının xarici siyasətinin Avropa istiqamətində mühüm yerlərdən birini Polşa Respublikası ilə münasibətlər tutdu. Polşa 1991-ci il dekabrın 27-də Azərbaycanın dövlət müstəqilliyini tanıdı. 1992-ci il fevralın 21-də isə iki ölkə arasında diplomatik əlaqələr quruldu""^. Lakin 1993-cü ilədək qarşılıqlı əlaqələr geniş deyildi.

Azərbaycanın xarici işlər nazirinin Rumıniyaya rəsmi səfəri. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. I hissə, s. 225-228.

ARXİNA. 2008.

Münasibətləri inkişaf etdirməyə və dərinləşdirməyə ehtiyac duyulurdu. 1997-ci il avqustun 25-28-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Polşaya rəsmi səfəri bu baxımdan mühüm rol oynadı. Bu, Azərbaycan Respublikası Prezidentinin Polşaya ilk səfəri idi.

Azərbaycanın Polşa ilə münasibətlərə xüsusi diqqət yetirməsi səbəbsiz deyildi. Məlum olduğu kimi, hələ orta əsrlərdən etibarən Azərbaycan ilə Polşa arasında zəngin əlaqələr mövcud olmuşdu. Sonrakı dövrlərdə çar Rusiyasının tərkibində olduğu bir zamanda Azərbaycanda çoxlu sayda polyaklar yaşamışdılar. Polyaklar Azərbaycan Xalq Cümhuriyyəti dövründə müxtəlif sahələrdə fəaliyyət göstərmişdilər. Bakıda polyak memarlarının tikdiyi binalar saxlanılır. Azərbaycan bolşevik Rusiyası tərəfindən işğal edildikdən sonra bir çox azərbaycanlı siyasi mühacir Polşada sığınacaq tapmışdı. Azərbaycanlılar polyaklarla birlikdə İkinci dünya müharibəsi illərində faşizmə qarşı partizan və müqavimət hərəkatında fəal iştirak etmişdilər. Müharibədən sonrakı illərdə Azərbaycanın Polşa ilə əsasən mədəniyyət sahəsində saxladığı əlaqələr Mərkəzi hökumətin vasitəsilə həyata keçirilmişdi. Müstəqil Azərbaycan Respublikasında da polyak mənşəli vətəndaşlar yaşayırdılar.

Əlverişli strateji mövqedə yerləşən, Avropanın böyük ölkəsi, Avropa İttifaqı və Avropa Şurasının üzvü kimi Polşa Azərbaycan Respublikası üçün əhəmiyyətli idi. Azərbaycan Respublikası Polşa ilə əməkdaşlığı xarici siyasətinin mühüm tərkib hissəsi hesab edirdi.

Polşa da Azərbaycan Respublikasına xüsusi maraq göstərirdi. Azərbaycanın Şərq ilə Qərb arasında əlverişli coğrafi-strateji mövqedə yerləşməsi, zəngin təbii sərvətləri, xüsusən neft və qaz ehtiyatları Polşanın maraq dairəsində idi.

Azərbaycan Prezidentinin Polşaya səfərində məqsəd iki ölkə arasında münasibətləri daha da inkişaf etdirmək və dərinləşdirmək idi. Digər bir tərəfdən 1998-ci ildə Polşa ATƏT-ə sədrlik edəcəkdi. Azərbaycan tərəfi Dağlıq Qarabağ münaqişəsinin həlli üçün yaradılmış Minsk qrupunun səylərinin artırılmasını istəyirdi.

Səfər çərçivəsində Heydər Əliyev və Polşa Prezidenti Aleksandr Kvasnevski^'*'* ikitərəfli münasibətlərin bir çox tərəflərini müzakirə etdilər. Azərbaycanın dövlət müstəqilliyinin əbədi və dönməz olduğunu vurğulayan, dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycanın üzləşdiyi

Aleksandr Kvasnevski (1954) - Polşanın siyasi və dövlət xadimi. Polşa seyminin deputatı (1991-1995). Polşa Respublikasının Prezidenti (1995-2005).

problemlərə toxunan, Ennənistamn hərbi təcavüzü üzərində dayanan, onun nəticələrinə diqqəti cəlb edən Azərbaycan Prezidenti münaqişənin həlli istiqamətində ATƏT-in Minsk qrupunun səylərindən danışdı.

Danışıqlarda Polşanın Azərbaycan neftinə marağı ilə bağlı məsələyə də diqqət yetirildi. Qeyd etmək lazımdır ki, bu zaman Azərbaycan neftinin Qara dənizə çıxarılması üçün iki boru kəməri tikilirdi. Bunlardan biri Rusiya ərazisindən keçərək Novorossiysk limanına, digəri isə Gürcüstan ərazisi ilə Supsa limanına gedəcəkdi. Gürcüstan və Türkiyə ərazisindən keçərək Aralıq dənizindəki Ceyhan limanına gedəcək üçüncü boru kəməri isə planlaşdırılırdı. Azərbaycan tərəfinin fikrincə, bu boru kəmərləri kifayət deyildi. Polşa layihələrdə və Avrasiya nəqliyyat dəhlizində iştirak etməyə maraq göstərirdi. Bu nəqliyyat dəhlizi ilə yüklər Mərkəzi Asiyadan Xəzər dənizi, Azərbaycan vasitəsi ilə Avropaya və oradan da geriyə daşınırdı. Polşa qədim Böyük İpək yolunun bərpasında maraqlı idi.

Azərbaycanın NATO-nun Sülh naminə tərəfdaşlıq proqramında da iştirakı müsbət qarşılandı. Polşa çoxtərəfli əsasda, beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan ilə əməkdaşlıq üçün səylər edəcəkdi.

Dövlət başçıları qarşılıqlı münasibətləri genişləndirmək niyyətlərini ifadə etdilər. Bakıda Polşanın, Varşavada Azərbaycanın səfirliklərinin açılması barədə razılığa gəlindi.

Danışıqlar başa çatdıqdan sonra, avqustun 26-da sənədlərin imzalanması mərasimi oldu. İmzalanan sənədlər içərisində iki ölkə arasında dostluq və əməkdaşlığın inkişaf etdirilməsi haqqında 9 bənddən ibarət olan bəyannamə böyük əhəmiyyət daşıyırdı^"^. Eyni zamanda Azərbaycan hökuməti ilə Polşa hökuməti arasında iqtisadi əməkdaşlıq və ticarət haqqında saziş, ikiqat vergiyə cəlb etməyə yol verilməməsi, gəlir və əmlak vergilərinin ödənilməsindən yayınma hallarının qarşısının alınması haqqında konvensiya, xarici işlər nazirlikləri arasında əməkdaşlıq haqqında protokol, mədəni və elmi əməkdaşlıq, sərmayələrin qarşılıqlı təşviqi və qorunması, mülki hava daşımaları, turizm sahəsində əməkdaşlıq haqqında sazişlər imzalandı.

Sənədlərin imzalanma mərasimində Aleksandr Kvasnevski və Heydər Əliyev çıxış etdilər. A. Kvasnevskinin fikrincə, imzalanan sənəd-

^ Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında dostluq münasibətlərinin və əməkdaşlığın inkişafı haqqında bəyannamə. 26 avqust 1997-ci il. - Müqavilələr toplusu. I cild, s.146-149.

lər "...Polşa ilə Azərbaycan arasında siyasi, iqtisadi, hüquqi, mədəni, elmi, turizm sahələrində əməkdaşlığa yaxşı zəmin" yaradırdı^'**'.

Azərbaycan Prezidenti Polşa Ticarət Palatasında işgüzar dairələrin nümayəndələri ilə görüşərək ölkəsində xarici sərmayə üçün yaradılan şəraitdən, imzalanmış neft müqavilələrindən, Avrasiya nəqliyyat dəhlizindən və sənayenin imkanlarından danışdı. Polşa iş adamlarını Azərbaycana dəvət etdi. Səfər zamanı Polşa - Azərbaycan Ticarət-Sənaye Palatası təsis edildi.

Heydər Əliyev Polşa seyminin marşalı (sədri) Yuzef Zıx^"^ ilə görüşdü^"^. Görüş zamanı o, Azərbaycanda aparılan islahatlar və Ermənistanın təcavüzü üzərində dayandı.

Azərbaycan Prezidenti həmçinin Polşa senatının vitse-marşah xanım Zofiya Kuratovskaya, xarici işlər naziri Darius Rosati^'*^, Nazirlər Şurasının sədri Vlodzimey Cimoşeviç ilə keçirdiyi danışıqlarda ölkədə aparılan islahatlar, xarici iqtisadi əlaqələr barədə danışdı və əməkdaşlığın dərinləşdirilməsinin vacibliyini vurğuladı. Ermənistanın təcavüzü üzərində dayanan Heydər Əliyev ATƏT-in növbəti sədri kimi Polşanın bu münaqişənin dinc yolla həllinə səylər göstərəcəyinə ümid ifadə etdi.

Heydər Əliyev Polşadakı Azərbaycan diasporasının nümayəndələri ilə görüşərək ölkədəki daxili ictimai-siyasi proseslər haqqında danışdı.

Azərbaycan Prezidentinin Polşaya səfərinin və imzalanan sənədlərin böyük əhəmiyyəti var idi. Bunlar iki ölkə arasında münasibətlərdə tarixi hadisə idi. Hər şeydən əvvəl, ilk dəfə olaraq iki ölkə arasında birbaşa münasibətlər qurulurdu. Aparılan danışıqlar faydalı olmuşdu. İmzalanan sənədlər bütün sahələrdə əməkdaşlığı inkişaf etdirmək və dərinləşdirmək üçün yaxşı normativ-hüquqi baza yaradırdı. Polşa Azərbaycanın dövlət müstəqilliyini və ərazi bütövlüyünü tanıyır, neft və qaz sahəsində və b. əməkdaşlıq etmək, Azərbaycana sənnayələr qoymaq üçün imkanlar qazanırdı. Tarixi Böyük İpək yolunun bərpasına polyak hökuməti maraq

Əliyev H.Ə. Azərbaycan və Polşa arasında əməkdaşlığın müxtəlif sahələrini əhatə edən sənədlərin imzalanma mərasimindən sonra Polşa və Azərbaycan prezidentlərinin bəyanatları və birgə mətbuat konfransı. 26 avqust 1997-ci il. - Müstəqilliymiz əbədidir. XII kitab, s. 31.

YuzefZıx (1938)- Polşa seyminin marşalı (sədri) (1995-1997).

Əliyev H.Ə. Polşa seyminin marşalı (sədri) YuzefZıx ilə görüşdə söhbətdən. 27 avqust 1997-ci il. - Müstəqilliymiz əbədidir. Xll kitab, s. 57-59.

Darius Rosati (1946) - Polşanın xarici işlər naziri (1995-1997).

göstərirdi. Azərbaycan Prezidentinin səfəri qarşılıqlı münasibətlərdə yeni bir səhifə açırdı.

## Münasibətləri sıxlaşdırmaq üçün yeni imkanlar

Səfərdən sonra qarşılıqlı münasibətlərdə dinamizin artdı. 1998-ci il noyabrın 25-26-də Polşanın xarici işlər naziri və ATƏT-in fəaliyyətdə olan sədri Bronislav Geremekin Azərbaycana səfəri zamanı Heydər Əliyev ilə görüşdə Dağlıq Qarabağ münaqişəsinin dinc yollarla həlli məsələləri müzakirə olundu. Azərbaycan tərəfi Minsk qrupunun səylərinin artırılmasını xahiş etdi. Polşa ATƏT-in fəaliyyətdə olan sədri kimi münaqişənin həlli istiqamətində səylərini əsirgəməyəcəyi vədini verdi.

İki ölkə arasında münasibətlərdə mühüm mərhələni 1999-cu il oktyabrın 27-29-da Polşa Prezidenti Aleksandr Kvasnevskinin Azərbaycana rəsmi səfəri təşkil etdi. Bu, Polşa Prezidentinin Azərbaycana ilk rəsmi səfəri idi. Nümayəndə heyətinin tərkibinə Polşanın mühüm sahələrinin yüksək vəzifəli şəxsləri və işgüzar dairələrinin nümayəndələri daxil edilmişdilər. Danışıqlarda ikitərəfli münasibətlər, xüsusən iqtisadi əməkdaşlıq məsələləri, Qafqazda şərait. Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizama salınması məsələləri müzakirə edildi. Müzakirə olunan məsələlərə dair tam qarşılıqlı anlaşmaya nail olundu. Azərbaycan Prezidenti Polşanı yaxın və dost ölkə hesab edirdi. A.Kvasnevski isə Azərbaycan ilə münasibətlərə verdiyi əhəmiyyəti xüsusi qeyd edərək dedi: “Polşa Avropa ilə Asiyanın qovuşduğu yerdə coğrafi-siyasi cəhətdən xüsusi əhəmiyyət daşıyan Azərbaycanla əlaqələrin daha da sıxlaşdırılması üçün bütün imkanlardan istifadə edəcəkdir”.

Polşa Avropanın nəqliyyat infrastrukturunun İpək yoluna qoşulmasını, Baltik dənizi ilə Qara dəniz, Cənubi Qafqaz ilə Mərkəzi Avropa arasındakı məkanda regional əməkdaşlıq ideyasının dinamik inkişaf tapmasını və neftin Xəzər dənizindən Qərbi Avropaya nəqlinə dair iri layihədə iştirak etmək istəyirdi"^”. Azərbaycan tərəfi Polşanın NATO-ya üzv qəbul edilməsini müsbət qarşıladı. Azərbaycanın ərazi bütövlüyünü müdafiə

Əliyev H.Ə. Polşa Respublikasının Prezidenti Aleksandr Kvasnevski ilə təkbətək görüşdəki söhbətdən. 27 oktyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXII kitab, s. 359-360.

etdiyini deyən Polşa Prezidenti vurğuladı: "Dağlıq Qarabağ münaqişəsinin dincliklə nizama salınması yollarının axtarışını dəstəklədiyimizi demək istəyirəm... Biz Sizin xidmətinizdəyik və ümidvaram ki, İstanbul zirvə görüşü bu cür axtarışlar üçün məqam ola bilər"^^'.

Nümayəndə heyətinin tərkibinə daxil olan nazirlər və iş adamları ikitərəfli əlaqələrə, mədəniyyət, turizm sahəsində əməkdaşlığa dair məsələləri müzakirə etdilər. Baş Nazir Artur Rasizadə ilə keçirilən görüşdə Polşada həyata keçirilən proqramlar - metallurgiya sənayesinə, hərbi kompleksə və digər sahələrə aid proqramlar barədə məlumat verildi. Polşa tərəfi neftin emalı, neft məhsullarının istehsalı, bu prosesdə Polşa müəssisələrinin iştirakı məsələlərinə böyük maraq göstərirdi. Danışıqlar zamanı Polşa tərəfi Azərbaycan neftinin Odessa - Brodi - Qdansk marşrutu ilə nəqli məsələsini qaldırdı, GUÖAM proqramının mahiyyəti haqqında maraqlandı. Görüşdə dəmiryol, avtomobil nəqliyyatı sahəsində əməkdaşlıq, dava-dərman, mebel, digər ənənəvi malların göndərilməsi məsələləri müzakirə edildi. Daha sonra Azərbaycanda şəkər və sement zavodlarının tikintisinin mümkünlüyü. Polşa texnologiyalarının və ərzaq məhsullarının göndərilməsi məsələləri müzakirə edildi.

Azərbaycan ilə münasibətləri beynəlxalq təşkilatlar və NATO çərçivəsində də saxlamaqda maraqlı olan Polşa təhlükəsizlik məsələləri ilə bağlı məsləhətləşmələrin keçirilməsini zəruri hesab edirdi. Danışıqlar zamanı belə məsləhətləşmələrin vaxtının 2000-ci ilin bahar aylarında keçirilməsi təklif edildi.

Müzakirə edilən məsələlərin bir çoxuna dair razılıq əldə edildi. Bir qisminin isə müzakirəyə ehtiyacı var idi. Azərbaycan və Polşa xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələr müsbət qiymətləndirildi. Polşada Azərbaycan səfirliyinin açılması məsələsi zəruri hesab edildi.

Oktyabrın 27-də iki ölkə arasında sənədlərin imzalanma mərasimi oldu. Azərbaycan və Polşa prezidentləri birgə bəyanat imzaladılar^^^. Bəyanat iki ölkə arasında hərtərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi

Əliyev H.Ə. Azərbaycan və Polşa nümayəndə heyətləri arasında danışıqlarda çıxış. 27 oktyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXII kitab, s. 361-373.

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin və Polşa Respublikası Prezidenti Aleksandr Kvasnevskinin birgə bəyanatı. 27 oktyabr 1999-cu il. - Mü qavilələr toplusu. I cild, s. 183-184.

VƏ dostluğun möhkəmləndirilməsi üçün əsas idi^^^. Daha sonra neft sənayesi sahəsində əməkdaşlıq haqqında niyyət protokolu imzalandı. Bu, iki ölkə arasında əməkdaşlığın inkişafı üçün yaxşı təməl yaradırdı.

Polşa Prezidentinin Azərbaycana səfərinin böyük əhəmiyyəti var idi. Bu, ölkələr arasında qarşılıqlı münasibətlərin yeni keyfiyyət mərhələsinə yüksəldiyini göstərirdi. Siyasi əməkdaşlıq, məsləhətləşmələr davam edirdi. Mədəni və elmi əməkdaşlığın müxtəlif formaları qurulurdu. Ticarət dövriyyəsi artırdı. Polşa Azərbaycanı NATO proqramları, Avropa strukturları çərçivəsində dəstəkləyəcəyini, ATƏT çərçivəsində Dağlıq Qarabağ münaqişəsinin həllinə səy göstərəcəyini bəyan etmişdi. Polşa regional əməkdaşlığa, neftin nəqli və nəqliyyat məsələlərinə xüsusi maraq göstərirdi. Aleksandr Kvasnevskinin Azərbaycan Respublikasına rəsmi səfəri iki ölkə arasında münasibətlərin inkişafına geniş hüquqi baza yaradır və imzalanan sənəd iki dost dövlət arasında münasibətlərin inkişafına xüsusi təkan verirdi. Azərbaycan və Polşa yüksək səviyyədə siyasi dialoqun inkişaf etdirilməsində, iki dövlətin qanunvericilik və icra hakimiyyəti orqanları arasında əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını göstərdilər. Azərbaycan və Polşa BMT, ATƏT və digər beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı əməkdaşlığın səmərəliliyini artırmaq üçün səylərini davam etdirmək əzmində olduqlarını bəyan etmişdilər. İki ölkə bundan sonra Avroatlantik Tərəfdaşlıq Şurası, NATO-nun Sülh naminə tərəfdaşlıq proqramı və Azərbaycanın təqdim etdiyi Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı çərçivəsində sıx əməkdaşlıq etməyə başladılar.

## Münasibətlər genişlənir

Aleksandr Kvasnevskinin səfərindən sonra münasibətlər daha da genişləndi. Əldə edilmiş razılaşmaya uyğun olaraq 2000-ci il mayın 17- 20-də Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyev Polşaya rəsmi səfər edərək münasibətləri genişləşdirmək məsələlərini müzakirə etdi. Qarşılıqlı münasibətlərin müqavilə-hüquq bazası genişləndirildi. Təhlükəsizlik orqanları arasında əməkdaşlıq quruldu. Polşanın Milli Təhlükəsizlik Bürosunun rəhbərinin müavini M.Dukaçevski və Polşa Milli

^ Əliyev H.Ə. Azərbaycan - Polşa sənədlərinin imzalanması mərasimindən sonra birgə mətbuat konfransında bəyanat və suallar. 27 oktyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXII kitab, s.374 -380.

Təhlükəsizlik Şurası Direktorunun müavini V.Smedovski 2000-ci il iyunun 14-16-da Azərbaycana səfər edərək müvafiq qurumlarla əməkdaşlıq məsələlərini müzakirə etdilər. Xarici işlər nazirlikləri arasında məsləhətləşmələr keçirmək məqsədi ilə Polşa xarici işlər nazirinin müavini B.Tu- qe-Eretsinska və Şərqi Avropa Departamentinin rəis müavini İ.Tatarjinska iyunun 22-də Azərbaycanda səfərdə oldular.

Bundan sonra münasibətlərdə daha bir addım atıldı. 2001-ci il avqustun 23-də Polşanın Azərbaycanda səfirliyi təsis edildi. Polşanın Azərbaycana yeni təyin olunmuş səfiri Martin Navrot etimadnaməsini Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə təqdim etdi.

Ticarət-iqtisadi əlaqələrdə də irəliləyişlərə nail olundu. Sentyabrın 4-5-də Polşa Baş Nazirinin müavini Y.Ştaynxoffun başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri zamanı iki ölkə arasında ticarət- iqtisadi əməkdaşlığı genişləndirmək məsələləri müzakirə edildi.

Qeyd etmək lazımdır ki, münasibətlərin inkişaf etdirilməsində Polşada yaşayan azərbaycanlılar da müəyyən rol oynayırdılar. Polşadakı azərbaycanlıların təşkilatlanmasına Azərbaycan tərəfi ciddi əhəmiyyət verirdi. Azərbaycan diasporasmm Polşa Respublikasının müvafiq qurumları ilə qarşılıqlı münasibətlərin qurulması, milli mədəniyyətin qorunub saxlanması və inkişafı. Polşada yaşayan həmvətənlərimiz arasında əlaqələrin daha da möhkəmləndirilməsi, onların iqtisadi-siyasi statusunun artırılması, cəmiyyətin yaradıcı prosesində iştirakının təmin edilməsi kimi vəzifələr qarşıya məqsəd kimi qoyulmuşdu. İki ölkə arasında ictimai və mədəniyyət sahələrində əməkdaşlıq genişlənirdi.

Ümumiyyətlə, 1991-2003-cü illərdə Azərbaycan - Polşa münasibətlərinin müqavilə-hüquq bazası yaradılmışdır. Tərəflər enerji, nəqliyyat və s. sahələrdə əməkdaşlıq etmişlər. Polşa TRASEKA proqramına qoşulmuşdur. Azərbaycan neftinin Odessa - Brodi - Qdansk marşrutu ilə nəqlinə səylər etmişdir. Polşa Azərbaycanın ərazi bütövlüyünü və müstəqilliyini müdafiə etmiş. Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə tərəfdar çıxmışdır. İki ölkə arasında əməkdaşlıq genişlənərək müxtəlif sahələri əhatə etmişdir. Münasibətlərin maddi təməlləri möhkəmləndirilmişdir.

# UKRAYNA İLƏ MÜNASİBƏTLƏRİN QURULMASI VƏ İNKİŞAF YOLU

## İlk addımlar

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının xarici siyasətində mühüm yerlərdən birini Ukrayna ilə münasibətlər tutdu. Qeyd etmək lazımdır ki, hələ sovet dövründə bu iki müttəfiq respublika arasında sıx münasibətlər mövcud idi. Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası SSRİ mövcud olduğu bir zamanda, 1991-ci il dekabrın 6-da Ukraynanın dövlət müstəqilliyini tanıdı^^'*. Qarşılıqlı münasibətlərdə ilk addımlar atıldı. Azərbaycan Respublikası ilə Ukraynanın dövlətlərarası münasibətlərinin əsasları haqqında müqaviləni Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası 1991-ci il dekabrın 11-də təsdiq etdi^^^ SSRİ-nin dağılması ilə yaranmış yeni şəraitdə iki müstəqil dövlət arasında münasibətlərin qurulması zərurətə çevrildi. Azərbaycan ilə Ukrayna arasında diplomatik əlaqələr 1992-ci il fevralın 6-da quruldu. 1992-ci il dekabrın 9-da isə Kiyev şəhərində Azərbaycan Respublikası ilə Ukrayna arasında dostluq və əməkdaşlıq haqqında müqavilə imzalandı. Bu müqavilə yalnız bir neçə il sonra, 1994-cü il sentyabrın 23-də təsdiq edildi^^^. 1992-ci il oktyabrın 28-də Ukraynanın paytaxtı Kiyev şəhərində Azərbaycan Respublikasının səfirliyi təsis edildi^^’. Lakin səfirlik açılmadı.

## Qarşılıqlı münasibətlərdə yeni mərhələ

İki ölkə arasında münasibətlərdə yeni mərhələ 1993-cü ildən etibarən başlandı. Azərbaycanda Heydər Əliyev hakimiyyətə gəldikdən sonra qarşılıqlı münasibətlərin inkişafı üçün bəzi tədbirlər həyata keçirildi. İlk

ARXINA. 1991.
ARXİNA. 1991.
ARXİNA. 1994.
ARXİNA. 1992.

növbədə iqtisadi əməkdaşlığın yeni əsaslar üzərində qurulması istiqamətində addımlar atıldı. 1993-cü il iyulun 17-də Azərbaycan - Ukrayna birgə hökumətlərarası komissiyasının yaradılması haqqında iki ölkə arasında saziş imzalandı. Bu, münasibətlərin inkişafına yeni keyfiyyət halı verirdi.

Bununla belə, iki ölkə arasında həllini gözləyən bir sıra məsələlər qalırdı. 1995-ci il iyulun 27-28-də Ukrayna Prezidenti Leonid Kuçma- nın^^^ Azərbaycana rəsmi səfəri ərəfəsində^^^ Ukrayna tərəfi danışıqlara aşağıdakı sənədlərin imzalanmasını təklif etdi: iki ölkə arasında azad ticarət haqqında dövlətlərarası saziş; 1995-ci ildə ticarət-iqtisadi əməkdaşlığa dair dövlətlərarası saziş; istehsal kooperativləri haqqında dövlətlərarası saziş; hava nəqliyyatı haqqında dövlətlərarası saziş; pensiya təminatı haqqında dövlətlərarası saziş; Ukrayna və Azərbaycan xarici işlər nazirlikləri arasında məsləhətləşmələrə dair protokoP®°.

Qeyd etmək lazımdır ki, 1995-ci ilin yanvar-may aylarında 1994-cü ilin müvafiq dövrü ilə müqayisədə Azərbaycan ilə Ukrayna arasında xarici ticarət dövriyyəsinin həcmi 4,6, o cümlədən idxal üzrə 10, ixrac üzrə 2,1 dəfə azalmışdı^®'. İqtisadi əməkdaşlığın səviyyəsi Azərbaycan və Ukraynanın maraqlarına cavab vermirdi və imkanlarından aşağı idi. Ona görə də Azərbaycan tərəfi iqtisadi və ticarət əməkdaşlığının inkişafını sürətləndirmək üçün birgə hökumətlərarası komissiya yaradılmasını, 1995-ci il üçün ticarət-iqtisadi əməkdaşlığa, hər iki ölkə arasında əlverişli rejim yaradılmasına, ikiqat vergi tutulmasından imtina edilməsinə, sərmayələrin təşviqi və müdafiəsinə, Ukrayna ilə Gürcüstan limanları arasında Azərbaycan və Ukrayna üçün yük daşınması üçün birbaşa bərənin yaradılması və daimi fəaliyyətinə, Kiyevdə və Bakıda ticarət nümayəndəliklərinin açılmasına dair sənədlərin imzalanmasını təklif edirdi.

Danışıqlarda ikitərəfli və beynəlxalq problemlər geniş müzakirə edildi. Əsas, xüsusən ölkələrin ərazi bütövlüyü və sərhədlərinin toxunul- *

* Leonid Kuçma (1938) - Ukrayna dövlət mükafatı laureatı, professor. Ukrayna Prezidenti (1994-2005).

ARXİNA. 20.07.1995-30.07.1995. Qovluq JVb 14, v. 5-112.

ARXİNA. 20.07.1995-30.07.1995. Qovluq Xa 14, v. 29-30.

ARXİNA. 20.07.1995-30.07.1995. Qovluq Xs 14, v. 107-108; ARXİNA. 20.07.1995-30.07.1995. Qovluq Xa 14, v. 109-112.

mazlığı məsələlərində dövlətlərin mövqeləri üst-üstə düşürdü. Dövlət başçıları separatçılığın hər hansı bir formasını pislədilər^®.

Ölkələrin potensial imkanlarına cavab verən siyasi və iqtisadi əməkdaşlığı inkişaf etdirməyə dair razılıq əldə edildi. İki ölkə arasında ənənəvi siyasi, iqtisadi və mədəni əlaqələrin, ikitərəfli əməkdaşlıq və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın əhəmiyyəti qeyd olundu.

Danışıqlarda prioritet yeri iki ölkə arasında ticarət-iqtisadi əlaqələr tutdu. Bu sahədə çoxlu istifadə edilməmiş imkanlar var idi. Prezidentlər yaxın vaxtlarda səfirliklərin açılması işini sürətləndirmək haqqında razılığa gəldilər.

Dövlət başçıları Müstəqil Dövlətlər Birliyində olan meylilər müzakirə edərək MDB-də iştirakın çoxvariantlılığına tərəfdar çıxdılar, dövlət hakimiyyətinin milli orqanlarının səlahiyyətlərinin milli strukturların fövqündə duran strukturlara verilməsinin əleyhinə olduqlarını bildirdilər. Onlar yeni müstəqil dövlətlərin suverenliyini birmənalı olaraq müdafiə etdilər.

Danışıqlarda prezidentlər dünyanın müxtəlif regionlarında silahlı münaqişələrin davam etməsindən narahatlıq ifadə etdilər, Ermənistan - Azərbaycan münaqişəsinin beynəlxalq hüququn ümumi qəbul olunmuş prinsipləri, suverenlik, ərazi bütövlüyü və sərhədlərin pozulmazlığı prinsipləri əsasında dinc vasitələrlə həllinə tərəfdar olduqlarını bildirdilər.

Səfərin yekununda birgə bəyannamə qəbul edildi^®. İki ölkə hökumətləri arasında azad ticarət, dostluq haqqında müqavilələr, 1995-ci ildə ticarət-iqtisadi əməkdaşlıq, istehsal kooperativləri, hava nəqliyyatı və pensiya təminatı haqqında dövlətlərarası sazişlər bağlandı. Həmçinin səfirlik və konsulluqların açılması haqqında protokoP^" və Ukrayna və Azərbaycan xarici işlər nazirlikləri arasında məsləhətləşmələrə dair protokoP^^ da imzalandı.

Ukrayna Prezidentinin Azərbaycana səfərinin böyük əhəmiyyəti var idi. İmzalanan sənədlər iki ölkə arasında münasibətlərin müqavilə-hüquq bazasını möhkəmləndirir və geniş perspektivlər açırdı.

^ Əliyev H.Ə. Ukrayna Prezidenti Leonid Kuçma ilə birgə mətbuat konfransı. 28 iyul 1995-ci il. - Müstəqilliyimiz əbədidir. 111 kitab, s.141.

ARXİNA. 20.07.1995-30.07.1995. Qovluq Xs 14, v. 94-95; Azərbaycan Respublikası Prezidentinin və Ukrayna Prezidentinin birgə kommunikesi. 27 iyul 1995-ci il. - Müqavilələr toplusu. 1 cild, s.54-56.

ARXİNA. 20.07.1995-30.07.1995. Qovluq Xa 14, v. 96-97.

“^ARXİNA. 20.07.1995-30.07.1995. Qovluq Xo 14, v. 98-99.

Səfər zamanı Azərbaycan Respublikası və Ukrayna arasında səfirliklərin açılması haqqında imzalanmış protokola əsasən, 1996-cı ildə Ukraynanın Azərbaycanda, 1997-ci ildə isə Azərbaycanın Ukraynada səfirliyi açıldı.

## İkitərəfli münasibətləri inkişaf etdirməyə ehtiyac vardır

Azərbaycanın xarici siyasətində bu zaman müzakirə edilən məsələlərdən biri Böyük İpək yolunun bərpası və Transqafqaz magistralının çəkilişi idi. Azərbaycan Prezidenti Heydər Əliyevin 1997-ci il martın 24-25- də Ukraynaya rəsmi səfərində başlıca məqsəd ikitərəfli münasibətləri, xüsusən nəqliyyat sahəsində əməkdaşlığın inkişafı məsələlərini müzakirə etmək idi. Azərbaycan Prezidenti bu səfərə böyük əhəmiyyət verirdi^^^.

Ukrayna Prezidenti Leonid Kuçma ilə keçirilən danışıqlarda ikitərəfli, regional və beynəlxalq məsələlər müzakirə edildi. İqtisadi sahədə əməkdaşlıq üçün geniş imkanlar mövcud idi. Ukrayna və Mərkəzi Asiya dövlətlərinin qoşulduğu Transqafqaz magistralının çəkilməsi iqtisadi əlaqələrin inkişafı, eyni zamanda Ukrayna ilə Azərbaycan arasında daha sıx qarşılıqlı əlaqələr və iqtisadi əməkdaşlıq, xalqlar arasında daha fəal ünsiyyət qurmaq üçün əhəmiyyət daşıyırdı. Danışıqlarda bu sahələrdə əməkdaşlıq üçün geniş fikir mübadiləsi edildi.

Azərbaycan Prezidenti Dağlıq Qarabağ münaqişəsinin və onun həlli üçün yaradılmış ATƏT-in Minsk qrupunun fəaliyyətindən danışdı. Ukrayna münaqişənin sülh yolu ilə və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar idi.

Səfərin yekununda ölkə rəhbərləri tərəfindən tərəfdaşlıq münasibətlərini dərinləşdirmək və inkişaf etdirmək barədə 14 bənddən ibarət olan bəyannamə^^’, neft-qaz sahəsində əməkdaşlığa dair saziş və digər sənədlər imzalandı.

Əliyev H.Ə. Ukrayna Prezidenti Leonid Kuçmanın dəvəti ilə rəsmi dövlət səfərinə yola düşməzdən əvvəl Binə hava limanında jurnalistlərin suallarına cavab. 24 mart 1997-ci il. - Müstəqilliyimiz əbədidir. IX kitab, s.47.

Azərbaycan Respublikası ilə Ukrayna arasında tərəfdaşlıq münasibətlərinin dərinləşdirilməsi haqqında bəyannamə. 24 mart 1997-ci il. - Müqavilələr toplusu.I cild, s.120-122.

Azərbaycan Prezidentinin Ukraynaya səfərinin və imzalanan sənədlərin böyük tarixi əhəmiyyəti var idi. Hər şeydən əvvəl, iki ölkə arasında münasibətlərin inkişafı üçün yaradılmış müqavilə-hüquqi baza genişləndirilirdi. Dövlət rəhbərləri münasibətləri inkişaf etdirmək və dərinləşdirmək əzmini göstərdilər^^*. İki ölkə arasında münasibətlər dövlət müstəqilliyini, suverenliyini daha da möhkəmləndirməyi və inkişaf etdirməyi, demokratik, hüquqi, sivil dövlət qurmağı, habelə keçid dövrü ilə bağlı qarşıya çıxmış sosial-iqtisadi çətinlikləri bacardıqca tez bir zamanda aradan qaldırmaq üçün iqtisadi islahatlar aparmağı nəzərdə tuturdu. Bu məsələlər üzrə ölkələr arasında fikir ümumiliyi mövcud idi.

## Ukrayna Azərbaycanın həyata keçirdiyi beynəlxalq layihələrə maraq göstərir. Strateji tərəfdaşlığa doğru

Səfərdən sonra münasibətlərdə dinamizm artdı. Ukrayna Azərbaycanın həyata keçirdiyi beynəlxalq layihələrə xüsusi maraq göstərirdi. Bu baxımdan 1998-ci ilin sentyabr ayında Bakıda keçirilən Tarixi Böyük İpək yolunun bərpasına həsr edilmiş beynəlxalq konfransda Ukrayna Prezidenti L.Kuçmanm iştirakı mühüm addımlardan biri oldu. Səfər zamanı keçirilən görüşlərdə iki ölkə arasında münasibətlərə dair geniş məsələlər müzakirə edildi. Ukrayna həmin layihələrdə iştirak etmək istəyirdi.

İki ölkə arasında ticarət-iqtisadi əlaqələr də inkişaf edirdi. 1999-cu il iyulun 30-da Azərbaycan - Ukrayna birgə hökumətlərarası komissiyasının Kiyevdə keçirilən ikinci iclasında iki ölkə arasında əməkdaşlığın forma və istiqamətləri müəyyənləşdirildi. Müvafiq sənədlər imzalandı.

Əməkdaşlığın inkişafında 2000-ci il martın 16-17-də Ukrayna Prezidenti Leonid Kuçmanm Azərbaycana rəsmi səfəri əhəmiyyətli oldu. Bu səfər münasibətlərdə yeni bir mərhələ açırdı. Qeyd etmək lazımdır ki, 1995-2000-ci illərdə dövlət başçıları dəfələrlə görüşmüş, iki ölkə arasında 60-dək sənəd imzalanmış və strateji tərəfdaşlıq möhkəmlənmişdi.

Heydər Əliyev və Leonid Kuçma əvvəlcə təkbətək görüşərək iki ölkə arasında münasibətlərin geniş perspektivlərini müzakirə etdilər. On

Əliyev H.Ə. Ukrayna - Azərbaycan dövlətlərarası sənədlərinin imzalanması mərasimindən sonra mətbuat üçün bəyanat. 24 mart 1997-ci il. - Müstəqilliyimiz əbədidir. IX kitab, s.52.

lar Böyük İpək yolunun, Avropa - Qafqaz - Asiya nəqliyyat dəhlizinin daha səmərəli işləməsi üçün Ukrayna - Azərbaycan əməkdaşlığının genişləndirilməsinin və regionda şəraitin sabitləşdirilməsinin vacibliyini bildirdilər. İki ölkə arasında münasibətlər dostluq, strateji tərəfdaşlıq və sıx əməkdaşlıq xarakteri daşıyırdı. İqtisadiyyat, siyasət, mədəniyyət, təhsil, elm və digər sahələrdə əməkdaşlığın səviyyəsi yüksək idi. Bir çox beynəlxalq məsələlərə yanaşmada Ukrayna və Azərbaycanın mövqeləri ya eyni, ya da bir-birinə yaxın idi. Ukrayna Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli səylərini dəstəkləyirdi^^^.

Təkbətək görüşdən sonra nümayəndə heyətlərinin iştirakı ilə keçirilən geniş tərkibdə danışıqlarda nümayəndə heyətlərinin üzvlərinin danışıqları barədə hesabatları dinlənildi. Ukrayna tərəfinin xahişi ilə Azərbaycan bu ölkəyə neft məhsulları göndərəcəkdi. Azərbaycan tərəfi Poti - İliçovsk bərə keçidini Böyük İpək yolunun və TRASEKA-mn bir hissəsi kimi qiymətləndirirdi. Qeyd etmək lazımdır ki, 1999-cu il aprelin 17-də açılan bu yol Ukrayna ərazisi ilə Qara dəniz, Gürcüstan, Azərbaycan, Türkmənistan, Özbəkistan vasitəsilə yüklərin Qərbdən Şərqə, Şərqdən Qərbə daşınmasını təmin edirdi^™.

Səfərin yekununda iki ölkə arasında 27 maddədən ibarət dostluq.

əməkdaşlıq və tərəfdaşlıq haqqında müqavilə , 2000-2009-cu illərdə iqtisadi əməkdaşlıq haqqında müqavilə imzalandı. İmzalanan müqavilələr Azərbaycan ilə Ukrayna arasında əməkdaşlığın forma və istiqamətlərini müəyyənləşdirir və onu daha da möhkəmləndirirdi.

Ukrayna Prezidentinin Azərbaycana səfərinin və imzalanan sənədlərin böyük əhəmiyyəti var idi. Hər şeydən əvvəl, bu səfər iki ölkə arasında münasibətləri yeni inkişaf səviyyəsinə çıxarırdı. Dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında müqaviləni yüksək qiymətləndirən Heydər Əliyev deyirdi; "Bu müqaviləyə böyük əhəmiyyət verirəm, çünki bu, sadəcə

Əliyev H.Ə. Ukrayna Prezidenti Leonid Kuçma ilə təkbətək görüşdəki söhbətdən. 16 mart 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXV kitab, s. 367-369.

Əliyev H.Ə. Azərbaycan Respublikası Prezidentinin və Ukrayna Prezidenti Leonid Kuçmanm təkbətək görüşü başa çatdıqdan sonra hər iki ölkənin nümayəndə heyəti arasında Azərbaycan - Ukrayna danışıqlarında çıxış. 16 mart 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXV kitab, s. 370-374.

Azərbaycan Respublikası ilə Ukrayna arasında dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında müqavilə. 16 mart 2000-ci il. - Müqavilələr toplusu. 1 cild, s.188-194.

olaraq dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında sənəd deyildir, o həm də çox dərin məzmuna malikdir, beynəlxalq həyat, ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsi, dövlətlərimizdə müxtəlif islahatlar aparılması məsələlərində müstəqil Ukraynanın və müstəqil Azərbaycanın prinsipial xəttini bir daha və yenidən təsdiqləyir”^’^.

Sənədlərin imzalanması mərasimindən sonra verdiyi bəyanatında Ukrayna Prezidenti problemlərin siyasi blokuna Qafqazda sabitlik. Dağlıq Qarabağ münaqişəsi və qaçqınlar problemini aid edərək dedi: “...biz Azərbaycanın mövqeyinə tamamilə şərikik və bu problemlərin həllində hər hansı şəkildə çox yaxından iştirak etməyə hazırıq”. O, dünyada ikili standartların olduğuna etiraz etdi”^.

İmzalanan sənədlər qarşılıqlı münasibətlərin hüquqi-normativ bazasını möhkəmləndirir və əməkdaşlığı dərinləşdirirdi. Bundan sonra iki ölkə arasında əməkdaşlıq genişləndi.

## Strateji tərəfdaşlıq konkret məzmunla zənginləşdirilir

2000-ci il mayın 19-da Bakıda Azərbaycan - Ukrayna birgə hökumətlərarası komissiyasının 3-cü iclası keçirildi. Ukrayna Baş Nazirinin birinci müavini Yuri Yexanurov başda olmaqla iclasda iştirak edən nümayəndə heyətini mayın 19-da Azərbaycan Prezidenti Heydər Əliyev qəbul etdi. Görüşdə əsasən iki ölkə arasında ticarət-iqtisadi əməkdaşlığın prinsipial məsələləri müzakirə edildi”'*. Ukrayna MDB çərçivəsində Rusiyanın şərtləri və istisnaları altında azad ticarət zonalarının yaradılmasına tərəfdar deyildi. Bununla bağlı olaraq Yuri Yexanurov dedi: “...bizdə 320 istisna var. Belə də azad ticarət zonası olar?”. O, MDB toplantısında Azərbaycan və Ukraynanın vahid mövqedən çıxış etməsini Azərbaycan Prezidentindən xahiş etdi. Azərbaycan tərəfi də azad ticarət zonalarının yara

Əliyev H.Ə. Azərbaycan - Ukrayna sənədlərinin imzalanması mərasimindən sonra birgə mətbuat konfransında Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı. 16 mart 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXV kitab, s.376.

Əliyev H.Ə. Azərbaycan - Ukrayna sənədlərinin imzalanması mərasimindən sonra birgə mətbuat konfransında Ukrayna Prezidenti Leonid Kuçmanın bəyanatı. 16 mart 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXV kitab, s.378.

Əliyev H.Ə. Ukraynanın hökumət nümayəndə heyəti ilə görüşdə söhbət. 19 may 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXVIl kitab, s. 240-248.

dılması məsələsində Rusiyanın istisnalarını qəbul etmirdi. Azərbaycan və Ukrayna MDB iştirakçısı olan ölkələrin ikitərəfli əməkdaşlığına üstünlük verir, dövlətlərin suverenliyinin fÖvqündə duran qurumların yaradılmasım istəmirdilər.

Ukraynanın xarici işlər naziri Anatoli Zlenko^'^ başda olmaqla nümayəndə heyətinin oktyabr ayının ortalarında Azərbaycana səfərinin ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsi baxımından böyük əhəmiyyəti oldu. Onu bir qrup sahibkar və sənayeçi müşayiət edirdi. Səfərdə başlıca məqsəd iki ölkə arasında strateji tərəfdaşlığı konkret məzmunla dolğunlaşdırmaq üçün əlavə imkanlar axtarmaq idi. Keçirilən görüşlərdə ikitərəfli münasibətlərin vəziyyəti, siyasi, iqtisadi və mədəni-humanitar sahələrdə əlaqələr, konsulluq işlərinin bəzi məsələləri müzakirə edildi. Lakin iki ölkə arasında iqtisadi əməkdaşlıq tərəflərin imkanlarından xeyli aşağı idi.

Nümayəndə heyətini qəbul edən Azərbaycan Prezidenti Heydər Əliyev iki ölkə arasında bütün sahələrdə əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğuladı. İqtisadi əlaqələrin gücləndirilməsi üçün müzakirələrin aparılmasına ehtiyac duyulurdu^'^.

Səfər qarşılıqlı münasibətlərin inkişaf perspektivlərini müəyyənləşdirmək baxımından əhəmiyyətli oldu. Tərəflər əməkdaşlığın genişləndirilməsinin vacibliyi qənaətində idilər.

Bu istiqamətdə mühüm addımlardan biri 2002-ci il fevralın 14-də Kiyevdə Azərbaycan - Ukrayna birgə hökumətlərarası komissiyasının 4- cü iclasının keçirilməsi olduKomissiya iclasında Azərbaycan tərəfindən Baş Nazirin müavini Abbas Abbasov iştirak edirdi^™. Qeyd etmək lazımdır ki, iki ölkə arasında ticarət dövriyyəsinin ümumi həcmi əgər 1997- ci ildə təqribən 11 milyon 778 min ABŞ dolları idisə, 1998-ci ildə 10 milyon 500 min dollar, 1999-cu ildə 62 min dollar, 2001-ci ildə 83 milyon 800 min dollar, 2002-ci ilin yanvar-sentyabr aylarında isə 74 milyon 966

Anatoli Zlenko (1938) - Görkəmli diplomat. Ukraynanın xarici işlər naziri (1991-1994, 2000-2003).

Azərbaycan Prezidenti Heydər Əliyev Ukrayna nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2001. 1 hissə, s. 950-959.

ARXİNA. 2002.

İqtisadi məsələlər üzrə Azərbaycan - Ukrayna birgə hökumətlərarası komissiyasının dördüncü iclasının protokolu. 14 fevral 2002-ci il. Kiyev. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsu. 2002. II hissə, s. 490-494.

min dollar təşkil etmişdi^’’. Bu illər ərzində Azərbaycanda nizamnamə kapitalının ümumi həcmi 1 mln. ABŞ dolları olan 60-dan artıq şirkət və Ukrayna - Azərbaycan birgə müəssisəsi qeydiyyatdan keçmişdi. Komissiya iclasında iki ölkə arasında iqtisadi əməkdaşlığın perspektiv istiqamətləri müəyyənləşdirildi. Həmin ilin avqustun 29-da Bakıda keçirilən Azərbaycan - Ukrayna birgə hökumətlərarası komissiyasının 5-ci iclasında isə əməkdaşlığa mane olan amillərin aradan qaldırılması zəruriliyi qeyd edildi. İclasın protokolları qəbul olundu.

İki ölkənin parlamentləri arasında da əlaqələr genişləndirildi. 2002- ci il dekabrın 2-də Azərbaycan parlament nümayəndə heyətinin Ukraynaya səfəri zamanı parlamentin sədri Vladimir Litvin'*° ilə keçirilən görüşdə Azərbaycan ilə qarşılıqlı münasibətləri inkişaf etdirməyə xüsusi əhəmiyyət verildiyi vurğulandı^*'. Ukrayna Prezidenti ilə görüşdə də iki ölkə arasında münasibətlərin əhəmiyyəti və əlaqələrin genişləndirilməsinin zəruriliyi qeyd edildi.

Azərbaycan - Ukrayna münasibətləri dərinləşərək hərbi sahədə əməkdaşlığı da əhatə etdi. Qeyd etmək lazımdır ki, artıq iki ölkə arasında hərbi təhsil, hərbi-texniki sahədə yaxşı əməkdaşlıq qurulmuşdu. Azərbaycanlı zabitlər Ukraynanın ali hərbi məktəblərində təhsil alırdılar. Hərbi sahədə əməkdaşlığı inkişaf etdirməyə zərurət yaranmışdı. Bu baxımdan
2003- cü il yanvarın sonlarında Ukraynanın müdafiə naziri ordu generalı Vladimir Şkidçenkonun Azərbaycana səfəri əhəmiyyətli oldu. Azərbaycanın müdafiə naziri Səfər Əbiyev ilə keçirilən danışıqlarda iki ölkənin hərbi sahədə əməkdaşlığının perspektivləri müzakirə edildi. 2003-cü ildə ikitərəfli hərbi əməkdaşlığa dair saziş imzalandı. Ukraynanın müdafiə nazirini Azərbaycan Prezidenti Heydər Əliyev qəbul etdi^*". Söhbət zamanı hər iki ölkənin strateji məqsədlərinin bənzərliyi qeyd edildi.

Bütün bunlar münasibətlərin perspektivlərinin geniş olduğunu göstərir və yeni imkanlar açırdı. İkitərəfli münasibətlərdə yeni bir addım Azərbaycan Respublikasının Baş Naziri İlham Əliyevin Ukraynanın Yalta şəhərində keçirilən MDB iştirakçısı olan ölkələrin dövlət başçılarının

Yenə orada, v. 114-120.

Vladimir Litvin (1956) - Ukraynanın siyasi və dövlət xadimi. Ukrayna Ali Radasının sədri (2002-2006, 2008-2012).

Parlament nümayəndə heyətinin Ukraynaya səfəri. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. 1 hissə, s. 899-900.

Azərbaycan Prezidenti Heydər Əliyev Ukraynanın müdafiə nazirini qəbul etmişdir. -Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2003.1 hissə, s. 41-42.

zirvə görüşündə iştirak etmək üçün 2003-cü il sentyabrın 18-19-da səfəri oldu. Səfər zamanı Ukrayna rəsmiləri ilə keçirilən görüşlərdə qarşılıqlı münasibətlərin ən vacib məsələləri müzakirə edildi^*^. Qeyd etmək lazımdır ki, bu zaman iki ölkə arasında münasibətlərin möhkəm maddi təməlləri qurulmuşdu. Belə ki, 2003-cü il üçün Azərbaycandan Ukraynaya 5,7, Ukraynadan Azərbaycana isə 110 milyon dollar məbləğində məhsul ixrac edildi.^^" Ötən il ilə müqayisədə mal dövriyyəsi 42,8% artmışdı. Azərbaycan - Ukrayna ticarət-iqtisadi əməkdaşlığının hüquqi-normativ bazası yaradılmışdı.

Azərbaycan - Ukrayna münasibətlərində diasporalar mühüm rol oynayırdı. 1991-ci ilin dekabrında yaradılmış Ukrayna Azərbaycanlıları Konqresi bu ölkədə yaşayan 500 mindən artıq azərbaycanlını təmsil edirdi^*^. Ukraynanın 24 vilayətində. Krım Muxtar Respublikasında, Kiyev və Sevastopol vilayət bölgələrində regional təşkilatlar fəaliyyət göstərirdi.

Ümumiyyətlə, 1991-2003-cü illərdə Azərbaycan - Ukrayna münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəldi. Qarşılıqlı münasibətlərin müqavilə-hüquq bazası yaradıldı. Ukrayna Azərbaycanın ərazi bütövlüyünə və Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinə tərəfdar olmuşdur. Ukrayna tərəfi Azərbaycandan neft və qazın alınmasına maraq göstərmiş. Böyük İpək yolu layihəsinə qoşulmuşdur. İki ölkə arasında ticarət-iqtisadi əməkdaşlıq inkişaf etmişdir. Hərbi sahədə də əməkdaşlıq qurulmuşdur.

## BELARUS RESPUBLİKASI İLƏ MÜNASİBƏTLƏRİN QURULMASI

### İlk addımlar

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycanın münasibətlər qurduğu ölkələrdən biri Belarus Respublikası oldu. Sovet dövründə də bu respublikalar arasında sıx əməkdaşlıq saxlanılmışdı. Hələ SSRİ-nin mövcud olduğu bir şəraitdə, 1991-ci il noyabrın 11-də Azərbay

Azərbaycanın Baş Naziri İlham Əliyevin Yaltaya işgüzar səfəri. — Azərbaycan 2003: inkişaf strategiyasında yeni mərhələ. Bakı, 2005, s. 152-159.

'ARXINA.

285 01.01.2003-31.12.2002.

can Respublikası hökuməti və Belarus Respublikası hökuməti arasında ticarət-iqtisadi əməkdaşlığın prinsipləri haqqında saziş imzalanmışdı. Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası 1991-ci il dekabrın 11-də Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında müqaviləni təsdiq etmişdi^*®.

1993- cü il aprelin 20-də Minskdə Azərbaycan Respublikası hökuməti ilə Belarus Respublikası hökuməti arasında nəqliyyat sahəsində qarşılıqlı əlaqələrin əsas prinsipləri, dəmiryolu nəqliyyatı fəaliyyətinin əlaqələndirilməsi və beynəlxalq avtomobil əlaqələri haqqında sazişlər imzalandı. Azərbaycan ilə Belarus arasında diplomatik əlaqələr isə yalnız 1993-cü il iyunun 11-də quruldu"*’. Azərbaycan Respublikası hökuməti və Belarus Respublikası hökuməti arasında 1993-cü il dekabrın 24-də ticarət-iqtisadi əməkdaşlığın prinsipləri haqqında saziş imzalandı.

İki ölkə arasında yüksək səviyyəli ilk görüş 1998-ci ildə oldu. Həmin ilin avqustun 9-10-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko’** Ukrayna Prezidenti Leonid Kuçmanın Yaltada keçirilən 60-illik yubileyi və MDB iştirakçısı olan ölkələrin dövlət başçıları şurasının iclası zamanı görüşərək ikitərəfli münasibətləri genişləndirmək barədə razılığa gəldilər. Bu görüş nəticəsini verdi. 1999-cu il mayın 13-də Azərbaycan Respublikası Ədliyyə Nazirliyi ilə Belarus Respublikası Ədliyyə Nazirliyi, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Belarus Respublikası Daxili İşlər Nazirliyi, sentyabrın 30-da isə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi və Belarus Respublikasının Dövlət Təhlükəsizlik Komitəsi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında sazişlər imzalandı.

Azərbaycan və Belarus prezidentlərinin sonrakı görüşləri 2000-ci il yanvarın 24-25-də, iyunun 20-21-də, avqustun 18-19-da, dekabrın 1-də, 2001-ci il mayın 31-də MDB iştirakçısı olan dövlətləri başçılarının iclasları zamanı keçirildi. Onlar münasibətlərin inkişafına mane olan amilləri aradan qaldırmaq və iqtisadi əməkdaşlığı daha da genişləndirmək haqqında razılığa gəldilər.

ARXINA. 1991.

ARXİNA. 2008.

Aleksandr Lukaşenko (1954) - Belarus dövlət xadimi. Belarus Respublikasının Prezidenti (1994-cü ildən).

## Münasibətlərin maddi təməlləri möhkəmləndirilir

Qarşılıqlı münasibətlərin inkişafında növbəti addım 2001-ci il avqustun 8-9-da Belarusun Baş Naziri Vladimir Yermoşinin^*’ Azərbaycana səfəri ilə atıldı^®®. Səfər zamanı iki ölkə arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edildi^®'. Danışıqların yekununda, avqustun 9-da Azərbaycan Respublikası və Belarus Respublikasının hökumət nümayəndə heyətlərinin danışıqları nəticəsində əldə olunmuş razılaşmaların həyata keçirilməsi üzrə birgə tədbirlər haqqında protokol, Bakı şəhər İcra Hakimiyyəti və Minsk Şəhər İcra Komitəsi arasında tica- rət-iqtisadi, elmi-texniki və mədəni sahələrdə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Belarus Respublikasının Maliyyə Nazirliyi arasında, Azərbaycan Respublikası hökuməti və Belarus Respublikası hökuməti arasında standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində əməkdaşlıq, malların (işlərin, xidmətlərin) ixracı və idxalı zamanı vasitəli vergilərin tutulması prinsipləri, yüksək ixtisaslı elmi və elmi- pedaqoji kadrların attestasiyası sahəsində əməkdaşlıq haqqında sazişlər, ikiqat vergiqoymanm aradan qaldırılması, gəlirlərə və əmlaka münasibətdə vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında konvensiya imzalandı^^^.

Bu səfər iki ölkə arasında münasibətlərə təkan verdi. 2002-ci il sentyabrın 17-də BMT Baş Məclisinin sessiyası zamanı Azərbaycan Respublikasının xarici işlər naziri V.Quliyev və Belarusun xarici işlər naziri M.Xvostov görüşərək ikitərəfli münasibətləri inkişaf etdirməyə dair müzakirələr apardılar^^^. Qeyd etmək lazımdır ki. Dağlıq Qarabağ münaqişəsinə münasibətdə Belarus, demək olar ki, bitərəf mövqe tuturdu. Belarus rəsmiləri tərəfindən həmin münaqişənin beynəlxalq hüquq normaları əsasında və sülh yolu ilə nizama salınması haqqında bəyanatlar verilsə də.

Vladimir Yermoşin (1942) - Belarus dövlət və siyasi xadimi. Baş Nazir (2000-2004).

Belarus Respublikasının hökumət nümayəndə heyətinin səfəri. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 793-794.

Azərbaycan Prezidenti Heydər Əliyev Belarus Respublikasının nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. 1 hissə, s.795-801.

Azərbaycan - Belams sənədlərinin imzalanması. - Azərbaycanın xarici siyasəti:

s

ə

bu ölkə Ermənistanın Azərbaycana qarşı təcavüzü faktını heç zaman açıq və rəsmi surətdə təsdiq etməmişdi.

2003-cü ildən Azərbaycan - Belarus münasibətlərində müəyyən fəallaşma prosesləri müşahidə edilməyə başladı. İki ölkə arasında diplomatik yazışmaların həcmi, müvafiq dövlət orqanları arasında təmaslar və iqtisadi-ticarət əlaqələrin səviyyəsi artdı. Həmin ildə Azərbaycan Respublikasının Baş Naziri Artur Rasizadənin Belarusa səfəri zamanı ikitərəfli münasibətlərin inkişaf perspektivləri müzakirə edildi. Qeyd etmək lazımdır ki, 2003-cü ilin yanvar-sentyabr ayları ərzində iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 2002-ci ilin müvafiq dövrü ilə müqayisədə 69,2% artaraq 7 mln. 742 min ABŞ dolları olmuşdu. Belarusun Azərbaycana ixracı 106,4% artaraq 6 mln. 348 min ABŞ dolları təşkil etmişdi. Azərbaycandan Belarusa idxal 7,1% aşağı düşərək 1 mln. 393,4 min ABŞ dollar olmuşdu'^".

Məlum olduğu kimi, sovet dövlətinin hərbi potensialının əsas varisləri sırasında Belarus olduqca önəmli yer tuturdu. Belarusun hərbi potensialında, hərbi-sənaye kompleksində, ordunun idarəetmə sistemində və hərbi avadanlığın müasirləşdirilməsi sahəsində böyük nailiyyətləri var idi. Azərbaycan və Belarusun müdafiə nazirlikləri arasında əlaqələrin genişlənməsi hər iki tərəfin maraqlarına cavab verirdi. Ona görə də həmin sahədə əməkdaşlığın qurulması üçün addımlar atıldı. Müvafiq sənədlər imzalandı.

İki ölkə arasında münasibətlərdə diaspora təşkilatları da mühüm rol oynayırdı. Belarusda Azərbaycan diasporasmı Azərbaycan İcmaları Konqresi Beynəlxalq İctimai Birliyi təmsil edirdi. 2002-ci il noyabrın 23- də Minskdə keçirilmiş təsis konfransında Belarusda fəaliyyət göstərən cəmiyyətlər vahid bir təşkilatda - Belarusun Azərbaycan İcmaları Konqresinə birləşdilər. Bu təşkilat Azərbaycan diasporasmın Belarusda nüfuzunun artırılması sahəsində məqsədyönlü işlər aparırdı. Belarusdakı azərbaycanlıların əksəriyyəti orta təbəqəyə məxsus və sosial durumu zəif olan insanlar idi. Bununla yanaşı buradakı azərbaycanlılar arasından az da olsa tanınmış şəxslər çıxmışdı. Bütövlükdə, Belarusda azərbaycanlıların cəmiyyət və dərnəklər şəklində formalaşması ləng gedirdi. Onların əsas problemlərindən biri Bakı ilə Minsk arasında birbaşa hava və dəmiryolu əlaqələrinin olmaması idi.

' ARXİNA. 2003. Qovluq N26, v.157.

Azərbaycan tərəfi Belarus ilə MDB, Avropa Şurası, BMT və digər nüfuzlu beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı dəstəkləyir və onu ikitərəfli münasibətlər üçün vacib hesab edirdi.

## MOLDOVA RESPUBLİKASI İLƏ QARŞILIQLI MÜNASİBƏTLƏR

### Münasibətlərin müqavilə-hüquq bazasının qurulması. Dövlətlərin ərazi bütövlüyü toxunulmazdır

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycanın yeni əsaslar üzərində əlaqələr qurduğu ölkələrdən biri Moldova Respublikası oldu. Moldova Azərbaycanın dövlət müstəqilliyini 1991-ci il dekabrın 21-də tanıdı. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il mayın 29-da quruldu^^^. Lakin münasibətlər 1990-cı illərin ortalarınadək zəif idi.

Qarşılıqlı münasibətlərdə mühüm hadisə 1997-ci il noyabrın 26-28- də Moldova Prezidenti Petru Luçinskinin^^^ Azərbaycana rəsmi səfəri oldu. Bu, Moldova Prezidentinin Azərbaycana ilk rəsmi səfəri idi. Azərbaycan tərəfi səfəri iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsi üçün əlamətdar hadisə və möhkəm əsas hesab edirdi^^’. Petru Luçinski isə səfəri zamanı müzakirə ediləcək məsələlərin və qəbul ediləcək qərarların münasibətlərin inkişafı üçün imkanlar yaradacağına əmin idi^^®.

Azərbaycan ilə Moldovanın bir-biri ilə yaxınlaşmasına təsir edən bir sıra amillər var idi. Hər iki ölkə SSRİ-nin müttəfiq respublikası olmuşdu. Onların arasında hələ sovet dövründən əlaqələr mövcud idi. Həm Azərbaycan, həm də Moldova təcavüzkar separatizmdən əziyyət çəkirdilər. Moldovada Dnestryanı münaqişəsi yaradılmışdı.

Azərbaycan və Moldova prezidentlərinin təkbətək keçirilən görüşündə ikitərəfli münasibətlər və regional məsələlər müzakirə edildi. Döv

ARXINA. 2008.

Petru Luçinski (1940) Moldovanın siyasi və dövlət xadimi. Prezident (1997-**2002**).

[297] Əliyev H.Ə. Moldova Prezidenti Petru Luçinskinin Binə hava limanında qarşılanma mərasimində bəyanat. 26 noyabr 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XIII kitab, s. 228.

Petru Luçinskinin bəyanatı. - Müstəqilliyimiz əbədidir. XIII kitab, s. 229.

lət başçıları iki ölkə arasında münasibətlərin inkişafını vacib hesab edirdilər^^®. MDB-yə münasibətdə tərəflərin baxışları uyğun gəlirdi. Onlar yeni dövlətlərin müstəqilliklərinin möhkəmləndirilməsinə tərəfdar, dövlətlərin fbvqündə duran qurumların yaradılmasının əleyhinə çıxırdılar. Petru Luçinskinin fikrincə, MDB çərçivəsində münasibətlər ən əvvəl səmimi və açıq olmalı idi. O, gizli danışıqları qəbul etmirdi. Moldova Prezidentinin baxışma görə, MDB-də təminat verilmiş iki cəhət olmalı idi: iqtisadiyyat işləməli və münaqişələr aradan qaldırılmalı idi. Yalnız bu halda MDB həyat qabiliyyətinə malik təşkilat ola bilərdi. Danışıqlarda Ermənistanın Azərbaycan təcavüzü və nəticələri, eyni zamanda Moldovada Dnestryanı bölgədə münaqişəyə dair məsələ müzakirə edildi. Azərbaycan Moldovanın ərazi bütövlüyünü və suverenliyini birmənalı olaraq dəstəkləyirdi. Moldova tərəfi də eyni mövqeni bəyan etdi. Danışıqlar zamanı Azərbaycan neftinin Avropaya, o cümlədən Moldovaya çatdırılması layihələri müzakirə edildi. Moldova bu məsələdə maraqlı idi. Dövlət başçıları GUAM çərçivəsində əməkdaşlıq məsələlərini də müzakirə etdilər. Qurumu gücləndirmək və üzv ölkələr arasında əlaqələrin səmərəli yollarını axtarıb tapmaq haqqında razılıq əldə olundu.

Danışıqların yekununda 15 sənəd, o cümlədən Azərbaycan Respublikası və Moldova Respublikası arasında dostluq və əməkdaşlıq haqqında 26 maddədən ibarət olan müqavilə imzalandı. Dostluq və əməkdaşlıq haqqında müqavilə iki müstəqil dövlət arasında ilk müqavilə idi^°°.

Səfər və imzalanan sənədlər böyük əhəmiyyət daşıyır, iki ölkə arasında münasibətlərdə mühüm mərhələnin başlanğıcını qoyurdu. Bu sənədlər münasibətlərin inkişafı və möhkəmləndirilməsi üçün müqavilə- hüquq bazası rolunu oynayırdı. Sənədlərin imzalanma mərasimində sonra etdiyi nitqində Heydər Əliyev dedi: “Bu sənədlərdəki bir çox mühüm müddəalar bizə əməkdaşlığımızı, dövlətlərimiz və xalqlarımız arasında dostluğu möhkəmləndirməyə və inkişaf etdirməyə kömək edəcəkdir”^®'.

^ Əliyev H.Ə. Moldova Prezidenti Petru Luçinski ilə təkbətək görüşdəki söhbətdən. 26 noyabr 1997-ci il. — Müstəqilliyimiz əbədidir. XIII kitab, s. 230-231.

Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə. 27 noyabr 1997-ci il. - Müqavilələr toplusu. I cild, s. 150-157.

Əliyev H.Ə. İkitərəfli sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan və Moldova prezidentlərinin bəyanatları və birgə mətbuat konfransı. 27 noyabr 1997-ci il. - Müstəqilliyimiz əbədidir. Xlll kitab, s. 240.

## Münasibətlərdə dinamizm artır

Moldova Prezidentinin səfərindən sonra qarşdıqlı münasibətlərdə dinamizm artdı. 2000-ci il yanvarın 24-25-də Heydər Əliyev və Petry Luçinski Moskvada keçirilən MDB iştirakçısı olan ölkələrin dövlət başçıları şurasının iclası, yanvarın 29-da Davosda Dünya İqtisadi Forumu, iyunun 20-21-də və avqustun 18-19-da keçirilən MDB iştirakçısı olan ölkələrin dövlət başçıları şurasının iclası, sentyabrın 6-da Nyu Yorkda BMT-nin baş qərargahında keçirilən GUÖAM dövlətləri başçılarının zirvə görüşü, sentyabrın 8-də Nyu Yorkda İpək yolu üzərində yerləşən ölkələrin regional əməkdaşlığının zirvə görüşü, dekabrın 1-də isə Minskdə keçirilən MDB sammiti çərçivəsində görüşərək ikitərəfli münasibətlər və münaqişələrin həlli istiqamətində fikir mübadiləsi apardılar. Onlar münasibətlərin maddi təməllərinin möhkəmləndirilməsinin vacibliyini bildirdilər. Azərbaycan və Moldova prezidentləri müstəqil dövlətlərin suverenliyinin föv- qündə duran qurumların yaradılmasının əleyhinə idilər. Onlar GUÖAM-m gücləndirilməsinə tərəfdar çıxırdılar.

İki ölkə arasında ikitərəfli və regional məsələlərə dair fikir mübadiləsi 2001-ci ildə də aparıldı. May ayının 31-dən iyunun 1-dək Minskdə keçirilən MDB iştirakçı ölkələrinin dövlət başçıları şurasının iclası, iyunun 6-7-də isə Yaltada keçirilən GUÖAM ölkələrinin dövlət başçılarının zirvə görüşü zamanı Heydər Əliyev və Moldova Prezidenti Vladimir Voronin^°^ görüşərək ikitərəfli münasibətlərə dair məsələləri müzakirə etdilər. Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həllində Moldova tərəfinin mövqeyi aydın idi. Bu ölkə Azərbaycanın ərazi bütövlüyünü və müstəqilliyini müdafiə edirdi.

2002-2003-cü illərdə də münasibətlərdə müəyyən irəliləyiş oldu. 2003-cü il yanvarın 10-da Azərbaycanın xarici işlər naziri Vilayət Quliyev BMT-nin Baş Məclisinin sessiyası zamanı BMT və ATƏT arasında əməkdaşlıq qətnaməsində Azərbaycanın ərazi bütövlüyünü təsdiqləyən düzəlişə Moldovanın lehinə səs verdiyi üçün Moldovanın xarici işlər naziri N.Dudeuya minnətdarlıq məktubu göndərdi. Həmin ilin iyunun 9- 13-də Azərbaycan Respublikasının Ukrayna, Belarus və Moldova respub- likalarındakı səfiri Tələt Əliyev Kişinyova səfər edərək Moldova parlamenti ilə əlaqələrin qurulması və iki ölkə arasında beynəlxalq parlament

^ Vladimir Voronin (1941) — Moldovanın dövlət və siyasi xadimi. Ölkə Prezidenti (2001-2009).

təşkilatlan çərçivəsində əməkdaşlıq məsələlərini müzakirə etdi. Tərəflər bu sahədə əməkdaşlıq etmək barədə razılığa gəldilər^®^.

Bundan sonra iki ölkə arasında münasibətlərdə parlamentlərarası əlaqələr özünəməxsus yer tutmağa başladı. Qanunvericilik sahəsində əməkdaşlıq inkişaf etdirildi. 2003-cü il noyabrın 4-də Azərbaycanın Milli Məclisində Azərbaycan - Moldova parlamentlərarası əlaqələr üzrə dostluq qrupu yaradıldı.

Qeyd etmək lazımdır ki, qarşılıqlı münasibətlərdə Azərbaycan diasporası da mühüm rol oynayırdı. Rəsmi statistikaya görə, Moldova Respublikasında 3 mindən artıq azərbaycanlı yaşayırdı^®". Qeyri-rəsmi məlumata görə isə bu rəqəm 7 minə çatırdı.

Ümumiyyətlə, 1991-2003-cü illərdə Azərbaycan ilə Moldova arasında münasibətlərə təsir edən başlıca amillər onların hər ikisinin keçmiş sovet respublikaları olmaları və təcavüzkar separatizmdən əziyyət çəkmələri olmuşdur. Azərbaycan və Moldova bir-birilərinin dövlət müstəqilliklərini və ərazi bütövlüklərini müdafiə, beynəlxalq və regional təşkilatlar çərçivəsində fəal əməkdaşlıq etmişlər. İki ölkə arasında əməkdaşlıq qarşılıqlı maraqlara cavab vermişdir.

## BELÇİKA KRALLIĞI İLƏ MÜNASİBƏTLƏRİN QURULMASI VƏ İNKİŞAF DİNAMİKASI

### İlk addımlar

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının xarici siyasətində Belçika Krallığı ilə əlaqələrin qurulması özünəməxsus yer tutdu. Belçika Krallığı Azərbaycan Respublikasının dövlət müstəqilliyini 1991-ci il dekabrın 31-də tanıdı^®^. Diplomatik əlaqələrin qurulması üçün ilk addım 1992-ci ilin fevral ayında atıldı. Həmin ilin fevralın 19-da Azərbaycan Respublikasının hökumət nümayəndə heyəti Belçikaya səfər etdi. Səfər zamanı keçirilən görüşlərdə iki ölkə arasında əməkdaşlıq məsələləri müzakirə olundu. Müzakirələrin yekununda, fevralın 20-də iki ölkə arasında diplomatik və konsul münasibətləri yaratmaq

ARXİNA. 01.01.2003-31.12.2003.

Qovluq Xs6, v. 164-167. ARXİNA.

2002.

haqqında saziş imzalandı"'®^. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il iyunun 17-də quruldu^"'.

Azərbaycan Respublikası Belçika Krallığı ilə əməkdaşlığın inkişafına xüsusi əhəmiyyət verirdi. Bu da bir sıra amillərlə bağlı idi. Belçika Avropanın inkişaf etmiş ölkələrindən biri, yüksək iqtisadi göstəriciləri olan demokratik bir ölkə idi. Avropa İttifaqına aid məsələlərdə Belçika mühüm yer tuturdu. Azərbaycan Respublikasının xarici siyasətində Belçika Krallığının tutduğu yerə təsir edən amillərdən biri də ölkənin ərazisində NATO və Avropa İttifaqının qərargahlarının yerləşməsi idi. Bu ölkənin qabaqcıl iqtisadi, texnoloji və maliyyə imkanları var idi. Belçika Krallığı beynəlxalq və regional təşkilatlarda fəal rol oynayırdı. Azərbaycan isə həmin strukturlarla əməkdaşlıq etməkdə maraqlı idi.

## Yeni mərhələnin başlanması

Heydər Əliyevin 1994-cü il mayın 3-5-də Belçika Krallığına səfəri bu baxımdan mühüm hadisə oldu. Səfər iki ölkə arasında münasibətlərdə yeni mərhələnin başlanğıcını qoyurdu. Mayın 4-də Azərbaycan Prezidenti NATO qərargahında Sülh naminə tərəfdaşlıq proqramını imzaladı. Həmin gün Heydər Əliyev Belçika Krallığının Baş Naziri Jan Lük Dean ilə görüşərək iki ölkə arasında siyasi, iqtisadi, mədəni və humanitar əməkdaşlıq məsələlərini müzakirə etdi. Jan Lük Dean Ermənistan - Azərbaycan münaqişəsinə toxunaraq qeyd etdi ki, Belçika regiondakı münaqişələrin danışıqlar yolu ilə aradan qaldırılmasına yönəldilmiş bütün səylərə tərəfdardır. Belçika dövlətlərarası sərhədlərin zor gücünə dəyişdirilməsinin əleyhinə idi və Dağlıq Qarabağ münaqişəsinin Minsk qrupunun səyləri ilə həll edilməsinə tərəfdar çıxırdı.

Belçikaya səfər iki ölkə arasında münasibətlərdə yeni imkanlar açırdı. Məhz bu səfərdən sonra, 1995-ci il fevralın 23-də Belçika Krallığının yeni təyin edilmiş səfiri Mişel Adam etimadnaməsini Azərbaycan Prezidentinə təqdim edərkən Azərbaycan ilə münasibətlərə ölkəsinin xüsusi diqqət yetirdiyini bildirdi. 1995-ci ilin mart ayında isə Azərbaycan Respublikasının Belçika Krallığında (Brüsseldə) səfirliyinin açılması haqqında prezident fərmanı verildi.

' Diplomatik münasibətlər yaranmışdır. -"Xalq qəzeti", Bakı, 1992, 22 fevral.
ARXINA. 2008.

Münasibətlərin genişləndirilməsində mühüm yeri Heydər Əliyevin 1995- ci il aprelin 17-də Avropa İttifaqı ölkələri rəhbərlərinin toplantısı çərçivəsində Belçikanın Baş Naziri Jan Lük Dean ilə görüşü tutdu. Onlar ikitərəfli münasibətləri, iqtisadi, siyasi və mədəniyyət sahələrində əməkdaşlığı genişləndirmək imkanlarını müzakirə etdilər. Belçika tərəfi Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə həllinə tərəfdar olduğunu bildirdi. Azərbaycan Prezidenti yaradılmış əlverişli sərmayə mühiti barədə danışaraq Belçika kapitalını ölkəsinə dəvət etdi.

NATO və Avropa İttifaqı ilə əməkdaşlıq məsələlərini müzakirə etmək məqsədi ilə 1996-cı il aprelin 22-23-də Belçikaya işgüzar səfər edən Azərbaycan Prezidenti Ümumdünya Ticarət Mərkəzində Belçikanın xarici ticarət şurasının üzvləri və iş adamları ilə görüşərək apanlan iqtisadi islahatlar, əlverişli sərmayə mühiti haqqında danışdı, onları ölkəsinə dəvət etdi.

Belçika tərəfi ilə əlaqələr sonrakı illərdə də davam etdirildi. Azərbaycan Prezidentinin Jan Lük Dean ilə 1996-cı ilin dekabrında ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Lissabon zirvə görüşündə, 1997-ci ilin iyulunda NATO-nun və Avroatlantik Əməkdaşlıq Şurasının Madriddə, 1997-ci ilin oktyabrında Avropa Şurasının Strasburqda keçirilmiş zirvə toplantısı zamanı görüşlərində iki ölkə arasında siyasi və iqtisadi əməkdaşlığın ən mühüm məsələləri müzakirə edildi. Onlar siyasi əməkdaşlığa dinamizm vermək barədə razılaşdılar.

## Qarşılıqlı münasibətlər dərinləşir

1998- ci ildə iki ölkə arasında münasibətlərdə mühüm bir addım atıldı. Aprelin 13-15-də Belçikanın Baş Naziri Jan Lük Dean Azərbaycanda rəsmi səfərdə oldu. Səfərdə məqsəd iki ölkə arasında münasibətləri daha da sıxlaşdırmaq idi.

Danışıqların əsas hissəsi Heydər Əliyev ilə Jan Lük Dean arasında təkbətək oldu. Heydər Əliyev dedi: “Belçika şirkətlərinin respublikamıza marağını yüksək qiymətləndirirəm, ölkələrimizin durmadan inkişaf etdirilməsinə Azərbaycanın da maraq göstərdiyini bir daha nəzərə çatdırıram”^°*. Azərbaycan Prezidenti ölkədəki şərait, siyasi və iqtisadi sahələrdə

Əliyev H.Ə. Belçika Krallığının Baş Naziri Jan Lük Dean ilə təkbətək görüşdəki söhbətdən. **13** aprel **1998-ci** il. - Müstəqilliyimiz əbədidir. XV kitab, **S.188.**

aparılan islahatlar haqqında danışdı. Belçika tərəfi həmin islahatları dəstəkləyirdi^”®. Sonra nümayəndə heyətləri görüşdülər. Danışıqlarda Azərbaycan Prezidenti dövlət müstəqilliyi bərpa edildikdən sonra ölkəsinin qarşısında duran vəzifələri, Xəzər dənizinin Azərbaycan sektorundakı neft və qaz yataqlarının işlənilməsi istiqamətində aparılan işləri və Belçika ilə əməkdaşlığa verilən xüsusi əhəmiyyəti izah etdi. Belçika bu sahələrdə Azərbaycan ilə əməkdaşlığa can atırdı.

Tərəflər sənaye, ticarət və investisiya sahəsində əməkdaşlığın möhkəmləndirilməsi və genişləndirilməsi yollarına xüsusi diqqət yetirdilər. Belə əməkdaşlıq üçün zəruri şərait yaratmağı öhdələrinə götürdülər. Xəzər dənizinin Azərbaycan sektorundakı “Lənkəran-dəniz” və “Talış-dəniz” neft yataqlarının kəşfiyyatı və işlənilməsi üçün yaradılmış konsorsiumda Belçikanın Petrofma şirkətinin payla iştirakının xüsusi əhəmiyyətini qeyd etdilər. İki ölkə arasında iqtisadi əlaqələrin mühüm bir hissəsi Petrofma şirkətinin Azərbaycanın Xəzər dənizindəki sektorunda aparılan işlərlə bağlı idi. Tərəflər iki ölkə arasında iqtisadiyyat, mədəniyyət, elm və texnika sahəsində əməkdaşlıq üçün böyük imkanların olduğunu vurğuladılar.

Azərbaycan Respublikası ilə Avroatlantika təşkilatları arasında münasibətlərin inkişafına dair fikir mübadiləsi aparıldı. Belə əməkdaşlıq böyük-kiçikliyindən və ATƏT zonasındakı coğrafi mövqeyindən asılı olmayaraq hər bir dövlətin tərəqqisini təmin etməli idi. Bu baxımdan Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında 1996-cı il aprelin
22- də imzalanmış tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş xüsusi əhəmiyyət daşıyırdı. Danışıqlarda Avropa Şurası və NATO ilə əlaqələrin genişləndirilməsinin vacibliyi göstərildi. Belçika ümumavropa maraqları baxımından ikitərəfli əlaqələri inkişaf etdirməyi əhəmiyyətli hesab edirdi. Avropanın, NATO-nun mərkəzi ölkəsi olaraq Belçika NATO və Avropa İttifaqı ilə əlaqələri möhkəmləndirmək istəyən hər bir ölkə üçün körpü rolunu oynayırdı. Belçika tərəfi üçün mühüm amillərdən biri Azərbaycanın strateji baxımdan vacibliyi, İran ilə Rusiya, Avropa və Asiya arasında yerləşməsi, habelə iqtisadi potensialı idP'°.

Əliyev H.Ə. Belçika Krallığının Baş Naziri Jan Lük Dean ilə təkbətək görüşündəki söhbətdən. 14 aprel 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XV kitab, S.203.

Yenə orada, s. 191.

Danışıqlar uğurlu oldu. Aprelin 13-də Belçika Krallığının Baş Naziri və Azərbaycan Respublikasının Prezidenti birgə bəyanat imzaladılar.^"

Bu, iki ölkə arasında siyasi əlaqələrin inkişafı üçün əsas sənəd idi. Beynəlxalq problemlərə, Avropadakı və Cənubi Qafqaz regionundakı məsələlərə münasibətdə tərəflərin baxışları üst-üstə düşürdü. Qəbul edilmiş birgə bəyanatda yazılırdı: "Hər iki tərəf hesab edir ki, Azərbaycan Respublikasının müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün dəstəklənməsi Avropada sülhün və sabitliyin saxlanmasına töhfə verəcəkdir. ATƏT-in üzvü olan Avropada təhlükəsizlik və sabitliyə dair götürdükləri prinsip və öhdəliklərin əhəmiyyətini təsdiq edərək, onlar Dağlıq Qarabağ münaqişəsinin tezliklə və sülh yolu ilə həll olunmasını dəstəkləmiş və razılaşmışlar ki, belə tənzimləmə Minsk qrupunun konstruktiv töhfəsinə və ATƏT-in Lissabon sammitində qəbul olunmuş üç prinsipə əsaslan- mahdır"^'l

Danışıqların nəticəsində Azərbaycan Respublikası hökuməti və Belçika Krallığı hökuməti arasında hava əlaqələri haqqında saziş, Azərbaycan Respublikası hökuməti və Belçika-Lüksemburq İqtisadi İttifaqının birgə bəyanatı da imzalandı.

Səfərin və imzalanan sənədlərin tarixi əhəmiyyəti var idi. Hər şeydən əvvəl, iki ölkə arasında əlaqələrin gələcək inkişafı üçün böyük imkanlar açıhrdı^'^. Bu sənədlər ölkələr arasında münasibətlərin hüquqi-normativ bazasını yaradırdı. İqtisadi əməkdaşlıq üçün geniş imkanlar yaranırdı. Bu, qarşılıqlı münasibətlərin inkişafında yeni bir addım idi. Tərəflər dialoqun davam etdirilməsinə böyük əhəmiyyət verir və məsləhətləşmələr aparmaq haqqında razılığa gəlirdilər.

İki ölkə arasında münasibətlərin inkişafında parlamentlər də mühüm rol oynayırdı. 2001-ci il noyabrın 21-26-da Belçika parlamentinin

Belçika Krallığının Baş Naziri Jan Lük Deanın Azərbaycan Respublikasına rəsmi səfəri ilə əlaqədar olaraq birgə bəyanat. 13-15 aprel 1998-ci il. - Müqavilələr toplusu. 1 cild, s. 171-173.

Əliyev H.Ə. Belçika Krallığının Baş Naziri cənab Jan Lük Deanın Azərbaycan Respublikasına rəsmi səfəri münasibətilə birgə bəyanat. 13 aprel 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XV kitab, s.202.

Əliyev H.Ə. Azərbaycan ilə Belçika arasında rəsmi danışıqlardan və ikitərəfli sənədlərin imzalanmasından sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin və Belçika Krallığının Baş Naziri Jan Lük Deanın birgə mətbuat konfranslarında bəyanatları. 13 aprel 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XV kitab, S.189.

Belçika - Azərbaycan parlamentlərarası dostluq qrupu Məryəm Kaçarın rəhbərliyi altında Azərbaycana səfər etdi. Qeyd etmək lazımdır ki, Belçika parlamentindəki 200 deputatdan 17 nəfəri Belçika - Azərbaycan dostluq qrupunun üzvü idi. Bu səfər iki ölkə arasında münasibətlərin inkişafı baxımından faydalı rol oynayırdı. Belçika parlamentariləri Azərbaycanı Avropadan Asiyaya açılan giriş qapısı kimi qiymətləndirir və əlaqələrin inkişafına xüsusi əhəmiyyət verirdilər. Səfərdə məqsəd yalnız parlament üzvləri ilə deyil, eyni zamanda əhalininin bütün təbəqələrini təmsil edən insanlarla görüşmək və onlarla münasibətlər qurmaq idi. Nümayəndə heyəti Azərbaycan parlamentində görüşlər keçirdi. Qaçqın və məcburi köçkünlərin həyat şəraiti ilə tanış oldu. Azərbaycan Prezidenti Heydər Əliyev ilə görüşdə iki ölkə arasında əlaqələrin müxtəlif tərəfləri müzakirə edildi, parlamentlərarası əlaqələri genişləndirmək arzusu ifadə olundu^*".

Cavab səfəri 2002-ci il dekabrın 1-7-də oldu. Milli Məclisin Azərbaycan - Belçika dostluq qrupunun Belçika Krallığına səfəri ikitərəfli parlament əlaqələrinin inkişafında müəyyən rol oynadı.

Belçika ilə münasibətlərin inkişafında Azərbaycan diasporası da mühüm rol oynayırdı. Qeyd etmək lazımdır ki, Belçikada 3 Azərbaycan diaspora təşkilatı - Avropa Azərbaycanlılar Mərkəzi; Belçika Azərbaycan evi; Azərbaycan - Belçika Dostluq Cəmiyyəti fəaliyyət göstərirdi.

Ümumiyyətlə, 1991-2003-cü illərdə Azərbaycan - Belçika münasibətləri qurulmuş və inkişaf etdirilmişdir. Azərbaycan tərəfi NATO və Avropa İttifaqının qərargahlarının yerləşdiyi Belçika Krallığı ilə münasibətlərə xüsusi diqqət vermişdir. Belçika Krallığı Azərbaycanın zəngin təbii sərvətlərinə maraq göstərmişdir. Qarşılıqlı səfərlər zamanı imzalanan sənədlər ilə münasibətlərin müqavilə-hüquq bazası qurulmuşdur. Belçika Krallığı Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəkləmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyev Belçika Krallığı parlamentinin Belçika - Azərbaycan parlamentlərarası dostluq qrupunun nümayəndə heyətini qəbul

e siyasəti; sənədlər məcmuəsi. 2001. I hissə, s.
t

## NİDERLAND KRALLIĞI İLƏ MÜNASİBƏTLƏR

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycanın əlaqələr qurduğu Avropa ölkələrindən biri Niderland Krallığı oldu. Niderland Azərbaycan Respublikasının dövlət müstəqilliyini 1991-ci il dekabrın 31- də tanıdı. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il aprelin 1-də quruldu^*^. Lakin 90-cı illərin ortalarınadək münasibətlərdə ciddi irəliləyişlər olmadı. Azərbaycan tərəfi Hollandiya ilə iqtisadiyyat sahəsində əməkdaşlıq etməkdə maraqlı idi. Ona görə də ilk addımlar atıldı. 1996-cı il iyulun 11-də Bakıda Azərbaycan Respublikası hökuməti və Niderland Krallığı hökuməti arasında hava daşımaları haqqında sazişin imzalanması bu baxımdan əhəmiyyətli oldu. Niderlandın iqtisadiyyat naziri A.Boqun başçılığı altında nümayəndə heyətinin 1998-ci ildə Azərbaycana səfəri zamanı ikitərəfli əməkdaşlığın inkişafı məsələləri müzakirə edildi. Aprelin 24-də Bakıda Niderland ilə Azərbaycan arasında əməkdaşlıq proqramına dair Azərbaycan Respublikasının Nazirlər Kabineti və Niderland Krallığının İqtisadi Əlaqələr Nazirliyi arasında anlaşma memorandumu imzalandı.

2002-ci il münasibətlərdə dinamizm ilə müşayiət olundu. Qarşılıqlı münasibətlərin müqavilə-hüquq bazası möhkəmləndirildi. Həmin ilin yanvarın 30-da Bakıda Azərbaycan Respublikası hökuməti və Niderland Krallığı arasında gömrük qanunvericiliyinin düzgün tətbiq edilməsi və gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiq edilməsi və onlara qarşı mübarizə aparılması üçün qarşılıqlı inzibati yardım haqqında saziş imzalandı. Ədliyyə orqanları arasında da əlaqələr qurularaq inkişaf etdirildi. Həmin il fevralın 4-6-da ədliyyə naziri Fikrət Məmmədovun Niderlanda rəsmi səfərinin yekununda Niderland Krallığı Ədliyyə Nazirliyi ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalandı. Bu sənəd ilə tərəflər cinayət əməlləri törətmiş şəxslərin verilməsinə dair ümumi razılığa gəlirdilər.

Hər iki ölkə iqtisadi əməkdaşlığı qarşılıqlı münasibətlərin maddi təməlləri kimi görərək onu qurmaq üçün addımlar atdı. 2002-ci il oktyabrın 23- də Bakıda Niderland Krallığı ilə Azərbaycan Respublikası arasında iqtisadi əməkdaşlıq proqramına dair iki paraqrafdan ibarət anlaşma

ARXINA. 2008.

memorandumu imzalandı^'^. Bu proqram Niderlandın Mərkəzi və Şərqi Avropa üzrə iqtisadi əməkdaşlıq proqramı çərçivəsində həyata keçirilirdi. Onun əsas məqsədi Azərbaycanda bazar yönümlü və davamlı iqtisadiyyata keçid mərhələsini dəstəkləmək, rəqabəti gücləndirmək, bazarın müasirləşdirilməsini və istehsalın davamlı prosesini inkişaf etdirmək idi.

Azərbaycan ilə Niderland arasında siyasi məsləhətləşmələr də davam etdirilirdi. Belə ki, 2002-ci il noyabrın 12-13-də xarici işlər nazirinin müavini Xələf Xələfov xarici işlər nazirlikləri arasında məsləhətləşmələr aparmaq məqsədi ilə Niderland Krallığına səfər etdi. Səfər zamanı Xarici İşlər Nazirliyinin inkişaf və əməkdaşlıq üzrə dövlət katibi (nazir müavini) Arden van der Hoefen, nazirliyin baş katibi F.Mayoot, Cənub Şərqi və Şərqi Avropa Departamentinin direktoru Y.van Hoom, nazirliyin ATƏT üzrə əlaqələndiricisinin müavini R.Strikker, Ədliyyə Nazirliyinin beynəlxalq əlaqələr üzrə müşaviri Kuipers və Beynəlxalq Ədalət məhkəməsinin hakimi R.Ranceva ilə görüşlər keçirdi. Görüşlərdə qarşılıqlı münasibətləri genişləndirməyin yolları, bir-birinə qarşı xoşagəlməz hərəkətlər üçün ərazilərində şərait yaratmamaq məsələləri müzakirə edildi. Tərəflər müzakirələri davam etdirmək barədə razılaşdılar.

Niderland Krallığının Azərbaycanda akkreditə olunmuş səfiri S.Xossenin başçılıq etdiyi nümayəndə heyətinin 2002-ci il noyabrın 18-23- də Azərbaycana səfəri zamanı Xarici İşlər Nazirliyində məsləhətləşmələr aparması və Avropa Şurası Parlament Assambleyasında Azərbaycan parlament nümayəndə heyətinin rəhbəri İlham Əliyev ilə görüşməsi əhəmiyyətli oldu.

İki ölkə arasında siyasi məsləhətləşmələr 2003-cü ildə də davam etdirildi. Aprelin 14-də Niderland Xarici İşlər Nazirliyinin Şərqi Avropa və Mərkəzi Asiya şöbəsinin müdiri Antoni M.van der Toght Azərbaycana səfər edərək xarici işlər nazirinin müavini Araz Əzimov ilə görüşdü. Görüşdə əsasən təhlükəsizlik məsələləri müzakirə edildi. Niderland Krallığı Dağlıq Qarabağ münaqişəsinin dinc siyasi yollarla ATƏT-in Minsk qrupu çərçivəsində həllinə tərəfdar idi.

Azərbaycan Respublikası və Niderland Krallığı BMT, ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq edirdilər. Hər iki ölkənin beynəlxalq terrorizm, təcavüzkar separatçılıq, nar-

Azərbaycan - Niderland iqtisadi əməkdaşlıq proqramı 2002 anlaşma memorandumu. 23 oktyabr 2002-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. II hissə, s.34-34.

kotik maddələrin qanunsuz dövriyyəsi, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri və qeyri-qanuni silah alveri kimi beynəlxalq cinayətlərə qarşı mübarizə məsələləri üzrə əməkdaşlığı da faydalı idi.

Qarşılıqlı münasibətlərdə Azərbaycan diasporası da müəyyən rol oynayırdı. Bu ölkədə Hollandiya - Azərbaycan Türk Kültür Dəməyi, Azərbaycan Dostluq Təşkilatı, Azərbaycan - Hollandiya Həmrəylik Cəmiyyəti, Azərbaycan - Niderland Cəmiyyəti fəaliyyət göstərirdi.

Ümumiyyətlə, 1991-2003-cü illərdə iki ölkə arasında münasibətlər qurulmuş və müxtəlif formalarla inkişaf etdirilmişdir. Azərbaycan - Niderland münasibətlərində iqtisadi əməkdaşlıq xüsusi yer tutmuşdur. Eyni zamanda siyasi məsləhətləşmələr də aparılmışdır.

## NORVEÇ KRALLIĞI İLƏ MÜNASİBƏTLƏR

### İlk addımlar

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının əlaqələr qurduğu ölkələrdən biri Norveç Krallığı oldu. Norveç Krallığı Azərbaycan Respublikasının müstəqilliyini 1992-ci il yanvarın 2-də tanıdı. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il iyunun 5-də quruldu^".

Avropanın qabaqcıl texnologiyaya malik ölkələrindən biri olan Norveç hələ 1990-cı illərin əvvəllərindən etibarən Azərbaycan neftinə maraq göstərirdi. Norveçin Statoyl şirkəti „Əsrin müqaviləsi“ndə iştirak etdi. Müqavilənin imzalanma mərasimində iştirak edən bu ölkənin sənaye və energetika naziri Qunnar Murvanqm rəhbərliyi altında nümayəndə heyətinin Bakıda bir sıra görüşlər keçirərək müzakirələr aparması əməkdaşlığın əsasının qoyulmasında mühüm addım oldu^’*.

„Əsrin müqaviləsi“nin imzalanmasından az sonra, 1994-cü ilin oktyabr ayında Azərbaycan parlament nümayəndə heyəti Norveçə səfər edərək iki ölkə arasında parlamentlərarası əlaqələrin qurulması məsələlərini müzakirə etdi. Əlaqələrin genişləndirilməsinə ehtiyac duyulurdu. Ona görə də həmin ilin noyabr ayında Qunnar Murvanqm başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfər etdi. Nümayəndə heyətinin tərkibinə Statoyl şirkətinin prezidenti Harold Norvinq, səyyah Tur Heyerdal və

[317] ARXINA. 2008.
Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri, s. 125.

digər şəxslər daxil idi. Nümayəndə heyətini qəbul edən Azərbaycan Prezidenti Heydər Əliyev iki ölkə arasında münasibətlərin geniş perspektivlərinin olduğunu bildirdi^'®. Səfər zamanı siyasi, iqtisadi, elmi, texniki və mədəni əlaqələrin qurulub genişləndirilməsi məsələləri müzakirə edildi. Müzakirələrin yekunu olaraq noyabrın 22-də Azərbaycan Respublikası hökuməti və Norveç Sənaye və Enerji Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında memorandum, Azərbaycan Respublikası Milli Elmlər Akademiyası və Norveç Tədqiqat Şurası arasında elmi əməkdaşlıq sahəsində anlaşma memorandumu imzalandı^^°.

Sənədlərdə nəzərdə tutulanların həyata keçirilməsinə başlanıldı. Başlıca funksiyası Azərbaycan rayonlarında tarixi abidələrin, əsasən qədim alban kilsələrinin bərpasından ibarət olan Norveç Humanitar Müəssisəsi 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərməyə başladı. Bu müəssisə 2003-cü ildə Şəkinin Kiş kəndində qədim udin kilsəsini bərpa etdi.

Azərbaycan - Norveç əlaqələrində növbəti addım İkinci dünya müharibəsində faşizm üzərində qazanılmış qələbənin 50 illiyi 1995-ci il mayın 9-da Moskvada qeyd edilərkən Heydər Əliyev ilə Norveçin Baş Naziri Harlem Brundtlandın görüşündə atıldı. Görüşdə Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həllinin müzakirəsi zamanı Heydər Əliyev ölkəsinin Norveçdən güclü dəstək və yardım gözlədiyini bildirdi. Azərbaycan Prezidenti ATƏT çərçivəsində Norveçin səylərinin artırılmasının vacibliyini qeyd etdi^^'. Norveç Krallığı Azərbaycanın ərazi bütövlüyünü müdafiə edirdi.

Belə görüşlər iki ölkə arasında əməkdaşlığın genişləndirilməsinə imkan verirdi. Norveçin sənaye və energetika naziri Yens Stoltenberqin başçılıq etdiyi nümayəndə heyətinin 1995-ci ilin may ayında Azərbaycana səfəri qarşılıqlı münasibətlərin maddi təməllərinin möhkəmləndirilməsi istiqamətində bir addım oldu. Nümayəndə heyətinin tərkibinə Statoyl şirkəti ilə yanaşı Haytek, Smedvik və Kvemer şirkətlərinin rəhbərləri də daxil idi^^^. Səfər zamanı iki ölkə arasında iqtisadiyyat, xüsusən energe

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Norveç nümayəndə heyətini qəbul etmişdir. -“Azərbaycan” qəzeti, Bakı, 1994, 23 noyabr.

Norveç alimləri ilə əlaqə yaranır. -“Azərbaycan” qəzeti, Bakı, 1994, 24 noyabr.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Norveçin Baş Naziri Harlem Brundtland ilə görüşmüşdür. - “Azərbaycan” qəzeti, Bakı, 1995, 13 may.

Azərbaycan Prezidenti Heydər Əliyev Norveç nümayəndə heyətini qəbul etmişdir. - “Azərbaycan” qəzeti, Bakı, 1995, 24 may.

tika sahəsində əməkdaşlıq məsələləri müzakirə olundu və razılaşmalar əldə edildi.

Norveç tərəfi azərbaycanlı qaçqın və məcburi köçkünlərin şəraitinin yaxşılaşdırılmasına da səylər edirdi. Bu məqsədlə 1995-ci ildən Norveçin Qaçqınlar Şurası Azərbaycanda fəaliyyətə başladı. Təşkilatın əsas işi qaçqın və məcburi köçkünlərə humanitar yardımın göstərilməsi, onların məskunlaşdığı ərazilərdə təhsil ocaqlarının yaradılması və binaların bərpasından ibarət idi. Layihələrin 72%-ni Norveçin Xarici İşlər Nazirliyi, digər hissəsini BMT-nin Qaçqınlara Yardım üzrə Komissarlığı və Statoyl şirkəti maliyyələşdirirdi.

Bütün bunlar qarşılıqlı münasibətlərin dərinləşdirilməsini və ona yeni keyfiyyət halı verilməsini zəruri edirdi.

## Yeni mərhələnin başlanması

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1996-cı il aprelin 24-25-də Norveçə səfəri qarşılıqlı münasibətlərdə yeni keyfiyyət mərhələsinin başlanğıcını qoydu^^^. Səfər proqramı kifayət qədər zəngin idi^^''.

Azərbaycan Prezidentinin Norveç kralı V Harald, Baş Nazir Q.Brundtland, stortinqin sədri K.Qrendal, xarici işlər naziri B.Qodal və energetika və sənaye naziri Y.Stoltenberq ilə danışıqlarında əsasən iqtisadi əməkdaşlığa dair məsələlər müzakirə edildi^^^. Azərbaycan Prezidenti Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Azərbaycanın mövqeyini bəyan etdi^^^.

Səfər zamanı Azərbaycan Prezidenti Norveçdə yaşayan Azərbaycan diasporasmm nümayəndələri ilə görüşərək ölkədə aparılan sosial, iqtisadi, siyasi islahatlar və Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətindəki səylərdən danışdı^^'.

ARXİNA. 24.04.1996-27.04.1996. Qovluq JÇol4, v.50-57.

ARXİNA. 16.04.1996-24.04.1996. Qovluq Xçiq, v. 1-2.

ARXİNA. 24.04.1996-27.04.1996. Qovluq Xol4, v. 7-9.

Əliyev H.Ə. Norveç Baş Naziri Qru Harlem Brundtland ilə görüşdə çıxış. 24 aprel 1996-cı il. — Müstəqilliyimiz əbədidir. VI kitab, s.164-165.

Əliyev H.Ə. Norveçdə Azərbaycan diasporunun nümayəndələri ilə görüşdə çıxış. 24 aprel 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VI kitab, s. 174-184.

Azərbaycan Prezidenti Statoyl şirkətinin prezidenti H.Norvinq ilə görüşərək enerji sahəsində əməkdaşlıq məsələlərini müzakirə etdi, şirkət rəhbərliyindən Azərbaycanın haqq işini müdafiə və təbliğ etməyə diqqəti artırmağı tövsiyə etdi^^*.

Səfər çərçivəsində Azərbaycan Prezidenti Norveçin neft sənayesi ilə tanış oldu. Norveç iş adamları ilə görüşdü^^®. Onlara ölkədəki sərmayə mühiti haqqında danışaraq Azərbaycana dəvət etdi.

İki ölkə arasında münasibətlərin müqavilə-hüquq bazasının genişləndirilməsi istiqamətində ciddi addımlar atıldı. Danışıqların yekununda, aprelin 24-də Azərbaycan ilə Norveç arasında birgə bəyannamə imzalandı. Sənəddə iki ölkə arasında qarşılıqlı münasibətlərin yeni inkişaf səviyyəsinə çıxarmaq niyyətləri ifadə edilmişdi^^°.

Bundan əlavə, iki ölkə arasında ikiqat vergiyə cəlb etməyə yol verilməməsi, gəlirlərə və kapitala görə vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında konvensiya, Azərbaycan Respublikası hökuməti və Norveç Sənaye və Energetika Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında 1994-cü il noyabnn 21-də imzalanmış memorandumun həyata keçirilməsinə dair protokol imzalandı Aprelin 25-də isə ARDNŞ ilə Statoyl şirkəti arasında saziş imzalandı. Bu saziş Azərbaycanın neft ehtiyatlarının birgə işlənməsində Statoyla yeni imkanlar verirdi.

Azərbaycan Prezidentinin Norveçə səfərinin böyük əhəmiyyəti var idi. Bu səfər iki dövlət arasında münasibətlərin inkişafına təkan verirdi. İmzalanan sənədlər qarşılıqlı münasibətlərdə yeni mərhələnin başlanğıcını qoyurdu. İki ölkə arasında münasibətlərə qiymət verərkən Azərbaycan Prezidenti apardığı danışıqları və imzalanan sənədləri Norveç - Azər

Əliyev H.Ə. Statoyl şirkətinin prezidenti H.Norvinq ilə görüşdə çıxış. 25 aprel 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VI kitab, s.l90.

Əliyev H.Ə. Norveç iş adamları ilə görüşdə çıxış. 26 aprel 1996-cı il . - Müstəqilliyimiz əbədidir. VI kitab, s. 195-201.

Azərbaycan Respublikası ilə Norveç Krallığı arasında birgə bəyannamə. 24 aprel 1996-cı il. - Müqavilələr toplusu. I cild, s. 95-97.

^^'Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Qərbi Avropa ölkələrinə səfəri. Osloda sənədlərin imzalanması mərasimi, qəzeti, -“Azərbaycan” Bakı, 1996, 3 may.

baycan əlaqələrinin gələcək inkişafı üçün böyük bir mərhələ, Azərbaycan Respublikası üçün tarixi hadisə adlandırdı/^^

Səfər münasibətlərin dərinləşdirilməsinə və yeni sahələri əhatə edərək genişlənməsinə təsir etdi. Belə ki, səfərdən sonra, 1996-cı il iyunun 4- də "Şahdəniz" yatağının işlənməsi üzrə imzalanan sazişdə Statoyl pay aldı^^^. Sentyabrın 25-də Bakıya növbəti səfər edən Norveçin sənaye və energetika naziri Y.Stoltenberq sement istehsalı, telekommunikasiya və nəqliyyat sahəsində əməkdaşlığa dair təkliflər irəli sürdü. Azərbaycan tərəfi həmin təklifləri qəbul etdi. Bu zaman Norveçin 45 şirkəti Azərbaycanda fəaliyyət göstərirdi. Danışıqlar zamanı qarşılıqlı faydalı əlaqələri genişləndirməyə dair razılıq əldə edildi. Səfərin yekununda Azərbaycan Respublikası və Norveç Krallığı arasında sərmayələrin dəstəklənməsi və qarşılıqlı müdafiəsi haqqında protokol imzalandı.

Azərbaycan tərəfi münasibətləri daha da inkişaf etdirmək üçün yeni bir addım ataraq 1996-cı ilin noyabr ayında Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri Mahmud Məmmədquliyevi eyni zamanda Norveç Krallığında səfir təyin etdi^^".

Norveç Krallığının Azərbaycanda səfirliyi isə 1998-ci il iyulun 22- də açıldı. Bundan sonra münasibətlərdə dinamizm artdı. NATO-nin yaradılmasının 50 illiyi ilə bağlı Vaşinqtonda keçirilən toplantı zamanı
1999- cu il aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Norveç Krallığının Baş Naziri Kelye Maqne Bondevik^^^ ilə görüşərək əməkdaşlıq məsələlərini müzakirə etdi^^®. Norveçin Baş Naziri ölkəsinin Azərbaycan ilə əməkdaşlığı genişləndirmək arzusunu ifadə etdi. Heydər Əliyev neft müqavilələrində Norveç şirkətlərinin iştirakını xatırlatdı və Ermənistanın təcavüzünə diqqəti cəlb etdi.

Əliyev H.Ə. Azərbaycan və Norveç ölkələri arasında sənədlərin imzalanması mərasimindən sonra bəyanat. 24 aprel 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VI kitab, s.171.

Daha bir tarixi müqavilə. - "Xalq qəzeti", Bakı, 1996, 5 iyun.

Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları (oktyabr-dekabr 1996-cı il). Bakı, 1997, s.9.

Kelye Maqne Bondevik (1947) - Norveçin Baş Naziri (1997-2000, 2001- 2005).

Əliyev H.Ə. Norveç Krallığının Baş Naziri Kelye Maqne Bondevil ilə görüşdəki söhbətdən. 24 aprel 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XX kitab, s.90-92.

Münasibətlərin inkişafında mühüm yerlərdən birini 2000-ci il fevralın 22-25-də xarici işlər naziri Vilayət Quliyevin başçılıq etdiyi nümayəndə heyətinin Norveçə rəsmi səfəri tutdu. Səfər zamanı ikitərəfli siyasi münasibətlərin genişləndirilməsi və siyasi məsləhətləşmələrin davamlı olması məsələləri müzakirə edildi. Danışıqların yekununda, fevralın 23-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Norveç Krallığının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında protokol imzalandı.

İki ölkənin xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələr sonrakı illərdə də davam etdirildi. Belə ki, 2003-cü il yanvarın 21-24-də Norveç Xarici İşlər Nazirliyinin ABŞ, Kanada, Rusiya və digər MDB ölkələri ilə Təhlükəsizlik Siyasəti və İkitərəfli Əlaqələr Departamentinin direktoru Yorq Villi Bronebakk və icraçı katibi Göril Yohansendən ibarət nümayəndə heyəti Bakıya səfər etdi. Bundan bir neçə ay sonra, iyulun 2- 3-də xarici işlər nazirinin müavini Xələf Xələfov nazirliklər arasında məsləhətləşmələr keçirmək üçün Norveçdə səfərdə oldu. Həmin il noyabrın 7- 8-də Norveç Xarici İşlər Nazirliyinin dövlət katibi Kim Traavikin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfər etdi. Səfərdə məqsəd ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələlərini müzakirə etmək idi. Norveç Azərbaycan ilə enerji, humanitar, neft və kənd təsərrüfatı sahələrində əməkdaşlıqda maraqlı idi. Xarici işlər nazirinin müavini Xələf Xələfov ilə keçirilən görüşdə əməkdaşlığı genişləndirmək istəyi ifadə edildi^^^. Norveç Xarici İşlər Nazirliyinin dövlət katibi Dağlıq Qarabağ münaqişəsinin tezliklə beynəlxalq birliyin səyləri ilə sülh yolu ilə tənzimlənəcəyinə ümidvar olduğunu bildirdi.

İki ölkə arasında münasibətlərin inkişafında Azərbaycan diasporası müəyyən rol oynayırdı. Norveçdə 300-dən çox azərbaycanlı yaşayır və 3 diaspora təşkilatı fəaliyyət göstərirdi. Norveçin Azərbaycan icması Xaricdə yaşayan azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin dəstəyi ilə 2003-cü il noyabrın 12-də Osloda Azərbaycan evi mədəniyyət mərkəzini açdı. Açılış mərasimində Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili Elmira Süleymanova iştirak etdi. Norveçdə yaşayan yurddaşların şəraitinin yaxşılaşdırılması, onların iqtisadi və ictimai-siyasi statusunun artırılması, cəmiyyətin baş verən proseslərdə fəal iştirakının tə

Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Xələf Xələfovun Norveç Krallığının Xarici İşlər Nazirliyinin dövlət katibi Kim Traavik ilə görüşü. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2003, oktyabr-dekabr, XsS, s.104-105.

min edilməsi sahəsində bu ölkədə fəaliyyət göstərən diasporanm əhəmiyyətli rolu var idi.

Ümumiyyətlə, 1991-2003-cü illərdə iki ölkə arasında münasibətlərdə siyasi, iqtisadi əməkdaşlıq mühüm yer tutmuşdur. Azərbaycan Respublikasının Norveç Krallığı ilə münasibətlərinin məqsəd və vəzifələri müəyyənləşdirilmiş, konkretləşdirilmiş və onların yerinə yetirilməsinə çalışılmışdır. Norveç ilə enerji sahəsində əməkdaşlıq başlıca yerlərdən birini tutmuşdur. Bu ölkə Azərbaycanın ərazi bütövlüyünü müdafiə etmiş, azərbaycanlı qaçqın və məcburi köçkünlərə humanitar yardım etmişdir.

## BOLQARISTAN RESPUBLİKASI İLƏ QARŞILIQLI MÜNASİBƏTLƏRİN QURULMASI VƏ İNKİŞAFI

### İlk təmaslar

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikası Cənub-Şərqi Avropa ölkələri ilə əlaqələr qurmağa başladı. Bu ölkələrlə əlaqələrin qurulmasına bir sıra amillər təsir edirdi. Uzun illər boyu sosializm sisteminin mövcud olduğu həmin ölkələr əlverişli coğrafi, strateji məkanda yerləşirdilər. Sosializm sistemi dağıldıqdan sonra bu məkan Azərbaycanın enerji ehtiyatlarının Avropa bazarlarına çıxarılmasında böyük potensiala malik idi. Böyük dövlətlər daim region üzərində nüfuz qazanmağa çalışmışdılar. Cənub-Şərqi Avropaya nəzarət bütün Avropa qitəsinə nəzarət etməyə imkan verirdi. Region nəqliyyat kommunikasiyalarının kəsişdiyi əlverişli məkan idi. Azərbaycan hələ keçmiş dövrlərdən bu ölkələrlə müəyyən əlaqələr saxlamışdı. Azərbaycan Respublikasının yeni şəraitdə həmin ölkələrlə əlaqələrinin qurulmasına təsir edən amillərdən biri ticarət-iqtisadi maraqları idi. Azərbaycan Respublikası ilə Balkan ölkələrinin inkişaf səviyyələri və təsərrüfat sistemləri, xarici siyasətdə üzləşdiyi problemlər bir-birinə yaxın idi. Bu ölkələrin əksəriyyəti yaxın coğrafi məkanda yerləşirdilər. Azərbaycan Respublikası ilə Cənub-Şərqi Avropa ölkələrini daxili siyasi, iqtisadi və sosial problemlərin eyniliyi də birləşdirirdi. Totalitarizmdən qurtularaq demokratiya yolunu tutan bu ölkələrin təcrübəsi Azərbaycan üçün də əhəmiyyətli idi. Azərbaycan Respublikası Cənub-Şərqi Avropa ölkələri üçün də əhəmiyyət kəsb edirdi. Əlverişli coğrafi-siyasi mövqedə yerləşməsi Azərbaycanın əhəmiyyətini həmin ölkələr üçün artırırdı. Azərbaycan Asiyaya keçiddə yaxın, ucuz,

əlverişli və təhlükəsiz bir ölkə rolunu oynayırdı. Bu ölkələrin Azərbaycanda enerji və digər maraqları da var idi.

Azərbaycanın əlaqələr qurduğu ölkələrdən biri Bolqarıstan Respublikası oldu. Bolqarıstan Azərbaycanın dövlət müstəqilliyini 1992-ci il yanvarın 14-də tanıdı. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il iyunun 5-də quruldu^^^ Lakin iki ölkə arasında münasibətlər bundan irəli getmədi. Qarşılıqlı münasibətlərdə ilk addımlar 1993-cü ilin yayından sonra atılmağa başladı. Bolqarıstan Nazirlər Şurası sədrinin müavini, iqtisadiyyat və sənaye naziri Raço Petrovun başçılığı altında nümayəndə heyəti 1993-cü il sentyabrın 16-da Azərbaycana səfərə gələrək iki ölkə arasında iqtisadi əlaqələrin qurulması məsələlərini müzakirə etdP^^. Azərbaycan Prezidenti Heydər Əliyev ilə görüşdə iki ölkə arasında iqtisadi və mədəni əməkdaşlığın qurulmasının vacibliyi vurğulandı.

Azərbaycan və Bolqarıstan arasında münasibətlərin yüksək səviyyədə qurulmasında ilk addım 1994-cü ilin dekabr ayında ATƏM-in Bu- dapeşt zirvə görüşündə atıldı. Dekabrın 6-da Heydər Əliyev və Bolqarıstan Prezidenti Jelyu Jelev^“'° arasında görüş keçirildi. Dövlət başçıları iki ölkə arasında iqtisadiyyat, siyasət və mədəniyyət sahəsində faydalı əməkdaşlığın həyata keçirilməsinin yollarını, metod və vasitələrini, əsas istiqamətlərini müzakirə edərək geniş perspektivlərinin olmasına dair yekdil fikrə gəldilər^'”.

Heydər Əliyev və Jelyu Jelev növbəti dəfə 1995-ci il martın 11-də Kopenhagendə keçirilən Sosial inkişaf naminə ümumdünya konfransı çərçivəsində görüşərək Azərbaycan Prezidentinin Bolqarıstana nəzərdə tutulan səfəri zamanı imzalanacaq sənədlər haqqında fikir mübadiləsi etdilər.

İki dövlət rəhbərinin növbəti görüşü İkinci dünya müharibəsində faşizm üzərində qazanılan qələbənin 50 illiyi münasibəti ilə 1995-ci ilin

ARXİNA. 2008.

Bolqarıstan nümayəndə heyətinin Azərbaycana səfəri. - “Azərbaycan” qəzeti, Bakı, 1993, 17 sentyabr.

Jelyu Jelev (1932) - Bolqarıstan parlamentinin sədri (1990-1992). Ölkə Prezidenti (1990-1992, 1992-1997).

Azərbaycan diplomatiyasının taleyüklü böyük uğuru. Respublika Prezidenti Heydər Əliyevin Budapeştə səfəri. -“Azərbaycan” qəzeti, Bakı, 1994, 8 dekabr.

may ayında Parisdə keçirilən toplantı çərçivəsində oldu. Bu görüş ikitərəfli münasibətlərin inkişafına təkan verdi^'*^.

## Münasibətlərin yeni keyfiyyət mərhələsinin başlanması

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Prezident Jelyu Jelevin dəvəti ilə 1995-ci il iyunun 29-30-da Bolqarıstana rəsmi səfər etdi^'*^. Bolqarıstan Prezidenti ilə keçirilən danışıqlarda ikitərəfli və regional məsələlər müzakirə edildi. Heydər Əliyev iki ölkə arasında münasibətlərin tarixinə nəzər yetirdi, Qarşılıqlı İqtisadi Yardım Şurası dağıldıqdan sonrakı dövrdə Azərbaycanın Bolqarıstan ilə münasibətləri inkişaf etdirməkdə maraqlı olduğunu vurğuladı, elm və ali təhsil müəssisələri arasında əlaqələrin qurulmasının əhəmiyyətindən danışdı, Azərbaycanın Bolqarıstanın humanitar yardımına ehtiyacı olduğunu dedi, Ermənistanın Azərbaycana təcavüzünün nəticələri üzərində dayandı^'*".

Danışıqlar zamanı regional məsələlər də müzakirə edildi. Əvvəllər Bolqarıstan Yuqoslaviya böhranına münasibətdə bitərəf mövqe tutur, regional əməkdaşlığa üstünlük verirdi. Çünki Serbiyaya qarşı tətbiq edilən sanksiyalardan Bolqarıstan əziyyət çəkirdi. Bolqar hökuməti atəşin dayandırılmasına və Makedoniya Respublikasının tanınmasına tərəfdar idi. 1993-cü il dekabrın 21-də bu ölkə ilə diplomatik əlaqələr qurmuşdu. Bolqar hökumətinin mövqeyinə görə, Makedoniya və Yunanıstan aralarındakı problemi özləri həll etməli idilər^"^ Bolqarıstan Prezidenti Azərbaycanın ərazi bütövlüyünü və sülh siyasətini müdafiə etdi. Dağlıq Qarabağ münaqişəsinin ATƏT çərçivəsində nizama salınmasına edəcəkləri köməyi artıracaqlarını bildirdi.

Azərbaycan Prezidenti Bolqarıstan Xalq Məclisində çıxış etdi^^'®. O, nitqində Azərbaycanın keçdiyi inkişaf yolu, daxili və xarici siyasətinin əsas istiqamətləri barədə danışdı.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Bolqarıstan Respublikasının Prezidenti Jelyu Jelev ilə görüşmüşdür. - “Azərbaycan” qəzeti, Bakı, 1995, 12 may.

ARXİNA. 04.01.1995-10.02.1995. Qovluq JS2İ4, v. 7.

ARXİNA. (29.06.1995). 04.01.1995-10.02.1995. Qovluq Jf2İ4, v. 9-11. ARXİNA. 04.01.1995-10.02.1995. Qovluq X2İ4, v. 15-17.

Əliyev H.Ə. Bolqarıstan Xalq Məslisində çıxış. 19 iyun 1995-ci il. - Müstəqilliyimiz əbədidir. 111 kitab, s.49-53.

Heydər Əliyev Bolqarıstanın Baş Naziri Jan Videnov ilə görüşərək kənd təsərrüfatı, maşınqayırma, emal sənayesi və b. sahələrdə əməkdaşlıq məsələlərini müzakirə etdi. Tərəflər müvafiq sahələrdə əməkdaşlığın qurulub inkişaf etdirilməsi niyyətlərini bildirdilər.

Səfərin yekununda iki ölkə arasında sənədlərin imzalanma mərasimi oldu^'*'. Azərbaycan ilə Bolqarıstan arasında dostluq və əməkdaşlıq haqqında 26 maddədən ibarət müqavilə imzalandı.^"*. Müqavilədə tərəflər zor işlətməmə və ya zor işlətməklə hədələməmə, dövlətlərin ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı, mübahisələrin dinc yolla nizama salınması, daxili işlərə qarışmama, insan hüquqlarına və əsas azadlıqlarına hörmət, xalqların bərabərliyi və onların öz müqəddəratını təyinetmə hüququ, dövlətlər arasında əməkdaşlıq, beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipləri əsasında münasibətlərini inkişaf etdirmək, BMT və ATƏT-in rolunu artırmağa səy etmək, ikitərəfli məsləhətləşmələri həyata keçirmək, demokratiya və insan hüquqlarının qorunmasına kömək göstərmək, sülh və sabitlik üçün çalışmaq, Avropada silahların və silahlı qüvvələrin azaldılması prosesinə yardım etmək, nüvə silahının yayılmaması rejiminin möhkəmləndirilməsi məqsədi ilə nüvə tərksilahı prosesinə imkan yaratmaq, əməkdaşlığın inkişafı üçün dövlət hakimiyyət orqanlarının nümayəndələri arasında əlaqələri dəstəkləmək, Bolqarıstanda yaşayan Azərbaycan mənşəli vətəndaşların və Azərbaycanda yaşayan bolqar mənşəli vətəndaşların etnik, dil, mədəniyyət və dini özgürlüklərinin tədqiqi, qorunub saxlanılması və inkişafı üçün zəruri şərait yaratmaq və tədbirlər görmək, ticarət-iqtisadi və elmi-texniki əməkdaşlığın inkişafına kömək etmək, qarşılıqlı investisiya qoyuluşunu təşviq etmək, neft-kimya, kimya sənayesi, maşınqayırma, elektronika, gəmiqayırma, yüngül sənaye və kənd təsərrüfatı məhsullarının yenidən işlənilməsi, xüsusi avadanlıq istehsalı sahələrində geniş faydalı əməkdaşlıq etmək, hərbi-texniki sahədə əməkdaşlığı inkişaf etdirmək və hərbi istehsalatların mülki məqsədlər üçün konversiya məsələlərində qarşılıqlı fəaliyyət göstərmək, nəqliyyat sahəsində əməkdaşlığı genişləndirmək, mədəniyyət sahəsində, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq etmək barədə öhdəliklər götürürdülər.

Azərbaycan Prezidentinin Bolqarıstana səfərinin və imzalanan müqavilənin böyük əhəmiyyəti var idi. Səfər qarşılıqlı münasibətlərin

ARXİNA. 04.01.1995-10.02.1995. Qovluq NsM, v.3.

Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında dostluq münasibətləri və əməkdaşlıq haqqında müqavilə. 29 iyun 1995-ci il. - Müqavilələr toplusu. 1 cild, s.38-44.

İnkişafında yeni bir mərhələ açırdı. Müqavilə iki ölkə arasında münasibətlərin hüquqi-müqavilə bazasını möhkəmləndirirdi.

Səfərdən sonra əlaqələr genişləndi. Azərbaycan və Bolqarıstan dövlət başçıları 1995-ci il oktyabrın 24-də BMT Baş Məclisinin sessiyasının keçirildiyi günlərdə Nyu Yorkda görüşərək bir neçə ay əvvəl imzalanan sənədlərin əhəmiyyətini, həyata keçirilməsinin vacibliyini qeyd etdilər, Dağlıq Qarabağ münaqişəsinin ATƏT çərçivəsində həlli prosesinə dair fikir mübadiləsi apardılar^"®.

İki ölkə arasında siyasi təmaslar 1996-1998-cı illərdə də intensiv oldu. Dövlət rəhbərləri müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində görüşlər keçirərək ikitərəfli münasibətlərə dair məsələləri müzakirə etdilər. Münasibətlərin maddi təməllərinin möhkəmləndirilməsi üçün müəyyən addımlar atıldı. 1999-cu il mayın 28-də Azərbaycan Respublikası Prezidenti Azərbaycan və Bolqarıstan arasında iqtisadi-ticarət və elmi-texniki birgə komissiyasının yaradılması barədə sərəncam imzaladı. Birgə komissiyanın birinci iclası 1999-cu ilin dekabr ayında keçirildi.

Münasibətlərdə yeni bir səhifəni 1999-cu il dekabrın 2-də Bolqarıstan Prezidenti Petr Stoyanovun^^° Azərbaycana rəsmi səfəri açdı. Bu, Bolqarıstan Prezidentinin Azərbaycana ilk rəsmi səfəri idi. Doğrudur, buna qədər Bolqarıstan Prezidenti Avropa İttifaqının dəstəyi ilə keçirilən Tarixi İpək yolunun bərpasına həsr edilmiş TRASEKA proqramı çərçivəsində Bakıda keçirilən beynəlxalq konfransda iştirak etmişdi. Bolqarıstan TRASEKA və İNOGEYT proqramlarında iştiraka xüsusi əhəmiyyət verir. Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini istəyir, Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsini dəstəkləyir, Azərbaycan neftinin dünya bazarına çıxarılmasında iştirak etməyi arzulayırdı^^'. Səfər ərəfəsində Bolqarıstan hökuməti Azərbaycanda səfirlik açmaq barədə qərar qəbul etmişdi.

Danışıqlarda ikitərəfli münasibətlərin geniş məsələləri - beynəlxalq layihələrdə iştirak, Azərbaycan neft və qazının Bolqarıstan vasitəsi ilə Avropaya ixracı, Poti limanından Bolqarıstanın Burqas və Varna limanlarına

Azərbaycan Prezidenti Heydər Əliyev Bolqarıstan Prezidenti Jelyu Jelev ilə görüşmüşdür. - “Azərbaycan” qəzeti, Bakı, 1995, 4 noyabr.

Stoyanov P. (1952) — Bolqarıstan siyasi və dövlət xadimi. Ədliyyə nazirinin müavini (1991-1992). Ölkə prezidenti (1997-2002).

Əliyev H.Ə. Bolqarıstan Respublikasının Prezidenti Petr Stoyanov ilə təkbətək görüşdə söhbət. 2 dekabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXllI kitab, s. 299-302.

qədər keçidi, Azərbaycanın Avropa Şurasına üzvlüyünün Bolqarıstan tərəfindən müdafiəsi, elmi, mədəni əlaqələr və s. məsələlər müzakirə edildP^^.

Səfərin yekununda sənədlər imzalandı. Bu sənədlərin içərisində iki ölkə arasında münasibətlərin daha da inkişaf etdirilməsi haqqında birgə siyasi bəyanat^^^, dostluq münasibətlərinin və əməkdaşlığın inkişaf etdirilməsi haqqında saziş iki ölkə arasında münasibətlərin inkişafı və dərinləşməsində müstəsna rol oynayırdı. Səfərdən dərhal sonra, 1999-cu ilin dekabr ayında Bolqarıstanın Azərbaycandakı səfirliyi fəaliyyətə başladı.

Bolqarıstan ilə hərbi sahədə də əməkdaşlıq quruldu. Hərbi əməkdaşlıq haqqında saziş işlənib hazırlandı^^'*. 10 maddədən ibarət bu sənəd 2002-ci il sentyabrın 25-27-də Azərbaycanın müdafiə naziri Səfər Əbiye- vin Bolqarıstanın müdafiə naziri N.Svinarovun dəvəti ilə bu ölkəyə rəsmi səfəri zamanı imzalandı^^^. Sazişə görə, tərəflər müdafiə və təhlükəsizlik siyasəti, hərbi-iqtisadi və hərbi-texniki fəaliyyətlər, kadrların hazırlanması, orduda ictimai, idman və mədəni fəaliyyətlər, hərbi qanunvericilik, hər- bi-elmi fəaliyyətlər, hərbi tibb; inam və təhlükəsizliyin möhkəmləndirilməsi üzrə tədbirlər, silahlara nəzarət, NATO-nun Sülh naminə tərəfdaşlıq proqramının tədbirlərində iştirak etmək və s. sahələrdə əməkdaşlıq edəcəkdilər.

İki ölkə hərbi sahədə aşağıdakı formalarda əməkdaşlıq edəcəkləri barədə razılaşırdılar: rəsmi ziyarət və işçi görüşləri; təcrübə mübadiləsi və məsləhətləşmələr; təlim layihələrində, təcrübə keçmədə, təkmilləşdirmə kurslarında iştirak; təlimlərdə birgə iştirak; sənədlər, elmi layihələr və lisenziyalar mübadiləsi; qarşılıqlı maraq doğuran məlumatların mübadiləsi; konsertlər, sərgilər, festivallar və digər mədəni toplantılar.

Əliyev H.Ə. Azerbaycan və Bolqarıstan nümayəndə heyətləri arasında danışıqlarda çıxış. 2 dekabr 1999-cu il. - Müstəqillyimiz əbədidir. XXIII kitab, s. 303-318.

Azərbaycan Respublikası Prezidentinin və Bolqarıstan Respublikası Prezidentinin birgə bəyanatı. 2 dekabr 1999-cu il. - Müqavilələr toplusu. I cild, s. 185- 187.

ARXİNA. 2002. Qovluq Xal0, v. 40-41.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Bolqarıstan Respublikası Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında saziş. 25 sentyabr 2002-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. II hissə, s. 146-148.

Qeyd etmək lazımdır ki, 1991-2008-ci illər ərzində Azərbaycan ilə Bolqarıstan arasında 33 sənəd imzalanmışdı^^*". Hər iki ölkə beynəlxalq təşkilatlar, xüsusilə Avropa və Avroatlantik qurumlar çərçivəsində əməkdaşlıq edirdilər.

Ümumiyyətlə, 1991-2003-cü illərdə Azərbaycan Respublikasının xarici siyasətində Avropa ölkələri ilə münasibətlər xüsusi yer tutmuşdur. Azərbaycan Respublikası yuxarıda göstərilən ölkələrlə yanaşı İspaniya, Macarıstan, Çex Respublikası, Slovak Respublikası, Lüksemburq, Danimarka, Finlandiya, İslandiya, İsveç, İsveçrə, İrlandiya, San-Marino, Latviya, Litva, Estoniya, Albaniya, Xorvatiya, Makedoniya, Sloveniya və Yunanıstan ilə də əlaqələr qurmuşdur. Azərbaycanın Avropa ölkələri ilə münasibətlərinin qurulmasına təsir edən əsas amillər coğrafi-siyasi mövqeyi, Avropa ailəsinin üzvü olması, qloballaşma, Transatlantika məkanına inteqrasiya proseslərində iştirak istəyi, Avropa qitəsinin enerji təhlükəsizliyinin təminatında iştirak, Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, demokratiyanın inkişafı sahəsində çoxtərəfli əməkdaşlıq və s. olmuşdur. Qarşılıqlı münasibətlərin hüquq-müqavilə bazası yaradılmışdır. Avropa ölkələri ilə siyasi, ticarət- iqtisadi, elmi-texniki, mədəni, humanitar, hərbi və b. sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq qurularaq inkişaf etdirilmişdir.

[356] ARXINA. 2008.

# VII FƏSIL

# AZƏRBAYCAN RESPUBLİKASININ AMERİKA QİTƏSİ DÖVLƏTLƏRİ İLƏ MÜNASİBƏTLƏRİNİN QURULMASI VƏ İNKİŞAFI

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının xarici siyasətinin mühüm istiqamətlərindən biri Amerika qitəsi ölkələri ilə diplomatik əlaqələrin qurulması və inkişafı oldu. Bu ölkələrin arasında Amerika Birləşmiş Ştatları ilə münasibətlər xüsusi yer tutur və böyük əhəmiyyət kəsb edirdi.

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI İLƏ MÜNASİBƏTLƏR

### Münasibətlərin qurulmasına təsir edən amillər

Azərbaycan Respublikasının xarici siyasətində ABŞ ilə münasibətlərə xüsusi diqqət yetirməsini bir sıra amillər şərtləndirirdi. Məlum olduğu kimi, SSRİ Mərkəzi və Cənub-Şərqi Avropa ölkələrindən çıxdıqdan, dağıldıqdan və soyuq müharibə başa çatdıqdan sonra ABŞ dünyanın yeganə fövqəldövlətinə çevrildi. ABŞ eyni zamanda dünyanın ən böyük iqtisadi güc mərkəzi idi. Belə bir fakt maraqlıdır ki, 1996-2002-ci illərdə dünya ümumi məhsul istehsalında ABŞ-ın payı 25,9%-dən 31,2%-ə qədər yük- səlmişdi^^^. Amerika qitəsinin zəngin təbii sərvətləri və enerji ehtiyatları var idi. Dünya neftinin böyük bir hissəsi (52 milyard barrel), dünya qazının 31%-i Şimali Amerikada yerləşirdi. ABŞ hərbi baxımdan dünyanın yeganə fövqəldövləti idi. Məşhur ABŞ politoloqu Henri Kissincerin yazdığı kimi, Amerika hərbi sahədən biznesə, elmdən texnologiyaya, ali təhsildən kütləvi mədəniyyətə qədər dünyada görünməmiş miqyasda hökmranlıq edirdP^*. Dəyişikliklər nəticəsində ABŞ dünya miqyasında

VTKHH A.H. EÄHHCTBeHHaa cBepxaep>KaBa, c. 38.
' KnccHHÄXcep Y. HyjKHa JIH AMcpnKe EHeuiHaa noaHXHKa?, c. 1.

siyasət yürüdən böyük güc dövlətinə və dünya siyasətini müəyyənləşdirən mərkəzə çevrildi. Birləşmiş Ştatlar texnoloji inkişafı baxımından digər ölkələri xeyli qabaqlayırdı. ABŞ demokratiya və insan hüquqları sahəsində nümunə rolunu oynayırdı. Bu ölkə beynəlxalq və regional təşkilatların qurucusu və üzvü idi. Politoloq Z.Bjezinskinin yazdığı kimi, belə bir şəraitdə qlobal miqyasda ABŞ-m qarşısında üç əsas missiya dururdu: geosiyasi tarazlığın pozulduğu və milli maraqların artdığı bir dünyada əməkdaşlığa meyilli bir qlobal sistemin ortaya çıxmasını təmin etmək üçün əsas dövlətlər arasındakı əlaqələri idarə etmək, istiqamətləndirmək və formalaşdırmaq; qlobal zorakılıqların azaldılması üçün münaqişələrin qarşısını almaq və ya ortadan qaldırmaq, terrorizmə və kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizə aparmaq, vətəndaş müharibəsi gedən regionlarda kollektiv sülhməramlı əməliyyatları dəstəkləmək; insanlar arasında getdikcə dözülməz hal alan qeyri-bərabərliklə ortaya yeni çıxan "qlobal vicdan" reallığını nəzərə almaqla daha təsirli şəkildə mübarizə aparmaq, qlobal rifah üçün təhlükə doğuran ekoloji və ətraf mühitlə bağlı problemlərə ortaq bir cavab tapmaq^^®.

Azərbaycan Respublikası üçün ABŞ-m əhəmiyyətini bir sıra digər amillər də artırırdı. Bu zaman Azərbaycanın iki böyük,problemi var idi. Birincisi, Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi; ikincisi, bərpa edilmiş dövlət müstəqilliyini möhkəmləndirmək, tanıtmaq, ağır iqtisadi və sosial şəraitdən çıxmaq. Azərbaycan həmin problemləri həll etməklə yanaşı. Cənubu Qafqazda təhlükəsizliyi və sabitliyi təmin etməyə, ABŞ və Qərb ilə strateji tərəfdaşlığı gücləndirməyə, regional iqtisadi inkişafa. Qərb ilə iqtisadi inteqrasiyanı genişləndirməyə nail olmaq niyyətləri də güdürdü.

ABŞ da Azərbaycana xüsusi maraq göstərirdi. Bu da bir sıra amillərlə bağlı idi. Azərbaycan Respublikasının əlverişli coğrafi-siyasi mövqedə yerləşməsi, Avropa - Qafqaz - Asiya nəqliyyat dəhlizinin yaradılmasında tutduğu mövqe; zəngin təbii sərvətləri və s. ABŞ-m Azərbaycan siyasətinə təsir edirdi. Azərbaycanın yerləşdiyi Xəzər regionu Rusiya, İran və Çinin arasında bir rəqabət meydanına çevrilmişdi. Regionda ABŞ-m ticarət, enerji və geosiyasi maraqları var idi. Xəzər regionu ABŞ-m yeni "məsuliyyət zonası" hesab edilirdi. Bu, Birləşmiş Ştatların Cənubi Qafqaz siyasəti ilə eyni idi. ABŞ-ın Xəzər regionu siyasətini şərtləndirən amillər

® Bjezinski Z. İkinci şans: üç prezident və Amerika fövqəldövlətinin böhranı, s.lO.

əsasən aşağıdakılardan ibarət idi: Cənubi Qafqaz coğrafi baxımdan Xəzər regionunun tərkib hissəsi idi; Xəzər regionunun karbohidrogen ehtiyatlarının mənimsənilməsi Cənubi Qafqazı Xəzər regionu geosiyasətinin tərkib hissəsinə çevirirdi. Karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması üçün Cənubi Qafqaz tranzit rolunu oynayırdı; regionda yaşayan xalqlar tarixi və coğrafi baxımdan yaxın idilər; Cənubi Qafqaz Avrasiyada əlverişli mövqedə yerləşirdi; ABŞ-ın rəqibi hesab edilən İran və Rusiya region ilə qonşu idilər; Cənubi Qafqaz Rusiya və İranın təzyiq siyasətinin qarşısını almaq imkanına malik idi; bu region ABŞ-ın müttəfiqi olan Türkiyə ilə qonşu idi. Cənubi Qafqazda, xüsusən Azərbaycanda nüfuz qazanmaq uğrunda böyük, o cümlədən qonşu dövlətlər arasında diplomatik- siyasi mübarizə gedrdi.

Cənubi Qafqaz dövlətlərinin müstəqil olmasında maraqlı olan ABŞ region siyasətini üç istiqamətdə həyata keçirməyə başladı: region dövlətləri ilə birbaşa əlaqələr qurdu; siyasətini yürüdərkən Avropanın aparıcı dövlətlərinin və beynəlxalq təşkilatların yardımından İstifadə etməyə başladı; Türkiyənin regiondakı geniş imkanlarından bəhrələndi. İlk baxışda fərqli görünmələrinə baxmayaraq, bu üç istiqamət bir-biri ilə sıx bağlı idi.

## İlk əlaqələr

Məlum olduğu kimi, Azərbaycan - ABŞ münasibətlərinin tarixi XIX əsrdə Bakı neftində Amerika şirkətlərinin iştirakı ilə başlayır. Həmin dövrdə Azərbaycan neft sənayesinə ABŞ kapitalı qoyulmuşdu. 1918- 1920-ci illərdə iki ölkə arasında ilk təmaslar qurulmuşdu. 1919-cu ildə Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinin rəhbəri Əlimərdan bəy Topçubaşov^®® ilə görüşən ABŞ Prezidenti Vudro Vilson^®’ Azərbaycana hər cür yardım edəcəyini bildirmişdi.

İkinci dünya müharibəsi başa çatdıqdan sonra, 50-60-cı illərdən başlayaraq ABŞ ilə yalnız Mərkəzi hakimiyyət tərəfindən həyata keçirilən

Əlimərdan bəy Topçubaşov (1865-1934) - Azərbaycanın görkəmli siyasi və dövlət xadimi. AXC-nin ikinci xarici işlər naziri. Azərbaycan parlamentinin sədri (1918-1920). 1919-cu il Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinin rəhbəri.

Vudro Vilson (1856-1924) - ABŞ-ın 28-ci Prezidenti (1913-1921).

mədəniyyət sahəsində bəzi əlaqələr saxlanılırdı. Bakı ilə Hyuston qardaşlaşmış şəhərlər idi.

ABŞ-da azərbaycanlı icması yaşayırdı. Birləşmiş Ştatlardakı azərbaycanlı icmasının formalaşması XX əsrin 20-ci illərindən başlamışdı. Daha sonra İkinci Dünya müharibəsində əsir düşən və Stalin repressiyalarından qorxaraq vətənə qayıtmayan azərbaycanlılar ABŞ-da da məskunlaşmağa başlamışdılar. Azərbaycanlıların yerləşməsinin növbəti mərhələsi 50-60-cı illərdə və 1978-1979-cu illər İran inqilabından sonra olmuşdu. İrandan mühacirət etmiş təqribən 700 min azərbaycanlı ABŞ-da yaşayırdı.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra onu ilk tanıyan dövlətlərdən biri ABŞ oldu. 1991-ci il dekabrın 25-də etdiyi nitqində ölkəsinin Azərbaycanın dövlət müstəqilliyini tanıdığını bildirən ABŞ Prezidenti Corc Buş Prezident Ayaz Mütəllibova məktub yazaraq münasibətlərin qurulması üçün beş prinsipi irəli sürdü: ABŞ keçmiş SSRİ ərazisində bir neçə nüvə dövlətinin olmasında maraqlı deyildir. Azərbaycan 1968-ci il nüvə silahının yayılmaması haqqında müqaviləni imzalamalı, nüvə silahı olmayan ölkə statusu haqqında təminatları Vyanadakı Atom Enerjisi üzrə Beynəlxalq Agentliyə verməlidir; Azərbaycan ATƏM çərçivəsində sərhədlərin dəyişdirilməyəcəyini qəbul etməli, bütün mübahisəli məsələləri BMT və ATƏM, Beynəlxalq Məhkəmə və digər sülhsevər demokratik qurumların köməyi ilə həll etməlidir. ABŞ bütün daxili və xarici sərhədlərə hörmətlə yanaşır; siyasi islahatların aparılması üçün qanunlara riayət olunmalı və demokratik üsullardan istifadə edilməlidir; insan haqları və etnik azlıqların hüquqları qorunmalıdır. Azərbaycan bu sahədəki bütün müqavilələri imzalamalıdır. Əgər dövlətin milli siyasəti və sistemi bu sahədəki beynəlxalq normalara uyğun deyildirsə, beynəlxalq normalar əsas götürülməlidir; Azərbaycan azad bazar iqtisadiyyatına keçməlidir^^^.

Qeyd etmək lazımdır ki, Corc Buş hələ hakimiyyətə gələnə qədər beynəlxalq münasibətlər sahəsində geniş məlumata və biliyə sahib idi. O, Çin Xalq Respublikasında ABŞ-ın qeyri-rəsmi fəaliyyət göstərən səfirliyinə rəhbərlik etmiş, bundan sonra ABŞ-m BMT-dəki daimi nümayəndəsi və Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru işləmişdi.

Corc Buşa göndərdiyi cavab məktubunda Ayaz Mütəllibov Azərbaycan Respublikasının ilk dörd şərtə riayət etdiyini, beşinci şərt ilə bağlı

■ Cafersoy N. Elçibey dönemi Azerbaycan dış politikası (Haziran 1992 Haziran 1993). Bir bağımsızlık mücadelesinin diplomatik öyküsü, s.l36.

səylər göstərdiyini bildirərək ABŞ ilə müstəqil münasibətlər qurmaq niyyətlərini ifadə etdi. Məktubunda Ayaz Mütəllibov ABŞ-m Ermənistan ilə diplomatik münasibətlər qurub Azərbaycanla belə bir münasibətlər qurmamasımn ictimai rəy tərəfindən təəccüblə qarşılandığını da vur- ğuladı^".

Beləliklə, həmin məktublarla iki ölkə arasında münasibətlərdə ilk addımlar atıldı. Qeyd etmək lazımdır ki, artıq bu zamandan etibarən Amoko şirkəti Azərbaycan nefti ilə maraqlanırdı.

Birləşmiş Ştatlar hökuməti regionda baş verən proseslərdən, xüsusən Dağlıq Qarabağ münaqişəsinin dərinləşməsindən, SSRİ dağıldıqdan sonra İranın Cənubi Qafqaz regionunda fəallaşmasmdan narahatlıq hissi keçirirdi. ABŞ ilə Azərbaycan arasında hələ də diplomatik əlaqələr qurulmamışdı. Həmin məsələlərin müzakirəsinə ehtiyac duyulurdu. Ona görə də 1992-ci il fevralın 12-də dövlət katibi Ceyms Beyker Bakıya səfər etdP^'*. O, Azərbaycan Respublikasının Prezidenti Ayaz Mütəllibov ilə görüşərək Azərbaycanın daxili və xarici siyasəti, iqtisadi islahatlar. Dağlıq Qarabağ münaqişəsi haqqında məlumatlar aldı. İki ölkə arasında münasibətlərin perspektivlərini müzakirə etdi. Görüşdə region məsələləri də müzakirə edildi. Ceyms Beyker SSRİ dağıldıqdan sonra İran tərəfinin bəzi hərəkətlərindən, İslam inqilabını ixrac etmək cəhdlərindən ölkəsinin narahat olduğunu bildirdi. Ayaz Mütəllibov ABŞ-ın Azərbaycan Respublikası ilə indiyədək diplomatik əlaqələr qurmadığının başa düşülmədiyini bildirdi. Ceyms Beyker ölkəsinin Azərbaycan ilə diplomatik əlaqələr qurmasına kömək edəcəyini söylədi. O, eyni zamanda bildirdi ki. Dağlıq Qarabağdakı azlığın haqları məsələsində lazımi təminat olmayınca ABŞ Azərbaycana yardım etməyəcəkdir.

Səfərdən sonra Ceyms Beyker ABŞ hökumətinə Azərbaycan ilə diplomatik əlaqələr qunnağı tövsiyə etdi. Səfərdən bir neçə gün sonra, fevralın 17-də Bakıya səfər edən ABŞ dövlət katibinin şəxsi nümayəndəsi, xüsusi tapşırıqlar üzrə səfir Nikolas Sanqoya Azərbaycan Respublikasının dövlət katibi Midhət Abbasov ilə görüşərək diplomatik əlaqələrin qurulması və Bakıda ABŞ səfirliyinin açılması məsələlərini müzakirə etdi^®^.

nojiHTHKa CLUA B OTHOıneHHH AsepöaHÄÄaHa. flaKC AıvıcpııKaHa xax HOBaa MHpoBaa cxpyKxypa. üepeBOA A.PacıısaAe. - faa. "BaKHHCKHH pa6oHnK", Baxy, 1992, 4 HOHÖpa.

Həsənov Ə. Azərbaycan - ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru (oktyabr 1991 - avqust 1997), s.30.

Nəsirov E. Azərbaycan - ABŞ münasibətləri (1991-1997-ci illər), s.22.

Həmin müzakirələrdən sonra ABŞ-m Azərbaycanda strateji maraqlarının əsasının qoyulmasına başlandı. ABŞ tərəfi Azərbaycan Respublikası ilə fevralın 28-də diplomatik əlaqələr quracağını bildirdi^*"". ABŞ-ın Azərbaycandakı ilk müvəqqəti işlər vəkili Robert Finn oldu^®'. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il martın 17-də quruldu. ABŞ-m Azərbaycanda səfirliyi açıldı. Açılış mərasimində ABŞ-ın Azərbaycandakı müvəqqəti işlər vəkili Robert Finn çıxış edərək səfirliyin iki ölkə arasında əlaqələrin inkişafına xidmət edəcəyini vurğuladı. Azərbaycanda ABŞ səfirliyinin açılması qarşılıqlı münasibətlərə yeni keyfiyyət halı verir və imkanlar yaradırdı. ABŞ-m Azərbaycan Respublikasındakı ilk səfiri Riçard Mayis oldu.

Danışıqlar zamanı N.Sanqoya Dağlıq Qarabağ münaqişəsinin ATƏM çərçivəsində həllinə tərəfdar çıxdı. Bu zaman artıq Dağlıq Qarabağ münaqişəsi üzrə Minsk qrupu yaradılmışdı. ABŞ tərəfi Azərbaycan haqqında məlumat toplamaq, ölkənin potensialını, daxili və xarici siyasətini, Ermənistan - Azərbaycan münasibətlərini öyrənməyə daha çox maraq göstərirdi. Bu məqsədlə 1992-ci ilin aprel ayında ABŞ senatının ATƏM komissiyasının sədri Dennis Konsininin rəhbərliyi altında nümayəndə heyəti Azərbaycana səfər etdi. Səfərdən az sonra Ermənistan silahlı qüvvələri Şuşa və Laçını işğal etdikdə ABŞ Dövlət Departamenti 1992-ci il mayın 19-da bəyanat verərək zor gücü ilə ərazilərin işğalını tanımaya- cağını bildirdi, Dağlıq Qarabağda və Naxçıvanda döyüş əməliyyatlarının şiddətlənməsin! pislədi^^*. Bu, ABŞ-ın obyektiv və ədalətli mövqeyi idi.

## Anlaşılmaz münasibətlər:
## Səbəb nədir?

1992-ci ilin may ayında baş verən hakimiyyət dəyişikliyindən sonra Azərbaycana ABŞ-ın marağı bir qədər də artdı. Həmin ilin iyul ayında keçiriləcək ATƏM-in Helsinki zirvə görüşü ərəfəsində Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy ABŞ Prezidenti Corc Buşa məktub göndərərək ölkəsinin Birləşmiş Ştatlar ilə bütün sahələrdə əməkdaşlıq

ARXINA. 2008.

Robert Finn. Diplomatic beginning in Baku. - Azerbaijan in Global Politics: Crafting Foreign Policy, p. 97.

ABŞ Dövlət Departamentinin bəyanatı. - "Xalq qəzeti", Bakı, 1992, 22 may. 

qurmaq istəyini bildirdi. Cavab məktubunda Corc Buş münasibətlərin inkişafında ölkəsinin maraqlı olduğunu bəyan etdi^*^®.

Bu zaman erməni diasporası və lobbisinin təsiri altında ABŞ konqresinin komitəsində Azərbaycana humanitar yardımın dayandırılması haqqında düzəliş qəbul edildi. Düzəlişin qəbulundan narahat olan Azərbaycan Respublikası Milli Məclisi 1992-ci il iyulun 15-də Amerika Birləşmiş Ştatlarının konqresinə müraciət qəbul etdi^'". Müraciətdə Azərbaycana köməyin dayandırılması haqqında konqresdə qəbul olunan xüsusi düzəlişdən narahatlıq ifadə olunurdu. Bildirilirdi ki, Azərbaycan Respublikasının heç bir ölkəyə ərazi iddiası və başqa ölkələrin torpaqlarını zəbt etmək niyyəti yoxdur. Regionda müharibə Azərbaycan torpaqlarında gedir və bunun təşəbbüskarı Ermənistandır. Ermənistanın başladığı təcavüzün nəticəsində Naxçıvanda, yuxarı Qarabağda və onunla həmsərhəd ərazilərdə 60-dan çox Azərbaycan şəhəri və kəndi tutulub, dinc əhalidən minlərlə insan, o cümlədən qocalar, qadınlar və uşaqlar vəhşicəsinə məhv edilmişdir. Ermənistandan 200 mindən artıq azərbaycanlı qovulmuşdur, bu gün onlara yuxarı Qarabağdan və Ermənistanla həmsərhəd rayonlardan 100 min didərgin də qoşulmuşdur. Azərbaycanın Laçın şəhəri zəbt olunmuşdur və "Laçın dəhlizinin" açılması bəhanəsi ilə bu ərazidə yerləşən kəndlər və qəsəbələr yandırılır. Hazırda guya humanitar kömək məqsədi ilə açılmış "dəhlizlə" Ermənistandan yuxarı Qarabağa silah və hərbi texnika çatdırılır. Bu gün blokadada olan Ermənistan və yuxarı Qarabağ deyil, Azərbaycanın digər hissəsi ilə quru əlaqəsi olmayan Naxçıvan Muxtar Respublikasıdır. Beynəlxalq təşkilatların və ayrı-ayrı ölkələrin yuxarı Qarabağ probleminin həllinə yönələn cəhdlərinə baxmayaraq, Ermənistan Respublikası BMT nizamnaməsindəki bütün beynəlxalq hüquq normalarını açıqca tapdalayır, ATƏM-in iştirakçısı kimi üzərinə götürdüyü vəzifələri kobudcasına pozur.

Azərbaycana yardımın qadağan olunması haqqında xüsusi düzəlişin qəbul edilməsi obyektiv informasiyaya əsaslanmırdı. Bununla belə, Azərbaycan tərəfi əmin idi ki, bu fakt iki ölkənin dostluq münasibətlərinə heç bir xələl gətirməyəcək, Amerika xalqı son nəticədə regionda baş verən hadisələrə obyektiv qiymət verə biləcək və Ermənistanın təcavüzü nəticəsində və bir çox səbəblərə görə bərbad hala düşən Azərbaycana köməyini

Dövlət başçılarının ümumavropa müşavirəsi. Bakı, 1992, s. 7.

Azərbaycan Respublikası Milli Məclisinin Amerika Birləşmiş Ştatları Konqresinə müraciəti. 15 iyul 1992-ci il. - Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 15 iyul 1992-ci il. Bakı, 1992, Jfs 13 (866), s.l6.

əsirgəməyəcəkdir. Müraciətdə ABŞ konqresinin üzvləri real şəraiti qiymətləndirmək üçün Azərbaycana dəvət edilirdilər.

Lakin Azərbaycan Respublikası Milli Məclisinin müvafiq müraciətinə müsbət cavab verilmədi. 1992-ci il oktyabrın 24-də ABŞ konqresinin 102-ci çağırış 2-ci sessiyasının iclasında demokratiyanın inkişafı və azad bazar iqtisadiyyatına keçid məqsədi ilə 460 milyon dollar həcmində yardımı nəzərdə tutan Azadlığı müdafiə aktına 907-ci düzəliş qəbul edildi^’’. Erməni seçicilərinin güclü və sayca çox olduğu Massaçusets ştatından olan senator Con Kerrinin təqdim etdiyi bu düzəlişin qəbul edilməsinə təsir göstərən bəhanə Azərbaycanın guya Ermənistanı və Dağlıq Qarabağı blokadaya alması idi. Sənədin qəbul edilməsinə səs verən konqresmenlərin regiondakı hadisələrdən heç xəbəri yox idi. Düzəlişin qəbul edilməsinə təsir edən əsas amillər güclü erməni lobbisinin Azərbaycan əleyhinə apardığı təxribat və böhtan xarakterli təbliğat, ABŞ-dakı Azərbaycan icmasının zəifliyi, amerikalı qanunvericilərin Azərbaycan haqqında məlumatlarının olmaması və ya yanlış olması idi. Düzəlişin mənfi nəticəsi oldu. ABŞ tarixçisi Tadeuş Svyatoxovskinin yazdığı kimi, bu, “...ümumi fikrə görə, Amerika hökumətini münaqişənin tənzimlənməsi məsələsindən uzaqlaşdırdı”^’". Bu zaman ABŞ-da təqribən 600 min nəfər erməni yaşayırdı. Erməni cəmiyyətlərinin türklərin əleyhinə təbliğatı başlıca fəaliyyət istiqamətlərindən biri idi. Onların kütləvi informasiya vasitələrinin əsas mübarizəsi Türkiyə və Azərbaycan əleyhinə yönəlmişdi.

907-ci düzəliş ABŞ-ın Azərbaycan hökumətinə dövlət səviyyəsində hər hansı yardımını qadağan, onu humanitar yardımdan məhrum edir, regionda insan hüquqlarına hörmət prinsipinə zərbə vurur, sülhün bərqərar olmasına imkan vermir, Azərbaycanın böyük dövlətlər və özünün kiçik qonşuları arasında gizli razılaşmaların qurbanı olması təəssüratını yaradır. Birləşmiş Ştatların obyektivliyi və ədalətliliyinə şübhə, azərbaycanlıların böyük bir hissəsində ABŞ-a nifrət hissi doğurur və beynəlxalq hüquq normalarını kobudcasına pozaraq Azərbaycana təcavüz edən Ermənistanı şirnikləşdirirdi. Düzəlişin qəbul edilməsi Azərbaycanın nüfuzuna vurulan zərbə idi. Bu vəziyyət Azərbaycanı təmin etmirdi.

Freedom Support Act; clause restricting aid to Azerbaijan. - “Azerbaijan International”, May 1993, p.7.

Svyatoxovski T. Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə, S.301.

## Anlaşılmazlığı aradan qaldırmaq üçün diplomatik fəaliyyət

İki ölkə arasında münasibətlərin belə bir çətin vaxtında Azərbaycan tərəfi müəyyən addımlar atdı. Vaşinqton şəhərində Azərbaycan Respublikasının səfirliyi təsis edildP’^. Azərbaycan Respublikası Prezidentinin 1992-ci 13 noyabr tarixli fərmanı ilə Hafiz Mircəlal oğlu Paşayev^’^' ABŞ-da Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri təyin edildi. Ona eyni zamanda Kanada, Meksika, Kuba və Cənubi Amerika ölkələrində dövləti təmsil etmək həvalə olundu^^^. Hafiz Paşayevə Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri dərəcəsi verildi. Səfirlik 907-ci düzəlişin ədalətsiz olması, Azərbaycan haqqında obyektiv informasiyanın yayılması, bərabərhüquqlu münasibətlərin qurulması istiqamətində fəaliyyətə başladı. Azərbaycana qarşı erməni diasporası və lobbisi güclü olduğundan bu vəzifələri yerinə yetirmək çətin idi.

Azərbaycan Respublikası Milli Məclisi 907-ci düzəlişin qəbuluna etiraz olaraq 1992-ci il dekabrın 23-də ABŞ senatına müraciət qəbul etdi^’^. Müraciətdə bildirilirdi ki, Azərbaycan hökuməti qarşısında irəli sürülən tələblər hadisələrin səbəbləri ilə deyil, yalnız özlüyündə obyektiv mənzərəni əks etdirməyən müəyyən nəticələrlə bağlıdır. Məsələnin bu cür qeyri-obyektiv qoyuluşu hadisələrin əsl səbəblərindən bəhs etmək zərurətini doğururdu. İlk növbədə belə bir suala cavab axtarmaq lazım idi ki, Ermənistan ilə Azərbaycan arasında gedən müharibə nədən başlanmışdır? Bu sualın ilk baxışdan sadə görünən - müharibə Qarabağ münaqişəsindən başlamışdır - cavabında Ermənistanın suveren Azərbaycana qarşı ərazi

Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarında (Vaşinqton şəhərində) səfirliyinin açılması haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. 23 sentyabr 1992-ci il. - Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 30 sentyabr 1992-ci il. Bakı, 1992, Ra 18 (871), s.42-43.

Hafiz Paşayev (1941) - diplomat. Fizika-riyaziyyat elmləri doktoru. Professor. Azərbaycan Respublikasının ABŞ-dakı ilk fövqəladə və səlahiyyətli səfiri (1992-2006). 2006-cı ildən Azərbaycan Respublikası xarici işlər nazirinin müavini və ADA Universitetinin rektoru.

Amerika Birləşmiş Ştatlarında Azərbaycan Respublikasının səfirinin təyin edilməsi və səfirliyin fəaliyyətinin təşkili haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. 13 noyabr 1992-ci il, Jfa 303. - Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 15 noyabr 1992-ci il. Bakı, 1992, Ra 21 (874), s.30-31.

ARXİNA. 1992.

iddialarını zorla həyata keçirmək qəsdi gizlənirdi. Yəni Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın siyasi və milli həyatına Ermənistan tərəfindən daxil edilmiş uzaq məqsədli bir bəhanə idi. Onun da zorla, müharibə yolu ilə reallaşacağı təqdirdə Azərbaycanın tarixi torpağı olan Qarabağ əvvəlcə Azərbaycandan ayrılıb müstəqil elan edilir və sonrakı mərhələdə Ermənistana qatılırdı. Bu məqsədlə də məhz erməni tərəfinin səyləri nəticəsində əvvəlcə beynəlmiləlləşdirilmiş, sonra da hərbiləşdirilmiş Qarabağ münaqişəsi nəinki Azərbaycan və Ermənistan üçün ciddi problemə çevrilmiş, həm də keçmiş SSRİ ərazisində yaranmış digər müstəqil dövlətlər üçün eyni tipli qanlı münaqişələrin yaranmasında faciəvi rol oynamışdı^^'.

Ermənistanın Azərbaycanda erməni azlığının hüquqlarının müdafiəsi pərdəsi altında hər iki xalqı məruz qoyduğu bu faciə insan hüquqlarının beynəlxalq normalarına uyğun deyildi. Müraciətdə yazılırdı ki, əgər Ermənistan doğurdan da insan hüquqlarına, milli azlıqların hüquqlarına ciddi riayət edən dövlət idisə, təkcə 1988-ci ildən bəri öz ərazisindən 200 mindən çox azərbaycanlını didərgin salmazdı. Azərbaycanlıların Ermənistanda nəinki heç bir muxtariyyəti olmamışdı, həm də gündəlik təzyiq altında yaşamışdılar. Məhz belə bir siyasət ona gətirib çıxarmışdı ki, Ermənistan əhalisinin 99%-dən çoxu ermənilərdən ibarət olan monomilli dövlətə çevrilmişdi. Ermənistanda bir nəfər də azərbaycanlı qalmadığı halda, Azərbaycanın paytaxtında 25 min nəfərdən çox erməni yaşayır və dövlət onların həyatı üçün hər cür təminat verirdi.

Müraciətdə Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ regionundan azərbaycanlı əhalini öz vətənində didərgin salması, ancaq erməni əhalisini saxlayaraq vilayəti əvvəlcə Azərbaycandan müharibə yolu ilə ayırmaq və sonra da Ermənistana qatmaq niyyətləri açılır, münaqişənin köklərinə diqqət yetirilirdi. Azərbaycanda ermənilər üçün normal şəraitin yaradıldığı qeyd edilirdi. Vilayətdə ermənilər üçün sosial inkişaf, mədəniyyət və dil məsələlərində heç bir ayrı-seçkilik nəinki olmamış, bütün mühüm göstəricilər üzrə orada sosial inkişaf Azərbaycanın digər regionlarından da yüksək olmuşdu. Erməniləri narazı salan adi həyati məsələlər deyildi. Onları Azərbaycanın əleyhinə qaldıran və terror hərəkətlərinə sövq edən Ermənistandan gəlib burada uzun illər ərzində təxribat aparanlar, "Böyük Ermənistan" adlı sərsəm ideyanın müəllifləri idilər.

Daha sonra müraciətdə 1988-ci ildən bəri davam edən münaqişənin xronikasma nəzər yetirilir, zəlzələdən ziyan çəkən Ermənistana yardım

ARXINA. 1992.

üçün Azərbaycandan göndərilən təyyarənin qəzaya uğraddması, 30 nəfərədək uşağın qaz borularına doldurularaq qaynaq edilməsi, Xocalıda törədilən soyqırım, Şuşa və Laçının işğal edilməsi, silah və sursatın Dağlıq Qarabağa daşınması barədə məlumat verilir, Naxçıvanın blokadada saxlandığı vurğulanırdı. Lakin bu müraciətin ciddi bir təsiri olmadı.

Qeyd etmək lazımdır ki, ABŞ-m Azərbaycan siyasətinə ABŞ - Rusiya, ABŞ - İran münasibətlərinin vəziyyəti də təsir edirdi. Belə ki, Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi haqqında məsələ 1993-cü il yanvarın 3-də Moskvada Boris Yeltsin və Corc Buş arasında keçirilən görüşdə də müzakirə edildi. Məsələyə dair qəbul olunan birgə bəyanatda ABŞ və Rusiya prezidentləri Azərbaycanın Dağlıq Qarabağ regionunda və Ermənistan - Azərbaycan sərhədindəki döyüşlərdən narahat olduqlarını bildirir, ATƏM prinsiplərinə uyğun olaraq münaqişənin həllinə çağırırdılar. Bəyanat iki böyük ölkənin münaqişənin həllinə dair baxışlarını ortaya qoymaq baxımından əhəmiyyətli idi. Lakin Ermənistan həmin müraciətə məhəl qoymayaraq işğallarını genişləndirdi.

1993-cü il yanvarın 20-də ABŞ-ın yeni Prezidenti Bili Klinton səlahiyyətlərinin icrasına başladı. Azərbaycan - ABŞ münasibətləri onun hakimiyyəti illərində də davam etdirildi. Bili Klinton doktrinasını elan edərək istənilən ölkə ilə ABŞ-ın münasibətlərinin qurulmasının aşağıdakı şərtlərini açıqladı: azad bazar iqtisadiyyatına keçid; demokratikləşdirmə; çoxpartiyalı sistemin qurulması; azad və demokratik seçkilərin keçirilməsi.

Azərbaycan dövləti müstəqilliyin bərpasından sonra əslində həmin prinsipləri özünün fəaliyyəti üçün qəbul etmişdi. Lakin Ermənistanın təcavüzü onların reallaşdırılmasına mane olurdu. Ermənistanın təcavüzkarlıq siyasəti regionda insan hüquqlarını, insanın ali hüququ olan yaşamaq hüququnu pozur və demokratiya yolu ilə inkişafa əngəl törədirdi. Ermənistanın blokadada saxladığı Naxçıvan Muxtar Respublikasının əhalisi ağır şəraitdə yaşayır, Azərbaycanın digər əraziləri ilə quru yolu ilə əlaqə saxlaya bilmirdi. Belə bir ağır şəraitdə, 1993-cü ilin yanvar ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev Bili Klintona məktub göndərərək onun müstəqil Azərbaycan Respublikasına xoş və xeyirxah münasibət bəsləyəcəyinə, dünyanın bir çox regionlarında

baş verən münaqişələrin həllinə nail olacağına, Naxçıvanın Ermənistan tərəfindən blokadaya alınmasına son qoyulacağına ümid ifadə etdi^’*.

Heydər Əliyevin müraciətinə dərhal reaksiya verildi. ABŞ-m Azərbaycandakı səfiri Riçard Mayis 1993-cü il fevralın 4-də Naxçıvana səfər etdi. O, Heydər Əliyev ilə görüşərək Prezident Bili Klintonun bölgədə yaranmış narahatlığını və ABŞ Dövlət Departamentinin humanitar yardımlar proqramının rəhbəri Riçard Armitacın məktubunu çatdırdı. Görüşdə Azərbaycanda yaranmış ictimai-siyasi şərait, Ermənistanın hərbi təcavüzü və Naxçıvanın blokadası ilə bağlı məsələlər müzakirə edildi. ABŞ Dağlıq Qarabağ münaqişəsinin ATƏM çərçivəsində danışıqlar yolu ilə həllinə tərəfdar idi.

Heydər Əliyevin Riçard Mayis ilə görüşünün ikitərəfli münasibətlərə ciddi təsiri oldu. Belə ki, 907-ci düzəlişin qüvvədə olmasına baxmayaraq, ABŞ-dan Naxçıvana humanitar yardım göndərildi. Bu, Azərbaycan - ABŞ münasibətlərində ilk müsbət addımlardan biri idi.

Bundan sonra, fevralın 11-də ABŞ konqresi nümayəndələr palatasının üzvü Qreq Lafiinin^’^ rəhbərliyi altında nümayəndə heyəti Azərbaycana səfər etdi. Azərbaycan Prezidenti Əbülfəz Elçibəy ilə keçirilən görüşdə iki ölkə arasında münasibətlərin inkişafının ən vacib məsələləri müzakirə edildi. Azərbaycan tərəfi ABŞ-m yardımına ehtiyacı olduğunu bildirdi.

Lakin az sonra, fevralın 17-də bir neçə konqresmen Azərbaycan Respublikasını guya beynəlxalq hüququ pozduğuna görə pisləməyə çağıran bir qərar layihəsi təqdim etdilər. Bu, təəccüblü bir qərar idi. Emıənis- tan silahlı qüvvələri Azərbaycan torpaqlarını bir-birinin ardınca işğal etdiyi bir zamanda təzavüzkarı deyil, təcavüzə məruz qalan Azərbaycanı pisləyən qərar layihəsinin təqdim edilməsi ədalətsizlik idi. Belə bir hərəkət ABŞ-dakı Azərbaycan səfirliyinin kəskin etirazına səbəb oldu. Səfir Hafiz Paşayev konqresə məktub yazaraq konqresmenlərin bu iddialarının əsasının olmadığını bildirdi. Nəticədə layihənin qəbul edilməsinin qarşısı ahndı^®°. Fevralın 18-də isə ABŞ Bakıya 20 ton tibbi ləvazimat göndərdi.

Artıq qeyd edildiyi kimi, yenicə fəaliyyətə başlayan Azərbaycan Respublikası səfirliyinin qarşısında duran başlıca vəzifələr 907-ci

Həsənov Ə. Azərbaycan - ABŞ; anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru (oktyabr 1991-avqust 1997), s. 35-36.

Qreq Laflin (1942)-nümayəndələr palatasının üzvü (1988-1996).

Paşayev H.M. Yüksəkliyə doğru. Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı ilk səfirinin seçilmiş məqalələri, s.49-50.

düzəlişin ləğvi və Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı həqiqətlərinin çatdırılması idi. Bu məqsədlə səfir Hafiz Paşayev martın 6- da konqresmen Güman ilə görüşərək iki ölkə arasında münasibətlərin vəziyyətinə dair məsələləri müzakirə etdi. O, 907-ci düzəlişin ədalətsiz olduğunu və Ermənistanın Azərbaycana qarşı təcavüzünü faktlarla konqresmenin diqqətinə çatdırdı^* *'. Görüşdən bir neçə gün sonra, martın 8-də Hafiz Paşayev ABŞ konqresinin Avropada təhlükəsizlik və əməkdaşlıq komissiyasının üzvləri qarşısında çıxış etdP*^. Bu çıxış Azərbaycanın Dağlıq Qarabağ regionunda şəraitə həsr edilmişdi. Səfir nitqində münaqişənin tarixinə qısa nəzər yetirdi, 1919-cu il Versal sülhü ilə Azərbaycanın ərazilərinin tanındığını, 1920-ci ildə ölkənin işğal olunduğunu, 1991-ci ildə dövlət müstəqilliyinin bərpa edildiyini xatırladaraq Dağlıq Qarabağ regionunda 1988-ci ilin fevralından başlanan separatçılığa diqqəti yönəltdi. Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğal edildiyini, adamların ev-eşiklərindən didərgin düşdüyünü və Naxçıvanın blokadada saxlanıldığını vurğulayaraq münaqişənin həllində ABŞ-m obyektiv mövqe tutacağma ümid ifadə etdi. Azərbaycanın humanitar yardıma ehtiyacı olduğunu bildirdi. Daha sonra Azərbaycan səfiri konqresmenlərin suallarına cavab verdi.

1993-cü il martın 9-da ABŞ konqresinin Helsinki komissiyasında dinləmələr oldu. Bu qurum ATƏM üzvü olan ölkələrdə insan haqları məsələləri ilə məşğul olurdu. Dinləmələrdə Dağlıq Qarabağ münaqişəsi üzrə ABŞ Dövlət Departamentinin xüsusi nümayəndəsi səfir Con Mareska, Amerika Erməni Assambleyasının icraçı direktoru Ross Vartyan, Amerika Erməni Milli Komitəsinin sədri Murad Topalyan, korporasiyalar üzrə mütəxəssis, əsasən Gürcüstan üzrə çıxış edən Pol Heyns iştirak edir- dilər^^^. Dinləmələrdə iki amil diqqəti cəlb edirdi: birincisi, komissiya üzvlərinin çoxu ABŞ siyasətinə müntəzəm təsir edən şəxslər idi; ikincisi, onların bir çoxu Azərbaycanın mövqeyi barədə indiyədək eşitməmişdilər. Con Mareska çıxışında tərəf saxlamadı. ABŞ-m Minsk prosesini dəstəklədiyini bildirdi. Açıq şəkildə vurğuladı ki, ABŞ münaqişədə tərəflərin heç birini müdafiə etmir. O, tərəflərə münaqişənin danışıqlar yolu ilə həllini təklif etdi. Roma danışıqlarında əldə edilən razılaşmanı müsbət

ARXİNA. 1993. Qovluq R22O, v.

•

qiymətləndirdi. ABŞ münaqişənin həllində bir ölkənin rolunun üstün tutulmasına deyil, beynəlxalq təminatçılara tərəfdar çıxırdı.

Dinləmələrdə çıxış edən Murad Topalyan yalan məlumatlar əsasında Azərbaycanı ittiham etdi. Azərbaycanda yaşayan ermənilərin guya hüquqlarının pozulduğunu bildirdi^*'*. Bu, başdan-başa qərəzli çıxış idi.

Azərbaycan səfiri Hafiz Paşayev çıxış edərək Azərbaycanın Dağlıq Qarabağ regionunda və ətrafında yaranan şəraiti şərh etdi. Münaqişə nəticəsində yaranmış qaçqın və məcburi köçkünlərin ağır vəziyyətdə olduqlarını vurğuladı. Ermənistanın Xocalıda törətdiyi soyqırıma diqqəti cəlb etdi, etnik təmizləmə siyasəti apardığını qabartdı. Çıxışdan sonra səfirə çoxlu suallar verildi.

Dinləmələrin əhəmiyyəti var idi. Məhz bu dinləmələrdən sonra bəzi konqresmenlər Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinə yanaşmada tərəfsiz olmağa meyil etməyə başladılar.

Elə həmin gün, martın 9-da ABŞ tərəfi Naxçıvana 800 min dollarlıq tibbi ləvazimat göndərdi^*^. Agentliklər isə ABŞ-m Naxçıvana müharibə qurbanlarına etdiyi tibbi yardımın 1 mln. dollar olduğunu qeyd edirdilər^*^.

Hafiz Paşayev 1993-cü il martın 12-də Con Mareska ilə görüşdü. Əsasən əlaqə yaratmaq məqsədi daşıyan bu görüşdə Azərbaycan ilə ABŞ arasında münasibətlər, münaqişənin sülh yolu ilə həlli məsələləri müzakirə edildi, Ermənistanın təcavüzünün yaratdığı şərait vurğulandı**^.

Azərbaycan səfirliyi Ermənistanın təcavüzü haqqında həqiqətləri ABŞ ictimaiyyətinə çatdırmaq üçün mətbuatla da əlaqələr qurmağa başladı. Bilavasitə səfirliyin səyləri ilə “Vaşinqton Post” qəzeti 1993-cü il martın 29-da “Erməni qüvvələri Azərbaycan ərazisinə yeni yerdən soxulurlar” adlı məqalə dərc etdi***. Məqalədə Dağlıq Qarabağ regionundan kənarda erməni silahlı qüvvələrinin hücumları təsvir edilirdi. Bu məqalə rəsmi dairələrə təsir baxımından əhəmiyyətli idi.

Hafiz Paşayev martın 31-də ABŞ dövlət katibi Uorren Kristoferə məktub göndərərək Kəlbəcərə edilən hücum və qaçqınların vəziyyəti

ARXİNA. 1993. Qovluq N>20, v. 101-114.

US humanitarian assistanceto Azerbaijan. June 24, 1996.

ARXİNA. 1993. Qovluq N>20, v. 66-67.

ARXİNA. 1993.Qovluq X220, v. 52-53.

Armenian invasion force stars into Azerbijani territory at new point. - “Washington Post”, Mart 29, 1993.

barədə məlumat verdi. Azadlığı müdafiə aktına 907-ci düzəlişin Ermənistanı şirnikləşdirdiyini qeyd etdi^*'. Lakin bundan az sonra Ermənistan Kəlbəcər rayonunu işğal etdi.

Aprelin 5-də Hafiz Paşayev ABŞ dövlət katibi Uorren Kristoferə yeni bir məktub göndərdi. Məktubda səfir Azərbaycan ərazisində baş verən dəhşətli reallıqlara, Ermənistan silahlı qüvvələri tərəfindən Kəlbəcərin işğalına diqqəti cəlb etdi, onun bu işğalı pisləmək üçün BMT Təhlükəsizlik Şurasına məktub göndərməsini və növbədənkənar iclasını keçirməyə çağırış etməsini xahiş etdi.

Müraciət öz təsirini göstərdi. ABŞ Dövlət Departamenti aprelin 6- da bəyanat verərək işğalı pislədi, erməni qüvvələrinin Kəlbəcərdən tamamən və dərhal çıxarılmasını tələb etdi. ABŞ BMT Təhlükəsizlik Şurasının 822 >r2-li qətnaməsinin qəbul edilməsində mühüm rol oynadı. Bili Klinton da Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə məktub göndərərək Kəlbəcərin işğalını pislədi^^°. Uorren Kritofer isə erməni silahlı dəstələrinin hücumlarını pisləyərək dedi: "Birləşmiş Ştatlar hökuməti bu hücumu pisləyir və Ermənistan hökumətinin rəhbərlərinə və Dağlıq Qarabağ ermənilərinin nümayəndəsinə hücumla bağlı öz dərin narahatlığını çatdırmışdır. Biz bütün etnik erməni qüvvələrinin Kəlbəcər rayonu ərazisindən dərhal və tamamilə çıxarılmasını tələb etmişik"^®'.

ABŞ hökuməti Kəlbəcərin işğalından sonra Türkiyə və Rusiya ilə birlikdə erməni silahlı qüvvələrinin işğal edilmiş ərazilərdən çıxarılmasına, münaqişənin ATƏM çərçivəsində danışıqlar yolu ilə aradan qaldırılması planının hazırlanmasına və onun həyata keçirilməsinə səylər etdi^^^. ATƏM-in Minsk prosesini tamamilə müdafiə edən ABŞ hesab edirdi ki, bu, münaqişənin həlli üçün ən yaxşı vasitədir. ABŞ hökuməti münaqişəyə kənar müdaxilənin əleyhinə idi^". Minsk qrupunun işi dalana dirəndikdə ABŞ tərəflərlə qeyri-rəsmi görüşlər keçirməyə üstünlük verdi, həmin prosesi müdafiə etmək üçün ATƏM müşahidəçilərinin regiona göndərilməsi üçün 2 milyon dollaradək vəsait ayırmağa hazır olduğunu bildirdi^^"*.

ARXİNA. 1993. Qovluq Ro20, v. 37-38; Qovluq Ro22, v.87.

ABŞ Prezidentinin məktubu. - "Xalq qəzeti", Bakı, 1993, 20 aprel.

Paşayev H.M.Yüksəkliyə doğru. Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı ilk səfirinin seçilmiş məqalələri, s. 56.

Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996), S.167.

'

Qeyd etmək lazımdır ki, ABŞ Cənubi Qafqaz regionuna hərbi heyətini deyil, daimi müşahidəçilərini göndərmək istəyirdi və tərəflərə humanitar yardımlar göstərməyə hazır idi. Lakin hərbi əməliyyatlar davam etdiyindən həmin niyyətləri reallaşdırmaq mümkün olmadı.

Bu zaman Azərbaycan ilə ABŞ arasında işgüzar əməkdaşlıq üçün müəyyən işlər görüldü. 1993-cü il aprelin 12-də iki ölkə arasında ticarət münasibətləri haqqında saziş imzalandı. Bu sənəd ikitərəfli münasibətlərin inkişafında əhəmiyyətli bir addım idi. Həmin hadisədən bir gün sonra, aprelin 14-də Hafiz Paşayev etimadnaməsini ABŞ Prezidenti Bili Klintona təqdim etdi. Təqdimat mərasimi 25 dəqiqə çəkdi. Səfir Azərbaycanda yaranmış mövcud şəraiti şərh etdi, Ermənistan - Azərbaycan münaqişəsindən və Azərbaycan - ABŞ münasibətlərinin gələcəyindən danışdı.

Bili Klinton Azərbaycan səfirinin məktubuna cavab olaraq öz məktubunu təqdim etdi. ABŞ Prezidenti cavab məktubunda Vaşinqtonda Azərbaycan səfirliyinin açılmasının ikitərəfli əlaqələrin inkişafına sübut olduğunu və dövlətlər arasında daha geniş fikir mübadiləsinə imkan verəcəyini qeyd edir, Azərbaycanda demokratiyaya doğru irəliləyişi təqdir edir, iqtisadiyyatını xarici vətəndaşlar üçün açmaq üçün həyata keçirdiyi tədbirləri iqtisadi islahatlar yolunda mühüm addım kimi qiymətləndirir, Azərbaycanın siyasi və iqtisadi sistemini dəyişmək öhdəliyinə sadiq qaldığından ruhlandığını və onu müdafiə etdiyni bildirirdi. Eyni zamanda Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanda demokratik və azad bazar iqtisadiyyatı yolunda inkişafını mürəkkəbləşdirdiyini qeyd edirdi. Prezident davam edən döyüşlərdən narahat idi, hər iki tərəfdən olan itkilərdən kədərlənirdi. Bili Klinton münaqişənin həllində ATƏM-in səylərini dəstəkləyirdi. Roma görüşlərini problemin həllində mühüm addım kimi qiymətləndirən ABŞ Prezidenti bu yolda növbəti addımın hərbi əməliyyatların dayandırılmasından asılı olduğu qənaətində idi. O, hərbi əməliyyatların tərəflərə qələbə deyil, ölüm bəxş etdiyini vurğulayır, problemin həllinə ölkəsinin kömək etməyə hazır olduğunu bildirirdi. Daha sonra Azərbaycana dövlət yardımını qadağan edən Azadlığı müdafiə aktına konqresin etdiyi 907-ci düzəlişdən Azərbaycan tərəfinin narahat olduğunu qeyd edərək bildirirdi ki, şərait özü əlaqələrdəki bu çətinliyi aradan qaldıracaqdır^®^.

Azərbaycan səfirinin ABŞ Prezidenti ilə görüşünün böyük əhəmiyyəti oldu. Münaqişənin həllinə marağını artıran ABŞ bundan sonra bəzi

' ARXİNA. 1993. Qovluq X°20, v. 15-16.

addımlar atdı. 1993-cü ilin may ayında ABŞ Dövlət Departamentinin Dağlıq Qarabağ üzrə danışıqlarda nümayəndəsi Con Mareska^^*', iyun ayında isə yeni müstəqil dövlətlərlə əlaqələr üzrə müşaviri Stroub Tal- bott Bakıya səfər etdilər . Keçirilən görüşlərdə münaqişənin dinc yollarla həlli məsələləri müzakirə edildi.

Artıq qeyd edildiyi kimi, 1993-cü ilin yayında Azərbaycanda iqtisadi, ictimai-siyasi və mənəvi-psixoloji böhran yaranmışdı. Azərbaycan müstəqilliyini itirmək və dövlətçiliyi dağılmaq təhlükəsi qarşısında qalmışdı. Ölkənin şimalında və cənubunda separatçılıq güclənmişdi. Azərbaycan vətəndaş müharibəsinin astanasında dayanmışdı. İcra hakimiyyəti, qanunverici hakimiyyət və ordu arasında ixtilaflar yaranmışdı. Ölkəni hərc-mərclik bürümüşdü. Silahlı qruplaşmalar fəallaşmışdı. Belə bir şəraitdə mövcud hakimiyyət problemləri həll edə bilməyərək istefa verdi. Azərbaycan xalqının tələbi və konstitusiyaya uyğun olaraq görkəmli dövlət və siyasi xadim Heydər Əliyev hakimiyyətə gəldi.

Yeni hakimiyyətə əvvəlki illərdən Azərbaycan - ABŞ münasibətlərində bir sıra miras qalmışdı. Bu zaman iki ölkə arasında münasibətlərdə anlaşılmazlıq hökm sürürdü. ABŞ-da Azərbaycan haqqında belə bir mənfi fikir formalaşmışdı ki, guya Azərbaycanda ermənilər öldürülür, insan hüquqları pozulur və s. ABŞ-da Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini bilmirdilər.

1993-cü ilin yayından etibarən ABŞ ilə münasibətlərin yenidən qurulması üçün səylər artırıldı. Ümumiyyətlə, Azərbaycan daxilində xaosun, hərc-mərcliyin hökm sürdüyü, hakimiyyət uğrunda çarpışan müxtəlif qruplar arasında mübarizənin şiddətləndiyi, Ermənistanın təcavüzünün genişləndiyi, Azərbaycan müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qaldığı bir şəraitdə Vaşinqtonun Azərbaycan siyasətinin prioritet mövzusu Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün qorunması idi.

Azərbaycan daxilində yaranmış mürəkkəb şəraitdən istifadə edən Ermənistan təcavüzünü genişləndirərək yeni-yeni ərazilərin işğalını davam etdirirdi. Ermənistanın təcavüzünü dayandırmaq üçün səfir Hafiz Paşayev 1993-cü il iyunun 30-da vitse-prezident Albert Qora və dövlət

° ABŞ-m hökumət nümayəndə heyəti Bakıya gəlmişdir. - “Azərbaycan” qəzeti, 1993, 15 may.

Stroub Talbott (1946) - ABŞ dövlət katibinin müavini (1994-2001), ATƏT-in Minsk konfransının həmsədri (1997-2001).

npoKJiaabiBaa nyrb к Мируу. - Eaa. “BaKHHCKUH paöoHuü”, BaKy, 1993, 3 HIOHH.

katibi Uorren Kristoferə məktub göndərdi. O, Ermənistanın təcavüzünü dayandırmaq üçün səylər etməyə, qaçqın və məcburi köçkünlərin yaranması ilə meydana gəlmiş şəraitdə humanitar yardım göstərməyə çağırdı^^^. Ermənistan silahlı qüvvələri Ağdam və Füzuli rayonlarını işğal etdikdə Hafiz Paşayev sentyabrın 1-də konqresin spikeri Tomas Foliyə məktub yazaraq Azərbaycan ərazilərinin işğal edildiyini, 1 milyondan çox qaçın və məcburi köçkünün olduğunu, azaldılmış rəqəmlərə görə, 15 mindən artıq adamın müharibədə öldüyünü, ermənilər tərəfindən əsir və girov götürüldüyünü, etnik təmizləmə aparıldığını diqqətə çatdırdı. Ermənistanın apardığı təcavüzkar müharibəyə qarşı çıxmağın vacibliyini bildirdi'*™. Bundan bir gün sonra, sentyabrın 2-də Heydər Əliyev ABŞ Prezidenti Bili Klintona, vitse-prezident Albert Qora və konqresin spikeri Tomas Foliyə məktubla müraciət edərək ABŞ konqresi tərəfindən qəbul edilmiş Azadlığı müdafiə aktına məlum düzəlişi ləğv etməyə çağırdı, Ermənistanın Azərbaycana qarşı apardığı müharibə haqqında məlumat verdi, müharibənin dayandırılması və Azərbaycan xalqının müdafiəsi üçün səylər göstərməyə dəvət etdi'*°'.

Qeyd etmək lazımdır ki, ABŞ-da 907-ci düzəlişin ləğvinə tərəfdar olan və bunun üçün çalışan siyasi xadimlər də var idi. ABŞ-ın aparıcı siyasi xadimlərindən olan dövlət katibinin yeni müstəqil dövlətlər üzrə müşaviri və xüsusi tapşırıqlar üzrə səfiri Stroub Talbott və senator Say- mon Azərbaycana yardımı nəzərdə tutan məhdudlaşmaların aradan qaldırılmasını təklif edirdilər. Ona görə də ABŞ-dakı erməni dairələri etiraz edərək onlara təzyiqlərə başladılar. Ermənilər ABŞ xarici siyasətinə təsir etməyə çalışırdılar. Məsələn, Ermənistanın xarici işlər naziri Vahan Papazyan guya ABŞ-m demokratiya və bazar iqtisadiyyatı prinsiplərinə sadiqliyini təsdiq etməyən ölkələri yardımdan məhrumetmə siyasətindən geri çəkilməsinin təəssüf doğurduğunu bildirdi. Onun fikrincə, guya Azərbaycan Respublikasının Prezidenti ABŞ Prezidenti Bili Klintonun və konqresin yardım verilməsi üçün müəyyənləşdirdiyi standartlara cavab vermədiyindən Birləşmiş Ştatlar həmin yardımdan imtina etməli idi.

Paşayev H.M.Yüksəkliyə doğru. Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı ilk səfirinin seçilmiş məqalələri, s. 57-59.

‘'°°Yenə orada, s. 61-62.

Əliyev H.Ə. Amerika Birləşmiş Ştatlarının Prezidenti Bili Klinton cənablarına, Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Albert Qor cənablarına, Amerika Birləşmiş Ştatları konqresinin spikeri Tomas Foli cənablarına. 2 sentyabr 1993-cü il. - Müstəqilliyimiz əbədidir. I kitab, s.125-126.

Vahan Papazyanın ABŞ xarici siyasətini necə qurmasına dair bəyanatı erməni təbliğatını dərk edən hər bir şəxs üçün aydın idi. Lakin təəccüblü orası idi ki, həmin fikirləri beynəlxalq hüquq normalarını kobud surətdə pozub Azərbaycan Respublikasına qarşı təcavüz edərək ərazilərini işğal edən bir ölkənin xarici işlər naziri deyirdi.

Təcavüzə məruz qalan ölkəyə yardımı dayandırmaq haqqında ermənilərin tələbləri məntiqsiz idi. Digər tərəfdən, ABŞ-da bir çox tərəfsiz və obyektiv siyasətçilər Azərbaycana qarşı sanksiyaların tarazlığı pozduğunu və ABŞ-m maraqlarına cavab vermədiyini başa düşürdülər. Bununla bağlı olaraq Stroub Talbott 1993-cü il sentyabrın 9-da senatda etdiyi çıxışında birmənalı olaraq dedi: "Azərbaycana yardım proqramının məhdudlaşdırılması xarici siyasət məqsədlərimizə çatmağa mane olur”"'°^. Beləliklə, o, ABŞ-m Azərbaycan siyasətinin dəyişdirilməsinin vacibliyini əsaslandırdı.

ABŞ Azərbaycan rəhbərinin yuxarıda qeyd edilən məktubuna dərhal reaksiya verdi. Dövlət Departamentinin xüsusi tapşırıqlar üzrə səfiri Stroub Talbott Azərbaycana səfər edərək Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevə ABŞ Prezidenti Bili Klintonun 11 sentyabr tarixli cavab məktubunu təqdim etdi. Bili Klintonun məktubu bəzi məqamları ilə diqqəti cəlb edirdi'*”^. Hər şeydən əvvəl, ABŞ Prezidenti "Dağlıq Qarabağın erməni silahlı qüvvələrinin" Azərbaycana hücumunu və yüz min azərbaycanlının doğma yaşayış yerlərindən qovulmasını təəssüflə qarşılayır, Azərbaycana qarşı tətbiq edilmiş 907-ci düzəlişin qüvvədə qalmasına baxmayaraq, humanitar yardım göstəriləcəyini vurğulayırdı. Bili Klinton nəqliyyat kommunikasiyalarının pozulması ucbatından humanitar yardımın Naxçıvana çatdırılmasında mövcud olan çətinlikləri qeyd edirdi. Azərbaycanı Ağstafa - İcevan -Yerevan - Naxçıvan yolunun açılmasına razı salmağa çalışırdı. O, Ağstafa - İcevan yolunun açılmasını qaçqınların probleminin həllində yeganə imkan kimi görür, dəmiryolunun Meğri sahəsinin bərpası məsələsini diqqətdən kənarda qoyurdu. Aydın idi ki. Ağstafa - İcevan yolunun açılması Naxçıvana göndərilən yüklərin heç də Yerevan tərəfindən buraxılması demək deyildi"®'^. Məktubda "Dağlıq Qarabağın erməni silahlı qüvvələrinin" Azərbaycan ərazilərini işğal etməsinə dair fikirlərin yer alması da yanlış idi. Çünki Azərbaycan ərazi

• ARXİNA. 13.09.1993-30.09.1993. Qovluq No22, v.40-42.
‘ ARXİNA. 13.09.1993-30.09.1993.
Qovluq N>22, v.l 10-111. ^ ARXİNA.

lərini Dağlıq Qarabağ regionunun deyil, Ermənistanın silahlı qüvvələri işğal edirdi.

Stroub Talbott ilə Heydər Əliyev arasında keçirilən danışıqlarda Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinə dair ABŞ-ın mövqeyi bir daha təsdiq edildi, bölgədə sülhü və əmin-amanlığı bərpa etmək işində bu ölkənin vasitəçilik rolunun və ATƏM çərçivəsində irəli sürülən təşəbbüslərin əhəmiyyəti qeyd olundu.

Danışıqların nəticələri Azərbaycan Respublikası Ali Sovetinin 1993-cü il 14 sentyabr tarixli iclasında müzakirə edildi. Ali Sovet Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin sentyabrın İldə Azərbaycanda rəsmi səfərdə olan ABŞ Dövlət Departamentinin xüsusi tapışırıqlar üzrə səfiri Stroub Talbott ilə danışıqlarını bəyəndi"®^. Danışıqlar qarşılıqlı münasibətlərin inkişafına xidmət edirdi. Stroub Talbottun Azərbaycana ABŞ-m qeyri-hökumət təşkilatlarının xətti ilə yardım göstərilməsinə kömək edəcəyini bildirməsi müsbət hal idi.

Doğrudan da ABŞ hökuməti az sonra yardım edilməsi məsələsində konkret addımlar atdı. Hökumət ABŞ konqresinə məktub göndərərək Azadlığı müdafiə aktına bir sıra əlavələr edilməsi haqqında təklif etdi.

Stroub Talbottun səfərindən sonra Azərbaycan tərəfi ABŞ ilə münasibətləri genişləndirmək xəttini davam etdirdi. Azərbaycan Respublikasının xarici işlər naziri Həsən Həsənov 1993-cü il sentyabrın 13-də səfir Hafiz Paşayevə məktub göndərərək Azərbaycanın demokratik inkişaf yolu seçdiyi və iki ölkə arasında münasibətləri yaxşılaşdırmaq istəyi haqqında fəal iş aparmaq tapşırığı verdi'*®®. Azərbaycan Respublikasının xarici siyasətində ABŞ ilə münasibətlər əsas vəzifələrdən biri səviyyəsinə qaldırıldı.

Münasibətlərin maddi təməllərinin möhkəmləndirilməsi istiqamətində də tədbirlər həyata keçirildi. 1993-cü ilin oktyabrında energetika nazirinin müavini Uilyam Uayt Azərbaycana səfər etdi. İki ölkə arasında münasibətlərdə mühüm addımlardan biri olan bu səfərdə başlıca məqsəd neft sahəsində əməkdaşlığın yollarını müzakirə etmək idi. Keçirilən görüşlərdə enerji sahəsində Azərbaycan - ABŞ əməkdaşlığına dair konkret məsələlər müzakirə edildi. Xəzər neftinin işlənilməsi, hasilatı və dünya

ARXINA. 1993.
ARXİNA. 13.09.1993-30.09.1993. Qovluq X°22, v.121-122.

bazarlarına çıxarılmasında maraqlı olan ABŞ bu istiqamətdə aparılan danışıqların tezliklə başa çatdırılmasını istəyirdi.

Azərbaycan - ABŞ münasibətlərinin yaxşılaşdırılmasına səylər göstərildiyi bir zamanda Ermənistan işğalçılıq hərəkətlərini davam etdirirdi. Cəbrayıl, Qubadlı və Zəngilan rayonları işğal edildikdən sonra Hafiz Paşayev ABŞ konqresi nümayəndələr palatası beynəlxalq əlaqələr komitəsinin sədri H.Hamiltona oktyabrın 22-də məktub göndərərək Azərbaycanda yaranmış şəraiti izah etdi və təsirli tədbirlər görməyə çağırdı'*'’’. Bundan sonra ABŞ Dövlət Departamenti bəyanat verərək Ermənistan silahlı qüvvələrinin hücumlarından narahat olduğunu bildirərək onları pislədi, işğal olunmuş ərazilərin dərhal boşaldılmasını tələb etdi'*'’*. Eyni zamanda 907-ci düzəlişin qüvvədə olmasına baxmayaraq, qeyri-dövlət xətti ilə Azərbaycana humanitar yardım göstərilməsi çağırışı ilə dünya dövlətlərinə də müraciət etdi.

Bu bəyanat müsbət olsa da, ikitərəfli münasibətlərdə hələ çoxlu problemləri həll etmək lazım gəlirdi. Ümumiyyətlə, 1993-cü il qarşılıqlı münasibətlərdə axtarışlar və ya yaxından tanınma ili oldu.

1994- ci ildə tərəflərin maraqları dəqiqləşdi və siyasətlərinin əsas elementləri aydınlaşdı. ABŞ Azərbaycana yeni səfirini təyin etdi. Bu, dövlət katibinin birinci köməkçisi və yeni müstəqil dövlətlər üzrə prezidentin xüsusi nümayəndəsi Riçard Kozlariç'"’^ oldu. 1994-cü ilin martın əvvəllərində ABŞ senatı bu təyinatla bağlı dinləmələr keçirdi. Erməni lobbisi təzyiqlər edərək təyinata mane olmağa çalışırdı. Azərbaycan tərəfi isə erməni diasporası və lobbisinin hücumlarını dayandırmaq üçün səylər etdi. Səfir Hafiz Paşayev senator Co Baydenə martın 14-də məktub yazaraq Ermənistanın təcavüzü haqqında məlumat verdi, 907-ci düzəlişi qüvvədə saxlamaqla təcavüzkarın mükafatlandırılmasını düzgün saymadıqlarını, ABŞ konqresini erməni lobbisinə Amerikanın xarici siyasətini müəyyən etməyə icazə verməməyə çağırdı'*"’.

^ ' Paşayev H.M. Yüksəkliyə doğru. Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı ilk səfirinin seçilmiş məqalələri, s.62-64.

Azərbaycanın cənub-qərbində erməni silahlı qüvvələrinin son hücumu ilə əlaqədar ABŞ Dövlət Departamentinin bəyanatı. - “Azərbaycan” qəzeti, Bakı, 1993, 29 oktyabr.

Riçard Kozlariç (1945) - ABŞ diplomatı. ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri (1994-1997).

Paşayev H.M. Yüksəkliyə doğru. Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı ilk səfirinin seçilmiş məqalələri, s. 65.

1994-cü ilin may ayında Azərbaycan ilə Ermənistan arasında atəşkəsin elan edilməsi ABŞ tərəfindən müsbət qarşılandı. Azərbaycan - ABŞ münasibətlərinin strateji və taktiki məsələlərini müzakirə etmək və müəyyənləşdirmək baxımından 1994-cü il iyunun 10-da Heydər Əliyevin Türkiyəyə səfəri zamanı ABŞ dövlət katibi Uorren Kristofer ilə görüşü mühüm rol oynadı'*". Tərəflər Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə beynəlxalq normalara uyğun qərarlar qəbul etməyə hazır olduqlarını bildirdilər. Heydər Əliyev ABŞ-ın region siyasətinin fəallaşdırılmasmı istədi. ABŞ tərəfi Azərbaycan ilə Ermənistan arasında atəşkəsin elan edilməsini müsbət qarşılasa da, münaqişənin həlli məsələsində bir dövlətin inhisarının qurulmasının əleyhinə idi. ABŞ hökumətinin mövqeyinə görə, Dağlıq Qarabağ münaqişəsi ATƏM-in Minsk qrupu çərçivəsində çoxtərəfli beynəlxalq sülh səyləri ilə həll edilməli idi.

İki ölkə arasında keçirilən görüşlərin nəticəsində ABŞ-ın Azərbaycan siyasətinin əsas məqsəd və vəzifələri formalaşmağa başladı. Enerji təhlükəsizliyi məsələləri ön plana çıxdı. 1994-cü ildə ABŞ konqresi enerji təhlükəsizliyinin təmin edilməsinin xarici siyasətin prioritetləri sırasına daxil olduğunu bəyan etdi. Bundan sonra ikitərəfli münasibətlərdə daha bir ciddi addım atıldı. Bili Klinton Xəzər siyasəti ilə məşğul olan işçi qrup yaratdı. Qrupun tərkibinə Dövlət Departamentinin, energetika, ticarət nazirliklərinin. Mərkəzi Kəşfiyyat İdarəsinin və Milli Təhlükəsizlik Şurasının nümayəndələri daxil edildilər. Bu, ABŞ-ın xarici siyasətində Azərbaycanın əhəmiyyətinin artdığını göstərirdi.

İkitərəfli münasibətlərin maddi təməllərini möhkəmləndirmək üçün bəzi tədbirlər gerçəkləşdirildi. 1994-cü il sentyabrın 3-4-də ABŞ Prezidentinin şəxsi nümayəndəsi, ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Madlen Olbrayt'*’^ Bakıya səfər etdi. Heydər Əliyev ilə keçirilən görüşdə iki ölkə arasında münasibətlərə dair geniş məsələlər müzakirə olundu. Madlen Olbrayt ABŞ hökumətinin Azərbaycana və Qafqaza dair yeni təşəbbüslərini diqqətə çatdırdı. Buna görə, ABŞ Azərbaycanın müstəqil və suveren dövlət kimi qalmasında, demokratik inkişafında, regionda sülh və sabitliyin bərqərar edilməsində, Ermənistan ilə hərbi əməliyyatların dayandırılmasında maraqlı idi. Azərbaycan demokratiya yolunu seçmişdi, müstəqilliyini və suverenliyini qoruyub saxlamaq əzmində idi. Azərbay

' Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ABŞ dövlət katibi Uorren Kristofer ilə görüşü. - “Azərbaycan” qəzeti, Bakı, 1994, 14 iyun.

Madlen Olbrayt (1937) - ABŞ-ın BMT-dəki daimi nümayəndəsi (1993-1997). ABŞ dövlət katibi (1997-2001).

can tərəfi görüşdə Ermənistanın hərbi müdaxiləsinin qarşısının alınması və işğal edilmiş ərazilərin boşaldılmasında ABŞ-m dəstəyini istədi. Madlen Olbrayt 907-ci düzəlişin qüvvədə qalmasına baxmayaraq, Azərbaycana qeyri-hökumət təşkilatlarının xətti ilə yardım ediləcəyini bildirdi. ABŞ hökuməti münaqişənin həllində bir ölkənin hegemonluğunun əleyhinə idi. Ona görə də Madlen Olbrayt münaqişənin həlli məsələsində başlıca rolun Rusiyadan ATƏM-ə keçməsinə hər cür yardım göstərəcəyini vurğuladı Madlen Olbrayt və Heydər Əliyev bu məsələdə ortaq fikrə gəldilər. Azərbaycan tərəfi problemlərin həllində ABŞ-m fəal iştirakını arzulayırdı. Görüşdə Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənilməsinə dair müqavilənin imzalanması məsələləri müzakirə edildi. Tərəflər Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının işlənilməsinə və hasilatına dair müqavilənin tezliklə imzalanmasının vacibliyini bildirdilər.

Madlen Olbraytın Azərbaycana səfərinin əhəmiyyəti var idi. Azərbaycan tərəfi danışıqlarda ölkədə və regionda yaranmış şəraiti aydın və konkret şərh etdi. ABŞ Azərbaycan haqqında həqiqətləri dərk etməyə başladı.

Qarşılıqlı münasibətlərdə mühüm addımlardan biri Azərbaycan Prezidenti Heydər Əliyevin BMT-nin insan inkişafına dair ümumdünya toplantısı keçirilən zaman 1994-cü il sentyabrın 6-da Qahirədə ABŞ-m vitse-prezidenti Albert Qor ilə görüşü oldu. Görüşdə ikitərəfli və regional məsələlərin müzakirəsi keçirildi. Albert Qor ölkəsinin Dağlıq Qarabağ münaqişəsinin həllinə hər cür yardım göstərəcəyini, Azərbaycan ilə ABŞ arasında münasibətlərin inkişafının vacibliyini vurğuladı, ölkəsinin böyük neft müqaviləsinin imzalanmasına verdiyi dəstəyi bəyan etdi.

Bütün bu müzakirələr həm Azərbyacanm ABŞ ilə ikitərəfli münasibətlərinin inkişafına, həm də yeni neft strategiyasının həyata keçirilməsinə müsbət təsir edirdi. ABŞ tarixçisi Tadeuş Svyatoxovskinin yazdığı kimi, Azərbaycan ilə Ermənistan arasında atəşkəs haqqında razılıq əldə edildikdən sonra Qarabağ probleminin həlli müvəqqəti olaraq arxa plana keçdi, bunun əksinə, neft danışıqlarının başa çatması ilə ağırlıq mərkəzi çox böyük geopolitik əhəmiyyət daşıyan və Azərbaycanın əsas siyasi qayğılarından biri olan neftin üzərinə keçdi"". 1994-cü il sentyabrın 20-də

ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Madlen Olbraytın Azərbaycana səfəri. - "Azərbaycan" qəzeti, Bakı, 1994, 6 sentyabr.

Svyatoxovski T. Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə, S.308.

“Əsrin müqaviləsi”ni ABŞ-ın Amoko, Penzoyl, Yunokal, Ekson kimi iri neft şirkətlərinin imzalamaları münasibətlərdə yeni bir addım oldu.

Heydər Əliyevə sentyabrın 20-də göndərdiyi təbrik məktubunda Bili Kdinton Birləşmiş Ştatlar tarixində bu növ sazişlər arasında ən böyüyü olan həmin müqaviləni bəyənərək qeyd edirdi ki, Azərbaycan neftinin işlənməsi Dağlıq Qarabağ regionunun daxilində və onun ətrafında uzun sürən münaqişənin həll olunması ilə yanaşı, Azərbaycan xalqı üçün sabitlik, iqtisadi inkişaf və firavanlıqda mühüm rol oynaya bilər. Bili Klinton müqaviləni qüdrətli iqtisadi gələcəyə doğru həlledici addım hesab edirdi'*'^.

“Əsrin müqaviləsi” imzalandıqdan sonra Azərbaycan Respublikası ilə ABŞ arasında enerji sahəsində əməkdaşlıq daha da intensivləşdi. Bili Klinton ABŞ neft şirkətlərini Azərbyacan ilə əməkdaşlığa təşviq edirdi. Neft müqaviləsinin əleyhinə olan Rusiya Xarici İşlər Nazirliyi BMT-yə müraciət etdikdə Azərbaycanın ABŞ-dakı səfiri Hafiz Paşayev ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Madlen Olbrayta məktub göndərərək Rusiya hökumətinin Xəzər dənizində Azərbaycanın neft istismarına olan hüququ ilə bağlı qaldırdığı ziddiyyətli məsələləri ön plana çəkdi"*'^. ABŞ tərəfi Azərbaycanı neft məsələsində müdafiə etdi. Azərbaycanın yeni neft strategiyası iki ölkə arasında tərəfdaşlıq münasibətlərinin qurulması üçün bir baza rolunu oynadı. Bununla ABŞ həmçinin regionda strateji maraqlarını reallaşdırmağa çalışırdı. ABŞ tədqiqatçısı D.Qudinin fikrincə, regionda İranın rolunun minimuma endirilməsi və Rusiya - İran yaxınlaşmasına yol verməmək Birləşmiş Ştatlar üçün prinsipial əhəmiyyət kəsb edirdi. Xəzər neftinə münasibətdə ABŞ tərəfi İranın iqtisadi və siyasi mənfəətlər qazanmasının əleyhinə idi. ABŞ hökuməti neftdən İran hakimiyyətinin siyasətini dəyişmək üçün təzyiq vasitəsi kimi istifadə etməyə çalışırdı. Belə yanaşma Azərbaycanın Xəzər dənizinin neft yataqlarının işlənilməsinə İranı cəlb etməsinə və beləliklə. Xəzər dənizinin hüquqi statusu məsələsində öz tərəfinə çəkməsinə mane olurdu"’^.

İkitərəfli münasibətlərin inkişafında növbəti addım 1994-cü il sentyabrın sonunda Nyu Yorkda BMT Baş Məclisinin 49-cu sessiyası çərçivəsində Heydər Əliyev ilə Bili Klintonun görüşündə atıldı. Dövlət başçıları ikitərəfli və regional məsələləri müzakirə etdilər. ABŞ Prezidenti

Əliyev H. Ə. Azərbaycan nefti dünya siyasətində. IV kitab, s. 46.

Paşayev H.M. Yüksəkliyə doğru. Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı ilk səfirinin seçilmiş məqalələri, s. 169.

**OeaopoB** lO. **KacnHHCKaa HecjiT** н **MejKayHapoÄHaa öesonacHOCTb. BbinycK** 1, **c.l** 19-122.

Ermənistanın təcavüzü başladıqdan bəri ilk dəfə olaraq Azərbaycanın mövqeyini müdafiə etdiyini, Azərbaycanın ABŞ üçün arzu edilən, əhəmiyyətli bir ölkə olduğunu bildirdi. ABŞ münaqişə tərəfi kimi artıq Ermənistanı görür, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini müdafiə edirdi.

Azərbaycan və ABŞ prezidentlərinin görüşü əhəmiyyətli oldu. Hafiz Paşayevin fikrincə, bu görüş ABŞ ilə Azərbaycan Respublikası arasında diplomatik və iqtisadi əlaqələrin ilk araşdırma mərhələsini başa çatdırdı"'*.

Artıq qeyd edildiyi kimi, ABŞ tərəfi Dağlıq Qarabağ münaqişəsinin həllində çoxtərəfli beynəlxalq səylərə üstünlük verirdi. Bu baxımdan 1994-cü ilin dekabrında ATƏM üzvü olan ölkələrin dövlət başçılarının Budapeştdə keçirilən zirvə görüşündə Heydər Əliyev ilə Bili Klinton arasında keçirilən görüş qarşılıqlı münasibətlərdə ciddi bir addım oldu. Görüş münasibətlərin yeni keyfiyyət mərhələsinə hazırlıq kimi də qiymətli idi. Hafiz Paşayevin yazdığı kimi, bu illərdə iki ölkə arasında əlaqələr başlıca olaraq aşağıdakı məsələlər ətrafında cərəyan etmişdi"'^: Azərbaycanın Rusiya və teokratik İran arasındakı mühüm geosiyasi yeri; neftlə zəngin Xəzər dənizindən enerji ehtiyatlarının həm ixracatçısı, həm də tədarükçüsü kimi Azərbaycanın gələcək rolu; müstəqil, demokratiya, azad bazar və insan hüquqları dəyərləri; Azərbaycan Respublikasının Dünya Bankı və Beynəlxalq Valyuta Fondu kimi beynəlxalq təşkilatlara inteqrasiyası; Ermənistan ilə olan münaqişənin sülh yolu ilə həlli; Azərbaycan neft və qazının fasiləsiz istismarı, hasilatı və dünya bazarına çıxarılması. Qeyd etmək lazımdır ki, ABŞ-ın Azərbaycan siyasəti bu zaman mərkəzçi idi.

Beləliklə, 1993-1994-cü illərdə Azərbaycan diplomatiyasının səyləri nəticəsində ABŞ-da erməni təbliğatına alternativ fikir yaranmağa başladı. Ermənistan - Azərbaycan münaqişəsinin əsl mahiyyəti bilindi. İctimai rəy tədricən dəyişməyə başladı. Ermənistanın hücumlarının qarşısı alındı. Atəşkəs elan edildi. Münaqişənin aradan qaldırılması üçün diplomatik səylər genişləndi. ABŞ-m Azərbaycanda maraqları tam aydınlaşdı. ABŞ ilə qarşılıqlı faydalı əməkdaşlıq qurmaq üçün əlavə imkanlar əldə edildi.

Paşayev H.M. Yüksəkliyə doğru. Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı ilk səfirinin seçilmiş məqalələri, s. 82.

Yenə orada, s. 4 -5.

“Əsrin müqaviləsi” nin imzalanması ilə münasibətlərin maddi təməlləri möhkəmləndirildi.

Bundan sonra münasibətlərin inkişaf etdirilməsi üçün yeni addımlar atıldı. 1995-ci ilin aprel ayında ABŞ-m energetika naziri X.O'Lirinin Azərbaycana səfəri çərçivəsində aprelin 19-da iki ölkə arasında münasibətlərdə daha bir mühüm hadisə baş verdi. ARDNŞ konsorsiumdakı 15%- lik payının 5%-ni ABŞ-ın Ekson şirkətinə verməyə dair sənədləri imzaladı'*^”. Bu, etimadı artırır və inamsızlığı aradan qaldırmağa kömək edirdi.

1995- ci il mayın 4-də Bakıda ABŞ səfirliyinin binasının açılışı oldu. Mərasimdə Heydər Əliyevin iştirakı və çıxışı ABŞ ilə münasibətlərin inkişafına verilən diqqətin göstəricisi idi. Bu hadisədən bir neçə gün sonra alman faşizmi üzərində qələbənin 50 illiyinə həsr edilmiş mərasimlərdə iştirak edən Heydər Əliyev Moskvada Bili Klinton, Londonda vitse-prezident Albert Qor ilə görüşərək iki ölkə arasında ən vacib məsələləri müzakirə etdi. Bili Klinton Azərbaycanın tam müstəqil siyasət yürütməsindən razılığını, Dağlıq Qarabağ münaqişənin dinc yol ilə və Minsk qrupu çərçivəsində həllinə tərəfdar olduğunu bildirdi.

Mayın 21-də Bili Klinton Heydər Əliyevə göndərdiyi məktubda Azərbaycan ilə münasibətlərdə baçlıca olaraq üç məsələni vurğuladı: uzun sürən sülhün əldə olunmasına dəstək vermək; Xəzər dənizindəki neft yataqlarından istifadə etmək; bazar islahatlarında və demokratik seçkilərin keçirilməsində tərəqqiyə nail olmaq'*"'.

ABŞ Prezidenti Xəzər dənizinin milli sektorlara bölünməsini dəstəkləyir və bu məsələdə Azərbaycanı müdafiə edəcəyini bildirirdi. Birləşmiş Ştatlar Xəzərdə “kondominium rejimi”nin əleyhinə çıxırdı. Çünki belə bir rejim Xəzəryanı ölkələrə veto hüququnu verirdi. Bu isə xarici sərmayədarları Xəzər dənizinin Azərbaycan sektorunda işləməkdən çəkindirirdi. Bütün bunlara baxmayaraq, ABŞ Xəzər nefti məsələsində Rusiya ilə münasibətləri kəskinləşdirməkdə maraqlı deyildi. Daha çox əməkdaşlığa üstünlük verirdi.

Artıq ABŞ - Azərbaycan münasibətlərinin genişləndirilməsi zərurətə

Əliyev H.Ə. Azərbaycanın beynəlxalq neft konsorsiumdakı payının bir hissəsini ABŞ-ın Ekson neft şirkətinə verməsi haqqında sənədlərin imzalanması mərasimində giriş sözü. 19 aprel 1995-ci il. - Müstəqilliyimiz əbədidir. III kitab, s.385-386.

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri Heydər Əliyev cənablarına. - “Azərbaycan” qəzeti, Bakı, 1995, 26 may.

İştirak etmək məqsədilə Nyu Yorka səfəri zamanı Heydər Əliyevin Bili Klinton ilə görüşü münasibətlərin inkişafında mühüm amil oldu. Görüşdə münasibətləri genişləndirməyin vacibliyi vurğulandı. Azərbaycan Respublikasının Prezidenti həmçinin ABŞ-ın energetika naziri O’Liri, BMT-dəki daimi nümayəndəsi Madlen Olbrayt, keçmiş dövlət katibi Henri Kissincer, konqresmen və senatorlarla görüşərək ikitərəfli münasibətlərin inkişafına dair məsələləri müzakirə etdi'*^^. Bu görüşlər ikitərəfli münasibətlərin istiqamətlərinin müəyyənləşdirilməsində mühüm idi. ABŞ Azərbaycanın dövlət müstəqilliyinə və müstəqil siyasət yürütməsinə tərəfdar çıxırdı.

Qarşılıqlı münasibətlərdə növbəti addım 1995-ci ilin oktyabrında ABŞ-m görkəmli xadimləri Zbiqnev Bjezinski'*^\ konqresmen Qreq Laflin, senator Riçard Şelbi, ATƏT-in Minsk qrupundakı nümayəndəsi Cozef Pressel, ABŞ Milli Demokratiya İnstitutunun direktoru Nelson Letski, energetika nazirinin müavini Uilyam Uayt, ABŞ-m ATƏT-dəki nümayəndəsi Sem Braun, ABŞ dövlət katibinin yeni müstəqil dövlətlər üzrə müşaviri Ceyms Kollinz'*"" və b. Azərbaycana səfərləri və keçirilən görüşlər oldu. Səfər ərəfəsində Bili Klinton və onun milli təhlükəsizlik məsələləri üzrə müşaviri Antoni Leyk ABŞ Prezidentinin şəxsi məktubunu Azərbaycan Prezidentinə çatdırmağı və onunla Bakı - Ceyhan əsas ixrac neft boru kəmərinin Azərbaycana gətirəcəyi uzunmüddətli faydalar barədə danışmağı Zbiqnev Bjezinskidən xahiş etmişdilər. Bu barədə müsbət qərar vermək üçün Azərbaycan tərəfi Rusiyanın bütün Azərbaycan neftinin yalnız Rusiya ərazisindən ixrac olunması ilə bağlı davam edən xüsusi tələblərini rədd etməli idi. Qeyd etmək lazımdır ki, bu görüşdən əvvəl Rusiya nümayəndə heyəti Azərbaycan Prezidenti ilə görüşmüşdü'*^^. ABŞ nümayəndə heyəti ilə keçirilən görüşlərdə Rusiyanın Azərbaycanda hərbi mövcudluğuna yol verilməməsi, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə

Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996), s. 176.

Zbiqnev Bjezinski (1928) - ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri (1977-1981). Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzinin rəhbəri (1981-ci ildən).

Ceyms Kollinz - ABŞ Dövlət Departamentində məsul vəzifələrdə işləmişdir. SSRİ və Yaxın Şərq problemləri ilə məşğul olmuşdur. ABŞ-m Moskvadakı missiyasının rəhbərinin müavini (1990-1993). Türkiyə və İordaniyada işləmişdir.

Bjezinski Z. İkinci şans. Üç prezident və Amerika fövqəldövlətinin böhranı, **S.143.**

beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq həlli, Azərbaycan neftinin Qərb marşrutunun təhlükəsizliyinin birgə təmin edilməsi, NATO-nun Sülh naminə tərəfdaşlıq proqramında iştirak və s. məsələləri müzakirə edildi. Zbiqnev Bjezinski strateji cəhətdən əhəmiyyətli olan Qafqaz və Mərkəzi Asiya regionunda Azərbaycanın dayaq olmaq üçün bütün imkanları olduğunu qeyd etdi.

Bunun ardınca həmin ilin noyabrın 10-da “Qarabağ” srtukturu üzrə yeni neft müqaviləsinə ABŞ-m Penzoyl şirkəti cəlb edildi. Enerji sahəsində əməkdaşlığın möhkəmləndirilməsi digər istiqamətlərdə də əlaqələrə müsbət təsir göstərdi. Belə ki, ABŞ 1995-c ildə Azərbaycana 27,5 milyon dollar məbləğində humanitar yardım etdi.

1995-ci ildə keçirilən müzakirələr iki ölkə arasında münasibətlərin inkişafına və dərinləşməsinə təsir etdi, bir sıra regional və ikitərəfli məsələlərə yanaşmada tərəflər arasında fikir ümumiliyini göstərdi. Azərbaycana baxış tədricən dəyişməyə başladı. Bütün bunlar iki ölkə arasında münasibətlərdə dönüşün ilk addımları idi.

Nəhayət, Azərbaycan diplomatiyasının səyləri bəhrəsini verdi.
1996- cı il yanvarın 25-26-da nümayəndələr palatası, sonra isə senat Azərbaycana birbaşa humanitar yardım göstərilməsini nəzərdə tutan qanun layihəsini konqresmen Çariz Vilsonun təklifi ilə qəbul etdi. Yanvarın 26- da Prezident Bili Klinton həmin sənədi təsdiq etdi. Düzəlişə görə, Azərbaycana yalnız qeyri-hökumət təşkilatları xətti ilə humanitar yardım göstərilməsi mümkün idi və Prezident qeyri-hökumət təşkilatları tərəfindən Azərbaycana göndərilən yardımın qaçqın və məcburi köçkünlərin ehtiyaclarını lazımi səviyyədə ödəmədiyini müəyyən etdiyi təqdirdə Azərbaycana humanitar yardım göstərilə bilərdi'*^®.

Azərbaycan diplomatiyasının səyləri nəticəsində qəbul edilmiş bu sənəd qarşılıqlı münasibətlərin yaxşılaşdırılmasına doğru bir addım idi. Beləliklə, iki ölkə arasında münasibətlərin anlaşmazlıqdan əməkdaşlıq və tərəfdaşlığa doğru keçməsi üçün təməl qoyuldu.

Bu baxımdan 1996-cı ilin yanvar ayında Heydər Əliyevin Parisdə ABŞ-m vitse-prezidenti Albert Qor ilə görüşü əhəmiyyətli oldu. Görüşdə qarşılıqlı münasibətlərin geniş tərəfləri müzakirə edildi. Heydər Əliyev 907-ci düzəlişin iki ölkə arasında münasibətlərə mane və Azərbaycana qarşı ədalətsizlik olduğunu vurğuladı. O, Azərbaycanın ABŞ ilə müna

’ ARXINA. 2008.

sibətləri yaxşılaşdırmaq istəyini bildirdi. Albert Qor isə ölkəsinin Azərbaycana verdiyi əhəmiyyəti bir daha qeyd etdi.

Bütün bu müzakirələr münasibətləri daha da intensivləşdirirdi. 1996- cı ilin mart ayında dövlət katibinin müavini Stroub Talbott, sonralar isə dövlət katibinin yeni müstəqil dövlətlər üzrə müşaviri Ceyms Kollinz, milli təhlükəsizlik məsələləri üzrə müşavirin müavini Semyuel Berger və Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqlarda xüsusi nümayəndə Cozef Pressel ayrı-ayrılıqda Azərbaycana səfər etdilər. Heydər Əliyev ilə keçirilən görüşlərdə ikitərəfli münasibətlərin vacib məsələləri müzakirə olundu. Onlar həmçinin Ermənistanın etnik təmizləmə və təcavüzü nəticəsində doğma yurd-yuvalarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərlə görüşdülər. Semyuel Berger regionda sülh üçün axtarışların davam etdirilməsinin zəruriliyini qeyd etdi. Stroub Talbott Prezident Bili Klintonun Qafqaz ölkələrinin müstəqilliklərinin möhkəmləndirilməsinə və iqtisadi inkişaflarına xüsusi fikir verdiyini bildirdi. O, nümayəndə heyətinin səfərinə Heydər Əliyev ilə Nyu Yorkda keçirdiyi görüşün davamı kimi baxırdı.

Azərbaycan Respublikası ilə ABŞ arasında siyasi dialoqun intensivləşdirilməsi istiqamətində mühüm addımlar 1996-cı il iyunun 5-də ABŞ-m energetika nazirinin müavini Çariz Kertis"*"' və iyunun 10-da Zbiqnev Bjezinskinin Azərbaycana səfərləri oldu'"*. Səfər ABŞ-m Azərbaycanda mövqelərinin möhkəmləndirilməsinə kömək etmək məqsədi daşıyırdı. Keçirilən görüşlərdə iki ölkə arasında iqtisadi münasibətlərin mümkün olan çərçivədə genişləndirilməsinin vacibliyi qeyd edildi. Lakin münasibətlərin genişləndirilməsi prosesi heç də asan getmirdi. Ona mane olan qüvvələr fəaliyyətlərini qətiyyən dayandırmamışdılar. Belə ki, 1996- cı il iyunun 11-də konqresin nümayəndələr palatası 1997-ci il üçün xarici əməliyyatlar haqqında qanun layihəsini konqresmen Con Porterin düzəlişi nəzərə alınmaqla qəbul etdi. Bu düzəliş ayrı-ayrılıqda həm Azərbaycanın, həm də "Dağlıq Qarabağ"m qaçqın və məcburi köçün düşmüş əhalisinə 7:1 nisbətində yardım edilməsini nəzərdə tuturdu. Növbədə senatda müzakirələrin keçiriləcəyi gözlənilirdi. Porter düzəlişi Azərbaycanın

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ABŞ-ın energetika nazirinin müavini Çariz Kertisi qəbul etmişdir. - "Azərbaycan" qəzeti, Bakı, 1996, 6 iyun.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ABŞ-ın görkəmli siyasi xadimi Zbiqnev Bjezinskini qəbul etmişdir. - "Azərbaycan" qəzeti, Bakı, 1996, 11 iyun.

maraqlarına uyğun olmayıb, onun müstəqilliyinə və suverenliyinə qarşı yönəlmişdi. Çünki, Dağlıq Qarabağ müstəqil bir qurum deyil, Azərbaycanın tərkib hissəsi olsa da, bu düzəlişdə müstəqil subyekt kimi təqdim edilirdi. Azərbaycan ilə "Dağlıq Qarabağ" arasında nisbət müəyyənləşdirilməsi isə məsələyə ədalətsiz yanaşma olub, münaqişənin həllinə kömək etmirdi.

Porter düzəlişi Azərbaycanda etiraz doğurdu. Bu, eyni zamanda ABŞ-da da birmənalı qarşılanmadı. ABŞ Dövlət Departamenti iyunun 12- də Porter düzəlişi ilə bağlı bəyanat verərək qanun layihəsində göstərilən şəkildə düzəlişlərin qəbul edilməsini münaqişənin siyasi danışıqlar yolu ilə aradan qaldırılmasının müdafiə edilməsinə dair edilən səylərə maneə yaratmaq cəhdi kimi qiymətləndirdi. Bəyanatda Azərbaycan Respublikasında ehtiyacı olan şəxslərə yardımın artırılması ilə "Dağlıq Qarabağ"a göstərilən eyni səylər arasında nisbət qoyulmasına yönələn cəhdlər pislənilir, Azərbaycanda olan qaçqın və məcburi köçkünlərə ABŞ-ın humanitar yardımlarının davam etdiriləcəyi bildirilirdi'*^^.

Bu məsələləri müzakirə etmək üçün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1996-cı il iyunun 13-də ABŞ-ın Azərbaycandakı səfirini qəbula dəvət etdi. Görüşdə açıq söhbət oldu. Heydər Əliyev dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının ABŞ-a münasibətdə yürütdüyü siyasətin mahiyyətini izah etdi, ölkəsinin münasibətləri inkişaf etdirmək istəyini vurğuladı, 907-ci düzəlişin ədalətsiz olduğunu qeyd etdi. Bunu Azərbaycana qarşı ədalətsizlik və haqsızlıq kimi qiymətləndirdi'*^”. Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələrini faktlarla səfirin diqqətinə çatdırdı. 907-ci düzəlişin ləğvi məqsədi ilə dəfələrlə ABŞ-a müraciət etdiyini bildirdi. Qeyd etdi ki, Porter düzəlişi Azərbaycana kömək əvəzinə onun ərazi bütövlüyünü təhlükə altına qoyur, ikitərəfli münasibətlərə ziyan vurur. Düzəlişi münaqişənin həllinə mane olan amil kimi qiymətləndirən Heydər Əliyev birmənalı olaraq dedi: “...ədalətsiz qərarı başa düşmək, qəbul etmək mümkün deyildir. Ona görə mən bu gün sizə və sizin vasitənizlə Amerika Birləşmiş Ştatları dövlətinə bu barədə Azərbaycanın narazılığını bildirirəm. Bildirmək istəyirəm ki, biz bu cür əlavə ilə heç vaxt razı ola bilmərik. O, Azərbaycanın zərərinə olan bir əlavədir və müəyyən qədər Azərbaycanın

USIA.Wireless file, June 15, 1996.

Əliyev H.Ə. ABŞ konqresində Porter əlavəsinin müzakirəsi ilə əlaqədar bəyanat. 13 iyun 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VI kitab, s. 438-443.

ərazi bütövlüyünün şübhə altına alınmasını əks etdirir. Ümumiyyətlə, bu, Azərbaycan - Ermənistan münaqişəsinin. Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə həll edilməsinə ciddi mane olan haldır”"^'. Heydər Əliyev səfirdən Azərbaycanın mövqeyini Prezident Bili Klintona çatdırmağı və əlavənin senatda qəbulunun qarşısım almağı xahiş etdi.

Azərbaycan tərəfinin mövqeyi təsirini göstərdi. ABŞ Dövlət Departamenti yuxarıda göstərilən mövqeyini təkrar etdi. Bu isə erməni diaspo- rası və Ermənistan tərəfindən narazılıqla qarşılandı. İyunun 13-də ABŞ- dakı Erməni Assambleyası ABŞ Dövlət Departamentinin bəyanatına qarşı çıxdı. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi isə 1996-cı il İyunun 14-də xarici ölkələrdəki səfirlik və nümayəndəliklərə məktublar göndərərək ABŞ konqresi nümayəndələr palatasının qəbul etdiyi Porter düzəlişi ilə bağlı ölkənin mövqeyini izah etmək haqqında tapşırıq verdi. Tapşırığa uyğun olaraq səfirliklər və nümayəndəliklər geniş iş aparmağa başladılar. Azərbaycan Respublikasının İrandakı səfiri Əliyar Səfərli və səfirliyin ikinci katibi Cavanşir Vəkilov ABŞ-ı İranda təmsil edən İsveçrə diplomatı Andre Motil ilə görüşdü. İsveçrə ABŞ-m İrandakı işlərini yalnız konsulluq və İran Xarici İşlər Nazirliyi ilə vasitəçilik istiqamətində aparırdı. Azərbaycan səfiri məsələyə dair ölkəsinin mövqeyini izah etdi. Andre Motil öz dövlətinin bu xahişi ABŞ Dövlət Departamentinə çatdıracağı vədini verdi. Eyni zamanda bildirdi ki, ABŞ-da prezident seçkiləri ərəfəsində milli azlıqların səslərini toplamaq üçün konqresdə belə tədbirlərə əl atırlar. Bu, ABŞ-ın strateji istiqaməti deyildir'*^^.

İyunun 15-də Ermənistan Xarici İşlər Nazirliyi bəyanat verərək ABŞ hökumətinin Porter düzəlişi ilə bağlı mövqeyinə etiraz etdi'*^^. Porter düzəlişi ətrafında qızğın diplomatik mübarizə gedirdi.

Ermənistanın bu hərəkəti cavabsız qalmadı. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi iyunun 18-də bəyanat verərək Ermənistan Xarici İşlər Nazirliyinin bəyanatına kəskin etirazını bildirdi, onu Azərbaycanın daxili işlərinə müdaxilə kimi qiymətləndirdi'*^'*. Ermənistanın beynəlxalq hüquq normalarına zidd olan həmin hərəkətləri ABŞ qanunverici orqanına və hökumətinə təzyiq etmək, Azərbaycanın daxili işlərinə və Azərbaycan Respublikası ilə ABŞ arasında ikitərəfli münasibətlərə kobud

Yenə orada, s. 441.
ARXİNA. 04.10.1995-09.09.1996. Qovluq
XsS, v. 25. Azərbaycan Respublikası Xarici İşlər “Azərbaycan”
Nazirliyinin bəyanatı, qəzeti, Bakı, 1996, 19 iyun.
Yenə orada.

surətdə müdaxilə etmək, münaqişənin siyasi danışıqlar yolu ilə həllinə mane olmaq məqsədi güdürdü.

ABŞ tərəfi ölkənin milli maraqlarının erməni lobbisinin və diasporasmm əsassız iddialarından üstün olduğunu sübut etdi. İyulun 26-da ABŞ senatı xarici dövlətlərə yardım haqqında qanun layihəsini müzakirə edərək onu Porter düzəlişi nəzərə alınmadan qəbul etdi . Beləliklə, Ermənistan, erməni diasporası və lobbisi istəyinə çata bilmədi.

Bundan sonra Azərbaycan Prezidenti Heydər Əliyev ABŞ Prezidenti Bili Klintona, vitse-prezident Albert Qora təşəkkür məktubları göndərdi. Eyni zamanda Azərbaycan dövlətinin müstəqilliyinə toxunacaq heç bir qərarı tanımayacaqlarını xüsusi qeyd etdi'*^^.

Bütün bunlar ABŞ qanunverici orqanının Azərbaycana olan marağını daha da artırırdı. Avqustun 16-da ABŞ konqresi nümayəndələr palatasının beynəlxalq əlaqələr komitəsi aparatının işçiləri Mark Keyc, Mark Körk və Kliffı, avqustun 19-da isə konqresmenlər Qreq Laflin, Cim Çap- men və Bili Bryuster Azərbaycana səfər edərək ikitərəfli münasibətlərin problemlərini və perspektivlərini müzakirə etdilər. Nümyəndə heyətinin üzvləri Bakı - Vaşinqton strateji tərəfdaşlıq xəttini müdafiə edən xüsusi qrup yaradacaqlarını bildirdilər. Azərbaycan tərəfi bir daha Porter düzəlişinə qəti etirazını bildirdi.

Sentyabrın 17-də nümayəndələr palatası və senatın uzlaşdırıcı komissiyasının iclasında müzakirələr zamanı Porterin canfəşanlığına baxmayaraq, konqresmenlər Uilson, Livinqston, Kallahen, senator Makkonel və b. təklifi ilə qanun layihəsinin izahedici hissəsindəki mətndə “Azərbaycanın Dağlıq Qarabağ regionu daxil olmaqla” ifadəsi yazıldı. Beləliklə, Porter düzəlişi tamamilə rədd edildi.'*^’

Belə bir qərarın qəbul edilməsinin əhəmiyyəti var idi. Porter düzəlişinin qəbul edilməməsi Azərbaycan - ABŞ münasibətlərinin yeni bir mərhələyə çıxarılmasına sanki hazırlıq məqsədi güdürdü.

1996- cı ildə Azərbaycan tərəfi ABŞ ilə ticarət əlaqələrini genişləndirmək üçün müəyyən addımlar atdı. Bu zaman ABŞ-m bəzi şirkətləri

^ ABŞ senatı Porter düzəlişini qəbul etmədi. - “Azərbaycan” qəzeti, Bakı, 1996, 30 iyul.

Azərbaycan özünün mənafeyinə, dövlət müstəqilliyinə toxunan heç bir qərarı qəbul etməyəcək, minnətli çörəyi yeməyəcəkdir. - “Azərbaycan” qəzeti, Bakı, 1996, 9 avqust.

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat Mərkəzi xəbər verir. - “Azərbaycan” qəzeti, Bakı, 1996,19 sentyabr.

MDB çətiri altında Vaşinqtonda bir qurum yaratmağa çalışırdılar. ABŞ Dövlət Departamenti həmin istəyə isti yanaşmırdı. Çünki belə olduqda müvafiq qurumda ən güclü və böyük olan bir ölkə hökmranlıq edə bilərdi. Ona görə də oktyabr ayında Bili Klinton MDB ölkələri ilə energetika və ticarət əlaqələri üzrə rəsmi nümayəndəsi Yan Kalitskinin başçılıq etdiyi nümayəndə heyətini Bakıya göndərdi. Heydər Əliyev tərəfindən qəbul edilən nümayəndə heyəti ilə görüşdə ikitərəfli iqtisadi-ticarət əlaqələr müzakirə edildi. Bu məsələdə hər iki ölkənin mövqeyi üst-üstə düşürdü. Belə yanaşma bir sıra məsələlərdə ortaq maraqların mövcud olduğunu göstərirdi. ABŞ tərəfi Azərbaycan Respublikasının Dünya Ticarət təşkilatına üzv qəbul edilməsini dəstəkləyirdi'*^*. Azərbaycan ABŞ ilə ikitərəfli ticarət- iqtisadi əlaqələrin inkişafına xüsusi əhəmiyyət verir, iki ölkə arasında ticarət palatasının yaradılmasını əhəmiyyətli hesab edirdi. Yan Kalitskinin Azərbaycana səfəri iqtisadi əməkdaşlığın inkişafına təkan verdi. Belə ki, Azərbaycan Respublikasının Vaşinqtondakı səfirliyinin təşəbbüsü ilə ABŞ - Azərbaycan Ticarət Palatasının qurulmasına başlanıldı'**’. Palatanın siyasi və iqtisadi dairələrdə nüfuzlu təşkilata çevrilmək imkanı var idi.

Məlum olduğu kimi, iki ölkə arasında münasibətlərin genişlənməsinə təsir edən amillərdən biri Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həllinə ABŞ-ın münasibəti idi. 1996-cı ilin oktyabr ayında Dağlıq Qarabağ regionunda qondarma “prezident” seçkiləri keçirildikdə ABŞ Dövlət Departamenti bəyanat verərək həmin hərəkətdən narahatlığını bildirdi, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini müdafiə etdi'*'**’. Bununla da ABŞ Azərbaycanın ərazi bütövlüyü məsələsində və Dağlıq Qarabağ münaqişəsində mövqeyini aydın bir şəkildə bəyan etdi.

Həmin mövqe özünü Lissabon zirvə görüşü ərəfəsində və toplantının gedişində də göstərdi. Lissabon zirvə görüşü ərəfəsində, 1996-cı il noyabrın 6-da ABŞ Prezidenti Bili Klinton Heydər Əliyevə göndərdiyi məktubunda Azərbaycanın ərazi bütövlüyünü və münaqişənin beynəlxalq

ABŞ - Azərbaycan: Yan Kalitskinin gəlişi əməkdaşlığın yeni parametrlərini müəyyənləşdirdi. - “Xalq qəzeti”, 1996, 30 oktyabr.

ARXİNA. 11.12.1996-20.01.1998, Qovluq Xs S, v.l94.

ABŞ - AzərbaycanıYan Kalitskinin gəlişi əməkdaşlığın yeni parametrlərini müəyyənləşdirdi. - “Xalq qəzeti”, Bakı, 1996, 30 oktyabr.

hüquq prinsipləri əsasında həll edilməsini dəstəklədiyini bildirdi"'". Beləliklə, ABŞ tərəfi əhəmiyyətli bir addım atdı.

Bundan az sonra, noyabrın 13-də ABŞ-dan Azərbaycana bir nümayəndə heyəti səfər etdi. Nümayəndə heyətinin tərkibinə ABŞ dövlət katibinin müstəqil dövlətlər üzrə səfiri Ceyms Kollinz, Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nümayəndə Cozef Pressel, Dövlət Departamen- tinin Qafqaz və təhlükəsizlik məsələləri şöbəsinin direktoru Stiven Yanq, Müdafiə Nazirliyinin Rusiya və Avrasiya üzrə beynəlxalq təhlükəsizlik siyasəti şöbəsinin direktoru Veyn Merri, ABŞ-ın yeni müstəqil dövlətlərə kömək üzrə əlaqələndiricisinin müavini Uilyam Teylor və Müdafiə Nazirliyinin xüsusi müşaviri Corc Krol və b. şəxslər daxil idilər"'^. Nümayəndə heyətini Azərbaycan Prezidenti Heydər Əliyev qəbul etdi. Görüşdə ikitərəfli münasibətlər və təhlükəsizlik məsələləri müzakirə edildi. Ceyms Kollinz Bili Klintonun yuxarıda qeyd edilən məktubunu Heydər Əliyevə təqdim etdi. Məktubunda ABŞ Prezidenti Azərbaycana ölkəsinin siyasi və iqtisadi maraq dairəsində olan dövlət kimi baxır, ikitərəfli münasibətlərin gələcək perspektivlərini yüksək qiymətləndirirdi"'^.

ABŞ Prezidentinin Azərbaycan ilə münasibətlərə verdiyi qiymət əməkdaşlığın inkişaf etdiyini göstərirdi. Azərbaycan ABŞ üçün əhəmiyyət kəsb edən bir ölkəyə çevrilirdi. Bu, ayrı-ayrı görüşlərdə xüsusla vurğulanırdı. Azərbaycan səfiri Hafiz Paşayevin konqresmen Frank Volf ilə görüşündə Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində səylər müzakirə edildi. Onlar münaqişənin həlli üçün səylərin intensivləşdiril- məsinin vacibliyini vurğuladdan Görüşdən bir neçə gün sonra, noyabrın 25-də Hafiz Paşayev Frank Volfa məktub yazaraq Azərbaycan tərəfinin Dağlıq Qarabağ münaqişəsini ərazi bütövlüyü və suverenliyin təmin olunması əsasında həll etməyə çalışdığını, lakin Ermənistanın ondan boyun qaçırdığını, Azərbaycan ərazilərində xarici silahlı dəstələrin olduğunu qeyd etdi. Səfir yazırdı: “Biz hökmranlıq, kişnəmə deyil, əməkdaşlıq axtarırıq”'"'". Məktubun sonunda Hafiz Paşayev münaqişənin həllində Azərbaycanın mövqeyinin çox sadə olduğunu yazırdı: müstəqilliyyin qo

Həsənov Ə. Azərbaycan və ATƏT. Ermənistan - Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda, s. 38.

ARXİNA. 1996.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ABŞ dövlət katibinin yeni müstəqil dövlətlər üzrə xüsusi müşavirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. - “Xalq qəzeti”, Bakı, 1996, 14 noyabr.

ARXİNA. 11.12.1996-20.01.1998. Qovluq XoS,v.291-292.

runması və təhlükəsizlik; iqtisadiyyatı inkişaf etdirmək və qonşu ölkələr ilə inteqrasiya etmək; demokratik proseslərin gələcək inkişafı və tətbiq edilməsi; müharibədən yaxa qurtarmaq və xüsusən 1 milyon nəfər qaçqının problemini həll etmək.

1996-cı ilin dekabr ayında Azərbaycan - ABŞ münasibətlərində əhəmiyyətli bir hadisə baş verdi. Dekabrın 13-də Azərbaycanda Amerika Ticarət Palatası açıldı. Açılış mərasimində çıxış edən Azərbaycan Prezidenti Heydər Əliyev ölkəsinin iqtisadi imkanlarından və aparılan islahatlardan danışdı. O, iki ölkə arasında ticarət sahəsində əməkdaşlığı əhəmiyyətli hesab edərək ABŞ şirkətlərini Azərbaycana cəlb edən amillərdən birinin neft və qaz yataqları olduğunu dedi''*^. Heydər Əliyev Ticarət Palatasının iki ölkə arasındakı əlaqələrdə müsbət rol oynayacağına ümidini bildirdi. Palatanın açılması qarşılıqlı əlaqələrin inkişafında ciddi rol oynamalı idi. Bu hadisənin ardınca daha bir addım atıldı. Dekabrın 14-də Azərbaycanın “Dan ulduzu” və “Əşrəfi” yataqlarının istismarı üzrə imzalanmış növbəti konsorsium haqqında müqaviləyə əsasən ABŞ-m daha iki nüfuzlu şirkəti olan Amoko və Yunokal 55,5% ilə iştirak etməyə başladı.

Bütün bunlar Azərbaycan - ABŞ siyasi münasibətlərinin inkişafına müsbət təsir edirdi. İki ölkə arasında münasibətlərdə növbəti addım 1996-cı ilin dekabrında ATƏT üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Lissabonda keçirilən zirvə toplantısı çərçivəsində Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-m vitse-prezidenti Albert Qor və dövlət katibi Uorren Kristofer ilə görüşləri oldu. Həmin görüşlərdə ABŞ tərəfi Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini müdafiə etdiyini birmənalı olaraq bildirdi. Məhz Albert Qorun təklifi və səyləri ilə ATƏT sədrinin məlum bəyanatının qəbul edilməsi eyni zamanda qarşılıqlı münasibətlərin inkişafına təsir edən amillərdən biri idi.

Bu zaman ABŞ daxili həyatında da bəzi yeniliklər oldu. 1997-ci ilin yanvar ayında ikinci dəfə ABŞ Prezidenti vəzifəsinə başlayan Bili Klinton ABŞ-m BMT-dəki daimi nümayəndəsi Madlen Olbraytı dövlət katibi təyin etdi. Madlen Olbrayt etdiyi ilk çıxışında Ermənistan ilə Azərbaycan arasında atəşkəsin iki ildən bəri davam etməsini müsbət, Minsk qrupu çərçivəsində səylərin nəticə verməməsini isə mənfi qiymətləndirdi. Belə yanaşma müsbət bir hal olmaqla yanaşı ABŞ-m Azərbaycana və regiona marağının artdığını göstərirdi.

^ Əliyev H.Ə. Azərbaycanda Amerika Ticarət Palatasının açılış mərasimində çıxış. 13 dekabr 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VIII kitab, s. 162-166.

Keçirilən toplantılar da əməkdaşlığın geniş perspektivlərinin olduğundan xəbər verirdi. Bu baxımdan 1997-ci il fevralın 18-də Vaşinqtonda keçirilən "Azərbaycan: kommunizmdən demokratiyaya doğru, neftin istehsalı nəticəsində inkişaf' adlı konfrans əhəmiyyətli oldu. Konfransda ABŞ tərəfindən keçmiş müdafiə naziri Riçard Çeyni'*'*®, ARDNŞ-in vitse-prezidenti İlham Əliyev və digər şəxslər iştirak edirdilər. Xüsusi sessiyada Corc Buş hökumətində xarici dövlətlərə yardım üzrə məsul şəxs Riçard Armitac, ABŞ-m Azərbaycandakı səfiri Riçard Kozlariç, Azərbaycanın ABŞ-dakı səfiri Hafiz Paşayev çıxış edərək iki ölkə arasında münasibətlərin tarixindən, qazanılan uğurlardan və çətinliklərdən danışdılar, Azərbaycana qarşı tətbiq edilmiş 907-ci düzəlişin ləğvi məsələsi ətrafında fikir mübadiləsi apardılar.

Müzakirələr ikitərəfli münasibətlərin vəziyyətinin tam aydınlaşdırılması və perspektivlərinin müəyyənləşdirilməsi baxımından mühüm oldu. ABŞ tərəfi Azərbaycana xüsusi əhəmiyyət verdiyini bir daha göstərdi.

1997- ci ilin fevral ayında Madlen Olbrayt bəyanat verərək Prezident Bili Klinton hökumətinin Azərbaycana edilən yardımın məhdudlaşdırılmasmın əleyhinə olduğunu və 907-ci düzəlişin ləğvi üçün konqresdə edilən bütün cəhdləri dəstəklədiklərini bildirdi""*’. ABŞ administrasiyasının mövqeyini əks etdirən bu bəyanat Azərbaycana doğru dönüş üçün bir işarə idi.

Elə bu zaman ABŞ Cənubi Qafqazın üç. Orta Asiyanın beş respublikasının Birləşmiş Ştatlar üçün həlledici siyasi və iqtisadi əhəmiyyətə malik olduğunu bildirdi. ABŞ hökuməti Qafqaz - Xəzər regionunun iqtisadi və geoloji deyil, ilk növbədə birinci dərəcəli geosiyasi problem olduğunu bəyan etdi'*'’*. Belə yanaşma ABŞ-m region strategiyasının aydınlaşması demək idi. Bəyanat verildikdən az sonra, mart ayında senatorlar Sem Braunbek və K.Smit irəli sürdükləri “İpək yolu” qanunvericilik təşəbbüsünün müzakirəsi üçün dəyirmi masa təşkil etdilər. Həmin təşəbbüs Braunbek-Smit layihəsi adlanırdı. Dəyirmi masada ABŞ dövlət katibinin siyasi məsələlər üzrə müavini Tomas Pikerinq Mərkəzi Asiya, Qafqaz və Xəzər regionunda ABŞ siyasətinin məqsəd və vəzifələri haqqında çıxış edərək 907-ci düzəlişin ləğvinin Vaşinqtonun

Riçard Çeyni (1941) - ABŞ-ın müdafiə naziri (1989-1992). 1993-cü ildən Amerika Sahibkarlar İnstitutunun direktoru.

907-ci düzəliş Birləşmiş Ştatların Azərbaycanda əsas siyasi üstünlüyə nail olmasına əngəl törədir. — “Xalq qəzeti”, Bakı, 1997, 26 fevral.

**rapauıesa** C. **KaBKas в CHCTCMe coepeMeHHbix MejKayuapoÄHbix OTHOuıenHH.** - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2003, Xad, iyul-sentyabr, s.77-79.

sinin həllinə dair vasitəçilik səylərinə yardım göstərəcəyini vurğuladı. ABŞ hökuməti Braunbek-Smit layihəsini bəyəndi.

Lakin həmin layihəni və Azərbaycan - ABŞ münasibətlərinin inkişafını istəməyən qüvvələr fəaliyyətlərini qətiyyən dayandırmamışdılar. Bunlardan biri demokrat konqresmen B.Şerman idi. O, may ayının əvvəllərində Dağlıq Qarabağa birbaşa yardım edilməsi haqqında təklif irəli sürdü. Lakin konqres həmin təklifi rədd etdi'*'*^.

Bu zaman Rusiyanın Ermənistana qanunsuz olaraq 1 milyard dollar məbləğində silah verməsi barədə xəbər böyük qalmaqal yaratmışdı. Həmin hərəkət Avropada adi silahlar və silahlı qüvvələr haqqında müqavilənin tələblərinin kobud surətdə pozulması demək idi. Qeyd etmək lazımdır ki, hələ 1990-cı il noyabrın 19-da Parisdə Avropada adi silahlar haqqında müqaviləni 22 dövlət imzalamışdı. Müqavilənin əsasını 5 kateqoriya üzrə silahların və texnikanın (döyüş tankları, zirehli döyüş maşını, 100 mm.-dən yuxarı kalibirli artilleriya sistemləri, döyüş təyyarələri və zərbə vertolyotları) hər bir iştirakçı dövlət üçün müqavilə ilə icazə verilmiş maksimum səviyyəyədək azaldılması və onların məhdudlaşdırıl- masında sonrakı nəzarət təşkil edirdi. SSRİ dağıldıqdan sonra, 1992-ci il mayın 15-də Daşkənddə həmin müqavilə üzrə hüquqi varis olan 8 müstəqil dövlət - Azərbaycan, Belarus, Qazaxıstan, Ermənistan, Gürcüstan, Moldova, Rusiya və Ukrayna müqavilənin yerinə yetirilməsi prinsipləri haqqında sazişi, adi silahların və texnikanın maksimum səviyyələri haqqında protokolu imzalamışdılar. Protokola uyğun olaraq Cənubi Qafqazın üç dövlətinin hər biri üçün müqavilə ilə məhdudlaşdırılan silahların və texnikanın maksimum səviyyələri aşağıdakı kimi müəyyənləşdirilmişdi: döyüş tankları - 220, zirehli döyüş maşını - 220, artilleriya sistemləri - 285, döyüş təyyarələri - 100, zərbə vertolyotları - 50. Bu məhdudlaşmalar dövlətin hərbi-siyasi parametrlərindəki fərqi nəzərə almırdı. 1996-cı ildə Rusiyanın təzyiqi ilə Cinah sazişi deyilən saziş hazırlanmışdı. Həmin sənəddə Rusiya üçün müəyyən edilmiş cinah zonasındakı məhdudiyyətlər dəyişdirilərək artırılmışdı. Sazişdə nəzərdə tutulan cinah zonaları xüsusi siyasi və hərbi əhəmiyyətli subzonalar olub, aşağıdakı əraziləri əhatə edirdi: Azərbaycan, Rusiya, Norveç, İslandiya, Ukrayna, Gürcüstan, Ermənistan, Moldova, Türkiyə, Yunanıstan, Rumıniya və Bolqarıstan.

Mirzəbəyli İ. Porter əlavəsinin dalınca Şerman təklifi də rədd ‘Xalq edildi, qəzeti”, Bakı, 1997, 8 may.

Həmin məsələyə dair 1997-ci il martın 12-13-də Bakıda Azərbaycan ilə ABŞ arasında təhlükəsizlik və silahlara nəzarət məsələlərinə dair xarici işlər nazirlikləri arasında ikitərəfli məsləhətləşmələr keçirildi. ABŞ dövlət katibi müavininin siyasi-hərbi məsələlər üzrə baş köməkçisi Erik Hyusonun rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibinə Dövlət Departa- mentinin və Müdafiə Nazirliyinin mütəxəssisləri daxil idi. Məsləhətləşmələrdə təhlükəsizliyə dair geniş, o cümlədən regional məsələlər, sərhədə nəzarət, Avropada adi silahlar və bununla əlaqədar olaraq narahatlıq doğuran suallar, NATO-nun Sülh naminə tərəfdaşlıq proqramının yaratdığı imkanlar, NATO-nun genişlənməsi və Avropada təhlükəsizliyin quruluşu, enerji və nəqliyyat dəhlizinin təhlükəsizliyi problemləri ətraflı müzakirə edildi. ABŞ tərəfi Azərbaycan Respublikasının Avroatlantik Tərəfdaşlıq Şurasında fəal iştirak etməsini arzulayırdı. Məsləhətləşmələrdə ABŞ-ın regionda imkan daxilində tarazlaşdırılmış siyasət yürütməyə çalışdığı və Qafqaz ölkələri ilə yaxşı münasibətlər saxlamaq istədiyi vurğulandı**^”.

Məsləhətləşmələrdən bir neçə gün sonra, martın 16-28-də Azərbaycan Respublikası Prezidentinin xarici siyasət məsələləri üzrə müşaviri Vəfa Quluzadə ABŞ-a səfər etdi. Səfərdə məqsəd iki dövlət arasında münasibətləri inkişaf etdirmək üçün perspektivləri müəyyənləşdirmək. Birləşmiş Ştatların regiondakı hadisələrə təsirini artırmaq, erməni lobbisinin güclü təsir mexanizmlərinə malik olduğu konqresə Azərbaycanın ədalətli mövqeyini çatdırmaq, 907-ci düzəlişin münasibətlərə vurduğu ziyanı izah etmək idi. Səfər çərçivəsində Vəfa Quluzadə konqresdə. Ağ evdə, Dövlət Departamentində, Pentaqonda, Mərkəzi Kəşfiyyat İdarəsində və Strateji Tədqiqatlar Mərkəzində görüşlər keçirdi**^'.

Səfərdən bir müddət keçmiş, 1997-ci il mayın 10-da Prezident Bili Klinton Azərbaycan Prezidenti Heydər Əliyevə bir məktub göndərdi. Onu Bakıdakı ABŞ səfiri Riçard Kozlariç Azərbaycan Prezidentinə təqdim etdi. Məktubunda Bili Klinton Heydər Əliyevi iyul-avqust aylarında ABŞ-a rəsmi səfərə dəvət edirdi**^^. Məktubda iki ölkə arasında son illərdə

[450] ARXINA. 1997.

Mirzəbəyli İ. Vəfa Quluzadə: ABŞ Azərbaycanda güclü maraqlan olduğunu tam və açıq şəkildə bildirmişdir. - “Xalq qəzeti”, Bakı, 1997, 4 aprel.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ABŞ səfirini qəbul etmişdir. - “Xalq qəzeti”, Bakı, 1997, 11 may.

əlaqələrin yaxşılaşmasından, kommersiya və sərmayə əlaqələrinin sürətlə artmasından razılıq bildirilirdi. Səfərə hazırlığa başlandı"^^.

Hazırlıqlar aparılan zaman Azərbaycanın xarici işlər nazirinin müavini Araz Əzimov və ABŞ tərəfdən dövlət katibinin silahlar üzərində nəzarət və beynəlxalq təhlükəsizlik üzrə köməkçisi Linn Devis iki ölkə arasında Avropada adi silahlar haqqında müqavilənin Cinah sazişinə dair birgə bəyanatın mətnini razılaşdırdılar. 1997-ci il mayın 15-də Azərbaycan və ABŞ hökumətləri Avropada adi silahlar haqqında müqavilənin cinah sazişinə dair birgə bəyanatla çıxış etdilər. Bəyanatda hər iki ölkə müqavilə çərçivəsində olan silahlar və hərbi texnikanın qeydiyyatı və nəzarəti məsələsində problemlər olduğundan narahatlıq keçirdiklərini bildirirdilər. Eyni zamanda ABŞ hökuməti Azərbaycanda xarici hərbi bazaların olmadığını tanıdığını bəyan edir və bu mövqeyi müdafiə edirdi. Həmin ilin may ayında Azərbaycan Respublikası Milli Məclisi Avropada adi silahlar haqqında müqavilənin Cinah sazişinə qoşulmaq barədə qərar qəbul etdi'*^'*. Cinah sazişi 1997-ci il mayın 15-də qüvvəyə mindi"^^.

Qarşılıqlı münasibətlər artıq yeni keyfiyyət dəyişikliyi astanasında idi. 1997-ci il mayın 18-23-də Amerika - Azərbaycan Ticarət Palatasının təşkil etdiyi "Azərbaycan iqtisadiyyatı keçid dövründə (bank, maliyyə və xarici investisiyalar)" mövzusunda konfrans keçirildi. Azərbaycan Respublikasının Baş Naziri Artur Rasizadə başda olmaqla nümayəndə heyəti konfransda iştirak etmək üçün Vaşinqtonda səfərdə oldu. Səfər çərçivəsində 0, vitse-prezident Albert Qor, dövlət katibinin müavini Stroub Talbott və b. ilə görüşərək iki ölkə arasında iqtisadi, siyasi və mədəni əlaqələrin daha da genişləndirilməsi, ikitərəfli əməkdaşlığın milli maraq və mənafelər nəzərə almaqla inkişaf etdirilməsi, mövcud və gələcəkdə meydana çıxa biləcək problemlərin dövlətlər arasında formalaşmış sıx əlaqələrə əngəl olmaması üçün yubadılmadan aradan qaldırması məsələlərini müzakirə etdi. Görüşlərdə Azərbaycan Prezidentinin ABŞ-a qarşıdakı səfərinə dair məsələlər müzakirə olundu"^^.

Paşayev H.M. Yüksəkliyə doğm. Azərbaycanın Amerika Birləmiş Ştatlarındakı ilk səfirinin seçilmiş məqalələri, s.83.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bəyanatı. - "Xalq qəzeti", Bakı, 1997, 16 may.

Birlikdə yeni əsrə doğru. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ABŞ-a rəsmi səfəri. 27 iyul-7 avqust 1997-ci il. Bakı, 1997, s. 406.

Azərbaycan hökuməti nümayəndə heyətinin Vaşinqtona səfəri, 'Xalq qəzeti", Bakı, 1997, 30 may.

Baş Nazirin ABŞ-a səfəri münasibətlərdə bir sıra məqamların aydınlaşdırılması baxımından əhəmiyyətli idi. Tərəflərin bir-birinə daha çox lazım olduqları qənaəti möhkəmləndirildi.

Bunun ardınca senator Sem Braunbek və senatın xarici əlaqələr komitəsinin rəhbəri S.Biqa mayın 30-da Bakıya səfər edərək iki ölkə arasında münasibətlərə dair məsələlər haqqında fikir mübadiləsi apardılar. Bu, Azərbaycan - ABŞ münasibətlərinin inkişaf perspektivlərini müəyyənləşdirmək baxımından əhəmiyyətli idi.

Birləşmiş Ştatlarda Azərbaycana aid olan məsələlərin müzakirəsi artdı. İyun ayında ABŞ-m Xarici Siyasət İnstitutunda Dağlıq Qarabağ münaqişəsinə dair seminar keçirildi. Seminarda ABŞ-ın tanınmış alimləri, Azərbaycan, Gürcüstan, Ermənistan və Ukraynanın ABŞ-dakı səfirləri iştirak edirdilər. Çıxış edən Ohayo ştatının Heran kollecinin siyasi elmlər professoru Nazal Əlaülmülk Qafqaz regionunun ABŞ üçün Yaxın Şərq qədər əhəmiyyətli olduğunu vurğulayaraq buraya diqqət artırmasının və münaqişənin həllinə səylər etməsinin zəruriliyini bildirdi.

Azərbaycan Respublikasının Birləşmiş Ştatlardakı səfiri Hafiz Paşayev isə ABŞ, Rusiya, Fransa və digər ölkələrin Ermənistana yardımları barədə danışdı. Xüsusilə Rusiyanın Ermənistana 1 milyard dollar silah verməsi üzərində dayanaraq ABŞ-ı belə hərəkətlərin qarşısını almağa çağırdı.

ABŞ - Azərbaycan Ticarət Palatasının sədr müavini Rza Vəziri ABŞ-m maraqları baxımından Dağlıq Qarabağ münaqişəsinin həllində Vaşinqtonun ciddi addımlar atmasının vacibliyini bildirdi.

Ermənistanın ABŞ-dakı səfiri Robert Şuqaryan isə Rusiyanın Ermənistana qanunsuz silah satması faktını inkar etdi və saxtakarlıqla Dağlıq Qarabağ münaqişəsində Azərbaycanı ittiham etməyə cəhd göstərdi.

Seminarın keçirilməsi faydalı oldu. Mövqelər bir daha aydınlaşdı. Müzakirələr ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinin həllinə marağının artdığını göstərirdi.

Bu maraq özünü 1997-ci il iyunun 20-də Kolorado ştatının inzibati mərkəzi olan Denverdə böyük səkkizlərin toplantısı çərçivəsində də göstərdi. Zirvə görüşündə ABŞ Prezidenti Bili Klinton, Rusiya Prezidenti Boris Yeltsin, Fransa Prezidenti Jak Şirak Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə kömək edilməsinə dair birgə bəyanat imzaladılar. Bəyanatda dövlət başçıları münaqişənin həllinə kömək edəcəkləri vədini verir, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa görüşlərinin keçirilməsini tövsiyə edir, Minsk qrupu həmsədrlərinin yeni

təkliflərini bəyənirdilər'*^^. Azərbaycan tərəfi bu bəyanatı münaqişənin sülh yolu ilə həlli istiqamətində mühüm addım kimi qiymətləndirdi.

Azərbaycan - ABŞ münasibətlərində növbəti addım 1997-ci il iyulun 8-də Madrid şəhərində keçirilən NATO-nun genişləndirilməsinə həsr edilmiş toplantı zamanı atıldı. Azərbaycan Prezidenti Heydər Əliyev ABŞ Prezidenti Bili Klinton və dövlət katibi Madlen Olbrayt ilə görüşərək Birləşmiş Ştatları Dağlıq Qarabağ münaqişəsinin həllində fəal olmağa çağırdı. Bili Klinton Azərbaycan Prezidentinin ABŞ-a qarşıdakı səfərini səbirsizliklə gözlədiyini bildirdi.

Həmin görüşdən bir müddət sonra, iyulun 21-də Beynəlxalq Strateji Tədqiqatlar Mərkəzinin rəhbəri Zbiqnev BJezinski Azərbaycana səfər edərək ikitərəfli münasibətlərin strateji yönlərinə dair fikir mübadiləsi apardı. Müzakirələr iki ölkə arasında münasibətlərin təkcə ikitərəfli deyil, regional əhəmiyyətə malik olduğunu göstərdi'*^*.

Beləliklə, 1993-1996-cı illər ərzində Azərbaycan - ABŞ münasibətləri əməkdaşlıq istiqamətində inkişaf etdi. ABŞ-da Azərbaycan haqqında həqiqətlər yayılmağa, rəsmi dairələrdə Azərbaycana münasibət tədricən dəyişməyə başladı. Bütün bunlar Azərbaycan Prezidentinin ABŞ-a rəsmi səfəri üçün zəmin hazırlamış oldu.

## Dönüş anı.
## Strateji tərəfdaşlığa doğru

Azərbaycan - ABŞ münasibətlərində gözlənilən tarixi hadisə baş verdi. 1997-ci il iyulun 27-dən avqustun 5-dək Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ABŞ-a rəsmi səfər etdi'*^'. Bu, Azərbaycan Respublikası Prezidentinin ABŞ-a ilk rəsmi səfəri idi. Səfərin zəngin proqramı tərtib edilmişdi'*^'*. Səfər ərəfəsində ABŞ-ın yeni müstəqil dövlətlər ilə əvvəllər imzaladığı sənədlər Azərbaycanda diqqətlə öyrənildi'**'.

Dağlıq Qarabağ münaqişəsinə dair birgə bəyanat (B.Klinton, B.Yeltsin və J.Şirakın imzaladıqları bəyanat). - "Xalq qəzeti", Bakı, 1997, 24 iyun.

Azərbaycan - Amerika münasibətlərinin yalnız ikitərəfli deyil, həm də böyük regional, strateji əhəmiyyəti var. - "Xalq qəzeti", Bakı, 1997, 22 iyul.

Birlikdə yeni əsrə doğru. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ABŞ-a rəsmi səfəri. 27 iyul-7 avqust 1997-ci il. Bakı, 1997.

ARXİNA. 1997. Qovluq X2S/I, v. 1-6.

ARXİNA 1997. Qovluq RoS/lII, v.7-11.

Bu zaman Rusiyanın Çeçenistanda hərbi əməliyyatlara başlaması nəticəsində Azərbaycan neftinin Çeçenistan ərazisindən keçərək Novorossiysk limanına çatdırılması çətinləşdiyindən Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Hafiz Paşayev səfər ərəfəsində Ağ evdə və Dövlət Departamentində bir sıra görüşlər keçirərək məsələnin həlli üçün səylər etdi"®^. Eyni zamanda Azərbaycan dövlət rəhbərinin qarşıdakı səfərinə dair məsələlər müzakirə olundu.

Azərbaycan Prezidentinin səfərində başlıca məqsəd iki ölkə arasında əlaqələri nizama salmaq, münasibətlərin bütün sahələrdə inkişafını daha möhkəm təməllər üzərində inkişaf etdirmək, müqavilə-hüquq bazasını möhkəmləndirmək, münasibətlərə mane olan Azadlığı müdafiə aktına edilən 907-ci düzəlişin ləğvinə dair məsələləri müzakirə etmək, Azərbaycan haqqında həqiqətləri daha geniş yaymaq, Ermənistan - Azərbaycan münaqişəsinin həlli üçün yaradılmış ATƏT-in Minsk qrupunun həmsədri kimi ABŞ-m fəaliyyətinin gücləndirilməsinə nail olmaq və s. idi.

Səfər qarşılıqlı münasibətlərin qurulduğu bütün əvvəlki dövrdə aparılan işin nəticəsi və keçilən yolun yekunu idi. Lakin səfərin reallaşdırılması üçün çoxlu səylər tələb olunurdu. Çünki erməni diasporası və lobbisi bu səfəri pozmaq üçün ABŞ rəhbərliyinə təzyiqlər edirdi. Hətta konqres üzvlərinin bəziləri Prezident Bili Klintona məktub göndərərək Heydər Əliyevin sovet DTK generalı olduğu, guya Naxçıvandan erməniləri deportasiya etdiyi, millətçi və dissident hərəkata qarşı olduğu, Leonid Brejnevin rəhbərliyi altında Sov.İKP MK Siyasi Bürosunda Əfqanıstana hərbi müdaxilədə iştirak etdiyi barədə uydurmalar yazaraq səfərin təxirə salınmasını təkid edirdilər"®^.

Lakin ABŞ rəhbərliyi həmin iddiaları rədd etdi. Birləşmiş Ştatlar mətbuatında Azərbaycanın əhəmiyyəti haqqında məqalələr dərc edildi. Həmin məqalələrdə iki ölkə arasında münasibətlərin yeni səviyyəyə çıxarılmasının vacibliyi vurğulanır, qeyd edilirdi ki, ABŞ Azərbaycanın və regionun digər ölkələrinin iqtisadi və siyasi sistemlərinin yenidən qurulması istiqamətində apardıqları islahatları müdafiə, onların beynəlxalq siyasi və iqtisadi institutlara inteqrasiyasına. Xəzərin enerji ehtiyatlarının istismarına, regionun inkişafı üçün münaqişələrin həllinə kömək etməli, İranın təcrid edilməsi ilə eyni vaxtda regionun suveren və müstəqil

ARXINA. 1997. Qovluq X2S/II, v. 1-3.
““ ARXİNA. 1997. Qovluq X2S/I, v.16-17.

dövlətləri ilə Rusiya, Türkiyə və regionun digər qonşu dövlətlərinin qarşılıqlı maraqlarını möhkəmləndirməlidir''*'".

Səfər proqramında çoxlu görüşlərin keçirilməsi nəzərdə tutulmuşdu''^^. Azərbaycan Prezidenti ilk olaraq Nyu Yorka gəldi''®*'. Burada NATO-nun baş katibi Xavyer Solano ilə görüşdü. Xavyer Solano Azərbaycan dövləti və Prezidenti haqqında xoş sözlər dedi. Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin əbədi və sarsılmaz olduğunu qeyd etdi. Ölkəsinin qarşısında duran ən ağrılı məsələnin Dağlıq Qarabağ münaqişəsi olduğunu bildirdi''®^.

Azərbaycan Prezidenti Nyu Yorkda ABŞ-m BMT-dəki nümayəndəsi Uilyam Riçardson ilə görüşdü. Söhbət zamanı Heydər Əliyev Azərbaycanı ABŞ-m dostu adlandırdı''®*. Uilyam Riçardsonu görkəmli diplomat kimi 907-ci düzəlişin ləğvinə və Dağlıq Qarabağ münaqişəsinin həllinə yardım etməyə çağırdı.

Həmin gün Azərbaycan Prezidenti BMT baş katibi Kofi Annan ilə görüşdü. Heydər Əliyev ölkəsinin BMT ilə əməkdaşlığa verdiyi əhəmiyyəti diqqətə çatdırdı, Azərbaycanda daxili ictimai-siyasi şərait, Ermənistan - Azərbaycan münaqişəsinin nəticələri və həlli istiqamətində səylər, Rusiyanın Ermənistana qanunsuz silah satması barədə danışdı, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin yerinə yetirilmədiyini qeyd etdi''®^. O, Azərbaycan ərazisində xarici hərbi qüvvənin olmadığını vurğuladı, Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənilməsinə dair imzalanmış müqavilələrin mahiyyətini izah etdi.

Daha sonra Azərbaycan Prezidenti BMT iqamətgahında BMT Təhlükəsizlik Şurasının üzvü olan dövlətlərin daimi nümayəndələri ilə görüşdü. Söhbət zamanı o, SSRİ dağıldıqdan sonra Azərbaycanın üzləşdiyi problemlər, ölkədəki mövcud şərait, aparılan islahatlar, xarici sərmayələr

KDCHA, 1997, 25 mora.

Əliyev H.Ə. Amerika Birləşmiş Ştatlarına ilk rəsmi səfərə yola düşməzdən əvvəl Binə hava limanında kütləvi informasiya vasitələri nümayəndələri üçün müsahibə. 27 iyul 1997-ci il. - Müstəqilliymiz əbədidir. XI kitab, s.5-6.

"*'^ ARXİNA. 1997. Qovluq X2S/I, v.94.

Əliyev H.Ə. NATO-nun baş katibi Xavyer Solana ilə görüşdə nitq. 27 iyul 1996- cı il. - Müstəqilliyimiz əbədidir. XI kitab, 19-20.

Əliyev H.Ə. ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Uilyam Riçardson ilə görüşdə söhbətdən. 28 iyul 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XI kitab, s.30-32. Əliyev H.Ə. BMT-nin baş katibi Kofi Annan ilə görüşdə söhbətdən. 28 iyul 1997- ci il. - Müstəqilliyimiz əbədidir. XI kitab, s.32-35.

üçün yaradılan əlverişli mühit, Azərbaycana qarşı Ermənistanın təcavüzü, münaqişənin həlli istiqamətində səylər, ATƏT-in Minsk qrupunun fəaliyyəti, qonşu ölkələrlə münasibətlər, Rusiyanın Ermənistana qanunsuz silah verməsi. Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənilməsinə dair imzalanmış müqavilələr və fikir ayrılıqları haqqında danışdı, daimi nümayəndələrin suallarını cavablandırdı'*™.

Heydər Əliyevin ABŞ-ın görkəmli siyasi xadimi Henri Kissincer'*^' ilə görüşü maraqlı oldu. Azərbaycan Prezidenti ölkəsinin azad bazar iqtisadiyyatı yolu seçdiyini, əlverişli xarici sərmayə mühiti yaradıldığını deyərək. Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlənilməsinə dair imzalanan müqavilələrin əhəmiyyətini, Ermənistan - Azərbaycan münaqişənin mahiyyətini və ATƏT-in Minsk qrupunun səylərini izah etdi. Münaqişənin nizama salınması istiqamətində həmsədr ölkə kimi ABŞ-m səylərini artırmasını və münasibətlərin inkişafına mane olan 907-ci düzəlişin ləğvinə kömək göstərilməsini xahiş etdi'*™.

Azərbaycan Prezidenti Nyu Yorkda ABŞ-dakı yəhudi təşkilatları prezidentlərinin konfransı təşkilatının rəhbərləri, neft şirkətlərinin başçıları, Azərbaycan - Amerika Ticarət Palatasının və Beynəlxalq anlaşma təşkilatı işgüzar şurasının üzvləri, beynəlxalq humanitar təşkilatların rəhbərləri ilə görüşdü. Onlara Azərbaycandakı vəziyyət, aparılan islahatlar, Ermənistanın təcavüzünün nəticələri, qaçqın və məcburi köçkünlərin vəziyyəti və Azərbaycanın xarici siyasət fəaliyyəti haqqında danışdı.

Nyu Yorkda görüşlərini başa çatdıran Heydər Əliyev Vaşinqtona getdi. Burada Azərbaycan Prezidenti ABŞ-dakı azərbaycanlı diasporasının nümayəndələri ilə görüşərək ölkədəki şərait, aparılan islahatlar və Dağlıq Qarabağ münaqişəsinin həlli səylərindən danışdı. Bu görüş ABŞ-dakı azərbaycanlı icmasının fəallaşmasma təsir edən amillərdən biri oldu. Qeyd etmək lazımdır ki, ABŞ-da təqribi hesablamalara görə, 700 min (bəzən də 400 min yazılır) azərbaycanlı yaşayırdı. Onların əksəriyyəti İrandan gələnlər idi. Vaşinqton və ətrafında 30 minə yaxın azərbaycanlı məskunlaşmışdı. Azərbaycanlıların cəmləşdiyi əsas yer Kaliforniya ştatı idi.

Əliyev H.Ə. BMT Təhlükəsizlik Şurasının üzvü olan dövlətlərin daimi nümayəndələri ilə görüşdə nitq. 28 iyul 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XI kitab, s. 48-60.

Henri Kissincer (1923) - ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi (1969-1975), dövlət katibi (1973-1977).

Əliyev H.Ə. ABŞ-m tanınmış siyasi xadimi Henri Kissincer ilə görüşdə söhbətdən. 28 iyul 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XI kitab, s.61-63.

Onların fəaliyyətində əvvəlki illərə nisbətən son zamanlarda müəyyən mənada siyasi və mədəni xarakterli dəyişikliklər baş vermişdi'*^^. Bu dəyişikliklər ilk növbədə Azərbaycan Respublikasında baş verən hadisələr və Prezident Heydər Əliyevin apardığı xarici siyasət ilə əlaqədar idi. Azərbaycan haqqında həqiqətlərin dünyaya çatdırılmasında “Azerbaijan International” jurnalının böyük rolu var idi. Bundan əlavə səfirlik tərəfindən bukletlərin nəşr edilməsi də əhəmiyyətli rol oynayırdı. Səfirliyin nəşr etdiyi “Azerbaijan Newsletter” adlı qəzet azərbaycanlılar və səfirlik tərəfindən konqres, hökumət, diplomatik korpus arasında yayılırdı, kitabxanalara, ümumiyyətlə, 1000-dən artıq ünvana göndərilirdi. ABŞ-da azərbaycanlıların bir sıra təşkilatları, məsələn, “National Association of Azerbaijani Americans”, “Azerbaijani Cultural Society of Northerm California”, “American Azerbaijani Friendship Society”, “Azerbaijan Society of America”,“Azerbaijanis Society” və b. fəaliyyət göstərirdi. Səfirlik Azərbaycan icması ilə fəal iş aparırdı. İcma milli bayramları qeyd edir, səfirliklə əlaqə saxlayırdı. Azərbaycanlı tələbələr səfirliklə sıx işləyirdilər. 1997-ci ildə lobbi fəaliyyəti və təbliğat işləri üçün səfirliyə yalnız 100 min dollar ayrılmışdı. Lakin bu məbləğ kifayət qədər deyildi'*’".

Azərbaycan Prezidenti səfər çərçivəsində ABŞ-m tanınmış politoloqları, siyasi xadimləri və mətbuat nümayəndələri ilə görüşdü. Onların qarşısında çıxış edərək Azərbaycanın daxili ictimai-siyasi şəraiti, xarici siyasəti. Xəzərdə enerji diplomatiyası barədə danışdı və suallara cavab verdi.

Heydər Əliyev ABŞ-m Hallibortn korporasiyasının prezidenti Ri- çard Çeyni, Corctaun Universitetinin professor-müəllim heyəti və tələbələri, Amerika ictimaiyyətinin nümayəndələri, görkəmli siyasi və dövlət xadimləri, diplomatları ilə görüşərək qarşılarında çıxış etdi. Onların suallarım cavablandırdı.

Azərbaycan Prezidenti ABŞ konqresində görüşlər keçirdi. İyulun 30-da nümayəndələr palatasının spikeri Nyut Qinoriç və palatada respublikaçılar partiyasının təşkilatçı rəhbərləri - konqresmenlər Con Bonər, Tom Denya, Kris Köks, Con Linder ilə görüşdü. Azərbaycan Prezidenti ölkədə həyata keçirilən hüquqi-siyasi islahatlar. Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Minsk qrupunun səylərindən danışdı.

' ARXİNA. 11.12.1996-20.01.1998. Qovluq XsN, v.2.

‘ARXİNA. 11.12.1996-20.01.1998. Qovluq Xs N, v.6.

907-ci düzəlişin Azərbaycan - ABŞ münasibətlərinin inkişafına mane olduğunu bildirdi.

ABŞ konqresi xarici əlaqələr komitəsinin sədri Bencamin Güman və komitənin üzvləri ilə görüşdə konqresmenlər Kriss Smit, İleana Ros Letiner, Frenk Pallone, Piter Kinq, Tom Laptos, Qarri Akerman, Çet Ed- vards, Li Hamilton, Co Barton, Dana Rorebaxer, Volter Kars, Dad Verodter, Stif Çabot, Don Manzillo, Tom Kampell, Bredli Şerman, Stiv Rotman, Kelin Bredi və digərləri iştirak edirdilər. Heydər Əliyev Ermənistanın Azərbaycana qarşı təcavüzü və 907-ci düzəlişin ikitərəfli münasibətlərə vurduğu ziyandan danışdı.

Nümayəndələr palatasının maliyyələşdirmə komitəsinin sədri Robert Livinqston ilə görüşdə iqtisadi əməkdaşlığa mane olan 907-ci düzəlişin ləğvi və Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının işlənilməsi məsələləri müzakirə edildi.

Daha sonra konqresin nümayəndələr palatasının yardımçı komitəsinin sədri Sonni Kallahan və konqresmenlərlə görüş oldu. Görüşdə Azərbaycan Prezidenti 907-ci düzəlişin iki ölkə arasında münasibətlərin inkişafına mane olduğunu, onun ləğvinin vacibliyini bildirdi və Ermənistan - Azərbaycan münaqişəsi haqqında danışdı.

Azərbaycan Prezidenti senatorlar Robert Börd, Sem Braunbək, senatın xarici əlaqələr komitəsinin üzvləri, konqresmen Piter Kinq ilə görüşərək Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələri barədə danışdı və 907-ci düzəlişin münasibətlərin inkişafına mane olduğunu bildirdi.

Konqresdə görüşlər başa çatdıqdan sonra Heydər Əliyev jurnalistlərin suallarına cavab verdi. Keçirdiyi görüşləri uğurlu adlandırdı. Görüşlərdə Azərbaycana dair bütün müvafiq məsələlər müzakirə edilmişdi.

Həmin gün Azərbaycan Prezidenti ABŞ-ın tanınmış siyasətşünas- ları və mətbuat nümayəndələri ilə görüşdü. Toplantı Corctaun Universitetində keçirildi. Geniş fikir mübadiləsi aparıldı. Görüşdə Beynəlxalq Strateji Tədqiqatlar Mərkəzinin rəhbəri Zbiqnev Bjezinski ABŞ-m Cənubi Qafqaz siyasətinə dair altı prinsipə əməl etməsinin vacibliyini bildirdi: Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində fəal iştirak etməlidir; Azərbaycana münasibətdə yürüdülmüş bitərəfliyə və ədalətliliyə zərbə vuran xəttdən imtina etməlidir; Xəzər regionu və Mərkəzi Asiyanı Avropaya inteqrasiya etməkdə ABŞ - Türkiyə münasibətlərinə xüsusi diqqət yetirməlidir; ABŞ diplomatiyası çox həssas, mürəkkəb və hissiyyatlarla dolu olan İran məsələsində manevr imkanlarını qoruyub

saxlamalıdır; regionunun dünya birliyinə inteqrasiyası üçün bölgənin qapıları bütün ölkələr üçün açıq olmalıdır, region beynəlxalq əməkdaşlıq meydanına çevrilməlidir; Azərbaycan ilə Ermənistan arasında əməkdaşlıq yaradılmalı və Rusiyanın regionda maraqları nəzərə alınmalıdır"'’^.

Heydər Əliyev iyulun 31-də müdafiə naziri Uilyam Koben"*’® ilə görüşdü"’”. Görüşdə iki ölkə arasında müdafiə sahəsində əsaslı əməkdaşlığın inkişaf etdirilməsi, Qafqazda təhlükəsizlik, Azərbaycanın NATOnun Sülh naminə tərəfdaşlıq proqramında iştirakı, Ermənistan - Azərbaycan münaqişəsinin nizama salınması səyləri və s. məsələlər müzakirə edildi. Uilyam Kohen Rusiyanın Ermənistana silah satması məsələsinin ABŞ-m da dərin narahatlığına səbəb olduğunu qeyd etdi. Görüşdən sonra iki ölkə arasında müdafiə və hərbi sahələrdəki gələcək münasibətlərə dair birgə bəyanat imzalandı"”*. Bəyanatda ABŞ ilə Azərbaycan arasında müdafiə sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məsələləri geniş müzakirə obyekti kimi götürülür, Azərbaycanın NATO-nun Sülh naminə tərəfdaşlıq proqramında iştirakı və yeni yaranan Avropa təhlükəsizlik qurumlarına, o cümlədən Avroatlantik Tərəfdaşlıq Şurasına onun fəal inteqrasiyası vurğulanırdı; hərbi təhsil və təlim, müdafiə büdcələrinin hazırlanması və ehtiyatlarının idarə olunması sahəsində əməkdaşlıq, müdafiə və təhlükəsizlik məsələləri sahəsində məsləhətləşmələr keçirilməsi nəzərdə tutulurdu.

Daha sonra Heydər Əliyev ABŞ dövlət katibinin birinci müavini, ATƏT-in Minsk konfransının həmsədri Stroub Talbott və Minsk qrupunun həmsədri Linn Pasko ilə görüşdü. Görüşdə ABŞ-m Azərbaycandakı səfiri vəzifəsində işləmiş Riçard Kozlariç də iştirak edirdi"”®. Heydər Əliyev münaqişənin həlli üçün ABŞ-ın səylərinin artırılmasını istədi və iki ölkə arasında münasibətləri daha da inkişaf etdirmək üçün konkret

Amerika - Azərbaycan əlaqələrində XXI əsrə böyük bir qapı açmış tarixi səfər. Vaşinqtondakı Corctaun Universitetində dövlətimizin başçısı Heydər Əliyev ilə görüş. - “Xalq qəzeti”, Bakı, 1997, 15 avqust.

Uilyam Kohen (1940) - senatın üzvü (1979-1997), müdafiə naziri (1997- **2000**).

Əliyev H.Ə. ABŞ-ın müdafiə naziri Uilyam Kohen ilə söhbətdən. 31 iyul 1997- ci il. - Müstəqilliyimiz əbədidir. XI kitab, s. 184-186.

ARXİNA. 1997. Qovluq X2S/I, v. 51.

Əliyev H.Ə. ABŞ dövlət katibinin birinci müavini, ATƏT-in Minsk konfransının həmsədri Stroub Talbott və Minsk qrupunun həmsədri Linn Pasko ilə görüşdə söhbətdən. 31 iyul 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XI kitab, s.187-188.

təkliflər irəli sürdü. Həmin təkliflər münasibətlərin maddi təməllərinin möhkəmləndirilməsinə və strateji tərəfdaşlığına yönəlmişdi.

Səfər zamanı iki ölkə arasında iqtisadi və maliyyə sahələrində geniş əməkdaşlıq məsələləri müzakirə edildi. Azərbaycan Prezidenti iyulun 31- də ABŞ İxrac-İdxal Bankının (Eksimbank) prezidenti Ceyms Harman ilə görüşdü. Görüşdən sonra Azərbaycanın Maliyyə Nazirliyi, Milli Bankı və Eksimbank arasında "Layihələrin təşviqinə dair baş saziş" imzalandı. Bu saziş Azərbaycana infrasturkturun yaradılması və sənayenin inkişafı, o cümlədən böyük neft ehtiyatlarının mənimsənilməsi üçün sənnayələr qoymağa imkan verirdi.

Heydər Əliyev ABŞ-ın maliyyə naziri Robert Rubin və energetika naziri Federiko Pena ilə görüşdü. Görüşlərdə ARDNŞ ilə ABŞ neft şirkətləri arasında əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri haqqında fikir mübadiləsi edildi. Federiko Pena ilə görüşdən sonra iki ölkə arasında enerji sahəsində əməkdaşlığa dair bəyanat qəbul edildi"*®.

Azərbaycan Prezidenti ABŞ Ticarət Nazirliyində ölkənin işgüzar dairələrinin nümayəndələri ilə görüşərək imzalanan neft müqavilələri, neft boru kəmərlərinin tikintisi, Azərbaycanın iqtisadi imkanları, xarici sərmayələr haqqında geniş danışaraq onları Azərbaycana sərmayə qoymağa dəvət etdi.

Heydər Əliyev Dünya Bankının prezidenti Ceyms Vilfenson ilə görüşərək əməkdaşlıq məsələlərini müzakirə etdi. Ermənistanın hərbi təcavüzünün ölkənin maliyyə vəziyyətinə etdiyi mənfi təsirdən danışdı.

Səfərin zirvə görüşü ABŞ Prezidenti Bili Klinton ilə oldu. Danışıqlar avqustun 1-də keçirildi. Prezidentlər əvvəlcə təkbətək görüşdülər. Bili Klinton Heydər Əliyevin ABŞ-a səfərini tarixi hadisə adlandırdı. 907- ci düzəlişin ortadan qaldırılmasını vacib hesab edən ABŞ Prezidenti bunun üçün çalışacağını bildirdi. Onun fikrincə, 907-ci düzəlişin fəaliyyəti iki mərhələdə dayandırılacaqdı. Birinci mərhələdə konqres düşəlişi elə dəyişəcəkdi ki, ABŞ-m Azərbaycana birbaşa yardım etmək imkanı olacaqdı, ikinci mərhələdə isə düzəliş tamamilə ləğv ediləcəkdi.

Heydər Əliyev Azərbaycanda aparılan islahatlar və onların nəticələri, Ermənistan - Azərbaycan münaqişəsinin həlli istiqamətində Minsk qrupunun fəaliyyətindən danışaraq həmsədr kimi ABŞ-m fəal olmasını xahiş etdi. Azərbaycan Prezidenti münaqişənin həllinə dair ölkəsinin mövqeyini birmənalı olaraq belə bəyan etdi: "Biz belə hesab edirik ki, müna-

ARXINA. 1997. Qovluq JS2S/I, v.33.

qişənin iki mərhələdə həlli mümkündür. Birinci mərhələ Azərbaycanın altı rayonunun işğaldan azad edilməsi, dağıdılmış kommunikasiyaların bərpa olunması, qaçqınların doğma yurdlarına qayıtması, ikinci mərhələ Şuşa və Laçın rayonlarının geri qaytarılması və Dağlıq Qarabağın statusunun həll edilməsini nəzərdə tutur”'"**'.

Dövlət başçıları regionda mövcud olan qüvvələr nisbətinə, Qafqaz probleminə, NATO-nun Şərqə doğru genişlənməsinə, Avropada adi silahlı qüvvələr haqqında müqavilənin Cinah sazişinə və digər məsələlərə dair fikir mübadiləsi etdilər.

Təkbətək danışıqlar başa çatdıqdan sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibli danışıqlar oldu. Heydər Əliyev iki ölkə arasında münasibətlərin inkişafı üçün böyük imkanlar olduğu. Xəzər dənizinin Azərbaycan sektorunda yataqların birgə işlənilməsinə dair imzalanmış müqavilələr, neftin nəqli ilə bağlı iki boru kəmərinin tikintisi, üçüncünün isə tikintisinə yaxınlarda başlanacağı barədə danışdı, Azərbaycanın əlverişli geosiyasi mövqeyinə diqqəti cəlb etdi. Dağlıq Qarabağ münaqişəsinin həllinə dair ABŞ, Rusiya və Fransa prezidentlərinin Denver bəyanatını yüksək qiymətləndirdi, 907-ci düzəlişin ləğvinə çağırdı'"*". Azərbaycan Prezidenti dedi: “...ABŞ konqresinin 1992-ci ildə qəbul etdiyi Azadlığı müdafiə aktına 907-ci düzəliş ədalətsiz qərardır və Azərbaycan - Amerika əlaqələrinin daha da canlandırılmasına müəyyən əngəllər törədir. Ona görə də bu düzəlişin tezliklə ləğv olunması vacibdir”'"**. O, ABŞ-ın Ermənistana ildə 100 milyon dollar yardım göstərməsini, Azərbaycanın isə bu yardımdan məhrum edilməsini ədalətsizlik adlandırdı. Azərbaycan Prezidenti Rusiyanın Ermənistana qanunsuz silah satmasının regional təhlükəsizlik baxımından böyük narahatlıq yaratdığını vurğuladı.

Danışıqlar zamanı siyasət, təhlükəsizlik, iqtisadiyyat və ticarət sahələrində əlaqələrin möhkəmləndirilməsi vasitəsi ilə iki ölkə arasında tərəfdaşlıq münasibətlərinin genişləndirilməsinə dair razılıq əldə olundu. Bili Klinton Azərbaycan ilə sıx əlaqələrin regionda sülh, sabitlik və rifahın təmin olunması üçün vacib olduğunu qeyd etdi. ABŞ tərəfi Azər-

Əliyev H.Ə. Amerika Birləşmiş Ştatları və Azərbaycan prezidentlərinin təkbətək görüşündə söhbətdən. 1 avqust 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XI kitab, s.219-221.

Əliyev H.Ə. Yüksək səviyyəli ABŞ və Azərbaycan Respublikası nümayəndə heyətlərinin danışıqlarında çıxışdan. 1 avqust 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XI kitab, s.222-225.

Yenə orada.

baycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və demokratik inkişafım dəstəkləyirdi. Azərbaycan Prezidenti qaçqın və məcburi köçkünlərə humanitar yardım etdiyi üçün ABŞ-a təşəkkür etdi, ölkəsinin azad bazar iqtisadiyyatı yolu ilə inkişafının dönməz olduğunu vurğuladı. Prezidentlər iqtisadiyyat və energetika sahəsində əməkdaşlığı dəstəklədilər.

Danışıqlar zamanı demokratiyaya və insan hüquqlarına riayət olunmasının, iqtisadi islahatların aparılmasının Azərbaycanda dövlət quruculuğunun sarsılmaz əsaslarını təşkil etməsi və bu yolla ölkədə ümumbəşəri dəyərlərə əsaslanan vətəndaş cəmiyyətini qurulmasının mümkünlüyü xüsusi vurğulandı, Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və demokratik inkişafının Birləşmiş Ştatlar tərəfindən dəstəkləndiyi təsdiq edildi.

Hər iki prezident 907-ci düzəlişin iki ölkə arasında əməkdaşlığın imkanlarını məhdudlaşdırdığını bildirdi. Onun ləğv edilməsi təklifi ABŞ Prezidenti tərəfindən dəstəkləndi.

Xəzər dənizinin enerji ehtiyatlarının mənimsənilməsində, neft və qaz ehtiyatlarının hasilatı və nəqlində ABŞ şirkətlərinin geniş iştirakı, ölkələr arasında enerji siyasəti və kommersiya məsələləri üzrə rəsmi dialoqun qurulması yüksək qiymətləndirildi.

Danışıqlarda elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlıq məsələləri də diqqət mərkəzində oldu. Tərəflər bu sahələrdə əməkdaşlığın genişləndirilməsinə dair razılığa gəldilər.

Qeyd etmək lazımdır ki, Azərbaycan və ABŞ prezidentlərinin görüşü nəzərdə tutulduğundan çox - üç saat yarım-dörd saat çəkdi.

Danışıqlar başa çatdıqdan sonra Heydər Əliyev və Bili Klinton ABŞ - Azərbaycan münasibətləri haqqında birgə bəyanatı imzaladılar'**'*. Bəyanatda müzakirə edilən məsələlər barədə tərəflərin mövqeləri əksini tapmışdı. Burada Azərbaycan - ABŞ münasibətlərinin inkişaf prinsipləri müəyyən edilir və göstərilirdi ki, iki prezident arasında siyasi, təhlükəsizlik, iqtisadiyyat, ticarət sahələrində tərəfdaşlıq əməkdaşlığını inkişaf etdirmək barədə razılıq əldə edilmişdir. Bəyanatda Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli niyyəti aydın şəkildə göstərilirdi. Münaqişənin ATƏT-in Lissabon zirvə görüşünün müəyyənləşdirdiyi prinsiplər əsasında həlli vurğulanırdı. Bəyanatda 907-ci düzəlişin aradan

Amerika - Azərbaycan münasibətləri haqqında bəyanat. 1 avqust 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XI kitab, s.225-228; Azərbaycan - Amerika münasibətləri haqqında birgə bəyanat. 1 avqust 1997-ci il. - Müqavilələr toplusu. I cild, s.143-145; ARXİNA. 1997. Qovluq X2S/I, v. 54-55.

götürülməsinə dair fikir də əskini tapmışdı. Vurğulanırdı ki, ABŞ Prezidenti həmin maddənin aradan götürülməsini zəruri hesab edir və bunun üçün çalışacaqdır. Sənəddə Azərbaycanın azad bazar iqtisadiyyatı, demokratiya yolu ilə inkişafı bəyənilirdi. Bəyanatda Azərbaycan Respublikasının təhlükəsizliyi ilə bağlı çox əhəmiyyətli maddələr var idi. ABŞ tərəfi Azərbaycan Respublikasının qarşılaşdığı çətinlikləri qəbul edir və Avroatlantik Tərəfdaşlıq Şurasına daxil olmasını bəyənirdi.

Bəyanat tarixi bir məna daşıyırdı. Bu, iki ölkə arasındakı əlaqələr tarixində prezidentlər tərəfindən imzalanmış ilk sənəd idi.

Səfər zamanı, həmçinin sərmayə qoyuluşunun qarşılıqlı qorunması və təşviq edilməsi haqqında Azərbaycan Respublikası hökuməti ilə ABŞ hökuməti arasında müqavilə imzalandı. İmzalanma mərasimində etdiyi çıxışında Heydər Əliyev həmin sənədləri Azərbaycan xalqı üçün tarixi hadisə adlandıraraq yüksək qiymətləndirdi, iki ölkə arasında münasibətlərin inkişafı baxımından mühüm mərhələ hesab etdi. Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının işlənilməsi sahəsində yaxşı əməkdaşlığın qurulmasını diqqətə çatdırdı, Azərbaycanın ATƏT-in Lissabon zirvə görüşündə qəbul edilmiş prinsiplər əsasında münaqişəni həll etməyə çalışacağını bildirdi, Azərbaycanın dövlət müstəqilliyini böyük tarixi nailiyyət kimi qiymətləndirdi və onu qoruyub saxlamağı özünə şərəf bildiyini qeyd etdi'**^.

Avqustun 1-də energetika sahəsində Azərbaycan - ABŞ dövlətlərа- rası dialoqunun qurulmasına dair saziş, ARDNŞ ilə Şevron, Ekson və Mobil ilə ARDNŞ arasında enerji emalına dair müqavilələr imzalandı. Şevron ilə imzalanan müqavilə “Abşeron” neft yatağının kəşfi, məhsulun emalı və bölüşdürülməsi haqqında idi. Yatağın ümumi sahəsi 300 kv.m.- dən artıq idi. Müqavilədə Şevronun payı 30%, ARDNŞ-in payı 50% idi. Qalan 20% Fransanın Total şirkətinə verilmişdi. Mobil şirkəti ilə “Oğuz” yatağının istismarına dair müqavilə imzalandı. Yatağın sahəsi 225 kv.m. idi. Burada paylar bərabər bölünmüşdü. Ekson ilə imzalanan müqavilə “Naxçıvan” yatağına dair idi. Yatağın sahəsi 180 kv.m. idi. Bu layihədə də paylar bərabər bölüşdürülmüşdü. Qeyd etmək lazımdır ki. Şevron və Mobil əməkdaşlıqda yeni idilərsə, Ekson hələ “Əsrin müqaviləsi” imza-

Əliyev H.Ə. Amerika - Azərbaycan münasibətləri haqqında birgə bəyanatın və sərmayə qoyuluşunun qarşılıqlı qorunması və təşviq edilməsi haqqında Azərbaycan Respublikası hökuməti və ABŞ hökuməti arasında müqavilənin imzalanma mərasimində bəyanat. 1 avqust 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XI kitab, **S.229.**

landığı zamandan etibarən Azərbaycan ilə əməkdaşlıq edirdi. Bili Klinton iki ölkə arasında energetika sahəsində əməkdaşlığa xüsusi əhəmiyyət verirdi.

Azərbaycan Prezidenti avqustun 1-də ABŞ dövlət katibi Madlen Olbrayt ilə görüşdü. Görüşdə ikitərəfli və regional məsələlərə dair müzakirə aparıldı. Madlen Olbrayt Azərbaycanda gedən müsbət dəyişiklikləri yüksək qiymətləndirdi, Azərbaycan Prezidentinin ABŞ-a səfərini əhəmiyyətli adlandırdı. ABŞ tərəfi Azərbaycanın müstəqil dövlət kimi yaşamasında maraqlı idi. Heydər Əliyev Azərbaycanın müstəqillik qazanmasını xalqın tarixi nailiyyəti adlandırdı, dövlət müstəqilliyinin qorunub saxlanılması, əbədi və dönməz olması üçün çalışacağını bildirdi. Daha sonra Azərbaycan Prezidenti iki ölkə arasında münasibətlərə mane olan əngəllərdən danışdı. 907-ci düzəlişin münasibətlərin inkişafına mane olduğunu qeyd etdi'**^.

Vaşinqtonda görüşlərini başa çatdıran Azərbaycan nümayəndə heyəti Hyuston şəhərinə getdi. Neft mərkəzi hesab edilən bu şəhər hələ sovet dövründən Bakı ilə qardaşlaşmış şəhər idi'*^'. Hyustonda Heydər Əliyev şəhərin meri Robert Lanyer ilə görüşdü. Merin "Bili Klinton necə həmsöhbətdir?" sualına Heydər Əliyev onun çox istedadlı, nadir xüsusiyyətlərə malik olduğunu, insanlarla çox tezliklə sadə münasibət qura və danışıqlar üçün yaxşı şərait yarada bildiyini vurğuladı, onu səmimi, mehriban və istiqanlı adam adlandırdı. Görüşdə ikitərəfli əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi edildi.

Azərbaycan Prezidenti səfər zamanı Hyuston - Bakı assosiasiyasının nümayəndələri qarşısında çıxış etdi. Daha sonra ABŞ-ın görkəmli ictimai-siyasi xadimi Qreq Laflin ilə görüşdü. Qreq Laflin 907-ci düzəlişin ləğvinə çalışan bir şəxs idi. Azərbaycan Prezidenti onun bu sahədəki səylərini yüksək qiymətləndirdi.

Heydər Əliyev ABŞ-ın Frontera Resursez, Şevron, Con Vinq ənd Çarli Uilson, Pennzoyl, Yunokal, Konoko, Ekson, Teksako, Arko, Şell, Mobil, FMS, Katerpillar, Motorola, Amoko şirkətlərinin rəhbərləri ilə ayrı-ayrılıqda görüşərək əməkdaşlığın gələcək inkişaf perspektivlərini mü-

Əliyev H.Ə. ABŞ-ın dövlət katibi Madlen Olbryat ilə görüşdə söhbətdən. 1 avqust 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XI kitab, s.239.

**FacbiMJibi** M. AsepöaHÄÄan в **MejKaynapoÄHbix KyjibxypHbix** CBasax **(1946-1990), C.242.**

zakirə etdi'***. Hələ səfər ərəfəsində bu şirkətlərin rəhbərləri Azərbaycan Prezidentinə məktub göndərərək onunla görüşməyi xahiş etmişdilər

Səfər zamanı ABŞ hökuməti Xəzərin enerji ehtiyatlarının dünya bazarlarına çıxarılmasına dair mövqeyini bəyan etdi. Birləşmiş Ştatlar Xəzərin enerji ehtiyatlarının dünya bazarlarına nəql edilməsinə dair müxtəlif yolları müdafiə edir; kommersiya baxımından həyat qabiliyyətli olan üç marşrutun nəzərdən keçirilməsində fayda görürdü: Bakıdan başlayıb Gürcüstan ərazisi ilə Qara dəniz sahilinə və Qafqazdan keçərək Türkiyənin Ceyhan limanına gedən neft boru kəməri; Qazaxıstandan başlayıb Bakı - Ceyhan boru kəməri ilə birləşən yerədək uzanan Transxəzər neft boru kəməri; Türkmənistanın və digər ölkələrin qazını Azərbaycan vasitəsi ilə nəql etmək üçün Transxəzər qaz kəməri"®". Bakı - Ceyhan neft kəməri Qara dənizin Bosfor boğazı vasitəsi ilə daşımaların alternativi idi.

Azərbaycan Prezidentinin ABŞ-a səfəri dünya mətbuatının diqqət mərkəzində oldu. Məsələn, Londonda nəşr edilən "Faynenşl Tayms" qəzeti 30 iyul tarixli sayında Heydər Əliyevin səfəri zamanı imzalanacaq neft müqavilələri nəticəsində Qərb şirkətlərinin Azərbaycan neftinin işlənməsində payının 50% olacağını qeyd edirdi"®'.

Bu səfər Ermənistan rəsmi dairələri, mətbuatı və ABŞ-dakı erməni diasporası tərəfindən də diqqətlə izlənilirdi. Artıq qeyd olunduğu kimi, onlar hələ səfər ərəfəsində ABŞ Prezidentinə müraciət edərək səfərin ləğvini xahiş etmişdilər. Ermənilər Azərbaycan əleyhinə 150 min poçt kağızları hazırlayaraq yaymışdılar. Hətta iyul ayında Madriddə Heydər Əliyev ilə görüşən Bili Klinton "erməni dostların" Azərbaycan Prezidentinin səfərinin ləğv edilməsi barədə ona müraciət etdiklərini söyləmiş və onları qəbul etmədiyini deyərək "mən Sizin səfərinizi səbirsizliklə gözləyirəm, tez gəlin" sözlərini bir neçə dəfə təkrar etmişdi.

Dünyanın digər ölkələrindəki erməni diasporası da səfər zamanı müzakirə olunan məsələləri şərh edirdi. Məsələn, Fransadakı erməni icmasının "Qamk" qəzeti Azərbaycan Prezidentinin BMT baş katibi Kofı Annan, Çikaqoda iş adamları ilə görüşünə diqqəti cəlb edərək, "biz heç zaman Azərbaycanın daxilində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəyik" fikirlərini vurğulayırdı. Həmçinin, Heydər Əliyevin Ermənistanın Rusiyadan silah və sursat almasına, Azərbaycanın 907-ci

''^^ARXİNA. 1997. Qovluq JÇoS/III, v.132-133.
ARXİNA. 1997. Qovluq XsS/lIl, v.l2.
490 Yaqubova A. Azərbaycanın neft diplomatiyası: əfsanələr gerçəkləşir, s.77.
ARXİNA. 1997. Qovluq XoS/IlI, v.6-8.

düzəlişə görə ABŞ yardımını ala bilmədiyini söyləməsinə, sərmayə qoyuluşuna dair müqaviləyə, ABŞ-m üç nəhəng neft kompaniyası ilə müqavilələr imzalamasına diqqəti cəlb edir və bu zaman dediyi “biz gələcək iqtisadi münasibətlərimiz üçün əsas qoyduq” fikirlərini iqtibas olaraq gətirirdi'*^^.

Azərbaycan Prezidentinin səfəri ABŞ, Fransa, Rusiya, Böyük Britaniya, Gürcüstan və b. ölkələrin mətbuatında da geniş işıqlandırılmışdı"^^. Mətbuat orqanları bu səfərin iki ölkə arasında münasibətlərdə yeni bir dövr açdığını yazırdı.

Heydər Əliyevin ABŞ-a səfərinə geniş yer ayıran Türkiyə mətbuatı onu iki ölkə arasında münasibətlərdə yeni mərhələnin başlanğıcı kimi qiymətləndirirdi'’^'*. Türkiyənin “Sabah” qəzeti yazırdı: “Heydər Əliyev ABŞ-da Bili Klinton ilə görüşərkən neft boru xəttinin Türkiyədən keçməsini istədiyini bildirdi, Türkiyə bizim dünyaya açılan pəncərəmiz” deyərək, Bakı - Ceyhan əsas ixrac neft boru kəməri üzərində durdu”'*’^.

“Sabah” qəzeti Bili Klintonun Heydər Əliyevin apardığı demokratik və iqtisadi islahatlardan heyranlıqla danışdığını və ABŞ Prezidentinin Azərbaycanı həmişə müdafiə edəcəyini vurğulayırdı. Qeyd edirdi ki, erməni lobbisinin bütün maneələrinə baxmayaraq. Heydər Əliyev Bili Klinton ilə görüşdü və onun dəstəyini qazandı. Bu isə erməniləri çaş-baş saldı'*®'*. Digər bir məqaləsində bu qəzet Heydər Əliyevin ABŞ-da kral kimi qarşılandığını yazırdı.

“Milliyəf’ qəzeti isə yazırdı ki, amerikalılar son beş ildə azərbaycanlıları incidən siyasətlərini dəyişirlər və Heydər Əliyevi başlarının tacı edirlər. Digər bir yazısında bu qəzet Ağ evin Heydər Əliyevin Qarabağ

‘*®- ARXİNA. 18.07.1996-04.08.1998. Qovluq ftçlO, v. 178-180.

‘*®^ Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri, s. 208-218.

Azerbaycan Cumhurbaşkanı Haydar Aliyev’in Amerika resmi gezisi Türkiye matbuatmda (27 Temmuz - 5 Ağustos 1997). Ankara, T.C. Başbakanlık Basın - Yayın ve Enformasyon Genel Müdürlüğü, 1997.

Petrol boru hattı Türkiye’den geçsin. - “Sabah” gazetesi, İstanbul, 1997, 1 Ağustos.

Azerbaycan Cumhurbaşkanı Haydar Aliyev’in Amerika resmi gezisi Türkiye matbuatmda (27 Temmuz — 5 Ağustos 1997). Ankara, T.C. Başbakanlık Basın- Yayın ve Enformasyon Genel Müdürlüğü, 1997.

siyasətinə yaşıl işıq yandırdığını və ABŞ-m Azərbaycanın strateji tərəfdaşına çevrildiyini vurğulayırdı"®^.

Azərbaycan Respublikası Prezidentinin ABŞ-a səfərinin böyük tarixi əhəmiyyəti var idi. Bu səfər iki ölkə arasında münasibətlərdə yeni keyfiyyət mərhələsinin başlanğıcını qoyurdu, qarşılıqlı münasibətlərdə dönüş anı idi. Azərbaycan Respublikası Prezidentinin ABŞ-a ilk rəsmi səfəri uğurla keçmişdi. Səfər məzmunu, mənası, imzalanmış sənədlərin əhatə dairəsi və yekunları baxımından tarixi əhəmiyyət kəsb edirdi. Səfərə qiymət verən Heydər Əliyev deyirdi: “Bu, bizim Azərbaycan xalqı, milləti üçün, müstəqil Azərbaycan üçün həqiqətən tarixi hadisədir”"*^*. Səfər zamanı Ağ evdə, müxtəlif nazirliklərdə aparılan danışıqlarda və keçirilən digər görüşlərdə ABŞ dövlət strukturlarında və iş adamlarında Azərbaycana marağın artması bir daha təsdiq olundu. Danışıqlar ikitərəfli və regional problemlərə aid bütün məsələləri əhatə etmişdi. Burada iki ölkə arasında münasibətlər, beynəlxalq şərait və problemlər, Qafqaz və Mərkəzi Asiya regionunda vəziyyət, Azərbaycanın qonşuları ilə münasibətlər və s. müzakirə edilmişdi.

Səfər Azərbaycan Respublikası ilə ABŞ arasında 5 mühüm sənədin imzalanması ilə başa çatdı. ABŞ ilə Azərbaycan arasında münasibətlər haqqında birgə bəyanatda, Azərbaycan Respublikası hökuməti ilə ABŞ hökuməti arasında sərmayə qoyuluşunun qarşılıqlı qorunması və təşviq edilməsi haqqında müqavilədə, ABŞ ilə Azərbaycan arasında müdafiə və hərbi sahələrdəki gələcək münasibətlər haqqında birgə bəyanatda, Azərbaycan Respublikası və ABŞ arasında energetikanın inkişafı üzrə ikitərəfli dialoq yaradılması niyyətləri haqqında bəyanatda, layihələrin təşviqinə dair sazişdə əksini tapmış ölkələrarası qarşılıqlı münasibətlərin inkişaf istiqamətləri hər iki tərəfin maraqlarına tam uyğun idi. İmzalanan sənədlər iki ölkə arasında münasibətləri inkişaf etdirir və Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsinə kömək edirdi.

Azərbaycan qabaqcıl Qərb texnologiyasını tətbiq etməkdə və ABŞ iqtisadiyyatında inkişaf etmiş təcrübəni öyrənməkdə maraqlı idi. İmzalanan sənədlər Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmləndirilməsinə, milli təhlükəsizliyinin təmin olunmasına və sosial-iqtisadi tərəqqisinə yönəlmişdi. Şevron, Amoko və Mobil kimi tanınmış

Yenə orada.

Əliyev H.Ə. ABŞ-a rəsmi səfərin yekunları haqqında təyyarədə jurnalistlərə bəyanat. 6 avqust 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XI kitab, s.389.

neft şirkətləri ilə neft hasilatına dair bağlanmış dörd yeni saziş Azərbaycana sərmayə axınını gücləndirməklə yanaşı, iqtisadi əməkdaşlığın daha da genişləndirilməsinə imkan verirdi.

Nüfuzlu kütləvi informasiya vasitələrinə verilən müsahibələr ölkə haqqında həqiqətlərin yayılmasına kömək, ictimai rəyə təsir edir və ABŞ xarici siyasətində Azərbaycanın əhəmiyyəti artırırdı.

Səfər iki ölkə arasında münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəldirdi. Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Hafiz Paşayevin yazdığı kimi, bu səfər ABŞ - Azərbaycan münasibətlərini yeni strateji səviyyəyə qaldırmağa kömək edirdi"*^’. Tərəflər siyasi, təhlükəsizlik, iqtisadi və kommersiya sahələrində ikitərəfli fəaliyyəti gücləndirməklə iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi üçün geniş imkanlar qazanırdılar. Azərbaycan - ABŞ strateji tərəfdaşlığı iki ölkə çərçivəsindən çıxaraq Qafqaz və MDB məkanını əhatə edirdi. Bili Klintonun Azərbaycan Prezidentinin istəklərinə əməl etməsi düşmən Ermənistana və qonşu olan digər dövlətlərə neft siyasətinin gücünü bir daha göstərdi. Səfər nəticəsində Azərbaycan tərəfi ABŞ-ın siyasi, iqtisadi, beynəlxalq və humanitar dəstəyini qazandı. Birləşmiş Ştatlar Azərbaycanı geosiyasi maraqları zonasına daxil etdi. Səfər Azərbaycana münasibətdə ABŞ siyasətində dəyişikliyin zirvə nöqtəsi oldu. Məhz bu səfərdən sonra ABŞ Cənubi Qafqaz siyasətini dəyişdirdi. Heydər Əliyev ABŞ-ı Azərbaycan ilə əməkdaşlığın faydalı və zəruri olduğuna inandırdı. Heç əbəs deyildir ki, ABŞ politoloqu Zbiqnev Bjezinski Ukrayna, Cənubi Koreya, Türkiyə və İran ilə yanaşı Azərbaycanı da mühüm geosiyasi mərkəz rolunu oynayan ölkələr cərgəsinə aid edirdi^°°. Onun fikrincə, ərazisinin həcminin kiçik və əhalisinin sayının az olmasına baxmayaraq, Azərbaycan özünün nəhəng enerji ehtiyatları ilə həmçinin geosiyasi planda əsas əhəmiyyət daşıyır, o. Xəzər dənizi hövzəsinin və Orta Asiyanın sərvətlərini cəmləşdirən butulkada tıxacdır. Əgər Azərbaycan tamamilə Moskvaya tabe etdiriləcəksə, onda Orta Asiya dövlətlərinin müstəqilliyinə praktiki olaraq mənasız bir şey kimi baxmaq olar. Bu ölkənin müstəqilliyi ləğv olunarsa, onun özünün və xeyli çox neft ehtiyatları da Rusiyanın nəzarətinə tabe etdirilə bilər. Rusiyanın nəzarət etdiyi ərazilərdən keçməyən neft boru kəmərləri vasitəsi ilə Qərb bazarlarına birləşən müstəqil Azərbaycan qabaqcıl və enerji istehlak edən

^ Hafiz Pashayev. Azerbaijan - U.S. relations: from unjust sanctions to strategic partnership. - Azerbaijan in Global Politics: Crafting Foreign Policy, p. 114.

**B>Ke3HHCKHH** 3. BcjiHKaa nıaxMaxnan aocKa. focnoacTBO **AMepHKH H ero reocTparerHHecKHe HMnepaxHBbi,** c.56.

iqtisadiyyatını Orta Asiya respublikalarının enerji sərvətlərinə çıxarmaq üçün nəhəng magistral olar. Azərbaycanın və Orta Asiyanın gələcəyi, Ukrayna kimi ondan asılıdır ki, Rusiya nə ola bilər, nə ola bilməz^°'. Z.Bjezinski daha sonra yazırdı ki, müstəqil Azərbaycan Xəzər dənizinin və Orta Asiyanın zəngin enerji ehtiyatlarına çıxmaq üçün dəhliz ola bilər. Əksinə, tabe etdirilmiş Azərbaycan Orta Asiyanın xarici dünyadan təcrid edilməsi imkanı olar və Rusiya təzyiq etdikdə siyasi cəhətdən başını itirər^®^. Onun fikrincə, müstəqil Azərbaycan Rusiyanın regiona girişində inhisarının həyata keçirilməsinə mane ola bilər və beləliklə, onu Orta Asiyanın yeni dövlətlərinin siyasətinə başlıca siyasi təsir imkanlarından məhrum edərdi. Azərbaycanın şimaldan Rusiya və cənubdan İran ilə qonşu olması da ABŞ-m Azərbaycan siyasətinin formalaşmasına təsir edirdi. Z.Bjezinskinin yazdığı kimi, Azərbaycanın dolaşıq vəziyyətə düşməsinin region üçün xeyli çox nəticələri ola bilərdi, çünki bu ölkə mühüm geosiyasi dayaq məntəqələrindən birində yerləşirdi^®^.

Səfər başa çatdıqdan az sonra, avqustun 19-da Heydər Əliyev Bili Klintona məktub göndərərək Ermənistan - Azərbaycan münaqişəsinin iki mərhələdə həllinə razılıq verdiyini bildirdi. Buna görə, Azərbaycanın işğal olunmuş altı rayonu işğaldan azad edilməli, məcburi köçkünlər daimi yaşayış yerlərinə qayıtmalı, bütün kommunikasiyalar bərpa edilməli; Şuşa və Laçının azad edilməsi ilə yanaşı Dağlıq Qarabağın statusunun müzakirəsinə başlanılmalı idi.

Ümumiyyətlə, bu səfər zamanı ABŞ tərəfi xarici siyasət fəaliyyətində Azərbaycan dövlətinin əhəmiyyətini bir daha dərk etdi. Azərbaycan Respublikası geosiyasi mövqeyinə görə, mühüm dövlət idi; Mərkəzi Asiyaya gedən yolların kəsişməsində idi; Şərq ilə Qərbi birləşdirirdi; şimaldan Rusiya, cənubdan İran ilə qonşu idi. Belə bir mövqeyi olan ölkə ilə əməkdaşlıq ABŞ-ın strateji maraqlarına tam uyğun gəlirdi.

## Əməkdaşlıq genişlənir

Səfərdən sonra iki ölkə arasında işgüzar əməkdaşlıq genişləndirildi. 1997- ci il avqustun 20-də Azəriqızıl Dövlət Şirkəti ilə ABŞ-ın R.V.İnvestment qrup servises LLS şirkəti arasında əməkdaşlığa dair saziş im-

SO 1 Yenə orada, s.62.
502 Yenə orada, s.l46.
' Yenə orada, s.155.

zalandı. Məlum olduğu kimi, Azərbaycanın təbii sərvətləri yalnız neft və qazdan ibarət deyildi. Ancaq qızıl, gümüş və mis yataqlarının istifadə olunması məsələsində Azərbaycanın kifayət qədər təcrübəsi yox idi. Buna görə də ABŞ şirkəti ilə belə bir sazişin imzalanması məqsədəuyğun hesab edilirdi. İmzalanma mərasimində Azərbaycan Prezidenti Heydər Əliyev çıxış etdi. Onun fikrincə, sazişin imzalanması Azərbaycan iqtisadiyyatını inkişaf etdirmək və əhalinin rifah halını yaxşılaşdırmaq məqsədi gü- dürdü^®"*. Sazişə görə, Gədəbəy, Qoşa, Ordubad qrupu, Söyüdlü, Qızılbu- laq və Vəcnəli yataqlarından təxminən 400 ton qızıl, 2500 ton gümüş, 1,5 milyon ton mis hasil etmək nəzərdə tutulmuşdu. Müddəti 1,5 il olan bu sazişin həyata keçirilməsi üçün təxminən 500 milyon dollar sərmayə qoyulacaq, təxminən 10 min adam işə cəlb ediləcəkdi. Bunların 90%-i yerli əhalinin nümayəndələri olmalı idi. Sazişə əsasən Azərbaycan dövlət şirkətinin payı 51%, ABŞ şirkətinin payı isə 49% idi. Hasilatın pay bölgüsündə Azərbaycanın payı 80% nəzərdə tutulmuşdu. Saziş Azərbaycanın xarici sərmayələr üçün açıq olduğunu göstərir və iki ölkə arasında münasibətlərin maddi təməlini möhkəmləndirirdi.

Heydər Əliyevin ABŞ-a səfərindən sonra Azərbaycan tərəfi iki ölkə arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə dair proqram hazırladı. Azərbaycan Respublikasının Prezidenti 1997-ci il sentyabrın 2- də "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında part- nyorluq münasibətlərinin genişləndirilməsi tədbirləri haqqında" sərəncam imzaladı^"^ Bu sərəncamla iki ölkə arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə dair proqram təsdiq edildi. Respublika Nazirlər Kabineti, Xarici İşlər Nazirliyi və Milli Bank təsdiq olunmuş proqramda nəzərdə tutulan tədbirlərin icrasını təmin etməli və kvartalda bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat verməli idilər; müvafiq strukturlar Azərbaycan Respublikası ilə ABŞ arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin daha da genişlənməsini təmin etmək məqsədilə ABŞ-m müvafiq strukturları ilə dialoqu davam etdirməli idilər; ABŞ administrasiyası və konqresi ilə sıx əlaqə saxlayaraq 907-ci düzəlişin

Əliyev H.Ə. Azəriqızıl dövlət şirkəti ilə Amerikanın R.V.İnvestment qrup servises LLS şirkəti arasında sazişin imzalanması mərasimində çıxış. 20 avqust 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XII kitab, s.l5.

Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında partnyorluq münasibətlərinin genişləndirilməsi tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 2 sentyabr 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XII kitab, s.143-146.

aradan götürülməsini sürətləndirməyə xidmət edən tədbirlər həyata keçirməli idilər; Xarici İşlər Nazirliyi Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli məqsədilə ABŞ-a səfər zamanı aparılmış zirvə danışıqlarının nəticələri zəminində ABŞ, Rusiya və Fransanın Minsk qrupundakı nümayəndə heyətləri ilə danışıqları intensivləşdirməli idi; Xarici İşlər Nazirliyi, Müdafiə Nazirliyi və başqa əlaqədar nazirlik, idarə və təşkilatlar iki ölkə arasında təhlükəsizlik, silahlara nəzarət, müdafiə və s. sahələrdə, eləcə də Şimali Avroatlantika tərəfdaşlıq və NATO-nun Sülh naminə tərəfdaşlıq proqramları çərçivəsində əməkdaşlığın genişləndirilməsi üçün təkliflərini verməli idilər.

Lakin qarşılıqlı münasibətlərin inkişafı problemlərsiz də deyildi. Azərbaycan - ABŞ münasibətlərini pozmağa çalışan qüvvələr fəaliyyətlərini heç cür dayandırmırdılar. Belə ki. Heydər Əliyevin səfəri başa çatdıqdan sonra nümayəndələr palatasının üzvü Porter Prezident Bili Klintona bir məktub göndərdi. O, yenə də Dağlıq Qarabağ münaqişəsində Ermənistanı müdafiə edir və 907-ci düzəlişin qüvvədə saxlanılmasını istəyirdi. Cavab olaraq Bili Klinton ona məktub göndərdi^“. Bili Klintonun məktubu Heydər Əliyevin ABŞ-a səfərinə, 907-ci düzəlişə və Dağlıq Qarabağ münaqişəsinin həllinə olan münasibəti aydın göstərirdi. ABŞ Prezidenti yazırdı ki. Prezident Heydər Əliyevin səfəri iki ölkə arasında möhkəm münasibətlərin vacib olmasını və Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin zəruriliyini təsdiqləməyə bizə imkan verdi. Onun fikrincə, Qafqazın strateji mövqeyi və region ölkələrinin dinc, müstəqil və çiçəklənən dövlətlər kimi inkişafında ABŞ maraqlı olduğundan Birləşmiş Ştatlar Azərbaycan və regionun digər dövlətləri ilə münasibətləri möhkəmləndirmək üçün işləməli idi. Bili Klinton daha sonra Heydər Əliyev ilə danışıqlarda etdiyi qeydləri Porterin diqqətinə çatdırırdı. O, ATƏT-in Minsk qrupunun səyləri ilə Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinə sadiq olduqlarını demiş, münaqişədə iştirak edən bütün tərəflərdən çeviklik və güzəştlər tələb etmişdi. Bili Klinton Heydər Əliyevin Minsk qrupunun vasitəçiliyi ilə münaqişədə iştirak edən bütün tərəflərlə birbaşa görüşlər keçirməyə, erməni orduları çıxarıldıqdan sonra sərhədləri və kommunikasiyaları açmağa söz verməsini irəliyə doğru mühüm addım hesab edirdi.

Bili Kilnton məktubunda ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinin həllində səmimi və tərəfsiz olduğunu yazır, 907-ci düzəlişin regionda

’ ARXİNA. 1997. Qovluq XsS/I, v.13-14.

ABŞ siyasətinə. Dağlıq Qarabağ sülh prosesində Birləşmiş Ştatların ədalətli vasitəçilik roluna ziyan vurduğunu birbaşa vurğulayırdı. Eyni zamanda ABŞ-m beynəlxalq və özəl təşkilatlar vasitəsi ilə bütün Qafqazın, o cümlədən Dağlıq Qarabağın humanitar ehtiyaclarını ödəmək üçün işlədiyini qeyd edirdi.

Səfərdən bir müddət sonra, 1997-ci ilin noyabr ayında Dövlət Departamenti ABŞ-m Xəzər regionuna dair siyasətini bəyan etdi. Bu, əsasən dörd istiqamətdən ibarət idi: regional münaqişələrin həlli. Münaqişələrin həll edilməməsi İranın regiona müdaxiləsi, islamçı hərəkatların inkişafı üçün münasib şərait yaradırdı; dünyanın enerji təminatının artımı və genişlənməsi üçün Xəzər hövzəsi enerji ehtiyatlarının istismarı; Xəzər hövzəsi ölkələrinin müstəqilliyi və suverenliyi; İranın təcrid edilməsi^'".

Elə həmin ayda konqresin qəbul etdiyi qərara görə, ABŞ regionda aşağıdakı məsələləri həll etməli idi: demokratik hakimiyyət qurulmuş ölkələrin suverenliyini və müstəqilliyini dəstəkləməli idi; regional münaqişələrin tənzimlənməsinə fəal kömək etməli idi; region ölkələri ilə dostluq və iqtisadi əməkdaşlıq münasibətlərini qoruyub saxlamalı idi; azad bazar iqtisadiyyatı prinsiplərinin əməli surətdə həyata keçirilməsinə kömək etməli idi; nəqliyyat, kommunikasiya və energetika sahələri üçün zəruri infrastrukturu, eləcə də Qərb-Şərq ticarət dəhlizini inkişaf etdirməli idi; bununla da həmin ölkələrin bir-biri ilə və Avropa-Atlantika İttifaqına daxil olan sabit, demokratik, azad bazar iqtisadiyyatının hökm sürdüyü ölkələrlə daxili əlaqələri və kommersiya əlaqələrini möhkəmləndirməli idi; ABŞ-ın bu regionda işgüzar mənafelərini və sərmayə qoymasını təmin etməli idi.

Bunlar konkret vəzifələr idi. ABŞ tərəfi onların həyata keçirilməsi üçün səylərə başladı. Noyabr ayında Qafqaz və Orta Asiya respublikalarına səfər edən ABŞ-m enerji naziri Federiko Pena Bili Klintonun adından bölgə dövlətlərinin liderlərinə Transxəzər və Bakı - Ceyhan əsas ixrac neft boru kəmərinə münasibətlərini 1998-ci ilin oktyabrına qədər dəqiqləşdirməyi təklif etdi.

1998- ci il yanvarın 28-də ABŞ-dan Bakıya dövlət səviyyəsində ümumi dəyəri 2 milyon dollar olan humanitar yardım gətirildi. Bu, ciddi bir addım idi.

Həmin vaxtdan etibarən ABŞ-ın regionda hərbi-siyasi maraqları da genişlənməyə başladı. 1998-ci il oktyabrın 1-dən Azərbaycan, Gürcüstan

Nəsibli N. Azərbaycanın geopolitikası və neft, s. 65-66.

və Ermənistan ABŞ-ın Avropadakı qüvvələrinin komandanlığının cavabdehlik zonasına daxil edildi. Belə bir qərarın qəbul edilməsi ABŞ-ın region siyasətinin fəallaşdığını göstərirdi. Bunun da bir sıra səbəbləri var idi. Qeyd etmək lazımdır ki, 1998-ci ilin sonuna olan məlumata görə, ABŞ-ın neft şirkətləri Azərbaycana 1 milyard dollar sərmayə qoymuş- dular.^“

Azərbaycan, Gürcüstan, Türkiyə və Orta Asiya respublikaları 1998- ci ilin oktyabrına qədər Transxəzər və Bakı - Ceyhan əsas ixrac neft boru kəmərinə dair ABŞ-ın təklifini bəyəndilər. 1998-ci ilin oktyabrın sonlarında Bakı - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisi haqqında Ankara bəyannaməsi imzalandı. Sənədin imzalanması Azərbaycan - ABŞ əməkdaşlığının konkret nəticəsi idi. Bununla da iki ölkə arasında əməkdaşlığa yeni keyfiyyət halı verilirdi. Heç əbəs deyildir ki, 1998-ci il dekabrın 16-da Heydər Əliyev ABŞ Prezidentinin və dövlət katibinin xüsusi müşaviri səfir Riçard Morninqstarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən amerikalı diplomat Bakı - Ceyhan əsas ixrac neft kəmərinin tikintisini dönüş nöqtəsi adlandırdı^®^. Onun fikrincə, neftin nəqli ilə bağlı fərqli qiymətlər olduğundan kommersiya məsələlərinin işlənilməsi zərurəti yaranmışdı. Neftin nəqlində ABŞ və Türkiyənin təklif etdiyi qiymətlər bir-birinə yaxın idi. Ankara bəyannaməsi imzalandıqdan sonra dövlətlər məsələnin müzakirəsinin üçüncü mərhələsinə - layihənin reallaşdırılması mərhələsinə keçmişdilər. Amerikalı diplomat ölkəsinin Transxəzər layihəsini birmənalı olaraq dəstəklədiyini bildirdi.

Riçard Morninqstar 1999-cu il fevralın 22-də Azərbaycana yenidən səfər etdi. Bu, onun Azərbaycana beşinci səfəri idi. Riçard Morninqstar Azərbaycan Prezidentinə ABŞ-ın energetika naziri Bili Riçardsonun məktubunu təqdim etdi. Heydər Əliyev ilə R.Morninqstar arasında görüşdə əsasən üç məsələ müzakirə edildi. Birinci məsələ Türkmənistana bir neçə gün əvvəl etdiyi səfəri zamanı Türkmənistan ilə Pi-Es-Ci qrupu arasında Transxəzər boru xətti haqqında imzalanan sənəd haqqında idi. İkinci məsələ Türkmənistan ilə Azərbaycan arasında sərhəd məsələsində ABŞ-ın vasitəçilik səyləri barədə idi. Üçüncü məsələ Bakı - Ceyhan əsas

Quluzadə V. Gələcəyin üfüqləri, s. 38

Əliyev H.Ə. ABŞ Prezidentinin və dövlət katibinin xüsusi müşaviri səfir Riçard Morninqstarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə söhbət. 16 dekabr 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVIII kitab, s. 411-416.

İxrac neft boru kəməri layihəsi üzrə əldə edilən tərəqqi ilə bağlı idi^'°. Türkmənistan tərəfi Xəzər dənizinin dibi ilə çəkilməsi planlaşdırılan boru kəməri ilə qazın dünya bazarına çıxarılmasına razılığını bildirmişdi. Sərhəd məsələsində də Türkmənistan Prezidenti mövqeyində müəyyən mütərəqqi addım atmışdı.

Bütün bunlar iki ölkə arasında təhlükəsizliklə bağlı məsələləri ön plana çıxarırdı. Həmin məqsədlə 1999-cu ilin aprelin ayının əvvəllərində Azərbaycan ilə ABŞ arasında təhlükəsizliyə dair dialoqun növbəti mərhələsi keçirildi. Bu, iki ölkə arasında keçirilən sayca dördüncü məsləhətləşmə idi. Əvvəlki məsləhətləşmələr Vaşinqtonda və Bakıda keçirilmişdi. ABŞ nümayəndə heyətinin tərkibində Dövlət Departamentinin, Müdafiə Nazirliyinin, eləcə də Avropada yerləşən ordu hissələrinin nümayəndələri var idi. Nümayəndə heyətinin rəhbəri dövlət katibinin regional təhlükəsizlik məsələləri üzrə köməkçisinin müavini Robert M. Bikroft Azərbaycanın narahatlığım regionda qüvvələr tarazlığının pozulması ilə əlaqələndirdi. O, Rusiyanın Ermənistana qanunsuz silah satmasını bəyənmədiklərini, region ölkələri ilə sıx işləmək istədiklərini bildirərək yalnız bu halda "... Moskvanın mümkün fitnəkar aktlarına son qoyula bilər" dedi^*'. Amerikalı diplomat Azərbaycandakı səfirlikdə hərbi attaşenin təyin ediləcəyini qeyd etdi, neftin Qərb marşrutu ilə göndəriləcəyini mühüm hadisə kimi qiymətləndirdi və iki ölkə arasında münasibətlərə mane olan 907-ci düzəlişin ləğv edilməsi üçün sıx işləmək əzmində olduqlarını bildirdi.

Təhlükəsizlik sahəsində əməkdaşlıq məsələləri 1999-cu il aprelin 22-26-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin NATO-un 50 illik yubiley mərasimində iştirak etmək məqsədilə ABŞ-a səfəri zamanı Birləşmiş Ştatların görkəmli senatorları və ictimai-siyasi xadimləri ilə görüşündə də müzakirə edildi. Senatın büdcə komitəsinin sədri Pit Dominçi, silahlı qüvvələrə yardım komitəsinin sədri Con Uomer, kənd təsərrüfatı, ərzaq və meşəçilik komitəsinin sədri Fred Tompson, həmçinin senatorlar Ted Kokren, Pol Koverdell, ABŞ-m keçmiş dövlət

Əliyev H.Ə. ABŞ Prezidenti Bili Klintonun Xəzəryanı bölgə üzrə xüsusi nümayəndəsi Riçard Morninqstarla görüşdə söhbət. 22 fevral 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XIX kitab, s. 199-202.

Əliyev H.Ə. Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında təhlükəsizliyə dair dialoqun növbəti mərhələsində iştirak edən ABŞ nümayəndə heyəti ilə görüşdə söhbət. 10 aprel 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XIX kitab, s. 447-452.

katibi səfir Lourens İqlberger, görkəmli ictimai xadim Hovard Beyker və səfir Corc Krenvell Montqomerinin iştirak etdikləri görüşdə iki ölkə arasında münasibətlərin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı. Heydər Əliyev Ermənistanın hərbi təcavüzünün nəticələri haqqında danışaraq münaqişənin həllində ABŞ-ın fəal olmasım istədi^'^.

Azərbaycan Prezidenti aprelin 23-də ABŞ Hərbi Dəniz Akademiyasının kursantları qarşısında çıxış edərək dövlət müstəqilliyi bərpa edildikdən sonra keçilən yola nəzər yetirdi, iki ölkə arasında münasibətlərin mövcud vəziyyətinə, Ermənistanın təcavüzü və nəticələrinin aradan qaldırılması istiqamətində səylərə diqqəti yönəltdi, Azərbaycanın yeni neft strategiyasının mahiyyətini izah etdi, ordu və donanması haqqında danışdı.

Heydər Əliyev aprelin 24-də ABŞ Prezidenti Bili Klinton ilə görüşdü. Bili Klinton Qafqazda və Mərkəzi Asiya regionunda sülhün və sabitliyin bərqərar edilməsində Heydər Əliyevin xidmətlərini yüksək qiymətləndirdi, iki ölkə arasında qarşılıqlı faydalı əlaqələrin inkişaf etdirilməsindəki xidmətlərinə görə ona təşəkkür edərək dedi: “Siz bizə çox lazımsmız”^'^. Heydər Əliyev 907-ci düzəlişin ləğvi və Dağlıq Qarabağ münaqişəsinin həllinə yardım məsələlərini yenidən gündəliyə gətirdi. Bili Klinton münaqişənin həllinə kömək edəcəyinə vəd verdi, Azərbaycan ilə ABŞ arasında əməkdaşlığın davam etdirilməsinin vacibliyini bildirdi.

Azərbaycan Prezidenti həmin gün ABŞ-m keçmiş dövlət katibi Henri Kissincer ilə görüşərək Ermənistanın hərbi təcavüzünün nəticələri, Rusiyanın Ermənistana 1 milyard dollar məbləğində qanunsuz silah verməsi və Xəzər neftinin nəqli ilə bağlı məsələlər barədə fikirlərini bildirdi.

Aprelin 27-də ARDNŞ ilə ABŞ-ın Minkrift Oyl, Ekson və Mobil şirkətləri arasında üç neft müqaviləsinin və Azərbaycan Respublikası ilə ABŞ-ın Ticarət və İnkişaf Agentliyi arasında Bakıda ürək-damar xəstəliklərinin müalicəsi üzrə Maykl Debeyki və Heydər Əliyev adına mərkəzin tikintisinin texniki-iqtisadi əsaslarının hazırlanmasına dair müqavilə imzalandı. Mərasimdə ABŞ konqresmenləri, senatorları, hökumətin

Əliyev H.Ə. Amerika Birləşmiş Ştatlarının senatorları və görkəmli ictimai- siyasi xadimləri ilə görüşdəki söhbətdən. 22 aprel 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XX kitab, s.55-59.

Əliyev H.Ə. Amerika Birləşmiş Ştatlarının Prezidenti Bili Klinton ilə görüşdəki söhbətdən. 24 aprel 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XX kitab, s.77- 78.

yüksək rütbəli şəxsləri, işgüzar dairələrin nümayəndələri və kütləvi informasiya vasitələrinin təmsilçiləri iştirak edirdilər.

Səfər zamanı edilən müzakirələrin və imzalanan sənədlərin böyük əhəmiyyəti var idi. Bu, iki ölkə arasında münasibətlərdə təhlükəsizlik və enerji məsələlərinin ön plana çıxdığını, ABŞ-ın region siyasətində Azərbaycanın rolunun artdığını göstərirdi.

Birləşmiş Ştatlar regionda gerçəkləşdirilən layihələrlə daha yaxından maraqlanırdı. Bu baxımdan 1999-cu ilin avqust ayında ABŞ-m yeni müstəqil dövlətlərə yardım üzrə əlaqələndiricisi səfir Uilyam Teylorun rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri əhəmiyyətli oldu. Səfərdə başlıca məqsəd Cənubi Qafqaz ölkələri arasında hansı layihələrin həyata keçirilməsinin mümkünlüyünü öyrənmək idi. Uilyam Tey- lor həmin layihələri avqustun 13-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilə görüşdə təqdim etdi. ABŞ hökuməti Qafqaz forumunun keçirilməsi təklifini irəli sürürdü. Bu layihəyə Tbilisi və Yerevanda maraq göstərirdilər. U.Teylor Tbilisidə Azərbaycan, Gürcüstan və Ermənistan baş nazirlərinin görüşünün keçirilməsini təklif edirdi^"'. Azərbaycan Prezidenti isə üç Cənubi Qafqaz ölkəsinin əməkdaşlığını çətin hesab edirdi. Gürcüstan Azərbaycan ilə gözəl əlaqələr saxlayırdı, Ermənistanla da əməkdaşlığı geniş idi. Lakin Azərbaycanın bu prosesdə iştirakının bir sıra çətinlikləri var idi. Azərbaycan ilə Ermənistan arasında əməkdaşlıq mövcud deyildi. Bunun da səbəbi Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, işğalçılıq siyasəti və düşmənçiliyi idi. Heydər Əliyev hər hansı bir formal toplantının keçirilməsini qəbul etmirdi. Onun fikrincə, əməkdaşlığa mane olan amil, yəni Ermənistanın təcavüzü aradan qaldırılmalı və işğal edilmiş ərazilər azad edilməli idi. Buna görə də ABŞ hökumətinin təklif etdiyi Qafqaz forumunu keçirmək mümkün olmadı.

ABŞ energetika sahəsində Azərbaycan ilə əlaqələrini genişləndirirdi. Bu baxımdan energetika naziri Bili Riçardson başda olmaqla nümayəndə heyətinin avqustun 18-də Azərbaycana səfəri faydalı oldu. Nümayəndə heyətinin tərkibinə ABŞ Prezidentinin və dövlət katibinin xüsusi müşaviri Con Volf, ABŞ Ticarət və İnkişaf Agentliyinin direktoru Cozef Qrandmeyson və digər şəxslər daxil idilər. Nümayəndə heyətini qəbul edən Azərbaycan Prezidenti iki ölkə arasında əməkdaşlığa dair ən mühüm

Əliyev H.Ə. ABŞ-ın yeni müstəqil dövlətlərə yardım üzrə əlaqələndiricisi səfir Uilyam Teylorun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə söhbət. 13 sentyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXI kitab, s.360-373.

məsələləri, xüsusilə Xəzər dənizindən kənar sahələrdə əməkdaşlığın perspektivlərini müzakirə etdi^'^. Görüşdən sonra Azərbaycan hökuməti adından ARDNŞ ilə ABŞ hökuməti adından ABŞ-m Ticarət və İnkişaf Agentliyi arasında saziş imzalandı.

Bütün bunlar digər sahələrdə də əməkdaşlıq üçün imkanlar açırdı. Belə ki, 1999-cu il sentyabrın 28-də Vaşinqtonda Azərbaycan Respublikası hökuməti ilə Amerika Birləşmiş Ştatları hökuməti arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması və müdafiə sahəsində tədbirlər haqqında saziş imzalandı. Saziş 2000-ci il fevralın 8-də Azərbaycan Respublikası tərəfindən təsdiq edildi^'^.

Bu zaman tərəflər İstanbulda keçiriləcək ATƏT-in zirvə görüşünə hazırlaşırdılar. İki ölkə arasında əlaqələr inkişaf edirdi. İkitərəfli əlaqələri, Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması, Bakı - Ceyhan əsas ixrac neft boru kəməri, Avropada adi silahlar üzrə müqaviləyə dair məsələləri və s. müzakirə etmək üçün 1999-cu il oktyabrın 21-də ABŞ dövlət katibinin yeni müstəqil dövlətlər üzrə xüsusi köməkçisi Steven Sestanoviçin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfər etdi. Nümayəndə heyətini Heydər Əliyev qəbul etdi. Azərbaycan Prezidenti ABŞ-ın da həmsədr olduğu Minsk qrupunun Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində lazımi səviyyədə bir iş görə bilmədiyini, Minsk qrupunun zəif fəaliyyət göstərdiyini, Minsk qrupunun və onun həmsədrlərindən biri olan ABŞ-m işindən razı olmadığını, lakin son zamanlar ABŞ tərəfindən fəallığın artdığının hiss edildiyini vurğuladı^'^.

Steven Sestanoviç iki ölkə arasında ümumi mənafelərin ciddi təməllərə dayandığım bildirdi. Onun fikrincə, ümumi mənafelər müxtəlif sahələri əhatə edirdi. Burada söhbət əsasən neft hasilatı və diplomatiyadan gedirdi. ABŞ diplomatı iki ölkə arasında münasibətlərin İstanbulda keçiriləcək ATƏT-in zirvə görüşündə əksini tapmasını, Bakı - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinə dair işin möhkəm təməl üzərinə keçirilməsində ölkəsinin maraqlı olduğunu bildirdi. İstanbul zirvə görüşündə

Əliyev H.Ə. ABŞ-ın energetika naziri Bili Riçardsonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə söhbət. 18 avqust 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXI kitab, s.193-198.

Azərbaycan Respublikasının qanunvericilik toplusu. Bakı, 2000, İNo2 (509).
Əliyev H.Ə. ABŞ-ın dövlət katibinin yeni müstəqil dövlətlər üzrə xüsusi köməkçisi Stiven Sestanoviçin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə söhbət. 21 oktyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXII kitab, s. 335-341.

Avropada adi silahlar məsələsinə dair iş başa çatdırılacaq və müqavilə imzalanacaqdı. Steven Sestanoviçin fikrincə, bu, həm ABŞ, həm də Azərbaycanın mənafeyinə uyğun idi.

Müzakirə edilən məsələlər iki ölkə arasında münasibətlərdə fikir ümumiliyinin olduğunu göstərdi. Tərəflər daha qətiyyətli hərəkət etmək əzmini nümayiş etdirdilər.

Səfərdən az sonra, 1999-cu il oktyabrın 26-da ABŞ dövlət katibinin müavini Stroub Talbott başda olmaqla nümayəndə heyəti Azərbaycana səfər etdi. Heydər Əliyev ilə keçirilən görüşdə enerji məsələləri, iqtisadi əlaqələrin inkişaf etdirilməsi, xüsusən Bakı - Ceyhan əsas ixrac netl boru kəməri ilə əlaqədar işlərin görülməsi, Azərbaycanın və ABŞ-m bərabərhüquqlu üzvü olduqları beynəlxalq birliyə zaman keçdikcə töhfəsini verə biləcək siyasi təsisatların möhkəmləndirilməsi, regionda sülhün bərqərar olması, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla aradan qaldırılması sahəsində atılan addımlar və s. müzakirə edildi^'*. Bütün bunlar ATƏT üzvü olan ölkələrin dövlət başçılarının İstanbulda keçiriləcək zirvə görüşü ərəfəsində xüsusilə əhəmiyyətli idi.

İki ölkə arasında münasibətlərdə mühüm addımlardan biri ATƏT-in İstanbulda keçirilən zirvə görüşü çərçivəsində 1999-cu il noyabrın 19-da Heydər Əliyevin ABŞ Prezidenti Bili Klinton ilə görüşü oldu^'^. Bili Klinton Bakı - Ceyhan əsas ixrac neft boru. Transxəzər qaz kəmərlərinin tikintisinə dair imzalanan sənədləri yüksək qiymətləndirərək həmin kəmərlərin region dövlətlərinin suverenliyinin və müstəqilliyinin daha da möhkəmləndirilməsində mühüm rol oynayacağını və iqtisadi tərəqqisinə böyük töhfə verəcəyini bildirdi. Dağlıq Qarabağ münaqişəsinin dinc yolla aradan qaldırılması üçün Minsk qrupunun həmsədri kimi ABŞ-m səylərini daha da artıracağını qeyd etdi. Bili Klinton Bakı - Ceyhan və Transxəzər layihələrində ABŞ-m dörd başlıca məqsədinin olduğunu bildirdi: enerji ehtiyatlarının müdrikcəsinə istifadə edilməsi Xəzər ətrafında yeni müstəqillik qazanmış ölkələrin yeni istiqlaliyyətini bir daha möhkəmləndirərək onlara ayaq üstə möhkəm durmaqda və talelərini müəyyənləşdirməkdə yardım edəcəkdir. Bu vasitə ilə həm də Mərkəzi Asiya ilə Qərb arasında

Əliyev H.Ə. Amerika Birləşmiş Ştatları dövlət katibinin müavini Stroub Talbott başda olmaqla ABŞ nümayəndə heyəti ilə görüşdə söhbət. 26 oktyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXII kitab, s. 353 - 357.

Əliyev H.Ə. Amerika Birləşmiş Ştatlarının Prezidenti Bili Klinton ilə görüş- dəki söhbətdən. 19 noyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXIII kitab, s. 161-163.

ticarət və siyasət körpüsü salınacaqdır; bu boru kəmərlərinin inşası ilə həmin ölkələr siyasi rəqabətdənsə, iqtisadi və kommersiya əlaqələrindən daha çox qazanc əldə edə biləcəklərinə əmin olacaqlar; Xəzərin təbii sərvətləri ABŞ və digər iştirakçıların qlobal enerji təchizatını daha təhlükəsiz və daha rəngarəng edəcəkdir. Bütün dünya üçün təminat siyasəti olan bu boru kəmərləri enerji ehtiyatlarının bir nöqtədən deyil, müxtəlif boru kəmərləri vasitəsilə daşınmasına kömək edəcəkdir; ekoloji məsələ. Bosfor boğazının ekoloji təhlükəsinin qarşısı alınmalıdır^^”.

Qeyd etmək lazımdır ki, hələ 1995-ci ildən etibarən ABŞ Xəzər regionundakı enerji ehtiyatlarının dünya bazarlarına daşınması üçün müxtəlif boru kəmərlərinin qurulması fikrinin tərəfdarı kimi çıxış edirdi. Belə bir mövqenin İstanbuldakı görüşdə bir daha təsdiqlənməsinin böyük əhəmiyyəti var idi.

Məhz həmin zirvə görüşündən sonra ABŞ-m region siyasəti daha da fəallaşdı. 2000-ci ilin yanvar ayının ortalarında ABŞ-ın Azərbaycan, Gürcüstan, Ermənistan, Türkiyə və Qazaxıstandakı səfirləri. Moskvadakı səfirliyinin nümayəndələri, eləcə də Prezident Bili Klintonun Xəzər regionu üzrə nümayəndəsi səfir Con Vulf və yeni müstəqil dövlətlərə ABŞ yardımlarının əlaqələndiricisi Uilyam Teylor, Steven Sestanoviçin birinci müavini Ross Vilson və ABŞ-m müxtəlif dövlət orqanlarını təmsil edən 45-50 nəfərlik nümayəndə heyəti Azərbaycana səfər etdi. İqtisadi və kommersiya layihələrini və maraqlarını nəzərə alaraq ABŞ-m bu regionda yerləşən ayrı-ayrı dövlətlərdə təmsil olunmuş ticarət palatalarının prezidentləri də Bakıya gəldilər. Bu, Azərbaycana, Xəzər regionuna və Orta Asiyaya ABŞ hökumətinin verdiyi əhəmiyyəti göstərirdi. Onlar Bakıda bir toplantı keçirdilər. Toplantıda məqsəd Azərbaycanın Xəzər regionunun və Qafqaz bölgəsinin gələcək inkişafında mərkəz olduğunu, əhəmiyyətli rol oynadığını nəzərə alaraq ABŞ-m Xəzər regionuna dair siyasi, hərbi və digər strategiyalarının və siyasətlərinin daha düzgün müəyyənləşdirilməsi üçün fikir mübadiləsi aparmaq idi.

Azərbaycan Prezidenti Heydər Əliyev yanvarın 20-də nümayəndə heyətini qəbul etdi. Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələri müzakirə edildi. ABŞ tərəfi Bakı - Ceyhan əsas ixrac neft boru kəmərinin

Çırağan sarayında tarixi sənədlərin imzalanması mərasimi. ABŞ Prezidenti Bili Klintonun nitqi. - “Azərbaycan” qəzeti, Bakı, 1999, 24 noyabr.

və Transxəzər qaz boru kəmərinin tikintisinə dəstəyini bir daha bəyan etdi^^'. Görüşdən sonra səfirlərin görüşü keçirildi.

Səfərin yekununda, yanvarın 20-də iki ölkənin hökumətləri arasında iqtisadi islahatlara, azad bazar münasibətlərinə keçidə yardım və əməkdaşlıq üzrə Amerika Birləşmiş Ştatları ilə Azərbaycan Respublikası döv- lətlərarası ikitərəfli işçi qrupunun təşkilinə dair memorandum imzalandı. Memorandumun imzalanmasından bir gün sonra, yanvarın 21-də Amerika Ticarət Palatasının Bakıda ofisinin açılış mərasimi oldu. Palatanın fəaliyyətə başlaması qarşılıqlı münasibətlərin maddi təməlinin möhkəmləndirilməsində yeni bir addım kimi əhəmiyyətli olub, əməkdaşlığı genişləndirməyə yönəlmişdi.

Azərbaycan Prezidenti yanvarın 22-də ABŞ dövlət katibinin yeni müstəqillik qazanmış dövlətlər üzrə xüsusi müşaviri, geniş səlahiyyətli səfir Steven Sestanoviç və ATƏT-in Minsk qrupunun ABŞ tərəfindən həmsədri Kerri Kavanonu qəbul etdi. Görüşdə Minsk qrupunun yeni təkliflər üzərində işlədiyi barədə məlumat verildi^^^. ABŞ rəhbərliyi Azərbaycan və Ermənistan prezidentlərinin görüşünün keçirilməsinə çalışırdı. Azərbaycan tərəfi belə bir görüşün keçirilməsinə qarşı çıxmır, lakin onun nəticə verməsini daha vacib hesab edirdi.

İki ölkə arasında münasibətlərdə mühüm yeri Davosda keçirilən beynəlxalq iqtisadi forum zamanı, 2000-ci il yanvarın 29-30-da Heydər Əliyevin Bili Klinton və dövlət katibi Madlen Olbrayt ilə keçirdiyi görüş tutdu. Onlar ikitərəfli münasibətlərə və Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinə dair məsələləri daha geniş müzakirə etmək üçün yenidən görüşmək barədə razılığa gəldilər.

Bu baxımdan 2000-ci ilin fevral ayında Azərbaycan Prezidentinin ABŞ-a işgüzar səfəri zamanı ikitərəfli münasibətlərin inkişaf etdirilməsi, Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli. Xəzər dənizinin enerji ehtiyatlarından istifadə olunması, Bakı - Ceyhan əsas ixrac neft boru kəməri. Transxəzər qaz kəmərlərinin tikintisi. Azadlığa dəstək aktına edilən 907-ci düzəlişin ləğvi məsələsi danışıqların mərkəzi mövzularından oldu. Bakı - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisi ilə bağlı məsələlər artıq həll edilmişdi.

Əliyev H.Ə. Qafqaz və Xəzər regionu ölkələrində ABŞ-ın səfirləri, Amerikanın müxtəlif nazirliklərinin yüksək vəzifəli şəxsləri ilə görüşdə söhbət. 20 yanvar 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXIV kitab, s.227-243.

Əliyev H.Ə. Amerika Birləşmiş Ştatları nümayəndə heyəti ilə görüşdə söhbət. 22 yanvar 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXIV kitab, s. 253-259.

Lakin Gürcüstanın mövqeyində bəzi tərəddüdlər var idi. Gürcüstan rəhbərliyi neftin ixracı üçün tranzit xərcinin artırılmasını istəyirdi. Bu məsələnin həlli lazım idi.

Həmin məsələlər prinsipial olaraq fevralın 15-də Heydər Əliyevin ABŞ Prezidenti Bili Klinton ilə görüşündə müzakirə edildi. Danışıqlarda dövlət katibi Madlen Olbrayt, ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi Sendi Berger, ARDNŞ-in birinci vitse- prezidenti İlham Əliyev və Azərbaycanın ABŞ-dakı səfiri Hafiz Paşayev iştirak edirdilər. Bili Klinton Davosda Heydər Əliyev ilə keçirdiyi görüşü yüksək qiymətləndirdi. O, iki ölkə arasında strateji tərəfdaşlığa xüsusi əhəmiyyət verir, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli üçün Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa görüşlərini dəstəkləyir, Minsk qrupunun səylərinin artırılmasını vacib hesab edirdi. Bili Klinton Xəzər dənizinin Azərbaycan sektorundakı enerji ehtiyatlarının dünyanın qabaqcıl neft şirkətləri ilə birgə işlənilməsində Heydər Əliyevin liderliyində reallaşdırılan işləri tarixi hadisə adlandırdı.

Heydər Əliyev Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində fəaliyyətdən danışdı, Minsk qrupunda ABŞ-m həmsədr kimi səylərini artırmasını istədi. Xəzər dənizinin Azərbaycan sektorunda yataqların birgə işlənilməsində əməkdaşlığın əhəmiyyətini vurğuladı. Qeyd etmək lazımdır ki, bu zaman Azərbaycanda ABŞ-m 100-dən çox şirkəti işləyirdi.

Dövlət başçıları Transxəzər qaz boru kəmərinin tikintisinə və Azərbaycana qarşı qəbul edilmiş ədalətsiz 907-ci düzəlişin ləğvinə dair məsələləri müzakirə etdilər. Bili Klinton 907-ci düzəlişin əleyhinə idi. O, 907-ci düzəlişdən istisnalar təşkil edərək Azərbaycana yardımları artırmağa səylər edəcəyini bildirdi^^^.

Bakı - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisini özəl şirkətlər maliyyələşdirəcəkdilər. Görüşdən sonra ABŞ və Azərbaycan hökumətləri arasında birgə işçi qrupun təşkili haqqında memorandum imzalandı. Bu sənəd iki ökənin strateji tərəfdaşlığının inkişaf etdirilməsi üçün faydalı idi.

Azərbaycan Prezidenti ABŞ-ın energetika naziri Bili Riçardson ilə görüşərək əsasən Xəzər dənizinin Azərbaycan sektorundakı yataqların bir-

Əliyev H.Ə. Amerika Birləşmiş Ştatlarının Prezidenti Bili Klinton ilə gö- rüşdəki söhbətdən. 15 fevral 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXV kitab, s. 68-70.

gə işlənilməsi, neft və qazın dünya bazarına çıxarılması məsələlərini müzakirə etdi. Bili Riçardson 1998-ci ildə imzalanmış Ankara bəyannaməsinin, 1999-cu ilin noyabrında ABŞ Prezidenti Bili Klintonun iştirakı ilə Bakı - Ceyhan əsas ixrac neft boru kəməri haqqında sazişin imzalanmasını tarixi hadisə adlandırdı^^'".

ABŞ-m kənd təsərrüfatı naziri Dən Qlikman ilə Heydər Əliyevin görüşündə iki ölkə arasında aqrar sahədə əməkdaşlığın qurulması, ABŞ Eksimbankmm prezidenti Ceyms Harmon ilə görüşündə isə idxal-ixrac əməliyyatlarının genişləndirilməsi məsələləri müzakirə edildi.

Heydər Əliyev ABŞ-dakı Mərkəzi Asiya-Qafqaz İnstitutu və Cons Hopkins Universitetinin Pol Nitz adına beynəlxalq tədqiqatlar mərkəzinin təşkil etdiyi toplantıda etdiyi nitqində Azərbaycanın tarixi keçmişinə qısa nəzər yetirdi, dövlət müstəqilliyi bərpa edildikdən sonra üzləşdiyi problemlərdən, Ermənistanın hərbi təcavüzünün nəticələrindən, “Əsrin müqaviləsi”nin əhəmiyyətindən. Xəzər dənizinin hüquqi statusu haqqında məsələdən, ölkədə həyata keçirilən islahatlardan, Azərbaycana qarşı qəbul edilmiş ədalətsiz 907-ci düzəlişin ləğvinin zəruriliyindən danışdı. Sonra suallara cavab verdi^^^.

Həmin gün Heydər Əliyev ABŞ-m MDB məsələlərinə dair xüsusi tapşırıqlar üzrə səfiri Stiven Sestanoviç, ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Keri Kavano və ABŞ-ın Azərbaycana yeni təyin olunmuş səfiri Ross Vilson ilə görüşdü. Onlar Bili Klintonun Heydər Əliyev ilə keçirdiyi görüşü fövqəladə əhəmiyyətli və faydalı bir görüş adlandırdığını Azərbaycan Prezidentinin diqqətinə çatdırdılar. Stiven Sestanoviç 907-ci düzəlişin istisnalarla Azərbaycana yardımlar edilməsi üçün bəzi nailiyyətlər əldə olunduğunu bildirdi^^^.

Heydər Əliyevin ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə keçmiş müşaviri Zbiqnev Bjezinski ilə görüşündə Birləşmiş Ştatların

Əliyev H.Ə. Amerika Birləşmiş Ştatlarının energetika naziri Bili Riçardson ilə görüşdə söhbət. 15 fevral 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXV kitab, s. 74-75.

Əliyev H.Ə. Cons Hopkins Universitetində görüş. 15 fevral 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXV kitab, s. 80-108.

Əliyev H.Ə. Amerika Birləşmiş Ştatlarının MDB məsələlərinə dair xüsusi tapşırıqlar üzrə səfiri Stiven Sestanoviç, ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Kerri Kavano və ABŞ-ın Azərbaycana yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ross Vilson ilə görüşdə söhbət. 15 fevral 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXV kitab, s. 109-111.

müdafiə, energetika nazirləri və Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru vəzifələrində işləmiş Ceyms Şlezinqer, kəşfiyyat, ən əvvəl peyk vasitəsilə kəşfiyyat məsələləri ilə məşğul olan Federal Təhlükəsizlik Agentliyinin direktoru, son illərdə Hudzon İnstitutu yanında milli təhlükəsizlik tədqiqatları mərkəzinin direktoru vəzifələrində çalışmış Yel Universitetinin professoru general-leytenant Uilyam Odom, Zbiqnev Bjezinskinin oğlu Mark Bjezinski, ARDNŞ-in birinci vitse-prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin deputatı İlham Əliyev iştirak edirdilər. Görüşdə Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli, Bakı - Ceyhan əsas ixrac neft boru kəmərinin və Transxəzər qaz boru kəmərinin tikintisi məsələləri müzakirə edildi^^'.

Keçirilən müzakirələr nəticəsini çox da gözlətmədi. Heydər Əliyevin səfəri davam edərkən, fevralın 15-də Madlen Olbrayt konqresdə etdiyi çıxışında 907-ci düzəlişin iki ölkə arasında münasibətlərə mənfi təsir etdiyini vurğuladı.

Heydər Əliyev ABŞ konqresinin üzvü Karen Makkafı və səfir Ri- çard Armitac ilə görüşdü. Həmçinin "Vaşinqton Post" və "Nyu York Tayms" qəzetlərinin redaksiyalarında olaraq geniş müsahibələr verdi.

Səfər zamanı, fevralın 16-da Heydər Əliyevin ABŞ dövlət katibi Madlen Olbrayt ilə telefon danışığı oldu. Söhbətdə Dağlıq Qarabağ münaqişəsi, Xəzər dənizinin enerji ehtiyatlarından istifadə, çoxşaxəli boru kəmərləri, Bakı - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisi. Transxəzər qaz kəməri, regional təhlükəsizlik, iki ölkə arasında strateji tərəfdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı^^*. Azərbaycan və ABŞ enerji ehtiyatlarından istifadənin regional təhlükəsizlikdən ayrı olmadığı qənaətində idilər.

Heydər Əliyevin ABŞ-m müdafiə naziri Uilyam Kohen ilə fevralın 24- də keçirilən görüşündə iki ölkə arasında strateji tərəfdaşlıq münasibətləri, 907-ci düzəlişin ləğvi və s. məsələlər müzakirə edildi. Uilyam Kohen "Azərbaycan Respublikası hökuməti və Amerika Birləşmiş Ştatları hökuməti arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının

Əliyev H.Ə. Amerika Birləşmiş Ştatları Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə keçmiş müşaviri, görkəmli siyasi xadim Zbiqnev Bjezinski ilə görüşdəki söhbətdən. 15 fevral 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXV kitab, s. 112-113.

Əliyev H.Ə. Amerika Birləşmiş Ştatlarının dövlət katibi xanım Madlen Olbrayt arasında telefon danışığı. 16 fevral 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXV kitab, s. 137-138.

alınması və müdafiə sahəsində tədbirlər haqqında" sənədin qəbulunu müsbət qiymətləndirdi, təhlükəsizlik sahəsində əməkdaşlığın genişləndirilməsi üçün imkanlar açıldığını qeyd etdi. O, 907-ci düzəlişin ləğvi üçün konqres qarşısında məsələ qaldıracağını dedi^^^. Qeyd etmək lazımdır ki, səfərin gedişində ABŞ tərəfi 907-ci əlavənin bir neçə hissəsini artıq zəiflətmişdi.

Səfər çərçivəsində Heydər Əliyev Vaşinqtonda Azərbaycan Respublikasının ABŞ-dakı səfirliyi üçün alınması nəzərdə tutulan bina ilə tanış oldu. 1949-cu ildə tikilmiş və 1980-ci illərin ortalarında əsaslı surətdə yenidən qurulmuş bu bina səfirliyin ehtiyacını tam ödəyə bilərdi. Sahəsi 1300 kvadratmetrdən çox olan mülk Vaşinqtonun ən görkəmli yerində idi. Bu rayonda ABŞ vitse-prezidentinin iqamətgahı. Böyük Britaniya, Vatikan, Belçika, Finlandiya və Norveç səfirlikləri yerləşirdi.

Azərbaycan Respublikası Prezidentinin ABŞ-a səfəri fevralın 25-də başa çatdı. Səfər uğurlu olmuşdu. Danışıqların böyük əhəmiyyəti var idi. İki ölkə arasında münasibətlərə dair ən mühüm məsələlər müzakirə edilmişdi. Müzakirə edilən məsələlərə yanaşmada tərəflər arasında fikir ümumiliyi mövcud idi. Səfər və keçirilən danışıqlar iki ölkə arasında münasibətlərdə yeni bir səhifə açırdı. Azərbaycan Prezidenti həmin gün Bili Klintona göndərdiyi məktubunda keçirdiyi görüşlərin və aparılan danışıqların böyük əhəmiyyət daşıdığını, iki ölkə arasında əməkdaşlığın geniş perspektivləri olduğunu vurğuladı^^°.

## Təhlükəsizlik məsələləri önə çıxır. ABŞ fəallığını arhrır

Səfərdən sonra iki ölkə arasında əlaqələrin genişləndirilməsi üçün bir sıra tədbirlər həyata keçirildi. 2000-ci il martın 3-də ABŞ Ticarət Nazirliyinin yeni müstəqil dövlətlər üzrə müşaviri, enerji məsələləri üzrə səlahiyyətli şəxs Yan Kalitskinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfər etdi. Səfərdə məqsəd əməkdaşlığın geniş perspektivlərini müəyyənləşdirmək və inkişaf etdirmək idi. Heydər Əliyev ilə keçirilən görüşdə əsasən üç məsələ müzakirə edildi: iqtisadiyyat; neft və qazın

® Əliyev H.Ə. Amerika Birləşmiş Ştatlarının müdafiə naziri Uilyam Kohen ilə görüşdəki söhbətdən. 24 fevral 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXV kitab, s. 166-167.

Əliyev H.Ə. Amerika Birləşmiş Ştatlarının Prezidenti Bili Klintona. 25 fevral 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXV kitab, s. 174-176.

nəqli; Qafqazda iqtisadi-siyasi şərait və perspektivləri^^'. Müzakirə edilən məsələlərə dair tərəflərin mövqeləri eyni idi.

Bu səfərdən bir gün sonra, martın 4-də ABŞ Hərbi Kollecinin nümayəndə heyəti Azərbaycana səfər etdi. Nümayəndə heyətinin tərkibinə ABŞ hərbi donanmasının və hərbi hava qüvvələrinin təmsilçiləri daxil idi. Heyətin tərkibində olan zabitlər milli təhlükəsizlik və müdafiə strategiyasını öyrənirdilər. Tədris proqramının xeyli hissəsi müxtəlif ölkələrə səyahətdə keçən zabitlər həmin ölkələrin liderləri ilə görüşərək təhlükəsizlik və müdafiə məsələlərini müzakirə edirdilər. Onlar Azərbaycanın regiondakı strateji əhəmiyyəti haqqında məlumatlar almaq istəyirdilər. Azərbaycan ABŞ üçün strateji maraqları baxımından vacib ölkə idi.

Nümayəndə heyəti Azərbaycanın müvafiq strukturlarında görüşlər keçirdi. Azərbaycan Prezidenti görüşdə Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin dinc yolla aradan qaldırılması səyləri, Rusiyanın Cənubi Qafqazda rolunu davam etdirmək arzusu barədə sualı cavablandırdı, ölkəsinin problemləri və qarşısında duran vəzifələr barədə danışdı

Azərbaycan Prezidenti 2000-ci il mayın 9-da ABŞ Dövlət Departamentinin regional münaqişələr üzrə xüsusi nümayəndəsi Keri Kavano və onu müşayiət edən şəxsləri qəbul etdi. Görüşdə əsasən Dağlıq Qarabağ münaqişəsinin həlli yolları müzakirə olundu^^^. Qeyd etmək lazımdır ki, səfərin məhz o zaman edilməsi səbəbsiz deyildi. Çünki səfərdən bir həftə sonra Minsk qrupunun həmsədrləri görüşəcək, iyun ayında isə Bili Klin- ton Moskvaya səfər edəcəkdi. Azərbaycanda keçirilən müzakirələr Minsk qrupu həmsədrlərinin və Bili Klintonun danışıqlarına hazırlıq məqsədi daşıyırdı. Azərbaycan Prezidenti münaqişənin həllinin uzanmasının sülhə

Əliyev H.Ə. Amerika Birləşmiş Ştatları Ticarət Nazirliyinin yeni müstəqil dövlətlər üzrə müşaviri, enerji məsələləri üzrə səlahiyyətli şəxs Yan Kalitskinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə söhbət. 3 mart 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXV kitab, s. 243-248.

Əliyev H.Ə. Amerika Birləşmiş Ştatları Hərbi Kollecinin nümayəndə heyəti ilə görüşdə söhbət. 4 mart 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXV kitab, s. 296-309.

Əliyev H.Ə. Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin regional münaqişələr üzrə xüsusi nümayəndəsi səfir Keri Kavano və onu müşayiət edən şəxslərlə görüşdə söhbət. 9 may 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXVII kitab, s. 112-120.

xidmət etmədiyini, Minsk qrupunun həmsədrlərinin fəaliyyətinin zəif olduğunu qeyd etdi.

Həmin səfərdən bir neçə gün sonra, mayın 11-də Heydər Əliyev ABŞ Dövlət Departamentinin yeni müstəqillik qazanmış dövlətlərə yardım üzrə əlaqələndiricisi Uilyam Teylorun başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi^^". Görüşdə əsasən iki ölkə arasında yardım sahəsində əməkdaşlıq məsələləri müzakirə edildi. Səfərin yekununda Azərbaycan Respublikası hökuməti ilə ABŞ hökuməti arasında yardım edilməsinin asanlaşdırılmasına dair əməkdaşlıq haqqında saziş və qrant sazişi imzalandı.

Qarşılıqlı münasibətlərdə növbəti addım 2000-ci ilin iyun ayında Azərbaycan Respublikasının müdafiə naziri Səfər Əbiyevin ABŞ-a səfəri oldu. O, müdafiə naziri Uilyam Kohen ilə görüşərək hərbi əməkdaşlıq məsələlərini müzakirə etdi. Səfərin yekununda, iyunun 30-da iki ölkə arasında müdafiə və hərbi sahələrdə əməkdaşlıq haqqında birgə bəyanat, avqustun 2-də isə minadan təmizləmə təliminə dair anlaşma memorandumu imzalandı.

Bu zaman Azərbaycanda parlament seçkilərinə hazırlıq gedirdi. ABŞ hökumətini noyabr ayında parlamentə keçiriləcək seçkilərdən sonra Azərbaycan xarici siyasətində Birləşmiş Ştatlara münasibətdə dəyişikliyin olub-olmayacağı, enerji sahəsində əməkdaşlıq, terrorizm əleyhinə mübarizədə, təhlükəsizlik sahəsində əməkdaşlıq məsələlərinin davam edib- etməyəcəyi maraqlandırırdı. Bu məqsədlə oktyabrın 31-də ABŞ dövlət katibinin MDB ölkələri üzrə xüsusi müşaviri Stiven Sestanoviç və ATƏT- in Minsk qrupunun ABŞ tərəfindən həmsədri Keri Kavano Azərbaycana səfər etdilər. Azərbaycan Prezidenti ilə keçirilən görüşdə Azərbaycanın xarici siyasətinin dəyişilməyəcəyi bir daha təsdiqləndi^^^.

Təhlükəsizlik sahəsində əməkdaşlığa xüsusi diqqət yetirildiyindən 2000- ci ilin noyabr ayında ABŞ baş qərargah rəisinin müavini general Riçard Mayerz və müdafiə nazirinin müavini Valler Lokombe başda

" Əliyev H.Ə. Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin yeni müstəqillik qazanmış dövlətlərə yardım üzrə əlaqələndiricisi səfir Uilyam Teylorun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə söhbət. 11 may 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXVII kitab, s. 136-145.

Əliyev H.Ə. Amerika Birləşmiş Ştatları dövlət katibinin MDB ölkələri üzrə xüsusi müşaviri, səfir Stiven Sestanoviç, ATƏT-in Minsk qrupunun ABŞ tərəfindən həmsədri, səfir Keri Kavano və onları müşayiət edən şəxslərlə görüşdə söhbət. 31 oktyabr 2000-ci il. — Müstəqilliyimiz əbədidir. XXX kitab, s. 327-334. 

olmaqla nümayəndə heyəti Azərbaycan Respublikasına səfər edərək təhlükəsizlik məsələlərini müzakirə etdi^^^.

İki ölkə arasında münasibətlərin intensivliyi 2001-ci ildə də qorunub saxlanıldı. Həmin ilin martın 22-də səfir Hafiz Paşayev ABŞ Müdafiə Nazirliyinin Strategiya və Təhlükələrin azaldılması ofisinin Rusiya, Ukrayna və Avrasiya üzrə müdiri C.Starr ilə görüşdü^^^.Görüşdə səfirliyin müşaviri Elmar Məmmədyarov, hərbi attaşe polkovnik D.Məmmədov, ABŞ Müdafiə Nazirliyinin Strategiya və Təhlükələrin azaldılması ofisinin Rusiya, Ukrayna və Avrasiya ofisində kurator polkovnik R.Çappa iştirak edirdilər. Əvvəlcə Pentaqon nümayəndələri Dağlıq Qarabağ münaqişəsi üzrə keçirilən müzakirələr ilə, o cümlədən ABŞ-ın Ki Vest şəhərində aprel ayında keçiriləcək danışıqlara hazırlıqla maraqlandılar. Ki Vest danışıqlarında ABŞ nümayəndə heyətinin tərkibində Pentaqonun hərbi mütəxəssisləri, həmçinin R.Çappa iştirak edəcəkdi. Danışıqlarda onun rolu təhlükəsizlik, hərbi məsələlər və sülhməramlı tədbirlərlə bağlı hər hansı işlərin görülməsinin planlaşdırılmasma dair tövsiyələr vermək idi.

Azərbaycan səfiri iki ölkə arasında hərbi əməkdaşlığın inkişafını qeyd etdi. ABŞ-m keçmiş müdafiə naziri Uilyam Kohen və Səfər Əbiyev arasında danışıqları xatırladı. Danışıqlarda əldə edilmiş razılaşmalara toxundu. İmzalanmış birgə bəyanatda hərbi əməkdaşlığın istiqamətləri üzərində dayandı. Qəbul edilmiş planın yerinə yetirilməsinə toxundu. Məhz həmin məqsədlə Avropadakı ABŞ qoşunları komandanının birinci müavini general Kariton Fulford Azərbaycanda səfərdə olmuşdu. Azərbaycan tərəfi müdafiə məqsədləri üçün ikitərəfli işçi qrupunun təşkilini faydalı hesab edirdi. Artıq ABŞ-m Avropadakı ordularının yeni komandanı general C.Ralstonun səfəri üçün dəvət də göndərilmişdi.

C.Starr müdafiə nazirinin birinci müavini vəzifəsinə P.Vulfoviçin təyin olunduğunu deyərək, Azərbaycan səfirinə bir neçə gündən sonra onunla görüşməyi təklif etdi. P.Vulfoviç Qafqaz və Mərkəzi Asiya regionuna yaxşı bələd olan bir şəxs idi. C.Ralston da Azərbaycan ilə əməkdaşlığa xüsusi əhəmiyyət verirdi. C.Starr işçi qrupun iclaslarını keçirmək üçün Azərbaycana səfər edəcəkdi.

Cörüşdə 907-ci düzəlişin iki ölkə arasında əməkdaşlığa mane olduğu bildirildi, Azərbaycanın ABŞ Beynəlxalq hərbi təhsil və təlim proq-

[536] Azərbaycan Prezidenti Heydər Əliyev ABŞ nümayəndə heyətini qəbul etmişdir. - "Azərbaycan" qəzeti, Bakı, 2000, 15 noyabr.
ARXİNA.2001. Qovluq Jfo 6, v. 241-244.

ramına cəlb edilməsi üçün Pentaqon tərəfindən yollar axtarılması xahiş edildi. Azərbaycan səfiri ABŞ ali hərbi məktəblərində azərbaycanlı zabitlərin təhsil alması məsələsini qaldırdı. Beynəlxalq hərbi təhsil və təlim proqramı üzrə Azərbaycan silahlı qüvvələrinin zabitlərinin ABŞ-ın hərbi təhsil məktəblərində təhsil almasının 907-ci düzəliş çərçivəsində həyata keçirilməsinin mümkünlüyü məsələsi Pentaqon hüquqşünasları tərəfindən razılaşdırılmış və Dövlət Departamentinə təqdim edilmişdi. Lakin Pentaqonun səylərinə baxmayaraq, Dövlət Departamenti həmin proqrama Azərbaycanın cəlb edilməsinin mümkünsüzlüyünü bildirmişdi.

Azərbaycan sülhməramlı fəaliyyət sahəsində inkişafın artırılmasını istəyirdi. ABŞ hərbi məktəblərində və təlim mərkəzlərində sülhməramlı fəaliyyət sahəsində Azərbaycan zabitlərinin təhsil almaları və hazırlığına kömək göstərilməsində Birləşmiş Ştatların köməyinə ehtiyac duyulurdu. Vaşinqton Cənubi Qafqaz ölkələrinin sülhməramlı qüvvələrinin gücünün artırılması məqsədi ilə region ölkələrinin hər birindən on nəfər zabitin ABŞ hərbi məktəblərində təlim keçməsi üçün 5 milyon dollar ayırmağı planlaşdırırdı. Həmin kursların müddətinin bir il olması nəzərdə tutulmuşdu. Onlar əvvəlcə Marşal mərkəzində ingilis dili, sonra isə hərbi təlim mərkəzlərində kurslar keçəcəkdilər. Azərbaycan müdafiə nazirinin ABŞ-a səfəri zamanı irəli sürülmüş üç təklifdən - ictimaiyyətlə əlaqə, hərbi məhkəmə sistemi və parlamentlə əlaqə ofisi yaradılmasından artıq ikisi üzrə müəyyən tədbirlər həyata keçirilmişdi. Azərbaycan və ABŞ Türkiyə vasitəsi ilə regionda birgə əməkdaşlığın dərinləşdirilməsi niyyətində idilər.

Hafiz Paşayev Xəzər regionunda həyata keçirilən vacib işlər, neft- qaz ehtiyatlarının təhlükəsizliyi, daşınması və infrastrukturunun mühafizəsinin prioritet məsələ olduğunu və ABŞ-ın köməyinə ehtiyac duyulduğunu bildirdi.

Bu məsələlər üzrə Dövlət Departamenti və Pentaqon qanunvericilik aktının layihəsi üzərində iş aparırdı. Həmin layihə kəmərlərin təhlükəsizliyinin təmin edilməsi sahəsində birbaşa yardım edilməsi, çevik hərəkət qüvvələrinin yaradılması və onların təlimi ilə bağlı tədbirləri həyata keçirməyə imkan verəcəkdi.

Daha sonra tərəflər kütləvi qırğın silahlarının yayılmaması məqsədi ilə sərhədlərə nəzarət sahəsində əməkdaşlıq məsələlərini müzakirə etdilər. Bu zaman ABŞ tərəfinin Azərbaycan üçün ayırdığı iki patrul katerinin quraşdırılması artıq başa çatmışdı. Pentaqon nümayəndələri bunun kifayət etmədiyini başa düşürdülər. Ona görə də həmin məsələ ABŞ sahil mühafizə qoşunlarının nümayəndələri ilə müzakirə ediləcəkdi.

Görüşdə ABŞ - GÖUAM əməkdaşlığının möhkəmləndirilməsi, birgə təlimlərin keçirilməsi, GÖUAM ölkələrinin birgə sülhməramlı taborunun yaradılmasına ABŞ-ın dəstəyi məsələləri müzakirə edildi.Bu müzakirələr əhəmiyyətli olub, qarşılıqlı münasibətlərin inkişafının istiqamətlərini və tərəflərin istəklərini aydın göstərirdi.

Artıq qeyd edildiyi kimi, ABŞ hökuməti bu zaman Azərbaycan və Ermənistan prezidentlərinin görüşünün keçirilməsi təşəbbüsü ilə çıxış etmişdi. Tərəflər həmin təkliflə razılaşmışdılar. 2001-ci il aprelin 3-7-də ABŞ-m Florida ştatının Ki Vest şəhərində ATƏT-in himayəsi və ABŞ dövlət katibi Kolin Pauellin iştirakı ilə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli yollarının araşdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Ermənistan Prezidenti Robert Ko- çaryan arasında görüş keçirildi. Ərazi mübadiləsi məsələsi müzakirə edildi. Lakin razılıq əldə olunmadı.

Səfərin gedişində, aprelin 9-da Heydər Əliyev ABŞ Prezidenti Corc Buş^^* ilə görüşərək Azadlığı müdafiə aktına 907-ci düzəlişin ləğvi. Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli və Xəzərin enerji ehtiyatlarının istifadəsi məsələlərini müzakirə etdi. Corc Buş münaqişənin dinc yolla həllinin vacibliyini vurğuladı^^^.

Bu zaman ABŞ-ı maraqlandıran məsələlərdən biri boru kəmərlərinin təhlükəsizliyinin qorunması idi. Həmin məsələ aprelin 15-16-da senator R.Şelbinin başçılığı ilə ABŞ konqresi nümayəndə heyətinin Bakıya səfəri zamanı müzakirə edildi. Heydər Əliyev ilə görüşdə 907-ci düzəlişin münasibətlərin inkişafına mane olduğu qeyd edildi, boru kəmərlərinin təhlükəsizliyinin təmin edilməsi, terrorizmə qarşı mübarizə və s. məsələlər haqqında fikir mübadiləsi aparıldı. Boru kəmərlərinin qorunması dünyadakı təhlükəsizliyin vacib elementi kimi qiymətləndirildi və bu sahədə əməkdaşlığın əhəmiyyətli olacağı bildirildi. Azərbaycan Prezidenti Ermənistanın təcavüzünə son qoyulması üçün ABŞ-ın güclü təsir etməsinin vacibliyini vurğuladı^"®.

Corc Buş (1946)-ABŞ Prezidenti (2001-2004, 2004-2008).

Azərbaycan Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buş ilə görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 370-372.

Azərbaycan Prezidenti Heydər Əliyev ABŞ senatının nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. 1 hissə, s. 380-385.

Qeyd edildiyi kimi, hələ 2001-ci ilin əvvəllərində ABŞ Prezidenti Corc Buş vitse-prezident Riçard Çeyninin rəhbərliyi altında ABŞ-ın enerji siyasətinə dair doktrinam hazırlamaq üçün işçi qrupu yaratmışdı. İşçi qrupu müvafiq sənədi hazırlayaraq may ayında təqdim etmişdi. Sənəddə Xəzər regionuna, o cümlədən Azərbaycana xüsusi yer ayrılmışdı^'". Burada Bakı - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisi müdafiə edilir. Xəzər dənizinin Azərbaycan sektorundan hasil ediləcək qazın alınması tövsiyə olunurdu. Ümumiyyətlə, Corc Buş doktrinasının dörd müəyyən- edici təməli var idi: demokratiyanın yayılması; müharibələrin qarşısının alınması; təkqütblü dünya və ABŞ-ın hegemonluğu^'*^. Bütün bunlar dünya siyasətində ABŞ-ın lider rolunun möhkəmləndirilməsinə xidmət edirdi. Həmin strategiyada enerji ehtiyatları mühüm yer tuturdu. ABŞ hökuməti enerji mənbələrinin istismarı və təhlükəsizlik məsələlərini daim əlaqələndirirdi. Bu baxımdan 2001-ci il iyunun 5-7-də ABŞ-ın Xəzər hövzəsində enerji siyasəti üzrə baş müşaviri Stiven Mənnin rəhbərliyi altında nümayəndə heyətinin Bakıda keçirilən Xəzər neft-qaz sərgisində və konfransında iştirakı, avqust ayında isə Azərbaycan nümayəndə heyətinin təhlükəsizlik məsələlərinin tədqiqi üzrə C.Marşal mərkəzi tərəfindən Almaniyada təşkil edilən "Müdafiə iqtisadiyyatı və dövləf' mövzusunda seminarda^'*^ iştirakı, avqustun 26-da iki ölkə arasında qrant sazişinin imzalanması enerji və təhlükəsizlik sahəsində əməkdaşlıqda əhəmiyyətli rol oynadı.

## Azərbaycan - ABŞ münasibətlərində yeni keyfiyyət mərhələsi

ABŞ-da 2001-ci il sentyabrın 11-də dünyanı dəyişən bir hadisə baş verdi. Əl Qaedə terrorçuları tərəfindən qaçırılan təyyarələr ilə Nyu Yorkda Dünya Ticarət Mərkəzinin dağıdılması və Vaşinqtonda Pentaqon binasının vurulması dünyanı silkələdi. Bu hadisəyə qədər əgər hərbçilər ABŞ- ın müdafiəsi haqqında həyəcanla danışırdılarsa, ondan sonra geniş təbəqə-

Prezident Corc Buş ABŞ hökumətinin milli enerji siyasətinə dair doktrinasını açıqlamışdır. - "Azərbaycan" qəzeti, Bakı, 2001,20 may.

Martin Griffiths, Terry O'Callaghan and Steven C.Roach. International Relations. The key consepts. London and New York, Rautledge Taylor and Francis Group, 2008, p.25.

ARXİNA. 2001. Qovluq Xs 6, v. 1.

lər də həqiqəti dərk etdilər. Terror aktlarının törədilməsi təsadüfi deyildi. Onlar uzun illər boyu həll edilməyən Yaxın Şərq problemi ilə sıx bağlı idi. Bu, təkcə ABŞ-m deyil, bütün dünyanın siyasi həyatına, beynəlxalq münasibətlərə ciddi təsir edən hadisə oldu. Bundan sonra dünyada sülh və təhlükəsizliyə, terrora qarşı mübarizəyə, dünya quruluşuna baxış dəyişdi. Dünyanın özündə və beynəlxalq münasibətlərdə dəyişiklik baş verdi. Ta- razlaşdırılmış beynəlxalq münasibətlər sisteminin yerini dinamik beynəlxalq münasibətlər tutdu. ABŞ Prezidenti dünya ölkələrinə müraciətlə "ya siz bizimləsiniz, ya da bizim əleyhimizəsiniz" deyərək, qəti mövqe nümayiş etdirmələrini istədi.

ABŞ-m çağırışına ilk cavab verən ölkələrdən biri Azərbaycan Respublikası oldu. Sentyabrın 11-də Azərbaycan Prezidenti ABŞ-da baş verən hadisələrlə bağlı xüsusi bəyanat verdi^""*. Azərbaycan dövləti baş vermiş terror aktlarını və terrorçuluğun bütün təzahürlərini pisləyir, terroru dəhşətli bəla kimi qiymətləndirir, terrorçuluğa qarşı həmişə mübarizə apardığını qeyd edir, terroçuluq əleyhinə mübarizədə ölkəsinin əməkdaşlığa hazır olduğunu bildirir və dünya birliyinin səylərini dəstəkləyirdi.

Elə həmin gün Azərbaycan Prezidenti "2001-ci il sentyabrın 11-də baş vermiş terror aktlarının günahsız qurbanlarının xatirəsinin yad edilməsi haqqında" sərəncam imzaladı. Azərbaycan dövləti terrorizmə qarşı mübarizədə ABŞ-m mövqeyini birmənalı olaraq müdafiə etdi və ölkənin hava məkanını ABŞ üçün açdı. Bu, Azərbaycan tərəfinin qətiyyətli bir addımı idi.

Sentyabırn 12-də Heydər Əliyev ABŞ-m Azərbaycandakı səfiri Ross Vilsonu qəbul edərək ölkəsinin terrorçuluğu və terroru pislədiyini bir daha bəyan etdi. ABŞ-a dəyən hər hansı zərəri Azərbaycana dəyən zərər kimi qiymətləndirdi və terrorçuların tapılmasında ölkəsinin imkan daxilində Birləşmiş Ştatlara yardım etməyə hazır olduğunu bildirdi^'*^.

Qətiyyətli mövqeyi Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun daha da möhkəmlənməsinə kömək etdi. Bununla əlaqədar olaraq akademik Ramiz Mehdiyev yazır ki. Heydər Əliyevin 2001-ci il sentyabr hadisələrinə reaksiya verərək beynəlxalq antiterror koalisiyası çərçivəsində ABŞ-m planlarına kömək etməyə hazır olduğunu bəyan etməsi Qərbdə

Amerika Birləşmiş Ştatlarının Nyu York və Vaşinqton şəhərlərində baş vermiş dəhşətli terror hadisələri ilə bağlı Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı. -Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 865-866.

Azərbaycan Prezidenti Heydər Əliyev ABŞ səfirini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 866-868.

yüksək qiymətləndirildi və bu, Azərbaycanın beynəlxalq aləmdə imicinin yüksəlməsinə gətirib çıxardı^'*^.

Azərbaycanın birmənalı mövqeyi ABŞ ilə əməkdaşlıq və tərəfdaşlıqdan strateji münasibətlərə doğru bir yeni mərhələni açırdı. Bütün bunlar diqqətdən kənarda qalmadı. ABŞ-ın bəzi mətbuat orqanları Azərbaycanın strateji əhəmiyyətini önə çəkməyə başladılar, bəziləri isə hələ də erməni lobbisinin təzyiqləri altında ehtiyatlı davranırdılar.

Terror aktlarından sonra ABŞ Əfqanıstanda "Sarsılmaz azadlıq" adlı antiterror əməliyyatına başladı. Əməliyyatın əsas məqsədi terrorçu təlim mərkəzlərini və onların infrastrukturlarını dağıtmaq. Əl Qaeda təşkilatının liderlərini tutmaq, Əfqanıstanda terror fəaliyyətini dayandırmaq və bu ölkəyə humanitar yardım etmək idi. Antiterror əməliyyatında ABŞ ilə yanaşı Böyük Britaniya və Fransa da iştirak edirdi.

ABŞ terror hadisəsisndən sonra Azərbaycanın mühüm hərbi-strateji rolunun olduğunu bir daha dərk etdi. Qafqaz - Xəzər dənizi regionu Fars körfəzinə və bu zonada yerləşən İran və İraqa yaxın idi. NATO-nun Avropadakı qüvvələrinin komandanı C.Conson Qafqaz hava dəhlizini Əfqanıstandakı koalisiya qüvvələri ilə Avropadakı bazalar arasında böyük əhəmiyyət daşıyan xətt kimi qiymətləndirir, bu regionu Mərkəzi və Cənub-Qərbi Asiya ölkələrində azad bazar iqtisadiyyatını və demokratiyanı yaymaq prosesində əsas coğrafi məntəqə hesab edirdi^'*'.

Yaranmış şəraitdə Birləşmiş Ştatların Azərbaycana münasibətində dəyişiklik baş verdi. ABŞ administrasiyası 907-ci düzəlişin qüvvəsinin dayandırılması üçün Prezidentə səlahiyyət verilməsi barədə konqresə müraciət etdi. ABŞ dövlət katibi Kolin Pauel konqresin 8 nüfuzlu üzvünə məktubla müraciət edərək Azərbaycana qarşı qadağanın aradan qaldırılmasını dəstəkləməyə çağırdı^'**. Oktyabrın 9-da senator Sem Braunbək senatda 907-ci düzəliş haqqında qanun layihəsi ilə çıxış etdi. O, bu düzəlişin aradan qaldırılmasını istədi. Bəzi rəsmi şəxslər də 907-ci düzəlişin ləğvinin vacibliyini ABŞ maraqları baxımından qiymətləndinnəyə başladılar. Oktyabrın 24-də ABŞ senatı 907-ci düzəlişin dayandırılması üçün ABŞ Prezidentinə səlahiyyət verilməsinə dair təşəbbüsü səsvermə

**Mehdiyev** R. XXI **əsrdə mili dövlətçilik. Bakı,** 2003, s. 130. **raa>KHeB K. PasMbiuiJieHHH o nocjıencTBHHX "nnxHÄHeBHOH BOHHBI" ajıa reo-nojiHTHKH KaBKasa. - )KypH. "MnpoBaH ƏKOHOMHKa H MejKÄynapoflHbie OTHO- menna",** M., 2009, JV2*8*, c.39.

907-ci düzəlişin aradan qaldırılmasına ümid artır. - "Azərbaycan" qəzeti, Bakı, 2001, 21 oktyabr.

yolu ilə qəbul etdi^"*^. Bu sənədə əsasən ABŞ Prezidenti 907-ci düzəlişin dayandırılmasını aşağıdakı şərtlər əsasında həyata keçirə bilərdi; antiterror mübarizəsində ABŞ-m səylərini, Amerika hərbi qüvvələrinin əməliyyat hazırlığını, koalisiya tərəfdaşlarını dəstəkləmək, Azərbaycanın sərhəd təhlükəsizliyini təmin etmək üçün. Ayrıca maddədə qeyd edilirdi ki, bu addım Azərbaycan - Ermənistan münaqişəsinin sülh yolu ilə həlli ətrafında aparılan danışıqlara maneə törətməməli və yaxud Ermənistana hücum xarakterli əməliyyatlara əsas yaratmamalıdır^^".

Azərbaycan tərəfi də müəyyən addımlar atdı. ABŞ ilə açılan yeni imkanlardan necə istifadə edilməsi barədə müzakirələrə hazırlaşan Azərbaycan dövləti bununla bağlı olaraq xarici ölkələrdəki bütün səfirlik və nümayəndəliklərinə müvafiq göstərişlər verdi. 2001-ci il noyabrın 2-də Azərbaycan Respublikasının bütün səfirlik və nümayəndəliklərinə göndərilən məktubda Azərbaycan hökumətinin ABŞ-ın apardığı antiterror koalisiyasında iştirak etdiyi və Amerika tərəfinin Azərbaycanın həyata keçirdiyi tədbirləri bəyəndiyini ən yüksək səviyyədə bildirdiyi vurğulanırdı^^'.

Qeyd etmək lazımdır ki, hələ 11 sentyabr terror aktlarına qədər Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının terrorçuluq əleyhinə müvafiq tədbirlərin görülməsinə dair qətnamələrinə uyğun olaraq artıq müəyyən addımlar atmış, beynəlxalq hüquq sahəsində terrorçuluğa qarşı mövcud olan beynəlxalq konvensiyalara qatılmışdı^^'^. Azərbaycan Respublikası terrorizm əleyhinə mübarizəyə dair BMT çərçivəsində qəbul edilmiş 10, Avropa Şurası çərçivəsində qəbul edilmiş 1 sənədə qatılmışdı.

ABŞ-m Əfqanıstanda apardığı əməliyyatın müəyyən uğurları nəticəsində Taliban hərəkatı hakimiyyətdən getdikdən sonra ölkədə koali-siyah hökumətin qurulması məsələsi gündəliyə gəldi. 2001-ci ilin dekabrında keçirilən Bonn konfransı nəticəsində Əfqanıstanda Həmid Kərza- ym^^^ müvəqqəti hökumətinin qurulması məsələsi həll edildi. Əfqanıstanda yeni hökumətin normal fəaliyyət göstərməsini təmin etmək və yerli səhra komandirlərinin hakimiyyətini dağıtmaq üçün BMT Təhlükəsizlik Şurasının 2001-ci il dekabrın 20-də 1386 K5İi qətnaməsi qəbul edildi. Qətnaməyə əsasən Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (BTYQ)

ARXİNA. 05.10.2001-07.11.2001. Qovluq JÇo6, v. 19-20.

ABŞ senatı 907-ci düzəlişin ləğv olunmasına yekdilliklə səs verdi. - "Azərbaycan" qəzeti, Bakı, 2001, 26 oktyabr.

ARXİNA. 05.10.2001-07.11.2001. Qovluq X96, v.15-17.

ARXİNA. 05.10.2001-07.11.2001. Qovluq Xe 6, v.22-23.

Həmid Kərzay (1957) - Əfqanıstan Prezidenti (2004-cü ildən).

adlı sülhməramlı qüvvələr quruldu. Qüvvələrin mandatı 6 ay müəyyənləşdirildi. Lakin bu müddət artırıla bilərdi. Beynəlxalq Qüvvələrin sayının 5 min nəfərədək olması nəzərdə tutulurdu. Qüvvələrin tərkibində iştirak edən ölkələr bütün xərcləri öz üzərlərinə götürürdülər.

ABŞ tərəfi Azərbaycandan həmin qüvvələrin tərkibində iştirak etməyi xahiş edirdi. Azərbaycan isə BTYQ-yə yalnız maddi-texniki dəstək vermək niyyətində idi. BTYQ və Əfqanıstanda yerləşən ABŞ qüvvələri arasında ziddiyyətlər olduğu təqdirdə ABŞ qüvvələri Floridada yerləşən Mərkəzi qərargah vasitəsi ilə son sözə sahib olacaqdı. Bu zaman beynəlxalq qüvvələrə 3 ay müddətinə (2002-ci il aprelin 30-dan gec olmayaraq) Böyük Britaniya komandanlıq edirdi. Böyük Britaniya Əfqanıstanda 1500 nəfər kontingent ilə təmsil olunurdu. Almaniya 1500, Fransa 800, İspaniya 700 nəfərlik, İtaliya, Niderland Krallığı, Danimarka, Yunanıstan, Norveç də müvafiq qüvvələrinin Əfqanıstana göndəriləcəyini bəyan etmişdilər. NATO-nun tərəfdaş ölkələri olan Avstriya, İsveç, Finlandiya və Rumıniya da qoşunlarını göndərəcəklərini bildirmişdilər.

Müsəlman ölkələrindən Türkiyə, İordaniya və Malayziya Əfqanıstanda keçirilən sülhməramlı əməliyyatlarda iştirak etmək əzmində olduqlarını bəyan etmişdilər. Türkiyə 261 əsgərdən ibarət bölüyünü Əfqanıstana göndərməyə hazırlaşırdı. Onlardan 6 nəfəri beynəlxalq qərargahda fəaliyyət göstənnəli idi. ABŞ beynəlxalq qüvvələrin tərkibində müsəlman ölkələrinin, xüsusən Sülh naminə tərəfdaşlıq proqramında iştirak edən dövlətlərin iştirakına müsbət yanaşır və buna çalışırdı. Həmin məqsədlə Azərbaycanın antiterror fəaliyyətdə iştirakına dair məsələləri müzakirə etmək üçün 2001-ci il dekabrın 15-də ABŞ müdafiə naziri Donald

Ramsfeld Azərbaycana səfər etdi . Bu, ABŞ müdafiə nazirinin Azərbaycana ilk səfəri idi. Səfər zamanı nazir Azərbaycan Prezidenti tərəfindən qəbul olundu^^^. Görüşdə 907-ci düzəlişin ləğvi və terrorizm əleyhinə mübarizədə ikitərəfli hərbi əməkdaşlığın perspektivlərinə dair məsələlər müzakirə edildi. Donald Ramsfeld Azərbaycanın ABŞ-da terror hadisəsi baş verdikdən sonra beynəlxalq terrorizmə qarşı mübarizə alyansında iştirak etməyə razılıq verdiyini və hazırlığını yüksək qiymətləndirdi, ABŞ konqresinin 907-ci düzəlişin ortadan qaldırılması məsələsinə baxdığını

Donald Ramsfeld (1932 )-ABŞ-ın müdafiə naziri (1975-1977, 2001-2006). 907-ci düzəliş bu günlərdə aradan qaldırılacaqdır. — “Azərbaycan” qəzeti, Bakı, 2001, 16 dekabr.

Azərbaycan Prezidenti Heydər Əliyev ABŞ-ın müdafiə nazirini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 1080-1082. 230

bildirdi. Yalnız bundan sonra iki ölkə arasında hərbi sahədə əməkdaşlığı artırmaq mümkün olacaqdı. Azərbaycan Prezidenti isə etnik təmizləmə daxil olmaqla zorakı şovinizmi və təcavüzkar separatizmi əhatə edən terrorizmdən danışdı. Görüşdə müxtəlif sahələrdə əməkdaşlıq, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin dinc həlli yolları müzakirə edildi. Səfər zamanı Azərbaycanın beynəlxalq qüvvələrin tərkibində iştirakına dair razılıq əldə edildi.

Donald Ramsfeld müdafiə naziri Səfər Əbiyev və xarici işlər naziri Vilayət Quliyev ilə də görüşərək terrorizm əleyhinə mübarizədə ABŞ adından minnətdarlığını bildirdi. Görüşlərdən sonra ABŞ müdafiə naziri Donald Ramsfeld və Azərbaycan Respublikasının müdafiə naziri Səfər Əbiyevin iştirakı ilə mətbuat konfransı keçirildi. Tərəflər terrorizm əleyhinə mübarizədə səylərin birləşdirilməsinin xüsusi əhəmiyyət daşıdığını bildirdilər.

Müzakirələr nəticəsini verdi. 2002-ci il yanvarın 25-də ABŞ Prezidenti C.Buş 907-ci düzəlişin bir il müddətinə dayandırılmasına dair sənədi imzaladı^^’. Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Hafiz Paşayevin qeyd etdiyi kimi, 11 sentyabrdan əvvəl Qafqaz və Orta Asiya barəsində ABŞ-ın bəyan etdiyi coğrafi-strateji maraq və məqsədlər demokratiya və bazar iqtisadiyyatının inkişafı, bu regiondakı ölkələrdə müstəqil dünyəvi dövlətlərin möhkəmlənməsi. Xəzərin enerji ehtiyatlarının istifadəsi ilə bağlı idisə, 11 sentyabr hadisələrindən sonra Amerika - Azərbaycan münasibətlərində vacib keyfiyyət dəyişkənliyi baş verdi. Amerika hökuməti terrorizmə qarşı mübarizədə Azərbaycanın rolunu və əhəmiyyətini dərk edərək 907-ci düzəlişə həmişə bəyan etdiyi etirazını əməli tədbirə çevirə bildi. Bu dəfə nəhayət, Amerikanın milli maraqları erməni lobbisinin maraqlarına üstün gəldi^^*.

907-ci düzəlişin fəaliyyəti dayandırıldıqdan sonra ABŞ tərəfi Azərbaycan Respublikası ilə hərbi və təhlükəsizlik sahəsində əməkdaşlığı genişləndirdi. 2002-ci il yanvarın 29-da Azərbaycanda səfərdə olan ABŞ dövlət katibinin Avrasiya və Avropa məsələləri üzrə müavini xanım Elizabet Cons ilə Heydər Əliyevin görüşündə siyasi, hərbi və təhlükəsizlik

ABŞ Prezidenti Corc Buş 2002-ci il yanvarın 25-də konqresin ona verdiyi səlahiyyətlərdən istifadə edərək “Azadlığa dəstək aktf’na 907-ci düzəlişin qüvvəsinin dayandırılması haqqında müvafiq sənədləri imzalamışdır. - “Dirçəliş- XXI əsr” jurnalı, Bakı, 2002, yanvar, JVs 47, s. 63.

Paşayev H. ABŞ-la əməkdaşlığımızın vacib tərkib hissəsi. - “Dirçəliş-XXI əsr” jurnalı, Bakı, 2003, avqust, İN266, s. 97.

sahəsində ikitərəfli əməkdaşlığın perspektivləri müzakirə olundu^^^. Bundan sonra Azərbaycan tərəfi Əfqanıstanda BTYQ iştirak etməklə bağlı fəaliyyətə başladı. Azərbaycanda Əfqanıstan təcrübəsinə malik olan çoxlu zabitlər var idi. Ona görə də Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyev müdafiə naziri Səfər Əbiyevə 2002-ci il fevralın 20- də məktub yazaraq "onların BTYQ-da ya fərdi ya da qrup şəklində Türkiyə kontingenti tərkibində iştirak etməsi məsələsinə baxmağı" mümkün hesab etdi. Eyni zamanda Azərbaycanın həmin qüvvələrin tərkibində iştirakına dair Türkiyə hərbçiləri ilə müzakirə aparmağı xahiş etdi^^°. Azərbaycan öz hərbçilərini Əfqanıstanda sülhməramlı qüvvələrin tərkibinə verdi. Bu, Azərbaycan - ABŞ münasibətlərinin dərinləşdirilməsinin nümunəsi idi.

Terror qurbanlarının xatirəsi Azərbaycanda əziz tutulurdu. Belə ki, Nyu Yorkda keçiriləcək Dünya İqtisadi Forumunun illik iclasında iştirak etmək üçün ABŞ-a səfər edən Azərbaycan Prezidenti 2002-ci il yanvarın 30-da Dünya Ticarət Mərkəzinin dağıntılarına baş çəkdi^*''. Daha sonra, fevralın 1-də açılan Dünya İqtisadi Forumunun "Mərkəzi Asiyada sabitlik" mövzusuna həsr olunmuş iclasında etdiyi çıxışında ABŞ-da baş verən terror aktlarından sonra dünyanın daha çox narahat olduğunu, separatizm və terrorun təhlükə törətdiyini qeyd etdi və separatizmin terror forması aldığını vurğuladı^*^^.

Səfər çərçivəsində Azərbaycan Prezidenti ABŞ-m keçmiş prezidenti Bili Klinton ilə görüşərək ikitərəfli münasibətlərə dair fikir mübadiləsi apardı. İki ölkə arasında münasibətlərin inkişafının da yeni perspektivləri mövcud idi.

Lakin həmin münasibətlərin inkişafına mane olmağa çalışan qüvvələr də var idi. ABŞ hökumətinin 907-ci düzəlişi ləğv etmək istiqamətində səyləri erməni dairələri tərəfindən mənfi qarşılanmışdı. Onlar iki ölkə arasında əlaqələrə hər vəchlə mane olmağa çalışırdılar. 2002-ci il martın 20-21-də Ermənistanın müdafiə naziri Serj Sarqsyan, müdafiə nazirinin

Azərbaycan Prezidenti Heydər Əliyev ABŞ-ın dövlət katibinin müavinini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 63-64.

ARXINA. 2002. Qovluq Xa 10, v. 44-45.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ABŞ-a səfəri. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 79.

Dünya iqtisadi forumunun iclasında Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 83-84. 

müavini general-mayor A.Ağabekyan, xarici işlər nazirinin müavini T.Markaryan, Müdafiə Nazirliyinin xarici əlaqələr və hərbi əməkdaşlıq idarəsinin rəisi general-mayor M.Melkonyan və b. ABŞ-da səfərdə oldular^^^. Səfərdə məqsəd müvafiq müdafiə qurumları arasında əməkdaşlıq üçün mümkün sahələrin müəyyənləşdirilməsi idi. Nazir Ermənistan milli təhlükəsizlik konsepsiyasının hələ tam və təsdiq üçün hazır olmadığını dedi. Onun fikrincə, Ermənistanın milli təhlükəsizlik konsepsiyasının əsasını Rusiya ilə fəal siyasi-hərbi əməkdaşlıq; Kollektiv Təhlükəsizlik Müqaviləsi çərçivəsində əməkdaşlıq; Avroatlantik Tərəfdaşlıq Şurası və Sülh naminə tərəfdaşlıq çərçivəsində NATO ilə əməkdaşlıq təşkil edirdi. Serj Sarqsyanın fikrincə, Ermənistan - Rusiya əməkdaşlığı hər hansı üçüncü ölkəyə qarşı yönəlməmişdi və yalnız Ermənistanın təhlükəsizliyinin təminatı məqsədi daşıyırdı. Onun fikrincə, Ermənistan ərazisində Rusiya hərbi bazalarının saxlanılması əsasən aşağıdakı amillərlə bağlı idi: Türkiyənin Ermənistana qarşı düşmənçilik siyasəti; Türkiyə tərəfindən aparılan və Ermənistanın təhlükəsizliyinə qarşı müqavilələrə gətirib çıxara bilən siyasət; Ermənistan və Türkiyə arasında hərbi, iqtisadi və insan ehtiyatları baxımından müqayisəolunmaz dərəcədə tam qeyri-bərabərlik; Dağlıq Qarabağ zəminində Ermənistan və Azərbaycan arasında münasibətlərin gərginliyi; Türkiyənin Ermənistanın təcridinə və bölgədə ayrılma xətlərinin müəyyən edilməsinə yönəlmiş qeyri-sabit siyasəti.

Əlbəttə, Serj Sarqsyanın söylədiklərinin heç bir əsası yox idi. Türkiyə Ermənistana qarşı düşmənçilik siyasəti yürütmürdü. Düşmənçilik edən Ermənistan idi. O, Türkiyəyə qarşı tarixdə olmayan uydurma erməni soyqırımını tanımağı, ərazi və təzminat iddiaları irəli sürürdü. Ermənistanı təcridçiliyə Türkiyə və Azərbaycan salmamışdı. Azərbaycan ərazilərini işğal edən Ermənistan özü-özünü təcridçiliyə salmışdı. Təcavüzkarlıq siyasəti nəticəsində özünü beynəlxalq layihələrdə iştirak etməkdən kənarda qoymuşdu. Ermənistan Naxçıvanı blokadada saxlayırdı.

Səfərin nəticəsində ABŞ - Ermənistan ikitərəfli müdafiə məsləhətləşmələri həmsədrlərinin birgə bəyanatı oldu^*". Bəyanatdan aydın olurdu ki, tərəflər peşə təhsili; ingilis dilinin tədrisi daxil olmaqla gücləndirilmiş və qarşılıqlı rabitə sistemlərinin inkişafı; yaranmaqda olan sülhməramlı strukturların genişləndirilməsi sahələrində razılığa gəlmiş və işçi

ARXİNA. 2002. Qovluq N2IO, v. 146-148.
ARXİNA. 2002. Qovluq X2IO, v.149-150.

hazırlamışdılar. Tərəflər nazirliklərin nümayəndələrindən ibarət birgə işçi qrup formalaşdırmaq barədə razılaşmışdılar.

Azərbaycan - ABŞ münasibətlərinin inkişafına olan maneələrə baxmayaraq, əlaqələr dinamizmini qoruyub saxlayırdı. Belə ki, mart ayının sonlarında Bakıda müdafiə sahəsində ABŞ - Azərbaycan məsləhətləşmələrinin birinci sessiyası keçirildi. Nümayəndə heyətinə ABŞ müdafiə nazirinin Avrasiya ölkələri üzrə köməkçisinin müavini xanım M.Rikardelin başçılıq edirdi. Müzakirələr zamanı hərbi sahədə əməkdaşlığın üç mühüm istiqaməti müəyyənləşdirildi. Bunlar Azərbaycanın sülhü müdafiə qabiliyyətinin gücləndirilməsi, su sərhədlərinin təhlükəsizliyinin artırılması üçün dəniz donanmasının vəziyyətinin yaxşılaşdırılması və hava məkanının mühafizəsinin NATO standartlarına uyğunlaşdınıması idi. Məsləhətləşmələrin yekununda birgə bəyanat qəbul edildi. Sənəddə müdafiə sahəsində əməkdaşlığın davam etdiriləcəyi bildirilirdi.

İki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 10-cu ildönümü 2002-ci ildə tamam oldu. Bu münasibətlə ABŞ Prezidenti Corc Buş Heydər Əliyevə məktub göndərdi. O, 11 sentyabrdan sonra antiterror koalisiyasında əməkdaşlıq və ABŞ xalqı ilə həmrəylik üçün Azərbaycan xalqına minnətdarlığını, ABŞ administrasiyasının Dağlıq Qarabağ münaqişəsinin "ədalətli və uzunmüddətli" həllini gözlədiyini, ikitərəfli münasibətləri inkişaf etdirmək arzusunu ifadə etdi. ABŞ Prezidenti ölkəsinin Qafqazda sülhün və sabitliyin bərqərar olması üçün Azərbaycan ilə əməkdaşlıq etməyə və yardım göstərməyə davam edəcəyini vurğulayırdı.

Azərbaycan Prezidenti martın 28-də yazdığı cavab məktubunda Ermənistan - Azərbaycan münaqişəsinin həllinə diqqət yetirdiyi üçün Corc Buşa təşəkkür etdi. İşğal edilmiş Azərbaycan ərazilərinin tezliklə azad ediləcəyinə və məcburi köçkünlərin doğma yerlərinə qayıdacağına ümidini bildirdi.

2002-ci ildən etibarən iki ölkə arasında hərbi-texniki və təhlükəsizlik məsələləri daha geniş müzakirə edilməyə başladı. May ayında ABŞ silahlı qüvvələrinin Avropa komandanlığının xüsusi əməliyyatlar üzrə komandanı L.Fülerin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri zamanı ikitərəfli hərbi-texniki əməkdaşlıq, neft və qaz ixrac boru kəmərlərinin mühafizəsi məsələləri müzakirə edildi. Bundan az sonra, iyun ayında boru kəmərlərinin təhlükəsizliyi üzrə ABŞ ekspertlərindən ibarət nümayəndə heyəti Azərbaycana səfər edərək müvafiq məsələlərin müzakirəsini keçirdilər.

Enerji təhlükəsizliyinin təmin olunması ilə bağlı məsələlər müxtəlif səviyyəli nümayəndə heyətləri ilə keçirilən görüşlərdə də müzakirə edildi. İyulun 30-da ABŞ konqresi nümayəndələr palatasının enerji və ticarət üzrə komitəsinin 9 üzvü - Co Berton, Riçard Barr, Meri Bonno, Natan Dil, Co Pitts, Rik Bauçer, Tom Soyer, Karen Makkarti və Cin Qrin Azərbaycanda səfərdə oldular^*'^. Onların bir neçəsi Azərbaycana həyat yoldaşı ilə gəlmişdi. Bu, Azərbaycana olan xüsusi münasibətin göstəricisi idi. Nümayəndə heyətinin tərkibinə komitənin əməkdaşları da daxil idilər. Səfərdə başlıca məqsəd Xəzər dənizinin enerji ehtiyatlarının hasili və nəqli ilə bağlı məsələləri müzakirə etmək idi. Nümayəndə heyətini Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin rəhbəri Natiq Əliyev qəbul etdi. Keçirilən görüşlərdə iki ölkə arasında əməkdaşlığın geniş perspektivləri və boru kəmərlərinin təhlükəsizliyinin qorunması məsələləri müzakirə edildi. Boru kəmərlərinin təhlükəsizliyi üçün təhlükə Ermənistanın təcavüzkar siyasətinin davam etməsindən doğurdu. Həmçinin Qərb kapitalının regiona daxil olmasını istəməyən ölkələrin, bəzi terror təşkilatlarının təhdidləri və digər risklər də qalırdı. Müzakirə edilən məsələlər iki ölkə arasında enerji və ticarət sahəsində əlaqələrin genişləndirilməsi baxımından əhəmiyyətli idi. Səfərdən az sonra, avqustun 23-də Azərbaycan Respublikası Maliyyə Nazirliyi ilə ABŞ Maliyyə Departamenti arasında texniki yardımın göstərilməsi haqqında anlaşma memorandumu imzalandı^^®.

ABŞ Azərbaycan ilə digər sahələrdə də əlaqələrini genişləndirdi. 2002-ci ildə "Ümid" layihəsi çərçivəsində Azərbaycana humanitar yardım etdi.

İki ölkə arasında ticarət dövriyyəsinin həcmi də artdı. 2002-ci il yanvar-iyun ayları üçün Azərbaycan ilə ABŞ arasında ticarət dövriyyəsinin həcmi 90 milyon 229, 8 min dollar təşkil etmişdi. Bütün bunlar iki ölkə arasında əməkdaşlıqda mühüm amillər idi.

Azərbaycan - ABŞ münasibətlərinin möhkəmlənməsinə təsir edən əsas amillərdən biri Bakı - Ceyhan əsas ixrac neft boru kəmərinin təmə- latma mərasimi oldu. Mərasimdə iştirak etmək məqsədi ilə sentyabrın 17- də ABŞ-m energetika naziri Spenser Abraham Bakıya gəldi. Elə həmin gün Azərbaycan Prezidenti onu qəbul etdi. Nazir ABŞ Prezidenti Corc Buşun məktubunu Heydər Əliyevə təqdim etdi. ABŞ Prezidenti Bakı -

[565] ARXINA. 25.04.2002-13.07.2002. Qovluq Xal 1, v.248.
' ARXİNA. 2008.

Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisini və Azərbaycanın səylərini müdafiə edirdi. Görüş zamanı Bakı - Ceyhan əsas ixrac neft boru kəməri və regiondakı şərait, əməkdaşlığın perspektivləri müzakirə olundu. Təməlatma mərasimi iki ölkənin enerji sahəsində əməkdaşlıqda iradəsini göstərirdi.

Artıq qeyd edildiyi kimi, Azərbaycan Respublikasının sərhədlərində təhlükəsizlik üçün ciddi hədə və təhdidlər mövcud idi. Böhranlı şəraitlər olduqda həmin təhdidlər özünü aydın şəkildə büruzə verirdi. 2001-ci ildə Əfqanıstandakı məlum hadisələrdən sonra Azərbaycanın cənub sərhədlərindən beynəlxalq terrorçuların ölkəyə daxil olması, narkotik maddələrin qanunsuz dövriyyəsi və qanunsuz miqrasiya ilə bağlı hədələr meydana çıxmışdı. Çoxlu mühacir İranda Azərbaycan ilə sərhəd rayonlarda məskunlaşmışdı. Habelə İraq ətrafındakı şəraitlə bağlı olaraq mürəkkəbliklərin yaranması ehtimalı artmışdı. Belə bir şəraitdə Azərbaycan Respublikası dövlətinin qarşısında duran vacib məsələlərdən biri terrorizmə qarşı mübarizə, kütləvi qırğın silahları və onun komponentlərinin yayılmaması, qanunsuz miqrasiyanın qarşısının alınması, narkotik maddələrin qeyri- qanuni dövriyyəsinə qarşı mübarizə, neft yataqlarının və Xəzər dənizində sərhəd mühafizəsinin təşkili idi. Ona görə də Dövlət Sərhəd Xidmətinin strukturunun təkmilləşdirilməsi, texniki təchizatın yaxşılaşdırılması və çoxsaylı şəxsi heyətin xidmətə cəlb edilməsi tələb olunurdu. Qısa müddət ərzində bu xidmətin strukturu təkmilləşdirildi, kadrların hazırlanması işi sürətləndirildi. Azərbaycan diplomatiyası kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması üçün sərhəd təhlükəsizliyinin təmin olunması və sərhədlərin idarə edilməsinin təkmilləşdirilməsi sahəsində fəaliyyətini həm ikitərəfli, həm də çoxtərəfli əsasda davam etdirirdi. ABŞ Ticarət Nazirliyi və ABŞ Sahil Mühafizə Xidməti ilə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti arasında “Kütləvi qırğın silahlarının komponentlərinin yayılmasının qarşısının alınması” proqramı çərçivəsində əməkdaşlıq həyata keçirildi^®’. Bu əməkdaşlıq çərçivəsində 2002-ci ilin oktyabr ayında ABŞ Sahil Mühafizə Xidmətinin rəhbərliyinin dəvəti ilə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin nümayəndə heyəti sərhəd təhlükəsizliyi məsələlərini müzakirə etmək üçün ABŞ-a səfər etdi. Səfər zamanı iki ölkə arasında sərhəd mühafizəsi sahəsində əməkdaşlığın ən mühüm məsələləri müzakirə olundu. Sərhəd təhlükəsizliyi sahəsində ABŞ - Azərbaycan Respublikası əməkdaşlığının əsas istiqamətləri aşağıda-

ARXINA. 2008.

kılardan ibarət idi: Dövlət Sərhəd Xidmətinin ehtiyac və tələbatını müəyyənləşdirmək üçün qiymətləndirmə həyata keçirilirdi; qiymətləndirmə əsasında Dövlət Sərhəd Xidmətinə müvafiq avadanlıqlar verilirdi; məsləhətçi yardım edilirdi; ehtiyaclar və tələbatlar əsasında seminar və təlimlər keçirilirdi.

Xəzər dənizində sərhədlərin təhlükəsizliyi istiqamətində bəzi tədbirlər reallaşdırıldı. Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinə ABŞ hökuməti ixraca nəzarət və sərhəd təhlükəsizliyi proqramı çərçivəsində iki nəzarət qayığı, bir ədəd 26 metrlik hərbi kater verdi. 2001-ci il üçün Fövqəladə Əlavə Fonddan 3 mln. dollar məbləğində yardım edildi. Azərbaycan Respublikası üçün ixraca nəzarət və onunla əlaqədar sərhəd təhlükəsizliyi proqramının planı üzrə fövqəladə əlavə yardımı ABŞ hökumət agentliklərinin tövsiyələri və Azərbaycan hökuməti tərəfindən müəyyənləşdirilmiş tələblər əsasında inkişaf etdirildi. Sərhəd qoşunlarının quruda yerləşən qüvvələri üçün yardımlar əsasən aşağıdakılardan ibarət idi: radio əlaqənin davamlılığının saxlanılması üçün təyinatlanmış generatorlar və ya digər güc mənbələri kimi elektrik güc mənbələrinin yaxşılaşdırılması, radio əlaqə üçün avadanlıq, müşahidə və aşkaretmə avadanlığı, gecə görmə avadanlığı, binokl və sərhəd pozuntularının aşkar olunması üçün aparatlar, radiasiyanın aşkar olunması üçün peyjerler, nəqliyyat vasitələri, təlim və texniki vasitələr.

Sərhəd qoşunlarının dəniz briqadası üçün yardımlar isə aşağıdakılardan ibarət idi: gəmilərin təmiri üçün əlavə maliyyə və hissələr, dəniz əlaqə vasitələri, gəmi radarları, həmçinin cənub zonası üçün quruda yerləşən dəniz axtarışı radarları, dəniz təlimi, qərargahın, təlim mərkəzinin, mühəndis və saxlama təsisatlarının bərpa olunması da daxil olmaqla dəstək, sərhəd qoşunları dəniz briqadası üçün mühəndis dəstəyinin təmin edilməsi məqsədi ilə ABŞ sahil mühafizəsi üzrə bir texniki mütəxəssisin xərclərinin maliyyələşdirilməsi.

ABŞ-m Energetika Nazirliyinin Milli Nüvə Təhlükəsizliyi Administrasiyası Azərbaycanda sərhəd keçid məntəqələrində təlim və təchizat işlərinin aparılması, sərhədlərdə radiasiya aşkarlama cihazların quraşdırılması, eləcə də seminarların təşkil olunması sahəsində fəaliyyətini davam etdirirdi. 2002-ci ilin dekabr ayında Azərbaycanda səfərdə olan ABŞ Dövlət Depatamentinin terrorizm əleyhinə mübarizə siyasəti, planları, proqramları və ictimai diplomatiya üzrə ofisinin əlaqələndiricisinin müavini S.Kinninin iştirakı ilə terrorizmə qarşı mübarizə və boru kəmərlərinin mühafizəsinə dair seminar keçirildi. Seminarda boru kəmərləri üçün

mümkün ola biləcək təhdidlər və onların qarşısının alınması barədə fikir mübadiləsi aparıldı.

İki ölkənin müdafiə nazirlikləri arasında da əməkdaşlıq genişləndirildi. 2002-ci ildə ABŞ hökuməti Azərbaycan Respublikası Müdafiə Nazirliyinə təhlükəsizlik sahəsində 4,4 milyon dollar məbləğində vəsait ayırdı. Bu da 2001-ci ilə nisbətən 4 dəfə artıq idi. 2002-ci ildə Azərbaycan təhlükəsizlik və müdafiə sahəsində 11 proqramda iştirak etdi^®*. Azərbaycan sərhədlərinin mühafizəsini gücləndirmək üçün 3 milyon dollar vəsait ayrıldı. Həmin vəsait Azərbaycanın dəniz sərhədlərinin mühafizəsi və terrorizm əleyhinə mübarizə üçün nəzərdə tutulmuşdu.

Azərbaycan və ABŞ beynəlxalq terrorizm əleyhinə mübarizə çərçivəsində də əməkdaşlığı genişləndirdilər. Azərbaycan Respublikası Milli Məclisinin 2002-ci il noyabrın 15-də qəbul etdiyi qərara əsasən Azərbaycan Respublikası silahlı qüvvələrinin dörd taqımının Türkiyə Cümhuriyyəti silahlı qüvvələrinin tabum tərkibində və NATO strukturlarının ümumi komandanlığı altında Əfqanıstanda yerləşdirilməsinə və müvafiq əməliyyatlarda iştirak etməsinə razılıq verildi^®^. Bu, uzun illər boyu erməni terrorundan əziyyət çəkən Azərbaycanın beynəlxalq terror şəbəkəsi əleyhinə mübarizəyə böyük töhfəsi idi. Əməkdaşlıq iki ölkə arasında digər sahələrdə də əlaqələrin inkişafına müsbət təsir edirdi. Belə ki, 2003-cü il yanvarın 3-də Azərbaycan Respublikası hökuməti ilə Amerika Birləşmiş Ştatları hökuməti arasında narkotiklərə nəzarət və hüquq mühafizə orqanlarına yardım haqqında saziş imzalandı.

İki ölkə arasında münasibətlərdə növbəti addım Prezident Corc Bu- şun dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2003-cü il fevralın 23-də ABŞ-a səfəri oldu^™. Səfərdə məqsəd Azərbaycan, Türkiyə, Gürcüstan və ABŞ hökumətlərinin təşkil etdiyi Bakı -

* Paşayev H. ABŞ-la əməkdaşlığımızın vacib tərkib hissəsi, s. 98.

Azərbaycan Respublikası silahlı qüvvələri iki taqımının Türkiyə Cümhuriyyəti silahlı qüvvələrinin taburu tərkibində və NATO strukturlarının ümumi komandanlığı altında Əfqanıstanda yerləşdirilməsinə və müvafiq əməliyyatlarda iştirak etməsinə razılıq verilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. 15 noyabr 2002-ci il. - Azərbaycanın xarici siyasəsi: sənədlər məcmuəsi. 2002. II hissə, s.588.

Azərbaycan Respublikası ilə ABŞ arasında 1991-2008-ci illərdə əməkdalığa dair arayış. - ARXİNA. 2008; Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarına rəsmi səfəri. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, yanvar-mart, Ns 2, s. 10-14; Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-a səfəri. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. 1 hissə, s. 67-68.

Ceyhan əsas ixrac neft boru kəməri və Bakı - Ərzurum qaz boru kəmərinə həsr olunmuş "Şərq - Qərb enerji dəhlizi reallıqdır" mövzusunda konfransda iştirak etmək, ABŞ rəhbərləri ilə ikitərəfli və regional məsələləri müzakirə etmək idi.

Azərbaycan Prezidenti fevralın 24-də ABŞ-m ticarət naziri Donald Evans ilə keçirdiyi görüşdə Xəzər dənizinin Azərbaycan sektorundakı zəngin neft və qaz yataqlarının işlənilməsində ABŞ-ın rolu, layihələrin həyata keçirilməsində olan əngəllərin aradan qaldırılması məsələlərini müzakirə etdi. Qeyd etmək lazımdır ki, bu zaman Azərbaycanın neft sektoruna 2,2 milyard dollar sərmayə qoyulmuşdu"^ Məlumatlara görə, Xəzər dənizinin Azərbaycan sektorunda təqribən 5 trilyon kubmetr qaz, 4 milyard ton neft var idi.

Heydər Əliyevin Beynəlxalq Maliyyə Korporasiyasının rəhbəri Piter Voyke ilə söhbətində Bakı - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinə dair məsələlər müzakirə edildi.

ABŞ-m energetika naziri Spenser Abraham ilə görüşdə isə enerji sahəsində iki ölkə arasında əməkdaşlığın əhəmiyyəti vurğulandı. Boru kəmərlərinin təhlükəsizliyi üçün mümkün təhdidlər və onların qarşısının alınması məsələlərinə dair fikir mübadiləsi aparıldı. Bu məsələlərdə ABŞ Azərbaycanı mühüm tərəfdaş kimi görür və xarici siyasətində onunla əməkdaşlığa xüsusi yer verirdi.

Azərbaycan Prezidenti fevralın 25-də Vaşinqtonda keçirilən "Şərq - Qərb enerji dəhlizi reallıqdır" mövzusunda beynəlxalq konfransda nitq söylədi^^^. Nitqində o, Şərq - Qərb dəhlizinin əhəmiyyəti, Azərbaycanın zəngin karbohidrogen ehtiyatları, Bakı - Ceyhan əsas ixrac neft boru kəməri, Xəzər dənizinin hüquqi statusu, Ermənistanın Azərbaycana təcavüzünün nəticələri üzərində dayandı, ölkəsinin əməkdaşlığa hazır olduğunu vurğuladı. Nitqdən aydın olurdu ki, əsas ixrac boru kəməri ilə ildə 40 milyon ton neft nəql ediləcək, gələcəkdə bu, 60 milyon tona çatdırılacaqdı. Heydər Əliyevin fikrincə, bu kəmər təkcə iqtisadi xarakter daşımırdı, o, eyni zamanda təhlükəsizlik məsələləri ilə sıx bağlı idi və Ermə

' Azərbaycan Prezidenti Heydər Əliyev ABŞ-m ticarət nazirini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003.1 hissə, s. 69-70.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Vaşinqtonda "Şərq - Qərb enerji dəhlizi reallıqdır" mövzusunda keçirilmiş beynəlxalq konfransda nitqi. Vaşinqton, ABŞ, 27 fevral 2003. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, yanvar-mart, Na 2, s. 25-31; Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003.1 hissə, s. 75-81.

nistanın Azərbaycana təcavüzünün davam etdiyi, regionda münaqişələrin mövcud olduğu, Xəzər dənizinin hüquqi statusunun hələ təyin edilmədiyi, maneələrin törədildiyi bir zamanda kəmərin təhlükəsizliyi etibarlı ola bilməzdi. Ona görə də Azərbaycan Prezidenti regiondakı münaqişələrin həllinin vacibliyini önə çəkdi.

Fevralın 26-da Azərbaycan və ABŞ prezidentlərinin görüşü oldu^[573] Danışıqlar zamanı ikitərəfli münasibətlər, Bakı - Ceyhan layihəsinin həyata keçirilməsinin vəziyyəti. Dağlıq Qarabağ münaqişəsinin həlli səyləri, beynəlxalq terrorizm əleyhinə birgə mübarizə, eləcə də regionda və beynəlxalq aləmdə baş verən proseslər haqqında fikir mübadiləsi edildi. ABŞ Prezidenti Azərbaycan ilə əməkdaşlığa xüsusi əhəmiyyət verdiyini bildirdi.

Görüşdən sonra ABŞ Dövlət Departamentinin binasında Heydər Əliyevin iştirakı ilə Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri Hafiz Paşayev və ABŞ tərəfdən dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Elizabet Cons Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statunun 98-ci maddəsinə dair sazişi imzaladılar^^'*. Sazişə əsasən tərəflər bir-birinin ərazisində Azərbaycan və ABŞ vətəndaşlarının törətdikləri cinayət əməllərinə görə Beynəlxalq Cinayət Məhkəməsinə müraciət etməmək barədə ümumi razılığa gəlirdilər.

Həmin gün Heydər Əliyev ABŞ dövlət katibinin birinci müavini Riçard Armitac^’^, vitse-prezident R.Çeyni^[576]", fevralın 27-də isə Mərkəzi

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buş ilə görüşü. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2003, yanvar-mart, Jtb 2, s. 13; Azərbaycan Prezidenti Heydər Əliyev ilə ABŞ Prezidenti Corc Buşun görüşü. - Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2003.1 hissə, s. 96-98.

Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statunun 98-ci maddəsinə dair sazişin imzalanma mərasimi. -“Diplomatiya aləmi” Jurnalı, Bakı, 2003, yanvar- mart, JÇo 2, s. 13-14.

Azərbaycan Prezidenti Heydər Əliyev ABŞ-m dövlət katibinin birinci müavini Riçard Armitac ilə görüşmüşdür. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. 1 hissə, s. 98.

Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-ın vitse-prezidenti Riçard Çeyni ilə görüşü. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2003, yanvar-mart, JNs 2, s.l4; Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-ın vitse-prezidenti Riçard Çeyni ilə görüşü. — Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003.1 hissə, s.99. 

Kəşfiyyat İdarəsinin direktoru Corc Tenet^^’ ilə görüşdü. Görüşlər zamanı beynəlxalq antiterror koalisiyasında Azərbaycanın fəal iştirakı, Bakı - Ceyhan layihəsi, Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli, sərhədlərin təhlükəsizliyinin qorunması barədə fikir mübadiləsi aparıldı. ABŞ tərəfi Azərbaycan sərhədlərinin təhlükəsizliyinin təmin edilməsi sahəsində bundan sonra da birgə səylər göstərəcəyini bildirdi.

Azərbaycan Prezidentinin ABŞ-a səfəri və keçirilən görüşlər iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsi və dərinləşdirilməsi baxımından əhəmiyyətli idi. ABŞ hökuməti region siyasətində Azərbaycana xüsusi yer verirdi. Azərbaycan Birləşmiş Ştatların terrorizm əleyhinə mübarizə üçün yaratdığı koalisiyada fəal iştirak edirdi. ABŞ hökuməti Azərbaycanı regionda strateji tərəfdaş kimi görürdü.

İki ölkə arasında əməkdaşlıq sonrakı illərdə də davam etdirildi. Xüsusən İraq hadisələrində bu, özünü aydın şəkildə göstərdi. 2003-cü ilin əvvəllərində İraq ətrafında şərait pisləşdi. ABŞ hökuməti İraq hakimiyyətini kimyəvi silah saxlamaqda və terroru himayə etməkdə təqsirləndirərək onun əleyhinə koalisiya formalaşdırdı. Azərbaycan hökuməti İraqda aparılan antiterror əməliyyatını müdafiə edirdi. Bu mövqe ABŞ tərəfindən müsbət qarşılandı. Prezident Corc Buş həmin il martın 17-də Azərbaycan Prezidenti Heydər Əliyevə məktub göndərərək əməkdaşlıq üçün təşəkkür etdi, Səddam Hüseynə qarşı çətinliklərlə üzləşən zaman ABŞ-m Azərbaycanın yardımına ehtiyacı olacağını bildirdi^’^. İraqa qarşı hərbi əməliyyatlara başlayan ABŞ qısa müddət ərzində Səddam Hüseyn rejimini devirdi. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi martın 21-də bəyanat verərək İraqda koalisiyanın istənilən fəaliyyətinin dəstəkləndiyini bildirdi. Bununla da ABŞ Azərbaycanın əlavə dəstəyini qazandı. Azərbaycan da siyasi dəstək əldə etdi. Martın 27-də ABŞ senatorları antiiraq koalisiyasını müdafiə edən dövlətlərə minnətdarlıq bildirən qətnamə qəbul etdilər. Bu ölkələrin sırasında Azərbaycan Respublikasının da adı var idi^’®. Səddam

Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-ın Mərkəzi Kəşfiyyat Agentliyinin direktoru Corc Tenet ilə görüşü. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2003, yanvar-mart, Ns 2, s.l4; Azərbaycan Prezidenti Heydər Əliyevi ABŞ-ın Mərkəzi Kəşfiyyat Agentliyinin direktoru Corc Teneti qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003.1 hissə, s. 106.

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab Heydər Əliyevə ABŞ Prezidenti Corc Buşun məktubu. - “Azərbaycan” qəzeti, Bakı, 2003, 20 mart.

İraq müharibəsi uzana bilər. - “Azərbaycan” qəzeti, Bakı, 2003, 29 mart.

Hüseyn rejimi devrildikdən sonra Azərbaycan sülhməramlı qüvvələrini İraqa göndərdi.

Azərbaycanın aydın və konkret mövqeyi ABŞ ilə münasibətlərin inkişafına kömək edirdi. Belə ki, iyulun 2-də Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Amerika Birləşmiş Ştatları Müdafiə Nazirliyi arasında avadanlığın alınması və qarşılıqlı xidmət haqqında saziş imzalandı. 2003-cü ildə ABŞ Azərbaycan sahil mühafizəsinin gücləndirilməsini və Xəzər dənizində sərhədə nəzarət rejiminin qurulmasını nəzərdə tutan 100 milyon dollarlıq Xəzər dənizi mühafizə proqramının həyata keçirilməsinə başladı. Eyni zamanda ABŞ-m hərbi təhlükənin azaldılması üzrə agentliyinin təhlükənin birgə azaldılması proqramı çərçivəsində hər iki dövlət kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması istiqamətində səylər etdilər.

Heydər Əliyev 2003-cü il avqustun 6-da müayinə və müalicəsini davam etdirmək üçün ABŞ-m Klivlend şəhərinə getdi. Bundan bir neçə gün sonra, avqustun 25-də Azərbaycan Respublikasının Baş Naziri İlham Əliyev Vaşinqtona birgünlük səfər etdi. Səfər zamanı o, ABŞ dövlət katibinin birinci müavini Riçard Armitac ilə görüşdü^*°. Görüşdə ABŞ - Azərbaycan strateji əməkdaşlığının müxtəlif sahələrinə dair fikir mübadiləsi aparıldı, iki ölkə arasında siyasi və iqtisadi əlaqələrin möhkəmlənməsinin, beynəlxalq terrorizm əleyhinə mübarizədə birgə səylərin vacibliyi vurğulandı.

Avqustun 29-da isə Baş Nazir İlham Əliyev Azərbaycanda səfərdə olan konqresmen K.Veldonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi. Görüşdə ikitərəfli münasibətlər müzakirə olundu^*'. Danışıqlar zamanı Azərbaycan və ABŞ-m enerji sahəsində səmərəli əməkdaşlıq etdikləri, antiterror koalisiyasında bir yerdə olduqları vurğulandı. ABŞ konqresmenləri İraq hadisələrində Azərbaycanın tutduğu mövqeyi yüksək qiymətləndirdilər.

“ Azərbaycan Respublikasının Baş Naziri İlham Əliyev ABŞ dövlət katibinin birinci müavini Riçard Armitacla görüşmüşdür. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. I hissə, s. 315-316.

Azərbaycan Respublikasının Baş Naziri İlham Əliyev ABŞ konqresinin nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003.1 hissə, s. 318-324.

Səfər zamanı ABŞ konqresi ilə Azərbaycan Respublikası Milli Məclisi arasında memorandum imzalandı^^^. Memorandumda ABŞ konqresi ilə Azərbaycan Respublikası Milli Məclisi arasında əlaqələr qurmaq və onu inkişaf etdirmək üçün işçi qrupu formalaşdırmaq nəzərdə tutulmuşdu. Bu sənəd iki ölkə arasında münasibətlərdə mühüm bir addım idi. Memorandumun imzalanması təşəbbüsçüsü ABŞ konqresi idi. İşçi qruplarının fəaliyyət sahələri təhlükəsizlik, hərbi quruculuq, enerji və ətraf mühit, maliyyə və bank işi, təhsil, elm və texnologiya, kənd təsərrüfatı və insan hüquqları və s. idi^*^.

Qarşılıqlı münasibətlərdə növbəti addım 2003-cü il sentyabrın 23- də Azərbaycan Respublikasının Baş Naziri İlham Əliyevin BMT Baş Məclisinin 58-ci sessiyası zamanı ABŞ Prezidenti Corc Buş ilə keçirilən görüşü oldu. Onlar ikitərəfli münasibətlərə dair qısa müzakirələr apar- **dılar^*^**

ABŞ-ın Azərbaycana olan marağı müxtəlif səviyyəli nümayəndə heyətlərinin səfərləri zamanı özünü aydın şəkildə göstərirdi. Belə ki, oktyabrın 4-də Baş Nazir İlham Əliyevin Azərbaycanda səfərdə olan ABŞ senatoru C.Makkeyni ilə görüşündə ikitərəfli münasibətlərin mövcud vəziyyəti və perspektivləri müzakirə olundu^^^. Senator Azərbaycanın ABŞ-ın antiterror fəaliyyətində iştirakını yüksək qiymətləndirdi. Söhbət zamanı iki ölkənin əməkdaşlığının ciddi əhəmiyyət daşıdığı bildirildi.

Qarşılıqlı münasibətlərdə növbəti addım oktyabrın 9-da Bakıda Azərbaycan Respublikası hökuməti ilə ABŞ hökuməti arasında Azərbaycanda Sülh Korpusunun proqramı haqqında sazişin imzalanması

oldu^^*". 9 maddədən ibarət olan bu saziş[587]^“' Azərbaycan Respublikası tərəf-

ABŞ konqresi ilə Azərbaycan Milli Məclisi arasında memorandum imzalanmışdır. - Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2003. I hissə, s. 324-325.

Azərbaycan Respublikasının Milli Məclisi ilə ABŞ konqresi arasında imzalanmış memorandum əlaqələrin inkişafında yeni səhifə açacaqdır. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. 1 hissə, s. 325-326.

Azərbaycanın Baş Naziri İlham Əliyev ilə ABŞ Prezidenti Corc Buşun görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. I hissə, s.401.

Baş Nazir İlham Əliyev ABŞ senatorunu qəbul etmişdir. - Azərbaycan 2003: inkişaf strategiyasında yeni mərhələ, s. 216-217.

Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Sülh Korpusunun proqramı haqqında saziş imzalanmışdır. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2003, oktyabr-dekabr, Jf2 5, s. 89.

dən 2004-cü il yanvarın 13-də təsdiq edildi^^*. Sazişin başlıca məqsədi iki ölkə arasında qarşılıqlı faydalı əlaqələri və əməkdaşlığı inkişaf etdirmək, müraciət edən ölkələrin xalqlarının təlim keçmiş işçi qüvvəsinə olan tələbatının ödənilməsinə ixtisaslı kişi və qadınların kömək etməsinə imkan yaradaraq dünyada sülhü və dostluğu təşviq etmək idi.

Qeyd etmək lazımdır ki, iki ölkə arasında münasibətlərin inkişafında ABŞ-dakı Azərbaycan icması da müəyyən rol oynayırdı. Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra 4 mindən çox azərbaycanlı ABŞ-da məskunlaşmışdı^*^. Bəzi məlumatlara görə, ABŞ-da 800 min - 1 milyon nəfər azərbaycanlı yaşayırdı. Onların 60%-i cənublu, 35%-i şimallı, 5%-i isə Türkiyədən olanlar idi^^°. Lakin ABŞ-dakı Azərbaycan diasporası dağınıq və pərakəndə idi. Onların təşkilatlanması üçün ciddi işlər həyata keçirilirdi.

Beləliklə, araşdırma göstərir ki, SSRİ-nin Avropadan çıxması və dağılması ilə ABŞ dünyanın yeganə fövqəldövlətinə çevrildi. Bundan sonra NATO və Avropa İttifaqı Şərqi Avropaya doğru genişlənməyə başladı. Atlantik birliyi dünya səhnəsində əsas nüfuz sahibinə çevrildi. Beynəlxalq münasibətlərin Yalta-Potsdam sistemi dağıldı. Yeni dünya düzəninə keçid baş verdi. ABŞ-m qlobal hakimiyyəti dövrü başladı.

Dövlət müstəqilliyini bərpa etmiş ölkələrlə münasibətlər ABŞ xarici siyasətinin istiqamətlərindən birinə çevrildi. ABŞ Cənubi Qafqaz regionuna, xüsusən Azərbaycana xarici siyasətində müəyyən yer ayırdı. Lakin regionda baş verən proseslər ABŞ xarici siyasətinin formalaşmasına mənfi təsir edirdi.

Azərbaycanın dövlət müstəqilliyini tanıdıqdan sonra iki ölkə arasında münasibətlər təzadlı inkişaf yolunu keçmişdir. 1991-2003-cü illərdə

Azərbaycan Respublikası hökuməti və Amerika Birləşmiş Ştatları hökuməti arasında Azərbaycanda Sülh Korpusunun proqramı haqqında saziş. 9 oktyabr 2003-cü il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2004. I hissə, s. 71-73.

Azərbaycan Respublikası hökuməti və Amerika Birləşmiş Ştatları hökuməti arasında Azərbaycanda Sülh Korpusunun proqramı haqqında sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının qanunu. 13 yanvar 2004-cü il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2004.1 hissə, s. 71-73.

Hafiz Pashayev. Azerbaijan - U.S. relations: from unjust sanctions to strategic partnership. - Azerbaijan in Global Politics: Crafting Foreign Policy, p. 125.

Əliyev Z. Dünya diasporaları, s. 96, 99.

Azərbaycan Respublikasının ABŞ ilə münasibətləri anlaşılmazlıqdan strateji tərəfdaşlığa qədər yüksəlmişdir.

İlk mərhələdə ABŞ ilə münasibətlər anlaşılmaz və ziddiyyətli məqamlarla səciyyələnirdi. Bu, özünü Azadlığı müdafiə aktına edilən 907-ci düzəlişin qəbul edilməsində göstərmişdir. 1993-cü ilin yanvar ayından qüvvəyə minən həmin ədalətsiz düzəliş guya Ermənistan və Dağlıq Qarabağı blokadaya alması bəhanəsi ilə Azərbaycana yardımı qadağan edirdi. Bu, ABŞ-da fəaliyyət göstərən erməni lobbisi və diasporasının təsirinin, iki ölkə arasında münasibətlərdə mövcud olan çətinliklərin, Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi haqqında ABŞ ictimaiyyətində kifayət qədər məlumatın olmamasının nəticəsi idi. 907-ci düzəliş Azərbaycana qarşı təzyiq idi. Azərbaycan Respublikasının ABŞ-dakı səfirliyi bu düzəlişin aradan qaldırılması və iki ölkə arasında münasibətlərin yaxşılaşdırılması üçün geniş fəaliyyət göstərmişdir. “Əsrin müqaviləsi”nin imzalanması nəticəsində ABŞ-ın transmilli korporasiyaları Ağ evin Azərbaycan siyasətində praqmatizmin güclənməsinə təsir etmişlər. Bundan sonra ABŞ-ın Azərbaycan siyasətində tədricən dönüş yaranmışdır. ABŞ tərəfi Azərbaycana qeyri-hökumət təşkilatları vasitəsi ilə yardımlar etməyə başlamışdır. ABŞ-ın Azərbaycan siyasətində yumşalmalar baş vermişdir. Bunlara iki ölkə arasında enerji sahəsində əməkdaşlığın, Ağ evin Cənubi Qafqaz regionu siyasətində Azərbaycana xüsusi yer verməsinin, beynəlxalq və regional layihələrin həyata keçirilməsində Azərbaycanın “açar ölkə” rolunu oynamasının, Azərbaycanın ABŞ ilə münasibətləri yaxşı səviyyədə qunnaq istəyinin və s. təsiri olmuşdur. Qarşılıqlı münasibətlərdə dönüş anı Azərbaycan Prezidenti Heydər Əliyevin 1997-ci ilin yayında ABŞ-a səfəri olmuşdur. Həmin səfər ilə qarşılıqlı münasibətlərdə anlaşılmazlıqlara son qoyulmuşdur. Bundan sonra ABŞ və Azərbaycan strateji tərəfdaşa çevrilmişlər. 2001-ci il sentyabrın 11-də ABŞ-da törədilən terror aktları iki ölkə arasında münasibətlərə ciddi təsir etmişdir. Qarşılıqlı münasibətlərdə müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq məsələləri ön plana çıxmışdır. Bütün istiqamətlər üzrə əməkdaşlıq genişlənmiş və qarşılıqlı fayda vermişdir. Tərəflər arasında münasibətləri inkişaf etdirmək üçün böyük potensialın mövcudluğu aydın olmuşdur.

İki ölkə arasında münasibətlərin müqavilə-hüquqi bazası yaradılmış və möhkəmlənmişdir. Azərbaycan - ABŞ münasibətləri əsasən aşağıdakı istiqamətlərdə saxlanılmışdır; siyasi-hərbi əməkdaşlıq. Burada beynəlxalq terrorizm əleyhinə mübarizədə birgə səylər, Azərbaycanın sərhədlərinin

və xüsusi ilə dəniz sərhədlərinin möhkəmləndirilməsi, NATO ilə tərəfdaşlıq çərçivəsində ABŞ-la əməkdaşlığı xüsusi yer tutmuşdur.

İki ölkə arasında iqtisadi əməkdaşlıqda qeyri-neft sektorunda, informasiya texnologiyaları və kənd təsərrüfatı sahələrində həyata keçirilən islahatlara xüsusi diqqət yetirilmişdir. ABŞ Azərbaycanın neft strategiyasını müdafiə etmişdir. Energetika sahəsində əməkdaşlıqda Bakı - Ceyhan əsas ixrac neft boru kəmərinin fəaliyyətə başlaması, Bakı - Ərzurum qaz boru kəmərinin tikintisi. Transxəzər boru kəmər layihəsi üzərində aparılan müzakirələr sözügedən sahənin əsas komponentləri olmuşdur.

ABŞ Azərbaycanda demokratik islahatları dəstəkləmişdir. Bu sahədə Birləşmiş Ştatların həm rəsmi, həm də qeyri-hökumət təşkilatları ilə sıx əməkdaşlıq həyata keçirilmişdir.

İki ölkə bir sıra beynəlxalq təşkilatlarda, o cümlədən BMT, ATƏT, NATO və digər təşkilatlar çərçivəsində əməkdaşlıq etmişlər. Azərbaycan ilə ABŞ-m Avroatlantik Tərəfdaşlıq Şurası, NATO-nun Sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində əməkdaşlığı geniş olmuşdur. Azərbaycan və ABŞ beynəlxalq terrorizm, separatçılıq, narkotik maddələrin qanunsuz dövriyyəsi, kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması, qanunsuz silah alveri, transmilli mütəşəkkil cinayətkarlıq, insan alveri kimi yeni qlobal çağırış və təhdidlərə qarşı mübarizədə əməkdaşlıq etmişlər.

ABŞ tərəfi Azərbaycan Respublikasının dövlət müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü, regional və beynəlxalq təhlükəsizliyini, demokratik inkişafını dəstəkləmiş, Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Minsk qrupunun çərçivəsində həllinə səylər etmiş, münasibətlərin inkişafına mane olan 907-ci düzəlişin fəaliyyətini illik əsasda dayandırmış, Azərbaycanın bir dövlət kimi möhkəmlənməsinə, iqtisadi, siyasi islahatların aparılmasına, azad bazar iqtisadiyyatı yolu ilə inkişafına. Xəzər dənizinin Azərbaycan sektorundakı karbohidrogen ehtiyatlarının işlənilməsi və dünya bazarına çıxarılmasına, Avropa-Asiya nəqliyyat dəhlizinin fəaliyyətinə kömək etmişdir.

Azərbaycan Respublikası ABŞ ilə birgə Əfqanıstan və İraqda həyata keçirilən beynəlxalq antiterror və sülhməramlı fəaliyyətlərində iştirak etmişdir. Bu, iki ölkə arasında münasibətlərin möhkəmlənməsinə təsir edən amillərdən biri olmuşdur.

# KANADA ILƏ MÜNASİBƏTLƏR

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının əlaqələr qurduğu Şimali Amerika ölkələrindən biri Kanada oldu. Qeyd etmək lazımdır ki, Kanada ərazisinin böyüklüyünə görə dünyanın ikinci ölkəsi, NATO-nun qurucu üzvü və dünya siyasətində nüfuzlu dövlətlərdən biridir.

Kanada Azərbaycan Respublikasının dövlət müstəqilliyini 1991-ci il dekabrın 25-də tanıdı. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il avqustun 10-da quruldu^^'. Lakin münasibətlər bundan irəli getmədi. Yalnız 90-cı illərin sonlarından etibarən əlaqələr üçün müəyyən addımlar atıldı. Kanada hökuməti Ermənistanın etnik təmizləmə və işğalçılıq siyasəti nəticəsində yurd-yuvalarından didərgin düşmüş azərbaycanlı qaçqın və məcburi köçkünlərin ağır vəziyyətinə biganə qalmadı. Kanadanın "Feed the children" təşkilatı 1998-ci ildə Azərbaycana 50 min ABŞ dolları məbləğində humanitar yardım göndərdi. Həmin il noyabrın 23-30-da Azərbaycan Respublikası baş nazirinin müavini Abid Şərifovun başçılıq etdiyi nümayəndə heyətinin Kanadaya səfəri qarşılıqlı münasibətlərdə ilk addım kimi əhəmiyyətli idi. Səfər zamanı keçirilən danışıqlarda iki ölkənin dövlət, eləcə də özəl sənaye, ticarət, bank və maliyyə strukturları arasında əməkdaşlıq məsələləri müzakirə edildi. Kanada Azərbaycan ilə sıx əlaqələr qurmaqda maraqlı idi.

Qarşılıqlı əlaqələrdə növbəti addım 2000-ci il mayın 10-11-də Kanada parlamentinin beynəlxalq münasibətlər və xarici ticarət daimi komitəsinin sədri B.Qrəhəmin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri oldu. O, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Milli Məclisin Sədri Murtuz Ələsgərov, Baş Nazir Artur Rasizadə, baş nazirin müavini Əli Həsənov və xarici işlər naziri Vilayət Quliyev ilə görüşərək ikitərəfli əlaqələri genişləndirmək məsələlərini müzakirə etdi. Kanada Azərbaycan ilə əsasən kənd təsərrüfatı sahəsində əməkdaşlıqda maraqlı idi.

Kanadanın Qafqaz proqramı üzrə meneceri J.Kuturyenin həmin il sentyabrın 29-dan oktyabrın 6-dək Bakıya səfəri iqtisadi əlaqələrin qurulub inkişaf etdirilməsi məsələlərini müzakirə etmək baxımından əhəmiyyətli oldu. O, xarici işlər naziri Vilayət Quliyev, kənd təsərrüfatı naziri

İrşad Əliyev ilə görüşərək iki ölkə arasında iqtisadi əlaqələrə dair məsələləri müzakirə etdi.

Təmaslar sonrakı illərdə də davam etdirildi. Azərbaycanın xarici işlər naziri Vilayət Quliyevin noyabrın 26-da ATƏT Nazirlər Şurasının VIII zirvə toplantısında iştirakı zamanı Kanada Xarici İşlər Nazirliyinin xarici siyasət üzrə baş müşaviri C.Raytla görüşündə münasibətlərin inkişafı, xüsusən Minsk qrupunun fəaliyyətinin gücləndirilməsi məsələləri müzakirə edildi. Azərbaycan tərəfi Kanadadan Dağlıq Qarabağ münaqişəsinin həllində nüfuzundan istifadə etməsini istəyirdi.

Bu zaman Azərbaycan ilə Kanada arasında münasibətlərin inkişafına mane olan qüvvələr də fəaliyyətlərini dayandırmamışdılar. Belə ki, 2001- ci ilin sentyabrında ABŞ-da baş verən terror aktlarından sonra Ermənistanın xarici işlər naziri Vartan Oskanyan təxribatçı xarakter daşıyan bir bəyanat verərək Azərbaycan ilə Kanadanı üz-üzə qoymağa çalışdı. “Noyan Tapan” agentliyinə verdiyi müsahibəsində o, qara yaxaraq Azərbaycanı guya terrorizmi himayə etməkdə ittiham edərək bildirdi ki, Azərbaycan istənilən zorakılığı, xüsusən Birləşmiş Ştatlar üzərinə hücumları ittiham etməlidir, onlardan öz təbliğati məqsədləri üçün ucuz istifadə etməməlidir, guya Azərbaycan terrordan istifadə etməkdə davam edir, bunu belə bir fakt sübut edir, Kanada onu terrorçuları himayə edən dövlətlər siyahısına daxil etmişdir. V.Oskanyanm bu bəyanatı başdan-başa böhtan idi.

Məlumatı alan kimi Azərbaycanın Vaşinqtondakı səfirliyi sentyabrın 26-da bu barədə Kanada Xarici İşlər və Beynəlxalq Ticarət Depar- tamentinin Mərkəzi, Şərqi və Cənubi Avropa Bürosunun Şərqi Avropa şöbəsinə məlumat verdi. Kanada tərəfindən həmin məlumata aydınlıq gətinnək və vəziyyəti izah etmək xahiş olundu. Kanada Xarici işlər Nazirliyinin Azərbaycan üzrə kuratoru Natali Şrayer oktyabrın 1-də bildirdi ki, yaranmış insident ilə bağlı olaraq Kanadanın Moskvadakı səfirliyi rəsmi Yerevana etiraz notası göndərmişdir. Notada Kanada tərəfi Ermənistandan buraxdığı səhvi düzəltməyi tələb etmişdi. Xarici İşlər Nazirliyi həmçinin qeyd edirdi ki, Kanadada terrorçuları himayə edən dövlətlərin siyahısı yoxdur^^^. Bununla da Ermənistanın növbəti fmtəkarkarlığı ifşa edildi.

Sonrakı illərdə iki ölkə arasında əlaqələr genişləndi. Kanadanın Türkiyədəki, eyni zamanda Azərbaycandakı səfiri J.Düval 2002-ci il fev-

ARXINA. 03.09.2001-05.10.2001, Qovluq Xo6, v. 6.

ralın 12-16-da Bakıya səfər etdi. Səfər zamanı o. Baş Nazir Artur Ra- sizadə, Azərbaycan Respublikası Prezidenti İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev və ARDNŞ-m prezidenti Natiq Əliyev ilə görüşərək ikitərəfli münasibətlər, energetika sahəsində əməkdaşlıq məsələlərini müzakirə etdi.

İqtisadi əməkdaşlıq məsələləri martın 12-19-da Kanada Beynəlxalq İnkişaf Agentliyinin (CİDA) nümayəndəsi Doris Vonqun Azərbaycana səfəri zamanı müzakirə edildi. O, Xarici İşlər Nazirliyində və İqtisadi İnkişaf Nazirliyində görüşlər keçirdi, Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Ə.Məmmədovla birgə Saatlı rayonunda oldu.

Qeyd etmək lazımdır ki, Kanada bütün Cənubi Qafqaz regionuna xüsusi maraq göstərirdi. Belə bir maraq noyabrın 11-13-də Kanada Xarici İşlər Nazirliyinin dövlət katibi Qar Knutsonun başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri zamanı qabarıq şəkildə özünü göstərdi. O, Cənubi Qafqaz regionu ilə əlaqələr üzrə məsul şəxs idi. Səfər zamanı nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qəbul edildi^^^. Görüşdə iki ölkə arasında əlaqələrin istənilən və arzuedilən səviyyədə olmadığı qeyd olundu. Kanada Azərbaycan ilə əsasən ticarət-iqtisadi və xarici sərmayə qoyuluşu sahəsində əlaqələri genişləndirməkdə maraqlı idi. Əlaqələrin inkişaf etdirilməsi üçün diqqəti daha çox iqtisadi əməkdaşlığa yönəltmək fikri ifadə olundu. Görüş zamanı Kanadanın Azərbaycana yeni təyin olunmuş səfiri Maykl Leir Azərbaycan Prezidentinə təqdim edildi. O eyni zamanda Kanadanın Türkiyədəki səfiri idi.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində görüş keçirildi. Nazir Vilayət Quliyev ilə görüşdə iki ölkə arasında dostluq münasibətlərinin qurulmasının və işgüzar əlaqələrin genişləndirilməsinin əhəmiyyətli olduğunu vurğuladı^^'*. Azərbaycan ilə Kanada arasında parlamentlərarası dostluq qruplarının fəaliyyəti müsbət qiymətləndirildi. Görüşdə Ermənistanın təcavüzü, nəticələri və ATƏT-in Minsk qrupunun fəaliyyəti barədə Kanada nümayəndə heyətinə məlumat verildi. Tərəflər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın vacibliyini qeyd etdilər.

Azərbaycan Prezidenti Heydər Əliyev Kanada nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. 1 hissə, s.876-877.

Xarici işlər naziri Kanada nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s.877-878.

İqtisadi İnkişaf Nazirliyində və Dövlət Neft Şirkətində keçirilən görüşlərdə iki ölkə arasında iqtisadi əməkdaşlığın geniş perspektivlərinin olduğu vurğulandı. Əməkdaşlığın konkret sahələri müəyyənləşdirildi.

2003-cü ildə Bakıda Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Kanadanın Dövlət İdarəçilik İnstitutu arasında "Xəzər hövzəsində istixana qazı tullantılarının azaldılması üzrə 2002- 2005-ci illər üçün Tədris Proqramı-Xəzər hövzəsi proqramf'nm həyata keçirilməsi şərtləri haqqında anlaşma memorandumu imzalandı^^^. Həmin ilin iyunun 9-dan etibarən Azərbaycan və Kanada mütəxəssisləri birlikdə Azərbaycanın perspektiv yataqlarında kəşfiyyat-qazma işlərinə başladılar. Kura Valley əməliyyat şirkəti seysmik kəşfiyyat işlərinə və "İncəbel" strukturunda yeni kəşfiyyat quyusunun qazılmasına başlandı. "Padar" sahəsində və eləcə də ona bitişik sahələrdə işlər apardı.

Ümumiyyətlə, 1991-2003-cü illərdə iki ölkə arasında münasibətlər qurulmuş, zəif də olsa, inkişaf etdirilmişdir. Qarşılıqlı əlaqələr əsasən iqtisadi sahəni əhatə etmişdir.

## MEKSİKA BIRLƏŞMIŞ ŞTATLARI İLƏ MÜNASİBƏTLƏRİN QURULMASI VƏ İNKİŞAFI

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının əlaqələr qurduğu Şimali Amerika ölkələrindən biri Meksika Birləşmiş Ştatları oldu. Meksika 1991-ci il dekabrın 25-də Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı^^^. 1992-ci il fevralın 10-da iki dövlət arasında diplomatik əlaqələr quruldu. Qeyd etmək lazımdır ki, Meksika ilə əlaqələrin tarixi Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsindən əvvəlki dövrə gedib çıxır. Hələ 1982-ci ilin aprel ayında Heydər Əliyev SSRİ Ali Sovetinin nümayəndə heyətinə rəhbərlik edərək Meksikada işgüzar səfərdə olmuşdu. Nümayəndə heyətinin tərkibinə Sov.İKP MK-nın baş katibi L.İ.Brejnevin siyasi məsələlər üzrə köməkçisi A.Aleksandrov da daxil edilmişdi.

Səfər çərçivəsində Heydər Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Meksika Prezidenti Xose Lopez Portiyo, konqresin daimi komissiyasının sədri, xarici işlər və daxili işlər nazirləri ilə görüşlər keçirmişdi.

ARXINA. 2008.

ARXİNA. 2008; ARXİNA.05.10.2001-07.11.2001. Qovluq N>6, v.5.

Nümayəndə heyəti Mexiko şəhəri yaxınlığında Teotinakan tarixi-arxeoloji zonasında yerləşən qədim ehramlar, PEMEX neft şirkətinin rəhbərliyi və nümayəndələri ilə birlikdə Kompeçe ştatının neft yataqları, Kintana Roo ştatının qubernatoru və hökumət nümayəndələri ilə birlikdə Kankun şəhərinə, o cümlədən bir sıra tarix-mədəniyyət abidələri olan yerlərə getmişdi.

Heydər Əliyevin rəhbərlik etdiyi SSRİ nümayəndə heyətinin ölkə prezidenti Xose Lopez Portilyo ilə görüşü xüsusən diqqəti cəlb etmişdi. Görüş zamanı Heydər Əliyev Azərbaycanın tarixi, mədəniyyəti və iqtisadi potensialından bəhs edən kitabı Meksika Prezidentinə təqdim etmiş və respublika haqqında məlumat vermişdi. Heydər Əliyev Prezident X.L.Portilyonun 1978-ci ildə SSRİ-yə rəsmi səfəri çərçivəsində Azərbaycana gəlişini xatırlatmışdı. Bu səfər qeyri-rəsmi şəkildə olsa da Meksika ilə yüksək səviyyədə ilk təmas kimi qiymətli idi.

Dövlət müstəqilliyinin qurulmasından sonra qurulan qarşılıqlı əlaqələr əsasən ticarət-iqtisadi sahəni əhatə edirdi. Belə ki, 2000-ci ildə Azərbaycan ilə Meksika arasında ticarət dövriyyəsinin həcmi 409,6 min ABŞ dolları olmuşdu. Bu məbləğin hamısı Meksikadan edilən idxal idi. Azərbaycan Meksikaya məhsul ixrac etməmişdi.

Qarşılıqlı münasibətləri inkişaf etdirmək üçün 2001-ci il sentyabrın 5-9-da Azərbaycan Respublikasının səfiri Hafiz Paşayev Mexikoya səfər edərək nazirlik və dövlət idarələrində bir sıra görüşlər keçirdi^®’. Müzakirələr ötən illərə nisbətən Meksikada Azərbaycana olan marağın artdığını göstərirdi. Bu, bir tərəfdən ölkənin yeni prezidenti Vinsent Foksun islahat siyasəti, digər tərəfdən isə Azərbaycan haqqında məlumatların yayılması və tanınması ilə bağlı idi. Hafiz Paşayevin Meksika Xarici İşlər Nazirliyinin Afrika, Asiya-Sakit okean və Orta Şərq idarəsinin baş direktoru Antonio Mateos ilə görüşü zamanı aydın şəkildə bildirildi ki, əvvəlki illərdən fərqli olaraq keçmiş sovet respublikalarına fərdi yanaşma tətbiq ediləcəkdir. Meksika Qafqaz və Orta Asiya ölkələri arasında prioriteti Azərbaycana və Qazaxıstana vermək niyyətində idi. Görüşdə iki ölkə arasında münasibətlərin inkişafı üçün əhəmiyyətli olan sahələr müzakirə edildi. Hər iki tərəf əlaqələrin ilk mərhələsinin ən vacib məsələsinin məlumat mübadiləsi olduğunu qeyd etdi. İqtisadiyyat sahəsində əməkdaşlığın mənfəətli olacağı, iqtisadiyyat, təhsil, elm və mədəniyyət sahələrində əlaqələrin qurulmasının əhəmiyyəti qeyd edildi.

ARXINA. 05.10.2001-07.11.2001. Qovluq X26, v.7-9.

Xarici İşlər Nazirliyinin ikitərəfli iqtisadi əlaqələr bölməsinin müdiri Aldo Flores ilə görüşdə iqtisadiyyat sahəsinə aid materialların mübadiləsi vasitəsilə konkret sahələri araşdırmaq və əməkdaşlığa başlamaq məsələləri müzakirə olundu.

Meksikanın mədəniyyət və incəsənət üzrə milli şurasının xarici əlaqələr idarəsinin müdiri Ceymi Nyulartla görüşdə bu ölkənin Avropa Şurasının mədəniyyət komitəsində daimi müşahidəçi roluna malik olduğu nəzərə alınaraq əməkdaşlığı genişləndirmək məsələləri müzakirə obyekti oldu. Ceymi Nyulart komitənin Strasburqda 2000-ci ildə keçirilən iclasında Azərbaycan nümayəndələri ilə görüşmüş və əməkdaşlıq imkanlarını, xüsusən qədim abidələrin qorunması sahəsində mümkün əməkdaşlıq məsələlərini müzakirə etmişdi. Meksikanın bu sahədə əməkdaşlığa marağı böyük idi. Söhbət zamanı iki ölkə arasında mədəniyyət və incəsənət sahəsində əməkdaşlığın perspektivlərinin olduğu qeyd edildi. Meksika diplomatı Azərbaycan Respublikası ilə Meksika arasında mədəniyyət sahəsində protokol imzalanmasının vacibliyini bildirdi.

Azərbaycan səfiri Meksika Təhsil Nazirliyinin beynəlxalq əlaqələr idarəsinin müdiri Xuan Serrato ilə görüşərək iki ölkə arasında müvafiq sahədə əməkdaşlığa dair sənədin imzalanmasının mümkünlüyünü vurğuladı.

Enerji sahəsində əməkdaşlığın imkanlarını aydınlaşdırmaq məqsədi ilə Meksikanın Energetika Nazirliyində və Neft Tədqiqatları İnstitutunda görüşlər keçirildi. Meksika tərəfi Azərbaycanda aparılan işlərlə maraqlanır və müvafiq təcrübə ilə tanış olmaq istəyirdi.

Müzakirələr zamanı Azərbaycan səfiri iki ölkə arasında əlaqələrin genişləndirilməsinin, münasibətlərin müqavilə-hüquq bazasının yaradılmasının əhəmiyyətini nəzərə çatdırdı. Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi ilə bağlı Azərbaycan və Ermənistan prezidentləri arasında keçirilən görüşlər, ATƏT-in fəaliyyəti barədə məlumat verdi, 2000- ci il dekabrın 19-da "BMT və ATƏT arasında əməkdaşlıq" qətnaməsinin qəbulu zamanı Meksikanın Azərbaycanın ərazi bütövlüyünə dair qətnamənin lehinə səs verdiyi üçün təşəkkür etdi. Amerika Dövlətləri Təşkilatında Azərbaycana daimi müşahidəçi statusunun verilməsində göstərdiyi dəstəyə görə Meksikaya minnətdarlıq etdi^®*.

Ümumiyyətlə, 1991-2003-cü illərdə Azərbaycan ilə Meksika arasında münasibətlər ilkin formalaşma mərhələsində olmuşdur. Meksikanın Azərbaycanda, Azərbaycanın Meksikada maraqları müəyyənləşdiril-

ARXINA. 05.10.2001-07.11.2001. Qovluq X26, v.lO.

mişdir. İki ölkə arasında əlaqələrdə ticarət-iqtisadi əməkdaşlıq müəyyən yer tutmuşdur. Meksika Azərbaycanın ərazi bütövlüyünü və dövlət müstəqilliyini müdafiə etmişdir.

## LATIN AMERİKASININ DİGƏR ÖLKƏLƏRİ İLƏ MÜNASİBƏTLƏR

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycanın əlaqələr qurduğu Cənubi Amerika ölkələrindən biri Braziliya Federativ Respublikası oldu. Qeyd etmək lazımdır ki, ərazisinin həcminə və əhalisinin sayına görə Braziliya dünyada beşinci yeri tutur. Braziliya 1991-ci il dekabrın 26-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanı- dı^^^.l993-cü il oktyabrın 21-də iki ölkə arasında diplomatik əlaqələr quruldu. Lakin qarşılıqlı münasibətlər bundan irəli getmədi.

Azərbaycan Respublikasının Latın Amerikasında heç bir diplomatik nümayəndəliyinin fəaliyyət göstərmədiyi bir dövrdə Azərbaycanın 2000- ci ildə Amerika Dövlətləri Təşkilatı yanında daimi müşahidəçi statusunu əldə etməsi bu regionda davam edən siyasi prosesləri və həmin dövlətlərin beynəlxalq münasibətlərini daha yaxından müşahidə etmək, gələcək münasibətlərin prioritet istiqamətlərini müəyyənləşdirmək və müvafiq nəticələr çıxarmaqda mühüm rol oynadı. Braziliyanın Türkiyədəki və eyni zamanda Azərbaycanda akkreditə olunmuş səfiri B.Neel 2001-ci il mayın 15-29-da Bakıya səfər etdi. O, mayın 17-də etimadnaməsini Azərbaycan Respublikasının Prezidentinə təqdim etdi. Qısa söhbət zamanı iki ölkə arasında münasibətlərin geniş perspektivlərinin olduğu vurğulandı.

Braziliya ilə əlaqələri genişləndirmək üçün Azərbaycan tərəfi beynəlxalq məclislərin imkanlarından da istifadə edirdi. Belə ki, 2001-ci il iyunun 3-5-də Kosta Rikada (San Xose) keçirilən Amerika Dövlətləri Təşkilatı Baş Məclisinin 31-ci sessiyasında iştirak edən səfir Hafiz Paşayev Braziliya xarici işlər nazirliyi katibliyinin rəisi O.Çoxfı ilə görüşərək ikitərəfli münasibətlərin inkişaf etdirilməsi məsələlərini müzakirə etdi, Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi haqqında məlumat verdi®°°. Braziliya tərəfi Azərbaycana müəyyən maraq göstərirdi.

[599] ARXINA. 2008.
Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti, s. 328.

Braziliyanın Türkiyədəki və eyni zamanda Azərbaycanda akkreditə olunmuş səfiri B.Neel 2002-ci il noyabrın 21-24-də Azərbaycana səfər etdi. Səfər zamanı Azərbaycan Respublikası xarici işlər nazirinin müavinləri Xələf Xələfov, Mahmud Məmmədquliyev, ARDNŞ-in prezidenti Natiq Əliyev ilə keçirilən görüşlərdə iki ölkə arasında siyasi və iqtisadi münasibətlər, Braziliya şirkətlərinin Azərbaycana cəlb olunması, Dağlıq Qarabağ münaqişəsi və terror əleyhinə mübarizə məsələləri müzakirə edildi.

Ümumiyyətlə, 1991-2003-cü illərdə iki ölkə arasında münasibətlər ilkin formalaşma mərhələsində idi. Qarşılıqlı münasibətlər geniş deyildi.

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının əlaqələr qurduğu ölkələrdən biri Şimali, Mərkəzi və Cənubi Amerikanın qovşağında yerləşən Kuba Respublikası oldu. Kuba 1991-ci il dekabrın 26-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini ta- nıdı“’. 1992-ci il martın 27-də iki ölkə arasında diplomatik əlaqələr quruldu. Lakin münasibətlər bununla da məhdudlaşırdı.

Azərbaycan Respublikası beynəlxalq məclislərdə Kubanın haqq işini dəstəkləyirdi. Belə ki, 2002-ci ilin payızında BMT Baş Məclisində “Kubaya münasibətdə Amerika Birləşmiş Ştatlarının tətbiq etdiyi iqtisadi, ticarət və maliyyə blokadasının dayandırılması zərurəti haqqında” qətnamə layihəsi müzakirə edilərkən Azərbaycan Respublikası ötən illərdəki

mövqeyini saxladı . Bununla belə, BMT yanındakı Azərbaycan nümayəndəliyinə məsələ ətrafındakı mühiti, ölkələrin layihəyə münasibətini, əsas problemləri və meyilləri öyrənmək tövsiyə edildi"”. BMT-də müzakirələr zamanı Azərbaycan Respublikası qətnamə layihəsinin lehinə səs verdi. BMT Baş Məclisi Kubaya qarşı blokadanın dayandırılmasına dair qəti mövqeyini nümayiş etdirdi. 173 ölkə, o cümlədən Azərbaycan Respublikası Kuba xalqının haqq işini müdafiə etdi. Buna görə Kuba Respublikasının xarici işlər naziri Felipe Peres Roke Azərbaycan Respublikasının xarici işlər naziri V.Quliyevə noyabrın 15-də məktub yazaraq təşəkkür **etdi“^**

Ümumiyyətlə, bu illərdə iki ölkə arasında münasibətlər zəif və yalnız ilkin formalaşma mərhələsində idi.

Azərbaycan Respublikası qitənin digər dövlətləri ilə də əlaqələr qurdu. Cənubi Amerika yerləşən Çili ilə Azərbaycan arasında diplomatik

ARXINA. 2008.

ARXİNA. 04.10.2002 -28.10.2002. Qovluq XaS, v.149-150.

ARXİNA. 04.10.2002 -28.12.2002. Qovluq XaS, v. 48.

ARXİNA. 04.10.2002-28.12.2002. Qovluq XaS, v. 20-21. 

əlaqələr 1994-cü il noyabrın 3-də quruldu^^. Lakin bu ölkə ilə də münasibətlər ilkin formalaşma mərhələsində idi. 2002-ci il iyulun 25-28- də Çili konqresi prezidentinin xüsusi nümayəndəsi, xüsusi tapşırıqlar üzrə səfir S.Bitarın başçılığı ilə Çilinin BMT-dəki daimi nümayəndəsi Q.Val- des və Xarici İşlər Nazirliyinin Yaxın Şərq və Afrika Departamentinin əməkdaşı M.Donos Azərbaycanda səfərdə oldu. Nümayəndə heyəti Azərbaycan Respublikasının xarici işlər naziri, Milli Məclis sədrinin birinci müavini. Prezidentin İcra Aparatının xarici əlaqələr şöbəsinin müdiri və İqtisadi İnkişaf Nazirliyinin icraçı direktoru ilə görüşərək əməkdaşlıq məsələlərini müzakirə etdi.

Mərkəzi Amerikada yerləşən Kosta Rika Respublikası 1991-ci il dekabrın 28-də Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanı- dı^'*^. İki ölkə arasında diplomatik əlaqələr yalnız 1997-ci il yanvarın 15-də quruldu. Kosta Rika Azərbaycanın Amerika Dövlətləri Təşkilatında daimi müşahidəçi statusu almasını dəstəkləyirdi. Bununla əlaqədar olaraq
2001- ci il aprelin 20-də Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyev xarici işlər naziri R.T.Fahayə təşəkkür məktubu göndərdi.
2002- ci il sentyabrın 16-da BMT Baş Məclisinin sessiya iclasları zamanı Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Kosta Rika Respublikasının Xarici İşlər və Etiqad Nazirliyi arasında siyasi məsləhətləşmələrə dair anlaşma memorandumu imzalandı™’. Bu, qarşılıqlı münasibətlərdə əhəmiyyətli bir sənəd idi.

Cənubi Amerikada yerləşən Ekvador Respublikası 1992-ci il yanvarın 2-də Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı™*.

Mərkəzi Amerikada yerləşən Panama Respublikası yanvarın 3-də Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı™’. 1995-ci il aprelin 6-da iki ölkə arasında diplomatik əlaqələr quruldu.

Cənubi Amerikada yerləşən Argentina Respublikası martın 9-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı®'®. 1993-cü il noyabrın 8-də iki ölkə arasında diplomatik əlaqələr quruldu.

ARXINA. 2008.

ARXINA. 2008.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Kosta Rika Respublikasının Xarici İşlər və Etiqad Nazirliyi arasında siyasi məsləhətləşmələrin yaradılmasına dair anlaşma memorandumu. 16 sentyabr 2002-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. II hissə, s. 57-58.

ARXİNA. 2008.

’ ARXINA. 2008.

1994-cü il noyabrın 1-də Qvatemala®", noyabrın 23-də Nikaraqua®'^ dekabrın 13-də Kolumbiya Respublikası'⁶¹³', 1995-ci il yanvarın 11-də Uruqvay Respublikası ®", mayın 12-də Venesuela Respublikası [615] 1996-cı il iyunun 25-də Peru Respublikası®'®, iyulun 8-də Boliviya' „[617] 2003-cü il mayın 9-da Haiti Respublikası®'^ ilə Azərbaycan Respublikası arasında diplomatik əlaqələr quruldu.

Ümumiyyətlə, dövlət müstəqilliyinin bərpasından sonra ötən illər ərzində Azərbaycan Respublikasının xarici siyasətinin mühüm istiqamətlərindən biri Amerika qitəsi ölkələri, xüsusən ABŞ ilə qarşılıqlı faydalı münasibətlərin qurulması və inkişaf etdirilməsi olmuşdur. Amerika qitəsi ölkələri ilə münasibətlər ilkin formalaşma mərhələsində olmuş və qarşılıqlı maraqlar müəyyənləşdirilmişdir.

---

ARXINA. 2008.
ARXİNA. 2008.
ARXİNA. 2008.
ARXİNA. 2008.
”'■* ARXİNA. 2008.
ARXİNA. 2008.
ARXİNA. 2008.
ARXİNA. 2008.
Azərbaycan Respublikası ilə Haiti Respublikası arasında diplomatik əlaqə yaradılmasına dair kommunike imzalanmışdır. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003.1 hissə, s. 203.

## VIII FƏSIL

# ASİYA VƏ AFRİKA ÖLKƏLƏRİ İLƏ MÜNASİBƏTLƏR

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının xarici siyasətinin istiqamətlərindən biri Asiya və Afrika qitələrinin ölkələri ilə münasibətlərin qurulması oldu. Bu istiqamətdə xarici siyasətin başlıca məqsədi dövlət müstəqilliyini tanıtmaq və möhkəmləndirmək, Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli üçün tərəfdarlar qazanmaq, Azərbaycan haqqında həqiqətləri yaymaq, qarşılıqlı faydalı işgüzar əməkdaşlıq qurmaq olmuşdur.

## PAKİSTAN İSLAM RESPUBLİKASI İLƏ MÜNASİBƏTLƏRİN QURULMASI VƏ İNKİŞAFI

### İlk addımlar

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının xarici siyasətində Pakistan İslam Respublikası ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi xüsusi yer tutdu. Asiyanın cənubunda yerləşən Pakistan bloklara qoşulmamaq hərəkatının iştirakçısı, region və dünya siyasətində özünəməxsus yer tutan bir ölkədir^'^.

Pakistan İslam Respublikası Azərbaycan Respublikasının dövlət müstəqilliyini 1991-ci il dekabrın 12-də tanıdı^"°. Bununla da Pakistan Azərbaycanın dövlət müstəqilliyini tanıyan üçüncü ölkə oldu. Tanınma haqqında qərardan az sonra, dekabr ayının sonlarında Pakistan nümayəndə heyəti Bakıya səfər etdi. Səfər zamanı Azərbaycan Respublikasının İqtisadi Əməkdaşlıq Təşkilatına üzvlüyü məsələsi müzakirə edildi. Bu barədə razılıq əldə olundu.

ARXİNA. 07.11.1995-26.07.1996. Qovluq Xo21, v.2-7.
ARXİNA. 2008.

İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il iyunun 9-da quruldu^^'. Bir müddət keçmiş, 1993-cü il yanvarın 27-də Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının İslamabadda səfirliyinin açılması haqqında 478 saylı qərar qəbul etdi Lakin onu reallaşdırmaq mümkün olmadı. Bundan fərqli olaraq həmin il martın 12-də Pakistan İslam Respublikasının Azərbaycan Respublikasında səfirliyi açıldı®^^.

Pakistan tərəfi Ermənistanın Azərbaycana təcavüzünü birmənalı olaraq pisləyirdi. Kəlbəcər işğal olunduqda 1993-cü il aprelin 30-da BMT Təhlükəsizlik Şurasının iclasında Pakistanın sədrliyi ilə 822 saylı qətnamə qəbul edildi. Qətnamənin qəbulu zamanı Pakistanın tutduğu mövqe Ermənistanın Azərbaycana qarşı təcavüzünə münasibətinin göstəricisi idi.

Pakistan tərəfi təkcə təcavüzün əleyhinə deyildi. Həmçinin təcavüz qurbanları olan dinc əhaliyə yardımlar da etdi. Azərbaycanın Dağlıq Qarabağ regionundan didərgin düşmüş məcburi köçkünlərə yardım məqsədi ilə dəyəri 1 milyon dollar olan 25 tondan artıq humanitar yardım göstərdi.

1994- cü ildən başlayaraq münasibətlərin inkişafı üçün yeni addımlar atıldı. Azərbaycan və Pakistanın xarici işlər nazirliklərinin yazışmaları nəticəsində bir sıra saziş və müqavilələrin imzalanması məqsədi ilə Pakistanın xarici işlər naziri Sərdar Asif Əhməd^'* həmin il yanvarın 24- də Bakıya rəsmi səfər etdi. Səfər zamanı iki ölkənin xarici işlər nazirlikləri arasında məşvərətlər haqqında protokol imzalandı.

Pakistan tərəfi Azərbaycanda baş verən proseslərlə maraqlanır və ölkədə sabitliyin olmasında maraqlı idi. “Əsrin müqaviləsi” imzalandıqdan sonra Azərbaycanda törədilən sui-qəsd hadisələri və qarışıqlıq yaradılmasına cəhdlər edilməsinə dair məsələ 1994-cü il oktyabrın 6-da Azərbaycanın Londondakı səfiri Mahmud Məmmədquliyevin Pakistanın bu ölkədəki səfiri (ali komissarı) Vacid Şamsul Hasan ilə görüşündə müzakirə edildi^^^. Azərbaycan səfiri imzalanmış neft kontraktından sonra Azərbaycanda baş vermiş hadisələr barədə məlumat verdi. Bildirdi ki, bütün bunlar Azərbaycanın düşmənlərinin onun dövlət müstəqilliyi və suverenliyinin ləğvinə yönəldilmiş

Azərbaycan - Pakistan əlaqələri. - Heydər Əliyev və Şərq. 6 cilddə. İKT dövlətləri. V kitab, s. 277-281.

ARXİNA. 1993.

®“ARXİNA. 07.11.1995-26.07.1996. Qovluq Xo21, v.8-10.

Sərdar Asif Əhməd (1940) - Parlamentin büdcə komissiyasının sədri (1991- 1992). Xarici işlər naziri (1993-1996).

ARXİNA. 14.01.1994-19.12.1994. Qovluq XeO, v. 7-8.

tanın Azərbaycanı müdafiə edəcəyinə ümidini ifadə etdi. Pakistan Azərbaycanın müstəqilliyini tam müdafiə edir və daxili işlərinə kənardan hər hansı müdaxilənin əleyhinə idi. Görüşdə Ermənistanın Azərbaycana qarşı təcavüzü məsələsi də müzakirə edildi. İki ölkə arasında münasibətlərin müxtəlif sahələrdə inkişafının vacibliyi vurğulandı. Pakistan Azərbaycana xüsusi maraq göstərirdi.

Bu maraq Azərbaycan Respublikasının xarici işlər naziri Həsən Həsənovun rəhbərlik etdiyi nümayəndə heyətinin 1995-ci il martın 14-15- də İƏT-in 111 zirvə toplantısında iştirak etmək üçün İslamabada səfəri zamanı keçirdiyi görüşlərdə özünü aydın şəkildə göstərdi. Aparılan müzakirələr ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynadı.

Pakistan tərəfi də Azərbaycan ilə sıx əməkdaşlıq üçün bəzi addımlar atdı. Pakistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Pərviz Alam Xanzadə 1995-ci il iyunun 27-də Həsən Həsənovun qəbulunda

oldu^^^. Görüşdə əsasən üç məsələ müzakirə edildi. Birincisi, Pakistanın Baş Naziri Benəzir Bhuttonun^^^ İslamabadda müsəlman qadın parlament üzvlərinin təşkil ediləcək görüşündə Azərbaycan nümayəndə heyətinin iştirak etməsinə dair Heydər Əliyevə məktubu idi. 34 ölkədən nümayəndə heyətinin iştirak edəcəyi bu toplantı müsəlman qadınlarının siyasi, iqtisadi və sosial həyatda fəallıqlarının artırılması məqsədini güdürdü. Məktubunda Benazir Bhutto toplantıya 2-3 nəfər qadın deputatın göndərilməsinə şəxsən nəzarət etməsini Heydər Əliyevdən xahiş edirdi. Xarici işlər naziri belə bir toplantıda Azərbaycan tərəfinin iştirakını əhəmiyyətli hesab edərək, məktubu Azərbaycan Respublikasının Prezidentinə çatdıracağını bildirdi.

İkincisi, Pakistan senatının nümayəndə heyətinin Azərbaycana səfərinin vaxtının dəyişdirilməsi məsələsi müzakirə edildi. 9-10 nəfərdən ibarət nümayəndə heyətinin səfəri 1995-ci il avqustun 7-19-dan avqustun 25- dən sentyabrın 10-na keçirildi. Xarici işlər naziri bu məsələni ölkə rəhbərliyinin diqqətinə çatdıracağını söylədi.

Üçüncüsü, səfir İslamabadda İKT üzvü olan ölkələrin görkəmli şəxslərinin görüşünün keçiriləcəyini bildirdi. Əlavə etdi ki, belə bir toplantıda Azərbaycan Respublikasının iştirakı İKT ilə əlaqələrin möh-

ARXİNA. 07.11.1995-26.07.1996. Qovluq Xo21, v. 180-181.

Benəzir Bhutto (1953-2007) - Pakistan İslam Respublikasının Baş Naziri (1988-1990, 1993-1996).

kəmlənməsinə kömək edər. Xarici işlər naziri belə bir toplantıda Azərbaycanın iştirak etməsi üçün səylər edəcəyini dedi.

İki ölkə arasında münasibətlərdə atılan ilk addımlar yüksək səviyyəli görüşlər üçün zəmin hazırlayırdı. Keçirilən görüşlərdə müzakirə edilən məsələlər qarşılıqlı münasibətlərə yeni keyfiyyət halının verilməsini zəruri edirdi. Bu baxımdan Pakistan İslam Respublikasının Prezidenti Sərdar Faruq Əhməd xan Leqarinin®^* Azərbaycana səfəri mühüm rol oynadı.

## Qarşılıqlı münasibətlərdə yeni keyfiyyət mərhələsi

1995- ci il oktyabrın 9-11-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dəvəti ilə Pakistan İslam Respublikasının Prezidenti Sərdar Faruq Əhməd Xan Leqari Bakıya rəsmi səfər etdi. Bu, Pakistan dövlət başçısının Azərbaycana ilk səfəri idi. Danışıqlarda ikitərəfli siyasi və iqtisadi əlaqələri genişləndirmək məsələləri müzakirə edildi. Hər iki ölkə beynəlxalq təşkilatlar çərçivəsində də səmərəli əməkdaşlıq edirdilər. Azərbaycan Prezidenti Dağlıq Qarabağ münaqişəsinin həlli səyləri haqqında danışdı.

Səfər yüksək səviyyəli qarşılıqlı anlaşma şəraitində və səmərəli keçdi. Oktyabrın 9-da səfərin nəticələrinə dair birgə kommunike; Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında əməkdaşlıq haqqında müqavilələr; hökumət səviyyəsində Pakistan - Azərbaycan birgə komissiyasının yaradılması haqqında Azərbaycan Respublikası hökuməti və Pakistan İslam Respublikası hökuməti arasında protokol; Azərbaycan Respublikası hökuməti və Pakistan İslam Respublikası hökuməti arasında mədəni, elmi və humanitar sahələrdə əməkdaşlıq haqqında saziş; Azərbaycan Respublikası hökuməti və Pakistan İslam Respublikası hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında saziş; Azərbaycan Respublikası və Pakistan İslam Respublikası arasında sərmayələrin qorunması

Sərdar Faruq Əhməd xan Leqari (1940) - İstehsal üzrə nazir (1977), Pakistan Xalq Partiyasının baş katibi (1978-1983), su ehtiyatları və energetika naziri (1989-1990), maliyyə naziri (1993), xarici işlər naziri, Pakistan Prezidenti (1993- 1997).

və təşviqi haqqında saziş imzalandı. Bunlar Azərbaycan ilə Pakistan arasında imzalanan ilk sənədlər idi^^’.

İmzalanan sənədlər arasında iki ölkə arasında 11 maddədən ibarət əməkdaşlıq haqqında müqavilə xüsusi yer tuturdu^^°. Bu müqavilə Azərbaycan ilə Pakistan arasında geniş sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi məqsədini güdür və yeni perspektivlər açırdı.

Pakistan Prezidenti Ermənistanın təcavüzü və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarını itirmiş qaçqın və məcburi köçkünlərlə görüşdü. Daha sonra Azərbaycan Respublikası Milli Məclisində çıxış edərək iki ölkə arasında münasibətlərin əhəmiyyətindən danışdı. Məclis toplantısında çıxış edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iki ölkə arasında münasibətlərdən danışarkən dedi: “Pakistan xalqı ilə Azərbaycan xalqının tarixi keçmişində, adət-ənənələrində çox bənzərlik var və bizim bir dinə mənsub olmağımız xalqlarımızı bir-birinə daha yaxın edib. Bu gün bunların əsasında Pakistan Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və sıx əməkdaşlıq əlaqələri mövcuddur

Səfər qarşılıqlı münasibətlərdə yeni mərhələnin əsasını qoyur, əməkdaşlığın daha da səmərəli olmasına təsir edir, siyasi məsləhətləşmələr üçün geniş imkanlar açırdı. Tərəflər beynəlxalq və regional məsələlərə dair məsləhətləşmələri artırdılar. 1995-ci il noyabrın 8-də Xarici İşlər Nazirliyinin İKT idarəsinin rəisi Vəhdət Sultanzadə Pakistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Pərviz Aləm Xanzadəni qəbul etdi“^. Görüşdə səfir iki məsələni diqqətə çatdırdı. Birincisi, Hindistan hökumətinin Hindistan Kəşmirində seçki keçirmək barədə qərarı haqqında
1995- ci il 5 noyabr tarixli mətbuat üçün məlumatı. Səfir həmin məlumatı oxudu. Hindistan hökuməti bu ərazidə dekabr ayında seçki keçirmək istəyirdi. Belə bir qərar Kəşmir şəhərinin nümayəndələrinin bütün partiyalarının kəskin etirazına səbəb olmuşdu. Partiyalar bildirmişdilər ki, bu

Əliyev H.Ə. Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında əməkdaşlıq haqqında sənədlərin imzalanması mərasimində mətbuat üçün bəyanat. 9 oktyabr 1995-ci il. - Müstəqilliyimiz əbədidir. III kitab, s.337.

Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında əməkdaşlıq haqqında müqavilə. 9 oktyabr 1995-ci il. - Müqavilələr toplusu. I cild, s. 57-60.

Əliyev H.Ə. Pakistan Prezidenti Fərrux Əhməd xan Leqari ilə Azərbaycan Milli Məclisi üzvlərinin görüşündə nitq. 10 oktyabr 1995-ci il. - Müstəqilliyimiz əbədidir. III kitab, s.338.

ARXİNA. 07.11.1995-26.07.1996. Qovluq No21, v. 181-182.

seçkilər Kəşmir xalqının azadlıq uğrunda zəifləməyən mübarizəsini əvəz edə bilməz. İlk dəfə olaraq belə bir seçki hələ 1989-cu ildə keçirilmişdi. O zaman seçkilərdə əhalinin 3%-dən azı iştirak etmişdi. Kəşmirdə Hindistanın yerləşdirdiyi 650 min nəfərlik qoşun hissələri xalqın mübarizəsini dayandıra bilmirdi. Ağır şəraiti başa düşən Pakistan hökuməti Kəşmir və Cammu xalqını diplomatik, siyasi və mənəvi baxımdan müdafiə edirdi. İkincisi, səfir bildirdi ki. Baş Nazir Benəzir Bhutto noyabrın 6-8-də İranda səfərdə olarkən Pakistanda İran tərəfindən neftayırma zavodunun tikintisi haqqında məsələ müzakirə edilmiş, həmçinin İran qazının Pakistana verilməsi barədə saziş imzalanmışdır. Pakistan İrandan 1000 buldozer almaq, İran isə Pakistandan qənd və sement zavodu almağa razılaşmışdılar. Pakistan - İran danışıqları iki raundda - əvvəlcə Tehranda, sonra isə Məşhəddə keçirilmişdi. Bu danışıqlarda Benəzir Bhutto Dağlıq Qarabağ məsələsini qaldırmış, həmçinin Əfqanıstanda yaranmış şəraitdən narahatlığını ifadə etmişdi.

İki ölkə arasında münasibətlər 1995-ci il noyabrın 13-də Azərbaycan Respublikasının Avstriyadakı səfiri Vaqif Sadıqovun Pakistanın bu ölkədəki səfiri Məsumə Həsən ilə görüşündə də müzakirə edildi*^^. Azərbaycan səfiri Azərbaycan Respublikasının dövlət müstəqilliyini Türkiyədən sonra tanıyan ilk ölkələrdən birinin Pakistan olduğunu xüsusi vurğuladı, Azərbaycandakı ictimai-siyasi şərait, aparılan islahatlar, iqtisadi proqramların azad bazar iqtisadiyyatına keçməyə yönəldiyi və demokratik islahatlar barədə məlumat verdi^^". Daha sonra Azərbaycan səfiri Ermənistanın təcavüzünün nəticələri, bu məsələdə böyük dövlətlərin və qonşu ölkələrin mövqelərinə toxundu, tutduğu mövqe üçün Pakistana təşəkkür etdi. Əfqanıstanda baş verən son hadisələrlə bağlı Azərbaycanın narahatlığını bildirdi. Səfir Azərbaycan - Pakistan münasibətlərinin gələcək inkişafına toxunaraq İslamabadda Azərbaycan Respublikasının səfirliyinin açılacağını, iki ölkə arasında siyasi məsləhətləşmələrin aparılmasının və xarici siyasətdə əlaqəli fəaliyyət göstərilməsinin vacibliyini, iqtisadiyyat və ticarət sahələrində böyük əməkdaşlıq imkanlarının olduğunu qeyd etdi, Pakistan mallarının İran ərazisindən tranzit kimi keçərək Azərbaycana gətirilməsi məsələsinə toxundu. İki ölkənin müxtəlif nazirlik və idarələri arasında əlaqələrin qurulmasının vacibliyini vurğuladı. Keçirilən görüşlər Azərbaycan Prezidentinin Pakistana səfərinə hazırlıq məqsədi daşıyırdı.

ARXINA. 07.11.1995-26.07.1996. Qovluq X921, v. 196.

ARXİNA. 07.11.1995-26.07.1996. Qovluq Xo21, v. 137-138. 

## Azərbaycan Prezidentinin Pakistana səfəri

1996- ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Pakistana rəsmi səfərinə hazırlıq işlərinə başlandı^^^. Bununla əlaqədar olan məsələləri müzakirə etmək üçün həmin ilin martın 13-də Pakistanın Bakıdakı səfiri Pərviz Aləm Xanzadə xarici işlər naziri Həsən Həsənov ilə görüşdü®^^. Səfir Pakistanın Baş Naziri Benəzir Bhuttonun Azərbaycan Respublikası Prezidentinin səfərinin aprelin 9-11-də keçirilməsini istədiyini dedi. Daha sonra Azərbaycan Respublikası Prezidentinin səfər proqramı müzakirə edildi. Pakistan tərəfi proqram layihəsini hazırlamışdı. Səfir Azərbaycan Respublikası Xarici İşlər Nazirliyindən iki ölkənin neft-çıxarma, elm, texnika və idman sahələrində əlaqələr qurmaq üçün kömək etməsini xahiş etdi. Heydər Əliyevin Pakistana səfəri zamanı İslamabadda Azərbaycan səfirliyinin açılmasını elan etməsi barədə dövlətinin istəyini də çatdırdı®^’.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1996-cı il aprelin 9-11-də Pakistanda rəsmi səfərdə oldu*^*. Səfər zamanı aşağıdakı ikitərəfli dövlətlərarası və hökumətlərarası sənədlərin tam razılaşdırılması və imzalanması nəzərdə tutulmuşdu: ikitərəfli münasibətlərin inkişafı haqqında birgə bəyanat; konsul konvensiyası; konsulluq məsələləri üzrə əməkdaşlıq haqqında saziş; turizmin inkişafı barədə saziş; ikiqat vergiyə cəlb etməyə yol verilməməsi, gəlirlərə və kapitala görə vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında konvensiya; Azərbaycan Respublikası Milli Bankı və Pakistan İslam Respublikasının Dövlət Bankı arasında qarşılıqlı anlaşma barədə saziş; iki ölkənin hökumətləri arasında elm və texnika üzrə əməkdşahq haqqında saziş; idman sahəsində əməkdaşlıq haqqında saziş®^’.

ARXINA. 07.11.1995-26.07.1996. Qovluq Xs21, v. 113-114.

ARXİNA. 07.11.1995-26.07.1996. Qovluq X22I, v.96-97.

ARXINA. 07.11.1995-26. 07.1996. Qovluq X22I, v.86.

Azərbaycan - Pakistan əlaqələri. - Heydər Əliyev və Şərq. 6 clddə. İKT dövlətləri. V kitab, s. 280.

ARXİNA. 07.11.1995-26.07.1996. Qovluq X22I, v. 64-65.

Qarşılıqlı münasibətlərin daha yüksək səviyyəyə qaldırılmasını nəzərdə tutan ikitərəfli münasibətlərin inkişafı haqqında birgə bəyanat®'*® xüsusi əhəmiyyət daşıyır, geniş perspektivlər açırdı.

Azərbaycan Prezidentinin Pakistan Prezidenti Fərrux Əhməd xan Leqari və Baş Nazir Benəzir Bhutto ilə keçirdiyi danışıqlarda ikitərəfli və regional məsələlər müzakirə edildi. İslamabadda Azərbaycan Respublikasının səfirliyini açmaq, iki ölkə arasında nümayəndə heyətlərinin mübadiləsini artırmaq üçün məsləhətləşmələr aparmaq, parlamentlərarası əlaqələri daha da genişləndirmək, beynəlxalq təşkilatlarda Pakistanın köməyindən istifadə etmək, Pakistanın bu təşkilatlar yanındakı daimi nümayəndəlikləri ilə daha sıx əməkdaşlıq etmək və s. məsələlərə dair fikir mübadiləsi oldu.

Pakistan dövləti Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü daim pisləmiş, BMT Təhlükəsizlik Şurasında məsələ müzakirə olunarkən ədalətli mövqe nümayiş etdirmişdi. Azərbaycan isə Kəşmir məsələsində Pakistanın mövqeyini müdafiə edirdi. Qeyd etmək lazımdır ki, Asiyanın Tibet və Himalay dağlarının kəsişdiyi məntəqədə yerləşən Kəşmir əyaləti qədimdə və orta əsrlərdə Hindistan ərazisində mövcud olan müxtəlif dövlət birləşmələrinin tərkibində olmuşdu. Sonralar Moğol imperiyasına daxil olmuş, əfqanlar və sikxlər tərəfindən işğal edilmişdi. 1845-1846-cı illərdə İngiltərə tərəfindən tutulmuşdu. 1947-ci ildə iki müstəqil dövlət - Hindistan və Pakistan yarandıqda hər biri Kəşmiri öz tərkibində görmək istəmişdi. 1947-ci il oktyabrın 25-də Cammu və Kəşmir Hindistana birləşdirilmişdi.

1948-ci ilin yanvar ayında hər iki ölkənin BMT Təhlükəsizlik Şurasına müraciəti nəticəsində 1948-ci il aprelin 21-də qəbul edilmiş qətnaməyə görə, Cammu və Kəşmir ştatının müqəddəratı plebisist (ümumxalq səsverməsi) vasitəsi ilə müəyyənləşdirilməli idi. Bu qətnamədən sonra daha beş qətnamə qəbul edilsə də, onların heç biri icra olunmamışdı. Pakistan ilə Hindistan arasında 1947-1948, 1965, 1971-ci illərdə silahlı münaqişələr baş vermişdi. Nəticədə Şərqi Pakistan (Banqladeş) müstəqilliyini elan etmişdi. Kəşmirin 30 %-i Pakistanın (hal-hazırda Azad Cammu və Kəşmir adlanır), 60 %-i Hindistanın (Cammu və Kəşmir ştatı) tərkibində qalmışdı. 1962-ci il Hindistan - Çin müharibəsi nəticəsində Kəşmirin

İkitərəfli münasibətlərin inkişafı haqqında Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında birgə bəyanat. 10 aprel 1996-cı 11. - Müqavilələr toplusu. I cild, s.87-90.

10 %-i (Akçay) Çinin nəzarətinə keçmişdi. 1972-ci ilin avqustunda tərəflər atəşkəs xətti əvəzinə yeni nəzarət xətti yaratmışdılar.

Kəşmir dili Hindistanda olan 14 rəsmi dildən biridir. Bu dildə 2,5 milyon adam danışırdı. Kəşmirlilər ərəb qrafikası ilə yazırlar. Kəşmirdə əhalinin 90%-dən çoxunu müsəlmanlar, az bir hissəsini isə hindlilər təşkil edirdilər. Kəşmir məsələsində Azərbaycanın mövqeyi belə idi: məsələsinin silah gücü ilə həll edilməsi birdəfəlik və qəti surətdə dayandırılmalıdır; məsələ danışıqlar yolu ilə siyasi vasitələrlə beynəlxalq hüquq normalarına əsasən həll edilməlidir; münaqişədən zərər çəkmiş əhaliyə humanitar yardım göstərilməlidir®'".

Pakistan və Azərbaycan iqtisadiyyat sahəsində əməkdaşlıqda maraqlı idilər. Danışıqlarda Pakistan işgüzar dairələrini Azərbaycanda yeni kənd təsərrüfatı obyektlərinin tikintisinə, infrastrukturun inkişafına geniş kapital vəsaitləri qoyuluşuna cəlb etmək, birgə müəssisələr yaratmaq, beynəlxalq sərgilərdə Azərbaycanın Ticarət-Sənaye Palatasının iştirakını təmin etmək, ticarətin həcmini artırmaq üçün təminat yaratmaq, AZAL dövlət konserni ilə birlikdə sərnişin və yük daşınması sahəsində Pakistan tərəfi ilə danışıqları davam etdirmək. Binə beynəlxalq hava limanını Avropaya uçan Pakistan təyyarələrinin yanacaq doldurması və texniki xidməti üçün istifadə etmək. Rabitə Nazirliyi ilə birlikdə telekommunikasiya, məlumat və rabitə sahəsində əməkdaşlığı inkişaf etdirmək üçün məsləhətləşmələr aparmaq, Pakistan sənayesinin əsas sahələrindən olan kimya, toxuculuq, qaz, neft emalı və gəmi tikintisi sahələrində əməkdaşlıq etmək, aqrotexnologiya sahəsində mütəxəssislərin mübadiləsini təşkil etmək, Azərbaycana əlverişli kreditlər vermək və s. məsələlər müzakirə edildi.

Hərbi sahədə əməkdaşlıq məsələləri də müzakirə edildi. Bu da səbəbsiz deyildi. Nüvə silahına malik və regionun qüdrətli dövlətlərinin biri olan Pakistan uzun müddət ABŞ və Böyük Britaniya ilə əlverişli siyasi və ticarət münasibətləri saxlamış, hərbi potensialını gücləndirmişdi. Pakistanın hərbi təcrübəsindən və potensialından istifadə etmək faydalı ola bilərdi.

Danışıqlarda humanitar sahədə əməkdaşlıq məsələləri müzakirə olundu. Tərəflər Pakistan ictimaiyyətini Azərbaycanda və onun ətrafında baş verən hadisələrlə tanış etmək və Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu möhkəmləndirmək məqsədi ilə telekommunikasiya sahəsində əməkdaşlığa dair danışıqlar aparmaq, Pakistan televiziyasında Azərbay-

ARXİNA. 07.11.1995-26.07.1996. Qovluq fro21, v.156-157.

cana dair proqramlar hazırlamaq, Azərbaycan kitabının Pakistanda, Pakistan kitabının isə Azərbaycanda sərgisini təşkil etmək, gələcəkdə İslama- badda Azərbaycan kitabı mağazası, Azərbaycanda və Pakistanda mədəniyyət mərkəzləri açmaq və geniş fəaliyyətini təmin etmək barədə razılığa **gəldilər^"^.**

Səfərin yekununda, aprelin 10-da ikitərəfli münasibətlərin inkişafı haqqında Azərbaycan - Pakistan birgə bəyanatı; konsulluq konvensiyası; konsulluq məsələləri üzrə əməkdaşlıq haqqında saziş; turizmin inkişafı haqqında saziş; ikiqat vergiyə cəlb etməyə yol verilməməsi, gəlirlərə və kapitala görə vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında konvensiya; Azərbaycan Respublikası Milli Bankı ilə Pakistan İslam Respublikasının Dövlət Bankı arasında qarşılıqlı anlaşma barədə saziş; elm və texnika üzrə əməkdaşlıq haqqında saziş; Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi ilə Pakistan İslam Respublikası Mədəniyyət, İdman və Turizm Nazirliyi arasında idman sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumu; Gəncə (Azərbaycan) və Multan (Pakistan) arasında qardaşlaşmış şəhər münasibətlərinin qurulması haqqında birgə bəyannamə; ikitərəfli münasibətlərin inkişafı haqqında Azərbaycan Respublikası və Pakistan İslam Respublikası arasında birgə bəyanat imzalandı.

Böyük tarixi əhəmiyyət daşıyan səfər zamanı qarşılıqlı münasibətlərin dərinləşdirilməsi istiqamətində mühüm addımlar atıldı. İki ölkə arasında siyasi, hərbi, iqtisadi, mədəni və humanitar sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi və müvafiq sənədlər imzalandı. Bu sənədlər münasibətlərin müqavilə-hüquq bazasını möhkəmləndirir və inkişafına yeni keyfiyyət verirdi.

İmzalanmış sənədlərin reallaşdırılması üçün səfərdən sonra geniş işlərə başlandı. Pakistanın Bakıdakı səfiri Pərviz Aləm Xanzadə 1996-cı il iyunun 20-də xarici işlər naziri Həsən Həsənov ilə görüşərək imzalanan sənədlərin həyata keçirilməsinə dair məsələləri müzakirə etdi.®'*^ Bundan bir neçə ay sonra, avqustun 24-də Azərbaycan Respublikasının Pakistan İslam Respublikasında səfirliyi açıldı. Azərbaycan Respublikasının Pakistandakı ilk səfiri İsfəndiyar Vahabzadə oldu.

ARXİNA. 07.11.1995-26.07.1996. Qovluq X921, v.l 1-12.
ARXİNA. 07.11.1995-26.07.1996. Qovluq X2 21, s.36.

## Münasibətlər dərinləşir

Azərbaycan Prezidentinin Pakistana səfəri iki ölkə arasında müdafiə sahəsində əməkdaşlıq üçün imkanlar açdı. 1999-cu il mayın 26-31-də və iyunun 1-də İslamabadm Milli Müdafiə Kolleci və Pakistan silahlı qüvvələrinin yüksək rütbəli zabitlərindən ibarət iki nümayəndə heyəti Azərbaycan Respublikasına səfər edərək hərbi əməkdaşlığa dair məsələləri müzakirə etdilər^'*'*.

Bu sahədə əməkdaşlıq növbəti ildə də davam etdirildi. 2000-ci il mayın 6-11-də Pakistan Milli Müdafiə Kollecinin yüksək rütbəli zabitlərindən ibarət 10 nəfərlik nümayəndə heyəti Azərbaycanda səfərdə oldu. Mayın 16-21-də isə Pakistanın İrandakı səfirliyinin attaşesi general M.İf- tixar Azərbaycana səfər edərək müdafiə naziri Səfər Əbiyev ilə ikitərəfli hərbi əməkdaşlıq məsələlərini müzakirə etdi. Tərəflər müdafiə, hərbi təhsil və hərbi sənaye məhsulları istehsalı sahəsində əməkdaşlıq etmək barədə razılığa gəldilər.

Azərbaycan Respublikası Prezidentinin 17 may tarixli sərəncamı ilə Azərbaycan Respublikası hökuməti ilə Pakistan İslam Respublikası arasında Azərbaycan - Pakistan birgə komissiyası yaradıldı. Komissiya müxtəlif sahələrdə əməkdaşlığa dair məsələləri müzakirə etməli və onların həyata keçirilməsi istiqamətində çalışmalı idi. Komissiyanın yaradılması Azərbaycan tərəfinin Pakistan ilə münasibətlərin inkişafına xüsusi əhəmiyyət verdiyini göstərirdi.

Müdafiə sahəsində əməkdaşlıqda mühüm bir addım Azərbaycan Respublikasının müdafiə naziri Səfər Əbiyevin Pakistan İslam Respublikasına 2001-ci il mayın 23-25-də səfəri oldu. Səfər zamanı bu dövlətin ali icraçısı, ölkənin Baş Naziri general Pərviz Müşərrəf, xarici işlər naziri Əbdül Səttar, müdafiə naziri Həmid Nəvaz xan, neft və təbii ehtiyatlar naziri Osman Əminuddin və daxili işlər naziri Mouniddin Heydər ilə keçirilən görüşlərdə ikitərəfli münasibətlərin ən vacib məsələləri müzakirə edildi. Səfərin nəticəsində birgə bəyanat imzalandı. Bəyanatda tərəflərin ikitərəfli, o cümlədən hərbi sahədə əməkdaşlıq etmək niyyətlərinin olduğu vurğulanırdı.

Əməkdaşlığın möhkəmləndirilməsində 2002-ci il aprelin 14-17-də Pakistanın müdafiə naziri Həmid Nəvaz xanın başçılıq etdiyi nümayəndə

Azərbaycan - Pakistan əlaqələri, Heydər Əliyev və Şərq. 6 cilddə. İKT dövlətləri. V kitab, s.281.

heyətinin Azərbaycan Respublikasına rəsmi səfəri başlıca rol oynadı. Nümayəndə heyətini Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qəbul etdi^"^. Görüşdə iki ölkə arasında müdafiə və iqtisadiyyat sahələrində əməkdaşlıq üçün geniş imkanlar olduğu vurğulandı.

Səfərin yekununda, aprelin 15-də Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Pakistan İslam Respublikası Müdafiə Nazirliyi arasında müdafiə və hərbi sahələrdə ikitərəfli əməkdaşlığa dair 5 maddədən ibarət protokol imzalandı^'*®. Tərəflər terrorizmə, separatçılığa, cinayətkar ekstremizmə qarşı çıxır, ölkələrin milli suverenliyi və ərazi bütövlüyünün vacibliyini bildirir, müdafiə və hərbi əməkdaşlığın bütün sahələrində qarşılıqlı fəaliyyəti genişləndirmək üçün illik müntəzəm görüşlərin keçirilməsi, hərbi-texniki sahədə əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi, Azərbaycan silahlı qüvvələri üçün hərbi qulluqçuların Pakistanın hərbi təhsil müəssisələrində hazırlanması barədə razılığa gəldilər.

Böyük əhəmiyyət daşıyan bu sənəd qarşılıqlı münasibətləri dərinləşdirir və ona yeni xarakter verirdi. Bütün bunlar Pakistan ilə əməkdaşlığın artıq Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindən birinə çevrildiyini göstərirdi.

Azərbaycan tərəfi Pakistan ilə münasibətlərə xüsusi yer verirdi. Azərbaycan Prezidentinin 2002-ci il aprelin 18-də verdiyi fərmana uyğun olaraq Təbrizdəki baş konsul Eynulla Mədətli vəzifəsindən geri çağırılaraq Pakistan İslam Respublikasında fövqəladə və səlahiyyətli səfir təyin edildi*^"*'. Bundan sonra iki ölkə arasında əməkdaşlıq daha da genişləndi. Müdafiə sahəsində əməkdaşlığı dərinləşdirmək məqsədi ilə Pakistanın müdafiə naziri 2002-ci il sentyabrın 16-20-də Azərbaycanda səfərdə oldu. Əməkdaşlığa dair müzakirələr keçirildi. Sentyabrın 17-də Azərbaycan Respublikası hökuməti və Pakistan İslam Respublikası hökuməti arasında

Azərbaycan Prezidenti Heydər Əliyev Pakistanın nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 165-166.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Pakistan İslam Respublikası Müdafiə Nazirliyi arasında imzalanmış müdafiə və hərbi sahələrdə ikitərəfli əməkdaşlıq üzrə protokol. 15 aprel 2002-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. II hissə, s. 400-401.

E.Y.Mədətlinin Azərbaycan Respublikasının Pakistan İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. 18 aprel 2002-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. II hissə, s. 367.

17 maddədən ibarət müdafiə və hərbi sahədə əməkdaşlıq haqqında saziş imzalandı®'**. Sazişdə tərəflər hərbi hazırlıq, şəxsi heyətin mübadiləsi, hərbi təlim, məlumat mübadiləsi, sənədlərin mübadiləsi, xidmət vasitələrindən istifadə, hərbi elm və sənaye və s. sahələrdə əməkdaşlıq etmək barədə öhdəlik götürürdülər. Bu sahələr üzrə əməkdaşlıq rəsmi səfərlər, işçi qruplarının mübadiləsi, təcrübə mübadiləsi, məsləhətləşmələr, təlim və ixtisasartırma kurslarında, konfranslarda iştirak, sənədlər, elmi layihələr və patentlər mübadiləsi, qarşılıqlı maraq doğuran məlumat mübadiləsi və s. formalarda həyata keçirilməli idi. Saziş iki ölkə arasında münasibətlərin təməllərini möhkəmləndirir və strateji tərəfdaşlığı gücləndirirdi.

Azərbaycan - Pakistan iqtisadi əməkdaşlığı da inkişaf edirdi. Bu baxımdan 2003-cü il sentyabrın 2-3-də İslamabadda keçirilən iki ölkə arasında birgə komissiyanın iclası əhəmiyyətli oldu. İclasın yekununda imzalanmış protokolda tərəflər ticarət və kommersiya, gömrük məsələləri, nəqliyyat və kommunikasiya, elm və informasiya texnologiyaları, maliyyə və bank işi, ərzaq və kənd təsərrüfatı, mədəniyyət və turizm, neft və qaz, su təsərrüfatı, səhiyyə, təhsil, özəlləşdirmə, ekologiya və ətraf mühit sahələrində əməkdaşlığın genişləndirilməsinin vacibliyini bildirdilər®"*^. Protokol qarşılıqlı münasibətlərin maddi təməllərini möhkəmləndirirdi.

Ümumiyyətlə, Azərbaycan Respublikasının Pakistan İslam Respublikası ilə diplomatik əlaqələri qurulduğu vaxtdan etibarən iki ölkə arasında münasibətlər inkişaf edərək strateji müttəfiqlik səviyyəsinə qalxmışdır. Onlar həmçinin beynəlxalq və regional təşkilatlar (BMT, İKT, İƏT) çərçivəsində də əməkdaşlıq etmişlər. Pakistan İslam Respublikası Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycanın ədalətli mövqeyini birmənalı olaraq dəstəkləmişdir. Pakistanın Ermənistanın Azərbaycana qarşı təcavüzünə münasibətdə mövqeyi özünü 1993-cü il aprel ayının 30-da BMT Təhlükəsizlik Şurasında bu ölkənin sədrliyi ilə 822 saylı qətnamənin və İKT qətnamələrinin qəbul edilməsində göstərmişdir. Pakistan İslam Respublikası işğalçı Ermənistan Respublikası ilə diplomatik əlaqələr qurmamışdır.

Azərbaycan Respublikası hökuməti və Pakistan İslam Respublikası hökuməti arasında müdafiə və hərbi sahədə əməkdaşlıq haqqında saziş. 17 sentyabr 2002-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. II hissə, s. 340-345.

Azərbaycan - Pakistan birgə komissiyasının ikinci iclasının protokolu. 3 sentyabr 2003-cü il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. II hissə, s.482-487.

# ÇİN XALQ RESPUBLİKASI İLƏ MÜNASİBƏTLƏR

## Birbaşa əlaqələrin qurulması

SSRİ dağıdıqdan sonra Çin Xalq Respublikası Orta Asiya və Qafqazda strateji maraqlarını həyata keçirmək, yeni enerji mənbələri olan regionlarda nüfuz qazanmaq imkanı əldə etdi. Çin Xalq Respublikası
1991- ci il dekabrın 27-də Azərbaycan Respublikasının müstəqilliyini tanı dı . 1992-ci il aprelin 2-də Azərbaycan Respublikası ilə ÇXR arasında diplomatik əlaqələrin qurulması haqqında birgə bəyannamə imzalandı. Bundan bir neçə ay sonra, avqust ayında ÇXR-in Azərbaycan Respublikasında səfirliyi açıldı.

Çin ilə əlaqələrə xüsusi diqqət yetirilməsinin bir sıra səbəbləri var idi. Hər şeydən əvvəl, Çin BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri, nüvə dövləti idi, dünya siyasətində mövqeyi və xüsusi çəkisi olan ölkə hesab edilirdi. Tarixən Çin ilə Azərbaycan arasında müəyyən əlaqələr saxlanılmışdı.

Azərbaycan tərəfi Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq təşkilatlar çərçivəsində həllində Çinin diplomatik-siyasi dəstəyinə ümid edirdi. Çin də Azərbaycan ilə əlaqələr qurmaqda maraqlı idi. SSRİ dağıldıqdan sonra yeni bazarlar axtarışında olan Çin Azərbaycana əlverişli tərəfdaş kimi baxır, ona görə də ilk növbədə iqtisadi əlaqələrin qurulmasına xüsusi maraq göstərirdi. Qarşılıqlı maraqları reallaşdırmaq məqsədi ilə 1993-cü il martın 13-də Azərbaycan Respublikasının Xarici İqtisadi Əlaqələr Nazirliyi ilə ÇXR-in Xarici İqtisadi Əlaqələr və Xarici Ticarət Nazirliyi arasında 1993-cü ildə mal dövriyyəsi haqqında memorandum, Azərbaycan Respublikası hökuməti ilə ÇXR hökuməti arasında ÇXR-dən Azərbaycan Respublikasına malların göndərilməsi üçün dövlət krediti ayrılması haqqında saziş imzalandı. Həmin sənədlər iki ölkə arasında münasibətlərdə ilk addımlar idi.

Çin tərəfi Ermənistanın hərbi təcavüzü və etnik təmizləmə siyasəti nəticəsində ev-eşiklərindən didərgin düşmüş azərbaycanlı qaçqın və məcburi köçkünlərin düşdüyü ağır şəraitə biganə qalmayaraq Urumçi şəhərindən bir təyyarə humanitar yardım göndərdi. Azərbaycan da Çin ilə yaxınlaşmaq üçün müəyyən addımlar atdı. 1993-cü il sentyabrın 3-də Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının

’ ARXINA. 2008.

Çin Xalq Respublikasında səfirliyinin açılması haqqında qərar qəbul etdi^^'. Həmin tarixdə Tamerlan Qarayev®^^ Azərbaycan Respublikasının Çin Xalq Respublikasında səfiri təyin edildi^^^ Ona səlahiyyətli və fövqəladə səfir rütbəsi verildi^^". Azərbaycan səfirliyinin açılması BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi Çin ilə münasibətlərə verilən diqqəti göstərirdi.

## Təmas nöqtələri axtanşmda

Çin ilə qarşılıqlı münasibətləri yeni təməllər üzərində qurmaq məqsədi ilə 1994-cü ilin yanvar ayında xarici işlər naziri Həsən Həsənov bu ölkəyə səfər etdi. Keçirilən danışıqlarda Azərbaycan Respublikası Prezidentinin ÇXR-ə səfərinə dair məsələlər müzakirə edildi. Səfər zamanı, yanvarın 4-də Azərbaycan Respublikası hökuməti və ÇXR hökuməti arasında xidməti səfərlər zamanı vizaların alınmaması haqqında saziş, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və ÇXR Xarici İşlər Nazirliyi arasında məşvərət haqqında protokol, Azərbaycan Respublikası hökuməti və ÇXR hökuməti arasında qrup turist səfərləri zamanı vizaların alınması haqqında saziş, Azərbaycan Respublikası və ÇXR arasında konsulluq konvensiyası imzalandı. Konsulluq konvensiyası bir müddət sonra,
1994- cü il dekabrın 20-də Azərbaycan tərəfindən təsdiq edildi®^^.

İki ölkə arasında münasibətlərin inkişafında yeni dövrün başlanğıcını 1994-cü il martın 7-10-da Azərbaycan Respublikasının Prezidenti

Azərbaycan Respublikasının Çin Xalq Respublikasında səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. - Azərbaycan Respublikasının qüvvədə olan normativ sənədləri (1992-1997). Diplomatik fəaliyyət haqqında. I cild. Bakı, 1997, s. 24; ARXİNA. 1993.

Tamerlan Qarayev (1952) - hüquqşünas. Azərbaycan Respublikası Milli Məclisinin deputatı (1990-1993), parlamentin sədr müavini (1991-1992), parlament sədrinin birinci müavini (1992-1993), Azərbaycan Respublikasının Çin Xalq Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri (1993-2001), International Consulting şirkətinin direktoru (2001-2004), Azərbaycan Respublikasının Hindistan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri (2004-2011), İndoneziyada səfir (2011-ci ildən).

ARXİNA. 1993.

ARXİNA. 1993.

'ARXINA. 1994.

Heydər Əliyevin ÇXR-ə rəsmi səfəri qoydu*'^*'. Səfərin sıx proqramı tərtib edilmişdi^'. Bu səfər dünyanın ən böyük dövlətlərindən biri olan Çin ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq qurmaq zərurətindən irəli gəlmişdi. Səfər zamanı Azərbaycan Prezidenti ÇXR-in sədri Tszyan Tsze-
min , ÇXR Dövlət Şurasının sədri Li Pen və Dövlət Şurasının üzvü Li Tein ilə görüşərək ikitərəfli münasibətlərin inkişaf perspektivlərini müzakirə etdi. Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ölkəsinin mövqeyini izah etdi.

İki ölkə arasında siyasi münasibətlərin əsasını ölkələrin ərazi bütövlüyünün və suverenliyinin müdafiəsi təşkil edirdi®*®. Məlum olduğu kimi, 1949-cu ildən etibarən Çində Tayvan problemi mövcud idi. Tayvan artıq 25 dövlətlə diplomatik əlaqə qurmuşdu. Çində Tayvanın iddiaları, Ermənistanın isə Azərbaycana qarşı təcavüzü Azərbaycan Respublikası ilə ÇXR-i yaxınlaşdırırdı. Bu baxımdan Çin və Azərbaycan strateji tərəfdaşlara çevrilirdilər. Çinin digər regionlarında da separatçılıq meyilləri mövcud idi.

Danışıqlarda Heydər Əliyev Ermənistanın təcavüzü və nəticələri barədə danışdı. Çin tərəfi Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıdığını və münaqişənin sülh yolu ilə tezliklə həllinə tərəfdar olduğunu bəyan etdi®*'.

Heydər Əliyev Pekində Beynəlxalq Ticarətin İnkişafına Yardım Komitəsində və Pekin İctimai Elmlər Akademiyasında çıxışlar edərək Azərbaycanın daxili vəziyyəti, həyata keçirilən islahatlar, xarici siyasəti və Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində səylər və ölkəsinin mövqeyi haqqında danışdı.

Martın 7-də Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında ikitərəfli əməkdaşlığa dair 10 mühüm sənəd - dostluq münasibətlərinin əsasları haqqında birgə bəyanat, turizm, sərmayələrin təşviqi

ARXİNA. 25.09.1993-03.03.1994. Qovluq Xs 14, v.l.

ARXİNA. 25.09.1993-03.03.1994. Qovluq Xa 14, v.6-9.

Tszyan Tszemin (1926) - Çinin partiya və dövlət xadimi. Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi (1989-2002). ÇXR-in sədri (1993- 2003).

Li Pen (1928) - Çinin siyasi və dövlət xadimi. ÇXR Dövlət Şurasının sədri (1988-1998). ÇXR Ümumçin Xalq Nümayəndələr Məclisi daimi komitəsinin sədri (1998-2003).

®®° Seyidov E. Azərbaycan - Çin münasibətləri, s.l5.

Çin - Azərbaycan: Dostluq sərhədləri aşır. Bakı, 2000, s.5.

VƏ qarşılıqlı qorunması, elmi-texniki, mədəni, hava əlaqəsi, səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında sazişlər, kinematoqrafiya, radio verilişləri və televiziya sahəsində əməkdaşlığa dair protokol imzalandı.

ÇXR Azərbaycana 60 milyon yuan həcmində əmtəə krediti ayırdı. İki ölkə arasında iqtisadi əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulandı.

Danışıqlar bir sıra məsələlərə münasibətdə tərəflərin baxışlarında uyğunluğun olduğunu göstərdi. Bununla bağlı olaraq Heydər Əliyev deyirdi: "Çin Xalq Respublikasının öz beynəlxalq siyasətində tutduğu mövqeyinin, xüsusən istiqlaliyyət qazanmış və müstəqil inkişaf yoluna qədəm qoymuş ölkələrin müqəddəratı ilə bağlı mövqeyinin bizim üçün çox böyük əhəmiyyəti var. Biz bu məsələdə və dövlətlərin ərazi bütövlüyü, sərhədlərinin pozulmazlığı, suverenlik, istiqlaliyyət məsələlərində mövqe və baxışlarımızın tamamilə uyğun gəldiyini aşkara çıxardıq"^".

Azərbaycan Prezidentinin ÇXR-ə səfərinin tarixi əhəmiyyəti var idi. Bu səfər iki ölkə arasında münasibətlərin inkişafı üçün təmas nöqtələrinin axtarılaraq müəyyən edilməsində və əlaqələrin yeni əməkdaşlıq istiqamətinə daxil olmasına şərait yaratmaqla ikitərəfli münasibətlərin inkişafında yeni mərhələ açır, gələcək perspektivlərinin müəyyənləşdiril- məsinə imkan verirdi. Bununla əlaqədar olaraq Heydər Əliyev deyirdi: "...Azərbaycanla Çin kimi böyük dövlət arasında yüksək səviyyədə əlaqələr yaradılmış və münasibətlərimizin daha da müvəffəqiyyətlə inkişaf etməsi üçün perspektiv açılmışdır. Biz buna böyük əhəmiyyət veririk, çünki Çin Xalq Respublikası dünya iqtisadi sistemində mühüm yer tutur, beynəlxalq həyatda və dünya siyasətində böyük nüfuza malikdir, BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür"^^.

Qeyd etmək lazımdır ki, Çin Azərbaycanın dövlət müstəqilliyini hələ 1991-ci ildə tanımasına baxmayaraq, iki dövlət arasında münasibətlər
1994- cü ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Çinə rəsmi səfərindən sonra formalaşmağa başladı. İlkin mərhələdə ticarət münasibətləri toxuculuq və məişət avadanlıqlarından ibarət olsa da, sonradan Çin özünün enerji təminatının diversifikasiyasina nail olmaq üçün Azərbaycanın xam neftinə və təbii qazına maraq göstərməyə başladı.

Əliyev H.Ə. Çin Xalq Respublikasına rəsmi səfər zamanı Pekində mətbuat konfransında bəyanat. 8 mart 1994-cü il. - Müstəqilliyimiz əbədidir. I kitab. s. 458.

[663] Yenə orada, s. 459.

## Münasibətlərin yeni inkişaf mərhələsi

Heydər Əliyevin ÇXR-ə səfərindən sonra münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoydu. Qarşılıqlı münasibətlərin maddi təməllərinin və hüquq-müqavilə bazasının möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atıldı. 1994-cü il mayın 14-də Azərbaycan Respublikası hökuməti və Çin Xalq Respublikası hökuməti arasında ÇXR-dən Azərbaycan Respublikasına mallar göndərilməsi üçün dövlət krediti ayrılması haqqında saziş imzalandı. İki ölkə arasında münasibətləri möhkəmləndirmək, mövqelərin yaxınlaşmasına nail olmaq, münasibətlərin hüquqi-siyasi əsaslarını möhkəmləndirmək məqsədi ilə 1996-cı il aprelin 17-də ÇXR baş nazirinin müavini, xarici işlər naziri Tsyan Tsiçen Azərbaycana rəsmi səfər etdi.

Keçirilən danışıqlarda tərəflər separatizmə qarşı çıxdılar, beynəlxalq təşkilatlar çərçivəsində daha sıx əməkdaşlıq etmək haqqında razılaşdılar. Eyni zamanda parlamentlərarası əlaqələrin genişləndirilməsinin əhəmiyyəti vurğulandı.

Səfərdən bir neçə ay keçmiş, dekabr ayında Azərbaycan Respublikası Milli Məclisi sədrinin ÇXR-ə səfəri zamanı iki ölkənin qanunverici orqanı arasında əməkdaşlıq üçün imkanlar müzakirə edildi. Tərəflər sıx əməkdaşlıq etmək barədə razılığa gəldilər.

Əməkdaşlıqda növbəti addım 1997-ci il avqustun 30-da Ümumçin Xalq Nümayəndələri Məclisi sədrinin müavini Van Binsyanın rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri oldu. Danışıqlarda əsasən iki ölkə arasında ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi məsələlərin müzakirə edildi. Hər iki tərəf iqtisadi əlaqələrin genişləndirilməsində maraqlı idi. Bu niyyət 1998-ci il iyunun 18-də Bakıda Azərbaycan Respublikası hökuməti ilə Çin Xalq Respublikası hökuməti arasında Çinin Azərbaycana güzəştli kredit verməsi haqqında çərçivə sazişinin imzalanması ilə nəticələndi.

Qarşılıqlı münasibətlərdə hər şey sanki qaydasında gedirdi. Lakin 1998- ci ilin sonlarında yayılan və 1999-cu ilin may ayında geniş əks-səda doğuran bir xəbər Azərbaycan - Çin münasibətlərində gərginlik yaratdı. Bu da Çinin bir şirkətinin Ermənistana 8 ədəd hücum xarakterli “Tayfun” raketi satması xəbəri oldu. Raketlərin Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ regionunda yerləşdirilməsi nəzərdə tutulmuşdu. Azərbaycan tərəfi ÇXR-ə etiraz etdi. Çin ilə Ermənistan arasında həmin raketlərin

alqı-satqı əməliyyatı dayandırıldı. Münasibətlərdəki gərginlik aradan qaldırıldı. 2000-ci ilin iyun ayında Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Penin Azərbaycana səfəri zamanı ÇXR- in Azərbaycandakı səfirliyinin binasının təməlqoyma mərasimi keçirildi.

Li Peni iyunun 23-də Heydər Əliyev qəbul etdi®^'*. Daha sonra nümayəndə heyətləri arasında geniş tərkibli danışıqlar oldu. Çin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, sərhədlərin dəyişdirilməsinin əleyhinə çıxır, təkqütblü dünyanı qəbul etməyərək çoxqütblü dünya yaradılması üçün səylər edirdi®^. Çinin mövqeyinə görə, hər bir ölkə dini və milli inkişaf yolunu özü istədiyi kimi müəyyənləşdirməli idi. Danışıqlarda Çin tərəfi siyasi, iqtisadi və mədəniyyət sahələrində əməkdaşlıq etməyə və onu genişləndirməyə hazır olduğunu bəyan etdi.

Səfər qarşılıqlı münasibətlərə təkan verdi. Belə ki, həmin ilin oktyabr ayında Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyevin ÇXR-də səfəri iki ölkə arasında əlaqələrin inkişafı baxımından əhəmiyyətli oldu.

Azərbaycan 2001-ci ildə ÇXR-də yeni səfirini təyin etdi. Bu, əvvəllər Milli Məclisin deputatı və sədr müavini işləmiş Yaşar Əliyev oldu.

2002- ci ildə Azərbaycan ilə Çin arasında diplomatik münasibətlərin qurulmasının on ili tamam oldu. Ötən illər ərzində münasibətlər inkişaf etmiş və əməkdaşlıq genişlənmişdi. Bu münasibətlə Heydər Əliyev ÇXR sədri Tszyan Tszeminə göndərdiyi təbrik məktubunda ötən on il ərzində iki ölkə arasında münasibətlərdə dostluq və qarşılıqlı surətdə faydalı əməkdaşlıq əlaqələrinin təşəkkül tapdığını, bu əlaqələrin dairəsinin genişləndiyini və səviyyəsinin yüksəldiyini qeyd etdi“^. Tszyan Tszemin isə Heydər Əliyevə göndərdiyi təbrik məktubunda Çin ilə Azərbaycanı qədim İpək yolu dövründən bəri dostluq münasibətlərinin bağladığını, diplomatik münasibətlərin qurulmasının yeni səhifə açdığını vurğulayırdı. ÇXR sədri iki ölkənin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, habelə iqtisadiyyatının inkişaf etdirilməsi naminə səylərdə bir-birini

Əliyev H.Ə. Ümumçin Xalq Nümayəndələr Məclisi daimi komitəsinin sədri Li Pen ilə təkbətək görüşdə söhbət. 23 iyun 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXVIII kitab, s. 285-286.

Əliyev H.Ə. Azərbaycan Respublikasının nümayəndə heyəti ilə Ümumçin Xalq Nümayəndələri Məclisi daimi komitəsinin sədri Li Penin başçılıq etdiyi nümayəndə heyəti arasında danışıqlar. 23 iyun 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXVIII kitab, s. 287-293.

’ ARXINA. 2002.

anladıqlan və dəstəklədiklərini, dostluq və əməkdaşlığın saxlanılmasının və inkişafının hər iki ölkənin və xalqın mənafelərinə uyğun olduğunu qeyd edirdi.

Diplomatik əlaqələrin qurulmasının on illiyi münasibəti ilə xarici işlər naziri Vilayət Quliyev aprelin 4-də Çin Xalq Respublikasının xarici işlər naziri Tan Tzyasuana göndərdiyi məktubda ölkəsinin ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı davam etdirmək əzmində olduğunu bildirdi“^

Əməkdaşlıqda parlamentlər də iştirak edirdilər. 2002-ci il aprelin 11-də Azərbaycan Respublikası Milli Məclis sədrinin ÇXR-ə səfəri iki ölkə arasında münasibətlərin inkişafı baxımından əhəmiyyətli oldu^®*. Cavab səfəri iyunun 15-də keçirildi. Çin parlamenti nümayəndə heyətinin üzvləri və Milli Məclisdə Azərbaycan - Çin parlamentlərarası dostluq qrupu üzvlərinin keçirdikləri görüşlərdə iki ölkə arasında münasibətlərin dərinləşdirilməsinin vacibliyi qeyd edildi®^^.

Çin Azərbaycan ilə enerji sahəsində də əməkdaşlığa maraq göstərirdi. Bu baxımdan 2002-ci ilin iyun ayında ARDNŞ ilə Çin Neft-Kimya Korporasiyasının törəmə müəssisəsi olan və ölkənin 500 ən iri şirkəti arasında 6-cı yeri tutan Şengli şirkəti arasında qarşılıqlı anlaşma memorandumunun imzalanması əhəmiyyətli oldu. Bu, ikitərəfli münasibətlərin maddi təməllərini möhkəmləndirirdi. Qeyd etmək lazımdır ki, 27 milyon illik neft hasilatı olan bu şirkət çoxsahəli olub, kəşfiyyat, işlənmə, saxlanma, nəql, emal və karbohidrogen satışı ilə məşğul olurdu.

Artıq qeyd edildiyi kimi, Çin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirdi. 2002-ci il 2 dekabr tarixində “BMT və ATƏT arasında əməkdaşlıq haqqında qətnamə”yə Azərbaycan tərəfindən hər il irəli sürülən düzəliş üzrə BMT Baş Məclisində keçirilmiş səsvermədə Təhlükəsizlik Şurasının daimi üzvləri arasında ÇXR düzəlişin lehinə səs verən yeganə dövlət oldu. Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyev Çinin xarici işlər naziri Tan Tzyasuana məktub göndərərək Azərbaycanın ədalətli mövqeyini müdafiə etdiyi üçün təşəkkürünü bildirdi^™.

ARXİNA. 2002. Qovluq Xb N, v. 55.

Milli Məclisin nümayəndə heyətinin Çin Xalq Respublikasına rəsmi səfəri. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 166-167.

Çin parlamenti nümayəndə heyətinin Azərbaycana səfəri. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. 1 hissə, s. 366-369.

ARXİNA. 06.01.2003-23.09.2003. Qovluq ftbS, v. 235-236.

Bu zaman Çin də Azərbaycan tərəfindən onun üçün vacib olan bir məsələdə kömək istədi. Belə ki, Vaşinqtonda fəaliyyət göstərən Tibet üzrə Beynəlxalq Kampaniya (International Campaign for Tibet) adlanan qeyri-hökumət təşkilatı 2002-ci ilin avqust ayında Cənubi Afrikada keçiriləcək Dayanıqlı İnkişaf (Sustainable Development) adlı konfransda iştirak etmək niyyətində olduğunu bildirmişdi. Məsələ BMT-də müzakirə ediləcəkdi. Buna qəti etiraz edən Çin hökumətinin mövqeyinə görə, təşkilat yalnız siyasi məqsədlər güdür və ölkənin maraqlarına xələl gətirirdi.

Çinin Bakıdakı səfiri həmin məsələyə dair Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində keçirdiyi görüşlərdə bu təşkilata ABŞ-m himayədarlıq etdiyini vurğuladı. Azərbaycan prinsipial mövqedə qalaraq Çinin ərazi bütövlüyünü tanıyır və dəstəkləyirdi. Azərbaycan tərəfi Çinin mövqeyini dəstəkləmək barədə BMT yanındakı daimi nümayəndəliyinə təlimat verdi®". Azərbaycan Çinin haqlı mövqeyini müdafiə etdi.

Qeyd edildiyi kimi, Çin Azərbaycan ilə neft sahəsində də əlaqələrin qurulmasında maraqlı idi. Çinin Sincan neft şirkətinin nümayəndələri Azərbaycan Respublikasının Çindəki səfiri Yaşar Əliyev ilə görüşdə bu istəklərini bildirmişdilər. Məsələ Azərbaycanda öyrənildi. ARDNŞ bu şirkətlə əlaqələr qurmaq üçün görüş keçirməyə hazır olduğunu bildirdi®”. Əlaqələr quruldu. Müzakirələrə başlanıldı.

İki ölkə arasında əməkdaşlıq məsələlərinin müzakirəsi baxımından 2003- cü il aprelin 10-11-də ÇXR xarici işlər nazirinin müavini Lyu Quçan başda olmaqla nümayəndə heyətinin Azərbaycan Respublikasına səfəri əhəmiyyətli oldu®’^. Aprelin 10-da nümayəndə heyətini Heydər Əliyev qəbul etdi®’". Azərbaycan Prezidenti iki ölkə arasında münasibətlərdə fəal əməkdaşlığın və qarşılıqlı dəstəyin olduğunu, Çin işgüzar dairələrinin Azərbaycan ilə neft sahəsində əməkdaşlıq etməyə maraq göstərdiyini qeyd etdi.

Lyu Quçan Azərbaycanda xeyli dəyişikliklərin olduğunu deyərək onu Heydər Əliyevin apardığı uğurlu siyasətlə əlaqələndirdi. Azərbaycan rəhbərinin Çinə səfərinin əhəmiyyətindən danışaraq bildirdi ki, yüksək siyasi etimad səviyyəsində olan ikitərəfli münasibətlər o zaman imza-

ARXİNA. 2003. Qovluq X2S, v. 76.

ARXİNA. 06.01.2003-23.09.2003. Qovluq XaS, v.l3.

ARXİNA. 06.01.2003-23.09.2003. Qovluq XaS, v. 120-126.

Azərbaycan Prezidenti Heydər Əliyev Çin Xalq Respublikası Xarici İşlər Nazirliyinin nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2003.1 hissə, s. 160-161.

lanmış birgə bəyanatın və razılaşmanın müddəalarına uyğun inkişaf edir. Çin ikitərəfli əlaqələrin inkişafından məmnun idi. Lyu Quçan daha sonra Azərbaycan tərəfinin ölkəsinin suverenliyinin, ərazi bütövlüyünün qorunmasına yönəldilmiş səylərini, münaqişənin sülh yolu ilə həlli istiqamətində fəaliyyətini, habelə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini Çinin dəstəklədiyini vurğuladı. Diplomat eyni zamanda Azərbaycanın da Çinin ərazi bütövlüyü məsələsinə dəstək verdiyini qeyd etdi. Çin tərəfi əlaqələrin daha da inkişaf etdirilməsini istəyirdi.

Heydər Əliyevin fikrincə, Azərbaycan iqtisadiyyatına sərmayə qoyacaq Çin şirkətləri böyük gəlirlər götürəcəkdilər. Azərbaycan iqtisadi əlaqələrin genişləndirilməsində maraqlı idi.

Nümayəndə heyəti Baş Nazir Artur Rasizadə, Milli Məclisin Sədri Murtuz Ələsgərov və xarici işlər naziri Vilayət Quliyev ilə görüşdü. Baş Nazir Artur Rasizadə iki ölkə arasında iqtisadi əməkdaşlığın bütün istiqamətlərdə genişləndirilməsinin zəruriliyini vurğuladı. 2002-ci ildə Azərbaycan ilə Çin arasında ticarət dövriyyəsi 95 milyon dollara çatmışdı. İkitərəfli əməkdaşlığı daha da inkişaf etdirmək üçün lazımi iqtisadi potensial və yüksək dərəcədə siyasi etimad mövcud idi. Bu baxımdan Azərbaycan Prezidentinin Çinə səfəri və imzalanan sənədlər mühüm rol oynamışdı. Baş Nazir təhsil sahəsində, o cümlədən məktəblərin kompyuterlə təmin edilməsində göstərdiyi yardım üçün Çin hökumətinə təşəkkür etdi. Azərbaycan tərəfi Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində səylər barədə məlumat verdi, BMT Təhlükəsizlik Şurasının qətnamələri qəbul edilərkən və ondan sonra Çinin tutduğu mövqeyi yüksək qiymətləndirdi.

Çin diplomatı hökumətinin Azərbaycan ilə iqtisadi münasibətləri dərinləşdirmək niyyətini, bu sahədə hüquqi bazanın yaradılmasının vacibliyini, sənaye müəssisələri arasında birbaşa əlaqələrin qurulmasının gərəkliyini və iki ölkənin iqtisadi forumunun keçirilməsinin əhəmiyyətini qeyd etdi.

Milli Məclisin Sədri Murtuz Ələsgərov ilə keçirilən görüşdə iki ölkə arasında parlament əlaqələrinin dərinləşdirilməsi perspektivləri müzakirə edildi. Münasibətlərin mövcud vəziyyətindən razılıq ifadə olundu. Çin diplomatı Tayvan məsələsində Azərbaycanın tutduğu mövqeyə görə təşəkkür etdi. ÇXR hökumətinin də Azərbaycanın ərazi bütövlüyünü müdafiə etdiyini və onun bərpa olunmasına dair Azərbaycan dövlətinin hər hansı qərarına hörmətlə yanaşacağını vəd etdi.

Nümayəndə heyətinin xarici işlər naziri Vilayət Quliyev ilə danışıqlarında Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurasında müzakirəsi zamanı Çinin tutduğu mövqe yüksək qiymətləndirildi. Çin tərəfi iki ölkə arasında iqtisadi-ticarət, mədəniyyət, səhiyyə və təhsil sahəsində əlaqələrin genişləndirilməsi vacibliyini vurğulayır, Tayvan və Tibet məsələləri ilə bağlı Azərbaycanın mövqeyini yüksək qiymətləndirirdi. İki ölkə arasında ticarət dövriyyəsinin həcminin artması müsbət meyil idi. Mədəniyyət və təhsil sahələrində əlaqələrin böyük perspektivlərinin olduğu bildirildi. Çin dilinin tədrisi məqsədi ilə çinli müəllimlərin Azərbaycana göndərilməsi planlaşdırılırdı. 2002-ci ildə Çinin Tzücou şəhəri ilə Sumqayıtın qardaşlaşmış şəhərlər münasibətinin yaradıldığı, Bakı ilə Çendu arasında da belə münasibətlərin qurulmasının arzu edilən olduğu vurğulandı. Çin tərəfi iki ölkə arasında dostluq cəmiyyətinin qurulmasını da əhəmiyyətli hesab edirdi. Çinli diplomat BMT-də iki ölkə arasında əməkdaşlığın yüksək səviyyəsindən razılığını bildirdi. Azərbaycanı müdafiə etdiyi üçün Çinə Ermənistanın narazılıq bildirdiyini və təzyiq etdiyini də qeyd etdi. Daha sonra nazir müavini məlumat xarakterli söhbətə keçərək “Şərqi Türküstan" təşkilatı haqqında danışdı. Bildirdi ki, bu təşkilat Çinin şimal-qərbində müstəqil Şərqi Türküstan dövləti qurmaq istəyir və BMT-nin terroçu təşkilatlar siyahısına daxil edilmişdir. Çin tərəfində olan məlumatlara görə, bu təşkilatın gizli iclaslarından biri 2002- ci ilin avqust ayında Azərbaycanda keçirilmişdi. 2003-cü ilin may ayında Azərbaycan Respublikasının daxili işlər naziri Ramil Usubovun Çinə gözlənilən səfəri çərçivəsində ÇXR İctimai Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlıq sazişinin imzalanacağını qeyd edən Lyu Quçan bu sazişin iki ölkənin separatizm və terrorizmə qarşı aparacağı mübarizədə vacib rol oynayacağına əmin olduğunu bildirdi.

Vilayət Quliyev Azərbaycan ilə Çinin bir çox məsələlərdə mövqelərinin üst-üstə düşdüyünü qeyd edərək, Azərbaycan ərazilərinin 20%-inin işğal edildiyinə, qaçqın və məcburi köçkünlərin olduğuna, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə diqqəti yönəltdi. BMT Baş Məclisində ATƏT ilə əməkdaşlığa dair qətnamə qəbul edilərkən Çinin Azərbaycanın ərazi bütövlüyünə verdiyi dəstəyi yüksək qiymətləndirdi. “Şərqi Türküstan” ətrafında məsələyə toxunan Vilayət Quliyev Azərbaycan Respublikası hökumətinin Çinin yalnız rəsmi hakimiyyəti ilə əməkdaşlıq etdiyini və heç bir separatçı təşkilatla təmasda olmadığını vurğuladı. Nazir 2002-ci ildə Bakıda Azərbaycan - Çin dostluq cəmiyyətinin qurulduğunu qonağın diqqətinə çatdıraraq, Pekində də belə bir cəmiyyətin yaradılmasını ar

zuladı. Vilayət Quliyev iki ölkə arasında təhsil sahəsində əlaqələrin davam etdirilməsi haqqında söhbət açaraq, təhsil nazirlikləri arasında imzalanmış əməkdaşlıq barədə sazişdə nəzərdə tutulan ÇXR-də təhsil almaq üçün Azərbaycana ayrılan kvotanı artırmağı xahiş etdi. Qeyd etmək lazımdır ki, bu zaman Çin universitetlərində Azərbaycandan 19 nəfər tələbə təhsil alırdı. Azərbaycan tərəfi Çindəki səfirliyi üçün bina ayrılmasını xahiş etdi. Söhbət əsnasında "Azərbaycan - Çin iqtisadi forumu. Pekin 2003" forumunun keçirilməsinin vacibliyini qeyd edən nazir iki ölkə arasında neft- qaz, neft-kimya sahələrində əməkdaşlığının genişləndirilməsinin, Azərbaycan iqtisadiyyatına, o cümlədən kənd təsərrüfatına Çin sərmayəsinin qoyulmasının mümkünlüyünü vurğuladı. Xüsusən energetika sahəsində mövcud investisiya imkanlarını öyrənmək məsələsinə dair razılığa gəlindi. Azərbaycan bu sahədə əməkdaşlığı məqsədəuyğun hesab edirdi^'^. Çinin ayıracağı 5 milyon yuan toxuculuq sənayesinin inkişafına sərf ediləcəkdi. Ciddi əhəmiyyət daşıyan bu səfər zamanı tərəflər ikitərəfli münasibətlərə dair bütün məsələləri açıq və geniş şəkildə müzakirə etdilər. Əməkdaşlığın böyük perspektivlərinin olduğu vurğulandı. Tərəflər bir-birinin ərazi bütövlüyünü və suverenliyini müdafiə edirdilər.

Qeyd etmək lazımdır ki, "Tayvan Çin Respublikasının" Ümumdün- ya Səhiyyə Təşkilatının (ÜST) Assambleyasında müşahidəçi qismində iştirak etməyə dəvət edilməsi haqqında hələ 1997-ci ildən etibarən ÜST- də Tayvanı dəstəkləyən azlıqda olan ölkələr tərəfindən qətnamə irəli sürülmüşdü. Bununla əlaqədar olaraq Çinin Bakıdakı səfirliyi 2003-cü il aprelin 29-da notasını Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə təqdim etdi^^®. Notada mayın 19-28-də Cenevrədə keçiriləcək ÜST- ün 56-cı sessiyasında Tayvanın müşahidəçi qismində dəvət olunmasına dair azlıqda qalan dövlətlərin cəhdlərinə etiraz edilərək bildirilirdi ki, Tayvan Çinin bir əyalətidir və ÜST-də iştirak etmək hüququ yoxdur. Belə cəhdlərin qarşısı hər il alınırdı. Notada deyilirdi ki, Çin Xalq Respublikası və Azərbaycan Respublikası arasında yaxşı ikitərəfli və çoxtərəfli əməkdaşlıq mövcuddur. Çin hökuməti Tayvan məsələsində Çinin mövqeyini Azərbaycanın müdafiə etdiyini yüksək qiymətləndirir, ÜST-ün "iki Çin", "bir Çin, bir Tayvan" siyasətini pisləyir, səsvermə zamanı Çinin mövqeyini müdafiə etməsini xahiş edirdi. Azərbaycan tərəfi bu istəyə müsbət

ARXİNA. 06.01.2003-23.09.2003. Qovluq NaS, v.141-142.
ARXİNA. 2002. Qovluq XaN, v. 135-136.

cavab verərək, səsvermə zamanı Çin Xalq Respublikasının mövqeyini müdafiə etdi.

İki ölkə arasında münasibətlərin maddi təməllərinin möhkəmləndirilməsi istiqamətində də ciddi addımlar atıldı. 2003-cü il iyunun 4-də Bakıda Azərbaycan ilə Çin arasında Bakı şəhərindən 76 km. aralıda Xəzər dənizinin sahilində yerləşən "Pirsaat" yatağına və ona bitişik ərazidə bərpa, kəşfiyyat işlərinə, hasilat və pay bölgüsünə dair ARDNŞ ilə Şengli şirkəti arasında müqavilə imzalandı. Bu müqavilə Azərbaycanın xarici ölkələrlə imzaladığı 22-ci müqavilə idi. Çinin Azərbaycana qoyulmuş sərmayəsi 300 milyon ABŞ dolları idi. Onun 130 milyon dolları neft sənayesinə qoyulmuşdu®''. İki ölkə arasında ticarət dövriyyəsi əgər 1992-ci ildə 1,5 milyon ABŞ dolları idisə, 2003-cü ildə 238,39 mln. ABŞ dolları təşkil edirdi.

Artıq qeyd edildiyi kimi, iki ölkə beynəlxalq təşkilatlar çərçivəsində də səmərəli əməkdaşlıq edirdilər. Azərbaycan öz mövqeyini BMT-də Baş Məclisi 58-ci sessiyasının gündəliyi müzakirə edilən zaman da bildirdi. Azərbaycan Respublikasının daimi nümayəndəsi Yaşar Əliyev ÇXR-in BMT-dəki daimi nümayəndəsi Vang Guangya ilə görüşərək ölkəsinin vahid Çin ideyasını müdafiə etdiyini vurğuladı. Tayvan məsələsinin gündəliyə salınmasının əleyhinə çıxdı®'*. Azərbaycan nümayəndəsi komitə iclasında da bəyantla çıxış edərək Çinin mövqeyini müdafiə etdi.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi İkinci Şərq ərazi idarəsinin rəisi 2003-cü il sentyabrın 26-da ÇXR-ə səfər edərək BMT Baş Məclisinin sessiyası zamanı qarşılıqlı fəaliyyətə dair məsləhətləşmələr apardı. Azərbaycan tərəfi Çinin maraqlarına ziyan gətirəcək heç bir addımı atmayacağını bildirdi. Bu mövqe iki ölkə arasında münasibətləri möhkəmləndirən amillərdən biri idi.

Ümumiyyətlə, 1991-2003-cü illərdə Azərbaycan - Çin münasibətləri inkişaf etmiş, diplomatik-siyasi, ticarət-iqtisadi və b. əməkdaşlıq möhkəmlənmişdir. İki ölkə arasında əməkdaşlıqda təmas nöqtələri tapılmış və qarşılıqlı münasibətlərin hüquq-müqavilə bazası yaradılmışdır. Azərbaycan Çinin, Çin də Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini müdafiə etmişdir. Hər iki ölkə beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq etmişlər. Çin azərbaycanlı qaçqın və məcburi köçkünlərə humanitar yardım göstərmişdir.

Seyidov E. Azərbaycan - Çin münasibətləri, s. 56-57.
ARXİNA. 06.01.2003-23.09.2003. Qovluq XsS, v.9-10

# YAPONİYA ILƏ MÜNASİBƏTLƏRİN QURULMASI VƏ İNKİŞAFI

## İlk təmaslar

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının münasibətlər qurduğu ölkələrdən biri Yaponiya oldu. Yaponiya Azərbaycanın dövlət müstəqilliyini 1991-ci il dekabrın 28-də tanıdı. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il sentyabrın 7-də quruldu®’’.

Azərbaycan Respublikasının dünyanın iqtisadi güc mərkəzlərindən biri olan Yaponiya ilə əməkdaşlığa xüsusi diqqət yetirməsini bir sıra amillər şərtləndirirdi. Müasir texnologiyaları və böyük iqtisadi qüdrəti olan Yaponiya ümumdaxili məcmu məhsulun həcminə görə, dünyada üçüncü, ixrac üzrə dördüncü, idxal üzrə altıncı yeri tuturdu. Yaponiya yüksək həyat səviyyəsi və böyük səkkizlərə daxil olan ölkə idi. Dünya siyasətində nüfuzlu bir dövlət hesab edilirdi. Bu ölkə mütəmadi olaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilirdi. Yaponiya müharibə elan etməkdən rəsmi şəkildə imtina etmiş bir ölkə idi.

Yaponiyanın da Azərbaycanda maraqları var idi. Azərbaycan əlverişli coğrafi-siyasi mövqeyi, təbii sərvətləri ilə Yaponiyanı özünə cəlb edirdi.

Yaponiya Ermənistanın Azərbaycana təcavüzü və etnik təmizləmə siyasəti nəticəsində qaçqın və məcburi köçkünə çevrilmiş azərbaycanlıların ağır vəziyyətinə biganə deyildi. 1993-cü ilin mart ayında Yaponiya Azərbaycana 1 mln. ABŞ dolları məbləğində humanitar yardım etdi.

Yaponiyanın siyasi və işgüzar dairələri ilə əməkdaşlıq imkanları 1994- 1997-ci illərdə Azərbaycan tərəfindən öyrənildi®*®. Geniş əlaqələr qurulmasına qərar verildi. 1995-ci ilin noyabr ayında Bakı şəhər icra hakimiyyəti başçısının rəhbərliyi altında nümayəndə heyəti Yaponiyaya səfər edərək bir sıra bank və müəssisələrdə görüşlər keçirdi. Danışıqların nəticəsində həmin ildə Yaponiya Azərbaycanın kənd təsərrüfatına 1,2 mlrd, ien məbləğində qrant ayırdı. 1996-cı ilin yanvar ayında Azərneftkimya- maş Dövlət Konserninin və Bakı Şəhər Tərtibatı İdarəsinin nümayən-

ARXINA. 2008.

TajibiGoB P. RnoHO-asepöaüuxcaHCKoe coTpyuHHHecTBo ua coBpeMeuHOM arane. Eaxy, 2005, c. 78.

dələnindən ibarət heyətin Yaponiyaya səfəri zamanı iqtisadi və texniki sahədə əməkdaşlıq imkanları müzakirə edildi®^'.

Bundan bir müddət sonra, 1997-ci ilin aprel ayının əvvəllərində Yaponiyanın işgüzar dairələrinin nümayəndə heyəti Azərbaycana səfər etdi. Onlarla görüşdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev xarici sərmayənin qoyulması üçün ölkədə yaxşı şəraitin olduğunu vurğuladı, Azərbaycanı Yaponiyanın Qafqazda etibarlı və faydalı tərəfdaşı kimi qymətləndirdi**^. Azərbaycan dünyanın iqtisadi cəhətdən güclü ölkələrindən biri kimi Yaponiya ilə əməkdaşlığa xüsusi əhəmiyyət verirdi.

Yaponiya Mərkəzi Asiya və Cənubi Qafqaza xüsusi maraq göstərirdi. Siyasi, iqtisadi və strateji mənafelərin cəmləşdiyi həmin planı reallaşdırmaq məqsədi ilə 1997-ci ilin iyul ayında Yaponiyanın Baş Naziri Ryutaro Hasimoto^*^ "Avrasiya diplomatiyası" konsepsiyasını irəli sürdü. Bu sənəddə Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrinə münasibətdə dəqiq konsepsiya əsaslandırılır, Azərbaycana müstəsna yer verilirdi. Konsepsiyada Yaponiya əsasən üç istiqamətdə münasibətlərini inkişaf etdirmək niyyətini bildirirdi: etimad və qarşılıqlı anlaşmanın dərinləşdirilməsi, siyasi dialoq; təbii sərvətlərin işlənilməsi və iqtisadi əməkdaşlıq; nüvə silahının yayılmaması, demokratikləşdirmə və sabitlik.

Yaponiya tərəfi Böyük İpək yolunun bərpasına tərəfdar çıxırdı. Yaponiya hökumətinin baxışına görə. Böyük İpək yolu sadəcə ticarət- iqtisadi əlaqələr üçün bir magistral deyil, XXİ əsrdə bütün beynəlxalq münasibətlər sisteminin mühüm elementlərindən biri olmalı idi. Bu məsələdə Azərbaycana mühüm yer verilirdi.

Qarşıya qoyulmuş məsələləri müzakirə etmək məqsədi ilə 1998-ci ilin yanvar ayında Yaponiya maliyyə dairələrinin nümayəndələri Azərbaycana səfər etdilər. Yanvarın 18-də nümayəndə heyəti ilə Heydər Əliyevin keçirdiyi görüşdə əməkdaşlıq üçün geniş imkanların olduğu vurğulandı. Yaponiya tərəfi Azərbaycan ilə əməkdaşlığa xüsusi maraq göstərirdi. Bunun ardınca, yanvarın 26-dan fevralın 1-dək Baş Nazir Artur Rasizadə başda olmaqla Azərbaycan hökumət nümayəndə heyəti Yaponiyaya səfər edərək yanvarın 27-də Tokioda keçirilən Dünya Bankının

ARXİNA. 2008.

Əliyev H.Ə. Yaponiyanın işgüzar dairələrinin nümyəndələri ilə görüşdə çıxış. 7 aprel 1997-ci il. - Müstəqilliyimiz əbədidir. IX kitab, s.141-143.

Ryutaro Hasimoto (1937-2006) - Yaponiyanın siyasi və dövlət xadimi. Baş Nazir (1996-1998).

Azərbaycan üzrə məsləhət qrupunun iclasında iştirak etdi. Dünyanın 14 ölkəsinin və 9 beynəlxalq təşkilatın nümayəndələrinin iştirak etdiyi iclasda Azərbaycana sərmayə qoyuluşu imkanları müzakirə edildi. Bu sahədə geniş imkanlar var idi. Yaponiya hökuməti həmin toplantıdan az sonra,
1998- ci ilin əvvəllərində Azərbaycana 3, 22 milyon dollar yardım ayrılmasına dair qərar qəbul etdi.

Qarşılıqlı münasibətlərdə mühüm addım Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yaponiyaya rəsmi səfərə dəvət edilməsi oldu. Bu dəvətin siyasi, iqtisadi və ictimai mənası var idi.

## Münasibətlərdə yeni dövr

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1998-ci il fevralın 24-28-də Yaponiyada ilk rəsmi səfərdə oldu. Səfərdə başlıca məqsəd dünyanın inkişaf etmiş ölkələrindən biri olan Yaponiya ilə siyasi və iqtisadi əlaqələri daha da inkişaf etdirmək idi. Avrasiya nəqliyyat dəhlizinə daha çox ölkənin qoşulmasına çalışan Azərbaycan tərəfi Çinə və Yaponiyayadək olan bu magistral üzərində yerləşən ölkələrin dövlət və hökumət başçılarının, nümayəndə heyətlərinin Bakıda görüşünü keçirməyi planlaşdırırdı. Yaponiya Böyük İpək yolu layihəsi ilə yaxından maraqlanırdı.

Səfər çərçivəsində Azərbaycan Prezidenti İtoçi şirkətinin prezidenti Minoro Murofuşi ilə görüşərək iqtisadi əməkdaşlıq məsələlərini müzakirə etdi. Bu zaman Azərbaycanda Yaponiyanın 6 şirkətinin nümayəndəliyi fəaliyyət göstərirdi®*". İki ölkə arasında əməkdaşlıq neft və qaz çərçivəsindən kənara çıxırdı.

Niçimen şirkətinin vitse-prezidenti İto Şunro ilə görüşdə əməkdaşlığı genişləndirmək məsələləri müzakirə edildi. Bu zaman Azərbaycanın Azərkimya Dövlət Şirkəti ilə Niçimen şirkəti arasında sıx əlaqələr qurulmuşdu. Yaponiyanın İdxal-İxrac Bankı Sumqayıtdakı etilen-polieti- len zavodunun EP-300 qurğusunun yenidən qurulması üçün 75 milyon

Əliyev H.Ə. Yaponiyanın İtoçi şirkətinin prezidenti Minoro Murofuşi ilə görü- şündəki söhbətdən. **24** fevral 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XIV kitab, **S.326.**

ABŞ dolları məbləğində güzəştli kredit ayırmışdı^^ Danışıqlar zamanı layihələrin daha dərindən öyrənilməsi üçün işçi qrupun qurulması tövsiyə edildi.

Tomen şirkətinin prezidenti Akixiro Tzuçi ilə görüşdə şirkətin hazırladığı külək enerjisi stansiyalarının Azərbaycanda quraşdırılmasına ehtiyac olduğu və bu sahədə əlaqələrin canlandırılması üçün tələb olunan texniki-iqtisadi əsaslandırma hazırlamağın vacibliyi bildirildi.

Mitsui şirkətinin prezidenti Yeçimo Şqeyi ilə görüşdə ARDNŞ-də ona pay verilməsinə dair razılıq təsdiq edildi. Bu, əməkdaşlıqda yeni bir səhifə açırdı.

Azərbaycan Prezidenti Yaponiya İdxal-İxrac Bankının prezidenti ilə görüşərək ölkə iqtisadiyyatına sərmayə qoyuluşu məsələlərini müzakirə etdi. Yaponiya tərəfi Azərbaycana sərmayə qoyulmasına razılığını bildirdi.

Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Agentliyinin prezidenti Ki- mio Fuçita ilə söhbətdə Azərbaycanın kənd təsərrüfatı üçün maşın və avadanlıq göndərilməsi, ətraf mühitin qorunması sahələrində əməkdaşlıq məsələləri müzakirə edildi. Bu barədə razılıq əldə olundu.

Yaponiyanın xarici ticarətin inkişafı təşkilatının sədri Toyoşimo Toro ilə görüşdə başlıca olaraq Transqafqaz dəhlizi və İpək yolunun bərpası məsələləri müzakirə edildi. Yaponiya tərəfi bu layihələrdə iştirak etməyə razılıq verdi.

Yaponiyanın xarici ölkələrlə iqtisadi əməkdaşlıq fondunun prezidenti Akiro Nisiqaki ilə görüşdə Heydər Əliyev Yaponiyanın Baş Naziri Ryutaro Hasimotonun İpək yolu diplomatiyasını yüksək qiymətləndirdi. Azərbaycan bu istiqamətdə əməkdaşlığa hazır idi.

Azərbaycan Prezidentinin səfərinin zirvəsi fevralın 25-də Yaponiya imperatoru Akixito ilə təkbətək görüşü oldu. İmperator Yaponiyanın Azərbaycan Respublikası ilə əməkdaşlığa xüsusi maraq göstərdiyini, Azərbaycanda həyata keçirilən islahatları diqqətlə izlədiyini və müstəqil dövlət quruculuğunu müdafiə etdiyini bildirdi®*^. Heydər Əliyev ölkədə aparılan islahatların gedişindən, Ermənistanın hərbi təcavüzü və nəticə-

Əliyev H.Ə. Yaponiyanın Niçimen şirkətinin vitse-prezidenti İto Şunro ilə görüşdəki söhbətdən. 24 fevral 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XIV kitab, S.330.

Əliyev H.Ə. Yaponiyanın imperatoru əlahəzrət Akixito ilə təkbətək görüşdəki söhbətdən. 25 fevral 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XIV kitab, s.343-345.

larindən, Azərbaycan ilə Yaponiya arasında iqtisadi əlaqələrin əhəmiyyəti və onların genişləndirilməsinin vacibliyindən danışdı.

Səfərin gedişində Azərbaycan Prezidenti Mitsubisi şirkətinin prezidenti Şinroku Moroxaşi, Simitoma şirkətinin prezidenti Miyuxara Kinçi, Yaponiya Milli Neft Korporasiyasının prezidenti Kunio Komatsu və b. ilə görüşərək onları Azərbaycan ilə əməkdaşlığa dəvət etdi. Şirkətlər Azərbaycan ilə əməkdaşlığa maraq göstərirdilər.

Heydər Əliyev fevralın 26-da Yaponiya parlamenti nümayəndələr palatasının sədri İto Soikxiro ilə görüşərək iki ölkə parlamentləri arasında əməkdaşlığın qurulması və genişləndirilməsi məsələlərini müzakirə etdi. Söhbət zamanı Azərbaycan Prezidenti Ermənistanın təcavüzü və nəticələri, münaqişənin sülh yolu ilə həllinə dair təkliflər, Minsk qrupu həmsədrlərinin fəaliyyəti barədə danışdı®^^.

Elə həmin gün Azərbaycan Prezidenti Yaponiya parlamenti müşavirlər palatasının sədri Sauto Curo ilə görüşərək iki ölkə arasında siyasi, iqtisadi əməkdaşlığın, Transavropa - Asiya nəqliyyat dəhlizinin perspektivləri, Böyük ipək yolunun bərpası üçün may ayında Bakıda keçiriləcək toplantıdan danışdı. Yaponiyanın Baş Nazirinin elan etdiyi və Cənubi Qafqaz, Mərkəzi Asiya dövlətləri ilə hərtərəfli münasibətlərin inkişaf etdirilməsini nəzərdə tutan doktrinanı yüksək qiymətləndirdi^*^.

Azərbaycan Prezidenti Yaponiya - Azərbaycan dostluğu parlament assosiasiyasının sədri Akira Aşari ilə görüşərək münasibətləri möhkəmləndirməyin yollarını müzakirə etdi. Yaponiya tərəfi parlamentlər arasında əməkdaşlığın genişləndirilməsində maraqlı idi.

Heydər Əliyev fevralın 26-da xarici işlər naziri Keyzo Obuçi ilə görüşərək iki ölkə arasında münasibətlərin müxtəlif sahələrinə dair fikir mübadiləsi apardı. Danışıqlar zamanı əsasən Ermənistanın təcavüzü və nəticələri. Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində sülh təşəb büsləri müzakirə edildi [689]

' Əliyev H.Ə. Yaponiya parlamenti nümayəndələr palatasının sədri İto Soikxiro ilə görüşdəki söhbətdən. 26 fevral 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XIV kitab, s.355-357.

Əliyev H.Ə. Yaponiya parlamenti müşavirlər palatasının sədri Sauto Curo ilə görüşdəki söhbətdən. 26 fevral 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XIV kitab, s.358-360.

Əliyev H.Ə. Yaponiyanın xarici işlər naziri Keyzo Obuçi ilə görüşdəki söhbətdən. 26 fevral 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XIV kitab, s.368-370.

Səfər zamanı Azərbaycan Prezidenti Nissö İval, Maribeni, Soni Media Uorld şirkətlərinin rəhbərləri, xarici ticarət və sənaye naziri Misito Xoiuçi və digərləri ilə görüşərək ikitərəfli əlaqələrə dair məsələləri müzakirə etdi. Azərbaycanda yürüdülən açıq qapı siyasətinin bəhrə verdiyini vurğuladı.

Azərbaycan Prezidenti fevralın 26-da Baş Nazir Ryutaro Hasimoto ilə görüşdü^^®. Baş Nazir danışıqlar zamanı Heydər Əliyevin səfərini tarixi hadisə adlandırdı, iki ölkə arasında münasibətlərin gələcək inkişafı üçün mühüm mərhələ təşkil edəcəyini, Azərbaycan ilə əməkdaşlığa Yaponiyanın əhəmiyyət verdiyini qeyd etdi. Ryutaro Hasimoto dedi: "...Sizin bu səfəriniz təkcə iki ölkənin qarşılıqlı münasibətlərində deyil, həm də Böyük İpək yolu üzərində yerləşən dövlətlərin siyasi, iqtisadi və mədəni əlaqələri tarixində yeni dövrün başlanğıcı olacaqdır"®^'.

Heydər Əliyev ölkədəki ictimai-siyasi şərait, iqtisadi islahatlar və Ermənistanın təcavüzü üzərində dayandı. Yaponiyanın Baş Naziri ölkəsinin Azərbaycanın dövlət müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini, münaqişənin Lissabon zirvə görüşündə qəbul edilmiş prinsiplər əsasında həllinə tərəfdar olduğunu bildirərək vurğuladı: "Yaponiya Azərbaycanın haqq işini müdafiə edir, bir ölkənin digər bir ölkənin ərazisini zor gücü ilə ələ keçirməsini qətiyyətlə pisləyir"^^^. O, iki ölkə arasında iqtisadi əlaqələrə dair layihələrə müsbət yanaşırdı. Ümumi razılaşmaya əsasən Yaponiya hökuməti Şimal buxar-qaz elektrik stansiyasının tikintisinə 165 milyon dollarlıq güzəştli kredit ayırmalı və vərəm xəstəxanasının tikintisi üçün isə 1,7 milyon dollar məbləğində tibbi avadanlıq göndərməli idi. Yaponiya tərəfi Azərbaycanın beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığını yüksək qiymətləndirir, Asiya İnkişaf və Beynəlxalq Ticarət Təşkilatına üzv qəbul olunmasını dəstəkləyir, Naxçıvan hava limanının yenidən qurulması layihəsinə maraq göstərirdi. Baş Nazir Bakıda Onkoloji Mərkəzin tikintisinin başa çatdırılmasının maliyyələşdirilməsinə də Yaponiyanın kömək göstərmək niyyətini bildirdi və söhbətin sonunda dedi: "Məndə sizin keçirdiyiniz görüşlərin siyahısı vardır. Belə gərgin işiniz məndə heyrət doğurur". O, Bakıda keçiriləcək Böyük İpək yolu beynəlxalq konfransında ölkəsinin nümayəndə heyətinin iştirak edəcəyini bildirdi.

Əliyev H.Ə. Yaponiyanın Baş Naziri Ryutaro Haşimito ilə görüşdəki söhbət dən. 26 fevral 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XIV kitab, s.383-389.

[691] Yenə orada, s.384.

' Yenə orada, s.385.

Danışıqlar səmərəli keçmişdi. Fevralın 26-da iki ölkə arasında sənədlərin imzalanması mərasimi oldu. Azərbaycan Respublikası ilə Yaponiya arasında dostluq və tərəfdaşlıq haqqında birgə bəyanat*^^ imzalandı. Həmçinin, iki ölkə arasında ticarət və iqtisadi sahədə əməkdaşlıq haqqında birgə bəyanat, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Yaponiyanın Xarici İşlər Nazirliyi arasında məsləhətləşmələr haqqında birgə kommunike. Xəzər dənizinin Azərbaycan sektorundakı "Kürdaşı" blokunun birgə işlənilməsində pay verilməsi haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Yaponiyanın Mitsui Oyl Eksploreyşn Şirkəti arasında saziş, Azərbaycan Respublikasının hökuməti ilə Yaponiyanın Xarici Ölkələrlə İqtisadi Əməkdaşlıq Fondu arasında Şimal buxar- qaz elektrik stansiyasının tikintisi layihəsi haqqında kredit sazişi, Azərbaycan Respublikasının hökuməti ilə Yaponiyanın İxrac-İdxal Bankı arasında Sumqayıt Etilen-Polietilen zavodunda EP-300 qurğusunun yenidən qurulması layihəsinin maliyyələşdirilməsi haqqında saziş və Azərbaycanda ərzaq məhsulları istehsalının inkişaf etdirilməsi üçün əvəzsiz yardım (qrant) ayrılmasına dair notalar mübadiləsi imzalandı.

Səfər zamanı Azərbaycan Prezidenti kütləvi informasiya vasitələrinin nümayəndələrinə müsahibələr verdi, sənaye müəssisələrinə baş çəkdi və Yaponiyada təhsil alan azərbaycanlı tələbələrlə görüşdü.

Yaponiyaya səfər tarixi əhəmiyyət daşıyırdı. Danışıqlar və imzalanan sənədlər iki ölkə arasında münasibətlərdə yeni dövrün başlanğıcını qoyurdu. Danışıqlarda siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın hər iki ölkə üçün əhəmiyyəti, bu əlaqələrin daha da inkişaf etdirilməsinin məqsədəuyğunluğu və vacibliyi qeyd edilmişdi. Tərəflərin beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş prinsiplərini əsas tutaraq təcavüz və terror aktlarının bütün formalarını qətiyyətlə pisləmələrinin, dövlətlərarası münasibətlərdə zor işlətməyin yolverilməz olduğunu təsdiq etmələrinin. Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Lissabon sammitinin üç prinsipi əsasında tezliklə və sülh yolu ilə həllinə tərəfdar olmalarının böyük əhəmiyyəti var idi. Yaponiya Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirdi. Tərəflərin Mərkəzi Asiya və Cənubi Qafqaz regionlarının inkişafına yönəlmiş Transavropa - Asiya dəhlizinin (İpək yolu) vacibliyini vurğulamalan və ona tərəfdar olmaları münasibətlərin ikitərəfli çərçivədən çıxaraq geniş miqyas aldığını göstərirdi. İmzalanan

Azərbaycan Respublikası ilə Yaponiya arasında dostluq və tərəfdaşlıq haqqında birgə bəyanat. 26 fevral. 1998-ci il. - Müqavilələr toplusu. I cild, s.168-170.

sənədlər iki ölkə arasında hərtərəfli əməkdaşlığın genişlənməsi sahəsində yeni dövrün əsasını qoymaqla Azərbaycana sərmayə axınının artmasında mühüm rol oynayır, hüquq-müqavilə bazası yaradırdı. Əməkdaşlığın inkişaf etdirilməsi üçün ikitərəfli hökumətlərarası komissiyanın qurulması müsbət hadisə idi.

## Əməkdaşlıq dərinləşir

Səfər başa çatdıqdan az sonra, 1998-ci il martın 3-də Heydər Əliyev "Azərbaycan Respublikası ilə Yaponiya arasında əməkdaşlığın genişləndirilməsi tədbirləri haqqında" sənəd imzaladı®'^'. 15 maddədən ibarət olan bu sənədə görə, Azərbaycan Respublikası Nazirlər Kabineti Azərbaycan Respublikası və Yaponiya arasında əlaqələri daha da inkişaf etdirmək məqsədilə qarşılıqlı səmərəli əməkdaşlıq mexanizminin qurulması barədə Yaponiya tərəfi ilə razılaşdırmaqla təkliflərini iki ay müddətində Azərbaycan Respublikası Prezidentinə təqdim etməli; səfər zamanı imzalanmış sənədlərdə nəzərdə tutulan məsələlərin həyata keçirilməsi üçün tədbirləri yerinə yetirməli idi və s. Azərbaycanın nazirlik və idarələri. Milli Məclis iki ölkə arasında siyasi, iqtisadi, mədəni, elmi və digər sahələrdə əlaqələrin daha da genişləndirilməsi məqsədilə Yaponiyanın müvafiq idarə və təşkilatları ilə başlamış əməkdaşlığı davam etdirməli idilər.

Azərbaycan Respublikasının Yaponiya ilə münasibətlərinin əsas istiqamətləri və konkret məqsədlərini müəyyənləşdirən bu sənədin imzalanmasından ötən qısa müddət ərzində Yaponiyanın köməyi ilə Bakı, Gəncə və Sumqayıt şəhərlərində bir neçə müəssisə modernləşdirildi. Yaponiya Azərbaycana irihəcmli sərmayələr qoydu. Energetika sahəsində əməkdaşlıq genişləndirildi. 1998-ci il dekabrın 25-də Xəzər dənizinin Azərbaycan sektorundakı "Yanan tava", "Atəşgah" və "Muğan dəniz" blokunun kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Dövlət Neft Şirkəti ilə Yaponiyanın Çapan Petrolium, İndoneziya Petrolium, İtoçu Oyl Eksploreyşn və Teykoku oyl neft şirkətləri arasında müqavilə imzalandı. Yaponiya kompaniyaları ilə konsorsium quruldu. Bu

Əliyev H.Ə. Azərbaycan Respublikası ilə Yaponiya arasında əməkdaşlığın genişləndirilməsi haqqında. 3 mart 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XV kitab, s.46-52.

münasibətlə keçirilən toplantıda Azərbaycan Prezidenti nitq söylədi.^^^ Sahəsi 510 kv. km. olan yataqdan 75-90 milyon ton neft hasilatı gözlənilirdi. Buraya təqribən 2,3 milyard dollar sərmayə qoymaq nəzərdə tutulmuşdu. Layihənin 50%-i Azərbaycan, 50%-i isə Yaponiya şirkətlərinə çatacaqdı. Qoyulan xərclərin hamısını Yaponiya şirkətləri ödəyəcəkdi. Beləliklə, Azərbaycanın neftə dair imzaladığı müqavilələrin sayı 16-ya çatırdı. Yaponiyanın dörd şirkətinin Azərbaycana gəlməsi nəzərdə tutulurdu.

Bundan sonra Azərbaycan tərəfi Yaponiya ilə əməkdaşlığı dərinləşdirmək üçün əlavə addımlar atdı. 1999-cu il fevralın 5-də Azərbaycan Prezidentinin sərəncamı ilə Yaponiya ilə iqtisadi əməkdaşlığa dair dövlət komissiyası yaradıldı. Komissiyanın sədri baş nazirin müavini Abid Şərifov təyin edildi. Yaponiya tərəfindən bu komissiyaya Niçimen korporasiyasının prezidenti Akira Vatari rəhbərlik edirdi. Komissiya sədrinin 1999- cu ilin mart ayında Yaponiyaya səfəri nəticəsində konkret məsələlər həll edildi. Martın 24-də Sumqayıtda EP-300 istehsalatında buxar- generator qurğusunun özülü qoyuldu. Bu qurğunun tikintisinə dair sənəd hələ Heydər Əliyevin səfəri zamanı imzalanmış və Yaponiyanın Eskim- bankı tikinti üçün kredit ayırmışdı.

Mart ayında Bakıda keçirilən ikitərəfli iqtisadi komissiyanın iclasının nəticəsində Yaponiya Azərbaycanda iki xəstəxananın təmiri və yeyinti sənayesi üçün qrant ayırdı. Bunun ardınca elə həmin ildə Yaponiya Azərbaycan kənd təsərrüfatı üçün 390 mln. ien (3.2 mln. dollar) qrant verdi. Həmin məbləğə kənd təsərrüfatı texnikası alındı. Bütün bunlar iki ölkə arasında münasibətlərə dinamizm verir və siyasi sahədə əməkdaşlığa kömək edirdi.

İki ölkə arasında münasibətlərin inkişafında 1999-cu ilin may ayında Yaponiyanın xarici işlər naziri Masaxuko Koumuranm Azərbaycana səfəri mühüm rol oynadı. Danışıqlarda Yaponiya tərəfi Azərbaycanın ərazi bütövlüyü və suverenliyini müdafiə etdiyini bildirdi. Tərəflər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq etmək və siyasi məsləhətləş-

^ Əliyev H.Ə. Xəzərin Azərbaycan sektorundakı "Yanan tava", "Atəşgah" və "Muğan dəniz" blokunun kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Dövlət Neft Şirkəti ilə Yaponiyanın Çapan Petrolium, İndoneziya Petrolium, İtoçu Oyl Eksploreyşn və Teykoku Oyl neft şirkətləri arasında müqavilənin imzalanması mərasimində nitq. 25 dekabr 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVIII kitab, s. 462-469.

mələr barədə razılığa gəldilər. Səfər zamanı Yaponiya tərəfi Azərbaycan Gənclər və İdman Nazirliyinə 400 min dollar həcmində qrant ayırdı.

İki ölkə arasında əməkdaşlıqda parlamentlər də müəyyən rol oynayırdılar. 1999-cu ilin oktyabr ayında Yaponiya parlamenti nümayəndələr palatasının üzvü, hakim Liberal-Demokrat Partiyasının xarici siyasət məsələləri komitəsinin sədri Taro Nakayama başda olmaqla nümayəndə heyəti Azərbaycana səfər etdi. Nümayəndə heyətinin tərkibinə parlament üzvləri, hökumət orqanlarının, dövlət müəssisələrinin, habelə özəl sektorun nümayəndələri daxil idi. Oktyabrın 8-də nümayəndə heyətini Heydər Əliyev qəbul etdi^®^. Münasibətlərin, o cümlədən parlamentlər arasında əlaqələrin möhkəm təməli hələ Heydər Əliyevin Yaponiyaya səfəri zamanı qoyulmuşdu. Azərbaycan Prezidenti iki ölkə arasında münasibətlərin inkişafı barədə danışdı. Yaponiya hökumətinin Azərbaycana ayırdığı kredit 320 milyon dollardan artıq idi. Azərkimya Dövlət Şirkəti Niçimen şirkəti ilə polietilen istehsalı üzrə birgə iş haqqında razılığa gəlmişdilər. İtoçu və digər şirkətlər Xəzər dənizinin Azərbaycan sektorundakı neft və qaz yataqlarına aid layihələrdə əməkdaşlıq edirdilər.

Yaponiya nümayəndə heyətinin rəhbəri Baş Nazir Keyzo Obuçinin məktubunu Heydər Əliyevə təqdim etdi. O, ölkəsinin Azərbaycan ilə əməkdaşlığa verdiyi əhəmiyyəti belə qiymətləndirdi: “Yaponiya Qafqaz bölgəsinin ölkələri arasında sizin dövlətinizə ən böyük əhəmiyyət verir”. Yaponiya hökuməti 2000-ci ilin yanvar ayında Azərbaycanda səfirlik açmağı planlaşdırır, onu Avropa ilə Asiya arasında mühüm məntəqə kimi qiymətləndirirdi. Səfər zamanı neft və energetika sektorları ilə yanaşı digər sahələrdə də əməkdaşlığın vacibliyi vurğulandı. Yaponiya tərəfi iki ölkənin gəncləri arasında əlaqələrə də əhəmiyyət verirdi.

Səfərdən az sonra, oktyabrın 12-də Tokioda Azərbaycan - Yaponiya birgə iqtisadi komissiyasının iclası keçirildi. Azərbaycan nümayəndə heyətinə baş nazirin müavini Abid Şərifov başçılıq edirdi. İki ölkə arasında ticarət dövriyyəsinin həcmi də ildən-ilə artırdı. Belə ki, əgər 1996-cı ildə ticarət dövriyyəsinin həcmi 2,6 mln. dollar idisə, 1999-cu ildə 55,9 mln. dollara çatmışdı. Bütün bunlar münasibətlərin maddi təməlinin möhkəmləndiyini göstərirdi.

Azərbaycan ilə əməkdaşlığa xüsusi əhəmiyyət verən Yaponiya 2000- ci il yanvarın 21-də Azərbaycan Respublikasında səfirliyini təsis

Əliyev H.Ə. Yaponiya nümayəndə heyəti ilə görüşdə söhbət. 8 oktyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXII kitab, s. 146-151.

etdi. Yaponiyanın Azərbaycanda təyin olunmuş ilk səfiri Tetsuya Hirose 2000- ci il iyulun 15-də etimadnaməsini Azərbaycan Respublikasının Prezidentinə təqdim etdi. Səfirliyin açılması iki ölkə arasında münasibətlərə yeni keyfiyyət halı verirdi. Qısa söhbət zamanı Azərbaycan Prezidenti ölkəsinin Yaponiya ilə əməkdaşlığa əhəmiyyət verdiyini bildirdi.

Azərbaycan - Yaponiya münasibətlərinin inkişafının geniş perspektivləri var idi. Bu, neft sənayesi sahəsində xüsusi ilə özünü göstərirdi. 2000- ci ilin iyul ayında Yaponiya milli neft korporasiyasının prezidenti Yoşiro Kamata başda olmaqla korporasiyanın nümayəndə heyətinin Azərbaycana səfəri zamanı Yaponiya neft və neft kəşfiyyatı şirkətlərinin Xəzər dənizinin Azərbaycan sektorunda apardığı işlər müzakirə olundu®^^.

Bakıda Yaponiya - Azərbaycan iqtisadi komissiyasının 2000-ci il dekabrın 30-da keçirilən iclasında əməkdaşlığın yeni sahələrinin qurulmasının vacibliyi qeyd edildi. Əməkdaşlığa dinamizm verildi.

İki ölkə arasında münasibətlər yüksələn xətt üzrə inkişaf edirdi. 2001- ci ilin iyun ayında xarici işlər naziri Vilayət Quliyevin, noyabr ayında isə baş nazirin müavini Abid Şərifovun Yaponiyaya səfərləri münasibətləri daha da dərinləşdirirdi. 2001-ci ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 67 mln. dollara çatmışdı.

Yaponiyanın Azərbaycandakı səfiri T.Hirosenin səlahiyyət müddəti 2002- ci il may ayının 31-də başa çatdı. Yaponiya xarici işlər nazirinin müavini Şeiken Şuquranm 2002-ci ilin iyul ayında Azərbaycana səfəri zamanı Bakıda Yaponiya səfirliyinin binasının açılışı oldu. Yaponiya hökuməti ABŞ-m Kanzas şəhərində baş konsulu vəzifəsində işləmiş Tosiyuki Fucivaranı Azərbaycan Respublikasında yeni səfir təyin etdi. O, 2002-ci il iyulun 9-da etimadnaməsini Azərbaycan Respublikasının Prezidentinə təqdim etdi. Bundan bir neçə ay sonra, oktyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisi Azərbaycan Respublikasının Yaponiyada səfirli- yinin təsis olunması haqqında qanun qəbul etdi . Dekabrın 6-da isə

Əliyev H.Ə. Yaponiya milli neft korporasiyasının prezidenti Yoşiro Kamata başda olmaqla korporasiyanın nümayəndə heyəti ilə görüşdə söhbət. 25 iyul 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXIX kitab, s. 267-272.

Azərbaycan Respublikasının Yaponiyada (Tokio şəhərində) səfirliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. 1 oktyabr 2002-ci il. - ARXİNA. 28.10.2002 - 30.12. 2002. Qovluq Xs S, v.l3.

Tokioda səfirliyin təsis edilməsi və fəaliyyətinin təşkilati təminatı haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı imzalandı^^^.

Yaponiyada Azərbaycan səfirliyinin açılması ilə qarşılıqlı münasibətlər intensivləşdi və siyasi məsləhətləşmələr artdı. 2003-cü ilin yanvar ayında xarici işlər nazirinin müavini Xələf Xələfov başda olmaqla nümayəndə heyətinin Yaponiyaya səfəri zamanı hələ SSRİ dövründə imzalanmış müqavilələrin Azərbaycana aid edilməsinə dair saziş imzalandı.

2003- cü ilin fevral ayında isə Yaponiya xarici işlər nazirinin müavini Tetsuro Yano Bakıya səfər edərək ikitərəfli münasibətlərə dair məsləhətləşmələr apardı. Tərəflər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq barədə razılığa gəldilər.

Yaponiya parlamentinin sədr müavini Ş.Motoka başda olmaqla nümayəndə heyətinin 2003-cü il sentyabrın 10-13-də Azərbaycana səfərində parlamentlərarası əlaqələrin genişləndirilməsi məsələləri müzakirə edildi. Bundan az sonra, sentyabrın 26-da Azərbaycan Respublikasında neft maşınqayırması sənayesinin inkişafına yönəldilən model layihə üzrə iki ölkə arasında anlaşma memorandumu imzalandı.

Yaponiya xarici işlər nazirinin müavini İçiro Fucisaki başda olmaqla Yaponiya Xarici İşlər Nazirliyinin, Beynəlxalq Əməkdaşlıq Agentliyinin (JICA) və Xarici Ticarət Təşkilatının (JETRO) nümayəndə heyətlərinin 2003-cü ilin noyabr ayında Azərbaycana səfərləri qarşılıqlı münasibətlərin maddi təməlinin möhkəmləndirilməsində mühüm rol oynadı. İçiro Fucisakinin xarici işlər nazirinin müavini Xələf Xələfov ilə görüşündə iki ölkə arasında əlaqələrin davamlı inkişafının, həyata keçirilən iri layihələrin əhəmiyyəti qeyd edildi, azərbaycanlı qaçqın və məcburi köçkünlərin ağır vəziyyətinə diqqət yetirildi™”. Yaponiya xarici işlər nazirinin müavini Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə ümidvar olduğunu, qaçqın və məcburi köçkünlərə ölkəsinin yardımları davam etdirəcəyini bildirdi.

Qeyd etmək lazımdır ki, 2003-cü ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 122 mln. dollar təşkil edirdi. Bütövlükdə, Yaponiyanın

Azərbaycan Respublikasının Yaponiyadakı (Tokio şəhərində) səfirliyinin fəaliyyətinin təminatı haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 6 dekabr 2002-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002, II hissə, s. 589.

Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Xələf Xələfovun Yaponiyanın xarici işlər nazirinin müavini İçiro Fucisaki ilə görüşü. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2003, oktyabr-dekabr, Xs 5, s. 107.

Azərbaycana qoyduğu sərmayənin məbləği 15 milyard dollardan çox idi. Yaponiya Azərbaycanda səhiyyə müəssisələri və məktəblərin təmiri və tikintisinə maliyyə vəsaitləri ayırmış, bir neçə rayonunda məktəb binalarının tikintisini maliyyələşdirmişdir.

Ümumiyyətlə, Azərbaycan - Yaponiya münasibətləri zəngin inkişaf yolu keçmişdir. Araşdırılan illərdə münasibətlərin maddi və hüquq-müqavilə bazası yaradılmışdır. Qarşılıqlı fayda əsasında ticarət-iqtisadi və s. sahələrdə əməkdaşlıq qurulmuşdur. Yaponiya Azərbaycana sərmayələr qoymuşdur. Hər iki ölkə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq etmişdir.

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI İLƏ MÜNASİBƏTLƏR

### Münasibətləri şərtləndirən amillər

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının xarici siyasətinin istiqamətlərindən biri Yaxın Şərqi, Fars körfəzini və Şimali Afrikanı əhatə edən ərəb ölkələri, xüsusən Ərəb Şərqi ölkələri ilə hərtərəfli əlaqələri qurmaq və genişləndirmək oldu. Ərəb dövlətləri, o cümlədən İslam dünyasının liderlərindən biri və böyük maliyyə imkanları olan Səudiyyə Ərəbistanı ilə diplomatik münasibətlərin qurulması və inkişafını bir sıra amillər zəruri edirdi. Bu ölkələr dünya iqtisadiyyatında və enerji təchizatında mühüm rol oynayırdılar. Təkcə Fars körfəzi rayonunda dünya neft ehtiyatlarının 2/3-ü, qaz ehtiyatlarının 1/3-2 yerləşmişdi. Ərəb nefti və qazı Qərb ölkələri iqtisadiyyatında mühüm sabitləşdirici amil idi. Enerji daşıyıcılarının ixracı bu ölkələrin iqtisadi qüdrətini təmin edir və siyasi nüfuzunun artmasına təsir edirdi. Ərəb ölkələrinin nadir coğrafi, geoiqtisadi və geosiyasi mövqeyi var idi. Ərəb dünyası Asiya, Afrika və Avropanın qovuşağmda yerləşirdi. Böyük əraziyə malik olması. Atlantik və Hind okeanlarına. Fars körfəzinə. Aralıq dənizinə və Qırmızı dənizə çıxış ərəb ölkələrini mühüm nəqliyyat-kommunikasiya dəhlizinə çevirmişdi. Avropanı Asiya və Sakit okean hövzəsi ilə bağlayan mühüm dəniz və hava yolları buradan keçirdi. Cəbəllütariq və Hörmüz boğazlan, Süveyş kanalı Avropa, Cənubi Asiya və Uzaq Şərqin enerji resursları ilə təmin edilməsində mühüm rol oynayırdılar. Ərəb dünyası Avropa, Qafqaz, Orta Asiya və Afrikanın yaxınlığında yerləşirdi. 22 ölkədən ibarət olan ərəb dünyasının böyük insan ehtiyatı var idi. Ərəb Dövlətləri Liqası, 

Fars Körfəzi Ərəb Dövlətləri Əməkdaşlıq Şurası və digər təşkilatlar quran bu ölkələr dünyada mövcud olan digər beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edirdilər. Ərəb dili BMT-nin beş rəsmi dilindən biri idi. Ərəb ölkələri dünyada sülh və təhlükəsizliyin təmin olunmasında müəyyən rol oynayırdılar. Bu ölkələrin bir çoxu ABŞ, Avropa İttifaqı, Rusiya, Çin, Hindistan və Yaponiyanın iqtisadi və strateji tərəfdaşları idi.

SSRİ-nin və sosializm sisteminin dağılması nəticəsində beynəlxalq münasibətlərdə və ərəb ölkələrinə baxışda çoxlu dəyişikliklər baş verdi. Dünyada gedən qloballaşma prosesləri, informasiya-texnologiya və nəqliyyat inqilabı insanların, maliyyənin, xidmətlərin və malların sərbəst hərəkəti üçün yeni imkanlar yaratdı. Bununla yanaşı olaraq dünyada regi- onallaşma prosesləri də davam edirdi. Beynəlxalq münasibətlərin ideolo-giyasızlaşdırılması mədəniyyət, din və etnosların həyatında yeni keyfiyyətlər yaratdı. Dini konfessiyalar və etnik-milli problemlər yeni müstəviyə çıxmağa başladı. Bu və ya başqa xarakterli daxili iqtisadi, mədəniyyət və sosial proseslərin təsir imkanları artdı. Terrorizm, ekstremizm, mütəşəkkil cinayətkarlıq milli təhlükəsizlik üçün daha çox təhlükə törədirdi. Bütün bu ziddiyyətli amillər yeni müstəqil dövlətlərin, o cümlədən Azərbaycanın beynəlxalq əlaqələrinə təsir edirdi.

Azərbaycan xalqını tarixi keçmişi və mədəni-dini baxımından müsəlman ölkələri, o cümlədən Səudiyyə Ərəbistanı ilə möhkəm tellər bağlayır. Uzun illər boyu Azərbaycan Ərəb xilafətinin tərkibində olmuşdu. Bir çox görkəmli Azərbaycan şair, yazıçı və alimləri ərəb dilində yazıb-yaratmışlar. Hər iki xalqın adət-ənənələrində bənzərlik vardır.

Azərbaycana qonşu olan ölkələr bu regionda rəqabətə girmişdilər. Ərəb ölkələri beynəlxalq təşkilatlarda Ermənistanın işğalçı siyasətinin mahiyyətinin açılmasında Azərbaycanda yardımçı ola bilərdilər.

Azərbaycandakı sosial-iqtisadi böhran iqtisadiyyatın strukturunun yenidən qurulmasım və geniş beynəlxalq iqtisadi əlaqələrin yaradılmasını zəruri edirdi. Həmin vəzifələri həll etməkdə ərəb kapitalının cəlb edilməsi, xüsusən Səudiyyə Ərəbistanı və digər Köfəz ölkələri mühüm rol oynaya bilərdilər. Azərbaycan həmin ölkələrə işçi qüvvəsi verə bilərdi.

Bu əlaqələr Azərbaycan Respublikasının beynəlxalq mövqelərinin möhkəmləndirilməsi baxımından əhəmiyyət kəsb edirdi.

## İlk əlaqələr

Səudiyyə Ərəbistanı Azərbaycan Respublikasının dövlət müstəqilliyini 1991-ci il dekabnn 30-da tanıdı. Azərbaycan Respublikasının Baş Naziri Həsən Həsənovun 1992-ci ilin yanvar ayında Səudiyyə Ərəbistanı Krallığına səfəri zamanı keçirilən görüşlərdə diplomatik əlaqələrin qurulmasına dair razılıq əldə edildi™’. Səfərdən az sonra, fevralın 24-də iki ölkə arasında diplomatik əlaqələr quruldu™^.

Ermənistanın təcavüzü və etnik təmizləmə siyasəti nəticəsində yaranmış azərbaycanlı qaçqın və məcburi köçkünlərin vəziyyətini yüngülləşdirmək, təcavüz haqqında həqiqətləri müsəlman ölkələrinə çatdırmaq məqsədi ilə 1992-ci ildə Azərbaycan Respublikasının xarici işlər naziri Tofiq Qasımov Səudiyyə Ərəbistanında rəsmi səfər edərək danışıqlar apardı. Səudiyyə Ərəbistanı qaçqın və məcburi köçkünlərə humanitar yardım etdi. 1993-cü ildən etibarən Azərbaycanda bu ölkənin NİCAT (İĞASA) təşkilatı fəaliyyətə başladı. NİCAT Bərdə rayonunda ümumi sayı 8.300 nəfərlik olan iki çadır şəhərciyi və Sumqayıt şəhərində 2.700 nəfərlik bir düşərgənin tam təminatını və tibbi yardımını üzərinə götürdü.

Münasibətləri genişləndirmək məqsədi ilə Azərbaycan tərəfi 1993- cü il yanvarın 27-də Səudiyyə Ərəbistanı Krallığının paytaxtı Ər Riad şəhərində səfirliyini təsis etdi™^. 1993-cü il iyunun 5-də Nəriman Qası- moğlu (Qasımzadə) Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanında fövqəladə və səlahiyyətli səfiri təyin edildi™'*. Ona Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri dərəcəsi verildi™^. Lakin Ər Riadda Azərbaycan səfirliyi açılmadı. 1993-cü il noyabrın 22-də Nəriman Qasımzadə bu vəzifədən azad edildi”’®, həmin gün Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanmdakı fövqəladə və səlahiyyətli səfiri vəzifə-

Azərbaycan Respublikasının Baş Naziri Həsən Həsənovun Səudiyyə Ərəbistanı Krallığına səfəri barədə məlumat. - Həsən Həsənovun şəxsi arxivinin materialları.

ARXİNA. 2008.

ARXİNA. 1993.

ARXİNA. 1993.

ARXİNA. 1993.

ARXİNA. 1993.

sinə Elman Araslı təyin edildi[707]. Ona Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri dərəcəsi verildi™^[708]. 1994-cü ilin aprel ayından Azərbaycanın Səudiyyə Ərəbistanında səfirliyi fəaliyyətə başladı. Həmin ilin may ayından isə Elman Araslı həmçinin İslam Konfransı Təşkilatında daimi nümayəndə təyin edildi. Bu, iki ölkə arasında münasibətlərə yeni keyfiyyət halı verirdi.

Azərbaycan tərəfi Səudiyyə Ərəbistanı ilə münasibətləri sıxlaşdırmaq niyyətində idi. Həmin məqsədlə Azərbaycan Prezidenti Heydər Əliyevin Səudiyyə Ərəbistanına səfərinə hazırlıq işlərinə başlandı. Səfər ərəfəsində Azərbaycan dövləti Səudiyyə Ərəbistanından Səudiyyə İqtisadi İnkişaf Fondu xətti ilə güzəştli kredit, qaçqın və məcburi köçkünlərə humanitar yardım almaq haqqında təkliflər irəli sürmüşdü. Səudiyyə İqtisadi İnkişaf Fondu layihələrin 20-50%-ni maliyyələşdirir, üstünlüyü infrastruktur və kənd təsərrüfatı üzrə layihələrə verirdi. Heydər Əliyevin səfəri ərəfəsində Səudiyyə Ərəbistanı edəcəyi humanitar yardımın həcmini də açıqladı. Bu, 2 min qutudan (un, düyü, qənd, süd) ibarət idi. Humanitar yardımın içində müvəqqəti sığınacaq üçün ləvazimatlar olan 500 çadır da var idf'®.

Buna baxmayaraq, edilən humanitar yardımların artırılması üçün Azərbaycan səfirliyi fəaliyyətini genişləndirdi. 1994-cu il iyunun 3-də Elman Araslı Səudiyyə Ərəbistanının maliyyə naziri M.Xail, iyunun 4-də Xarici İşlər Nazirliyinin İslam işləri üzrə departamentinin rəisi Məhəmməd Faez ilə görüşərək Azərbaycana humanitar yardım göndərilməsi məsələsini müzakirə etdi. Maliyyə naziri İslamın İki Müqəddəs Ocağının xadimi Kral Fəhdin Azərbaycana humanitar yardım edilməsinə dair maliyyə və iqtisadiyyat nazirliklərinə göstəriş verdiyini bildirdi. Alınmış 70 min ton ərzaq, çadırlar və digər mallar Bakıya çatdırılacaqdı. Yükü

Elman Araslı (1933-2014) - SSRİ-nin Misirdə (1962-1964), İraqda (1967-1969) nümayəndəliklərində, İraqdakı səfirliyində 1 katib (1964-1974), sonra müşavir, İordaniyadakı səfirliyində müşavir (1980-1984), Yəmən Respublikasındakı səfirliyində müşavir (1989-1992). Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığında fövqəladə və səlahiyyətli səfiri (1993-2006). İordaniyada səfir (2006-2012).

708 709 ARXINA. 1993.

'ARXINA. 1993.

ARXİNA. 14.01.1994-19.12.1994. Qovluq RoQ, v.59-60.

Səudiyyə Ərəbistanı Qırmızı Aypara təşkilatının nümayəndəsi müşayiət edəcəkdi’". Humanitar yardım Azərbaycana göndərildi.

Azərbaycan səfirliyi fəaliyyətini daha da artırdı. Səfir Elman Əraslı iyunun 7-də Körfəz ölkələri Əməkdaşlıq Şurasının baş katibi S.Qazi ilə görüşərək region ölkələri ilə əlaqələri qurmaq və inkişaf etdirmək məsələlərini müzakirə etdi’”. Elman Araslı Azərbaycanın region ölkələri ilə birbaşa əlaqələr qurmaqda maraqlı olduğunu bildirdi. S.Qazinin rəhbərlik etdiyi təşkilat da Azərbaycan ilə birbaşa əlaqələr qurmaq istəyirdi.

Bütün bunlar qarşılıqlı münasibətlərin daha yüksək səviyyədə inkişafını zəruri edirdi. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Səudiyyə Ərəbistanına səfəri iki ölkə arasında münasibətlərdə mühüm yer tutdu.

## Əməkdaşlığın gələcək inkişaf yollan müəyyənləşdirilir

Səfər 1994-cü il iyulun 9-dan 13-dək oldu”^. Zəngin səfər proqramı tərtib edilmişdi”'. Səfərin başlıca məqsədi müqəddəs yerləri ziyarət etmək, Səudiyyə Ərəbistanı ilə əlaqələr qurmaq və bu əlaqələrin gələcək inkişaf yollarını müəyyənləşdirmək idi. Səfər ərəfəsində Azərbaycan tərəfi Kəəbənin daxilini ziyarət etmək məqsədi ilə açılmasım, kral və prezident səviyyəsində sazişin və birgə bəyanatın imzalanmasını Səudiyyə Ərəbistanına təklif etmişdi”^. Səudiyyə Ərəbistanı həmin təkliflərlə razılaşmışdı.

Səfər həm ölkə daxilində, həm də xarici ölkələrdə böyük maraqla izlənilirdi. Bəzi ölkələrin mətbuatında səfər “İslama qayıdış” kimi qiymətləndirilirdi. Bu, Azərbaycan Respublikası Prezidentinin ərəb ölkələrinə ilk səfəri idi. Səfərin ilk olaraq Səuduyyə Ərəbistanına edilməsi səbəbsiz deyildi. Bu, müqəddəs torpaq idi. Müqəddəs Məkkə şəhərində və Kəəbədə olmaq böyük məna daşıyırdı.

[711] ARXFNA. 06.06.1994 - 26.11.1996. Qovluq MZl, v.1-2.

ARXINA. 06.06.1994-26.11.1996. Qovluq Xb21, v. 5-6.

Azərbaycan — Səudiyyə Ərəbistanı əlaqələri. - Heydər Əliyev və Şərq. 6 cilddə. İKT dövlətləri. V kitab, s. 203-214.

ARXİNA. 09.07.1994 -13.07.1994. Qovluq X2 14, v. 7-9.

ARXİNA. 09.07.1994-13.07.1994. Qovluq Rb 14, v. 6.

Heydər Əliyev İki Müqəddəs Ocağın Xadimi Kral Fəhd, İslam Konfransı Təşkilatı, İslam İnkişaf Bankı, İslam Dünyası Liqasının rəhbərləri və s. rəsmi şəxslərlə danışıqlar apardı, Kəabəyə Ümrə ziyarəti etdi”^.

Səfərin yekununda Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, gənclər və idman sahələrində əməkdaşlığa dair beş saziş imzalandı, birgə bəyanat qəbul edildi.

Səudiyyə Fondunun Azərbaycanda sosial-iqtisadi layihələrin maliyyələşdirməsində iştirak etməsi imkanlarını öyrənmək üçün Bakıya nümayəndə heyəti göndərməsinə dair razılıq əldə edildi”'. Qeyd etmək lazımdır ki. Fond Səudiyyə hökuməti tərəfindən inkişaf etməkdə olan ölkələrə ayrılan maliyyə vəsaitlərinin mərkəzləşdirilməsi və sadələşdirilməsi üçün hələ 1974-cü ildə yaradılmışdı. İlk vaxtlar kapitalı 2,7 milyard dollar həcmində idi, 1980-ci ildə 4, 1991-ci ildə isə 8,3 milyard dollara çatmışdı. Fond müstəqil olsa da, fəaliyyətini maliyyə və milli iqtisadiyyat nazirlikləri ilə sıx əməkdaşlıqda həyata keçirirdi. Bir kreditin məbləği fondun kapitalının 5%-ni və maliyyələşdirilən layihənin 50%-ni ötüb keçmirdi. Digər ölkəyə verilən kredit isə fondun kapitalının 10%-ni ötüb keçməməli idi.

Səfər qarşılıqlı münasibətlərdə dönüş anı olub, böyük tarixi əhəmiyyət daşıyırdı. Bu səfər Azərbaycan Respublikasının İslam dünyasına aid olduğunu bir daha təsdiq etdi. İslam dünyasında görkəmli yer tutan Səudiyyə Ərəbistanı ilə əlaqələr quruldu. Azərbaycan haqqında həqiqətlər söylənildi, Ermənistanın hərbi təcavüzü və nəticələri barədə geniş danışıldı. Səfər iki ölkə arasında iqtisadi əməkdaşlığın əsas istiqamətlərinin müəyyənləşdirilməsində mühüm rol oynadı”*.

## Əməkdaşlıq genişlənir

Səfərdən sonra əməkdaşlıq genişlənməyə başlandı. Səudiyyə Ərəbistanı Azərbaycan ilə daha sıx münasibətlər qurmaq məqsədilə Bakıda səfirliyini təsis etdi. Səudiyyə Ərəbistanı kralı Fəhd ben Əbdul Əziz Əl Saud 1994-cü il avqustun 27-də Heydər Əliyevə məktub göndərərək Naci Ben Sadıq Müftini Azərbaycan Respublikasında səfir təyin etmək haq-

' ARXİNA. 09.07.1994-13.07.1994. Qovluq Xa 14, v. 7-8.
' ARXİNA. 06.09.1994 - 07.11.1996. Qovluq X921, v.140-142.
[718] ARXİNA. 06.09.1994 - 07.11.1996. Qovluq X921, v. 160-163.

qında qərarını bildirdi''^. Səudiyyə Ərəbistanının Türkiyədə, eyni zamanda Azərbaycanda akkreditə olunmuş səfiri Naci ben Sadıq Müfti noyabrın 21-də etimadnaməsini Azərbaycan Respublikasının Prezidentinə təqdim etdi. Bu, qarşılıqlı münasibətlərin inkişafında yeni bir addım oldu.

Artıq qeyd edildiyi kimi, 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"ndən sonra Azərbaycanda dövlət çevrilişi cəhdləri baş vermiş, ilin sonlarında isə Çeçenistanda aparılan müharibə bəhanəsi ilə Azərbaycana şimaldan gələn avtomobil yolu, dəmiryolu və su yolu bağlanmış və ölkə blokadaya düşmüşdü. Belə bir şəraitdə Azərbaycan diplomatiyasının qarşısında duran başlıca vəzifələrdən biri ölkədə yaranmış şəraiti izah etmək, blokadanın aradan qaldırılması üçün səylər göstərmək idi. Bu məqsədlə 1994-cü il dekabrın 21-də Elman Araslı Səudiyyə Ərəbistanı Xarici İşlər Nazirliyində Asiya ölkələri idarəsinin rəisi İbrahim Əl Qabbanı ilə görüşərək Azərbaycandakı şəraiti izah etdi. Səudiyyə Ərəbistanı hökuməti dövlət çevrilişi cəhdini, eyni zamanda suveren Azərbaycanın daxili işlərinə hər hansı kənar müdaxiləni də pislədi və Azərbaycan Respublikasının qanuni prezidenti Heydər Əliyevi müdafiə etdi. Səudiyyə Ərəbistanı Ermənistanın təcavüzünə münasibətdə birmənalı olaraq Azərbaycanın tərəfində oldu™. İbrahim Əl Qabbani Kasablankada Ermənistan - Azərbaycan münaqişəsinə dair qətnamənin qəbul edilməsində ölkəsinin xüsusi rol oynadığını, İKT-yə üzv olan ölkələrlə iş apardığını vurğuladı. Onun fikrincə, Kasablankada qəbul edilmiş qətnamə Azərbaycana edilən yardımların artmasına kömək edəcəkdi. İbrahim Əl Qabbani Bakıda ölkəsinin səfirliyinin açılması məsələsinin artıq həll edildiyini söylədi. Yaxın vaxtlarda Azərbaycana səfər edəcək Ticarət-Sənaye Palatasının nümayəndə heyəti formalaşmaq üzrə idi. Daha sonra o, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin mövqelərinin möhkəm olub- olmaması ilə maraqlandı. Səfir Azərbaycan xalqının tarixinin ən çətin anlarında gələcəyə ümidlərini təcrübəli, enerjili, nüfuzlu dövlət və siyasi xadim olan Heydər Əliyev ilə bağladığını, onun xalqın etimad və sevgisini qazandığını vurğuladı. İbrahim Əl Qabbani belə qiymət ilə tam razılaşaraq Heydər Əliyevin Səudiyyə Ərəbistanına səfəri zamanı Krallığın rəhbərliyində və əhalisində güclü təəssürat yaratdığını dedi. Səudiyyə diplomatının fikrincə. Heydər Əliyev Kasablankada etdiyi nitqi ilə təcrübəli və müdrik dövlət xadimi olduğunu nümayiş etdirmişdi. Səudiyyə Ərə-

^ ARXİNA. 14.10.1994 - 31.12.1994. Qovluq ftb21, **v.** 251.
ARXINA. 06.09.1994-18.04.1995. Qovluq X2S, v.61-63. ***300***

bistanınm rəsmi və ictimai dairələri Heydər Əliyevin Kasablankada etdiyi nitqi bəyənir və müdafiə edirdilər.

Azərbaycanın blokadaya alınması məsələsi Səudiyyə Ərəbistanının mətbuatında da geniş işıqlandırıldı. Ər Riadda nəşr edilən "Okaz" qəzeti 1994- cü il 26 dekabr tarixli sayında "Rusiyanın sərhədi bağlaması səbəbindən Azərbaycan xarici dünyadan təcrid olunmuşdur" adlı məqalə yayımladı. Məqalədə yazılırdı ki, Rusiyanın atdığı bu addım Azərbaycan iqtisadiyyatına ən pis formada təsir etmişdir'^'.

1995- ci ilin yanvar ayının əvvəllərində səfir Elman Araslı Səudiyyə Ərəbistanı Qırmızı Aypara Cəmiyyətinin sədri Xamid Əl Sukeyr ilə görüşərək Azərbaycana humanitar yardım edilməsi imkanlarını öyrəndi. Xamid Əl Sukeyr maliyyə çətinliyini əsas gətirərək Xeyriyyə yardımları üzrə ali komitə yaradıldıqdan sonra yardımların mərkəzləşdirilmiş qaydada həyata keçirildiyini qeyd etdi, Azərbaycana ölkəsinin ən səmimi münasibətlər bəslədiyini vurğuladı. Azərbaycanda xeyriyyə işləri ilə NİCAT beynəlxalq İslam cəmiyyətinin məşğul olduğunu bildirdi'^^. Artıq qeyd edildiyi kimi, bu təşkilat hələ 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərirdi. 1994-cü ildə Azərbaycan Respublikasının Prezidenti ilə görüşdükdən sonra təşkilatın rəhbərləri regional iqamətgahı Moskvadan Bakıya köçürmüşdülər. 1993-1995-ci illərdə təşkilat 10 mindən çox qaçqın və məcburi köçkünə yardım etmişdi. 1994-1995-ci illərdə bu təşkilat 120 min tondan çox humanitar yük gətirmişdi. Azərbaycana edilən maliyyə yardımı 1993-1995-ci illərdə 4,6 milyon ABŞ dolları həcmində idi. Yardımlar əsasən ərzaq, tibbi ləvazimat, dərmanlar, kənd təsərrüfatı və məscid tikintisini əhatə edirdi'^^

İki ölkə arasında əməkdaşlıq imkanlarını müzakirə etmək məqsədilə 1995- ci il yanvarın 14-də Elman Araslı Səudiyyə Ərəbistanı Məsləhət Şurasının sədri Şeyx Məhəmməd Ben Cubeyr ilə görüşdü.™ Səfir Azərbaycan tərəfinin Səudiyyə Ərəbistanı ilə parlament əlaqələrini inkişaf etdirmək istəyini diqqətə çatdırdı. Bunun üçün Azərbaycan tərəfi nümayəndə heyətlərinin mübadiləsini həyata keçirməyə və əməkdaşlığın digər formalarını müzakirə etməyə hazır idi. Səfir daha sonra Azərbaycandakı şəraiti şərh etdi və iki ölkə arasında əməkdaşlığın perspektivlərinin olduğunu vurğuladı. Bildirdi ki, Azərbaycan xalqı çətin anlarında İslam

ARXİNA. 06.09.1994 - 18.04.1995. Qovluq XaS, v.66.
ARXİNA. 06.09.1994 - 18.04.1995. Qovluq XaS, v.52.
™ ARXİNA. 06.06.1994 -26.11.1996. Qovluq Xa21, v. 165-167.
™ ARXİNA. 06.09.1994 - 18.04.1995. Qovluq XaS, v.31-34.

dəyərlərinin qoruyucusu və müsəlman dünyasının lideri olan Səudiyyə Ərəbistanına ümid bəsləyir. İki ölkə arasında əməkdaşlığın bütün potensialı olsa da, Ermənistanın təcavüzü nəticəsində yaranmış şərait bu imkanların həyata keçirilməsinə tam imkan vermir, Azərbaycam xarici dostların köməyinə müraciət etməyə məcbur edirdi.

Şeyx Məhəmməd Ben Cubeyr Azərbaycanın vəziyyətini başa düşdüklərini, onu möhkəmləndirməyə deyil, daim zəiflətməyə çalışan qonşularla əhatə olunduğunu, Ermənistanın ərazilərini genişləndirmək, Rusiya və İranın isə strateji cəhətdən mühüm və zəngin ölkə olan Azərbaycanda maraqlarını təmin etmək istədiklərini qeyd etdi. Onun sözlərinə görə, İran tərəfi gələcəkdə ərazi iddialarının olmasından qorxaraq Azərbaycanın ayaq üstə durmaması üçün hər şeyi edəcəkdi. Şeyx Azərbaycandakı hadisələri diqqətlə izlədiklərini və həqiqətən kömək etmək istəklərini bildirdi. Buna görə də Səudiyyə Ərəbistanı beynəlxalq təşkilatlarda Azərbaycanın haqq işini müdafiə edirdi. Maddi yardıma gəldikdə isə o, bildirdi ki, maliyyə çətinliyi səbəbindən bu, yalnız humanitar yardım edilməsi ilə məhdudlaşa bilər. Çünki Körfəz müharibəsinin gedişində dünya bazarında neftin qiyməti aşağı düşdüyündən Krallıq sərt iqtisadiyyata keçmiş, xarici dövlətlərə maliyyə yardımları ayırmaq barədə sazişlər imzalamaqdan imtina etmişdi. Yalnız əvvəllər imzaladığı sazişləri yerinə yetirirdi. Lakin bu, müwəqəti xarakter daşıyırdı. Şeyx Məhəmməd Ben Cubeyrin fikrincə, iki ölkə arasında münasibətlərin yaxşı gələcəyi var idi.

Səfir Səudiyyə Ərəbistanı Krallığı ilə ticarət-iqtisadi əməkdaşlığa Azərbaycanın əhəmiyyət verdiyini. Prezident Heydər Əliyevin bu nümayəndə heyətini dəvət etdiyini, lakin səfərin yubandığını, həmçinin sosial-iqtisadi xarakterli bəzi layihələrin maliyyələşdirilməsinin gecikdiyini diqqətə çatdıraraq sürətləndirilməsinə kömək göstərilməsini xahiş etdi, qaçqın və məcburi köçkünlərin vəziyyəti barədə məlumat verərək, Rusiyanın bütün kommunikasiyaları bağlamasının mənfi nəticələrini qeyd etdi. Məsləhət Şurasının sədri Azərbaycana yardım üçün mümkün olanı edəcəklərini bildirdi.

Bu zaman Azərbaycan neft konsorsiumundakı payının bir qismini satmaq qərarına gəlmişdi. Səudiyyə Ərəbistanı həmin məsələ ilə maraqlanırdı. Səfir Elman Araslı 1995-ci il fevralın 15-də xarici işlər naziri Həsən Həsənova yazdığı məktubunda qeyd edirdi ki, Azərbaycanın neft konsorsiumundakı payının bir qismini satması xəbəri Səudiyyə Ərəbistanı iş adamlarının nümayəndələrini maraqlandırır. Onlann bir neçəsi bu payı

almaq niyyətindədirlər^^^. Səudiyyə Ərəbistanı tərəfi həmçinin, ölkəsinə işçi qüvvəsi cəlb etməkdə də maraqlı idi. Bu məsələdə Azərbaycan müəyyən rol oynaya bilərdi. Elman Araslınm aprelin 8-də Səudiyyə Ərəbistanı Krallığı konsulluq idarəsinin rəisi İbrahim Əl Xaraşi ilə görüşündə Səudiyyə diplomatı hökumətinin Azərbaycana və Aralıq dənizinin bəzi ölkələrinə nümayəndə heyətləri göndərmək məsələsi üzərində işlədiyini bildirdi. Bu səfərlər tanışlıq xarakteri daşıyacaqdı. Səudiyyə tərəfini həmin ölkələrdə siyasi sabitliyin nə dərəcədə olması və xarici iqtisadi əməkdaşlıq imkanları maraqlandırırdı. Xaraşi Azərbaycan Respublikasının iqtisadiyyatı, kadr potensialı, Azərbaycandan Səudiyyə Ərəbistanına işçi qüvvəsinin ixracı imkanları barədə məlumatların verilməsini xahiş etdi'^®. Azərbaycan tərəfi Səudiyyə Ərəbistanının istəklərinə müsbət yanaşırdı.

Bundan bir neçə gün sonra, aprelin 12-də Elman Araslı Səudiyyə Ərəbistanının İslam işləri və vəqfləri naziri Abdulla Turki ilə görüşərək xarici işlər naziri Həsən Həsənovun onu Azərbaycana dəvət etməsi məsələsini müzakirə etdi. Səfər zamanı Bakıda Səudiyyə Ərəbistanı evinin (İslam Tədqiqatları Mərkəzi) qurulması və ikitərəfli əməkdaşlıq məsələləri müzakirə edilməli idi^^^ Bu təkliflər Azərbaycanda öyrənildi. Qafqaz Müsəlmanları İdarəsi maliyyə çətinliyini əsas gətirərək A.Turkini qəbul edə bilməyəcəyini bildirdi. Xarici İşlər Nazirliyi isə 2-3 nəfərlik bir heyəti qəbul etməyə, İslam Araşdırmaları Mərkəzinin açılmasına yalnız bütün maliyyə xərclərini Səudiyyə Ərəbistanı tərəfinin ödəməsi şərti ilə hazır idi . Səfərin iyul ayında keçirilməsi planlaşdırılırdı .

Səudiyyə Ərəbistanı kapitalını Azərbaycana cəlb etmək üçün Elman Araslı 1995-ci il iyunun 24-də maliyyə və milli iqtisadiyyat naziri Şeyx Səid İbn Səidin köməyilə məşhur iş adamı və ictimai xadim Əhməd Tütünçü ilə görüşdü. Səudiyyə iş adamları İslam həmrəyliyi platformasında dayanır, Azərbaycan ilə əməkdaşlığın qurulmasına əhəmiyyət verirdilər. Görüş zamanı Əhməd Tütünçü bir neçə məsləhət verdi. Onların məzmunu aşağıdakı kimi idi: Körfəz ölkələrinin xeyriyyə təşkilatları ilə münasibətləri daha fəal qurmaq və inkişaf etdirmək, onları Azərbaycandakı sosial və xeyriyyə xarakterli layihələrin həyata keçirilməsinə cəlb etmək; kapitalı 100 milyon dollar olan birgə Səudiyyə Ərəbistanı -

ARXINA. 06.09.1994 - 18.04.1995. Qovluq XsS, v.23-24.
ARXİNA.. 06.09.1994 - 18.04.1995. Qovluq XbS, v.4.
™ ARXİNA. 06.09.1994 - 18.04.1995. Qovluq XsS, v.l.
™ ARXİNA. 06.09.1994-18.04.1995. Qovluq X2S, v.5-7.
™ ARXİNA. 06.06.1994 -26.11.1996. Qovluq Xb21, v. 29.

Azərbaycan kompaniyası yaratmaq. Azərbaycan tərəfindən dövlət və özəl şirkətlər bu qurumda iştirak edə bilərdilər. Səudiyyə Ərəbistanında Azərbaycan ilə əlaqələr qurmaq istəyən çoxlu şirkətlər var idi. Bu işə İslam İnkişaf Bankını da cəlb etmək olardı. Əhməd Tütünçü Azərbaycan Respublikasının iqtisadi potensialı haqqında məlumat kitabçasının nəşr edilməsini vacib sayırdı. Onun fikrincə, Səudiyyə Ərəbistanı iş adamlarının Azərbaycana səfərləri təşkil edilməli, Körfəz ölkələrinin xeyriyyə təşkilatları və iş adamları ilə fəal, cəsarətli əlaqələr qurulmalı idi. Əhməd Tütünçü və digərləri bu təkliflərin həyata keçirilməsi üçün Azərbaycana yardım etməyə hazır idilər’^°.

Bundan sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Səudiyyə Ərəbistanı Ticarət-Sənaye Palatası nümayəndə heyətini səfərə dəvət etdi. Qeyd etmək lazımdır ki, bu palata hələ 1965-ci ildə təsis edilmişdi və qeyri-hökumət təşkilatı idi. 19 iri şirkət buraya daxil idi. Palatanın büdcəsi üzvlərin ödədiyi üzvlük haqqından formalaşdırılırdı^^’. Palatanın başlıca məqsədi Səudiyyə Ərəbistanının iqtisadiyyatında özəl sektorun rolunu gücləndirməkdən ibarət idi.

Elman Arash səfər ilə bağlı məsələləri müzakirə etmək məqsədilə Krallığın ticarət nazirinin müavini Abdel Rəhman Əl Ciresi ilə iyunun 20- də görüşdü. Səudiyyə Ərəbistanı hökuməti Ticarət-Sənaye Palatası nümayəndə heyətinin bu ilk səfərinə xüsusi diqqət yetirirdi. Nümayəndə heyətinin tərkibində İslam həmrəyliyi platformasında dayanan iri iş adamları var idi^^^.

Ticarət-Sənaye Palatasının prezidenti Abdel Rahman Əl Ciresi və palatanın baş katibi Abdelle Cabbax ilə iyunun 22-də keçirdiyi görüşdə Elman Arash səfərlə bağlı məsələləri müzakirə etdi. Abdel Rahman Əl Ciresinin 10 şirkətdən ibarət korporasiyası var idi. Korporasiya sənaye avadanlığı, kompyuter və kompyuter sistemləri, müəssisələrin müxtəlif avadanlıqla təchiz edilməsi ilə məşğul olur, xeyriyyə işlərini həyata keçirirdi. Dünya iş adamları içərisində böyük nüfuza malik olan Abdel Rahman Əl Ciresi Azərbaycan xalqına rəğbət bəsləyir və işgüzar əlaqələr qurmaq istəyirdi’^^. Səudiyyə Ərəbistanı tərəfi nümayəndə heyətinin tərkibinə ilkin olaraq 15-17 iş adamının daxil edilməsini təklif etdi. Onlar Azərbaycana səfərə gəlməyə razılıq vermişdilər.

[730] ARXİNA. 06.06.1994 -26.11.1996. Qovluq JÇo21, v. 49-50.
ARXİNA. 06.06.1994 -26.11.1996. Qovluq X921, v. 58-60.
ARXİNA. 06.06.1994 -26.11.1996. Qovluq Xo21, v. 52-53.
™ ARXİNA. 06.06.1994-26.11.1996. Qovluq X22I, v. 62.

Bu görüşdən sonra, iyunun 24-də səfirlik Ticarət-Sənaye Palatası nümayəndə heyətinin səfəri ilə bağlı təkliflərini yazıb Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə göndərdi’^'*. Səfərdə məqsəd Səudiyyə Ərəbistanı ilə Azərbaycan Respublikası arasında işgüzar əlaqələr qurmaq idi. Bunun üçün nümayəndə heyəti ölkənin iqtisadiyyatı, təbii sərvətləri, xarici ticarəti ilə tanış olmaq istəyirdi. İş adamlarının başlıca maraq dairəsi Azərbaycan iqtisadiyyatına və turizmə sərmayə qoymaq imkanlarını araşdırmaq idi. Azərbaycan mütəxəssislərindən və işçi qüvvəsindən Krallığın iqtisadiyyatında istifadə edilməsi əhəmiyyət kəsb edirdi. Qeyd etmək lazımdır ki. Səudiyyə Ərəbistanı iş adamlarının Azərbaycan Respublikasına ilk səfəri hələ 1992-ci ildə nəzərdə tutulsa da, reallaşdırılmamışdı. O zaman xarici işlər naziri əmir Saud Feysəl başda olmaqla səfər edən nümayəndə heyəti Azərbaycanın əməkdaşlığa hazır olmadığı qənaətinə gəlmişdi. Belə baxış 1994-cü ildə də var idi. Lakin Azərbaycan tərəfinin gərgin səyləri nəticəsində Səudiyyə Ərəbistanında Azərbaycan Respublikasına olan maraq artmağa başlamışdı. Azərbaycan Prezidentinin
1994- cü ildə səfəri zamanı imzalanan sənədlər iki ölkə arasında münasibətlərin inkişafı və hərtərəfli əməkdaşlığın qurulması üçün zəmin yaratmışdı.

Görülən işlər səmərəsini verdi. İyulun 3-5-də xarici işlər nazirinin müavini İbrahim Əl Xaraşi başda olmaqla Səudiyyə Ərəbistanının iş adamları və siyasətçilərindən ibarət nümayəndə heyəti Azərbaycana səfər

etdi . Səfər zamanı ikitərəfli siyasi və ticarət-iqtisadi münasibətlərin inkişafı məsələləri müzakirə edildi. Əməkdaşlığa dair sənədlər imzalandı. Bu, qarşılıqlı münasibətlərdə əhəmiyyətli addım idi.

Səfərdən sonra, iyulun 31-də Elman Arash Azərbaycan Prezidentinə məktub yazaraq Azərbaycan - Səudiyyə Ərəbistanı münasibətlərini inkişaf etdirmək üçün birinci dərəcəli əhəmiyyət kəsb edən bəzi məsələlər üzrə Nazirlər Kabinetinə göstəriş verməsini xahiş etdi^^^. Məktubda sentyabrın 18-də Səudiyyə Ərəbistanının 20-25 iri iş adamından ibarət nümayəndə heyəti göndərmək istəyi barədə yazılırdı. Abdel Rahman Əl Ciresinin rəhbərlik etdiyi nümayəndə heyətinin səfərinin əsas məqsədi ticarət əlaqələri qurmaq, Azərbaycan iqtisadiyyatına sərmayə qoyulması imkanlarını öyrənmək və Kralhqdakı Azərbaycandan olan əmək müha-

ARXINA. 06.06.1994-26.11.1996. Qovluq Xo21, v. 55-56.
ARXINA. 06.06.1994 -26.11.1996. Qovluq Ro21, v. 133-134. ™
ARXİNA. 06.06.1994-26.11.1996. Qovluq Xo21, v. 91-93.

cirlərinin fəaliyyətinə dair müqaviləni gerçəkləşdirmək idi. Nazirlər Kabineti nümayəndə heyətinin səfərinə dair müvafiq nazirlik və idarələrə göstəriş verməli, əmək mühacirləri məsələsini qaydaya salmalı idi. Bakıda İslam Mərkəzinin açılması məsələsinə Ər Riad maraq göstərirdi. Bu mərkəz Səudiyyə Ərəbistanının tərəfinin maliyyə yardımı ilə tikilməli idi. Mərkəzdə elmi araşdırmalar, əlyazmaların oxunması, ərəb dilinin tədrisi və nümayəndə heyətlərinin mübadiləsi həyata keçirilməli idi. Mərkəz həmçinin mədəniyyət, humanitar və ticarət-iqtisadi sahələrdə iki ölkə arasında əməkdaşlığa yardım etməli idi. Mərkəzin binasının tikintisi üçün torpaq sahəsi ayrılmalı idi. Bakıda İslam dövlətləri və MDB regionu din xadimlərinin konfransı keçirilməsi tövsiyə edilirdi. Belə bir konfransın keçirilməsi ideyası Səudiyyə Ərəbistanına məxsus idi. Toplantının keçirilməsinin bütün xərclərini Səudiyyə Ərəbistanı öz üzərinə götürürdü.

Artıq qeyd edildiyi kimi. Çeçenistanda apardığı müharibə ilə əlaqədar olaraq Rusiya Azərbaycan ilə sərhədini bağladıqda İslam dünyasının bir sıra ölkələri etiraz səsini ucaltmışdılar. Məkkədə yerləşən İslam Dünyası Liqasının baş katibliyi 1995-ci il sentyabrın 2-də etiraz bəyanatı yaydı. Bəyanatda Çeçenistan Respublikasına qarşı hərbi təcavüzlə bağlı son hadisələrlə əlaqədar olaraq Azərbaycan Respublikası ilə bütün kommunikasiyaların bağlanmasından təəssüf hissi keçirilir, Azərbaycan Respublikasının xarici dünyadan təcrid edildiyi, bu addımın onun iqtisadiyyatına mənfi təsir etdiyi vurğulanırdı. Rusiyanın belə hərəkətləri Azərbaycan xalqına qarşı təzyiq kimi qiymətləndirilirdi. İslam Dünyası Liqası İKT-ni Rusiya hökumətinə müraciət etməyə çağırırdı. Bəyanatın sonunda Rusiya hökumətinin qərarına yenidən baxacağına ümid ifadə olunurdu'^'. Liqa qəbul etdiyi bəyanata dair teleqramı Azərbaycanın Səudiyyə Ərəbistanın- dakı səfirliyinə təqdim etdi'^*.

Belə bir şəraitdə, sentyabrın 18-23-də Səudiyyə Ərəbistanı Ticarət-Sənaye Palatası nümayəndə heyətinin Azərbaycana səfəri böyük əhəmiyyət kəsb edirdi. Nümayəndə heyətinə Ticarət-Sənaye Palatasının sədri Abdel Rahman Əl Ciresi başçılıq edirdi. Səfər zamanı nümayəndə heyətini Azərbaycan Respublikasının Prezidenti, Baş Nazir, müvafiq nazirlik və müəssisə rəhbərləri qəbul etdilər. Nümayəndə heyəti aqrar bölmə və turizm yerlərinin imkanları ilə tanış oldu. Görüşlərdə əsas diqqət din, ümumi tarix kimi hissiyath anlara deyil, qarşılıqlı maraqlara yönəldildi.

ARXİNA. 06.09.1994-18.04.1995. Qovluq XsS, v.60.
™ ARXİNA. 06.09.1994-18.04.1995. Qovluq XsS, v.59.

Səudiyyə Ərəbistanı iş adamları əməkdaşlığın vacibliyini başa düşdülər. Onlar Azərbaycanda siyasi sabitliyə əmin oldular. Ölkənin iqtisadi potensialı, təbii sərvətləri və insan ehtiyatı haqqında məlumat aldılar. Səudiyyə Ərəbistanı kapitalının iştirakı ilə birgə kompaniya qurulması təklif edildi. Azərbaycan Respublikasının turizm sahəsində böyük imkanlarının olduğu, bank sistemi sahəsində əməkdaşlığın mümkünlüyü vurğulandı. Səfər qarşılıqlı münasibətlərin maddi təməllərinin möhkəmləndirilməsi baxımından əhəmiyyətli oldu.

Tərəflər əməkdaşlığın dərinləşdirilməsində və yeni sahələri əhatə etməsində maraqlı idilər. Azərbaycan Respublikasının Ər Riaddakı səfiri Elman Arashnın 1995-ci il dekabrın 19-da Səudiyyə Ərəbistanının daxili işlər naziri Naif Ben Abdel Əziz Əl Səud ilə görüşü bu baxımdan əhəmiyyətli oldu^^’. Görüşdə iki ölkə arasında münasibətlərin yaxşı olduğu qeyd edildi. Ölkəsinin Azərbaycan ilə münasibətlərə xüsusi diqqət yetirdiyini qeyd edən nazir şəxsən özünün töhfə vermək istədiyini vurğuladı. O, Azərbaycan səfirinin iki ölkə arasında münasibətlərin möhkəmləndirilməsində xüsusi rol oynadığını qeyd etdi. Bundan sonra görüşdə azərbaycanlı mütəxəssislərdən Səudiyyə Ərəbistanında istifadə olunmasına dair məsələ müzakirə edildi. Azərbaycan səfiri Səudiyyə Ərəbistanı nümayəndə heyətinin Bakıya səfərindən sonra Azərbaycan tərəfinin bu məsələ ilə bağlı hazırlıqlar apardığını bildirərək, məsələnin həllinin sürətləndirilməsini xahiş etdi. Nazir məsələnin gələcəkdə davamlı və uğurlu olması üçün ölkəsinə mütəxəssislərin ciddi seçilməsinə ehtiyac olduğunu vurğuladı.

Azərbaycan səfiri Bakı Dövlət Universitetində İslam problemlərinin öyrənilməsini yaxşılaşdırmaq üçün maliyyə və maddi yardım edilməsi məsələsini qaldırdı, Moskva Dövlət Universitetində əmir Naifin vəsaitləri hesabına İslamı öyrənən bölmənin açıldığına əsaslanaraq Azərbaycanda da belə bir mərkəzin qurulmasının vacibliyini bildirdi. Təklifə müsbət yanaşan nazir Kralla danışacağını və onun bu təklifi müdafiə edəcəyini də vurğuladı.

Daha sonra iki ölkənin daxili işlər nazirliklərinin nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinə dair məsələ müzakirə edildi. Azərbaycan tərəfi belə səfərlərə əhəmiyyət verirdi. Əmir Naif bu ideyanı da müdafiə etdi. Kralın ona Azərbaycana səfər edib Daxili İşlər Nazirliyi və Milli Təhlükəsizlik Nazirliyinin işi ilə tanış olmaq barədə göstəriş verdiyini bildirdi.

’ ARXİNA. 06.06.1994 -26.11.1996. Qovluq Ns21, v. 137-140.

Görüş zamanı Azərbaycanda aparılan islahatlar və Ermənistanın hərbi təcavüzünün nəticələri haqqında Səudiyyə Ərəbistanının daxili işlər nazirinə məlumat verildi.

Keçirilən bütün bu görüşlər və aparılan müzakirələr münasibətlərin daha da inkişafını zəruri edirdi. Belə ki, az sonra Həsən Həsənov xarici işlər naziri Səud Əl Feysəl Əs Səuda məktub göndərib, iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsinə xidmət edəcək dostluq və əməkdaşlıq haqqında müqavilənin imzalanmasını təklif etdi, onu münasib bildiyi vaxt Azərbaycan Respublikasına rəsmi səfərə dəvət etdi^'*°.

Səudiyyə Ərəbistanı və ərəb ictimaiyyətinin Azərbaycan Respublikasına marağı 1996-cı ildən etibarən artmağa başladı. Bu, ilk növbədə ikitərəfli əməkdaşlığı inkişaf etdirmək üçün Azərbaycanın böyük potensial imkanları və perspektivləri, Azərbaycan diplomatiyasının fəallığı. Prezident Heydər Əliyev tərəfindən beynəlxalq aləmdə həyata keçirilən səylər hesabına ölkənin siyasi və iqtisadi müstəqilliyinin möhkəmləndirilməsi, beynəlxalq nüfuzunun artması, müxtəlif dövlətlər və beynəlxalq təşkilatlarla əlaqələrinin genişlənməsi ilə bağlı idi.

Səudiyyə Ərəbistanı Krallığı Azərbaycanda həyata keçirilən islahatları diqqətlə izləyirdi’'*'. Rəsmilər Azərbaycanın dünyanın enerji ehtiyaclarının ödənilməsində oynayacağı rolu qeyd edirdilər. Belə bir fikir ifadə edilirdi ki. Qərb ölkələri Azərbaycana Qafqaz regionununda strateji dayaq məntəqəsi kimi baxır. Bu o demək idi ki, Azərbaycan ATƏT ilə sıx əməkdaşlıq edərək, ABŞ və Qərb üçün strateji tərəfdaşa çevrilirdi. Xəzər neftinin yeni geosiyasi oyun predmeti olduğu qeyd edilirdi. Belə bir şəraitdə Rusiya, Türkiyə, Gürcüstan və İran Azərbaycan və Qazaxıstan neftinin ərazilərindən nəql edilməsi üçün səylərini artırmışdılar. Bəzi mütəxəssislər XXI əsrin əvvəlləri üçün Azərbaycanda neft istehsalının gündə 700 min barrelə çatacağını proqnozlaşdırırdılar. Bu isə Qərb ölkələri üçün Azərbaycanın geosiyasi əhəmiyyətini artırırdı.

Belə bir zamanda Səudiyyə Ərəbistanı Bakıda səfirlik açmaq barədə qərar qəbul etməyə hazırlaşırdı. Məsələ ilə bağlı fikir mübadiləsi etmək məqsədilə Elman Arash 1996-cı il mayın 25-də Səudiyyə Ərəbistanı Krallığı Dövlət Məsləhət Şurasının sədri Şeyx Məhəmməd Ben İbrahim Ben Cubeyr ilə görüşdü’*’. Azərbaycan səfiri Bakıda səfirlik açmağın və

ARXİNA. 06.06.1994 -26.11.1996. Qovluq Xo21, v. 178-190.
ARXİNA. 03.01.1996 - 29.07.1996. Qovluq X221, v. 201-202.
ARXİNA. 06.06.1994-26.11.1996. Qovluq Xo21,v. 155-156. 

Şeyxin Azərbaycana səfərinin münasibətlərdə mühüm rol oynayacağı qənaətində idi. Şeyx iki ölkə arasında münasibətlərin inkişafından razılıq ifadə etdi.

Səfirliyin binası ilə bağlı məsələləri müzakirə etmək üçün sentyabrın 16-da Elman Araslı Səudiyyə Ərəbistanı Xarici İşlər Nazirliyinin daşınmaz əmlak mülkiyyəti departamentinin rəisi Nabil Aşur ilə görüşdü’"*^. Görüşdə müzakirə edilən əsas məsələ Bakıda Səudiyyə Ərəbistanı səfirliyinin açılması idi. Nabil Aşur xarici işlər naziri Əmir Səud Əl Feysəlin Bakıda səfirlik açılmasına böyük əhəmiyyət verdiyini vurğuladı. Sentyabrın 17-də hökumət Bakıda səfirliyin açılmasına dair qərar qəbul etdi.

Azərbaycan səfiri sentyabrın 24-də Nabil Aşur ilə yenidən görüşdü. Nabil Aşur 1996-cı ildə Bakıda səfirliyin açılacağı barədə qərar qəbul edildiyini vurğuladı. Texniki və hüquqi məsələləri həll etmək üçün Bakıya nümayəndə heyəti göndəriləcəkdi.

Artıq qeyd edildiyi kimi, Azərbaycan tərəfi Səudiyyə Ərəbistanı kapitalının ölkəyə cəlb edilməsində və digər sahələrdə əməkdaşlığın genişləndirilməsində maraqlı idi. Bu məqsədlə 1996-cı il oktyabrın 14-də Elman Araslı Səudiyyə Ərəbistanının məşhur iş adamı Məhəmməd Əl Şureymi qəbul etdi’""*. Görüşdə əsasən iqtisadi əməkdaşlıq məsələləri müzakirə edildi. Səudiyyə Ərəbistanı kapitalı Azərbaycana dəvət olundu.

Əməkdaşlıq digər sahələri də əhatə edirdi. Belə sahələrdən biri təhsil idi. Azərbaycan Respublikasının təhsil naziri Lidiya Rəsulova başda olmaqla nümayəndə heyəti noyabrın 11-18-də Səudiyyə Ərəbistanında səfərdə oldu’"*^. Səfərdə məqsəd iki ölkə arasında təhsil sahəsində əlaqələri genişləndirmək idi. Azərbaycan nümayəndə heyəti Ali Təhsil Nazirliyində, Ər Riad, Ciddə və Mədinə şəhərlərinin universitet və digər elm, təhsil müəssisələrində hər iki tərəfi maraqlandıran məsələləri müzakirə etdi. Danışıqların nəticəsində Azərbaycan tərəfi Səudiyyə Ərəbistanı hökumətinə 12 bənddən ibarət təkliflər paketi təqdim etdi^"®. Təkliflər elm və təhsilin müxtəlif sahələrində əməkdaşlığı nəzərdə tuturdu.

Azərbaycan nümayəndə heyəti vəliəhd əmir Abdulla İbn Əbdül Əziz, müdafiə və aviasiya naziri Səudiyyə Ərəbistanı Krallığının baş müfəttişi əmir Sultan İbn Əbdül Əziz ilə görüşdü. Vəliəhdlə görüş zamanı

ARXİNA. 06.06.1994 -26.11.1996. Qovluq N>21, v. 192-193.
ARXİNA. 06.06.1994 -26.11.1996. Qovluq Xü21, v. 207-209.
745 ARXINA. 06.06.1994 -26.11.1996. Qovluq Xo21, v. 219- 222.
746 ARXİNA. 06.06.1994 -26.11.1996. Qovluq X221, v. 223-224.

Azərbaycan Prezidentinin Kral Fəhd İbn Əbdül Əzizə şəxsi məktubu çatdırılmaq üçün təqdim edildi. Vəliəhd ölkəsinin Azərbaycana xüsusi əhəmiyyət verdiyini və Azərbaycan ilə əməkdaşlığa hazır olduğunu bildirdi.

Hər iki tərəfin səyləri nəticəsini verməyə başladı. Əməkdaşlıq genişlənirdi. Krallıq yeni bir addım atdı. Qarabağ müharibəsinin 5 əlili
1999- cu ildə Səudiyyə Ərəbistanında müalicə olundu.

Azərbaycanlı həkimlər Səudiyyə Ərəbistanında işləməyə başladılar. İki ölkə arasında imzalanmış birgə proqram çərçivəsində Krallıqda 500- dən artıq azərbaycanlı həkim işləyirdi.

1999- cu ilin may ayında Səudiyyə Ərəbistanı Krallığı Xarici İşlər Nazirliyinin protokol idarəsinin müşaviri Züheyr Əbdülkərim Süleyhim Krallığın Azərbaycandakı səfirliyinə müvəqqəti işlər vəkili təyin edildi. Həmin ilin iyun ayında Səudiyyə Ərəbistanının Bakıdakı səfirliyi fəaliyyətə başladı.

Səudiyyə Ərəbistanı ilə əməkdaşlığı genişləndirmək üçün Azərbaycan tərəfi mühüm bir qərar qəbul etdi. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 aprel tarixli 400 saylı sərəncamı ilə Azərbaycan Respublikası hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində əməkdaşlıq üzrə müştərək komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi təsdiq edildi. Azərbaycan Respublikası baş nazirinin müavini Yaqub Eyyubov Azərbaycan tərəfindən komissiyanın həmsədri təyin olundu^"*’. Komissiyanın təşkili və fəaliyyəti qarşılıqlı münasibətlərə dinamizm verirdi.

Azərbaycan Respublikası - Səudiyyə Ərəbistanı müştərək komissiyanın birinci iclası 2001-ci ilin fevral ayında Bakı şəhərində keçirildi. İclasda iştirak etmək üçün Səudiyyə Ərəbistanının ticarət naziri Usama İbn Cəfər Fəqih başda olmaqla nümayəndə heyəti Azərbaycana səfər etdi. Nümayəndə heyətini qəbul edən Azərbaycan Prezidenti Heydər Əliyev əməkdaşlığın böyük potensialının olduğunu vurğuladı^"**.

Müştərək komissiyanın işinin sonunda protokol imzalandı. Səudiyyə Ərəbistanı Krallığı nəqliyyat, təhsil və səhiyyə sahələri üzrə layihələrin maliyyələşdirilməsinə dair razılığım bildirdi. 2001-ci ildə Bakı şəhərində

Azərbaycan - Səudiyyə Ərəbistanı əlaqələri. - Heydər Əliyev və Şərq. 6 cild-də. İKT dövlətləri. V kitab, s. 213.

Azərbaycan Prezidenti Heydər Əliyev Səudiyyə Ərəbistanının nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 174-176.

10 məktəb binası tikintisi üçün vəsait ayrıldı. Təkcə beş məktəbin tikintisinə ayrılan məbləğ 9 milyon 685 min 645 ABŞ dolları idi’"*^.

Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini müdafiə edən Səudiyyə Ərəbistanı qondarma "Dağlıq Qarabağ Respublikasf'nda keçirilmiş prezident seçkilərini pislədi. Səudiyyə Ərəbistanı Dağlıq Qarabağ münaqişəsi həll edilməyənədək Ermənistan ilə heç bir siyasi, iqtisadi və mədəni əlaqələr qurmayacağı barədə bəyanat verdi. Eyni zamanda 2001-ci
11 sentyabrın 5-də qondarma Dağlıq Qarabağda yerli özünüidarə orqanlarına keçiriləcək seçkiləri də pislədi^^°.

Səudiyyə Ərəbistanı Ermənistanın təcavüzü ilə əlaqədar olaraq BMT, İKT və digər beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyini dəstəkləyirdi və Ermənistan ilə diplomatik əlaqələr qurmamışdı. Bu ölkə Azərbaycana fəal surətdə humanitar yardım göstərən dövlətlər sırasında idi. Artıq qeyd edildiyi kimi, 1994-1999-cu illər ərzində qaçqın və köçkünlərə Kral Fəhdin yardım proqramı çərçivəsində dəfələrlə ərzaq, dərman və s. ibarət humanitar yardımlar edilmişdi.

Azərbaycan tərəfi Səudiyyə Ərəbistanı ilə münasibətləri dərinləşdirməkdə maraqlı idi. Bu məqsədlə 2002-ci il oktyabrın 21-25-də Azərbaycan Respublikası Prezidentinin şəxsi nümayəndəsi Novruz Məmmədovun başçılıq etdiyi nümayəndə heyəti Səudiyyə Ərəbistanına səfər edərək Azərbaycan Respublikası Prezidentinin məktublarını Krala və vəliəhd Abdulla İbn Əbdül Əziz Əl Səuda təqdim etdi. Məktublarda iki ölkə arasında münasibətlərin dərinləşdirilməsi üçün konkret təkliflər - yolların, məktəb binalarının tikintisinə vəsait ayrılması, enerji, müdafiə sahələrində, beynəlxalq təşkilatlar çərçivəsində daha sıx əməkdaşlıq və s. məsələlər var idi. Azərbaycan nümayəndə heyətinin Kral Fəhd, vəliəhd Abdulla, müdafiə və aviasiya naziri Sultan Bin Əbdül Əziz, xarici işlər nazirinin müavini və ticarət naziri U.Fəqih ilə keçirdiyi görüşlərdə iki ölkə arasında siyasi, iqtisadi və müdafiə sahələrində əməkdaşlıq məsələləri müzakirə edildi. Bu səfərdən sonra, dekabrın 28-də Səudiyyə İnkişaf Fondu Bakı şəhərində orta məktəb binalarının tikinti layihələrini həyata keçirmək məqsədi ilə Azərbaycan Respublikası hökumətinə 35,7 milyon rial həcmində kredit ayrılmasına dair qərar qəbul etdi.

Səudiyyə Ərəbistanı Krallığı xarici işlər nazirinin birinci müavini Nəzər Bin Ubeyd Əl Mədəninin başçılığı ilə Səudiyyə Ərəbistanı nü-

ARXINA. 15.01.2001-10.09.2001. Qovluq NsO, v.11-12.
ARXİNA. 15.01.2001-10.09.2001. Qovluq Xo6, v.37.

nayəndə heyətinin 2003-cü il mayın 18-21-də Azərbaycana səfəri zamanı Baş Nazir, Milli Məclisin Sədri, xarici işlər naziri, iqtisadi inkişaf naziri ilə keçirdiyi görüşlərdə Azərbaycanda avtomobil yollarının tikintisinə vəsait ayrılması məsələsi müzakirə edildi. Azərbaycan tərəfinin təklifinə Səudiyyə Ərəbistanı razılığını bildirdi.

Səudiyyə Ərəbistanı Krallığının neft və mineral sərvətlər naziri Əli Bin İbrahim Əl Nəimi başda olmaqla nümayəndə heyəti 2003-cü ilin iyun ayında Azərbaycana səfər etdi. Nümayəndə heyətinin Azərbaycan Prezidenti Heydər Əliyev ilə görüşü zamanı iki ölkə arasında karbohidrogen ehtiyatlannın işlənilməsində əməkdaşlıq məsələləri müzakirə edildi’^'. İnformasiya mübadiləsini artırmağın vacibliyi bildirildi.

Bundan bir neçə gün sonra Səudiyyə Ərəbistanı Krallığı Şura Məclisinin sədri Saleh Bin Abdulla Humeydin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfər etdi. Nümayəndə heyəti Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Milli Məclis, Bakı Dövlət Universiteti, Qafqaz Müsəlmanları İdarəsi və Xarici İşlər Nazirliyində görüşlər keçirdi. Nümayəndə heyətini qəbul edən Heydər Əliyev iki ölkə arasında əməkdaşlıq üçün geniş imkanların olduğunu bildirdi^^^.

Ümumiyyətlə, 1991-2003-cü illərdə Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında münasibətlər rəvan inkişaf etmişdir. Bu münasibətlərin zəngin tarixi, mədəni və mənəvi bağları vardır. Səudiyyə Ərəbistanı Ermənistanın təcavüzü və etnik təmizləmə siyasəti nəticəsində yurd-yuvalarından didərgin düşmüş azərbaycanlı qaçqın və məcburi köçkünlərə humanitar yardım etmiş, Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləmiş və onunla diplomatik əlaqələr qurmamışdır. Səudiyyə Ərəbistanı Azərbaycan ilə enerji sahəsində əməkdaşlıq etmiş, yol, məktəb tikintisi və s. layihələrə kreditlər ayırmışdır. Azərbaycan mütəxəssisləri Səudiyyə Ərəbistanında çalışmışlar. İki ölkə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq etmişlər.

Azərbaycan Prezidenti Heydər Əliyev Səudiyyə Ərəbistanı Krallığının nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. I hissə, s. 238-240.

Azərbaycan Prezidenti Heydər Əliyev Səudiyyə Ərəbistanı Krallığının nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003.1 hissə, s. 246-248.

# MİSİR ƏRƏB RESPUBLİKASI İLƏ MÜNASİBƏTLƏRİN QURULMASI VƏ İNKİŞAFI

## İlk əlaqələr

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının xarici siyasətində Afrika qitəsində yerləşən, böyük hərbi-iqtisadi potensiala və insan ehtiyatına malik olan Misir Ərəb Respublikası ilə qarşılıqlı münasibətlərin qurulması və inkişafı mühüm yerlərdən birini tutdu. Azərbaycan-Misir münasibətləri iki xalq arasındakı tarixi, mədəni, dini və s. yaxınlığa əsaslanırdı. Bu münasibətlərin əhəmiyyəti Misirin ərəb dünyasında siyasət lideri olması, beynəlxalq aləmdə, xüsusən BMT, Ərəb Dövlətləri Liqası, Afrika Birliyi Təşkilatı, İslam Konfransı Təşkilatı və digər beynəlxalq təşkilatlardakı nüfuzu ilə müəyyən edilirdi. Misir özünün bir sıra mühüm beynəlxalq, hərbi, iqtisadi və mədəni potensilaı, həmçinin siyasi təsiri baxımından digər ərəb ölkələrini üstələyirdi. Bu ölkə Avropa, Asiya və Afrikanı birləşdirən müstəsna əhəmiyyətli geostrateji mövqedə yerləşir. Qərb ölkələrinə ixrac edilən ərəb neftinin daşındığı Süveyş kanalına nəzarət edirdi. Bu, Misirin Yaxın Şərq və ərəb dünyasında rolunu artırırdı.

Misir Ərəb Respublikası 1991-ci il dekabrın 26-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı. 1992-ci ilin yanvar ayında Misir baş nazirinin müavini Kamal Əl Qanzurinin rəhbərlik etdiyi nümayəndə heyətinin Bakıya səfəri zamanı ikitərəfli münasibətləri qurmaq və genişləndirmək məsələləri müzakirə edildi. Tərəflər qarşılıqlı münasibətləri genişləndirmək barədə razılığa gəldilər. Həmin il martın 27-də iki ölkə arasında diplomatik əlaqələrin qurulması haqqında protokol imza- landı’^^ Diplomatik əlaqələr aprelin 11-də quruldu. Bunlar Azərbaycan - Misir münasibətlərində ilk addımlar idi’^".

Azərbaycan tərəfi Misir ilə əməkdaşlığın qurulmasına xüsusi maraq göstərirdi. Buna görə də 1992-ci ilin noyabr ayında Azərbaycan Respublikasının xarici işlər naziri Tofiq Qasımov başda olmaqla nümayəndə

ARXİNA. 2008.
™ ARXİNA. 25.07.1995-27.07.1995. Qovluq Xo21, v. 10; Azərbaycan - Misir əlaqələri. - Heydər Əliyev və Şərq. 6 cilddə. İKT dövlətləri. V kitab, s. 264-268.

heyəti Misir Ərəb Respublikasına səfər etdi'^^. Səfərdə əsas məqsəd iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığı, o cümlədən siyasi, mədəni, ticarət və iqtisadi əlaqələri genişləndirrrıək və yaxın perspektivlərini müəyyənləşdirmək idi. İlk görüş Misirin Planlaşdırma Nazirliyində keçirildi. Planlaşdırma naziri, baş nazirin müavini Kamal Əl Qənzuri ilə keçirilən danışıqlarda iki ölkə arasında iqtisadi əlaqələrin qurulmasına dair razılıq əldə edildi.

Prezident Hüsnü Mübarək'^^ Azərbaycanın xarici işlər nazirini qəbul etdi. Görüşdə iki ölkə arasında siyasi və iqtisadi əlaqələr müzakirə edildi. Əvvəlcə Azərbaycanın güclü iqtisadi potensialı, daha sonra isə Azərbaycan - Ermənistan münaqişəsinə dair Misir Prezidentinə məlumat verildi. Misir Prezidentinin münaqişə barədə geniş bilgisi var idi. Bu məsələdə MƏR-in Azərbaycan ilə mövqeləri üst-üstə düşürdü. Misir dövləti Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirdi.

MƏR Xarici İşlər Nazirliyində keçirilən görüşün sonunda, noyabrın 8-də iki ölkənin xarici işlər nazirlikləri arasında anlaşma memorandumu, mədəniyyət sahəsində əməkdaşlıq haqqında saziş, noyabrın 10-da isə Azərbaycan - Misir birgə bəyanatı imzalandı. Xarici işlər nazirlikləri arasında imzalanan protokol beynəlxalq və regional məsələlər üzrə məsləhətləşmələr keçirməyi, mövqeləri uyğunlaşdırmağı nəzərdə tuturdu. Mədəniyyət sahəsində əməkdaşlığa dair sazişdə mədəni əlaqələrin genişləndirilməsi ilə yanaşı, tələbə, müəllim, elmi və texniki işçilərin mübadiləsi nəzərdə tutulurdu. Azərbaycan - Misir birgə bəyanatında keçirilən danışıqlar, onların nəticələri və tərəflərin niyyətləri ifadə edilmişdi. Bu sənədlərdən başqa iki ölkə arasında konsulluq əlaqələri, informasiya mübadiləsi, ticarət-iqtisadi əməkdaşlıq haqqında sazişlər paraflandı. Səfirliklərin açılması barədə razılıq əldə edildi.

Səfər qarşılıqlı münasibətlərdə əhəmiyyətli bir addım idi. Belə ki, səfərdən az sonra, 1993-cü il yanvarın 27-də Misir Ərəb Respublikasının paytaxtı Qahirə şəhərində Azərbaycan Respublikasının səfirliyi təsis edildi'^'. Bu, Azərbaycanın ərəb ölkələrində açılan ilk səfirliyi idi'^*.[758] Hə

; ARXİNA. 25.07.1995-27.07.1995. Qovluq Xo21, v. 99-102.

' Məhəmməd Hüsnü Mübarək (1928). - vitse-prezident (1975-1981), Prezident (1981-2011), eyni zamanda Baş Nazir (1981-1982).

[757] ARXINA. 1993.

**Apacjibi 3. HojiBeKa na BjiHTKHeM BocroKe (BocnoMnuanmı flHnjıOMaxa), C.** 180.

min ilin aprel ayından Misir Ərəb Respublikasının Bakıda səfirliyi fəaliyyətə başladı.

Qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi üçün yeni addımlar atıldı. 1993-cü il mayın 24-26-da Misir parlamentinin nümayəndə heyəti xarici işlər üzrə daimi komissiyanın rəhbəri Məhəmməd Abdel başda olmaqla Azərbaycana səfər etdi. Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy ilə görüş zamanı Misir parlamentinin nümayəndələri dövlət quruculuğu sahəsində iki ölkənin əməkdaşlıq etmək niyyətini bildirdilər. Görüşlər Xarici İşlər Nazirliyində və parlamentdə də keçirildi. Səfər və aparılan müzakirələr əməkdaşlığın böyük potensialının olduğunu göstərirdi.

## Münasibətlərin yeni mərhələsi

Əməkdaşlığı genişləndirmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1993-cü il dekabrın 3-də Misir Prezidentinə məktub göndərdi™. Məktubda iki ölkə arasında münasibətlərin inkişafından məmnunluq ifadə olunur, bu münasibətlərin ümumi tarix, din, mədəniyyət, xalqlar arasında ənənələrə əsaslandığı göstərilir, müstəqilliyin bərpasından ötən illər ərzində atılan addımlar barədə məlumat verilir, Ermənistanın təcavüzünün nəticələri qeyd edilir, Misirin dünya və region siyasətində oynadığı rol vurğulanır, Misir ərəb və İslam dünyasının mərkəzi kimi qiymətləndirilir, Ermənistanın təcavüzünün dayandırılmasında bu ölkənin köməyinə ümid edilir, Ermənistanın təcavüzünü pislədiyi üçün təşəkkür edilirdi. Məktubda daha sonra Qahirədə Azərbaycan səfirliyinin açılması və Azərbaycan Prezidentinin qarşıdakı səfəri zamanı imzalanacaq sənədlər paketinin iki ölkə arasında münasibətlərdə yeni bir mərhələ açacağına ümid ifadə edilirdi. Cavab məktubunda Misir tərəfi də Azərbaycan ilə əməkdaşlığa hazır olduğunu bildirdi.

Bundan sonra, 1994-cü ilin aprel ayında Azərbaycan Respublikasının xarici işlər naziri Həsən Həsənov Misirə səfər etdi. Səfər zamanı o. Prezident Hüsnü Mübarək, xarici işlər naziri Əmru Musa™, neft naziri və parlamentin sədri ilə görüşlər keçirdi. Görüşlər zamanı Həsən Həsənov Azərbaycan - Misir münasibətlərinin inkişaf etdirilməsinin vacibliyini bil-

™ ARXINA. 25.07.1995-27.07.1995. Qovluq N22I, v. 103-106.

™ Əmru Musa ( 1936). - MƏR-in BMT-dəki daimi nümayəndəsi (1990-1991), xarici işlər naziri (1991-2001), Ərəb Dövlətləri Liqasının baş katibi (2001-2011).

dirdi, iqtisadiyyat sahəsində hər iki dövlətin geniş imkanlarının, bazar iqtisadiyyatının dönməzliyi və zəngin təbii sərvətlərinin olduğunu, Misir kapitalının Azərbaycana qoyulmasının əhəmiyyətini vurğuladı, münasibətləri inkişaf etdirmək üçün müvafiq müqavilə və sazişlərin imzalanmasının vacibliyini qeyd etdi’^'.

Azərbaycanın xarici işlər naziri Ərəb Dövlətləri Liqasının sessiyasında etdiyi çıxışda ölkədəki şərait, xarici siyasətdə ərəb dünyası ilə əlaqələrə verilən əhəmiyyət və Ermənistanın təcavüzü üzərində dayandı. O, Liqaya daxil olan bəzi ölkələrin xarici işlər nazirlikləri ilə ikitərəfli əməkdaşlığa dair məsələləri müzakirə etdi.

Aprelin 7-də Azərbaycan ilə MƏR arasında konsulluq konvensiyası, iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında saziş, konsulluq məsələləri üzrə əməkdaşlıq, informasiya sahəsində əməkdaşlıq haqqında protokollar imzalandı. Səfərin sonunda birgə bəyanat qəbul edildi.

Bütün bunlar iki ölkə arasında münasibətlərin möhkəm bünövrəsinin qurulması istiqamətində tərəflərin iradəsini və əməkdaşlığın geniş perspektivlərinin olduğunu göstərirdi. Qeyd etmək lazımdır ki, bu zaman Misir tərəfi Mərkəzi və Cənub-Şərqi Avropada və SSRİ-də sosializm sistemi dağıldıqdan sonra Ümumavropa bazarının yaradılması dövründə fəallaşmaq üçün cəhdlər edirdi. Hələ 1978-ci ilin sentyabr ayında ABŞ Prezidenti C.Karterin vasitəçiliyi ilə Ə.Sadat və M.Begin arasında Kemp- Deviddə imzalanan iki sənəddən, 1979-cu il martın 26-da Vaşinqtonda bağlanan sülh müqaviləsi nəticəsində müharibə dayandırıldıqdan, diplomatik münasibətlər qurulduqdan sonra Qahirədən çıxarılaraq Tunisə köçürülən Ərəb Dövlətləri Liqasının qərargahının 12 illik fasilədən sonra - 1989-cu ildə Qahirəyə qayıtması Misir diplomatiyasının qələbəsi kimi qiymətləndirilirdi. Misir ABŞ və Fransa ilə hərbi əməkdaşlığını genişləndirirdi. Bu ölkə 1993-cü ilin sentyabr ayında Vaşinqtonda Fələstin Azadlıq Təşkilatı ilə İsrail arasında İeroxon və Qəzza sazişinin imzalanmasında mühüm rol oynamışdı. Misirin Sudan istisna olmaqla. Şimali Afrikadakı bütün qonşuları ilə münasibətləri yaxşılaşmaqda idi’^^. Bu ölkə eyni zamanda MDB dövlətləri, xüsusən də müsəlman respublikaları ilə əlaqələrini genişləndirmək istəyirdi. Azərbaycanın ərəb şərqi ölkələri ilə müna-

ARXİNA. 25.07.1995-27.07.1995. Qovluq Jfo21, v. 121.
’“ARXİNA. 25.07.1995-27.07.1995. Qovluq Jf221,v. 13-16. 

sibətlərinin başlıca məqsədi tərəfdaşlıq münasibətlərini qurmaq, möhkəmləndirmək və konkret məzmunla zənginləşdirmək idi^*'^.

1994-cü il mayın 28-də Misir Ərəb Respublikası Prezidenti aparatının katibi Abdel Vahab Əs Salvi Qahirədəki Azərbaycan səfirliyinə gələrək Respublika günü münasibəti ilə Misir Prezidentinin məktubunu təqdim etdi. Misir tərəfi Azərbaycanda baş verən hadisələri diqqətlə izləyirdi. Azərbaycan xalqının müstəqilliyi və ərazi bütövlüyü uğrunda apardığı mübarizəsindəki çətinlikdən dərin narahatlıq hissi keçirirdi^®"*.

Bu zaman Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Misirə səfəri hazırlanırdı. Qahirədə BMT-nin Əhali və İnsan inkişafı üzrə beynəlxalq konfransı keçiləcəkdi. ABŞ-m vitse-prezidenti Albert Qorun da konfransda iştirakı gözlənilirdi. Azərbaycan tərəfi imzalanmasına hazırlıqlar aparılan "Əsrin müqaviləsi"nə və ikitərəfli münasibətlərə dair məsələləri onunla müzakirə etmək istəyirdi. Bu məqsədlə aldığı təlimata uyğun olaraq Misirdəki Azərbaycan səfiri 1994-cü il avqustun 8-də Qahirədəki ABŞ səfiri Edvard Uoiker ilə görüşdü'®^. Söhbət zamanı Azərbaycan - ABŞ münasibətlərinin müxtəlif tərəfləri müzakirə edildi. E.Uolker Azərbaycan haqqında hərarətlə danışdı. Erməni lobbisinin intensiv iş aparmasına baxmayaraq, Azərbaycanın yeni rəhbərliyinin siyasəti nəticəsində ölkəsində Azərbaycan ilə əlaqələrin genişləndirilməsi tərəfdarlarının sayının artdığını qeyd etdi. Səfir Ermənistan - Azərbaycan münaqişəsini yaxşı bilirdi. Hələ Qahirədə səfir təyin edilənədək BMT-də ABŞ nümayəndəliyində işləmişdi. Regiondakı şərait haqqında informasiyası var idi.

Azərbaycan səfiri ABŞ-m vitse-prezidenti Albert Qorun Qahirəyə səfər edib-etməyəcəyi ilə maraqlandı. Onunla Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin görüşünün mümkünlüyünü müzakirə etdi. ABŞ səfiri bildirdi ki, Albert Qor konfransda iştirak etməli, daha sonra Misir rəhbərliyi və bəzi dövlət xadimləri ilə görüşərək iki ölkə arasında münasibətləri müzakirə etməlidir. ABŞ səfiri təcili olaraq administrasiya ilə əlaqə qurub. Heydər Əliyev ilə görüş məsələsini çatdıracağım vəd etdi.

Azərbaycan tərəfi səfərə ciddi hazırlaşırdı. Azərbaycan Prezidentinin səfəri ərəfəsində Misir Ərəb Respublikası ilə Azərbaycan Respublikası

ARXİNA. 25.07.1995-27.07.1995. Qovluq Re21, v. 18-22.
ARXİNA. 28.01.1994-03.01.1995. Qovluq X22I, v.117-118.
ARXİNA. 28.01.1994-03.01.1995. Qovluq MiZ 1, v. 1 -2.

arasında dostluq və əməkdaşlıq haqqında müqavilə’*'^, ticarət-iqtisadi əməkdaşlığa dair saziş’®’ və b. sənədlərin layihələri hazırlandı’®^.

1994-cü ilin sentyabr ayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev BMT-nin Əhali və İnkişaf üzrə beynəlxalq konfransında iştirak etmək üçün Qahirəyə işgüzar səfər etdi’®®.

Səfər zamanı Heydər Əliyevin MƏR Prezidenti Hüsnü Mübarək ilə görüşü iki ölkə arasında münasibətlərin möhkəmləndirilməsi və əməkdaşlığın yeni perspektivlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyətli oldu. Görüşdə Azərbaycan Prezidenti ölkədəki siyasi şəraitin sabit olduğu, demokratik inkişaf yolu seçildiyi, daxili siyasi qüvvələrin nisbəti, rəhbərliyin hüquqi, demokratik və dünyəvi dövlət qurmaq əzmi, cəbhə bölgələrində son hərbi şərait, qaçqın və məcburi köçkünlərin vəziyyəti və Ermənistanın hərbi təcavüzü barədə danışdı. Misir tərəfi Azərbaycanın ədalətli mövqeyini dəstəkləyirdi.

Daha sonra Misirin xarici işlər naziri Əmru Musa ilə görüş oldu. Azərbaycan Prezidenti Bakıda Misir İslam Mərkəzinin qurulduğu, ölkəsinin haqlı mövqeyini müdafiə etdiyi üçün təşəkkür etdi və Misir kapi- 770

talımn Azərbaycana cəlb edilməsinin əhəmiyyətindən söhbət açdı

Qeyd etmək lazımdır ki, bu zaman Azərbaycan - Misir iqtisadi əlaqələri geniş deyil, məhdud idi”'. 1993-cü il məlumatına görə, iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 53 min ABŞ dolları təşkil edirdi. Bu məbləğdə malların hamısını Azərbaycan idxal edirdi’”.

Konfrans çərçivəsində Heydər Əliyev BMT baş katibi Butros But- ros Qali ilə görüşərək Ermənistanın təcavüzkarlığı, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin yerinə yetirilməməsi barədə danışdı. Bu qətnamələrin yerinə yetirilməsi üçün BMT-nin qətiyyətli olmasını istədi.

BMT konfransında etdiyi nitqində Heydər Əliyev Azərbaycanda sosial-iqtisadi və siyasi sahələrdə aparılan islahatlar, ölkəsinin xarici siya-

---

ARXİNA. 25.07.1995- 27.07.1995. Qovluq Xo21,v. 55-57.
’®’ ARXİNA. 25.07.1995- 27.07.1995. Qovluq X°21, v. 58-62.
ARXİNA. 25.07.1995- 27.07.1995. Qovluq Xo21, v. 75, 78.
ARXİNA. ™ 28.01.1994- 03.01.1995. Qovluq JÇo21, v. 46-47.
ARXİNA. 25.07.1995- 27.07.1995. Qovluq Xo21,v. 131-133.
ARXİNA. 25.07.1995- 27.07.1995. Qovluq Xs21, v. 1135.
ARXİNA. ***318*** 25.07.1995- 27.07.1995. Qovluq Xo21, v. 134.

səti, Ermənistanın təcavüzünün nəticələri haqqında danışdı və beynəlxalq təşkilatlarla əlaqələrin əhəmiyyətini vurğuladı’^^.

Heydər Əliyev ABŞ-ın vitse-prezidenti Albert Qor ilə görüşərək iki ölkə arasında münasibətlərin genişləndirilməsi, xüsusən iqtisadi əlaqələrin inkişaf etdirilməsi və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin xarici neft şirkətləri ilə apardığı danışıqların gedişi məsələlərini müzakirə etdi, Birləşmiş Ştatların dəstəyinin vacib olduğunu vurğuladı™. ABŞ tərəfi neft müqavilələri üzərində aparılan işi müdafiə etdi.

Səfər müddətində Qahirədəki ABŞ Ticarət Palatasının üzvləri ilə görüşən Heydər Əliyev Azərbaycan tarixinə qısa səyahət etdi, iki ölkə arasında əməkdaşlıq üçün imkanların olduğunu vurğuladı və Ermənistanın təcavüzünün üzərində dayandı’’^. İş adamlarını Azərbaycana dəvət etdi.

Misir - Azərbaycan dostluq cəmiyyətinin nümayəndələri ilə görüşdə etdiyi çıxışında Azərbaycan Prezidenti iki ölkə arasında əlaqələrin tarixinin qədim olduğunu və münasibətlərin inkişaf etdirilməsinin vacibliyini vurğuladı’’®.

Azərbaycan Prezidentinin Misirə səfərinin tarixi əhəmiyyəti var idi. Aparılan danışıqlar səmərəli olub, Azərbaycanın mövqeyinin güclənməsinə kömək edir və qarşılıqlı münasibətlər üçün geniş perspektivlər açırdı.

Artıq qeyd edildiyi kimi, Misir tərəfi Azərbaycanda baş verən hadisələri daha yaxından izləyirdi. Azərbaycanda 1994-cü ilin oktyabr ayında baş verən dövlət çevrilişi cəhdi Misir mətbuatının və rəsmi dairələrinin diqqət mərkəzində idi. Misir xəbər agentlikləri bu xəbəri Rusiya, Türkiyə və İran arasında Cənubi Qafqaz uğrunda aparılan mübarizənin yekun mərhələsi kimi qiymətləndirirdilər. “Əl Əhram” qəzeti 14 oktyabr tarixli sayında bu hadisələrdə keçmiş sovet respublikalarını öz maraqlarına tabe etmək istəyən Moskvanın birbaşa əli olduğunu qeyd edirdi. Qəzet Azərbaycan rəhbərliyinin xarici siyasətdə tarazlığa nail olduğunu göstərərək

[773] ARXİNA. 25.07.1995-27.07.1995. Qovluq fto21, v. 83-85.

Əliyev H.Ə. Qahirədə mətbuat konfransında bəyanat. 6 sentyabr 1994-cü il. - Müstəqilliyimiz əbədidir. II kitab, s.l95.

Əliyev H.Ə. ABŞ-ın Misirdəki Ticarət Palatasının nümayəndələri ilə görüşdə çıxış. 6 sentyabr 1994-cü il. - Müstəqilliyimiz əbədidir. II kitab, s.190-193.

™ Əliyev H.Ə. Misir - Azərbaycan dostluq cəmiyyətinin nümayəndələri ilə görüşdə çıxış. 5 sentyabr 1994-cü il. - Müstəqilliyimiz əbədidir. II kitab, s.188- 189.

xalqın Heydər Əliyevi dəstəklədiyini, əsas təhlükənin isə xaricdən gəldiyini yazırdı”^.

## Əməkdaşlıq artır

Səfərdən sonra qarşılıqlı münasibətləri genişləndirmək üçün bəzi addımlar atıldı. Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 8 noyabr tarixli fərmanı ilə İsrafil Hacı oğlu Vəkilov”* Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin

edildi . Ona fövqəladə və səlahiyyətli səfir dərəcəsi verildi . Səfirliyin fəaliyyətə başlaması ikitərəfli əlaqələrin genişlənməsinə təkan verdi.

Bundan sonra münasibətlərdə dinamizm artdı. 1994-cü İlin dekabr ayında Misirin təhsil naziri Kamal Bəhauddin Bakıya səfər edərək əməkdaşlığın konkret formalarının tətbiqi məsələlərini müzakirə etdi. Misir hökuməti Bakıda qiyməti 4 milyon dollar olan Misir İslam Mərkəzinin maliyyələşdirilməsini üzərinə götürdü. Misirin məşhur Əbülxeyr qrupu Azərbaycanda fəaliyyətə başladı’*’.

Azərbaycan Prezidentinin səfərindən sonra iki ölkə arasında əlaqələr genişləndi. Misir tərəfi beynəlxalq toplantılarda Azərbaycanın mövqeyini müdafiə edirdi. Bu özünü 1994-cü il dekabrın 14-də Kasablankada İKT ölkələrinin dövlət və hökumət başçılarının zirvə görüşündə göstərdi. Zirvə görüşündə çıxış edən Misir Prezidenti Azərbaycana qarşı Ermənistanın təcavüzü və Azərbaycanın blokadaya alınması məsələləri üzərində dayanaraq, Azərbaycanın problemlərinə diqqəti cəlb etdi. Toplantı çərçivəsində Misir Prezidenti ilə görüşən Azərbaycan Prezidenti ikitərəfli münasibətlərə dair məsələləri müzakirə etdi. Bu görüşdən bir müddət keçmiş, dekabrın 20-də Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikası arasında 1994-cü il aprelin 7-də Qahirə şəhərində imzalanmış konsulluq konvensiyası təsdiq edildi’*^.

ARXINA. 14.10.1994 -31.12.1994. Qovluq JN221, v. 194-196.

İsrafil Vəkilov (1949) - SSRİ-nin Misir Ərəb Respublikasındakı səfirliyində attaşe (1974-1979), II və I katib (1982-1987), müşavir (1990-1992), SSRİ XİN mərkəzi aparatında əməkdaş (1979-1982). Azərbaycan Respublikasının Misir Ərəb Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri (1994-2002).

ARXİNA. 1994.

ARXİNA. 1993.

ARXİNA. 25.07.1995-27.07.1995. Qovluq Xo21, v. 11.

ARXİNA. 1994.

1994- cü ilin sonlarında Çeçenistanda başladığı hərbi əməliyyatlardan bəhanə kimi istifadə edən Rusiya Azərbaycana gedən bütün kommunikasiyaları bağladıqda səfirlik bununla bağlı olaraq Misirdə geniş iş aparmağa başladı. Azərbaycanın Misir Ərəb Respublikasındakı səfiri dekabrın 24-də xarici işlər nazirinin müavini Rauf Quneym ilə görüşərək Çeçenistan böhranında Azərbaycanın mövqeyini şərh etdi. Səfir Rusiya hökumətinin Azərbaycan ilə bütün kommunikasiyaları bağlamaq barədə qərarının Azərbaycan iqtisadiyyatına ağır zərbə vuracağını və Ermənistanın işğalının davam etdiyi bir şəraitdə dərin nəticələrinin olacağını bildirdi^* .

Rauf Quneym Misir hökuməti adından bu məsələdə Azərbaycana bütün imkanları ilə yardım edəcəklərini, Misirin Moskvadakı səfirinə konkret göstərişlər veriləcəyini, Rusiya Federasiyasının Qahirədəki səfirinə yaranmış vəziyyəti izah edəcəklərini bildirdi.

Azərbaycan səfiri daha sonra Misir parlamentinin xarici əlaqələr komissiyasının sədri Muhammed Abdella ilə görüşərək Rusiya hökumətinin Azərbaycan ilə bütün kommunikasiyaları bağlamaq barədə əsassız qərarını şərh etdi. Çeçenistan ilə sərhədi olmayan Azərbaycana gedən bütün kommunikasiyaların bağlanması ölkə iqtisadiyyatına ağır zərbə idi. Muhammed Abdella parlament rəhbərliyinin öz kanalları vasitəsi ilə bütün mümkün olanları edəcəyinə söz verdi. Misir hökuməti bu məsələdə Azərbaycanı müdafiə edirdi. Bir müddət sonra blokada aradan qaldırıldı.

Sonrakı illərdə Misir ilə Azərbaycan arasında əlaqələr daha da artdı. 1995- ci ilin noyabr ayında Misir Dövlət Neft Şirkəti idarə heyətinin sədri F.Əbdül Əzizin başçılığı altında nümayəndə heyətinin Bakıda səfəri zamanı Azərbaycanın neftçıxarma avadanlıqlarının Misirə göndərilməsi haqqında müqavilə imzalandı’*'*. Bir müddət sonra, 1996-cı ilin mart ayında Azərbaycan Respublikası Ticarət-Sənaye Palatası, Xarici İqtisadi Əlaqələr Nazirliyi və Dövlət Neft Şirkətinin nümayəndələrindən ibarət heyət Qahirədə beynəlxalq sərgidə iştirak etdi. Bu sərgi Azərbaycana artan marağı göstərirdi.

İki ölkə arasında təhlükəsizlik sahəsində də əlaqələr genişləndi. Belə ki, 1996-cı ilin may ayında Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Abbasov misirli həmkarı Ömər Süleymanın dəvəti

ARXİNA. 28.01.1994-03.01.1995. Qovluq No21, v.71-72.

Azərbaycan - Misir əlaqələri. - Heydər Əliyev və Şərq. 6 cilddə. İKT dövlət ləri. V kitab, s. 266.

İlə MƏR-də səfərdə oldu. Danışıqların nəticəsində mayın 7-də təhlükəsizlik məsələlərinə dair əməkdaşlıq sazişi imzalandı.

İki ölkə arasında əməkdaşlığın dərinləşdirilməsi məsələləri MƏR xarici işlər nazirinin müavini Fəthi Şazlinin rəhbərlik etdiyi nümayəndə heyətinin 1997-ci ilin fevral ayında Bakıya səfəri zamanı müzakirə edildi. Siyasi məsləhətləşmələr aparıldı. Həmin il fevralın 17-də Qahirədə iki ölkə arasında hava daşımaları haqqında saziş imzalandı.

Daxili işlər nazirlikləri arasında da əməkdaşlıq quruldu. 1998-ci ilin noyabr ayında daxili işlər naziri Ramil Usubovun MƏR-ə səfəri zamanı iki ölkənin müvafiq qurumları arasında əməkdaşlıq məsələləri müzakirə edildi və sənədlər imzalandı.

Misir tərəfi Ermənistanın etnik təmizləmə və təcavüzü nəticəsində azərbaycanlı qaçqın və məcburi köçkünlərin vəziyyəti ilə maraqlanırdı.

1999- cu il sentyabrın 17-19-da MƏR Xarici İşlər Nazirliyinin MDB ölkələri ilə Texniki Əməkdaşlıq Fondunun baş katibi Əşrəf Zazanm Azərbaycana səfəri zamanı keçirilən danışıqlarda iki ölkə arasında münasibətlərin maddi təməlinin möhkəmləndirilməsi, yardımların edilməsi və s. məsələlər müzakirə olundu.

Sonrakı illərdə iki ölkə arasında siyasi məsləhətləşmələr də artırıldı.

2000- ci il 28 yanvar-5 fevral tarixlərində Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Xələfovun başçılıq etdiyi nümayəndə heyətinin Misirə səfəri zamanı xarici işlər naziri Əmru Musa, Misir Prezidentinin siyasi məsələlər üzrə müşaviri Üsamə Əl Baz, təhsil naziri Mufid Şihəb, mədəniyyət nazirinin müavini və bir sıra məsul şəxslərlə görüşdə ikitərəfli əlaqələrin ən vacib məsələləri, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və s. müzakirə edildi.

Bundan sonra Misir tərəfi Azərbaycan ilə xüsusi münasibətlər qurmaq istəyi ilə bəzi addımlar atdı. 2001-ci il martın 22-24-də Misir xarici işlər nazirinin müavini Mehdi Fəthallah başda olmaqla nümayəndə heyətinin Bakıya səfərində məqsəd də Azərbaycan ilə xüsusi əlaqələr qurmaq idi. Xüsusi münasibətlər dedikdə, geniş ticarət-iqtisadi əlaqələr və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq başa düşülürdü. Nümayəndə heyətinin tərkibində iş adamları da var idi. İqtisadi əlaqələri genişləndirmək istəyən Misir tərəfi Azərbaycana böyük potensialı olan ölkə kimi baxırdı.

Səfər zamanı Mehdi Fəthallahı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qəbul etdi’*^. Azərbaycan dövləti MƏR ilə münasibətləri xarici siyasətində mühüm xətt hesab edirdi.

Nümayəndə heyəti Azərbaycan Respublikasının Baş Naziri Artur Rasizadə, xarici işlər naziri Vilayət Quliyev ilə görüşərək iqtisadi əməkdaşlıq və beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyət məsələlərini müzakirə etdi.

Əməkdaşlığı möhkəmləndirmək niyyəti ilə 2002-ci il oktyabrın 3- də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1994-cü il aprelin 7-də Qahirədə imzalanmış “Azərbaycan Respublikası hökuməti ilə Misir Ərəb Respublikası hökuməti arasında iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında saziş” in icrasını təmin etmək üçün Azərbaycan Respublikası hökuməti və Misir Ərəb Respublikası hökuməti arasında höku- mətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə müştərək komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında sərəncam imzaladı. Komissiyanın yaradılması əməkdaşlığın maddi təməlinin möhkəmləndirilməsinə təsir edən mühüm amillərdən biri oldu.

Azərbaycan - Misir müştərək komissiyanın birinci iclasının keçirilməsi ilə əlaqədar olaraq 2002-ci il oktyabrın 23-25-də komissiyanın Misir tərəfindən olan həmsədri, xarici işlər üzrə dövlət naziri Faizə Əbu Əl Nə- qə Bakıya səfər etdi. Səfər zamanı Faizə Əbu Əl Nəqə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qəbul edildi’*^. Bu zaman artıq iki ölkə arasında yaxşı siyasi münasibətlər yaranmışdı. Tərəflər ticarət-iqtisadi münasibətlərin də eyni səviyyədə olmasına tərəfdar idilər.

Komissiyanın işinin nəticəsində oktyabrın 24-də bir sıra sənədlər - müştərək komissiyanın protokolu, Azərbaycan Respublikası hökuməti ilə Misir Ərəb Respublikası hökuməti arasında sərmayələrin qarşılıqlı qorunması və təşviqi haqqında saziş, ticarət-sənaye palataları arasında razılaşma imzalandı. İmzalanan sənədlər əməkdaşlığı yeni səviyyəyə çıxarmaq məqsədi daşıyırdı.

Ümumiyyətlə, Azərbaycan - Misir münasibətləri 1991-2003-cü illərdə dinamizmi ilə seçilmişdir. Qarşılıqlı faydalı əməkdaşlıq qurulmuş və

^ Azərbaycan Prezidenti Heydər Əliyev Misir Ərəb Respublikasının nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 327-330.

Azərbaycan Prezidenti Heydər Əliyev Misirin xarici işlər üzrə dövlət nazirini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 812-815.

inkişaf etdirilmişdir. İki ölkə arasında münasibətlərdə problemlər olmamışdır. Misir Azərbaycanın ərazi bütövlüyünü və müstəqilliyini dəstəkləmişdir. Araşdırılan illər Azərbaycan-Misir əməkdaşlığının geniş perspektivlərinin olduğunu göstənnişdir.

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ İLƏ MÜNASİBƏTLƏR

Dövlət müstəqilliyinin bərpa edilməsindən sonra Azərbaycanın münasibətlər qurduğu ölkələrdən biri Birləşmiş Ərəb Əmirlikləri oldu. BƏƏ 1991-ci il dekabrın 26-da Azərbaycan Respublikasının dövlət müs

təqilliyini tanıdı’*’. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il sentyabrın 1-də quruldu’**. 1994-cü ilin iyun ayında BƏƏ Ankaradakı səfirini Azərbaycana da təyin etdi.

Əməkdaşlığın qurulmasına və inkişafına təsir edən bir sıra amillər mövcud idi. Ərəb dünyasının nüfuzlu ölkəsi kimi BƏƏ Azərbaycandakı qaçqın və məcburi köçkünlərin ağır vəziyyətinin yüngülləşdirilməsində iştirak, Azərbaycanda həyata keçirilən layihələri maliyyələşdirə, beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıq edə bilərdi. Əməkdaşlıq üçün geniş perspektivlər var idi.

Əməkdaşlığı qurmaq məqsədi ilə 1994-cü ilin oktyabr ayında Azərbaycan Respublikası Milli Məclisi sədrinin başçılıq etdiyi nümayəndə heyəti BƏƏ-yə rəsmi səfər etdi. O, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin məktubunu BƏƏ Prezidenti Şeyx Zayed Bin Sultan Əl Nəhyana təqdim etdi. Məktubda iki ölkə arasında əməkdaşlığın genişləndirilməsinə dair Azərbaycan tərəfinin istəyi ifadə olunmuşdu.

Səfər zamanı ikitərəfli münasibətləri genişləndirmək məsələləri müzakirə edildi. Əməkdaşlığa dair Abu-Dabi İnkişaf Fondunun baş direktoru Səid Xalfan Əl Rumeysi ilə sənəd imzalandı. Sənəddə sərmayə qoyuluşu və Azərbaycanda infrastrukturun inkişafına yardımlar edilməsi və s. məsələlər nəzərdə tutulmuşdu.

Bundan bir müddət sonra, dekabrın 13-də İKT-nin zirvə toplantısında Heydər Əliyev BƏƏ Prezidenti Şeyx Zaid Bin Sultan ilə görüşərək iki ölkə arasında münasibətlərə dair məsələləri müzakirə etdi. Azərbaycan

Azərbaycan - Birləşmiş Ərəb Əmirlikləri əlaqələri. Heydər Əliyev və Şərq. 6 clddə. İKT dövlətləri. V kitab, s.283-290.

[788] ARXINA. 2008.

Prezidenti ölkəsinə siyasi dəstək verilməsini, qaçqınlara və məcburi köçkünlərə yardım göstərilməsini xahiş etdi. BƏƏ tərəfi Azərbaycanın istəklərini yerinə yetirdi. Qırmızı Aypara Cəmiyyəti, Dar Əl Bir Xeyriyyə Cəmiyyəti, Zayed Bin Sultan Əl Nəhyan xeyriyyə təşkilatı və digər humanitar təşkilatlarla sıx əlaqələr qurulması istiqamətində tədbirlər həyata keçirildi. BƏƏ-nin humanitar təşkilatları tərəfindən Azərbaycandakı qaçqın və məcburi köçkünlərə müntəzəm olaraq humanitar yardımlar göndərilirdi. BƏƏ-nin Dar Əl Bir Xeyriyyə Cəmiyyətinin Bakıdakı nümayəndəliyi 1996-cı ildən fəaliyyətə başladı. Təkcə həmin ildə BƏƏ Azərbaycandakı qaçqın və məcburi köçkünlərə humanitar yardım olaraq 300 tona yaxın ərzaq göndərdi.

İki ölkə arasında əməkdaşlıq məsələləri sonrakı illərdə də müzakirə edildi və dinamizm artdı. Azərbaycan Prezidentinin İKT-nin 1997-ci ildə Tehranda keçirilən VIII zirvə görüşündə BƏƏ xarici işlər naziri Rəşid Abdulla Əl Nəimi ilə görüşərək ikitərəfli və regional məsələləri müzakirə etməsi, iqtisadi, xüsusən ticarət əlaqələrinin genişləndirilməsinin vacibliyini vurğulaması əhəmiyyətli oldu. Əməkdaşlıq üçün yeni imkanlar açılırdı.

BƏƏ Dövlət mülki aviasiya departamentinin prezidenti Əhməd Bin Sayyed Əl Məktumun 1997-ci il iyunun 9-11-də Azərbaycana işgüzar səfəri zamanı Bakı - Dubay birbaşa hava xətti açıldı. Uçuşları AZAL həyata keçirməyə başladı.

İki ölkə arasında ticarət dövriyyəsinin həcmi də artdı. 1997-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 42,9 mln. dollar oldu. Bunun 41,9 mln. dolları idxal, 1,0 mln. dolları isə ixrac idi. 1998-ci ildə ticarət dövriyyəsinin həcmi 48, 6 mln. dollar təşkil etdi. Bunun 45,6 mln. dolları idxal, 3,0 mln. dolları ixrac idi. 1999-cu ildə isə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi azalaraq 21,3 mln dollar oldu. Bunun 12,3 mln. dolları idxal, 9,0 mln. dolları isə ixrac idi. 1993-1999-cu illərdə BƏƏ-dən idxal olunan malların siyahısına əsasən qida məhsulları, tikinti materialları, avtomobillər, kompyuterlər və s. daxil idi. Bu dövr ərzində Azərbaycandan BƏƏ-yə məişət texnikası, mis tullantıları, alüminium, maşın avadanlıqları, və onların ehtiyat hissələri, maqnit lentləri və s. ixrac edilmişdi.

Qarşılıqlı münasibətləri dərinləşdirməkdə maraqlı olan Azərbaycan tərəfi yeni bir addım atdı. 2000-ci il aprelin 11-də Milli Məclisin Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərində səfirliyinin təsis edilməsi haqqında qəbul etdiyi qərar Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edildi. Bu, iki ölkə arasında münasibətlərdə yeni səhifə açırdı. Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanındakı səfiri

Elman Araslı eyni zamanda BƏƏ-də səfir təyin edildi. Bundan sonra qarşılıqlı münasibətlərdə dinamizm artdı. Azərbaycan səfiri 2000-ci il avqustun 20-21-də Abu-Dabidə BƏƏ rəsmi şəxsləri və işgüzar dairələri, Ticarət-Sənaye Palatasının sədri Səid Seyf Uəbr Əl Sueydi ilə görüşərək ikitərəfli iqtisadi əlaqələrə dair fikir mübadiləsi etdi. Palatanın nümayəndə heyətinin Azərbaycana səfəri barədə razılıq əldə olundu. O, həmçinin Abu-Dabi İnkişaf Fondunun baş direktoru Səəd Həlfan ilə görüşdü. Bundan sonra Bakı dairəvi avtomobil yolunun yenidən qurulması layihəsinin həyata keçirilməsi üçün Azərbaycan tərəfinə 10 milyon ABŞ dolları məbləğində vəsait ayrıldı. Elman Araslı daha sonra Zaid Bin Sultan Əl Nəhyan Xeyriyyə Fondu sədrinin müavini Səlim Ubeyd Əl Zəhiri və İslam Həmrəyliyi Fondunun direktoru Nasir Həmdan ilə görüşərək Azərbaycandakı qaçqın və məcburi köçkünlərə yardım edilməsi məsələsini müzakirə etdi. Xeyriyyə Fondunun rəhbəri bu barədə ölkə rəhbərliyinə məlumat verəcəyini bildirdi. Az sonra BƏƏ Azərbaycandakı qaçqın və məcburi köçkünlərə yardım etdi.

Azərbaycan tərəfi BƏƏ ilə münasibətləri dərinləşdirmək xəttini seçdi. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 22 fevral tarixli 444 X2-İİ fərmanı ilə Eldar Səlimov Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərində fövqəladə və səlahiyyətli səfiri təyin edildi.

2001- ci il iyunun 16-dan etibarən Azərbaycan Respublikasının səfirliyi BƏƏ-nin paytaxtı Abu-Dabi şəhərində fəaliyyətə başladı. Bundan sonra qarşılıqlı səylər nəticəsində iki ölkə arasında siyasi məsləhətləşmələr artdı.

2001- ci il dekabrın 29-31-də Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Xələfovun BƏƏ-yə səfəri zamanı xarici işlər nazirinin müavini Seyf Səid Bin Səid ilə keçirdiyi görüşdə müxtəlif sahələrdə Azərbaycan - BƏƏ əməkdaşlığı məsələləri müzakirə edildi. Hər iki ölkə BMT, İslam Konfransı Təşkilatı və digər nüfuzlu regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq edirdilər. Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar olaraq BƏƏ Azərbaycanın ədalətli mövqeyini dəstəkləyirdi.

Səfər çərçivəsində Xələf Xələfov Abu-Dabidə yerləşən Şeyx Zayed adına əlaqələndirmə mərkəzində “Azərbaycan beynəlxalq münasibətlər sistemində” mövzusunda mühazirə oxuyaraq Azərbaycan gerçəkliyi və Ermənistanın təcavüzü haqqında danışdı. İştirakçıların suallarına cavab verdi.

İki ölkə arasında iqtisadi əlaqələr də genişləndi. 2002-ci ilin dekabr ayında Şarcada keçirilən DC İslam ticarət sərgisində iştirak edən Azərbaycan Respublikası Ticarət-Sənaye Palatasının sədri Süleyman Tathye-

vin başçılıq etdiyi nümayəndə heyəti Şarca Əmirliyinin hökmdarı Şeyx Sultan Bin Məhəmməd Əl Qasımi, Şarca Ticarət-Sənaye Palatasının sədri Əhməd Əl Midfa və baş direktoru Səid Əl Carvan ilə görüşlər keçirərək, əməkdaşlıq məsələlərini mü2akirə etdi. Səfərin sonunda iki qurum arasında anlaşma memorandumu imzalandı’*^. Memorandum Azərbaycanın beynəlxalq əlaqələrinin genişləndirilməsi baxımından əhəmiyyətli idi.

2003- cü ilin mart ayında BƏƏ-də keçirilən "İDEX-2003" VI beynəlxalq müdafiə sərgi və konfransında Azərbaycan Respublikası Müdafiə Nazirliyinin nümayəndə heyətinin iştirakı hərbi əməkdaşlıq baxımından faydalı oldu. Sərgidə Azərbaycan müdafiə sənayesinin məhsulları nümayiş etdirildi.

İki ölkə arasında əməkdaşlıq digər sahələri də əhatə etməyə başladı. BƏƏ kommunikasiya naziri Əhməd Humeyd Əl Tayerin başçılıq etdiyi nümayəndə heyəti 2003-cü il iyulun 8-10-da Bakıya rəsmi səfəri çərçivəsində Azərbaycanın əlaqədar idarə və təşkilatlarında tərəfdaşları ilə görüşərək bir sıra konkret məsələlər ətrafında müzakirələr apardı. Səfər zamanı “Azərbaycan Respublikası hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri hökuməti arasında onların müvafiq əraziləri arasında və bu ərazilərin hüdudlarından kənarda hava əlaqəsinin yaradılması haqqında” saziş imzalandı.

Ümumiyyətlə, 1991-2003-cü illərdə BƏƏ ilə diplomatik-siyasi münasibətlər qurulmuş və inkişaf etdirilmişdir. BƏƏ-yə münasibətdə Azərbaycanın xarici siyasət məqsədləri formalaşmışdır. BƏƏ azərbaycanlı qaçqın və məcburi köçkünlərə humanitar yardımlar göndərmiş, Azərbaycanın ərazi bütövlüyü və suverenliyini müdafiə etmişdir. İki ölkə arasında ticarət dövriyyəsinin həcmi ildən-ilə artmışdır. BƏƏ Azərbaycandakı infrastruktur layihələrin həyata keçirilməsi üçün kreditlər ayırmışdır. Hər iki ölkə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq etmişlər.

## İRAQ RESPUBLİKASI İLƏ MÜNASİBƏTLƏR

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının münasibətlər qurduğu ölkələrdən biri İraq oldu. İraq Azərbaycanın Respublikasının dövlət müstəqilliyini 1992-ci il yanvarın 2-də tanıdı. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il martın 30-da quruldu’’®. Qeyd

Azərbaycan - Birləşmiş Ərəb Əmirlikləri əlaqələri. - Heydər Əliyev və Şərq. 6 cilddə. V kitab, İKT dövlətləri, s.286.

' ARXINA. 2008.

etmək lazımdır ki, Bakıda İraqın diplomatik nümayəndəliyi baş konsulluq səviyyəsində hələ 1973-cü ildən fəaliyyət göstərirdi. Baş konsulluğa
1992- ci ildən səfirlik statusu verildi.

Azərbaycan - İraq münasibətlərinin inkişafını şərtləndirən bir sıra amillər var idi. İraq Respublikası ölkəmizə tarixi, mədəni və ən başlıcası coğrafi baxımdan ən yaxın ərəb ölkəsidir. Bu yaxınlıq, habelə burada yaşayan İraq vətəndaşı olan türkmanların özlərini tarixi vətənləri Azərbaycan ilə daim əlaqələndirmələri Azərbaycan - İraq münasibətlərinin inkişafına təsirini göstərirdi. Bir çox görkəmli Azərbaycan mütəfəkkirlərinin, o cümlədən Məhəmməd Füzulinin qəbri İraqdadır. Sovet dövründə də Azərbaycan ilə İraq arasında mədəni əlaqələr saxlanılmışdı.

90-cı illərin əvvəllərindən etibarən İraq ətrafında baş verən proseslər Azərbaycanın bu ölkə ilə əlaqələrinə də təsir edirdi. İraqın Küveyti işğal etməsi ilə əlaqədar olaraq 1991-ci ildə İraq üzərinə BMT Təhlükəsizlik Şurası tərəfindən qoyulmuş sanksiyaları Azərbaycan Respublikası
1992- ci ildə dəstəklədi və onların yerinə yetirilməsinə tərəfdar çıxdı’®'.

Sanksiyaların tətbiq edilməsi İraqın Bakıdakı səfirliyinin işinə də təsir etdi. 1992-ci ilin əvvəllərində maliyyə çətinlikləri ucbatından Bakıdakı səfirliyin fəaliyyəti dayandırıldı. Buna baxmayaraq, Azərbaycan tərəfi İraq səfiri Bakıya qayıdana qədər binasını saxladı, bəzi kommunal və digər güzəştlər etdi.

Azərbaycan - İraq əlaqələrinin genişləndirilməsinin böyük potensialı var idi. İraq ilə münasibətlər Azərbaycanın xarici siyasət xəttində mühüm istiqamətlərindən biri ola bilərdi. Yuxarıda göstərilən amil nəinki iqtisadi potensiala, həmçinin ortaq dəyərlərə əsaslanırdı. İraqın beynəlxalq təşkilatlar, xüsusilə də İKT çərçivəsində Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı hərbi təcavüzünün aradan qaldırılması, işğal olunmuş ərazilərin azad edilməsi və qaçqınların doğma torpaqlarına qayıtmasını tələb edən qətnamələrin qəbulu zamanı Azərbaycanın mövqeyini dəstəkləməsi əhəmiyyət kəsb edən amillərdən idi. Bu, İslam aləmində, o cümlədən ərəb dövlətlərində ictimai rəyin formalaşmasına təsir edirdi.

Qarşılıqlı münasibətlərə təsir edən amillərdən biri Ermənistanın ərəb dövlətləri ilə əməkdaşlığa can atması idi. Ermənistan Respublikası ərəb dövlətləri ilə münasibətlərini nizamlamaq, İraq və Fars körfəzinin

Azərbaycan - İraq əlaqələri. - Heydər Əliyev və Şərq. 6 cilddə. İKT dövlətləri. V kitab, s. 273.

ərəb ölkələri ilə diplomatik əlaqələr qurmaq sahəsində müntəzəm və fəal cəhdlər göstərirdi. Ərəb ölkələrindəki erməni icmaları, xüsusilə də Livan, Suriya, Misir və İraqdakı erməni diasporaları ərəb ölkələrinin kütləvi informasiya vasitələri və işgüzar dairələri ilə uzun müddət ərzində formalaşmış əlaqələrindən məharətlə istifadə edərək bu dövlətlərin Azərbaycana münasibətdə tutduğu mövqeyinə təsir göstərməyə çalışırdılar. Bəzi ərəb media vasitələrində yayımlanan erməni materiallarında erməni xalqının tarixi, onun ərəb dünyası ilə bağlılığı, İslam mədəniyyətinin inkişafında müstəsna rolu barədə fikirlər təbliğ olunurdu. Erməni təbliğatı Azərbaycan ilə münaqişə probleminə geniş yer ayırırdı. Ermənistan diplomatiyası Azərbaycanın mənafelərinə İKT vasitəsi ilə də təsir göstərməyə və bu təşkilat çərçivəsində fəaliyyəti zəiflətməyə cəhdlər edir, bəzi hallarda buna nail olmağa yaxınlaşırdı. İKT çərçivəsində Ermənistanın təcavüzünə dair qətnamələrin qəbul edilməsində bəzi dövlətlər fərqli mövqe tuturdular. Ermənistan tərəfi dəfələrlə üzv dövlətlərə və İKT baş katibliyinə müraciət edərək Ermənistan - Azərbaycan münaqişəsinə dair “birtərəfli” mövqe tutmamağa və qəbul edilən qətnamələrdə “antierməni” təsirini azaltmağa çağırmışdı. İraqın Azərbaycandakı səfirliyi dəfələrlə Ermənistanın İraqda fəal təbliğat fəaliyyəti aparması və rəsmi Bağdad ilə sıx münasibətlər qurmağa cəhdlər göstərməsi barədə məlumatları Azərbaycan tərəfinin diqqətinə çatdırmışdı. Ermənistan İraq ilə diplomatik əlaqələr qurmağa cəhdlər etsə də, bu istiqamətdə fəaliyyəti Bağdadın Yerevan ilə diplomatik əlaqələr qurmasını mümkün hesab etməməsi səbəbindən müsbət nəticə verməmişdi. Lakin sonralar, 2000-ci ildə İraq ilə Ermənistan arasında diplomatik əlaqələr quruldu.

Bütün bu amilləri nəzərə alaraq Azərbaycan tərəfi İraq ilə münasibətləri inkişaf etdirməyə qərar verdi. 1994-cü il oktyabrın 21-də Bağdadda Azərbaycan və İraq Respublikasının Mədəniyyət və İnformasiya Nazirlikləri arasında saziş imzalandı. Bundan sonra mədəni əlaqələrdə canlanma yarandı. Qeyd etmək lazımdır ki, hələ 1979-cu ildə Bakı və Bəsrənin qardaşlaşmasına dair sənəd imzalanmışdı. Azərbaycanın mədəniyyət və incəsənət xadimləri İraqda keçirilən Babil festivalında iştirak etmişdilər. Eyni zamanda azərbaycanlı zəvvarlar İraqda yerləşən müqəddəs İslam ocaqlarına ziyarətə gedirdilər. Bu sahədə Qafqaz Müsəlmanları İdarəsi səviyyəsində münasibətlər mövcud idi.

İraq tərəfi Azərbaycan ilə kənd təsərrüfatı, neft sənayesi, təhsil və din sahələrində əməkdaşlığı genişləndirməyə çalışırdı. İraqda neft sənayesi sahəsində çalışan mütəxəssislərin əksəriyyəti Azərbaycanda təhsil al

mışdılar. Bu sahədə mütəxəssislərin və təcrübə mübadilələrinin aparılması üçün imkanlar var idi.

Ona görə də İraqın Azərbaycandakı səfirliyi İraq xarici işlər nazirinin birinci müavini Nuri İsmail Əl Veyyisin Azərbaycana səfərinin həyata keçirilməsi təklifi ilə çıxış etdi. Təklif qəbul olundu. Nazir müavini 1998- ci ildə Azərbaycana səfər etdi. Səfər zamanı o, xarici işlər naziri Vilayət Quliyev, təhsil naziri Misir Mərdanov, Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslərlə görüşərək ikitərəfli əməkdaşlığın genişləndirilməsi məsələlərini müzakirə etdi.

Xarici İşlər Nazirliyində keçirilmiş müzakirələr zamanı Azərbaycan ilə İraq arasında ənənəvi tarixi, dini dostluq və qardaşlıq tellərinin mövcudluğu qeyd edildi, eyni zamanda əlaqələrin hazırkı səviyyəsinin qənaətbəxş olmadığı, münasibətlərin inkişafı üçün mövcud imkanlardan daha səmərəli istifadə edilməsinin vacibliyi vurğulandı. İraqdakı humanitar vəziyyət və xalqın üzləşdiyi çətinliklərlə əlaqədar olaraq Azərbaycanın narahatlığı İraq tərəfinin diqqətinə çatdırıldı.

N.İ. Əl Veyyisin Azərbaycana səfərindən sonra İraq Xarici İşlər Nazirliyi ölkənin xarici ölkələrdəki bütün diplomatik nümayəndəliklərinə Azərbaycan səfirlikləri ilə sıx əlaqələr qurmaq barədə göstəriş verdi.

Səfər qarşılıqlı münasibətlərdə mühüm rol oynadı. Əməkdaşlıqda irəliləyiş nəzərə çarpmağa başladı. İraq Respublikasının Azərbaycandakı səfiri Ğaleb Əbdülhüseyn Ət-Təmimi 2000-ci il 7 yanvar tarixində etimadnaməsini dövlət başçısı Heydər Əliyevə təqdim etdi. Qeyd etmək lazımdır ki, bu illərdə Azərbaycanın İraq ilə əlaqələri elm, təhsil və mədəniyyət sahələrini əhatə edirdi. Siyasi münasibətlər Bakıda fəaliyyət göstərən İraq səfirliyi, BMT və İKT çərçivəsində həyata keçirilirdi.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin təşəbbüsü ilə 2001- ci il fevralın 12-16-da Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi 35 nəfərdən ibarət nümayəndə heyəti humanitar yardımla İraqa səfər etdi. Bu, İraq xalqının ağır vəziyyətini yüngülləşdirmək üçün özü çətin vəziyyətdə olmasına baxmayaraq, Azərbaycanın etdiyi humanitar yardım idi. Səfər münasibətlərə dinamizm vermək baxımından da əhəmiyyətli oldu. Azərbaycan tərəfi ikitərəfli əlaqələri intensivləşdirmək məqsədi ilə 2002-ci il dekabrın 19-da imzalanması nəzərdə tutulan iqtisadiyyat, ticarət, elm və texniki əmək-

daşlıq haqqında saziş layihəsini İraq Respublikasının Bakıdakı səfirliyinə təqdim etdi.

İraq hökuməti Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı olaraq Dağlıq Qarabağ bölgəsinin hər hansı bir nümayəndəsi ilə əlaqələrin qurulmamasına, Ermənistana səfər zamanı İraq nümayəndə heyətlərinin Dağlıq Qarabağa səfər etməməsinə, İraqa səfər edən Ermənistan nümayəndə heyətlərinin tərkibində Dağlıq Qarabağdakı separatçı rejimi təmsil edən şəxslərin dəvət edilməməsinə dair qərar verdi. Bu, İraq tərəfinin mövqeyi idi.

2002- ci ilin dekabr ayında Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə İraqın Dini Məsələlər Nazirliyinin dəvəti ilə İraqa səfər etdi. Səfər zamanı idarə sədri ilə ölkənin dini məsələlər naziri Əhməd Münim Saleh arasında keçirilən görüşdə dini idarələr arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi məsələləri müzakirə edildi. Orada Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəliyinin açılmasına dair razılıq əldə edildi.

Lakin bu zaman İraqın ABŞ ilə münasibətlərindəki gərginlik digər ölkələrlə əlaqələrinə də təsir etməyə başladı. Azərbaycana yaxın bir regionda baş verən hadisələrə Azərbaycan dövləti də münasibətini bildirdi. İraq məsələsinə dair Azərbaycan Respublikasının mövqeyi aydın və konkret idi’®^. Azərbaycan dövləti bütün dünya kimi İraq ətrafında cərəyan edən hadisələrdən narahatlıq hissi keçirirdi. Onu qlobal və özünəməxsus regional xarakterli səbəblərlə əlaqələndirirdi. Azərbaycanın narahatlığı siyasi və humanitar mülahizələrlə əlaqədar idi. Bütün dünya birliyi İraqdakı humanitar böhrandan narahat idi. İraq xalqı ölkədəki hakim rejimin siyasətindən əziyyət çəkməməli idi. Xalqın suverenliyinə və azad seçki yolu ilə hökumətini seçmək hüququna hörmət edilməli idi.

Azərbaycan dövlətinin mövqeyinə görə, İraq BMT Təhlükəsizlik Şurasının qətnamələrini və kütləvi qırğın silahlarına münasibətdə götürdüyü öhdəlikləri yerinə yetirməli idi. Bununla belə, Azərbaycan tərəfi İraqın bu öhdəlikləri pozduğunu və orada kütləvi qırğın silahlarının istehsal edib-etmədiyini bilmək və buna dair etibarlı, təsdiq olunmuş informasiya almaq istəyirdi.

Azərbaycan birtərəfli hərəkətləri qanunsuz sayanların mövqeyini bölüşür, böhranın dinc yolla həlli üçün ən son imkanlardan istifadəyə

ARXİNA. 15.01.2001-10.09.2001. Qovluq X26, v.138-139; ARXİNA. 04.10.2002-28.10.2002. Qovluq Xb S, v.51.

çalışmağı zəruri hesab edirdi. Bütün addımlar Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə və BMT mandatına uyğun olmalı idi. Bu, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə yönəlmiş tədbirlərə legitimlik verər, İraqa səmərəli təsiri gücləndirər və beynəlxalq siyasi tarazlığın maraqlarına cavab verərdi. Birtərəfli hərəkətlər BMT Təhlükəsizlik Şurasında əməkdaşlığa mənfi təsir edər, beynəlxalq münasibətlərdə ümumi şəraiti pisləşdirər, antiterror koalisiyasını zəiflədər, İraqda və onun hüdudlarından kənarda hərbiçi, millətçi əhval-ruhiyyə yaradardı.

Azərbaycan tərəfi İraqa hərbi müdaxilənin mümkün nəticələrini də proqnozlaşdırırdı. Belə bir hücum regional təhlükəsizlik üçün təhlükə törədər, separatçı və radikal islamçı elementləri fəallaşdırar, əhalinin kütləvi mühacirətinə, İraqın İsrailə raket zərbələri endirməsi ekoloji cəhətdən təhlükəli sənaye obyektlərinin və neft anbarlarının yanmasına. Yaxın və Orta Şərqdə digər risklərin artmasına gətirərdi. Geniş miqyaslı hərbi əməliyyatların nəticələri kütləvi qırğın silahlarının texnoloji bazalarının məhvindən daha baha başa gələrdi. Azərbaycan tərəfi İraqda kütləvi qırğın silahlarının mövcudluğuna dair inkaredilməz faktların olmadığını bir daha xatırladırdı.

İraqda böhranın geniş hərbi əməliyyatlar formasında inkişafı bir çox dövlətlər, o cümlədən Azərbaycan üçün də ciddi təhlükələr yarada bilərdi™. Böhran nəticəsində Azərbaycana çoxlu qaçqınlar gələ bilərdi. Azərbaycana İraqla həmsərhəd olan Türkiyədən keçən və Cənubi Qafqazda terror qrupları ilə əlaqə saxlayan qanunsuz hərbi birləşmələr keçərdi. İraqda hərbi əməliyyatlarla bağlı olaraq üsyançı əhval-ruhiyyənin artması Azərbaycan və digər çoxlu ölkələr üçün əhəmiyyətli olan Xəzər neftinin nəqlinə dair beynəlxalq layihəni risk altında qoyardı.

Azərbaycan tərəfi İraq hökumətinin 1998-ci ildən ölkədən getmiş BMT inspektorlarmm ölkəyə buraxılmasına dair qərarını müdafiə edirdi. Bunu çoxlu məsələlərin həllinə kömək kimi qiymətləndirirdi.

İraq ilə bağlı Azərbaycan Respublikasının mövqeyi BMT Təhlükəsizlik Şurasının qərar və qətnamələrinin riayət olunmasına, humanitar şəraitin son dərəcədə ağır olduğu İraq üzərinə qoyulmuş beynəlxalq sanksiyaların tədricən aradan götürülməsinə, dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət edilməsi, münaqişələrin sülh yolu ilə həlli prinsiplərinə söykənməyə əsaslanırdı. Rəsmi Bakı regionun böyük iqtisadi, hərbi potensiala və insan ehtiyatlarına malik olan bir İslam ölkəsi kimi İraq ilə

ARXİNA. 28.10.2002- 30.12.2002. Qovluq fto S, v. 52-53.

əməkdaşlığın sanksiyaların götürülməsindən sonra davam etdirilməsini və inkişafının mümkün olan səviyyədə saxlanılmasım məqsədəuyğun sayırdı.

2003- cü ilin əvvəllərindən başlayaraq İraq böhranı daha da dərinləşdi. ABŞ-ın rəhbərliyi altında koalisiya gücləri həmin il martın 20-də İraqda Səddam Hüseyn rejiminə qarşı kimyəvi silahın mövcudluğu adı altında hərbi əməliyyatlara başladı. Ölkədəki BƏƏS rejimi devrildi. Lakin İraqda kimyəvi silah tapılmadı. Sonralar Səddam Hüseyn ələ keçirilərək həbs və edam olundu. Beləliklə, Orta Şərqdə yeni bir şərait yarandı™".

İraq ətrafındakı şəraitə dair Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi martın 21-də bəyanat verdi'^^. Bəyanatda Azərbaycan dövləti İraqı BMT Təhlükəsizlik Şurasının 678, 687, 1441 saylı qətnamələrindən irəli gələn tələbələri tam şəkildə yerinə yetirməyə çağırır, İraqa dair tədbirlər haqqında Təhlükəsizlik Şurası üzvləri arasında birliyin olmamasından təəssüf hissi keçirirdi. Terrorizmin bütün formalarına və təzahürlərinə qarşı mübarizədə ABŞ-ın başçılıq etdiyi beynəlxalq koalisiyanın fəal iştirakçısı olan Azərbaycan Respublikası beynəlxalq birliyin İraq böhranının tez bir zamanda həllinə yönəlmiş səylərini müdafiə edir, İraqda hərbi əməliyyatlar aparılarkən beynəlxalq humanitar hüququn müddəalarına dəqiq əməl etməyə təkidlə çağırırdı. Azərbaycan münaqişədən sonra İraqın humanitar baxımdan bərpasında iştirak etməyə hazır olduğunu bildirirdi.

İraq ətrafında yaranmış şərait Azərbaycana da təsirsiz ötüşmədi. 2003-cü ildə İraq səfirliyinin bağlanması məsələsi meydana çıxdı. Lakin səfirliyin yalnız fəaliyyətinin dayandırılmasına dair razılıq əldə edildi.

2003-cü il iyunun 3-də İraqda koalisiya qüvvələrinin tərkibində iştirak etmək məqsədi ilə İraq və Azərbaycan arasında "Azərbaycan silahlı qüvvələrinin İraqda statusuna dair" saziş imzalandı. Avqustun 14-də Azərbaycan Respublikasının 150 nəfərdən ibarət sülhməramlı qüvvəsi İraqa yola düşdü.

Ümumiyyətlə, 1991-2003-cü illərdə Azərbaycan - İraq münasibətləri çətin bir inkişaf yolu keçmişdir. Bu münasibətlərə Yaxın və Orta Şərqdə yaranan şərait təsir göstərmişdir. Keçilən yol qarşılıqlı münasibətlərin inkişafı üçün imkanların olduğunu göstərmişdir.

Gökhan Çetinkaya, Taha Özkan. İşğalın 6 yılında İrak. Ankara, 2009, s.l9. Xarici
İşlər Nazirliyinin bəyanatı. 21 mart 2003-cü il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003.1 hissə, s. 131.

## KÜVEYT DÖVLƏTI İLƏ MÜNASİBƏTLƏR

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının əlaqələr qurduğu ölkələrdən biri Küveyt dövləti oldu. Azərbaycan Respublikası ilə Küveyt arasında diplomatik əlaqələr 1994-cü il oktyabrın 7-də quruldu’^®. Prezident Heydər Əliyevin 1994-cü il dekabrın 13-də İKT-nin Kasablanka zirvə toplantısında Küveyt əmiri Şeyx Cabir Əl Əhməd Əl Cabir Əs-Sabah ilə görüşündə qarşılıqlı münasibətləri inkişaf etdirmək haqqında razılıq əldə edildi. Bununla da iki ölkə arasında dostluq münasibətlərinin əsası qoyuldu’’’. Bundan sonra Azərbaycan tərəfi Küveyt ilə əlaqələri intensivləşdirmək üçün bəzi addımlar atdı. Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanmdakı səfiri Elman Arash Küveytin bu ölkədəki səfiri Şeyx Sabah Xalid Əl Sabah ilə görüşərək 1995-ci ilin aprel ayında əməkdaşlıq məsələlərini müzakirə etdi. Söhbət zamanı hər iki ölkənin parlamentində dostluq qruplarının formalaşdırılması və Küveyt jurnalistlərinin Azərbaycana səfərlərinin təşkili məqsədəuyğun hesab edildi. Lakin Azərbaycana səfərlər qəbul edən tərəfin maliyyə çətinliyi ucbatından xeyli çətin idi.

Bu zaman Azərbaycan Respublikası xarici işlər nazirinin və Prezidentinin Küveytə səfəri planlaşdırılmırdı”*. Əlaqələrin zəif olması tərəflərin heç birini qane etmirdi. Ona görə də Heydər Əliyev Küveyt dövlətinin əmiri Şeyx Cabir Əl Əhməd Əl Cabir Əs-Sabaha məktub göndərərək ikitərəfli münasibətləri inkişaf etdirmək arzusunu bildirdi, Ermənistanın təcavüzünün ağır nəticələri, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələri, ATƏT, İKT səyləri barədə yazdı, Azərbaycanın haqq işini dəstəklədiyi üçün bu ölkəyə təşəkkürünü bildirdi və Küveyt əmirini Azərbaycana rəsmi səfərə dəvət etdi”.

Küveyt tərəfi də bəzi addımlar atdı. 1995-ci il mayın 28-də Küveyt Milli Məclisi 4 nəfərdən ibarət Küveyt - Azərbaycan parlamentlərarası dostluq qrupunun təşkili haqqında qərar qəbul etdi. Bu, əhəmiyyətli bir qərar idi. Həmin il iyunun 23-27-də Azərbaycan Respublikasının Ər

ARXINA. 21.05.1994-04.11.1996. Qovluq Xoll,v.l2.

’’’ Azərbaycan - Küveyt əlaqələri. - Heydər Əliyev və Şərq. 6 cilddə. İKT dövlətləri. V kitab, s. 297-299.

ARXİNA. 06.06.1994-26.11.1996. Qovluq JV921, v. 39.

ARXİNA. 06.06.1994-26.11.1996. Qovluq Xo21, v. 77-78.

Riaddakı səfiri Elman Araslı Küveyt hökumətinin dəvəti ilə bu ölkəyə səfər edərək Küveyt Ərəb İqtisadi İnkişaf Fondunda oldu. Fondun baş direktoru Badr Əl Xumeydi və onun müavini Xişam Əl Baqayan ilə görüşdü. Görüşdə əsasən iqtisadiyyat sahəsində əməkdaşlıq məsələləri müzakirə edildi. Qeyd etmək lazımdır ki, Küveyt tərəfi hələ 1992-ci ildə Azərbaycana səfər etmiş, lakin layihələrin müzakirəsi üçün Azərbaycan tərəfinin texniki-iqtisadi əsaslandırmasının olmadığını müəyyənləşdirmiş- di*°°. Fond bu barədə Azərbaycan tərəfmə müraciət etsə də, cavab almamışdı. Bunun başlıca səbəbi layihələrin texniki-iqtisadi əsaslandırılmasının olmaması idi. Fond Orta Asiya dövlətlərində bir sıra layihələrin hazırlanmasını maliyyələşdirirdi. Azərbaycan tərəfinin razılığı olacağı təqdirdə Fond əməkdaşlıq məsələlərini müzakirə etmək məqsədi ilə Azərbaycana nümayəndə heyəti göndərməyə və qəbul etməyə hazır idi. Küveyt tərəfinin bu təşəbbüsü Heydər Əliyevin Nyu Yorkda Küveyt əmiri ilə görüşündən sonra meydana çıxmışdı. Göstərilən və b. məsələlərin müzakirəsi məqsədilə Azərbaycan Respublikası Milli Məclisi sədrinin dəvəti ilə 1995-ci il sentyabrın 20-22-də Küveyt Milli Məclisinin sədr müavini Saleh Yusif Əl Faddahn başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana rəsmi səfər etdi. Səfər zamanı ikitərəfli münasibətlərə dair məsələlərin müzakirəsi əhəmiyyətli idi. Nümayəndə heyəti Ermənistanın təcavüzü nəticəsində Azərbaycanda yaranmış ağır vəziyyətlə tanış oldu.

Səfərdən sonra Küveyt azərbaycanlı qaçqın və məcburi köçkünlərə yardım etməyə başladı. Küveytin Asiya Müsəlmanları Komitəsi həmin yardımlarda mühüm rol oynayırdı. Hələ 1989-cu ildə qurulmuş komitə yalnız 1995-ci ilin sonlarında Azərbaycanda nümayəndəliyini açdı. Təşkilat qaçqın və məcburi köçkünlərə, yetim uşaqlara yardım edir, maarif, elm və mədəniyyət sahəsində də xeyriyyəçilik tədbirlərini həyata keçirirdi. Küveytin təhsil üzrə Əl Babteyn fondu Misirin Əl Əzhər Universitetində təhsil alan bir neçə azərbaycanlının təhsil xərcini öz üzərinə götürmüşdü.

Qarşılıqlı münasibətləri genişləndirmək məqsədi ilə 1996-cı ilin may ayında Azərbaycan Respublikası Milli Məclis sədrinin başçılıq etdiyi nümayəndə heyəti Küveytə səfər edərək Küveyt dövlətinin əmiri Şeyx Cabir Əl Əhməd Əl Cabir Əs-Sabah, Küveyt Milli Məclisinin sədri Abdullah Əs-Səlim Əs-Sabah və Küveyt baş nazirinin birinci müavini, xarici işlər naziri Şeyx Sabah Əl Əhməd Əl Cabir Əs-Sabah ilə görüşüb

’ ARXİNA. 06.06.1994-26.11.1996. Qovluq Xo21, v. 125-126.

danışıqlar apardı. Əməkdaşlığı bütün sahələrdə genişləndirməyə dair ümumi razılıq əldə edildi.

Bundan sonra əməkdaşlıqda bəzi irəliləyişlər oldu. Küveyt - Azərbaycan parlamentlərarası dostluq qrupunun 2001-ci il sentyabrın 24-28-də Azərbaycana səfəri münasibətlərin inkişafı baxımından əhəmiyyətli oldu. Parlamentdə və nazirliklərdə görüşlər keçirildi. Nümayəndə heyətini Azərbaycan Prezidenti Heydər Əliyev qəbul etdi*°’. Dostluq qrupunun rəhbəri Camal Hüseyn Fahat Əl Ömər iki ölkə arasında əlaqələrin inkişafını yüksək qiymətləndirdi, Ermənistanın Azərbaycana təcavüzünü pislədi, ABŞ-da törədilən terror aktlarını müsəlman ölkələri ilə eyniləşdirməyin əleyhinə çıxdı.

Bu səfər iki ölkə arasında münasibətlərin inkişafına təkan verdi. Münasibətlərə yeni keyfiyyət halı vermək üçün Azərbaycan tərəfi 2002-ci il oktyabrın 1-də Küveyt dövlətində Küveyt şəhərində Azərbaycan Respublikasının səfirliyini təsis etdi*°^.

Ümumiyyətlə, 1991-2003-cü illərdə iki ölkə arasında münasibətlərdə müzakirə edilən əsas məsələlər Ermənistanın Azərbaycana təcavüzü, azərbaycanlı qaçqın və məcburi köçkünlərə humanitar yardımın edilməsi, Azərbaycanda gerçəkləşdirilən layihələrə kreditlərin ayrılması, parlamentlərarası əməkdaşlıq və s. olmuşdur. Küveyt dövləti Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini müdafiə etmişdir.

## LİVAN RESPUBLİKASI İLƏ MÜNASİBƏTLƏR

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının əlaqələr qurduğu ölkələrdən biri Livan Respublikası oldu. Livan tərəfi Azərbaycanın dövlət müstəqilliyini 1991-ci il dekabrın 30-da tanıdı . İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il sentyabrın 18-də quruldu. Azərbaycan ilə Livan arasında əməkdaşlıq beynəlxalq təşkilatlar, xüsusilə də İKT çərçivəsində mövcud idi. Livan tərəfi Ermənistanın

Azərbaycan Prezidenti Heydər Əliyev Küveyt parlamentinin nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 890-894.

ARXINA. 28.10.2002 -30.12.2002. Qovluq Mb S, v.l2

Azərbaycan - Livan əlaqələri. - Heydər Əliyev və Şərq. 6 clldə. İKT dövlətləri. V kitab, s. 291-292.

təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinə dair İKT tərəfindən qəbul edilmiş qərarları dəstəkləyirdi.

İki ölkə arasında münasibətlər ilk vaxtlarda Azərbaycan Respublikasının Qahirədəki səfirliyi vasitəsi ilə həyata keçirilirdi. 1994-cü ildə İslamabadda İKT xarici işlər nazirlərinin toplantısında iştirak edən Azərbaycan Respublikasının Misirdəki səfiri İsrafil Vəkilovun Livanın Baş Naziri Rəfiq Əl Həriri İlə görüşü iki ölkə arasında əlaqələrdə ilk addımlardan biri oldu. Baş Nazir ölkəsinin İKT-nin Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən qətnaməsini müdafiə etdiyini bildirdi.

Azərbaycan tərəfi Livan ilə əlaqələri inkişaf etdirmək üçün bəzi addımlar atdı. Azərbaycan Respublikasının Londondakı səfiri Mahmud Məmmədquliyevin Livanın bu ölkədəki səfiri Mahmud Xammud ilə 1995- ci il iyulun 24-də görüşü əhəmiyyətli oldu*°'’.Görüşün əvvəlində Azərbaycan səfiri Ermənistanın təcavüzü və ərazilərin işğalının nəticələri, münaqişənin tənzimlənməsi istiqamətində ATƏT-in Minsk qrupunun səyləri barədə danışdı. Mahmud Xammud qeyd etdi ki, hələ Moskvada səfir işlər- kən münaqişə yenicə başladığı bir zamanda müsəlman ölkələrinin səfirləri SSRİ xarici işlər naziri Eduard Şevardnadzedən münaqişənin dayandırılması üçün hansı tədbirlərin görülməsi barədə soruşmuşdular. Onlar bildirmişdilər ki, sovet hökuməti istəsəydi, qan tökülməsini dayandıra bilərdi. Lakin səfirlər xarici işlər nazirindən cavab ala bilməmişdilər. O, əlavə etdi ki, sovet hökuməti münaqişəni başladığı anda dayandıra bilərdi. Lakin sovet rəhbəri Mixail Qorbaçov Moskvadakı erməni lobbisinin təsiri altında idi. Buna görə də onun güclənməsinə kömək edirdi. Livan səfiri münaqişənin həllində İran, Türkiyə və Gürcüstanın, həmçinin Qərb ölkələrinin mövqeyi ilə maraqlandı. Azərbaycan səfiri Türkiyə və Gürcüstanın Azərbaycanın mövqeyini tam müdafiə etdiklərini söylədi. İran da Azərbaycanın mövqeyini müdafiə edir və humanitar yardım göstərirdi. Lakin son vaxtlar İran tərəfi Xəzər dənizinin hüquqi statusu məsələsində Rusiyanın mövqeyini tutmağa başlamışdı. Qərb ölkələri də əsasən Azərbaycan Respublikasının mövqeyini müdafiə edirdilər. Livan səfiri Azərbaycan ordusunun hazırlıq vəziyyəti ilə maraqlandı. Mahmud Məmmədquliyev Azərbaycanın 1993-cü ildən başlayaraq ordusunu qurmağa başladığını və düşmənlə güc mövqeyindən danışmağa hazır olduğunu vurğuladı. Bundan sonra Livan səfiri Azərbaycanın iqtisadi vəziyyətinə dair məsələyə toxundu. Azərbaycan səfiri ölkəsinin azad bazar iqtisadiyyatına keçdiyini.

[804] ARXİNA. 06.06.1994-26.11.1996. Qovluq Xo21, v. 86-88.

bunun da müəyyən çətinliklər yaratdığını, Livan ilə Azərbaycan arasında inkişaf etmiş münasibətlərin olmadığından təəssüfləndiyini bildirdi. O, ilk addım kimi nümayəndə heyətlərinin səfərlərinin mübadiləsini təklif etdi. Livan səfiri məlumatları hökumətinə çatdıracağını, livanlı iş adamlarının Azərbaycana sərmayə qoymağa təşviq edəcəyini bildirdi. Qeyd etmək lazımdır ki, bu zaman Livan kapitalının 40-45%-i ərəb ölkələrinə qoyulurdu. Azərbaycan səfiri Bakıda Livan səfirliyinin açılması məsələsinə də toxundu. Livanlı diplomat bunun problem olmadığını, nümayəndə heyətinin Bakıya səfər edərək əməkdaşlıq üçün imkanları öyrənməsinin və səfirliyin açılmasının hökumətin proqramına daxil edilməsinin mümkünlüyünü bildirdi. Bu zaman Livan iş adamları artıq Qazaxıstan və Özbəkistanda çalışırdılar. Qazaxıstanda Livan səfirliyi açılmışdı. Azərbaycan səfiri Xarici İşlər Nazirliyinə bu görüş barədə göndərdiyi məktubunda Livanın xarici işlər nazirinin adma dəvət məktubu göndərilməsini və əməkdaşlığın fəallaşdırılmasmı təklif etdi.

Livan hadisələri ilə bağlı Azərbaycanın mövqeyi aydın və dəqiq idi. Bu mövqe BMT Baş Məclisində Yaxın Şərqdə şərait məsələsi müzakirə edilərkən ortaya qoyulmuşdu. Azərbaycan Livanın cənubunda silahlı gərginliyin şiddətlənməsindən, Beyrutda və ölkənin digər yaşayış məntəqələrində dinc insanların ölümündən və adamların vətənlərində məcburi köçkünə çevrilmələrindən narahatlıq keçirirdi. Azərbaycan Livanın ərazi bütövlüyü və suverenliyini müdafiə edir, Livan xalqı və hökumətinin ölkənin ərazi bütövlüyünü bərpa etmək uğrunda mübarizəsini dəstəkləyir, zorakılığın bütün forma və metodlarını pisləyir, münaqişədə iştirak edən tərəfləri danışıqlar masası arxasında oturmağa çağırırdı*®^.

Bu mövqe 1997-ci ilin mart ayında İKT-nin İslamabadda keçirilən növbədənkənar zirvə toplantısında Livanın Baş Naziri Rəfıq Əl Həriri ilə Azərbaycan nümayəndə heyətinin rəhbəri. Milli Məclisin Sədri Murtuz Ələsgərovun görüşündə də bəyan edildi. Rəfıq Əl Həriri həmin il martın 14-də Londonda çıxan "Əl Həyat" qəzetində Livan xarici işlər naziri F.Buveysə istinadən Azərbaycan Respublikasına qarşı qərəzli xarakter daşıyan yazını tam təkzib etdi, ölkəsinin İKT-nin Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı qəbul etdiyi bütün qərarları dəstəklədiyini bildirdi, Azərbaycanda mövcud siyasi və iqtisadi şəraitlə, həmçinin Azərbaycanın Qafqaz regionundakı mövqeyi ilə yaxından tanış olmaq üçün azərbaycanlı diplomat İsrafil Vəkilovu ölkəsinə şəxsi qonaq kimi dəvət

[805] ARXINA. 06.06.1994-26.11.1996. Qovluq JV221, v. 163-164.

etdi. Qahirədəki Azərbaycan səfiri İsrafil Vəkilov Livana səfər etdi. Martın 31 -də o, Beyrut və erməni diasporunun əsas hissəsinin yaşadığı bir şəhərdə kütləvi informasiya vasitələri və ictimaiyyətin nümayəndələri ilə çoxsaylı görüşlər keçirdi. Görüşlər zamanı livanlılara Azərbaycana qarşı Ermənistanın təcavüzü haqqında həqiqətlər, işğal olunmuş ərazilərdə dinc əhaliyə münasibətdə ermənilər tərəfindən həyata keçirilmiş soyqırım siyasəti, Ermənistana Rusiyadan qanunsuz olaraq silah göndərilməsi və bu silahların təkcə Azərbaycan üçün deyil, həm də regionun digər xalqları üçün böyük təhlükə yaratdığına dair son hadisələr barədə məlumat verdi. Baş Nazirlə olan görüşündə Azərbaycan səfirinin "Livandakı erməni diasporasının təkcə Azərbaycana qarşı deyil, Qafqaz regionundakı digər xalqlara qarşı da düşmənçilik hərəkətlərində iştirakı Livan haqqında heç də əlverişli olmayan təsəvvür yaradır" deməsi Livanda böyük narahatlığa səbəb olmuşdu. Baş Nazir bildirdi ki, Rusiyaya gözlənilən səfərindən sonra Azərbaycana yaxın vaxtlarda getməsi ilə bağlı hazırlıq işlərinə başlayacaqdır. Dünyanın ən varlı adamlarından sayılan Rəfıq Əl Həriri Azərbaycanın böyük təbii ehtiyatları olan neft, qaz, neft məhsulları və neftin nəql edilməsi ilə əlaqədar məsələlərlə də maraqlanırdı. Səfir Baş Nazirə bildirdi ki, bu sahədə əməkdaşlıq və Livanda mövcud böyük sərmayələrin cəlb edilməsi üçün Azərbaycanda real qanunverici baza vardır.

İki ölkə arasında münasibətləri inkişaf etdirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xüsusi tapşırığına əsasən xarici işlər naziri Həsən Həsənov 1997-ci il noyabrın 19-20-də Livanda rəsmi səfərdə oldu. Noyabrın 19-da Həsən Həsənov Livanın xarici işlər naziri Nəbih Bərri ilə görüşdü. Nəbih Bərri ölkəsinin qarşılıqlı maraq doğuran bütün sahələrdə Azərbaycan ilə əməkdaşlıq etməyə hazır olduğunu vurğuladı. O, Azərbaycanın xarici işlər nazirinin səfərinə Livanın yüksək dairələrində iki ölkə arasındakı əlaqələrin başlanğıcının timsah kimi xüsusi qiymət verildiyini qeyd edərək bildirdi ki, Livan Azərbaycanın ərazi bütövlüyünü və müstəqilliyini tam şəkildə dəstəkləyir.

Azərbaycanın xarici işlər naziri noyabrın 20-də Livan Prezidenti İlyas Həravi tərəfindən qəbul edildi. Görüş zamanı Həsən Həsənov Azərbaycan Prezidentinin şəxsi məktubunu Livan Prezidentinə təqdim etdi. Məktubda iki ölkə arasında münasibətləri genişləndirmək istəyi ifadə edilir, Ermənistanın hərbi təcavüzü və nəticələri haqqında məlumat verilirdi.

Həsən Həsənov Livanın Baş Naziri, parlamentin sədri, hökumətin bir sıra məsul şəxsləri və kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşərək regional və beynəlxalq problemləri, Ermənistanın Azərbay

cana qarşı yönəlmiş işğalçılıq siyasətinin ağır nəticələrini. Yaxın Şərq problemi və qarşılıqlı maraq doğuran bir sıra siyasi-iqtisadi məsələləri müzakirə etdi. Səfər qarşılıqlı münasibətlərə aydınlıq gətirilməsi baxımından əhəmiyyətli idi.

Qarşılıqlı münasibətlərdə mühüm hadisə İKT-nin 1997-ci il dekabrın 9-11-də Tehranda keçirilən zirvə toplantısında Heydər Əliyevin Livan Prezidenti İlyas Həravi ilə görüşündə atıldı. Dövlət başçıları əlaqələrin inkişaf perspektivlərini müzakirə etdilər. Azərbaycan tərəfi Ermənistanın Livan vasitəsi ilə silah əldə etdiyini bildirdi. Livan tərəfi Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirdi.

Azərbaycan Prezidenti beynəlxalq təşkilatlar, xüsusilə də İKT çərçivəsində iki ölkə arasında mövcud əməkdaşlığı razılıq hissi ilə qeyd etdi, Ermənistan Respublikasının təcavüzü ilə bağlı qərar və qətnamələrin qəbul edilməsində Livan tərəfinin dəstəyini yüksək qiymətləndirərək, Azərbaycan - Livan iqtisadi əlaqələrinin genişlənməsi üçün böyük imkanların olduğunu vurğuladı. Yaxın Şərq regionunda şəraiti diqqətlə izlədiyini, orada gedən proseslərin bəzən Qafqazda cərəyan edən hadisələrə müəyyən təsir göstərdiyini qeyd edən Heydər Əliyev bu regionda vəziyyətin gərginləşməsi ilə bağlı dərin narahatlığını, 1990-cı ildə Madriddə başlanmış. Yaxın Şərqdə sülh prosesinin mühüm istiqamətlərindən olan,
1996- cı ildən dayandırılmış İsrail - Suriya - Livan danışıqlarının bərpa edilməsinin zəruriliyini vurğuladı və BMT Təhlükəsizlik Şurasının 1978- ci il martın 19-da Livana dair qəbul etdiyi 425 saylı qətnamənin tezliklə, əməli olaraq gerçəkləşdirilməsinə ümid ifadə etdi.

İki ölkə arasında münasibətlərin gələcək inkişaf perspektivləri də müzakirə edildi. Tərəflər əlaqələri genişləndirmək barədə razılığa gəldilər. Görüş qarşılıqlı münasibətlərin inkişafında yeni bir səhifə açırdı. Bu, Qərbdə olduğu kimi. Şərqdə də ermənilərin Azərbaycan haqqında yaydığı qeyri-obyektiv, qərəzli təsəvvürlərə güclü zərbə endirilməsi və Ermənistan xarici siyasətinin ərəb ölkələrinə çıxışının dayağı sayılan Livanın bitərəfləşdirilməsi istiqamətində aparılan işlərdən biri idi.

Görüşdən sonra iki ölkə arasında münasibətlərdə irəliləyişlər oldu.
1997- ci il dekabrın 26-da Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Azərbaycanın Misir Ərəb Respublikasındakı səfiri eyni zamanda Azərbaycan Respublikasının Livandakı səfiri təyin edildi. Azərbaycan Prezidentinin 1998-ci il 3 yanvar tarixli fərmanı ilə Livan Respublikası xarici işlər nazirinin müşaviri Nazix Kassub isə Azərbaycanın Livandakı fəxri konsulu təyin edildi.

Qarşılıqlı münasibətlərdə əhəmiyyətli hadisə 1998-ci il fevralın 11- də Livanın Baş Naziri Rəfıq Əl Həririnin Azərbaycana səfəri oldu. Heydər Əliyev ilə danışıqlarda Azərbaycan - Livan əlaqələrinin perspektivləri, Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlənilməsi nəticəsində hasil edilən nefti dünya bazarına çıxaracaq boru kəmərlərinin marşrutları, iqtisadiyyatın bir çox sahələri üzrə əməkdaşlığın genişləndirilməsi, Bakıda Livan səfirliyinin açılması və digər məsələlər haqqında fikir mübadiləsi aparıldı. Azərbaycan ilə münasibətlərə xüsusi əhəmiyyət verən Rəfıq Əl Həriri dedi: "Mühüm strateji mövqedə yerləşən müstəqil Azərbaycanla bütün sahələrdə əməkdaşlığın möhkəmləndirilməsinə Livan xüsusi əhəmiyyət verir"*".

Nümayəndə heyətlərinin görüşü zamanı iki ölkə arasında münasibətlərin geniş perspektivləri müzakirə edildi*®'. Qeyd etmək lazımdır ki, Livanın Ermənistan ilə münasibətləri yaxşı idi. Azərbaycan Prezidenti Livan ilə siyasi, iqtisadi sahələrdə və beynəlxalq təşkilatlarda əməkdaşlığın daha da möhkəmləndirilməsini, Livanın Baş Naziri isə Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə dair ölkəsinin yardımını təklif etdi. Azərbaycan tərəfi bu istiqamətdə görülən səyləri müsbət qiymətləndirirdi.

Səfərin nəticəsində, fevralın 11-də Azərbaycan Respublikası hökuməti və Livan Respublikası hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması, hava əlaqələri, gömrük məsələlərinə dair qarşılıqlı yardım, ticarət-iqtisadi əməkdaşlıq haqqında sazişlər imzalandı. Həmin sənədlər 1999-cu il mayın 8-də qüvvəyə mindi*®*. Bütün bunlar iqtisadi əlaqələrdə ilk addımlar kimi əhəmiyyətli idi.

Qeyd etmək lazımdır ki, Livan 1996-cı ildən etibarən BMT-də Azərbaycanın irəli sürdüyü düzəliş və əlavələr barədə əlavə bəndin salınmasına dair səsvermələrdə bitərəf mövqe nümayiş etdirmişdi. Bu da Azərbaycan tərəfinin narahatlığına səbəb olmuşdu. Livanın Azərbaycana dair belə mövqeyi Livanın daxili ictimai-siyasi bəyatmda erməni icmasının böyük təsiri və qərarverici proseslərə cəlb olunmaları ilə izah olunurdu. Eyni zamanda vurğulamaq gərəkdir ki, Livan Prezidenti Emil Ləhu-

Əliyev H.Ə. Livanın Baş Naziri Rəfıq Əl Həriri ilə təkbətək görüşdəki söhbətdən. 11 fevral 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XIV kitab, s. 222.

Əliyev H.Ə. İki ölkənin nümayəndə heyətləri arasında Azərbaycan - Livan danışıqlarında çıxış. 11 fevral 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XIV kitab. s. 224 -229.

ARXİNA. 2008.

anası və həyat yoldaşı erməni mənşəli idi. Livanın Azərbaycana dair siyasi kursunun formalaşmasına Livan - Ermənistan münasibətləri müəyyən təsir edirdi.

## ISRAIL DÖVLƏTI ILƏ MÜNASIBƏTLƏR

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikası İsrail Dövləti ilə müəyyən əlaqələr yaratdı. İki ölkə arasındakı diplomatik əlaqələr 1992-ci il aprelin 6-da quruldu^'". Az sonra İsrail Bakıda səfirliyini açdı. İki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın qurulması və inkişafı üçün perspektivlər var idi. Azərbaycan tərəfi yeni texnologiyaların ölkəyə gətirilməsində və müdafiə sənayesi sahəsində əməkdaşlıqda maraqlı idi. Bu məqsədlə 1997-ci il iyunun 9-12-də İsrailin Maqal şirkətinin marketinq üzrə vitse-prezidenti Dani Payzen Azərbaycana səfər etdi. Maqal şirkəti müasir hərbi və mülki təhlükəsizlik sistemlərinin tədqiqatı və istehsalı ilə məşğul olurdu. Müdafiə naziri Səfər Əbiyev ilə görüşdə Azərbaycan tərəfinin hərbi ehtiyacları üçün müasir müəyyənləşdirmə və qoruma sistemlərinin alınması ilə əlaqədar məsələlər müzakirə olundu. Əməkdaşlığa dair razılaşma əldə edildi. Bundan bir neçə gün sonra, iyulun 16-19-da İsrail Xarici İşlər Nazirliyinin MDB və Şərqi Avropa ölkələri ilə əlaqələr üzrə baş direktor müavini Natan Meron, İsrail Xarici İşlər Nazirliyinin 3-cü Şərqi Avropa idarəsinin rəisi və İsrailin Türkmənistandakı fövqəladə və səlahiyyətli səfiri Şmuel Meyrom Azərbaycana səfər etdilər. Azərbaycan Respublikasının Prezidenti, Prezidentin xarici siyasət məsələləri üzrə müşaviri və xarici işlər naziri ilə görüşlərdə ikitərəfli Azərbaycan - İsrail münasibətləri müzakirə edildi və Dağlıq Qarabağ münaqişəsinə xüsusi diqqət yetirildi. Azərbaycanın xarici işlər naziri ilə görüş zamanı israilli diplomatlar ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələlərinə toxundular, o cümlədən İsrail rəhbərliyinin Azərbaycan Respublikasının İsraildə səfirliyinin açılmasını və Azərbaycan Prezidentinin İsrailə səfər etməsini arzuladıqlarını bildirdilər.

Emil Ləhud (1936)- Livanın 11-ci prezidenti (1998-2007).
ARXİNA. 2008.

Azərbaycan - İsrail münasibətlərinin zirvə nöqtəsi 1997-ci il avqustun 29-da İsrailin Baş Naziri Benyamin Netanyahunun Azərbaycana qısamüddətli səfəri oldu. O, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilə görüşərək ikitərəfli münasibətlərin inkişaf etdirilməsi məsələlərini müzakirə etdi. Azərbaycan Prezidenti iki xalq arasında tarixən mövcud olmuş əlaqələrə qısa nəzər yetirdi, ölkəsinin məruz qaldığı təcavüzün nəticələri barədə danışdı, münaqipyə yanaşmada tutduğu mövqeyə görə İsrailin Baş Nazirinə təşəkkür etdi*^. İsrailin Baş Naziri Azərbaycanın problemlərinin həllinə ölkəsinin yardım edəcəyinə dair bəyanat verdi.

Səfərdən sonra iki ölkə arasında sosial və mədəni sahələrdə əməkdaşlıq artdı. 1997-ci ildə İsrail hökuməti İsrail Dövlətinin müstəqilliyinin 50 illiyi münasibəti ilə yubiley şənliklərini məhz yəhudilərin işıq və sevinc bayramı olan Hanuka günündə keçirməyi qərarlaşdırmışdı. İyunun 18-də M.F.Axundov adma Milli Kitabxanada Azərbaycanda sionist hərəkatının 100 illiyinə, 22 avqust - 5 sentyabr tarixlərində Sumqayıt şəhərinin Kimyaçı mədəniyyət evində İsrail Dövlətinin 50 illiyinə həsr edilmiş tədbirlər, 16 sentyabr tarixindən etibarən isə Bakı Dövlət Universitetində "Həyat dolu İsrail" adlı sərgi keçirildi. Dekabrın 24-də R.Behbudov adına Mahnı Teatrında keçirilən Hanuka bayram mərasimi İsrailin müstəqillik günü olan 15 aprel (iyar) 1998-ci il tarixinə qədər davam etdi. Toplantılarda Azərbaycan Respublikasının Baş Naziri, xarici işlər naziri. Prezidentin müşaviri və digər rəsmi şəxslər iştirak etdilər.

Digər sahələrdə də əlaqələr genişləndi. 1997-ci ildə İsrail Xarici İşlər Nazirliyinin MAŞAV xətti ilə İsraildə kənd təsərrüfatı, tibb, təhsil və kompyuter texnologiyası kimi müxtəlif sahələrdə təşkil etdiyi kurslarda Azərbaycan nümayəndələri də iştirak etdilər.

İki ölkə arasında təhsil sahəsində də əlaqələr quruldu. 1997-ci il oktyabrın 28-dən noyabrın 7-nə kimi Bakıda İsrailin Təhsil Nazirliyi nümayəndələrinin Azərbaycanın təhsil sistemi nümayəndələri üçün seminarı təşkil edildi. MAŞAV xətti ilə 15 Azərbaycan vətəndaşı İsraildə təhsil almağa göndərildi. Onların tibb və kənd təsərrüfatının müxtəlif sahələrində biliklərinin genişləndirilməsinə imkan yaradıldı.

Benyamin Netanyahu (1949) - İstrailin siyasi və dövlət xadimi. Baş Nazir (1996-1999), xarici işlər naziri (2002-2003), maliyyə naziri (2003-2005), Baş Nazir (2009).

Əliyev H.Ə. Bakıya qısa müddətli səfərə gəlmiş İsrailin Baş Naziri Benyamin Netanyahu ilə təkbətək görüşdə söhbətdən. 29 avqust 1997-ci il. Müstəqilliyimiz əbədidir. XII kitab, s. 102-106.

İkitərəfli Azərbaycan - İsrail əməkdaşlığının daha da genişləndirii-məsində və bu əməkdaşlığın yeni mərhələyə çıxarılmasında əhəmiyyətli addım 1999-cu il yanvarın 11-12-də Bakıda keçirilmiş Azərbaycan Respublikası və İsrail Dövləti xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin birinci raundu oldu. Məsləhətləşmələrdə Azərbaycan heyətinə xarici işlər nazirinin müavini Xələf Xələfov, İsrail tərəfmə isə İsrail Xarici İşlər Nazirliyinin MDB, Mərkəzi və Şərqi Avropa ölkələri idarəsi baş direktorunun müavini Ş.Ştayn başçılıq edirdi. İsrail nümayəndə heyətinə İsrail Xarici İşlər Nazirliyinin MDB ölkələri şöbəsinin müdiri Şmuel Meyrom və İsrailin Bakıdakı səfiri Arkadi Milman daxil idilər. Məsləhətləşmələr zamanı əsasən aşağıdakı məsələlər müzakirə edildi: siyasi və iqtisadi sahələrdə Azərbaycan - İsrail münasibətləri; Azərbaycanda yəhudilik; BMT-də əməkdaşlıq; ABŞ konqresində qəbul olunmuş Azadlığı müdafiə aktına 907-ci düzəlişin ləğvi; Ermənistan - Azərbaycan münaqişəsi; Ermənistana Rusiya tərəfindən qanunsuz silah verilməsi; Bakı - Ceyhan marşrutu üzrə neft boru kəmərinin tikintisi; Yaxın Şərqdə şərait (dövlətlərarası münasibətlər, terrorizm).

Məsləhətləşmələr zamanı Ş.Ştayn İsrailin xarici işlər naziri Ariel

Şaron tərəfindən Azərbaycan Respublikasının xarici işlər nazirinə ünvanlanmış dəvət məktubunu təqdim etdi. Məktubda iki ölkə arasında münasibətlərin dərinləşdirilməsi istəyi ifadə edilmişdi.

İsrail nümayəndə heyəti yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qəbul edildi. Görüş zamanı BMT çərçivəsində əməkdaşlıq və Yaxın Şərqdəki şərait müzakirə olundu. Ş.Ştayn İsrail Prezidenti E.Vaytsmanm*"' Azərbaycan Respublikası Prezidentinə ünvanlanmış məktubunu təqdim etdi. Məktubda ikitərəfli münasibətlərin inkişafına dair İsrail tərəfinin istəkləri əksini tapmışdı.

Nümayəndə heyəti yanvarın 12-də Milli Məclis sədrinin müavini ilə görüşərək iki ölkə parlamentləri arasında əlaqələrin genişləndirilməsi məsələlərini müzakirə etdi.

Məsləhətləşmələrdən sonra qarşılıqlı münasibətlərin dinamikası artdı. Əməkdaşlıq üçün yeni imkanlar açıldı. 1999-cu il avqustun 22-24- də R.Brofmanm başçılıq etdiyi İsrail knessetinin nümayəndə heyəti Bakıya səfər edərək Azərbaycan Respublikası Milli Məclisinin sədri və

^ Ariel Şaron (1928) - İsrailin müdafiə naziri (1981-1983), xarici işlər naziri (1998-1999), 11-ci Baş Naziri (2001-2006).

Ezer Vaytsman (1924-2005)- İsrailin 7-ci Prezidenti (1993-2000).

Baş Naziri ilə ikitərəfli münasibətlərin inkişaf perspektivlərini müzakirə etdi. Nümayəndə heyəti Quba rayonunda yaşayan yəhudi icmasının rəhbərləri ilə görüşdü və Bakıda yerləşən 3 sinaqoqa baş çəkdi.

İki ölkə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı genişləndirdilər. Bu baxımdan ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının İstanbul sammitində iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilə İsrailin Baş Naziri Ehud Barak*’^ arasında
1999- cu il noyabrın 18-də Çırağan sarayında keçirilən görüş faydalı oldu. Görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər, beynəlxalq və regional əməkdaşlıq haqqında geniş fikir mübadiləsi aparıldı.

İsrail tərəfi Azərbaycan ilə siyasət, iqtisadiyyat, elm, mədəniyyət və humanitar sahələrdə daha da yaxın əlaqələrin qurulması mövqeyindən çıxış edirdi. Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəməri layihəsinin həyata keçirilməsində İsrail və yəhudi lobbisi müəyyən rol oynayırdı*'^. Görüşdən bir müddət sonra Ermənistan mətbuatında “İsrail Azərbaycana silah satır” xəbərləri yayıldı*'’.

Ermənistan tərəfindən müəyyən əngəllər yaradılmasına baxmayaraq, İsrail - Azərbaycan münasibətləri inkişaf edərək işgüzar əməkdaşlıq sahələrini əhatə edirdi. Hanuka bayramı mərasimində iştirak etmək üçün İsrailin müdafiə nazirinin müavini, Azərbaycan - İsrail - ABŞ üçtərəfli parlamentlərarası komissiyanın İsrail tərəfindən sədri Efrahim Snehin başçılığı altında nümayəndə heyəti 1999-cu il dekabrın 3-5-də Azərbaycana səfər etdi. Nümayəndə heyətinə İsrail Xarici İşlər Nazirliyi MDB ölkələri idarəsinin rəisi Ş.Meyrom, Müdafiə Nazirliyi MDB ölkələri idarəsinin rəisi Y.Laor və E.Snehin şəxsi katibliyinin rəisi xanım B.Erman daxil idilər.

Səfərdə məqsəd Hanuka bayramının ilk gününü yəhudilərlə birlikdə keçirmək idi. Azərbaycanda yaşayan yəhudilərə həmişə yaxşı münasibət olmuşdu. Hətta sovet hakimiyyəti illərində SSRİ-də antisemitizm mövcud olsa da, yəhudilər Azərbaycanda yaxşı yaşamışdılar. Azərbaycandan ABŞ-a, Avropa ölkələrinə və İsrailə köçmüş yəhudilər Azərbaycana olan məhəbbətlərini də heç cür gizlədə bilmir, rəğbət bəsləyirdilər.

Ehud Barak (1942) - İsrail hərbi və dövlət xadimi, baş qərargah rəisi (1991- 1995), Baş Nazir, partiya lideri (1999-2001).

Hrair Dekmejian and Hovann H. Simonian. Trobled Waters: Geoplotics ofthe Caspian Region. I. B. Tauris, p.l25.

Sedat Laçiner. Eımeni şorunu, diaspora ve türk dış politikası. Ermeni iddiaları Türkiyenin dünya ile ilişkilerini nasil etkiliyor? Ankara, USAK, 2008, s. 522.

Nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti, Baş Naziri, xarici işlər naziri, müdafiə nazirinin birinci müavini, baş qərargahın rəisi. Milli Məclisin beynəlxalq münasibətlər üzrə daimi komissiyasının sədri və ARDNŞ-ın birinci vitse-prezidenti ilə görüşdü.

Görüşlərdə əsasən aşağıdakı məsələlər müzakirə edildi: Cənubi Qafqaz və Yaxın Şərq regionlarında münaqişələrin sülh yolu ilə həll olunması; Dağlıq Qarabağ münaqişəsinin tarixi və bu günkü vəziyyəti; Cənubi Qafqaz regionu ölkələrində şərait; Azərbaycan Respublikası Prezidentinin və xarici işlər nazirinin İsrailə səfərlərinin həyata keçirilməsi və İsraildə Azərbaycan Respublikasının səfirliyinin açılması; Azərbaycanın ABŞ-m beynəlxalq yəhudi təşkilatlarının nümayəndələri ilə əlaqələri və 907-ci düzəlişin ləğv olunması; İsrailin də faydalana biləcəyi Bakı - Ceyhan neft boru kəmərinin tikintisi; Binə hava limanında İsrailin MAQAL şirkəti tərəfindən qurulacaq təhlükəsizlik sistemi.

Görüşlərdə Azərbaycana qarşı olan ədalətsizliklərdən danışıldı, ABŞ konqresində qəbul edilmiş 907-ci düzəlişin ləğvi istiqamətində səylər müzakirə edildi^'*. E.Snehin fikrincə, 907-cü düzəliş Azərbaycana qarşı ədalətsizlik idi.

İsrail tərəfi Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində beynəlxalq təşkilatlar çərçivəsində ölkəsinin səylər edəcəyini, 907-ci düzəlişin ləğvinə çalışacağını, Azərbaycanın enerji siyasətinin həyata keçirilməsinə dəstək verəcəyini bildirdi. Tərəflər iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğuladılar.

Danışıqlar səmərəli oldu. İki ölkə arasında əməkdaşlığın potensialının mövcudluğunu göstərdi. İqtisadi əlaqələr genişləndirildi.

2000- ci il aprelin 10-13-də İsrail Dövləti Xarici İşlər Nazirliyinin iqtisadi məsələlər üzrə baş direktorunun müavini Viktor Harelin rəhbərlik etdiyi nümayəndə heyəti Bakıda səfərdə oldu.

Nümayəndə heyəti Azərbaycan Respublikasının iqtisadiyyat naziri Namiq Nəsrullayev tərəfindən qəbul edildi. Görüşdə hər iki tərəf üçün əhəmiyyət kəsb edən məsələlər, o cümlədən Azərbaycanda iqtisadi şərait, İsrail sərmayələrinin Azərbaycan iqtisadiyyatına cəlb olunması və s. məsələlər müzakirə olundu.

Əliyev H.Ə. İsrail dövlətinin müdafiə nazirinin müavini, ABŞ - İsrail — Azərbaycan parlamentlərarası birgə qrupunun İsrail tərəfindən həmsədri Efrahim Snehin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə söhbət. 4 dekabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXIII kitab, s. 330-336.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev və birinci vitse- prezidenti İlham Əliyev nümayəndə heyətini qəbul etdi. Görüşlər zamanı Azərbaycan neftinin Bakı - Ceyhan marşrutu ilə ixracı, İsrailin Azərbaycana neft-kimya sahəsində yardım göstərməsi imkanları və digər məsələlər müzakirə olundu.

Daha sonra nümayəndə heyəti Azərbaycan Respublikasının maliyyə naziri Əvəz Ələkbərov və rabitə naziri Nadir Əhmədov tərəfindən qəbul edildi. Görüşlərdə iki ölkə arasında müvafiq sahələrdə əməkdaşlıq haqqında razılıq əldə olundu.

İsrail nümayəndə heyəti aprelin 12-də Azərbaycan Respublikası baş nazirin birinci müavini Abbas Abbasov tərəfindən qəbul edildi. Görüşdə iki ölkə arasında münasibətlərin genişləndirilməsi, xüsusən kənd təsərrüfatı sahəsində əməkdaşlıq məsələləri müzakirə olundu.

Həmin gün nümayəndə heyətini Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Baş Nazir Artur Rasizadə, xarici işlər naziri Vilayət Quliyev qəbul etdi. Görüşlərdə Azərbaycan - İsrail əlaqələrinin bütün sahələrdə inkişaf etdirilməsi və onların yüksək səviyyəyə çıxarılmasının zəruriliyi, İsrail tərəfindən Azərbaycan iqtisadiyyatına sərmayələrin qoyulması məsələləri müzakirə olundu. Tərəflər Azərbaycan iqtisadiyyatına İsrail kapitalının qoyulması barədə razılığa gəldilər.

Bütün bunlar əməkdaşlıqda yeni imkanlar açırdı. Ona görə də tərəflər səylərini artırdılar. 2001-ci ilin oktyabr ayında İsrailin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Eytan Naye etimadnaməsini Azərbaycan Respublikasının Prezidentinə təqdim etdi. Bundan sonra qarşılıqlı münasibətlərdə intensivlik artdı. Həmin il dekabrın 23-26-də İsrail Xarici İşlər Nazirliyi baş direktorunun müavini David Peleqin rəhbərliyi altında nümayəndə heyəti Azərbaycana səfər edərək Milli Məclisin Sədri Murtuz Ələsgərov, baş nazirin müavini Abid Şərifov, Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti İlham Əliyev, Milli Məclisin deputatları Səməd Seyidov və Hikmət Osmanov, Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov, Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyev, nazir müavinləri Xələf Xələfov və Araz Əzimovla görüşdülər. Görüşlərdə ikitərəfli münasibətlər, mövcud əməkdaşlığın yeni səviyyəyə çıxarılmasının vacibliyi, Azərbaycanın İsrail ilə münasibətlərə əhəmiyyət verdiyi qeyd edildi. İsraildə Azərbaycan səfirliyinin açılması məsələsi müzakirə edildi. İsrail tərəfi Azərbaycana maraq göstərdiyini və bir sıra sahələrdə əməkdaşlıq etməyə hazır olduğunu bildirdi. Daha sonra Azərbaycan iqtisadiyyatına

İsrail sərmayəsinin qoyulmasının mümkünlüyü, Dağlıq Qarabağ münaqişəsi, dünya ictimaiyyətinin münaqişəyə münasibəti, Azərbaycanın münaqişəni beynəlxalq hüquq normalarına əsaslanaraq sülh yolu ilə həll etmək niyyəti, İsrail - Fələstin münaqişəsi, regionda geosiyasi şərait, iki ölkə arasında həm dövlətlərarası, həm də parlamentlərarası münasibətlər, beynəlxalq təşkilatlarda əməkdaşlıq və İsrailin dəstəyi, iki ölkə xalqlarının tarixən yaxın olmaları, Azərbaycanda antisemitizmin mövcud olmadığı, terrorizmə qarşı mübarizə, regionda münaqişələrin həlli, təhlükəsizlik problemləri, Azərbaycan Respublikası xarici işlər nazirinin İsrailə planlaşdırılan səfəri, Azərbaycan - İsrail iqtisadi əməkdaşlığı və bu münasibətlərə dair hüquqi bazanın qurulması və s. məsələlər müzakirə olundu.

İsrail tərəfi Ermənistanın Azərbaycana təcavüzünə dair həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına kömək edəcəyini bildirdi. Azərbaycan və İsrail beynəlxalq təşkilatlarda əməkdaşlıq etməyin vacibliyini vurğuladılar. Terrorizmə qarşı mübarizədə birgə səylər etməyə dair razılıq əldə olundu. İki ölkə arasında iqtisadiyyat və təhlükəsizlik sahələrində əməkdaşlığın əhəmiyyəti vurğulandı. Əməkdaşlıqda parlamentlərin müstəsna rolunun olduğu qeyd edildi.

Müzakirələrdən bir neçə ay sonra, 2002-ci il mayın 14-16-da İsrail knessetinin deputatı Roman Brofman Azərbaycan Respublikasına səfər etdi. Səfər zamanı Roman Brofmanın Azərbaycan Respublikası Milli Məclisinin sədri Murtuz Ələsgərov, Milli Məclisin deputatları Səməd Seyidov, Hikmət Osmanov və xarici işlər naziri Vilayət Quliyev ilə keçirdiyi görüşlərdə ikitərəfli münasibətlər, iki ölkənin parlamentləri arasında əməkdaşlıq. Yaxın Şərq və Dağlıq Qarabağ münaqişələri, İsraildə Azərbaycan səfirliyinin açılması və Azərbaycan Respublikası xarici işlər nazirinin İsrailə səfəri kimi məsələlər müzakirə olundu. Tərəflər parlamentlərarası əlaqələri genişləndirmək barədə razılığa gəldilər.

Bu baxımdan həmin ilin sentyabrın 3-5-də İsrail knessetinin deputatı Amnon Kohenin Azərbaycan Respublikasına səfəri əhəmiyyətli oldu. Səfər zamanı Amnon Kohenin Azərbaycan Respublikası Milli Məclisinin sədri Murtuz Ələsgərov, millət vəkili Səməd Seyidov, gənclər, idman və turizm naziri Əbülfəs Qarayev və xarici işlər nazirinin müavini Xələf Xələfov ilə keçirdiyi görüşlərdə Azərbaycan - İsrail münasibətləri, iki ölkə arasında münasibətlərin genişləndirilməsinə dair hüquqi bazanın yaradılması, beynəlxalq təşkilatlarda əməkdaşlıq, parlamentlərarası münasibətlər, iqtisadiyyatın bir sıra sahələrində əməkdaşlıq, İsraildə Azərbaycan

səfirliyinin açılması və Azərbaycan Respublikası xarici işlər nazirinin İsrailə səfəri barədə məsələlər müzakirə olundu.

2003-cü il avqustun 27-30-da Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin İkinci ərazi idarəsinin rəisi başda olmaqia nümayəndə heyətinin İsrailə səfəri zamanı siyasi məsləhətləşmələr aparıldı.

Ümumiyyətlə, 1991-2003-cü illərdə Azərbaycan ilə İsrail arasında iqtisadi, müdafiə, təhlükəsizlik, mədəniyyət, təhsil və s. sahələrdə əməkdaşlıq qurulmuş və inkişaf etdirilmişdir. Müxtəlif layihələr həyata keçirilmişdir. Əməkdaşlıq qarşılıqlı faydaya əsaslanmışdır. İki ölkə arasında əməkdaşlıq üçüncü dövlətə qarşı çevrilməmişdir.

## FƏLƏSTİN MƏSƏLƏSINƏ MÜNASİBƏT

1988-ci ildən müstəqil dövlət kimi elan olunan və dünyanın 131 ölkəsi tərəfindən müstəqilliyi tanınan Fələstin muxtariyyəti ilə Azərbaycan Respublikası arasında əlaqələr tarixi köklərə dayanır. İki xalq arasında qardaşlıq bağları vardır. 1992-ci il aprelin 15-də Azərbaycan Respublikası ilə Fələstin Milli Hakimiyyəti arasında diplomatik əlaqələrin qurulması haqqında protokol imzalandı. Azərbaycan ilə Fələstin arasında əlaqələr əsasən BMT, İKT və digər beynəlxalq təşkilatlar çərçivəsində həyata keçirilirdi. Tehranda keçirilən İKT toplantısı çərçivəsində Heydər Əliyev
1997- ci il dekabrın 8-də Fələstin rəhbəri Yasir Ərəfat*” ilə görüşdə bildirdi ki, Azərbaycan Fələstinin dostudur.

Azərbaycan Respublikası dövlətinin Fələstin və Orta Şərqdə şəraitə dair mövqeyi aşağıdakı kimi idi*^°: Azərbaycan tərəfi regionda baş verən hadisələrdən narahatlıq hissi keçirir, ərəb-İsrail münaqişəsi, İraqla bağlı məsələlərin həll olunması istiqamətində diplomatik sahədə beynəlxalq ictimaiyyətin addımlarını və səylərini yüksək qiymətləndirirdi. Azərbaycan Respublikası Fələstin məsələsinə münasibətdə belə hesab edirdi ki, regionda hərtərəfli, ədalətli və davamlı sülhün əldə edilməsi üçün beynəlxalq hüquq norma və prinsiplərinə riayət olunmalı, xüsusilə BMT Təhlükəsizlik Şurasının 242, 338, 1397, 1402 və 1403 saylı qətnamələrinin icrası təmin edilməli, BMT-nin beynəlxalq məsuliyyət məsələsi mexanizmi

Yasir Ərəfat (1929-2003) - Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri (1969-2004), Fələstin Milli Administrasiyasının rəhbəri (1994-2004).

[820] ARXINA. 04.12.2002-28.12.2002. Qovluq NsS, v.50-51.

işə salınmalıdır. Ermənistanın təcavüzkar siyasətinin qurbanı olan və işğal altında olmağın bütün ağırlığını üzərində hiss edən Azərbaycan Respublikası mövcud regional münaqişələrin həll olunmasında yeganə beynəlxalq təşkilat kimi BMT-nin başlıca rolunu təsdiq edirdi.

Azərbaycan münaqişənin ümuməhatəli nizamlanmasına dair BMT, Avropa İttifaqı, ABŞ və Rusiya tərkibli dördlüyün səylərini, həmçinin bu formatda Fələstin problemi üzrə "yol xəritəsi" layihəsinin işlənib-hazırlanmasına yönələn missiyanı müsbət qiymətləndirir, Fələstin və İsrail tərəflərinin həmin sənəd üzrə konsensusa nail olmalarını vacib hesab edirdi. Eyni zamanda Yaxın Şərq regionunda bu problemin geniş miqyaslı müharibəyə çevrilməsinə yol verməmək və müharibə edən tərəflər arasında qarşılıqlı etimad əldə etmək üçün zorakılığın dayandırılması. Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Corc Tenetin hazırladığı planda və ABŞ-m Yaxın Şərq üzrə xüsusi nümayəndəsi Corc Mitçelin məruzəsində əksini tapmış tövsiyələrin əsasında siyasi dialoqun bərpa olunmasını vacib hesab edirdi.

Mitçelin məruzəsində İsrailin təhlükəsizliyinə təminat verilməsi müqabilində İordan çayının Qərb sahilində tikinti işlərinin 60 gün müddətində dayandırılması təklif edilirdi. C.Tenet planı isə Mitçelin tövsiyələrini həyata keçirmək və təhlükəsizlik məsələlərini təmin etmək üçün şərait yaradılmasını nəzərdə tuturdu. Yalnız həmin tələblərin yerinə yetirilməsi və bütün işğal edilmiş Fələstin ərazilərindən İsrail qoşunlarının dərhal çıxarılması ərəb-İsrail münaqişəsinin tam şəkildə həll olunması üçün lazımi zəmin yarada bilərdi.

Azərbaycanın mövqeyinə görə. Səudiyyə Ərəbistanının təqdim etdiyi və bütün ərəb dövlətləri tərəfindən qəbul edilmiş ümumərəb sülh təklifləri Yaxın Şərq probleminin ədalətli nizama salınması üçün zəruri olan şərtləri özündə ehtiva edir və regionun bütün ölkələrinin təhlükəsizliyini, ilk növbədə Fələstin dövlətinin dinc yanaşı yaşamasını təmin edə bilərdi. Münaqişə regionunda baş verən hadisələr beynəlxalq birlik tərəfindən ümumi təhlükəsizliyin qorunmasının təmin edilməsini tələb edirdi. Bu baxımdan Fələstin ərazilərində sülhməramlı qüvvələrin yerləşdirilməsi sabitliyin bərpası istiqamətində mühüm addım ola bilərdi.

Azərbaycan Respublikası 2002-ci il oktyabrın 29-da Fələstin qanunverici şurası tərəfindən təsdiq edilmiş Fələstin rəhbəri Yasir Ərəfa- tm başçılığı ilə yeni nazirlər kabinetinin qurulmasını müdafiə etdi. Azərbaycan dövləti Fələstin ərazisində yaranmış humanitar vəziyyətin ağırlığına da diqqəti cəlb edir, beynəlxalq birlik tərəfindən Fələstin xal

qının məşəqqətlərinin yüngülləşdirilməsi üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini vacib hesab edirdi. Humanitar təşkilatların bu ərazilərdəki fəaliyyətinə lazımi şəraitin yaradılmasının zəruriliyini vurğulaya- raq şəraitin sabitləşməsi üçün Fələstin hakimiyyət institutlarının fəaliyyətinin gücləndirilməsinin mühüm olduğunu qeyd edirdi və danışıqlar prosesinin bərpası üçün konstruktiv zəmin yaradacağına əmin idi. Qeyd etmək lazımdır ki, 1991-2003-cü illərdə Azərbaycan - Fələstin arasında imzalanmış sənədlər və ticarət əlaqələri mövcud deyildi.

## ÖZBƏKİSTAN RESPUBLİKASI İLƏ MÜNASİBƏTLƏRİN YENİ ƏSASLAR ÜZƏRİNDƏ QURULMASI

### İlk addımlar

Dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya aktı qəbul edildikdən sonra Azərbaycanın xarici siyasətində Özbəkistan ilə münasibətlər mühüm yerlərdən birini tutdu. 1991-ci il oktyabrın 19-da Azərbaycan nümayəndə heyəti Özbəkistana səfər etdi. Azərbaycan tərəfinin Özbəkistan ilə münasibətlərə xüsusi diqqət yetirməsi bir sıra amillərlə bağlı idi. Hər şeydən əvvəl, əlverişli coğrafi-siyasi mövqedə yerləşən Özbəkistanın güclü iqtisadi potensialı var idi. Dövlət müstəqilliyinin bərpasına qədər hər iki respublika SSRİ-nin tərkibində vahid siyasi, iqtisadi və idarəçilik sistemi məkanında olmuşdular. Müstəqil dövlətlər olaraq onların əməkdaşlığı qarşılıqlı fayda verərdi. Azərbaycan və Özbəkistan xalqlarını tarixi, etnik və digər köklər birləşdirirdi.

Azərbaycan nümayəndə heyətinin Özbəkistan Prezidenti İslam Kərimov ilə keçirdiyi görüşdə iki ölkə arasında siyasi və iqtisadi əlaqələri inkişaf etdirmək məsələləri müzakirə olundu. Tərəflər həmin əlaqələri dərinləşdirmək əzmində olduqlarını vurğuladdan Səfərin yekununda iki ölkə arasında dövlətlərarası münasibətlərin prinsipləri haqqında müqavilə imzalandı. Müqavilədə tərəflər bir-birilərinin dövlət müstəqilliyini qarşılıqlı surətdə tanımaq və hörmət etmək, hüquq bərabərliyi və daxili işlərinə qarışmamaq, mübahisəli problemləri danışıqlar yolu ilə nizama salmaq, beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş prinsipləri və normaları əsasında inkişaf etdirmək niyyətlərini bəyan edir, dostluq münasibətlərinə və qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsinə tərəfdar çıxırdılar. Onlar bir-birinin ərazi bütövlüyünü tanıyaraq hörmət

edir, suverenliyinə xələl gətirə biləcək hərəkətlərdən çəkinirdilər. Tərəflər xarici siyasət və xarici iqtisadi fəaliyyət sahəsində qarşılıqlı əlaqələrini, hər iki tərəfin sülhü daha da möhkəmləndirmək səylərini nəzərə almaqla kollektiv təhlükəsizlik sisteminin qurulmasını, birgə iqtisadi proqramların həyata keçirilməsini və s. sahələr arasındakı əməkdaşlığın üstün istiqaməti olaraq qəbul edirdilər. Azərbaycan və Özbəkistan müqavilədə nəzərdə tutulan məsələlərin gerçəkləşdirilməsi üçün məsləhətləşmələr edəcəkdilər®^'.

Səfər zamanı 1992-ci il üçün ticarət-iqtisadi əməkdaşlığın prinsipləri haqqında saziş də imzalandı. Bu saziş iki ölkə arasında iqtisadi əməkdaşlığın əsas istiqamətləri, prinsipləri və formalarını müəyyənləşdirirdi. Azərbaycan tərəfi Özbəkistan Respublikası ilə dövlətlərarası münasibətlərin prinsipləri haqqında müqaviləni 1991-ci il dekabrın 16-da təsdiq et- di®-l

Bu səfərdən sonra əlaqələr genişlənərək yeni sahələri əhatə etməyə başladı. Lakin hər iki ölkənin daxilində baş verən proseslər qarşılıqlı münasibətlərə də təsir edirdi. 1993-cü il fevralın 26-da Azərbaycan Respublikası hökuməti ilə Özbəkistan Respublikası hökuməti arasında 1993-cü ildə ticarət-iqtisadi əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikası hökuməti və Milli Bankı ilə Özbəkistan Respublikası hökuməti və Mərkəzi Bankı arasında 1993-cü il üçün texniki kredit haqqında razılığın icrasına dair protokol, 1992-ci il üçün borc iltizamı və tələblərinin tənzimlənməsinin qaydası və müddəti haqqında saziş, Azərbaycan Respublikasının Milli Bankı ilə Özbəkistan Respublikasının Mərkəzi Bankı arasında hesablaşmanın təşkili haqqında saziş, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Özbəkistan Respublikasının Dövlət Gömrük Komitəsi arasında tranzit yüklərinin və vətəndaşların yüklərinin rəsmiləşdirilməsi haqqında protokol, qaçaqmalçılığa və gömrük qaydalarında pozuntulara qarşı əməkdaşlıq haqqında saziş, gömrük sənədləşməsinin və gömrük təchizinin qarşılıqlı tanınması haqqında saziş, narkotik və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı birgə əməkdaşlıq haqqında saziş, qanunsuz gətirilən və aparılan incəsənət əşyalarının saxlanılması və geri qaytarılması sahəsində əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Özbəkistan Respublikasının Mədə-

Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında dövlətlərarası münasibətlərin prinsipləri haqqında müqavilə. - "Xalq qəzeti", Bakı, 1991, 24 oktyabr.
ARXİNA. 1991.

niyyət İşləri Nazirliyi arasında 1993-cü ildə əməkdaşlıq haqqında müqavilə imzalandı.

İmzalanan sənədlər qarşılıqlı münasibətləri yeni keyfiyyət mərhələsinə çıxarmalı idi. Lakin belə olmadı. Azərbaycan rəhbərliyinin Özbəkistanda baş verən daxili ictimai-siyasi proseslərə münasibət bildirməsi, daxili işlərinə qarışması özbək rəsmi dairələri tərəfindən yaxşı qarşılanmadı. İki ölkə arasında münasibətlər soyuqlaşdı, hətta Bakı - Daşkənd hava yolu bağlandı. 1992-1993-cü illərdə iki ölkə arasında münasibətlərdə soyuqluq hökm sürürdü. Belə vəziyyət tərəflərin heç birinin maraqlarına cavab vermirdi.

## Soyuqluq aradan qaldırılır

İki ölkə arasında münasibətlərdə soyuqluğun aradan qaldırılması üçün ilk səylər 1993-cü ilin yay aylarından etibarən edilməyə başladı. Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycan - Özbəkistan münasibətlərinə də təsir etdi. Münasibətləri normallaşdırmaq üçün Azərbaycan tərəfi bəzi addımlar atdı. 1993-1995-ci İllərdə Heydər Əliyev MDB iştirakçısı olan ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşlərində və digər toplantılarında Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov ilə ikitərəfli münasibətlərə dair məsələləri müzakirə etdi. Onlar münasibətlərin normallaşdırılmasmın zəruriliyi qənaətinə gəldilər. Azərbaycan ilə Özbəkistan arasında diplomatik əlaqələr yalnız 1995-ci il oktyabrın
2- də quruldu*^^. Lakin münasibətlərin normallaşması prosesi çətin gedirdi.

Heydər Əliyev və İslam Kərimov 1996-cı il mayın 13-də Gürcüstan, Azərbaycan, Türkmənistan və Özbəkistan dəmiryol xətlərinin birləşdirilməsi ilə bağlı keçirilən mərasim zamanı görüşərək münasibətlərdə mövcud olan soyuqluğu aradan qaldırmaq haqqında ümumi razılığa gəldilər. İlk addım atıldı. 1996-cı il mayın 26-27-də Özbəkistan Prezidenti Azərbaycana rəsmi səfər etdi*^". Bu, müstəqil Özbəkistan Respublikası rəhbərinin Azərbaycana ilk səfəri idi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev səfəri

---

ARXİNA. 2008.
Azərbaycan - Özbəkistcin münasibətləri. Heydər Əliyev və Şərq. 6 cilddə. Türk dünyası. VI kitab, s.196.

Əliyev H.Ə. Azərbaycan və Özbəkistan nümayəndə heyəti arasında ikitərəfli danışıqlar zamanı çıxış. **27** may 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VI kitab, **S.288.**

Ölkə rəhbərləri geniş danışıqlar apardılar. Onlar əsasən münasibətləri möhkəmləndirmək və inkişaf etdirmək üçün böyük potensialın olduğunu, Özbəkistan, Türkmənistan, Azərbaycan və Gürcüstan nəqliyyat kommunikasiyalarından daha səmərəli istifadə edilməsinin vacibliyini vurğuladılar. Prezidentlər keçmişə qayıdış çağırışlarını və SSRİ-nin bərpası cəhdlərini qətiyyətlə rədd etdilər. Bildirdilər ki, dövlətlərin müstəqilliyindən geri çəkilməyəcəklər.

May ayının 27-də Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə də daxil olmaqla, 19 sənəd imzalandı*^*'. Tərəflər gömrük işlərində əməkdaşlıq və qarşılıqlı yardım, ikiqat vergiyə cəlb etməyə yol verilməməsi, gəlirlərdən və əmlakdan vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması, qeyri-ticarət tədiyyələri, sərbəst ticarət, pensiya təminatı, səhiyyə, mədəniyyət və humanitar, hava əlaqəsi və hava nəqliyyatı, turizm, standartlaşdırma, metrologiya və sertifikatlaşdırma, beynəlxalq dəmiryolu əlaqələri, beynəlxalq avtomobil sərnişin və yük daşımaları və s. sahələrdə əməkdaşlığa dair sazişləri imzaladılar.

Sənədlərin imzalanmasının böyük əhəmiyyəti var idi. Bu sənədlər münasibətlərin normativ-hüquqi əsasını yaradır, Azərbaycan - Özbəkistan münasibətlərinə yeni keyfiyyət halı verirdi. 22 maddədən ibarət olan dostluq və əməkdaşlıq haqqında müqavilə əsas sənəd idi və əməkdaşlığın prinsipial və başlıca istiqamətlərini müəyyənləşdirirdi*^'.

İmzalanma mərasimindən sonra keçirilən mətbuat konfransında İslam Kərimov MDB çərçivəsində fövqəldövlət və fövqəlmilli strukturlarının qurulmasının əleyhinə çıxdı*'*. Dövlətlərin müstəqilliyini və suverenliyini möhkəmləndirməyə yönələn bu fikirlər prinsipial əhəmiyyət daşıyırdı.

Bütövlükdə, səfərin tarixi əhəmiyyəti var idi. Hər şeydən əvvəl, əvvəlki illərdə qarşılıqlı münasibətlərdə buraxılmış səhvlərdən imtina edilirdi. Münasibətlərdə yeni perspektivlər açılırdı. Tarixən sıx əlaqələri.

*" Azərbaycan - Özbəkistan: dostluğumuz daim yaşayır və möhkəmlənir. Özbəkistan Prezidenti İslam Kərimovun Azərbaycana səfəri. Bakı, 1996.

Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə. 27 may 1996-cı il. - Müqavilələr toplusu. I cild, s.98-104.

Əliyev H.Ə. Azərbaycan - Özbəkistan sənədlərinin imzalanmasından sonra birgə mətbuat konfransında bəyanat. 27 may 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VI kitab, s. 337.

eyni kökləri olan özbək və Azərbaycan xalqları arasında münasibətlərdə soyuqluq aradan qaldırılırdı. Normallaşma prosesi baş verirdi.

Səfərdən az sonra Daşkənddə səfirlik açıldı. 1996-cı il iyun ayının 20-də Aydın Əzimbəyov Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı səfiri təyin edildi. Bu, münasibətlərdə irəliyə doğru bir addım idi.

Qarşılıqlı münasibətlərdə növbəti addım 1996-cı il oktyabrın 20-21- də Heydər Əliyevin türk dövlət başçılarının fV zirvə görüşündən sonra, oktyabrın 21-22-də Daşkənddə görkəmli dövlət xadimi Əmir Teymurun 660 illik yubiley toplantısında iştirakı oldu*^^. Toplantıda etdiyi nitqində Heydər Əliyev türk xalqları arasında əlaqələrin tarixinə qısa nəzər yetirdi, müstəqillik əldə etdikdən sonra yaranmış vəziyyətdən, kommunikasiya sistemlərinin tikintisinin, Transqafqaz dəhlizindən istifadə etmək haqqında Özbəkistan, Türkmənistan, Azərbaycan və Gürcüstan arasında bağlanmış dördtərəfli sənədlərin ölkələr üçün əhəmiyyətindən danışdı. Azərbaycan Prezidenti Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılacaq neftin ixracı üçün boru kəmərlərinin Mərkəzi Asiya - Xəzər - Azərbaycan - Gürcüstan - Türkiyə - Qara dəniz - Aralıq dənizi marşrutu ilə tikintisini ən məqbul, təhlükəsiz variantlardan biri kimi səciyyələndirirdi*^®. Azərbaycan tərəfi Transqafqaz dəhlizinə regionun digər dövlətlərinin də qoşulmasını istəyirdi**'.

Səfər zamanı iki ölkə rəhbərinin ikitərəfli münasibətləri dərinləşdirmək barədə fikir mübadiləsi aparmaları qarşılıqlı əlaqələrin inkişafında mühüm amil oldu. Münasibətlərə dinamizm vermək zərurəti yaranmışdı.

## Münasibətlərin yeni mərhələsi

İki ölkə arasında münasibətlərə yeni keyfiyyət halı vermək baxımından Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1997-ci il iyunun 18-19-da Özbəkistan Respublikasına rəsmi səfəri mühüm rol

Türk dövlət başçılarının IV zirvə toplantısı (oktyabr, 1996 - Daşkənd) - Heydər Əliyev və Şərq. 6 cilddə. Türk dünyası. VI kitab, s. 393-400.

Əliyev H.Ə. Türkdilli dövlət başçılarının IV forumunda nitq. 21 oktyabr 1996- cı il. - Müstəqilliyimiz əbədidir. VII kitab, s.431-435.

Əliyev H.Ə. Türkdilli dövlətlərin başçılarının birgə mətbuat konfransında jurnalistlərin suallarına cavab. 21 oktyabr 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VII kitab, **S.436.**

oynadı. Səfərdə məqsəd əlaqələrin mövcud vəziyyətini və perspektivlərini müzakirə etmək, müqavilələr imzalamaq idi.

Danışıqlarda iki ölkə arasında iqtisadi və siyasi məsələlər müzakirə edildi. Müzakirə edilən məsələlərə dövlət rəhbərlərinin baxışları eyni idi. Özbəkistan Prezidenti separatizm, terrozim və fundamentalizmi rədd edir, hər bir ölkənin müstəqilliyini və suverenliyini dəstəkləyirdi. O, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Azərbaycanın mövqeyini dəqiq, düzgün və ədalətli, Azərbaycan tərəfinin "Qafqazda iki erməni dövləti ola bilməz" fikrini müdafiə edirdi. Özbəkistan tərəfi Dağlıq Qarabağ münaqişəsinin kənardan gətirildiyi qənaətində idi. Prezidentlər MDB-də dövlətlərin fovqündə duran qurumların yaradılmasının əleyhinə çıxdılar. Ölkələrinin dövlət müstəqilliyi və suverenliyinin möhkəmləndirilməsinin vacibliyini qeyd etdilər. Sovet İttifaqının bərpasına yönəlik cəhdləri qəbul etməyəcəklərini birmənalı olaraq bildirdilər.

Dövlət başçıları Özbəkistan, Türkmənistan, Azərbaycan və Gürcüstanın qurduqları və artıq işləyən Transqafqaz dəhlizinin səmərəliliyinin artırılması məsələlərini müzakirə etdilər. Onlar bu dəhlizin fasiləsiz işləməsinə tərəfdar idilər.

İyunun 18-də Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında hərtərəfli əməkdaşlığın və tərəfdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi haqqında 17 bənddən ibarət bəyannamə*^^, Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında ikitərəfli əməkdaşlıq üzrə birgə hökümətlərarası komissiyanın qurulması haqqında protokol daxil olmaqla, 20 sənəd imzalandı*^^. Bu sənədlər - Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında hüquqi yardım və mülki, ailə və cinayət işləri üzrə hüquqi münasibətlər, məhkumların cəza çəkmək üçün verilməsi haqqında müqavilələr, hökümətlərarası komissiya haqqında əsasnamə, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Özbəkistan Respublikası Ədliyyə Nazirliyi, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Özbəkistan Respublikası Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikası Ticarət-Sənaye Palatası və Özbəkistan Respublikası Ticarət-Sənaye Palatası arasında əməkdaşlıq, hüquqi informasiya müba-

Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında hərtərəfli əməkdaşlığın və tərəfdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi haqqında bəyannamə. - Müqavilələr toplusu. I cild, s.139-142.

Əliyev H.Ə. Azərbaycan - Özbəkistan dövlətlərarası və hökümətlərarası sənədlər imzalandıqdan sonra birgə mətbuat konfransında bəyanat. 18 iyun 1997-ci il. - Müstəqilliyimiz əbədidir. X kitab, s. 170-189.

diləsi, təhsil, idman və gənclərlə iş, ədliyyə nazirlikləri arasında məhkəmə ekspertizası, yüksək ixtisaslı elmi və elmi pedaqoji kadrların attestasiyası, sənaye mülkiyyətinin mühafizəsi, telekommunikasiya və poçt rabitəsi, milli banklar arasında hesablaşmaların təşkili, vergi qanunvericiliyində hüquq pozuntuları ilə mübarizə, qarşılıqlı yardım və informasiya mübadiləsi, müəlliflik hüququ və əlaqəli hüquqların qorunması sahəsində əməkdaşlıq, 1992-94-cü illər üzrə borc öhdəliklərinin və tələbnamələrinin tənzimlənməsi haqqında Azərbaycan Respublikası hökuməti. Milli Bankı və Özbəkistan Respublikası hökuməti. Milli Bankı arasında, vətəndaşların vizasız gediş-gəlişi haqqında sazişlər idi.

İmzalanan sənədlərin əhəmiyyəti var idi. Onlar qarşılıqlı münasibətlərin müqavilə-hüquq bazasını möhkəmləndirir və yeni perspektivlər açırdı.

Səfər zamanı Daşkənddə Azərbaycan Respublikası səfirliyinin binasının açılışı oldu. Azərbaycan Prezidenti azərbaycanlı diasporasınm nümayəndələri ilə görüşərək onları həqiqətləri yaymağa səslədi.

Bu səfərdən sonra ikitərəfli münasibətlərdə dinamizm artdı. 1998-ci il fevralın 26-da hökumətlərarası komissiyanın birinci iclasının yekununda Azərbaycan Respublikası hökuməti və Özbəkistan Respublikası hökuməti arasında malların (işlərin, xidmətlərin) idxalı və ixracı zamanı vasitəli vergilərin tutulması prinsipləri haqqında, iqtisadi və maliyyə pozuntuları ilə mübarizə sahəsində, valyuta, idxal-ixrac nəzarəti sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında sazişlər imzalandı.

Özbəkistan tərəfi də yeni addımlar atdı. 1998-ci ilin may ayında Özbəkistan Respublikasının Azərbaycan Respublikasındakı səfirliyi fəaliyyətə başladı. Özbəkistan Prezidenti TRASEKA proqramı çərçivəsində sentyabrın 7-8-də Bakıda keçirilmiş Tarixi Böyük İpək yolunun bərpasına həsr edilmiş beynəlxalq konfransda iştirak etdi. Azərbaycan ilə Özbəkistan arasında nəqliyyat sahəsində əməkdaşlıq quruldu.

Azərbaycan və Özbəkistan prezidentlərinin 1998-ci il iyunun 9-10- da Astanada keçirilmiş türk dövlət başçılarının V zirvə toplantısında, oktyabrın 29-da Türkiyə Respublikasının 75 illiyi münasibəti ilə Ankarada keçirilmiş bayram mərasimlərində görüşüb ikitərəfli, regional və beynəlxalq məsələlərdə əməkdaşlığın inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparmaları əhəmiyyətli oldu.

İki ölkə arasında təhlükəsizlik sahəsində də əməkdaşlıq quruldu. Özbəkistanın milli təhlükəsizlik xidmətinin sədri Rustam İnoyatov 1999- cu il martın 26-da Bakıya səfər edərək Azərbaycan Respublikasının milli

təhlükəsizlik naziri Namiq Abbasov ilə mütəşəkkil cinayətkarlığa və terrorçuluğa qarşı birgə mübarizə haqqında məsələləri müzakirə etdi. Danışıqların nəticəsində Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi ilə Özbəkistan Respublikasının Milli Təhlükəsizlik Xidməti arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında saziş imzalandı. Sənəd iki ölkənin mütəşəkkil cinayətkarlığa və terrorçuluğa qarşı mübarizədə əməkdaşlığını tənzimləmək baxımından əhəmiyyətli idi.

Münasibətlərdə növbəti addım 1999-cu il aprelin 24-də atıldı. Həmin tarixdə Vaşinqtonda keçirilən NATO-nun 50 illik yubiley tədbirləri zamanı Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova və Özbəkistanın dövlət başçıları Özbəkistanın ABŞ-dakı səfirliyində birgə bəyanat imzaladılar. Bəyanatda Özbəkistanın GUAM-a qoşulması yüksək qiymətləndirilir, beynəlxalq təşkilatlar və forumlar çərçivəsində hərtərəfli əməkdaşlığın inkişaf etdirilməsi, münaqişə və böhranların suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı əsasında sülh yolu ilə həll edilməsində qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi, separatçılığa, dini ekstremizmə və terrorçuluğa qarşı mübarizədə birgə səylərin edilməsi və Avropa - Qafqaz - Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsində qarşılıqlı səmərəli əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulanırdı.

Sənəd çoxtərəfli və ikitərəfli əsasda Azərbaycan - Özbəkistan münasibətlərinin inkişafına təkan verirdi. Bir müddət sonra, 1999-cu il iyulun 23-də Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi ilə Özbəkistan Respublikası Makroiqtisadiyyat və Statistika Nazirliyi arasında statistika sahəsində, Azərbaycan Respublikası hökuməti ilə Özbəkistan Respublikası hökuməti arasında geodeziya, kartoqrafiya, kadastr və yerin məsafədən zondla tədqiq edilməsi sahəsində əməkdaşlıq, səfirliklərin fəaliyyətinin tənzimlənməsi, qaz sahəsinin inkişaf etdirilməsində əməkdaşlıq haqqında sazişlər, birgə komissiyanın ikinci iclasının yekunları haqqında protokol, iyulun 25-də isə Azərbaycan Respublikası hökuməti ilə Özbəkistan Respublikası hökuməti arasında birgə hökumətlərarası komissiyanın üçüncü iclasının yekunları haqqında protokol imzalandı. Bütün bunlar ikitərəfli əməkdaşlıqda mühüm addımlar idi.

İki ölkə arasında siyasi, iqtisadi və mədəni əlaqələrin inkişaf perspektivləri 2000-ci il iyunun 10-da Tehranda İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət başçılarının zirvə toplantısı çərçivəsində Azərbaycan və Özbəkistan prezidentlərinin görüşündə müzakirə edildi. Tərəflər BMT, İKT, İƏT və digər beynəlxalq təşkilatlarda birgə fəaliyyət göstərmək haqqında razılığa gəldilər.

Azərbaycan və Özbəkistan prezidentləri MDB iştirakçısı olan ölkələrin dövlət başçılarının iyunun 20-21-də Moskvada keçirilən toplantısı zamanı görüşərək ikitərəfli münasibətləri genişləndirmək məsələlərini müzakirə etdilər. Onlar beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın əhəmiyyətini qeyd etdilər*^". Görüşdə parlamentlər arasında əlaqələrin genişləndirilməsinə ehtiyac olduğu vurğulandı. Həmin il dekabrın 5-də Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan - Özbəkistan parlamentlərarası dostluq qrupu təşkil edildi. Qrupun yaradılması qanunverici orqanlar arasında əməkdaşlığa təsir edən addım oldu.

Digər sahələrdə də əlaqələr genişləndirildi. 2001-ci il aprelin 17-18- də Daşkənddə iki ölkə arasında birgə əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın dördüncü iclası keçirildi. Azərbaycan Respublikası baş nazirinin birinci müavini Abbas Abbasovun iştirak etdiyi iclasda iki ölkə arasında iqtisadi əlaqələrin inkişaf perspektivləri müzakirə edildi. Müzakirələrin yekununda, aprelin 18-də Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında 2001-2006-cı illərdə elm, mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq proqramı, 2001-2010-cu illər üzrə iqtisadi əməkdaşlıq haqqında saziş imzalandı. Bu sənədlər iki ölkə arasında münasibətlərin inkişafında əhəmiyyətli rol oynayırdı.

Çoxtərəfli formatda da əlaqələr artdı. 2001-ci il mayın 3-4-də Bakıda GUÖAM ölkələri arasında iqtisadi əməkdaşlığın genişləndirilməsində ticarət-sənaye palatalarının roluna həsr olunmuş toplantıda GUÖAM ölkələrinin ticarət-sənaye palatalarının rəhbərləri, o cümlədən Özbəkistanın İstehsalçılar və Sahibkarlar Palatasının prezidenti M.Sabirov iştirak etdi.

GUÖAM-a üzv olan ölkələrin dövlət başçılarının iyunun 6-7-də Yaltada keçirilmiş zirvə toplantısı çərçivəsində Heydər Əliyev və İslam Kərimov görüşərək ikitərəfli münasibətlər, TRASEKA proqramı çərçivəsində əməkdaşlıq, regional neft və qaz layihələrinin həyata keçirilməsi, regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi apardı. Dövlət başçıları iyunun 7-də GUÖAM-ın Yalta xartiyasını imzaladılar. Həmin gün Gürcüstan, Ukrayna, Özbəkistan, Azərbaycan və Moldova xarici işlər nazirləri tərəfindən "GUÖAM-a üzv olan dövlətlər arasında konsulluq məsələlərində qarşılıqlı yardım haqqında konvensiya" imzalandı.

---

Azərbaycan - Özbəkistan münasibətləri. Heydər Əliyev və Şərq. 6 cilddə. Türk dünyası. VI kitab, s. 199.

Azərbaycan və Özbəkistanın MDB-nin inkişaf perspektivlərinə baxışları eyni idi. Onların fikrincə, MDB keçmiş SSRİ-ni bərpa etmək üçün cəhdlər edən bir quruma çevrilməməli və dövlətlərin suverenliyinin fbvqündə duran təşkilat olmamalı idi.

Özbəkistan tərəfi Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini müdafiə edirdi. Qeyd etmək lazımdır ki, 1996-2000-ci və 2002-ci illərdə "BMT ilə ATƏT arasında əməkdaşlıq" haqqında qətnamə layihəsində Azərbaycanın Dağlıq Qarabağ regionunun Azərbaycan Respublikasına mənsubluğunu təsdiqləyən düzəliş Özbəkistan tərəfindən dəstəkləndi. 2001-ci ildə isə Özbəkistan tərəfi səsvermədə iştirak etməmişdi. Lakin az sonra, 2001-ci il noyabnn 1-də xarici işlər naziri Əbdüləziz Kamilov xarici işlər naziri Vilayət Quliyevə məktub göndərərək ölkəsinin münaqişənin BMT və ATƏT səyləri ilə həllini dəstəklədiyini və Azərbaycanın mövqeyini müdafiə etdiyini bildirdi*^^. Özbəkistan tərəfinin Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həllində tutduğu mövqe ədalətli, obyektiv olub, beynəlxalq hüquq normalarına əsaslanırdı. Bu isə qarşılıqlı münasibətlərin inkişafına təsir edirdi.

2002- ci il iyulun 19-da Bakıda iki ölkə arasında ikitərəfli əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın beşinci iclası keçirilən gün Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Özbəkistan Respublikasının Nazirlər Kabineti yanında Hidrometeorologiya Baş İdarəsi arasında elmi-texniki əməkdaşlıq, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Özbəkistan Respublikasının Dövlət Baytarlıq Təşkilatı arasında baytarlıq sahəsində əməkdaşlıq, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Özbəkistan Respublikasının Kənd və Su Təsərrüfatı Nazirliyi arasında əməkdaşlıq haqqında sazişlər imzalandı.

Azərbaycan ilə Özbəkistan arasında ikitərəfli əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 2003-cü il iyunun 12-14-də Daşkənddə keçirilən altıncı iclasının yekununda Azərbaycan Respublikası hökuməti və Özbəkistan Respublikası hökuməti arasında mətbuat və kitab məhsullarının mübadiləsi və yayılması sahəsində əməkdaşlıq haqqında saziş, bitkilərin karantini sahəsində əməkdaşlıq haqqında saziş, sərbəst ticarət haqqında imzalanmış sazişə dəyişiklik və əlavələrin edilməsi haqqında protokol, mülki aviasiya sahəsində texniki əməkdaşlıq haqqında memorandum imzalandı. Bu sənədlər iki ölkə arasında münasibətlərin müqavilə-hüquq

ARXINA. 2001. Qovluq X26, v.l5.

bazasını möhkəmləndirirdi. Qeyd etmək lazımdır ki, Azərbaycan və Özbəkistan arasında ticarət əlaqələrində enib-qalxmalar müşahidə edilirdi. Belə ki, əgər 2001-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 9,18 mln. dollar idisə, bu rəqəm 2002 və 2003-cü illərdə də 5,2 mln. dollar oldu. Bundan fərqli olaraq dəmiryolu ilə daşımaların həcmi artdı. 2002-ci ildə dəhlizdən dəmiryolu ilə daşman tranzit yüklərin həcmi 16586,97 ton,
2003- cü ildə isə 19141, 91 ton təşkil edirdi.

Azərbaycan və Özbəkistan arasında birbaşa geniş mədəni əlaqələr də quruldu. Bu ölkədə Azərbaycan diasporası mövcuddur. Daşkənd məktəblərinin birində Azərbaycan dili tədris edilirdi.

Ümumiyyətlə, 1991-2003-cü illərdə Azərbaycan - Özbəkistan münasibətləri təzadlı inkişaf yolu keçmişdir. 1991-ci ildə SSRİ dağıldıqdan sonra qurulmağa başlayan müstəqil münasibətlər 1992-1993-cü illərdə soyuq olmuşdur. Soyuqlaşmaya səbəb Azərbaycan hakimiyyətinin Özbəkistana münasibətdə atdığı, ehtiyatsız addımlar olmuşdur. Münasibətlərdə soyuqluqdan normallaşmağa doğru dönüş 1993-cü ildən etibarən baş vermişdir. Dövlət başçılarının səfərləri zamanı qarşılıqlı münasibətlərin müqavilə-hüquq bazası yaradılmış və maddi təməlləri möhkəmləndirilmişdir. Müxtəlif sahələr üzrə əməkdaşlıq qurulmuş və inkişaf etdirilmişdir. Azərbaycan və Özbəkistan çoxtərəfli əsasda da əməkdaşlıq etmiş. Transxəzər nəqliyyat dəhlizi. Böyük İpək yolu layihələrinin reallaşdırılması sahəsində birgə fəaliyyət göstərmişlər. Özbəkistan Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini müdafiə etmişdir.

## QIRĞIZISTAN RESPUBLİKASI İLƏ MÜNASİBƏTLƏR

### İlk təmaslar

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycanın birbaşa əlaqələr qurduğu ölkələrdən biri Qırğızıstan Respublikası oldu. Azərbaycan Respublikası ilə Qırğızıstan Respublikası arasında diplomatik əlaqələr
1993- cü il yanvarın 19-da quruldu Qarşılıqlı münasibətlərdə ilk addımlar atılmağa başlandı. 1993-cü ilin fevral ayında Azərbaycan nümayəndə heyətinin Bişkekə səfəri zamanı iki ölkə arasında münasibətlərin genişlən-

' ARXINA. 2008.

dirilməsi məsələləri müzakirə edildi. Danışıqların yekununda, fevralın 25- də Bişkekdə Azərbaycan Respublikası hökuməti və Qırğızıstan Respublikası hökuməti arasında elektrik və poçt əlaqəsi, 1992-ci il üçün borc öhdəlikləri və tələblərinin nizamlanmasının qaydası və müddəti, təhsil, səhiyyə, mədəniyyət, turizm, alpinizm və mehmanxana sənayesi, nəqliyyat, birgə müəssisələrin (səhmdar cəmiyyətlərin) qurulması qaydaları,
1993- cü il üçün ticarət-iqtisadi əməkdaşlıq, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Qırğızıstan Respublikası hökuməti yanında Dövlət Gömrük Müfəttişliyi arasında gömrük sənədləri və gömrük təminatlarının qarşılıqlı tanınması, gömrük orqanlarının qarşılıqlı əlaqəsi və tranzit yüklərin gömrük qeydiyyatı qaydaları, gömrük işi məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım, qaçaqmalçılıq və gömrük qaydalarının pozuntuları ilə mübarizədə əməkdaşlıq haqqında sazişlər, Azərbaycan Respublikası hökuməti və Milli Bankı ilə Qırğızıstan Respublikası hökuməti və Milli Bankı arasında 1993-cü ildə texniki kreditə dair əldə olunmuş razılaşmaların həyata keçirilməsi haqqında protokol imzalandı. Bu sənədlər qarşılıqlı münasibətlərdə ilk addımlar kimi əhəmiyyətli idi.

Münasibətlərin inkişafı üçün digər tədbirlər də görüldü. Heydər Əliyev və Qırğızıstan Prezidenti Əsgər Akayev 1993-cü il dekabrın 23-də Tükmənistanın paytaxtı Aşqabatda keçirilən MDB iştirakçısı olan ölkələrin dövlət başçılarının zirvə toplantısı çərçivəsində görüşərək ikitərəfli münasibətləri möhkəmləndirməyə dair müzakirə apardılar. Onlar dövlətlərin sərhədlərinin toxunulmazlığının vacibliyini bildirdilər.

Azərbaycan və Qırğızıstan prezidentləri 1995-ci il avqustun 28-29- da Bişkekdə türk dövlət baçılarmm III zirvə görüşü zamanı görüşərək əməkdaşlıq məsələlərini müzakirə etdilər*^’. Toplantıda çıxış edən Heydər Əliyev Azərbaycanda həyata keçirilən islahatlardan. Xəzərin enerji ehtiyatlarının istifadəsi üçün atılan addımlardan, Ermənistanın təcavüzünün nəticələri və onların aradan qaldırılması üçün birgə səylərin edilməsinin əhəmiyyətindən danışdı*^*.

Zirvə görüşünün yekununda imzalanan Bişkek bəyannaməsi ölkələr arasında iqtisadiyyat, elm, mədəniyyət, texnika və digər sahələrdəki

Türk dövlət başçılarının III zirvə toplantısı (avqust, 1995-Bişkek). - Heydər Əliyev və Şərq. 6 cilddə. Türk dünyası. VI kitab, s. 384-392.

Əliyev H.Ə. Türkdilli dövlət başçılarının 3-cü zirvə toplantısında çıxış. 28 avqust 1995-ci il. - Müstəqilliyimiz əbədidir. III kitab, s. 224-229.

əlaqələrin inkişaf etdirilməsinə yönəlmişdi*^^. Mərasimdən sonra keçirilən "Manas" dastanının 1000 illiyinə həsr olunmuş toplantıda çıxış edən Heydər Əliyev qırğız və Azərbaycan xalqları arasında köklərin eyniliyini, iki ölkə arasında mədəniyyət və iqtisadiyyat sahələrində əlaqələrin genişləndirilməsi zəruriliyini vurğuladı*'*®.

Keçirilən ikitərəfli müzakirələr digər sahələrdə də əməkdaşlığın inkişafına təsir edirdi. Belə ki, 1996-cı il noyabrın 11-də Bakıda Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Qırğızıstan Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında protokol imzalandı. Protokolda nazirliklər arasında siyasi məsləhətləşmələrin keçirilməsi nəzərdə tutulurdu.

İki ölkə arasında əməkdaşlıqda parlamentlər də yaxından iştirak edirdilər. 1997-ci il martın 3-də Qırğız Xalq Nümayəndələri Məclisinin sədri Almambet Matubraimovun rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri çərçivəsində iki ölkə arasında münasibətlərin geniş tərəfləri müzakirə edildi. Səfərin yekununda parlamentlərarası əlaqələrə dair saziş imzalandı. Sazişdə qanunverici orqanlar arasında əməkdaşlığın formalarını tətbiq etmək və səmərəliliyini artırmaq nəzərdə tutulmuşdu. Qırğızıstan Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həllinə, Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının qorunmasına tərəfdar idi, zor gücü ilə ərazi işğalının əleyhinə çıxırdı. Bütün bunlar iki ölkə arasında münasibətlərdə yeni imkanlar açırdı.

## Münasibətlərdə yeni səhifə

Qırğızıstan Prezidenti Əsgər Akayevin 1997-ci il aprelin 23-də Azərbaycana rəsmi səfəri iki ölkə arasında münasibətlərdə mühüm yer tutdu. Bu, Qırğızıstan Prezidentinin Azərbaycana ilk səfəri idi. Danışıqlar zamanı Azərbaycan Prezidenti qırğız və Azərbaycan xalqları arasında münasibətlərin tarixinə qısa nəzər yetirdi, dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycanın suveren dövlət kimi formalaşması üçün həyata keçirilən tədbirləri qeyd etdi. Dağlıq Qarabağ münaqişəsinin həlli istiqa-

---

Azərbaycan - Qırğızıstan münasibətləri. Heydər Əliyev və Şərq. 6 cilddə. Türk dünyası. VI kitab, s. 336.

Əliyev H.Ə. "Manas" dastanının 1000 illiyinə həsr olunmuş təntənəli yığıncaqda çıxış. 28 avqust 1995-ci il. - Müstəqilliyimiz əbədidir. III kitab, s.231-233.

mətində edilən səylərdən danışdı. Danışıqlarda qarşılıqlı maraq kəsb edən ikitərəfli, regional və beynəlxalq məsələlər müzakirə olundu. Azərbaycan ilə münasibətləri inkişaf etdirmək üçün bütün mümkün vasitələrdən istifadə edəcəyini bildirən Qırğızıstan tərəfi böyük layihələrə maraq göstərir, inteqrasiya proseslərində yaxından iştirak etmək istəyirdi. Buna görə də Transqafqaz magistralı haqqında dördtərəfli sazişin imzalanmasını böyük iqtisadi və sosial hadisə adlandıraraq, Qırğızıstan bu dəhlizə qoşuldu^'". Ölkə başçıları dövlət müstəqilliklərinin möhkəmləndirəcəklərini, keçmişə qayıdışa və SSRİ-nin bərpasına razı olmayacaqlarını, dövlətlərin fövqündə duran qurumların qurulmasını arzulamadıqlarını bildirdilər.

Danışıqların yekununda, aprelin 23-də 14 sənəd - Azərbaycan və Qırğızıstan arasında dostluq və əməkdaşlıq haqqında müqavilə, iki ölkə hökuməti arasında əməkdaşlıq, iki ölkə hökumətləri arasında sərmayələrin qarşılıqlı surətdə təşviqi və qorunması, sənaye mülkiyyətinin qorunması, istehsal kooperasiyası, hüquqa dair informasiya mübadiləsi, elmi-pedaqoji kadrların attestasiyası, pensiya təminatı, zəhmətkeş mühacirlərin əmək fəaliyyəti və sosial müdafiəsi, ticarət-iqtisadi əməkdaşlıq, turizm, məhkəmə ekspertiziyası təminatı sahələrində əməkdaşlıq haqqında sazişlər imzalandı.

İmzalanan sənədlər, xüsusən 26 maddədən ibarət olan Azərbaycan Respublikası və Qırğızıstan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə əhəmiyyət daşıyırdı***^. Qarşılıqlı münasibətlərin prinsipial əsaslarının təsbit edildiyi müqavilədə iki ölkə arasında dostluq və qardaşlığın əbədiliyi bildirilirdi. Digər sənədlər də müxtəlif sahələrdə əməkdaşlığın həyata keçirilməsi üçün müstəsna əhəmiyyət daşıyır, münasibətlərin müqavilə-hüquq bazasını təşkil edirdi.

Böyük tarixi əhəmiyyət daşıyan bu səfər iki ölkə arasında əlaqələri daha da möhkəmləndirməyin və inkişaf etdirməyin bünövrəsini qoyurdu. Bununla da münasibətlər möhkəm zəminə və yaxşı perspektivə malik olurdu^^. Münasibətlərin inkişafı üçün imkanlar açılırdı.

Əliyev H.Ə. Qırğızıstan Prezidenti Əsgər Akayevin Azərbaycana rəsmi səfəri zamanı yüksək səviyyəli Azərbaycan - Qırğızıstan danışıqlarında çıxış. 23 aprel 1997-ci il. - Müstəqilliyimiz əbədidir. IX kitab, s.195-197.

Azərbaycan Respublikası ilə Qırğızıstan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə. 24 aprel 1997-ci il. - Müqavilələr toplusu. I cild, s.120-130.

Əliyev H.Ə. Azərbaycan - Qırğızıstan ikitərəfli sənədlərinin imzalanması mərasimindən sonra birgə mətbuat konfransında bəyanat. 23 aprel 1997-ci il. - Müstəqilliyimiz əbədidir. IX kitab, s.202.

Qarşılıqlı münasibətlərin inkişafı üçün yeni addımlar atıldı. 1998-ci ilin yanvar ayında iki ölkə arasında səfirlik və konsulluq səviyyəsində münasibətlər quruldu. Qırğızıstanın fövqəladə və səlahiyyətli səfiri Axmet- bek Napayev həmin il yanvar ayının sonlarında etimadnaməsini Azərbaycan Respublikasının Prezidentinə təqdim etdi*'*". Keçirilən qısa söhbət zamanı Azərbaycan və qırğız xalqları arasında əlaqələrin tarixinə qısa nəzər yetirildi və ikitərəfli münasibətlərin inkişaf etdirilməsinin əhəmiyyəti vurğulandı.

Səfirliyin açılmasından sonra iki ölkə arasında münasibətlər daha da intensivləşdi. 1998-ci il sentyabrın 7-8-də Bakıda keçirilmiş TRASEKA proqramı çərçivəsində Tarixi İpək yolunun bərpası üzrə beynəlxalq konfransın işində iştirak edən Qırğızıstan Prezidentinin müvafiq sənədi imzalaması ilə, ölkəsi həmin layihəyə qoşularaq yüklərini Avropa bazarına çıxarmaqda tranzit kimi Azərbaycan ərazisindən istifadə etməyə başladı.

Azərbaycan ilə Qırğızıstan arasında təhlükəsizlik sahəsində də əməkdaşlıq quruldu. 1999-cu il martın 26-27-də Bakıda keçirilmiş türk dövlətləri xüsusi xidmət orqanları rəhbərlərinin ikinci konfransında iştirak edən Qırğızıstanın milli təhlükəsizlik naziri, general-mayor M.Aşırkulov martın 26-da iki ölkənin milli təhlükəsizlik nazirlikləri arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında sazişi imzaladı.

2000- ci il qarşılıqlı münasibətlərdə inkişaf meyilləri ilə yadda qaldı. Belə ki, yanvarın 25-də Moskvada keçirilən MDB iştirakçısı olan ölkələrin dövlət başçıları şurasının iclasında Azərbaycan və Qırğızıstan prezidentləri görüşərək ikitərəfli münasibətlərə dair fikir mübadiləsi etdilər.

Türk dövlət başçılarının həmin ilin aprelin 8-9-da Bakıda keçirilən VI zirvə toplantısmdakı çıxışında Qırğızıstan Prezidenti türk dövlət başçılarının görüşlərinin, ölkələr arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın daha da dərinləşdirilməsinin, beynəlxalq terrorizm, ekstremizm və mütəşəkkil cinayətkarlığa qarşı birgə mübarizənin, ATƏT - İKT dialoqunun qurulmasının. Böyük İpək yolu diplomatiyasının əhəmiyyətini qeyd etdi. Toplantıdan sonra keçirilən “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyi mərasimində çıxış edən Qırğızıstan rəhbəri Azərbaycan ədəbiyyatının tarixini, “Kitabi-Dədə Qorqud” dastanı və “Manas” eposunun bən-

Azərbaycan Prezidenti Heydər Əliyev xarici ölkələrin respublikamıza yeni təyin olunmuş səfirlərinin etimadnamələrini qəbul etmişdir. — “Azərbaycan” qəzeti, Bakı, 1998,28 yanvar.

zərliyini, türk dövlətlərinin mədəni və humanitar sahələrdə əməkdaşlığının əhəmiyyətini vurğuladı. Aparılan müqayisə iki xalq arasında dərin tarixi, mədəni və etnik birliyin olduğunu konkret faktlarla bir daha göstərirdi.

Münasibətlərin maddi təməllərini möhkəmləndirməyə dair fikir mübadiləsi İqtisadi Əməkdaşlıq Təşkilatının iyunun 10-da Tehranda keçirilmiş VI zirvə toplantısı çərçivəsində Azərbaycan və Qırğızıstan prezidentlərinin görüşündə də edildi. Həmin il noyabrın 14-15-də Bakıda Azərbaycan, Bolqarıstan, Gürcüstan, Moldova, Qazaxıstan, Qırğızıstan, Rumıniya, Tacikistan, Türkiyə, Özbəkistan, Ukrayna və Ermənistanın TRASEKA komissiyası üzrə milli katibləri və dəmiryolu idarələrinin səlahiyyətli nümayəndələrinin iştirakı ilə TRASEKA proqramı çərçivəsində hökumətlərarası komissiyanın işçi qruplarının iclası keçirildi. İclasın yekunu təkcə çoxtərəfli deyil, eyni zamanda ikitərəfli Azərbaycan - Qırğızıstan əməkdaşlığı üçün də əhəmiyyətli idi.

Azərbaycan - Qırğızıstan münasibətlərində dinamizm 2001-ci ildə də saxlanıldı. Aprelin 26-27-də İstanbulda keçirilən türk dövlət başçılarının zirvə toplantısında Azərbaycan və Qırğızıstan prezidentləri görüşərək ikitərəfli əlaqələri inkişaf etdirməyin əhəmiyyətini qeyd etdilər. Tərəflər hərbi sahədə, dəmiryolu, təbii və texnogen xarakterli fövqəladə hallar, TRASEKA proqramı çərçivəsində əməkdaşlığı genişləndirdilər.

2002- ci ildə qarşılıqlı münasibətlərdə müəyyən irəliləyişlər oldu və faydalı addımlar atıldı. Aprelin 1-də Z.Hüseynov Qırğızıstan Respublikasının Azərbaycandakı fəxri konsulu təyin edildi.

İki ölkə arasında siyasi münasibətlərdə demək olar, problem mövcud deyildi. 1996-1998, 2000 və 2002-ci illərdə "BMT ilə ATƏT arasında əməkdaşlıq" haqqında qətnamə layihəsində Azərbaycanın Dağlıq Qarabağ regionunun Azərbaycan Respublikasına mənsubluğunu təsdiqləyən düzəliş Qırğızıstan tərəfindən dəstəkləndi. Lakin 1999 və 2001-ci illərdə Qırğızıstan tərəfi səsvermədə iştirak etmədi.

İki ölkə arasında ticarət dövriyyəsi 2001-ci ildə 1,7, 2002-ci ildə 1,8, 2003-cü ildə 1 milyon dollar təşkil etmişdi.

Araşdırma göstərir ki, 1991-2003-cü illərdə Azərbaycan - Qırğızıstan münasibətləri ikitərəfli və çoxtərəfli əsasda inkişaf edərək möhkəmlənmiş, tərəflərə qarşılıqlı fayda vermiş, müqavilə-hüquq bazası yaradılmışdır. Münasibətlərdə problemlər yaranmamışdır. Əməkdaşlığın böyük perspektivləri olmuşdur.

Azərbaycan Respublikası Asiya və Afrika qitələrinin Tacikistan, Hindistan, Malayziya, Tayland, Monqolustan, Əfqanıstan, Koreya Respublikası, Sinqapur, Myanma, Vyetnam, Qətər, İordaniya, Yəmən, Oman, Bəhreyn, Mərakeş, Sudan, Liviya, Nigeriya, Tunis, Əlcəzair və b. ilə də münasibətlər yaratmışdır.

Ümumiyyətlə, araşdırılan illərdə Azərbaycan Respublikası Asiya və Afrika ölkələri ilə əlaqələr qurmuş, ikitərəfli və çoxtərəfli əməkdaşlıq inkişaf etdirilmişdir. Azərbaycan bu qitələrin bəzi ölkələrində səfirliklərini açmışdır. Asiya və Afrika ölkələri Azərbaycanın dövlət müstəqilliyini və ərazi bütövlüyünü müdafiə etmişlər. İkitərəfli əməkdaşlıq qarşılıqlı faydaya əsaslanmışdır. Azərbaycan həmin ölkələrlə beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlıq etmişdir. Azərbaycanın Asiya və Afrika ölkələri ilə əməkdaşlığının böyük perspektivləri vardır.

## IX FƏSIL

# AZƏRBAYCAN RESPUBLİKASI BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIQ SİSTEMİNDƏ

Soyuq müharibənin başa çatması qlobal təhlükəsizliyə olan baxışı da dəyişdirdi. Dünyada baş verən proseslər dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasından da yan keçmədi. Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindən biri beynəlxalq təşkilatlara üzv olmaq, təhlükəsizlik və əməkdaşlıq sistemində iştirak etmək oldu. Beynəlxalq təşkilatların fəaliyyətində iştirakın başlıca məqsədi Azərbaycanın dövlət müstəqilliyini tanıtmaq, möhkəmləndirmək, beynəlxalq təminatlara və Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış və regional təhlükəsizliyə təhdid olan Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə həllinə nail olmaq idi.

Dünyada artıq beynəlxalq təşkilatlar sistemi formalaşmışdır. “Beynəlxalq təşkilat” termini - aralarında müəyyən fərqlər olmasına baxmayaraq, bir qayda olaraq dövlətlərarası və hökumətlərarası təşkilatlara aid edilir.

Azərbaycan Respublikasının beynəlxalq təşkilatların fəaliyyətində iştirakı bir sıra amillərlə şərtlənmişdi. Hər şeydən əvvəl, bu təşkilatlar beynəlxalq təhlükəsizlik və əməkdaşlıq sistemində həm ikitərəfli, həm də çoxtərəfli diplomatiyada mühüm rol oynayırlar. Üzv dövlətlərin bir çoxu beynəlxalq təşkilatların vasitəsi ilə ikitərəfli və çoxtərəfli əlaqələr qururlar. Dünyada baş verən münaqişələrin həlli üçün müəyyən mexanizmi olan beynəlxalq təşkilatlar adətən mübahisəli şəraitin münaqişəyə çevrilməsinə imkan vermirlər. Əgər mübahisəli şərait konkret mübahisəyə çevrilərsə, münaqişə yaranarsa, onda beynəlxalq təşkilatlar dinc nizamasalmanın müvafiq mexanizmlərindən istifadə edirlər. Beynəlxalq təşkilatlar üzv dövlətlərin suverenliyinin və müstəqilliyinin qorunmasında, digər ölkələrlə ticarət-iqtisadi, elmi-texniki, mədəni və humanitar əlaqələrinin qurulmasında müəyyən rola malikdirlər və s.

Dövlət müstəqilliyi bərpa edildikdən sonra xarici siyasət sahəsində Azərbaycanın ilk addımlarından biri beynəlxalq sənədlərə qoşulmaq oldu. Azərbaycan Respublikası Milli Məclisinin qərarları ilə Azərbaycan 

Respublikası 1992-ci il iyulun 12-də Birləşmiş Millətlər Təşkilatının imtiyazları və diplomatik hüquqları haqqında 1946-cı il 13 fevral tarixli konvensiyasma*'*^ Diplomatik əlaqələr haqqında 1961-ci il 18 aprel tarixli Vyana konvensiyasına^"^ konsulluq əlaqələri haqqında 1963-cü il 24 aprel tarixli Vyana konvensiyasına^’, İqtisadi, sosial və mədəni hüquqlar haqqında 1966-cı il dekabrın 19-daNyu York şəhərində imzalanmış beynəlxalq pakta^*. Vətəndaşlıq hüquqları və siyasi hüquqlar haqqında 1966-cı il dekabrın 19-da Nyu York şəhərində imzalanmış beynəlxalq pakta^"®, BMT-nin Uşaq hüquqlarına dair konvensiyasına*^", 1993-cü il aprelin 21- də Silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi haqqında 1954- cü il mayın 14-də Haaqada imzalanmış konvensiyaya və protokola və s. qoşuldu*^'. Həmin sənədlərə qoşulmaq Azərbaycan dövlətinin beynəlxalq fəaliyyəti üçün yeni imkanlar açırdı.

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI İLƏ ƏMƏKDAŞLIQ

### Azərbaycan Respublikasıun BMT-yə üzv olması və əməkdaşlığın ilk addımları

Beynəlxalq təhlükəsizlik və əməkdaşlıq sahəsində Azərbaycanın əməkdaşlıq etdiyi qurumlardan biri 1945-ci ildə yaradılmış, prinsipləri beynəlxalq sülhü və təhlükəsizliyi qorumaqdan ibarət olan universal tipli Birləşmiş Millətlər Təşkilatı oldu. Soyuq müharibə başa çatdıqdan sonra yaranmış yeni şəraitdə BMT bir sıra problemlərlə üzləşmişdi. Başlıca problem qavrayış problemi idi. Dünya ictimaiyyətinin böyük bir qismi BMT dedikdə, adətən mavi dəbilqəliləri, sülhüqoruma əməliyyatlarım başa düşürdü. Belə baxış yanlış idi. Çünki BMT-nin fəaliyyətinin yalnız 20%-i sülhüqoruma əməliyyatları, 80%-i isə texniki yardım və b. məsələlərlə bağlı idi. İkinci problem sülhüqoruma əməliyyatlanna kompleks

ARXINA. 1992.
ARXİNA. 1992.
ARXİNA. 1992.
ARXİNA. 1992.
ARXİNA. 1992.
ARXİNA. 1992.
ARXİNA. 1993.

deyil, ayrı-ayrılıqda baxılmaqla əlaqədar idi. İnsanlar BMT-nin fəaliyyətinə aldıqları bir neçə dəqiqəlik informasiya əsasında qiymət verirdilər. Əslində çox mürəkkəb olan bu məsələnin görünməyən çoxlu tərəfləri var idi. Üçüncü problem donor yorğunluğu idi. Soyuq müharibə başa çatdıqdan sonra donor ölkələrin bir qismi beynəlxalq məsələlərlə az maraqlanır, dünyanın müxtəlif regionlarında sülhü təmin etmək üçün maliyyə, hərbi və maddi ehtiyatlar ayırmağa laqeyd yanaşırdılar. Dördüncü problem maliyyə məsələsi idi. Bəzi ölkələr hətta BMT-yə üzvlük haqlarını ödəməkdə çətinlik çəkirdilər. Beşinci problem ideoloji və inam böhranı idi. Bir çoxları soyuq müharibə başa çatdıqdan sonra dünyada yaranmağa başlayan yeni sistemin funksiya qaydalarını hələ yaxşı başa düşmürdülər.

Azərbaycan Respublikası BMT-yə üzv qəbul olunmaq xahişi ilə 1991- ci il oktyabrın 29-da müraciət etdi. BMT Təhlükəsizlik Şurası 1992- ci il fevralın 14-də həmin müraciəti müzakirə edərək bəyəndi.

Azərbaycanın Baş Naziri vəzifəsində işləyən Həsən Həsənov Nyu Yorkda Birləşmiş Millətlər Təşkilatı yanında Azərbaycan Respublikasının daimi nümayəndəsi təyin edildi . Ona fövqəladə və səlahiyyətli nümayəndə diplomat dərəcəsi verildi. Martın 2-də BMT Baş Məclisinin 46- cı sessiyasında Azərbaycan Respublikasının BMT-yə üzv qəbul olunması haqqında qətnamə qəbul edildi. BMT qərargahında Azərbaycan Respublikasının dövlət bayrağı qaldırıldı. BMT nəzdində Azərbaycan Respublikasının daimi nümayəndəliyi mayın 6-dan etibarən fəaliyyətə başladı.

Azərbaycan Respublikasının BMT ilə əməkdaşlığı müxtəlif istiqamətlərdə, əsasən siyasi, təhlükəsizlik, qaçqın və məcburi köçkünlərin problemlərinin həlli və s. sahələrdə həyata keçirilirdi. 1992-ci il oktyabrın 1-də BMT ilə Azərbaycan Respublikası hökuməti arasında Bakıda müvəqqəti ofisin yaradılması haqqında saziş imzalandı. Misirli diplomat Mahmud Əl Səid BMT-nin Azərbaycandakı nümayəndəsi təyin edildi*^^.

Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılması və ərazi bütövlüyünün təmin olunması Azərbaycan üçün bir nömrəli vəzifə idi. Bu, baş verdikdə məcburi köçkünlər öz torpqalarına qayıtmaqla əsas problemləri həll oluna bilərdi. Ermənistanın təcavüzünün gedişində

^ H.Ə.Həsənovun BMT yanında Azərbaycan Respublikasının daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. 4 aprel 1992-ci il. Jfs 641. - Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 15 aprel 1992-ci il. Bakı, 1992. Na 7 (860), s.28.

Amb. Mahmoud El-Said. Azerbaijan and the UN Recollections of the difficult years 1992-1995. - Azerbaijan in Global Politics: Crafting Foreign Policy, p.86. 

yurd-yuvalarından qovulmuş yüz minlərlə azərbaycanlı və rus, həmçinin Özbəkistandan Axıska türkü qaçqına çevrilərək Azərbaycana pənah gətirmişdi. 1992-ci il iyulun 1-ə olan məlumata görə, Azərbaycanın Dağlıq Qarabağ regionundan və ətraf rayonlardan 217 min 803 nəfər və ya 42 min 69 ailə məcburi köçkün qeydə alınmışdı*^'*.

Azərbaycan hökuməti qaçqınların problemlərini həll etmək üçün bir sıra sənədlər qəbul etdi.*^^ Onların məşğulluğunun təmin edilməsi, maddi yardımlar, tibbi, sosial təminatı, təhsil hüquqları, vergi güzəştləri və s. sahəsində tədbirlər müəyyənləşdirildi. Lakin problemin həllində beynəlxalq birliyin yardımlarına ehtiyac var idi. Ona görə də Azərbaycan hökuməti beynəlxalq təşkilatlarla əməkdaşlıq etməyə başladı, 1992-ci il dekabrın 8- də BMT-nin qaçqınların statusuna dair 1951-ci il 28 iyul tarixli konvensiyasına və ona əlavə protokoluna qoşuldu*^^. Artıq 1993-cü ilin məlumatına görə, Azərbaycanda 450 min nəfərdən çox və ya 100 minə yaxın qaçqın ailəsi var idi*^^.

Azərbaycan diplomatiyasının səyləri nəticəsində BMT Baş Məclisinin 1993-cü ildəki iclasında Azərbaycanda olan qaçqın və məcburi köçkünlərə fövqəladə beynəlxalq yardım göstərilməsi barədə qətnamə qəbul etdi. Bu, qaçqın və məcburi köçkünlərə yardım edilməsi sahəsində atılan addımlardan biri idi.

BMT ilə əməkdaşlıq 1993-cü ildən etibarən genişlənməyə başladı. Bakıda BMT-nin ofisi açıldı. Artıq qeyd edildiyi kimi, Azərbaycan dövləti BMT-yə üzv olduğu ilk günlərdən daim beynəlxalq birliyin diqqətini Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal edilməsi məsələsinə yönəltməyə başlamışdı. Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalına cavab olaraq edilən müraciətlər əsasında BMT Təhlükəsizlik Şurası 1993-cü ildə 822, 853, 874 və 884 saylı qətnamələrini yekdilliklə qəbul etmişdi. Həmin qətnamələrdə Dağlıq Qarabağ bölgəsinin Azərbaycanın tərkib hissəsi olması təsdiqlənir, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə, beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinə hörmət edilməsinə çağırılır və ərazilərin əldə edilməsi məqsədi ilə güc

'^"ARXİNA. 1993. Qovluq Xa 22, v. 140-145.

ARXİNA. 28.10.2002-30.12.2002. Qovluq XaS, v.45-50.

Azərbaycan Respublikasının BMT-nin Qaçqınların statusuna dair konvensiyasına və protokoluna qoşulması barədə Azərbaycan Respublikası Milli Məclisinin qərarı. 8 dekabr 1992-ci il. - Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 15 dekabr 1992-ci il. Bakı, 1992, Xa23 (876), s.16-17.

ARXINA. 1993. Qovluq Xa 22, v. 136 - 139.

işlədilməsinin yolverilməz olduğu vurğulanır, Azərbaycanın zəbt olunmuş ərazilərindən bütün işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması və məcburi köçkün düşmüş insanların daimi yaşayış yerlərinə təhlükəsiz qayıtması üçün şəraitin təmin olunması tələb edilirdi. Lakin bu qətnamələr Ermənistan tərəfindən yerinə yetirilmədi.

Azərbaycan Respublikası beynəlxalq təşkilatlar ilə əməkdaşlığını bir qədər də genişləndirdi. 1994-cü il aprelin 22-də Vyana, iyunun 24- də Brüssel və Cenevrə şəhərində beynəlxalq təşkilatlar yanında Azərbaycan Respublikasının daimi nümayəndəlikləri təsis olundu*®'.

BMT yanındakı Azərbaycan Respublikasının daimi nümayəndəsi Həsən Həsənov xarici işlər naziri təyin edildikdən sonra həmin vəzifəyə
1994- cü il sentyabrın 23-də Eldar Quliyev təyin edildi*®^. Ona Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri dərəcəsi verildi.

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT Baş Məclisində nitqi. Qaçqın və məcburi köçkünlər məsələsi

Azərbaycan Respublikasının BMT ilə əməkdaşlığında mühüm yerlərdən birini Prezident Heydər Əliyevin Baş Məclisin 49-cu sessiyasının işində iştirakı oldu. Səfər 1994-cü il sentyabrın 25-dən 30-dək davam etdi. Azərbaycan tarixində ilk dəfə olaraq dövlət başçısı BMT kürsüsündən nitq söylədi*®*. Nitqində Azərbaycan xalqının əsrlər boyu azadlığa can atmasından, ölkənin demokratik, hüquqi və dünyəvi inkişaf yolu seçdiyindən, aparılan islahatlardan, Ermənistanın təcavüzü nəticəsində meydana çıxmış Dağlıq Qarabağ münaqişəsindən, təcavüzün nəticələrindən, azərbaycanlıların qaçqın və məcburi köçkünə çevrildiyindən, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrindən danışan Azərbaycan Prezidenti üzv ölkələrə belə bir sual etdi: “Təhlükəsizlik Şurası nə dərəcədə

' ARXİNA. 1994.
859 ARXİNA. 1994.
ARXİNA. 1994.
ARXİNA. 1994.
ARXİNA. 1994
863 Əliyev H.Ə. BMT Baş Məclisinin 49-cu sessiyasında çıxış. 29 sentyabr 1994-cü il. - Müstəqilliyimiz əbədidir. II kitab, s.306-314.

ardıcıl və qətiyyətlidir, hər bir konkret halda onun səlahiyyətlərinin tətbiq dərəcəsi nə ilə müəyyən edilir?”*^ Bu məsələdə Azərbaycan üçün sarsılmaz olan norma və prinsiplər aşağıdakılar idi: Azərbaycanın suverenliyi və ərazi bütövlüyü, işğal edilmiş ərazilərin azad edilməsi, qaçqınların doğma ocaqlarına qayıtması. Nitqində Azərbaycan Prezidenti Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi üçün səylərin artırılmasının zəruriliyini bildirdi və Minsk qrupunun fəaliyyətini müdafiə etdi. Həmçinin Azərbaycanın beynəlxalq və regional təşkilatlar, digər dövlətlər ilə münasibətlərinin inkişaf dinamikasından. Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının birgə istismarına dair dünyanın iri şirkətləri ilə imzalanan müqavilələrin mahiyyətindən danışdı.

Azərbaycan Prezidentinin nitqi əhəmiyyətli idi. Hər şeydən əvvəl, Azərbaycanın dövlət başçısı ilk dəfə olaraq BMT tribunasından dünya birliyinin üzvü olan dövlətlərə müraciət edərək ölkəsinin üzləşdiyi problemlərdən, onların həlli yollarından və aparılan islahatlardan danışmışdı.

Səfər çərçivəsində Heydər Əliyev ABŞ Prezidenti Bili Klinton ilə görüşərək ikitərəfli münasibətlərə. Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində səylərə və Azərbaycanın mövqeyinə, imzalanmış neft müqavilələrinə dair məsələləri müzakirə etdi*^^. ABŞ tərəfi münaqişənin danışıqlar yolu ilə tənzimlənməsinə tərəfdar idi və Azərbaycanın neft strategiyasını bəyənirdi.

Azərbaycan Prezidenti Nyu Yorkdakı Türk evində ABŞ-da yaşayan türk və azərbaycanlı icmasının nümayəndələri ilə görüşdə çıxış edərək Azərbaycanın daxili iqtisadi, sosial-siyasi vəziyyəti, Ermənistanın təcavüzü və onun nəticələri üzərində dayandı, imzalanmış neft müqavilələrinin mahiyyətini izah etdi, Azərbaycanın xarici siyasəti haqqında danışdı*^^.

Kolumbiya Universitetinin Harriman İnstitutunda etdiyi çıxışında Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra keçən yola nəzər yetirdi, sosial-iqtisadi və siyasi şərait haqqında məlumat verdi, imzalanan neft müqavilələrinin mahiyyətini izah etdi, Ermənistanın

Yenə orada, s. 310.

Əliyev H.Ə. BMT Baş Məclisinin 49-cu sessiyasında millətlər birliyinin xüsusi salonunda mətbuat konfransında bəyanat. 29 sentyabr 1994-cü il. — Müstəqilliyimiz əbədidir. II kitab, s.315-319.

Əliyev H.Ə. Nyu Yorkdakı Türk evində Amerikada yaşayan türk və azərbaycanlı icmasının nümayəndələri ilə görüşdə çıxış. 26 sentyabr 1994-cü il. - Müstəqilliyimiz əbədidir. II kitab, s.288-296.

təcavüzünün nəticələrindən və münaqişənin nizama salınması istiqamətində səylərdən söz açdı*^’.

Nyu Yorka səfəri zamanı uşaqların həyatı, müdafiəsi və inkişafına dair BMT bəyannaməsini imzalayan Azərbaycan Prezidenti bu münasibətlə təşkil olunan mərasimdə çıxış etdi. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası BMT-nin Uşaq Fondu - YUNİSEF ilə əməkdaşlıq edirdi. Əməkdaşlığın əsas məqsədi ölkədə Uşaq hüquqları üzrə konvensiyanın tamamilə tətbiqinə nail olmaq, uşaqların hüquqlarının müdafiəsini və qorunmasını təmin etmək idi. Azərbaycan tərəfi YUNİSEF-in Azərbaycanda fəaliyyətinin genişləndirilməsinə ehtiyac duyurdu. Çünki Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi uşaqların həyatına mənfi təsir etmiş-

Azərbaycan YUNİSEF ilə əməkdaşlıq sazişini 1994-cü ildə imzaladı. Saziş qaçqın, məcburi köçkün uşaq və yeniyetmələrin vəziyyətini yüngülləşdirmək üçün yardımlar edilməsini nəzərdə tuturdu. Azərbaycan Respublikası 1995-1997, 1998-2000-ci illərdə YUNİSEF-in İcraiyyə Şurasının üzvü oldu. Qeyd etmək lazımdır ki, Azərbaycanda olan qaçqın və məcburi köçkünlərin 200 min nəfərini, yaxud 30%-ni uşaqlar təşkil edirdi**^. Köçkün uşaqlar əsasən 12 çadır düşərgərsində, 24 yığma evlərdən ibarət qəsəbələrdə, 1600-dən çox ictimai binada, dəmiryol yük vaqonlarında, yeraltı qazmalarda, zirzəmilərdə və s. yerlərdə yaşayırdılar. Azərbaycan hökuməti məcburi köçkün uşaqlarının ümumi təhsilə cəlb olunması üçün ərazisi işğal olunmuş rayonlar üzrə 703 məktəb, 8116 sinif təşkil etmişdi. Həmin təhsil ocaqlarının böyük əksəriyyəti məcburi köçkünlərin yığcam məskunlaşdığı yerlərdə - çadırlarda, fm tipli quraşdırma evlərdə, yol kənarındakı qazmalarda, dəmiryol yük vaqonlarında və s. yararsız, uyğunlaşdınlmamış obyektlərdə təşkil olunduğu üçün onların heç bir maddi-texniki bazası yox idi.

Məcburi köçkün məktəblərində 90 min nəfərə yaxın şagird təhsil alırdı. Sinif otaqlarının çatışmazlığı nəticəsində 2-ci və 3-cü növbədə oxuyan şagirdlərin sayı respublika göstəricisindən xeyli yüksək idi. Bu, bəzi rayonlarda hətta 65-70%-ə çatırdı. Məcburi köçkünlər arasında yoxsul-

Əliyev H.Ə. ABŞ-ın Kolumbiya Universitetinin Harriman İnstitutunda çıxış. 28 sentyabr 1994-cü il. - Müstəqilliyimiz əbədidir. II kitab, s.298-305.

Əliyev H.Ə. YUNİSEF təşkilatında uşaqların həyatı, müdafiəsi və inkişafına dair BMT bəyannaməsinin imzalanması mərasimində çıxış. 27 sentyabr 1994-cü il. - Müstəqilliyimiz əbədidir. II kitab, s.297.

ARXİNA. 05.04.2003-26.09.2003. Qovluq NsS, v.244-245.

luğun səviyyəsinin yüksək olması, sinif otaqlarının yararsızlığı və çatışmazlığı nəticəsində uşaqlar arasında təhsildən yayınma dərəcəsi təxminən 10%-ə yaxın idi. Əraziləri işğal olunmuş rayonlar üzrə 665 səhiyyə obyekti təşkil edilmişdi. Sıx məskunlaşma obyektlərində məskunlaşan məcburi köçkün uşaqlar məktəbəqədər və məktəbdənkənar təlim-tərbiyə ocaqlarında, mədəniyyət, idman və s. istirahət-sağlamlıq müəssisələrindən məhrum olmuşdular.

Ağır məişət şəraiti, zəif ərzaq təminatı, rasionda orqanizm üçün zəruri olan vitaminlərin olmaması nəticəsində 100 mindən artıq məcburi köçkün uşaq müxtəlif xəstəliklərdən əziyyət çəkirdi. Çadır düşərgələrində məskunlaşan məcburi köçkün uşaqları arasında xəstəlik hallan daha çox idi. 5 yaşadək olan bu uşaqların 30%-nin inkişafı normadan aşağı idi. 1200-ə qədər məcburi köçkün uşaqları telassamiya, böyrək, ürək və s. xəstəliklərə düçar olmuşdular. Məcburi köçkün uşaqlar arasında hər 1000 diri doğulandan bir yaşmadək ölən uşaqların ölüm göstəricisi respublika göstəricisindən 2-4 dəfə yüksək idi. Azərbaycan dövləti Ermənistanın təcavüzünün bu nəticələrini də aradan qaldırmalı idi.

Azərbaycanın BMT ilə əməkdaşlığında mühüm hadisələrdən biri 1994- cü ilin oktyabr ayında BMT baş katibi Butros Butros Qalinin Bakıya səfəri oldu. Azərbaycan tərəfi BMT baş katibinin ölkəyə ilk səfərinə böyük əhəmiyyət verir, Ermənistanın təcavüzü nəticəsində yaradılmış münaqişənin həllinə ümid edirdi*™. Səfər zamanı Azərbaycan - BMT münasibətləri və Dağlıq Qarabağ münaqişəsinin həlli yolları müzakirə edildi. Azərbaycan münaqişənin həlli üçün işğal olunmuş ərazilərdən, o cümlədən Şuşa və Laçından Ermənistan hərbi hissələrinin çıxarılmasını, məcburi köçkünlərin daimi yaşayış yerlərinə qayıtmasını, danışıqların ikinci mərhələsində Dağlıq Qarabağ regionunun statusunu müzakirə etməyin mümkünlüyünü bildirirdi*''. Münaqişənin həllində Azərbaycanın mövqeyi BMT baş katibinə xırdalığına qədər izah edildi. Butros Butros Qali dedi: "...BMT Təhlükəsizlik Şurasının bu məsələ barədə mövqeyi tam aydındır. Bu mövqe işğalçı qoşunların Dağlıq Qarabağdan təcili olaraq və qeyd-

---

Əliyev H.Ə. BMT-nin baş katibi Butros Butros Qalinin Azərbaycana rəsmi səfəri zamanı Bakıda Binə hava limanında qarşılanması mərasimində çıxış. 29 oktyabr 1994-cü il. - Müstəqilliyimiz əbədidir. II kitab, s.434.

Əliyev H.Ə. Prezident sarayında BMT-nin baş katibi Butros Butros Qali ilə görüşdə çıxış. 30 oktyabr 1994-cü il. Müstəqilliyimiz əbədidir. II kitab, s. 435-439.

şərtsiz çıxarılmasından ibarətdir”*’^. O, münaqişənin həllində bir dövlətin inhisarının olmasının əleyhinə idi.

Baş katibin səfəri Azərbaycan ilə BMT arasında əlaqələrin intensivləşməsinə kömək etdi. Qaçqınların vəziyyəti məsələsini Azərbaycan tərəfi beynəlxalq toplantılara çıxardı. 1994-cü ilin noyabrında Bakıda qaçqınlar haqqında qanunvericilik hüquqları və miqrasiya məsələlərinə dair beynəlxalq konfrans keçirildi. Toplantıda nitq söyləyən Azərbaycan Prezidenti Heydər Əliyev Ermənistanın təcavüzünün nəticələri, qaçqın və məcburi köçkünlərin hüquqlarının pozulduğu barədə danışdı, onların yaşamaq hüququnun bərpası üçün beynəlxalq təşkilatlara və ölkələrə çağırış etdi*’^.

Yaranmış şərait Azərbaycan Respublikası ilə BMT arasında əməkdaşlığın genişləndirilməsini zəruri edirdi. BMT-nin yaradılmasının 50 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Prezidentinin 1995-ci il yanvarın 10-da sərəncam imzalaması bu baxımdan faydalı oldu*’". Sərəncama uyğun olaraq ölkədə bir sıra tədbirlər həyata keçirildi.

BMT ilə əlaqələrdə mühüm addım BMT-nin yaradılmasının 50 illik tədbirlərində Azərbaycanın iştirakı oldu*’*. Oktyabrın 22-24-də keçirilən toplantılarda iştirak edən Azərbaycan Prezidenti Baş Məclisin xüsusi təntənəli sessiyasında nitq söyləyərək ölkəsinin təşkilat ilə əməkdaşlığa verdiyi əhəmiyyətdən danışdı. Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın mövqeyini açıqladı və Ermənistanın təcavüzünün dayandırılması üçün dünya birliyini tədbirlər görməyə çağırdı*’*.

^ Əliyev H.Ə. BMT-nin baş katibi Butros Butros Qali ilə danışıqlar başa çatdıqdan sonra birgə mətbuat konfransında bəyanat. 30 oktyabr 1994-cü il. - Müstəqilliyimiz əbədidir. II kitab, s.442.

Əliyev H.Ə. Qaçqınlar haqqında qanunvericilik, insan hüquqları və miqrasiya məsələlərinə dair Bakıda keçirilən beynəlxalq konfransda çıxış. 14 noyabr 1994- cü il. - Müstəqilliyimiz əbədidir. II kitab, s.502-510.

Birləşmiş Millətlər Təşkilatının yaradılmasının 50-ci ildönümünün bayram edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 10 yanvar 1995-ci il. - Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 1995-ci il 31 yanvar. Bakı, 1995. R2İ-2 (926-927), s.l5.

ARXİNA. 1995. Qovluq JfçS, v. 662.

The Azerbaijan Republic. Address by H.E. Mr. Heydar Alirza oglu Aliyev, Prezident. - The UN at 50. Statements by World Leaders. New York, 23-24 October 1995. New York, 1996, p.74-75; Əliyev H.Ə. BMT-nin 50 illiyi yubileyi ilə əlaqədar BMT Baş Məclisinin xüsusi təntənəli iclasında çıxış. 22 oktyabr 1995-ci il. - Müstəqilliyimiz əbədidir. III kitab, s.393-395.

Azərbaycan ilə BMT arasında ümumi siyasi məsələlər sahəsində əməkdaşlıq 1996-cı ildə də davam etdirildi. Azərbaycan tərəfi qaçqınlar məsələsini beynəlxalq təşkilatların gündəliyinə gətirdi. 1996-cı il mayın 30-31-də Cenevrədə BMT-nin Qaçqınların işi üzrə Ali Komissarlığı, Beynəlxalq Miqrasiya Təşkilatı və ATƏM-in MDB ölkələrində qaçqınlar məsələsinə dair konfransda Azərbaycan nümayəndə heyəti iştirak etdi*'^. Azərbaycanın məsələyə dair mövqeyi konkret sənəddə əksini tapmışdı*'*. Həmin sənəddə Azərbaycandakı qaçqın və məcburi köçkünlərin ağır vəziyyətdə olduqları vurğulanırdı. Onların problemlərinin həlli, bütövlükdə miqrasiya proseslərinin tənzimlənməsi və idarə olunması məqsədi ilə Azərbaycan hökuməti aşağıdakı istiqamətlərdə fəaliyyət göstərirdi: dövlət siyasətinin və qanunvericilik bazasının formalaşması və təkmilləşdirilməsi; inzibati idarəetmə strukturlarının inkişaf etdirilməsi; qanunsuz miqrasiyanın qarşısının alınması istiqamətində tədbirlərin həyata keçirilməsi; əmək miqrasiyasının tənzimlənməsi istiqamətində işlərin görülməsi; ölkəyə giriş və çıxış qaydalarının təkmilləşdirilməsi; qaçqın və məcburi köçkünlərin ərzaq və qeyri-ərzaq malları, səhiyyə xidməti və sığmacaqlarla təmin edilməsi; fövqəladə humanitar yardımdan inkişaf proqramına keçilməsi; repatriasiya, məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə qayıtması və yenidən yerləşdirilməsi; beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əməkdaşlığın qurulması və inkişaf etdirilməsi.

Konfrans Azərbaycanda mövcud olan miqrasiya, qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə beynəlxalq təşkilatların, donorların və ictimaiyyətin diqqətini cəlb etdi. Onlara yardımlar edilməsi tövsiyə olundu.

Bu konfransdan bir müddət sonra, 1996-cı il sentyabr ayının əvvəllərində BMT-nin Qaçqınların işi üzrə ali komissarının müavini Serdjio de Mellyu Azərbaycana səfər etdi. Hələ 1993-cü ildə Azərbaycanda fəaliyyətə başlamış BMT-nin Qaçqınların üzrə ali komissarının idarəsi qaçqın düşmüş azərbaycanlılara humanitar yardım göstərilməsi üzrə əhəmiyyətli tədbirlər həyata keçirirdi. Serdjio de Mellyunu qəbul edən Prezident Heydər Əliyev Azərbaycan ərazilərinin işğal edildiyini, qaçqın və məcburi köçkünlərin vəziyyətini diqqətə çatdırdı. Onların daimi yaşayış yerlərinə

ARXINA. 1996. Qovluq Xb 22, v.27-37.
' ARXİNA. 2000. Qovluq XsS, v. 180-184.

qayıtmalarının vacibliyini bildirdi*™. S.Mellyu siyasi danışıqlardan kənar olaraq qaçqın və məcburi köçkünlərə yardım edilməsini, xeyirxah xidmət göstərilməsini mümkün hesab edirdi. O, ərazilər azad edildikdən sonra humanitar proqramların həyata keçiriləcəyini, bununla belə, insanlar çadırlarda yaşadıqlarından onlara yardımların edilməsini vacib hesab etdi. Lakin Qaçqınların işi üzrə Ali Komissarlıq tamamilə üzv ölkələrdən - donorlardan asılı idi. Onların yardımı olmadan komissarlıq lazimı fəaliyyət göstərə bilmirdi.

Qaçqınlar məsələsi 1997-ci il oktyabrın 13-17-də Cenevrədə Millətlər Sarayında keçirilən BMT-nin Qaçqınların işi üzrə Ali Komissarlığı İcraiyyə Komitəsinin 48-ci sessiyasında da müzakirə edildi. Sessiyanın gündəliyinin əsas məsələsi repatriasiya idi**°. Sessiyada BMT-nin qaçqınlar işi üzrə ali komissarı Sadako Oqata geniş nitq söylədi. Baş nazirin müavini İzzət Rüstəmov toplantıda çıxış etdi.**’ O, Ermənistanın Azərbaycana təcavüzünün ağır nəticələri, qaçqın və məcburi köçkünlərin vəziyyəti üzərində dayandı. Məruzədə deyilirdi ki, qaçqın və məcburi köçkünlər 58 şəhər və rayonda yataqxanalarda, yük vaqonlarında, yaşayış üçün əlverişsiz yerlərdə yerləşdirilmişdir. Azərbaycana 50 beynəlxalq təşkilat humanitar yardım edirdi. Azərbaycan tərəfi humanitar yardımları artırmağa çağırdı.

Sessiyanın gedişində Azərbaycan nümayəndə heyəti ali komissar, onun müavini Cerald Valçer və digər üzv dövlətlərin nümayəndə heyətləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə keçirdiyi görüşlərdə Ermənistanın hərbi təcavüzünün ağır nəticələri, BMT-nin Qaçqınların işi üzrə Ali Komissarlığının və Qırmızı Xaç Cəmiyyətinin gördüyü işlər, münaqişənin həlli istiqamətində səylər və qaçqınların hüquqlarının pozulması haqqında məlumat verdi. BMT-nin Qaçqınların işi üzrə Ali Komissarlığının və Qırmızı Xaç Cəmiyyətinin üzvləri Azərbaycana yardımları davam etdirəcəklərini bildirdilər.

Azərbaycan Prezidentinin 1998-ci il aprelin 16-da BMT-nin ümumdünya insan hüquqları bəyannaməsinin**^ 50 illiyinin keçirilməsi haqqında

ARXİNA. 1996. Qovluq 22, v.17-18.
ARXİNA. 1997. Qovluq X22, v.
ARXİNA. 1997. Qovluq X22, v. 150-153.
**OpaBa MeaoBeKa. MexcaynapoAHtiH 6najı o opasax nejıoBCKa. Hbio Hopx,**

sərəncam imzalaması əlaqələrdə mühüm addımlardan biri oldu.**^ Sərəncama əsasən yubiley tədbirlərinin hazırlanıb həyata keçirilməsi üçün dövlət komissiyası təşkil edildi. Komissiyanın iclasında Heydər Əliyev çıxış edərək Ermənistandan tarixi ərazilərindən azərbaycanlıların qovulmasından və s. məsələlərdən danışdı. Qaçqın və məcburi köçkünlərin hüquqlarının kobud surətdə pozulduğunu söylədi**". BMT-nin ümumdünya insan hüquqları bəyannaməsinin 50 illiyi münasibəti ilə ölkədə elmi- praktik konfranslar və digər toplantılar həyata keçirildi. Təntənəli yığıncaqda nitq söyləyən Heydər Əliyev Azərbaycanın insan hüquq və azadlıqlarına sadiq olduğunu deyərək, qaçqın və məcburi köçkünlərin vəziyyətinə diqqəti yönəltdi**^.

Qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması Azərbaycanın başlıca qayğılarından biri olduğundan Azərbaycan tərəfi 1999- cu il yanvarında Bakıya səfər edən BMT-nin Ümumdünya ərzaq proqramının Şərqi Avropa və MDB ölkələri üzrə şöbəsinin müdiri Robert Hauzerin rəhbərliyi altında nümayəndə heyəti ilə danışıqlarda həmin məsələni müzakirə etdi. Nümayəndə heyətini yanvarın 14-də qəbul edən Heydər Əliyev Ermənistanın təcavüzü nəticəsində daimi yaşayış yerlərindən zorla çıxarılmış məcburi köçkünlərin və Ermənistandan qovulmuş insanların ağır vəziyyəti barədə məlumat verərək, yardımların artırılmasını istədi**^. Robert Hauzer birmənalı olaraq bildirdi; "...biz bugünkü günə qədər qurbanlar olmuşuq. Yəni biz Xəzər regionu ətrafında və neft ətrafında gedən söhbətlərin qurbanı olmuşuq"**^.

Əliyev H.Ə. Birləşmiş Millətlər Təşkilatının ümumdünya insan hüquqları bəyannaməsinin 50 illiyinin keçirilməsi haqqında sərəncam. 16 aprel 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XV kitab, s.206-209.

Əliyev H.Ə. Azərbaycan BMT ümumdünya insan hüquqları bəyannaməsinin 50 illik yubileyini keçirən dövlət komissiyasının iclasında giriş sözü. 3 dekabr 1998- ci il. - Müstəqilliyimiz əbədidir. XVllI kitab, s.303-316.

Əliyev H.Ə. Birləşmiş Millətlər Təşkilatının ümumdünya insan hüquqları bəyannaməsinin 50 illiyinə həsr olunmuş təntənəli yığıncaqda nitq. 10 dekabr 1998- ci il. - Müstəqilliyimiz əbədidir. XVIIl kitab, s.364-370.

*** Əliyev H.Ə. BMT-nin ümümdünya ərzaq proqramının Şərqi Avropa və MDB ölkələri üzrə şöbəsinin müdiri Robert Hauzerin rəhbərliyilə ölkəmizə gəlmiş nümayəndə heyəti ilə görüşdə söhbət. 14 yanvar 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XIX kitab, s.27-30.

Yenə orada, s.29.

Təşkilat Azərbaycana edilən yardımların istiqamətinin dəyişdirilməsini əhəmiyyətli hesab edirdi. Qurum rəhbərinin fikrincə, əsas diqqət daha çox bərpa və məşğuliyyətə yönəldilməli idi.

Bundan bir neçə ay sonra, 1999-cu il sentyabrın 9-da BMT-nin qaçqınların İŞİ üzrə ali komissarı Sadako Oqata Azərbaycana səfəri çərçivəsində qaçqınlarla görüşdü. Füzuli rayonunun işğaldan azad edilmiş ərazilərində qurulmuş çadır şəhərciyində oldu. Bu zaman Ali Komissarlıq Azərbaycan qaçqınlarına 41 milyon ABŞ dolları ayırmışdı. Azərbaycan Prezidenti Ermənistanın təcavüzünün nəticələrini, qaçqın və məcburi köçkünlərin vəziyyətini Sadako Oqata ilə görüşdə şərh etdi, Minsk qrupunun səyləri barədə danışdı®**. Sadako Oqata dağıntıları öz gözləri ilə gördükdən sonra bunların nə dərəcədə nəhəng olduğunu təsəvvür etdiyini bildirdi.

Qaçqın və məcburi köçkünlərin problemlərinin həlli bütün kəskinliyi ilə qarşıda durduğundan Azərbaycan dövlətinin bu sahədəki fəaliyyəti bir neçə istiqamətdə həyata keçirilirdi: birbaşa humanitar yardımın göstərilməsi; qaçqın və məcburi köçkünlərin sosial problemlərinin tədricən aradan qaldırılması; Ermənistanın hərbi təcavüzünün konkret nəticələrinin dünyaya çatdırılması.

Həmin məqsədlə 2000-ci il may ayının 18-də Bakıda qaçqınların və məcburi köçkünlərin vəziyyətinə həsr edilmiş beynəlxalq konfrans keçirildi. Konfransda nitq söyləyən Heydər Əliyev ölkədə qaçqın və məcburi köçkünlərin vəziyyətinə diqqəti cəlb etdi, Ermənistanın işğalçılıq siyasəti və nəticələri haqqında danışdı, işğaldan azad ediləcək rayonlarda bərpa işləri üçün hazırlığın aparılmasının vacibliyini vurğuladı. Konfransda bərpa və məşğuliyyətə yönəlik tədbirlərin həyata keçirilməsinin əhəmiyyəti qeyd edildi.

Azərbaycanın BMT ilə əlaqələrində mühüm hadisələrdən biri 2000- ci il sentyabrın 6-12-də Nyu Yorkda BMT-nin himayəsi altında keçirilən "Minilliyin zirvə görüşü" oldu. Azərbaycan Prezidenti zirvə görüşündə iştirak etmək üçün ABŞ-a səfər etdi**®. Zirvə görüşündə 156 ölkənin dövlət və hökumət başçıları iştirak edirdilər. 4 ölkədən baş nazirin müavini, 21 ölkədən nazirlər, 9 ölkədən isə yüksək vəzifəli şəxslərdən ibarət

*** Əliyev H.Ə. BMT-nin qaçqınlar üzrə ali komissarı xanım Sadako Oqato ilə görüşdə söhbət. 9 sentyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXI kitab, s. 340-349.

Azərbaycan Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri. 6 sentyabr 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXX kitab, s.5.

nümayəndə heyəti ilə təmsil olunmuşdu. Sentyabrın 6-da BMT baş katibi Kofı Annan zirvə görüşünü açdı. Ondan sonra ABŞ Prezidenti Bili Klinton nitq söylədi.

Sentyabrın 7-də sammitdə nitq söyləyən Heydər Əliyev soyuq müharibədən sonra dünyada yaranmış yeni şəraiti qiymətləndirdi, Cənubi Qafqazda baş verən proseslər, Ermənistanın Azərbaycana qarşı təcavüzü üzərində dayandı, münaqişənin aradan qaldırılması üçün BMT qətnamələrinin yerinə yetirilməsini istədi*^®. Elə həmin gün Heydər Əliyev BMT qərargahında "XXI əsrə baxış" adlı bəyannaməni imzaladı.

Səfər çərçivəsində Heydər Əliyev BMT-nin insan hüquqları üzrə ali komissarı Meri Robinson ilə görüşərək ölkədə qaçqın və məcburi köçkünlərin vəziyyəti haqqında danışdı*".

Heydər Əliyev ilə ABŞ-m dövlət katibi Madlen Olbrayt arasında sentyabrın 7-də keçirilən görüşdə Azərbaycan - ABŞ münasibətlərinin dərinləşdirilməsi. Dağlıq Qarabağ münaqişəsinin Minsk qrupu çərçivəsində həlli yolları barədə fikir mübadiləsi aparıldı. Madlen Olbrayt Heydər Əliyevə Ermənistan Prezidenti Robert Koçaryan ilə görüşməyi təklif etdi. Heydər Əliyev həmin gün Robert Koçaryan ilə təkbətək görüşərək Dağlıq Qarabağ münaqişəsinin həlli yollarına dair danışıqlar apardı. Görüşdən sonra Heydər Əliyev verdiyi bəyanatında münaqişənin həlli üçün qarşılıqlı kompromislərə getmək haqqında artıq çoxdan razılaşdıqlarını, lakin kompromislərin həddi barədə razılığa gələ bilmədiklərini qeyd etdi. O, dialoqun davam etdirilməsinə tərəfdar çıxırdı*'^.

Sentyabrın 8-də Azərbaycan - ABŞ münasibətlərində mühüm bir hadisə baş verdi. Heydər Əliyev ABŞ Prezidenti Bili Klinton ilə görüşdü. Görüşdə iki ölkə arasında əməkdaşlığın perspektivləri, Azərbaycana qarşı ədalətsiz qəbul edilmiş 907-ci düzəlişin aradan qaldırılması. Xəzər

Əliyev H.Ə. Minilliyin zirvə görüşündə çıxış. 7 sentyabr 2000-ci il. Bakı, 2010, s.11.14; Statement by Heydar Aliyev, President of the Republic of Azerbaijan at the Millennium Summit of the United Nations. September 7, 2000. New York. - OSCE Archive in Prague. Azerbaijan file. OSCE Office in Baku. Field Activities. Actions/Reactions. Others. Press Releases. 2001-2003. 1. No:577.

Əliyev H.Ə. BMT-nin insan hüquqları üzrə ali komissarı xanım Meri Robinson ilə görüşdə söhbət. 7 sentyabr 2000-ci il. - Müstəqilliymiz əbədidir. XXX kitab, s. 15-16.

Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı. 7 sentyabr 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXX kitab, s.20-21.

dənizinin Azərbaycan sektorundakı yataqlardan hasil edilən neftin dünya bazarına çıxarılması, Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisi barədə fikir mübadiləsi edildi. Dağlıq Qarabağ münaqişəsinin həlli yolları haqqında məsələ müzakirə edilərkən Bili Klinton prezidentlik müddəti başa çatanadək münaqişənin sülh yolu ilə həllinə çalışacağını bildirdi.

Həmin gün Heydər Əliyev İpək yolu üzərində yerləşən ölkələrin regional zirvə görüşündə iştirak etdi. Sammit senator Sem Braunbək və Merilend Universitetinin Şərq-Qərb Kosmik Elmlər Mərkəzi və Şərq- Qərb İnstitutu tərəfindən təşkil edilmişdi. Toplantıda Gürcüstan Prezidenti Eduard Şevardnadze, Moldova Prezidenti Petru Luçinski, Rumıniya Prezidenti Emil Konstantinesku, ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə sabiq müşaviri Brend Skoukroft, Qazaxıstanın xarici işlər naziri Erlan İdrisov, Qırğızıstanın xarici işlər naziri Muradbəy İmanəliyev, Ermənistanın xarici işlər naziri Vartan Oskanyan və Ukraynanın xarici işlər naziri Boris Tarasyuk çıxış edərək ölkələrinin mövqelərini bəyan etdilər. Azərbaycan Prezidenti çıxış edərək Böyük İpək yolunun tarixinə qısa nəzər yetirdi, Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair "Əsrin müqaviləsi"nin imzalanmasının əhəmiyyətindən, Azərbaycana qarşı qəbul edilmiş ədalətsiz 907-cü düzəlişin ləğvi zərurətindən danışdı*^^.

Sentyabrın 11 -də Amerika - Azərbaycan Ticarət Palatasının "Azərbaycan Avrasiyanın qapısı, strateji və iqtisadi alyanslar ölkəsidir" mövzusunda təşkil etdiyi beynəlxalq konfransda çıxış edən Heydər Əliyev Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edilməsinə, törədilən terror aktlarına diqqəti cəlb etdi, ölkədə aparılan iqtisadi isalahatlardan, enerji diplomatiyasından danışdı, Azərbaycanın xarici sərmayələr üçün əlverişli bir ölkə olduğunu vurğuladı*^'*.

Zirvə görüşü və keçirilən müzakirələr əhəmiyyətli idi. Hər şeydən əvvəl, burada qlobal problemlər, onların həlli yolları barədə fikir mübadiləsi edildi. Digər tərəfdən, Azərbaycanın problemləri dünya birliyinin

Əliyev H.Ə. Böyük İpək yolu üzərində yerləşən ölkələrin regional əməkdaşlığın zirvə görüşündə çıxış. 8 sentyabr 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXX kitab, s. 36-40.

Əliyev H.Ə. Amerika - Azərbaycan Ticarət Palatasının "Azərbaycan Avrasiyanın qapısı, strateji və iqtisadi alyanslar ölkəsidir" mövzusunda təşkil etdiyi beynəlxalq konfransda çıxış. 11 sentyabr 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXX kitab, s. 50-71.

**ÜZVÜ** olan ölkələrin diqqətinə çatdırılmışdı. Azərbaycan dövləti BMT-nin Minilliyin inkişaf məqsədləri layihəsində fəal iştirak etməyə başladı.

Həyata keçirilən proqramlarda qaçqınların problemi xüsusi yer tuturdu. 2001-ci il aprelin 12-də İsveçrə Konfederasiyasının Prezidenti Moris Lyuenberqer və BMT-nin qaçqınların işi üzrə ali komissarı Ruud Lyubbers 1951-ci il tarixli Qaçqınların statusu haqqında konvensiyada iştirak edən dövlətlərin nazirlər səviyyəsində birinci iclasının keçirilməsi haqqında məktubu Baş Nazir Artur Rasizadəyə göndərdi*^^. Bundan bir müddət sonra, avqustun 22-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında", sentyabrın 7-də "Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğalı nəticəsində Ağdam və Füzuli rayonlarından didərgin düşmüş və çadır düşərgələrində yerləşdirilmiş məcburi köçkünlərin bir qisminin həmin rayonların ərazisində məskunlaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında" fərmanlar imzaladı. Azərbaycan tərəfi yuxarıda göstərilən iclasa hazırlaşmağa başladı.

## Beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycanın iştirakı

Artıq qeyd edildiyi kimi, bu zaman 2001-ci il sentyabrın 11-də ABŞ-da dəhşətli terror aktının törədilməsi bütün dünyanı lərzəyə salmışdı. Beynəlxalq aləmdə terrorizmə qarşı mübarizə aktuallaşmışdı. Dünyanın müxtəlif ölkələrində və beynəlxalq təşkilatlarda BMT-nin rolunun, yeni şəraitdə funksiyalarının nədən ibarət olması, təşkilatda islahatların aparılması haqqında müzakirələr genişlənmişdi. BMT-də islahatların aparılması, NATO-nun BMT-nin sülhməramlı fəaliyyətini əvəz etməsi, bu iki qurum arasında əlaqələrin necə qurulması barədə fikirlər səsləndirilirdi*^*.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının xarici siyasətində mühüm istiqamətlərdən biri terrorizmə qarşı mübarizə idi. Bu da səbəbsiz

ARXİNA. 07.04.2001-22.06.2001. Qovluq X211, v.83-84.

**<t>oarep X. HoBbie cxpyKxypbi aaa OpraHHsauuu Oö'beÄHueHHbix HauHÜ. — Jum. "Internationale Politik", Berlin,** 2001, **XaS,** s.15-25; **Botte A. CoBex Bes- onacHocxH OprauHsauHH 05x>eaHHeHHbix Hauuü. OnpeaeaHex** *m* **HATO ero HOByıo poab?-)KypH. "Internationale Politik", Berlin,** 2001, XBS,

deyildi. Azərbaycan Ermənistanın terrorundan əziyyət çəkirdi. Ermənistanın təcavüzünün davam etməsi terrorizm və ekstremizm üçün əlverişli şərait yaradırdı. Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının
2001- ci il 12 sentyabr tarixli 1368 nömrəli və 28 sentyabr tarixli 1373 nömrəli qətnamələrinin yerinə yetirilməsi məqsədi ilə BMT çərçivəsində terrorçuluqla mübarizə sahəsində qəbul edilmiş bütün konvensiya və protokollara qoşuldu. BMT Baş Məclisinin 6-cı komitəsi çərçivəsində “Terrorçuluqla mübarizə haqqında ümuməhatəli konvensiya” layihəsinə dair aparılan müzakirələrdə fəal iştirak edərək müvafiq məruzəsini təqdim etdi*^’. Azərbaycan Respublikasının mövqeyini əks etdirən məruzədə 11 sentyabr hadisələrindən sonra terrorizmə qarşı mübarizənin dövlətlərin təkcə milli təhlükəsizlikləri deyil, həmçinin bütün beynəlxalq təhlükəsizlik sistemi üçün birinci yerə çıxdığı qeyd edilirdi. Azərbaycan hökuməti əvvəlki kimi yenə də beynəlxalq birliyin bu istiqamətdə səylərini dəstəkləyir və birmənalı olaraq siyasi, iqtisadi, dini və digər motivlərdən asılı olmayaraq terrorizmin bütün forma və təzahürlərini pisləyirdi. Bununla belə, terrorizm əleyhinə mübarizə dinə və mədəniyyətə qarşı mübarizəyə çevrilməməli idi. Azərbaycanın mövqeyinə görə, terrorizm qlobal xarakter aldığından ona qarşı mübarizə də ayrı-ayrı dövlətlər tərəfindən deyil, ümumi əsasda aparılmalı idi. Terror aktları siyasi ekstremizmin forması idi. Onları ümumi xarakter birləşdirirdi. Bu da siyasi məqsədlərə çatmaq üçün zorakılıq idi. Azərbaycan beynəlxalq birliyin terrorizmə qarşı mübarizədə səylərini dəstəkləyirdi. Onun mövqeyinə görə, dünya birliyinin üzvləri terrorizmə qarşı mübarizədə müvəqqəti və məhdud milli maraqları baxımından deyil, daha uzunmüddətli strategiyada birləşməli idilər. Azərbaycan Respublikası belə hesab edirdi ki, BMT üzvləri terrorizmi bütün forma və təzahürləri ilə və onun müdafiə edilməsini qeyd-şərtsiz ittiham etməli idilər. Terrorizm transmilli təhlükə olaraq ayrı-ayrı şəxslərin və xalqların həyatını, dövlətlərin ərazi bütövlüyünü, birliyini, suverenliyini və təhlükəsizliyini təhdid edirdi. Terrorizmə qarşı dünya birliyinin məqsədi ayrı-ayrı terror təşkilatları və şəxslər deyil, terrorizmin səbəb və mənbələri olmalı idi. Terrorizmin separatizm ilə sıx bağlılığı var idi. Separatçı qruplar və qanunsuz birləşmələr terrorizmdən istifadə edirdilər. Belə qrupların nəzarətində olan ərazilərdə narkobiznes, silah və insan alveri, çirkli pulların yuyulması, digər qanunsuz fəaliyyətlər baş verirdi. Bütün bunlar terrorizmin maliyyələşmə mənbələri idi. Terrorizmə qarşı

ARXİNA. 30.11.2001-27.12.2001. Qovluq R26, v. 2-8.

mübarizə qlobal miqyasda bütün terrorçu qrup və təşkilatlar əleyhinə aparılmalı idi. Azərbaycan belə hesab edirdi ki, terrorizm fenomeninə din və mədəniyyətdən kənar baxılmalı idi. Terrorizmi himayə edən və terrorçulara sığınacaq verən ölkələr məsuliyyət daşımalı idilər*^*.

Azərbaycanın mövqeynə görə, terrorizm təcavüzkar separatizm və mütəşəkkil cinayətkarlıqla bağlı idi. Münaqişə zonalarının, xüsusən işğal edilmiş və nəzarətsiz ərazilərin mövcudluğu terrorçu və cinayətkar qrupların fəaliyyəti üçün əlverişli baza idi. Terrorizmin beynəlxalq hüquqda dəqiq ifadəsinin verilməməsi təkcə ayrı-ayrı terrorçuları və təşkilatları deyil, dövlətləri də məsuliyyətə cəlb etməyə imkan vermirdi. Hüquqi cəhətdən mövcud olan boşluq cinayətkar fəaliyyətin genişləndirilməsi üçün imkanlar açırdı.

Məruzədə Azərbaycanın terrorizmin qurbanı olduğu, 80-ci illərin sonlarından Ermənistan Azərbaycan torpaqlarına təcavüz etdikdən və Dağlıq Qarabağ regionunda hərbi əməliyyatlara başladıqdan sonra erməni terrorçularının Azərbaycan ərazilərində dəfələrlərlə terror aktları həyata keçirdikləri vurğulanırdı. Terrorizm Ermənistanda dövlət siyasəti səviyyəsinə qaldırılmışdı. Ermənistandakı siyasi elita və partiyalar terrorçuları müdafiə edirdilər. Azərbaycan bununla bağlı beynəlxalq təşkilatlara dəfələrlə müraciət etsə də, səsini eşitməmişdilər. Məruzədə terrorizmə qarşı mübarizə məqsədi ilə Azərbaycanda beynəlxalq hüquqi sənədlərə uyğun olaraq hüquqi bazanın formalaşdığı, 1999-cu il iyunun 18-də "Terrorizmlə mübarizə haqqında" Azərbaycan Respublikası qanununun qəbul olunduğu qeyd edilirdi. Daha sonra qanunun əsas müddəaları təqdim edilir və icra tədbirləri göstərilirdi. 1999-cu ilədək Azərbaycan Respublikası terrorizmə qarşı mübarizəyə dair 8 beynəlxalq konvensiyaya qoşulmuşdu və 9 Avropa konvensiyasının iştirakçısı idi.

Azərbaycan Respublikası terrorizmə qarşı mübarizədə fəal iştirak etmək niyyəti ilə 2001-ci il oktyabrın 1-də "Maliyyə terrorizmi ilə mübarizə haqqında beynəxalq konvensiyaya qoşulmaq haqqında" qanun qəbul etdi. Oktyabrın 11-də isə müvafiq konvensiyaya qoşuldu*'^. Həmin ilin oktyabr ayında Əfqanıstanda antiterror koalisiyasının əməliyyatlarına qatılan Azərbaycan beynəlxalq qoşunların köməyinə hərbi birləşməsini göndərdi.

ARXİNA. 20.09.2001-02.11.2001. Qovluq XbS, v. 162-164.
ARXİNA. 02.07.2002-23.09.2002. Qovluq XaS, v. 190-194.

## Azərbaycan tərəfi qaçqın və məcburi köçkünlərin vəziyyəti məsələsini yenidən gündəliyə gətirir

Artıq qeyd edildiyi kimi, Azərbaycan üçün başlıca problemlərdən biri qaçqın və məcburi köçkünlərin vəziyyəti idi. Bu problem işğal edilmiş torpaqların azad edilməsi və məcburi köçkünlərin daimi yaşayış yerlərinə dönməsi ilə həll oluna bilərdi.Qaçqın və məcburi köçkünlərin vəziyyətinə dair məsələ 2001-ci ilin payızında BMT Baş Məclisinin 3-cü komitəsində “BMT-nin Qaçqınların işi üzrə ali komissarının məruzəsi və qaçqınlara, qayıtmış şəxslərə, məcburi köçkünlərə və humanitar məsələlərə dair” bənd üzrə müzakirələrdə də qaldırıldı. Çıxış edən Azərbaycan nümayəndəsi əsasən aşağıdakı məsələlərə toxundu: BMT-nin Qaçqınların işi üzrə Ali Komissarlığının qaçqın və məcburi köçkünlərə yardımı dayandırmaq niyyətlərindən narahatlıq ifadə etdi; qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə beynəlxalq humanitar təşkilatların dəstəyi ilə kənd təsərrüfatı layihələrinin həyata keçirilməsi, kiçik biznesin inkişafı, tibb məntəqələrinin tibbi ləvazimatlar və dənuanlar ilə təmin edilməsinə Azərbaycan hökumətinin ehtiyacı olduğunu bildirdi; son zamanlar bir sıra beynəlxalq təşkilatlarda Ermənistan nümayəndələri tərəfindən səsləndirlimiş guya bu dövlətin azərbaycanlı qaçqınlara 110 milyon dollar məbləğində kompensasiya verməsi barədə fikirlərinin yalan və əsassız olduğunu qeyd etdi; qondarma “Dağlıq Qarabağ Respublikası” tərəfindən maliyyələşdirilən xüsusi proqram çərçivəsində bu regiona daimi yaşayış üçün Ermənistandan və MDB ölkələrindən erməni ailələrinin köçürülməsinə Azərbaycan hökumətinin etirazını bildirdi; qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin üç fərman imzaladığını bildirdi®^.

Dekabr ayının 12-13-də BMT-nin Cenevrədəki Baş Qərargahında “Qaçqınların statusu haqqında” 1951-ci ildə qəbul edilmiş konvensiyanın 50 illiyinə həsr edilmiş nazirlər səviyyəsində keçirilmiş görüşdə Azərbaycan nümayəndə heyəti iştirak etdi^°'. İclasda 160-dan çox ölkənin, eyni zamanda 70 ölkənin baş nazir müavini, nazir və dövlət katibləri, bir sıra beynəlxalq humanitar təşkilatların nümayəndələri iştirak edirdilər. Azərbaycan nümayəndəsi çıxışında Ermənistan tərəfindən aparılmış etnik təmizləmə nəticəsində 1988-1989-cu illərdə azərbaycanlıların yaşadıqları

ARXINA. **01.11.2001 -29.11.2001**. Qovluq X26, v. 6**1 -62.**

[901] ARXINA. 21.11.2001-28.12.2001. Qovluq Xgl 1, v. 142-145.

yerlərdən son nəfərədək qovulması, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20%-nin, Dağlıq Qarabağ regionunun və ətrafındakı 7 rayonunun işğal edilməsi, qaçqın və məcburi köçkünlərin şəraitinin ağır olmasına dair faktları söylədi.

Azərbaycan tərəfi məsələyə dair mövqeyini bir daha 2001-ci il dekabrın 21-də BMT Baş Məclisinin 56-cı sessiyasında bəyan etdi. Xarici işlər naziri Vilayət Quliyev münaqişələrin qarşısının alınması, tərksilah, humanitar fəaliyyət məsələlərinə həsr olunmuş müzakirələrdə çıxış edərək Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edilməsinə, törədilən terror aktlarına diqqəti cəlb etdi, Ermənistanın təcavüzü nəticəsində yaranmış münaqişənin nəticələri, qaçqın və məcburi köçkünlərin vəziyyəti və s. haqqında Azərbaycanın mövqeyini bəyan etdi^°^.

BMT ilə əməkdaşlıq 2002-ci ildə də davam etdirildi. Həmin il yanvarın 21-də Yaşar Əliyev BMT yanında daimi nümayəndəliyin başçısı tə

yin edildi .Ona fövqəladə və səlahiyyətli səfir dərəcəsi verildi . İyun ayında Yaşar Əliyev BMT baş katibi Kofı Annana etimadnaməsini təqdim edərkən Azərbaycan dövlətinin bu təşkilatla əməkdaşlığa xüsusi diqqət yetirdiyini, beynəlxalq terrorizmə qarşı mübarizəyə töhfə verdiyini qeyd etdi. Ermənistan ilə münaqişənin Azərbaycan üçün əsas problem olaraq qaldığını bildirdi. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilmədiyini xatırlatdı'®^. Azərbaycandakı qaçqın və məcburi köçkünlərin ağır vəziyyətdə olduqlarını vurğuladı. Problemi həll etməyin yeganə yolunun onların doğma yaşayış yerlərinə qayıtması olduğunu qeyd etdi. Azərbaycan tərəfi BMT baş katibinin təşkilatlarda islahatlar aparılması təşəbbüslərini müdafiə edirdi.

Qaçqınlarla bağlı məsələlər 2002-ci il avqustun 2-də xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyevin BMT-nin Qaçqınların işi üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəsi D.Ley ilə görü-

ARXİNA. 08.08.2001-12.09.2001. Qovluq Xçll, v. 4-9.

Y.T.Əliyevin Birləşmiş Millətlər Təşkilatı yanında Azərbaycan Respublikasının daimi nümayəndəliyinin başçısı vəzifəsinə təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. 21 yanvar 2002-ci il. - Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2002.11 hissə, s. 25.

Y.T.Əliyevə Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri dərəcəsinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. 21 yanvar 2002-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. II hissə, s. 25.

ARXİNA. 13.02.2002-06.04.2002. Qovluq XsS, v. 132-133.

şündə də müzakirə edildi.^"® Söhbət zamanı D.Ley Azərbaycan ilə əməkdaşlığı yüksək qiymətləndirdi.

Artıq qeyd edildiyi kimi, Ermənistanın təcavüzü nəticəsində çoxlu sayda Azərbaycan vətəndaşı itkin düşmüşdü. Onların axtarılıb-tapılması başlıca problemlərdən biri idi. Buna görə də Azərbaycan tərəfi həmin məsələni BMT-də gündəliyə gətirərək 2002-ci ilin payızında keçirilən BMT Baş Məclisinin İnsan hüquqları üzrə komissiyasının 58-ci sessiyasında "İtkin düşmüş şəxslər" layihəsini irəli sürdü.^°' ABŞ və Danimarkanın təklifləri də layihəyə daxil edildi®°*. Layihənin dəstəklənməsi üçün Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində Çin, Fransa, Hindistan, İtaliya, Yaponiya, Liviya, Pakistan, Polşa, Rusiya Federasiyası, Səudiyyə Ərəbistanı, Gürcüstan, Böyük Britaniya, Almaniya, Rumıniya və Bolqarıstanın Bakıdakı səfirləri ilə görüşlər keçirildi. Səfirlər bu layihəni aktual hesab edirdilər.®®^

Azərbaycan tərəfi layihəni İKT deyil. Mərkəzi və Şərqi Avropa ölkələri regional qrupunun iclasında irəli sürməyi və qrupa daxil olan ölkələri həmmüəllif kimi qoşmağı uyğun gördü. Həmçinin müxtəlif ölkə və təşkilatlar tərəfindən təqdim edilmiş dinlərin təhqir edilməsinin qarşısının alınması (İKT), mühacirlərin hüquqları, mühacir işçilərin və onların ailə üzvlərinin qorunması üzrə beynəlxalq konvensiya (Meksika), qadın mühacir işçilərə qarşı zorakılıq (Filippin), insan hüquqları və terrorizm (Əlcəzair) tərəfindən irəli sürülmüş layihələrə Azərbaycan həmmüəllif kimi qoşuldu.^"'

Sessiya iclasında xarici işlər nazirinin müavini Xələf Xələfov çıxış etdi'". O, insan hüquq və azadlıqlarının təmin edilməsinin konstitusiyada dövlətin əsas məqsədi kimi elan edildiyini bildirdi. Azərbaycan bu zaman insan hüquqlarına dair bütün əsas beynəlxalq müqavilələrdə iştirak və beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq edirdi. Azərbaycan nümayəndəsi Ermənistanın Azərbaycana təcavüzü və ərazilərinin işğal edilməsi nəticəsində beynəlxalq humanitar hüququn tələblərinin, qaçqın və məcburi köçkünlərin hüquqlarının pozulduğunu, etnik təmizləməni həyata keçirdiyini diqqətə çatdırdı. Erməni terrorçuları tərəfindən törədilən aktları xatır-

' ARXİNA. 02.07.2002-23.09. 2002. Qovluq XaS, v.63-64.
' ARXİNA. 22.03.2002-03.05.2002. Qovluq X2S, v. 94-95.
[908] ARXİNA. 04.10.2002-28.12.2002. Qovluq X2S, v.32.
ARXİNA. 22.03.2002-03.05.2002. Qovluq XsS, v. 196-197.
ARXİNA. 22.03.2002-03.05.2002. Qovluq X2S, v. 142-143.
ARXİNA. 22.03.2002-03.05.2002. Qovluq X2S, v. 126-132.

ladaraq terrorun Ermənistanda dövlət siyasəti səviyyəsinə qaldırıldığını bildirdi.

Azərbaycan bu istiqamətdəki səylərini davam etdirirdi. 2002-ci il sentyabrın 15-də BMT Baş Məclisinin 57-ci sessiyasında xarici işlər naziri Vilayət Quliyev çıxış edərək 1987-1988-ci illərdə Ermənistan ərazisindən azərbaycanlıların qovulduğunu, 1992-1993-cü illərdə Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğal edildiyini, Azərbaycanın Dağlıq Qarabağ regionundan azərbaycanlıların didərgin salındığını, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilmədiyini, Minsk qrupunun səylərinin nəticə vermədiyini, qaçqın və məcburi köçkünlərin ağır vəziyyətdə yaşadığını bildirərək Ermənistanın təcavüzkarlığına son qoymaq üçün səyləri artırmağa çağırdı^'^.

Sessiyanın gündəliyindəki "Beynəlxalq terrorizmin aradan qaldırılması tədbirləri" haqqında bəndin müzakirəsində Azərbaycan Respublikasının mövqeyi bildirildi. Həmin mövqe aşağıdakı kimi idi^'^: 2001-ci il 11 sentyabr hadisələrindən sonra Azərbaycan Respublikası beynəlxalq koalisiyada iştirak edir, siyasi, iqtisadi, dini və digər motivlərdən asılı olmayaraq terrorizmin bütün forma və üsullarını ittiham edirdi. Azərbaycanın mövqeyinə görə, terrorizm əleyhinə mübarizə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə BMT çərçivəsində aparılmalı idi.

## Azərbaycan terrorizmə qarşı mübarizədə əməkdaşlığı genişləndirir. Əsir, girov və qaçqınlar məsələsi

Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının terrorizmə qarşı komitəsi və Əfqanıstan ilə bağlı sanksiya komitəsi ilə yaxından əməkdaşlıq edərək onlara Azərbaycanda terrorizmə qarşı mübarizə sahəsində reallaşdırılan tədbirlər haqqında müvafiq hesabatlar verdi. Həmçinin terrorizmlə əlaqəsi olan şəxslərin və təşkilatların siyahısını BMT Təhlükəsizlik Şurasının Əfqanıstana dair sanksiya komitəsinə təqdim etdi^'*. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası həmin vaxtadək BMT- nin terrorizmə dair mövcud olan 12 konvensiyasından 8-ə qoşulmuşdu, 4-ü isə müzakirə edilirdi. Ölkədə terrorizmə, xüsusilə də onun maliyyə-

---

Xarici işlər nazirinin BMT Baş Məclisinin 57-ci sessiyasında çıxışı, Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s.649-653.

[913] ARXINA. 04.10.2002-28.12.2002. Qovluq XaS, v.234-236.

' ARXİNA. 13.02.2002 - 06.04.2002. Qovluq XaS, v. 48-49.

ləşdirilməsinə qarşı mübarizə məqsədi ilə bir sıra kompleks tədbirlər həyata keçirilmişdi. Artıq qeyd edildiyi kimi, 2001-ci il oktyabrın 4-də Azərbaycan Respublikasının "Terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" BMT konvensiyasına qoşulması barədə qanunun tətbiqi üçün "Azərbaycan Respublikasının bəzi qanunlarına düzəlişlər və əlavələr haqqında" qanun qəbul edilmiş, Azərbaycan Respublikası Prezidentinin 11 oktyabr tarixli sərənacamından sonra qüvvəyə minmişdi^'^.

Azərbaycan terrorçulara aid mümkün olan maliyyə vəsaitlərinin müəyyən edilməsi üçün yerli banklara şübhəli terrorçu qruplar və şəxslər barədə məlumat göndərmişdi. Terrorizmə qarşı mübarizənin gücləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti 2002-ci il mayın 11-də BMT Təhlükəsizlik Şurasının 1368, 1373 və 1377 saylı qətnamələrinin həyata keçirilməsi haqqında sərəncam imzalamışdı.

Bundan əlavə, Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları tərəfindən beynəlxalq terrorizmlə əlaqəsi olan bir neçə şəxs saxlanılmışdı. Azərbaycanın dövlət orqanları terrorçu dəstələrini dəstəkləməkdə ittiham olunan bəzi qeyri-hökumət təşkilatlarının qeydiyyatını ləğv etmişdi. Beynəlxalq terrorçuların axtarılıb tapılması üçün milli hüquq-mühafizə orqanları tərəfindən profilaktik və operativ əməliyyat tədbirləri gerçəkləşdirilmişdi. 11 sentyabr hadisələrindən sonra Azərbaycan Respublikası özünün sərhədləri boyunca patrul nəzarətini gücləndirmişdi. Sərhədi qanunsuz keçməyə cəhd edən bəzi şəxslər saxlanılmışdı. Azərbaycan beynəlxalq terrorizmlə əlaqəli olmaqda ittiham olunan 8 nəfər xarici ölkə vətəndaşını dövlətlərinə təhvil vermişdi.

Azərbaycan Ermənistan tərəfindən dəstəklənən və maliyyələşdirilən erməni terrorizminin qurbanı olmuşdu. Azərbaycana qarşı terror aktları törədilmiş, 2 mindən çox insan həlak olmuş və yaralanmışdı. Hələ BMT- nin 50 və 51-ci sessiyaları zamanı Azərbaycan Respublikası tərəfindən buna dair müvafiq məlumatlar təqdim olunsa da, dünya birliyi o zaman bu problemə kifayət qədər diqqət yetirməmişdi. Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində Ermənistan Respublikasının silahlı qüvvələrindən yardım almaqla yanaşı, həm də qanunsuz silah, narkotik maddələr və insan ticarəti, gizli iqtisadi fəaliyyətdən gəlir əldə edən beynəlxalq erməni terror qruplaşmalarından dəstək alan qanunsuz rejim mövcud idi. Bu səbəbdən Azərbaycan Respublikası BMT üzvü olan bəzi dövlətlər tərəfindən terrorizmin dəstəklənməsi probleminə və belə prak-

' ARXİNA. 06.10.2001-22.12.2001. Qovluq Ro6, v.103-104.

tikanın aradan qaldırılması məsələsinə ciddi diqqət yetirməyi tələb edir, dünya ictimaiyyətinin diqqətini erməni terrorizminə qarşı mübarizə aparılmasına yönəldirdi. Ermənistan rəsmiləri isə terror aktlarının ayr-ayrı şəxslər tərəfindən törədildiyini bildirsələr də, terroru ittiham etmir və hətta buna haqq qazandırmağa çalışırdılar. Terrorçular Ermənistanda sığınacaq tapır və qəhrəmanlar kimi qarşılanırdılar. Cinayət əməllərinə görə ittiham olunmuş erməni terrorçuları Ermənistan siyasi elitasının siyahısında idi, siyasi dairələr və partiyalar tərəfindən müdafiə olunurdular. Birləşmiş Ştatlar ərazisində törətdiyi cinayətə görə ittiham edilmiş ABŞ vətəndaşı Monte Melkonyan Azərbaycana hücum zamanı öldürülsə də, ona milli qəhrəman adı verilmişdi.

İşğal edilmiş Azərbaycan ərazilərində erməni terror təşkilatlarının hərbi-təlim düşərgələri yerləşirdi. ASALA və HAYDUD kimi erməni terror təşkilatlarının fəaliyyəti üçün əlverişli şərait yaradılmışdı. İşğal edilmiş Kəlbəcər rayonunda Beyrutda yaşayan erməni O.Ter Qriqoryanm başçılığı altında "Geri dönmüş qəhrəmanlar". Laçında C.Şaomyanın başçılığı altında PKK terror təşkilatının dəstəsi, A.Babacanyanm başçılığı altında "Vartamn cəngavərləri", Xankəndində Qalustyanın başçılığı altında "Milli dirçəliş təşkilatı" fəaliyyət göstərirdi. Bu səbəbdən də Azərbaycan dövləti işğal edilmiş ərazilərində terrorçu rejimin ləğv edilməsi və bütün ərazilərində öz suveren hüquqlarının bərpa olunması zərurətinə beynəlxalq ictimaiyyətin diqqətini cəlb edirdi.

Azərbaycan Respublikası böhranlar zamanı BMT-nin beynəlxalq ictimaiyyət tərəfindən humanitar yardım göstərilməsinin lazımi səviyyədə əlaqələndirilməsinin təmin edilməsində fəaliyyətin gücləndirilməsi mövqeyindən çıxış edirdi. Bu mövqeyə görə, yalnız birgə səylər və lazımi əlaqələndirilmə nəticələrin əldə edilməsi və səmərəliliyin artırılması üçün əlverişli şərait yaradardı. Azərbaycan fövqəladə vəziyyətlərin tənzimlənməsində idarəetmənin gücləndirilməsinin təmin edilməsi məqsədi ilə BMT-nin Fövqəladə yardım üzrə əlaqələndiricisinin fəaliyyətinə hərtərəfli dəstək verir, humanitar böhranların bütün növlərinin ağır nəticələrini nəzərə alaraq məcburi köçürülməyə, iqtisadi, sosial və ekoloji problemlərə diqqəti yönəldirdi. Azərbaycanın mövqeyinə görə, məcburi köçkünlərin probleminin aradan qaldırılması istiqamətində işlər bir neçə istiqamətdə həyata keçirilməli idi: bir tərəfdən müntəzəm və məqsədyönlü humanitar yardım edilməsi, digər tərəfdən isə bu sahədə mövcud olan beynəlxalq hüquqi çərçivənin genişləndirilməsi. Məcburi köçkünlər problemi yalnız münaqişələrin beynəlxalq hüququn norma və prinsipləri əsasında nizam

lanması və bu insanların könüllü surətdə doğma yerlərinə qayıtmasından sonra tam həllini tapa bilərdi. Humanitar yardımdan inkişafa keçid paralel şəkildə aparılmalı idi. Azərbaycan Respublikası kompleks humanitar fövqəladə vəziyyətlərin aradan qaldırılmasında hərtərəfli yanaşmanın tətbiq edilməsini məqsədəmüvafıq hesab edirdi. Kompleks xarakter daşıyan, hərbi münaqişə, təbii fəlakət və iqtisadi böhranların nəticələrini özündə birləşdirən fövqəladə vəziyyətlərin aradan qaldırılmasında bütün aspektlər, o cümlədən siyasi, iqtisadi, hüquqi və humanitar aspektlər nəzərə alınmalı idi. Humanitar yardımdan inkişafa keçidlə bağlı BMT strategiyasının işlənib hazırlanmasını Azərbaycan vacib hesab edirdi.

BMT-nin İqtisadi və Sosial Şurasının Cenevrədə iyulun 16-27-də keçirilən əsas sessiyasının ümumi seqmentində iştirak edən Azərbaycan nümayəndə heyəti eyni mövqedən çıxış etdi. BMT-nin Qaçqınların işi üzrə Ali Komissarlığı tərəfindən yardımların dayandırılacağı ehtimalının Azərbaycan Respublikası hökumətində narahatlıq doğurduğu bildirildi. Azərbaycan Respublikası Dağlıq Qarabağ münaqişəsinin uzunmüddətli olduğunu nəzərə alaraq belə yanaşmanı düzgün hesab etmirdi. Cənubi Qafqaz dövlətlərində qaçqın və məcburi köçkünlərin yaranmasının əsas səbəbi regionda davam edən və insan hüquqlarının pozulması, xüsusilə də etnik təmizləmələr ilə müşahidə olunan münaqişələr idi®’®.

Azərbaycanın qarşısında duran vəzifələrdən biri Ermənistan tərəfindən əsir və girov götürülmüş şəxslərin azad edilməsi idi. 2003-cü il sentyabrın 1-ə olan məlumata görə, erməni əsir və girovluğundan 1333 nəfər azad edilmişdi. Onlardan 129 nəfəri uşaq, 312 nəfəri isə qadın idi. 783 nəfər Azərbaycan vətəndaşının ermənilər tərəfindən əsir və girov götürülməsi beynəlxalq təşkilatlardan, o cümlədən Beynəlxalq Qırmızı Xaç

Komitəsindən gizlədilmişdi. Almaniya, Rusiya və Gürcüstan hüquq müdafiəçilərindən ibarət əsir və girov götürülmüş şəxslərin azad edilməsi, itkin düşmüş şəxslərin axtarışı üzrə beynəlxalq işçi qrupun üzvləri axtarış prosesində bu şəxslərdən bir qisminin həqiqətən də əsir götürülməsi və sonrakı taleləri barədə məlumatların gizlədilməsinə dair faktları təsdiq etmişdilər.

Azərbaycan tərəfindən daxil olan məlumatlar göstərirdi ki, qeyd olunan siyahıdakı şəxslərin böyük əksəriyyəti erməni əsirliyində öldürülmüş, yaxud işgəncə və xəstəliklərdən vəfat etmiş, az bir hissəsi isə gizlə-

ARXİNA. 02.05.2003-01.09.2003. Qovluq XaS, v. 121-124.
ARXİNA.. 05.04.2003-26.09.2003. Qovluq XaS, v. 25.

dilərək ağır fiziki işlərdə qul kimi istifadə edilirdi. Ermənilər tərəfindən əsir və girov götürülmüş, lakin sonradan taleyi məlum olmayan şəxslərdən 18 nəfəri uşaq, 46 nəfəri isə qadın idi. Azərbaycan bu sahədə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası, Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə əməkdaşlıq edirdi.

Bununla belə, hələ çoxlu problemlər qalırdı. Soyuq müharibə başa çatdıqdan sonra yaranmış yeni şəraitdə BMT-nin bir sıra problemlərinin ortaya çıxması, qəbul edilən qətnamələrin yerinə yetirilməməsi və s. bu təşkilatda islahatların aparılmasını zəruri edirdi. Azərbaycan Respublikası islahatların aparılmasına tərəfdar çıxırdı.

## Azərbaycan Respublikası BMT-də islahatların apanimasını istəyir

Azərbaycanın bu məsələyə dair mövqeyi BMT Baş Məclisinin 58-ci sessiyasında təqdim edildi. 2003-cü il avqustun 4-də Azərbaycan Respublikasının Baş Naziri təyin edilən İlham Əliyevin BMT Baş Məclisinin iclasında iştirakı üçün səfər proqramı hazırlandı^'*. Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyevə görüşlərin təşkili üçün tapşırıqlar verildi’'®.

Sentyabrın 23-25-də Azərbaycanın Baş Nazirinin BMT Baş Məclisinin 58-ci sessiyasının açılışında iştirak etməsi və nitq söyləməsi bu təşkilatla əməkdaşlıqda mühüm hadisə oldu’^°. Sessiya iclasında nitq söyləyən İlham Əliyev açıq şəkildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələri yerinə yetirə bilmədiyini, onun üzvləri arasında fikir ayrılıqlarının olduğunu, bunun Təhlükəsizlik Şurasının fəaliyyətinə, İraq, digər münaqişə və böhranlı vəziyyətlərə münasibətdə təsir etdiyini vurğuladı. BMT-nin mövcud mexanizmlərinin tələblərə cavab vermədiyini, köklü

Activity Report N2:010/2003. 12 July - 5 August 2003. Azerbaijan confırms New Prime Minister. - OSCE Archive in Prague. Azerbaijan fıle. OSCE Office in Baku. Field activites. ActionsVReactions.Others.Press Releases. 2001-2003. l.File No 572.

ARXİNA. 05.04.2003-26.09.2003. Qovluq Ns S, v.l 15.

Azərbaycan Respublikasının Baş Naziri İlham Əliyevin Nyu Yorka işgüzar səfəri. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. I hissə, s.401; ARXİNA. 05.04.2002-26.09.2003. Qovluq XaS, v.59-64.

islahatların aparılması zəruriliyini deyərək, Azərbaycan Respublikasının təşkilatın baş katibinin islahatlar təklifini müdafiə etdi.

Baş Nazir beynəlxalq terrorizm məsələsinə toxunaraq Azərbaycanın erməni terrorunun qurbanı olduğunu vurğuladı. Terrorçuların nüvə materialı və texnologiyasını ələ keçirmək imkanlarının olduğunu xatırladan Baş Nazir Azərbaycanın da belə bir regionda yerləşdiyini dedi. Dövlət səviyyəsində himayə edildiyindən terrorizmə qarşı səmərəli mübarizə aparmağın mümkünsüzlüyünü bildirdi. Terror təşkilatlarının işğal edilmiş "boz ərazilərdə" yerləşməsini təhlükəli adlandırdı^^'.

İlham Əliyev on ildən artıq davam edən Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzərində dayandı. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin Ermənistan tərəfindən inkar edildiyini, işğal edilmiş ərazilərin azad edilmədiyinə diqqəti yönəldib, Minsk qrupunun fəaliyyətini tənqid edərək müvafiq tədbirlər görmədiyini vurğuladı. Azərbaycanın münaqişənin dinc siyasi vasitələrlə həllinə tərəfdar, güzəştlərə getməyə hazır olduğunu, lakin "yaranmış reallıqla" barışmayacağmı və ərazisinin bir qarışını da verməyəcəyini birmənalı bəyan etdi. Azərbaycan yalnız əraziləri azad edildikdən sonra Ermənistan ilə normal dövlətlərarası münasibətlər qura və əməkdaşlıq edə bilərdi. Ermənistan hakimiyyətinin təcavüzkar millətçilik, etnik üstünlük qazanmaq siyasəti nəticəsində bu ölkənin dərin böhran keçirdiyini də diqqətə çatdırdı. Baş Nazir BMT Təhlükəsizlik Şurasını qəbul etdiyi qətnamələri yerinə yetirməyə dəvət etdi. Münaqişə nəticəsində yaranmış qaçqın və məcburi köçkünlərin vəziyyətindən, onun yaxşılaşdırılması üçün həyata keçirilən tədbirlərdən danışarkən BMT və müvafiq qurumları azərbaycanlı qaçqın və məcburi köçkünlərin vəziyyətinə diqqət yetirməyə, onların daimi yaşayış yerlərinə qayıtmasına kömək etməyə çağırdı, Ermənistanın təcavüzünün Azərbaycan iqtisadiyyatına vurduğu ziyan üzərində də dayandı.

Azərbaycanın Baş Nazirinin nitqi böyük əhəmiyyət daşıyırdı. Hər şeydən əvvəl, tarixində ilk dəfə olaraq Azərbaycanın Baş Naziri BMT kürsüsündən dünya birliyinə xitab edirdi. İkincisi, bu kürsüdən Azərbay-

Azərbaycan Respublikasının Baş Naziri İlham Əliyevin BMT Baş Məclisi 58- ci sessiyasında çıxışı. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. I hissə, s.405-408; Statement by ilham Aliyev Prime Minister of the Republic of Azerbaijan at the General debate of the 58-th session of the General Assembly. September 24, 2003. New York. - OSCE Archive in Prague. Azerbaijan file. OSCE Office in Baku. Field activites. Actions\Reactions. Others. Press Releases. 2001-2003.1. FileNb572.

cana qarşı Ermənistanın işğalçılıq siyasəti birmənalı olaraq ifşa edilir, təcavüzün nəticələrinin təkcə Azərbaycan deyil, region və bütün dünya üçün təhlükəli olduğu deyilirdi. Bu nitq dünya problemlərinin açıq, konkret və dərindən qoyulması və həllinə yönəlməsi baxımından diqqəti cəlb edirdi. Nitqdə BMT mexanizmlərinin zamanın tələblərinə cavab vermədiyi, bununla bağlı islahatların aparılması. Təhlükəsizlik Şurasının tərkibinin genişləndirilməsi, xüsusən veto hüququna yenidən baxılmasının vacibliyi bildirilir, dünyada baş verən terror aktlarını qınayaraq Ermənistanın Azərbaycana qarşı təcavüzü və nəticələri üzərində dayanılırdı^^^. Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin yerinə yetirilməməsi qabardılır, qaçqın və məcburi köçkünlərin ağır vəziyyətinə diqqət cəlb edilir, iqtisadiyyat sahəsində Azərbaycanın beynəlxalq əlaqələrindən, beynəlxalq layihələrdən söz açılır və sivilizasiyalararası dialoqun vacibliyi vurğulanırdı. Nəhayət, soyuq müharibə dövrü başa çatdıqdan sonrakı dövrdə BMT-nin üzləşdiyi problemlər və islahatların aparılması zəruriliyi gündəliyə gətirilirdi. Məlum olduğu kimi, soyuq müharibə dövründə BMT bir-birinə zidd olan iki sistem ölkələri arasında münasibətlərdə sanki bir tarazlaşdırıcı rol oynayırdı. Soyuq müharibə başa çatdıqdan sonra yaranmış yeni şəraitdə isə BMT-nin yeri və funksiyalarının nədən ibarət olması barədə çoxlu müzakirələr gedirdi. BMT bir sıra problemlərlə üzləşmişdi. Təşkilatın qlobal problemlərin həllinə təsir imkanları azalmışdı, münaqişələrin həlli üçün qəbul etdiyi qərarlar yerinə yetirilmirdi, bəzi ölkələr təşkilatın büdcəsinə vəsait ayırmağa, qoşun hissələrini sülhməramlı qüvvələrin tərkibinə verməyə tərəddüd edirdilər. Buna görə də BMT üzvü olan bir sıra ölkələr təşkilatda islahatların aparılmasını zəruri sayırdılar.

BMT-nin nüfuzdan düşməsinə və qəbul etdiyi qərarların icra olunmamasına konkret nümunə Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinə dair dörd qətnamə idi. Ermənistan qətnamələri yerinə yetirməyərək Azərbaycan ərazilərinin işğalını davam etdirirdi. Təşkilatın üzvü olan bəzi digər ölkələr də BMT-də islahatların aparılmasını zəruri hesab edirdilər. Təşkilat itirilmiş nüfuzunu bərpa etmək üçün bir sıra addımlar atmağa çalışırdı. Lakin Təhlükəsizlik Şurasının islahatları üzrə BMT-də aparılan müzakirələrdə Şuranın genişlənməsi məsələsində dövlətlər arasında dərin fikir ayrılığı mövcud idi. Azərbaycan Respublikası BMT nizamnaməsinə uyğun olaraq beynəlxalq

Babaoğlu H. Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu, S.190.

sülh və təhlükəsizliyin qorunmasına cavabdeh olan təşkilatın əsas qurumunun rolunun təkmilləşdirilməsinə yönəlmiş Təhlükəsizlik Şurasının islahatlarını dəstəkləyirdi. Əlbəttə, Təhlükəsizlik Şurasının islahatları ideyası yalnız onun üzvlərinin sayının artırılması ilə məhdudlaşmırdı. Azərbaycan dövləti Təhlükəsizlik Şurasının iş metodlarının səmərələşdirilmə- sinə, qərarların qəbul edilməsi prosesinin daha şəffaf şəkildə keçirilməsinə, bu qurumun fəaliyyəti üzrə cavabdehliyinin artırılmasına, üzv olmayan ölkələr üçün onun məsləhətləşmələr prosesində və işində fəal iştiraklarına imkan yaradılmasına və qəbul etdiyi qərarların reallaşdırılma- sına tərəfdar idi. Azərbaycanın mövqeyinə görə. Təhlükəsizlik Şurasının tərkibinin genişləndirilməsi BMT-nin üzvü olan dövlətlərin bərabər iştirakı və daha geniş şəkildə cəlb olunması üçün ədalətli coğrafi təmsilçiliyə əsaslanmalı idi. SSRİ dağıldıqdan sonra üzvlərinin sayının iki dəfədən çox artdığını nəzərə alan Azərbaycan mənsub olduğu Şərqi Avropa regional qrupuna Təhlükəsizlik Şurasında əlavə bir qeyri-daimi yer ayrılmasını təklif edirdi.

Ümumiyyətlə, Azərbaycan Respublikasının BMT ilə əməkdaşlığının böyük əhəmiyyəti olmuşdur. Müxtəlif istiqamətlərdə həyata keçirilən əməkdaşlıq ölkənin müstəqilliyinin möhkəmləndirilməsində mühüm rol oynamışdır. Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həlli, istiqamətində səylər, işğal edilmiş ərazilərdə yaranmış şərait, qaçqın və məcburi köçkünlərin, əsir və girovların vəziyyəti, terrorizmə qarşı mübarizə məsələləri gündəlikdə saxlanılmışdır. Azərbaycan BMT-nin bir sıra konvensiyalarına qoşulmuşdur. Təşkilatın ixtisaslaşdırılmış qurumları ilə sıx əlaqələr saxlamışdır. Azərbaycan Respublikası BMT-də islahatların aparılmasını dəstəkləmişdir.

# AVROPADA TƏHLÜKƏSIZLIK VƏ ƏMƏKDAŞLIQ TƏŞKİLATI İLƏ ƏMƏKDAŞLIĞIN QURULMASI VƏ İNKİŞAFI

## İlk addımlar

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının üzv olduğu və əməkdaşlıq etdiyi təşkilatlardan biri 1975-ci il avqustun 1-də 33 Avropa dövləti, ABŞ və Kanadanın iştirakı ilə Helsinkidə Yekun aktının qəbul edilməsilə qurulmuş Avropada Təhlükəsizlik və Əməkdaşlıq məsələləri üzrə Müşavirə oldu. Azərbaycan Respublikası 1992-ci il yanvarın 30-da ATƏM-ə üzv qəbul edildi®^^ Bu, Azərbaycanın üzv olduğu ilk Avropa təşkilatıdır^^'*. Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy (Əliyev) ATƏM-in 1992-ci il iyulun 8-10-da Helsinkidə keçirilən dövlət və hökumət başçılarının zirvə görüşündə iştirak edərək sənədlərini imzaladı^^^. ATƏM ilə əməkdaşlıqda başlıca məqsəd Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, Ermənistanın təcavüzünü dayandırmaq, nəticələrini aradan qaldırmaq və ölkədə qabaqcıl Avropa dəyərlərini bərqərar etmək idi.

Bundan sonra əməkdaşlıqda bir sıra tədbirlər həyata keçirilməyə başlandı. ATƏM Nazirlər Şurasının 1992-ci il dekabrın 14-15-də Stokholmda keçirilən III iclasında çıxış edən xarici işlər naziri Tofiq Qasımov Ermənistanın təcavüzkarlığına, onun qarşısının alınmasına dair çağırış etdi və təhlükəsizliyin təmin olunmasında ATƏM-in rolunun artırılmasının əhəmiyyətini vurğuladı®^®. Azərbaycan tərəfi ATƏM ilə əməkdaşlığa xüsusi önəm verərərk onu genişləndirmək üçün səylər edirdi.

---

1992.30-31 January (Prague) 2"^ Council of Ministers of Foreign Affairs,- OSCE Archive in Prague. Journal No. 2.

[924] ARXINA. 2008.

Abbasov T., Mirzəyev S. Dövlət başçılarının Avropa zirvəsi (8-10 iyul 1992). Bakı, 1992, s. 17-19.

14-15 December 1992 (Stockholm). 3'^'* Council of Ministers of Foreign Affairs. - OSCE Archive in Prague.

## Azərbaycan Respublikası Paris xartiyasına qoşulur

Azərbaycan dövlətinin niyyətləri özünü 1993-cü il dekabrın 20-də ATƏM-in Paris xartiyasının imzalanmasında göstərdi. Xartiyada Avropanın bölünməsinin və qarşıdurma dövrünün başa çatdığı, Avropanın keçmişin mirasından xilas olduğu, insan haqları, demokratiya və qanunun aliliyi, ayrı-seçkiliyə yol verilməməsi, iştirakçı dövlətlər arasında dostluq münasibətləri, bütün mübahisələrin dinc yollarla həlli, təhlükəsizliyin və birliyin təmin edilməsi və s. məsələlər qeyd edilirdi'^^

ATƏM ilə əməkdaşlıqda növbəti addım 1994-cü il dekabrın 5-6-da üzv ölkələrin dövlət və hökumət başçılarının Budapeştdə keçirilən zirvə toplantısında Azərbaycan Prezidenti Heydər Əliyevin iştirakı oldu. Toplantıda ATƏM 1995-ci il yanvarın 1-dən etibarən yeni Avropanın sivilizasiyalı birgəyaşayış qaydalarını müəyyən edən, sülh, demokratiya və insan hüquqlarının qorunmasını təmin edən, üzv ölkələrin təhlükəsizliyini və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərini həyata keçirən, özünüidarə mexanizmi olan ümumavropa təşkilatına - ATƏT-ə çevrildi. Təşkilatın müvafiq sənədlərini Azərbaycan Respublikasının Prezidenti imzaladı. Artıq qeyd edildiyi kimi. Dağlıq Qarabağ münaqişəsinə dair məsələ ilk dəfə olaraq zirvə görüşünün gündəliyinə daxil edildi. Münaqişənin həllində bir dövlətin inhisarının yaradılması cəhdlərinin qarşısı alındı.

ATƏT xarici işlər nazirlərinin 1995-ci il dekabrın 7-8-də Budapeştdə keçirilən 5-ci iclasında iştirak edən xarici işlər naziri Həsən Həsənov Avstriya nümayəndə heyətinin rəhbəri xarici işlər naziri Volfanq Şyüssel,^^^ AFR xarici işlər naziri, federal kanslerin müavini Klaus Kin- kel^^^ və Böyük Britaniyanın xarici işlər və birlik işləri üzrə dövlət katibi Malkolm Rifkind^^® və b. ilə görüşərək Dağlıq Qarabağ münaqişəsinin

**OapHÄCKajı xapTHH** ana HOBOH **Esponu. HoBaa apa acMORparan, Mnpa** H **eaHHCTBa. - www.law.edu.ru**

Volfanq Şyüssel (1945) - federal iqtisadiyyat naziri (1989-1995), vitse-kansler və xarici işlər naziri (1995).

Klaus Kinkel (1936) - ədliyyə naziri (1991-1992), xarici işlər naziri (1992), vitse-kansler (1993).

Malkolm Rifkind (1946) - xarici işlər və daxili işlər naziri (1983-1986), Şotlandiyanın dövlət katibi (1986-1990), nəqliyyat naziri (1990-1995), xarici işlər və birlik işləri üzrə nazir (1995).

həlli istiqamətində səylərə və ikitərəfli münasibətlərin inkişaf etdirilməsinə dair müzakirələr apardı"'.

Azərbaycan Respublikasının ATƏT ilə münasibətlərində xüsusi yeri 1996-cı il dekabrın 2-3-də Lissabonda 54 dövlətin iştirakı ilə keçirilən zirvə görüşü tutdu. Azərbaycan Respublikasının Prezidenti iştirakçı dövlət tərəfindən qəbul edilən "Avropada XXI əsrdə ümumi və hərtərəfli təhlü kəsizlik modeli" adlı bəyannaməni imzaladı. Ümumi Avropa təhlükəsizliyinin modelinin əks olunduğu bu sənəd qitədə müasir beynəlxalq münasibətlər baxımından əhəmiyyət daşıyırdı.

Artıq qeyd edildiyi kimi, Lissabon zirvə görüşündə Ermənistan - Azərbaycan münaqişəsinin həllinə dair ATƏT üzvü olan dövlətlər tərəfindən (Ermənistan istisna olmaqla) aşağıdakı prinsiplərə razılıq verildi; Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü; Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək özünüidarəetmə statusunun verilməsi; Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təminatı.

Zirvə görüşündən sonra, 1997-ci il yanvarın 1-dən etibarən ATƏT- in Minsk prosesinə həmsədrlər qismində ABŞ, Rusiya və Fransa başçılıq etməyə başladılar. ATƏT-in fəaliyyətdə olan sədrinin ATƏT-in Minsk konfransının müzakirəsində olan münaqişə üzrə şəxsi nümayəndəsi vəzifəsinə Polşa nümayəndəsi səfir Anjey Kasprşik təyin edildi.

ATƏT - Azərbaycan əməkdaşlığı genişlənirdi. 1998-ci il noyabrın 25-26-da Azərbaycana səfər edən ATƏT-in fəaliyyətdə olan sədri Polşanın xarici işlər naziri Bronislav Geremeki qəbul edən Heydər Əliyev Polşa ilə əlaqələrə böyük əhəmiyyət verdiyini, Minsk qrupunun həmsədrlərinin ümumi dövlət təkliflərini rədd etdiklərini və Azərbaycan ərazilərinin işğal altında olduğunu bildirdi"^.

Səfər zamanı Azərbaycan Respublikası ilə ATƏT-in demokratik təsisatlar və insan hüquqları bürosu arasında memorandum imzalandı. İmzalanma mərasimindən sonra Heydər Əliyev və ATƏT sədri Bronislav

ARXINA. 1995. Qovluq X? 20, v. 1-119.

**JlHccaöoHCKan aeKJiapauHH o MO^ean oömeıı н BceoöeMjnomeü öesonacHOCXH HJia** Esponbi XXI **вска.** - OSCE **Archive** in **Prague.** Lisbon summit. 2-3 **December,** 1996. Statements. FileNo:226.

Əliyev H.Ə. ATƏT-in hazırki sədri, Polşanın xarici işlər naziri Bronislav Geremek ilə təkbətək görüşdəki söhbətdən. 25 noyabr 1998-ci il. — Müstəqilliyimiz əbədidir. XVIll kitab, s. 261-265.

Geremek bəyanatla çıxış edərək qurum ilə Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsi perspektivlərindən danışdılar^^'*.

Aparılan müzakirələr qarşılıqlı münasibətlərə impuls verirdi. Lakin münasibətlərə daimi əsas vermək zəruri idi. Bu baxımdan ATƏT-in fəaliyyətdə olan sədri Norveçin xarici işlər naziri Knut Vollebekin 1999- cu il sentyabrın 17-18-də Azərbaycana səfəri mühüm rol oynadı. Müzakirələr zamanı əməkdaşlığa daimi əsas vermək haqqında razılıq əldə olundu. Səfərdən az sonra, noyabrın 16-da ATƏT-in Bakıda ofisinin qurulması haqqında ATƏT Daimi Şurasının 318 saylı qərarı qəbul edildi. Ofisin açılması üçün hazırlıqlara başlandı.

## İstanbul zirvə görüşü. Avropada adi silahlı qüvvələr haqqında müqavilə məsələsi və Azərbaycan

Azərbaycan - ATƏT əməkdaşlığında mühüm yerlərdən birini 1999- cu il noyabrın 18-19-da İstanbulda keçirilən ATƏT-in dövlət və hökumət başçılarının zirvə görüşü tutdu. Toplantıda nitq söyləyən Heydər Əliyev Cənubi Qafqazda təhlükəsizlik, sülh və əməkdaşlıq üçün pakt yaradılması təklifi ilə dövlətlərə müraciət etdi. Bu təklif işğal edilmiş ərazilərin boşaldılmasını, münaqişələrin tənzimlənməsini və region dövlətləri arasında əməkdaşlığın qurulmasını nəzərdə tuturdu. Heydər Əliyev Azərbaycan Respublikası adından İstanbul bəyannaməsini və Avropa təhlükəsizlik xartiyasına qoşulmağa dair sənədi imzaladı.

İstanbul bəyannaməsinin qəbul edilməsinin böyük əhəmiyyəti var idi. Sənəddə təhlükəsizliyin, əmin-amanlığın təmin edilməsi üçün lazımi maddələr - mövcud reallıqlar, yəni Paris xartiyasından sonra baş vermiş hadisələr və onlara münasibət əks olunmuşdu. Bəyannamənin əsas məğzi ölkələrin ərazi bütövlüyünün, müstəqilliyinin qorunması, təhlükəsizliyinin təmin edilməsi, sülhün möhkəmləndirilməsi, insan haqlarının qorunması, demokratiyanın inkişaf etdirilməsi və b. məsələlər idi.

Əliyev H.Ə. Azərbaycan Respublikası ilə ATƏT-in demokratik təsisatlar və insan hüquqları bürosu arasında memorandum imzalandıqdan sonra kütləvi informasiya vasitələrinin nümayəndələri üçün keçirilmiş brifinqdə bəyanat. 25 noyabr 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVIII kitab, s. 275-276; ATƏT-in hazırki sədri Bronislav Geremekin bəyanatı. 25 noyabr 1998-ci il. — Müstəqilliyimiz əbədidir. XVIII kitab, s.276-277.

İstanbul zirvə görüşünün ikinci böyük sənədi Avropada adi silahlı qüvvələr haqqında müqavilə (AASQM) oldu. Müqaviləni daha 22 dövlət imzaladı. Qeyd etmək lazımdır ki, hələ 1990-cı il noyabrın 19-da 16 NATO və 6 Varşava bloku ölkələri arasında Parisdə adi silahı qüvvələr haqqında müddətsiz müqavilə imzalanmışdı. Müqavilə beş kateqoriya silah üzrə (döyüş tankları, zirehli döyüş maşınları (ZDM), 100 mm. yuxarı artilleriya qurğusu, döyüş təyyarəsi və hücum vertolyotları) yuxanda qeyd olunan hərbi-siyasi bloklar arasında bərabər məhdudiyyətlər (tavanlar) tətbiq edirdi. Müqavilənin məqsədi Avropada adi silahların aşağı səviyyədə təhlükəsiz və sabit nisbətini saxlamaq, sabitlik və təhlükəsizliyə zidd olan bərabərsizliyi aradan qaldırmaq, əsas prioritet kimi gözlənilməz və irimiqyaslı hücumların qarşısını almaqdan ibarət idi. AASQM Avropa təhlükəsizliyinin "təməl daş"ı rolunu oynamaq niyyəti güdürdü. Müqavilə Atlantik okeanından Urala qədər olan quru ərazidə Şərq və Qərb blokları arasında adi silahlar sahəsində tarazlığı nəzərdə tuturdu. Belə olduqda Rusiya ərazisinin bir hissəsi, ABŞ və Kanadanın bütün ərazisi bu müqavilənin təsirindən kənarda qalırdı.

Varşava blokuna daxil olan ölkələr onlara ayrılmış tavanları aralarında bölüşdürmüşdülər. Müqaviləni imzalayan dövlətlər Varşava blokunun süquta uğradıqdan sonra AAQSM-in qüvvəyə minməsinin elə ilk vaxtlarından onun yeni reallıqlara uyğunlaşdırılması istiqamətində səylərə başladılar. 1992-ci ildə bu məsələyə yenidən baxıldı. Rusiya MDB ölkələrinin başçılarını 1992-cı il mayın 14-15-də Daşkəndə topladı. SSRİ dağıldıqdan sonra mayın 15-də bu müqavilə üzrə hüquqi varis olan 8 müstəqil dövlət - Azərbaycan, Belarus, Qazaxıstan, Ermənistan, Gürcüstan, Moldova, Rusiya və Ukrayna müqavilənin yerinə yetirilməsi prinsipləri haqqında saziş, adi silahların və texnikanın maksimum səviyyələri haqqında protokol imzaladılar. Protokola uyğun olaraq Cənubi Qafqazın üç dövlətinin hər biri üçün müqavilə ilə məhdudlaşdırılan silahların və texnikanın aşağıdakı maksimum səviyyələri müəyyənləşdirilmişdi. Buna görə, döyüş tankları-220, zirehli döyüş maşını-220, artilleriya sistemləri 285, döyüş təyyarələri-100, zərbə vertolyotları-50 müəyyən edilmişdi. Bu məhdudlaşmalar dövlətin hərbi-siyasi parametrlərindəki fərqi nəzərə almırdı. Azərbaycana həmin respublikalarla bərabər kvotanın verilməsi ədalətsizlik idi. Ona görə də Azərbaycan müqaviləni imzalamağı uzadırdı. Azərbaycan eskpertlərinin fikrincə, Azərbaycan təxminən 415-420 tank, bir o qədər BMP, top, ümumiyyətlə, beş növ silah saxlaya bilərdi. Av

ropada adi silahlı qüvvələr haqqında müqaviləni®^^ Azərbaycan Respublikası Milli Məclisi 1992-ci il iyunun 10-da təsdiq etdi^^^. Bununla da Azərbaycan müqaviləyə qoşuldu.

AASQM-ə qatılan dövlətlər müqavilə üzrə 1996-cı ildə keçirilən 1-ci İcmal konfransının nəticəsində Rusiyanın tələbi ilə bu ölkənin ərazisində olan cinah rayonunun ərazisini kiçiltdilər, orada müqavilə ilə məhdudlaşan silahların yerləşdirilməsi tavanlarını bir qədər yüksəltdilər. Cinah sazişində nəzərdə tutulan cinah zonaları xüsusi siyasi və hərbi əhəmiyyətli subzonalar olub, aşağıdakı əraziləri əhatə edirdi: Azərbaycan, Rusiya, Norveç, İslandiya, Ukrayna, Gürcüstan, Ermənistan, Moldova, Türkiyə, Yunanıstan, Rumıniya və Bolqarıstan. Cinah sazişi 1997-ci il mayın 15-də qüvvəyə mindi^^'.

AASQM üzrə narahatlıq doğuran məsələlər Moldova və Gürcüstanın etiraz etməsinə baxmayaraq, Rusiyanın hərbi qüvvələrini bu ölkələrin ərazilərində saxlaması idi.

Yeni geosiyasi reallıqlar və ortaya çıxmış problemləri aradan qaldırmaq məqsədi ilə AASQM-ə qatılan dövlətlər 1999-cu il noyabrın 19-da ATƏT-in İstanbul zirvə toplantısında Uyğunlaşdırılmış AASQM-i imzaladılar^^*. Həm müqavilə üzrə yekun aktda, həm də İstanbul bəyannaməsinin və ona əlavə olunan bəyanatların mətnində digər öhdəliklərlə yanaşı, mübahisələrə səbəb olan müəyyən siyasi öhdəliklər əksini tapmışdı.

NATO ölkələri Uyğunlaşdırılmış AASQM-in tezliklə ratifikasiya olunmasını Rusiyanın Gürcüstan və Moldovaya dair qalan öhdəliklərinin yerinə yetirilməsinə bağlayırdılar. Rusiya tərəfi isə İstanbul öhdəliyinin əsas elementi kimi bütün dövlətlər tərəfindən Uyğunlaşdırılmış AASQM- in tezliklə ratifikasiya olunmasını göstərirdi. Müqaviləni Rusiya, Ukrayna, Belarus və Qazaxıstan ratifikasiya etmişdi.

Aşağıdakı 30 ölkə müqavilə iştirakçısı idi: Azərbaycan, Ermənistan, Belarus, Belçika, Bolqarıstan, Kanada, Çexiya, Danimarka, Fransa, Gürcüstan, Almaniya, Yunanıstan, Macarıstan, İslandiya, İtaliya, Qazaxıstan, Lüksemburq, Moldova, Niderland, Norveç, Polşa, Portuqaliya, Rumıniya, Rusiya, Slovakiya, İspaniya, Türkiyə, Ukrayna, Böyük Britaniya və ABŞ.

ARXINA. 2008.

ARXİNA. 1992.

Birlikdə yeni əsrə doğru. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ABŞ-a rəsmi səfəri. 27 iyuI-7 avqust 1997-ci il. Bakı, 1997, s. 406.

ARXİNA. 2008.

Azərbaycanın baxışına görə, AASQM artıq ideoloji cəhətdən köhnəlmiş və reallıqlardan uzaq idi^^®. Bununla belə, Azərbaycan Respublikası AASQM daxil olmaqla qüvvədə olan bütün silahlara nəzarət rejimlərini beynəlxalq və regional sülhün, təhlükəsizliyin qorunmasının, dövlətlər arasında qarşılıqlı etimad yaradılmasının ən vacib komponenti hesab edirdi. Azərbaycan bu müqaviləni bütün Avropa dövlətlərinin təhlükəsizliyinin təmin olunması üçün mühüm alət kimi dəyərləndirir, müqavilədən irəli gələn öhdəlikləri yerinə yetirərək müəyyənləşdirilmiş adi silahların beş kateqoriyası üzrə tavanlara tam şəkildə əməl edirdi.

AASQM-i imzalayan Ermənistan ilə davam etməkdə olan münaqişə nəticəsində Azərbaycanın 20%-ə qədər ərazisinin işğal edilməsi amili müqavilənin icrasını mümkünsüz edirdi. Azərbaycanın Naxçıvan ilə quru ərazisi ilə birbaşa əlaqəsinin olmaması amili tələb olunan halda ağır silahlann təcili olaraq bu ərazidən Azərbaycanın digər hissələrinə və geriyə aparılmasını mümkünsüz edirdi.

Azərbaycan hər hansı təhlükəsizlik razılaşmasında - NATO və ya Kollektiv Təhlükəsizlik Müqaviləsində (KTM) iştirak etmirdi. Azərbaycan tərəfi ATƏT-in İstanbul sammitində qəbul olunmuş qərarlara uyğun olaraq Gürcüstanda yerləşən Rusiya hərbi bazalarının çıxarılmasına tərəfdar olduğunu bildirir, lakin oradan çıxarılan silah və texnikanın Ermənistanda yerləşdirilməsini regionda sabitlik üçün təhlükə olaraq qiymətləndirirdi. Azərbaycan diplomatiyası müqavilə ilə məhdudlaşdırılan külli miqdarda silah və texnikanın (UTLE) Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə yerləşdirilməsi faktının qeyd olunan müqavilənin məqsəd və məramına zidd olduğunu bildirirdi. Həmin ərazilərdə qanunsuz yerləşdirilən UTLE-nin faktiki miqdarının Azərbaycanın UTLE kvotasından çox olmasını milli təhlükəsizliyinə təhdid kimi qiymətləndirir və məsələnin müsbət həllinin əldə edilməsində AASQM-i imzalayan dövlətlərin dəstəyinə ümid bəsləyirdi.

İşğal olunmuş ərazilərdə Ermənistan özünün tavanlarından artıq, sayı müqavilə ilə məhdudlaşdırılmış yüzlərlə silah və texnika (316 tank, 324 ZDM, 322 artilleriya) yerləşdirmişdi. Azərbaycan diplomatiyası müqavilənin nəzarət mexanizmindən kənarda qalan bu silahlanma haqqında AASQM üzrə Birgə məşvərət qrupu da daxil olmaqla AASQM-ə tərəf olan tərəfdaşları məlumatlandırmışdı. Beləliklə, müqavilə şərtlərinin tam şəkildə həyata keçirilməsi Ermənistan hərbi birləşmələrinin və silahlarının

işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılması ilə birbaşa bağlı idi. Kvotasının az olmasına baxmayaraq, ABŞ ilə məsləhətləşmələrdən sonra Azərbaycan sənədi imzalamağa razılıq verdi^'*®.

Zirvə görüşündə Heydər Əliyev Gürcüstan Prezidenti Eduard Şevardnadze,^"^' İsrailin Baş Naziri Ehud Barak^"^, Fransa Prezidenti Jak Şirak,'"*^ Türkiyə Prezidenti Süleyman Dəmirəl^"" və b. ilə görüşdü. ABŞ Prezidenti Bili Klinton zirvə görüşünün gedişində Bakı - Ceyhan neft boru, Transxəzər qaz kəmərlərinin tikintisinə dair imzalanan sənədləri yüksək qiymətləndirdi^"^. AFR-in federal kansleri Gerhard Şröder ölkəsinin Minsk qrupunun səylərini artırmasına kömək edəcəyini və Azərbaycanın mövqeyini bundan sonra da dəstəkləyəcəyini bildirdi^"®. ATƏT Parlament Assambleyasının sədri Helle Den rəhbəri olduğu qurumun Ermənistan - Azərbaycan münaqişəsinin həllinə böyük maraq göstərdiyini söylədi®'*'.

Səfər çərçivəsində Azərbaycan Prezidenti Türkmənistan Prezidenti Saparmurad Niyazov, Ukrayna Prezidenti Leonid Kuçma, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Moldova Prezidenti Petru Luçinski,

Paşayev H.M. Yüksəkliyə doğru. Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı ilk səfirinin seçilmiş məqalələri, s. 151.

Əliyev H.Ə. ATƏT-in İstanbul zirvə görüşündə Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə görüşündəki söhbətdən. 18 noyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXlll kitab, s.150-151.

Əliyev H.Ə. ATƏT-in İstanbul zirvə görüşündə İsrailin Baş Naziri Ehud Barak ilə görüşdəki söhbətdən. 18 noyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXIII kitab, s. 152-153.

Əliyev H.Ə. ATƏT-in İstanbul zirvə görüşündə Fransa Prezidenti Jak Şirakla görüşdəki söhbətdən. 18 noyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXIII kitab, s. 154 -155.

Əliyev H.Ə. Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl ilə görüşdəki söhbətdən. 19 noyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXIIl kitab, s. 159-160.

Əliyev H.Ə. Amerika Birləşmiş Ştatlarının Prezidenti Bili Klinton ilə görüşdəki söhbətdən. 19 noyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXIII kitab, s. 161-163.

Əliyev H.Ə. Almaniya Federativ Respublikasının kansleri Gerhard Şröder ilə görüşdəki söhbətdən. 19 noyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXIII kitab, s. 167-169.

Əliyev H.Ə. ATƏT-in Parlament Assambleyasının sədri xanım Helle Den ilə görüşdəki söhbətdən. 19 noyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXIII kitab, s. 170-172.

Ermənistan Prezidenti Robert Koçaryan ilə görüşərək ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələlərini müzakirə etdi.

İstanbul zirvə görüşü böyük bir mərhələnin başlanğıcını qoydu. Bundan sonra əlaqələrdə dinamizm artdı.

## Əməkdaşlıq davam etdirilir

1999- cu il dekabrın 13-də ATƏT-in sədri, Norveçin xarici işlər naziri Knut Vollebekin Azərbaycana səfəri zamanı Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə həlli və Şimali Qafqazda şəraitə dair məsələlər müzakirə edildi. Azərbaycan Prezidenti ATƏT-in Minsk qrupunun fəaliyyətini tənqid edərək Ermənistan silahlı birləşmələri tərəfindən Azərbaycan ərazisində etnik təmizləmə aparılmasına ATƏT-in diqqət yetirmədiyini vurğuladı^'**.

Növbəti il də münasibətlərin inkişafı ilə müşayiət olundu. Xarici işlər naziri Vilayət Quliyev 2000-ci il iyulun 5-də ATƏT Daimi Şurasının iclasında çıxış edərək Azərbaycan müstəqillik əldə etdikdən sonra demokratikləşdirmə sahəsində islahatların aparıldığını, hüquq sistemin Avropa standartlarına uyğunlaşdırılması istiqamətində işlərin həyata keçirildiyini qeyd etdi^'*^.

ATƏT-in sədri, Avstriyanın xarici işlər naziri Benita-Mariya Ferrero-Valdnerin^^° 2000-ci il iyulun 17-18-də Azərbaycana səfəri zamanı Heydər Əliyev ilə keçirilən görüşdə Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli yolları müzakirə edildi®^’. ATƏT-in sədri dedi: “Bu münaqişə barədə ətraflı məlumat

Əliyev H.Ə. ATƏT-in hazırki sədri, Norveçin xarici işlər naziri Knut Vollebek ilə görüşdə söhbət. 13 dekabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXIII kitab, S.177-I79.

Address by Vilayat Quliyev, Minister of Foreign Affairs of the Republic of Azerbaijan at the Meeting of the OSCE Permanent Council. Vienna, 5 July, 2000. - OSCE Archive in Prague. Azerbaijan file. Fields activities. Action/Reactions. Others. Press Releases. 2001-2003.1. No: 577.

Benita-Mariya Ferrero Valdner (1948) - Avstriyanın xarici işlər naziri (2000-2004).

Əliyev H.Ə. ATƏT-in hazırki sədri, Avstriyanın xarici işlər naziri xanım Benita-Ferrero Valdner ilə təkbətək görüşdə söhbət. 18 iyul 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXIX kitab, s.204-206.

toplamış, azərbaycanlı qaçqınlar ilə görüşdə onların ağır vəziyyəti ilə yaxından tanış olmuşam. ATƏT-ə sədrlik Avstriya üçün və şəxsən mənim üçün böyük məsuliyyət deməkdir və mən münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün bütün imkanlardan istifadə etməyə çalışacağam"^^^.

Səfər zamanı, iyulun 18-də ATƏT-in Bakıdakı ofisinin rəsmi açılış mərasimi oldu. Ofis qarşılıqlı əlaqələrin daha çevik qurulmasına və intensivləşdirilməsinə imkan verirdi. Bundan sonra Azərbaycanın ATƏT ilə əməkdaşlıq edən müxtəlif nazirlik və idarələrinin məsul əməkdaşlarından ibarət olan "ATƏT-in dostlar qrupu" təsis edildi. Azərbaycan tərəfi ATƏT-in Bakı ofisi ilə sıx əməkdaşlıq edirdi. ATƏT Azərbaycanın Avropa Şurasına tam hüquqlu üzv qəbul edilməsi səylərini dəstəkləyir, ölüm hökmünün ləğv edilməsini müsbət qiymətləndirirdi. Əməkdaşlığı genişləndirmək üçün geniş imkanlar var idi.

## Terrorizm əleyhinə mübarizə məsələsi

Bundan bir müddət sonra, 2001-ci ilin dekabr ayının əvvəllərində ATƏT Xarici İşlər Nazirləri Şurasının Buxarestdə keçirilmiş iclasında xarici işlər naziri Vilayət Quliyev etdiyi çıxışında Azərbaycan tərəfinin ATƏT-ə verdiyi əhəmiyyəti, əməkdaşlıq istəyini vurğuladı, azərbaycanlı qaçqın və məcburi köçkünlərin vəziyyətinə nəzər yetirdi. Dağlıq Qarabağ münaqişəsinin həlli üçün yaradılmış Minsk qrupunun fəaliyyətinin nəticə vermədiyini və onun canlandırılması zəruriliyini qeyd etdi'^^.

Ermənistanın bütün səylərinə baxmayaraq, Azərbaycan Respublikasının təklifi əsasında davakar separatizmin terrorizmə şərait yaradan amillər arasında sadalanması iclasın terrorizmə qarşı mübarizəyə dair fəaliyyət planına dair qəbul edilmiş sənədində qeyd edildi. Bu, Azərbaycan diplomatiyasının uğuru idi.

Vilayət Quliyev ATƏT-in fəaliyyətdə olan sədri, Rumıniyanın xarici işlər naziri Mirçea Ceoana ilə görüşərək ATƏT çərçivəsində qərarların qəbul edilməsinin təşkilatın hər bir üzvünə öz mövqeyi və maraqlarının qəbulunda israr edilməsinə və onların qorunmasına imkan yaratdığını qeyd etdi. Görüşdə Minsk qrupunun rolu müzakirə edildi. Səylərin nəticə vermədiyi, onun gücləndirilməsinin vacibliyi, münaqişənin həll edilməməsinin təşkilatın nüfuzuna xələl gətirdiyi qeyd olundu. Münaqişənin

Yenə orada, s. 205-206.
ARXINA. 23.11.2001-19.12.2001. Qovluq Na 6, v.125-128.

beynəlxalq normalar əsasında həllinin vacibliyi göstərildi. Təşkilat ilə əməkdaşlıqda ATƏT-in Bakı ofisinin mühüm rol oynaması imkanları müzakirə edildi’^'*.

ATƏT Nazirlər Şurası 2001-ci il dekabrın 4-də Ermənistan - Azərbaycan münaqişəsinə dair müvafiq bəyanat qəbul etdi’^^. Sənəddə Minsk qrupu həmsədrlərinin səylərinə baxmayaraq, münaqişənin nizamlanmasının mümkün olmadığı bildirilir, səylərin davam etdirilməsi, tərəflər əsirlərin azad edilməsi də daxil olmaqla etibar və inamı möhkəmləndirmək üçün əlavə tədbirlər görməyə çağırılırdı. Nazirlər Şurasının qəbul etdiyi qərara və fəaliyyət planına əsasən ATƏT iştirakçısı olan dövlətlərin götürdükləri əsas öhdəliklərdən biri 2002-ci ilin dekabrın 31-dək terrorizmə qarşı mübarizəyə dair BMT-nin 12 konvensiyasına qoşulması və mümkün dərəcədə ratifikasiya edilməsi idi.

Bu məqsədlə 2002-ci il aprelin 12-də terrorizmə qarşı mübarizədə ATƏT-in roluna həsr edilmiş ATƏT Daimi Şurasının iclası keçirildi^^*. İclasda terrorizmin qarşısının alınması və terrorizmə qarşı mübarizə üzrə ATƏT sədrinin şəxsi nümayəndəsi Yan Troyeborq (Danimarka), ATƏT təsisat və qurumlarının rəhbərləri çıxış etdilər. Müzakirələrdə Azərbaycan səfiri Vaqif Sadıqov çıxış edərək ölkəsinin terrorizmdən əziyyət çəkdiyini, terrorizmə qarşı mübarizəyə hazır olduğunu bildirdi. Rusiya nümayəndəsi çıxışında bildirdi ki, ATƏT iştirakçısı olan dövlətlərə terrorizmə qarşı mübarizə sahəsində təşkilat tərəfindən yardım göstəriləndə onların açıq şəkildə bildirilmiş razılığı olmalıdır. O, 2002-ci ilin dekabr ayında Porto şəhərində keçiriləcək ATƏT Nazirlər Şurasının növbəti iclasında terrorizmlə bağlı xüsusi bir sənədin qəbul olunmasını məqsədəuyğun hesab edirdi. Terrorizmə qarşı aparılan mübarizədə ATƏT-in əsas rolu siyasi bəyanatların qəbul edilməsi və ATƏT məkanında müvafiq davranış normalarının işlənib hazırlanması idi. Onun fikrincə, ATƏT terrorizmə qarşı mübarizədə praktik töhfə də verə bilərdi. Terrorizmə qarşı mübarizə üzrə ATƏT sədrinin şəxsi nümayəndəsinin və polis müşaviri təyin olunmaları, həmçinin katiblikdə antiterror mərkəzinin yaradılması da mümkün idi.

Terrorizmə qarşı mübarizə məsələləri ATƏT Xarici İşlər Nazirləri Şurasının 2002-ci il dekabrın 6-7-də Portoda keçirilmiş 10-cu görüşündə

ARXİNA. 23.11.2001-19.12.2001. Qovluq Ns 6, v.l 19-130.

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Nazirlər Şurasının 9-cu görüşü. Buxarest. 4 dekabr 2001-ci il. 111. Nazirlər Şurasının bəyanatları. Qərar No2 (5)-“Diplomatiya aləmi” jurnalı, Bakı, 2003, yanavar-mart, Na 2, s.123. ARXİNA. 01.04.2002-25.04.2002. Qovluq Nal 1, v.237-239.

müzakirə edildi^^’. Çıxışında ATƏT-in Avropa təhlükəsizliyi sistemində oynadığı rola toxunan Vilayət Quliyev terrorizmin sülh və sabitlik üçün təhlükə olduğunu qeyd etdi. Sentyabrın 11-dən sonra terrorizmə qarşı mübarizənin daha da əhəmiyyət kəsb etdiyini bildirərək Ermənistan-Azərbaycan münaqişəsinin yalnız ölkə deyil, Avropa üçün təhlükə törətdiyini qeyd etdi, Minsk prosesinin gücləndirilməsinə çağırdı. Dağlıq Qarabağın Azərbaycanın tarixi ərazisi olduğunu vurğuladı^^*.

Azərbaycan bu görüşdə konsensus prinsipinə riayət edərək aidiyyatı tərəflər və həmsədrlər arasında razılaşdırılmış Dağlıq Qarabağ məsələsi ilə bağlı sənədin qəbul olunmasına getdi. Eyni zamanda Azərbaycan tərəfi bəyanatla çıxış etdi. Günün jurnalına daxil edilən bu bəyanat Nazirlər Şurasının 10-cu görüşü ilə bağlı nəşr ediləcək sənədlər toplusunda əks olundu’^’.

Azərbaycan ilə ATƏT arasında əməkdaşlıq 2003-cü ildə genişləndi. Həmin ilin oktyabr ayında ATƏT-in fəaliyyətdə olan sədri, Niderland Krallığının xarici işlər naziri Yaap de Hoop Sxeffer Azərbaycanda səfərdə oldu^^ . Oktyabrın 22-də Azərbaycan Respublikasının Baş Naziri İlham Əliyev Yaap de Hoop Sxefferi qəbul etdi^^'. ATƏT sədri həmçinin xarici işlər naziri Vilayət Quliyev və qeyri-hökumət təşkilatlarının rəhbərləri ilə müzakirələr apardı. Görüşlərdə ATƏT ilə əməkdaşlıq məsələləri müzakirə edildi.

Dekabr ayında isə Maastrixdə keçirilən ATƏT Xarici İşlər Nazirləri Şurasının görüşündə xarici işlər naziri Vilayət Quliyev başda olmaqla Azərbaycan nümayəndə heyəti iştirak etdi^^^. Azərbaycan tərəfi 1992-ci

Xarici işlər naziri ATƏT-in Nazirlər Şurasının 10-cu görüşündə iştirak etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 910.

Xarici işlər naziri Vilayət Quliyevin çıxışı. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s.910-913; ARXİNA. 28.10.2002- 30.12.2002. Qovluq X2S, v.7-10.

ARXİNA. 04.10.2002-28.12.2002. Qovluq NbS, v.31.

960 fəaliyyətdə olan sədri, Niderlandın xarici işlər naziri Hoop Sxefferin Azərbaycan Respublikasına səfəri. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2003, oktyabr-dekabr, İfs 5, s. 89-90.

Baş Nazir İlham Əliyev ATƏT-in hazırki sədrini qəbul etmişdir. - Azərbaycan 2003: inkişaf strategiyasının yeni mərhələsi, s. 317-319.

Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyevin ATƏT-in Nazirlər Şurasının Maastrixdə keçirilmiş görüşündə iştirakı. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2003, oktyabr-dekabr, XsS, s. 80-81.

ildən bəri Minsk prosesinin münaqişənin həllinə gətirmədiyini diqqətə çatdırdı, təşkilatı fəal olmağa səslədi^“. Toplantı çərçivəsində keçirilən görüşlərin başlıca mövzusu Ermənistan - Azərbaycan münaqişəsinin həlli yolları idi.

Nazirlər Şurasının yekun sənədinin müzakirəsi gərgin keçdi. Gündəliyin Dağlıq Qarabağ münaqişəsindən bəhs edən 8-ci bəndinə dair konsensus əldə edilmədi. Təşkilat bununla bağlı bəyanat verdi^^'*. Bəyanatda konsensus olmamasından təəssüf hissi keçirilir, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetiri İməməsi qeyd olunur, Azərbaycanın mövqeyi izah edilir və münaqişənin həlli üçün təcili addımların atılmasının vacibliyi göstərilirdi.

Ümumiyyətlə, 1992-2003-cü illərdə Azərbaycanın ATƏT ilə geniş sahəli əlaqələri saxlanılmışdır. Əməkdaşlıq əhəmiyyətli olmuşdur. Əməkdaşlıq prosesində Azərbaycan haqqında obyektiv məlumatların yayılmasına imkan yaranmış, ölkəyə olan maraq artmış, müxtəlif sahələrdə ikitərəfli əlaqələr genişlənmiş və beynəlxalq mövqeləri möhkəmlənmişdir. Azərbaycan ATƏT-in müxtəlif səviyyəli toplantılarının gündəliyinə Ermənistanın təcavüzü, qaçqın və məcburi köçkünlər, terrorizm əleyhinə mübarizə və s. məsələləri gətirmişdir. ATƏT rəhbərlərinin Azərbaycana səfərləri əməkdaşlığın inkişafına kömək etmişdir. Əməkdaşlıq ATƏT-in də maraqlarına uyğun olmuş və onun təsir dairəsi genişlənmişdir.

Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyevin ATƏT Nazirlər Şurasının 11-ci görüşü zamanı müraciəti. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2003, oktyabr-noyabr, Na 5, s.82-84.

Gündəliyin 8-ci bəndinə əsasən Azərbaycan Respublikasının bəyanatı. Ma- astrix, 2 dekabr 2003-cü il. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2003, oktyabr- dekabr, Jfa 5, s.84-85.

# AVROPA ŞURASI İLƏ ƏMƏKDAŞLIĞIN QURULMASI VƏ İNKİŞAF DİNAMİKASI

## İlk əlaqələr. Avropa Şurası Azərbaycan ərazilərinin işğalından narahatdır

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının xarici siyasətində mühüm yerlərdən birini Avropa Şurası ilə əlaqələrin qurulması tutdu. Azərbaycan dövləti nizamnaməsi 1949-cu il mayın 5-də qəbul edilmiş^^^ və başlıca vəzifələri üzv ölkələr arasında insan fəaliyyətinin bütün sahələrində əməkdaşlığın genişləndirilməsi yolu ilə birliyin möhkəmləndirilməsi, təşkilata daxil olmayan qitə dövlətləri ilə sosial, hüquq, səhiyyə, əməkdaşlığın qarşılıqlı arzu olunduğu digər sahələrdə əməkdaşlıq, BMT və onun orqanlarının fəaliyyətində Avropaya töhfəsini verməklə iştirak etmək, əsas fəaliyyət sahələri insan hüquqları, sosial və iqtisadi hüquqların qorunması, kütləvi informasiya vasitələri, terrorizmə qarşı mübarizə, canlı təbiətin qorunması və s. olan Avropa Şurası ilə əməkdaşlıq qunnaq üçün səylərə başladı®^. 1992-ci il yanvarın 20-də Avropa Şurasına xüsusi dəvət olunmuş qonaq statusu almaq üçün müraciət edildi^^'. Lakin Avropa Şurasının Cənubi Qafqaz regionunda genişlənməyə hazır olmaması və təşkilatın Azərbaycana münasibəti səbəbindən bu niyyət yerinə yetirilmədi.

Avropa Şurası Ermənistanın Azərbaycana təcavüzünə münasibətdə də mövqeyini açıqladı. 1992-ci il martın 9-da Avropa Şurası Parlament Assambleyası bəyanat verərək münaqişəyə münasibətdə tarazlaşdırılmış mövqe tutacağını bildirdi. Bəyanatda region ölkələrinin ərazi bütövlüyü prinsipinə əməl edilməsi, tutulmuş ərazilərdən silahlı qüvvələrin çıxarıl-

**CoBCT Esponbi;** ocnoBHbie **nanpaBJieHHa a,eaTejibHocra** н **pesyjibTaxbi.** M., 1995, c.l.

**VcraB CoBexa Baponu. - MoKaynapoÄHoe nyÖJiHHHoe npaao.** CöopnHK flo- **KyMCHXOB.** T.I. M., 1996, c.322.

Qasımlı M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri), s. 93; Rəcəbli H., İbayev V. Avropa Şurası. Bakı, 1999, s.59; Vagif Sadigov. Foreign Policy of Azerbaijan European dimension. - Azerbaijan in Global Politics: Crafting Foreign Policy, p.l35.

ması və zorla ərazi tutulmasının mümkünsüzlüyü əks olunmuşdu^^^. Avropa Şurası Nazirlər Komitəsinin martın 12-də verilmiş yeni bəyanatında Dağlıq Qarabağ hadisələri ilə bağlı olaraq dərin təşviş hissləri keçirilir, dinc əhaliyə qarşı zorakılıq halları pislənilir, problemin zor gücünə həllinin yolverilməz olduğu və sərhədlərin toxunulmazlığı prinsipinin gözlənilməsinin zəruriliyi vurğulanırdı.

Belə yanaşma müsbət olub münaqişənin beynəlxalq hüququn prinsipləri əsasında tənzimlənməsini əsas götürürdü. Bəyanatda sərhədlərin yalnız dinc yolla və qarşılıqlı razılıq əsasında dəyişdirilməsinin mümkünlüyü vurğulanırdı.

Lakin təşkilatın çağırışları Ermənistanın təcavüzünü dayandırmadı. Ermənistan silahlı qüvvələri Kəlbəcər rayonunu işğal etdikdə Avropa Şurası həmin hadisəyə dərhal münasibətini bildirdi. 1993-cü il aprelin 16- da Avropa Şurası Nazirlər Komitəsi bəyanat verərək erməni qoşunlarının Kəlbəcər rayonundan çıxarılmasını tələb etdi. Nazirlər Komitəsi BMT Təhlükəsizlik Şurası sədrinin bütün döyüş əməliyyatlarını dərhal dayandırmaq çağırışına tamamilə tərəfdar çıxır, bölgədə sülh və təhlükəsizlik üçün qorxu törədən qüvvələrin oradan çıxarılması tələb edirdi^^^.

Avropa Şurası yalnız bəyanatlar verməklə kifayətlənmədi. Aprelin 28-30-da qurumun ekspertləri Azərbaycana səfər etdilər. Səfərdə məqsəd qarşıdakı aylarda Azərbaycan və Ermənistan nümayəndələrinin görüşünün keçirilməsinin mümkünlüyü məsələsini müzakirə etmək idi. Nümayəndə heyəti Ermənistanın təcavüzünün nəticələri və xüsusən məcburi köçkünlərin vəziyyəti barədə müfəssəl məlumat topladı və azərbaycanlı qaçqınlara yardım göstərilməsi məsələsini müzakirə etdi. Nümayəndə heyətinin rəhbəri, Avropa Şurasının hüquq departamentinin direktoru Erik Harremun yaranmış vəziyyətlə bağlı olaraq dedi: “Avropa Şurası erməni qoşunlarının işğal etdikləri Azərbaycanın Kəlbəcər rayonundan çıxarılması haqqında bu ilin aprel ayının 16-da qəbul etdiyi qətnamənin yerinə yetirilməsində təkid etmək niyyətindədir”.

Azərbaycan tərəfi görüşün keçirilməsinə razılığını bildirdi İyulun 4-11-də Strasburqda Azərbaycan və Ermənistan nümayəndə heyətlərinin iştirakı ilə Dağlıq Qarabağ münaqişəsinə dair müzakirələr keçirildi. Azərbaycan nümayəndələri Ermənistanın beynəlxalq hüquq normalarını

Yenə orada.
BMT binası qarşısında nümayiş. Azərbaycan” qəzeti, Bakı, 1993, 20 aprel.
Ermənilər Kəlbəcərdən çıxmalıdır. - “Xalq qəzeti”, Bakı, 1993, 1 may.

pozduğunu, təcavüzünü, onun nəticələrini vurğulayaraq münaqişənin həllinə dair Azərbaycanın mövqeyini şərh etdilər. Nümayəndə heyəti qurumun üzv olmayan ölkələrlə əlaqələr üzrə departamentinin direktoru Q.P.Furyer və Avropa Şurası baş katibinin müavini X.Klebes ilə görüşərək Azərbaycana təşkilatda "xüsusi dəvət olunmuş qonaq" statusunun verilməsi məsələsini qaldırdılar.

Ermənistan silahlı qüvvələri əldə edilmiş atəşkəsi pozduqda Avropa Şurası noyabrın 9-da Dağlıq Qarabağa dair yeni bəyanat verdi. Bəyanatda deyilirdi: "Avropa Şurası 1993-cü il oktyabrın 24-də Dağlıq Qarabağ bölgəsində atəşkəs haqqında sazişin pozulmasını pisləyir və bu yaxınlarda işğal olunmuş ərazilərdən bütün qüvvələri çıxarmağa çağırır. Avropa Şurası ATƏM prinsiplərinə uyğun olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə əhəmiyyət verdiyini təsdiqləyir. Avropa Şurası silahlı toqquşmalardan qaçmaqla canını qurtaran on minlərlə mülki şəxsin taleyindən xüsusilə narahatdır. Həmin şəxslərin qəbulu və müdafiə edilməsi beynəlxalq birliyin üstün vəzifələrindən biri olmalıdır. Bundan əlavə, bu qaçqınların olması münaqişənin beynəlxalq miqyas alması təhlükəsini artırır və regionun sabitliyi üçün qorxu törədir. Avropa Şurası zərər çəkmiş əhaliyə bundan sonra da humanitar yardım göstərəcəkdir. Bununla əlaqədar olaraq o, regionun bütün dövlətlərini yardımın çatdırılmasına kömək etməyə çağırır. Avropa Şurası Dağlıq Qarabağ münaqişəsinin möhkəm siyasi vasitələrlə aradan qaldırmaq yollarını axtarmaq məqsədilə ATƏM-in Minsk qrupunun göstərdiyi səyləri bütünlüklə dəstəklədiyini bir daha təsdiq edir. O, münaqişədə iştirak edən tərəfləri 1993-cü il oktyabrın
24- də pozulmuş atəşkəs vəziyyətini bərpa etməyə çağırır"®".

1994-cü ilin may ayında atəşkəs elan edildikdən sonra da Avropa Şurası münaqişənin tənzimlənməsi istiqamətində səylərini davam etdirdi. İyulun 4-11-də Strasburqda Dağlıq Qarabağ münaqişəsinə dair keçirilən görüşdə iştirak edən Azərbaycan nümayəndə heyəti Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə bağlı hərbi təcavüzünü, onun nəticələrini və bu münaqişədə mövqeyini bəyan etdi®". Eyni zamanda təcavüz nəticəsində yaranmış şəraitlə tanış olmaq üçün Avropa Şurasının nümayəndə heyətini ölkəyə dəvət etdi. Azərbaycan nümayəndələri Ermənistanın silahlı təcavüzü nəticəsində ölkədə yaranmış faciəli vəziyyəti şərh etdilər, Azərbaycan Respublikasının ATƏM çərçivəsində münaqişənin

Qətiyyətin təntənəsi (sənədli xronika). Bakı, 1995, s. 554-555.
Qasımlı M. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s. 28. 

sülh yolu ilə həllinə çalışdığını, beynəlxalq hüququn norma və prinsiplərinə dönmədən riayət etdiyini bildirdilər’^^.

Avropa Şurası Parlament Assambleyası 1994-cü il noyabrın 10-da Ermənistan - Azərbaycan münaqişəsi ilə əlaqədar olaraq qətnamə qəbul etdi”'*. Qətnamədə qüvvəyə minmiş atəşkəsə nisbətən yaxşı riayət olunması müsbət qiymətləndirilir; bunun ardınca müharibə edən tərəflər arasında tezliklə sülh müqaviləsinin imzalanacağına ümid ifadə edilir; 1988- ci ildə başlamış bu münaqişənin 20 min nəfərin ölümünə və bir milyondan çox adamın qaçqın olmasına gətirib çıxardığı qeyd edilir; ATƏM-in Minsk qrupunun, Rusiya Federasiyası hökumətinin, BMT Təhlükəsizlik Şurasının, MDB Parlamentlərarası Assambleyasının, özünün iştirakçı olmayan Avropa dövlətləri ilə münasibətləri üzrə komitəsinin müharibə edən tərəfləri sülh müqaviləsi imzalamağa inandırmaq cəhdlərindən məmnunluq bildirilir; tərəflər 1994-cü il mayın 12-dən qüvvədə olan atəşkəsin mövcudluğuna təhlükə törədəcək hər hansı bir hərbi hərəkətlərdən çəkindirməyə təkidlə çağırılır; sülh müqaviləsinin bərqərar olmasının tezləş- dirilməsində ən yaxşı vasitələrlə, xüsusən maraqlı tərəflərin parlament nümayəndələri arasında dialoqu həvəsləndirməklə kömək etməyə hazır olduğunu bəyan edilir; müharibə edən tərəflər 1251 saylı tövsiyədə nəzərdə tutulduğu kimi birinci dərəcəli vacib iş olaraq qaçqınların doğma torpaqlarına qayıtmaları üçün şərait yaratmağa çağırılırdı.

## Avropa Şurasına üzv olmaq üçün Azərbaycamn səyləri. Xüsusi dəvət olunmuş qonaq statusu

Həmin qətnamədən az sonra, 1994-cü il noyabrın 14-17-də Avropa Şurası Parlament Assambleyasının Şura üzvü olmayan ölkələrlə əlaqələr komitəsinin sədri Devid Atkinson Azərbaycana səfər etdi. Keçirilən görüşlərdə Azərbaycan Respublikasının Avropa Şurasına üzv olmağa dair müraciəti və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsələləri müzakirə edildi. D.Atkinson Azərbaycanın Avropanın ictimai həyatında tam iştirak etməsinə əmin olmaqla bərabər, təcavüz nəticəsində ölkədə

Avropa Şurası təcavüzkarı pisləyir. 21 “Azərbaycan” qəzeti, Bakı, 1994, iyul.

[974] Rəcəbli H., Ibayev V. Avropa Şurası, s.62.

yaranmış şəraitlə də tanış oldu, qaçqınlara və məcburi köçkünlərə yardımların artırılmasının vacibliyini vurğuladı''^.

1995- ci il əməkdaşlığın genişləndirilməsi ilə səciyyələndi. Noyabrın 27-28-də Azərbaycan Respublikasının bəzi nazirliklərinin nümayəndələrinin Strasburqa səfəri Avropa Şurası ilə əməkdaşlığın artmasına təkan verdi. Səfərin nəticəsində Nazirlər Komitəsində qanunvericilik, təhsil və mədəniyyət sahələrini əhatə edən hökumətlərarası əməkdaşlıq proqramı tərtib edildi. Proqrama əsasən Azərbaycan Avropa Şurasının bəzi hö- kumətlərarası komitələrinin işinə qoşulur, Avropa konvensiyası və sazişlərinin hazırlanmasında iştirak etməyə başlayır, qurumun müxtəlif mövzulara həsr etdiyi konfranslarında iştirak etmək hüququ qazanırdı.

Artıq qeyd edildiyi kimi, əməkdaşlıq sahələrindən biri Azərbaycanda qanun yaradıcılığı idi. Həmin sahədə fəaliyyətin inkişaf etdirilməsində Qanundan demokratiyaya doğru Avropa komissiyası xüsusi rol oynayırdı. Komissiyanın topladığı təcrübədən istifadə edilməsi Azərbaycanda demokratik dəyişikliklər prosesinin həyata keçirilməsinə, hüquqi bazanın möhkəmləndirilməsinə kömək etməklə yanaşı, qanunların Avropa konvensiyalarına uyğunlaşdırılmasmı təmin edirdi. Bu təcrübə Avropa Şurası ilə eyni hüquqi dildə müzakirələr aparmağa əsas verirdi. Milli qanunların Avropa konvensiyalarına və sazişlərinə uyğunluğunun təmin olunması istiqamətində Avropa Şurası ilə əməkdaşlıq imkanlarından maksimum istifadə etmək üçün Azərbaycan tərəfi komissiyanın keçirdiyi tədbirlərdə iştirak etməyə başladı. Avropa Şurası Venesiya komissiyasının 1996-cı il martın 1-2-də keçirilən iclasında Azərbaycan nümayəndə heyəti ilk dəfə olaraq iştirak etdi. Xarici işlər naziri Həsən Həsənov martın 2-də Avropa komissiyasının "Qanundan demokratiyaya doğru" mövzusunda keçirilən

26- cı plenar iclasında çıxış etdi''^. Məruzədə Azərbaycanın Avropaya inteqrasiya proseslərinə xüsusi diqqət yetirdiyi, Avropa Şurasına üzvlüyün bu istiqamətdə xüsusi əhəmiyyət daşıyacağı, ölkədə demokratik islahatların prioritet olduğu, demokratikləşməyə və Avropaya sürətli inteqrasiyaya Ermənistanın hərbi təcavüzünün mane olduğu qeyd edilir, problemin həllinə kömək istənilirdi. Xarici işlər naziri Azərbaycan qanunların hazırlanmasında ekspert köməyi göstərilməsini və komissiyada üzvlük

Heydər Əliyev: Azərbaycan Avropa Şurası ilə əlaqələr qurmaq arzusundadır. - "Azərbaycan" qəzeti, Bakı, 1994, 17 noyabr.

BbicxynjıeHHe na 26-OM njıenapHOM saceaannH BaponencKOH KOMHCCHH "3a aeMOKpaxHio nepes saKon". BeHeırna, 2 Mapxa 1996 r. — FacanoB F. Aaep- öanaÄaH - Espona: na пухn к HHxerpauHH. Baıcy, 2003, c.43-50.

hüququ verilməsini xahiş etdi. Komissiyanın martın 17-18-də keçirilən iclasında həmin müraciət müzakirə edilərək bəyənildi.

Bundan sonra əlaqələrin intensivliyi daha da artdı. Azərbaycanın xarici işlər naziri iyunun 5-6-da Strasburqa səfər edərək Avropa Şurası Nazirlər Komitəsində Azərbaycanın Avropa ilə tarixi əlaqələri, ölkənin xarici siyasəti, demokratik islahatların gedişi barədə danışaraq Azərbaycan haqqında qısa tarixi arayış verdi, hələ qədim dövrlərdən Avropa ilə sıx əlaqələrinin mövcudluğundan, Azərbaycan xalqının müsəlman Şərqində ilk dəfə olaraq demokratik respublika qurduğundan, de-fakto tanındığından, dövlət müstəqilliyinin bərpasından söz açdı, Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğunun aparıldığı, ümumxalq səsverməsi yolu ilə konstitusiyanın qəbulu, parlamentə keçirilən seçkilər, siyasi plüralizmin mövcudluğu, sosial-iqtisadi və siyasi sahələrdə aparılan islahatların mahiyyəti, Ermənistanın beynəlxalq hüquq normalarını kobudcasına pozaraq Azərbaycana qarşı təcavüzünün ağır sosial-iqtisadi nəticələri, Ermənistan rəhbərliyinin BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməməsi haqqında məlumat verdi’^^.

Səfər zamanı xarici işlər naziri Avropa Şurasının baş katibi və təşkilatın müxtəlif bölmələrinin rəhbərləri ilə görüşlər keçirdi.

Avropa Şurası ilə əməkdaşlıq istiqamətində digər addımlar da atıldı. Azərbaycan və Ermənistan prezidentləri 1996-cı il aprelin 21-də birgə bəyanat imzalayaraq Dağlıq Qarabağ münaqişəsinin dinc yollarla həllinə dair öhdəlik götürdülər^’*.

Avropa Şurası Parlament Assambleyasının nümayəndə heyətlərinin Azərbaycana səfərləri artdı. 1996-cı il iyunun 2-6-da qurumun nümayəndə heyəti Azərbaycanda səfərdə oldu. Nümayəndə heyətinə bu təşkilata üzv olmayan ölkələrlə əlaqələr komitəsinin sədri Jak Setlenje, komitənin Azərbaycan üzrə məruzəçisi Jorj Sole Turan və komitənin katibi Ki-Difur daxil idilər. Nümayəndə heyətinin Prezident Heydər Əliyev ilə görüşündə Azərbaycan Respublikasının Avropa Şurasında əvvəlcə xüsusi dəvət olun-

**BbicrynjıeHHe na saceaauHH KoMHTexa** MHHHCTPOB COBCT **Esponbi. Cxpac-**6ypr, 5 HIOHH 1996 r. - FacaHOB F. A3ep6aüfl>KaH - **Espona: na nyxH** K **HHxerpa-**UHH, c.50-69.

The European Union and Conflict Prevention. Policy and Legal Aspects. Edited by Vincent Kronberger and Jan Wouters. The Hague, T.M.C. Asser Press, 2004, p.444.

muş qonaq, sonra isə tam hüquqlu üzv qəbul edilməsi məsələləri müzakirə edildi^™.

Müzakirələrin konkret nəticəsi oldu. Səfərdən sonra, 1996-cü il iyunun 28-də keçirilən Avropa Şurası Parlament Assambleyasının büro iclasında Azərbaycana xüsusi dəvət olunmuş qonaq statusu verilməsinə dair qərar çıxarıldı’*®.

Belə bir statusun verilməsi əhəmiyyətli idi. Azərbaycan Respublikası Avropa Şurası Parlament Assambleyasında təmsil olunmaq və şura tərəfindən qəbul edilmiş konvensiyalara qoşulmaq imkanı əldə edir, ümumavropa problemlərinin müzakirəsində birbaşa iştirak etmək hüququ qazanır, Avropa konvensiyalarının hazırlanmasına cəlb edilir, ölkənin suverenliyi və müstəqilliyi möhkəmlənir, siyasi, iqtisadi, sosial və mədəni sahələrdə inteqrasiya prosesləri genişlənirdi. Azərbaycan Avropa ailəsinə daha möhkəm daxil olur və dəyərlərindən bəhrələnirdi. Azərbaycanın Avropa Şurasında xüsusi dəvət olunmuş qonaq statusu alması məqsəd deyil, xarici siyasətin həyata keçirilməsində bir vasitə idi. Azərbaycanın beynəlxalq mövqeləri möhkəmlənir, dövlət sisteminin, ölkə həyatının tutduğu yolun demokratiya yolu olduğu və gedən proseslərin demokratik prinsiplər əsasında davam etdiyi təsdiq olunurdu. Bu status Azərbaycana yalnız imtiyazlar vermir, eyni zamanda üzərinə demokratik cəmiyyət quruculuğu, insan hüquqlarının qorunması, çoxpartiyalı sistemin formalaşdırılması, azad bazar iqtisadiyyatı sahələrində islahatların həyata keçirilməsi üçün müəyyən öhdəliklər də qoyurdu. Bu status Avropa Şurasına da faydalı idi. Təşkilatın coğrafiyası genişlənir və Azərbaycanda mövqeləri möhkəmlənirdi.

## Əməkdaşlıq genişlənir.
## Tam hüquqlu üzvlük üçün Azərbaycanın tədbirləri

Xüsusi dəvət olunmuş qonaq statusu verildikdən sonra Avropa Şurası ilə Azərbaycan Respublikası arasında təşkilatın demək olar ki, bütün fəaliyyət sahələrini əhatə edən geniş fərdi əməkdaşlıq proqramı tərtib

® Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Avropa Şurası Parlament Assambleyasının nümayəndə heyətini qəbul etmişdir. - “Azərbaycan” qəzeti, Bakı, 1996, 5 iyun.

Azərbaycana xüsusi dəvət olunan qonaq statusu verilməsi haqqında. - “Azərbaycan” qəzeti, Bakı, 1996, 29 iyun.

edildi. Proqram Azərbaycanda demokratik institutların təkmilləşdirilməsi, inzibati strukturların və məhkəmə sisteminin yenidən qurulması, milli qanunvericiliyin Avropa sisteminə yaxmiaşdırılması, təhsil, elm, mədəniyyət və digər sahələrin inkişafına kömək etmək məqsədi güdürdü. Onun həyata keçirilməsi islahatların gedişinə və demokratik inkişafa, Azərbaycanın Avropa Şurasına üzvlüyünə kömək etməli idi. Proqramın əsas məqsəd və vəzifələri, həyata keçirilməsinin forma və metodları Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 8 iyul tarixdə imzaladığı "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi üzrə tədbirlər haqqında" sərəncamında müəyyənləşdirildi Sərəncam Azərbaycan Respublikası ilə Avropa Şurası arasında 1996- 1997-ci illərdə fəaliyyət planı idi. Bu, ilk əhatəli plan olaraq əhəmiyyət kəsb edirdi. Məhz həmin sərəncamdan sonra əməkdaşlıqda yeni keyfiyyət mərhələsi başlandı. Avropa Şurası ekspertlərinin iştirakı ilə Azərbaycanda seminarlar keçirildi. Öz növbəsində Azərbaycan ekspertləri Avropa Şurasının üzvü olan ölkələrdə təşkil edilən elmi starjirovkalarda və seminarlarda iştirak etdilər. Artıq 1996-cı ilə qədər Azərbaycan Respublikası ilə Avropa Şurası arasında 150-dən çox beynəlxalq-hüquqi sənəd imzalanmışdı^*^.

Sərəncam imzalandıqdan bir neçə gün sonra, iyulun 10-da Bakıda "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi üzrə tədbirlər haqqında" prezident sərəncamına həsr edilmiş müşavirə keçirildi. Müşavirədə Heydər Əliyev geniş nitq söylədi®**. Müəyyənləşdirilən tədbirlər ölkənin siyasi, ictimai, iqtisadi hə-

Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 8 iyul 1996-cı il. - "Azərbaycan" qəzeti, Bakı, 1996, 9 iyul; Pacnopa- >KeHHe npesHiteHTa AsepöaüaÄaHCKofı PecnyönHKH reüaapa Aımesa O Mepax no peajiHsauHH nporpaMMU coTpyauHHecTBa Mex<ay CoBexoM EBponw n Asep- öaÜÄiKaHCKofi Pecny6jıHKoİı. 8 uıomı 1996 r. JV2365, v. 178-182.

FacaHOB F. BbicrynjıeHHe ua sace/ıaHHH KoMHTexa MHHHCTPOB CoBex Eapo- nbi. Cxpacöypr, 5 HIOHH 1996 r. - FacauoB F. Asepdan/t^aH - Eepona: na nyxn K HHxerpauHH, c.64.

Əliyev H.Ə. Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında respublika Prezidentinin sərəncamının yerinə yetirilməsinə həsr olunmuş müşavirədə giriş sözü. Yekun sözü. 10 iyul 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VII kitab, s.80-82.

yatında böyük dəyişikliklər etmək üçün lazım idi. Bu istək Azərbaycanın daxili inkişafından gələn tələbatı əks etdirirdi.

Azərbaycandakı şəraitlə tanış olmaq, Avropa Şurası ilə əməkdaşlıq məsələlərini müzakirə etmək, xüsusi dəvət olunmuş qonaq statusunu aldıqdan sonra təşkilata daxil olmaq mərhələsindək! demokratik dəyişikliklər prosesini müzakirə etmək məqsədi ilə iyulun 12-14-də Avropa Şurası Nazirlər Komitəsinin sədri, Estoniyanın xarici işlər naziri Süm Kallaş və Avropa Şurasının baş katibi Daniel Tarşis Azərbaycana səfər etdilər. Nümayəndə heyəti ilə görüşdə Azərbaycan Prezidenti ölkəsinin

Avropa Şurasına tam hüquqlu üzv olmaq istəyi məsələsini qaldırdı . Müzakirələr Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığı yeni inkişaf mərhələsinə qaldırır, təşkilatın bütün strukturlarına tezliklə inteqrasiya olunması və onun sıralarında tam hüquqlu üzv olması üçün perspektivlər açırdı^*^. Həmin müzakirələrdən bir gün sonra, iyulun 13-də Azərbaycan Respublikasının Prezidenti Avropa Şurasının baş katibinə məktub göndərərək Azərbaycanın bu təşkilata tam hüquqlu üzv qəbul olmaq və başqa üzv dövlətlər kimi insan hüquq və azadlıqlarının müdafiəsi haqqında Avropa konvensiyasına qoşulmaq niyyətini bildirdi^*^.

Avropa Şurası Nazirlər Komitəsi Azərbaycan Prezidentinin müraciətini Avropa Şurasının gündəliyinə daxil etdi. Bundan sonra Avropa Şurasının baş katibi Daniel Tarşis Azərbaycana məktub göndərərək Avropa mədəniyyət konvensiyasına qoşulmaq məsələlərinə həsr olunmuş müşavirədə iştirak etmək üçün 1996-cı il sentyabrın 9-10-da 4 nəfər ekspert göndərməyi xahiş etdi.

Azərbaycan tərəfi müşavirədə iştirak etməyə razılığını bildirdi^*^. Həmin konvensiyaya artıq 44 dövlət qoşulmuşdu. Azərbaycan nümayəndə heyəti sentyabrın 9-11-də müşavirədə iştirak etdi. Nümayəndə heyətinin tərkibinə xarici işlər, təhsil, gənclər və idman nazirliklərinin nümayəndələri daxil idi®^*. Nümayəndə heyəti Avropa Şurasının rəhbərliyi ilə görüşdü, aparıcı departamentlərin direktorları və ekspertləri ilə məsləhətləşmə-

ARXİNA. 21.08.1996-18.03.1997. Qovluq Jfo9, y.172.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Avropa Şurasının nümayəndə heyətini qəbul etmişdir. - “Azərbaycan” qəzeti, 1996, Bakı, 16 iyul.

Azərbaycan Respublikasının Avropa Şurasına qəbul edilməsi barədə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin müraciəti. 13 iyul 1996-cı il. - İnsan hüquqları. Bakı, 2001, s. 95.

ARXİNA. 21.08.1996-18.03.1997. Qovluq ***m,*** v.2.

ARXİNA. 21.08.1996-18.03.1997. Qovluq Xs 9, v.183-185.

lər apardı, Azərbaycanın konvensiyaya qoşulmaq niyyətini bəyan etdi, ölkədə aparılan islahatlar haqqında məlumat verdi, zəngin mədəniyyəti ilə Avropa mədəniyyətinə töhfə verdiyini qeyd etdi. Avropa Şurasının rəhbərləri konvensiyaya qoşulmağı təşkilata tam hüquqlu üzv olmaq yolunda mühüm bir addım kimi qiymətləndirirdilər. Konvensiyaya qoşulmaqla Azərbaycan Respublikası Avropa Şurasının toplantılarının üçdə birində iştirak etmək imkanı qazanırdı. Sentyabrın 9-da Avropa Şurasının Nazirlər Komitəsi bu məsələ barədə Parlament Assambleyasının rəyini soruşdu. Sorğuya müsbət cavab verildi. Bundan sonra Avropa Şurasının baş katibi Daniel Tarşis xarici işlər naziri Həsən Həsənova məktub göndərərək şuranın müvafiq qərarını bildirdi. Azərbaycan Prezidenti konvensiyanı imzalamaq haqqında göstəriş verdi'®'. Buna hazırlıqlara başlandı.

## Azərbaycan nümayəndə heyəti təşkil edilir. Avropa Şurası azərbaycanlı qaçqın və məcburi köçkünlər məsələsini müzakirə edir

1996- cı ilin sentyabr ayında Avropa Şurası Parlament Assambleyasının sessiya iclasında iştirak etmək üçün Azərbaycan Respublikası Milli Məclisinin deputatlarından ibarət nümayəndə heyəti təşkil edildi. Mahmud Məmmədquliyevin rəhbərliyi altında nümayəndə heyəti ilk dəfə olaraq sessiya iclasında iştirak etdi. İclasda çıxış edən nümayəndə heyətinin rəhbəri Azərbaycandakı qaçqın və məcburi köçkünlərin vəziyyəti haqqında məsələ qaldırdı. Azərbaycanın təşəbbüsü ilə AŞPA-nın miqrasiya, qaçqınlar və demoqrafiya komitəsi ayrıca olaraq Azərbaycanda qaçqınların və məcburi köçkünlərin vəziyyətini öyrənmək üçün xüsusi yarımkomitə yaratdı. Qeyd etmək lazımdır ki, Avropa Şurası Parlament Assambleyasının miqrasiya, qaçqınlar və demoqrafiya komitəsi hələ
1995- ci ildə "Ermənistanda və Azərbaycanda qaçqınların və məcburi köçkünlərin humanitar vəziyyəti barədə" məruzə hazırlamış və müvafiq tövsiyələrini Nazirlər Şurasına təqdim etmişdi. Nazirlər Şurası həmin tövsiyələrə cavabı 1996-cı il oktyabrın 17-də keçirilən iclasında müzakirə edərək AŞPA-ya göndərdi. Nazirlər Komitəsi təşkilatın baş katibinə Cənubi Qafqaz regionu ilə əlaqələri genişləndirmək üçün göstəriş verdi. Nazirlər Komitəsi cavabı verərkən Azərbaycan və Ermənistan prezidentlərinin

[989] ARXİNA. 21.08.1996-18.03.1997. Qovluq Xb9, v.186-188.

1996- cı il 21 aprel tarixdə imzaladıqları birgə kommunikedə münaqişənin dinc yolla həllinə sadiq qalacaqlarına dair öhdəliklərini və ATƏT-in vasitəçilik səylərini nəzərə almışdı^^°.

Cənubi Qafqaz regionu ilə əlaqələri genişləndirmək məqsədi ilə səylər artırıldı. Avropa Şurası Parlament Assambleyasının sədri Leni Fişe- rin dəvəti ilə Azərbaycan Respublikası Milli Məclisi sədrinin başçılıq etdiyi nümayəndə heyətinin 1997-ci il yanvarın 20-dən fevralın 1-dək Strasburqda keçirilən Qafqaz problemlərinə həsr edilmiş seminarda iştirakı belə addımlardan biri oldu®^'. Parlamentin sədri seminarda çıxış edərək Azərbaycan dövlətinin təşkilata verdiyi əhəmiyyəti vurğuladı.

Keçirilən görüşlərdə Dağlıq Qarabağ münaqişəsi, qaçqın və məcburi köçkünlərin vəziyyəti və s. haqqında məlumat verildi. Təşkilatın rəhbərləri bu məsələləri daha dərindən öyrənmək və yardım etmək məqsədi ilə regiona nümayəndə heyətləri göndərəcəklərini bildirdilər.

Avropa Şurası Parlament Assambleyasının miqrasiya, qaçqınlar və demoqrafiya komitəsinin sədri Manuella Aquyar ilə görüşdə Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın 20 min şəhid verdiyi, 100 mindən çox adamın yaralandığı, 1 milyondan artıq qaçqın və məcburi köçkünün olduğu vurğulandı.

Artıq qeyd edildiyi kimi, Avropa Şurası Parlament Assambleyası Azərbaycandakı qaçqın və məcburi köçkünlərin vəziyyətini öyrənmək üçün birdəfəlik komitə yaratmışdı. Komitənin tərkibinə AŞPA-nm vitse- prezidenti Tadeuş İvinski (Polşa), Ali Dinçer (Türkiyə), Ana Qirado (İspaniya), Vadim Filimonov (Rusiya), AŞPA-nm miqrasiya, qaçqınlar və demoqrafiya komitəsinin katibi Petr Sıx daxil edilmişdilər®^'. Komitənin üzvləri 1997-ci il fevral ayının sonlarında Azərbaycana səfər etdi. Səfərdə başlıca məqsəd qaçqın və məcburi köçkünlərin vəziyyətini və Avropa Şurasının bu məsələni həll etmək üçün imkanlarını öyrənmək idi. Nümayəndə heyəti qaçqın və məcburi köçkünlərin məskunlaşdıqları Biləsuvar, Füzuli, Beyləqan rayonlarına baş çəkdi®®^.

ARXİNA. 21.08.1996-18.03.1997. Qovluq ***m,*** v.173-174.

Parlament nümayəndə heyətinin Strasburqa səfəri davam edir. - “Azərbaycan” qəzeti, Bakı, 1997, 1 fevral.

ARXİNA. 21.08.1996-18.03.1997. Qovluq No9, v.l64; ARXİNA. 21.08.1996-18.03.1997. Qovluq No9, v.l67.

®®^ ARXİNA. 21.08.1996-18.03.1997. Qovluq N>9, v.168-169.

Fevralın 27-də xarici işlər naziri Həsən Həsənov nümayəndə heyətini qəbul etdf^'*. Çıxış edən Tadeuş İvinski Azərbaycan ilə Avropa Şurası arasında əlaqələrin genişlənməsindən razılığını bildirdi. Azərbaycanın tezliklə Avropa Şurasına tam hüquqlu üzv qəbul ediləcəyinə ümid ifadə etdi. Vadim Filomonov BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının, Qırmızı Xaç və Qırmızı Aypara Komitəsinin nümayəndələri ilə görüşdə işi əsasən iki istiqamətdə aparmağı vacib hesab edirdi: Azərbaycana humanitar və maddi yardım göstərmək; qaçqın və məcburi köçkünlərin daimi yaşayış yerlərinə qaytarılması üçün ictimai rəyi formalaşdırmaq. O, Rusiya Federasiyasının Dövlət Dumasına bu sahədə iş aparacağını bildirdi.

Nümayəndə heyətinin Azərbaycan Respublikasının Prezidenti ilə görüşündə işğal edilmiş ərazilərin azad edilməsinə, qaçqın və məcburi köçkünlərin qayıtmasına Ermənistanın mənfi münasibət bəslədiyi, münaqişənin həlli üçün ATƏT-in Lissabon zirvə görüşünün üç prinsipinin əsas götürülməsinin vacibliyi və Ermənistana Avropa Şurasının üzvü olan ölkələr tərəfindən təzyiqlər edilməsinin zəruriliyi qeyd olundu. Hərbiləş- dirmə yolunu tutan Ermənistan Lissabon zirvə görüşünün prinsiplərini qəbul etmirdi.

Cənubu Qafqazda münaqişələrə dair məsələ 1997-ci il aprelin 7-də Parisdə Avropa Şurasına üzv olmayan ölkələr üzrə komitənin iclasında müzakirə edildi. Münaqişələrə dair qətnamə layihəsi aprelin 21-25-də keçiriləcək sessiyaya təqdim edilmək üçün müzakirə olundu. Ermənistan tərəfinin irəli sürdüyü “Dağlıq Qarabağ üçün hüquqi və siyasi status” ifadəsi rədd edildi. Münaqişələrin aradan qaldırılmasının aşağıdakı prinsipləri qəbul edildi: sərhədlərin toxunulmazlığı; beynəlxalq sülhməramlı qüvvələrinin vasitəçiliyi ilə münaqişə zonalarında təhlükəsizliyin təminatı; bütün tərəflər arasında danışıqlardan sonra Abxaziya və Dağlıq Qarabağ üçün geniş muxtariyyət statusu; qaçqınların və məcburi köçkünlərin öz yerlərinə qayıtmaq hüququ^^^.

Layihə əsasında 1997-ci il aprelin 22-də Strasburqda Avropa Şurası Parlament Assambleyasının yaz sessiyasında Cənubi Qafqazda münaqişələrə dair qətnamə qəbul edildi^^®. Qətnamənin “B” bəndi Dağlıq Qa-

ARXİNA. 21.08.1996-18.03.1997. Qovluq Xo9, v.165

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat Mərkəzi xəbər verir. - “Azərbaycan” qəzeti, Bakı, 1997, 18 aprel.

Avropa Şurası Parlament Assambleyasının Cənubi Qafqazda münaqişələrə dair qətnaməsi. Ffsl 119 (1997). - “Xalq qəzeti”, Bakı, 1997, 24 aprel.

rabağ haqqında idi. Həmin bənddə yazılırdı: "Assambleya Ermənistanın və Azərbaycanın parlament üzvləri arasında davam edən dialoqu, xüsusən üzv olmayan Avropa ölkələri ilə əlaqələr komitəsinin təşkil etdiyi 1996-cı il yanvarın 26-da Strasburqda keçirilmiş Cənubi Qafqazda münaqişələrə dair seminarı alqışlayır. Bununla əlaqədar, Assambleya ATƏT-in Dağlıq Qarabağ üzrə Minsk qrupunun yenidən fəaliyyətə başlamasını alqışlayır və onun münaqişəni tezliklə nizama salmağa yönəlmiş danışıqları davam etdirməsini dəstəkləyir. Assambleya münaqişənin siyasi yolla nizama salınmasına nail olmaq, bunun sayəsində işğal olunmuş ərazilərin azad edilməsinə, qaçqınların və köçkünlərin geri qayıtmasına. Dağlıq Qarabağ üçün qənaətbəxş alternativ statusa, habelə təhlükəsizliyə təminat yaratmaq məqsədilə münaqişənin bütün tərəflərini birbaşa danışıqlar aparmağa çağırır. Nəhayət, Assambleya arzu etdiyini bildirir ki, gələcəkdə üç Cənubi Qafqaz dövləti - Ermənistan, Azərbaycan və Gürcüstan Cənubi Qafqaz dövlətləri birliyi və birgə parlament assambleyası yaradılmasının mümkünlüyü məsələsinə baxacaqlar".

Qətnamənin Azərbaycan üçün faydasını Heydər Əliyev belə qiymətləndirirdi: "Həmin qətnamədə də Azərbaycan dövlətinin ərazi bütövlüyü, Ermənistan - Azərbaycan münaqişəsinin aradan qaldırılmasına dair Lissabon zirvə görüşünün prinsipləri təsdiq edilmişdir. Bu sənədlər hamı tərəfindən qəbul edilmiş beynəlxalq hüquq normaları əsasında sülhə nail olmaq üçün yaxşı zəmindir"®^'.

Qətnamənin qəbulundan az sonra, 1997-ci il aprelin 25-də Avropa Şurası Nazirlər Komitəsinin iclası keçirildi. İclasda çıxış edən Azərbaycanın xarici işlər naziri ölkədə siyasi və iqtisadi sabitlik, Azərbaycan Respublikasına xüsusi dəvət olunmuş qonaq statusu verildikdən sonra əməkdaşlığın inkişafı, tam hüquqlu üzv olmaq istəkləri, Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli istiqamətində səylər haqqında məlumat verdi, Qafqazda sülhün bərqərar olmasının Azərbaycanın xarici siyasətinin üstün istiqaməti olduğunu, Rusiyanın Ermənistana qanunsuz silah verməsinin regionda şəraitə mənfi təsir etdiyini diqqətə çatdırdı^®^.

' Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1997-ci il oktyabrın 11-də Strasburqda Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşündə nitqi. - "Azərbaycan" qəzeti, Bakı, 1997, 15 oktyabr.

**BtıcrynneHHe na sacenaHHH KoMurera MnHHCxpoB CoBexbi Esponbi. CxpacGypr,** 1997, 25 **anpena. - *T*acanoB F. AsepöaüruKaH - Espona: na nyxH к HHxerpauHH,** c.69-81.

İclas keçirildiyi zaman Azərbaycan Respublikasının Avropa Şurası ilə münasibətlərində əlamətdar bir hadisə baş verdi. Azərbaycan Respublikasının Avropa mədəniyyət konvensiyasına qoşulmasına dair sənədin imzalanma mərasimi oldu. Mərasimdə nitq söyləyən Azərbaycanın xarici işlər naziri ölkəsinin tarixən Avropa ilə Asiyanın qovuşağmda yerləşərək dünya sivilizasiyasının bütün incilərindən bəhrələndiyini qeyd etdi^’^.

Konvensiyaya qoşulmaq əhəmiyyət daşıyırdı. Bu, Azərbaycanın Avropa Şurası ilə əlaqələrinə yeni impuls verirdi. Əməkdaşlığın genişlənməsi üçün əlavə imkanlar açırdı.

## Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının ikinci zirvə görüşü və Azərbaycan

Avropa Şurası ilə əməkdaşlıqda mühüm hadisələrdən biri 1997-ci il oktyabrın 10-11-də Strasburqda keçirilən Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının ikinci zirvə toplantısında Azərbaycanın iştirakı oldu. Zirvə görüşündə 46 dövlətin ali nümayəndələri, o cümlədən 26 prezident, 20 baş nazir iştirak edirdi. Qeyd etmək lazımdır ki, birinci zirvə görüşü hələ 1993-cü ilin oktyabr ayında Avstriyanın paytaxtı Vyanada keçirilmişdi. İkinci zirvə görüşündə Heydər Əliyev başda olmaqla Azərbaycan Respublikasının nümayəndə heyəti iştirak edirdi. Nümayəndə heyətinin tərkibinə xarici işlər naziri və Azərbaycan Respublikası Milli Məclisinin Avropa Şurası Parlament Assambleyasmdakı nümayəndə heyətinin üzvü olan 6 deputat daxil idi. Səfərin özünəməxsusluğu xüsusi dəvət olunmuş qonaq statusu verildikdən sonra Azərbaycan Respublikasının Avropa Şurasında yüksək səviyyədə ilk dəfə iştirak etməsi idi. Səfərdə başlıca məqsəd Avropa Şurası ilə daha sıx əlaqələr qurmaq və tam üzvlük üçün zəmin hazırlamaq idi.

Azərbaycan Prezidenti Avropa Şurası Parlament Assambleyasının sədri Leni Fişer ilə görüşərək Ermənistan - Azərbaycan münaqişəsinin həllinə dair səyləri müzakirə etdi. Heydər Əliyev ölkəsinin ABŞ, Fransa və Rusiya prezidentlərinin Denver bəyanatını Azərbaycanın qəbul etdi-

BbicrynjıeHHe во BpeMH nponeÄypbi HoanHcanna flOKyMCHTa o npHcoean- HCHHH A3ep5ana>KaHa к EsponeHCKon KyjibTypnoH KoHBenunn. CTpacöypr, 25 anpeaa 1997 r. - FacanoB F. A3ep6anÄ>KaH - Bapona; na nyrn к HHxerpauHH, s. 81-82.

yini, Lissabon zirvə görüşündə müəyyən edilmiş prinsiplər əsasında münaqişənin həllinə tərəfdar olduğunu bildirdi'™®.

Azərbaycan Prezidenti Avropa Şurasının baş katibi Daniel Tarşis, Avropa Şurasının üzvü olan bəzi ölkələrin dövlət və hökumət başçıları ilə görüşərək ölkəsinin Avropa Şurasına tam üzv qəbul edilməsinin zəruriliyini və qurum ilə əməkdaşlığın perspektivləri haqqında ölkəsinin strategiyasını onların diqqətinə çatdırdı'®®'.

Fransa Prezidenti Jak Şirak ilə görüşdə Azərbaycan Prezidenti Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin dinc siyasi vasitələrlə həlli istiqamətindəki səyləri bəyəndiyini bildirdi. Ermənistanın əməli mövqe tutmadığını vurğuladı.

Danimarkanın xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Niyels Peterson'®®^ ilə görüşdə həm ikitərəfli Azərbaycan - Danimarka əlaqələri, həm azərbaycanlı qaçqın və məcburi köçkünlərin vəziyyəti, həm də Avropa Şurası ilə çoxtərəfli əməkdaşlıq məsələləri müzakirə edildi. Danimarka azərbaycanlı qaçqınlara yardım etməyə hazır olduğunu bəyan etdi'®°®.

Oktyabrın 10-da Eleydər Əliyev Ermənistan Prezidenti Levon Ter-Petrosyan ilə görüşdü. Görüş ərəfəsində Azərbaycan tərəfi ATƏT-in Minsk qrupunun həmsədrlərinin yeni təkliflərinə müsbət münasibət bildirmişdi. Artıq qeyd edildiyi kimi, həmin təkliflərdə münaqişənin iki mərhələdə həlli nəzərdə tutulurdu. Birinci mərhələdə bütün erməni silahlı qüvvələri Azərbaycanın işğal edilmiş altı rayonundan çıxarılmalı; məcburi köçkünlər daimi yaşayış yerlərinə qayıtmalı; müharibə nəticəsində dağıdılmış bütün kommunikasiyalar bərpa edilməli idi. İkinci mərhələdə isə Şuşa və Laçın rayonları da azad edilməklə Dağlıq Qarabağın statusu məsələsi həll olunmalı idi. Ermənistan tərəfi də ATƏT-in Minsk qrupunun həmsədrlərinin verdikləri son təkliflərə razı olduğunu bildirmişdi.

Əliyev H.Ə. Avropa Şurasının Parlament Assambleyasının prezidenti xanım Leni Fişerlə söhbətdən. 9 oktyabr 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XII kitab, **S.281-282.**

Əliyev H.Ə. Avropa Şurasının baş katibi Daniel Tarşis ilə görüşdə söhbətdən. 9 oktyabr 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XII kitab, s.283-285.

Niyels Peterson (1939) - Danimarka Sosial Liberal Partiyasından deputat. İqtisadiyyat naziri (1988-1990), xarici işlər naziri (1993-2000).

Əliyev H.Ə. Danimarkanın xarici işlər naziri, ATƏT-in sədri Niyels Peter- senlə görüşdə söhbətdən. 10 oktyabr 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XII kitab, s.293-294.

Görüşün sonunda birgə bəyanat qəbul edildi. Bəyanatda prezidentlərin münaqişənin siyasi vasitələrlə, ilk növbədə danışıqlar yolu ilə həllinə sadiq olduqları vurğulanırdı. Azərbaycan və Ermənistan prezidentlərinin fikrincə, Minsk konfransı həmsədrlərinin Minsk qrupu çərçivəsində göstərdikləri fəallıq münaqişəyə cəlb olunmuş bütün tərəflərin konstruktivliyi şəraitində bu münaqişənin aradan qaldırılması işində real irəliləyişə nail olmağa imkan verə biləcək bazanın yaradılmasına yönəlmişdi. Azərbaycan və Ermənistan belə hesab edirdilər ki, Minsk qrupu həmsədrlərinin son təklifləri Minsk qrupu çərçivəsində danışıqların yenidən başlanması üçün ümidverici əsasdır'®"".

Keçirilən görüşlər Azərbaycan dövlətinin xarici siyasətinin Avropa istiqamətinin reallaşdırılmasının konkret təzahürü, Avropa strukturlarını və regionlarını əhatə etmək istiqamətində səylərin bir nümunəsi idi. Azərbaycan Respublikası mexaniki olaraq Avropa Şurasına üzv olmaq istəmirdi, o, Avropa standartlarına cavab verirdi''"'^.

Oktyabrın 11-də zirvə görüşündə nitq söyləyən Heydər Əliyev ölkəsinin cəmiyyətin demokratik inkişafına dair Avropa ideallarına sadiqliyini və qitədə gələcəkdə də sülh, sabitliyə öz əməyini sərf etməyə hazır olduğunu, Azərbaycanın bütün tarix boyu Avropa ilə sıx bağlı və onun

tərkib hissəsi olduğunu bildirdi . O, Avropa ölkələrinin inteqrasiyasından və bu prosesdə Azərbaycanın rolundan danışarkən vurğuladı: "Azadlıq, demokratiya və humanizm idealları ətrafında sıx birləşmiş yeni Avropa həmişə olduğu kimi bütün bəşəriyyətin tərəqqisində və çiçəklənməsində mühüm rol oynayacaqdır. Əminəm ki, çox böyük təbii sərvətlərlə, zəngin mədəni və intellektual potensiala malik olan Azərbaycan Respublikası bu nəcib prosesə öz layiqli töhfəsini verəcəkdir".

Əliyev H.Ə. Azərbaycan və Ermənistan prezidentlərinin görüşündə Ermənistan - Azərbaycan münaqişəsinin aradan qaldırılmasına dair müzakirə və danışıqların yekunu barədə məlumatın və mətbuat üçün birgə bəyanatın mətninin elan edilməsi. 10 oktyabr 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XII kitab, s. 305-306.

**BbicrynjıeHue ua aacenaHHH Mujıau MeaxcnHca AsepSaftaxcaHCKofı Pecnyö- jtHKH o5 HTorax ynacTHa npeauÄeHxa AsepöaHaJKaHCKOu PecnyÖJiuKU E.A.Ajıue- Ba Ha caMMHxe rocyaapcxB-MjıeHOB CoBexa EBpontı** в **CxpacSypre,** 10-11 окхвö- **pa** 1997 **r. Baxy,** 17 **OKxaöpa** 1997 r. **- FacanoB E. AaepöafİÄXcaH - EBpona: Ha nyxH** к **HHxerpauHH, c.** 139-153.

Əliyev H.Ə. Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşündə nitq. 11 oktyabr 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XII kitab, s. 311-315.

Azərbaycan Prezidentinin nitqi tarixi əhəmiyyət daşıyırdı. Hər şeydən əvvəl, ilk dəfə olaraq Azərbaycan rəhbəri Avropa Şurasının kürsüsündən nitq edərək ümumavropa problemlərinə ölkəsinin münasibətini bəyan edirdi. Bu nitqi ilə Heydər Əliyev Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətləri Avropa ölkələri rəhbərlərinin diqqətinə çatdıraraq dövlətinin mövqeyni açıqladı. Prezidentin nitqini yüksək qiymətləndirən görüş iştirakçıları Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın konstruktiv mövqe tutduğuna tam əmin oldular.

İkinci zirvə görüşü vahid Avropa ailəsinin qurulmasını və dövlətlərin demokratik inkişafını faktiki olaraq möhkəmləndirdi. Bu prosesə Azərbaycan Respublikası da töhfəsini verdi. Zirvə görüşünün sonunda demokratik sabitliyin möhkəmləndirilməsi üzrə yekun bəyannamə və fəaliyyət planı qəbul edildi. Həmin sənədlərdə demokratiya və insan hüquqları, sosial birlik, vətəndaşların təhlükəsizliyi, demokratik dəyərlərin və mədəni müxtəlifliyin qorunması məsələləri əksini tapmışdı. Azərbaycan üçün ən əhəmiyyətli məsələ zirvə görüşünün iştirakçılarının münaqişə qurbanlarına yardım etməyə qəti şəkildə hazır olmalarını bəyan etmələri oldu.

Zirvə görüşü ötən müddət ərzində Azərbaycanın keçdiyi yolun əhəmiyyətini bir daha göstərdi. Bu yol özündə əsasən aşağıdakı məsələləri əhatə edirdi: ölkə anarxiya və başıpozuqluqdan siyasi sabitliyə gəlmişdi; iqtisadi dağıntıdan Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan ölkələr arasında ən çox xarici kapital qoyulan bir ölkə halına gəlmişdi; vətəndaş itaətsizliyindən xalq ilə hakimiyyət arasında birliyə gəlmişdi; nəhayət, ölkənin konkret inkişaf strategiyası müəyyənləşdirilmişdi.

Avropa ölkələri artıq Azərbaycanı bərabərhüquqlu tərəfdaş kimi qəbul və onunla əməkdaşlıq etməyə hazır olduqlarını bildirirdilər. Zirvə görüşü Azərbaycan haqqında müsbət rəyin fonualaşmasma təsir etmişdi.

## Əməkdaşlıq dərinləşir

Zirvə görüşündən sonra Avropa Şurası ilə Azərbaycan arasında münasibətləri intensivləşdirmək məqsədi ilə 1998-ci il yanvarın 20-də Azərbaycan Respublikasının Prezidenti “Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi haqqında” sərəncam imza

ladı'°°'. Sərəncamda Azərbaycan Respublikasının Avropa Şurasına tam hüquqlu üzv qəbul edilməsi sahəsində Azərbaycanda görüləcək işlər və Avropa Şurası ilə əməkdaşlıq məsələləri əksini tapmışdı.

Həmin işləri reallaşdırmaq üçün Azərbaycan tərəfi səylərini artırdı. Azərbaycan Respublikasının Avropa Şurasına üzv olması üzrə Avropa Şurası Parlament Assambleyasının məruzəçiləri Jak Bomel və Corc Kler- fayt 1998-ci il yanvarın 21-22-də Azərbaycanda səfərdə oldular. Azərbaycan Prezidenti ölkədə aparılan islahatlar və Minsk qrupu həmsədrlərinin təkliflərinin mahiyyətini izah etdi"'®*.

Jak Bomel Azərbaycanda görülmüş işlərdən razılıq ifadə edərək dedi: "...biz Bakıya Azərbaycanın Avropa Şurasına qəbul olunması prosesini hazırlamaq və bu işi tezliklə başa çatdırmaq ümidi ilə gəlmişik. Mən bu dəfəki səfərdə görürəm ki, Azərbaycanda həqiqətən böyük müsbət dəyişikliklər olmuşdur. Mən təsdiq edirəm ki, sizin respublikanızın həyatında həddindən artıq yaxşılaşma prosesi getmişdir. Mən bu müsbət dəyişiklikləri, yaxşılaşmanı birinci növbədə insanların həyatında, ikinci isə cəmiyyətin demokratik yolla inkişafında görürəm"'°°^.

Səfərdən sonra Azərbaycan tərəfi insan hüquqlarının qorunması və demokratikləşdirmə sahəsində Avropa Şurası ilə əməkdaşlığını genişləndirdi. Yeni tədbirlər görüldü'°'°. Azərbaycan Respublikası Prezidenti
1998- ci il yanvarın 22-də vətəndaşların insan hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında fərman verdi. 1998-ci il fevralın 3-də Azərbaycan Prezidenti Azərbaycan Respublikasında ölüm hökmünün ləğv edilməsi haqqında Milli Məclisə müraciət etdi'°". Qeyd

Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 20 yanvar 1998-ci il. - "Xalq qəzeti", Bakı, 1998, 22 yanvar.

Əliyev H.Ə. Avropa Şurası Parlament Assambleyasının (AŞPA) nümayəndə heyəti - Azərbaycan Respublikasının Avropa Şurasına daxil olmasına dair AŞPA-nın məruzəçiləri Jak Bomel və Corc Klerfayt ilə görüşdə çıxış. 22 yanvar 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XIV kitab, s. 157-163.

Həsənli Ş. Parlament xəbərləri. - "Xalq qəzeti", Bakı, 1998, 22 yanvar.

Seyidov S. Democracy, Human Rihts and Foreign Policy: From Winston Churshill to Heydar Aliyev. - Azerbaijan in Global Politics: Crafling Foreign Policy, p.299-322.

Əliyev H.Ə. Azərbaycan Respublikasında ölüm hökmünün ləğv edilməsi haqqında Milli Məclisə müraciət. 3 fevral 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XIV kitab, s. 206-210.

etmək lazımdır ki, uzun müddət Azərbaycanda ölüm hökmü tətbiq edilmişdi. 1988-ci ildə ölüm cəzasına məhkum edilmiş 5, 1989-cu ildə 6,
1990- cı ildə 3 şəxs barəsində ölüm hökmləri icra edilmişdi. Bundan üç il sonra ölüm hökmləri icra olunmamışdı. Yalnız 1993-cü ilin fevral ayında 8 nəfər barəsində ölüm hökmləri tələsik icra edilmişdi. Ölüm cəzasının icrasına 1993-cü ilin iyun ayından faktiki moratorium qoyulmuşdu. Müraciətə baxan Milli Məclis fevralın 10-da Azərbaycanda ölüm hökmünün ləğv edilməsi haqqında qərar qəbul etdi. Beləliklə, Şərq aləmində ilk dəfə olaraq Azərbaycanda ölüm cəzası ləğv edildi. Bu, ölkənin dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəlilədiyini bir daha sübut edirdi. Ölüm cəzasının ləğvi tarixi hadisə olmaqla bərabər cinayət hüququ siyasətinin humanistləşdirilməsində və bütövlükdə hüquq sistemindəki islahatlarda mühüm addım oldu.

Azərbaycan Prezidenti insan və vətəndaşın hüquq və azadlıqlarının təmin edilməsi üzrə tədbirlər haqqında 1998-ci il fevralın 22-də fərman imzaladı. Fərmana uyğun olaarq insan hüquqlarının daha etibarlı qorunmasına yönəlik konsepsiya, əsas prinsiplər və prioritet istiqamətlər işlənib hazırlandı"”^.

Bir müddət sonra, 1998-ci il iyunun 18-də Azərbaycan Prezidenti İnsan hüquqlarına dair dövlət proqramı haqqında sərəncam imzaladı"”^. Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili vəzifəsi yaradıldı""’. Bu, insan hüquqlarının qorunmasında mühüm bir vasitə oldu. Eyni zamanda Azərbaycan Milli Elmlər Akademiyasında İnsan hüquqları üzrə elmi-tədqiqat institutu yaradıldı""^ Ölkədə sosial, siyasi və iqtisadi sahələrdə ciddi demokratik islahatlar həyata keçirildi. Kütləvi informasiya vasitələri haqqında qanun qəbul edildi. 1998-ci il avqustun 6- da Azərbaycan Respublikasının Prezidenti söz, fikir və informasiya azadlıqlarının təmin edilməsi haqqında əlavə tədbirlər haqqında fərman imzaladı""®. Fərmana əsasən Nazirlər Kabineti yanında mətbuat və digər kütləvi informasiya vasitələrində dövlət sirlərini mühafizə edən baş idarə ləğv edildi. Qeyd etmək lazımdır ki, bütün sovet dövrü ərzində mətbuat.

ARXİNA. 31.05.2001-20.08.2001. Qovluq Rs S, v.21-28.
Azərbaycan Respublikası. 1991-2001. Bakı, 2001, s.l02.
ARXİNA. 31.05.2001-20.08.2001. Qovluq X2S, v.21-28.
ARXİNA. 20.08.2001- 03.11.2001. Qovluq Xs6, v.2-11.
Əliyev H.Ə. Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında. 6 avqust 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVII kitab, s.71-76.

nəşrlər və digər kütləvi informasiya vasitələri üzərində dövlət nəzarəti mövcud olmuşdu. Nazirlər Kabineti yanında mətbuat və digər kütləvi informasiya vasitələrində dövlət sirlərini mühafizə edən baş idarə hələ 1966-cı il oktyabrın 27-də yaradılmışdı. 1990-ci il dekabr ayının 5-də Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə onun yeni əsasnaməsi təsdiq edilsə də, əslində bu idarənin fəaliyyətində heç bir ciddi dəyişiklik baş verməmişdi. 1996-cı il noyabrın 15-də Dövlət sirri haqqında Azərbaycan Respublikasının qanunu qəbul edildikdən sonra idarənin iş metodlarında ciddi dəyişikliklər edildi. Buna baxmayaraq, idarə fəaliyyətini yeni şəraitə uyğun qura bilməmişdi. Bütün bunlara görə, yeni şəraitdə bu idarənin fəaliyyətinin ləğvi məsələsi gündəliyə gəlmişdi. Göstərilən sərəncama uyğun olaraq idarə ləğv edildi. Ölkə tarixində ilk dəfə olaraq kütləvi informasiya vasitələri sərbəstlik aldılar.

Azərbaycanın təşkilata tam üzvlüyü və qarşılıqlı əməkdaşlıq məsələlərini müzakirə etmək məqsədi ilə 1998-ci il avqustun 30-da Avropa Şurasının baş katibi Daniel Tarşisin başçılıq etdiyi nümayəndə heyəti Bakıya səfər etdi. Nümayəndə heyətinin üzvü, Yunanıstanın xarici işlər üzrə dövlət katibi İoanis Kranidiotis Azərbaycanı Avropanın bir hissəsi adlandıraraq, Avropa Şurasına üzv olması prosesində fəal iştirak etməyə hazır olduqlarını bildirdi. Daniel Tarşis Azərbaycanın bütün sahələrdə qazandığı uğurları müsbət qiymətləndirdi'®'^.

Azərbaycan Respublikası Avropa Şurası ilə əməkdaşlığı genişləndirmək üçün əlavə tədbirləri reallaşdırdı. 1999-cu il mayın 14-də Azərbaycan Prezidentinin imzaladığı Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında sərəncamı""* qarşılıqlı münasibətlərin inkişafında müstəsna rol oynadı. Həmin sərəncamda Azərbaycan qanunvericiliyinin Avropa standartlarına uyğunlaşdırılması və Avropa Şurasının bir sıra konvensiyalarına qoşulması məsələlərinin öyrənilməsi tövsiyə edilirdi. Sərəncamın yerinə

Əliyev H.Ə. Avropa Şurasının baş katibi Daniel Tarşisin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdəki söhbətdən. 30 avqust 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVII kitab, s. 195-208.

Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 14 may 1999-cu il. - Azərbaycan Respublikası qanunvercilik toplusu. 31 may 1999-cu il, JfaS, maddə 319. Bakı, 1999.

yetirilməsi nəticəsində Azərbaycan Respublikasında bir sıra məcəllə və qanunlar Avropa Şurası ekspertlərinin tövsiyələri nəzərə alınmaqla qəbul edildi.

Bütün bu tədbirlər Azərbaycan Respublikasının Avropa Şurasına tam üzv olması üçün zəmin yaradırdı. Nəhayət, 2001-ci ildə Azərbaycanda monitorinq keçirən Avropa Şurası Parlament Assambleyası qurumun Nazirlər Komitəsinə belə bir tövsiyə verdi: Azərbaycan Respublikası Avropa Şurasının üzvlüyünə dəvət edilsin; Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikasına altı yer ayrılsın; Azərbaycan Respublikasına üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə imkan vermək üçün bütün yardımçı proqramlar bəyənilsin və bu istiqamətdə onunla əməkdaşlıq edilsin. Nazirlər Komitəsi həmin tövsiyələri qəbul etdi.

## Azərbaycan Respublikası Avropa Şurasına tam hüquqlu üzv qəbul edilir. Yeni imkanlar

Azərbaycanın bu təşkilata tam hüquqlu üzv olması məsələsi 2001-ci il yanvarın 3-də Heydər Əliyevin Avropa Şurası Nazirlər Komitəsinin sədri, Latviyanın xarici işlər naziri İndulis Berzins başda olmaqla nümayəndə heyəti ilə danışıqlarda müzakirə edildi'®'^. Bundan az sonra, yanvarın 10-da Azərbaycan Prezidenti Avropa Şurasının 1949-cu il mayın 5-də London şəhərində imzalanmış nizamnaməsinə"'^® Azərbaycan Respublikasının qoşulması haqqında sərəncamı imzaladı"'^'. Azərbaycan Prezidenti Fransaya səfər etdi"'^^. Yanvarın 25-də Azərbaycan Respublikası Avropa Şurasının tam

' Azərbaycan Prezidenti Heydər Əliyev Avropa Şurasının nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 3-12.

Avropa Şurasının nizamnaməsi. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. II hissə, s. 5-15.

ARXİNA. 02.02.2002-20.02.2002. Qovluq XbH, v.97; "Azərbaycan" qəzeti, Bakı, 2001, 12 yanvar; Avropa Şurasının nizamnaməsinə Azərbaycan Respublikasının qoşulması haqqında Azərbaycan Respublikasının qanunu. 10 yanvar 2001-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. II hissə, s. 5.

Azərbaycan Respublikasının Avropa Şurasına üzv qəbul olunması ilə əlaqədar təntənəli mərasim. - Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2001. I hissə, s. 104-105.

hüquqlu üzvlüyünə qəbul edildi. Bu münasibətlə keçirilən toplantıda Prezident Heydər Əliyev başda olmaqla Azərbaycandan böyük bir nümayəndə heyəti iştirak edirdi'°^^. Avropa Şurasının binası qarşısında Azərbaycan Respublikasının dövlət bayrağı qaldınldı. Mərasimdə Azərbaycan Prezidenti nitq söylədi'®^'*. O dedi: "Biz ölkəmizin Avropa Şurasına qəbuluna yalnız indiyə qədər gördüyümüz işlərə, həyata keçirdiyimiz islahatlara verilən qiymət deyil, həm də ölkəmizə və xalqımıza doğru uzadılan dost əli kimi qiymətləndiririk və ona görə də bir sıra problemlərin vahid Avropa ailəsi daxilində həllini tapacağına inanınq"'®^^.

Prezident bu hadisəni bütün Azərbaycan tarixində ən mühüm hadisə kimi qiymətləndirərək bildirdi ki, Azərbaycan xalqı öz Şərq köklərindən ayrılmayaraq Qərb sivilizasiyasının sintezinə əsaslanan nadir bir mədəniyyət yaratmış. Qərbin mütərəqqi dəyərlərini Qafqazda, Yaxın və Orta Şərqdə yaymışdır.

Avropa Şurası Nazirlər Komitəsinin sədri, Latviyanın xarici işlər naziri İndulis Berzins bunu tarixin bir səhifəsinin yazılması kimi, Avropa Şurası Parlament Assambleyasının sədri Lord Rassel-Coston isə təşkilata Azərbaycanın üzv qəbul edilməsini müsbət qiymətləndirdi.

Azərbaycan Prezidenti Avropa Şurası Parlament Assambleyasının sessiyasında nitq söyləyərək aparılan islahatlardan, ölkəsinin beynəlxalq konvensiyalara qoşulmasından, kütləvi informasiya vasitələrinin və qeyri-hökumət təşkilatlarının fəaliyyətinin sərbəstliyindən danışdı"'^^. Münaqişələrin həllinin və ikili standartlara yol verilməməsinin vacibliyini vurğuladı. O, Cənubi Qafqaz regionuna bitərəflik statusu verilməsini təklif etdi.

Avropa Şurasının baş katibi Valter Şvimmer və Avropa Şurası Nazirlər Komitəsinin sədri İndulis Berzins ilə keçirilən görüşlərdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə edildi. Avropa Şurası rəhbər şəxslərinin fikrincə, tam hüquqlu üzv qəbul olunması Azərbaycan üçün böyük hadisə idi.

ARXİNA. 02.02.2002-20.02.2002. Qovluq ***m*** 1, v.105-129.

Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 105-106.

Azərbaycan Respublikasının Avropa Şurasına üzv qəbul edilməsi ilə əlaqədar təntənəli mərasimdə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin çıxışı. Strasburq, 25 yanvar 2001-ci il. — Sabaha doğru, s. 153.

Avropa Şurası Parlament Assambleyasının sessiyasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 107-111.

Rəsmi qəbuledilmə mərasimindən sonra Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyev təşkilatın rəhbərləri ilə bir neçə sənədi imzaladı. Azərbaycanın üzvlük haqqı təşkilatın büdcəsinin 0,20%- ni təşkil edir və ya ildə 450 min avro idi.

Azərbaycan Respublikasının Avropa Şurasına tam hüquqlu üzv qəbul edilməsi tarixi hadisə olmaqla böyük əhəmiyyət daşıyırdı. Azərbaycan Avropa ailəsinə qovuşurdu. Tam hüquqlu üzv qəbul edilmək təkcə görülmüş işlərə, həyata keçirilmiş islahatlara verilən qiymət deyil, həm də Azərbaycan Respublikasına və xalqına uzadılan əl idi, müstəqilliyə hörmət və Avropa ailəsində özünəlayiq yer tapacağına inamın nümunəsi idi. Bununla Azərbaycan dövləti qitə problemlərinin həllində yaxından iştirak etmək, ölkə qanunvericiliyini daha da təkmilləşdirmək, Avropa konvensiyalarına qoşulmaq və əsas insan hüquq və azadlıqlarının qorunması üçün yeni imkanlar qazanırdı.

Tam hüquqlu üzv olduqdan sonra Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığının istiqamətləri artdı. Bunlar əsasən Avropa Şurası çərçivəsində beynəlxalq-hüquqi müqavilələrə qoşulmaq; milli qanunvericiliyi modernləşdirmək və uzlaşdırmaq, məhkəmə prosedurunu təkmilləşdirmək; insan hüquqları, söz və informasiya azadlığını qorumaq üçün təminat mexanizmini qurmaq; cəmiyyətin bütün təbəqələri üçün sosial ədalət mühitinin yaradılmasına və qorunmasına yardım etmək; mədəni irsin mühafizəsi, idmanın inkişafına yardım etmək, ətraf mühiti qorumaq; demokratik prosesləri möhkəmləndirmək və s. sahələri əhatə edirdi.

Azərbaycan əməkdaşlıq istiqamətində daha bir addım atdı. 2001-ci il fevralın 9-da Azərbaycan Respublikasının Avropa Şurasının yanında

diplomatik nümayəndəliyi təsis edildi . Xarici İşlər Nazirliyinin əməkdaşı Aqşin Mehdiyevə fövqəladə və səlahiyyətli səfir dərəcəsi verildi'®^*. O, Avropa Şurasında Azərbaycanın daimi nümayəndəsi təyin edildi'®^’.

Azərbaycan Respublikasının Avropa Şurasının yanında diplomatik nümayəndəliyinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının qanunu. 9 fevral 2001-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. II hissə, s. 58-59.

A.Ş.Mehdiyevə Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı.
10 fevral 2001-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.
11 hissə, s. 59.

A.Ş.Mehdiyevin Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 

Bundan sonra Azərbaycan Avropa Şurası Parlament Assambleyasının sessiya iclaslarında tam hüquqlu üzv kimi iştirak etməyə başladı. Milli Məclisin deputatı İlham Əliyevin rəhbərliyi altında parlament nümayəndə heyəti AŞPA iclaslarında Ermənistanın təcavüzkarlıq siyasətinin mahiyyətini üzv ölkələrə çatdırmağa, Azərbaycan üçün əhəmiyyətli məsələlərdə Avropa ölkələrinin dəstəyini qazanmağa nail oldu. Assambleyanın 2001-ci ilin aprel sessiyasında nümayəndə heyəti "Ermənistanda və Dağlıq Qarabağda saxlanılan hərbi əsirlər və girovlar haqqında", "Azərbaycan mədəni irsinin zəbt edilməsi və dağıdılması barədə", "Azərbaycan Respublikasında ekoloji vəziyyət barədə" sənədlərini sessiya iştirakçıları arasında yaydı. "Avropanın iqtisadi və transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizəsi" məsələsinin müzakirəsi zamanı İlham Əliyev çıxış edərək Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edilməsi nəticəsində Dağlıq Qarabağda və onun ətrafında narkotik bitkilərin becərilməsi və onların nəqli, habelə qanunsuz silahlı birləşmələrin hazırlanması məsələlərinə diqqəti cəlb etdi, Avropa Şurasını işğal edilmiş ərazilərin azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması üçün Ermənistana təsir etməyə çağırdı.

ABŞ-da 11 sentyabr terror hadisəsindən sonra Avropa Şurası ilə Azərbaycan arasında əməkdaşlıq daha da intensivləşdi. Avropa Şurası Parlament Assambleyasının sədri lord Rassel Conston sentyabrın 14-də Azərbaycana səfəri çərçivəsində xarici işlər naziri Vilayət Quliyev, Baş Nazir Artur Rasizadə ilə görüşərək əməkdaşlıq məsələlərini müzakirə etdi""’". Onu Azərbaycan Prezidenti qəbul etdi'°^'. Görüşdə ABŞ-da törədilən terror aktları pislənildi, terrorizmə qarşı mübarizədə dövlətlərin səylərinin birləşdirilməsinin zəruriliyi, Avropa Şurası qarşısında Azərbaycanın götürdüyü öhdəliklərin yerinə yetirilməsi və s. məsələlər müzakirə olundu. AŞPA-nm sentyabr sessiyası ərəfəsində belə bir görüşün keçirilməsi əhəmiyyətli idi.

---

fərmanı. 10 fevral 2001-ci il. — Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. 11 hissə, S.59.

Avropa Şurası Parlament Assambleyasının sədri lord Rassel Constonun Azərbaycana səfəri. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 868-870.

Azərbaycan Prezidenti Heydər Əliyev Avropa Şurası Parlament Assambleyasının sədrini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001,1 hissə, s. 870-877.

Parlament Assambleyasının payız sessiyasında Azərbaycan nümayəndə heyəti səmərəli fəaliyyət göstərdi. Sessiyanın ilk günündə nümayəndə heyətinin ünvanladığı Azərbaycanın ərazi bütövlüyünün Ermənistan tərəfindən tanınması barədə yazılı sorğu 43 ölkənin nümayəndələrinin iştirakı ilə müzakirə edildi. Nazirlər Komitəsi sorğu üzrə yekdilliklə qəbul olunan qərarında beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərə, suverenliyə və dövlətlərin ərazi bütövlüyünə dəstəyini təsdiq etdi, Dağlıq Qarabağ münaqişəsinin yalnız Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmaqla həll edilə biləcəyini bildirdi. Qərarda belə bir müddəa əhəmiyyətli idi ki, ərazi əldə etmək üçün gücdən istifadə edilməsi qəbul- olunmazdır və ondan irəli gələn heç bir nəticə qanuni tanına bilməz.

Sessiyanın sentyabrın 25-də keçirilən iclasında beynəlxalq terrorizm məsələsinin müzakirəsi zamanı çıxış edən İlham Əliyev Ermənistan tərəfindən Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsinin və ətraf rayonlarının tam nəzarətsiz ərazilər olduğunu, qanunsuzluq hökm sürən bu ərazilərdə Ermənistan xüsusi idarələrinin təkcə Ermənistan üçün deyil, digər ölkələrdən gələn terrorçuların hazırlanması üçün düşərgələr yaratdığını, narkotik maddələrin istehsalı və daşınması üçün istifadə edildiyini bildirdi.

Nümayəndə heyəti Azərbaycan Respublikası üçün daha iki mühüm sənədin - "Avropada təhsilin gələcək inkişafı konteksində Azərbaycanda qaçqınların və məcburi köçkünlərin təhsil hüquqları" və "Ermənistan - Azərbaycan (Dağlıq Qarabağ) münaqişəsinin həlli ilə bağlı təkliflər" adlı sənədlərin Parlament Assambleyası tərəfindən qəbul edilərək yayılmasına nail oldu.

Əməkdaşlıq prosesində Azərbaycan Avropanın qabaqcıl dəyərlərinə yiyələnmək istiqamətində tədbirləri gerçəkləşdirdi. Azərbaycanda siyasi partiyalar, ictimai birliklər, həmkarlar ittifaqları və b. haqqında qanunlar qəbul edilmişdi. 2001-ci ilin sonlarına olan məlumata görə, Azərbaycan Respublikasında 30-dan çox siyasi partiya, 1300-dən çox qeyri-hökumət təşkilatı qeydiyyatdan keçmişdi. İnsan hüquqlarının qorunması sahəsində 30-dan çox qeyri-hökumət təşkilatı fəaliyyət göstərirdiÖlkədə qadın hüquqlarının qorunması sahəsində 20-dək qeyri-hökumət təşkilatı var idi. Azərbaycan Respublikası 2001-ci ilin sonunadək insan hüquqları sahəsində 26-dan çox beynəlxalq konvensiyaya qoşulmuşdu'®^^. Beynəlxalq

[1032] ARXİNA. 31.05.2001-20.08.2001. Qovluq NaS, v.21-28.
ARXİNA. 06.10.2001-22.12.2001. Qovluq X26, v.100-101.

aktlarda və Azərbaycan Respublikası konstitusiyasında bəyan edilmiş insan azadlıqlarının həyata keçirilməsinin təmin edilməsi məqsədi ilə Azərbaycanda bir sıra qanunlar qəbul edilmişdi. 2001-ci ilin sonlarına olan məlumata görə, Azərbaycanda 500-dən çox kütləvi informasiya vasitəsi, islam, rus pravoslav kilsəsi, gürcü pravoslav, sneqoq, alman lüteran və b. təmsil edən 300-dən çox dini təşkilat fəaliyyət göstərirdi. Azərbaycanda din dövlətdən ayrı olsa da, dövlət dinin inkişafına qayğı göstərirdi. Dini tolerantlıq mövcud idi. 2001-ci ildə artıq 1300 məscid və dini icma, BDU- nun ilahiyyat fakültəsi, 22 mədrəsə, Bakı İslam Universiteti, onun Sumqayıt, Mingəçevir və Zaqatala şəhərlərində filialları mövcud idi. Azərbaycan ərazisində 3 xristian konfessiyasını - pravoslavlıq, katolik və protestanlığı təmsil edən 85 xristian dini icması fəaliyyət göstərirdi. Bundan əlavə, ölkədə 5 yəhudi sneqoqu da mövcud idi. Azərbaycanda hər bir vətəndaş və insan dinə münasibətini müstəqil müəyyənləşdirir, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, dinə münasibəti ilə əlaqədar əqidəsini ifadə etmək və ya yaymaq hüququna malik idi. Qanun hər bir şəxsin dinə münasibətini müəyyənləşdirməsində, dini etiqadında, ibadətində, dini ayin və mərasimlərin icrasında iştirak etməsində, dini öyrənməsində heç bir maneçiliyə yol vermirdi'®^'*.

AŞPA-nm 2002-ci il yanvarın 20-25-də keçirilən sessiyasında İlham Əliyev başda olmaqla Milli Məclisin nümayəndə heyəti iştirak etdi'°^^. Sessiya iclası çərçivəsində Azərbaycanın Avropa Şurasına üzv olmasının ildönümü qeyd edildi. Çıxış edən İlham Əliyev ötən ili səmərəli qiymətləndirərək Azərbaycanın Avropa dəyərlərinə töhfə verdiyini vurğuladı'"^

Yanvarın 24-də terrorizmə qarşı mübarizə və insan hüquqlarına hörmət məsələsi müzakirə olunarkən İlham Əliyev çıxış edərək erməni terror təşkilatlarının törətdikləri terror aktları üzərində dayandı. Ermənistanın Azərbaycan ərazilərini işğal altında saxladığına diqqəti cəlb etdi'°^'.

ARXİNA. 23.11.2001-19.12.2001. Qovluq Rgö, v.38-42.

Milli Məclisin nümayəndə heyəti Strasburqa gəlmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 15.

Azərbaycanın Avropa Şurasına daxil olmasının ildönümünə həsr edilmiş təntənəli mərasimdə Milli Məclisin AŞPA-dakı nümayəndə heyətinin başçısı İlham Əliyevin çıxışı. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 19-20.

Milli Məclisin AŞPA-dakı nümayəndə heyətinin başçısı İlham Əliyevin çıxışı. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 21-23.

Sessiya zamanı Azərbaycan nümayəndə heyətinin rəhbəri İlham Əliyev qurumun sədr müavini və büro üzvü seçildi'^*.

Avropa Şurası ilə əməkdaşlıqda mühüm addımlardan biri 2002-ci il aprelin 9-da Avropa Şurası Nazirlər Komitəsinin sədri, Litvanın xarici işlər naziri Antanas Valionisin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri oldu. Səfərdə başlıca məqsəd Azərbaycan ilə tanışlıq idi. Nümayəndə heyəti və Azərbaycan Prezidenti arasında olan görüşdə Avropa Şurası ilə əlaqələrin perspektivləri müzakirə edildi"'^'.

Görüşdən az sonra, mayın 3-də xarici işlər naziri Vilayət Quliyev Avropa Şurası Nazirlər Komitəsinin Vilnüsdə keçirilən iclasında etdiyi çıxışında terrorçuluğun, təcavüzkar separatçılığın insanların və dövlətlərin həyatı üçün təhlükə törətdiyini, Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin təkcə Cənubi Qafqaz deyil, Avropa üçün təhlükə mənbəyi olduğunu vurğuladı'°''°.

AŞPA-nm yaz sessiyasının gündəliyinə Azərbaycan, Gürcüstan və Ermənistanda qaçqın və məcburi köçkünlərin vəziyyəti, kimyəvi silahların ətraf mühitə təsiri və digər məsələlər daxil edilmişdi. Azərbaycan nümayəndə heyətinin rəhbəri İlham Əliyev iyunun 24-də Avropa Şurasının baş katibi Valter Şvimmer ilə görüşərək Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına və onun nəticələrinə dair fakt və materialları çatdırdı. Baş katib kommunikasiyaların açılmasının münaqişənin həllində irəliyə doğru bir addım olacağına inanırdı. Daha sonra Azərbaycan nümayəndə heyətinin rəhbəri Avropa Şurasının insan hüquqları üzrə komissarı Alvero Xil-Robers ilə görüşərək azərbaycanlı qaçqın və məcburi köçkünlərin vəziyyəti haqqında danışdı.

Sessiya iclasında Cənubi Qafqazda qaçqın və məcburi köçkünlər məsələsi müzakirə olunarkən İlham Əliyev çıxış etdi'°'". O, Azərbaycan-

Seyidov S. İlham Əliyev və Avropa Şurası, ■ Azərbaycan parlamenti və beynəlxalq təşkilatlar, s. 96.

Azərbaycan Prezidenti Heydər Əliyev Avropa Şurası Nazirlər Komitəsinin sədri, Litvanın xarici işlər naziri Antanas Valionisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 152-153.

Xarici işlər nazirinin Vilnüsə səfəri. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 1 hissə, s. 208-209.

Azərbaycan parlamentinin AŞPA-dakı nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin çıxışı. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 451-452.

dakı qaçqın və məcburi köçkünlərin sayını, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğalını sessiya iştirakçılarının diqqətinə çatdırdı və “əhalinin ümumi sayına nisbətdə qaçqınların sayı təkcə Avropada deyil, bütün dünyada ən böyük göstəricidir” dedi. Ermənistanın təcavüzünün nəticələri üzərində dayanan İlham Əliyev Azərbaycan hökumətinin qaçqın və məcburi köçkünlərin vəziyyətini yaxşılaşdırmaq üçün etdiyi səylərdən danışdı.

Payız sessiyasında isə Ermənistanın və Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin müzakirəsi zamanı Ermənistana dair qətnamə qəbul edilərkən AŞPA deputatlarının tam əksəriyyəti Ermənistanın işğalçı dövlət olduğunu, Azərbaycan ərazilərini zəbt etdiyini, 1 milyondan çox azərbaycanlını qaçqın və məcburi köçkünə çevirdiyini söyləyərək, Ermənistanın qəsbkarhq siyasətini kəskin tənqid etdilər. Azərbaycana dair qəbul edilmiş qətnamədə Azərbaycanın Avropa Şurasına daxil olmasından ötən il yarım ərzində aparılan islahatlar yüksək qiymətləndirilir, Ermənistanın təcavüzünün nəticələri ətraflı əks olunur, işğal edilmiş ərazilərin adları çəkilir, qaçqın və məcburi köçkünlərin ağır vəziyyəti qeyd edilirdi'®''^.

Avropa Şurası Parlament Assambleyasının 2003-cü il martın 31-də yaz sessiyası zamanı Nazirlər Komitəsinin AŞPA-nın müxtəlif tövsiyələri və yazılı sualları ilə bağlı cavabları yayıldı’®'^^. Cavablar arasında AŞPA- nın Ermənistan, Azərbaycan və Gürcüstanda qaçqınların və məcburi köçkünlərin vəziyyəti adlı 1570 saylı tövsiyəsinə Nazirlər Komitəsinin cavabı da var idi. Sənəddə Nazirlər Komitəsi qaçqınların və məcburi köçkünlərin hüquqlarının bərpası üçün bölgədəki münaqişələrin həllinin vacibliyini bəyan etməklə yanaşı, həmin insanların öz torpaqlarına dönməsi və onların təhlükəsizliyinin təmin edilməsi hüququnu bir daha qeyd-şərtsiz təsdiqləyirdi; bölgədəki mövcud münaqişələrin beynəlxalq hüquq normaları və prinsipləri əsasında həllinin zəruriliyini bəyan edirdi; Azərbaycanın işğal edilmiş ərazilərində erməni əhalisinin yerləşdirilməməsinə dair AŞPA-nın tövsiyəsinə qoşulur. Ermənistam həmin ərazilərdə qeyri-yerli əhalini məskunlaşdırmamaq üçün konkret tədbirlər həyata keçirməyə dəvət edirdi.

Azərbaycan parlamenti və beynəlxalq təşkilatlar. Bakı, 2004, s.l6.

Avropa Şurasının Nazirlər Komitəsi Ermənistanı Azərbaycanın işğal olunmuş ərazilərini məskunlaşdırmamağa çağırır. - Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2003.1 hissə, s.145-146.

İclasda çıxış edən İlham Əliyev Ermənistanı təcavüzkar ordusunu Azərbaycanın zəbt olunmuş ərazilərindən geri çəkməyə çağırdı

Azərbaycan tərəfi 2003-cü ildə Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll olunmasına dair bir sıra təkliflər verdi. Kompromis qərar layihəsi razılaşdırılaraq Nazirlər Komitəsinin oktyabrın 9-da keçirilən iclasında qəbul edildi. Nazirlər Komitəsi Dağlıq Qarabağ münaqişəsinin həllinə dair öhdəliyin yerinə yetirilməsi ilə bağlı son iki ildə real irəliləyişin olmadığını göstərir, münaqişə nəticəsində yaranmış qaçqın və məcburi köçkünlərin ağır vəziyyətindən təəssüfləndiyini bildirir, münaqişənin beynəlxalq hüquq və Avropa Şurasının norma və prinsipləri əsasında həll edilməsinin vacibliyini vurğulayır, Minsk qrupu həmsədrlərini fəaliyyətlərini artırmağa çağırırdı"”'^.

Avropa Şurası və Azərbaycan arasında əməkdaşlıqda yeni bir hadisə baş verdi. 2003-cü il noyabrın 4-də Bakıda Avropa Şurasının informasiya ofisinin statusu haqqında anlaşma memorandumu imzalandı'®'*^. Azərbaycan Avropa Şurasının üzvü olan ölkələrin xarici işlər nazirlərinin toplantılarında daha fəal iştirak etməyə başladı. Noyabrın 5-7-də Kişinyovda keçirilən Avropa Şurası xarici işlər nazirlərinin iclasında xarici işlər naziri Vilayət Quliyev etdiyi çıxışında Ermənistanın hərbi təcavüzünün regionda demokratik quruculuğa mənfi təsirinə diqqəti yönəltdi, qaçqın və məcburi köçkünlərin hüquqlarının pozulmasından danışdı, terrorizmə, qatı millətçiliyə qarşı birgə mübarizənin vacibliyini vurğu- **ladı'°^^**

" AŞPA sədrinin müavini və büro üzvü İlham Əliyevin çıxışı. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003.1 hissə, s. 146-147.

Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəliyinin fəaliyyətinə dair qısa məlumat (oktyabr-noyabr, 2003 ). - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2003, oktyabr-dekabr, JVsS, s. 111-112.

Azərbaycan Respublikası hökuməti və Avropa Şurası arasında Avropa Şurasının Azərbaycan Respublikasındakı informasiya ofisinin statusuna dair anlaşma memorandumu. 4 noyabr 2003-cü il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. II hissə, s. 260-261.

Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyevin Avropa Şurası xarici işlər nazirlərinin 113-cü iclasında iştirakı. - “Diplomatiya aləmi” Jurnalı, Bakı, 2003, oktyabr-dekabr, ffa 5, s.73-75.

Ümumiyyətlə, Azərbaycan Respublikası və Avropa Şurası arasında əməkdaşlıq faydalı olmuşdur. Əməkdaşlığın gedişində Azərbaycanın Avropaya inteqrasiyası prosesləri genişlənmiş, ölkə haqqında həqiqətlər, xüsusən Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi, qaçqın və məcburi köçkünlərin vəziyyəti barədə obyektiv informasiya üzv ölkələr arasında yayılmışdır. Azərbaycanın beynəlxalq mövqeləri və dövlət müstəqilliyi möhkəmləndirilmişdir. Ölkə həyatının demokratikləşdirilməsi prosesi güclənmişdir. Azərbaycan Avropa ailəsinin bərabərhüquqlu üzvü olmuşdur. Azərbaycanın Avropa ilə Şərq ölkələri arasında etibarlı körpü rolu artmışdır. Əməkdaşlıq Avropa Şurası üçün də faydalı olmuşdur. Təşkilatın nüfuzu və coğrafiyası genişlənmişdir.

## NATO İLƏ ƏMƏKDAŞLIQ XARİCİ SİYASƏTİN İSTİQAMƏTLƏRİNDƏN BİRİ KİMİ

### Yeni şəraitdə NATO-nun roluna qısa bir baxış

Məlum olduğu kimi, soyuq müharibənin başa çatması, Varşava Müqaviləsi Təşkilatının və SSRİ-nin dağılması dünyada tamamilə yeni bir şərait yaratdı. Blokların, iki sistemin qarşıdurması və mübarizəsi aradan qalxdı. Nüvə müharibəsi təhlükəsi azaldı. Lakin NATO yaranmış yeni şəraitdə nəinki buraxılmadı, əksinə onun rolu daha da artdı"’'**. Bu da bir sıra amillərlə bağlı idi. Birincisi, iki sistem ölkələri arasında ideoloji qarşıdurma aradan qalxsa da, 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində dünyada, xüsusən Balkan yarımadasında baş verən proseslər təhlükəsizliyin yeni sistemi haqqında düşünməyi və onu yaratmağı aktual etmişdi. Dünyada baş verən mürəkkəb proseslərin qarşısını almaq üçün fəal müdaxilələr tələb olunurdu. Onları siyasi bəyanatlarla tənzimləmək çətin idi. Lazımi gücə ehtiyac duyulurdu. İkincisi, soyuq müharibə dövründə dünyada böyük dövlətlər Avrasiyada üzərində nüfuz qazanmaq uğrunda rəqabət

HATO: **CпpaBOHHHK. Bpıoccej]**, 1995; **KopoxKO o** HATO: **HHcJıopMaTMBHbiH oösop BonpocoB H npoöacM,** CTOHIUHX **nepen,** KOHue B aeBHHOCxbix roÄOB. Bpioccejib, 1996.

aparırdılar. Avrasiya dünya okeanına və kosmosa nəzarət üçün sanki bir açar idi. SSRİ dağıldıqdan sonra ABŞ bu ərazi üzərində nəzarət üçün imkan qazanmışdı. Belə bir şəraitdə NATO-nun buraxılmasının Qərb ölkələri üçün ağır nəticələri ola bilərdi. Üçüncüsü, NATO-nun buraxılması ABŞ və Kanadanı Avropadan uzaqlaşdırar, bu da qitədə və dünyada yeni təhlükələrin yaranmasına, ümumavropa inteqrasiya proseslərinə ziyan vurardı. Dördüncüsü, keçmiş SSRİ və sosialist ölkələri ərazisində gedən dövlətlərarası və etnik qarşıdurma təkcə regionda deyil, bütün dünyadakı proseslərə mənfi təsir edir, sabitsizlik yaradırdı. Beləliklə, bu və digər amillər nəinki NATO-nun saxlanılmasını, hətta rolunun artırılmasını zəruri edirdi. Ona görə də 90-cı illərin əvvəllərindən etibarən NATO strukturlarında dəyişikliklər prosesi başladı. 1990-cı ilin iyul ayında yeni təhlükəsizlik mühitinə uyğunlaşmaq üçün London sammitində Dəyişmiş Şimali Atlantika Alyansına dair bəyannamə qəbul edildi. Bu, NATO tarixinin ən geniş planları əhatə edən bəyannaməsi idi. Bəyannamədə təhlükəsizlik sahəsində yeni şərait və Şərq - Qərb qarşıdurmasının sona çatdığı nəzərə alınaraq NATO-nun yenidən qurulacağı bəyan edilirdi”'*^. Toplantında yeni müstəqil dövlətlər və Mərkəzi və Şərqi Avropa ölkələri ilə əlaqələr qurmaq təklif olunurdu.

Artıq qeyd edildiyi kimi, bundan bir müddət sonra, 1990-cı ilin noyabr ayında Parisdə Avropada adi silahlı qüvvələr haqqında müqavilənin imzalanması, təcavüzdən imtina haqqında birgə bəyannamənin qəbul edilməsi və müvafiq öhdəliklərin götürülməsi, ATƏM iştirakçısı olan dövlətlərin Yeni Avropa üçün Paris xartiyasını imzalamaları yeni şəraitdə etimad və təhlükəsizlik mühitinin yaradılması üçün atılan ilk addımlar idi. Daha bir mühüm addım 1991-ci ildə atıldı. NATO-nun Roma sammitində yeni strateji konsepsiya və sülh və əməkdaşlığa dair konsepsiya qəbul edildi'°^°. Həmin sənədlər NATO-nun yeni şəraitdə fəaliyyətinin nəzəri əsaslarını təşkil edirdi.

Nəzərdə tutulmuş əməkdaşlığın gələcək inkişafını istiqamətləndirmək üçün Şimali Atlantika Əməkdaşlıq Şurası (ŞAƏŞ) təsis edildi. ŞAƏŞ-in ilk görüşü 1991-ci il dekabrın 20-də NATO dövlətləri, dağılmaqda olan SSRİ, sosializm sistemindən xilas olmuş Çexiya, Macarıstan, Polşa, Rumıniya, Bolqarıstan, Latviya, Litva, Estoniya xarici işlər nazirləri və nümayəndələrinin iştirakı ilə keçirildi. Şuranın təsis edilməsi SSRİ

‘°‘’^NATOReview, 1990, Xs4, p.21.

Rome Declaration on peace and cooperation. November 1991.

dağıldıqdan sonra yaranmış boşluğu doldurmaq məqsədi güdürdü. NATO SSRİ dağıldıqdan sonra 30 min nüvə başlığı yerləşən SSRİ məkanına biganə qala bilməzdi'®^'. Buna görə də təşkilat Mərkəzi və Şərqi Avropa ölkələri ilə əməkdaşlıqda maraqlı idi. Qısa müddət ərzində ŞAƏŞ təhlükəsizlik və əməkdaşlıq məsələlərini müzakirə edən bir foruma çevrildi. Bu, forum soyuq müharibə dövründən qalan stereotipləri aradan qaldırmağa çalışırdı. Həmin məqsədlə adi silahlı qüvvələr üzərində nəzarət qazanmaq üçün yüksək səviyyəli işçi qrup yaradıldı. Eyni zamanda ATƏM və BMT himayəsində sülhməramlı əməliyyatlarda NATO-nun qüvvə və vasitələrindən istifadə edilməsinin hüquqi əsaslarını yaratmaq üçün xüsusi işçi qrup təşkil edildi.

NATO yeni yaranmış dövlətlərdə demokratiyanın inkişafına yardım etmək üçün ABŞ konqresmenləri Cariz Roz və Bili Rotun təklifinə uyğun olaraq adlandırılan təşəbbüsü reallaşdırmağa başladı. Həmin təşəbbüsün məqsədi yeni dövlətlərin NATO strukturlarında tam iştirakını təmin etmək, yeni tərəfdaşları maraqlandıran mövzularda seminarlar keçirmək və parlamentlərarası təcrübə mübadiləsini genişləndirmək idi. Beləliklə, NATO yeni şəraitdə beynəlxalq təhlükəsizlik tələbləri kontekstində böhranların aradan qaldırılması və təhlükəsizlik sisteminin qurulması funksiyalarını üzərinə götürdü.

## Azərbaycan - NATO əlaqələrində ilk addımlar

Azərbaycan Respublikası NATO ilə əlaqələrində ilk addımlarını atmağa başladı'®^^. Xarici siyasətin istiqamətlərindən biri NATO ilə əməkdaşlıq oldu. Bu əməkdaşlığı bir sıra amillər zəruri edirdi. NATO dünyada sülhü və təhlükəsizliyi təmin edən təşkilat funksiyasını daşıyırdı və Avropa təhlükəsizliyində başlıca amil idi. Avropanın bir parçası olan Azərbaycan Respublikası bu təşkilat ilə əməkdaşlıqdan kənarda qala bilməzdi. SSRİ dağıldıqdan sonra Rusiya yeni müstəqil dövlətlərin mövcudluğunu ağrılı qəbul edib, onları “yaxın xaric” hesab edərək daim təhdid edir və təsir dairəsinə salmağa çalışırdı. Rusiyanın xarici siyasət konsepsiyasında

Ellman M.The NATO economics colloqium on the Soviet economy. - “NATO Review”, 1991, Xs2, p.28.

Jolyon Howorth. Security and Defence policy in the European Union. New York, Palgrave Macmillan, 2007, p.l62.

özü ilə həmsərhəd olan ölkələrdə üçüncü dövlətin hərbi-siyasi iştirakına istənilən vasitə ilə mane olmaq nəzərdə tutulmuşdu’°^^. Əlaqələrin qurulmasına digər amillər də təsir edirdi. Məlum olduğu kimi, Cənubi Qafqaz regionu qeyri-sabitlik və risklərlə dolu idi. Ermənistan -Azərbaycan Dağlıq Qarabağ münaqişəsi həll edilmədiyindən Azərbaycan tərəfi mövqelərinin beynəlxalq səviyyədə müdafiəsinə ehtiyac duyurdu. Yeni şəraitdə Azərbaycan üçün mühüm olan ordu quruculuğu məsələsində NATO müəyyən rol oynaya bilərdi. NATO təkcə hərbi deyil, həmçinin siyasi təşkilat idi. Dünyanın ən öncül ölkələri bu təşkilatın üzvləri idilər. Onlar elm, texnologiya və iqtisadiyyat baxımından qabaqcıl yerləri tuturdular. NATO eyni zamanda demokratik ölkələrin təşkilatı idi. Azərbaycan da demokratik inkişaf yolu seçdiyindən NATO ilə əməkdaşlıq faydalı olardı. Belə bir şəraitdə NATO ilə əməkdaşlıq Azərbaycan Respublikasının dövlət müstəqilliyinə beynəlxalq təminat verilməsi baxımından əhəmiyyətli idi. Heç şübhəsiz, əməkdaşlıqda təkcə Azərbaycan maraqlı deyildi. Azərbaycan əlverişli coğrafi-siyasi və strateji mövqeyi, zəngin təbii sərvətləri baxımından NATO üçün cəlbedici və əhəmiyyətli idi.

Bütün bunları nəzərə alan Azərbaycan tərəfi NATO ilə ilk təmasları qurdu. 1992-ci il fevralın 19-da Brüsseldə Azərbaycanın Baş Naziri Həsən Həsənov ilə keçirdiyi görüşdə NATO-nun baş katibi Manfred Vemer keçmiş sovet respublikaları ilə “düşmən” konsepsiyasından əməkdaşlığa keçildiyini qeyd edərək. Şimali Atlantika Əməkdaşlıq Şurasının qurulmasının məqsədlərindən danışdı'®^'*. Onun qurulmasında başlıca məqsəd təkcə Avropada deyil, Vladivostoka qədər sabitlik və təhlükəsizlik naminə əməkdaşlıq və qarşılıqlı fəaliyyət üçün əsas yaratmaq idi. ŞAƏŞ əsasən aşağıdakı istiqamətlərdə fəaliyyət göstərməyi qarşısına məqsəd qoymuşdu: informasiya, məsləhət, hərbi, iqtisadi və s.

Görüşdə Baş Nazir Azərbaycana qarşı Ermənistanın əsassız iddialarının, apardığı müharibənin mahiyyətini və nəticələrini açıqladı, NATOnu münaqişənin həllinə laqeyd qalmamağa səslədi. NATO Cənubi Qafqaz regionunda baş verən proseslərdən narahatlıq keçirirdi. Ona görə də təşkilatın baş katibi Azərbaycanı Şimali Atlantika Əməkdaşlıq Şurasında üzv olmağa dəvət etdi. Azərbaycan tərəfi ŞAƏŞ-in toplantılarında iştirak et-

**KoHuenuHH EHeınneH nojiHXHKn PОССННСКОН Oeпepaunıı. - BHeuiHHH nojiH- THKa H öeaonacHOCTb cospeMennoıi PОССНН.** T.2. M., 1999, c. 25.

Вeceaa c **renepanbHbiM ceKpexapeM** HATO **T-HOM MancJıpeÄOM BepnepoM.** Bpioccejib, 19 **(JıCBpajiH** 1992 r. **- facanoB f. AaepöaHÄJKan -**

məyə razılığını bildirdi. Görüşdə MDB iştirakçısı olan ölkələrin gələcəyi, Avropada adi silahların məhdudlaşdırılması və s. məsələlər də müzakirə edildi. Azərbaycanın Baş Naziri Ermənistan üzərində beynəlxalq nəzarət qoyulması təklifini irəli sürdü.

Səfər zamanı Həsən Həsənov NATO-ya üzv olan ölkələrin səfirləri ilə də görüşdü'®^^. Onların suallarına cavab verdi. Ennənistanın Azərbaycana qarşı apardığı müharibənin nəticələrindən və NATO ilə əməkdaşlıq istəklərindən danışdı.

ŞAƏŞ-in martın 10-da xarici işlər nazirləri səviyyəsində keçirilən sessiyasında 11 yeni müstəqil dövlət, o cümlədən Azərbaycan Respublikası əməkdaşlıq və məsləhətləşmələr üçün bu foruma qatıldı’^®. Toplantıda çıxış edən xarici işlər naziri Hüseynağa Sadıqov iştirakçıları ölkədə yaranmış şəraitlə tanış etdi və Ermənistanın davam edən təcavüzü haqqında məlumat verdi'®^^.

Ermənistan silahlı qüvvələri 1992-ci ilin may ayında Şuşa və Laçın şəhərlərini işğal etdikdə bəyanatla çıxış edən NATO narahatlığını bildirdi, münaqişənin zor gücünə həllinə qarşı çıxaraq ATƏM səylərini dəstəklədi’°^*. ŞAƏŞ-in Osloda iyunun 2-də keçirilən Avropada adi silahların azaldılmasına həsr olunmuş sessiyasında NATO dövlətləri bu bəyanatı bir daha təkrar etdilər.

1992- ci il sentyabrın 19-da NATO baş katibinin Mərkəzi və Şərqi Avropa ölkələri üzrə müşaviri Kris Donneli başda olmaqla nümayəndə heyəti Azərbaycana səfər etdi. Keçirilən görüşlərdə NATO ilə əməkdaşlığın perspektivləri müzakirə edildi'°^^. Bundan sonra, 1992-ci il oktyabrın 1-5-də Türkiyədə (Antalya) Azərbaycan nümayəndələri NATO üzvü olan ölkələrin seminarında iştirak etdilər. Seminar çərçivəsində NATO baş katibi Manfred Verner Azərbaycan nümayəndə heyəti ilə görüşərək ölkədəki şərait və Ermənistanın genişlənən hücumlarına dair məsələləri müzakirə etdi. Bundan bir müddət sonra, dekabrın 18-də keçirilən ŞAƏŞ sessiyasının iclasında iştirak edən xarici işlər naziri Tofiq Qasımov Ermənis-

^ **Всхрена с nocjıaMu СТраН-Н.неНОВ** НАТО. **Ерıоссejib,** 19 **(jjeBpana** 1992 г.
-
**facanoB f. AsepöanroKaH - Espona: na nyxH к ННТеграunН, c.** 24-34.
1057 ... ARXİNA: 2002. Qovluq Na 10, v. 74.
problemini
Bakı, 1992, 11 mart.
NATO-nun bəyanatı. - “Xalq qəzeti”, Bakı, 1992, 26 may. Bakı,
Əməkdaşlığın perspektivləri müzakirə edilmişdir. - “Xalq qəzeti”

tanın təcavüzü haqqında məlumat verərək bunun münaqişə deyil, ərazi işğalı olduğunu dedi. NATO baş katibi Manfred Verner Azərbaycan nümayəndə heyətini qəbul edərək regionda yaranmış şəraitə dair məlumat aldı və əməkdaşlıq yollarını müzakirə etdi.

ŞAƏŞ-in 1993-cü ilin dekabr ayında keçirilən sessiyası ərəfəsində Ermənistan hərbi təcavüzünü davam etdirərək Azərbaycanın Dağlıq Qarabağ regionundan kənarda yerləşən rayonlarının işğalını başa çatdırdı. İclasda çıxış edən xarici işlər naziri Həsən Həsənov Ermənistanın təcavüzkarlığına qiymət verilməsini tələb etdi və mülayim mövqe nümayiş etdirilməsinin ziyanlı olduğunu bildirdi. Lakin sənəd qəbul edilərkən Ermənistan konsensus vermədiyindən Azərbaycan üçün istənilən nəticə alınmadı.

## Sülh naminə tərəfdaşlıq proqramı və Azərbaycan

NATO-nun Cənubi Qafqaz regionunda yaranmış şəraitlə bağlı narahatlığı 1994-cü il yanvarın 10-11-də NATO Şurasının Brüsseldə keçirilən dövlət və hökumət başçılarının sessiyasında qəbul edilmiş bəyannamədə əksini tapdı'®™. Bəyannamənin 21-ci bəndində Cənubi Qafqazdakı şəraitdən narahatlıq keçirilir, ərazi tutmaq üçün güc tətbiq edilməsi pislənilir, regionda sülhü, sabitliyi və əməkdaşlığı müdafiə etmək üçün Ermənistan, Azərbaycan və Gürcüstanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə hönnət ifadə edilir, bütün dövlətlər BMT və ATƏM çərçivəsində səylərə qoşulmağa çağırılırdı.

Yanvarın 11-də NATO üzvü olan dövlət və hökumət başçılarının yeni təşəbbüsü - Sülh naminə tərəfdaşlıq proqramı qəbul edildi. Proqrama dəvət ŞAƏŞ-də iştirak edən bütün tərəfdaş dövlətlərə, o cümlədən ATƏT üzvü olan ölkələrə göndərildi. Onun qəbul edilməsinin tarixi kökləri İkinci dünya müharibəsindən sonra dünyada yaranmış iki sistemin qarşıdurmasından və böhranlardan alınan ibrət dərslərinə gedib çıxsa da, səbəbləri soyuq müharibə başa çatdıqdan sonra dünyada yaranmış yeni şəraitlə bağlı idi. İki sistem arasında soyuq müharibə başa çatsa da, çoxlu problemlər hələ həll olunmamışdı və təhlükəsizlik üçün təhdidlər qalırdı.

Sülh naminə tərəfdaşlıq proqramının mahiyyəti hər bir tərəfdaş dövlət və NATO arasında fərdi ehtiyaclara cavab verən və hər bir iştirakçı

**° .I^eKJiapauHa ceccHH CeBepoaT.naHTHHecKoro CoBexa. Epıoccejib, 10-11 aHBa- pn 1994 r. —** HATO **PcBHBe. Bpiocceab, 1994, Xsl, (jıeBpanb, c. 22.**

dövlətin seçdiyi səviyyə və sürətdə birgə həyata keçirilən tərəfdaşlıq idi. Bu, tərəfdaş ölkələrin NATO ilə əlaqələrini səmərəli şəkildə əks etdirən proqramlarda iştirak etmək imkanını genişləndirməklə həm ikitərəfli, həm də çoxtərəfli tədbirlər üçün çərçivə rolunu oynayırdı’®^'. Proqramın əsas məqsədlərindən biri bütün Avroatlantika məkanında təhlükəsizliyi və sabitliyi təmin etmək idi'°®'.

Sülh naminə tərəfdaşlıq proqramına qoşulmaq üçün ŞAƏŞ-də, həmçinin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsində iştirak edən və ona töhfəsini vermək istəyən dövlətlər dəvət olunurdular. Dəvət ilk öncə 27 dövlət tərəfindən qəbul edilmişdi. Hər bir tərəfdaş ölkənin fəaliyyəti birgə işlənib hazırlanmış Fərdi tərəfdaşlıq proqramına əsaslanırdı. Sülh naminə tərəfdaşlıq proqramı ilə bilavasitə məşğul olan Hərbi-Siyasi Rəhbər Komitə həm üzv dövlətlərlə, həm də tərəfdaş dövlətlərlə görüşürdü. Komitənin səlahiyyətləri aşağıdakılardan ibarət idi: Sülh naminə tərəfdaşlıq məsələlərinə dair Şuraya tövsiyələr vermək; tərəfdaşlığın işçi proqramını əlaqələndirmək; fərdi tərəfdaşlıq proqramını hazırlamaq və bəyənilmək üçün Şuraya vermək; planlaşdırma və təhlil prosesi ilə bağlı işləri əlaqələndirmək və inkişaf etdirmək.

Sülh naminə tərəfdaşlıq proqramının hərbi aspektləri Hərbi-Siyasi Rəhbər Komitə tərəfindən təklif edilmişdi, ŞAƏŞ-in bəyəndiyi aparıcı prinsiplər əsasında NATO hərbi qurumları tərəfindən həyata keçirilirdi. Hərbi əməkdaşlıq üzrə işçi qrupu Hərbi Komitə yanında məşvərətçi orqan kimi fəaliyyət göstərir, üzv ölkələrlə, ayrıca olaraq tərəfdaş dövlətlərlə isə birgə görüşürdü.

Sülh naminə tərəfdaşlıq proqramının özünəməxsus strukturu olan və ŞAƏŞ nəzdində fəaliyyət göstərən Tərəfdaşlığı əlaqələndirmə qrupu Belçikanın Mons şəhərində yerləşirdi. Qrup Sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində birgə fəaliyyəti əlaqələndirir və hərbi təlimlərlə bağlı tərəfdaşlıq işçi proqramının hərbi aspektlərini həyata keçirmək üçün plan- laşdırmanı hazırlayırdı. Direktorun rəhbərlik etdiyi qrupun tərkibi NATO heyətindən, 1998-ci ildən isə tərəfdaş dövlətlərin nümayəndələrindən ibarət idi. Bu, təcrübə toplamaqda və NATO-nun texniki yardımını almaqda bir vasitə idi. Belə əməkdaşlıq ölkələrin NATO tərəfindən siyasi baxımdan müdafiəsinə kömək edirdi. Sülh naminə tərəfdaşlıq proqramı qabaqcıl hərbi konsepsiyaların hazırlanması üçün imkan yaradırdı. Ona

NATO məlumat kitabı. Brüssel, 2005, s.l98.
ARXİNA. 2003. Qovluq Ns 10, v. 311-315.

uyğun olaraq əməliyyatlar planlaşdırılır və həyata keçirilir, müasir hərbi quruculuğun metodologiyası və texnologiyası işlənib hazırlanırdı.

Sülh naminə tərəfdaşlıq proqramının çərçivə sənədinə əsasən əməkdaşlıq edən dövlətlər başlıca olaraq aşağıdakı işləri yerinə yetirməli idilər: milli müdafiəni, planlaşdırma və büdcə prosesində şəffaflığı təmin etmək; silahlı qüvvələr üzərində demokratik nəzarəti təmin etmək; BMT və ya ATƏM çərçivəsində keçirilən sülhməramlı əməliyyatlara töhfəsini verməyə hazır olmaq; birgə planlaşdırma, təlim və məşqlər vasitəsilə NATO ilə kooperativ hərbi əlaqələri inkişaf etdirərək sülhü qoruma, axtarış və xilasetmə, humanitar əməliyyatlar və s. kimi missiyalarda iştirak etmək; NATO üzvləri ilə birgə əməliyyatlarda iştirak etmək üçün hərbi qüvvələrin qabiliyyətini uzun müddətli dövr ərzində inkişaf etdirmək.

Sülh naminə tərəfdaşlıq proqramı müdafiə ilə bağlı əməkdaşlığa əsaslansa da, əsl tərəfdaşlığa nail olmaq üçün dialoq və əməkdaşlıqdan daha geniş sahələri əhatə edirdi. Proqram praktiki əməkdaşlığa və demokratik prinsiplərə əsaslanaraq sabitliyin möhkəmləndirilməsinə, sülh üçün hədə və təhdidlərin aradan qaldırılmasına, möhkəm təhlükəsizlik əlaqələrinin qurulmasına xidmət edirdi. Dövlət və hökumət başçıları tərəfindən Sülh naminə tərəfdaşlığa dəstək sənədi ilə birgə qəbul edilmiş Sülh naminə tərəfdaşlıq sənədinə uyğun olaraq tərəfdaş ölkə ərazi bütövlüyünə, siyasi müstəqilliyinə birbaşa təhlükə hiss edərdisə, NATO onunla məsləhətləşmələr edə bilərdi.

Sülh naminə tərəfdaşlıq proqramına qoşulmaq niyyətində olan hər bir dövlət əvvəlcə çərçivə sənədini imzalamağa dəvət edilirdi. Çərçivə sənədində tərəfdaş ölkələrin öhdəlikləri ilə bərabər Sülh naminə tərəfdaşlıq proqramının prinsipləri də əksini tapmışdı. Sənədi imzalayan dövlətlər BMT nizamnaməsində təsbit olunmuş öhdəliklərə və insan hüquqları haqqında beynəlxalq bəyannaməyə sadiq olduqlarını; digər dövlətlərin siyasi müstəqilliyinə və ərazi bütövlüyünə qarşı güc tətbiq etmək və ya güc tətbiq etməklə hədələmək prinsiplərindən çəkinmələrini; mövcud sərhədlərə hörmət etmələrini; münaqişələri sülh yolu ilə həll etmələrini bir daha təsdiq etməli; ATƏM çərçivəsində, o cümlədən tərksilah və silahlara nəzarətə dair sənədlərə sadiq olduqlarını bəyan etməli idilər. Çərçivə sənədi imzalandıqdan sonra növbəti addım kimi hər bir tərəfdaş dövlət təqdimat sənədini NATO-ya verməli idi. Həmin sənəddə əks olunmuş müddəalara, NATO və tərəfdaş ölkə tərəfindən təqdim olunan əlavə təkliflərə əsasən Fərdi tərəfdaşlıq proqramı razılaşdırılırdı. Bu isə iki illik müddəti əhatə edirdi. Tərəfdaşlıq işçi proqramında əks olunmuş fəaliyyət

Sülh naminə tərəfdaşlığın genişləndirilməsi və NATO-nun xarici mühitə uyğunlaşmasının tərkib hissəsi idi.

Əməkdaşlığın sahələri aşağıdakılardan ibarət idi: hava hücumundan müdafiə məsələləri; hava məkanının idarə edilməsi və ya nəzarəti; mülki fövqəladə planlaşdırma; sülhməramlı əməliyyatların konseptual, operativlik və planlaşdırma aspektləri; məsləhətləşmə, rəhbərlik, nəzarət; maddi- texniki istehlak; böhranın idarə edilməsi; müdafiə planlaşdırması və büdcə; müdafiə siyasəti və strategiya; hərbi qüvvələr və müdafiə strukturu üzərində demokratik nəzarət; elektronika təminatı; tibbi xidmətlər; tərəfdaş dövlətlərin qüvvələri üçün meteoroloji yardım; hərbi coğrafiya; hərbi infrasturktur; hərbi təlimlər və bununla bağlı fəaliyyət; hərəkət və nəqliyyat; naviqasiya sistemləri; qeyri-hərbi təlimlər; standartlaşdırmanın operativ, maddi və inzibati sahələri; planlaşdırma, təşkilat və milli müdafiə tədqiqatları və texnologiyanın idarə edilməsi. Bu fəaliyyət sahələrinin sayı təxminən 2 minədək idi. Fərdi tərəfdaşlıq planı üçün fəaliyyət sahələrini tərəfdaş dövlətlər özləri seçirdilər.

Sülh naminə tərəfdaşlıq proqramına qoşulan ölkələr beynəlxalq hüquq prinsiplərinin dəstəklənməsinə tərəfdar çıxır, BMT nizamnaməsindən irəli gələn öhdəliklərin və insan hüquqlarına dair ümumi bəyannamənin prinsiplərinin və konkret olaraq güc işlətməklə hədələməkdən və digər dövlətin ərazi bütövlüyünün, yaxud siyasi müstəqilliyinin ziyanına olaraq güc işlətməklə hədələməkdən çəkinmək, habelə mövcud sərhədlərə hörmət etmək və mübahisələrin dinc vasitələrlə nizamlanmasına nail olmaq öhdəliklərinin vicdanla yerinə yetirilməsinə tərəfdar olduqlarını təsdiqlə- yirdilər’^^.

Ölkənin strateji maraqlarını əsas götürərək, 1994-cü il mayın 3-4-də Belçikaya səfəri zamanı Azərbaycan Prezidenti NATO rəsmiləri, Belçikanın Baş Naziri və digər rəsmi şəxslərlə görüşdü, NATO Şurasında çıxış etdi’°®". Nitqində Azərbaycan Prezidenti müstəqilliyin bərpasından sonra Azərbaycanın daxili və xarici siyasəti haqqında danışdı, Ermənistanın hərbi təcavüzü, münaqişənin həllində ölkəsinin mövqeyi üzərində dayandı, Sülh naminə tərəfdaşlıq proqramını bəyəndiyini və bu sənədə qoşul- mağa qərar verdiyini bildirdi. Azərbaycan tərəfi ərazilərinin işğaldan azad, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığının təmin edilməsini.

Sülh naminə tərəfdaşlıq. Çərçivə sənədi. - “Xalq qəzeti”, Bakı, 1994, 10 may.

Əliyev H.Ə. Brüsseldə NATO şurasının iclasında çıxış. 4 may 1994-cü Müstəqilliyimiz əbədidir. 1 kitab, s. 548-550.

Dağlıq Qarabağ regionunda yaşayan erməni əhalisinin müdafiəsi və təhlükəsizliyinə təminat verilməsini, Dağlıq Qarabağ üçün muxtariyyət statusuna baxılmasını istəyirdi"*®^.

Toplantıdan sonra Heydər Əliyev Sülh naminə tərəfdaşlıq proqramının çərçivə sənədini imzaladı. İmzalanma mərasimində bəyanat verən Azərbaycan Prezidenti ölkəsinin daxili və xarici siyasətinin qarşısında duran vəzifələri, NATO-ya verilən diqqəti vurğuladı, Ermənistanın təcavüzünün nəticələrini qeyd etdi, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin və ATƏT sənədlərinin yerinə yetirilmədiyini diqqətə çatdırdı'®^^. O, birmənalı olaraq dedi: “Biz NATO-nun bu il yanvarın 10-da Sülh naminə tərəfdaşlıq sənədini qəbul etməsi barədə qərarını razılıqla qarşılayırıq və bunu həm də ölkələr arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün NATO-nun fəaliyyətində mühüm addım sayırıq. Bu əməkdaşlıq həm Azərbaycanın Qərb demokratiyasına qovuşması, həm də NATO ilə əməkdaşlıq edərək regionda vəziyyəti sabitləşdirməyə, müharibəni dayandırmağa, Azərbaycan və Ermənistan arasında sülh və mehriban qonşuluq yaratmağa yönəldilmiş əlavə yollar axtarmaq baxımından bizdən ötrü mühümdür”°^^.

Azərbaycan Respublikası Sülh naminə tərəfdaşlıq proqramına qoşulan 15-ci dövlət oldu. Çərçivə sənədinin imzalanmasının böyük əhəmiyyəti var idi. Bununla Azərbaycan hərbi quruculuq və təhlükəsizlik məsələlərinin təmin edilməsində əlavə imkanlar qazanırdı. Sənəd Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığını gücləndirirdi. Bununla bağlı olaraq Heydər Əliyev deyirdi: “Biz ümidvarıq ki, Azərbaycan Respublikasının Sülh naminə tərəfdaşlıq proqramına qoşulması bizə Avropada kollektiv təhlükəsizliyin etibarlı sisteminin yaradılmasında iştirakımızı fəallaşdırmağa imkan verəcəkdir”'®^*.

NATO-nun yeni strateji konsepsiyasında üzvlər üçün həm siyasi, həm də hərbi yollarla təhlükəsizlik və azadlığın təmin edilməsi kimi

[1065] Əliyev H.Ə. Brüsseldə beynəlxalq mətbuat mərkəzində mətbuat konfransında çıxış. 4 may 1994-cü il. - Müstəqilliyimiz əbədidir. I kitab, s. 552.
Əliyev H.Ə. Sülh naminə tərəfdaşlıq çərçivə sənədinin imzalanma mərasimində bəyanat. 4 may 1994-cü il. - Müstəqilliyimiz əbədidir. I kitab, s. 558-561.
[1067] Yenə orada.
1068 Yenə orada, s. 561.

ənənəvi məqsəd əksini tapmışdı. Bu konsepsiya təhlükəsizlik anlayışının və potensial əməliyyatların yenilənməsini nəzərdə tuturdu"'®®.

## Əməkdaşlıqda yeni addımlar. NATO-nun Şərqə doğru genişlənməsi

Sülh naminə tərəfdaşlıq proqramına qoşulduqdan sonra Azərbaycanın fəaliyyət imkanları artdı. Azərbaycan tərəfi NATO Şurası üzvü olan ölkələrin xarici işlər nazirlərinin 1994-cü il iyunun 9-da İstanbulda keçirilən görüşündə iştirak etdi"'™. Sessiyada əsasən iki məsələ müzakirə edildi: Sülh naminə tərəfdaşlıq proqramının reallaşdırılma səviyyəsinin təhlili və sülhyaratma əməliyyatları.

Sülhyaratma zamanı əməkdaşlıq üzrə xüsusi qrupun hazırladığı yekun məruzə müzakirə edildi. Toplantıda çıxış edən xarici işlər naziri Həsən Həsənov aşağıdakı konkret təklifləri irəli sürdü: münaqişə bölgəsinə beynəlxalq müşahidəçilərin yerləşdirilməsi; işğal edilmiş ərazilərdən qoşunların dərhal və qeyd-şərtsiz çıxarılması; qeyri-nizami birləşmələrin tərksilah edilməsi; məcburi köçkünlərin öz yerlərinə dönməsi və bundan sonra Dağlıq Qarabağın statusu haqqında danışıqlara başlanması"'®'.

NATO Xarici İşlər Nazirləri Şurasının qəbul edilmiş rəsmi sənədində və ŞAƏŞ xarici işlər nazirlərinin bəyanatında Dağlıq Qarabağ münaqişəsi haqqında məsələ öz əksini tapmışdı. Xarici İşlər Nazirləri Şurasının sənədində Cənubi Qafqaz regionunda şəraitin xüsusi narahatlıq doğurduğu qeyd edilir, ərazi əldə etmək üçün qüvvə tətbiqi pislənilir və vurğulanırdı: "Ermənistan, Azərbaycan və Gürcüstanın ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə hörmət edilməsi, regionda sülh, sabitlik və əməkdaşlığın bərpa edilməsi üçün əsas olmalıdır. Regionda davam edən

Rodrigo Tavares. Regional security. The capacity of International organizations. London and New York, Routledge Taylor and Francic Group, 2010, p. 144.

ARXİNA. 1993. Qovluq 7, v.80.

Azərbaycan Respublikasının xarici işlər naziri Həsən Həsənovun Şimali Atlantika Əməkdaşlığı Şurasının sessiyasında çıxışı (İstanbul, 10 iyun 1994-cü il). - "Azərbaycan" qəzeti, Bakı, 1994, 15 iyun.

münaqişələrin ədalətli və sülh yolu ilə həlli yalnız ATƏM və BMT-nin himayəsi altında mümkündür”’®’^.

Nazirlərin bəyanatının Ermənistan - Azərbaycan münaqişəsinə həsr edilmiş 15-ci paraqrafı mübahisələr doğurdu. Həmin paraqrafa dair üç variant irəli sürülmüşdü: Azərbaycanın, Ermənistanın və sədrin variantları. Yekunda sədrin təqdim etdiyi variant qəbul olundu’°’^.

Kompromisi nəzərdə tutan bu paraqrafda Azərbaycan ilə Ermənistan arasında mehriban qonşuluq münasibətlərinin qurulması məsələsi problemi tənzimləmək üçün əsaslardan biri kimi qəbul edilir, ATƏM-in Minsk qrupunun səyləri müdafiə olunur, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq işğal edilmiş ərazilərdən orduların çıxarılması, qaçqın və məcburi köçkünlərin yerlərinə qaytarılması, ATƏM müşahidəçilərinin yerləşdirilməsi təklifi dəstəklənirdi. Sənəddə NATO Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə hörmət etdiyini təsdiqləyir, zor gücünə ərazi tutulmasını pisləyir, münaqişələrin BMT və ATƏM çərçivəsində həllini dəstəkləyirdi.

ŞAƏŞ-in 1994-cü ilin dekabr ayında keçirilən sessiyasında NATOnun Şərqə doğru genişlənməsi sahəsində fəaliyyətin başlanması qərara alındı. Bu məqsədlə xüsusi qrup yaradıldı. Qrupa genişlənmənin NATOnun əsas funksiyalarını yerinə yetirmək imkanlarına göstərəcəyi təsir, Avropa təhlükəsizliyi sisteminə uyğunluğu və s. məsələləri öyrənmək həvalə edildi. Şərqə doğru genişlənmə Avropanın keçmiş sosialist ölkələrini NATO üzvü etməyi və inteqrasiya proseslərini genişləndirməyi nəzərdə tuturdu. Genişlənmə ilə bərabər sabitlik, təhlükəsizlik, demokratik cəmiyyət, azad bazar iqtisadiyyatı da Şərqə doğru genişlənməli, qonşularla sərhəd problemləri və etnik münaqişələr tədricən aradan qalxmalı idi.

Bundan sonra Azərbaycan tərəfi NATO ilə əməkdaşlıq üçün bəzi tədbirləri həyata keçirdi. 1995-ci ilin aprel ayında Azərbaycan Respublikası NATO-nun Brüsseldəki mənzil-qərargahına Sülh naminə tərəfdaşlıq proqramına qoşulmasına dair sənədi təqdim etdi.

Mayın 4-də NATO-nun verifıkasiya (yoxlama) komitəsinin sədri Necil Nedimoğlunun rəhbəliyi altında nümayəndə heyəti Azərbaycana səfər etdi. Bu komitənin əsas funksiyası Avropada adi silahlı qüvvələr müqaviləsi üzrə öhdəliklərin yerinə yetirilməsinə nəzarəti təmin etmək idi.

**HToroBoe KOMMioHUKe sacenaHHH CeBepoaTjıaHranecKoro Cosexa na ypoBHe MHHHCxpoB. CxaMÖyjı,** 9 **HHDHH** 1994.

ARXINA. 1993. Qovluq Na 7, v. 92-98.

Nümayəndə heyətini qəbul edən Azərbaycan Prezidenti regionda qüvvələr nisbətinin pozulduğunu, Rusiyanın Ermənistan ilə hərbi əməkdaşlıq haqqında müqavilə bağladığını, Ermənistan tərəfindən işğal edilmiş ərazilərin nəzarətdən kənar olduğunu qeyd etdi. Həmin ərazilərdə Ermənistanın silahlı qüvvələri və silahları yerləşdirilmişdi. Heydər Əliyev NATO-nun bu məsələyə diqqət ayırmasını istədi'®^"*.

Sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində Azərbaycan ilə NATO arasında əməkdaşlığa dair təqdimat sənədini müzakirə etmək məqsədi ilə 1995-ci il iyunun 6-da NATO-nun Avropadakı silahlı qüvvələri komandanının müavini general Ç.Makkenzinin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfər etdi. Əməkdaşlıq milli müdafiənin planlaşdı- rılmasma, büdcənin işlənib-hazırlanmasına, silahlı qüvvələr üzərində demokratik nəzarətin tətbiq edilməsinə yardımı nəzərdə tuturdu. İyunun 7-də Heydər Əliyev ilə görüşdə Azərbaycan - NATO əməkdaşlığına dair məsələlər müzakirə edildi'°^^. Azərbaycan Prezidenti milli ordu quruculuğunda NATO təcrübəsindən faydalanmağı zəruri hesab edirdi. Görüşdə Sülh naminə tərəfdaşlıq proqramına daxil olan ölkələrin fəaliyyətinin əlaqələndirilmə mərkəzinin işi və burada Azərbaycanın da öz nümayəndələri ilə təmsil olunması məsələsi müzakirə edildi. Həmin mərkəzdə Azərbaycanın xüsusi nümayəndəsini təyin etməsi tövsiyə olundu.

İyun ayında Niderlandın Norvik şəhərində keçirilən ŞAƏŞ sessiyasında iştirak edən xarici işlər naziri Həsən Həsənov çıxış edərək Azərbaycan Respublikasının NATO ilə əlaqələrindən, Ermənistanın hərbi təcavüzünün nəticələrindən, münaqişənin tənzimlənməsində Azərbaycanın mövqeyindən, Ermənistana gedən qaz boru kəmərinin Gürcüstan ərazisində partladılmasmdan istifadə edərək Yerevanın Minsk prosesi çərçivəsində sülh danışıqlarından çıxmasından, işğal edilmiş ərazilərdə adi silahlı qüvvələr saxlanmasına nəzarət edilmədiyindən danışdı. Danışıqlara yenidən başlamaq üçün Ermənistana təzyiq edilməsinə çağırdı"’^.

Bu zaman Azərbaycan NATO ilə əməkdaşlığa dair təqdimat sənədinin üzərində işləyirdi. Sənədin hazırlanmasında Azərbaycana yardım etmək məqsədi ilə 1995-ci ilin sentyabr ayında italiyalı general Ancelo

Azərbaycan Prezidenti Heydər Əliyev NATO-nun nümayəndə heyətini qəbul etmişdir. - “Azərbaycan” qəzeti, Bakı, 1995, 5 may.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev NATO-nun nümayəndə heyətini qəbul etmişdir. - “Azərbaycan” qəzeti, Bakı, 1995, 8 iyun.

Hüseynov P. Sülhlü sabah naminə. - “Azərbaycan” qəzeti, Bakı, 1995, 14 iyun.

Arena başda olmaqla NATO-nun müxtəlif strukturlarının nümayəndələrindən ibarət heyət Azərbaycana səfər etdi'°’’ . Keçirilən görüşlərdə əməkdaşlığın əsas istiqamətləri və təqdimat sənədinin hazırlanması haqqında fikir mübadiləsi edildi. NATO amerikalı kapitan Edvard Rocersi Azərbaycan üzrə nümayəndə təyin etdi. Onun əsas vəzifəsi Azərbaycan - NATO əməkdaşlığına dair məsləhətləşmələr aparmaq və konkret məsələlər üzrə birgə fəaliyyət planları işləyib hazırlamaq idi.

Azərbaycan Prezidenti 1996-cı il aprelin 19-da NATO ilə əməkdaşlığa dair sərəncam imzaladı. Sərəncamda bu təşkilat ilə əməkdaşlığa dair dəqiq kurs, onun məqsəd və vəzifələri, istiqamətləri və ölçüləri müəyyənləşdirilmişdi. Sülh naminə tərəfdaşlıq proqramına müvafiq olaraq Heydər Əliyev aprelin 22-də NATO-nun Brüsseldəki mənzil-qərargahına növbəti səfəri zamanı Azərbaycan Respublikasının təqdimat sənədini baş

katib Xavyer Solanaya təqdim etdi . Təqdimat sənədində Azərbaycan üçün maraq doğuran, hərbi siyasət və planlaşdırma, sülhməramlı əməliyyatlar, böhranların idarə olunması, standartlaşdırma və qarşılıqlı hərbi əlaqələndirmə, məlumat mübadiləsi kimi əməkdaşlıq sahələri, tərəfdaşlığın məqsədlərinə nail olmaqdan ötrü atılacaq addımlar. Sülh naminə tərəfdaşlıq üçün ayrılan canlı qüvvə və maddi ehtiyatlar əksini tapmışdı.

Sənəd təqdim olunduqdan bir müddət sonra Heydər Əliyev xarici işlər və müdafiə nazirliklərinə NATO ilə birgə fərdi tərəfdaşlıq proqramını işləyib hazırlamağa səlahiyyət verən fənuanı imzaladı. Bununla da əlaqələrdə yeni imkanlar yarandı.

1996- cı il iyulun 18-də Bakıya səfər edən amerikalı polkovnik Pirsin rəhbərliyi altında hərbi ekspertlər Azərbaycanın Fərdi tərəfdaşlıq proqramının hazırlanması məsələsini müzakirə etdilər. Sənəd Azərbaycan Respublikası müdafiə və xarici işlər nazirliklərində müzakirə edildikdən sonra təsdiq olundu. Beləliklə, təqdimat sənədi əsasında 1996-cı ildən etibarən iki illik dövrü əhatə edən Azərbaycan Respublikasının Fərdi tərəfdaşlıq proqramı tərtib edildi. Həmin proqramda silahlı qüvvələr üzərində demokratik nəzarət, onların NATO standartlarına uyğunlaşdırılması, sülhməramlı əməliyyatlara dair təcrübə və potensialı inkişaf etdirmək üçün

Azərbaycan Prezidenti Heydər Əliyev NATO-nun nümayəndə heyətini qəbul etmişdir. - “Azərbaycan” qəzeti, Bakı, 1995, 20 sentyabr.

Xavyer Solana (1942) - siyasi xadim. NATO-nun baş katibi (1995-1999). Avropa İttifaqı Şurasının xarici siyasət və təhlükəsizlik üzrə baş katibi (1999- 2009).

ARXINA. 2002. Qovluq Xb 10, v. 133-134.

konkret birgə tədbirlər nəzərdə tutulmuşdu. Proqram 1996-cı ilin noyabr ayında NATO-nun hərbi-siyasi rəhbər komitəsinin iclasında bəyənildi. Bu proqram çərçivəsində ilk praktik addım iki azərbaycanlı zabitin 1996-cı il avqustun 2-dən dekabrın 13-dək ABŞ-da keçirilən "Hərbi sahə üzərində demokratik nəzarət" adlı seminarda iştirakı oldu.

## NATO baş katibinin Azərbaycana ilk səfəri

Bu zaman NATO-nun Şərqə doğru genişlənməsi məqsədi ilə bəzi tədbirlər reallaşdırıldı. 1996-cı ilin dekabr ayında ŞAƏŞ-in növbəti sessiyasında bu qurumun əsasında Avroatlantika Tərəfdaşlıq Şurası yaratmaq təklifi edildi. Belə bir şuranın yaradılması üçün fəaliyyətə başlanıldı. NATO baş katibi Xavyer Solana 1997-ci il fevralın 13-də ilk dəfə olaraq Azərbaycana iki günlük səfərə gəldi. Baş katibi qəbul edən Azərbaycan Prezidenti ölkədə aparılan islahatlar, Ermənistanın Azərbaycana təcavüzü, nəticələri və münaqişənin həlli səyləri haqqında danışdı. O, ölkəsinin başlıca məqsədinin Azərbaycanın dövlət müstəqilliyini qorumaq və möhkəmləndirməkdən ibarət olduğunu bildirdi. Daha sonra Azərbaycan Prezidenti dedi: "...NATO Avropada təhlükəsizlik kimi olduqca vacib bir məsələ ilə məşğul olan təşkilatdır. Azərbaycan isə Avropanın bir hissəsidir. Güman edirəm ki, bölgəmizdə sabitliyi təmin etmək üçün siz də öz səylərinizi göstərəcəksiniz və apardığımız danışıqlar bu məsələnin həllinə kömək edəcəkdir""®*". Görüşdə Sülh naminə tərəfdaşlıq proqramının həyata keçirilməsi, regionda yaranmış şərait və təhlükəsizliyə dair ətraflı fikir mübadiləsi aparıldı.

Səfər çərçivəsində NATO baş katibi xarici işlər və müdafiə nazirləri ilə görüşdü. Milli Məclisin iclasında NATO - Azərbaycan əlaqələrinə dair çıxış etdi.

Azərbaycan tərəfi NATO ilə əməkdaşlığa və Avropa təhlükəsizliyinin təmin olunmasında bu təşkilatın roluna böyük əhəmiyyət verir.

Əliyev H.Ə. Azərbaycana rəsmi səfərə gəlmiş NATO-nun baş katibi Xavyer Solana ilə görüşdə çıxış. 13 fevral 1997-ci il. - Müstəqilliyimiz əbədidir. VIII kitab, s.404.

genişləndirilməsi qərarına müsbət yanaşırdı Bu mövqe NATO ölkələri tərəfindən rəğbətlə qarşılanırdı. ABŞ Prezidenti Bili Klinton 1997-ci il fevralın 24-də konqresə göndərdiyi məruzəsində birmənalı şəkildə elan etdi ki, NATO-nun genişləndirilməsində mühüm strateji məqsəd Rusiya, keçmiş sovet respublikaları və Avropa ərazisində yeni demokratik ölkələr daxil olmaqla yeni Avropa, yəni diplomatiya, ticarət və Avropa qitəsində və onun hüdudlarından kənarda ABŞ üçün daha güclü və daha çiçəklənən tərəfdaş yaratmaqdır”’^". Bundan sonra NATO Sülh naminə tərəfdaşlıq istiqamətində fəaliyyətini genişləndirdi. 1997-ci ilin yazında üzv dövlətlərin xarici işlər və müdafiə nazirləri Sülh naminə tərəfdaşlığa yeni keyfiyyət halı verən və onun siyasi, hərbi, təşkilati sahələrdə fəaliyyətini gücləndirən tədbirləri qəbul etdilər. Sülh naminə tərəfdaşlıq proqramı bütün Avropa qitəsində siyasi və hərbi əməkdaşlığı genişləndirərək təhlükəsizlik sisteminin vacib elementlərindən birinə çevrildi. Genişləndirilmiş Sülh naminə tərəfdaşlıq proqramının daha operativ rola və təkmilləşdirilmiş siyasi məsləhətləşmələr mexanizminə malik siyahısına əsasən hər bir tərəfdaş dövlət tələb və prioritetlərinə uyğun olaraq fəaliyyət sahələrini seçə bilərdi. İşçi proqramında əməkdaşlığın mümkün çoxtərəfli sahələri və hər bir sahə üzrə fəaliyyətlərin siyahısı əksini tapmışdı.

NATO, ŞAƏŞ və Sülh naminə tərəfdaşlıq proqramında iştirak edən ölkələrin xarici işlər nazirlərinin 1997-ci il may ayının 23-30-da Portuqaliyanın Sintra şəhərində keçirilən görüşündə Şimali Atlantika Əməkdaşlıq Şurası Avroatlantika Tərəfdaşlıq Şurası ilə əvəz edildi. Onun başlıca məqsədi keçmiş Varşava Müqaviləsi Təşkilatının üzvləri ilə dialoq, məsləhətləşmələr aparmağa və birgə layihələri reallaşdırmağa imkan yaratmaq idi. Bu, silahlara nəzarət, müdafiə tədbirləri sahəsində əməkdaşlıq, böhranlı şəraitləri idarə etmək və sülhü qorumaq tədbirlərini əlaqələndirmək üçün özünəməxsus forum idi’““. Sülh naminə tərəfdaşlıq proqramının əlaqələndirilməsini Şura öz üzərinə götürürdü”*'.

Əliyev H.Ə. NATO-nun baş katibi Xavyer Solana ilə danışqılar başa çatdıqdan sonra mətbuat üçün bəyanat. 13 fevral 1997-ci il. - Müstəqilliyimiz əbədidir. VIII kitab, s.405.

Nəsibov E.M. ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası, s. 93.

**riapxajiHHa** T. O **npnpoae TpaHcaxjıaHTHHecKHX OTHOuıeHHÜ na cospeMCH- HOM ərane pasBHXHH.** - Jum. **“Internationale Politik”, Berlin,** 2001, Jfaö, s.51.

**BanaHHHHO** C. **yrayöaeHHe napxnepcxBa-** KJIIOH K **ÄonrocpoHHOü**

NATO-ya üzv olmaq istəyən ölkələr bir sıra tələblərə cavab verməli idilər. Onlar demokratiya, şəxsiyyət azadlığı, qanunun aliliyi, insan hüquqlarının qorunması prinsiplərinə riayət etməli, etnik və ərazi mübahisələrindən uzaq olmalı, mehriban qonşuluq münasibətləri saxlamalı, silahlı qüvvələr üzərində demokratik nəzarət qurmalı, liberal iqtisadiyyat və sosial rifahı təmin etməli, silahlı qüvvələr NATO-nun müəyyənləşdirdiyi müəyyən standartlara cavab verməli, sülhyaratma əməliyyatlarında iştirak etməli, təşkilatın müxtəlif strukturlarında təmsil olunmaq üçün maddi və maliyyə ehtiyatlarına malik olmalı, şəxsi heyət, fiziki, sənədləşmə, sənaye və informasiya təhlükəsizliyini təmin etməli idilər ,[1085]. Yeni müstəqil dövlətlər bu tələblərə cavab vermirdilər.

## NATO-nun Madrid zirvə görüşü və Azərbaycan

NATO üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Madrid şəhərində 1997-ci il iyulun 8-9-da keçirilən zirvə görüşü Avropa təhlükəsizliyinin təmin edilməsində səmərəli əməkdaşlıq baxımından əhəmiyyətli oldu. Azərbaycan tərəfinin mövqeyinə görə, NATO-nun məqsədlərindən biri Avropa təhlükəsizliyini təmin etmək olduğu üçün rəsmi Bakı da bu proseslərdə yaxından iştirak etməli idi'°*^.

Azərbaycan Prezidenti zirvə görüşündə iştirak etdi. Onun başlıca məqsədi ikitərəfəli görüşlər keçirərək Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində imkanlardan istifadə etmək idi. Səfər çərçivəsində Heydər Əliyev bəzi üzv ölkələrin dövlət rəhbərləri, o cümlədən ABŞ Prezidenti Bili Klinton ilə görüşərək Minsk qrupunun həmsədri kimi ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində səylərini artırmağı xahiş etdi. Bili Klinton səyləri artıracağına söz verdi.

Dövlət və hökumət başçılarının zirvə görüşündə çıxış edən Azərbaycan Prezidenti Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan, soyuq müharibə başa çatdıqdan sonra yaranmış beynəlxalq şəraitə diqqət yetirdi, Ermənistanın Azərbaycana qarşı təcavüzü üzərində dayandı, Minsk qrupu-

Membership Action Plan.Washington DC. 23-24 April 1999.

Əliyev H.Ə. NATO-nun üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Madrid sammitində iştirak etmək üçün yola düşməzdən əvvəl Binə limanında jurnalistlərə müsahibə. 8 iyul 1997-ci il. - Müstəqilliyimiz əbədidir. X kitab, S.367.

nun fəaliyyətinə, ATƏT-in Lissabon zirvə görüşündə münaqişənin tənzimlənməsinə dair prinsipləri xatırlatdı, NATO-nun və Avroatlantika Tərəfdaşlıq Şurasının fəal roluna ümid ifadə etdi. Azərbaycan Prezidenti Avroatlantika Tərəfdaşdaşlıq Şurasını NATO ilə tərəfdaş ölkələr arasında siyasi məsləhətləşmələrin və fəal əməkdaşlığın mühüm elementi kimi qiymətləndirirdi’®*’.

## Azərbaycan əməkdaşlığı genişləndirmək üçün əlavə addımlar atır

Artıq qeyd edildiyi kimi, Azərbaycan Respublikası NATO ilə əməkdaşlığa dövlət müstəqilliyinin möhkəmləndirilməsi üçün təminat kimi baxırdı. Bu fikir danışıqlarda dəfələrlə vurğulanmışdı. 1997-ci ilin iyul-avqust aylarında ABŞ-a səfəri zamanı Heydər Əliyev NATO baş katibi Xavyer Solana ilə keçirdiyi görüşündə Azərbaycanın dövlət müstəqilliyinin əbədi və sarsılmaz olduğunu qeyd etdi, ölkəsinin qarşısında duran ən ağrılı məsələnin Dağlıq Qarabağ münaqişəsinin olduğunu bildirdi, onun həlli üçün NATO-nin səylər göstərməsini istədi'®**. NATO ilə əməkdaşlığın genişləndirilməsinə və Fərdi tərəfdaşlıq proqramına dair məsələlər müzakirə edildi. Həmin görüşlə təxminən eyni vaxtda, iyulun 28-dən avqustun 8-də ABŞ-ın Virciniya ştatının Norfolk şəhərində sülhməramlı təlimlərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin nümayəndələri iştirak etdilər.

Azərbaycanın NATO ilə Fərdi tərəfdaşlıq proqramı 1997-ci il oktyabrın 14-də NATO Şurasında təsdiq edildi. Bir müddət sonra, noyabrın 4-6-da isə NATO/SNT çərçivəsində Azərbaycanda ilk toplantı - “Kooperativ Demand” adı altında komanda-qərargah təlimlərinin hazırlıq seminarı keçirildi.

Azərbaycan Respublikasının Prezidenti 1997-ci il noyabrın 14-də Azərbaycanın NATO ilə əməkdaşlığını gücləndirmək tədbirlərinə dair sərəncam imzaladı. Sərəncama uyğun olaraq Baş Nazirin sədrliyi altında

Əliyev H.Ə. Avropa-Atlantika Əməkdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının iclasında nitq. 9 iyul 1997-ci il. — Müstəqilliyimiz əbədidir. X kitab, s.370-372.

Əliyev H.Ə. NATO-nun baş katibi Xavyer Solana ilə görüşdə nitq. 27 iyul 1996-cı il. - Müstəqilliyimiz əbədidir. XI kitab, s.19-20.

komissiya təşkil edildi'°*^. Həmin ildən etibarən Azərbaycan tərəfi NATO qüvvələri ilə qarşılıqlı hərbi əlaqələndirməyə nail olmaq məqsədi daşıyan NATO-nun planlaşdırma və təhlil prosesinə qoşuldu, ilkin olaraq NATO qüvvələri ilə qarşılıqlı hərbi əlaqələndirməyə nail olmağa xidmət edən 24 tərəfdaşlıq məqsədini üzərinə götürdü. Bakı Ali Ümumqoşun Komandirləri Məktəbində NATO/SNT kafedrası təşkil edildi. Sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində sülhüqoruma əməliyyatlarında iştirak etmək üçün bölük yaradıldı.

Azərbaycan Respublikası tərəfdaş ölkələrə Brüssel şəhərində yerləşən NATO-nun mənzil-qərargahında diplomatik missiyalarını açmaq hüququ verən 1997-ci 11 iyulun 8-9-da NATO üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Madrid görüşündə qəbul edilmiş qərarı müsbət qarşılayaraq, NATO-da siyasi və hərbi təmsilçiliyini gücləndirmək üçün
1997- ci il 21 noyabr tarixli qanuna müvafiq olaraq Brüssel şəhərində NATO-nun mənzil-qərargahında diplomatik nümayəndəliyini açdı. Bu, NATO ilə əməkdaşlıqda irəliyə doğru bir addım idi. Boru kəmərləri və bununla bağlı olaraq digər məsələlər ətrafında ARDNŞ ilə NATO-nun müvafiq komitələri arasında əlaqələr quruldu. Noyabrın 28-də ARDNŞ rəhbəri neft planlaşdırılması üzrə NATO komitəsinin təşkil etdiyi seminarda iştirak etdi. Ümumiyyətlə, 1997-ci ildə Azərbaycan Respublikası Sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində 44 toplantıdan 34-də iştirak etdi.

Azərbaycan tərəfi bir sıra yeni addımlar atdı. Azərbaycanın ABŞ- dakı səfiri Hafiz Paşayev 1998-ci il yanvarın 15-də NATO ölkələri və Sülh naminə tərəfdaşlıq proqramında iştirak edən dövlətlər arasında onların silahlı qüvvələrinin statusu barədə 1995-ci il iyunun 19-da Brüsseldə hazırlanmış sazişi və bu sazişə dair həmin tarixdə hazırlanmış əlavə protokolu imzaladı'°^°. Saziş iştirakçı dövlətlərin birgə hərbi təlimlərdə digər iştirakçı dövlətin ərazisində iştirak edən hərbi qulluqçuların statusunu müəyyənləşdirirdi. Azərbaycan tərəfi bu sənədləri 1998-cu il oktyabr ayının 20-də təsdiq etdi.

NATO rəhbərliyi yeni müstəqil dövlətləri əməkdaşlıqda fəal olmağa dəvət edir və regional təhlükəsizliyə diqqət yetirirdi. Regional təhlükəsizlik və Azərbaycanın Sülh naminə tərəfdaşlıq proqramında iştirakı məsələləri NATO siyasi komitəsinin iclasında üzvlüyə dəvət almış üç dövlət

’ ARXİNA. 1997. Qovluq Ka 10, v. 131.

' ARXINA. 08.08.2001-12.09.2001. Qovluq Xal 1, v.141-142.

də daxil olmaqla 16+Azərbaycan formatında 1998-ci il mayın 12-də müzakirə edildi. NATO xadimləri deyirdilər ki, siz fəal olsanız, NATO-da fəal olacaq, Azərbaycana həqiqətən yardım lazım olanda edəcəkdir. NATO proqramlarında iştirak Azərbaycanın beynəlxalq siyasi nüfuzunun artmasına kömək edirdi.

NATO-nun əməkdaşlığın əlaqələndirilməsi üzrə qrupunun direktoru təyin edilmiş general T.Kolsteren 1998-ci ilin sentyabr ayında Azərbaycana səfəri zamanı üç istiqamət üzrə işlərin aparılması məqsədəuyğun hesab edildi: döyüş qabiliyyətinin artırılması; NATO bölmələri ilə qarşılıqlı fəaliyyət; təhsil və hazırlıq.

Görüşlər zamanı NATO baş katibi Havyer Solananm Azərbaycana səfərinə hazırlıq məsələləri də müzakirə edildi. Azərbaycan tərəfi səfərə dair tədbir və təkliflər işləyib hazırladı'®^'.

## NATO baş katibinin Azərbaycana ikinci səfəri

Xavyer Solana 1998-ci il sentyabrın 30-dan oktyabrın 1-dək ikinci dəfə Azərbaycana səfər etdi. Səfər zamanı Milli Məclisin Sədri, Baş Nazir ilə keçirdiyi görüşlərdə Avroatlantika və regional təhlükəsizlik. Sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində Azərbaycan - NATO əlaqələrinin inkişafı məsələləri müzakirə edildi. Baş katib ARDNŞ rəhbəri Natiq Əliyev və ABƏŞ prezidenti Leqat ilə görüşlər keçirdi, habelə Xəzər dənizindəki Çıraq-1 neft platformasında oldu, Bakı Ali Ümumqoşun Komandirlər Məktəbindəki NATO/SNT kafedrasına və Azərbaycan sülhməramlı bölüyünə baş çəkdi.

Baş katibin səfərinin zirvə nöqtəsi sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti ilə keçirilən görüş oldu. Buna qədər Heydər Əliyev və Xavyer Solana Lissabon, Madrid, Bakı və Nyu Yorkda görüşmüşdülər. Xavyer Solana həmin görüşləri NATO ilə Azərbaycan dövləti arasında əməkdaşlığın yaranması və inkişafında mühüm addım olaraq qiymətləndirdi"*^^. Görüşdə regionda cərəyan edən hadisələr, təhlükəsizlik, o cümlədən enerji təhlükəsizliyi və bunlarda Azərbaycanın yeri məsələləri

[1091] ARXİNA. 1998. Qovluq Na lo, v. 77.

Əliyev H.Ə. Bakıda səfərdə olan NATO baş katibi Xavyer Solana ilə təkbətək görüşdəki söhbətdən. **30** sentyabr 1998-ci il. - Müstəqlliyimiz əbədidir. XVII kitab, **S.409.**

müzakirə edildi. Azərbaycan üçün təhlükəsizliyin təmin edilməsi xüsusilə vacib idi. Çünki ölkə Ermənistanın hərbi təcavüzünə məruz qalmışdı. Xavyer Solana Azərbaycanın sayəsində Avropa ilə Asiya arasında körpü qurulmasını yüksək qiymətləndirirdi. Danışıqlardan sonra verilən bəyanatlarında Xavyer Solana və Heydər Əliyev NATO-nun Sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində əməkdaşlığın davam etdiriləcəyini vurğula- dılar’°^^. Səfər Azərbaycan - NATO əməkdaşlığının genişləndirilməsində mühüm rol oynadı.

## NATO-nun yaradılmasının 50 illik yubileyində Azərbaycanın iştirakı

NATO ilə əlaqələrdə mühüm yerlərdən birini 1999-cu il aprelin 22-24-də ABŞ-da keçirilən NATO-nun yaradılmasının 50 illik yubileyinə həsr edilmiş toplantıda Azərbaycan Prezidentinin iştirakı tutdu. Aprelin 22-də keçirilən təntənəli mərasimdə çıxış edən Heydər Əliyev Azərbaycanın NATO-ya verdiyi əhəmiyyət, Ermənistanın hərbi təcavüzünün nəticələri haqqında danışdı və ölkəsinin münaqişənin həllində mövqeyini bir daha bəyan etdi’®^'*. Sammitin gedişində Azərbaycan Prezidenti ABŞ Prezidenti Bili Klinton"’^^, Fransa Prezidenti Jak Şirak’°^^ ilə görüşərək ikitərəfli münasibətlərin inkişafı və Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələləri müzakirə etdi.

Səfər çərçivəsində Azərbaycan Prezidenti Qafqaz və Orta Asiya ölkələri rəhbərlərinin və xarici işlər nazirlərinin görüşündə çıxış etdi. İpək yolu strategiyası haqqında qanun layihəsinin təşəbbüsçüsü senator Sem

Əliyev H.Ə. Azərbaycan Respublikasının və NATO-nun nümayəndə heyətləri arasında danışıqlar başa çatdıqdan sonra yerli və xarici kütləvi informasiya vasitələrinin nümayəndələri üçün birgə mətbuat konfransı. 30 sentyabr 1998-ci il. -Müstəqilliyimiz əbədidir. XVII kitab, s.418-421.

Əliyev H.Ə. NATO-nun 50 illik yubileyinə həsr olunmuş zirvə görüşündə nitq. 22 aprel 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XX kitab, s.52-54.

Əliyev H.Ə. Amerika Birləşmiş Ştatlarının Prezidenti Bili Klinton ilə görüş- dəki söhbətdən. 24 aprel 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XX kitab, s.77-78.

Əliyev H.Ə. Fransa Prezidenti Jak Şirak ilə görüşdəki söhbətdən. 24 aprel 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XX kitab, s.79-80.

Braunbek, Gürcüstan, Qazaxıstan, Moldova, Tacikistan, Özbəkistan, Rumıniya və Türkiyə Prezidentləri, habelə Türkmənistan, Qırğızıstan və Ermənistanın xarici işlər nazirləri toplantıda iştirak edirdilər. Görüşdə müzakirə olunan əsas məsələ İpək yolu layihəsinin reallaşdırılması idi.

Yubiley görüşündə təşkilatın gələcək fəaliyyəti ilə bağlı mühüm sənədlər qəbul edildi. Onlardan biri NATO-nun yeni strateji konsepsiyasının qəbul edilməsi idi. Bir sıra yenilikləri özündə cəmləşdirən konsepsiyada Avropada strateji tarazlığı qoruyub saxlamaq məqsədindən imtina edilirdi. Qüvvələr nisbəti və nüfuz dairəsinə əsaslanan Avropa təhlükəsizlik sisteminə hüquqi cəhətdən son qoyulurdu. Yeni konsepsiyada Avroatlantika regionunda təhlükəsizliyi və sabitliyi möhkəmləndirmək məqsədi ilə böhranların nizama salınması, münaqişələrin qarşısının alınması, böhranlara cavab vermə əməliyyatlarına, NATO ölkələri ilə birgə əməliyyatlara hazır olmaq məqsədi ilə Avroatlantika regionundakı digər ölkələrlə geniş tərəfdaşlıq, əməkdaşlıq və dialoqun inkişafına nail olmaq nəzərdə tutulurdu'®^’.

## Əməkdaşlıq genişlənir. Azərbaycan NATO-nun sülhməramlı proqramlarında iştirak edir

Yubiley toplantısından az sonra, 1999-cu il mayın 27-28-də Avroatlantika Tərəfdaşlıq Şurası çərçivəsində Atlantika siyasəti üzrə məşvərət qrupunun sessiyası keçirildi. Sessiyada 30 dövlətin nümayəndəsi iştirak edirdi. Sessiya müddətində NATO baş katibinin siyasi məsələlər üzrə müavini Klaus Peter Klayber başda olmaqla yüksək səviyyəli ekspert qrupu Azərbaycana gəldi. O, Baş Nazir Artur Rasizadənin başçılığı altında NATO ilə əməkdaşlıq komissiyasının iclasında iştirak etdi, xarici işlər, müdafiə və milli təhlükəsizlik nazirləri ilə görüşərək Cənubi Qafqazda geosiyasi şəraitə dair fikir mübadiləsi apardı. Klaus Peter Klayber NATOnun Romadakı kollecində təhsil almaq üçün azərbaycanlı zabitlərin dəvət edilməsi haqqında məktubunu müdafiə nazirinə təqdim etdi. Sessiyada Avroatlantika regionunda əməkdaşlıq və Sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində tərəfdaşlığın dərinləşdirilməsi, böhranların aradan qaldırılması, NATO-ya gələcək üzvlük, təşkilatın yeni strateji konsepsiyasının və təşəbbüslərin həyata keçirilməsi yolları müzakirə edildi.

The Alliance strategic concept. Washington DC. April 1999.

Azərbaycan NATO-nun toplantılarının keçirildiyi yerlərdən birinə çevrildi. Belə ki, NATO-nun Cənub-Şərqi Avropada yerləşən quru qüvvələri komandanının müavini R.Klemmonsun başçılıq etdiyi nümayəndə heyəti 1999-cu il iyunun 8-də Bakıda “Kooperativ determineyşn-99” təlimlərinin keçirilməsi və planlaşdırılması üzrə konfransda iştirak etmək üçün Azərbaycana səfər etdi. İyunun 8-11-də keçirilən konfransda 20 ölkədən zabit iştirak edirdi. Azərbaycan tərəfi Sülh naminə tərəfdaşlıq proqramında Azərbyacanm iştirakını dərinləşdirmək üçün maddi-texniki yardıma ehtiyac duyduğunu diqqətə çatdırdı'®’®.

NATO Kosovada həyata keçirilən sülhməramlı əməliyyatlarda da Azərbaycanın iştirakında maraqlı idi. Ona görə də iyul ayında Xavyer Solana Kosovoda keçirilən sülhyaratma qüvvələri tərkibində iştirakı üçün Azərbaycana rəsmi müraciət etdi. Azərbaycan bu dəvəti qəbul etdi. İyulun 28-də Bakıda Türkiyə hökuməti ilə Azərbaycan hökuməti arasında Kosovoda türk taburu tərkibində Kosovaya gedəcək Azərbaycan taqımının fəaliyyətinə dair saziş imzalandı. Beləliklə, Azərbaycan Respublikasının sülhməramlı tağımı Türkiyə taburu daxilində Kosovoda keçirilən sülhməramlı əməliyyatda iştirak etməyə başladı.

Azərbaycan hərbçiləri üçün sülhməramlı əməliyyatlarda iştiraka dair 2000-ci il yanvarın 25-28-də kurslar keçirildi. Kursların başlıca məqsədi iştirakçıları NATO-nun strateji konsepsiyası çərçivəsində fövqəladə vəziyyətlərdə mülki xidmətlərin istifadəsinin planlaşdırılmasmın təşkili, rolu və funksiyaları, hərbi-mülki əməkdaşlığın əsas prinsipləri ilə tanış etmək. Cənubi Qafqaz regionuna dair informasiya mübadiləsi aparmaq idi. Kurslarda NATO-nun Almaniyanın Oberomeqau şəhərindəki məktəbinin Böyük Britaniya, AFR, Türkiyə, İtaliya, Hollandiya və Bolqarıstandan olan ekspertləri, ATƏT nümayəndələri iştirak edirdilər. Bir müddət sonra, aprelin 3-7-də Bakıda hərbi-mülki əməkdaşlığa dair regional kurs keçirildi. Kursu NATO qərargahının fövqəladə vəziyyətlərdə mülki xidmətlərinin istifadəsinin planlaşdırılması idarəsi, NATO-nun Avropadakı birləşmiş silahlı qüvvələri ali baş komandanlığı qərargahının hərbi-mülki əməkdaşlıq şöbəsi və Azərbaycan Respublikasının Müdafiə Nazirliyi birgə keçirdi. Azərbaycanın müvafiq srtukturlarının, həmçinin Sülh naminə tərəfdaşlıq proqrammdakı ölkələrin 60-dan çox nümayəndəsi kursda iştirak etdi.

Müdafiə Nazirliyi mətbuat xidmətinin məlumatı. - “Azərbaycan” qəzeti, Bakı, 1999, 12 iyun.

Avropa və regional təhlükəsizlik məsələlərini müzakirə etmək üçün 2000-ci il aprelin 26-28-də NATO qüvvələrinin planlaşdırılması qrupu admiral Quido Venturoni başda olmaqla Bakıya səfər etdi'°^^. Nümayəndə heyətini aprelin 28-də Azərbaycan Prezidenti qəbul etdi"°°. Sülh naminə tərəfdaşlıq proqramında Azərbaycanın iştirakı məsələləri müzakirə edildi. Qrup planlaşdırma və təhlil prosesi çərçivəsində Azərbaycan qoşunlarının NATO standartlarına uyğunlaşdırılması istiqamətində həyata keçirilmiş 24 məqsədlə tanış oldu, gələcək 27 məqsədin siyahısı tərtib edildi. Azərbaycan hərbçilərinin Kosovoda sülhməramlı əməliyyatlarda iştirakı NATO rəsmisi tərəfindən yüksək qiymətləndirildi.

Bunun ardınca, iyulun 20-21-də Bakıda NATO/AATŞ çərçivəsində "Qafqazda enerji təhlükəsizliyi" adlı konfrans keçirildi. Konfransda regionda enerji təhlükəsizliyi, boru kəmərlərinin mühafizəsi və ətraf mühit problemləri müzakirə edildi.

Seminar ərəfəsində NATO-nun ali mülki fövqəladə planlaşdırma komitəsinin mülki fövqəladə planlaşdırma üzrə qiymətləndirmə qrupu Azərbaycana gəlmişdi. Qiymətləndirmə qrupunun üzvləri seminarda iştirak etməklə yanaşı bu sahədə fəaliyyət göstərən dövlət qurumlarında görüşlər keçirdilər. Konfransda NATO-nun səkkiz ölkəsindən və Avroatlantika Tərəfdaşlıq Şurasına daxil olan ölkələrdən 70 nümayəndə iştirak edirdi. Konfrans iştirakçıları beynəlxalq terrorizm və mütəşəkkil cinayətkar dəstələr tərəfindən gözlənilən təhlükələr və onlara qarşı mübarizə yollarını müzakirə edərək, boru kəmərlərinin təhlükəsizliyinin təmin edilməsinin vacib olduğunu vurğuladılar, həmçinin Xəzərin enerji ehtiyatlarının istismarı nəticəsində yarana biləcək ekoloji şərait və təhlükələrin aradan qaldırılması məsələlərinə dair fikir mübadiləsi etdilər.

Cənubi Qafqazda təhlükəsizlik məsələlərinə diqqət yetirən NATO 2000- ci ilin sentyabr ayında Tbilisidə Azərbaycan nümayəndələrinin də iştirak etdiyi bir konfrans keçirdi. Konfransda çıxış edən NATO-nun baş katibi Corc Robertson"°' bildirdi ki, regionun əsas güc mərkəzlərinin və

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev NATO-nun nümayəndə heyətini qəbul etmişdir. - "Azərbaycan" qəzeti, Bakı, 2000, 29 aprel.

Əliyev H.Ə. NATO-nun hərbi komitəsinin sədri, İtaliya hərbi dəniz qüvvələrinin admiralı Quido Venturoni başda olmaqla bu təşkilatın nümayəndə heyəti ilə görüşdə söhbət. 28 aprel 2000-ci il. - Müstəqiliymiz əbədidir. XXVII kitab, s. 27-30.

Corc Robertson (1946) - Böyük Britaniyanın siyasi və dövlət xadimi. NATO-nun baş katibi (1994-2004).

Rusiyanın iştirakı olmadan buradakı problemləri tam həll etmək, Avropada və Qafqazda tam təhlükəsizliyə nail olmaq mümkün deyildir.

Azərbaycan tərəfi maraqlarına qarşı yönəlmiş təhdid və riskləri nəzərə alaraq, eləcə də ərazi bütövlüyünün bərpası və təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə NATO ilə Fərdi tərəfdaşlıq proqramına xüsusi əhəmiyyət verirdi. Bu baxımdan əməkdaşlıqda növbəti addım 2000-ci il dekabrın 5-6-da Azərbaycan Respublikasının müdafiə naziri Səfər Əbiyevin NATO ölkələrinin müdafiə nazirlərinin görüşündə iştirakı oldu. Görüşdə gücləndirilmiş və daha çevik tərəfdaşlıq, hərbi imkanlar, böhranlara çevik reaksiya vermək, hərbi islahatlar, Cənub-Şərqi Avropa təşəbbüsünün əldə olunmuş inkişafı və sabitlik paktının dəstəklənməsi məsələləri müzakirə edildi"®^. İclasda çıxış edən Səfər Əbiyev Azərbaycan silahlı qüvvələrinin hərbçilərinə xarici ölkələrdə keçirilən toplantılarda iştirak etməyə şərait yaradıldığını, ölkə ərazisində çoxmillətli sülhməramlı əməliyyatların da keçirilməsinin nəzərdə tutulduğunu, Ermənistanın böyük miqdarda silah və texnika ilə təmin edilməsinin regionda təhlükə mənbəyi olduğunu,
1993- 1996-cı illərdə Ermənistana qanunsuz verilən çoxsaylı silahlardan əlavə oraya xeyli miqdarda müasir silah və texnika göndərildiyini və iri aviasiya dəstəsi yaradıldığını, Rusiyanın Gürcüstandakı bazasından çıxardığı tank və texnikanı Ermənistana verdiyini, Azərbaycanın işğal edilmiş ərazilərində yerləşdirildiyini, bunun Cənubi Qafqazda real təhlükə yaratdığını dedi.

Ümumiyyətlə, 2000-ci il NATO ilə zəngin əməkdaşlıq ilə yadda qaldı. İl ərzində Azərbaycan Vaşinqtonda silahlı qüvvələr və kütləvi informasiya vasitələrinin qarşılıqlı əlaqəsi üzrə seminarda, Türkiyədə Balıke- sirdə yanacaq standartları və yerüstü nəqliyyat vasitələri üçün yanacağın bölüşdürülməsi kurslarında, Brüsseldə quru qoşunları döyüş sursatlarının qarşılıqlı əvəz olunması üzrə işçi qrupların görüşündə və avtomatlaşdırılmış idarəetmə üzrə görüşdə, Rumıniyanın Konstança şəhərində "Kooperativ Key", Kluj Naroka şəhərində "Kooperativ best effort" sülhməramlı təlimlərində, Brüsseldə Avroatlantika Tərəfdaşlıq Şurasının hava hücumundan müdafiə komitəsinin sessiyasında və s. iştirak etdi.

Müdafiə Nazirliyi mətbuat xidmətinin məlumatı. "Azərbaycan" qəzeti, Bakı, 2000, 10 dekabr.

## NATO-nun baş katibi Corc Robertsonun Azərbaycana səfəri

Bu zaman Azərbaycanda NATO-nun ilk komanda qərargah təlimlərinin keçirilməsi planlaşdırıhrmışdı. Həmin məsələləri müzakirə etmək məqsədi ilə 2001-ci il yanvarın 16-17-də NATO-nun baş katibi Corc Robertson Azərbaycana səfər etdi. Bu, Cors Robertsonun Azərbaycana ilk səfəri idi. Səfər müddətində o, Azərbaycan Respublikasının Prezidenti, Milli Məclisin Sədri, Baş Nazir, xarici işlər naziri, müdafiə naziri ilə görüşərək regiondakı şərait, Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan - NATO əlaqələrinin gələcək inkişafı, Azərbaycanda keçiriləcək ilk komanda-qərargah təlimləri haqqında müzakirələr apardı"®^. NATO-nun mövqeyinə görə, münaqişə tərəflərin özləri tərəfindən həll edilməli idi. NATO ilə əməkdaşlıq komissiyasının tədbirlər planına uyğun olaraq əməkdaşlıq üzrə Azərbaycanda işçi qrup yaradıldı.

Baş katibin səfərindən az sonra, yanvarın 23-26-da Azərbaycanda keçirilən "Kooperativ Determineyşn" təlimlərinin planlaşdırılması üzrə konfransın işində NATO və Sülh naminə tərəfdaşlıq proqramına daxil olan 30 dövlətin nümayəndəsi iştirak etdi. Konfransın gedişində komanda- qərargah təlimləri də keçirildi. Bu, Azərbaycanda keçirilən ilk komanda- qərargah təlimi kimi əhəmiyyətli idi. Səfərdən sonra Azərbaycanın sülhməramlı qüvvələri ilə tanışlıq məqsədi ilə NATO baş katibinin müavini, müdafiə planlaşdırma və əməliyyatlar departamentinin rəisi Edqard Bak- linin başçılıq etdiyi nümayəndə heyəti, aprelin 25-26-da isə müdafiə planlaşdırma və təhlil prosesi üzrə qiymətləndirmə qrupu Bakıda oldu. Səfər müddətində 2001-ci il üzrə Azərbaycanın planlaşdırma və təhlil üzrə layihəsi müzakirə edilərək bəyənildi.

Bakıya səfərdən bir müddət sonra, aprelin 27-də Corc Robertsonun sədrliyi altında Şimali Atlantika Şurasının Orta Asiya və Qafqaza həsr olunmuş xüsusi qapalı iclasında təşkilatın hər iki regiona münasibətdə gələcək siyasəti müzakirə edildi. NATO-nun bu regionlarda fəaliyyətinin artırılmasına dair qərar qəbul olundu.

Azərbaycan Prezidenti Heydər Əliyev NATO-nun baş katibini qəbul etmişdir. — Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. 1 hissə, s. 82-85.

## 11 sentyabr terror aktlanmn Azərbaycan - NATO əməkdaşlığına təsiri

2001- ci il sentyabrın 11-də ABŞ-da baş verən terror aktları Azərbaycan NATO əlaqələrinin genişlənməsinə təsir etdi. Terror aktlarından bir müddət sonra, oktyabrın 23-də xarici işlər nazirinin müavini Araz Əzimovun rəhbərliyi altında Müdafiə Nazirliyi və Milli Elmlər Akademiyasının əməkdaşlarından ibarət nümayəndə heyəti Brüsseldə NATOnun mənzil qərargahında "NATO + Azərbaycan" formatında ikitərəfli dialoqda iştirak etdi"'*". Azərbaycan Respublikası NATO qüvvələri ilə qarşılıqlı hərbi əlaqələndirməyə nail olmaq üçün planlaşdırma və təhlil prosesi çərçivəsində üzərinə götürdüyü 27 öhdəlikdən 23-nü qismən yerinə yetirmişdi. Azərbaycan nümayəndələri NATO-nun ali mülki fövqəladə planlaşdırma, mülki rabitə planlaşdırma, hava hərəkətini idarəetmə komitələrinin və s. işində iştirak etmişdilər.

Dialoqdan az sonra Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Hərbi Elmi Mərkəzi nəzdində konsepsiya və doktrinalar şöbəsi yaradıldı. Noyabrın 5-16-da "Cooperative Determination-2001" çoxmillətli sülhməramlı komanda-qərargah təlimi, noyabrın 16-17-də isə Bakıda Bosniya və Kosovo sülhməramlı əməliyyatlarının təcrübəsinə dair seminarlar keçirildi

Terrorizmə qarşı mübarizə məsələləri dekabrın 7-də AATŞ-m iştirakçısı olan ölkələrin xarici işlər nazirlərinin illik toplantısında müzakirə edildi. Toplantıda xarici işlər naziri Vilayət Quliyev iştirak etdi"°®. O etdiyi çıxışında terrorizmə qarşı birgə mübarizənin zəruriliyini önə çəkdi, Azərbaycanın NATO-nun Sülh naminə tərəfdaşlıq proqramında fəal iştirak edəcəyini. Dağlıq Qarabağ regionu ermənilərinin heç bir hüquqi əsası olmayan öz müqəddəratını təyinetmə tələblərinin Azərbaycan torpaqlarının işğalına heç cür haqq qazandıra bilməyəcəyini, milli müqəddəratı təyinetmənin başqa xalqın torpaqlarını işğal etmək əsasında həyata keçirilməsinin mümkünsüzlüyünü bildirdi.

Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığa xüsusi əhəmiyyət verməsi əməkdaşlıq üzrə komissiyasının işçi qrupunun 2001-ci il

---

ARXİNA. 12.01.2002-02.05.2002. Qovluq NsS, v. 214-218.

ARXİNA. 2001. Qovluq Xs 10, v.51-54.

Xarici işlər nazirinin Brüsselə səfəri. • ■ Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 1063-1064.

dekabrın 27-də keçirilən iclasında bir daha özünü göstərdi. İclasda 2001-ci il ərzində əməkdaşlıq sahəsində həyata keçirilən işlər təhlil, 2002-ci ildə əməkdaşlığa dair təkliflər müzakirə edildi . Təkliflərdə NATO ilə intensiv dialoqun aparılması, Azərbaycanın sülhməramlı bölüyünün komplekt-ləşdirilməsinin davam etdirilməsi, boru kəmərləri və neft yataqlarının mühafizəsi üçün konseptual sənədin hazırlanması və s. məsələlər yer almış-dı"“ __

Ümumiyyətlə, 2001-ci ildə Sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində Azərbaycan NATO-nun 5 təlimində iştirak etmişdi. Silahlı qüvvələrin nəzdində sülhməramlı bölük təşkil edilmişdi. Sülh naminə tərəfdaşlıq milli təlim mərkəzi yaradılmışdı. Azərbaycan silahlı qüvvələri Kosovoda NATO-nun keçirdiyi sülhün dəstəklənməsi üzrə əməliyyatlarda, neft boru kəmərlərinin mühafizəsi üzrə Türkiyə və Gürcüstan nümayəndələrinin iştirakı ilə komanda qərargah təlimində iştirak etmişdilər.

Azərbaycan tərəfi üzərinə 2002-ci ildə NATO ilə tərəfdaşlığa dair 27 təəhhüd götürdü NATO ilə əməkdaşlığı genişləndirmək üçün əlavə tədbirlər müəyyənləşdirildi. 2002-ci il fevralın 7-də “Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığını daha da gücləndirmək tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 14 noyabr tarixli sərəncamına dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Prezidenti sərəncam imzaladı. Sərəncama əsasən komissiyanın tərkibinə Daxili İşlər Nazirliyi, Yanacaq və Energetika Nazirliyi və Dövlət Gömrük Komitəsi daxil edildi.

NATO/AATŞ baş qərargah rəislərinin 2002-ci il mayın 13-də keçirilən növbəti görüşündə çıxış edən Azərbaycan nümayəndəsi ölkənin planlaşdırma və təhlil proqramının yerinə yetirilməsi üçün gördüyü işlərdən danışdı. Sülh naminə tərəfdaşlıq təlim mərkəzinin yaradılması haqqında təklifi səsləndirdi, Kosovo və Əfqanıstanda Azərbaycanın fəaliyyəti, habelə İraqla bağlı niyyətlərinə dair məlumat verdi. Dərinliyə varmadan Ermənistan ilə münaqişəyə işarə edərək regional əməkdaşlığın mümkün olmadığını vurğuladı, digər tərəfdən, NATO-nun Cənubi Qafqazda olan problemlərlə yaxından məşğul olmasının və məhz regional əməkdaşlığın qarşısında duran maneələri aradan götürmək və beləliklə, təhlükəsizlik təminatı üçün münasib şərait yaratmaqda bilavasitə iştirakı-

ARXİNA. 12.01.2001-02.05.2002. Qovluq NaS, v.211-213. '
ARXİNA. 12.01.2001-02.05.2002. Qovluq NaS, v.219-223. ’
ARXİNA. 2002. Qovluq Na 10, v. 53-54.

nın arzu edildiyini bildirdi. Azərbaycanın NATO ilə əlaqələrini ikitərəfli əsasda davam etdirmək niyyətində olduğunu və bu zaman yalnız öz milli maraqlarını güddüyünü dedi. Çoxtərəfli hərbi qruplaşmalara gəldikdə isə Azərbaycan tərəfi GÜÖAM daxilində hərbi birliyin yaradılması təşəbbüsü ilə çıxış etmişdi və çoxtərəfli qruplaşmanın NATO ölkəsinin iştirakı ilə yaradılmasına tərəfdar idi. Ermənistanın rotasiya qaydasında Cənubi Qafqaz dövlətlərində hərbi təlimlər keçirilməsi haqqında təklifinə münasibətə gəlincə isə təcavüzə məruz qalan bir ölkənin ərazisində işğal edən tərəfin qoşunlarının qısa müddətli təlim məqsədi olsa belə, qəbul edilməsi mümkünsüz idi"°.

Azərbaycan tərəfi NATO toplantıları çərçivəsində də Ermənistan ilə müzakirələrin aparılması imkanlarından imtina etmirdi. Belə ki, NATOnun İslandiyanın paytaxtı Reykyavikdə keçirilən toplantısında Türkiyənin xarici işlər naziri İsmail Cem, Azərbaycanın xarici işlər naziri Vilayət Quliyev və Ermənistanın xarici işlər naziri Vartan Oskanyan 2002-ci il mayın 14-də ilk dəfə görüşdülər. Görüşü İsmail Cem təklif etmişdi"". Bu, uzun illərdən sonra keçidən ilk görüş idi"^. Çay süfrəsi arxasında keçən bu görüş “çay diplomatiyası” adını aldı. Türkiyənin xarici işlər naziri Ermənistan ilə münasibətləri başlamaq üçün dörd şərt irəli sürdü. Buna görə, Ermənistan soyqırım iddialarından imtina etməli, bu məsələ tarixçilərin ixtiyarına verilməli, Ermənistan konstitusiyasından Türkiyəyə qarşı torpaq tələbi çıxarılmalı, erməni silahlı qüvvələri Dağlıq Qarabağ regionundan çəkilməli, Naxçıvan ilə təhlükəsizlik dəhlizi qurulmalı idi. Bunun müqabilində Ermənistanın namizəd olduğu Avropa İttifaqının yaxın qonşular siyasətinə qatılmasına çalışa bilərdi. İsmail Cem eyni zamanda Minsk qrupunun fəaliyyətini dəstəklədiklərini qeyd etdi"^. Nazirlər üçtərəfli görüşlərin beynəlxalq təşkilatlar çərçivəsində davam etdirilməsinə tərəfdar oldular"".

ARXINA. 2002. Qovluq NalO, v.138-139.

"" Kutuplarda Ermenistan’la sicak temas. - “Hürriyet” gazetesi, İstanbul, 2002, 14 Mayıs.

Reykyavik’te tarihi randevu. - “Cumhuriyet” gazetesi, İstanbul, 2002, 14 Mayıs.

Buzul üikesinde çay diplomasisi. - “Hürriyef’ gazetesi, İstanbul, 2002, 16 Mayıs.

Kafkaslarda barış dopingi. - “Cumhuriyet” gazetesi, İstanbul, 2002,

16 Mayıs.

Reykyavik görüşündə ABŞ dövlət katibi Kolin Pauel Sülh naminə tərəfdaşlıq mərkəzlərinin açılması təklifi ilə çıxış etdi. Həmin təklif bəyənildi.

Bu zaman dövlət sərhədlərinin daha etibarlı mühafizəsi məsələsi də gündəliyə gəlmişdi. Fərdi tərəfdaşlıq proqramına uyğun olaraq 2002-ci il mayın 22-25-də sərhədlərə nəzarət üzrə NATO-nun qiymətləndirmə qrupu Azərbaycana səfər edərək Milli Təhlükəsizlik Nazirliyi sərhəd qoşunlarında məhsuldar görüşlər keçirdi"'^. Bu sahədə əməkdaşlığı bir sıra amillər zəruri edirdi. Azərbaycan Respublikası Prezidentinin 1991-ci il 16 dekabr tarixli fərmanı ilə yaradılmış sərhəd qoşunları 1993-cü il fevralın 8-dən etibarən Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin tərkibində müstəqil struktur bölmə kimi fəaliyyət göstərirdi. Sovet sərhəd qoşunları Azərbaycan Respublikası ərazisini tərk etdiyi dövr dövlət sərhədinin mühafizəsinin mühəndis-texniki vasitələrini sıradan çıxarması ilə müşayiət olunmuşdu. Ölkəni tərk edərkən sovet sərhədçiləri tərəfindən dövlət sərhədində mühəndis-texniki qurğuların sistem blokları sıradan çıxarılmış, yalnız mənəvi və texniki baxımdan köhnəlmiş texniki vasitələr işlək vəziyyətdə saxlanmışdı. Lokasiya və nəzarət sistemləri ölkədən çıxarılmış, aparılması mümkün olmayanlar isə yararsız hala salınmışdı. Müşahidə və radiorabitə postları məhv edilmişdi. Qeyd edilən texniki vasitələrin sıradan çıxarılması və ya yararsız hala salınması dövlət sərhədini tələb olunan səviyyədə mühafizə etməyə imkan vermirdi. SSRİ-nin dövlət sərhədinin dəniz sahəsinin mühafizəsi dəniz briqadasıınm gəmiləri vasitəsi ilə həyata keçirilirdi. Dəniz briqadasının sərəncamında 30-dan çox müasir gəmi və etibarlı infrastruktur var idi. Sovet sərhəd qoşunları Azərbaycan ərazisini tərk etdiyi zaman dövlət sərhədinin mühafizəsi üçün yararlı olan gəmilər ölkədən çıxarılmış, zəruri infrastruktur, xüsusən də xidmət sexləri nasaz vəziyyətə gətirilmişdi. Azərbaycan Respublikası üçün saxlanılmış 5 gəminin istismar müddəti isə hələ XX əsrin 80-ci illərində başa çatmışdı'"^. SSRİ dövründə yürüdülən siyasət və sərhəd qoşunlarının sıralarında azərbaycanlı zabit və gizirlərin xidmət etməsinin məhdudlaşdırılması da Azərbaycan sərhəd qoşunlarının təşəkkülü üçün müəyyən problemlər doğurmuşdu.

Keçid dövründə dövlət sərhədinin müvəqqəti olaraq zəif mühafizə olunması nəticəsində İranda müxtəlif qaçaqmalçı kriminal qruplar fəaliy-

[1115] ARXİNA. 2002. Qovluq NalO, v. 19.
' ARXİNA. 12.01.2002-02.05.2002. Qovluq XaS, v.5-10.

yətlərini artırmışdılar. Əraziyə yaxşı bələd olan qaçaqmalçılar ilkin dövrdə Azərbaycanda olan qıtlıqdan istifadə edərək xüsusi qaçaqmalçılıq kanalları təşkil edərək onlardan geniş yararlanırdılar.

Doğrudur, dövlət müstəqilliyinin bərpasından ötən müddət ərzində problemlərin həlli istiqamətində Azərbaycan bir sıra tədbirlər həyata keçirmişdi. Dövlət sərhədinin cənub sahəsinin mühafizəsini həyata keçirən bütün bölmələr bərpa edilmiş, dəstələr və zastavalar milli kadrlar ilə komplektləşdirilmiş, sərəncamda olan və əlavə olaraq əldə edilən vasitələr hesabına sərhədin bəzi sahələrində mühafizə sistemləri yararlı hala gətirilmiş, mühəndis-texniki qurğuların işləməsi üçün zəruri olan silah və texnika bərpa edilmişdi. Xüsusilə təhlükəli olan sahələrdə dövlət sərhədinin mühafizəsi gücləndirilmiş naryadlarla həyata keçirilirdi. Azərbaycan dövləti Rusiya və Gürcüstan ilə sərhədlərini mühafizə altına almışdı.

Kadrların hazırlanması istiqamətində də müəyyən işlər reallaşdırılmışdı. Sərhəd qoşunlarının bazasında burada xidmət etmiş zəruri mütəxəssislərin və şəxsi heyətin hazırlığı üzrə təlim mərkəzləri, ixtisasartırma kursları, zabitlərin təkmilləşdirilməsi kursları təşkil edilmiş. Müdafiə Nazirliyinin hərbi məktəbinin bazasında sərhəd qoşunları üçün zabit hazırlanması məqsədi ilə kafedra açılmışdı.

Dəniz sərhədlərinin mühafizəsi istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, 4 sərhədçi gəmisi təmir edilərək xidmətə qaytarılmış, ABŞ hökuməti tərəfindən Azərbaycana iki kater verilmişdi. Azərbaycan Respublikasının bütün dövlət sərhədində buraxılış məntəqələrini birləşdirən avtomatik məlumat-axtarış sistemi yaradılmış və ölkəyə daxil olan və onu tərk edən bütün mühacirlərin nəzarətə götürülməsi təmin edilmişdi.

Azərbaycan Respublikasının dövlət sərhədinin etibarlı mühafizəsinin NATO ölkələri üçün böyük əhəmiyyəti var idi. Sərhədlərin etibarlı mühafizə edilməsini vacib edən məqamlar aşağıdakılardan ibarət idi: Avropanın cənub-şərq sərhədlərində yerləşən Azərbaycan Respublikasının coğrafi mövqeyi, şimaldan Rusiya Federasiyası, cənubdan İran, şimal- qərbdən Gürcüstan, qərbdən Ermənistan, cənub-qərbdən Türkiyə və İran ilə həmsərhəd olması; antiterror əməliyyatı aparılan Əfqanıstan bölgəsi ilə yaxınlığı; Azərbaycanın cənub qonşusu olan İran İslam Respublikasının şərqdən Əfqanıstan ilə həmsərhəd olması; beynəlxalq narkotik məqsədi ilə ölkə ərazisindən tranzit kimi istifadə edilməsi ehtimalı; Azərbaycan ərazisindən Avropaya qeyri-leqal miqrasiya üçün tranzit kimi istifadə edilməsi; XXI əsrin ən böyük beynəlxalq layihələri olan Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin, Bakı - Tbilisi - Ərzurum qaz boru kəməri

sisteminin, TRASEKA-nın, İpək yolu layihəsinin, Şimal-Cənub dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçməsi.

Bütün bunlar sərhədlərin mühafizəsi sahəsində Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığını zəruri edirdi. Ona görə də Azərbaycan tərəfi sərhəd qoşunlarına dair müzakirəyə təklif olunan məsələlər barədə arayış hazırlayaraq təqdim etdi'"^.Təklif edilən məsələlər cərgəsində aşağıdakılar yer almışdı: dövlət sərhədinin mühafizəsi üzrə NATO dövlətlərinin qanunvericiliyi, dəniz hüququ üzrə beynəlxalq normativ- hüquqi aktlar və onlardan irəli gələn tələblərin dövlət sərhəd mühafizəsində tətbiq edilmə mexanizmləri; NATO ölkələrinin silahlı qüvvələrində sərhəd mühafizə qüvvələrinin yeri, onun başqa silahlı qüvvələr və digər hakimiyyət strukturları ilə qarşılıqlı əlaqəsinin təşkili; NATO ölkələrinin hərbi-sənaye kompleksi ilə tanışlıq; sifarişlərin verilmə, daşınma, çatdırılma, qiymətləndirmə və zəmanət qaydaları; NATO ölkələrinin sərhədin mühafizəsi ilə məşğul olan qurumlarının xidməti-döyüş fəaliyyətinin təşkili, planlaşdırılması, həyata keçirilməsi üsulları və qərargahının iş metodları.

Bundan sonra, 2002-ci il iyunun 3-4-də Brüsseldə NATO-nun mənzil qərargahında NATO - Azərbaycan formatında keçirilən ikitərəfli siyasi məsləhətləşmələrdə iştirak edən Azərbaycan tərəfi sərhəd təhlükəsizliyi problemləri haqqında NATO-ya məlumat verdi və təkliflərini təqdim etdi. Əməkdaşlığın gələcək imkanları müzakirə edildi.

NATO-nun müdafiə planlaşdırılması və əməliyyatlar idarəsinin müdafiə tərəfdaşlığı və əməkdaşlıq üzrə direktorunun rəis müavini S.Katsirdakis iyulun 2-5-də Bakıda keçirilən seminarda NATO və Azərbaycan arasında ikitərəfli siyasi məsləhətləşmələr zamanı təqdim edilən təkliflərə münasibətini bildirdi . Siyasi sahədə əməkdaşlığa dair Azərbaycanın təklifləri siyasi komitədə müzakirə edilmişdi. NATO-nun baxışma görə, intensivləşdirilmiş əməkdaşlıq proqramı üzərində müzakirələr davam etdirilməli idi. 19+1 formatına dair heç bir problem mövcud deyildi.

Planlaşdırma və analiz prosesi üzrə Azərbaycanın təklif etdiyi "Clearing House" mexanizmi məsələsi müzakirə edilərkən S.Katsirdakis qeyd etdi ki, bir sıra dövlətlər bu sahədə Azərbaycana ciddi surətdə yardım etməyə hazırdırlar. NATO-nun xaricdə necə təmsil olunması problemi də qalmaqda idi. Sülh naminə tərəfdaşlıq mərkəzlərinin açılması

[1117] ARXİNA. 12.01.2002-02.05.2002. Qovluq NsS, v. 135.
' ARXİNA. 04.05.2002-17.07.2002. Qovluq S, v. 37-42.

ABŞ-ın mövqeyi idi. Artıq qeyd edildiyi kimi, bu təklifi xarici işlər nazirlərinin Reykyavik görüşündə Kolin Pauel irəli sürmüşdü. Fransa və bəzi digər dövlətlər bir ideya kimi onun əleyhinə idilər. Buna baxmayaraq, Tirana, Moskva, Kiyev və Skopyedə NATO-nun ofisləri fəaliyyət göstərirdi. S.Katsirdakisin fikrincə. Cənubi Qafqazda regional ofisin yaradılması mümkün variantlardan biri idi. Digər bir variant isə iki ildən bir region dövlətlərinin birinə keçməklə rotasiya əsasında dəyişən ofis ola bilərdi. Başqa bir variant isə region dövlətlərinin hərəsində bir ofisin yaradılması idi.

Hərbi təlim və təhsil məsələsi S.Katsirdakisin fikrincə ən asan idi. Hər bir üzv dövlət Azərbaycanın milli təlim mərkəzinin Sülh naminə tərəfdaşlıq təlim mərkəzi səviyyəsinə qaldırılması üçün hərbi ekspert yardımı göstərməyə hazır idi. Dil hazırlığına dair Azərbaycanın təklifi asan və tezliklə həll edilə bilərdi.

Boru kəmərlərinin və neft yataqlarının təhlükəsizliyi məsələsinə dair təşkilatın mövqeyini açıqlayan S. Katsirdakis bunun sərhədlərin təhlükəsizliyi ilə bağlı və hələ də öyrənilən məsələ olduğunu qeyd etdi. Mülki fövqəladə planlaşdırma sahəsində olan təkliflər isə müvafiq komitələrdə öyrənilirdi. NATO nümayəndəsi Sülh naminə tərəfdaşlıq etimad fondu məsələsində birinci olaraq Azərbaycanın piyadalar əleyhinə minaların qadağan edilməsini nəzərdə tutan Ottava konvensiyasına qoşulub- qoşulmadığı ilə maraqlandı. Sonra isə Sülh naminə tərəfdaşlıq etimad fonduna açıqlıq gətirərək, onun bilavasitə minalardan təmizləmə fəaliyyəti ilə deyil, yığılıb qalmış sursatların məhv edilməsi ilə məşğul olduğunu bildirdi. Ona görə də Azərbaycanın təqdim etdiyi layihəni partladılmamış sursatların məhv edilməsi ilə birləşdirməyi, Azərbaycan tərəfindən yığılıb qalmış sursatların miqdarı, onların növləri, təyinatları və saylarınm müəyyən edilməsini və sonra müvafiq sahə üzrə mütəxəssisin məruzə ilə çıxış etməsini təklif etdi. Sülh naminə tərəfdaşlıq etimad fondunun sərhədlərin təhlükəsizliyi məsələsinə tətbiq olunması üzərində müzakirələrin davam etdiyini və müdafiə sektorunun islahatı adı altında nəticə etibari ilə həyata keçirilməsinin mümkünlüyünü qeyd etdi. Etimad fondu vasitəsilə Azərbaycan nümayəndələrinin iştirakının maliyyələşdirilməsinə gəlincə, Finlandiya və İsveçin təklifi ilə olan bu məsələ üzrə onların yekun rəyi bildirmədiyini dedi.

Qeyd etmək lazımdır ki, bu zaman Azərbaycan Ermənistanın təcavüzü nəticəsində piyadalar əleyhinə minaların qadağan edilməsi haqqında Ottava konvensiyasından irəli gələn öhdəlikləri yerinə yetirə bilmədi

yindən ona qatıla bilmirdi. Azərbaycan tərəfinin fikrincə, Rusiya ilə NATO arasında qarşılıqlı maraq doğuran sahələrdə 20 formatında əlaqələr qurulduqdan sonra bu ölkə tərəfindən narahatlıq olmamalı idi. Azərbaycanın NATO ilə əməkdaşlığı 19+1 formatında davam etdirilirdi. Bu formatda əməkdaşlıq terrorizm, kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması və s. sahələri əhatə edirdi. NATO+GUÖAM formatında əməkdaşlıqda problem mövcud deyildi. Azərbaycan tərəfi əlavə variant kimi Cənubi Qafqaz+Mərkəzi Asiya variantının mümkünlüyünü bildirirdi. AATŞ zonasında 10 nəqliyyat dəhlizinin və 4 nəqliyyat ərazisinin olduğunu nəzərə alan Azərbaycan tərəfi onların təhlükəsizliyinin AATŞ+SNT gündəliyinə salınmasını təklif etdi. Azərbaycan Sülh naminə tərəfdaşlıq məlumat ofisi üçün sahə ayırmağa hazır idi. Regional ofisə gəlincə isə Azərbaycanın mövqeyinə görə, NATO ilə əməkdaşlığın səviyyəsi Ermənistan ucbatından məhdudlaşdırılmamalı idi. Səfər çərçivəsində S.Kat- sirdakis Azərbaycanın sərhəd təhlükəsizliyi məsələləri ilə tanış oldu.

19+1 formatında Azərbaycan - NATO əməkdaşlığının inkişaf etdirilməsi, Bakıda NATO/SNT informasiya məlumat ofisinin açılması məsələlərini müzakirə etmək üçün Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Hafiz Paşayev 2002-ci il iyulun 16-da ABŞ dövlət katibinin müavini Riçard Armitac ilə görüşdü"^. 907-ci düzəlişin dayandırılımasında ABŞ administrasiyasının və şəxsən Riçard Armitacm xüsusi rolunun olduğunu söyləyən Hafiz Paşayevin fikrincə, Azərbaycanın ABŞ və bütövlükdə Qərb ilə əlaqələrinin sürətli artımı təhlükəsizlik sahəsində nikbinliyə əsas verirdi. Bu baxımdan səfir Bakıda NATO-nun informasiya ofisinin açılmasının məqsədəuyğunluğunu və əhəmiyyətini xüsusi vurğuladı, ABŞ-m NATO-dakı səfiri Nikolas Börnsin səsləndirdiyi ABŞ-m iki regional ofis - birinin Orta Asiyada, digərinin Cənubi Qafqazda açmaq niyyətlərinə münasibətdə bildirdi ki. Sülh naminə tərəfdaşlıq proqramında ölkələrin iştirakı müəyyən səbəblərə görə müxtəlif səviyyəlidir, Ermənistan ilə Azərbaycan arasında məlum vəziyyət ucbatından ABŞ ehtiyatlı yanaşmanı həyata keçirir, regional məsələlərdə Gürcüstan bundan maraqları üçün istifadə edir. Azərbaycan NATO proqramının fəal üzvü idi. Bu fikri təsdiq edən Riçard Armitac Azərbaycanı terrorizmə qarşı mübarizədə ən yaxşı müttəfiqlərdən biri kimi qiymətləndirdi.

Azərbaycan səfirinin fikrincə, Bakıda NATO ofisinin açılması Azərbaycanın siyasi müdafiəsi haqqında siqnal olardı. Azərbaycan tərəfi

' ARXİNA. 20.07.2002-26.12.2002. Qovluq NaS, v.201-206.

binanın verilməsi və ofis aparatının saxlanılması üçün bir nəfər əməkdaşın saxlanılması xərclərini üzərinə götürməyə hazır idi. Hafiz Paşayev NATO-nun ali və orta rütbəli nümayəndələrinin Azərbaycana səfər təşəbbüsünü bəyəndiklərini, NATO ilə 19+1 formulu ilə əməkdaşlıqda maraqlı olduqlarını dedi. Belə mövqeni izah edən diplomat Azərbaycan əhalisinin ABŞ və NATO ilə əməkdaşlığın möhkəmləndirilməsinə dair ölkə rəhbərliyinin mövqeyini müdafiə etdiyini vurğuladı. Səfir Azərbaycanın Kosovoda sülhyaratma qüvvələrinin tərkibində iştirak etdiyini, Əfqanıstandakı qüvvələrin tərkibində iştirak etmək üçün hazırlaşdığını qeyd edərək əlavə etdi ki, Azərbaycan bunun əvəzində Bakı və Yerevana eyni yanaşmanın şahidi olur.

Səfir 907-cü düzəlişin bərpası cəhdlərinin mövcudluğundan danışdı. Cavabında Riçard Armitac dedi ki, qoy, yenidən baxmaq hüquqlarına qayıtsınlar, onsuz da ABŞ Prezidenti 907-cü düzəlişi dayandıracaqdır. Onun fikrincə, ABŞ administrasiyasının əlində etibarlı bir silah var idi: bu da terrorizmə qarşı mübarizədə Azərbaycanın gözəl imici idi. Riçard Armitac təhlükəsizlik sahəsində əməkdaşlığın daha da fəallaşdırılması zəruriliyini bildirdi. Bu münasibətləri müdafiə etmək və inkişaf etdirmək lazım idi. O, qısa müddətdə səfir Nikolas Börnsə bu görüş haqqında məlumat göndərəcəyini və NATO-nun Bakıda ofisinin açılması məsələsinə baxarkən bu mövqeyi nəzərə almağı tapşıracağını dedi. Azərbaycanı müdafiə etmək üçün ABŞ-ın əlində digər vasitələr olduğunu söyləyərək, sərhəd katerlərinin verilməsi, həmçinin əməkdaşlığın digər məsələlərini xatırlatdı.

NATO/AATŞ çərçivəsində AATŞ və Sülh naminə tərəfdaşlığı məsələsində Azərbaycanın mövqeyi belə idi"^°: Alyansın tərəfdaş ölkələr ilə praktiki təhlükəsizlik əlaqələrini gücləndirmək üçün Sülh naminə tərəfdaşlıq mexanizmlərinin inkişafı; maraq göstərən tərəfdaşlarla müntəzəm şəkildə onların təhlükəsizlik və müdafiə sahələrində keçirilən islahatlarına məşvərət və yardım göstərmək; NATO-nun başçılığı altında keçirilən əməliyyatlar və fəaliyyətlərdə, o cümlədən terrorizmə qarşı mübarizədə iştirak etmələri üçün yardım göstərmək; tərəfdaş ölkələrlə əməkdaşlığı və məşvərətləri onların tələblərinə və yeni təhdidlərə cavab vermək qabiliyyətinə uyğunlaşdırmaq; maraqlı tərəfdaş ölkələrlə 19+1 formatında dialoq və praktik əməkdaşlıq mexanizmlərini işə salmaq; tərəfdaşlığı inteqrasiya səviyyəsinə qaldırmaq istəyində olan ölkələr üçün intensiv əməkdaşlıq proqramlarını hazırlamaq; daha irəliyə gedərək ölkələr üçün

' ARXİNA. 04.05.2002-17.07.2002. Qovluq XeS, v. 151-152, 6-7.

NATO-nun Sülh naminə tərəfdaşlıq ofislərini açmaq; hərtərəfli əməkdaşlığa qeyri-hərbi strukturları cəlb etmək və onların fəaliyyətini antiterrorizm, sərhədlərin təhlükəsizliyi, mülki fövqəladə planlaşdırma sahələrində ahəngləşdirmək; Cənubi Qafqaz regionunda olan problemlərə daha çox diqqət yetirmək və regional əməkdaşlığa mane olan əngəlləri aradan qaldırmaq; region ölkələrinin qarşılaşdığı problemləri və onların fərqliliyini nəzərə almaqla fərdi qaydada əməkdaşlıq qurmaq.

Artıq qeyd edildiyi kimi, NATO ilə əməkdaşlıqda sərhəd qoşunlarının ehtiyaclarının ödənilməsi mühüm yerlərdən birini tuturdu. Kadr hazırlığı üzrə kursların təşkili, Dövlət Sərhəd Xidmətinin aviasiya dəstəsi üçün mütəxəssislərin hazırlanması, gözətçi gəmilər briqadası üçün mütəxəssislərin hazırlanması, təlim mərkəzləri üçün təlimçi zabitlərin hazırlanması, pasport nəzarəti üçün zabitlərin hazırlanması və s. bu istiqamətdə xüsusi idi

NATO ilə əməkdaşlıq nəticəsində Azərbaycan tərəfi 2002-ci ildə Əfqanıstanda Türkiyə qüvvələri tərkibində Beynəlxalq Təhlükəsizlik Yardımı Qüvvələri tərəfindən həyata keçirilən əməliyyatlarda iştiraka razılıq verdi. Terrorizmə qarşı mübarizədə etibarlı tərəfdaş olan Azərbaycan tərəfi bu dəfə də Kosovodakı modeldən, yəni Türkiyə tərəfinin Azərbaycan hərbçilərinin bütün - sursat, nəqliyyat və s. təminatını öz üzərinə götürməsindən faydalanmaq istəyirdi”"^.

## NATO/AATŞ üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Praqa zirvə görüşündə Azərbaycanın iştirakı

Belə bir şəraitdə NATO-nun başlıca qayğısı terrorizmə qarşı daha səmərəli mübarizə aparmaq idi. Bu baxımdan 2002-ci ilin noyabr ayında Praqada keçirilən NATO/AATŞ üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşü mühüm rol oynadı. Toplantıda iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyev görüş ərəfəsində Gürcüstan Prezidenti ilə görüşərək ikitərəfli və regional məsələləri müzakirə etdi. Daha sonra, noyabrın 21-də Azərbaycan və Ermənistan prezidentləri ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşərək Dağlıq Qarabağ münaqişəsinin sülh

ARXİNA. 20.07.2002-26.12.2002. Qovluq fibS, v.77-79.

ARXİNA. 20.07.2002-26.12.2002. Qovluq XsS, v.6-7; ARXİNA. 20.07.2002-26.12.2002. Qovluq XaS, 9-15.

yolu ilə həllinə dair fikir mübadiləsi apardılar . Həmin gün Azərbaycan və Ermənistan prezidentləri təkbətək görüşdülər"^'’. Onlar Minsk qrupu çərçivəsində danışıqların davam etdirilməsinin zəruriliyini vurğuladılar.

Azərbaycan Prezidenti NATO-nun baş katibi Con Robertson ilə görüşərək əməkdaşlıq məsələlərini müzakirə etdi. NATO rəhbərliyi beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycanın beynəlxalq koalisiyanın işində iştirakını yüksək qiymətləndirirdi'"^. Noyabrın 21-də Azərbaycan Prezidenti Fransa Prezidenti Jak Şirak ilə görüşdü"^^. Fransa Prezidenti Azərbaycan ilə münasibətlərin inkişafına xüsusi əhəmiyyət verirdi. Azərbaycan Prezidenti noyabrın 22-də Türkiyə Prezidenti Əhməd Necdət Sezər ilə görüşərək ikitərəfli, regional və enerji məsələlərini müzakirə et- **di"^^**

Noyabrın 21-22-də NATO/AATŞ zirvə görüşü keçirildi. Son onilliklərdə Avropada baş vermiş fundamental dəyişikliklər - Almaniyanın birləşdirilməsi, SSRİ-nin və Varşava Müqaviləsi Təşkilatının dağılması, soyuq müharibənin aradan qalxması NATO-nun strategiyasında əsaslı dəyişikliklər etmişdi. NATO-nun təkcə strategiyası deyil, strukturunda da dəyişikliklər olmuşdu. Artıq qeyd edildiyi kimi. Şimali Atlantika Əməkdaşlıq Şurası qurulmuşdu. Azərbaycan Respublikası bu foruma qatılmışdı.

1994- cü ilin yanvar ayında NATO-nun Brüssel zirvə toplantısında Sülh naminə tərəfdaşlıq proqramı qəbul edilmişdi. Azərbaycan bu proqramın çərçivə sənədini həmin ilin may ayında imzalamışdı. 1997-ci ilin may ayında Şimali Atlantika Əməkdaşlıq Şurası əvəzində Avroatlantika Tərəfdaşlıq Şurası qurulmuşdu. O, daha geniş səviyyədə siyasi tərəfdaşlıq və

Azərbaycan Prezidenti Heydər Əliyevin və Ermənistan Prezidenti Robert Koçaryanın ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 884.

Azərbaycan Prezidenti Heydər Əliyevin Ermənistan Prezidenti Robert Koçar- yan ilə təkbətək görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 884-885.

Azərbaycan Prezidenti Heydər Əliyevin NATO-nun baş katibi Con Robertson ilə görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 885-886.

Azərbaycan Prezidenti Heydər Əliyevin Fransa Prezidenti Jak Şirak ilə təkbətək görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 886-887.

Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyə Prezidenti Əhməd Necdət Sezər ilə təkbətək görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 887.

Sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində praktiki əməkdaşlıq üçün yeni imkanlar açan mexanizm idi. Artıq təcavüz amili NATO üçün təhlükə törətmirdi. Avroatlantika məkanında əsas təhlükə mənbələri iqtisadi, siyasi və sosial çətinliklər, etnik münaqişələr, ərazi mübahisələri, kütləvi qırğın silahlarının yayılması, terror aktları və s. idi.

Praqa sammiti ABŞ-da törədilmiş dəhşətli terror aktlarından sonra NATO-nun keçirilən ilk toplantısı idi. Zirvə görüşünün ilk iclası təşkilata üzv olan 19 ölkənin dövlət və hökumət başçılarının iştirakı ilə başladı"^*. Görüşdə NATO-nun Şərqi Avropaya doğru genişləndiyi vurğulandı. Bu, qlobal əməkdaşlığa imkan verəcəkdi.

Zirvə görüşündə Azərbaycan Prezidenti Heydər Əliyev çıxış etdi"^^. O, Azərbaycanın antiterror koalisiyasında iştirakından, terrorizm və onunla bağlı beynəlxalq cinayətkarlıq ocaqlarının münaqişə zonalarında və qanuni hakimiyyətlər tərəfindən nəzarət olunmayan ərazilərin formalaşmasından danışdı, həmin ərazilərin təcavüzkar millətçilik və zorakı separatizm siyasətindən doğan müharibələr nəticəsində meydana gəldiyini, bu baxımdan Cənubi Qafqazın ən çox narahatlıq doğuran region olduğunu bildirdi. Daha sonra Ermənistanın Azərbaycana təcavüzü və nəticələri üzərində dayandı.

Zirvə görüşünün yekununda qəbul edilən bəyannamədə dövlət və hökumət başçıları NATO-nun genişlənməsini bəyənir, onun qlobal təhlükəsizliyə və ümumbəşəri dəyərlərin qorunmasına daha artıq xidmət edəcəyinə inam ifadə edirdilər. İraq ilə bağlı bəyanat da qəbul olundu. Dövlət və hökumət başçıları İraqın könüllü şəkildə, yaxud məcburi qaydada tərksilah edilməsinin təmin olunmasının zərurliyini vurğuladdan Zirvə görüşündən bir neçə ay sonra, 2003-cü ilin mart ayında İraqa qarşı hərbi əməliyyata başlandı. Səddam Hüseyn rejimi devrildi. Regionda yeni şərait yarandı.

NATO/Avroatlantika Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Praqa zirvə görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 888-889.

' Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 889-890.

## Azərbaycan İraqda sülhməramlı əməliyyatlarda iştirak üçün dəvət edilir

NATO-nun başlıca məqsədlərindən biri Səddam Hüseyn rejimi devrildikdən sonra İraqda yenidənqurma prosesinə kömək etmək idi. Azərbaycan həmin prosesdə iştirak edə bilərdi. Ona görə də NATO baş katibi Con Robertson Cənubi Qafqaza səfər etdi. Səfəri çərçivəsində 2003-cü il mayın 15-də Bakıya gəldi'Keçirilən görüşlərdə o, Azərbaycanın Sülh naminə tərəfdaşlıq proqramında iştirakını yüksək qiymətləndirdi. Onun fikrincə, Azərbaycanın bu istiqamətdə daha artıq səylər göstərməsi NATO-ya üzv olmağa kömək edərdi. Baş Nazir Artur Rasizədə ilə görüşdə və Milli Məclisdə etdiyi çıxışında baş katib Qafqazda olan təhlükə və təhdidlərin başqa yerdəkilərlə eyni olduğunu vurğuladı: sabitsizlik, cinayətkarlıq, silahların və narkotik vasitələrin qeyri-leqal daşınması, terrorizmdən, bioloji-kimyəvi silahların yayılmasından doğan təhlükə.

Zəfər zamanı İraqda sülhüqoruma əməliyyatlarında Azərbaycanın iştirakının mümkünlüyü məsələləri müzakirə edildi. Azərbaycan tərəfi bu prosesə yardım etməyə hazır idi.

Beynəlxalq terrorçuluğa, sülh və sabitliyə qarşı yönəlmiş hədə və risklərə qarşı mübarizə məsələləri həmin ilin iyunun 3-5-də İspaniyanın paytaxtı Madriddə keçirilən NATO və AATŞ xarici işlər nazirlərinin görüşündə müzakirə edildi. Toplantıda xarici işlər naziri Vilayət Quliyev iştirak edirdi"^'. O, çıxışında bildirdi ki, Azərbaycan NATO ilə Fərdi tərəfdaşlıq fəaliyyəti planı əsasında əməkdaşlıq qurur, Əfqanıstanda sülhməramlı qüvvələrin tərkibində iştirak edir və İraqda dinc yenidənqurma prosesinə yardım etməyə hazırdır.

Həmin ilin dekabrın 5-də işinə başalayan NATO və AATŞ xarici işlər nazirlərinin illik toplantısında müasir dövrdə risklərə və hədələrə həsr olunmuş ikinci iclasda məruzəçi kimi çıxış edən Vilayət Quliyev regionda mövcud olan münaqişələrin həllinin vacibliyini bildirdi Regionda təhlükəsizlik məsələlərinə baxış böyük dövlətlərin və regional güclərin

NATO-nun baş katibi Corc Robertsonun Azərbaycana səfəri. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003.1 hissə, s. 208.

Xarici işlər naziri Madriddə səfərdə olmuşdur. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003.1 hissə, s. 240-243.

Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyevin NATO və Avroatlantik Tərəfdaşlıq Şurasının xarici işlər nazirlərinin illik toplantısında iştirakı. - “Diplomatiya aləmi” Jurnalı, Bakı, 2003, oktyabr-dekabr, NsS, s.85-86.

müdaxiləsi və maraqlarının reaksiyasından ibarət olurdu. Yeni yaranan müstəqil dövlətlərin təhlükəsizlik anlayışlanna xarici təsirlər daha güclü idi. Bununla bağlı olaraq Almaniya tədqiqatçısı Rayner Fraytaq-Virminq- hausun yazdığı kimi, Cənubi Qafqazda təhlükəsizlik sistemində iki müxtəlif düşərgə var idi: bir tərəfdən Rusiyadan dərin siyasi, iqtisadi və hərbi asılılığı və İran ilə yaxın münasibətləri olan Ermənistan, digər tərəfdən NATO proqramlarına qabaqcıl tərzdə inteqrasiya olunmuş və Türkiyə ilə yaxın münasibətləri olan Gürcüstan və Azərbaycan. Onun fikrincə, Avro- atlantik təhlükəsizlik variantı müasirləşmə və demokratikləşmə, Rusiya variantı isə münaqişələrin manipulyasiya edilməsi demək idi. Lakin fərqlənib seçilən istiqamətləri birmənalı şəkildə müəyyən etmək olmurdu. Çoxlu sayda üst-üstə düşmələr və ziddiyyətlər var idi“'^^

Ümumiyyətlə, Azərbaycan Respublikası NATO ilə bir neçə istiqamətdə əməkdaşlıq etmişdir. Azərbaycan tərəfi Sülh naminə tərəfdaşlıq proqramına qoşulmuş və toplantıların iştirakçısı olmuşdur. NATO-nun sülhməramlı fəaliyyətlərində və antiterror fəaliyyətində Azərbaycan müəyyən rol oynamışdır. Əlverişli coğrafi-siyasi və strateji mövqeyi ilə Azərbaycan NATO-nun maraq dairəsində olmuşdur. NATO Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ərazi bütövlüyünü müdafiə etmişdir. Sərhədlərinin daha etibarlı mühafizəsi üçün Azərbaycana yardımlar göstərmişdir. NATO ilə əməkdaşlıqda Azərbaycan ordusunun müasir tələblərə uyğun qurulması mühüm yerlərdən birini tutmuşdur.

Rayner Fraytaq-Virminqhaus. Azərbaycanın xarici və təhlükəsizlik siyasəti. • “Azerbaijan Focus”, Bakı, 2009, FTsRl), s. 101.

# KÜTLƏVI QIRĞIN SİLAHLARININ YAYILMAMASI İSTİQAMƏTİNDƏ AZƏRBAYCAN DİPLOMATİYASININ FƏALİYYƏTİ

Dövlət müstəqilliyi bərpa edildikdən sonra atom enerjisindən dinc məqsədlər üçün istifadə üzərində nəzarəti həyata keçirən, radiasiya və nüvə təhlükəsizliyi ilə bağlı məsələlərlə məşğul olan beynəlxalq təşkilatlarla əməkdaşlığın qurulması və inkişaf etdirilməsi Azərbaycan Respublikasının xarici siyasətinin istiqamətlərindən biri oldu. Azərbaycanda nüvə silahı və qurğularının, eləcə də materiallarının olmamasına baxmayaraq, radioaktiv mənbələr və tullantılarla bağlı məsələlər ölkə üçün daim aktuallıq kəsb edirdi. Azərbaycan Respublikası beynəlxalq sülhün və təhlükəsizliyin qorunması məqsədinin həyata keçirilməsinə səy göstərərək, nüvə və digər kütləvi qırğın silahlarının yayılmasının bütün bəşəriyyət üçün böyük təhlükə olduğunu nəzərə alaraq Nüvə silahının yayılmaması haqqında Moskva, Vaşinqton və Londonda imzalanmış 1968-ci il 1 iyul tarixli müqaviləyə 1992-ci il avqustun 4-də qatıldı"^". Bundan sonra Azərbaycan dövləti nüvə təhlükəsizliyi üzrə dünya miqyasında gedən proseslərdə iştirak etməyə və nüvə tərksilahı konsepsiyasını dəstəkləməyə başladı.

Əsası hələ 1945-ci ildə qoyulmuş və başlıca ideyası “Atom sülh üçündür” olan Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (AEBA)"^^ ilə Azərbaycan arasında əməkdaşlıq Agentliyin Texniki əməkdaşlıq proqramı (TƏP) və Nüvə terrorizminə qarşı tədbirlər planı çərçivəsində həyata keçirilirdi. AEBA rəhbərliyinin fikrincə, Azərbaycan qısa müddət ərzində bu təşkilatın bir çox fəaliyyət istiqamətləri üzrə aparılan işlərə yaxından cəlb olunmuş və artıq bəzi sahələrdə müəyyən nailiyyətlər əldə etmişdi. Əsas səylər aşağıdakı məsələlərin həllinə yönəlmişdi: agentliyin mövcud yardım imkanlarından istifadə edərək Azərbaycan üçün maraq kəsb edən milli layihələrin tərtib edilməsi, maliyyələşdirilməsi və həyata keçirilməsi, regional layihələrdə iştirakın genişləndirilməsi; Azərbaycanda radiasiya təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi, müvafiq sahələr üzrə ehtiyacların öyrənilməsi və mövcud problemlərin həllinə agentliyin cəlb edilməsi; Azərbaycanın əlaqədar təşkilatlarının texniki avadanlıqla təmin edilməsi; azərbaycanlı mütəxəssislərin ixtisasının artırılması.

ARXİNA. 1992.

Russell B. Olwell. The International Atomic Energy Agency. New York, Infobase Publishing, 2009, p.l4.

Azərbaycan Respublikası nüvə təhlükəsizliyi üzrə dünya miqyasında gedən proseslərdə iştirak edir və nüvə tərksilahı konsepsiyasını dəstəkləyirdi. Nüvə təhlükəsizliyi sahəsində Azərbaycan dövlətinin uzunmüddətli strategiyasının vacib istiqamətlərindən biri Cənubi Qafqazda nüvəsiz zonanın yaradılması idi. Cənubi Qafqaz regionu nüvə riskləri baxımından xüsusi həssas zonada yerləşirdi. Ona görə də 1997-ci ilin sentyabr ayında Daşkənddə "Mərkəzi Asiya - nüvə silahından azad zona" mövzusunda keçirilən beynəlxalq konfransda Azərbaycan tərəfi Cənubi Qafqazda nüvə silahlarından azad zonanın yaradılması təşəbbüsünü irəli sürdü. Bu təşəbbüsün həyata keçirilməsi nüvə silahı saxlanılmadan sülhə doğru əhəmiyyətli addım, beynəlxalq və regional səviyyədə təhlükəsizliyin təmin olunması üçün mühüm əsas ola bilərdi. Lakin təşəbbüsün həyata keçirilməsi Azərbaycan ərazilərinin 20%-ni işğal edən Ermənistanın təcavüzkar siyasəti nəticəsində mümkün olmurdu. Ermənistan tərəfindən Azərbaycanın cəlb olunduğu hərbi münaqişə və ərazisinin işğal altında olması regionda nüvə riskləri ilə bağlı və ümumi təhlükəsizlik şəraitini çətinləşdirirdi. Azərbaycanın Ermənistan və İran ilə sərhədi boyunca böyük bir ərazisi Ermənistanın işğal siyasəti nəticəsində nəzarətdən çıxmışdı. Bu isə Cənubi Qafqaz kimi qeyri-sabit bir bölgədə nüvə materialının daşınması təhlükəsinin artmasına səbəb olmuşdu. Bütün bu səbəblər Azərbaycan Respublikasını nüvə təhlükəsizliyi sahəsində hərtərəfli fəaliyyəti gerçəkləşdirmək imkanından məhrum edirdi. Cənubi Qafqazda həll olunmamış münaqişələrin və digər potensial gərginlik ocaqlarının mövcudluğu, regionun yüksək seysmikliyə malik olduğu halda Ermənistanda təhlükəsizliyi aşağı səviyyədə olan atom elektrik stansiyasının fəaliyyət göstərməsi, həmçinin etibarlı nəzarət sisteminin olmaması da Azərbaycanın və bütövlükdə regionun təhlükəsizliyini ciddi təhdidə məruz qoyurdu. Ermənistanda istifadə olunan atom elektrik stansiyasının radioaktiv tullantılarının Azərbaycan ərazisinə düşməsi ehtimalı böyük idi. Bununla bağlı olaraq Ermənistan ilə sərhəd zonalarında çay, torpaq və atmosferdə xüsusi monitorinq sisteminin yaradılması və həyata keçirilməsi zərurəti yaranmışdı. Ona görə də Azərbaycan dövləti nüvə təhlükəsizliyi sahəsində əməkdaşlığı əhəmiyyətli hesab edirdi.

Azərbaycan Nüvə silahlarının yayılmaması haqqında müqavilə üzrə keçirilmiş icmal konfranslarda fəal iştirak edirdi. Nüvə sınaqlarının hərtərəfli qadağan olunması haqqında müqavilə 1997-ci ildə, Azərbaycan ilə AEBA arasında Təminatların tətbiq edilməsi haqqında saziş və ona əlavə protokol isə 1998-ci ildə imzalandı. 1999-cu ildə həmin sənədlər ratifika-

siya edildi. Azərbaycanda nüvə təhlükəsizliyi ilə bağlı aktların hazırlanması və qəbul edilməsi istiqamətində də zəruri işlər həyata keçirildi. 1997- ci il iyulun 11-də Azərbaycan Respublikası ərazisində radiasiya təhlükəsizliyinə nəzarəti gücləndirmək tədbirləri haqqında Nazirlər Kabineti qərar verdi. 1997-ci il dekabrın 30-da Əhalinin radiasiya təhlükəsizliyi haqqında qanun qəbul edildi. 1998-ci il martın 10-da isə Sənayedə partlayıcı materialların və avadanlığın, radiasiya və ionizə edilmiş şüaları verən təhlükəli maddələrin, cihazların istifadəsinə, sınaqdan keçirilməsinə və saxlanılmasına xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin qərarı verildi. 1998-ci il iyunun 30-da İstehsalat və məişət tullantıları haqqında qanun qəbul edildi. 2000- ci il iyulun 5-də isə Azərbaycan bu sazişə olan ikinci əlavə protokolu imzaladı. Sənəd həmin ildə ratifikasiya edildi.

Agentliyin nüvə təhlükəsizliyinin təmin edilməsi və nüvə silahlarının yayılmaması sahəsindəki rolunun getdikcə artması, o cümlədən həyata keçirdiyi nüvə terrorizminə qarşı mübarizə sahəsində fəaliyyəti nüvə qurğuları və silahlanma nöqteyi-nəzərindən mürəkkəb bölgədə yerləşən Azərbaycan üçün əhəmiyyət kəsb edirdi. AEBA-nın nüvə texnologiyasının sülh məqsədləri üçün istifadəsi sahəsində beynəlxalq elmi-texniki əməkdaşlıq üzrə dünyanın aparıcı forumu olduğu, üzv ölkələrə ötürdüyü texnologiyaların bir çox sahələrdə, o cümlədən səhiyyə, kənd təsərrüfatı, sənaye və su ehtiyatlarının idarə edilməsində tətbiq olunması Azərbaycan üçün maraq kəsb edir və səmərəli əməkdaşlıq üçün möhkəm zəmin yaradırdı. Agentlik atom enerjisinin sülh məqsədləri üçün istifadəsi sahəsində Azərbaycanın konkret maraqları haqqında məlumatın verilməsini məqsədəuyğun hesab edirdi. AEBA-nın Azərbaycan Respublikası ilə hələ bu təşkilatın rəsmi üzvü olmadığı zamandan əməkdaşlıq etməsi, xüsusilə Azərbaycan mütəxəssislərinin AEBA xətti ilə çoxsaylı ixtisasartırma kurslarında və müxtəlif seminarlarda iştirak etməsi və Texniki əməkdaşlıq proqramı çərçivəsində radiasiya təhlükəsizliyi sahəsində milli layihənin həyata keçirilməsi yüksək qiymətləndirilirdi.

Bu məsələlər nüvə sınaqlarının hərtərəfli qadağan olunması haqqında müqavilə təşkilatının nümayəndə heyətinin 2001-ci il yanvarın 23- 24-də Azərbaycana səfəri zamanı müzakirə edildi. Agentliyin baş direktorunun tövsiyəsi ilə Azərbaycan atom enerjisi sahəsində beynəlxalq əməkdaşlığı əhatə edən və agentliyin bilavasitə iştirakı ilə işlənib hazırlanan bir sıra beynəlxalq saziş və konvensiyalara qoşulmaq məqsədilə adı çəkilən

sənədləri öyrəndi. Bundan sonra Azərbaycan Respublikası nüvə materiallarının fiziki mühafizəsinə dair beynəlxalq konvensiyaya qoşuldu.

2001- ci il yanvarın 26-da Azərbaycan Respublikasının Avstriyadakı səfiri Vaqif Sadıqov Nüvə sınaqlarının hərtərəfli qadağan olunması haqqında müqavilə təşkilatının hazırlıq komissiyasının icraçı katibi Volfanq Hoffman ilə keçirdiyi görüşdə qurumun əməkdaşlarının yanvarın 23-24- də Bakıya səfərinin ilkin nəticələrini, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dəvəti ilə onun 2001-ci il ərzində Azərbaycana səfəri, Azərbaycanda milli mərkəzin qurulması və bu qurumda Azərbaycan nümayəndələrinin təmsil olunması məsələlərini müzakirə etdi”^*". Azərbaycan müqavilənin tezliklə qüvvəyə minməsini dəstəkləyirdi. Volfanq Hoffman Azərbaycan ilə bu qurum arasında əməkdaşlığın yeni mərhələyə keçməsini, milli məlumat mərkəzinin qurulmasını əhəmiyyətli hesab edirdi. Onun fikrincə, ABŞ rəhbərliyində dəyişikliyin olması müqavilənin təsdiq edilməsi ümidlərini artırırdı. Hindistan, Çin və Pakistan isə bu məsələyə ABŞ-m münasibətini gözləyirdilər.

Əməkdaşlıq istiqamətində Azərbaycan bəzi tədbirləri gerçəkləşdirdi. Azərbaycan Prezidentinin 2001-ci il 13 fevral tarixli sərəncamı ilə Azərbaycan Respublikası 1956-cı il oktyabrın 23-də təsdiq olunmuş AEBA-nm nizamnaməsinə qatıldı"^’. Azərbaycan tərəfi bu barədə depo- zitar ölkə olan ABŞ hökumətinə rəsmi məlumat göndərdi"^*. Az sonra müvafiq sənədi təqdim etdi"^^. Həmçinin AEBA-nm katibliyinə bu barədə məlumat verildi"'*".

AEBA-nm fəaliyyəti ilə yaxından tanış olmaq məqsədi ilə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin nümayəndə heyəti 2001-ci il martın 26-30-da Vyanaya səfər etdi"'**. Nümayəndə heyəti təşkilatın Avropa, elmi tədqiqat, qiymətləndirmə, hüquq, şəxsi heyət, texniki təminat, izotop hidroloji, nüvə təbabəti, radiasiya təhlükəsizliyi bölmələrində, nüvə enerjisi idarəsinin planlaşdırılma və iqtisadi təlim şöbəsində, xarici siyasət və siyasətin əlaqələndirilməsi ofisində və təminatlar idarəsində oldu. Görüşlərdə Azərbaycanda radioaktiv maddələrin təhlükəsizliyinin təmin edil-

ARXINA. 08.01.2001-05.04.2001. Qovluq X211, v.79-81.

ARXİNA. 02.02.2002-20.02.2002. Qovluq X°ll, v.98; Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. II hissə, s. 60-61.

ARXİNA. 03.04.2001-08.05.2001. Qovluq X26, v.l78.

ARXİNA. 07.04.2001-22.06.2001. Qovluq X211, v. 204.

'ARXINA. 03.04.2001-08.05.2001. Qovluq X26, v.l77.

ARXİNA. 03.04.2001-08.05.2001. Qovluq X26, v.171-176.

məsi və onlar üzərində müntəzəm nəzarəti təmin edəcək qanunvericilik bazasının inkişaf etdirilməsinin əhəmiyyətli olacağı, Azərbaycanın müvafiq strukturları ilə birlikdə milli seminarların keçirilməsinin əhəmiyyəti və regional layihələrdə iştiraka cəlb edilməsinin vacibliyi vurğulandı.

2001-ci il mayın 30-da Azərbaycan Respublikası AEBA nizamnaməsinin 21-ci maddəsinə uyğun olaraq agentliyin tam hüquqlu üzvlüyünə qəbul edildi’Azərbaycan tərəfi təşkilatda əlaqələndiricisini təyin etdi. Əməkdaşlığı dərinləşdirmək üçün səylər göstərdi. 2001-ci il iyunun 24- 29-da AEBA-nın Əməkdaşlıq üzrə Texniki Departamentinin Avropa şöbəsinin əməkdaşı Andrey Çupov Azərbaycan Respublikasına səfər etdi”’^. O, Azərbaycan Respublikası Nazirlər Kabinetində, Xarici İşlər Nazirliyində, Milli Təhlükəsizlik Nazirliyində, Gömrük Komitəsində və digər qurumlarda görüşlər keçirdi. Görüşlərdə Ermənistandakı Metsamor atom elektrik stansiyasının mövcudluğunun region üçün təhlükə törətdiyi, onun avadanlıqlarının köhnəldiyi, Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərdə Metsamor stansiyasının tullantılarının basdırılmasının mümkünlüyü bildirildi. AEBA-nm maliyyə və təşkilati dəstəyi ilə azərbaycanlı mütəxəssislərin bu quruma səfərinin təşkili vacib hesab edildi. Keçirilən görüşlərdə Azərbaycan ərazisində və onun hüdudlarından kənarda radioaktiv materialların qaçaqmalçılığı problemi müzakirə edildi. Belə hadisələr erməni silahlı dəstələrinin Azərbaycanın işğal edilmiş ərazilərindəki və Azərbaycanın nəzarətində olmayan cənub-qərbdə İran ilə sərhəddə qeydə alınmışdı. Bu isə təkcə narkotiklər deyil, həmçinin digər radioaktiv maddələr və nüvə materialı daşınması mümkünlüyünü təsdiq edirdi. Müzakirələr zamanı Azərbaycanda milli qeydiyyatın təşkilinin zəruriliyi vurğulandı. Milli qeydiyyatda Xarici İşlər Nazirliyinin əlaqələndirici təyin edilməsi məqsədəuyğun hesab olundu.

Bu müzakirələrdən bir müddət sonra, 2001-ci ilin payızında BMT Baş Məclisinin 56-cı sessiyasında çıxış edən Azərbaycan nümayəndəsi ölkəsinin beynəlxalq öhdəliklər çərçivəsində hərtərəfli nüvə tərksilahı konsepsiyasını dəstəklədiyini, nüvə təhlükəsizliyi ilə bağlı beynəlxalq rejimə tam riayət edilməsinin təmin olunması üzrə dünya ictimaiyyətinin səylərində fəal iştirak etmək niyyətini bildirdi. Azərbaycan aşağıdakı məsələlər üzrə AEBA-nın yardımına ehtiyac duyurdu: radioaktiv və nüvə materiallarının işlənilməsi, basdırma üçün lazımi vəziyyətə salınması.

ARXİNA. 07.04.2001-22.06.2001. Qovluq RblRv. 182, 181.
ARXİNA. 03.09.2001-05.10.2001. Qovluq X26, v. 145-148.

basdırılması və bu proseslərə radiasiya təhlükəsizliyi baxımından nəzarət üçün müasir cihaz, avadanlıq, qurğu və digər sistemlərlə təchizat'

Mühüm vəzifələr cərgəsinə həmçinin nüvə komponentlərinin daşınması üzərində nəzarətin həyata keçirilməsi də daxil idi. Azərbaycanın nüvə potensialına malik dövlətlərin qonşuluğunda yerləşməsi və ərazisindən nüvə materiallarının qeyri-qanuni tranziti cəhdlərinin mümkünlüyü sərhəd xidmətinin gücləndirilməsini zəruri edirdi. Sərhəd keçid məntəqələrində radiasiya təhlükəsizliyi üzrə nəzarət sisteminin təmin edilməsi üçün texniki yardımın göstərilməsinə, neft, qaz istehsalı, kimya və neft kimyası, dağ-mədən işləri zamanı ətraf mühitin radiasiya təhlükəsizliyinə nəzarət üçün texniki vasitələrlə təchizata, ölkə ərazisində geniş kəşfiyyat və neft-qaz çıxarma işləri ilə əlaqədar olaraq radioaktiv radon qazının atmosferdə miqdarının tədqiqi üçün müasir qurğu və avadanlıqlarla təchizata, iqtisadiyyatın müxtəlif sahələrində, eləcə də elmi-texniki tətqiqat- larda nüvə texnologiyasında istifadə olunması, radioaktiv mənbələr və tullantıların tədqiq edilməsi, təcrid edilməsi və basdırılması üzrə layihələrin və proqramların təşkilat tərəfindən maliyyələşdirilməsinə ehtiyac duyulurdu.

BMT-nin I komitəsində də çıxış edən Azərbaycan nümayəndəsi məsələyə dair ölkəsinin mövqeyini bəyan etdi. Bu mövqeyə görə, kütləvi qırğın silahları tamamən və hərtərəfli qadağan olunmalı idi""^. Azərbaycan dövləti nüvə silahının tam ləğv edilməsini nüvə tərksilahının son məqsədi hesab edərək, nüvə cəbbəxanasının azaldılmasına, kütləvi qırğın silahlarının, onları daşıyan vasitələrin və müvafiq texnologiyaların yayılmasına yol verilməməsinə tərəfdar idi. Qeyri-sabit regionda yerləşən Azərbaycan Respublikası kütləvi qırğın silahları ilə bağlı komponentlərin, texnologiyaların, materialların, həmçinin onları daşıyan vasitələrin öz ərazisi vasitəsi ilə ötürülməsinin qarşısını almaq üçün müvafiq qanunvericilik bazasının hazırlanması da daxil olmaqla, zəruri olan bütün tədbirləri həyata keçirirdi. Hələ 1999-cu il sentyabrın 28-də Azərbaycan Respublikası hökuməti ilə ABŞ hökuməti arasında kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması və müdafiə sahəsində tədbirlər haqqında saziş imzalanmışdı. Azərbaycan Respublikası nüvə təhlükəsizliyi üzrə ümumi prosesdə iştirak edirdi. Müqavilənin dünya və regional təhlükəsizlik sistemində oynadığı mühüm rolu, həmçinin həssas regionda yerləşdiyini

ARXINA. 01.11.2001-29.11.2001. Qovluq JVb 6, v.46-49.

ARXİNA. 20.09.2001-02.11.2001. Qovluq Xa S, v. 12-16.

nəzərə alan Azərbaycan nüvə silahlarının bütün aspektlərdə yayılmasının qarşısının alınmasına, nüvə silahlarının bütünlüklə ləğv edilməsi yekun məqsədinə aparan nüvə tərksilahı prosesinə və bununla beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmlənməsinə fəal şəkildə yardım etmək niyyətlərini və maraqlarını nəzərə alaraq nüvə sınaqlarının hərtərəfli qadağan edilməsi haqqında müqaviləni imzalamış və ratifikasiya etmişdi, təşkilat çərçivəsində əməkdaşlığını davam etdirirdi. Azərbaycan tərəfi nüvə sınaqlarının universallığını təmin etmək üçün bütün dövlətləri lazımi səyləri göstərməyə çağırırdı.

Azərbaycandain yerləşdiyi həssas bölgədə nüvə silahları və texnologiyaları mövcud idi. Onların yayılması təhlükəsi baxımından inkişafda olan şəraitin daim nəzarətdə saxlanılması ehtiyacı Azərbaycan Respublikasının bu müqavilədə iştirakını şərtləndirən amillərdən idi. Azərbaycanın mövqeyinə görə, nüvə sınaqlarının hərtərəfli qadağan edilməsi müqaviləsinin tezliklə qüvvəyə minməsi bütövlükdə tərksilah prosesinə müsbət təsir etməli idi. Buna görə də AEBA baş konfransının 2001-ci il sentyabrın 17-də keçirilən 45-ci sessiyasında Azərbaycan tərəfi nüvə materiallarının və digər radiokativ mənbələrin qanunsuz dövriyyəsinə qarşı və qeyri-qanuni dövriyyə halları zamanı informasiyanın vaxtında yayılmasının təmin olunmasına yönəlmiş tədbirlər, nüvə qurğularının təhlükəsizliyi, auidit-inspektor nəzarətinin səmərəliliyi, yoxlamalar zamanı müəyyən edilmiş nöqsanların aradan qaldırılmasına nəzarət, radioaktiv mənbə və tullantıların emalı, onların təhlükəsiz basdırılması, müasir avadanlıqlarla təminat, mütəxəssislərin kurs, seminar və təlimlərdə iştirakı, monitorinq keçirilməsi, aşkar olunmuş radioaktiv çirklənmələrin təmizlənməsi, torpaqların dezaktivizasiya və bərpa olunması məsələlərini sessiyanın suallar siyahısına salınmasım təklif etdi""®.

Bundan sonra, noyabrın 26-30-da Azərbaycanda AEBA-nm iştirakı

və yardımı ilə ilk milli təlim kursu uğurla keçirildi . Milli, eləcə də beynəlxalq kurs və seminarların keçirilməsinə əhəmiyyət verən Azərbaycan tərəfi AEBA ilə əməkdaşlıq edirdi. Azərbaycan nüvə elmləri sahəsində müəyyən elmi-texniki potensialının olduğunu nəzərə alaraq mütəxəssislərinin AEBA katibliyində təmsil olunmasına çalışırdı.

Artıq qeyd edildiyi kimi, Ermənistanda istifadə olunan atom elektrik stansiyasının radioaktiv tullantılarının Azərbaycan ərazisinə düşməsi

' ARXİNA. 03.07.2001- 30.08.2001. Qovluq X26, v. 5.
ARXINA. 2001.

ehtimalı böyük idi. Bundan başqa, ölkə ərazisində digər nəzarətsiz radioaktiv materialların da mövcud olması istisna edilmirdi. Bununla bağlı olaraq Azərbaycan ərazisində çay, torpaq və atmosferdə xüsusi monitorinq sisteminin qurulması vacib idi. Ermənistanın işğal etdiyi ərazilərin azad edilməsindən sonra həmin ərazilərdə bərpa işlərinin aparılmasında AEBA- nm məqsədəuyğun bildiyi formada fəal iştirak etməsi istəyi Azərbaycan tərəfindən yüksək qiymətləndirilirdi.

Bu baxımdan AEBA-nm baş direktoru Məhəmməd Əl Baradeyin 2002- ci ilin may ayında Bakıya səfəri əməkdaşlıqda mühüm rol oynadı. Səfər zamanı o. Xarici İşlər Nazirliyində və Milli Elmlər Akademiyasında görüşlər keçirdi. Mayın 22-də onu Azərbaycan Prezidenti qəbul etdi""^. Görüşdə Azərbaycanın nüvə silahlarının yayılmaması məsələsinə sadiq qaldığı xüsusi qiymətləndirildi. Azərbaycan kütləvi qırğın silahlarının qadağan edilməsinin tərəfdarı idi. Azərbaycan Prezidenti Ermənistan atom elektrik stansiyasının tullantılarının haraya daşınmasının məlum olmadığı məsələsini qaldırdı. Məlumatlara görə, Ermənistan həmin tullantıları Azərbaycanın işğal edilmiş ərazilərində ya basdırır, ya da basdırmağa cəhd edirdi. Ermənistan tullantıları Araz çayı ilə Xəzər dənizinə axıdırdı. Ona görə də Azərbaycan tərəfi Xəzərin ekologiyası, onun çirklənməsinin qarşısımın alınması sahəsində tədbirlərin həyata keçirilməsi məsələsini qaldırdı. Azərbaycan dövləti Xəzərin ekologiyasını təkbaşına qoruya bilməzdi.

Məhəmməd Əl Baradey çirkab sularının Araz çayına axıdılmasını regionda narahatlıq doğuran məsələ kimi qiymətləndirdi. O, Xəzərin ekologiyası ilə məşğul olmaq üçün bir mərkəz qurulmasını təklif edirdi. Xəzər dənizi Araz və Kür çaylarının ekoloji vəziyyətinin tədqiq edilməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikası Prezidentinin müraciətinə AEBA müsbət cavab verdi. Agentliyin Monakoda yerləşən dəniz laboratoriyası ilə Azərbaycan mütəxəssislərinin bu istiqamətdə birgə fəaliyyəti təklif edildi. Daha sonra bu əməkdaşlığın başlanması üçün Azərbaycan tərəfindən müvafiq məlumatlar AEBA-ya təqdim olundu”'*^. Əməkdaşlığa başlandı.

Azərbaycan Prezidenti Heydər Əliyev Beynəlxalq Atom Enerjisi Agentliyinin rəhbərini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s.266-267.

[1149] ARXINA. 2002.

Azərbaycan diplomatiyası kütləvi qırğın silahlarından olan kimyəvi silahların qadağan edilməsi təşkilatında da fəaliyyət g ö s t ə r i r d i A z ə r baycan Respublikası təşkilat tərəfindən 1993-cü ildə Parisdə imzalanmaq üçün açıq elan edilmiş və 1997-ci ildə qüvvəyə minmiş Kimyəvi silahlar üzrə konvensiyaya 1993-cü ildə qoşuldu. Azərbaycan Respublikası Milli Məclisi 2000-ci il fevralın 29-da həmin konvensiyasını ratifikasiya etdi. Məlum olduğu kimi, kimyəvi silah istehsal etməyən və bu silah ehtiyatı olmayan Azərbaycan təşkilatın texniki katibliyi ilə əməkdaşlığın inkişaf etdirilməsi, təşkilat çərçivəsində mövcud olan proqramlardan istifadə, Azərbaycan Respublikasının da daxil olduğu Şərqi Avropa regional qrupunun fəaliyyətində iştirak. Kimyəvi silahlar üzrə konvensiyadan, xüsusi ilə konvensiyanın milli həyata keçirmə tədbirləri üzrə VII maddəsindən irəli gələn öhdəliklərin yerinə yetirilməsi istiqamətində müvafiq işlər aparırdı.

Ümumiyyətlə, 1991-2003-cü illərdə Azərbaycan dövlətinin xarici siyasətinin istiqamətlərindən biri kütləvi qırğın silahlarının yayılmaması sahəsində fəaliyyət olmuşdur. Həmin məqsədlə Azərbaycan Respublikası AEBA-nın sənədlərinə və beynəlxalq konvensiyalara qoşulmuş, bu quruma üzv olaraq səmərəli əməkdaşlıq etmişdir. Əməkdaşlıq həm Azərbaycan, həm də AEBA üçün faydalı olmuşdur.

## İSLAM KONFRANSI TƏŞKİLATI İLƏ ƏMƏKDAŞLIQ

### Əməkdaşlığı şərtləndirən amillər

Azərbaycan Respublikasının xarici siyasətində prioritet istiqamətlərdən biri üzv dövlətlər arasında islam həmrəyliyini möhkəmləndirmək, elmi, mədəni, sosial, iqtisadi və digər sahələrdə əməkdaşlığı müdafiə etmək, həmçinin beynəlxalq təşkilatlarda iştirak prosesində üzv ölkələrlə məsləhətləşmələr keçirmək, iqrçilik və millətçiliyin hər cür formalarının

Süleymanov N. Kimyəvi silahların qadağan olunması təşkilatı və Azərbaycan Respublikasının təşkilatla əməkdaşlığı. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2006, RO14, s. 96-98.

ləğvinə yardım etmək, beynəlxalq sülh və təhlükəsizliyin qorunması üçün ədalətlilik prinsiplərinə əsaslanan zəruri tədbirlərin həyata keçirilməsində iştirak etmək, müqəddəs yerlərin azad olunması və onların bütövlüyünün saxlanılması naminə fəaliyyəti əlaqələndirmək, Fələstin xalqının hüquqlarının bərpa olunmasına kömək göstərmək, onun haqq işi uğrunda apardığı mübarizəsini müdafiə etmək, bütün islam xalqlarının ləyaqətini, müstəqilliyini və milli hüquqlarını mühafizə uğrunda apardığı mübarizəni müdafiə etmək, üzv və digər dövlətlər arasında əməkdaşlığın və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi üçün şərait yaratmaq məqsədlərini güdən, 1969-cu ildə yaradılmış və 1970-ci ildə xarici işlər nazirlərinin Səudiyyə Ərəbistanının Ciddə şəhərində I konfransı keçirilmiş, ali orqanı dövlət və hökumət başçılarının zirvə görüşü, siyasi orqanı xarici işlər nazirlərinin konfransı, icraçı orqanı isə baş katiblik olan və iqamətgahı Ciddədə yerləşən İslam Konfransı Təşkilatı"^' ilə əməkdaşlıq olmuşdur"^^ Hökumət- lərarası təşkilat olan İKT-nin əsas xətti rəsmi yanaşma ilə ciddi şəkildə tənzimlənir və dövlət praqmatizmi dini mülahizələrdən üstün tutulur.

Azərbaycan - İKT əməkdaşlığını əsasən aşağıdakı amillər şərtləndirirdi: Azərbaycan Respublikası dünyəvi, demokratik dövlət olsa da, müsəlman ölkəsi olduğundan İKT ilə əlaqələr qurması tamamilə təbii idi; üzv ölkələri mülayim cinah, radikal qrup, ucqar ölkələr qrupu (əsasən Afrika ölkələri) və yeni müstəqil dövlətlərdən ibarət olan İKT dünya siyasətində nüfuzlu təşkilatlardan biri idi; Azərbaycanın xarici siyasətinin islam dünyası ilə çoxtərəfli əlaqələrini gücləndirmək zəruri idi; Ermənistanın Azərbaycana təcavüzünün davam etdiyi bir şəraitdə müsəlman ölkələrində ictimai rəyi formalaşdırmaq tələb olunurdu; Ermənistanın tarixi faktları saxtalaşdırmasmm və yalan məlumatlar yaymasının qarşısını almaq zəruri idi. İKT-yə üzv olmaq bu vəzifələrin yerinə yetirilməsinə kömək edərdi.

## Azərbaycanın İKT-yə üzv olması

Azərbaycan dövləti bu amillərə əsaslanaraq bəzi addımlar atdı. İlk əlaqələr quruldu. Hələ SSRİ mövcud olarkən, 1991-ci ilin may ayında

İslam Konfransı Təşkilatının nizamnaməsi.- Heydər Əliyev və Şərq. 6 cilddə. İKT dövlətləri. V kitab, s.321-326.

Mammadov N. Azerbaijani relations with the Islamic World and the countries of Asia. - Azerbaijan in Global Politics: Crafting Foreign Policy, p 149.

İKT və Ümumdünya İslam Konqresinin nümayəndələri Azərbaycana səfər etdilər. Həmin ilin avqust ayında isə İKT xarici işlər nazirlərinin konfransına Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə qonaq sifəti ilə dəvət olundu"^^. Konfransda etdiyi nitqində Hacı Allahşükür Paşazadə təşkilat üzvü olan ölkələrin diqqətini Ermənistanın Azərbaycana qarşı təcavüzünə yönəltdi. Bundan sonra Azərbaycan təşkilata üzv haqqında üçün müraciət etdi. 1991-ci il dekabr ayında Seneqalın paytaxtı Dakarda keçirilən İKT ölkələrinin 6-cı zirvə toplantısında üzv olmaq barədə Azərbaycanın müraciətinə baxıldı. Dekabrın 8-də Azərbaycan Respublikası İKT üzvlüyünə qəbul edildi”^'*.

Azərbaycan Respublikasının İKT üzvlüyünə qəbul edilməsi mənəvi-siyasi məna və tarixi əhəmiyyət daşıyırdı. Əslində bu, İKT dövlətləri tərəfindən Azərbaycanın müstəqilliyini de-fakto tanımaq demək idi.

## Əməkdaşlığın başlıca istiqamətləri

Azərbaycan Respublikası İKT ilə əməkdaşlığını bir neçə istiqamətdə qurmağa başladı. Bunlardan biri Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin İKT ölkələrinə çatdırılması idi. Azərbaycan təşkilata üzv olduqdan təqribən üç ay sonra Məhəmməd Möhsini başda olmaqla İKT nümayəndə heyəti şəraiti öyrənmək və münaqişəni sülh yolu ilə tənzimləmək imkanlarını araşdırmaq məqsədi ilə Azərbaycana səfər etdi. Nümayəndə heyəti bundan əvvəl Ermənistan, Türkiyə və Rusiya rəsmi şəxsləri, BMT-nin xüsusi nümayəndəsi Sayrus Venslə görüşərək münaqişəyə dair müzakirələr aparmışdı. Lakin rəsmi Yerevanın tutduğu qeyri-konstruktiv mövqe İKT-nin Ermənistan ilə bu məsələyə dair hər hansı məsləhətləşmələrinə son qoymuşdu. Nəticədə təşkilat çərçivəsində Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı İKT-nin yekdil və birmənalı mövqeyi formalaşmışdı. Nümayəndə heyəti geri döndükdən sonra 1992-ci il martın 31-də İKT baş katibi Həmid

Eyyubova S. İslam Konfransı Təşkilatı beynəlxalq münasibətlər sistemində, s.131.
ARXİNA. 1992.

Əl Qabid”^^ bəyanatla çıxış edərək. Dağlıq Qarabağ münaqişəsinin dinc siyasi vasitələrlə tənzimlənməsi zəruriliyini bəyan etdi"^^.

Ermənistanın təcavüzünə məruz qalmış, informasiya-təbliğat imkanları zəif və məhdud olan Azərbaycan üçün haqlı mövqeyinin islam ölkələri tərəfindən dəstəklənməsi və onun vasitəsi ilə təcavüzün ağır nəticələrinin dünya ictimaiyyətinə çatdırılması vacib məsələlərdən biri idi. Ona görə də Azərbaycan İKT-nin imkanlarından faydalanaraq əməkdaşlığı genişləndirmək istiqamətində bir neçə addım atdı.l992-ci il iyunun 3- də Azərbaycan Respublikası İslam İnkişaf Bankının təsis edilməsi haqqında sazişə qatıldı"”.

İKT xarici işlər nazirlərinin 1992-ci ilin iyun ayında İstanbulda keçirilən V fövqəladə konfransı Ermənistanın Azərbaycana qarşı hücumlarını və Azərbaycan ərazilərini işğal etməsini pisləyərək BMT baş katibindən və Təhlükəsizlik Şurasının sədrindən Azərbaycanın işğal edilmiş bütün ərazilərindən erməni qüvvələrinin çıxarılmasını tələb edən qətnamə qəbul olunmasını xahiş etdi"^*. Sentyabrın 23-də BMT Baş Məclisinin sessiyası zamanı İKT-yə üzv dövlətlərin xarici işlər nazirlərinin ənənəvi əlaqələndirmə görüşünün yekun sənədinə Ermənistan - Azərbaycan münaqişəsinə dair müvafiq maddə daxil edildi. Həmin maddədə Dağlıq Qarabağ məsələsi ilə bağlı Ermənistan - Azərbaycan münaqişəsindən dərin narahatlıq hissi qeyd edilmiş, beynəlxalq birlik tərəfindən qəbul edilmiş sərhədlərin toxunulmazlığı və dövlətlərin ərazi bütövlüyünə hörmət prinsipləri əksini tapmışdı.

Bundan sonra İKT Azərbaycana ilk yardımlarını etməyə başladı. 1992-ci ildə İslam İnkişaf Bankının Direktorlar Şurası Azərbaycana 1,96 milyon ABŞ dolları məbləğində yardım ayırdı.

Ermənistan silahlı qüvvələri Kəlbəcər rayonunu işğal etdikdə İKT- nin BMT nəzdindəki qrupu fəallıq göstərərək Azərbaycanın ədalətli mövqeyini müdafiə etdi. Bu qrup BMT Təhlükəsilik Şurası sədrinin 1993-cü il

Həmid Əl Qab id — Nigeriya nümayəndəsi. İKT-nin baş katibi (1990-1995). Azərbaycan - İslam Konfransı Təşkilatı əlaqələri.- Heydər Əliyev və Şərq. 6 cilddə. İKT dövlətləri. V kitab, s.327.

İslam İnkişaf Bankının təsis edilməsinə dair sazişə Azərbaycan Respublikasının qoşulması haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. 3 iyun 1992-ci il. — Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 15 iyun 1992-ci il. Ksl 1 (864). Bakı, 1992, s.l5.

Əhmədov E. Ermənistanın Azərbaycan təcavüzü və beynəlxalq təşkilatlar, s. 92.

6 aprel tarixli bəyanatından sonra xüsusi bəyanatla çıxış etdi. Bəyanatda İKT üzvləri Ermənistanın Azərbaycana hücumunu pisləyir, BMT baş katibini təcavüzkarın cilovlanması üçün tədbirlər görməyə çağırırdılar.

Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair məsələ Pakistan İslam Respublikasının Kəraçi şəhərində həmin ilin aprelin 25-29-da keçirilən İKT xarici işlər nazirlərinin 11-ci konfransında müzakirə olundu. Yekunda Ermənistan - Azərbaycan münaqişəsi üzrə qətnamə qəbul edildi"^’. Qətnamədə Ermənistanın Azərbaycana qarşı son hücumu və Azərbaycan ərazilərinin işğalı pislənilir; son təcavüzün sülh və təhlükəsizlik üçün təhlükə yaratdığı və bu hücumun ATƏM çərçivəsində aparılan sülh prosesinə dağıdıcı təsir göstərə biləcəyi qeyd edilir; işğal edilmiş ərazilərdən Ermənistan silahlı qüvvələrinin təcili çıxarılması, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bötüvlüyünə hörmət bəsləmək Ermənistandan ciddi surətdə tələb edilir; Dağlıq Qarabağ münaqişəsinin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərinin dəyişməzliyi prinsiplərinə hörmət əsasında ədalət və sülh yolu ilə həll olunmasının vacibliyi göstərilir; Azərbaycan hökumətinin və xalqının öz ölkəsinin müdafiəsi üçün etdiyi cəhdlərlə tam həmrəy olduğu bir daha təsdiq edilir; yaşayış yerlərini tərk edənlərin evlərinə təhlükəsiz, hörmət və qayğı ilə qayıtmalarını asanlaşdırmağa çağırılır; İslam İnkişaf Bankından və digər islam təsisatlarından Azərbaycan Respublikasına təcili maliyyə və humanitar yardım göstərilməsi xahiş edilir; BMT baş katibindən və Təhlükəsizlik Şurasının sədrindən Ermənistanın təcavüzünü pisləyən və Azərbaycanın işğal edilmiş ərazilərindən erməni qüvvələrinin çıxarılmasını tələb edən qətnamə qəbul edilməsi üçün bütün səlahiyyətlərindən istifadə etmək xahiş olunurdu.

Azərbaycana qarşı təcavüzə İKT-nin münasibəti özünü Ağdamın işğalı zamanı da göstərdi. Ermənistan silahlı qüvvələrinin hücumlarına etiraz olaraq 1993-cü ilin sentyabr ayında İKT baş katibi Həmid Əl Qabid bəyanat verdi. Bəyanatda Ermənistanın Azərbaycana qarşı təcavüzü pislənilir, qəsbkarların işğal edilmiş Azərbaycan torpaqlarından geri çəkilməsi tələb edilirdi”^®. Bu zaman İKT azərbaycanlı qaçqın və məcburi köçkünlərə 5 milyon dollar yardım etdi.

^ ARXİNA. 1993. Qovluq 22, v. 131-135; Ermənistan və Azərbaycan arasında münaqişə üzrə qətnamə. Kəraçi, 25-29 aprel 1993-cü il. - “Xalq qəzeti”, Bakı, 1993, 7 may.

İbayev V. İslam Konfransı Təşkilatı, s. 32.

Həmin ilin noyabrın 23-də BMT iqamətgahında keçirilmiş İKT xarici işlər nazirlərinin əlaqələndirmə toplantısında Ermənistanın təcavüzü ilə bağlı yaranmış son vəziyyət müzakirə olundu. Toplantı iştirakçılarına Azərbaycan Respublikası Prezidentinin işğal nəticəsində ölkədə yaranmış şəraiti, qaçqın və məcburi köçkünlərin vəziyyətini əks etdirən müraciəti təqdim edildi"®'. Toplantı iştirakçıları qaçqın və məcburi köçkünlərə təcili humanitar yardım göstərəcəklərini bəyan etdilər.

Azərbaycan tərəfi İKT ilə münasibətlərini daha da genişləndirmək üçün bəzi tədbirləri həyata keçirdi. 1994-cü ilin may ayından etibarən Azərbaycan Prezidentinin müvafiq sərəncamına əsasən Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığındakı səfirinə İKT baş katibliyi yanında daimi nümayəndə səlahiyyətləri verildi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü ilin iyul ayında Səudiyyə Ərəbistanına səfəri İKT ilə əməkdaşlığın gələcək inkişafı üçün zəmin yaratdı. Səfər zamanı onun müqəddəs Kəbədə Ümrə ziyarəti, keçirdiyi məhsuldar görüşlər bütün islam dövlətlərinin Azərbaycana maraq və diqqətini artırdı.

Bu maraq sentyabrın 7-9-da Pakistan İslam Respublikasının İslamabad şəhərində keçirilən İKT ölkələri xarici işlər nazirlərinin fövqəladə 7-ci sessiyasında da özünü göstərdi. Sessiya ərəfəsində xarici işlər naziri Həsən Həsənov Azərbaycanın Ankaradakı səfirinə məktub göndərərək xarici işlər nazirlərinin növbədənkənar iclasının və Mərakeşdə keçiriləcək dövlət başçılarının görüşündə Dağlıq Qarabağ məsələsinin rəsmən gündəliyə salınması və müzakirəsi üçün Türkiyə rəhbərliyi ilə təcili əlaqə saxlamağı və bu məsələlərin dəstəklənməsi üçün lazımi tədbirlər görməyi tapşırdı . Aparılan iş nəticəsini verdi. Sessiyada Azərbaycan tərəfinin təklifi ilə Ermənistan - Azərbaycan münaqişəsinə dair qətnamə qəbul edildi. Qətnamədə Ermənistanın Azərbaycana qarşı təcavüzü, Azərbaycan ərazilərinin işğalı pislənilir, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin sözsüz yerinə yetirilməsi, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunur- **du**"®^

Bundan sonra İKT rəhbərlərinin Azərbaycana səfərləri artdı. Baş katib Hamid Əl Qabidin 1994-cü ilin noyabr ayında Azərbaycana səfərin-

' Azərbaycan — İslam Konfransı Təşkilatı əlaqələri. Heydər Əliyev və Şərq. 6 cilddə. İKT dövlətləri. V kitab, s. 44.

■ ARXINA. 28.05.1994 - 19.09. 1994. Qovluq Rç 7, v. 79.

‘ ARXİNA. 06.09.1994-09.09.1994. Qovluq Jfo21, v. 111-117.

də məqsəd geniş əlaqələr qurmaq idi. Azərbaycan Respublikasının Prezidenti ilə görüşdə o, Ermənistanın təcavüzünü pislədi. Baş katib səfərdən sonra Azərbaycan ilə o vaxtadək diplomatik münasibətləri olmayan ölkələrə müraciət edərək məsələni onların da diqqətinə çatdırdı. Azərbaycan bu barədə hələ avqustun 25 və 26-də həmin ölkələrə diplomatik əlaqələr qurulması barədə nota göndərmiş, lakin onların bir çoxundan cavab almamışdı. Buna görə də xarici işlər naziri Həsən Həsənov Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanmdakı səfirinə 1994-cü il dekabrın 2-də məktub göndərərək Azərbaycan ilə diplomatik əlaqələri olmayan Benin, Bəhreyn, Bruney, Burkino Paso, Qabon, Kamerun, Maldiv Respublikası, Mali, Nigeriya, Seneqal, Siero Leone, Somali, Tanzaniya, Tunis, Uqanda və Cibutinin səfirləri ilə görüşüb məsələni müzakirə etməyi tapşırdı. Eyni zamanda Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Bəhreyn, Malayziya, Nigeriya, Oman, Tunis, Qətər, Suriya, Küveyt və Mərakeşin Bakıda səfirliklərinin açılmasını vacib hesab etdi"^'*.

Artıq qeyd edildiyi kimi, 1994-cü ilin sonlarında Rusiyanın Çeçenistana qarşı hərbi əməliyyatlara başlaması nəticəsində Azərbaycan Respublikası ilə dəmiryolu əlaqəsi kəsilmişdi. Azərbaycan tərəfi etirazlarını bütün dünya ölkələrinə göndərərək yaranmış vəziyyətə diqqəti cəlb etdi. Azərbaycanın blokadaya alınması İKT-də də kəskin etiraz yaratdı. İKT baş katibliyi Rusiya Federasiyasının Ciddədəki baş konsulu M.M. Şirin- skini baş katibliyə dəvət etdi"^^. Ona bildirildi ki, Rusiyanın Azərbaycan ilə kommunikasiyaları bağlaması İKT baş katibliyində ciddi həyəcan yaratmışdır, çünki bu addım əslində Azərbaycan Respublikasının blokadaya alınmasıdır və onun iqtisadi problemlərinin dərinləşməsinə gətirə bilər. Ona görə İKT baş katibliyi Rusiya Federasiyası hökumətinə müraciət edərək blokadanı təcili aradan qaldırmağı xahiş etdi. M.M.Şirinski sərhədlərin bağlanmasını Çeçenistanda yaranmış şəraitlə əlaqələndirdi və xahişi öz hökumətinin diqqətinə çatdıracağını bildirdi. Bir müddət sonra Azərbaycanın blokadada saxlanılmasına son qoyuldu.

## Əməkdaşlığın yeni mərhələsi

Azərbaycan - İKT əməkdaşlığında yeni mərhələnin başlanğıcını İKT dövlət və hökumət başçılarının Mərakeşin paytaxtı Kasablankada

' ARXİNA. 06.09.1994-18.04.1995. Qovluq XçS, v.68.
' ARXİNA. 06.09.1994-18.04.1995. Qovluq X2S, v.64.

keçirilən 7-ci zirvə görüşü qoydu. Zirvə görüşü ərəfəsində Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi xarici ölkələrdəki səfirliklərə müvafiq ölkələrdə akkreditə olunmuş bu təşkilata üzv olan ölkələrin səfirlikləri ilə Ermənistanın təcavüzünə dair məsələnin İKT ölkələrinin xarici işlər nazirləri şurasının və dövlət başçılarının konfransının gündəliyinə daxil edilməsi üçün iş aparmağı tapşırmışdı. Üzv ölkələrin səfirləri münaqişəyə dair məsələnin gündəliyə salınmasına etiraz etməmişdilər.

İKT-nin Kasablankada keçirilən toplantısında Azərbaycan Respublikasının Prezidenti ilk dəfə iştirak etdi. Kasablankaya səfər zamanı, 1994- cü il dekabrın 13-də yolüstü İstanbulda mətbuat nümayəndələrinə müsahibə verən Heydər Əliyev regionda baş verən son hadisələrə münasibətini açıqladı*'®^.

Azərbaycan tərəfi zirvə görüşündə iştirak etməklə əsasən aşağıdakı məqsədləri güdürdü: İKT potensialından istifadə edərək Azərbaycanın problemlərini dünya ictimaiyyətinin nəzərinə çatdırmaq; Ermənistanın Azərbaycana qarşı təcavüzünün mahiyyətini açıqlamaq, dünyanı bu barədə dəqiq informasiya ilə məlumatlandırmaq, Azərbaycan ətrafında mövcud olan informasiya blokadasını yarmaq və həqiqətləri dünyaya çatdırmaq; Ermənistanın təcavüzünün pislənməsində islam ölkələrinin tam dəstəyini qazanmaq; İKT üzvü olan ölkələr ilə əlaqələr qurmaq; siyasi və maliyyə dəstəyinə nail olmaq; ikitərəfli əlaqələr qurmaq üçün imkanlar yarat- **maq"^l**

Zirvə görüşündə nitq söyləyən Azərbaycan Prezidenti Ermənistanın təcavüzünü iştirakçıların diqqətinə çatdırdı"®*. İslam ölkələrinin dünya mədəniyyətində oynadığı roldan bəhs etdi. Azərbaycan tərəfi Fələstin, Bosniya və Hersoqovina və Kəşmirdə milliyyəti və dinindən asılı olmayaraq insanların dərd və əzablarından narahat olduğunu bildirdi, qanlı münaqişələrin dayandırılmasına çağırdı, eyni zamanda Asiya ölkələri adından

ARXİNA. 14.10.1994 -31.12.1994. Qovluq X221, v. 48; Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. II kitab, s. 168-170.

Azərbaycan - İslam Konfransı Təşkilatı əlaqələri. - Heydər Əliyev və Şərq. 6 cilddə. İKT dövlətləri. V kitab, s.46.

Əliyev H. İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Kasablanka zirvə toplantısında çıxışı. 13 dekabr 1994-cü il. — Müstəqilliyimiz əbədidir. III kitab, s. 19-23.

da nitq söyləyərək qəbul edilən qərarların iqtisadi və sosial inkişafa təsir edəcəyini vurğuladı"®^.

Azərbaycan Prezidenti İKT-yə üzv olan ölkələrin dövlət və hökumət başçıları ilə bir sıra ikitərəfli görüşlər keçirərək Ermənistanın təcavüzünün ağır nəticələrindən danışdı"'°. Məhz həmin ildən etibarən İKT-nin BMT ilə əməkdaşlığı çərçivəsində müzakirə edilən problemlər siyahısına Ermənistan - Azərbaycan münaqişəsi mövzusunun daxil edilməsinə nail olundu"''.

Zirvə görüşündə Azərbaycan ilə bağlı iki qətnamə qəbul edildi. Bunlardan birincisi, İKT-nin zirvə görüşləri tarixində ilk dəfə olaraq qəbul edilən Ermənistan - Azərbaycan münaqişəsi haqqında siyasi qətnamə idi. Münaqişənin aradan qaldırılmasına dair qətnamədə Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində hərbi münaqişənin kəskinləşməsi və Azərbaycan ərazilərinin işğalından narahatlıq ifadə edilir, 1 milyon nəfərdən artıq azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətə düşməsi və humanitar problemlərin dözülməzliyi göstərilir; təcavüz pislənilir; Azərbaycan ərazisində mülki vətəndaşlara qarşı edilən hərəkətlər bəşəriyyətə qarşı törədilən cinayət kimi qiymətləndirilir; Ermənistandan Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə hörmət bəslənilməsi tələb olunur; BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin dönmədən yerinə yetirilməsi; Ermənistan Respublikası silahlı qüvvələrinin işğal edilmiş bütün Azərbaycan ərazilərindən, o cümlədən Şuşa və Laçın rayonlarından dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb edilir; qaçqın və məcburi köçkünlərə maliyyə və humanitar yardım göstərilməsi xahiş edilirdi. Qətnamədə Ermənistan beynəlxalq səviyyədə təcavüzkar ölkə kimi qiymətləndirilirdi.

İkinci qətnamə isə Azərbaycana iqtisadi yardım haqqında idi'•[1172]

Qətnamələrdən əlavə qəbul olunan yekun bəyannaməsində Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında geniş bir bölmə var idi. Bu sənəddə təcavüzün Azərbaycana vurduğu ziyanlar göstərilir və işğal edilmiş ərazilərdən qeyd-şərtsiz geri çəkilmək tələb olunurdu.

Əliyev H.Ə. İslam Konfransı Təşkilatının Kasablanka zirvə toplantısının yekun iclasında Asiya dövlətləri adından təbrik nitqi. 15 dekabr 1994-cü il. - Müstəqilliyimiz əbədidir. III kitab, s.27-28.

Əliyev H.Ə. Kasablanka zirvə toplantısında görüşlər. 13 dekabr 1994-cü il. - Müstəqilliyimiz əbədidir. III kitab, s. 13-18, 24-26.

ARXİNA. 2008.

ARXİNA. 06.06.1994-26.11.1996. Qovluq Xo21. v. 17-18.

Zirvə görüşündə Azərbaycanın iştirakının əhəmiyyəti var idi. Səfər ərəfəsində qarşıya qoyulan məqsədlərə nail olunmuşdu. Azərbaycana qarşı Ermənistanın təcavüzü haqqında geniş məlumat verilmişdi. Ermənistanın təcavüzkar kimi tanınması üçün mühüm addımlar atılmışdı. Keçirilən ikitərəfli görüşlər iqtisadi əlaqələrin qurulması və inkişafı baxımından faydalı olmuşdu"'^.

Səfər müsbət nəticələrini verməyə başladı. İKT ilə əlaqələrdə uğurlar dövrü başlandı. 1995-ci il iyunun 24-29-da Ciddədə keçirilən İKT-nin iqtisadiyyat, mədəniyyət və sosial məsələlər üzrə 19-cu sessiyasının işinə bütün üzv ölkələr və ixtisaslaşdırılmış qurumlar dəvət edilmişdilər. Gündəlikdə Azərbaycan, Bosniya və Hersoqovina, Albaniya, Livan və digər ölkələrə iqtisadi yardım; islam ölkələrinin iqtisadi problemləri; İKT ölkələrinin xarici borcu və s. məsələlər müzakirə edildi'

İKT Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair qətnamələrin qəbulu ilə kifayətlənməyərək işğal edilmiş Dağlıq Qarabağ regionunda və digər ərazilərdə qanunsuz hərəkətlərə də mənfi münasibətini bildirdi. Dağlıq Qarabağ regionunda qondarma prezident seçkilərinə etiraz olaraq,

1995- ci il noyabrın 27-də İKT baş katibi Hamid Əl Qabid bəyanat verərək regionda sabitliyin pozulmasına xidmət edən bu qeyri-qanuni seçkiləri pislədi və onun heç bir hüquqi əsası olmadığını bildirdi.

Əməkdaşlıqda atılan addımlardan biri Qvineya Respublikasının paytaxtı Konakridə 1995-ci il dekabrın 9-13-də keçirilən xarici işlər nazirlərinin 23-cü konfransı oldu. Konfransın işində 45 dövlətdən nümayəndə heyəti iştirak edirdi. Onların çoxuna xarici işlər nazirləri rəhbərlik edirdi"^^. Bundan başqa, konfransın müşahidəçi statusu olan Bosniya və Hersoqovina, Özbəkistan və Qazaxıstan, həmçinin BMT, digər beynəlxalq və regional təşkilatların nümayəndələri iştirak edirdilər. Konfransın sədri Qvineya, onun müavinləri isə Azərbaycan və Səudiyyə Ərəbistanı nümayəndələri seçildilər.

Konfransın işi plenar iclasda və dörd komitədə - siyasət və informasiya məsələləri, sosial-iqtisadi məsələlər, islam və mədəniyyət məsələləri, inzibati və maliyyə məsələləri komitələrində oldu. Müzakirə edilən məsələlər Fələstin, Ərəb - İsrail münaqişəsi, Beytil-müqəddəsin (Yerusə-

Kasablankadan vətənə qayıdarkən İstanbulun Atatürk hava limanında Prezident Heydər Əliyevin mətbuat üçün bəyanatı. 16 dekabr 1994-cü il. - Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. 11 kitab, s. 169-170.

ARXİNA. 06.06.1994-26.11.1996. Qovluq MZl, v. 48.

ARXİNA. 06.09.1994-07.11.1996. Qovluq Xs21, v. 38-41.

limin) statusu, Bosniya və Herseqovina, Cammu və Kəşmir, Əfqanıstan, Somali və Kiprdə vəziyyət, islam ölkələri arasında əməkdaşlıq idi. Ermənistan ilə Azərbaycan arasında münaqişə konfransın siyasi və informasiya məsələləri komitəsində müzakirə edildi.

Hamid Əl Qabid konfransın açılışında etdiyi nitqində Ermənistan - Azərbaycan münaqişəsinin həll edilməsində irəliləyişin olmamasının həyəcan yaratdığını dedi. Baş katibin hesabatında İKT-nin münaqişəni nizama salmaq istiqamətində fəaliyyətini əks etdirən xüsusi bir bölmə var idi.

Azərbaycan nümayəndə heyəti əsas diqqətini münaqişə üzrə qətnamənin qəbul edilməsinə, təcavüz nəticəsində ölkədə yaranmış maddi və maliyyə çətinliklərini aradan qaldırmaq üçün yardım göstərilməsinə yönəltdi. Komitədə müzakirə zamanı Əlcəzair nümayəndəsi layihənin 2-ci maddəsinin kəskin üslubda yazıldığını əsas gətirərək gündəlikdən çıxarılmasını tələb etdi. Onu Suriya nümayəndəsi də müdafiə etdi. Lakin Türkiyə nümayəndə heyətinin fəal köməyi sayəsində qətnamənin 2-ci maddəsini saxlamaq mümkün oldu. Bu maddədə işğal edilmiş ərazilərdə mülki şəxslərə qarşı törədilən hərəkətlər pislənilir və insan hüquqlarının kobud surətdə pozulması kimi qiymətləndirilirdi. Azərbaycana iqtisadi yardımı nəzərdə tutan layihə isə sosial-iqtisadi komitənin iclasında qəbul edildi.

Azərbaycanın təqdim etdiyi məruzədə İKT-yə verilən əhəmiyyət, ölkədə həyata keçirilən islahatlar, Ennənistanm hərbi təcavüzü və nəticələri, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr, ATƏT-in səyləri əks olunmuşdu Konfrans çərçivəsində üzv ölkələrin nümayəndə heyətləri ilə görüşlər keçirildi. Növbəti konfransın 1996-cı ilin sonlarında İndoneziyada keçiriləcəyinə dair qərar qəbul olundu.

Azərbaycan tərəfi İKT-nin qurumları ilə əlaqələrini genişləndirdi. Artıq qeyd edildiyi kimi, Azərbaycan Respublikası hələ 1975-ci ildə təsis edilmiş İslam İnkişaf Bankı ilə sıx əməkdaşlıq edirdi”’^. İslam İnkişaf Bankı 1996-cı il sentyabrın 21-də Bakıda beynəlxalq sərmayə konfransı keçirdi. Konfransda Azərbaycan Respublikasının Prezidenti nitq söylədi"’^. O, Azərbaycanın digər beynəlxalq və regional iqtisadi və maliyyə qurumları ilə imzaladğı sazişlər haqqında danışaraq ölkədə yaradılmış

""" ARXINA. 06.06.1994-26.11.1996. Qovluq Xo21, v. 131-132.

İslam İnkişaf Bankının fəaliyyət prinsipləri haqqında bax: JIioTbiH H.A., KyjiHes P.A. HHBecTHUHOHHan nenTejibHOCTb. Baxy, 2009, c.337-340.

Əliyev H.Ə. İslam İnkişaf Bankının beynəlxalq investisiya konfransında nitq. 21 sentyabr 1996-cı il. - Müstəqilliyimiz əbədidir. Vll kitab, s.357-366.

əlverişli xarici sərmayə mühitinin olduğunu qeyd etdi, İslam İnkişaf Bankı ilə əlaqələrin əhəmiyyətini və artıq görülmüş işləri müsbət qiymətləndirdi, bankı Azərbaycanda fəal işləməyə dəvət etdi”'^. Bundan sonra Azərbaycan ilə bank arasında əməkdaşlıq daha da genişləndirildi. Bu qurum müxtəlif layihələrin həyata keçirilməsi üçün kreditlər ayırmaq imkanlarını öyrənməyə başladı.

Bakıda keçirilmiş investisiya konfransı konkret nəticəsini verdi. İslam İnkişaf Bankı bir müddət sonra, 1997-ci ilin yanvar ayında Ələt - Hacıqabul avtomobil yolunun tikintisi layihəsinin həyata keçirilməsi üçün 13,144 milyon ABŞ dolları ayırdı“^°. Ümumiyyətlə, bank müxtəlif illərdə Azərbaycana ümumi məbləği 74 mln. dollardan artıq olan güzəştli kreditlər verdi, qaçqın və məcburi köçkünlərə humanitar yardım göstərilməsi, məktəblərin, istehsal müəssisələrinin, su kanallarının və yolların tikintisinə, sosial-iqtisadi layihələrin texniki-iqtisadi əsaslandırılmasının hazırlanması üçün ümumi məbləği 5 mln. dolladək təmənnasız maliyyə vəsaiti ayırdı.

Azərbaycanın səyləri nəticəsində növbəti toplantılar üçün siyasi qətnamənin adı dəyişdirilərək daha da gücləndirildi. İlk dəfə olaraq 1996- cı il dekabrın 9-dan 13-dək İndoneziyanın paytaxtı Cakarta şəhərində keçirilmiş İKT xarici işlər nazirlərinin 24-cü konfransında “Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında” başlığı ilə müzakirə edildi. Konfransın yekununda Ermənistanın Azərbaycana təcavüzünü pisləyən, işğal edilmiş ərazilərdən erməni silahlı qüvvələrinin dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb edən qətnamə qəbul olundu. İKT bütün dövlətləri Ermənistana silah, hərbi texnika və sursat göndərməkdən çəkinməyə çağırdı. Qətnamədə üzv dövlətlərin və İslam İnkişaf Bankının Azərbaycana humanitar yardım göstərməsi zəruruliyi qeyd edilirdi.

Cakarta konfransının yekun sənədində - ümumi rəsmi məlumatda Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli prinsipləri - Azərbaycanın ərazi bütövlüyü, Azərbaycan Respublikası tərkibində Dağlıq Qarabağ regionu əhalisinin təhlükəsizliyinin təmin olunması məsələləri əksini tapmışdı.

Kofransda təşkilatın yeni baş katibi vəzifəsinə Azərbaycan tərəfinin də dəstəyi ilə"*' Mərakeşin keçmiş Baş Naziri İzəddin Laraki"*^ seçildi.

® Azərbaycan - İslam Konfransı Təşkilatı əlaqələri. - Heydər Əliyev və Şərq. 6 cilddə. İKT dövlətləri. V kitab, s.60.

İbayev V. İslam Konfransı Təşkilatı, s.39.

ARXINA. 06.06.1994-26.11.1996. Qovluq Ro21, v. 157.

Konfransın qərarına əsasən İzəddin Laraki ATƏT sədrinə və Ermənistan Prezidentinə münaqişə haqqında təşkilatın məlum mövqeyini əks etdirən məktub göndərdi.

Azərbaycanın İKT ilə əlaqələrinin səmərəliliyinin daha bir konkret nümunəsi 1997-ci il oktyabrın 4-də BMT Baş Məclisinin 52-ci sessiyası çərçivəsində keçirilmiş xarici işlər nazirlərinin əlaqələndirmə toplantısının yekun bəyanatında Ermənistanın Azərbaycana təcavüzünü pisləyən mövqenin əks etdirilməsi oldu. Məsələnin müzakirəsində islam ölkələri vahid mövqedən çıxış etdilər.

Əməkdaşlıqda mühüm yeri İKT dövlət və hökumət başçılarının dekabrın 9-11-də Tehrandakı keçirilən 8-ci zirvə görüşü tutdu. Toplantıda 55 ölkənin dövlət və hökumət başçıları iştirak edirdi. Azərbaycan Prezidenti başda olmaqla nümayəndə heyəti zirvə görüşündə təkliflərini bildirməli və islam ölkələrinin həmrəyliyi üçün səy etməli idi"*^. Səfər çərçivəsində Heydər Əliyev Türkiyə, Türkmənistan, İran İslam Respublikası, Suriya, Livan, Tacikistan və b. ölkələrin prezidentləri. Ərəb Dövlətləri Liqasının baş katibi İsmət Əbdül Məcid, BMT-nin baş katibi Kofı Annan və b. ilə görüşərək ikitərəfli münasibətlərin ən vacib məsələlərini və regional problemləri müzakirə etdi, Ermənistanın Azərbaycana təcavüzünün ağır nəticələrindən söhbət açdı, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin Ermənistan tərəfindən yerinə yetirilmədiyini vurğuladı"^.

Azərbaycan Prezidenti dekabrın 10-da zirvə görüşündə nitq söylədi”*^ O, İKT ölkələri arasında əməkdaşlıqdan, Azərbaycanın bu təşkilata ciddi əhəmiyyət verdiyindən, Ermənistanın Azərbaycana qarşı təcavüzündən, münaqişənin sülh yolu ilə həlli istiqamətində səylərdən və Rusiyanın Ermənistana qanunsuz silah satmasından danışdı.

İzəddin Laraki (1929) - Mərakeş Krallığının Baş Naziri (1986-1992). İKT baş katibi (1997-2000).

Əliyev H.Ə. İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının dekabrın 9-11-də Tehranda keçiriləcək Vlll zirvə görüşündə iştirak etmək üçün İran paytaxtına yola düşməzdən əvvəl Binə hava limanında jurnalistlərə müsahibə. 8 dekabr 1997-ci il. - Müstəqilliyimiz əbədidir. Xlll kitab, s. 309.

Heydər Əliyev və Şərq. 6 cilddə. İKT dövlətləri. V kitab, s. 72.

Əliyev H.Ə. İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin rəhbərlərinin VIII zirvə görüşündə nitq. 10 dekabr 1997-ci il. - Müstəqilliyimiz əbədidir. Xlll kitab, s. 338-342.

Zirvə görüşündə Ermənistan - Azərbaycan münaqişəsinə dair siyasi qətnamə qəbul edildi. Qətnamənin qəbul edilməsi Azərbaycanın ədalətli mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında önəmli rol oynayırdı. Siyasi qətnamədə üzv dövlətlərin Ermənistanın təcavüzünü qətiyyətlə pisləməsi, işğalçı qüvvələrin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, qeyd-şərtsiz çıxmasının tələb edilməsi, bu problemə dair İKT baş katibinin ənənəvi illik hesabatları, İKT çərçivəsində keçirilən görüşlərdə qəbul edilən yekun bəyannamələrin müvafiq bəndlərində əks olunmuş müddəaları, habelə qondarma "Dağlıq Qarabağ Respublikasında" keçirilmiş müxtəlif qeyri-qanuni seçkilərin beynəlxalq hüquq normalarına zidd və İKT-yə üzv ölkələr tərəfindən tanınmayan amil kimi qiymətləndirilməsi Ermənistan tərəfinin İKT dövlətlərinə narazılığının bildirilməsi ilə müşayiət olunurdu. Böyük əhəmiyyət daşıyan həmin sənədlər Azərbaycanın mövqeyini möhkəmləndirirdi"*".

Bu fəaliyyət sonrakı illərdə də davam etdirildi. 1998-ci ilin mart ayında xarici işlər nazirlərinin Dohada (Qətər) keçirilmiş 25-ci konfransında Ermənistanın təcavüzünü pisləyən və Azərbaycana yardım haqqında 3 bənddən ibarət qətnamə"*' qəbul edildi. Dekabrın 30-da İKT baş katibi İzəddin Laraki ATƏT-in fəaliyyətdə olan sədri B.Qeremikə Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı təşkilatın mövqeyi barədə məlumat verdi"**.

İKT xarici işlər nazirlərinin 1999-cu il iyunun 28-dən iyulun 1-dək Burkina-Fasonun paytaxtı Uaqaduquda keçirilən 26-cı konfransında Azərbaycana dair üç sənəd qəbul edildi: Emıənistamn Azərbaycana təcavüzü haqqında; Azərbaycana iqtisadi yardım göstərilməsi haqqında; hərbi təcavüz nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında.

Bu sənədlər Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirdiyi üçün əhəmiyyətli idi. İslam ölkələri, toplantılarda müşahidəçi statusu

® Əliyev H.Ə. İKT-nin VIII zirvə görüşü başa çatdıqdan sonra vətənə yola düşməzdən əvvəl Tehrana səfərinin yekunu ilə əlaqədar bəyanat. 11 dekabr 1997- ci il. - Müstəqilliyimiz əbədidir. XIII kitab, s. 385.

Azərbaycan Respublikasına iqtisadi yardım haqqında qətnamə. 15-19 mart 1998-ci il. - Heydər Əliyev və Şərq. 6 cilddə. İKT dövlətləri. V kitab, s. 347.

"** Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti, s. 535.

ilə iştirak edən dövlətlər və beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyinə bələd oldular.

2000- ci ildən etibarən İKT ilə əlaqələrə diqqət verilməsi nəzərəçarpacaq dərəcədə artdı. Həmin ilin iyunun 27-30-da Kuala-Lumpurda (Malayziyada) keçirilmiş xarici işlər nazirlərinin 27-ci konfransında 18 bənddən ibarət Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında"*^ və 7 bənddən ibarət Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında iki qətnamə bəyənildi. Həmin sənədlərdə Ermənistanın Azərbaycana təcavüzü, işğal edilmiş ərazilərdəki islam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi pislənilir, işğal olunmuş ərazilərdən Ermənistan silahlı qüvvələrinin çıxarılmasına çağırılırdı.

Ermənistanın Azərbaycana qarşı təcavüzü məsələsi 2000-ci il noyabrın 11-13-də Qətərdə, Dohada İKT dövlət və hökumət başçılarının 9- cu zirvə görüşündə müzakirə edildi"'. Toplantıda Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzünü pisləyən qətnamə qəbul edildi. Qətnamə preambula və 7 bənddən ibarət idi. Burada Ermənistanın təcavüzü və əsassız iddiaları pislənilirdi. Zirvə toplantısında Azərbaycana humanitar yardım edilməsinə dair qətnamə qəbul olundu.

Toplantıdan bir müddət sonra Fələstində vəziyyət yenidən mürəkkəbləşdi. Fələstin ərazilərində yaranmış təhlükəli şəraitin öyrənilməsi məqsədi ilə 2001-ci il mayın 26-da Qətər dövlətinin paytaxtı Dohada xarici işlər nazirlərinin fövqəladə konfransı çağırıldı. Azərbaycan tərəfindən Səudiyyə Ərəbistanı Krallığındakı səfir və Xarici İşlər Nazirliyinin idarə rəisi konfransda iştirak edirdilər"'^. Konfransda Fələstin xalqı ilə həmrəylik ifadə olundu.

İKT xarici işlər nazirlərinin 2001-ci il iyunun 25-27-də Mali Respublikasının paytaxtı Bamako şəhərində keçirilən 28-ci konfransında is-

Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü haqqında qətnamə. 27-30 iyun 2000-ci il. - Heydər Əliyev və Şərq. 6 cilddə. İKT dövlətləri. V kitab, s. 344-346.

Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında qətnamə. 27-30 iyun 2000-ci il. - Heydər Əliyev və Şərq. 6 cilddə. İKT dövlətləri. V kitab, s. 348-349.

ARXINA. 2000. Qovluq X26, v. 36.

' ARXİNA. 15.01.2001-10.09.2001.Qovluq X26, v.l26.

lam dünyasının 50-dən artıq ölkəsinin, bir sıra müşahidəçi dövlətlərin, müsəlman azlıqlarının, beynəlxalq və regional təşkilatların və çoxsaylı İKT qurumlarının nümayəndələri iştirak edirdilər”^^. 21 ölkə nazirlər səviyyəsində təmsil olunmuşdu. Azərbaycanı Səudiyyə Ərəbistanmdakı səfir və Xarici İşlər Nazirliyinin idarə rəisi təmsil edirdilər. Açılış mərasimində Mali Respublikasının Baş Naziri Mandi Sidibe ölkə prezidenti Alfa Omar Konare adından geniş nitq söylədi. Kot-De Vuar Respublikası İKT üzvlüyünə qəbul edildi. Bununla da İKT-yə üzv ölkələrin sayı 57 oldu.

Konfransın gündəliyinə Ərəb - İsrail münaqişəsi, Suriya və Livanın işğal edilmiş əraziləri. Balkan böhranı, Kosovoda şərait, Cammu və Kəş- mir üzrə Pakistan və Hindistan arasında yaranmış gərginlik, Əfqanıstanda şərait, Ermənistanın Azərbaycana təcavüzü və s. məsələlər daxil edilmişdi.

İran - İraq ikitərəfli münasibətlərində gərginlik olmasına baxmayaraq, bu dövlətlər konfransda Yaxın Şərq və Fələstin probleminə dair vahid mövqe nümayiş etdirdilər. İraqa qarşı BMT tərəfindən tətbiq edilmiş sanksiyaların ləğvi məsələsi müzakirə edildi.

Konfransda Ermənistanın Azərbaycana təcavüzünə dair üç mühüm qətnamə qəbul edildi. Bunlar - Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü haqqında qətnamə; Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında qətnamə; Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarix və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında idi.

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında qətnamədə münaqişənin sülh yolu ilə aradan qaldırılması, ATƏT-in Lissabon zirvə görüşündə qəbul olunmuş əsas prinsipləri - Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılması və onun toxunulmazlığının təmin edilməsi, Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək status verilməsi və Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyinin təmin edilməsi və s. məsələlər əks etdirilmişdi.

Qətnamə bütün dövlətləri təcavüzkan münaqişəni dərinləşdirməmə- yə təşviq edən və Azərbaycan ərazilərinin işğalını davam etdirməyə imkan yaradan silah və döyüş sursatı təchizatından imtina etməyə, İKT-yə üzv dövlətlərin ərazisinin hərbi təchizatın tranziti üçün istifadə etməməyə

”” ARXİNA. 31.05.2001-20.08.2001. Qovluq XaS, v.91-94.

çağırır, üzv dövlətləri və dünya birliyinin digər ölkələrini Ermənistanın təcavüzə və Azərbaycan ərazilərinin işğalına son qoyması üçün bütün təsirli siyasi, iqtisadi təzyiq vasitələrindən istifadə etməyə dəvət edirdi. Qətnaməyə əsasən Azərbaycan ona dəymiş ziyana görə təzminat tələb etmək hüququna malik idi. Təzminatın ödənilməsi üçün Ermənistan tam məsuliyyət daşıyırdı. Qətnaməyə İKT baş katibinə üzv dövlətlərin Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar mövqelərini ATƏT sədrinə bildirməsinə dair bənd də daxil edildi.

Konfrans siyasi qətnamə ilə yanaşı Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında qətnamə də qəbul etdi. Qətnamə Ermənistan Respublikasının Azərbaycan Respublikasının Dağlıq Qarabağ və digər bölgələrinin işğalı, əhalinin qovularaq qaçqın və məcburi köçkünə çevrilməsi əməllərini pisləyərək, ölkənin tarixi üçün çətin bir zamanda Azərbaycan hökuməti və xalqı ilə həmrəylik nümayiş etdirərək İKT-yə üzv dövlətlərə, islam qurumlarına və eləcə də beynəlxalq təşkilatlara müraciət edərək lazımi iqtisadi, maliyyə və humanitar yardım göstərməyə dəvət edirdi.

Azərbaycana dair qəbul edilən mədəni-siyasi mahiyyətli "Ermənistanın təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal edilmiş ərazisində islam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında" qətnamə işğal edilmiş ərazilərdəki mədəniyyət və tarixi abidələrin mühafizəsinə yönəlmişdi.

Ermənistanın təcavüzünü pisləyən konfrans BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsini tələb etdi. Azərbaycan nümayəndə heyətinin təklifi ilə Azərbaycan Respublikasının BMT-nin İqtisadi və Sosial Şurasına namizədliyinin İKT-yə üzv dövlətlər tərəfindən dəstəklənməsi haqqında qətnamə layihəsi konfransın gündəliyinə daxil edildi. Bir müddət sonra, 2002-ci ildə Azərbaycan bu şuraya üzv seçildi.

ABŞ-da 2001-ci il 11 sentyabr terror hadisəsi İKT ölkələrinə və bu qurumun fəaliyyətinə də təsir etdi. İKT-nin Avropa İttifaqı ilə əlaqələrini genişləndirmək məsələsi gündəliyə gəldi. Həmin ilin noyabrın 15-də Türkiyənin xarici işlər naziri İsmail Cem İKT - Avropa İttifaqı birgə forumunun keçirilməsi təklifini irəli sürdü. Azərbaycan tərəfi bu təklifi bəyəndi'Keçirilən forumda xarici işlər naziri Vilayət Quliyev nitq söylədi"^^. Məruzədə sivilizasiyalar arasında dialoqa mane olan münaqişələrə

ARXİNA. 31.10.2001 -01.12.2001. Qovluq Kç 6, v. 1.
ARXrNA. 15.01.2001-10.09.2001. Qovluq ffaO, v.68-74.

bərabər səviyyədə ciddi və prinsipial münasibət bəslənilməsinin zəruriliyi qeyd edilir, dini əlamətlərə görə bölünmənin sivilizasiyaları qarşı-qarşıya qoymağın ən yaxşı üsulu olduğu deyilir, terror aktları pislənilir, iki sivilizasiyanın sərvətlərini özündə birləşdirən. Şərq ilə Qərbin kəsişməsində yerləşən Azərbaycanın dialoqa tərəfdar olduğu vurğulanır, tarixən Azərbaycanda müxtəlif dini konfessiyaların mövcud olduğu, ermənilərin Ön Asiyadan Azərbaycan torpaqlarına köçməsinə diqqət cəlb edilir, Azərbaycan tərəfinin təklif etdiyi Avropa - Qafqaz - Asiya mədəniyyət dəhlizi layihəsinin həyata keçirilməsinin vacibliyi vurğulanırdı.

Azərbaycan dövləti mövqeyini 2002-ci il iyunun 25-27-də Sudanın paytaxtı Xartumda keçirilən xarici işlər nazirlərinin 29-cu sessiyasında bəyan etdi. Sessiyada çıxış edən xarici işlər naziri Vilayət Quliyev Ermənistanın Azərbaycana təcavüzü və nəticələri üzərində dayandı. Yaxın Şərq hadisələrində ölkəsinin mövqeyini açıqladı, Azərbaycanın islam ölkələri ilə hərtəfəli əməkdaşlığa xüsusi əhəmiyyət verdiyini bildirdi''"*.

Sessiyanın yekununda Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü, Azərbaycan Respublikasına təcili iqtisadi və humanitar yardım göstərilməsi və Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü nəticəsində işğal olunmuş ərazilərdə islam tarix və mədəniyyət abidələrinin məhv edilməsi haqqında qətnamələr qəbul edildi.

Növbəti, 2003-cü ilin oktyabr ayında Putracayada (Malayziya) keçirilən İKT dövlət və hökumət başçılarının 10-cu zirvə toplantısında da Azərbaycan nümayəndə heyəti tərəfindən hazırlanaraq təqdim edilmiş üç qətnamə heç bir düzəliş olmadan qəbul edildi. Bu qətnamələr əvvəlkilərə nisbətən daha mükəmməl idi.

Həmin ildən etibarən Azərbaycan Respublikası - İKT münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Müharibə şəraitində olan Azərbaycan təşkilata üzvlüyün ilk illərində Ermənistanın təcavüzünün səbəb və məqsədlərini, onun ağır nəticələrini dünya ictimaiyyətinə çatdırmağa çalışırdısa, İKT ilə əməkdaşlıq prosesində təkcə bu münaqişə ilə məhdudlaşmağa yol verilmədi, çoxşaxəli, qarşılıqlı maraq əsasında əməkdaşlığın inkişafına üstünlük verildi.

Xarici işlər naziri İKT-nin sessiyasında iştirak etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 455.

Ümumiyyətlə, Azərbaycan Respublikasının İKT-də iştirakı faydalı olmuşdur. Əməkdaşlıq həm çoxtərəfli, həm də üzv ölkələr arasında ikitərəfli əlaqələrin genişləndirilməsinə kömək etmiş, tərəflərə qarşılıqlı fayda vermişdir. Azərbaycan diplomatiyasının fəaliyyəti nəticəsində ölkə haqqında həqiqətlərin dünayaya çatdırılmasında, mövqelərinin müdafiə edilməsində bu təşkilat bir vasitə olmuşdur. İKT yekdilliklə Azərbaycanı müdafiə etmiş və Ermənistanın təcavüzünü pisləmişdir. Təşkilat Azərbaycana maliyyə və humanitar yardım etmiş, güzəştli kreditlər vermişdir. İKT qurumları Azərbaycanda bir sıra layihələrin həyata keçirilməsində iştirak, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində doğma yurd- yuvalarını itirmiş qaçqın və məcburi köçkünlərə yardımlar etmişlər. Təşkilat Azərbaycanın işğal edilmiş ərazilərində tarix və mədəniyyət abidələrinin Ermənistan tərəfindən dağıdılmasını pisləmişdir. Ermənistanın təcavüzü məsələsində İKT-nin vahid mövqeyi formalaşmışdır.

## AZƏRBAYCAN RESPUBLİKASI VƏ MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ

### MDB-nin yaradılması və ona münasibət

Artıq qeyd edildiyi kimi, XX əsrin nəhəng geosiyasi hadisələrindən biri olan SSRİ-nin dağılması nəticəsində çoxlu problemlər meydana çıxmışdı. Yeni müstəqil dövlətlərin yaranması onların təhlükəsizliyinin təmin edilməsi məsələlərini önə çıxarırdı. Keçmiş sovet məkanı münaqişələr və ixtilaflar meydanına çevrilmişdi.

Azərbaycan Respublikası xarici siyasət fəaliyyətində sovet respublikalarının 1991-ci il dekabrın 8-də təsis etdikləri Müstəqil Dövlətlər Birliyi ilə münasibətlərə müəyyən yer verirdi. Azərbaycanın MDB ilə münasibətləri mürəkkəb bir yol keçmişdir. Yaradıldığı ilk vaxtlarda bu quruma Azərbaycanda birmənalı münasibət mövcud deyildi. Prezident Ayaz Mütəllibov 1991-ci il dekabrın 21-də MDB-yə daxil olmağa dair sənədləri imzaladı. Lakin bu proses bir sıra səbəblərdən irəli getmədi. Hər şeydən əvvəl ona görə ki, MDB-nin yaranması və fəaliyyəti üçün məsuliyyəti üzərinə götürmüş Rusiya rəhbərliyi yeni müstəqil dövlətlər arasında qarşılıqlı münasibətlərdə heç də ədalətli mövqe tutmurdu.Uzun illər boyu

mövcud olmuş əlaqələrin birdən-birə qırılması da çoxlu problemlər yaratmışdı.Yeni müstəqil dövlətlərin rəhbərləri onları həll etmək iqtidarında deyildilər. Lakin əlaqələrin mümkün qədər qorunub saxlanılmasında fayda var idi. Azərbaycanın mövqeyi əsasən bu amillərlə şərtlənmişdi.

Azərbaycan tərəfi 1992-ci il fevralın 27-də Moskvada MDB-yə dair bəzi yeni sənədləri imzaladı. Lakin ölkədəki ictimai-siyasi dairələrin heç də hamısı bu addımı bəyənmədi. Ermənistanın Azərbaycana qarşı təcavüzündə Rusiyanın tutduğu ədalətsiz və birtərəfli mövqe səbəbindən Azərbaycandakı müəyyən qruplar şimal qonşuya etibar etməyi mümkün saymır, MDB-yə SSRİ-nin bərpası cəhdləri kimi baxırdılar.

1992-ci ildə Azərbaycanda hakimiyyət dəyişikliyindən sonra MDB- yə münasibət də dəyişdi. Azərbaycan Respublikasının Milli Məclisi 1992- ci il oktyabrın 7-də qəbul etdiyi qərar ilə 1991-ci il dekabrın 21-də Alma- Ata şəhərində Azərbaycan Respublikası adından imzalanmış Müstəqil Dövlətlər Birliyi haqqında sazişi təsdiq etmədi . Məhdud və Azərbaycanın maraqlarına zidd olan bu qərar real siyasətdən uzaq idi.

Digər yeni müstəqil dövlətlərdə də MDB-yə birmənalı münasibət mövcud deyildi. Birliyin tərəfdarları, əleyhdarları və ondan istifadə edərək məqsədlərinə çatmaq istəyənlər var idi. Bəziləri MDB-dən istifadə edərək Rusiyanın nüfuzunu artırmağa, inteqrasiya adı altında milli dövlətlərin fövqündə duran qurumlar yaratmağa, SSRİ-ni başqa ad altında olsa da, bərpa etməyə çalışırdılar. Digərləri isə MDB-yə daxil olan ölkələri daha çox federativ əsasda qunuağı təklif edərək gələcəkdə hətta Rusiyanın hökmranlığını bərpa etmək niyyətlərini güdürdülər. Daha realist düşünən digər bir qrup isə müasir dünyada milli dövlətçilik və inteqrasiya prosesləri getdiyindən əvvəlki dövrlərdə mövcud olmuş əlaqələri qırmağı ziyanlı hesab edir, MDB-də iştirak etməyi faydalı sayırdılar. Çünki SSRİ dağıldıqdan sonra keçmişə qayıdış üçün Rusiyada müəyyən qruplar cəhd etsələr də, iddialarını həyata keçinnək üçün əlverişli beynəlxalq şərait mövcud deyildi. Rusiya ərazisində mürəkkəb proseslər, böhranlı şərait. Çeçenistanda müharibə, federasiyanın subyektləri arasında ixtilaflar, mərkəzdənqaçma meyilləri, dağılmış iqtisadiyyat, ordunun zəifləməsi və mənəvi-psixoloji düşkünlük hökm sürürdü"®*.

MDB-yə daxil olan ölkələrdə də şərait ürəkaçan deyildi. Azərbaycan Ermənistanın təcavüzünə məruz qalmışdı. Gürcüstanda gürcü-abxaz.

[1197] ARXINA. 1992.
Qasımov (Qasımlı) M. Azərbaycan beynəlxalq münasibətlər sistemində, s. 17.

gürcü-osetin, Moldovada isə Dnestryanı münaqişə davam edirdi. Rusiyanın Ukrayna və Moldova ilə münasibətlərində çoxlu mürəkkəbliklər mövcud idi. Yaranmış şəraitdə Rusiyanın SSRİ-ni bərpa etmək imkanları yox idi. Deməli, yeni müstəqil dövlətlərin müstəqilliyi və suverenliyi qarşısıalınmaz bir proses idi. Geriyə qayıdış mümkün deyildi.

## Müstəqil dövlətlərin fövqündə duran qurum, yoxsa əməkdaşlıq vasitəsi?

Hakimiyyətə gələn Heydər Əliyev Azərbaycanın MDB-də iştirakını zəruri hesab edirdi. Azərbaycan Respublikası MDB iştirakçısı olan ölkələrin dövlət və hökumət başçılarının 1993-cü il sentyabrın 24-də Moskvada keçiriləcək görüşünə dəvət edildi. Bu məsələ Azərbaycan Respublikası Milli Məclisində müzakirə olundu. Milli Məclis sentyabrın
3- də keçirilən iclasında MDB iştirakçısı olan ölkələrin dövlət və hökumət başçılarının Moskvada keçiriləcək görüşündə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyev başda olmaqla Azərbaycan Respublikası nümayəndə heyətinin iştirak etməsinə, danışıqlar aparmasına və zəruri sənədləri imzalamasına razılıq verdi"'^. Azərbaycan Respublikasının Milli Məclisi 1993-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə qoşulması haqqında qərar qəbul etdi.

Azərbaycan nümayəndə heyəti sentyabrın 24-də Moskva şəhərində MDB iştirakçısı olan ölkələrin dövlət başçıları şurasının iclasında iştirak etdi. Nümayəndə heyəti digər ölkələrin dövlət başçıları ilə əməli xarakter daşıyan söhbətlər etdi, Azərbaycanın MDB-də iştirakına dair sənədləri. Kollektiv Təhlükəsizlik Müqaviləsini, İqtisadi İttifaq yaradılması haqqında müqaviləni və digər sənədləri imzaladı.

Azərbaycan Respublikasının Milli Məclisi Moskvada keçirilən danışıqların yekunlarına dair qərar qəbul etdi. Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq, müdafiəsini və ərazi bütövlüyünü təmin etmək, habelə Azərbaycan silahlı qüvvələrini möhkəmlətmək məqsədi ilə MDB iştirakçısı olan dövlətlərin Kollektiv Təhlükəsizlik Müqaviləsinə Azərbaycan Respublikasının qoşulması təsdiq edildi'^°°. Nümayəndə heyətinin MDB

ARXINA. 1993.
' ARXİNA.

iştirakçısı olan dövlətlərin dövlət başçıları şurasının iclasında fəaliyyəti və bütövlükdə səfər zamanı apardığı iş bəyənildi'"®'. Milli Məclis Azərbaycan Respublikasının müstəqilliyini qoruyub saxlamaq, respublikanın iqtisadiyyatının dinamik və ahəngdar inkişafını təmin etmək məqsədi ilə, habelə MDB iştirakçısı olan dövlətlərlə qarşılıqlı faydalı iqtisadi münasibətləri genişləndirməyin vacibliyini nəzərə alaraq İqtisadi İttifaqın yaradılması haqqında müqaviləni təsdiq etdi'^®^.

Azərbaycan Respublikası MDB-də iştirak etməklə bir sıra məsələlərin həllinə ümid edirdi. Azərbaycanın tərəfinin baxışma görə, MDB sənədlərinin imzalanması ölkənin dərin siyasi, iqtisadi və sosial böhrandan çıxmasına kömək etməli idi. Kollektiv Təhlükəsizlik Müqaviləsinə Azərbaycan Respublikasının qatılması Azərbaycan dövlətinin təhlükəsizliyini təmin etmək və ordu quruculuğunu təkmilləşdirmək üçün lazımi şərait yaratmalı idi. MDB-də iştirak etmək eyni zamanda, Azərbaycanın iqtisadi yüksəlişini və xarici iqtisadi əlaqələrinin genişlənməsini təmin edəcəkdi.

İştirakçı olduqdan sonra Azərbaycan dövləti MDB-nin toplantılarında fəal iştirak etməyə başladı. Bu fəaliyyət bir neçə sahəni əhatə edirdi: dövlət başçılarının şura iclasları; məsləhətləşmələr; müxtəlif nazirliklər arasında əlaqələr və s.

Aşqabadda 1993-cü il dekabrın 23-24-də keçirilən MDB iştirakçısı olan ölkələrin dövlət başçılarının zirvə toplantısında iştirak edən Azərbaycan Respublikasının Prezidenti keçirdiyi görüşlərdə qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələləri müzakirə etdi. Toplantıda bəyanatla çıxış etdi'^®^. Bəyanatda Ermənistanın Azərbaycana qarşı təcavüzünün davam etməsi, onun nəticələri, insanların kütləvi surətdə qırılması qeyd edilir, Ermənistanın BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymadığı vurğulanırdı. Heydər Əliyev MDB məkanında siyasi şəraitin sabitləşdirilməsinə yönəlmiş ikitərəfli və çoxtərəfli sazişlər sisteminin ekspertlər səviyyəsində işlənib hazırlanmasını təklif etdi. Bu təkliflər hər bir üzv dövlətin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin tanınması və buna hörmət edilməsini, sərhədlərin qarşılıqlı surətdə tanınması üçün regional sazişlərin imzalanmasını, separatçılığa və davakar millətçiliyə qarşı mübarizəni nəzərdə tuturdu. Bəyanatda Ermənistanın hərəkətlərinə etiraz olaraq, dövlət başçılarından Ermənistanın Azərbaycana

ARXINA. 1993.

ARXİNA.1993.

Əliyev H.Ə. MDB dövlət başçıları şurasının iclasında bəyanat, Müstəqilliyimiz əbədidir. I kitab, s.297.

qarşı təcavüzünə siyasi qiymət vermələri, hərbi əməliyyatları dayandırmağı, silahlı qüvvələrinin bütün bölmələrinin Azərbaycan Respublikası ərazilərindən çıxarılmasını, hərbi əməliyyatlara yenidən başlamamağa təminat verməyi tələb etmələri istənilirdi. Bunsuz qaçqın və məcburi köçkünlərin daimi yaşayış yerlərinə qayıtmasının mümkün olmadığı vurğulanırdı. Maddi zərərin müəyyənləşdirilməsi və işğalçının Azərbaycan ərazilərində törətdikləri cinayətkar əməllərin qiymətləndirilməsinə dair MDB üzvü olan ölkələrin nümayəndələrindən ibarət komissiyanın təşkili təklif edilirdi. Azərbaycan tərəfinin fikrincə, təkliflər həyata keçirilmədən sülhün bərqərar olması, qarşılıqlı faydalı iqtisadi əməkdaşlıq üçün şəraitin yaranması, tərəqqi, demokratiya və ölkələrin birlikdə yaşaması mümkün deyildi. Azərbaycan tərəfi məlum mövqeyini 1994-cü ilin aprel ayında Moskvada keçirilən MDB dövlət başçıları şurasının iclasında bir daha bəyan etdi. Azərbaycan Prezidenti Ermənistanın geniş miqyaslı hücumları ilə əlaqədar olaraq bəyanat verdi'^°". Bəyanatda Ermənistan silahlı qüvvələrinin hücumlarının Azərbaycanın yeni ərazilərinin işğal etmək məqsədi daşıdığı, Azərbaycan rəhbərliyinə təzyiq etmək və sülh prosesini pozmaq kimi qiymətləndirilirdi. Azərbaycan tərəfi dövlət başçılarını Ermənistanın təcavüzünə siyasi qiymət verməyə, hərbi əməliyyatları dərhal dayandırmaq, işğal etdiyi ərazilərdən silahlı qüvvələrini çıxarmaq, yenidən hərbi əməliyyatlara başlamamaq üçün təminat verməyə, MDB-nin digər bir dövlətinə təcavüz edənə sanksiyalar tətbiq etməyə çağırdı.

Bu zaman Rusiya MDB-də inteqrasiya inkişafının perspektiv planını işləyib hazırlamışdı. Həmin layihə keçmiş sovet məkanında daha çox Rusiyanın hegemonluğunu nəzərdə tuturdu. Azərbaycan tərəfi MDB-nin

inteq^rasiya inkişafının perspektiv planına dair xüsusi rəyini yazıb təqdim etdi'"°^. Azərbaycan dövləti layihədə irəli sürülən razılaşdırılmış yanaşmanın, xarici sərhədlərin qorunması və xarici siyasətin əlaqələndirilməsi sahəsində əməkdaşlığın əleyhinə çıxdı.

Azərbaycan eyni zamanda, MDB-nin inteqrasiya inkişafının əsas istiqamətləri layihəsinə də xüsusi fikrini yazaraq təqdim etdi'^"^. Layihə dövlətlərin suveren hüquqlarını məhdudlaşdırdığından Azərbaycan tərəfi suveren dövlətlər birliyinin üçüncü ölkəyə münasibətdə xarici ticarət siya-

Əliyev H.Ə. MDB dövlət başçıları şurasının iclasında Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində genişmiqyaslı hücumları ilə əlaqədar bəyanatı. 15 aprel 1994-cü il. - Müstəqilliyimiz əbədidir. I kitab, s.523-525.

ARXİNA. 28.05.1994-19.09. 1994. Qovluq Jfs?, v. 39.

ARXİNA. 28.05.1994-19.09. 1994. Qovluq Ro?, v.40.

sətinin əlaqələndirilməsinin, ümumi hərbi-strateji məkanın və xarici sərhədlər qurulmasının, dövlətlərin fövqündə duran iqtisadi qurumun yaradılmasının əleyhinə idi'^°^.1994-cü il oktyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti MDB dövlət başçılarının zirvə görüşündə iştirak edərkən bu mövqeyi aydın şəkildə bəyan etdi'^°^. Toplantıda İqtisadi İttifaqın Dövlətlərarası iqtisadi komitəsini yaratmaq haqqında məsələ müzakirə edildi. Əlaqələndirici-Məsləhətçi Komitənin nəzdində İqtisadi komitənin yaradılmasına tərəfdar olan Azərbaycan dövləti milli qanunvericiliyin əleyhinə olan və dövlətlərin fövqündə duran qurumun əleyhinə çıxırdı'^®^. Müzakirələr nəticəsində İqtisadi İttifaqın Dövlətlərarası İqtisadi Komitəsinin yaradılması haqqında saziş layihəsini Azərbaycan imzalamadı'^''.

Azərbaycanın Avrasiya İttifaqının formalaşmasına münasibəti də fərqli idi. Bu layihə konfederativ və federativ dövlətin əlamətlərini özündə birləşdirdiyindən Azərbaycan tərəfi ona ehtiyatla yanaşırdı'^". Buna görə də Azərbaycan ölkələrin daxili işlərinə qarışmağa imkan verən və dövlətlərin fövqündə duran qurumların yaradılmasının əleyhinə olduğundan həmin sənədləri imzalamadı.

Lakin yeni müstəqil dövlətləri öz nüfuz dairəsi hesab edən düşüncə hələ də qalırdı. Rusiya Prezidenti Boris Yeltsin 1995-ci il sentyabrın 14- də Rusiya Federasiyasının Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərə münasibətdə strateji kursunun təsdiq edilməsi haqqında sərəncam imzaladı'^'^. İqtisadi əməkdaşlıq, milli təhlükəsizlik, humanitar əməkdaşlıq, insan hüquqları, beynəlxalq problemlər, dünya birliyi ilə qarşılıqlı fəaliyyəti əlaqələndirmək, ikitərəfli münasibətləri inkişaf etdirmək və s. məsələlərin əks olunduğu yeddi hissədən ibarət olan bu sənəd keçmiş sovet məkanında Rusiyanın nüfuzunu bərpa etmək iddialarını göstərirdi. Sənəddə MDB məkanı Rusiyanın iqtisadi, müdafiə, təhlükəsizlik, rusiyalıların hüquqlarının qorunması sahələrində həyati mənafeyi zonası elan

ARXINA. 20.10.1994-21.10.1994. Qovluq >fol4, v. 2.

ARXİNA. 20.10.1994-21.10.1994. Qovluq JÇol4, v. 1-177.

ARXİNA. 20.10.1994-21.10.1994. Qovluq ***m4,*** v. 6-10.

ARXİNA. 20.10.1994-21.10.1994. Qovluq NsH, v. 11.

ARXİNA. 20.10.1994-21.10.1994. Qovluq XaH, v. 32, 41. **yxas npesuaeHxa POCCHHCKOÜ OeaepauuH 06 yTBep>KfleHHH Crpareru- necKoro xypca POCCHHCKOÜ OeaepauHH c rocyaapcTBaMH-yuacxHHKaMH Coapy-5KCCXBa HeaaBHCMbix FocyaapcxB.** 14 **ccHXHÖpa** 1995 **r.** - Azərbaycan Respublikası Milli Məclisinin arxivi. Beynəlxalq münasibətlər şöbəsinin 1995-ci ilə dair sənədləri.

edilirdi. Rusiyanın bu ölkələrə münasibətdə əsas məqsədi dövlətlərin iqtisadi və siyasi baxımdan inteqrasiya olunmuş birliyini yaratmaq idi. Ona görə də bu iddialar Azərbaycan tərəfindən qəbul edilmədi.

MDB çərçivəsində inteqrasiya prosesləri, cinayətkarlığa qarşı mübarizə və digər məsələlər 1996-cı ilin may ayında MDB üzvü olan ölkələrin dövlət başçılarının zirvə toplantısında müzakirə olundu. İnteqrasiya proseslərinə tərəfdar olan Azərbaycan üstün yeri ikitərəfli sazişlərin imzalanmasına verirdi'^'^. Şura iclasında çıxış edən Azərbaycan Prezidenti bəzi qüvvələrin keçmişə qayıdış və mərkəzləşdirmə niyyətlərinə qarşı ölkəsinin mövqeyini bəyan edərək dedi: "Əvvəllər Sovet İttifaqının tərkibində olmuş respublikaların dövlət müstəqilliyi və suverenlik əldə etməsi tarixi hadisədir, azadlıq və istiqlaliyyət qazanan hər bir xalqın milli sərvətidir. Buna görə də bizim məqsədimiz, vəzifəmiz bütün bunları qoruyub saxlamaqdan ibarətdir. İstər Rusiyada, istərsə də digər MDB ölkələrində siyasi və iqtisadi islahatlar aparılması, tamamilə yeni bir həyat qurulması Sovet İttifaqının süqutundan sonra gələcək həyatın əsasına çevrilmiş- dir"'^'^

Azərbaycanın bu mövqeyi 1997-ci il martın 29-da keçirilən MDB iştirakçısı olan ölkələrin dövlət başçılarının iclasında bir daha bəyan edildi. Toplantıda inteqrasiya məsələləri müzakirə olundu.

Baş nazirlərin və xarici işlər nazirlərinin görüşündə isə Azərbaycan tərəfi Rusiyanın Ermənistana gizli olaraq hərbi texnika və silah verməsi məsələsini gündəliyə gətirdi. Qanunsuz surətdə hərbi texnika göndərilməsi və bu barədə təhqiqat aparılmasına dair məlumat vermək qərara ahndı'^'^.

Qeyd etmək lazımdır ki, bu vaxtadək MDB hələ öz səviyyəsinə çata bilməmişdi. Bunun da müəyyən obyektiv və subyektiv səbəbləri var idi. 1997-ci il oktyabrın 22-23-də Kişinyovda keçirilən MDB üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşündə də əsasən həmin məsələlər müzakirə edildi. Azərbaycanın mövqeyinə görə, MDB-nin fəa-

Əliyev H.Ə. MDB üzvü olan ölkələrin dövlət başçılarının zirvə toplantısında iştirak etmək üçün Moskvaya yola düşməzdən əvvəl Binə hava limanında jurnalistlərin suallarına cavab. 16 may 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VI kitab, s.285.

Əliyev H.Ə. MDB dövlət başçıları şurasının iclasında bəyanat. 17 may 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VI kitab, s.288.

Əliyev H.Ə. MDB-nin üzvü olan dövlətlərin başçılarının iclasından sonra birgə mətbuat konfransında jurnalistlərin suallarına cavab. 29 mart 1997-ci il. - Müstəqilliyimiz əbədidir. IX kitab, s.96.

liyyətinin uğurlu olması üçün demokratik prinsiplər birlikdə, bərabərhüquqluluq tam bərqərar edilməli idi. Heç bir dövlətin hegemonluğu və yaxud üstünlüyü yolverilməz idi. Birliyə daxil olan bütün ölkələrin hamısı bərabərhüquqlu olmalı idi. MDB yalnız demokratik prinsiplər əsasında inkişaf edə bilərdi. Ancaq hələ də buna nail olmaq mümkün olmamışdı'^'^.

Zirvə görüşündə MDB-nin fəaliyyəti haqqında açıq, kəskin, prinsipial və qərəzsiz söhbət getdi. Dövlət başçılarının hamısının ümumi fikri bundan ibarət idi ki, qurum hüquq bərabərliyi, dövlətlərin milli maraqlarına hörmət əsasında inkişaf edə bilər. İddialar yolverilməz idi. Dövlət başçıları MDB daxilində "ikilər" (Rusiya, Belarus), "dördlər" (Rusiya, Azərbaycan, Ermənistan və Gürcüstan) ittifaqlarına etimad etmədiklərini açıq şəkildə bildirdilər. Qazaxıstan Prezidenti Nursultan Nazarbayev birmənalı olaraq dedi: "Bunlar münaqişələr, müharibə, bir-birini başa düşməmək məsələləridir. Birinə bir cür münasibət bəsləyirlər, digərinə başqa cür, birini silahlandırırlar, digərini tərksilah edirlər. Əgər biz bir dövlətin ərazi bütövlüyünə tərəfdarıqsa, - bu, ATƏT-in və MDB-nin prinsipləridir, - hər bir dövlətin sərhədlərinin toxunulmazlığına tərəfdarıqsa, onda bu məsələləri həll etməyə qadir olmalıyıq. Yox, əgər bunu etmiriksə, onda həmin dövlətlər dünya birliyinə, başqa dövlətlərə müraciət edirlər. Xüsusən Rusiya bundan inciyir"'^'^.

Kişinyov sammitində deyilən tənqidi qeydlərdən nəticə çıxarılacağına ümid bəsləyən Azərbaycan tərəfi 1998-ci il aprel ayının sonlarında Moskvada keçirilən MDB dövlət başçılarının növbəti zirvə görüşündə iştirak etdi. Azərbaycanın baxışma görə, MDB işini təkmilləşdirməli, səmərəliliyini artırmalı və beynəlxalq standartlara uyğun qurmalı idi'^'*. MDB məkanında münaqişələrin həlli ilə bilavasitə bu qurum məşğul olmalı idi. Qurum daxilində münaqişələrin mövcudluğu birlik anlayışından kənar bir şey idi.

° Əliyev H.Ə. MDB üzvü olan dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün Kişinyova yola düşməzdən əvvəl Binə limanında jurnalistlərə müsahibə. 22 oktyabr 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XII kitab, s. 369.

Əliyev H.Ə. MDB üzvü olan ölkələrin dövlət başçılarının Moldova zirvə görüşündə Qazaxıstan televiziyası müxbirinin Azərbaycan və Qazaxıstan prezidentlərinə zirvə görüşü barədə suallarına cavablar. 23 oktyabr 1997-ci il. — Müstəqilliyimiz əbədidir. XII kitab, s.374.

Əliyev H.Ə. MDB ölkələri dövlət başçılarının növbəti zirvə görüşündə iştirak etmək üçün Moskvaya yola düşməzdən əvvəl Binə hava limanında jurnalistlərin suallarına cavab. 28 aprel 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XV kitab, s. 239. 

İqtisadi, azad ticarət zonalarının qurulması məsələləri MDB iştirakçısı olan ölkələrin 1999-cu il yanvarın 28-29-da Kiyevdə keçirilən
qeyri-rəsmi görüşündə müzakirə edildi . MDB-nin İqtisadi Şurasına və İcraiyyə Komitəsinə növbəti zirvə görüşünədək azad ticarət zonasının formalaşdırılmasmı başa çatdırmaq üçün lazım olan normativ-hüquqi sənədləri hazırlamaq tapşırıldı. Görüşdə İraq və Şimali Koreya ətrafında vəziyyət, beynəlxalq terrorizmə qaşı mübarizə və s. məsələlər də müzakirə edildi. İştirakçılar yekun bəyanat qəbul etdilər.

Qurumun işinin təkmilləşdirilməsi 1999-cu il aprel ayının əvvəllərində Moskvada keçirilən MDB dövlət başçılarının zirvə görüşündə müzakirə edildi. Zirvə görüşündə Azərbaycan Prezidenti Rusiyanın Ermənistana 1 milyard dollar dəyərində qanunsuz silah verməsi. Ermənistandakı bazalarına yeni S-300 raketlərini və MİQ-29 təyyarələrini yerləşdirməsi məsələsini qaldırdı, Rusiya rəhbərlərini verdikləri sözə əməl edərək silahların verilməsini araşdırmağa çağırdı.

Rusiyanın Ermənistana qanunsuz silah verməsi faktı Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında iştirakına mənfi təsir edirdi. Nəticədə Azərbaycan tərəfi bir müddət sonra, 1999-cu il aprelin 2- də sözügedən müqavilənin uzadılmasına dair protokolu imzalamadı.

Səfər zamanı Azərbaycan Prezidenti Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə görüşdə ikitərəfli əməkdaşlıq, neft boru kəməri'^^°, Rusiyanın Baş Naziri Yevgeni Primakov ilə görüşdə isə ikitərəfli münasibətləri inkişaf etdirmək üçün yeni imkanlardan daha səmərəli istifadə olunması və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələlərini müzakirə etdi'^^'. Heydər Əliyev Rusiyanın MDB ölkələri dövlət başçıları şurasının sədri, Minsk qrupunun həmsədri kimi Azərbaycana və Ermənistana eyni münasibət göstərməsini, hansısa tərəfə heç vaxt xüsusi yardım etməməli olduğunu vurğuladı. Yevgeni Primakov isə Azərbaycan Prezidentinin Minsk qrupu həmsədrlərinin münaqişənin aradan götürülməsi üçün səylərinin artırılması fikrinə şərik çıxdı.

MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının Kiyev şəhərində qeyri-rəsmi zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin iştirakı. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2003, yanvar-mart, Jf22, s.3-5.

Əliyev H.Ə. Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə təkbətək görüşdəki söhbətdən. 2 aprel 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XIX kitab, s.395-397.

Əliyev H.Ə. Rusiya Federasiyasının Baş Naziri Yevgeni Primakovla təkbətək görüşdəki söhbətdən. 3 aprel 1999-cu il. — Müstəqilliyimiz əbədidir. XIX kitab, s. 398-400.

Zirvə görüşünün yekununda sənədlər və bəyannamə qəbul edildi. Sənədlərdə MDB-nin inkişaf istiqamətləri və buna dair dövlətlərin baxışları əksini tapmışdı.

Bu zaman Rusiya tərəfi MDB strukturlarında aparılan dəyişikliklər, inteqrasiya anlayışından əl çəkərək konkret olaraq azad ticarət zonasına keçməyə və MDB-nin vahid büdcəsini formalaşdırmağa çalışırdı. Həmin məqsədlə 1999-cu il avqustun 6-da MDB İcraiyyə Komitəsinin sədri, birliyin icraçı katibi Yuri Yarov Azərbaycana səfər etdi. Bu məsələlərin müzakirəsi zamanı Heydər Əliyev konkret olaraq dedi: "Mən MDB-nin tərkibində ölkələr arasında hər cür hərbi ittifaqların həmişə əleyhinə çıxmışam və çıxıram. Bilirsiniz, qəribə haldır: bir tərəfdən biz hamımız bir birlikdəyik, digər tərəfdən bu birliyə daxil olan ölkələr arasında hərbi ittifaqlar yaradılır. Əlbəttə, hər bir ölkə öz hərəkətlərində sərbəstdir, o, müstəqildir və ona lazım, faydalı olan istənilən sazişləri bağlaya bilər. Lakin biz hərbiləşdirmə yolu ilə getməməliyik. Bütün dünya yeni müharibələr, yeni münaqişələr yaranmasının mümkünlüyünü aradan qaldırmağa doğru gedir""

Azərbaycan tərəfi Rusiyanın Ermənistan ilə hərbi ittifaqının, silahlar satmasının və hərbi bazalar yerləşdirməsinin münaqişə vəziyyətində olan Azərbaycanda narahatlıqla qarşılandığını bildirdi. Görüşdə MDB dövlət başçılarının zirvə görüşünün keçirilməsi ilə bağlı məsələlər də müzakirə edildi.

Vladimir Putin hakimiyyətə gəldikdən sonra Rusiyanın MDB-yə münasibətində dəyişiklik baş verdi. Birlik əvvəlki illərə nisbətən daha fəal işləməyə başladı. Bu zaman MDB iştirakçısı olan ölkələrin dövlət başçılarının zirvə görüşünə hazırlıq işləri aparılırdı. Azərbaycan Prezidenti 2000- ci il yanvarın 24-25-də keçirilən toplantıda iştirak etdi.

MDB-nin fəaliyyətini artırmaq məsələlərini müzakirə etmək üçün 2000- ci il mayın 15-də Rusiya Federasiyasının MDB işləri üzrə naziri Leonid Draçevski və onu müşayiət edən şəxslər Azərbaycana səfər etdilər. Azərbaycan Prezidenti ilə keçirilən görüşdə iqtisadi inteqrasiya məsələləri, MDB çərçivəsində azad ticarət zonalarının təşkili, nəqliyyat məsələləri və s. müzakirə edildi. Qeyd etmək lazımdır ki, bu zaman Rusiya ilə Azərbaycan arasında ticarət dövriyyəsinin həcmi 212 milyon dollar idi. Belə

Əliyev H.Ə. MDB İcraiyyə Komitəsinin sədri. Birliyin icraçı katibi Yuri Yarovla görüşdəki söhbət. 6 avqust 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXI kitab, s. 155-156.

vəziyyət tərəflərin imkanlarından aşağı idi'^^^. Azərbaycan Rusiya ilə ikitərəfli faydalı əlaqələrin inkişafına tərəfdar idi və MDB çərçivəsində hər hansı bir dövlətin hegemonluğuna qarşı çıxırdı.

Geniş hazırlıqlardan sonra, iyunun 20-də Moskvada MDB iştirakçısı olan ölkələrin dövlət başçılarının zirvə görüşü keçirildi. Görüş zamanı Azərbaycan, Ermənistan, Gürcüstan və Rusiya prezidentləri görüşərək regiondakı şəraiti müzakirə etdilər'^^'*. Prezidentlər bəyanat qəbul edərək Cənubi Qafqazda münasibətlər, regional təhlükəsizlik, terrorizm, humanitar və digər sahələrdə Cənubi Qafqazda münaqişələrin həllinin sürətləndirilməsini istədilər'^^^.

Azərbaycan Prezidenti iyunun 22-də Vladimir Putin ilə təkbətək görüşərək ikitərəfli münasibətlər, Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həlli yolları, MDB-nin fəaliyyəti və perspektivləri haqqında geniş fikir mübadiləsi etdi'^^®. Həmin gün Heydər Əliyev, Vladimir Putin və Robert Koçaryan arasında üçlükdə keçirilən görüşdə tam sülh əldə edilənədək atəşkəs rejiminə əməl edilməsinin vacibliyi vurğulandı. Vladimir Putin Minsk qrupunun həmsədrlərindən biri kimi Rusiyanın münaqişənin həllində səylərini artıracağını bildirdi

Zirvə görüşündə Gürcüstanda Abxaziyada münaqişə zonasında sülhü qoruyan qüvvələrin qalması müddətinin 2000-ci il dekabrın 31-dək

Əliyev H.Ə. Rusiya Federasiyasının MDB işləri üzrə naziri Leonid Draçevski və onu müşayiət edən şəxslərlə görüşdə söhbət. 15 may 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXVII kitab, s.160-169.

Əliyev H.Ə. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Gürcüstanın Prezidenti Eduard Şevardnadze və Ermənistan Respublikasının Prezidenti Robert Koçaryan arasında görüş. 20 iyun 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXVIII kitab, s. 217-219; CooömeHHe o Bcrpene rjıas rocyaapcTB A3ep6ana>KaHCKOH PecnyönnKH, Pec- nyöJiHKH ApMeHHH, FpysHH **н Pоссннскон** dbeaepauHH **в Mосквс.** 20 mona 2000 **r.** - BneujHaa **nojiHTHKa Pоссնн.** CöopnHK **flOKyMCHTOB.** 2000. M., MoKaynapoaHbie oTHOuıeHHa, 2004, c.l31.

Əliyev H.Ə. Azərbaycan Respublikası, Rusiya Federasiyası, Gürcüstan və Ermənistan respublikaları dövlət başçılarının qəbul etdikləri birgə bəyanat. 20 iyun 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXVIII kitab, s. 219.

Əliyev H.Ə. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşdə söhbət. 22 iyun 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXVIII kitab, s. 243-244.

Əliyev H.Ə. Azərbaycan Prezidenti Heydər Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistan Prezidenti Robert Koçaryan arasında görüş. 22 iyun 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXVIII kitab, s. 245.

artırılması , MDB-nin antiterror mərkəzinin təşkili haqqında qərarlar qəbul edildi’^^^. 2001-ci il yanvarın 1-dən fəaliyyətə başlayan mərkəz beynəlxalq terrorizmə qarşı mübarizə problemlərinin monitorinqini keçirir, analitik və digər xarakterli materiallar hazırlayırdı’^^®. Zirvə görüşündə açıq müzakirə oldu. Üç əsas məsələ - iqtisadi inteqrasiya, təhlükəsizlik və humanitar məsələlər müzakirə edildi’^^'.

Əməkdaşlıqda növbəti addım Azərbaycan Respublikası Prezidentinin MDB iştirakçısı olan ölkələrin dövlət başçılarının 2001-ci il avqustun 18-19-da Yaltada keçirilmiş qeyri-rəsmi görüşündə iştirakı oldu. Heydər Əliyev toplantı çərçivəsində Vladimir Putin ilə təkbətək görüşərək MDB ölkələri arasında əlaqələrin inkişaf məsələlərini müzakirə etdi’^^^.

İnteqrasiya və terrorizmə qarşı mübarizə məsələləri dekabrın 1-də Minskdə keçirilmiş MDB sammitində müzakirə edildi. Toplantıda iştirak edən Azərbaycan tərəfi "Dağlıq Qarabağda təcavüzkar separatizmi və terrorizmi ittiham etmək" sənədini təqdim etsə də, qəbul olunmadı. Prezidentlər Vladimir Putin, Heydər Əliyev və Robert Koçaryanm görüşündə bu məsələ ətraflı müzakirə edildi, lakin Azərbaycanın və Ermənistanın mövqelərinin "heç bir dəyişikliklərə" məruz qalmadığı aydın oldu. Azərbaycan Prezidenti vasitəçilərin mövqeyinə münasibət bildirərək dedi ki, ATƏT-in Minsk qrupunun həmsədrləri Ermənistan və Azərbaycanın özlərinin razılığa gələcəklərini güman edirlər. Görüşdən sonra Vladimir Putin bildirdi: “Rusiya Azərbaycan və Ermənistana təzyiq göstərə bilmir, bu çox çətin münaqişədir və siz özünüz həll etməlisiniz. Tərəflərin münaqişə ilə bağlı qəbul etdikləri hər hansı bir qərarı Rusiya dəstəkləyəcəkdir”.

Belə yanaşma yanlış olub, münaqişənin həllinin uzadılması demək idi. Çünki münaqişənin həllinə yanaşmada təcavüzkar Ermənistanın mövqeyində yumşalma müşahidə edilmirdi. ATƏT-in Minsk qrupu da məhz bu münaqişənin həlli üçün yaradılmışdı. Belə mövqe Minsk qrupunu məsuliyyətdən uzaqlaşdırırdı.

ARXINA. 08.01.2001-05.04.2001. Qovluq Xel 1, v.2.

ARXİNA. 23.06.2001 -07.08.2001. Qovluq X211, v. 100-101.

ARXİNA. 23.06.2001-07.08.2001. Qovluq Xali, v.102-105; ARXİNA. 04.02.2003-28.03.2003. Qovluq X211, v.200-221.

Əliyev H.Ə. Moskva zirvə görüşünün yekunlarına dair MDB ölkələri dövlət başçılarının birgə mətbuat konfransı. 25 yanvar 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXVIII kitab, s. 281-297.

Əliyev H.Ə. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək görüş. 18 avqust 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXIX kitab, s. 331-332. 

MDB iştirakçısı olan ölkələrin dövlət başçıları şurasının növbəti iclası 2001-ci il mayın 31-dən iyunun 1-dək Minskdə keçirildi . Şuranın iclasında kompyuter informasiyası sahəsində cinayətkarlıqla mübarizədə əməkdaşlıq haqqında saziş, MDB ölkələrinin antiterror mərkəzi haqqında dövlət başçıları şurasının qərarının yerinə yetirilməsinin gedişi haqqında məlumat, azad iqtisadi zonanın formalaşdırılması gedişi haqqında məlumat və s. məsələlər müzakirə olundu və müvafiq qərarlar qəbul edildi'^^'*.

Azərbaycan Prezidenti Rusiya Prezidenti Vladimir Putin ilə görüşərək ikitərəfli əməkdaşlıq və Qafqaz regionunda sabitlik məsələlərini müzakirə etdi. Vladimir Putinin fikrincə, Rusiya Qafqazda sabitliyin və təhlükəsizliyin bərqərar edilməsində maraqlı idi’^^^.

Daha sonra Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin keçirilən görüşündə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair fikir mübadiləsi aparıldı'^^*'. Dövlət başçıları Minsk qrupu çərçivəsində danışıqların davam etdirilməsinin, tam sülh əldə edilənədək atəşkəs rejiminin qorunub saxlanılmasının vacibliyini bildirdilər.

Azərbaycan, Gürcüstan, Ermənistan və Rusiya prezidentləri mayın 31-də görüşərək Qafqazda təhlükəsizlik və əməkdaşlığın ən aktual problemlərini müzakirə etdilər'^^’. Azərbaycan Prezidentinin fikrincə, Qafqazda münaqişələr həll edilməyənədək bölgədə sabitlik, təhlükəsizlik və hərtərəfli əməkdaşlıq mümkün deyildi. Dövlət başçıları münaqişələrin tənzimlənməsində beynəlxalq mexanizmlərin və təşkilatların fəal iştirakının xüsusi əhəmiyyət daşıdığını bildirdilər. Yekunda bəyanat qəbul edildi.

^ Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Minskə işgüzar səfəri. -Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 542-563.

MDB üzvü olan ölkələrin dövlət başçıları şurasının qapalı iclası. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 554-556.

Azərbaycan Prezidenti Heydər Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin təkbətək görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. 1 hissə, s. 547-548.

Azərbaycan Prezidenti Heydər Əliyevin, Rusiya Prezidenti Vladimir Putinin və Ermənistan Prezidenti Robert Koçaryanın görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 548.

Azərbaycan Prezidenti Heydər Əliyevin, Rusiya Prezidenti Vladimir Putinin, Gürcüstan Prezidenti Eduard Şevardnadzenin və Ermənistan Prezidenti Robert Koçaryanın görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 549-550.

Görüşdən bir müddət sonra, iyunun 22-də Azərbaycan Respublikası tərəfindən xüsusi qeydlə imzalanmış Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin antiterrorizm mərkəzi haqqmda'^^*, Gürcüstanda Abxaziya münaqişə zonasında sülhü qoruyan kollektiv qüvvələrin olma müddətinin və mandatının uzadılması haqqmda'^^® qərarlar Milli Məclisdə təsdiq edildi.

Birliyin inkişaf perspektivləri, GUÖAM, Avrasiya İttifaqı və digər qurumlarla iş, iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi, azad ticarət zonası, zirvə görüşlərində qəbul edilən qərarların yerinə yetirilməsi, MDB məkanında sabitlik, təhlükəsizlik, beynəlxalq terrorizm, etnik separatizm və b. məsələlər MDB dövlət başçılarının Soçidə keçirilən qeyri-rəsmi zirvə görüşündə müzakirə edildi'^'°.

Bu zaman MDB-nin yaradılmasından 10 il ötürdü. Həmin münasibətlə 2001-ci il noyabrın 30-da Moskvada MDB iştirakçısı olan ölkələrin dövlət başçılarının zirvə görüşü keçirildi. Yubiley görüşündə Rusiya, Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Ermənistan, Gürcüstan, Moldova, Özbəkistan, Tacikistan, Türkmənistan və Ukrayna prezidentləri iştirak edirdilər'^'". İclasda MDB-nin 10 ildəki fəaliyyətinin yekunları və perspektiv üçün vəzifələrinə dair məruzə, MDB-nin yaradılmasının 10 illiyi ilə əlaqədar olaraq dövlət başçılarının bəyanatı, Əfqanıstan ətrafında vəziyyət barədə bəyanat və s. haqqında məsələlər müzakirə edildi. MDB ötən müddət ərzində inteqrasiya üçün zəruri bir formaya çevrilmişdi.

Zirvə görüşü çərçivəsində Azərbaycan, Rusiya, Gürcüstan və Ermənistan prezidentləri "Qafqaz dördlüyü" formatında beşinci dəfə görüşərək regionda münaqişələrin sülh yolu ilə aradan qaldırılması haqqında fikir mübadiləsi apardılar. Daha sonra Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin görüşündə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə

ARXİNA. 23.06.2001-07.08.2001.Qovluq Rbl 1, v.98.

ARXİNA. 23.06.2001-07.08.2001. Qovluq XH1, v.l24.

Azərbaycan Prezidenti Heydər Əliyev Soçiyə gəlmişdir, Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2001.1 hissə, s. 777.

Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 1054-1056.

həllinə dair fikir mübadiləsi oldu. Dövlət başçıları tam sülh əldə edilənədək atəşkəsə əməl olunmasının zərurliyini bir daha təsdiq etdilər'^"^.

Səylərə baxmayaraq, MDB-də inteqrasiya prosesləri zəif gedirdi. 2002- ci il martın 1-də MDB ölkələri arasında iqtisadi məsələləri əhatə edən 59 əsas sənədin üzv ölkələrdə təqdim edilib-edilməməsinə dair İcraiyyə Komitəsi bir məlumat hazırlamışdı'^"^. Məlumatdan aydın olurdu ki, Azərbaycan Respublikası həmin sənədlərdən 43-nü imzalamışdı. Onlardan 7-si qeydlərlə imzalanmış, 16 sənəd isə ümumiyyətlə, imzalanmamışdı'^"". Azərbaycan tərəfi MDB-nin sülhməramlı fəaliyyətə dair sənədlərə qoşulmamışdı. Müstəqil Dövlətlər Birliyinin münaqişəli vəziyyətlər üzrə komitəsinin əsasnaməsi Azərbaycana göndərilmişdi. Lakin Azərbaycan MDB-nin müvafiq sənədlərinə qoşulmadığı üçün belə bir komitənin yaradılmasına zərurət görmədiyini rəsmi şəkildə 2002-ci il mayın 22-də bildirdi'^"^.

MDB orqanlarının fəaliyyətinin səmərəliliyinin artınıması və s. məsələlər 2002-ci il oktyabrın 6-7-də Kişinyovda MDB ölkələrinin dövlət başçıları şurasının iclasında müzakirə edildi. Toplantıda Heydər Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyəti iştirak edirdi'^"®. Səfər çərçivəsində Azərbaycan Prezidenti Moldova Prezidenti ilə görüşərək ikitərəfli münasibətlərə dair məsələləri müzakirə etdi. ATƏT-in Minsk qrupunun həmsədrləri və Ermənistan Prezidenti Robert Koçaryan ilə görüşdə Dağlıq Qarabağ münaqişəsinin həlli yolları barədə fikir mübadiləsi apardı.

Oktyabrın 7-də zirvə görüşündə MDB-nin fəaliyyətinin səmərəliliyinin artırılması, onun orqanlarının fonnalaşdırılması, azad ticarət zonalarının təşkili perspektivləri, cinayətkarlığa qarşı mübarizə tədbirləri və s. müzakirə edildi'^"". Dövlət başçıları müvafiq sənədləri imzaladılar.

Azərbaycan Prezidenti Heydər Əliyevin, Rusiya Prezidenti Vladimir Putinin və Ermənistan Prezidenti Robert Koçaryanın görüşü. - Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2001.1 hissə, s. 1057-1058.

ARXİNA. 01.04.2002-25.04.2002. Qovluq Rol ı, v. 49-52.

Yenə orada, v.50.

ARXİNA. 2002. Qovluq Rs N, v. 202.

Azərbaycan Prezidenti Heydər Əliyevin MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün Kişinyova səfəri. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. 1 hissə, s. 718; ARXİNA. 29.08.2002- 01.10.2002. Qovluq Rsl 1, v.162-164.

Dövlət başçılarının geniş tərkibdə iclası.-Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2002.1 hissə, s.723-724.

Azərbaycan Prezidenti azad ticarət zonalarının təşkil edilməsi haqqında sənədi xüsusi rəyini bildirməklə imzaladı.

Azad ticarət zonalarının yaradılmasının başa çatdırılması və tədricən azad iqtisadi zonaların yaradılmasına keçid; bazar münasibətləri və qarşılıqlı hesablaşmalarla istilik-enerji təminatının səmərəli təmin edilməsi; milli nəqliyyat komplekslərindən səmərəli istifadə edilməsi; ümumi aqrar bazarı və ərzaq topdan satışı şəbəkələrinin yaradılması hesabına dövlətlərin ərzaq təhlükəsizliyinin təmin edilməsi; transmilli korporasiyaların yaradılması; cinayətkar və gizli iqtisadiyyatın sıxışdırılması istiqamətində xüsusi tədbirlərin həyata keçirilməsini hazırlamaq və əlaqələndirmək məsələlərinin müzakirəsi vacib idi'^'**. Bu məqsədlə 2003- cü il yanvarın 29-da Kiyevdə dövlət başçılarının zirvə görüşü keçirildi'^"^. Görüşün nəticəsində bəyanat qəbul edildi'^^°. Bəyanatda MDB ölkələrinin yüksək iqtisadi potensiala malik olduğu, milli iqtisadiyyatların möhkəmləndirilməsinə istiqamətləndirilmiş qarşılıqlı surətdə faydalı əlaqələrin mümkünlüyü vurğulanır, üzv ölkələrin və onların müvafiq orqanlarının səylərinin azad ticarət zonasının yaradılmasının başa çatdırılmasının, ya- nacaq-energetika və nəqliyyat kompleksləri kimi üstün sahələrdə əməkdaşlığın inkişafı zəruri hesab edilirdi.

Azərbaycanın MDB-nin fəaliyyətində iştirakında növbəti addım Yaltada Livadiya sarayında 2003-cü il sentyabrın 19-da keçirilən üzv ölkələrin zirvə görüşü oldu. Toplantıda Azərbaycam Baş Nazir İlham Əliyev başda olmaqla nümayəndə heyəti təmsil edirdi'^^'. İclasda MDB iştirakçısı olan ölkələrin xarici işlər nazirləri və hökumət başçıları şuraları tərəfindən təsdiq edilmiş və dövlət başçılarının müzakirəsinə çıxarılmış məsələlər nəzərdən keçirildi. Üzv dövlətlərin iqtisadi sahədə qarşılıqlı fəaliyyətlərinin inkişafına dair təkliflər, təşkilatın nizamnaməsinə dəyişikliklər, MDB antiterror mərkəzinin rəhbərinin təsdiq edilməsi və s. məsələlər müzakirə edildi. Dövlət başçılarının bəyanatı qəbul olundu.

ARXİNA. 02.01.2003 - 18.03.2003. Qovluq ***N«S,*** v.45-46.

MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. I hissə, s. 37-39.

ARXİNA. 04.02.2003-28.03.2003. Qovluq Xsl 1, v.136-137.

MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003.1 hissə, s. 378-379.

Ümumiyyətlə, ötən illər göstərdi ki, MDB-yə münasibət heç də birmənalı olmamışdır. Boris Yeltsinin 1991-1999-cu illərdə MDB-yə münasibətdə yürütdüyü siyasət nəticəsində yeni müstəqil dövlətlər Rusiyadan tədricən uzaqlaşmışlar. Ondan sonra hakimiyyətə gələn Vladimir Putin isə MDB çərçivəsində yeni münasibətlər və strateji tərəfdaşlıq xəttini seçmişdir'^^^. Həmin xətt ticarət-iqtisadi, siyasi, humanitar və digər istiqamətlərdə əməkdaşlığı nəzərdə tutmuşdur. Bu baxışa görə, MDB Rusiyanın maraq zonası hesab edilirdi. MDB-dən istifadə edərək keçmiş SSRİ-nin bərpası cəhdləri də olmuşdur. Belə mövqenin tərəfdarları bildirirdilər ki, SSRİ-nin dağılması yaxşı heç bir şeyə gətirməmişdir, keçmiş dövrə qayıtmaq lazımdır, tarixən bir olduğumuz üçün əlaqələri də bərpa etmək lazımdır, düşmənçilikdən dostluq və mehriban qonşuluq yaxşıdır, qonşusuz yaşamaq olmaz'^^^. MDB-ni möhkəmləndirməyin tərəfdarlarının fikrincə, Rusiyanın Qərbə qarşı tək durması çətin olduğu üçün o, möhkəmləndirilməli, strukturlarının səmərəliliyi artırılmalı və inteqrasiya prosesləri gücləndirilməli idi.

Ötən müddət ərzində MDB-də münasibətlərin geniş hüquq-müqavilə bazasının yaradılması mümkün olmamışdır. MDB məkanı Rusiya ilə ABŞ, Çin, Yaponiya, Avropa qitəsi ölkələri arasında rəqabət meydanına çevrilmişdir. MDB-nin bəzi ölkələri arasında qurumların yaradılması üçün səylər edilmişdir. Belə qurumlardan biri Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat - GUÖAM olmuşdur.

**roflHH K). PoccHH H CHF; aTHonojiHXHHecKHe BbnoBtı. - i^ypn. “MnpoBa5i** 3KOHOMHKa H MOKflyHapOÄHbie OTHomeHHa”, **M.,** 2009, **Jf24, c.** 90-94.

**KepxMaH r.Jl. CHF: Mextay npoıııauM н HacxoamHM. -^ypn.**

# GUAM-ın QURULMASI VƏ FƏALİYYƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

## GUAM-m yaradılmasını şərtləndirən amillər

Artıq qeyd edildiyi kimi, 1997-ci il oktyabrın 10-da Strasburqda Avropa Şurasına üzv olan ölkələrin dövlət başçılarının ikinci zirvə toplantısı çərçivəsində görüşən Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna prezidentləri ikitərəfli və çoxtərəfli, Avropa, regional təhlükəsizlik, siyasi və iqtisadi əməkdaşlıq məsələlərini müzakirə edərək birgə bəyannamə imzaladılar. Sənədi imzalamaqla dörd dövlətin birliyi - GUAM fəaliyyətə başladı. Bəyannamədə prezidentlər suverenlik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, demokratiya, hüququn aliliyi və insan hüquqlarına hörmət prinsipləri əsasında Avropada sabitliyin və təhlükəsizliyin gücləndirilməsi, təcavüzkar separatizmə qarşı mübarizə məqsədi ilə dördtərəfli əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini vurğulayırdılar.

GUAM-m yaradılmasını bir sıra amillər şərtləndirmişdi. Təşkilatı yaradan ölkələrin yaxın keçmişdə eyni tarixi olmuşdu, yeni şəraitdə də eyni perspektivləri var idi. Avropaya inteqrasiya yolunu seçən bu ölkələrin problemləri eyni idi. Onların arasında ikitərəfli əsasda münasibətlər qurulmuşdu. Münasibətləri regional və beynəlxalq əməkdaşlıq formatında da möhkəmləndirmək və inkişaf etdirmək arzusu təbii idi. Üzv ölkələri Avroatlantik inteqrasiya prosesləri birləşdirirdi. Bir çox illər ərzində ölkələr bu prosesləri əsas tutmuşdular. Əgər birgə səylərlə əməkdaşlıq edilərdisə, bu, əlverişli, asan və tez olardı. Ölkələrin hamısı NATO, Avropa Birliyi ilə inteqrasiya proseslərinin fəal iştirakçısı və antiterror koalisiyasının üzvləri idi. Bu ölkələri təkcə müstəqilliyi möhkəmləndirən amillər birləşdirmirdi. Azərbaycan, Gürcüstan və Moldovanın ərazilərində münaqişələr mövcud idi. Həmin münaqişələrin mənşəyi eyni idi. Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, gürcü-abxaz və gürcü-osetin münaqişəsi və Dnestryanı bölgədəki münaqişə - bütün bunlar ölkələrin ərazi bütövlüyünün pozulmasından, təcavüzkar separatçı niyyətlərin qurbanları olan milyonlarla qaçqın və köçkünü əziyyətlərə, müsibətlərə düçar etmiş etnik təmizləmələrdən yaranmışdı. Buna görə də münaqişələrin həlli istiqamətində səyləri birləşdirmək məqsədəuyğun idi. Həmin ölkələr problemlərinin nizama salınması üçün fəal işləməli və çərçivə prosesləri

hazırlamalı idilər. Münaqişələr üzv ölkələrə normal inkişaf etməyə imkan vermir və Avropaya inteqrasiya proseslərini ləngidirdi.

## Quramun formalaşması və Azərbaycan üçün prioritet sahələri

GUAM-m formalaşmasında mühüm addım 1998-ci il dekabrın 2-də ATƏT Nazirlər Şurasının Osloda keçirilən yeddinci toplantısı zamanı Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna xarici işlər nazirlərinin görüşü oldu'^^". Görüşdə bu ölkələr arasında siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığa dair geniş məsələlər müzakirə edildi. Nazirlər GUAM daxilində əməkdaşlığın, qarşılıqlı fəaliyyətin əhəmiyyətini, perspektivləri olduğunu və qurumun beynəlxalq strukturlarda fəallığım artırmağın vacibliyini bildirdilər, Azərbaycan və Gürcüstanın Avropa Şurasına qəbul edilməsinə tərəfdar çıxdılar. Onlar Azərbaycan, Gürcüstan və Moldovanın ərazilərində münaqişələrin tənzimlənməsi, ölkələrin suverenliyinin, ərazi bütövlüyünün bərpası üçün birgə səylər göstərəcəklərini, Avropada adi silahlı qüvvələr haqqında müqavilənin uyğunlaşdırılmasma dair danışıqlarda səyləri əlaqələndirməyin vacibliyini bəyan etdilər. Nazirlər ATƏT regionunda sabitlik və təhlükəsizlik üçün iqtisadi amilin rolunun əhəmiyyətini qeyd edərək bu sahədə dövlətlərin səylərinin vacibliyini bildirdilər.

GUAM ölkələrinin dövlət başçıları 1999-cu ilin aprel ayında Vaşinqtonda NATO-nun yaradılmasının 50 illiyinə həsr edilmiş tədbirlər zamanı görüşdülər. Aprelin 24-də Özbəkistanın Vaşinqtondakı səfirliyində keçirilən görüşdə təşkilatın ötən müddət ərzindəki fəaliyyəti müzakirə edildi. Görüşdə Özbəkistan quruma üzv qəbul edildi. Təşkilat GUÖAM adlandırıldı. Azərbaycan Prezidenti bəyanat verərək təşkilatın qarşısında duran vəzifələrdən bəhs etdi'^^^. Hər şeydən əvvəl, coğrafi prinsipə əsaslanan bu təşkilat üzv ölkələr arasında iqtisadi əməkdaşlığı və Transqafqaz magistralı vasitəsi ilə əməkdaşlıq məqsədlərinə xidmət edirdi.

Distributed at the request of Azerbaijan on behalf of Georgia, Moldova and Ukraine. 7-th OSCE Ministerial Council Meeting. Press Release. Oslo, Norway, 2-3 December, 1998. - OSCE Archive in Prague. 7-th Ministerial Council. Oslo, 2-3 December, 1998. FileNo: 262.

Əliyev H.Ə. GUÖAM ölkələrinin dövlət başçılarının görüşündə bəyanat. 24 aprel 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XX kitab, s.81-82.

GUÖAM daxilində Azərbaycan üçün əməkdaşlığın prioritet istiqamətləri münaqişələrin həlli; Avroatlantik və Avropa təhlükəsizlik və əməkdaşlıq strukturlarına inteqrasiya çərçivəsində qarşılıqlı siyasi fəaliyyət; iqtisadi əməkdaşlıq, xüsusən Avropa - Cənubi Qafqaz - Mərkəzi Asiya tranzit dəhlizinin açılması; etnik və dini dözümsüzlüyə qarşı fəaliyyət sahəsində əməkdaşlıq idi.

Azərbaycan baxımından GUÖAM qarşılıqlı fəaliyyətin səmərəli bir forumuna çevrilmişdi. ABŞ da bu quruma xüsusi maraq göstərirdi. ABŞ senatının Avropa məsələləri üzrə xarici əlaqələr komitəsinin sədri Qordon Smitin rəhbərliyi altında 2000-ci ilin may ayında GUÖAM-a həsr edilmiş seminar keçirildi. Seminarda iştirakçı ölkələrin qurumun gələcəyinə baxışları və yanaşmaları təqdim olundu'^^®.

GUÖAM ölkələrinin prezidentləri 2000-ci il sentyabrın 6-da Nyu Yorkda Minilliyin zirvə görüşü çərçivəsində bir araya gəldilər . Görüşün yekununda prezidentlərin Nyu York memorandumu qəbul edildi. Dövlət başçıları GUÖAM çərçivəsində çoxtərəfli əməkdaşlığa səciyyəvi xarakter verərək onu fəallaşdırmaq haqqında qərara gəldilər, ölkələrinin xalqlarının rifahını yüksəltmək üçün əlverişli şərait yaradılmasını, təhlükəsiz və səmərəli Avropa - Qafqaz - Asiya nəqliyyat kommunikasiyanın daha da inkişaf etdirilməsini, habelə azad ticarət prinsipləri əsasında onların arasında qarşılıqlı surətdə faydalı ticarət münasibətlərinin dərinləşdiril- məsini GUÖAM çərçivəsində əməkdaşlığın əsas vəzifələri kimi müəyyənləşdirdilər. Bu məqsədlə GUÖAM çərçivəsində azad ticarət rejiminin qurulmasına başlamağı qərara aldılar. Dövlət başçıları regionda münaqişələrin aradan qaldırılması prosesinin uzanması ilə əlaqədar narahat olduqlarını bildirərək bu münaqişələrin hamıhqla qəbul edilmiş prinsiplər, BMT və ATƏT qətnamələri və qərarları əsasında dinc vasitələrlə həllinə tərəfdar çıxdılar. Prezidentlər dövlətlər və xalqlar arasında dostluq münasibətlərini təhlükə qarşısında qoyan, dövlətlərin ərazi bütövlüyünə, təhlükəsizliyinə və sabitliyinə təhlükə törədən, beynəlxalq əməkdaşlığa mane olan, insan hüquqlarının, əsas azadlıqlarının və cəmiyyətin demokratik əsaslarının pozulmasına doğru aparan davakar separatizmi və digər hüquqa zidd hərəkətləri pislədilər. Onlar dünya siyasi və iqtisadi proseslərində daha fəal iştirak etmək məqsədi ilə beynəlxalq təşkilatlar.

Paşayev H.M. Yüksəkliyə doğru. Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı ilk səfirinin seçilmiş məqalələri, s. 156.

Əliyev H.Ə. GUÖAM dövlətləri başçılarının zirvə görüşü. 6 sentyabr 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXX kitab, s.6-8.

forumlar, iqtisadi ittifaqlar və ticarət ittifaqları çərçivəsində əməkdaşlığı inkişaf etdimək niyyətlərini bəyan etdilər’^^^

Zirvə görüşündən sonra fəaliyyət intensivləşdirildi. GUÖAM ölkələri milli əlaqələndiricilərinin 2001-ci il fevralın 20-21-də Daşkənddə keçirilən V iclasında azad ticarət zonalarının yaradılmasına dair saziş layihəsi üzərində işin dövlət başçılarının növbəti görüşünədək davam etdirilməsi haqqında razılıq əldə edildi. Azad ticarət zonasının yaradılması haqqında sazişin başlıca məqsədi üzv ölkələrin bir-birindən idxal etdikləri malların qarşılıqlı surətdə gömrük rüsumlarından azad edilməsi prinsiplərini müəyyənləşdirmək idi'^^®.

Milli əlaqələndiricilərin 2001-ci il mayın 17-18-də Kiyevdə keçirilən VI iclasının gündəliyinə GUÖAM ölkələri arasında azad ticarət zonası haqqında sazişin layihəsi üzərində işin başa çatdırılması, qarşılıqlı konsul yardımı, informasiya ofisinin fəaliyyəti haqqında müvəqqəti əsasnamənin layihəsinin imzalanması və s. məsələlər daxil edilmişdi'^®°. Müzakirələr zamanı tərəflər konkret məsələlər barədə razılığa gəldilər.

2001- ci il iyunun 6-7-də Yaltada keçirilmiş ilk zirvə toplantısı GUÖAM-m beynəlxalq struktur kimi formalaşmasında böyük rol oynadı. İyunun 7-də zirvə görüşünün açılışı oldu. Toplantıda Azərbaycan, Ukrayna, Gürcüstan, Özbəkistan və Moldova prezidentləri iştirak edirdilər'^®'. Gündəlikdə üzv ölkələrdə enerji təhlükəsizliyinin təmin edilməsinin aktual vəzifələri, TRASEKA layihəsinin sürətləndirilməsi məqsədi ilə vacib tədbirləri müəyyənləşdirmək, azad ticarət zonalarının yaradılması'^®^ kontekstində iqtisadi əməkdaşlığı fəallaşdırmaq və s. məsələlərin müzakirəsi dayanırdıAzərbaycan Prezidenti çıxış edərək GUÖAM-m

Əliyev H.Ə. BMT-nin Minilliyin sammiti çərçivəsində GUÖAM prezidentləri görüşünün rəsmi məlumatı. 6 sentyabr 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXX kitab, s. 6-8.

ARXİNA. 07.04.2001-22.06.2001. Qovluq Xal 1, v. 135.

'^“ARXİNA. 07.05.2001-22.06.2001. Qovluq Xali, v. 110, 111.

Azərbaycan Prezidenti Heydər Əliyevin GUÖAM təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının görüşündə iştirak etmək üçün Yaltaya səfəri. — Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2001. 1 hissə, s. 589-593. '^“ARXİNA. 07.04.2001-22.06.2001. Qovluq Xali, v. 125-133.

‘ARXINA. 07.04.2001-22.06.2001. Qovluq Xali, v. 112.

keçdiyi inkişaf yoluna diqqət yetirdi’^®'*. Onun fikrincə, GUÖAM-m özünü hər hansı təşkilata qarşı qoymaq məqsədi yox idi.

Zirvə görüşünün yekununda dövlət başçıları tərəfindən imzalanmış GUAÖM-ın Yalta bəyannaməsi iştirakçı dövlətlər arasında əməkdaşlığın başlıca məqsəd, prinsip və istiqamətlərini müəyyənləşdirirdi. Bəyannamədə tərəflər əməkdaşlığı daha da dərinləşdirəcəklərini bildirirdilər’^®^. Sənəddə çoxtərəfli əməkdaşlığın əsas istiqamətləri təsbit edilmiş, məqsəd və prinsipləri, iştirakçı ölkələrin rəhbərlərinin görüşlərinin keçirilməsi formatı və dövriliyi müəyyənləşdirilmişdi. Eyni zamanda birgə rəsmi məlumat dərc edildi’^®®. Konsulluq məsələlərində qarşıqhqh yardım göstərilməsi haqqında GUÖAM iştirakçısı olan dövlətlərin konvensiyası imzalandı.

Dövlət başçılarının razılığına əsasən Ukrayna Xarici İşlər Nazirliyi hazırladığı GUÖAM-ın İnformasiya ofisinin əsasnaməsi haqqında layihə- ni avqustun 31-də Azərbaycan tərəfinə göndərdi . informasiya ofisinin əsas məqsədi tərəflərə və sahibkarlıq qurumlarına iqtisadiyyat, enerji, mədəni-humanitar və digər sahələrdə layihə və proqramların həyata keçirilməsinə kömək etmək, dövlətlərarası siyasi əməkdaşlıqda informasiya, təşkilatı və texniki yardım göstərmək və informasiya təminatını həyata keçirmək idi. Maliyyələşdirmədə bütün ölkələr üçün bərabər pay nəzərdə tutulmuşdu.

2001- ci il 11 sentyabrda ABŞ-da törədilən terror aktları GUÖAM-ın da fəaliyyətinə təsir etdi. Terrorizmə qarşı mübarizədə ABŞ ilə əməkdaşlığın genişləndirməsi zərurətə çevrildi.

Terror aktı törədildikdən bir neçə gün sonra, sentyabrın 18-19-da Bakıda GUÖAM milli əlaqələndiricilər komitəsinin VII iclası keçirildi. Milli əlaqələndiricilər Yalta görüşünün nəticələrini təşkilatın yaradılması baxımından mühüm hesab etdilər; azad ticarət zonalarının yaradılmasına dair sazişin paraflanması üçün növbəti görüşün Tbilisidə keçirilməsini tövsiyə etdilər; 2001-ci ilin oktyabr ayında Bakıda nəqliyyat dəhlizlərinin təhlükəsizliyi və səmərəli fəaliyyəti məsələlərini müzakirə etmək üçün görüş keçirilməsini razılaşdırdılar; sərhəd xidməti rəhbərlərinin 2001-ci

^ Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 596-600.

ARXİNA. 07.04.2001-22.06.2001. Qovluq XU ı, v. 113.

1266 GUÖAM-ın Yalta zirvə görüşünün yekun rəsmi məlumatı. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. 1 hissə, s. 601-602.

ARXINA. 08.08.2001-12.09.2001. Qovluq Xel 1, v.198-200.

‘ ARXİNA. 08.08.2001-12.09.2001. Qovluq Xsl 1, v.l97.

ilin sonlarında Tbilisdə görüşünün keçirilməsi barədə razılığa gəldilər; Bakıda üzv ölkələrin biznes forumunun keçirilməsi təklifini bəyəndilər; Avropa - Asiya - Qafqaz mədəniyyət dəhlizinin yaradılması təklifinin, ABŞ+GUÖAM dialoqunun və ABŞ dövlət katibi ilə xarici işlər nazirlərinin, sərhədlərin möhkəmləndirilməsi, müstəqillik və ərazi suverenliyinin qorunması istiqamətində üzv ölkələrin ekspertlərinin ABŞ ekspertləri ilə görüşlərinin keçirilməsinin, beynəlxalq təşkilatlar ilə əlaqələrin genişləndirilməsinin zəruriliyini qeyd etdilər; beynəlxalq terrorizmə qarşı mübarizədə fəaliyyətin əlaqələndirilməsinin vacibliyini bildirdilər və s.

Yalta zirvə görüşündə əldə edilmiş razılaşmaların yerinə yetirilməsi və milli əlaqələndiricilər komitəsinin Bakıda keçirilmiş görüşündən ötən müddət ərzində fəaliyyəti müzakirə etmək üçün 2002-ci il yanvarın 24-25- də Tbilisidə GUÖAM milli əlaqələndiricilərinin VIII iclası oldu'^™. İclasda Yalta zirvə görüşünün qərarlarının həyata keçirilməsini fəallaşdırmaq tövsiyə edildi, siyasi, iqtisadi və humanitar sahələrdə GUÖAM-ın səylərinin artırılmasının vacibliyi vurğulandı.

Artıq qeyd edildiyi kimi, GUÖAM ölkələrinin prezidentləri Nyu York memorandumunda qurum çərçivəsində əməkdaşlığın əsas vəzifəsi kimi sahələrarası kooperasiyanın qurulmasını və bu məqsədlə üzv ölkələrin müvafiq dövlət qurumları arasında birbaşa əlaqələrin təsis edilməsini müəyyənləşdirmişdilər. Bununla əlaqədar olaraq nəqliyyat, energetika, iqtisadiyyat və ticarət, informatika və telekommunikasiya, mədəniyyət, turizm, elm və təhsil, terrorçuluq, mütəşəkkil cinayətkarlıq və narkotiklərin yayılması ilə mübarizə sahələrində işçi qrupların yaradılması və üzv ölkələrdə göstərilən sahələr üzrə müfaviq nümayəndələrin təyin olunması təklifi irəli sürüldü. Bir müddət sonra Azərbaycan göstərilən sahələr üzrə nümayəndələrini təyin etdi. İşçi qrupu yaradıldı.

Milli əlaqələndiricilər komitəsinin növbəti iclası 2002-ci il iyulun 2-də Bakıda keçirildi. Ukrayna və Gürcüstanın xarici işlər nazirləri, Moldovanın xüsusi tapşırıqlar üzrə səfiri üzv ölkələrin xarici işlər nazirlərinin görüşündə iştirak etmək üçün Azərbaycana səfər etdilər. Keçirilən görüşdə təşkilat çərçivəsində əməkdaşlıq üçün aktual olan məsələlər, xüsusən üzv dövlətlərin başçılarının Yaltada keçirilməsi nəzərdə tutulan zirvə görüşünə hazırlıq, milli əlaqələndiricilərin yanvarın 24-25-də Tbilisidə keçirilmiş 8-ci iclasının yekunlarının yerinə yetirilməsi məsələləri müza-

[1269] ARXİNA. 04.09.2001-05.10.2001. Qovluq Ko6,v. 104-106.

' ARXİNA. 2002. Qovluq XslO, v. 23.

kirə edildi. GUÖAM-ın informasiya ofisinin müvəqqəti əsasnaməsi qəbul olundu. İqtisadi əməkdaşlığın, nəqliyyat dəhlizlərinin təhlükəsiz və səmərəli fəaliyyət göstərməsinin əhəmiyyəti qeyd edildi, azad ticarət zonasının yaradılması və ABŞ ilə əməkdaşlıq vacib hesab edildi. Xarici işlər nazirləri beynəlxalq terrorizmə qarşı mübarizədə səylərini birləşdirəcəklərini bildirdilər, üzv ölkələrin ərazi bütövlüyü və suverenliyinə qarşı yönəlmiş hər hansı cəhdləri və təcavüzkarlığı pislədilər. Nazirlər zirvə toplantısının sənədlərini hazırladılar.

Toplantıdan sonra xarici işlər nazirləri ilə Azərbaycan Prezidentinin görüşündə təşkilatın fəaliyyətini gücləndirmək və Yaltada keçiriləcək zirvə görüşünə hazırlığın vəziyyəti müzakirə edildi’^’’. Əməkdaşlığı genişləndirməyin konkret yolları göstərildi.

Dövlət rəhbərlərinin zirvə görüşü 2002-ci il iyulun 20-də Yaltada keçirildi. Toplantıda Azərbaycan'™, Gürcüstan, Ukrayna və Moldova prezidentləri və Özbəkistanın Ukraynadakı səfiri iştirak edirdilər.

Gündəlikdə xarici işlər nazirlərinin bir müddət əvvəl Bakı görüşündə razılaşdırılmış məsələlər dururdu. Toplantıda nitq söyləyən Heydər Əliyev birliyin ötən müddət ərzində özünü təsdiqlədiyini, üzv ölkələr arasında əməkdaşlığın, dövlətlərin suverenliyinin və müstəqilliyinin möhkəmlənməsinə xidmət etdiyini, imzalanacaq sənədlərin əməkdaşlığı yeni səviyyəyə çıxaracağını qeyd etdi'"^^.

Zirvə görüşünün yekununda Azərbaycan, Ukrayna, Gürcüstan və Moldova prezidentləri regionda sabitliyin və təhlükəsizliyin təmin edilməsi sahəsində birgə səylər haqqında bəyanatı'™, GUÖAM-ın fəaliyyətində müşahidəçilərin statusu haqqında qərarı, GUÖAM dövlətlərinin xarici işlər nazirləri şurası haqqında əsasnaməni və zirvə görüşünün yekun rəsmi məlumatını imzaladılar. Bəyanatda BMT nizamnaməsinə və ATƏM-in Helsinki yekun aktının prinsiplərinə bağlılıq ifadə edilirdi. Ölkə

Azərbaycan Prezidenti Heydər Əliyev GUÖAM ölkələrinin nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 457-459.

GUÖAM-ın üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşünün açılışı. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. I hissə, s. 502-503.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 503-507.

Regionda sabitliyin və təhlükəsizliyin təmin edilməsi üzrə birgə səylər haqqında bəyanat. 20 iyul 2002-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. II hissə, s. 349-350.

rəhbərləri terrorçuluğa, mütəşəkkil cinayətkarlığa qarşı milli qanunvericiliyin təkmilləşdirilməsi, uyğunlaşdırılması, dövlət sərhədlərinin və sərhəd nəzarətinin, nəqliyyat dəhlizlərinin təhlükəsizliyinin daha etibarlı təmin edilməsi və s. sahələrdə əməkdaşlıq haqqında niyyətlərini ifadə **etdilər'^'^**

Xarici işlər nazirləri isə GUÖAM-ın üzvü olan dövlətlər arasında azad ticarət zonası yaradılması haqqında sazişi, terrorizm, mütəşəkkil cinayətkarlıq və digər təhlükəli cinayətlər ilə mübarizə sahəsində GUÖAM- ın üzvü olan dövlətlərin hökumətləri arasında sazişi, GUÖAM-ın Kiyevdə informasiya ofisi haqqında sazişi imzaladılar. Həmçinin mədəniyyət və iqtisadi əlaqələr sahəsində əməkdaşlığa dair sənədlər də imzalandı.

Zirvə görüşü qurumun fəaliyyətinin genişləndirilməsində mühüm bir addım idi. Əməkdaşlığın konkret istiqamətlərinin müəyyənləşdirilməsi faydalı oldu. Bu istiqamətlərdən biri terrorizmə, mütəşəkkil cinayətkarlığa və narkotiklərin yayılmasına qarşı mübarizə idi. 2002-ci il oktyabrın 26-
27- də Bakıda GUÖAM çərçivəsində terrorizmə, mütəşəkkil cinayətkarlığa və narkotiklərin yayılmasına qarşı işçi qrupun üçüncü iclası oldu. Noyabrın 26-27-də isə Tbilisidə milli əlaqələndiricilərin növbədənkənar iclası keçirildi'^'^. İclasda milli əlaqələndiricilər GUÖAM Nazirlər Şurasının 2002-ci il sentyabrın 14-18-də keçirilmiş birinci iclasının qərarlarının icrasını müzakirə etdilər, iqtisadiyyat və ticarət üzrə imzalanmış protokolun həyata keçirilməsinin əhəmiyyətini, azad ticarət zonalarının yaradılması haqqında sazişin uyğunlaşdırılması, terrorizmə, mütəşəkkil cinayətkarlığa və narkotiklərin yayılmasına qarşı razılaşmaların həyata keçirilməsinin vacibliyini bildirdilər. Buna dair təşkilatın virtual mərkəzinin yaradılmasının əhəmiyyətini qeyd etdilər. Nazirlər Şurasının 2002-ci il dekabrın 6T7-də Portoda keçiriləcək iclasına təqdim edilən sənədləri hazırladılar, Ukrayna tərəfindən təklif edilən GUÖAM ölkələri Parlament- lərarası Assambleyasının yaradılmasına dair məsələni dinlədilər'^'^.

GUÖAM ölkələri Xarici İşlər Nazirləri Şurasının dekabrın 6-7-də Porto şəhərində keçirilən görüşündə təşkilat çərçivəsində əməkdaşlığın və qarşılıqlı fəaliyyətin inkişafı məsələləri müzakirə edildi. Nazirlər Şurası

---

Terrorizm, mütəşəkkil cinayətkarlıq və digər növ təhlükəli cinayətlərlə mübarizə sahəsində GUÖAM iştirakçısı olan dövlətlərin hökumətləri arasında əmək daşlıq haqqında saziş. 20 iyul 2002-ci il. Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. II hissə, s.354-359.

' ARXINA. 28.10.2002- 30.12. 2002. Qovluq NsS, v.27-30.

' ARXİNA. 28.10.2002- 30.12. 2002. Qovluq NeS, v. 31-32.

təşkilatın 2002-ci il oktyabrın 29-30-da Bakıda keçirilmiş terrorizmə, mütəşəkkil cinayətkarlığa və narkotiklərin yayılmasına qarşı mübarizə üzrə işçi qrupun ikinci iclasında əldə edilmiş razılaşmaları və “Ticarətə və nəqliyyata kömək, sərhəd və gömrük nəzarəti təminatı, terrorizmə, mütəşəkkil cinayətkarlığa və narkotiklərin yayılmasına qarşı mübarizə üzrə GUÖAM - ABŞ çərçivə proqramı”nı bəyəndi. Bu proqram terrorizmə, mütəşəkkil cinayətkarlığa, narkotiklərin yayılmasına və digər təhlükəli cinayət növlərinin yayılmasına qarşı mübarizə üzrə virtual mərkəzin qurulmasını, antiterror istiqamətində məlumatların verilməsi üzrə vahid informasiya məkanının yaradılmasını, sərhəd və gömrük sahələrində əməkdaşlıq və qarşılıqlı fəaliyyətin gücləndirilməsini nəzərdə tuturdu.

Nazirlər 2002-ci il sentyabrın 26-da Kiyevdə təşkilatın iqtisadiyyat və ticarət üzrə işçi qrupunun birinci iclasında imzalanmış protokolun həyata keçirilməsinin, azad ticarət zonalarının yaradılmasına dair hazırlıq komitəsinin 2002-ci il noyabrın 4-5-də Kiyevdə keçirilmiş iclasında qəbul edilmiş sənədlərin əhəmiyyətini vurğuladdan Bununla əlaqədar olaraq Ümumdünya Ticarət Təşkilatı və digər maraqlı təşkilatlarla fəal əməkdaşlığın vacibliyini qeyd etdilər.

Xarici İşlər Nazirləri Şurası işçi qrupların əlaqələndiricisi olan ölkələri təsdiq etdi. Azərbaycan Respublikası terrorizmə, mütəşəkkil cinayətkarlığa və narkotiklərin yayılmasına qarşı mübarizə, Gürcüstan mədəniyyət, elm və təhsil, Moldova Respublikası informatika və telekommunikasiya, Ukrayna isə iqtisadiyyat və ticarət məsələləri üzrə işçi qruplarının əlaqələndiriciləri təsdiq edildilər. Nazirlər Şurası ABŞ ilə çərçivə proqramı əsasında sərhəd xidmətləri rəhbərlərinin 2003-cü ilin yanvarında Tbilisidə, gömrük xidməti rəhbərlərinin görüşünün 2003-cü ilin yanvarında Kiyevdə, terrorizmə, mütəşəkkil cinayətkarlığa və narkotiklərin yayılmasına qarşı mübarizə işçi qrupunun görüşünün 2003-cü ilin fevralında Bakıda keçirilməsini məqsədəuyğun hesab etdi. Bakıda keçiriləcək görüş zamanı GUÖAM-ın terrorizmə, mütəşəkkil cinayətkarlığa və narkotiklərin yayılmasına qarşı mübarizə üzrə virtual mərkəzinin birinci təsis toplantısı olmalı idi. Nazirlər Şurası BMT nizamnaməsinin VIII fəslinə uyğun olaraq qeydiyyata alınmaq üçün BMT-yə müraciət etməyi sədr ölkəyə tapşırdı. Şura təşkilatdaxili sənədlərin qüvvəyə minməsini sürətləndirməyi vacib hesab etdi. İclasın yekununda bəyannamə qəbul edildi'^^®. Növbəti

' ARXINA. 28.10.2002- 30.12.2002. Qovluq Xs S, v.24-26.

üçüncü görüşün 2003-cü ilin may ayında Tbilisidə keçirilməsi qərara alındı.

Bu zaman GUÖAM ilə ABŞ arasında əlaqələr də intensivləşdirildi. 2002- ci il dekabrın 23-də Vaşinqtonda ABŞ dövlət katibinin Avropa və Avrasiya işləri üzrə köməkçisi A.Elizabet Cons ilə GUÖAM ölkələrinin Vaşinqtondakı səfirlərinin görüşü oldu’^’’. Görüşdə əməkdaşlığın perspektivləri müzakirə edildi. Tərəflər ticarətə və nəqliyyata kömək göstərilməsi və hüquq-mühafizə fəaliyyəti sahəsində ABŞ+GUÖAM birgə layihəsi ilə əlaqədar gələcək tədbirlər barədə razılığa gəldilər.Onlar həmin layihələri həyata keçirməklə terrorizm və mütəşəkkil cinayətkarlıqla mübarizədə və çoxtərəfli əməkdaşlığın stimullaşdırılmasmda özlərinin ümumi məqsədlərinə nail olmağa çalışırdılar. Birgə layihələr qarşılıqlı münasibətləri yeni səviyyəyə çıxarmağa yönəldilmişdi. Görüşün yekununa dair bəyanat qəbul olundu.

Ümumiyyətlə, 2001-ci ildə Yalta sammitindən ötən müddət ərzində təşkilatın normativ-hüquqi bazası praktik olaraq yaradılmışdı. Təşkilatın fəaliyyəti dünya birliyi tərəfindən də diqqətlə izlənilirdi. Beynəlxalq təşkilatlar GUÖAM-a maraq göstərirdilər. Məsələn, ATƏT azad ticarət zonalarının yaradılmasına dair texniki-məsləhət layihələri təqdim etməyə, ABŞ ticarət və nəqliyyatın inkişafı üçün həm özü, həm də Dünya Bankı tərəfindən yardımlar etməyə hazır olduğunu bildirmişdi. Qeyd etmək lazımdır ki, 2001-ci il ərzində ABŞ GUÖAM-a 8,5 milyon dollar, 2002-ci ildə isə 37 milyon dollar yardım ayırmışdı’^*”.

2003- cü il fevralın 7-8-də Tbilisidə üzv ölkələrin sərhəd idarələri rəhbərlərinin görüşü keçirildi. Görüşdə qarşılıqlı əməkdaşlığın ən vacib məsələləri - terrorizmə qarşı mübarizə, sərhədlərin etibarlı qorunması, nüvə materiallarının qeyri-qanuni daşınmasına qarşı birgə fəaliyyət və s. sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu. Sonda birgə bəyanat qəbul edildi'^®’. Fevralın 11-də isə gömrük idarələri rəhbərlərinin görüşü keçirildi. Fevralın 26-27-də Bakıda GUÖAM çərçivəsində terrorizmə, mütəşəkkil cinayətkarlığa və narkotiklərin yayılmasına qarşı işçi qrupun üçüncü iclasında işçi qrupun ikinci iclasının. Xarici İşlər Nazirləri

ABŞ və GUÖAM ölkələri təhlükəsizlik və iqtisadiyyat sahəsində əməkdaşlığı gücləndirirlər. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 920-922.

Paşayev H.M. Yüksəkliyə doğru. Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı ilk səfirinin seçilmiş məqalələri, s. 156.

ARXİNA. 04.02.2003-28.03.2003. Qovluq Xal 1, v. 3-4.

Şurasının 2002-ci il dekabrın 6-7-də Porto şəhərində keçirilən görüşünün, 2002- ci il dekabrın 23-də Vaşinqtonda keçirilmiş GUÖAM+ABŞ görüşünün, 2001-ci il noyabrın 7-8-də Bakıda üzv dövlətlərin nazirlik və idarə nümayəndələrinin nəqliyyat dəhlizlərinin təhlükəsiz və səmərəli fəaliyyətinə həsr edilmiş görüşünün nəticələri, 2002-2003-cü illərdə terrorizmə, mütəşəkkil cinayətkarlığa və narkotiklərin yayılmasına qarşı əməkdaşlıq proqramının həyata keçirilməsi, GUÖAM+ABŞ çərçivə proqramı daxilində ticarət və nəqliyyat, sərhəd və gömrük nəzarətinin təmin edilməsi, terrorizmə, mütəşəkkil cinayətkarlığa və narkotiklərin yayılmasına qarşı mübarizəyə dair təkliflər, təşkilatın terrorizmə, mütəşəkkil cinayətkarlığa və narkotiklərin yayılmasına qarşı mübarizə üzrə virtual mərkəzinin yaradılması məsələləri müzakirə edildi'^*^. Konkret layihələr razılaşdırıldı.

GUÖAM ölkələri martın 6-da BMT Təhlükəsizlik Şurasının terror əleyhinə komitəsinin xüsusi iclasında iştirak etdilər. 2003-cü il mayın 13-14-də GUÖAM-ın nəqliyyat sahəsi üzrə işçi qrupunun birinci görüşündə GÜÖAM və TRASEKA ölkələri arasında sıx işgüzar əməkdaşlığın qurulması, sərhəd-gömrük prosedurlarının sadələşdirilməsi üçün vahid hüquqi bazanın yaradılması, vaqon parklarından birgə istifadənin həyata keçirilməsi məsələləri razılaşdırıldı"".

GUÖAM ölkələri Xarici İşlər Nazirləri Şurasının mayın 24-də Tbilisidə keçirilən üçüncü iclasında BMT, ATƏT, Avropa Komissiyası, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Miqrasiya Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlığı Təşkilatının, Cənub- Şərqi Avropada əməkdaşlıq üzrə təşəbbüsün və ABŞ Dövlət Departamen- tinin nümayəndələri iştirak edirdilər'"^. İclasın gedişində qurumun fəaliyyətinin nəticələri, təşkilat çərçivəsində əməkdaşlığın inkişafı və dərinləşdirilməsi, maraqlı dövlət və təşkilatlarla əlaqələrin qurulması və inkişafı məsələləri barədə razılıq əldə edildi, iyulun 3-4-də keçiriləcək Yalta zirvə görüşünə hazırlıq üçün lazımi tədbirlər həyata keçirildi . Şura qurumun ABŞ ilə əlaqələrinin səmərəliliyini qeyd etdi və Birləşmiş Ştatların nümayəndəsinin Yalta zirvə görüşünə dəvət edilməsi təklifini bəyəndi. Zirvə görüşündə imzalanacaq sənədlərin siyahısı təsdiq edildi. Həmin sənədlər - terrorçuluğa, mütəşəkkil cinayətkarlığa, narkotiklərin yayıl-

[1282] ARXİNA. 2003. Qovluq XelO, v. 21.
ARXİNA. 2003. Qovluq XslO, v. 163.
Tbilisidə GUÖAM ölkələri xarici işlər nazirləri şurasının iclası keçirilmişdir.
- Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. I hissə, s. 222.
ARXİNA. 01.01.2003-31.12.2002. Qovluq Xsö, v. 146.

masına və digər növ təhlükəli cinayətlərə qarşı GUÖAM-ın virtual mərkəzi haqqında qətnamə; üzv ölkələrin dövlətlərarası informasiya-analitika sisteminin əsas prinsipləri; ticarət və nəqliyyata yardım layihəsinə GUÖAM dövlətlərinin qarşılıqlı anlaşma memorandumu; elmlər akademiyaları arasında elm və texnika sahəsində əməkdaşlıq haqqında protokol; təhsil nazirlikləri arasında təhsil sahəsində əməkdaşlıq haqqında saziş; sərhəd mühafizə orqanları arasında əməkdaşlıq haqqında protokol; gömrük işlərində qarşılıqlı yardım və əməkdaşlıq haqqında saziş; fövqəladə vəziyyətlərin qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması sahəsində mülki-hərbi əməkdaşlıq haqqında saziş; zirvə görüşünün birgə bəyannaməsi idi.

Toplantının gedişində GUÖAM+ABŞ görüşü keçirildi. Görüşün əsas məqsədi ABŞ ilə quruma daxil olan ölkələr arasında terrorçuluğa, transmilli cinayətkarlığa qarşı mübarizə, sərhədlərin təhlükəsizliyinin və gömrük nəzarətinin möhkəmləndirilməsi və ticarətə yardım sahələrində birgə fəaliyyət haqqında dialoqun davam etdirilməsi idi. Həmin məsələləri müzakirə etmək üçün quruma daxil olan dövlətlərin nümayəndələri ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Linn Pas- ko ilə görüşdülər. Tərəflər ABŞ+GUÖAM çərçivə proqramı, dövlət- lərarası məlumat sistemi, sərhədlərin təhlükəsizliyi və gömrük nəzarəti üzrə layihələrin yerinə yetirilməsi prosesini müzakirə edərək bəyəndilər. Bu sahələrdə çoxtərəfli əməkdaşlıq Avrasiya dəhlizində möhkəm, sabit inkişafa yönəlmişdi. Görüşün yekununda birgə bəyanat qəbul edildi.

Mayın 27-28-də nəqliyyat məsələləri üzrə işçi qrupun birinci iclası keçirildi. İclasda nəqliyyat sahəsində əməkdaşlığın qurulması və inkişaf etdirilməsi məsələləri müzakirə olundu. İşçi qrupun əsas məqsədi nəqliyyat şəbəkələrinin inkişafı üzərindən beynəlxalq nəqliyyat üçün əlverişli şəraitin yaradılması, malların daşınma müddətinin, müvafiq prosedurların sayının azaldılması və nəqliyyat prosesinin bütün iştirakçıları üçün şəffaflığın təmin edilməsi yolu ilə GUÖAM regionunun inkişafına yardım göstərməkdən ibarət idi.

ABŞ hökuməti də qurumun gələcək perspektivləri ilə yaxından maraqlanırdı. Həmin maraq özünü GUÖAM ölkələrinin Vaşinqtondakı səfirlərinin müavinlərinin iyunun 5-də ABŞ Dövlət Departamentinin Avropa və Avrasiyaya yardım üzrə əlaqələndiricisinin ofisindəki hüquq-mühafizə idarəsinin direktoru C.Marki ilə görüşündə göstərdi. Görüşü açan C.Marki ticarət və nəqliyyat layihəsi üçün strateji fəaliyyət planının hazırlan

masının vacibliyini qeyd etdi'^*^. Bildirdi ki, Macarıstan hökuməti mühafizə-hüquq mərkəzinin yaradılmasına və ticarət və nəqliyyat layihəsinə yardım məqsədi ilə sentyabrın 1-də Bakı və Tbilisiyə ekspertlər göndərilməsinə razılıq vermişdir. Bunun üçün GUÖAM-a sədrlik edən Gürcüstan adından müvafiq məktub göndərilməli idi. Görüşdə GUÖAM-m beynəlxalq təşkilat kimi qeydiyyatdan keçirilməsi məsələsi müzakirə edildi.

Bu zaman təşkilatın işi daha da aktivləşmişdi. Üzv ölkələrin prezidentlərinin enerji dəhlizləri üzrə səlahiyyətli nümayəndələrinin məsləhət şurası haqqında əsasnamə’^*’ qəbul edildi. Xalqların qarşılıqlı iqtisadi və siyasi əməkdaşlığına səy etməsinə cavab verən məsləhət şurası bu siyasətin həyata keçirilməsində praktik addım idi.

Azərbaycan tərəfi eyni zamanda, BMT Baş Məclisinin keçiriləcəyi günlərdə GUÖAM Xarici İşlər Nazirləri Şurasının iclasının və GUÖAM+ABŞ görüşünün gündəliyinə də təkliflərini verdi. Təkliflərdə BMT çərçivəsində GUÖAM ölkələri üçün xüsusi əhəmiyyət kəsb edən məsələlər, məsələn, münaqişələr məsələsinin müzakirəsini keçirmək və birgə mövqedən çıxış etmək faydalı hesab edilirdi. GUÖAM adından BMT Baş Məclisində çıxış edəcək Ukrayna tərəfinin məruzəsinə Azərbaycan aşağıdakı məsələlərin daxil edilməsini tövsiyə etdi: hökumətlərin yeni və dirçəlməkdə olan demokratiyaların səylərinə BMT sisteminin köməyi; BMT qətnamələrini yerinə yetirmək; beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi üçün bəyannamənin həyata keçirilməsini müzakirə etmək; ümumi və tam tərksilah; qanunsuz silah alverinin qarşısını kəsmək üçün dövlətlərə yardım etmək; narkotiklər üzərində beynəlxalq nəzarət; BMT- nin qaçqınların işi üzrə ali komissarının məruzəsi və s.’^**.

Bu müzakirələrdən bir müddət keçmiş, iyunun 24-də ABŞ dövlət katibinin birinci müavini Riçard Armitac GUÖAM ölkələri səfirləri ilə görüşdü'^*®. Daha sonra ABŞ Dövlət Departamentinin Avropa və Avrasiyaya yardım üzrə əlaqələndiricisinin ofisindəki hüquq-mühafizə idarəsinin direktoru C.Marki ilə yeni bir görüş oldu. C.Marki qeyd etdi ki, ABŞ GUÖAM ilə əməkdaşlığını üç istiqamətdə aparacaqdır: ticarət və nəqliyyat proqramı; virtual hüquq-mühafizə mərkəzinin yaradılması;

' ARXİNA. 06.01.2003-29.11.2003. Qovluq X2S, v.53-54.
1287 1288 ARXİNA. 2003. Qovluq X9 10, v. 86.
ARXİNA. 05.04.2003-26.09.2003. Qovluq XsS, v.126-127.
ARXİNA. 06.01.2003-29.11.2003. Qovluq XeS, v. 40-43.

GUÖAM ilə Cənub-Şərqi Avropa Əməkdaşlıq Təşkilatı (SECİ)'^^° arasında təcrübə mübadiləsi'^^'.

İyulun 3-4-də Yaltada GUÖAM ölkələrinin dövlət başçılarının zirvə görüşü keçirildi*^'^. Zirvə görüşü təşkilatın bir illik dövr ərzində fəaliyyətinə yekun vurdu. Onun inkişaf perspektivlərini, qarşıda duran başlıca məqsəd və vəzifələrini müzakirə edərək müəyyənləşdirdi. Nümayəndə heyətləri başçılarının çıxışlarının əsas mahiyyəti bütün fəaliyyət istiqamətləri üzrə real tərəqqinin mövcud olmasının, ABŞ+GUÖAM çərçivə proqramının inkişaf etdirilməsinin zəruriliyinin, iqtisadiyyat sahəsində fəaliyyətin, o cümlədən azad ticarət zonasının intensivləşdirilməsinin, nəqliyyat infrastrukturunun inkişafının, sərhəd və gömrük sahələrində əməkdaşlığın, dövlətlərarası informasiya sisteminin qurulması, həmçinin terrorizmə və mütəşəkkil cinayətkarlığa qarşı mübarizə üzrə Virtual Mərkəzin qurulmasının vacibliyinin vurğulanması ilə səciyyələnirdi. İki günlük görüşün yekununda terrorçuluq, mütəşəkkil cinayətkarlıq, narkotik- lərin yayılması və digər növ təhlükəli cinayətlərə qarşı GUÖAM-ın Virtual Mərkəzi haqqında qətnamə; üzv ölkələrin dövlətlərarası informasiya- analitika sisteminin əsas prinsipləri; ticarət və nəqliyyata yardım layihəsinə GUÖAM dövlətlərinin qarşılıqlı anlaşma memorandumu; elmlər akademiyaları arasında elm və texnika sahəsində əməkdaşlıq haqqında

SECİ 1998-ci ildən fəaliyyət göstərirdi. Bu qurum Avropa ölkələri arasında iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi, regionda tranzit-nəzarət sisteminin yaxşılaşdırılması, bütün növ cinayətlərə, o cümlədən terrorizm, mütəşəkkil cinayətkarlıq, transmilli cinayətkarlıq, insan alveri, qanunsuz silah alveri, narkotik-lərin qanunsuz dövriyyəsi, maliyyə və yüksək texnologiyalar sahəsində cinayətlər, qaçaqmalçılıq, nəqliyyat vasitələrinin qaçırılması və s. növ cinayətlərə qarşı mübarizə aparırdı. Təşkilata üzv və müşahidəçi ölkələrin müvafiq orqanları arasında SECİ-nin daimi müşavirləri olan İnterpolun və Avropolun köməyi ilə yaradılmış məlumat-informasiya bazası əsasında geniş informasiya mübadiləsi və birgə mübarizə həyata keçirilirdi. Təşkilatın tam hüquqlu üzvləri Albaniya, Bosniya və Hersoqovina, Bolqarıstan, Yunanıstan, Macarıstan, Makedoniya, Moldova, Rumıniya, Sloveniya və Türkiyə, müşahidəçi ölkələri isə Avstriya, Belçika, ABŞ, Fransa, İtaliya, Ukrayna idi. Təşkilat İnterpol, Avropol, ABŞ Federal Təhqiqat Bürosu, Dövlət Departamenti, Beynəlxalq Miqrasiya Təşkilatı, Miqrasiya Siyasəti üzrə Beynəlxalq Mərkəz ilə əməkdaşlıq edirdi. Azərbaycan 2002-ci il aprelin 8-dən bu qurumun işində müşahidəçi kimi iştirak edirdi.

ARXİNA. 06.01.2003-29.11.2003. Qovluq JfoS, v.49-50.

GUÖAM-ın Yalta görüşü. - Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2003. 1 hissə, s.265-266.

protokol; təhsil nazirlikləri arasında təhsil sahəsində əməkdaşlıq haqqında saziş; sərhəd mühafizə orqanları arasında əməkdaşlıq haqqında protokol; gömrük işlərində qarşılıqlı yardım və əməkdaşlıq haqqında saziş; fövqəladə vəziyyətlərin qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması sahəsində mülki-hərbi əməkdaşlıq haqqında saziş imzalandı. Zirvə görüşünün birgə bəyannaməsi qəbul edildi.

2003- cü il sentyabrın 26-da Nyu Yorkda GUÖAM Xarici İşlər Nazirləri Şurasının 5-ci iclası keçirildi. İclasda təşkilatın məqsədləri və fəaliyyət prinsipləri müzakirə edildi'^^^. Azərbaycanın xarici işlər naziri ölkəsinin GUÖAM-a verdiyi əhəmiyyəti vurğuladı, Ermənistanın təcavüzünün nəticələrindən danışdı, əməkdaşlığı daha da yaxşılaşdırmaq üçün təkliflərini söylədi. Ondan sonra çıxış edən Ukraynanın xarici işlər naziri K.İ.Qrişşenko GUÖAM-a BMT-də müşahidəçi statusunun verilməsinin vacib olduğunu bildirdi, BMT Baş Məclisinin 58-ci sessiyası çərçivəsində daha fəal əməkdaşlığa çağırdı, 2004-cü il üçün ABŞ ilə əməkdaşlığın perspektivlərinin müzakirəsini tövsiyə etdi. Üzv ölkələrin Parlament Assambleyasının yaradılmasının vacibliyini, GUÖAM-m üçüncü ölkələr və beynəlxalq təşkilatlarla əməkdaşlıq perspektivlərinə toxunaraq bu məsələyə dair milli əlaqələndiricilərin öz aralarında məsləhətləşmələr aparmalarının lazımlığmı bildirdi.

Gürcüstan səfiri çıxış edərək GUÖAM katibliyinin yaradılması ideyasını dəstəklədi, BMT-də müşahidəçilik statusunun alınmasının, Ukrayna tərəfindən irəli sürülən məlumat ofisinin nəzdində belə katibliyin yaradılmasının vacibliyini vurğuladı, ABŞ ilə əlaqələrin dərinləşdiril- məsini əhəmiyyətli hesab etdi.

Moldova adından bu ölkənin BMT yanındakı daimi nümayəndəsi V.Qriqore danışdı. Moldova tərəfi GUÖAM çərçivəsində 17 sənədi imzalamışdı. O da məlumat ofisinin yaradılması, digər təşkilatlarla əlaqələrin qurulması ideyasını dəstəklədi, GUÖAM-da müşahidəçi statusu almaq üçün müraciət etmiş ABŞ, Rusiya, Rumıniya, Bolqarıstan və digər ölkələrlə danışıqlara başlamağı təklif etdi, birgə bəyannamənin qəbul edilməsinə razı olduğunu bildirdi.

Nazirlər dövlət başçılarının zirvə görüşünün qərarlarının yerinə yetirilməsini müzakirə edərək təşkilatın hüquq-müqavilə bazasının yaradılması və çoxtərəfli əsasda bəzi layihələrin həyata keçirilməsi istiqamətində tərəqqini vurğuladılar, BMT Baş Məclisinin 58-ci sessiyasının gündə

ARXİNA. 2003. Qovluq Xs 10, v.202-204.

liyinə BMT Baş Məclisində GUÖAM-a müşahidəçi statusu verilməsi məsələsini daxil etmək haqqında müraciət etdilər. Şuranın iclasında GUÖAM-ın 2002-2003-cü illərdə Yaltada keçirilmiş zirvə toplantılarında imzalanan terrorizmə, mütəşəkkil cinayətkarlığa, narkotiklərin yayılmasına və digər təhlükəli cinayətlərə qarşı təşkilatın Virtual Mərkəzinin və Dövlətlərarası İnformasiya-Analitik sistemin yaradılmasına dair sənədlərin qüvvəyə minməsi üçün dövlətdaxili prosedurların tezliklə yerinə yetirilməsinin zəruriliyi vurğulandı. Nazirlər iqtisadiyyat, ticarət, terrorizmə və mütəşəkkil cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində maraqlı beynəlxalq və regional təşkilatlarla əməkdaşlığın genişləndirilməsinə tərəfdar çıxdılar, GUÖAM+ABŞ görüşünün keçirilməsini bəyəndilər və qərarlarının yerinə yetirilməsini müzakirə etdilər. Nazirlər GUÖAM-ın iştirakçısı olan dövlətlər arasında azad ticarət zonası yaradılması haqqında saziş ideyasını bəyənərək ekspertlərə layihəni hazırlamağı tapşırdılar. İclas iştirakçıları beynəlxalq təşkilatlar çərçivəsində GUÖAM ölkələrinin ümumi mövqelərinin qorunmasına, o cümlədən münaqişələrin dövlətlərin ərazi bütövlüyünün gözlənilməsi prinsipi əsasında nizama salınmasına dair birgə təşəbbüslərin vacibliyini qeyd etdilər. BMT Baş Məclisi yanında müşahidəçi statusu nəzərə alınmaqla, 2004-cü il üçün BMT çərçivəsində əməkdaşlığın inkişafına dair GUÖAM ölkələrinin fəaliyyət planını müsbət qiymətləndirdilər. Təşkilatın Parlament Assambleyasının qurulmasına dair üzv ölkələrin parlamentlərinə müraciət etmək, GUÖAM-ın informasiya ofisinin yaradılması və onun bazasında Kiyevdə təşkilatın katibliyinin qurulması barədə razılığa gəldilər.

Həmin gün BMT-nin baş qərargahında GUÖAM-i-ABŞ görüşü keçirildi’^^‘'.İclası GUÖAM-a sədrlik edən Gürcüstanın BMT-dəki daimi nümayəndəsi Revaz Adamiya aparırdı. O, qeyd etdi ki, GUÖAM-ın ABŞ ilə əməkdaşlığı böyük əhəmiyyət kəsb edir və bu məqsəd təşkilatın fəaliyyətində prioritetlərdən biridir. Əməkdaşlığı davam etdirmək üçün üzv ölkələr arasında konsensus mövcud idi.

Ondan sonra danışan ABŞ dövlət katibinin müavini Elizabet Cons bir il əvvəl ABŞ-m bu təşkilatla əməkdaşlığına iki konkret və vacib layihəyə dəstək göstərmək niyyətini açıqlamaqla təkan verdiyini vurğuladı. GUÖAM ölkələrinə terrorizmə qarşı mübarizədə fəal iştirak etdikləri üçün təşəkkürünü bildirdi.

' ARXİNA. 2003. Qovluq Nç 10, v. 208-300.

Çıxış edən Azərbaycanın xarici işlər naziri Vilayət Quliyev 2002-ci ildə BMT Baş Məclisinin 57-ci sessiyası çərçivəsində xarici işlər nazirləri səviyyəsində keçirilmiş görüşlərin səmərəli olduğunu bildirdi'^'^. Sayca beşinci olan bu görüş təşkilatın institutlaşdırılması və siyasi cəhətdən inkişafında mühüm rol oynamalı idi. Azərbaycan tərəfinin baxışına görə, mövcud şəraitdə əsas vəzifə dövlətdaxili prosedurların tezliklə başa çatdırılması, 2002 və 2003-cü illərdə Yalta zirvə görüşlərində təsdiq edilmiş sənədlərin qüvvəyə minməsi idi. Xarici işlər naziri sonra diqqəti götürülmüş öhdəliklərin yerinə yetirilməsinə, münaqişələrin tənzimlənməsinə münasibətdə 2002-ci ilin sentyabr ayında Nyu Yorkda qəbul edilmiş vahid mövqe və fəaliyyətin yerinə yetirilməsinin vacibliyinə yönəltdi. Bu məqsədlə BMT baş katibinə Dağlıq Qarabağ, abxaz və Dnestryanı münaqişələrin uzadılmaması və onların Azərbaycan, Gürcüstan və Moldovanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həlli üçün müraciət etməyi məqsədəuyğun hesab etdi. GUÖAM-a BMT nizamnaməsinin 8-ci fəslinə uyğun olaraq regional təşkilat statusu verməyi və bununla bağlı olaraq Azərbaycan tərəfinin hazırladığı birgə bəyannamə layihəsini diqqətə çatdırdı. Layihəyə əsasən GUÖAM münaqişələrin sülh yolu ilə nizama salınmasında BMT-yə xidmətini təklif edə bilərdi. Nazir təşkilata BMT-də müşahidəçi statusunun verilməsi məsələsinin əhəmiyyətini qeyd etdi. GUÖAM-m BMT Təhlükəsizlik Şurasının terror əleyhinə komitəsinin görüşlərində iştirak etməsi əhəmiyyətli idi. 2003-cü il martın 6-da ilk belə bir görüş keçirilmiş və Azərbaycanın BMT yanındakı daimi nümayəndəsi təşkilat adından çıxış etmişdi.Yalta zirvə görüşünün başlıca nailiyyəti terrorizmə, mütəşəkkil cinayətkarlığa, narkotiklərin yayılmasına və digər təhlükəli cinayətlərə qarşı GUÖAM-m Virtual Mərkəzinin, Dövlətlərarası İnformasiya-Analitik Sisteminin yaradılması və GUÖAM ölkələri arasında ticarət və nəqliyyata yardım etmək haqqında qarşılıqlı anlaşmaya dair memorandum olmuşdu. Hüquqi əsasların qurulması ölkələrin müvafiq strukturlarının qarşılıqlı fəaliyyəti üçün zəmin olmalı idi. Azərbaycanın xarici işlər naziri GUÖAM-ın üçüncü ölkələrə və həmçinin beynəlxalq təşkilatlara münasibəti üzərində dayanaraq bildirdi ki, bu məsələyə fərdi qaydada yanaşmaq lazımdır. Azərbaycan tərəfi GUÖAM Parlament Assambleyasının qurulması üçün üzv ölkələrin parlamentlərinə müraciət etmək haqqında Ukraynanın təşəbbüsünə tərəfdar oldu.

[1295] ARXİNA. 2003. Qovluq Xs 10, v. 303-306.

Ukrayna xarici işlər naziri çıxışında Azərbaycan xarici işlər nazirinin qaldırdığı məsələləri bəyəndi. Rabitə bağlantısı üçün ABŞ tərəfindən vəd olunan yardımın vacib olduğunu bildirdi. GUÖAM katibliyinin yaradılmasına ABŞ-m yardımını xahiş etdi. Moldovanın səfiri V.Qriqore GUÖAM+ABŞ çərçivə proqramını müdafiə etdi və ABŞ-m köməyini vacib hesab etdi. Hər iki layihəyə dəstəyini bildirdi. Özbəkistan səfiri A.Vohidov GUÖAM-ı ABŞ-m etibarlı tərəfdaşı adlandırdı.

Nazirlər konkret layihələr hazırlanarkən ABŞ ilə sıx əməkdaşlığın vacibliyini və GUÖAM-m təşəbbüslərinin Birləşmiş Ştatlar hökuməti tərəfindən fəal dəstəkləndiyini vurğuladılar. Xarici İşlər Nazirləri Şurası GUÖAM çərçivəsində nəzərdə tutulan layihələrin gerçəkləşdirilməsində Avropa İttifaqı ilə əməkdaşlıqda maraqlı olduğunu, GUÖAM-t-Avropa İttifaqı və GUÖAM+ABŞ formatında dialoqun davam etdirilməsinə tərəfdar olduğunu da bildirdi. Nazirlər GUÖAM+ABŞ çərçivə proqramının həyata keçirilməsinin gedişini müzakirə edərək aşağıdakı razılaşdırılmış sənədləri təsdiqlədilər: GUÖAM dövlətlərinin ticarətinə və daşımalarına yardım layihəsinin (TDYL) həyata keçirilməsinə dair regional strategiyanın və tədbirlər planının təsdiq edilməsi haqqında qərar; GUÖAM-m Virtual Mərkəzinin (VM) və GUÖAM-m Dövlətlərarası İnformasiya- Analitik sisteminin (DİAS) yaradılması haqqında layihələrin təsdiq edilməsi haqqında qərar; GUÖAM-m rəhbər komitəsinə dair əsasnamə; GUÖAM-m milli əlaqələndiricilər komitəsinin əsasnaməsi; GUÖAM-m müvafiq sahələr üzrə ixtisaslaşan işçi qruplarının ölkə əlaqələndiricisinə dair əsasnamə. Toplantıda həmçinin, GUÖAM-m dövlət başçılarının yekun kommunikesinin və GUÖAM-m regional təşkilat kimi tanınmasına dair birgə bəyanatın layihəsi bəyənildi

Nazirlər TDYL və VM/DİAS layihələrinin dövlətlərində gerçəkləşdirilməsinə qəti yardım göstərmək niyyətində olduqlarını təsdiqlədilər və bu layihələri nəqliyyat dəhlizlərinin ümumavropa sisteminin inkişafı ilə əlaqəli şəkildə həyata keçirməyin vacibliyini vurğuladılar. GUÖAM ölkələrinin ərazilərindən keçən və təhlükəsiz, səmərəli fəaliyyət göstərəcək beynəlxalq daşımaların rəqabət qabiliyyətli və təhlükəsiz xidmətlərini təmin edə biləcək nəqliyyat dəhlizi qurulması haqqında beynəlxalq layihə ideyası bəyənildi.

Toplantıdan bir müddət sonra, 2003-cü il noyabrın 18-19-da GUÖAM-m növbəti iclası keçirildi. İclasda Yalta sammitinin nəticələrinin

' ARXİNA. 2003. Qovluq Xs 10, v. 205-207.

və zirvə görüşündə qəbul edilmiş sənədlərin qüvvəyə minməsi üçün ölkədaxili prosedurların icrası; 2003-cü il sentyabrın 26-da Nyu Yorkda keçirilmiş Xarici İşlər Nazirləri Şurasının beşinci iclasının və GUÖAM+ABŞ görüşünün nəticələri; ticarətə və daşımaya yardım üzrə ekspert qruplarının Kiyev görüşü, Virtual Mərkəzin və Dövlətlərarası İnformasiya-Analitik sisteminin ekspert qruplarının Bakı görüşünün nəticələri; növbəti sammitə qədər qurumun fəaliyyət proqramı layihələri, sahələr üzrə işçi qrupların ölkə əlaqələndiricisi haqqında əsasnamə, Kiyevdəki informasiya mərkəzinin prosedur qaydaları və nizamnaməsi; qurumun BMT nizamnaməsi çərçivəsində regional təşkilat kimi tanınması barədə dövlət başçılarının bəyannamə layihəsi; GUÖAM - Avropa İttifaqı və GUÖAM-t-ABŞ-ı- Avropa İttifaqı əməkdaşlığı və SECİ mərkəzi ilə əməkdaşlığın inkişaf etdirilməsi məsələləri müzakirə edildi'^®^.

Milli əlaqələndiricilərin iclasında Xarici İşlər Nazirləri Şurasının GUÖAM Parlament Assambleyasının 2004-cü ilin sentyabr ayında Kiyevdə ilk iclasının keçirilməsi haqqında qərarı bəyənildi. Bu qərar Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna parlamentləri rəhbərlərinin Avropa Şurasının üzvü olan ölkələrin parlament sədrlərinin sonralar, 2004-cü il mayın 17-19-da Strasburqda keçirilmiş konfransında qəbul olundu. İclasda həmçinin, GUÖAM-m 2004-cü il zirvə toplantısı çərçivəsində Xarici İşlər Nazirləri Şurasının VII iclasını keçirmək haqqında qərar qəbul edildi. Xarici İşlər Nazirləri Şurasının iclasının yekunlarına dair birgə rəsmi məlumat qəbul olundu'^^^.

2003- cü il noyabrın 26-27-də isə Kiyevdə energetika üzrə GUÖAM işçi qrupunun keçirilən görüşündə işçi qrupun fəaliyyət planının əsasnaməsinin layihəsi müzakirə edildi"'’^ və müvafiq protokol imzalandı*^”®. Tərəflər energetika üzrə layihələrin həm ikitərəfli, həm də çoxtərəfli əsasda həyata keçirilməsində maraqlı olduqlarını bildirdilər.

BMT-də müşahidəçilik statusu məsələsi də həll edildi. 2003-cü il dekabrın 9-da GUÖAM-a BMT tərəfindən müşahidəçilik statusu verildi.

Araşdırma göstərir ki, qısa müddət ərzində GUÖAM formalaşaraq özünü təsdiqləmişdir. Üzv ölkələr arasında əməkdaşlıq reallaşdırılmışdır.

[1297] ARXINA. 01.01.2003-31.12.2002. Qovluq N>6, v. 153.

İstanbulda GUÖAM dövlətləri Xarici İşlər Nazirləri Şurasının VII iclası keçirilmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2004. I hissə, s. 392-393.

[1299] ARXINA. 2003. Qovluq X2IO, v. 93.

' ARXİNA. 2003. Qovluq X2IO, v. 97-99.

Beynəlxalq təşkilatlarla da əlaqələr qurulmuşdur. Təşkilatın işində Azərbaycan yaxından iştirak etmişdir. Azərbaycanın GUÖAM da iştirakı həm ikitərəfli, həm də regional münasibətlər baxımından əhəmiyyətli olmuşdur.

Ümumiyyətlə, Azərbaycan Respublikasının BMT, ATƏT, Avropa Şurası, NATO, İKT, MDB, GUÖAM ilə əməkdaşlığı faydalı olmuşdur. Beynəlxalq təhlükəsizlik və əməkdaşlıq sistemində Azərbaycan özünəməxsus rol oynamışdır. Ölkənin beynəlxalq mövqeləri möhkəmlənmişdir. Çoxtərəfli əməkdaşlıq Azərbaycan Respublikasının beynəlxalq iqtisadi əlaqələrinin genişlənməsinə kömək etmişdir.

# X FƏSİL

# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİNDƏ İQTİSADİYYAT AMİLİ

Məlum olduğu kimi, dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan planlı sosialist təsərrüfat sistemindən imtina edərək azad bazar iqtisadiyyatı yolunu seçdi. Ölkənin daxili sosial-iqtisadi həyatı yeni şəraitə uyğun qurulmağa başlandı. Bu məqsədlə beynəlxalq təcrübədən faydalanmaq üçün Azərbaycan Respublikasının xarici siyasət strategiyasında iqtisadi əməkdaşlıq mühüm yerlərdən birini tuturdu. Belə əməkdaşlıq əsasən aşağıdakı amillərlə əlaqədar idi: əhalinin həyat şəraiti yaxşılaşdırılmalı idi; iqtisadiyyat demokratiyanın təməlini formalaşdıran vətəndaş cəmiyyətinin inkişafı üçün baza rolunu oynayırdı; iqtisadi inkişaf siyasi, demokratik islahatların həyata keçirilməsini şərtləndirirdi; iqtisadi inkişaf beynəlxalq aləmə inteqrasiyanı sürətləndirirdi.

Dövlət müstəqilliyi bərpa edildikdən bir neçə ay keçmiş, 1992-ci il yanvarın 13-də "Azərbaycan Respublikasında xarici investisiya haqqında" qanun qəbul edildi'^®'. Yanvarın 15-də isə "Xarici investisiyanın qorunması haqqında" qanun qəbul olundu'^°^ və dərc olunduğu gündən qüvvəyə mindi'^". 1992-ci il iyunun 15-də Azərbaycan Respublikasında xarici iqtisadi fəaliyyətin dövlət tərəfindən tənzimlənməsini təkmilləşdirmək tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı verildi. Fərmana əsasən taxıl məhsulları satın almaq üçün xüsusi valyuta fondu

ARXINA. 1992.

Xarici investisiyanın qorunması haqqında Azərbaycan Respublikasının qanunu. 13 yanvar 1992-ci il. - Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 29 fevral 1992-ci il. Bakı, 1992, X2 4 (857), s.16-24.

Xarici investisiyanın qorunması haqqında Azərbaycan Respublikası qanununun qüvvəyə minməsi barədə Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının qərarı. - Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 29 fevral 1992-ci il, Xo 4 (857), S.25.

və respublika iqtisadiyyatını sabitləşdirmə fondu bazasında Azərbaycan Respublikasının vahid valyuta fondu yaradıldı'^”'*.

Ölkənin sosial-iqtisadi həyatını yenidən qurmaq məqsədi ilə beynəlxalq iqtisadi-maliyyə qurumları ilə əməkdaşlıq etməyə başlayan Azərbaycan Respublikası Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının qurucularından biri oldu. Azərbaycan dövləti İqtisadi Əməkdaşlıq Təşkilatına üzv oldu, Dünya Bank Qrupu'^°^ və Beynəlxalq Valyuta Fondu*^306'' Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı'^°^, İslam İnkişaf Bankı maliyyə qurumları ilə əməkdaşlıq üçün ilk tədbirləri müəyyənləşdirdi

ARXINA. 1992.

*^°^ Dünya Bankı 1944-cü ildə Bretton-Vuds konfransında təsis edilmişdir. Bu təşkilatın ilk adı Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı olmuşdur. Onun əsas məqsədi əhalinin ən yoxsul təbəqələrinə və eləcə də ən yoxsul ölkələrə yardım göstərməkdən ibarətdir. Dünya Bank Qrupuna Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, İnvestisiya Təminatları üzrə Çoxtərəfli Agentlik və Beynəlxalq İnkişaf Assosiasiyası daxildir (Bax: Məmmədov M., İbadov E. Beynəlxalq iqtisadi təşkilatlar. Bakı, 2008, s.25-34).

Beynəlxalq Valyuta Fondunun yaradılması haqqında qərar 1944-cü ildə Bretton-Vuds konfransında qəbul edilmişdir. Fondun əsas məqsədləri aşağıdakılardan ibarətdir: beynəlxalq valyuta əməkdaşlığının dəstəklənməsi; beynəlxlaq ticarətin genişlənməsi və tarazlaşdırılmış şəkildə inkişafı üçün şərait yaradılması; valyuta kurslarının sabitliyinin təmin olunması, valyuta münasibətlərinin dəstəklənməsi və valyuta devalvasiyasına imkan verilməsi; çoxtərəfli ödənişlər sisteminin yaradılmasına yardım edilməsi, valyuta mübadiləsinə məhdudiyyətlərin aradan qaldırılması və bu yolla dünya ticarətinin inkişafına yardım edilməsi; üzv dövlətlərin iqtisadiyyatının inkişafına yardım etmək üçün müvəqqəti maliyyə vəsaitlərinin ayrılması; üzv dövlətlərin beynəlxalq ödəniş balanslarmdakı kəsirin aradan qaldırılması (Bax: Məmmədov M., İbadov E. Beynəlxalq iqtisadi təşkilatlar, s.59-64).

Asiya İnkişaf Bankı BMT-nin təşəbbüsü ilə Asiya və Sakit okean regionunda yoxsulluğun aradan qaldırılması məqsədi ilə 1965-ci ildə təsis edilmiş, fəaliyyətinə 1966-cı ilin dekabr ayında Filippinin paytaxtı Manilada başlamışdır.

**XanaıJıOB** X. **MexcflyHapoaHO-npaBOBaa oxBercTBeHHOCTb MOKflynapoÄHbix 3KOHOMHHCCKHX opraHHsauHH H lopHÄHHecKaH npupofla npHHUHna aannofi OTBexcTBeHHocTH. - “Diplomatiya aləmi” jurnalı,** Bakı, 2003, **yanvar-mart,** Xs 2, s. 37-52.

# BEYNƏLXALQ MALİYYƏ VƏ İQTİSADİ QURUMLARLA ƏMƏKDAŞLIQ ÖLKƏNİN SOSİAL-İQTİSADİ HƏYATININ YENİDƏN QURULMASININ VASİTƏLƏRİNDƏN BİRİ KİMİ

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycanın əməkdaşlıq etdiyi qurumlardan biri Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) oldu. Qeyd etmək lazımdır ki, bu bank 1991-ci ildə, Mərkəzi və Şərqi Avropada yardıma ehtiyacı olan postsovet ölkələrində özəl sektorun canlandırılmasma yardım məqsədi ilə yaradılmışdır. AYİB regionda ən böyük investor rolunu oynayır və öz maliyyə vəsaitlərindən başqa digər əhəmiyyətli birbaşa investisiyaları da özündə cəmləşdirirdi. Bu zaman AYİB-in 61 ölkə və 2 beynəlxalq institutdan ibarət səhmdarı var idi. Lakin dövlət sektoruna malik səhmdarlarının olmasına baxmayaraq, bank əsasən digər kommersiya tərəfdaşları vasitəsilə özəl sektora investisiya yatırırdı. AYİB bank, sənaye və biznes sektoru üçün layihələri maliyyələşdirir, həmçinin özəlləşdirməyə dəstək, dövlət müəssisələrinin strukturunun və bələdiyyə xidmətlərinin təkmilləşdirilməsi istiqamətində əməkdaşlıq edirdi.

AYİB öz mandatına uyğun olaraq yalnız demokratik prinsiplərə söykənən ölkələrlə əməkdaşlıq qururdu. Bank əsasən istiqrazların emissiyası hesabına vəsaitlər cəlb edirdi. Bankın fərqliliyi ondan ibarət idi ki, o, investisiya layihələrinə geniş həcmdə milli valyutalar cəlb edirdi. Bütün investisiya layihələrində bank bazar iqtisadiyyatının formalaşması, özəl sektora yardım məqsədi ilə zəruri infrastrukturun inkişaf etdirilməsi, yerli kapitalın cəlb edilməsi və s. istiqamətlərdə dəstək olurdu. AYİB Azərbaycanda enerji, nəqliyyat, su, bankçılıq, mülkiyyət, aqrobiznes və ümumi sənaye kimi sahələri əhatə edən ölkə və regional əhəmiyyətli layihələrin həyata keçirilməsini dəstəkləyirdi. Bununla yanaşı, AYİB ölkədə institusional inkişafın və rəqabətliliyin artırılması məqsədi ilə maliyyə və texniki yardım göstərirdi. AYİB-in maliyyə sektoru üzrə fəaliyyət istiqaməti bank sistemində aparılan islahatlar, maliyyə siyasəti və respublikanın maliyyə institutlarına dair gələcək siyasətin təşkili və həyata keçirilməsinə yönəldilirdi.

1992-ci il avqustun 28-də Azərbaycan Respublikasının Avropa Yenidənqurma və İnkişaf Bankına üzv olmaq barədə Azərbaycan Respublikasının Prezidenti fərman imzaladı’^®^. Sentyabrın 22-də Milli Məclis

ARXINA. 1992.

Azərbaycan Respublikasının Avropa Yenidənqurma və İnkişaf Bankına üzvlüyü haqqında qərar qəbul etdi^^’“. AYİB-in Bakıdakı rezident nümayəndəliyi 1995-ci ilin dekabrında yaradıldı. Qarşıda duran əsas vəzifələrdən biri əməkdaşlığı dərinləşdirmək idi. Bu sahədə bəzi addımlar atıldı. Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Jan Lemyer başda olmaqla nümayəndə heyəti 2001-ci il mayın 11-də Azərbaycana səfər etdi. O, bankın Azərbaycana səfər edən ilk prezidenti idi. Səfərdə məqsəd əməkdaşlığın dərinləşdirilməsi idi. Bu dövrə qədər bank Azərbaycana 350 milyon dollar sərmayə qoymuş və TRASEKA proqramının çox hissəsinin reallaşdırılması üçün kreditlər vermişdi. Nümayəndə heyətini qəbul edən Azərbaycan Prezidenti Heydər Əliyev əməkdaşlıq məsələlərini müzakirə etdi’^". Bank 2003-cü ilin sonunadək Azərbaycanda həyata keçiriləcək 16 layihəyə dair müqavilə imzaladı'^'^. Bu, ölkədə infrastrukturun yenidən qurulmasına yönəldilmişdi.

Azərbaycan eyni zamanda, geniş beynəlxalq ticarət əlaqələri qurmaq məqsədi ilə tədbirlər həyata keçirdi. 1994-cü il aprelin 5-də Heydər Əliyev “Azərbaycan Respublikasında xarici ticarətin liberallaşdırılması haqqında” fərman imzaladı'^'^. Qeyd etmək lazımdır ki, əgər 1994-cü ildə Azərbaycan dünyanın 58 ölkəsi ilə ticarət əlaqəsi saxlayırdısa, 1995-ci ildə onların sayı 65 oldu'^*".

Beynəlxalq maliyyə-bank qurumları ilə əməkdaşlıqda Azərbaycan daha bir addım atdı. Azərbaycan Respublikası 1992-ci ilin sentyabr ayında Dünya Bankına üzv oldu. Məlum olduğu kimi. Dünya Bank Qrupu ona üzv olan dövlətlərin hökumətlərinə məxsusdur. Hər bir üzv dövlət Bankın Şurasında təmsil olunur. Bankın Azərbaycanda başlıca məqsədi ölkənin

"‘"ARXINA. 1992.

"" Azərbaycan Prezidenti Heydər Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankının nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s.449-452.

Avropa Komissiyasının iş sənədi. Avropa qonşuluq siyasəti. Ölkə üzrə hesabat. Azərbaycan. Sec (2005) 286. Bakı, 2005, s.25.

**"" BecTHHK MnHHcrepcTBO BHeumeaKOHOMHHecKHX CBuseR AsepGaftruKaHCKOH PecnyÖJiHKH. BaKy,1996, X22-3, c.21.**

**BecTHHK MnHHCTepcTBO BHeuiHeaKOHOMHHecKHX CBHseH AsepGaÜÄiKaHCKOH PecnyÖJiHKH. Bany, 1996, Xsl, c.l6.**

keçid dövründə iqtisadi-sosial inkişaf siyasəti ilə əlaqədar həm sərmayə axını, həm də dövlət büdcəsinin maliyyələşdirilməsi üzrə tövsiyələr vermək və yardımın əlaqələndirilməsini aparmaq, sosial xidmətlərin səmərəliliyini artırmaq, ətraf mühitin qorunması və uzunmüddətli iqtisadi artımın əsaslarını qurmağa yardım etmək idi. Bank ölkədə layihələri maliyyələşdirir, analitik tədqiqatlar aparır və tövsiyələr verirdi. Dünya Bankı xüsusən neft ehtiyatlarını idarə etmək üçün dövlətin təşkilati bacarığını gücləndirmək və islahatları sürətləndirmək məqsədilə Azərbaycan hökuməti ilə əməkdaşlıq edirdi.

Dünya Bankının Azərbaycanda maliyyələşdirdiyi layihələr ölkənin ümumi inkişaf strategiyasının ayrılmaz hissəsini təşkil edirdi. 1992-ci ildən etibarən Dünya Bankı Azərbaycana 600 milyon dollar vəsait ayıraraq 18 layihəni maliyyələşdirdi'^'^. Daha 14 layihəyə vəsait ayrıldı. Dünya Bankı əhalinin məşğulluğu sahəsində Azərbaycan hökumətinə yardım edir, xüsusən özəl sektorun inkişafı üçün nəzərdə tutulmuş layihələri maliyyələşdirir, maliyyə sahəsində islahatları dəstəkləyir, infrastrukturun qurulması sahəsində işləri reallaşdırırdı.

Bank ətraf mühitin qorunması işlərində Azərbaycana yardım edirdi. Xüsusən, Xəzər dənizində nərə balıqlarının qorunması, çirklənmiş rayonların təmizlənməsi və zərərli maddələrin təhlükəsiz yerlərə yerləşdirilməsi və s. sahələrdə işlər görürdü.

Abşeron yarımadasında su təchizatı sisteminin səmərəliliyinin artırılması Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirildi. Bundan əlavə, yolların tikintisinə və əhalinin daha təhlükəsiz su mənbələrinə çıxışını təmin etmək sahəsində Azərbaycan hökuməti ilə əməkdaşlıq qurulmuşdu.

Ticarətin liberallaşdırılması, özəlləşdirmə, qanunvericilik və bank işinin islahatları məqsədi ilə Dünya Bankı ilə Azərbaycan arasında birinci struktur islahatlar krediti 1997-ci ildə təsdiq edildi. Bu çərçivədə Rusiyada baş verən böhranın təsirlərini azaltmaq üçün Azərbaycana 7 milyon dollar vəsait ayrıldı.

Sonrakı illərdə əməkdaşlıq davam etdirildi. Azərbaycan Prezidentinin 2000-ci il martın 4-də Dünya Bankının Azərbaycan, Ermənistan və Gürcüstan üzrə direktoru xanım Cudi O'konnor və bankın Azərbaycandakı daimi nümayəndəsi Tevfik Yaprak ilə görüşündə əsasən üç məsələ müzakirə edildi: Birincisi, Dağlıq Qarabağ sülh prosesi. Bu məsələnin müzakirəsi səbəbsiz deyildi. Çünki bir zamanlar Dünya Bankı Şərqi

Məmmədov M., İbadov E. Beynəlxalq iqtisadi təşkilatlar, s.35.

Avropada və Cənubi Avropada müharibədən sonrakı şəraiti düzəltmək üçün səylər etmişdi. Dünya Bankı Azərbaycanda da belə bir fəaliyyətlə məşğul olmağa hazır idi. Müzakirə edilən ikinci məsələ neftdən gələn gəlirlərin hansı sahələrdə üstün istifadə edilməsi idi. Dünya Bankı Azərbaycan ilə bu sahədə birgə işləyə bilərdi. Üçüncüsü, Dünya Bankı Azərbaycanda aparılan islahatlardan məmnun idi, ona yalnız texniki və maliyyə yardımı edə bilərdi'^’^. Azərbaycan ilə Dünya Bankı arasında qeyd edilən məsələlərə dair əməkdaşlıq quruldu.

2001- ci il yanvarın 18-də Heydər Əliyevin Dünya Bankının Azərbaycan, Ermənistan və Gürcüstan üzrə direktoru Cudi O’Konnor ilə görüşündə isə qeyri-neft sektoruna sərmayələrin cəlb edilməsinin vacibliyi vurğulandı'^'’. Qeyd etmək lazımdır ki, bu zaman Azərbaycana qoyulan sərmayələrin 60%-i qeyri-neft sektoruna sərf edilmişdi. Yoxsulluğun aradan qaldırılması üçün iqtisadi strategiya proqramının hazırlanmasına başlanılmışdı.

Azərbaycanda həyata keçirilən islahatlar, əməkdaşlığın dərinləşdirilməsi məsələləri 2001-ci il iyulun 14-də Heydər Əliyevin Dünya Bankının Avropa və Orta Asiya regionu üzrə vitse-prezidenti Yohannes Linnin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə də müzakirə edildi'^'^. Dünya Bankının mövqeyinə görə, Azərbaycan islahatları uğurla aparan ölkə idi.

Əməkdaşlığın gedişində xırda və orta biznesin inkişafı üçün Azərbaycanda zəruri qərarlar qəbul edildi. İslahatların nəticəsində sosial sahədə irəliləyişlər əldə olundu. Azərbaycan iqtisadi tərəqqiyə nail olmaq üçün sabit və davamlı islahatlar siyasəti apardı. Ölkənin maliyyə vəziyyətinin yaxşılaşdırılması, yoxsulluğun azaldılması, iqtisadi inkişafın sürətləndirilməsi üçün dövlətin sərf etdiyi xərclərin daha səmərəli istifadə edilməsi, müəssisələr və xarici sərmayələr üçün əlverişli şəraitin yaradıl-

Əliyev H.Ə. Dünya Bankının Azərbaycan, Ermənistan və Gürcüstan üzrə direktoru xanım Cudi O’konnor və Dünya Bankının ölkəmizdəki nümayəndəsi Tevfık Yaprak ilə görüşdə söhbət. 4 mart 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXV kitab, s. 280-283.

‘^'’Azərbaycan Prezidenti Heydər Əliyev Dünya Bankının nümayəndəsini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 87-92.

Azərbaycan Prezidenti Heydər Əliyev Dünya Bankının nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, **S.731-733.**

ması məqsədi ilə 2002-ci il martın 12-də İkinci struktur islahatlar krediti təsdiq edildi. Bu məqsədlə Azərbaycana 60 milyon dollar vəsait ayrıldı. Struktur islahatlarına dair məsələlər 2002-ci il sentyabrın 11-də Dünya Bankının Cənubi Qafqaz üzrə departamentinin direktoru Donna- M.Duesett-Koirolub ilə Heydər Əliyevin görüşündə də müzakirə edil- **di'^'^**

Azərbaycan Respublikası digər maliyyə-valyuta qurumları ilə də əlaqələr qurdu. Artıq qeyd edildiyi kimi, hələ 1944-cü ildə beynəlxalq ticarət və valyuta sahəsində əməkdaşlığın inkişafı məqsədi ilə yaradılmış Beynəlxalq Valyuta Fonduna Azərbaycan Respublikası 1992-ci il sentyabrın 18-də üzv olaraq yaxından əməkdaşlıq etməyə başladı. Azərbaycan hökuməti Beynəlxalq Valyuta Fondu ilə bağladığı bir sıra maliyyə proqramlarının köməyi ilə kompleks sabitləşmə proqramını həyata keçirdi. Büdcə-vergi və pul-kredit siyasətini gücləndirməklə yanaşı bir sıra struktur islahatlar apardı. Struktur islahatları valyuta rejiminin və ticarətin liberallaşdınıması, kiçik müəssisələrin və kənd təsərrüfatı torpaqlarının özəlləşdirilməsi sahələrinə yönəldilmişdi. Əsasən neftlə bağlı sektorlara xarici sərmayə qoyuluşları, bununla birlikdə büdcə kəsirinin azaldılması, habelə valyuta məzənnəsinin sabitləşdirilməsinə və manata olan inamın bərpa olunmasına yönəldilmiş pul-kredit siyasəti aşağı inflyasiyaya və davamlı iqtisadi artıma səbəb oldu. Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fondu ilə 2008-ci ilədək 4 saziş bağladı. Əməkdaşlıq nəticəsində Azərbaycan iqtisadi islahatların həyata keçirilməsinə nail oldu. Buraya dörd dövlət bankının yenidən qurulması və bank nəzarəti sisteminin gücləndirilməsi, Hesablama Palatasının yaradılması, müasir vergi məcəlləsi və büdcə sistemi haqqında qanunun qəbul edilməsi. Neft Fondunun yaradılması, habelə gömrük və vergi idarəetmə sistemlərində irəliləyişlər daxil idi.

Azərbaycanın azad bazar iqtisadiyyatı yolu ilə inkişafı üçün fondun verdiyi tövsiyələr, görüləcək işlər 1996-cı ilin mart ayında Heydər Əliyev Beynəlxalq Valyuta Fondunun sərəncamçı direktoru Mişel Kamdessunu

® Azərbaycan Prezidenti Heydər Əliyev Dünya Bankının nümayəndəsini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2002.1 hissə, s. 598- 560.

qəbul edərkən müzakirə olundu. Qeyd etmək lazımdır ki, həmin vaxtadək Azərbaycan bu fonddan 100 milyon dollar güzəştli, uzunmüddətli və az faizli kredit almışdı'^^°.

Banklarda struktur islahatların aparılması məsələləri 1998-ci ilin dekabr ayında Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiyasının rəhbəri Devid Ouen ilə Heydər Əliyevin görüşündə müzakirə edildi. Devid Ouenin fikrincə, bu zaman Azərbaycan və Baltikyanı respublikalar istisna olmaqla digər respublikalarda valyuta məzənnəsi 40% aşağı düşmüşdü. Bu Azərbaycanda makroiqtisadi islahatların vaxtında həyata keçirildiyini, büdcəyə, eyni zamanda xarici borclara nəzarətin lazımi qaydada olduğunu göstərirdi

Ümumiyyətlə, 1997-2000-ci illərdə Beynəlxalq Valyuta Fondu Azərbaycanda üçillik proqramını yerinə yetirdi. Həmin proqrama görə, makroiqtisadi sahələrdə yaxşı nəticələr əldə edildi. 1999-cu ildə iqtisadi artım davam etdi. Rusiyadakı böhrandan Azərbaycan əziyyət çəksə də, inflyasiya demək olar ki, yox səviyyəsində idi. Ümumi daxili məhsul artmışdı. Neft fondu yaradılmışdı2000-2003-cü illər üçün yeni üçillik proqram üzərində işlənilməyə başlandı. Fond ilə birlikdə ölkədə struktur islahatlar aparıldı. Sənayenin digər sahələrinin inkişafına xüsusi diqqət yetirildi. Özəlləşdirmə proqramına daha geniş vüsət verildi. ARDNŞ, Azərenerji, su və s. sahələr üzrə struktur islahatlar aparıldı.

Azərbaycan tərəfi ölkədə yoxsulluğun azaldılması üçün fəaliyyəti gerçəkləşdirmək üçün Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlıq edirdi. Bunun nəticəsi olaraq 2001-ci ildə Beynəlxalq Valyuta Fondunun İcra Şurası Azərbaycana Yoxsulluğun azaldılması və iqtisadi artımın maliyyələşdirilməsi mexanizmi çərçivəsində təxminən 100 mln. ABŞ dolları həcmində kredit ayırdı. Azərbaycan hökuməti Yoxsulluğun azaldılmasına dair proqram qəbul etdi. Ölkədə həyat şəraitinin yüksəldilməsi üçün islahatlara başlandı.

■ Əliyev H.Ə. Bakıda Beynəlxalq Valyuta Fondunun sərəncamçı direktoru Mişel Kamdessu ilə danışıqlar başa çatdıqdan sonra birgə mətbuat konfransı. 12 mart 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VI kitab, s.452-455.

Əliyev H.Ə. Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiyasının rəhbəri Devid Ouen ilə görüşdə söhbət. 4 dekabr 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVIII kitab, s. 317-324.

Əliyev H.Ə. Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiyasının rəhbəri Devid Ouenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə söhbət. 31 yanvar 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXIV kitab, s. 384-389.

Qeyd etmək lazımdır ki. Beynəlxalq Valyuta Fondu Azərbaycana başlıca olaraq aşağıdakı istiqamətlərdə texniki yardım göstərirdi: dövlət xərclərinin idarə edilməsi; gömrük və vergi idarəetmə sistemləri; bank nəzarəti; Mərkəzi Bankın idarə edilməsi; pul-kredit siyasəti üzrə məsləhətlər və s.

Bütün bunların nəticəsində Azərbaycanda Birinci struktur islahatları uğurla başa çatdırıldı. Yeni bir mərhələyə keçidə hazırlığa başlandı.

2002- ci il iyulun 17-də Beynəlxalq Valyuta Fondunun nümayəndə heyətinin Bakıya səfəri zamanı Azərbaycanda aparılan İkinci struktur islahatlarına dair məsələlər müzakirə olundu. Özəlləşdirmə proqramının sürətlə aparılması və başa çatdırılması vacib hesab edildi'^^^.

Ölkədə özəl sektoru inkişaf etdirmək məqsədi ilə Azərbaycan Respublikası hələ 1955-ci ilin iyun ayında Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının İstanbul sammitində törəmə təşkilatı olaraq qurulmuş və 1956-cı ildən orqanları formalaşdırılan və əsas diqqətini sənayeyə yönəldən Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlıq etməyə başladı. Azərbaycan 1995-ci ildə Beynəlxalq Maliyyə Korporasiyasına üzv qəbul edildi. Ötən dövr ərzində korporasiya Azərbaycana 155 milyon dollardan çox vəsait a y ı r d ı Q u r u m Azərbaycanda neft-qaz, qida istehsalı, maliyyə və sığorta işi, mehmanxana biznesi və turizm sahələrinə investisiya qoyur, iqtisadi inkişaf üçün vacib olan kiçik və orta sahibkarlığın inkişafına dəstək verirdi. Bu, ölkədə orta və kiçik sahibkarlara mikrokreditlər verən ilk bank idi.

Beynəlxalq Maliyyə Korporasiyası Azərbaycanda aşağıdakı layihələrə investisiya qoydu: 1997-ci ildə ümumi dəyəri 26,5 mln. dollar olan Koka-Kola zavodunun tikintisinə 5,8 mln.dollar; 1998-ci ildə ümumi dəyəri 21,2 mln. dollar olan alkoqolsuz içkilərin istehsalı sahəsində regional distribyutor infrastrukturunun təkmilləşdirilməsinə 7 mln. dollar;

1998- ci ildə nəqliyyat, qida və yüngül sənaye və tikinti sahələri üçün 500 min dollar; ümumi dəyəri 5 mln. dollar olan müştərilərə bütün növ kommersiya xidməti göstərən yeni səhmdar bankın yaradılmasına 1 mln.

^ Azərbaycan Prezidenti Heydər Əliyev Beynəlxalq Valyuta Fondunun nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s.493-495.

Məmmədov M., İbadov E. Beynəlxalq iqtisadi təşkilatlar, s. 47.

dollar; ümumi dəyəri 200 milyon dollar olan Xəzər dənizində “Çıraq” neft yatağının işlənməsi üçün 100 mln. dollar (kredit BP, Amoco PLS, Exson, Unocal, Lukoyl və Türk Petrolları Şirkətinə verildi); 1999-cu ildə ümumi dəyəri 39 mln. dollar olan beş ulduzlu mehmanxana və biznes mərkəzinin tikintisi üçün Bakı otel şirkətinə 17,5 mln. dollar; 2002-ci ildə ümumi dəyəri 5 mln. dollar olan layihə üçün Azərbaycan Mikromaliyyələşdirmə Bankına 1,75 mln. dollar; 1998-2003-cü illərdə Azəriqazbanka ümumi dəyəri 2,1 mln. dollar olan layihənin həyata keçirilməsi üçün 1,60 mln. Dollar; 1998-2003-cü illərdə ümumi dəyəri 2,1 mln. dollar olan xırda sahibkarlığın dəstəklənməsi layihəsi üçün Rabitəbanka 1,6 mln. dollar və s. Layihələrin həyata keçirilməsi Azərbaycanda yeni müəssisələrin qurulmasına, iş yerlərinin açılmasına, ölkə iqtisadiyyatının modemləşdirilməsinə kömək etdi.

Azərbaycan Respublikası BMT-nin köməyi ilə Asiya-Sakit okean regionu ölkələrinə yardım məqsədilə 1965-ci ildə təsis edilmiş və 1966-cı ilin dekabr ayından fəaliyyətə başlayan, qərargahı Filippində (Manila) yerləşən Asiya İnkişaf Bankı ilə əməkdaşlıq edirdi’^^^. Azərbaycanın Asiya İnkişaf Bankı ilə əlaqələri 1992-ci ildən başlandı. 1992-ci ildə Azərbaycan Respublikası Asiya İnkişaf Bankına üzv olmaq barədə müraciət etsə də, ilk vaxtlar bu məsələ həll edilmədi. Bir ölkə hər iki banka üzv ola və onlardan yardım ala bilməzdi. Lakin az sonra, 1992-ci ilin may ayında AİB-in Honkonqda keçirilən 25-ci sessiyasında Bankın üzvü olan ölkələr üzvlük şərtlərini müəyyənləşdirmək üçün Azərbaycana səfər etmək barədə qərar qəbul etdilər. Lakin üzvlük məsələsi yenə də həllini tapmadı.

İsveçrənin Davos şəhərində 1995-ci ilin yanvar ayında Ümumdünya İqtisadi Forumu çərçivəsində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Asiya İnkişaf Bankının prezidenti M.Sato ilə görüşərək Azərbaycanın banka üzvlük məsələsini müzakirə etdi. Görüşdən bir müddət sonra, may ayında Heydər Əliyev Asiya İnkişaf Bankının prezidenti M.Satoya göndərdiyi məktubunda Azərbaycan Respublikasının banka üzvlük məsələsinə baxılmasını xahiş etdi. Lakin bəzi üzv ölkələrin mövqeyi ucbatından bu proses uzanırdı. Belə olduqda, Azərbaycan dövləti

1325 **JIıoTbiH H.A., KyjıueB P.A. HHBecTUUHOHHaa aeHTCJibHOCTb, c.334-337.**

diplomatik kanallarla bütün üzv ölkələrə Asiya İnkişaf Bankına üzvlüyü müdafiə etmək barədə müraciətlər etdi. 1996-cı ildə Asiya İnkişaf Bankının iqamətgahında Azərbaycan Milli Bankının nümayəndələri ilə AİB üzvü olan ölkələri təmsil edən icraçı direktorlar arasında danışıqlar aparıldı. Danışıqların nəticəsində AİB üçün ənənəvi olan "çay sessiyası" deyilən sessiya zamanı M.Satonun bankın icraçı direktorlarına müraciət edərək Azərbaycanın üzvlüyü barədə məsələnin bankın katibliyinə bildirməyi xahiş edəcəyi barədə razılıq əldə olundu. Qaydaya görə, üzvlük məsələsinə etiraz olmadıqda katiblik konkret ölkənin üzvlük şərtlərini müəyyənləşdirirdi. Asiya İnkişaf Bankının üzvlərindən Yaponiya və ABŞ Azərbaycanın üzvlüyünə qarşı çıxırdılar. Yaponiya nümayəndəsi "Azərbaycanın coğrafi cəhətdən Asiyaya nə qədər aid olduğunu dəqiqləşdirmək istədiklərini" bildirirdi. ABŞ isə Yaponiyanı tək qoymaq istəmədiyini və Azərbaycanın həm AYİB-ə, həm də AİB-ə üzv ölkə olması məsələsini gündəliyə gətirirdi. Məsələ mürəkkəbləşdiyindən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev müdaxilə etdi. O, 1997-ci ilin avqust ayında ABŞ-a səfəri zamanı bu məsələni qaldıraraq ABŞ rəhbərləri ilə geniş müzakirə etdi və Azərbaycanın AİB-ə üzvlük məsələsində amerikan hökumətinin müdafiəsinə təminat aldı. 1998-ci ildə ABŞ hökuməti Azərbaycanın AİB-ə üzv qəbul edilməsini müdafiə etdiyini rəsmən bildirdi. Heydər Əliyev Yaponiyanın da razılığını almaq üçün səylər göstərdi. 1998-ci ildə Yaponiyaya səfəri zamanı Baş Nazir R.Hasimoto ilə danışıqlarında Azərbaycanın bu banka üzvlük məsələsini müzakirə edərək yapon tərəfinin razılığını aldı. Bundan sonra Yaponiya hökuməti Azərbaycanın AİB-ə üzv qəbul edilməsini dəstəklədiyini rəsmi surətdə bildirdi.

Bankın rəhbərlər şurası 1999-cu il iyunun 13-də Azərbaycan Respublikasının AİB-ə üzvlüyü barədə qətnamə qəbul etdi. Mövcud şərtləri yerinə yetirdikdən sonra Azərbaycan 1999-cu ildən etibarən bərabərhüquqlu üzv kimi fəaliyyətə başladı. Azərbaycan AİB-də səhmlərin sayma görə, regional üzvlər arasında 18-ci, bankın ümumi üzvləri arasında 26-cı yerdə dururdu. Bankın səhmlərinin 04,45%-i (15 mln. 736 min dollar) Azərbaycana məxsus idi. 1999-2008-ci illərdə Azərbaycan AİB-dən 370 milyon dollar kredit aldı. AİB-in Azərbaycana yardımları əsasən aşağıdakı istiqamətlərdə idi: kasıblara, xüsusilə məcburi köçkünlərə birbaşa yardım, qeyri-neft sektorunun inkişaf etdirilməsi yolu ilə yoxsulluğun səviyyəsinin azaldılması, sosial infrastruktur və nəqliyyat.

Azərbaycan Respublikasının beynəlxalq iqtisadi əlaqələrində mühüm yerlərdən birini 1995-ci ildə vahid strukturlu təşkilat kimi yaradılması başa çatan, əsas məqsədi beynəlxalq ticarətin maksimum liberallaş- dırılması və onun möhkəm əsaslarının yaradılması, beləliklə, iqtisadi inkişafın, eyni zamanda insanların həyat səviyyəsinin yüksəldilməsi olan Ümumdünya Ticarət Təşkilatı ilə əlaqələr tutdu. Azərbaycan tərəfi bu təşkilata üzv olmaq üçün 1997-ci ildə müraciət etdi və müşahidəçi statusu aldı'^^®. O zamandan etibarən danışıqlar aparılmağa başlandı. Üzvlüyə qəbul olunma şərtləri digər beynəlxalq təşkilatlardan fərqli idi. Ölkənin ÜTT-ə qəbulu üzv olan ölkələrlə apardığı danışıqlardan asılı idi və müəyyən müddət tələb olunurdu.

ÜTT-yə üzv olmaqda Azərbaycanın məqsədləri aşağıdakılardan ibarət idi; dünya iqtisadi sisteminə inteqrasiya prosesini sürətləndirmək; üzv ölkələrin güzəştlərindən faydalanmaq; ümumi qəbul edilmiş qaydalar əsasında ticarət əməliyyatlarını həyata keçirmək; ölkədə aparılan iqtisadi islahatlara beynəlxalq təşkilatlar və eləcə də ölkələr tərəfindən yardım alınmasına nail olmaq; daha çox həcmdə xarici sərmayə cəlb etmək; təşkilatın mübahisələrin həlli mexanizmindən istifadə etmək imkanını əldə etmək.

Azərbaycan Respublikasının ÜTT-yə üzv olmaq işləri üzrə komissiyanın qəbul etdiyi konsepsiyaya əsasən danışıqlar prosesi 2002-ci il iyunun 7-də işçi qrupun ilk iclasında başlandı. İclasda üzv ölkələr tərəfindən Azərbaycanda xarici ticarət rejiminə dair suallar cavablandırıldı.

Danışıqlarda Azərbaycanın mövqeyi aşağıdakı prinsiplərə əsaslanırdı'^^^: Azərbaycanın inkişaf etməkdə olan keçid iqtisadiyyatı ölkə olduğunu nəzərə alaraq ÜTT çərçivəsində digər ölkələrə verilmiş güzəştləri əldə etmək; ÜTT qaydaları tam tətbiq olunanadək maksimum uzunmüddətli keçid dövrünün verilməsinə nail olmaq; Azərbaycan iqtisadiyyatı, xüsusi ilə də sənayesi üçün əhəmiyyət kəsb edən mallar üzrə yüksək idxal gömrük rüsumlarının tətbiqinə nail olmaq; rüsumların aşağı salınması qaçılmaz olduğu halda ortalama rüsumların eyni səviyyədə saxlanması məqsədi ilə əhəmiyyəti az olan mallar üzrə rüsumların endirilməsi, digərlərinin isə yüksəldilməsinə nail olmaq; xidmətlər sahəsində danışıqlar

; ARXİNA. 28.10.2002 - 30.12.2002. Qovluq RsS, v.42.
Məmmədov M., İbadov E. Beynəlxalq iqtisadi təşkilatlar, s. 82.

zamanı inkişaf etməkdə olan ölkələrə verilən xüsusi və diferensial güzəştli rejimin Azərbaycana da verilməsinə nail olmaq; müxtəlif sahələrdə yerli mütəxəssislərin mövcud olduğu halda xaricilərin ölkədə işə düzəlmə qaydalarının liberallaşdırılmasma yol verməmək; kənd təsərrüfatı sahəsində subsidiyalar üzrə danışıqlar zamanı illik kənd təsərrüfatı məhsulu istehsalının 10%-i həcmində subsidiya verilməsinə nail olmaq; inkişaf etmiş ölkələrin Azərbaycanın ÜTT tələblərindən kənara çıxan sazişlərə qoşulmaq təkliflərini diqqətlə öyrənmək, həmin öhdəlikləri yalnız üzvolma başa çatdıqdan sonra götürmək.

Bu zaman Ermənistanın ÜTT-yə üzv qəbul edilməsi məsələsi müzakirə edilirdi. Azərbaycandan əvvəl Ermənistanın təşkilata üzv olması sonralar problemlər yarada bilərdi. Ona görə də təşkilatın baş direktoru Supaçay Panitçpakdiyə 2002-ci il oktyabrın 10-da məktub göndərən Azərbaycan Respublikasının Baş Naziri Artur Rasizadə ölkəsinin narahatlığını ifadə edərək, 1988-ci ildən başlayaraq Ermənistanın Azərbaycana etdiyi təcavüzün nəticələri, ərazilərin işğalı, qaçqın və məcburi köçkünlərin vəziyyəti barədə məlumat verdi. Təcavüzə beynəlxalq birliyin laqeyd qalmadığını yazaraq BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələri, onların Ermənistan tərəfindən yerinə yetirilmədiyini və işğal etdiyi əraziləri azad etmədiyini xatırlatdı'^^*. BMT ilə yanaşı Avropa İttifaqı, Avropa Şurası və ATƏT-in də Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, münaqişənin beynəlxalq hüquq prinsipləri əsasında həllinin zəruriliyini bildirdiklərini göstərdi. Məktubda Ermənistanın davam edən təcavüzünün vurduğu maddi ziyanlar və Naxçıvan Muxtar Respublikasının blokadada saxlandığı qeyd edilirdi. Vurğulanırdı ki, Ermənistanın Azərbaycandan əvvəl ÜTT-yə üzv qəbul edilməsi məsələsinin gündəliyə gəlməsi Azərbaycan Respublikasını ciddi narahat edir. Beynəlxalq hüquq normalarını kobud surətdə pozan, BMT qətnamələrini icra etməyən işğalçı bir dövlətin ÜTT kimi nüfuzlu bir təşkilata üzv qəbul edilməsi nəticəsində bir sıra problemlərin yaranması, Azərbaycanın ÜTT-yə üzv olmasının ləngidilməsi, o cümlədən Ermənistanın ÜTT-də üzvlüyünün Azərbaycanın ərazi bütövlüyünə qarşı istifadə olunması təhlükəsini ortaya çıxaracağı ehtimalını artırırdı. Ermənistan ÜTT-yə daxil olmaqla işğal olunmuş ərazilərin “ayrıca gömrük ərazisi” kimi ÜTT-yə üzvlüyə qəbul edilməsi məsələsini gündəliyə çıxararaq, ÜTT vasitəsi ilə məqsədinə nail olmağa cəhd edə və bu, münaqişənin daha da kəskinləşməsinə gətirə bilərdi.

ARXİNA. 04.10.2002 -28.10.2002. Qovluq NaS, v. 204-206.

Azərbaycan Respublikası yaranmış şəraitdə konstruktiv mövqe tutaraq ÜTT təcrübəsində belə presedentin yaranmaması üçün Ermənistanın ÜTT-yə üzv olmasının qarşısını almaq təklifindən imtina edərək, sadəcə olaraq Azərbaycandan əvvəl ÜTT-yə üzv qəbul olunacağı təqdirdə Ermənistan tərəfindən aşağıdakı təminatların verilməsinin Ermənistanın ÜTT-yə üzv olma protokolunda əks edilməsini zəruri hesab edirdi; Azərbaycanın ÜTT-yə üzvlüyə qəbul olunma prosesiniləngitməyəcəyinə və buna maneçilik törətmədən konstruktiv mövqedən çıxış edəcəyinə dair; Azərbaycan Respublikasının ərazi bütövlüyü tam bərpa edilməyənədək ÜTT çərçivəsində Azərbaycan tərəfinin rəsmi razılığı olmadan hər hansı sahədə Azərbaycan ilə əlaqələrin qurulması üçün cəhdlər etməyəcəyinə dair; ÜTT-yə üzv olma şərtlərinin, ÜTT qaydalarının, həmçinin ÜTT-in əsasını qoyan Mərakeş sazişinin və ÜTT-nin digər hüquqi sənədlərinin müddəalarının Ermənistanın BMT tərəfindən tanınmış ərazisinə şamil olunacağına və ÜTT-də üzvlüyün heç bir halda siyasi və digər məqsədlər üçün istifadə edilməyəcəyinə dair; ÜTT üzvlüyündən qonşu dövlətlərin, xüsusilə də Azərbaycan Respublikasının ərazi bütövlüyünə qarşı istifadə edilməyəcəyinə dair. Azərbaycanın baxışına görə, Ermənistanın həmin öhdəlikləri götürməsi yaranmış şəraitdən ən doğru çıxış yolu idi və regionda tarazlaşdırılmış siyasətin həyata keçirilməsinin davam etdirilməsini təmin edərdi.

Baş Nazir eyni zamanda Azərbaycan nümayəndə heyətinin Cenevrəyə səfər etmək istəyini də təşkilatın rəhbərinin diqqətinə çatdırır və ondan bu məsələyə də münasibətini bildirməsini xahiş edirdi.

ÜTT qaldırılan bu məsələ barəsində Ermənistanın münasibətini öyrənərək xəbərdarlıq etdi. 2002-ci il noyabrın 18-də Ermənistanın xarici işlər naziri Vartan Oskanyan Ümumdünya Ticarət Təşkilatının baş direktoru Supaçay Panitçpakdiyə məktub yazaraq bildirdi ki, Ermənistan Respublikasının ÜTT-də üzvlüyünün qayda və şərtləri, həmçinin Ermənistan Respublikasının ÜTT sazişlərindən irəli gələn öhdəlikləri və bu sazişlərin müddəaları yalnız Ermənistan Respublikasının BMT tərəfindən tanınmış ərazisinə münasibətdə şamil ediləcəkdir. Məktubda Ermənistan tərəfi Azərbaycanın ÜTT-yə üzv qəbul edilməsinə mane olmayacağı barədə də öhdəlik götürürdü'^"^.

Azərbaycan isə ÜTT ilə müzakirələrini davam etdirdi. 2003-cü il martın 4-6-da Cenevrədə BMT-nin Avropa üçün İqtisadi Komissiyasının

[1329] ARXİNA. 28.10.2002- 30.12.2002. Qovluq JfsS, v.40-41.

(UNECE) 58-ci illik iclasında iştirak çərçivəsində xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev Azərbaycan Respublikasının ÜTT-yə üzvlüyə qəbul olması üçün Cenevrədə yaradılmış işçi qrupunun rəhbəri, AFR-in BMT-nin Cenevrədəki bölməsi və digər beynəlxalq təşkilatlar yanındakı daimi nümayəndəsi səfir Valter Levarter illə görüşərək Azərbaycanın ÜTT-yə üzvlüyü məsələsini müzakirə etdi'^^°. Valter Levarter işçi qrupun ikinci iclasının səmərəli keçirilməsini təmin etmək üçün təkliflərini və müvafiq sənədlərin hazırlanmasının vacib olduğunu bildirdi. Sonrakı illərdə də Azərbaycanın ÜTT-yə üzv olması istiqamətində danışıqlar davam etdirildi.

Ümumiyyətlə, Azərbaycan Respublikasının beynəlxalq maliyyə və iqtisadi qurumlarla əməkdaşlığı ölkənin sosial-iqtisadi həyatının yenidən qurulmasında mühüm vasitələrdən biri olmuşdur. 1991-2003-cü illərdə Azərbaycan iqtisadiyyatında struktur islahatlar aparıldı. Azad bazar iqtisadiyyatına keçid baş verdi. Azərbaycan iri beynəlxalq maliyyə qurumlarına üzv oldu. Bir sıra layihələrin həyata keçirilməsi üçün kreditlər aldı. Əməkdaşlıq Azərbaycan xalqının təhlükəsiz və daha yaxşı yaşamasına kömək etdi. Ümumdünya Ticarət Təşkilatına üzv olmaq üçün danışıqlar aparıldı.

Səmərəli beynəlxalq əməkdaşlıq nəticəsində Azərbaycan xarici iqtisadi asılılığı olmayan bir ölkəyə çevrildi. Ölkə iqtisadiyyatının səmərəliliyi artdı. Azərbaycan iqtisadi baxımdan rəqabətə davamlı bir ölkə oldu. Yürüdülən uğurlu xarici siyasət fəaliyyəti təkcə bununla məhdudlaşmırdı. Azərbaycanın beynəlxalq nəqliyyat-kommunikasiya və tranzit ölkəsinə

ARXİNA. 02.05.2003-01.09.2003. Qovluq XbS, v. 203-204.

# AZƏRBAYCAN NƏQLİYYAT-KOMMUNİKASİYA MƏRKƏZİNƏ ÇEVRİLİR

## Avropa İttifaqı ilə əməkdaşlıq

Dövlət müstəqilliyinin bərpasından ötən müddət ərzində Azərbaycan Respublikası beynəlxalq nəqliyyat-kommunikasiya mərkəzlərindən birinə çevrildi. Bu işdə Avropa İttifaqı’^^' ilə əməkdaşlıq mühüm rol oynadı. Azərbaycan Respublikasının xarici siyasətinin istiqamətlərindən biri Avropa İttifaqı ilə əlaqələrin qurulması oldu. Məlum olduğu kimi, Avropa İttifaqının xarici siyasətinin prioritetlərindən biri ümumi Avropa siyasəti çərçivəsində qitədə regional əməkdaşlıqdır. Təşkilatın Mərkəzi və Şərqi Avropa ölkələri ilə əməkdaşlığı hələ 1989-cu ildə müvafiq müqavilələrin imzalanması ilə başlamışdı. 1991-ci ildən etibarən bu ölkələrin bir neçəsi ilə assosiativ üzvlük haqqında sazişlər imzalanmışdı. Təşkilat yeni müstəqil dövlətlər ilə əməkdaşlığa da diqqət ayırdı. Onlardan biri Azərbaycan

Avropa inteqrasiyasına gedən yolu faktiki olaraq Fransanın xarici işlər naziri Rober Şumanın 1950-ci il mayın 9-da AFR hökumətinə rəsmi müraciəti açmışdır. O, alman-fransız ziddiyyətlərinə son qoymaq və münasibətləri yenidən başlamaq barədə hökuməti adından rəsmi müraciət etdi. İlk olaraq iki ölkə arasında Kömür və Polad Birliyi yaradıldı. Lakin Şuman planı ikitərəfli münasibətlər çərçivəsini xeyli aşırdı. Avropa Birləşmiş Kömür və Polad Birliyinin təsis edilməsi haqqında müqavilə 1950-ci ilin iyununda Parisdə Fransa, AFR, Belçika, Niderland, Lüksemburq və İtaliyanın çağırdığı konfransın qərarına əsasən yaradıldı. 1951-ci il aprelin 18-də 50 il müddətinə müqavilə imzalandı. Ratifikasiya edildikdən sonra 1952-ci il iyulun 23-də qüvvəyə mindi. Onun əsas məqsədi ümumi kömür və polad bazarı yaratmaq, kömür və metallurgiya sahələrində istehsalın səmərəliliyini yüksəltmək və modernləşdirmək, əmək şəraitini yaxşılaşdırmaq və bu sahədə məşğulluq problemini həll etmək idi. Müqavilə iştirakçıları həmçinin daha böyük məqsədlər - Avropa xalqlarının geniş və sıx birləşməsini təmin etmək üçün şərait yaratmaq, onların sosial-iqtisadi tərəqqisinə nail olmaq və Avropada sülhü möhkəmləndirmək məqsədi güdürdülər. 1957-ci il martın 25-də Romada müqavilələr bağlayan həmin dövlətlər Avropa İqtisadi Birliyini və Atom Enerjisi üzrə Avropa Birliyini yaratdılar. Müddətsiz imzalanan Roma müqavilələri 1958- ci il yanvarın 1-dən qüvvəyə mindi. 1992-ci il fevralın 7-də Hollandiyanın Maastrix şəhərində imzalanan müqavilə isə 1993-cü il noyabrın 1-də qüvvəyə mindi. Maastrix müqaviləsinin əsas məqsədləri iqtisadi və valyuta ittifaqı yaratmaq, ümumi xarici siyasət, təhlükəsizlik və əməkdaşlıq siyasətinə keçmək idi (Daha ətraflı bax: İbadov R. Avropa İttifaqının əsaslan. Bakı, 2004).

idi. Bu qurumla əlaqələr müxtəlif sahələri-siyasi, təhlükəsizlik, iqtisadi və s. əhatə edirdi. Azərbaycanın Avropa və Asiyanın qovuşacağında əlverişli strateji mövqedə yerləşməsi Avropa İttifaqının üzv dövlətlərinin siyasi və iqtisadi münasibətləri inkişaf etdirməkdə marağını artırırdı.

Azərbaycan Respublikası Avropa Komissiyasının 1993-cü ilin may ayında Brüssel şəhərində keçirilmiş konfransında Böyük İpək yolunun bərpası sahəsində TRASEKA (Transport Corridor Europe - Caucasus - Asia) proqramının yaradılmasının təşəbbüskarlarından biri oldu. Bu təşəbbüsdə keçmiş SSRİ-nin daha 7 respublikası - Gürcüstan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan da iştirak edirdilər. Konfransın işində regional nəqliyyat və ticarət sistemlərində mövcud olan problemlər müzakirə edildi və çıxış yolları axtarıldı. Konfransın yekunlarına əsasən TRASEKA regionlararası proqramın fəaliyyətinin bünövrəsini qoyan Brüssel bəyannaməsi qəbul edildi. TRASEKA dəmiryolları, avtomobil, hava, dəniz yollarının, boru kəmərlərinin geniş şəbəkəsinin qurulmasını nəzərdə tuturdu. Bu yol yüklərin Rusiya və İran istiqamətində Avropa ilə Asiya arasında daşınmasına alternativ idi.

Qeyd etmək lazımdır ki, hələ bizim eradan əvvəl Çin hökmdarları Böyük Çin səddinin kənarlarındakı çöllərdə yerləşən və inkişaf etmiş Xarəzm və b. dövlətlər ilə əlaqələr qurmaq qərarına gəlmişdilər. Lakin Böyük Çin səddinin arxasında hunlar hökmranlıq edirdilər. Çin ordusu hunları məğlub edərək Fərqanə vadisinə çatmış, beləliklə, Çinin Orta Asiya, onun vasitəsilə Aralıq dənizi ölkələri ilə ticarət əlaqələri qurulmuşdu. Tezliklə bu yol nəhəng ticarət və mədəniyyət magistralına çevrilərək Avropanı da əhatə etmişdi. Uzun əsrlər boyu bu yol ilə müxtəlif yüklər Xarəzm, İran, Suriya və Qara dəniz ətrafı ölkələrə karvanlarla daşınırdı. Çindən çini qablar, qiymətli daşlar, kağız, çay və b. mallar, daha çox ipək daşınırdı. Çinə isə bu yol ilə silah, pambıq parça, metal, fil sümüyü, mirvari, şüşə daşınırdı. Ticarətlə yanaşı mədəni, elmi və texniki əlaqələr də genişlənirdi. Həmin mallara Orta Asiya, Yaxın Şərq və Qərbi Avropada daha çox ehtiyac duyulurdu. Bu yolu alman coğrafiyaçısı Kari fon Pixtqofen 1870-ci ildə Böyük İpək yolu adlandırmışdı.

XIII əsrin əvvəllərində şərait dəyişdi. Böyük İpək yolu fəaliyyətini dayandırdı. Buna Çingiz xanın yürüşləri, eyni zamanda daha sərfəli olan dəniz ticarətinin inkişafı səbəb oldu. Bəzən isə Çingiz xanın yürüşlərinin Böyük İpək yolunu bərpa etmək məqsədi güddüyü də yazılır. Daha sərfəli olan dəniz ticarəti sonrakı dövrlərdə karvan ticarətini sıxışdırdı.

1980-ci illərin ortalarında BMT-nin Asiya və Sakit okean üçün iqtisadi və sosial komissiyası Asiya yerüstü nəqliyyatının infrastrukturunun inkişafı layihəsini işləyib hazırladı. Bu layihədə Şərq - Qərb marşrutu üzrə üç nəqliyyat dəhlizinin yaradılması nəzərdə tutulurdu. Şimal nəqliyyat dəhlizi Rusiyadan, mərkəzi nəqliyyat dəhlizi Xəzər dənizindən, cənub nəqliyyat dəhlizi İrandan keçməli idi.

SSRİ dağıldıqdan sonra Böyük İpək yoluna olan maraq yenidən yarandı və konkret siyasi məna kəsb etməyə başladı.

Azərbaycan Respublikasının bu proqramda iştirakı Avropa ilə iqtisadi əlaqələrin möhkəmləndirilməsi və genişləndirilməsi, dünya iqtisadiyyatına inteqrasiyası, beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün imkanlar yaradır və böyük strateji əhəmiyyət kəsb edirdi. Azərbaycan tərəfi səmərəli nəqliyyat-keçid sisteminin yaradılmasına xüsusi əhəmiyyət verir, bunun üçün aşağıdakıları ilkin şərt hesab edirdi: BMT nizamnaməsinə, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq mehriban qonşuluq münasibətlərinin qurulması; subregional və regional əməkdaşlıq və tərəfdaşlığın gücləndirilməsi; sərhədlərin keçilməsinin sadələşdirilməsi, çevik tarif siyasətinin tətbiq edilməsi, milli nəqliyyat qanunvericiliyinin uzlaşdırılması; çoxtərəfli ticarət sisteminin səmərəli inteqrasiyasının təmin edilməsi.

Mühüm nəqliyyat dəhlizlərində yerləşən Azərbaycan regionun nəqliyyat sistemində əsas rol oynayırdı. Azərbaycanda əhəmiyyətli nəqliyyat kompleksi var idi. Onun imkanlarından daha geniş istifadə etmək üçün əməkdaşlığın inkişafı və donor təşkilatlarının səyləri tələb edilirdi. Səmərəli nəqliyyat-dəhliz sisteminin inkişafının mühüm elementi regional əməkdaşlıq idi. Bu baxımdan Azərbaycanın geniş potensialı var idi. Qeyd etmək lazımdır ki, 1994-cü ildə Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsinin cəmi 10%-i Avropa İttifaqı ölkələrinin payına düşürdü.'^^^

1995- ci ilin aprel ayında Heydər Əliyev Avropa İttifaqı rəhbərləri ilə bu və digər məsələləri müzakirə etmək üçün Brüsselə səfər etdi. Səfərlə bağlı olaraq Azərbaycan Prezidenti deyirdi: “...Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqelərinin daha da möhkəmləndirilməsi və qarşımızda duran bütün məsələlərin, siyasi məsələlərin, o cümlədən Ermənistan - Azərbaycan münaqişəsinin aradan qaldırılması və Avropa

Məmmədov M. Azərbaycanın beynəlxalq iqtisadi münasibətlərinin bəzi məsələləri, s.67.

Birliyinin, onun iqtisadi komissiyasının ölkəmizə köməyinin daha da artırılması üçün bu səfər çox əhəmiyyətlidir”'^^^.

Səfər zamanı təşkilatla əməkdaşlığa dair müzakirələr aparıldı və müvafiq sənədlər imzalandı. Həmin sənədlər Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığında yeni səhifə açırdı.

Münasibətləri daha da inkişaf etdirilməsi üçün Avropa İttifaqı komissiyasının komissarı Hans Van Den Bruk 1995-ci ilin oktyabr ayında Azərbaycana səfər etdi. Azərbaycan Respublikasının Baş Naziri Fuad Quliyev və Hans Van Den Bruk Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında yeni memorandum imzaladılar'^^'*. Bu memorandum münasibətlərin daha da genişləndirilməsini nəzərdə tuturdu.

1995- ci ildə TRASEKA proqramının əlaqələndirmə qrupu yaradıldı. Qrupun əsas vəzifəsi TRASEKA ölkələrinin ticarət və nəqliyyat sistemlərində mövcud olan problem və çatışmazhqlan üzə çıxarmaq, dəhlizin inkişafı üçün lazım olan proqramları müəyyənləşdirmək və əlaqələndirmək, TRASEKA-nın fəaliyyəti haqqında beynəlxalq maliyyə qurumlarına məlumat vermək idi. Əlaqələndirmə qrupunun baş ofisləri Brüssel, Tbilisi və Daşkənddə, subofisləri isə Bakı, Aşqabad, Almatı, Bişkek, Odessa və Yerevanda yerləşirdi.

Xəzər neftinin ixracını artırmaq məqsədi ilə əlaqədar olaraq Azərbaycan - Gürcüstan TRASEKA dəmiryol xətti 1995-ci ildə istismara verildi. Bakı - Böyük Kəsik xətti tikildi. Almatı - Aktau - Bakı - Poti - Ukrayna limanları nəqliyyat marşrutu işə salındı.

Azərbaycan Respublikasının Avropa İttifaqı ilə qarşılıqlı münasibətlərdə yeni mərhələ 1996-cı ildə başlandı. Həmin ilin aprel ayında Azərbaycan Respublikasının Prezidenti Lüksemburqa səfər etdi. Səfərdə başlıca məqsəd Avropa İttifaqına üzv olan dövlətlərin xarici işlər nazirlərinin toplantısında Tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişin imzalanması idi.

^ Əliyev H.Ə. Avropa Birliyi rəhbərləri ilə görüşmək üçün Belçikaya yola düşərkən Binə hava limanında jurnalistlərə müsahibə. 17 aprel 1995-ci il. - Müstəqilliyimiz əbədidir. III kitab, s.370.

Əliyev H.Ə. Avropa Birliyi komissiyasının komissarı Hans Van Den Brukla birgə mətbuat konfransında bəyanat. 4 oktyabr 1995-ci il. - Müstəqilliyimiz əbədidir. III kitab, s.326-327.

Azərbaycan tərəfi bu səfəri iqtisadi və siyasi baxımdan əhəmiyyətli hesab **edirdi'^^^**

Aprelin 22-də Lüksemburqda Avropa İttifaqına üzv olan dövlətlər ilə Azərbaycan arasında Tərəfdaşlıq və əməkdaşlıq sazişi imzalandı'^^^. Sazişin məqsədləri müvafiq siyasi dialoq çərçivəsində tərəflər arasında siyasi münasibətlərin inkişafının təmin edilməsi; Azərbaycanda demokratiyanın möhkəmləndirilməsi, iqtisadi inkişaf və bazar iqtisadiyyatına keçid cəhdlərinin dəstəklənməsi; ticarət və investisiyanın inkişafı, iqtisadi, sosial, maliyyə, elmi, texniki və mədəni əməkdaşlıq idi.

Sənədin imzalanması mərasimində etdiyi çıxışında Heydər Əliyev dedi: "Saziş hərtərəfli əməkdaşlığı genişləndirmək və dərinləşdirmək, beynəlxalq sülhü və təhlükəsizliyi, inteqrasiya prinsiplərini möhkəmləndirmək, insan hüquqlarını qorumaq, bütün Avropa qitəsində tərəqqiyə və səmərəli əməkdaşlığa nail olmaq üçün geniş üfüqlər açır""^^'.

Azərbaycan ilə Avropa İttifaqı arasında yüksək səviyyəli əməkdaşlığın təşəkkül tapmasını təsdiqləyən bu sənəd 1999-cu il iyunun 22-də qüvvəyə mindi.

Danışıqların və imzalanan sənədlərin əhəmiyyəti var idi. Sazişin imzalanması tarixi hadisə idi'^^*. Bu, Azərbaycanın mövqelərini möhkəmləndirir, ölkənin daxili, ictimai-siyasi həyatı, iqtisadiyyatı və başqa sahələrdə Avropa demokratiyasına uyğun tədbirlərin həyata keçirilməsini zəruri edirdi.

İmzalanan sazişdə nəzərdə tutulduğu kimi iclaslarını ildə bir dəfə keçirən Avropa İttifaqı - Azərbaycan əməkdaşlıq şurası əməkdaşlığın əsas istiqamətlərini müəyyənləşdirirdi. İclaslarını ildə bir dəfə keçirən əməkdaşlıq komitəsi isə şuraya tövsiyələr verməklə kömək edirdi. Əməkdaşlıq komitəsinin nəzdində fəaliyyət göstərən ticarət və investisiya məsələləri

Əliyev H.Ə. Qərbi Avropa ölkələrinə işgüzar səfərə yola düşməzdən əvvəl Binə hava limanında müxbirlərin suallarına cavab. 21 aprel 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VI kitab, s.l40.

Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əlaqələrinə dair arayış. - ARXİNA materialları. 2008.

Əliyev H.Ə. Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişin imzalanması mərasimində çıxış. 22 aprel 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VI kitab, s.l45.

Əliyev H.Ə. Qərbi Avropa ölkələrinə səfərdən qayıtdıqdan sonra respubliksa milli televiziyasına müsalıibə. 27 aprel 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VI kitab, S.205.

Üzrə alt komitə imzalanmış müvafiq saziş əsasında ticarət, investisiya və iqtisadi əməkdaşlığa dair digər məsələləri müzakirə edirdi. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi isə əsasən siyasi dialoqun aparılması və müvafiq sazişin həyata keçirilməsini təkmilləşdirmək məqsədi ilə yaradılmış dövlət komissiyasının fəaliyyətinin əlaqələndirilməsi funksiyalarını yerinə yetirirdi. Saziş Avropa İttifaqı ilə münasibətlərin hüquqi bazasını təşkil edir və institutlarının yaradılmasını nəzərdə tuturdu.

Sazişin imzalanmasından sonra Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq genişləndi. Bu qurum ilə əməkdaşlıq TRASEKA (nəqliyyat) ilə yanaşı TASİS (texniki yardım), İNOGATE (enerji) və TEMPUS (təhsil) sahələrində quruldu.

Artıq qeyd edildiyi kimi, Tərəfdaşlıq və əməkdaşlıq sazişi siyasi dialoqun aparılmasını da nəzərdə tuturdu. Avropa İttifaqı üç Cənubi Qafqaz respublikası arasında regional əməkdaşlığa böyük diqqət yetirirdi. Avropa İttifaqının mövqeyinə görə, regionda iqtisadi əlaqələrin qurulması və inkişafı ilə siyasi əməkdaşlığın möhkəmlənməsi də gələ bilər, nəticədə siyasi münaqişələr və ziddiyyətlər aradan qaldırılardı. Siyasi sabitlik bu regiona birbaşa və uzunmüddətli sərmayələr qoyulmasını təşviq etməklə iqtisadi mənfəətlər gətirərdi. Həmin strategiya çərçivəsində Avropa İttifaqı region dövlətləri arasında qırılmış nəqliyyat əlaqələrinin, o cümlədən işğal edilmiş ərazilərdən keçən Bakı - Naxçıvan dəmiryol xəttinin bərpası layihəsi ilə çıxış edirdi. Lakin Ermənistan işğal edilmiş əraziləri boşaltmadığından beləliklə, daşınacaq yüklərin təhlükəsizliyinə təminat verilmədiyindən və Avropa İttifaqı da ona qarşı heç bir tədbir görmədiyindən həmin layihə də həyata keçirilmədi.

Regional əməkdaşlığın perspektivlərinə yanaşmada Azərbaycanın və Avropa İttifaqının mövqeiəri bir-birindən fərqlənirdi. Azərbaycan tərəfi ilk növbədə münaqişələrin tezliklə və tam həllini, daha sonra isə iqtisadi əlaqələrin qurulmasına tərəfdar idi. Avropa İttifaqının mövqeyinə görə. Dağlıq Qarabağ münaqişəsi ATƏT-in Minsk qrupu çərçivəsində həll edilməli idi. Yalnız tərəflər razılığa gəldikdən sonra Avropa İttifaqı vasitəçilik səyləri göstərə bilərdi. Cənubi Qafqaz regionunda siyasi və iqtisadi sabitliyin bərqərar edilməsində Avropa İttifaqının maraqlı olması Mərkəzi və Şərqi Avropa və Qara dəniz ölkələrinin bu təşkilata üzv olması perspektivləri və təşkilatın sərhədlərinin Qafqaz regionuna qədər uzanması ilə bağlı idi. Sərhəd regionlarında sabitsizlik Avropa İttifaqının daxilində sabitliyi poza bilərdi.

1996- cı ilin may ayının 12-13-də Sərəxs (İran) - Tecən (Türkmənistan) dəmiryolunun açılış mərasimi zamanı Azərbaycan, Özbəkistan, Gürcüstan və Türkmənistan prezidentləri TRASEKA dəhlizi üzrə tranzit yüklərin daşınmasının tənzimlənməsi sahəsində əməkdaşlığa dair ilk regional sazişi imzaladılar. Saziş yüklərin daşınması üçün gömrük qaydalarının sadələşdirilməsini və tariflərin 50% azaldılmasını nəzərdə tuturdu.
1996- cı ilin payızında isə Tbilisidə keçirilən ikinci regional konfransda MDB-nin 8 Qafqaz və Asiya ölkəsi Avrasiya nəqliyyat dəhlizinin yaradılması üçün qanunvericiliyin uzlaşdırılmasına dair razılığa gəldilər.

Bakı - Tbilisi - Poti - Kiyev və Daşkənd - Çarcou - Türkmənbaşı - Bakı - Tbilisi - Poti - Batumi dəmiryol nəqliyyat dəhlizi quruldu. Ümumi uzunluğu təqribən 2917 km. olan Azərbaycan dəmiryollarının yenidən qurulmasına başlandı. TRASEKA proqramı çərçivəsində 1996-cı ilin noyabrında Bakı - Tbilisi - Batumi - Poti lojistik ekspres qatarı xəttə buraxıldı.

TRASEKA layihəsindən ABŞ da kənarda qalmadı. Artıq qeyd edildiyi kimi, 1997-ci ilin aprel ayında senator Sem Braunbek senata İpək yolu strategiyası haqqında qanun layihəsini təqdim etmişdi. Həmin layihədə TRASEKA yolu üzərində yerləşən ölkələrə iqtisadi yardımların göstərilməsi təklif edilirdi.

Böyük İpək yolunun bərpası istiqamətində mühüm addımlardan biri 1998-ci il sentyabrın 7-8-də Bakıda 9 ölkənin - Azərbaycan, Bolqarıstan, Gürcüstan, Qırğızıstan, Moldova, Rumıniya, Türkiyə, Özbəkistan, Ukrayna dövlət başçılarının, 13 beynəlxalq təşkilatın və 32 ölkənin nümayəndə heyətinin iştirakı ilə beynəlxalq konfransın keçirilməsi oldu. Toplantının işini 20 ölkədən gəlmiş 210 mətbuat nümayəndəsi işıqlandırırdı.

Qeyd etmək lazımdır ki. Tarixi İpək yolu 1993-cü ildə qəbul edilmiş TRASEKA proqramı əsasında bərpa edilirdi. Həmin proqram əsasında kommunikasiya xətləri, Avropa - Qafqaz - Asiya nəqliyyat dəhlizi yaradılmışdı. Bu yol böyük iqtisadi fayda gətirirdi, onun eyni zamanda siyasi faydası da var idi. O, regiona sülh, sabitlik, dövlətlər arasında qarşılıqlı

anlaşma gətirməli idi . Böyük İpək yolunun bərpası məsələsi qlobal, ümumi, beynəlxalq bir məsələ olaraq artıq qeyd olunduğu kimi, 1997-ci

Əliyev H.Ə. Bakının Binə hava limanında tarixi İpək yolunun bərpası üzrə beynəlxalq konfransda iştirak etmək üçün Azərbaycana səfər gələn dövlət başçılarının və nümayəndə heyətlərinin qarşılanmasından əvvəl ölkəmizin və xarici ölkələrin kütləvi informasiya vasitələri müxbirlərinin suallarına cavab. 7 sentyabr 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVII kitab, s.245.

ildə meydana çıxmışdı. Böyük İpək yolunun bərpası yeni kommunikasiya, nəqliyyat xətləri yaratmaq, Avropanı Asiya ilə daha yaxın, əlverişli, təhlükəsiz və daha ucuz yollarla bağlamaq və bu vasitə ilə də ölkələr arasında iqtisadi əməkdaşlıq yaratmaq, onu inkişaf etdirmək və Avropa Birliyinin bu ölkələrə təsirini artırmaq məqsədi daşıyırdı.

Konfransda giriş sözü ilə çıxış edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Avropa İttifaqı komissiyası ilə birlikdə keçirilən belə bir toplantının əhəmiyyətini vurğuladı . Azərbaycan əzəldən Böyük İpək yolunda mühüm məntəqə olmuş, Avropa ilə Asiya arasında özünəməxsus körpü rolunu öynamışdı. Qafqaz, Xəzər dənizi və Qara dəniz hövzələri ölkələri inkişaf etmiş ticarət, qarşılıqlı mədəni zənginləşmə, dini dözümlülük zonasını təşkil edərək Böyük İpək yolunun tərkib hissələrindən biri olmuşdu. Tarix boyu Böyük İpək yolu yüksəliş və tənəzzül dövrlərini keçirmişdi. Müharibələr, ideoloji və coğrafi-siyasi qarşıdurmalar, ayırıcı xətlər dövrləri başladıqdan sonra bu yol yox olmuş və bir əfsanəyə çevrilmişdi. Soyuq müharibənin başa çatması, xalqların müstəqillik əldə etməsi, ümumbəşəri dəyərlərin, demokratik normaların və interqasiya proseslərinin dünya siyasətində yer tutması Böyük İpək yolunun bərpasını zəruri etmişdi.

Bu yolun fəaliyyət göstərməsi bütün ölkələr üçün faydalı idi. Konfransda iştirak edən Türkiyə Prezidenti Süleyman Dəmirəlin fikrincə, İpək yolu üzrə imzalanmış sənədlərin həyata keçirilməsi Türkiyəyə böyük xeyir verəcəkdi'^'*'. İpək yolu konfransında Gürcüstan Prezidenti Eduard Şevardnadze "konfransa qatılan ölkələrin böyük bir qismi İpək yolu üzərində yerləşir. Gürcü-abxaz münaqişəsi həll edildikdən sonra Rusiya bu layihədən yararlanacaq", Bolqarıstan Prezidenti Petru Stoyanov'^'*^ "Bolqarıstan üzərindən neft və təbii qazın daşınması bizim üçün böyük əhəmiyyət daşıyır", Ukrayna Prezidenti Leonid Kuçma "Xəzər neftinin Bakı - Supsa - Ukrayna - Polşa üzərindən daşınmasına üstünlük verdiklərini", Türkiyənin xarici işlər naziri İsmail Cem "İpək yolunun Türkiyəsiz düşünülə bilməyəcəyini", ABŞ enerji nazirinin müavini Robert Gee isə "bu layihə bölgəyə böyük fayda verəcəkdir" dedilər'^"^.

Əliyev H.Ə. Tarixi İpək yolunun bərpası üzrə Bakıda beynəlxalq konfransda giriş sözü. 8 sentyabr 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVII kitab, s. 255-259.

Demirel, İpek yolu zirvesinde. - "Akşam" gazetesi, İstanbul, 1998, 8 Eylül.

1342 P.Stoyanov (1952) - Bolqarıstan Prezidenti (1997-2002).

1343 Doğu ile Batı arasında İpek yolu. - "Zaman" gazetesi, İstanbul, 1998, 9 Eylül.

Beləliklə, konfransda çıxış edənlərin hamısı Tarixi İpək yolunun bərpası barədə yekdil fikir nümayiş etdirdilər. Ortaq mövqe bu yolun uğurla fəaliyyət göstərəcəyindən xəbər verirdi.

Konfransın yekununda üç sənəd - Avropa - Qafqaz - Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli saziş və onun texniki əlavələri; Bakı bəyannaməsi; Tarixi İpək yolunun bərpası üzrə beynəlxalq konfransın yekun rəsmi məlumatı imzalandı. Birinci sənədi 12 dövlət - Azərbaycan, Gürcüstan, Ermənistan, Bolqarıstan, Rumıniya, Moldova, Ukrayna, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Türkiyənin dövlət və hökumət başçıları, yekun bəyannaməsini isə bu dövlətlərlə yanaşı Avstriya, Belçika, Yunanıstan, Almaniya, Macarıstan, İran, Norveç, Böyük Britaniya, ABŞ, Fransa, Yaponiya, Çin, İspaniya, İtaliya, Niderland, Finlandiya, İsveç və Avropa İttifaqının komissiyası imzaladılar.

Konfransdan dərhal sonra əməkdaşlıq istiqamətində yeni addımlar atıldı. Lyan Yun Qan - Almatı - Aşqabad - Türkmənbaşı - Bakı - Gəncə - Tbilisi - Ərdəhan - Ərzurum - Ankara - İstanbul avtomagistralmm Avropa yolları sisteminə qoşulması üçün layihənin hazırlanmasına başlanıldı. Bu avtomagistralm uzunluğu təqribən 9 min km. idi. Böyük İpək yolunun bərpası üçün Beynəlxalq yollar federasiyası layihənin iki mərhələli sxemini təqdim etdi. Birinci mərhələ 2000-ci ilə qədər olan dövrü əhatə edirdi. Bu mərhələdə beynəlxalq komissiya yaradılmalı, beynəlxalq standartlar razılaşdırılmalı, ticarət sahəsində fikir ayrılıqları tənzimlənməli, başlanmış işlərin maliyyələşdirilməsi həyata keçirilməli idi. 2000- 2010-cu illəri əhatə edən ikinci mərhələdə transkontinental magistralın birləşdirici hissələri tikilməli idi. Bakı - Ələt - Qazıməmməd - Kürdəmir - Yevlax - Qazax - Gürcüstan sərhədinə qədər olan avtomobil yolları yenidən qurulmalı idi. Layihədə iştirak edən digər ölkələrin də avtomobil yolları tikilməli idi. Beləliklə, Azərbaycan, Gürcüstan, Qırğızıstan, Özbəkistan və Qazaxıstanın avtomobil yolları Avropa, Çin və Cənub-Şərqi Asiyanın avtomobil yolları ilə birləşdirilməli idi.

Toplantı başa çatdıqdan sonra Azərbaycan Prezidenti Tarixi İpək yolunun bərpası üzrə beynəlxalq konfransın yekunları ilə əlaqədar olaraq müşavirə keçirdi. Müşavirədə nitq söyləyən Azərbaycan Prezidenti onun

əhəmiyyəti və həyata keçiriləcək tədbirlər haqqında danışdı'^'*". Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi sazişin depozitoru təyin edildi. TRASEKA hökumətlərarası komissiyanın daimi katibliyi yaradıldı. Daimi katiblik Bakıda yerləşirdi. Bu, Avropanın aparıcı dövlətlərinin Azərbaycana olan geosiyasi marağını təsdiq edirdi.

Şərq-Qərb Avrasiya nəqliyyat dəhlizinin yaradılmasının böyük tarixi əhəmiyyəti var idi. O, əslində kommersiya gəlirləri çərçivəsini aşaraq böyük geosiyasi əhəmiyyət daşıyırdı. Bu dəhliz Qafqaz və Orta Asiya ölkələrinin suverenliyini möhkəmləndirirdi. Özlərinin yaxşı gələcəyini qurmaq istəyən ölkələr aralarındakı siyasi, etnik, dini və geosiyasi fikir müxtəlifliyinə son qoymalı idilər. Şərq-Qərb dəhlizi ölkələr arasında qarşılıqlı əlaqələr yolu ilə həmin məqsədə nail olmağa yardım edirdi. Xəzər dənizinin ehtiyatlarından istifadə regiona xarici sərmayələrin gətirilməsi və azad bazar iqtisadiyyatının formalaşmasına kömək edirdi. Tanınmış siyasətçi və diplomatlar da bu fikirdə idilər. Məsələn, ABŞ Prezidentinin yeni müstəqil dövlətlər üzrə köməkçisi Riçard L.Morninqstarın fikrincə, müasir İpək yolunun meydana çıxması Qafqaz və Orta Asiya ölkələrində sabitliyi və sülhü təmin e d ə c ə k d i L a y i h ə n i n həyata keçirilməsi bu ölkələrdə siyasi və iqtisadi islahatları gücləndirəcək, sərmayə mühitini yaxşılaşdıracaqdı. Nəqliyyat dəhlizinin yaradılmasında Xəzər dənizi mühüm rol oynayırdı.

Konfransın Azərbaycanda keçirilməsi tarixi əhəmiyyət daşıyırdı. Bu, dövlət müstəqilliyinin möhkəmləndirilməsini, beynəlxalq aləmdə tanınmasını, dünya birliyində tutduğu yeri və oynadığı mühüm rolu göstərir, ölkənin geosiyasi mövqeyini gücləndirirdi. Azərbaycanın dünya siyasətində rolu artırdı. ABŞ-ın Con Hopkins Universitetinin Mərkəzi Asiya-Qafqaz İnstitutunun direktoru Frederik Starrın yazdığı kimi, BTC və Avropa İttifaqının TRASEKA yol təşəbbüsünə qoşulmaqla, Azərbaycan Avropadan Çinə qədər uzanan Şərq-Qərb dəhlizində "at üstündə açar gəzdirən" ölkə imicini formalaşdırdı"^" .

Əliyev H.Ə. Bakıda keçirilmiş Tarixi İpək yolunun bərpası üzrə beynəlxalq konfransın yekunları ilə əlaqədar geniş müşavirədə nitq. 10 sentyabr 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVII kitab, s.265-292.

BbicıynjıeHHe nocjıa MopHHHrcrapa 28 Maa na KOHcjıepenuHH "MnpoBbie nepeKpecTKH". - KDCITA., 1998, 3 mona.

Starr F. Emerging directions of Azerbaijan's Foreign Policy. - Azerbaijan in Global Politics: Crafting Foreign Policy, p. 366.

Konfrans başa çatdıqdan sonra Azərbaycan tərəfi bir sıra yeni addımlar atdı. 1998-ci il oktyabrın 26-da Azərbaycan Prezidenti Tarixi İpək yolunun bərpası üzrə beynəlxalq Bakı konfransının qərarlarının yerinə yetirilməsi ilə əlaqədar tədbirlər haqqında fərman imzaladı'^'*'. Fərmanda yazılırdı ki, müfaviq icra hakimiyyəti orqanları və digər dövlət təşkilatları Avropa - Qafqaz - Asiya dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli əsas sazişi və onun beynəlxalq avtomobil, dəmiryolu nəqliyyatı, beynəlxalq ticarət gəmiçiliyi, gömrük proseduru və sənədlərin işləməsi üzrə texniki əlavələrini işdə rəhbər tutmalı və icrasını təmin etməlidirlər. Fərmanda Xarici İşlər Nazirliyi, Nəqliyyat Nazirliyi və digər qurumlar qarşısında konkret vəzifələr qoyulurdu.

Avropa İttifaqı ilə əməkdaşlıq çərçivəsində və alınan kreditlər hesabına bir sıra kommunikasiya xətləri, dəmir yolları, körpülər, məsələn, kredit olaraq alınmış 2 milyon dollar vəsait hesabına Poylu körpüsü bərpa edildi. Dəmiryolunda müəyyən işlər görüldü. Füzuli rayonunun işğaldan azad edilmiş qəsəbə və kəndlərində bərpa işlərinə yardım edildi. Ümumiyyətlə, Avropa İttifaqı tərəfindən 1998-ci ilədək Azərbaycan Respublikasına 225 milyon dollar yardım edilmişdi. Həmin məbləğə qaytarılan kredit aid deyildi. Ölkənin təkcə aqrar sektoruna 16 milyon dollar yardım edilmişdi. TRASEKA proqramı çərçivəsində Azərbaycana qrant şəklində 7 milyon 650 min ekyu məbləğində sərmayə qoyulmuşdu'^'**.

Avropa İttifaqı Azərbaycan ilə əlaqələrini genişləndirirdi. Təşkilat 1998-ci ildə Azərbaycan Respublikasında özünün xüsusi elçisini təyin etmək barədə qərar qəbul etdi.

ABŞ da fəallığını artırdı. 1999-cu ilin əvvəllərində ABŞ konqresi İpək yolu haqqında qanun qəbul etdi.

Avropa İttifaqı - Azərbaycan əməkdaşlıq şurasının 1999-cu il oktyabrın 12-də keçirilən iclasında əməkdaşlığın konkret məsələləri müzakirə edildi. Noyabrın 19-da isə Azərbaycan Prezidenti İstanbulda Avropa Komissiyasının sədri Romano Prodi ilö görüşərək ikitərəfli münasibətləri müzakirə etdi. Qeyd etmək lazımdır ki, Avropa İttifaqı təkcə iqtisadi

Əliyev H.Ə. Tarixi İpək yolunun bərpası üzrə beynəlxalq Bakı konfransının qərarlarının yerinə yetirilməsi ilə əlaqədar tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. 26 oktyabr 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVIII kitab, s. 89-92.

Əliyev H.Ə. Bakıda keçirilmiş tarixi İpək yolunun bərpası üzrə beynəlxalq konfransın yekunları ilə əlaqədar geniş müşavirədə nitq. 10 sentyabr 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVII kitab, s. 271-272.

deyil, digər geniş sahələr üzrə əməkdaşlıqda da maraqlı idi. Romano Prodi Böyük İpək yoluna regionun strategiyasının müəyyənləşdirilməsində mü hüm əhəmiyyət verirdi . Bu görüşdən sonra 1999-cu il noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti Avropa İttifaqı ilə tərəfdaşlıq və əməkdaşlıq üzrə Dövlət Komissiyası haqqında sərəncam imzaladr^^''. Sərəncam münasibətlərin inkişafına stimul verirdi.

1999- cu ildə Bakı - Aktau dəniz bərəsi işə salındı. Bu yol ilə yüklər, yük avtomobilləri və sərnişinlər daşmırdı.

2000- ci ilin mart ayında Tbilisidə beynəlxalq nəqliyyat dəhlizinə dair birinci hökumətlərarası konfrans keçirildi. Konfransın işində bütün 12 dövlət, həmçinin Çin və Monqolustan müşahidəçi kimi iştirak edirdilər. Nəqliyyat və tranzitin prioritet istiqamətlərini müəyyənləşdirən konfransda təqdim edilən fəaliyyət planı sərhəd prosedurlarının uyğunlaşdırıl- masmı, nəqliyyat daşımaları üçün vahid hüquqi bazanın, nəqliyyat rüsumları və tariflər üzrə vahid siyasətin qurulmasını nəzərdə tuturdu. Proqramın əsas istiqamətlərinin reallaşdırılması üçün TRASEKA hökumətlərara- sı komissiyasının nəzdində dörd işçi qrup yaradıldı: avtomobil, dəmiryol, dəniz nəqliyyatı, ticarət.

Avropa İttifaqı - Azərbaycan əməkdaşlıq şurasının 2000-ci il oktyabrın 10-da keçirilən iclasında qarşılıqlı münasibətlərin və əməkdaşlığın konkret sahələri müəyyənləşdirildi. Qeyd etmək lazımdır ki, TRASEKA proqramının maliyyələşdirilməsi əsasən Avropa İttifaqı komissiyasının vəsaiti hesabına MDB ölkələrinə Avropa İttifaqının yardım proqramı olan TASİS proqramı çərçivəsində həyata keçirilirdi. Avropa Yenidənqurma və İnkişaf Bankı, Dünya Bankı, Asiya İnkişaf Bankı yolların bərpası üçün vəsait ayırdılar. Layihənin həyata keçirilməsində özəl sərmayədar qurumlar da iştirak edirdilər. Nəticədə 2000-ci ilin sonları üçün TRASEKA-nın regionlararası proqramının iştirakçısı olan 8 ölkədə investisiya layihələrinin büdcəsi 50,45 mln. avroya çatmışdı. Proqramın reallaşdırılmasına başlandığı dövrdən ümumi məbləği 100 mln. dollaradək olan 50-dək layihə yerinə yetirilmişdi.

Avropa - Qafqaz - Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli sazişin icrasını təmin etmək məqsədilə

Əliyev H.Ə. Avropa Komissiyasının sədri Romano Prodi ilə görüşdəki söhbətdən. 19 noyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXIII kitab, s.164-166.

Avropa İttifaqı ilə tərəfdaşlıq və əməkdaşlıq üzrə Dövlət Komissiyası haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 23 noyabr 1999-cu il. - Azərbaycan Respublikasının qanunvericilik toplusu. Bakı,1999, JV211.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 21 dekabr tarixli sərəncamı ilə dövlət komissiyası yaradıldı. Komissiyanın tərkibinə xarici işlər nazirinin müavini də daxil edildi. Əməkdaşlıq çərçivəsində Xarici İşlər Nazirliyi rəhbərliyi ilə TRASEKA daimi katibliyinin nümayəndələri arasında müntəzəm görüşlər keçirilir, nazirliyin ekspertləri TRASEKA işçi qrupunun işində fəal iştirak edir və nazirliyin təşkilatçılığı ilə keçirilən toplantılara TRASEKA nümayəndələri dəvət olunurdular.

Avropa İttifaqı tərəfindən proqramın reallaşdığı dövr ərzində Azərbaycan Respublikasına investisiya layihələrinin maliyyələşdirilməsi üçün təxminən 14 mln. avro həcmində vəsait ayrılmışdı. İmzalanmış sazişin şərtlərinin həyata keçirilməsi məqsədi ilə Azərbaycanda nəqliyyat infrastrukturunun inkişafı istiqamətində tədbirlər reallaşdırıldı. Nəqliyyat dəhlizi ilə yük daşınmasının artırılması üçün nəqliyyat sektorunun texniki təchizatının yaxşılaşdırılması sahəsində bir sıra tədbirlər - avtomobil magistrallarının, dəmiryolu xəttlərinin, körpülərin bərpası və tikintisi, dəmiryolu nəqliyyatı vasitələrinin, gəmilərin, bərələrin, liman qurğularının təmiri üzrə müəyyən işlər görüldü. Bakı şəhərində ildə 10 mln. ton neft məhsullarının boşaldıb yüklənməsinə imkan verən liman istifadəyə verildi. TRASEKA proqramının bu layihələrinin həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının dövlət strukturları üçün müxtəlif maliyyə institutlarından (Avropa Yenidənqurma və İnkişaf Bankı, Küveyt İqtisadi İnkişaf Bankı, İslam İnkişaf Bankı, Dünya Bankı və s.) 255 mln. ABŞ dolları həcmində kreditlər alındı.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi TRASEKA proqramının reallaşdırılmasmda başlıca olaraq aşağıdakı sahələrdə fəaliyyət göstərirdi; əsas çoxtərəfli sazişin depazitoru funksiyalarını yerinə yetirir, üzv dövlətlərlə sazişin fəallaşdırılmasına dair yazışma aparır, iştirakçıları sazişə aidiyyatı olan sənədlər, məlumatlar və bildirişlərlə tanış edir; keçirilən görüşlər və danışıqlar zamanı ikitərəfli əlaqələr səviyyəsində və beynəlxalq təşkilatlar çərçivəsində TRASEKA-nm maraqlarının müdafiə edilməsi istiqamətində iş aparır, nəqliyyat dəhlizinin fəaliyyətinin yaxşılaşdırılmasına yönəldilmiş təkliflər irəli sürürdü.

Əməkdaşlığı daha səmərəli etmək məqsədi ilə Azərbaycan tərəfi əlavə tədbirlər gördü. 2000-ci ildə Azərbaycan Respublikasının Avropa İttifaqı yanında daimi nümayəndəliyi açıldı'^^'. Bu, qarşılıqlı münasibətlərin inkişafına verilən diqqətin nümunəsi oldu. Azərbaycan Respub-

ARXINA. 2008.

likasınm Avropa İttifaqı yanında daimi nümayəndəsi vəzifəsinə fövqəladə və səlahiyyətli səfir Arif Məmmədov'^^" təyin edildi.

Artıq qeyd edildiyi kimi, Avropa İttifaqı Cənubi Qafqazı əhəmiyyətli region hesab edirdi. Qurumun mövqeyinə görə, İttifaq genişləndikdən sonra Cənubi Qafqaz qonşu regiona çevriləcəkdi. Lakin regionda əməkdaşlığa mane olan əsas amil Ermənistanın işğalçılıq siyasəti idi. Avropa İttifaqı Cənubi Qafqazda sülh və sabitliyin bərqərar olmasını bu regionun iqtisadi inkişafı və regionda yaşayan xalqların maddi rifah halının yüksəlməsi üçün əsas amillərdən hesab edir, hərbi münaqişələrin həllini vacib sayırdı. Bu məsələlər 2001-ci il fevralın 21-də Avropa İttifaqına sədrlik edən İsveç Krallığının xarici işlər naziri Anna Linda, Avropa İttifaqının baş katibi Xavyer Solana, İttifaqın komissarı Kristofer Patteni və onları müşayiət edən şəxslərlə Azərbaycan Prezidentinin görüşündə müzakirə edildi'^”. Təşkilat rəhbərlərinin fikrincə. Cənubi Qafqaz regionunda münaqişələrin həlli onun tərəfləri arasında axtarılmalı, münaqişələrin həlli ilə paralel olaraq regionda iqtisadi əməkdaşlıq da genişləndirilməli idi. Onların baxışlarına görə, regional əməkdaşlıq Azərbaycan ilə Ermənistan arasında gərginliyin aradan qaldırılmasına xidmət edərdi, Azərbaycan tərəfi isə fərqli düşünürdü. Onun fikrincə, əməkdaşlıq Ermənistanı yumşaltmayacaq, işğal etdiyi ərazilərin boşaltmasına gətirməyəcəkdi. Əməkdaşlıq nəticəsində güclənən Ermənistan mövqeyini daha da sərtləşdirəcəkdi.

Qeyd etmək lazımdır ki, Azərbaycan tərəfi Gürcüstan ilə səmərəli əməkdaşlıq edirdi. Ermənistan ilə əməkdaşlıq isə bilavasitə bu ölkədən asılı idi. Azərbaycan ərazilərini işğal edən Ermənistan işğala son qoyduqdan və münaqişə həll edildikdən sonra əməkdaşlıq qurula bilərdi.

Həmin gün Bakıda TRASEKA hökumətlərarası komissiyası daimi katibliyinin ofisinin rəsmi açılışı oldu'^^"*. Mərasimdə çıxış edən Avropa İttifaqının komissarı K.Patten əməkdaşlıq üçün Azərbaycan hökumətinə təşəkkür etdi. Azərbaycan Prezidenti isə bu addımı Avropa İttifaqına

Arif Məmmədov - Azərbaycan Respublikasının Avropa İttifaqı yanında daimi nümayəndəsi (2000-2006).

Azərbaycan Prezidenti Heydər Əliyev Avropa İttifaqının nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2010. I hissə, s. 176-185.

Bakıda TRASEKA hökumətlərarası komissiyası daimi katibliyinin ofisi açılmışdır. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. 1 hissə, s. 185-186.

açılan yol kimi qiymətləndirirdi. Qeyd etmək lazımdır ki, TRASEKA proqramı çərçivəsində Avropa - Qafqaz - Asiya nəqliyyat dəhlizinin keçdiyi ölkələrdə Avropa İttifaqının ayırdığı vəsait hesabına onlarla layihə gerçəkləşdirilmişdi. Dəhlizin təkcə Azərbaycan hissəsindən keçən yük dövriyyəsi 1995-ci ildə 355 min ton olduğu halda, 2000-ci ildə 5,2 milyon tona çatmışdı'^^^. Avropa İttifaqı regionda fəallığını artırırdı. Belə ki, qurumun ümumi işlər komitəsinin 2001-ci ilin fevral ayında keçirilən iclasında Cənubi Qafqazda daha fəal siyasət yürütmək, regionda münaqişələrin qarşısını almaq və onların həllinə yönəlmiş səyləri dəstəkləmək üçün əlavə yollar axtarmaq və münaqişədən sonra ərazilərin bərpasında iştirak etmək niyyətləri təsdiq olundu.

1998-ci ildə Azərbaycan Respublikası hələ 1953-cü ildə yaradılmış Avropa Nəqliyyat Nazirləri Konfransının (ANNK) üzvü seçildi. Azərbaycan tərəfi təşkilata yeni üzvlərin konsensus əsasında seçilmə qaydasından istifadə edərək işğalçı Ermənistanın bu təşkilata üzv seçilməsinə imkan [1356] vermirdi. Ermənistan bu təşkilatda müşahidəçi statusuna malik idi Azərbaycan tərəfinin gətirdiyi dəlil Ermənistanın təcavüzkar siyasəti idi. Rəsmi Bakının mövqeyinə görə, Ermənistan işğal etdiyi əraziləri boşaltdıqdan və münaqişə həll edildikdən sonra ANNK-nm üzvü seçilə bilərdi. Azərbaycan tərəfi 1998-ci ildə Bakıda imzalanmış Avropa - Qafqaz - Asiya nəqliyyat dəhlizinin təsis edilməsi haqqında çoxtərəfli sazişə aşağıdakı qeyd-şərtlə qoşuldu: “Əsas çoxtərəfli saziş və onun texniki əlavələrində qeyd olunan hüquq, öhdəlik və qaydalardan heç birini, Azərbaycan Respublikasının ərazisindən keçəcək və Ermənistan Respublikasının başlanğıc, tranzit və sonuncu ərazi olaraq çıxış edəcəyi daşımalara münasibətdə Azərbaycan Respublikası tətbiq etməyəcəkdir”’^”.

Ermənistanın üzvlük məsələsinə ilk dəfə 1998-ci ilin oktyabr ayında ANNK müavinlər komitəsinin iclasında baxıldı. Azərbaycan tərəfi bəyanatla çıxış edərək Ermənistanın təşkilata tam hüquqlu üzv qəbul edilməsinə qarşı çıxdı. Bildirildi ki, Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın minlərlə kilometr avtomobil və dəmiryolları zəbt edilmiş və ya dağıdılmış, yol infrastukturu məhv edilmişdir. Ermənistanın hərəkətləri ANNK-in məqsəd və vəzifələrinə zidd idi. Bütün bunların nəticəsində

[1355] Yenə orada, s. 186.
ARXİNA. 10.07.2002-01.10.2002. Qovluq XaS, v.174-176.
Yenə orada, v.176.

1999- cu ilin aprel ayında keçirilən iclasda Ermənistanın üzvlüyü məsələsi gündəliyə salınmadı.

Ermənistanın bu quruma üzvlüyü məsələsi 2001-ci ilin aprel ayında ANNK nazir müavinlərinin 267-ci sessiyasında yenidən müzakirəyə çıxarıldı. Azərbaycan nümayəndə heyəti Ermənistanın üzvlüyü əleyhinə səs verdi. Türkiyə, Bosniya və Herseqovina da eyni mövqeni tutdu.

Sentyabrın 26-da Vyanada Avropa Nəqliyyat Nazirləri Konfransının nazir müavinləri komitəsinin yığıncağında Ermənistan quruma üzv olmaq üçün yenidən müraciət etsə də, Azərbaycan tərəfi konsensus vermədi. Üzvlüklə bağlı işçi qrupun yaradılması məsələsinə də Azərbaycan etiraz edərək mane oldu.

Avropa İttifaqı Azərbaycan ilə əməkdaşlığını genişləndirirdi. 2001- ci il iyunun 26-da Avropa Birliyi və Azərbaycan arasında əməkdaşlığa həsr olunmuş seminar keçirildi.

Avropa İttifaqının bütövlükdə regionda fəal rol oynamaq istəyi Azərbaycanla əməkdaşlıq şurasının 30 oktyabr tarixli iclasında bəyənildi. Həmin gün Azərbaycan, Gürcüstan və Ermənistan xarici işlər nazirlərinin qəbul etdikləri birgə bəyannamədə də bu, rəğbətlə qarşılandı. Bundan sonra əməkdaşlıq daha da artdı. Böyük İpək yolunun bərpası ilə bağlı TRASEKA layihəsinə üzv olan dövlətlərin hökumətlərarası komissiyasının ikinci konfransı 2002-ci il aprelin 24-25-də Daşkənd şəhərində keçirildi. Konfransda komissiyaya üzv olan ölkələrin nümayəndə heyəti iştirak edirdi. Azərbaycanı toplantıda baş nazirin müavini Abid Şərifovun başçılıq etdiyi nümayəndə heyəti təmsil edirdi. Konfransda başlıca olaraq Asiyadan Avropaya tranzit yük daşımaları üçün sənədlərin, güzəştli gömrük rüsumlarının və sərhəd prosedurlarının sadələşdirilməsi məsələləri müzakirə edildi. Gömrük prosedurlarına dair əsas sazişə olan əlavənin yeni redaksiyası qəbul olundu. Buna görə gömrük girov depozitləri, bank təminatları, maliyyə riski sığortası, dəmiryol idarələrinin yüklərə təminat vermələri ləğv edilirdi. Konfransda yekun qətnamə, yekun bəyannamə, dəniz nəqliyyatının inkişaf etdirilməsinə dair qərar və Daşkənd bəyanatı qəbul edildi.

ANNK-nm 2002-ci il mayın 29-30-da Buxarestdə keçirilən 86-cı sessiyasında Ermənistan Respublikası tam hüquqlu üzv olmaq üçün yenidən müraciət etdi. Təşkilatın protokoluna dəyişiklik edilməsi təklifi ilə çıxış etdi. Lakin Azərbaycan və Türkiyə nümayəndələri buna etiraz etdilər. Konsesus alınmadığı üçün Ermənistanın istəyi reallaşmadı.

Belə olduqda Ermənistan tərəfi ANNK katibliyinin baş inzibatçısı xanım S.Forezdən onlara da kvota ayrılmasını xahiş etdi. Ona cavab verildi ki, bu müraciətə işçi qrupun sentyabrın 5-6-da Sarayevoda keçilməsi nəzərdə tutulan toplantısında baxıla bilər'^^*. Lakin konsensus alınmadığı üçün Ermənistan istəyinə çata bilmirdi. Buna görə də komitənin üzvləri fəaliyyətə bir ölkə tərəfindən mane olunmasının aradan qaldırılması üçün protokola yenidən baxılması və konsensusun aradan qaldırılmasını vacib hesab edirdilər. Azərbaycan tərəfi isə protokolda konsensus qaydasının aradan qaldırılmasının əleyhinə idi.

Məsələ ANNK-nın 2002-ci il iyunun 26-da Parisdə nazir müavinləri səviyyəsində keçirilən toplantısında da müzakirə edildi. Azərbaycan tərəfi Türkiyə ilə birgə razılaşdırılmış tədbirləri müəyyənləşdirdi. Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Mahmud Məmməd- quliyev baş nazirin müavini Abid Şərifova yazdığı 21 sentyabr tarixli məktubunda Azərbaycanın işğal altında olan Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarından Ermənistan silahlı birləşmələri çıxarıldıqdan, həmin ərazilər azad edildikdən və Horadiz - Meğri - Naxçıvan - Yerevan marşrutu üzrə dəmiryol xətti bərpa edildikdən sonra razılıq verə biləcəyini yazdı'^^^. Üzv olacağı təqdirdə Ermənistan Azərbaycan ərazilərindən yüklərini keçirə biləcəkdi. Üzvlüyə qəbul zamanı lehinə səsvermədə qeyd- şərt prosedur qaydalarına görə edilə bilməzdi. Bəyanatın isə elə bir əhəmiyyəti olmayacaqdı. Buna görə də nazir müavini qeyd-şərtin irəli sürülməsini mümkünsüz hesab edirdi.

Bununla belə, Ermənistanın üzvlüyünə Azərbaycan qeyd-şərtlə razılıq verdi. Qeyd-şərtdə yazılırdı: “1.Azərbaycan Respublikasının ərazisindən həyata keçirilən beynəlxalq daşımalarda Ermənistan Respublikasının ərazisi başlanğıc, tranzit və ya son ərazi olduğu hallarda, nəqliyyat nazirlərinin Avropa konfransının 17 oktyabr 1953-cü il tarixli protokolunda ifadə olunmuş öhdəlik, hüquqi müddəalarından heç biri Azərbaycan Respublikası tərəfindən tətbiq edilməyəcəkdir. 2.Azərbaycan Respublikası bu qeyd-şərtin 1-ci bəndinin müddəasını istənilən vaxt dəyişmək və ya istisna etmək hüququnu özündə saxlayır. ANNK-nın Nazirlər Şurası hər hansı belə dəyişiklik barədə yazılı şəkildə bildiriş alacaqdır”'^“.

ARXİNA. 10.07.2002-01.10.2002. Qovluq XsS, v. 171 -173.
ARXİNA. 29.08.2002-01.10.2002. Qovluq Xal 1, v.77-78.
ARXİNA. 29.08.2002-01.10.2002. Qovluq Xal 1, v.74.

Avropa Komissiyasının Nəqliyyat üzrə yüksək səviyyəli işçi qrupu Avropanın prioritet nəqliyyat dəhlizlərini və nəqliyyat layihələrini müəyyənləşdirirdi. Azərbaycan üçün ciddi əhəmiyyət kəsb edən TRASEKA nəqliyyat dəhlizi bu qrupun fəaliyyətində əksini tapmışdı. Qrupun iclaslarında həmin məsələlərlə yanaşı su nəqliyyat şəbəkələri arasında uyğunluğun yaradılması imkanları, su nəqliyyatında təhlükəsizlik, peyk naviqasiya sistemi, hava nəqliyyatının idarə olunması, avtomobil yollarında təhlükəsizlik və nəqliyyat vasitələrinin ölçülməsi məsələləri müzakirə edildi. Bununla bağlı olaraq Avropa Komissiyasına tövsiyələr verildi.
2002- ci il iyulun 12-də keçirilən Avropa İttifaqı-Azərbaycan əməkdaşlıq komitəsinin üçüncü iclasının yekunlarında və bir sıra digər sənədlərdə Dağlıq Qarabağ münaqişəsinə münasibətdə Avropa İttifaqının tutduğu mövqe - münaqişənin Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmət prinsipi əsasında həll edilməsi əksini tapdı.

Əməkdaşlığı genişləndirmək yolları Avropa İttifaqı - Azərbaycan əməkdaşlıq şurasının 2002-ci il oktyabrın 1-də keçirilən iclasında müəyyənləşdirildi. Bundan sonra, oktyabrın 8-də Avropa İttifaqı siyasi direktor üçlüyü Azərbaycana səfər etdi'^'^’. Nümayəndə heyətinin tərkibinə Danimarka Xarici İşlər Nazirliyinin siyasi direktoru Mixael Zilmer Cons, Yunanıstan Xarici İşlər Nazirliyinin siyasi direktoru George Yennimates, Yunanıstan Xarici İşlər Nazirliyinin Avropa işləri səlahiyyətlisi Yoannis Vrailas, Avropa Komissiyasının nümayəndələri Kurt Yuul, Antoni Mo- kan, Avropa İttifaqı Şurası katibliyinin nümayəndəsi Stefan Leene daxil idilər‘^“.

Səfərdə əsas məqsəd Azərbaycan ilə bu qurum arasında əməkdaşlığın daha da dərinləşdirilməsi üçün imkanlar axtarmaq idi. Nümayəndə heyəti xarici işlər nazirinin müavinləri Araz Əzimov, Mahmud Məmməd- quliyev, Xələf Xələfov, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti İlham Əliyev, Azərbaycan Respublikası Prezidentinin icra aparatının xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov ilə görüşərək əməkdaşlığın dərinləşdirilməsi məsələlərini müzakirə etdi.

Qısa müddət ərzində Azərbaycan Respublikasında və Əsas çoxtərəfli sazişin digər üzv dövlətlərdə TRASEKA nəqliyyat dəhlizinin cəlbediciliyinin artırılması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində irəliləyişlər əldə edildi. Marşrut üzrə yük daşımalarının həcmi artdı. Dəh-

ARXİNA. 2002. Qovluq Na 10, v.l9.
[1362] ARXINA.. 2002. Qovluq JValO, v. 80.

lizin mərkəzi seqmenti olan Azərbaycan - Gürcüstan marşrutu üzrə 2002- ci ilin yanvar-noyabr aylarında nəqliyyat vasitələrinin bütün növləri üzrə 33 mln. ton müxtəlif yüklər daşınmışdı. Bu da 2001-ci ilin müvafiq dövrü ilə müqayisədə 10,6% çox idi. 2002-ci ildə nəqliyyat dəhlizi vasitəsi ilə tranzit yük daşımalarının həcmi 1996-cı illə müqayisədə 12 dəfə artmışdı.

Digər sahələrdə də irəliləyişlər əldə edildi. 2002-ci ildən etibarən Avropa İttifaqının Azərbaycana ixracı artmağa başladı. 2002-2003-cü illərdə illik artım təqribən 40% oldu. Artıq Azərbaycanın ümumi ticarət dövriyyəsində Avropa İttifaqının payı 51% təşkil edirdi. Avropa İtifaqmın ticarətində isə Azərbaycan 0,1% ilə 16-cı yeri tuturdu'^®^. Avropa İttifaqının Azərbaycandan idxal etdiyi mallar arasında enerji məhsulları xüsusi yer tuturdu. 2003-cü ildə qarşılıqlı ticarətdə enerji məhsullarının ümumi payı 95,3% təşkil edirdi. Azərbaycan birbaşa xarici investisiyaların həcminə görə, MDB iştirakşısı olan ölkələr içərisində birinci yeri tuturdu.

Azərbaycan tərəfi iqtisadi əməkdaşlıqla yanaşı təhlükəsizlik və siyasi məsələlərdə də Avropa İttifaqı ilə ikitərəfli məsləhətləşmələrin aparılmasını istəyirdi. Bu baxımdan Avropa İttifaqının sədri qismində Yunanıstan Respublikası xarici işlər nazirinin müavini İ.Maqriotisin 2003-cü il iyunun 18-də Azərbaycana səfəri müəyyən rol o y n a d ı X a r i c i işlər naziri Vilayət Quliyevlə keçirilən görüşdə Avropa İttifaqı ilə əməkdaşlığın, tərəfdaşlıq və əməkdaşlıq sazişinin əhəmiyyəti qeyd edildi. İ.Maqriotis bildirdi ki, Avropa İttifaqına sədrlik edən ölkələr içərisində ilk dəfə olaraq Yunanıstan Cənubi Qafqaz regionunu xarici əlaqələr üçün prioritet kimi göstərmiş, bu məqsədlə Avropa İttifaqı Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini təyin etmişdir. Bu vəzifənin təsis edilməsi Brüsseldə gərgin müzakirələrə səbəb olmuşdu. İ.Maqriotis Avropa İttifaqı ilə Azərbaycan arasında enerji dialoqunu xatırladaraq onun Avropa İttifaqı üçün əhəmiyyətli olduğunu qeyd etdi. Xəzər dənizinin enerji resurslarının işlənməsi və Qərbə daşınması ilə əlaqədar olaraq bir neçə alternativ maşrutların olmasının vacibliyini vurğuladı. Bu yollardan biri kimi Bakı - Tbilisi - Ərzurum - Yunanıstan - Avropa İttifaqı ola biləcəyini söylədi. Azərbaycan tərəfi təyin edilən xüsusi nümayəndə ilə əməkdaşlıq edəcəyini bildirdi. Tərəfdaşlıq və əməkdaşlıq sazişinin həyata keçirilməsində Yunanıstanın praktik dəstəyinə ümid ifadə etdi. Bildirdi ki, xüsusi nümayəndə

Avropa Komissiyasının iş sənədi. Avropa qonşuluq siyasəti. Ölkə üzrə hesabat. Azərbaycan. SEC (2005) 286. Bakı, 2005, s.26.

[1364] ARXINA. 06.01.2003-29.11.2003. Qovluq RbS, v.138-140.

İlk öncə iqtisadi və inkişaf məsələləri ilə deyil, regiondakı münaqişələrin həlli ilə məşğul olmalıdır. Nazirin fikrincə, Avropa İttifaqı Şərqə doğru genişlənməklə Azərbaycana daha yaxın olacaqdı. İ.Maqriotis Avropa İttifaqının Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini söyləyərək münaqişənin həll edilməməsindən təşkilatın narahatlıq keçirdiyini vurğuladı. Nümayəndə heyətini qəbul edən Azərbaycan Prezidenti Heydər Əliyev ölkəsinin Avropa İttifaqı ilə əməkdaşlığa verdiyi xüsusi əhəmiyyəti vurğuladı və ona mane olan amilləri qeyd etdi.

Avropa İttifaqı regiondakı rolunu daha da fəallaşdırmaq məqsədi ilə 2003- cü il iyulun 7-də Cənubi Qafqaz üzrə ilk xüsusi nümayəndəsini təyin etdi. Bu vəzifəyə Heyki Talvitie təyin olundu.

"Daha geniş Avropa təşəbbüsləri" açıq şəkildə regional xarakter daşıdığından Azərbaycanı narahat etməyə bilməzdi. Bununla bağlı olaraq, komissiya tərəfindən təqdim olunmuş yekun sənədin layihəsində nəzərdə tutulmuş bu təşəbbüsə dair bənd Azərbaycan üçün məqbul deyildi. Ermənistan və Gürcüstanın Azərbaycanı da həmin təşəbbüsə cəlb etmək niyyətləri də təəccüblü deyildi. Azərbaycanın mövqeyinə görə, siyasətin regionlaşdırılması məsələsi təkcə Ermənistan ilə münaqişə baxımından deyil, Azərbaycanın ehtiyatlarının düzgün istifadəsi və planlaşdırılması ilə də bağlı idi. Azərbaycan regional siyasətdə mövcud olan problemləri nəzərə alaraq, bu təşəbbüsə qoşulmaqda tələsməməyi və təşəbbüsün daha yaxşı öyrənilməsini məqsədəuyğun hesab edirdi. Buna görə də Azərbaycan nümayəndəsinə Ermənistan və Gürcüstan nümayəndələrinin komis- siyadakı nümayəndələri ilə üçtərəfli görüşə getməmək və məsələni dərindən öyrənmək təlimatı verildi'^^^.

Azərbaycan tərəfi TRASEKA proqramı çərçivəsində neft məhsulları yüklərinin daşınması üzrə Logistik mərkəzin qurulması ideyasını müdafiə edir və onu Bakıda yaratmağa hazır idi. Lakin buna mane olan amillər var idi. Həmin amillər 2003-cü il avqustun 29-da Nəqliyyat Nazirlərinin Avropa konfransında Azərbaycan Respublikasının nəqliyyat nazirinin etdiyi nitqində səsləndirildi'^^^. Nazir Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsi nəticəsində ölkənin cənub rayonlarında nəqliyyat dəhlizinin blokada şəraitində olduğunu bildirdi. Ona görə də Azərbaycan tərəfi Şimal - Cənub dəhlizinin daha fəal işləməsində maraqlı idi. Rəsmi olaraq Sankt Peterburqda qeydiyyata alınmış

[1365] ARXİNA. 06.01.2003-29.11.2003. Qovluq ftçS, v.81-82.
ARXİNA. 05.04.2003-26.09.2003. Qovluq ftçS, v. 6-10.

bu nəqliyyat dəhlizi digər nəqliyyat marşrutlarına alternativ hesab edilirdi. Süveyş kanalı yolundan üç dəfə qısa olan bu yol ilə Hind okeanı və Fars körfəzi ölkələrindən yüklər İrandan, Xəzər dənizindən, Rusiyadan keçərək Şimali və Şərqi Avropa ölkələrinə çatdırılırdı'^^^. Deməli, yüklərin daşınması da ucuz başa gəlirdi.

Ona görə də, Azərbaycan həmin nəqliyyat dəhlizinə qoşulmaq barədə qərar vermişdi. İlkin proqnozlara görə, dəhlizin Azərbaycan sahəsindən ildə 15 mln. tonadək yük keçiriləcəkdi. Perspektivdə isə yüklərin həcmini 35 mln. tona çatdırmaq olardı. Azərbaycan bu layihə çərçivəsində 502 km.-lik Yalama - Astara sahəsinin bərpası işlərini həyata keçirmək niyyətində idi. Lakin Azərbaycanın həmin layihədə iştirakına mane olan əsas əngəl Ermənistanın işğalçılıq siyasəti idi. Azərbaycan dəmiryolunun 178 km.-i, avtomobil yolunun 540 km.-i işğal altında qalmışdı. İşğal edilmiş ərazilərdə bütün nəqliyyat sistemi tamamilə dağıdılmışdı. Ümumi vurulan ziyan 540 mln. dollar təşkil edirdi'^®*.

İşğal nəticəsində Şimal - Cənub nəqliyyat zənciri faktiki olaraq qırılmışdı. Münaqişəyə qədər yüklər Azərbaycan Culfası ilə İran Culfası arasında dəmiryolu ilə Şimali Amerika, Avropa və Rusiyadan gələrək, Azərbaycandan keçirilərək İrana, Fars körfəzi ölkələrinə, Hindistana və geriyə daşınırdı. İşğal nəticəsində Azərbaycan dünya okeanına ən qısa çıxış yolunu itirmişdi. Eyni zamanda təkcə Azərbaycan deyil. Şimal - Cənub dəhlizinin digər ölkələri də münaqişənin davam etməsindən əziyyət çəkirdilər.

TRASEKA proqramının on illik fəaliyyəti və Avropa - Qafqaz - Asiya nəqliyyat dəhlizinin inkişafına dair beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli sazişin və Bakı bəyannaməsinin imzalanmasından ötən beş il ərzində 25 texniki yardım layihəsi maliyyələşdirilmişdi. İştirakçı dövlətlərin hökumətləri arasında aparılan əməkdaşlıq və dialoqun nəticəsində tranzit tariflərinin azaldılması və gömrük prosedurlarının sadələşdirilməsi istiqamətində bəzi razılaşmalara nail olunmuşdu’^^^.

Ermənistanın təcavüzünün davam etməsinə, ərazilərin 20%-dən çoxunun işğal edilməsinə və ölkədə qaçqın və məcburi köçkünün olmasına baxmayaraq, TRASEKA dəhlizi ilə yük daşımalarının artırılması məqsədi ilə nəqliyyat sektorunun texniki cəhətdən yenidən qurulması.

’ ARXİNA. 05.04.2003-26.09.2003. Qovluq flbS, v. 14-15.

' Yenə orada, v. 15.

[1369] ARXİNA. 06.01.2003-29.11.2003. Qovluq XsS, v. 21-22.

avtomobil və dəmiryol magistrallarının, körpülərin bərpası və inşası, nəqliyyat vasitələrinin və liman qurğularının təmiri istiqamətində Azərbaycan tərəfindən bir sıra tədbirlər reallaşdırıldı. Bunun nəticəsində yük daşımalarının ümumi həcmi 1993-2003-cü illər ərzində təqribən 14 dəfə artmışdı. TRASEKA proqramı çərçivəsində edilən texniki yardımlar Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı və digər beynəlxalq maliyyə qurumları tərəfindən müdafiə olunurdu. Məlum sazişə qatılmaq üçün hətta İran və Əfqanıstan Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə müraciət etmişdilər. Yunanıstan və Rusiya da bu sazişə maraq göstərirdilər. Avropa İttifaqının sərhədlərinin genişləndirilməsi onu Qara dəniz regionu, Qafqaz və Mərkəzi Asiya ilə daha da yaxınlaşdırır, Rusiya, Ukrayna və Moldova kimi ölkələrlə daha uzun sərhədlərə malik edirdi. Bu isə Avropa İttifaqının Qara dənizə çıxmaq imkanlarını artıraraq Qafqaz və Mərkəzi Asiya ölkələri ilə əlaqələrin genişləndirilməsinə və Transavropa nəqliyyat dəhlizlərini birləşdirən qitə- lərarası nəqliyyat infrastrukturunun yaranmasına gətirirdi. Bütün bunları nəzərə alan Azərbaycan Respublikasının Baş Naziri Artur Rasizadə Avropa Komissiyasının üzvü, xarici əlaqələr üzrə komissarı Kristofer Pattenə 2003-cü il dekabrın 3-də yazdığı məktubunda TRASEKA proqramının fəaliyyət göstərdiyi dövrdə əldə edilmiş müsbət nəticələri, bu nəqliyyat dəhlizinin xidmətlərindən istifadə edən ölkələrin regional nəqliyyat xəttlərinin və iqtisadi infrastrukturunun inkişafında olduqca böyük rolunu nəzərə alaraq, onların gələcəkdə inkişaf perspektivlərinin müəyyən edilməsi məqsədi ilə TRASEKA iştirakçısı olan ölkələrin dövlət başçılarının sammitinin 2004-cü ilin birinci yarısında Bakıda keçirilməsini təklif etdi.

Avropa İttifaqı ilə əməkdaşlıq məsələləri əməkdaşlıq şurasının beşinci iclasında geniş müzakirə olundu. 2003-cü il sentyabrın 30-da keçirilən iclasda xarici işlər naziri Vilayət Quliyev başda olmaqla Azərbaycan nümayəndə heyəti iştirak e d i r d i İ c l a s d a Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesində Avropa İttifaqının mövqeyi və rolu haqqında ətraflı fikir mübadiləsi aparıldı. Avropa İttifaqı Cənubi Qafqaz regionunda sabitliyin davam etməsində maraqlı idi. Çünki Dağlıq Qarabağda müharibə başlayardısa, Ermənistan enerji obyektlərinə qarşı terror

' ° Xarici işlər naziri Brüsseldə olmuşdur. - Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2003.1 hissə, s. 423.

aktları törədə bilərdi. Ermənistanın mövqeyi Avropa İttifaqı üçün təhlükəli idi‘”'.

Ümumiyyətlə, 1992-2003-cü illər ərzində Avropa İttifaqının Azərbaycana etdiyi ümumi yardımın məbləği təqribən 400 mln. avro təşkil etmişdi. Birliyin üç əsas yardım mexanizmi mövcud idi: TASİS proqramı; Ərzaq təhlükəsizliyi proqramı və humanitar yardım, ərzaq proqramı; müharibədən zərər çəkmiş ərazilərin bərpası'^’^.

TRASEKA proqramında iştirakın Azərbaycan üçün bir sıra nəticələri oldu. Bu proqramda iştirak edən ölkələrin avtomobil və dəmiryolları da yenidən qurulmağa başladı. Daşkənd - Aşqabad - Türkmənbaşı - Bakı - Tbilisi - Poti - Batum Transxəzər dəmiryol xətti bərpa edilərək birləşdirildi. Çindən başlayaraq Avropaya qədər uzanan dəmiryol layihəsinin tərkib hissəsi kimi Bakı - Tbilisi - Kars xəttinin layihəsinin gerçəkləşdirilməsi üçün işlər həyata keçirildi. Bakı - Tbilisi - Kars dəmiryol xətti iqtisadi əhəmiyyəti baxımından Bakı - Ceyhan əsas ixrac neft boru kəmərindən geri qalmırdı. Bu layihənin həyata keçirilməsi Bakı - Türkmənbaşı bərə keçidinin yenidən qurulmasını zəruri edirdi. Beləliklə, Çin və Mərkəzi Asiya ölkələri Azərbaycan, Gürcüstan vasitəsilə Türkiyə və Avropa ilə əlaqələr qura biləcəkdilər. Bu isə Azərbaycanın tez-tez bağlanan şimal istiqamətindəki dəmiryolundan asılılığına son qoyacaqdı.

Lakin dəmiryol nəqliyyatının inkişafına mane olan amillər hələ də qalırdı. Ermənistanın blokadada saxlaması səbəbindən Bakı - Naxçıvan - Yerevan dəmiryolu işləmirdi. Ermənistan Yerevan - Yeqexnadzor - Qafan - Meğri - Duzal - Təbriz dəmiryolunun tikintisi layihəsində maraqlı idi. Bu xətt Ermənistanı Zəngəzur dağlarından keçərək İran ilə əlaqələndirəcəkdi.

TRASEKA proqramı Xəzər dənizi - Aralıq dənizi dəhlizinin qurulmasını nəzərdə tutduğundan Xəzər dənizi limanları Asiya - Qafqaz - Avropa nəqliyyat dəhlizində qovşaq nöqtəyə çevrildi. Qeyd etmək lazımdır ki. Xəzər dənizi sahilində ən qədim liman olan Bakı limanı hələ XX əsrin əvvəllərində qurulmuşdu. Neft bumu başlayanda Bakı limanı dünyada sərnişin və yük daşınması üzrə ilk yerlərdən birini, Rusiya imperiyasında isə birinci yeri tuturdu. 1980-ci illərdə Xəzər dəniz gəmiçiliyi yeni gəmilər almışdı. SSRİ dağıldıqdan sonra isə Bakı limanının fəaliyyəti

^ **riauiKOBCKaa H.** ft,eaTejibHOCTb Espocoıosa ua **K)>кном** Kasxase. - **)KypH.** “MupoBaH 3K0H0MHK3 H Me»ayHapoaHbie oTHouıeHUH”, M., 2009, fts9, c. 59-63.

Avropa Komissiyasının iş sənədi. Avropa qonşuluq siyasəti. Ölkə üzrə hesabat.

zəifləmişdi. Buna baxmayaraq, Xəzər dəniz gəmiçiliyi ən çox gəmilərə sahib olan bir təşkilat idi. Həmin gəmilərlə Qazaxıstan və Türkmənistan nefti Xəzər dənizinin şərq sahilindən qərbinə daşmırdı. Xəzər dənizində demək olar ki, gəmiləri olmayan Qazaxıstan Azərbaycan tərəfinin xidmətlərindən istifadə edirdi.

Qərb ölkələri tərəfindən müdafiə edilən TRASEKA proqramı yeni müstəqil dövlətlərin keçmiş metropoliya kimi Rusiyadan təkcə iqtisadi deyil, həmçinin siyasi baxımdan asılılığının aradan qaldırılmasını nəzərdə tuturdu. Çindən Amsterdama qədər uzanan Cənubi Qafqaz və Orta Asiya dövlətlərinin dünya birliyinə inteqrasiyasını nəzərdə tutan Böyük İpək yolu etibarlı nəqliyyat dəhlizi idi.

## Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq

Azərbaycanın beynəlxalq nəqliyyat-kommunikasiya və tranzit ölkəsinə çevrilməsində Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlıq mühüm rollardan birini oynadı. Qara dəniz ölkələrinin çoxtərəfli əməkdaşlığının qurulması ideyası hələ 80-ci illərin sonları - 90-cı illərin əvvəllərində Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özal tərəfindən irəli sürülmüşdü'^”. Təşkilatın qurulması haqqında bəyannamə 1992-ci il fevralın 3-də üzv ölkələrin xarici işlər nazirlərinin toplantısında paraflandı. İyunun 25-də İstanbulda keçirilən zirvə görüşündə Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Türkiyə, Ukrayna və Yunanıstan dövlət və hökumət başçıları Qara dəniz İqtisadi Əməkdaşlığı bəyannaməsini imzaladılar'^”. Bu sənədə bəzən İstanbul bəyannaməsi də deyilir. İstanbul bəyannaməsi ilə bərabər həmin tarixdə i 1 ölkənin dövlət və hökumət başçıları Bosfor bəyanatını da imzaladılar'^’^. İstanbul bəyannaməsi Qara dəniz əməkdaşlığının prinsiplərini, əsaslarını, istiqamətlərini və ilkin mexanizmini təsbit edirdi'^”.

^ Bax; Qasımlı M. SSRİ - Türkiyə münasibətləri (Türkiyədə 1960-cı il çevrilişindən SSRİ-nin dağılmasmadək). II cild (1979-1991). Bakı, 2009.
KEİ deklarosyonu. - Bilgi. TBMM Enformasyon Merkezi dergisi, 1993, Aralık, sayı Xs?, s. 11-13.
[1375] ARXINA. 01.05.2002 -29.05.2002. Qovluq Xa 8, v. 41.
' ARXİNA. 12.06.06.1995-28.06.1995. Qovluq Xa 14, v. 11-12.

Bosfor bəyanatı isə İstanbul bəyannaməsinin və Qara dəniz əməkdaşlığı təşəbbüsünün vacibliyini ümumi cizgilərlə qeyd edirdi.

Bəyannaməni Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy imzaladı. Azərbaycanın bu təşkilatın işində iştirakının əsas məqsədi Qara dəniz regionunda xüsusi rola malik olduğunu sübut etmək və onu möhkəmləndirmək, regiona mütərəqqi qurucu münasibət bəslədiyini göstərmək, Avropaya inteqrasiya siyasətini bütün ölçülərlə həyata keçirmək, Azərbaycanın nəqliyyat-tranzit potensialını gücləndirmək, üzv ölkələrlə çoxtərəfli əməkdaşlıq mexanizmini qurmaq, bununla da strateji maraqlarını qorumaq idi.

Məqsədi üzv ölkələr arasında ticarəti, iqtisadi və sosial layihələri inkişaf etdirmək üçün maliyyələşdirməni həyata keçirmək olan və qərargahı Yunanıstanın Səlanik şəhərində yerləşən Qara dəniz Ticarət və İnkişaf Bankı 1995-ci il yanvarın 1-də quruldu’^’^.

Əməkdaşlıqda 1995-ci il iyunun 30-da Buxarestdə keçirilən Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşü mühüm rol oynadı. Azərbaycan Prezidenti Heydər Əliyev zirvə görüşündə iştirak etdi. Toplantıda 11 üzv dövlət, bir sıra ölkələr isə müşahidəçi qismində iştirak edirdilər. Gündəlikdə dövlət başçılarının çıxışları, əməkdaşlıq məsələləri, Buxarest bəyanatının qəbul edilməsi dururdu'^’^. Zirvə görüşündə Qara dəniz Ticarət və İnkişaf Bankının fəaliyyətini sürətləndirmək üçün ölkələrə müvafiq sazişi təsdiq etmək tövsiyə olundu'^’^.

Heydər Əliyev etdiyi nitqində münaqişələrin həllində regionda siyasi şəraiti sabitləşdirmək üçün inteqrasiya proseslərinin genişləndirilməsinin vacibliyini qeyd etdi‘^*°.

Zirvə görüşünün yekununda bəyanat qəbul edildi. Sənəddə region ölkələri aralarında iqtisadi əməkdaşlığı sürətləndirmək, müxtəlif sahələrdə əməkdaşlıq etmək, xüsusi layihələri həyata keçirmək və iş adamları arasında əlaqələri təşviq etmək bəyan olunmuşdu'^*'.

ARXİNA. 12.06.06.1995-28.06.1995.QovluqRo 14, v.l6.

1378 ARXİNA. 12.06.06.1995-28.06.1995. Qovluq Ro 14,v.l0.

1379 ARXİNA. 12.06.06.1995-28.06.1995. Qovluq X2I4, v.

Əliyev H.Ə. Qara dəniz hövzəsi ölkələri əməkdaşlıq təşkilatı üzvlərinin dövlət və hökumət başçılarının zirvə toplantısında çıxış. 30 iyun 1995-ci il. — Müstəqilliyimiz əbədidir. III kitab, s.65-69; ARXİNA. 12.06.06.1995-28.06.1995. Qovluq X2 14, v. 17-23.

ARXİNA. 12.06.06.1995-28.06.1995. Qovluq Xg 14, v. 24-27.

Təşkilatın proqramlarının həyata keçirilməsində Qafqaz regionu böyük əhəmiyyət daşıyırdı. Bu baxımdan Şərq - Qərb və Şimal - Cənub dəhlizlərini yaratmaq yolu ilə müasir Avrasiya nəqliyyat şəbəkəsinin formalaşdırılması fəaliyyətin perspektiv istiqamətlərindən biri hesab edilirdi.
1996- cı il oktyabr ayında Moskvada keçirilən Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin dövlət başçılarının zirvə toplantısı bu istiqamətdə bir addım oldu'^*^. Toplantıda nitq söyləyən Azərbaycan Prezidenti bildirdi ki, regionda çox mühüm nəqliyyat arteriyaları sistemi vardır və hər hansı birgə layihənin müvəffəqiyyətlə həyata keçirilməsi kommunikasiyaları inkişaf etdirmək sahəsində əməkdaşlıqdan asıhdır'^*^. Görüşün yekununda qəbul edilən Moskva bəyannaməsində üzv ölkələr arasında iqtisadi əməkdaşlığın geniş perspektivlərinin və imkanların mövcudluğu qeyd edilirdi’^*".

Bundan sonra kommunikasiya layihələri, elektrik enerji sistemlərinin birləşdirilməsi və Xəzər dənizindən enerji daşıyıcılarının nəqli məsələlərini müzakirə etmək üçün 1997-ci il aprel ayının sonlarında təşkilata üzv olan ölkələrin İstanbulda biznes forumu keçirildi. Bir sıra ölkələrin dövlət və hökumət başçılarının, beynəlxalq bank və maliyyə qurumlarının, iri şirkət rəhbərlərinin iştirak etdiyi forumda çıxış edən Heydər Əliyev nəqliyyat, energetika, rabitə sahələrində müştərək fəaliyyət üçün birgə imkanlar olduğunu qeyd etdi, bunun üçün regionda münaqişələrin davam etməsinin yolverilməz olduğunu vurğuladı'^*^.

Azərbaycan həmin ilin iyun ayında Kişinyovda keçirilən dövlət və hökumət başçılarının zirvə görüşündə iştirak etdi. İnteqrasiya prosesləri-

Əliyev H.Ə. Qara dəniz hövzəsi İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin zirvə toplantısında iştirak etmək üçün yola düşərkən Binə hava limanında jurnalistlərə müsahibə. 24 oktyabr 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VII kitab, S.427.

Əliyev H.Ə. Qara dəniz hövzəsi İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə nitq. 25 oktyabr 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VII kitab, s.460.

Moskow declaration of the heads of State or govemment of the participating States of the Black Sea Economic Cooperation. 25 October 1996. - PABSEC, istanbul, 1996, November, vol.6, p.3-7.

'^^^Əliyev H.Ə. İstanbulda “Qara dəniz regionunda yeni imkanlar” mövzusunda keçirilmiş biznes konfransında nitq. 28 aprel 1997-ci il. - Müstəqilliyimiz əbədidir. IX kitab, s.232-234.

nin əhəmiyyətindən danışan Azərbaycan Prezidenti əməkdaşlığın inkişafı ilə paralel olaraq Xəzəryanı ölkələrinin əməkdaşlığı ideyasını irəli sürdü.

Bir il sonra, 1998-ci il iyunun 5-də Yalta şəhərində üzv dövlət və hökumət başçıları tərəfindən təşkilatın nizamnaməsi imzalandı. Azərbaycan Prezidentinin 1998-ci il 1 dekabr tarixli sərəncamı ilə QDİƏT-in nizamnaməsi təsdiq edildi'^*^. Sənədin 1999-cu ildə qüvvəyə minməsi ilə əməkdaşlıq mexanizmi təşkilat statusu aldı. Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı üzv dövlətlərin maraqlarının tarazlığını gözləməklə əməkdaşlığın üstün istiqamətlərini və əsas mexanizmlərini müəyyən etmək məqsədi ilə yaradıldı. Toplantıda nitq söyləyən Azərbaycan Prezidenti QİƏT-in region ölkələr arasında əməkdaşlıqda oynadığı roldan danışarkən ticarəti üzv ölkələrin iqtisadi inkişafında əsas hərəkətverici qüvvə adlandırdı, milli gömrük və tranzit qaydalarının sadələşdirilməsinin və uyğun- laşdırılmasmm vacibliyini vurğuladı. Əməkdaşlığa əngəl olan amillərə diqqəti cəlb edərək Ermənistanın Azərbaycana hərbi təcavüzü və nəticələri üzərində dayandı*^*^ Təşkilatın fəaliyyətinin genişləndirilməsini istəyən Azərbaycan tərəfinin onun həyata keçirdiyi regional layihələrdə müəyyən maraqları var idi.

2001- ci il 11 sentyabrda törədilən terror aktları QDİƏT-in də fəaliyyətinə müəyyən təsir etdi. Üzv ölkələr terrorizmə qarşı mübarizədə qüvvələri birləşdirməyin vacibliyini bildirdilər. QDİƏT üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 2001-ci il oktyabrın 24-26-da keçirilən iclasında Rusiyanın təklifi ilə beynəlxalq terrorizmə qarşı mübarizədə təşkilata daxil olan ölkələrin birgə tədbirləri barədə bəyanatı təqdim edildi'^*®. Bəyanatda terrorçuların maliyyələşmə mənbələrinin və yollarının aradan qaldırılması, qanunsuz silah ticarətinin qarşısının alınması, nəqliyyatın bütün növlərinin təhlükəsizlik rejimlərinin gücləndirilməsi, regionda enerji vahidlərinin və qaz, neft boru kəmərləri şəbəkəsinin qorunması, gömrük və sərhəd nəzarət rejimlərinin sıxlaşdırılması, məlumat mübadiləsi kanallarının qurulması, beynəlxalq terror fəaliyyətinin operativ şəkildə aşkarlanması və onların aradan qaldırılması üçün tədbirlərin işlənib hazırlanması nəzərdə tutulmuşdu.

ARXİNA. 02.02.2002-20.02.2002. Qovluq Xsl 1, v.96.

'^^'Əliyev H.Ə. Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 4-cü zirvə toplantısında çıxış. 5 iyun 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XV kitab, s. 435-438.

'ARXINA. 13.10. 2001-07.11.2001. Qovluq Ro 8, v. 12.

2002- ci il iyun ayında təşkilatın qurulmasının 10 ili tamam oldu. Ötən müddət ərzində təşkilat əhəmiyyətli bir inkişaf yolu keçmişdi. Qurumun strukturları formalaşmış, beynəlxalq təşkilata çevrilmiş, bir sıra layihələri - üzv ölkələr arasında viza rejiminin sadələşdirilməsi, gömrük sisteminin yumşaldılması, nəqliyyat əlaqələrinin genişləndirilməsi, enerji və s. sahələrdə layihələri həyata keçirmişdi. Bütün bunlar İstanbulda təşkilatın yaradılmasının 10 illiyinə həsr olunmuş zirvə toplantısında qeyd edildi.

İyunun 25-də təşkilata daxil olan ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşü öz işinə başladı'^^^. Qeyd etmək lazımdır ki, təşkilat 400 milyon insanın yaşadığı 20 milyon kv.km. ərazini əhatə edirdi. Əmtəə dövriyyəsinin ümumi məbləği 300 milyard dollar idi. Təşkilat ölkələri əlverişli coğrafi-strateji mövqelərdə. Avrasiyanın mərkəzində yerləşirdilər. QDİƏT beynəlxalq proseslərə fəal münasibət bildirirdi.

Zirvə görüşündə etdiyi nitqində Azərbaycan Prezidenti beynəlxalq təşkilatlar cərgəsində QDİƏT-in xüsusi yeri olduğunu, ötən on ildə Avropa miqyaslı quruma çevrildiyini, Azərbaycanın təşkilata verdiyi əhəmiyyəti qeyd etdi. Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına Bakı - Novorossiysk və Bakı - Supsa limanları vasitəsilə ixracı üzərində dayandı. Bildirdi ki, ötən illər ərzində Azərbaycan tranzit ölkəyə çevrll- mişdir'^^°.

Zirvə görüşündə əməkdaşlığın gələcək perspektivləri müzakirə edildi. Azərbaycanın da fəal iştirakı ilə "Əməkdaşlığın 10 ili və gələcəyə baxış" adlı İstanbul bəyannaməsi qəbul edildi. Bəyannamənin müddəalarına müvafiq olaraq təşkilatın Qara dəniz regionunda təhlükəsizlik və sabitliyə verə biləcəyi töhfəni müzakirə etmək məqsədi ilə işçi qrup yaradıldı. Qrupun vəzifəsi məsələyə dair işçi sənədi hazırlamaq idi. Sənəd hazırlanaraq bir neçə il sonra, 2004-cü ilin iyun ayında Afinada keçirilən iclasda qəbul edildi.

Zirvə görüşü təşkilatın qarşısında yeni perspektivlər açırdı. Ancaq təşkilatın bütün orqanları arasında daha yaxşı əlaqələndirməyə ehtiyac duyulurdu. Bu məsələlər 2002-ci il oktyabrın 25-də Tiranada QDİƏT ölkələri Xarici İşlər Nazirləri Şurasının görüşündə müzakirə edildi. Toplantıda çıxış edən xarici işlər naziri Vilayət Quliyev sıx əməkdaşlığın

Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 377-378.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi, Azərbayca-nm xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 378-380.

təmin edilməsinin vacibliyi üzərində dayandı, enerji və nəqliyyat sahələrində əməkdaşlığın əhəmiyyətini vurğuladı

Azərbaycan 2003-cü ildə altı ay müddətinə təşkilatın sədrliyini üzərinə götürdü. Azərbaycanın sədrliyi dövründə təşkilat çərçivəsində geniş proqram tərtib edilərək reallaşdırıldı. Belə ki, sentyabrın 18-19-da enerji, sentyabrın 25-26-da turizm, oktyabrın 1-3-də nəqliyyat nazirləri səviyyəsində Bakıda iclaslar, ekspertlər səviyyəsində isə bir sıra görüşlər keçirildi. Təşkilati və məzmun baxımından yüksək səviyyədə keçən iclasların nəticəsində enerji və nəqliyyat sahələrində əməkdaşlığın inkişaf etdirilməsinə yönəlmiş Bakı bəyannaməsi qəbul edildi.

Sədrliyin yekun toplantısı olaraq 2003-cü il oktyabrın 31-də Bakıda QDİƏT-in Xarici İşlər Nazirləri Şurasının iclası keçirildi'^®^. Hesabat məruzəsi ilə çıxış edən xarici işlər naziri Vilayət Quliyev bildirdi ki, Azərbaycan quruma sədrlik etdiyi dövrdə əsasən nəqliyyat və energetika sahələrinin inkişafına xüsusi diqqət yetirmiş, turizm layihələri hazırlamışdır.

Azərbaycandan sonra sədrlik Yunanıstan və ya Gürcüstana keçməli idi. Lakin Yunanıstan 2004-cü ildən ATƏT-ə sədrlik edəcəyini bildirərək bu vəzifədən imtina etdi. Gürcüstan isə bu vəzifəni tutmağa hazır olmadığını bildirdi. Üzv dövlətlər sədrliyi dövründə daha fəal olmasını, uğurlu layihələr həyata keçirdiyini nəzərə alaraq Azərbaycandan 2003-cü ilin oktyabrından 2004-cü ilin aprelinədək olan müddətdə sədrliyi ikinci dəfə üzərinə götürməyi xahiş etdilər. İkinci sədrlik müddətində Azərbaycan Respublikası nəqliyyat-kommunikasiya, enerji, ticarət və s. sahələrdə təşəbbüslər edərək, onların reallaşdırılmasma nail oldu.

## İqtisadi Əməkdaşlıq Təşkilatı ilə əlaqələr

Azərbaycanın beynəlxalq nəqliyyat-kommunikasiya mərkəzlərindən birinə çevrilməsində İqtisadi Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlığı

Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyevin Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Xarici İşlər Nazirləri Şurasının VII görüşündə bəyanatı. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 815-819.

Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyevin Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 9-cu iclasında iştirakı. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2003, oktyabr-dekabr, XsS, s.71-75.

müəyyən rol oynadı. Azərbaycan Respublikası 1985-ci ildən İnkişaf üçün Regional Əməkdaşlıq Təşkilatının varisi kimi fəaliyyətə başlamış, 1977-ci ildən üç təsisçi dövlət - Türkiyə, Pakistan və İran tərəfindən regionda davamlı iqtisadi inkişafa nail olmaq məqsədi ilə imzalanan İzmir müqaviləsi əsasında fəaliyyət göstərən və əsas məqsədləri üzv ölkələrin dayanıqlı iqtisadi inkişafı, ticarət maneələrinin aradan qaldırılması, region daxilində ticarətin gücləndirilməsi, təşkilatın dünya ticarətində iştirakının təmini, üzv dövlətlərin iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası, nəqliyyat və rabitə infrastrukturlarının əlaqələrinin inkişaf etdirilməsi, iqtisadi liberallaşdırma və özəlləşdirmə, regionun maddi ehtiyatlarının toplanması və idarə edilməsi, regionun kənd təsərrüfatı və sənaye potensialının səmərəli şəkildə inkişaf etdirilməsi, regional və beynəlxalq təşkilatlarla qarşılıqlı çoxtərəfli əlaqələrin qurulması olan İqtisadi Əməkdaşlıq Təşkilatının 1992-ci ilin fevral ayında Tehranda keçirilən birinci zirvə görüşündə bu quruma üzv qəbul edildi.

10 ölkəni birləşdirən İƏT-in əsas məqsədi üzv ölkələr arasında iqtisadi-ticarət və mədəni əlaqələri inkişaf etdirmək, onların sənaye və kənd təsərrüfatı sahəsindəki mövcud potensialından istifadə etmək, dünya ticarətində İƏT-in iştirakını genişləndirmək, üzv ölkələrlə dünya dövlətləri arasında nəqliyyat şəbəkəsini inkişaf etdirmək və s. idi.

İstanbulda 1993-cü ilin iyul ayında keçirilən ikinci zirvə görüşünə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin göndərdiyi məktubda iqtisadi əməkdaşlığın regionların və xalqların yaxınlığına xidmət edəcəyinə ümid ifadə olunmuşdu’^”.

İƏT Nazirlər Şurasının Tehranda 1994-cü ilin yanvarında keçirilən IV, 1995-ci ilin yanvarında Aşqabadda keçirilən V müşavirələrində bir neçə yüksək səviyyəli regional müəssisələrin qurulması və müqavilələrin imzalanması razılaşdırıldı.

Azərbaycan Respublikasının İƏT-in 1995-ci il martın 14-15-də İslamabadda keçirilən üçüncü zirvə toplantısında iştirakı əməkdaşlıqda əhəmiyyətli rol oynadı. Toplantıda Azərbaycanı xarici işlər naziri Həsən Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edirdi. Səfər zamanı üzv ölkələrin xarici işlər nazirlərinin xüsusi müşavirəsi keçirildi. Müşavi-

' Əliyev H.Ə. İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatının 2-ci görüşünün iştirakçılarına. 5 iyul 1993-cü il. - Müstəqilliyimiz əbədidir. I kitab, s.l8.

rədə hesabat məruzəsi bəyənildi'^^'*. Azərbaycan nümayəndə heyəti İƏT- in Ticarət və inkişaf bankı haqqında sazişə qoşulmaq barədə ölkəsinin istəyini bildirdi. İƏT-in yüksək vəzifəli şəxslərinin müşavirəsində nəqliyyat-kommunikasiya sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyi qeyd edildi'^^^ İslamabad bəyannaməsi qəbul edildi'^^*'.

Martın 15-də İslamabadda üzv dövlətlər arasında tranzit ticarəti haqqında saziş imzalandı. Bu saziş 1997-ci ilin dekabrında qüvvəyə mindi. Azərbaycan tərəfdən saziş 2000-ci il dekabrın 12-də ratifikasiya edildi. Eyni zamanda üzv ölkələr arasında nəqliyyat, rabitə, ticarət, sərmayə qoyuluşu və energetika sahəsində daha sıx əməkdaşlıq etmək tövsiyə olundu.

Tehranda 1996-cı il fevralın 18-də İƏT nümayəndələri şurasının 33-cü müşavirəsi keçirildi. Əfqanıstan İslam Respublikası, Azərbaycan Respublikası, İran İslam Respublikası, Qazaxıstan Respublikası, Pakistan İslam Respublikası, Tacikistan Respublikası, Türkiyə Respublikası, Türkmənistan Respublikası və Özbəkistan Respublikası nümayəndə heyətlərinin iştirak etdiyi müşavirədə mayın 9-10-da yüksək vəzifəli şəxslərin müşavirəsinin, mayın 11-12-də Xarici İşlər Nazirlər Şurasının müşavirəsinin, mayın 14-15-də yüksək səviyyədə keçiriləcək görüşün gündəliyi qəbul edildi'^®’.

Mayın 11-12-də Aşqabadda İƏT Nazirlər Şurasının VI müşavirəsi keçirildi. Toplantıda Azərbaycan nümayəndə heyəti iştirak edirdi. Müşavirədə baş katibin hesabatı dinlənildi, büdcə məsələsinə baxıldı, birgə bəyannamə qəbul edildi'^^*. Mayın 14-15-də isə dövlət başçılarının IV zirvə görüşü keçirildi. Regional əməkdaşlığın ən vacib məsələlərinin müzakirə edildiyi görüşdə Azərbaycan Prezidenti çıxış etdi. O dedi: “Dünya təcrübəsi göstərir ki, heç bir ölkə beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi olmadan, səylər və ehtiyatlar birləşdirilmədən təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz. Məhz buna görə də təşkilatımızda fəal iştirak etmək təkcə iqtisadi maraqlarda deyil, həm də tarixi köklərin, ənənələrin.

**ARXİNA.** 13.03.1995-16.03 1995. Qovluq Xs 14, v. 13- 18. ‘
**ARXİNA.** 13.03.1995-16.03 1995. Qovluq Xs 14, v. 24 -32. '
**ARXİNA.** 13.03.1995-16.03 1995. Qovluq X2 14, v. 33 -37. '
**ARXİNA.** 04.10.1995-09.09.1996. Qovluq X22I, v.70.
' ARXİNA. 04.10.1995-09.09.1996. Qovluq Xo21, v.66.

mədəniyyətin eyniliyi ilə bağlı olduğumuz qardaş ölkələrlə sıx əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin üstün istiqamətidir”'^^^.

1996- cı il sentyabrın 14-də İzmirdə İƏT Nazirlər Şurasının növbədənkənar müşavirəsində dəyişdirilmiş İzmir müqaviləsi, İƏT-in hüquqi statusu haqqında saziş imzalandı. Lakin Azərbaycan tədbirdə iştirak etmədiyi üçün sənədi imzalamadı. Bundan sonra İƏT-in baş katibi Önder Özer Azərbaycan Respublikasının Tehrandakı səfirliyinə gələrək sənədlərin Azərbaycan tərəfindən imzalanması məsələsini müzakirə etdi. Eyni zamanda Azərbaycana səfər etmək istəyini bildirdi"*®®. Azərbaycan tərəfi bu istəyi yerinə yetirdi. 1996-cı ilin noyabr ayında həmin sənədlər imzalanaraq depozitar ölkə olan İrana təqdim edildi.

Aşqabadda 1997-ci ilin may ayında keçirilən İƏT üzvü oian ölkələrin dövlət başçılarının növbədənkənar zirvə görüşündə Şərq - Qərb, Şimal - Cənub nəqliyyat-kommunikasiya sistemlərinin yaradılması, tikilməsi və bununla əlaqədar olaraq iqtisadi əlaqələrin inkişaf etdirilməsi məsələləri müzakirə edildi. Toplantıda nitq söyləyən Azərbaycan Prezidenti nəqliyyat-kommunikasiya sistemlərinin qurulmasını vacib hesab edərək Avrasiya dəhlizi infrastruktunun əsas pillələri kimi Xəzər dənizi və Qara dəniz limanlarını qeyd etdi, Bakı limanının əhəmiyyətindən danışdı"*®'.

Bu görüş İƏT-in bölgədə vahid kommunikasiya məkanı yaradılması sahəsində yeni mühüm mərhələni başladığını göstərirdi. Görüşün sonunda Aşqabad bəyannaməsi qəbul edildi. Bəyannamədə həyata keçirilməsi nəzərdə tutulan layihələr əksini tapmışdı.

İƏT ölkələrinin dövlət başçılarının 1998-ci ilin may ayında Almatıda keçirilən fövqəladə V zirvə görüşündə iqtisadiyyat, nəqliyyat sahələrində əməkdaşlığa dair ən mühüm məsələlər müzakirə edildi. 1999-cu ilin may ayında isə Bakıda keçirilən İƏT Xarici İşlər Nazirləri Şurasının doqquzuncu görüşü üzv ölkələr arasında çoxəsrlik tarixi proses nəticəsində yaranmış münasibətlərin möhkəmləndirilməsi və genişləndirilməsi yolunda mühüm mərhələ oldu. Toplantı iştirakçılarına təbrik məktubu göndərən Azərbaycan Prezidenti ölkələr arasında əməkdaşlığın iqtisadiyyatın digər

Əliyev H.Ə. İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO) üzvü olan ölkələrin dövlət başçılarının dördüncü zirvə toplantısında çıxış. 14 may 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VI kitab, s.279-282.

ARXİNA. 31.07.1996-17.12.1996. Qovluq X22I, v.54.

Əliyev H.Ə. Aşqabad zirvə görüşündə nitq. 13 may 1997-ci il. - Müstəqilliyimiz əbədidir. IX kitab, s.442-445.

sahələrinin inkişafına təkan verəcəyinə, regionda inteqrasiya proseslərini sürətləndirəcəyinə ümid ifadə etdi'^'®^.

lƏT Xarici İşlər Nazirləri Şurasının 2000-ci il iyunun 8-də Tehranda keçirilən X iclası, iyunun 9-da dövlət başçılarının VI zirvə görüşü üzv ölkələrinin əməkdaşlığında mühüm rol oynadı. Zirvə görüşündə nitq söyləyən Azərbaycan Prezidenti qloballaşma şəraitində təşkilatın fəaliyyətini daha da genişləndirmək üçün aşağıdakı konkret təkliflər irəli sürdü: hər bir ölkənin inkişafı üçün təşkilatın fəaliyyətini artırmaq; təşkilatın digər beynəlxalq və regional təşkilatlarla əlaqəsini gücləndirmək; qarşılıqlı sərmayələr qoymaq . Azərbaycan Prezidenti Xəzər dənizinin neft yataqlarının işlənilməsinin ölkəsi üçün böyük əhəmiyyəti olduğunu bildirdi. Xəzərin enerji ehtiyatlarından daha səmərəli istifadə etmək üçün Xəzəryanı dövlətlər Xəzərin hüquqi statusunu müəyyənləşdirməli idilər. Azərbaycan belə müzakirələrin aparılmasına hazır idi. Azərbaycan tərəfi İranın Avropa ilə Asiyanı birləşdirən İpək yolu layihəsində fəal iştirak etməsini arzulayırdı.

Almatıda İƏT ölkələrinin dəmiryolu təşkilatlarının 2000-ci il sentyabrın 19-21-də keçirilən 5-ci iclasında Azərbaycan nümayəndə heyəti TRASEKA dəhlizinin mövcud qlobal dəhlizlər sırasına aid edilməsi məsələsini qaldırdı və bu, görüşün gündəliyinə daxil edildi. Məsələnin müzakirəsi zamanı Azərbaycan nümayəndə heyəti bildirdi ki, bu yol İƏT üzvü olan 6 ölkənin ərazisindən keçir və həmin ölkələr Beynəlxalq Dəmiryolu İttifaqının üzvləridir. TRASEKA dəhlizini qlobal edən onun Avropanı Asiya, Xəzər dənizini Qara dəniz ilə birləşdirməsi idi’""".

Üzv ölkələr arasında ticarət əlaqələri də genişləndi. Ticarət əməkdaşlığı haqqında çərçivə sazişi İƏT ticarət nazirlərinin hələ 2000-ci il martın 6-da keçirilən birinci toplantısı zamanı imzalanmışdı. Azərbaycan tərəfdən saziş, sonralar 2004-cü il aprelin 6-da ratifikasiya edildi.

Qeyd etmək lazımdır ki, buna qədər İƏT Azərbaycan tərəfinin 2000- ci ildə təşkilatın zirvə görüşündə etdiyi nitqindəki dörd mühüm məsələni gündəliyinə daxil etmişdi. Bu məsələlərdən biri nəqliyyat dəhlizinin

Əliyev H.Ə. İqtisadi Əməkdaşlıq Təşkilatı Nazirlər Şurasının doqquzuncu görüşünün iştirakçılarına. 21 may 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XX kitab, s.232-236.

"“"’Əliyev H.Ə. İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO-nun) üzvü olan ölkələrin dövlət və hökumət başçılarının VI zirvə görüşündə nitq. 10 iyun 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXVIII kitab, s. 91-97.

' ARXINA. 21.09.2000-28.12.2000. Qovluq XsS, v.l50.

yaradılması idi. Belə bir dəhlizin böyük perspektivi var idi. İkinci məsələ ticarətin inkişafı və genişlənməsi idi. Bunun üçün tariflərin azaldılmasına ehtiyac duyulurdu. Üçüncü məsələ İƏT ölkələrində özəlləşdirməni sürətləndirmək, kiçik və orta sahibkarlığı inkişaf etdirmək idi. Dördüncü məsələ, İƏT ilə Qara dəniz İqtisadi Əməkdaşlığı Təşkilatı arasında əlaqələrin qurulması idi. 2001-ci il fevralın 17-də İƏT-in baş katibi Əbdül- rəhim Qəvahi ilə görüşdə Azərbaycan Prezidenti təkliflərin reallaşdırılması məsələlərini müzakirə etdi"*”^.

Azərbaycan bu sahələrdə fəaliyyətini genişləndirdi. Əlaqələr daha da intensivləşdirildi. İstanbulda 2002-ci ilin oktyabnnda keçirilən İƏT ölkələrinin VII zirvə görüşü təşkilatın qurulmasının 10-cu ildönümü ərəfəsinə təsadüf edirdi. Toplantıda etdiyi nitqində Azərbaycan Prezidenti İƏT-in vəzifələrindən birinin region ölkələrində yoxsulluğun azaldılmasına töhfəsini vermək olması təklifini irəli sürdü, Azərbaycan iqtisadiyyatına qoyulan xarici sərmayələrdən söz açdı. Onun sözlərindən aydın olurdu ki, 1994-cü ildən 2002-ci ilədək Azərbaycan iqtisadiyyatına 10 milyard ABŞ dolları sərmayə qoyulmuşdu. Daha sonra Azərbaycan Prezidenti neft boru kəmərləri haqqında danışaraq onların əhəmiyyətini qeyd etdi'"“^.

Zirvə görüşünün yekununda İstanbul bəyannaməsi qəbul edildi. Bəyannamədə üzv ölkələr arasında iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığı genişləndirmək niyyətləri ifadə olunmuşdu.

Ümumiyyətlə, geniş əməkdaşlıq nəticəsində Azərbaycan beynəlxalq nəqliyyat-kommunikasiya mərkəzinə çevrildi. Ölkə nəqliyyat baxımından təhlükəsizliyini təmin edərək, başqa dövlətlərdən asılılığına son qoydu. Faydalı əməkdaşlıq Azərbaycanın daxili iqtisadi, sosial həyatının yenidən qurulmasına və dövlət müstəqilliyinin möhkəmləndirilməsinə kömək etdi.

^ Azərbaycan Prezidenti Heydər Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 167-170.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. — Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 750-753.

# NƏTICƏ

1991- 2003-cü illərdə Azərbaycan Respublikasının xarici siyasət tarixinin araşdırılması müəyyən ümumiləşdirmələr etməyə və nəticəyə gəlməyə imkan verir. Hər şeydən əvvəl, aparılan tədqiqat göstərir ki, XX əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərində dünyada baş verən proseslər -Şərqi Avropa ölkələrində və SSRİ-də sosializm sisteminin dağılması, İkinci dünya müharibəsindən sonrakı dövrdə iki sistem ölkələri arasında gedən soyuq müharibənin başa çatması və Yalta-Potsdam sisteminin iflasa uğraması, Sov.İKP-nin hakim partiya kimi rolunu itirməsi. Sovet İttifaqını təşkil edən müttəfiq respublikaların müstəqil olmaları, Avroatlantik birliyinin beynəlxalq siyasətdə əsas nüfuz sahibinə çevrilməsi və s. beynəlxalq münasibətlər sistemini kökündən dəyişdirdi. Dünyada baş verən bu qlobal proseslərin gedişində Azərbaycan Respublikasının suverenliyi haqqında bəyannamənin və dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya aktının qəbul edilməsi ilə Azərbaycan xalqının tarixində müstəqil inkişaf dövrü başladı.

SSRİ tərkibində müstəqil olmadığından Azərbaycanın xarici siyasəti sıfırdan qurulmağa başlandı. Yeni şəraitdə Azərbaycan dövlətinin xarici siyasətinin məqsəd və vəzifələri müəyyənləşdirildi.

Araşdırma göstərir ki, 1991-2003-cü illər məzmun və mahiyyətinə görə, zəngin bir dövr olmuşdur. Dövlət müstəqilliyini tanıtmaq üçün Azərbaycan diplomatiyası geniş fəaliyyət göstərmişdir. Qısa müddət ərzində Azərbaycan Respublikasının dövlət müstəqilliyi bir çox dövlətlər tərəfindən tanınmış və diplomatik əlaqələr qurulmuşdur. Azərbaycan dövləti bir sıra beynəlxalq konvensiyalara qoşulmuşdur. Dövlət müstəqilliyinin möhkəmləndirilməsi üçün tədbirlər müəyyənləşdirilmiş və xarici ölkələrlə bərabərhüquqlu qarşılıqlı faydalı əlaqələr qurmaq istiqamətində ilk addımlar atılmışdır.

Tədqiq edilən dövrdə Azərbaycan Respublikasının xarici siyasətinin qurulması və formalaşması Ermənistanın hərbi təcavüzünün davam etdiyi və ərazilərinin işğal altında qaldığı bir şəraitdə getmişdir. Hələ SSRİ mövcud olduğu zaman başlayan bu münaqişənin gedişində öz tarixi torpaqları olan Ermənistanda yaşayan azərbaycanlılar yurdlarından qovuldular, Ermənistan Respublikasının ərazisində azərbaycanlılara məxsus tarix və mədəniyyət abidələri məhv edildi.

SSRİ dağıldıqdan sonra münaqişə iki müstəqil dövlət arasında müharibəyə çevrildiyindən Azərbaycan dövlətinin xarici siyasətinin əsas istiqamətlərindən biri Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi sahəsində fəaliyyət olmuşdur. Ermənistanın təcavüzünün gedişində Azərbaycan vətəndaşlarına qarşı soyqırım və terror aktları daxil olmaqla, insanlığa qarşı ən ağır cinayətlər törədildi. Ermənistan silahlı qüvvələri tərəfindən Xocalı şəhərində dinc azərbaycanlı əhali, əsasən qocalar, qadınlar və uşaqlar kütləvi surətdə soyqırıma məruz qaldılar. Bununla da Ermənistan bəşəriyyətə və sivilizasiyaya qarşı cinayət törətdi.

Azərbaycan dövləti Dağlıq Qarabağ münaqişəsini ATƏM-də müzakirəyə çıxardı. Münaqişənin həlli üzrə yaradılan Minsk qrupu fəaliyyətini davam etdirdiyi bir zamanda Ermənistan silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ regionu daxilindəki əraziləri bir-birinin ardınca işğal etdi. Şuşanın zəbti ilə Ermənistan bütün Dağlıq Qarabağ regionunun işğalını başa çatdırdı. Bundan bir neçə gün sonra Laçın rayonunun işğal edilməsi ilə Azərbaycanın Dağlıq Qarabağ regionu ilə Ermənistan arasında birbaşa quru əlaqəsi yaradıldı.

Ermənistan silahlı qüvvələri tərəfindən Kəlbəcər rayonu 1993-cü ilin aprelində işğal edildikdən sonra BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağ münaqişəsinə dair 822 saylı qətnaməni qəbul etsə də, onun tələbləri yerinə yetirilmədi. Münaqişə daha da dərinləşdi.

Təcavüzün gedişində Azərbaycan Respublikasının işğal olunmuş Dağlıq Qarabağ regionunda və digər ərazilərində azərbaycanlılara məxsus tarixi, mədəniyyət və arxeoloji abidələr dağıdılmış, təbii sərvətlər talan edilmişdir. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərdə mütəşəkkil cinayətkar, o cümlədən beynəlxalq terrorçu qruplar tərəfindən qanunsuz fəaliyyətlər həyata keçirilmişdir.

Ermənistanın hərbi təcavüzü və etnik təmizləmə siyasəti nəticəsində Azərbaycanın Dağlıq Qarabağ regionunda və ətraf rayonlarda yaşayan azərbaycanlılar didərgin salınaraq məcburi köçkünə çevrildilər. Azərbaycan ərazilərinin işğalı nəticəsində ölkədə humanitar fəlakət yarandı.

1993- cü ilin yayında Azərbaycanda daxili ictimai-siyasi sabitlik pozuldu. Azərbaycan dövlətçiliyi böhran, ölkə isə parçalanmaq təhlükəsi qarşısında qalmışdı. Belə bir şəraitdə görkəmli dövlət və siyasi xadim Heydər Əliyev Azərbaycan xalqının tələbi və respublika rəhbərlərinin xahişi ilə hakimiyyətə gəldi.

Bu zaman ordu pərakəndə halda idi. Cəbhədə boşluq yaranmışdı. Ermənistan mövcud şəraitdən yararlanaraq, Azərbaycanın Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını işğal etdi. Azərbaycan dövlətinin geniş diplomatik fəaliyyəti nəticəsində 1993-cü ildə BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağ münaqişəsinə dair 853, 874 və 884 saylı qətnamələri qəbul etdi. Həmin qətnamələr münaqişənin həlli üçün beynəlxalq hüquqi əsas təşkil edir.

Digər beynəlxalq təşkilatlar, o cümlədən ATƏT, Avropa Şurası, İKT, NATO və Avropa İttifaqı da buna bənzər qərarlar qəbul etdilər. Həmin sənədlərdə Ermənistanın təcavüzü və onun ağır nəticələri birmənalı olaraq pislənilir və işğal edilmiş Azərbaycan ərazilərinin boşaldılması tələb edilir.

Böhranlı şəraitdə Azərbaycan rəhbərliyi təcili qərarlar qəbul etdi. Hakimiyyət boşluğu aradan qaldırıldı, ölkəni parçalayan separatçı qüvvələr, dövlətçiliyə və müstəqilliyə qəsdlər törədən ünsürlər zərərsizləşdirildi. Dövlət dağılmaqdan xilas edildi, hakimiyyət ilə xalqın birliyi təmin olundu, milli ordunun formalaşdırılması və döyüş qabiliyyətinin yüksəldilməsi üçün tədbirlər həyata keçirildi.

Xarici siyasət sahəsində mühüm addımlar atıldı. Azərbaycan dövlətinin başlıca maraqları müəyyənləşdirildi: ölkənin müstəqilliyinin qorunması, ərazi bütövlüyünün və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin bərpa edilməsi, Azərbaycan xalqının vahidliyinin və əhalinin təhlükəsizliyinin təmin olunması, beynəlxalq təşkilatlarla inteqrasiyaya yönəlmiş əməkdaşlığın inkişaf etdirilməsi, sosial-iqtisadi inkişafın təmin olunması məqsədi ilə xarici sərmayələr üçün əlverişli şəraitin yaradılması və s.

Tədqiq edilən illərdə Azərbaycan dövlətinin xarici siyasətinin məqsəd və vəzifələri konkretləşdirildi. Bunlar dövlət müstəqilliyini qoruyub saxlamaq və möhkəmləndirmək, Azərbaycan xalqının təhlükəsiz və demokratik mühitdə, azad bazar iqtisadiyyatı şəraitində daha yaxşı yaşayışı, sabit və davamlı inkişafı üçün əlverişli beynəlxalq şəraiti təmin, Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsini milli maraqlara uyğun həll etməkdən ibarət olmuşdur.

Araşdırma göstərir ki, 1991-2003-cü illərdə Azərbaycan Respublikasının xarici siyasət məqsədləri miqyasına görə, regional və beynəlxalq səviyyələri əhatə etmişdir. Azərbaycan dövləti dünyanın bütün ölkələri ilə bərabərhüquqlu əsaslar üzərində əlaqələr qurmağa və inkişaf etdirməyə yönəlmiş xarici siyasət xətti yürütmüşdür. Tarazlaşdırılmış xarici siyasət

xətti Azərbaycan dövləti qarşısında duran strateji vəzifələri yerinə yetirmək üçün əlverişli vasitə olmuşdur.

Azərbaycan Respublikasının xarici siyasətin formalaşmasına dünyada gedən qlobal proseslər, o cümlədən tərksilah, beynəlxalq terrorçuluğa qarşı mübarizə və enerji təhlükəsizliyi, Ermənistanın Azərbaycana qarşı təcavüzü və onun nəticələrinin aradan qaldırılması problemi, Azərbaycan dövlətinin yerləşdiyi regionun özünəməxsusluğu və böyük dövlətlərin regionda maraqları təsir etmişdir. Azərbaycan Respublikası digər dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurmağa çalışmışdır.

Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqşəsinin həll edilməsi səyləri Azərbaycan dövlətinin xarici siyasətinin əsas istiqamətlərindən biri olmuşdur. İlk növbədə milli ordunun formalaşdırılması və döyüş qabiliyyətinin yüksəldilməsi, ərazilərin müdafiə olunması tədbirlərinin həyata keçirilməsi nəticəsində Ermənistan ilə hərbi qarşıdurmada tarazlıq yarandı.

Münaqişənin dayandırılması üçün edilən səylər nəticəsində 1994-cü ilin may ayında cəbhədə atəşkəs haqqında razılaşma əldə edildi. Bununla, beş ildən artıq bir müddətdə davam edən hərbi əməliyyatlar dayandırıldı. Atəşkəsin elan olunması, ölkə daxilində ictimai-siyasi sabitliyin bərqərar edilməsi, qonşu ölkələrlə münasibətlərdə yaranmış gərginliyin aradan qaldırılması və normal məcraya salınması istiqamətində həyata keçirilən tədbirlər və s. birlikdə Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişafının mühüm amillərindən oldu.

Atəşkəs elan edildikdən sonrakı müddətdə münaqişənin həlli istiqamətində beynəlxalq səylər ATƏT-in diqqətində olmuşdur. Minsk qrupu həmsədrləri tərəfindən münaqişənin tənzimlənməsi üçün 1997-1998-ci illər ərzində paket, mərhələli həll və ümumdövlət təklifləri irəli sürüldü.

1997- ci il iyun ayında Minsk qrupunun həmsədrləri münaqişənin nizama salınmasına dair hərtərəfli saziş layihəsini Azərbaycan və Ermənistana təqdim etdilər. İki hissədən ibarət olan və paket həlli adlandırılan bu layihə tərəflərin bütün mübahisəli məsələlərə dair ilkin razılıq əldə etməsini, razılaşmanın qarşıdakı sülhün bütün aspektlərini əks etdirən paketdə toplanmasını və gələcəkdə gerçəkləşdirilməsini nəzərdə tuturdu. Layihəyə görə, silahlı münaqişə dayandırılmalı və Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin gələcək statusuna dair razılaşma əldə edilməli idi. Azərbaycan tərəfinin paket həlli layihəsi ilə bağlı konstruktiv məsləhətləşmələrə başlamağa hazır olmasına baxmayaraq, Ermənistan onu rədd etdi. Beləliklə,

paket həlli gerçəkləşmədən kənara qoyuldu.

Həmsədrlər 1997-ci il sentyabr ayında bölgəyə növbəti səfər zamanı münaqişənin mərhələli həllinə əsaslanan yeni təklif təqdim etdilər. Həmin təklif ilk mərhələdə 6 rayonun (Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan) işğaldan azad olunmasını, ATƏT-in sülhyaratma əməliyyatlarının başlanmasını, məcburi köçkünlərin azad olunmuş ərazilərə qayıtmasını və münaqişə bölgəsində əsas kommunikasiya vasitələrinin bərpasını nəzərdə tuturdu. İkinci mərhələdə isə Laçın və Şuşa məsələləri həll edilməli, Azərbaycanın Dağlıq Qarabağ regionunun statusunun əsas prinsipləri qəbul olunmalı və ATƏT-in Minsk konfransı çağırılmalı idi. Azərbaycan tərəfi bu təklifləri qəbul etdi.

Minsk qrupu həmsədrlərinin səyləri ilə mərhələli həll planı Heydər Əliyev və Levon Ter-Petrosyan arasında 1997-ci il oktyabr ayında Strasburqda Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının ikinci zirvə toplantısı çərçivəsində keçirilən görüşdə müzakirə edildi. Ermənistan tərəfi də ATƏT-in Minsk qrupunun həmsədrlərinin verdikləri son təklifləri müzakirə etməyə razılığını bildirdi. Görüşün sonunda birgə bəyanat qəbul edildi. Prezidentlər münaqişənin siyasi vasitələrlə, ilk növbədə danışıqlar yolu ilə həllinə sadiq olduqlarını vurğuladdan Noyabr ayında ATƏT-in Minsk qrupunun həmsədrlərinin regiona səfəri zamanı Azərbaycan tərəfi münaqişənin mərhələli həllinə dair təklifləri qəbul etdiyini bir daha bildirdi. Ermənistan isə onun əleyhinə çıxdı. Levon Ter-Petrosyan istefaya göndərildi.

Bundan sonra həmsədrlər münaqişənin həllinə dair yeni variantlar üzərində işləməyə başladılar. 1998-ci il noyabr ayında Azərbaycana səfər edən həmsədrlər ümumi dövlət konsepsiyasına əsaslanan təklifi irəli sürdülər. Bu təklifə görə, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə respublika formasında dövlət və ərazi vahidi statusu verilməli və o, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycan ilə birlikdə ümumi dövlət təşkil etməli idi.Təklif Azərbaycan Respublikasının suverenliyinə zidd olduğundan rədd edildi. Buna baxmayaraq, Minsk qrupu həmsədrləri fəaliyyətlərini dayandırmayaraq, Azərbaycan ilə Ermənistan arasında müxtəlif səviyyəli görüşlər təşkil etdi. Lakin Ermənistanın qeyri-konstruktiv mövqe tutması səbəbindən münaqişənin nizamlanmasında irəliləyişə nail olunmadı. Bununla belə, Minsk qrupu münaqişənin tənzimlənməsi üçün səylərini davam etdirdi.

Araşdırma göstərir ki, tədqiq olunan illərdə xarici siyasətin mühüm istiqamətlərindən biri enerji diplomatiyası olmuşdur. Xarici hərbi təcavüz

nəticəsində böyük dağıntılara və itkilərə məruz qalmış Azərbaycan dövləti iqtisadiyyatını inkişaf etdirmək üçün ölkə daxilində yaranmış nisbi sabitlikdən, beynəlxalq aləmdə ona münasibətdə artan inam və maraqdan faydalanaraq, 1994-cü il sentyabrın 20-də dünyanın iri neft şirkətləri ilə "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsini imzaladı. Enerji diplomatiyası ölkədə sosial-iqtisadi və siyasi sabitliyin bərqərar edilməsində, Azərbaycanın müstəqil dövlət kimi möhkəmləndirilməsində müstəsna rol oynadı. Azərbaycanın neft strategiyası vacib sosial-iqtisadi və siyasi əhəmiyyət kəsb edərək ölkənin inkişafına, iqtisadi əlaqələrinin qurulmasına və dünyada nüfuzunun artmasına kömək etdi.

Bütün bu fəaliyyətlər Azərbaycan dövlətinin əleyhinə olan daxili və xarici qüvvələrin ciddi müqavimətinə rast gəldi. 1994-cü ilin sentyabr ayında Azərbaycan Respublikasının bir neçə dövlət xadimi qətlə yetirildi. Həmin ilin oktyabr, 1995-ci ilin mart ayında isə dövlət çevrilişinə silahlı cəhdlər edildi. Lakin onların qarşısı alındı və qanunsuz silahlı dəstələr ləğv edildi. Bununla da Azərbaycanda zor gücünə hakimiyyətə gəlmək cəhdlərinə son qoyuldu. Ölkə sabitlik və inkişaf dövrünə qədəm qoydu.

1995- ci il noyabrın 12-də Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi və müstəqillik tarixində ilk dəfə olaraq Azərbaycan Respublikası Milli Məclisinə seçkilər keçirildi.

Yeni iqtisadi sistemin formalaşdırılması üçün islahatlar aparıldı, müvafiq hüquqi bazanın yaradılması yolunda böyük işlər görüldü. Aqrar islahatları, özəlləşdirmə, sahibkarlığın inkişafı, vergi, maliyyə-bank sisteminin yenidən qurulması, ticarətin liberallaşdırılması və s. sahələrdə mühüm qanunvericilik aktları qəbul edildi. İqtisadi islahatların dərinləşdiril- məsində həlledici rol oynayan özəlləşdirmə prosesi sürətləndirildi. Kiçik özəlləşdirmə başa çatdırıldı, makroiqtisadi sabitlik təmin edildi. Sənaye istehsalında artım meylilləri yarandı. Sənayenin demək olar ki, bütün sahələrində, o cümlədən neft-qaz, neft-kimya, metallurgiya, maşınqayırma, tikinti materialları, yüngül və yeyinti sənayesi sahələrində, habelə iqtisadiyyatın qeyri-dövlət sektorunda irəliləyişlər əldə edildi. Ölkə planlı təsərrüfatdan azad bazar iqtisadiyyatına keçdi. Sosial sahədə islahatlar reallaşdırıldı. Əhalinin sosial-iqtisadi şəraiti yaxşılaşdırıldı.

Ölkədə demokratik islahatlar kursu müəyyənləşdirildi, bunun üçün zəruri olan təsisatlar və hüquqi baza formalaşdırıldı. Çoxpartiyalı demokratik sistemə keçid möhkəmləndirildi. Müxtəlif siyasi partiyaların, ictimai təşkilatların sərbəst fəaliyyəti, çoxsaylı mətbuat orqanlarının nəşri, özəl televiziya və radio kanallarının mövcudluğu və s. Azərbaycanda

siyasi plüralizm, fikir azadlığı və demokratik şəraitin konkret nəticələri oldu. Ölkədə senzura ləğv edildi, azad mətbuat formalaşdı. Məhkəmə-hüquq sisteminin beynəlxalq standartlara uyğun yenidən qurulması məqsədi ilə aparılan islahatlar hüquqi dövlət quruculuğunun reallaşdırılması üçün siyasi şərait yaratdı. Ölüm hökmü ləğv edildi.

Araşdırmadan aydın olur ki, "Əsrin müqaviləsi" və ondan sonra imzalanan neft müqavilələri digər xarici sərmayədarların da Azərbaycana olan marağını artırmışdır. Böyük həcmdə xarici investisiyalar ölkə iqtisadiyyatına yönəldildi. Yalnız neft sektoruna deyil, iqtisadiyyatın digər sahələrinə də xarici sərmayə qoyuluşu artdı. Xarici kapital axını və ondan səmərəli istifadə edilməsi ölkənin inkişafında həlledici rol oynadı. Zəngin təbii sərvətlərin milli sərvətə çevrilməsi nəticəsində inkişaf üçün perspektivlər açıldı. Daxili sosial-iqtisadi problemlərin həlli istiqamətində tədbirlər gerçəkləşdirildi.

Ölkənin rəqabət qabiliyyətinin artırılması üçün geniş tədbirlər həyata keçirildi. Enerji diplomatiyası Azərbaycanın əlində təsirli vasitələrdən biri oldu. Neft və qaz boru kəmərlərinin tikintisi regional əməkdaşlıq üçün əlavə imkanlar açdı. Xəzər dənizi və Aralıq dənizi hövzələrini birləşdirən səmərəli transregional boru kəmərləri infrastrukturu yaradıldı. Bakı - Novorossiyski ilə yanaşı, Bakı - Supsa, Bakı - Ceyhan neft boru kəmərləri Azərbaycanın Avropanın enerji təhlükəsizliyində və beynəlxalq münasibətlər sistemində əhəmiyyətini artırdı, yerini möhkəmləndirdi. Enerji təhlükəsizliyini təmin edən Azərbaycan həmçinin, neft və qaz paylaşdırıcı ölkəyə çevrilərək Avropanın enerji təminatında mühüm rol oynamağa başladı. Qlobal və regional iqtisadi inteqrasiya proseslərində təsiri və rolu artan Azərbaycan beynəlxalq əhəmiyyətli enerji mənbəyi və təchizatı şəbəkəsinin vacib tərkib hissələrindən birinə çevrildi.

Tədqiq edilən dövrdə xarici siyasətin vacib istiqamətlərindən biri Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi üçün ikitərəfli və çoxtərəfli diplomatik fəaliyyət olmuşdur. Bu məsələdə Xəzəryanı dövlətlərin baxışları əsasən, onların maraqlarını - enerji ehtiyatları, digər sərvətlər və əlverişli strateji mövqelər qazanmaq uğrunda diplomatik mübarizəsini əks etdirmişdir.

Xəzər dənizinin hüquqi statusu məsələsində Azərbaycan Respublikasının mövqeyi əsasən aşağıdakı kimi olmuşdur: Azərbaycan dövləti Xəzər dənizinin sahilyanı ölkələr arasında bölünməsi məsələsinin beynəlxalq hüquq normaları. Xəzər dənizində təşəkkül tapmış təcrübə və orta xətt bölgüsü əsasında mərhələli həllinə tərəfdar olmuşdur. İlkin mərhələdə

dəniz dibini bərabər uzaqlıqda yerləşən nöqtələr nəzərə alınmaqla çəkilən və tərəflərin razılığı ilə modiflkasiya edilən orta xətt metodu əsasında milli sektorlara bölmək və bu bölgü əsasında yaranmış sektorlarda sahilyanı dövlətlərin dənizin dibindəki mineral ehtiyatlara və digər hüquqa uyğun təsərrüfat-iqtisadi fəaliyyətə münasibətdə müstəsna hüquqları tanınmalı idi. İkinci mərhələdə su hövzəsi ilə əlaqədar məsələlər müzakirə olunub, əsas prinsiplər müəyyən edilə, o cümlədən ətraf mühitin mühafizəsi, balıqçılıq, gəmiçilik və digər məsələləri tənzimləyən çoxtərəfli sazişlər imzalana bilərdi.

Azərbaycanın bu məsələdə mövqeyi beynəlxalq konvensiyalara və təcrübəyə əsaslanmış, qarşıdurmaya deyil. Xəzər dənizinin təbii ehtiyatlarının mənimsənilməsi üzrə fəaliyyətin davam etdirilməsinə və bu sahədə çoxtərəfli beynəlxalq əməkdaşlığa yönəlmişdir. Azərbaycanın mövqeyinə görə, hüquqi statusa dair aparılan müzakirələr neft müqavilələrin reallaş- dırılmasma və beynəlxalq əməkdaşlığa mane olmamalıdır.

Xarici siyasətin üstün istiqamətlərindən biri qonşu dövlətlər ilə münasibətlərin yenidən qurulması və inkişaf etdirilməsi olmuşdur. Tədqiqat göstərir ki, Azərbaycan Respublikası qonşu ölkələrlə münasibətlərini beynəlxalq hüquq normalarından irəli gələn prinsiplər və Azərbaycan xalqının adət-ənənələrinə uyğun olaraq mehriban qonşuluq əsasında qurmağa çalışımış, tarazlaşdırılmış siyasət həyata keçirmişdir.

Azərbaycan dövlətinin xarici siyasətinin istiqamətlərindən birini Avropa dövlətləri ilə münasibətlər təşkil etmişdir. Təhlil göstərir ki, bu ölkələrlə münasibətlərin qurulmasına təsir edən başlıca amillər Azərbaycanın coğrafi-siyasi mövqeyi, Avropa məkanına inteqrasiya proseslərində, qitənin enerji təhlükəsizliyinin təminatında iştirakı. Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli səyləri, demokratiyanın inkişafı sahəsində çoxtərəfli əməkdaşlıq və s. olmuşdur. Avropa ölkələri ilə qarşılıqlı münasibətlərin müqavilə-hüquq bazası yaradılmış, siyasi, ticarət-iqtisadi, elmi-texniki, mədəni, humanitar, hərbi və b. sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq inkişaf etdirilmiş, münasibətlərin maddi təməli möhkəmləndirilmişdir.

Azərbaycan Respublikasının xarici siyasətinin istiqamətlərindən biri ABŞ ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi olmuşdur. Araşdırma göstərir ki, münasibətlərin ilk mərhələsində iki ölkə arasında müəyyən anlaşılmaz məqamlar mövcud olsa da, Azərbaycan tərəfi həmin vəziyyətin aradan qaldırılması üçün geniş fəaliyyət göstərmiş, nəticədə, ABŞ-ın Azərbaycan siyasətində tədricən dönüş yaranmışdır. Qarşılıqlı münasibətlərdə dönüş mərhələsi Azərbaycan Respublikasının Prezidenti

Heydər Əliyevin 1997-ci ilin iyul-avqust aylarında ABŞ-a səfəri olmuşdur. Həmin səfər nəticəsində qarşılıqlı münasibətlərdə mövcud olan anlaşılmazlıqlara son qoyulmuş, ABŞ və Azərbaycan tərəfdaşa çevrilmişlər. Aparılan təhlil belə bir nəticəyə gəlməyə əsas verir ki, 2001-ci il sentyabrın 11-də ABŞ-da törədilən terror aktları Azərbaycan ilə münasibətlərə ciddi təsir etmiş, qarşılıqlı münasibətlərdə müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq məsələləri ön plana çıxmışdır. Azərbaycan dövləti beynəlxalq terrorizmə qarşı mübarizəsində ABŞ-ın müttəfiqi olmuşdur.

Xarici siyasətin istiqamətlərindən biri Asiya və Afrika ölkələri ilə münasibətlərin qurulması və inkişafı olmuşdur. Tədqiqat göstərir ki, Asiya və Afrika ölkələri Azərbaycanın dövlət müstəqilliyini və ərazi bütövlüyünü müdafiə etmişlər. Qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq təkcə ikitərəfli deyil, çoxtərəfli formatda, beynəlxalq təşkilatlar çərçivəsində də qurulmuş və həyata keçirilmişdir.

Tədqiq edilən illərdə beynəlxalq və regional təşkilatlar ilə əməkdaşlıq Azərbaycan dövlətinin xarici siyasətinin başlıca istiqamətlərindən biri kimi reallaşdırılmışdır. Azərbaycan Respublikasının BMT, ATƏT, Avropa Şurası, NATO, Avropa İttifaqı, GUAM ilə qurulan əməkdaşlığı faydalı olmuş və beynəlxalq təhlükəsizlik sistemində mövqeyini möhkəmləndirmişdir. BMT və ATƏT ilə əməkdaşlıq müxtəlif sahələri əhatə etmişdir. Azərbaycan Respublikasının Avropa Şurasına tam hüquqlu üzv qəbul edilməsi ölkə xarici siyasətində mühüm hadisə olmuşdur. Azərbaycan dövləti NATO ilə əlaqələr qurmuş və təşkilatın bir sıra tərəfdaşlıq proqramlarında iştirak etmiş, beynəlxalq terrorizmə qarşı mübarizədə tərəfdaşına çevrilmişdir. GUAM ilə əməkdaşlıqda enerji, təhlükəsizlik, nəqliyyat, terrorizmə qarşı mübarizə və b. məsələlər başlıca yer tutmuşdur. Azərbaycan diplomatiyası Ermənistanın hərbi təcavüzü nəticəsində yurd-yuvalarından qovulmuş azərbaycanlı qaçqın və məcburi köçkünlərin hüquqlarının qorunması, itkin düşmüş şəxslərin axtarılması üçün beynəlxalq və regional təşkilatların imkanlarından geniş istifadə etmişdir.

1991-2003-cü illərdə Azərbaycan dövlətinin xarici siyasətində iqtisadiyyat amili əhəmiyyətli rol oynamışdır. Beynəlxalq maliyyə-bank qurumları ilə əməkdaşlıq Azərbaycan iqtisadiyyatında struktur islahatların aparılmasında və onun yeni əsaslar üzərində qurulmasında mühüm rol oynamışdır. Təhlil göstərir ki, Avropa İttifaqı, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı ilə uğurlu əməkdaşlıq nəticəsində Azərbaycan Respublikası Avropa - Qafqaz - Asiya (TRASEKA) nəqliyyat dəhlizi layihəsini reallaşdırmışdır. Çindən Amsterdama qədər

uzanan, Cənubi Qafqaz və Orta Asiya dövlətlərinin dünya birliyinə inteqrasiyasını nəzərdə tutan Böyük İpək yolu vacib nəqliyyat dəhlizi olmuşdur. Beynəlxalq nəqliyyat-kommunikasiya mərkəzlərindən birinə çevrilən Azərbaycan digər dövlətlərdən asılılığına son qoymuş və nəqliyyat təhlükəsizliyini təmin edən ölkə olmuşdur. Nəqliyyat dəhlizlərinin təhlükəsizliyi və səmərəliliyi üzrə inamın təmin edilməsində Azərbaycanın əlaqələndirici mövqeyi möhkəmlənmişdir. Şimal - Cənub nəqliyyat dəhlizi layihəsinin reallaşdırılmasına başlanmışdır. Azərbaycan, Gürcüstan və Türkiyə ərazisindən keçərək Transavropa və Transasiya dəmiryollarını birləşdirəcək Bakı - Tbilisi - Kars dəmiryolu xəttinin layihəsi mühüm hadisələrdən biri olmuşdur. Bu layihələrin həyata keçirilməsi Azərbaycanın beynəlxalq əlaqələrinin, iqtisadi, sosial həyatının və dövlət müstəqilliyinin möhkəmləndirilməsinə kömək edir. Azərbaycan Respublikası Ümumi Dünya Ticarət Təşkilatına üzv olma məsələsinə dair danışıqlar aparmış və milli qanunvericiliyin ÜTT standartlarına uyğun təkmilləşdirilməsi planının yerinə yetirilməsi sahəsində fəaliyyət göstərmişdir.

Tədqiq edilən illərdə Azərbaycan Respublikası dövlətinin xarici siyasət ideologiyası formalaşmışdır. Təməlini Azərbaycan dövlətinin milli maraqları, dəyişən dünya reallıqlarına uyğun olaraq mənafelərin qorunması təşkil edən bu ideologiya özündə başlıca olaraq aşağıdakı elementləri birləşdirmişdir: müstəqillik, suverenlik və dövlətçilik; milli və beynəlxalq maraqların üzvi surətdə əlaqələndirilməsi; dünya siyasətində özünü təsdiqetmə və s. Xarici siyasət ideologiyası Azərbaycan dövlətinin regionda liderlik rolunun təmin edilməsini nəzərdə tutmuşdur.

Azərbaycan dövlətinin xarici siyasətinə varislik xas olmuşdur. Varislik konkret və başlıca maraqların reallaşdırılmasmda davamlı prosesi nəzərdə tutmuşdur. Azərbaycanın xarici siyasəti praqmatik xarakter daşımış, bu isə onun regionda maraqları olan ölkələrin mübarizəsi meydanına çevrilmək təhlükəsindən qurtarmasına doğru mühüm addım olmuşdur. Azərbaycan dövlətinin xarici siyasəti bir qütbdən digər qütbə keçməmiş və mərkəzçi mövqe tutmuşdur. Bu, diplomatiyanın manevrlər etməsinə, dəyişən dünya reallıqlarına uyğun olaraq maraqların etibarlı qorunmasına və çoxvariantlılığının təmin olunmasına imkan vermişdir. İdealizm Azərbaycanın xarici siyasətinə yad, praqmatizm isə məqsəd deyil, konkret şəraitdə xarici siyasət vəzifələrini həyata keçirməkdə vasitə olmuşdur. Azərbaycan diplomatiyası təşkilati cəhətdən mütəşəkkil, dinamik və sabit olmuşdur. Dinamizm və sabitlik bir-birini tamamlayaraq, dəyişən dünya reallıqlarında ölkə maraqlarının daha etibarlı qorunmasını

nəzərdə tutmuşdur. Azərbaycan dövlətinin bu və ya digər hadisələrə dair verdiyi bəyanatlar ilə atdığı addımlar bir-birini üzvi surətdə tamamlamışdır. Azərbaycan diplomatiyası dünyada baş verən hadisə və prosesləri, ayrı-ayrı dövlətlərin davranışlarını, mümkün risk və təhdidləri qiymətləndirmiş və inkişaf perspektivlərini müxtəlif variantlarda müəyyən etmişdir. Azərbaycanın xarici siyasəti xaotik deyil, strateji və taktiki səviyyələrdə müəyyənləşdirilmiş, planlı şəkildə həyata keçirilmişdir.

Beləliklə, aparılan araşdınna belə bir ümumiləşdirilmiş nəticəyə gəlməyə imkan verir ki, tədqiq edilən dövrdə Azərbaycan Respublikasının xarici siyasət sahəsində keçdiyi yolun başlıca yekunu dövlət müstəqilliyinin tanıdılması, geniş diplomatik əlaqələrinin qurulması, xarici siyasətinin formalaşması, mövqelərinin möhkəmləndirilməsi, ölkə daxilində sosial- siyasi, iqtisadi, mədəni və b. sahələrdə dövlət quruculuğu üçün əlverişli beynəlxalq şəraitin yaradılması, nüfuzlu bir dövlətə çevrilməsi olmuşdur. Azərbaycan dövləti bir sıra beynəlxalq təşkilatların üzvü, bəzilərinin isə qurucularından biri olmuş, ölkənin beynəlxalq əhəmiyyəti artmış və onunla əməkdaşlıq etmək istəyən dövlətlərin sayı çoxalmışdır. Belə bir fakt əhəmiyyətlidir ki, 2002-ci il məlumatına görə, Azərbaycan Respublikası dünyanın 141 ölkəsi ilə diplomatik münasibətlər qurmuşdu’'*®’.

Azərbaycan yalnız coğrafi mövqeyi və təbii sərvətləri baxımından əlverişli geosiyasi məkan deyil, eyni zamanda sivilizasiyaların qovuşağm- da əməkdaşlığı uğurla uzlaşdıraraq müsəlman xalqları və ölkələri üçün bir nümunə olmuşdur və bu inkişaf yolunu davam etdirir. Bir sıra ölkələrdən ərazicə kiçik və əhalisinin sayı baxımından az olsa da, Azərbaycan müxtəlif ölkələri, mədəniyyət və dinləri birləşdirən, əməkdaşlığa cəlb edən bir dövlət olmuşdur.

Xarici siyasət sahəsində Azərbaycan dövlətinin keçdiyi yola qiymət verən Heydər Əliyev 1998-ci ildə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin kollektivi ilə görüşdəki nitqində demişdir: “Azərbaycanın xarici siyasəti ötən illərdə uğurlu olmuşdur. Hesab edirəm ki, biz xarici siyasətimizi düzgün qurmuşuq, strateji xəttimiz düzgündür, təyin etdiyimiz istiqamətlər doğrudur. Bunların hamısı xarici siyasət sahəsində Azərbaycana uğurlar gətiribdir. Birinci növbədə bunların hamısı Azərbaycan dövlətinin fəaliyyətidir və Prezidentin apardığı xarici siyasətin

**CnncoK rocyaapcTB, c KoxopbiMH AsepöaüjuKaHCKaH PecnyöJiHKa ycTano- BHJia ÄHnJioMaxHHecKHe oxnomeHna.** - ARXİNA. **08.04.2002-15.05.2002.** Qovluq Jfo S, v.62-63.

nəticələridir. Bizim əsas nailiyyətimiz ondan ibarətdir ki, ötən illər Azərbaycanın dövlət müstəqilliyini təkcə xarici siyasət nəticəsində deyil, bütün fəaliyyətimiz nəticəsində günü-gündən möhkəmləndirmişik, öz suverenliyimizin, müstəqilliyimizin toxunulmaz, sarsılmaz olduğunu nümayiş etdirmişik. Artıq beynəlxalq aləmdə Azərbaycanın tam müstəqil ölkə olduğu, tam müstəqil siyasət apardığı haqqında heç bir şübhə yoxdur" [*]

* Əliyev H.Ə. Respublika Xarici İşlər Nazirliyinin kollektivi ilə görüşdə nitq. 6 mart 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XV kitab, s.8.

# BİBLİOQRAFİYA

## I. MƏNBƏLƏR

***Arxivlər***

- Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Arxivi.
- Azərbaycan Respublikasının Dövlət Arxivi.
- Azərbaycan Respublikası Dövlət Tarix Arxivi.
- Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi yanında Siyasi Sənədlər Arxivi.
- Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Arxivi.
- Azərbaycan Respublikası Milli Məclisinin Arxivi.
- ATƏT-in Praqa Arxivi.
- AEBA-nın Vyana Arxivi.
- BMT-nin Vyana ofisinin Arxivi.
- National Archive and Record Administration (NARA ).
- Rusiya Federasiyası Sosial-Siyasi Tarix Arxivi.
- Rusiya Federasiyası Ən Yeni Tarix Arxivi.
- Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Arxivi.
- Gürcüstan Mərkəzi Ən Yeni Tarix Arxivi.
- The National Security Archive of the USA. The George Washington University in Washington.
- The Great Britain Archive Foreign Office.
- Türkiyə Cümhuriyyəti Başbakanhk Cümhuriyyət Arxivi.
- Türkiyə Böyük Millət Məclisi Arxivi.

### AZƏRBAYCAN RESPUBLİKASININ NƏŞR EDİLMİŞ XARİCİ SİYASƏT SƏNƏDLƏRİ

***Azərbaycan dilində***

- Azərbaycan beynəlxalq aləmdə (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-1998-ci illərdə xarici ölkələrə səfərlərinə dair materiallar). I-V cildlər. Bakı, 1996-1999.
- Azərbaycan - Böyük Britaniya: əməkdaşlıq və tərəfdaşlıq (1991- 2001). Bakı, 2001.

• Azərbaycan - Rusiya: 1992-2002. Sənədlər toplusu. Bakı, 2002.

• Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə. Bakı, 2010; 2001. II hissə. Bakı, 2010; 2002. I hissə. Bakı, 2010; 2003. I hissə. Bakı, 2010; 2003. II hissə. Bakı, 2010.

• Azərbaycan - Gürcüstan: Dostluğumuzun təntənəsi (tərtibçilər; Hidayət Orucov, Ş.Şahməmmədov). Bakı, 1996.

• Azərbaycan - Türkiyə: dostluq, qardaşlıq, strateji əməkdaşlıq. Bakı, 1997.

• Azərbaycan - Özbəkistan: dostluğumuz daim yaşayır və möhkəmlənir. Özbəkistan Prezidenti İslam Kərimovun Azərbaycana səfəri. Bakı, 1996.

• Azərbaycan - Fransa: əməkdaşlığın genişlənməsinə mühüm töhfə. Bakı, 1997.

• ABŞ Prezidenti Corc Buş 2002-ci il yanvarın 25-də konqresin ona verdiyi səlahiyyətlərdən istifadə edərək "Azadlığa dəstək aktf'na 907-ci düzəlişin qüvvəsinin dayandırılması haqqında müvafiq sənədləri imzalamışdır. - "Dirçəliş-XXI əsr" jurnalı, Bakı, 2002, yanvar, İNs 47.

• Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-m Mərkəzi Kəşfiyyat Agentliyinin direktoru Corc Tenet ilə görüşü. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, yanvar-mart, Rk 2.

• Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-ın vitse-prezidenti Riçard Çeyni ilə görüşü. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, yanvar- mart, ffs 2.

• Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Sülh Korpusunun proqramı haqqında saziş imzalanmışdır. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, oktyabr-dekabr, hr° 5.

• Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəliyinin fəaliyyətinə dair qısa məlumat (oktyabr-noyabr, 2003 ). - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, oktyabr-dekabr,

• Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyevin ATƏT-in Nazirlər Şurasının Maastrixdə keçirilmiş görüşündə iştirakı. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, oktyabr-dekabr, X°5.

• Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyevin Avropa Şurası Xarici İşlər Nazirlərinin 113-cü iclasında iştirakı. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, oktyabr-dekabr, X° 5.

• Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyevin ATƏT Nazirlər Şurasının 11-ci görüşü zamanı müraciəti. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, oktyabr-noyabr, X° 5.

• Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyevin NATO və Avroatlantik Tərəfdaşlıq Şurasının xarici işlər nazirlərinin illik toplantısında iştirakı. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, oktyabr-dekabr, Ms5.

• Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyevin Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 9-cu iclasında iştirakı. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, oktyabr-dekabr, XsS.

• Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Xələf Xələfovun Norveç Krallığının Xarici İşlər Nazirliyinin dövlət katibi Kim Traavik ilə görüşü. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, oktyabr- dekabr, XgS.

• Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Xələf Xələfovun Yaponiyanın xarici işlər nazirinin müavini İçiro Fucisaki ilə görüşü. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, oktyabr-dekabr, Xs 5.

• Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarına rəsmi səfəri. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, yanvar-mart, X° 2.

• Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buş ilə görüşü. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, yanvar-mart, Xs 2.

• Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Vaşinqtonda "Şərq-Qərb enerji dəhlizi reallıqdır" mövzusunda keçirilmiş beynəlxalq konfransda nitqi. Vaşinqton, ABŞ, 27 fevral 2003. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, yanvar-mart, X° 2.

• Azərbaycanın İtaliyadakı səfiri Elmar Məmmədyarov ilə müsahibə. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2004, yanvar-mart, X°6.

• Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statunun 98-ci maddəsinə dair sazişin imzalanma mərasimi. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, yanvar-mart, Xe 2.

• Birlikdə yeni əsrə doğru. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ABŞ-a rəsmi səfəri. 27 iyul-7 avqust 1997-ci il. Bakı, 1997.

• Gündəliyin 8-ci bəndinə əsasən Azərbaycan Respublikasının bəyanatı. Maastrix, 2 dekabr 2003-cü il. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, oktyabr-dekabr, X° 5.

• Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Tərtibçilər: N.İbrahimov, 1.Şükürov. Bakı, 1994.

• Heydər Əliyev və Şərq: 6 cilddə. I kitab: Türkiyə; II kitab: Türkiyə. Tərt.-müəl. Q.Allahverdiyev, V. Sultanzadə. Red. M.Qurbanlı. Bakı, 2005, 2006.

• Qətiyyətin təntənəsi (sənədli xronika). Bakı, 1995.

• MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının Kiyev şəhərində qeyri-rəsmi zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin iştirakı. – "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, yanvar-mart, №2.

• Müqavilələr toplusu. I cild. Bakı, 2008.

## NƏŞR EDİLMİŞ QANUNVERİCİLİK SƏNƏDLƏRİ

***Azərbaycan dilində***

• Azərbaycan Respublikasının Konstitusiyası (Əsas qanunu). Bakı, 1995.

• Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 31 avqust 1991-ci il, № 15-16; 31 oktyabr 1991-ci il, № 19-20 (848-849); 31 dekabr 1991-ci il, № 24 (853); 15 fevral 1992-ci il, № 3 (856); 29 fevral 1992-ci il, № 4 (857); 5 mart 1992-ci il, № 5 (858); 15 aprel 1992-ci il, № 7 (860); 15 iyun 1992-ci il. №11 (864); 15 iyul 1992-ci il, № 13 (866); 30 sentyabr 1992-ci il, № 18 (871); 15 noyabr 1992-ci il, № 21 (874); 15 dekabr 1992-ci il, № 23 (876); 31 yanvar 1995-ci il, №1-2 (926-927); 15 iyul 1995-ci il, № 13 (938); 15 oktyabr 1995-ci il, № 19 (944).

• Azərbaycan Respublikasının qanunvericilik toplusu. Bakı, 1999, №5; №11; №12; 2000, №2 (509); 2002, №5 (59); 2003, №12 (78) (iki kitabda). I kitab.

***Rus dilində***

• Распоряжение Президента Азербайджанской Республики Гейдара Алиева о мерах по реализации программы сотрудничества между Советом Европы и Азербайджанской Республикой. 8 июля 1996 г. №365.

## NƏŞR EDİLMİŞ SƏNƏDLİ MƏNBƏLƏR


*Azərbaycan dilində*

• Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.

• Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX-XXI əsrlər). Müxtəsər xronoloji ensiklopediya. Bakı, 2003.

• Dağlıq Qarabağ: hadisələrin xronikası (1988-1994-cü illər). Toplayan və tərtib edənlər: Fərhad Vahabov, Vəli Axundov, Elman Qasımov. Bakı, 2005.

*Rus dilində*

• Агрессия Республики Армении против Азербайджанской Республики и ее правовые последствия. Тбилиси, 2009.

• Армянский геноцид: миф и реальность. Сборник фактов и документов. Баку, 1992.

• Март-1918 г. Баку. Азербайджанские погромы в документах Составитель: доктор исторических наук Солмаз Рустамова Тогиди. Баку, 2009.

• Нагорный Карабах: разум победит. Документы и материалы. Баку, 1989.

• События вокруг НКАО в кривом зеркале фальсификаторов (сборник материалов). Баку, 1989.

• Чаладзе Т. Карабахский геноцид: обреченный Ходжалы. Документальная хроника. Баку, 2009.

*İngilis dilində*

• Historical facts vs. The Armenian Myths. Baku, 2010.

• In Armenian captivity (Tortures, Murders, Terror, Vandalism, Genocide). Bakı, 2008.

*Türk dilində*

• Arşiv belgelerine göre Kafkaslarda ve Anadoluda ermeni mezalimi. IV. 1920-1922. Ankara, T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü. Osmanlı Arşivi Daire Başkanlığı.Yayın № 35, 1998.

## AZƏRBAYCAN DÖVLƏT XADİMLƏRİNİN ƏSƏRLƏRİ


*Azərbaycan dilində*

• Elçibəy Ə. Bu, mənim taleyimdir. Bakı, 1992.

• Elçibəy Ə. Deyirdim ki, bu quruluş dağılacaq. Bakı, 1992.

• Əliyev H. Ə. Azərbaycan nefti dünya siyasətində. IV kitab. Bakı, 1997.

• Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. I –XXXVIII kitab. Bakı, 1997-2011.

• Əliyev H.Ə. Minilliyin zirvə görüşündə çıxış. 7 sentyabr 2000-ci il. Bakı, 2010.

• Əliyev İ.H. İnkişaf məqsədimizdir. I kitab. Bakı, 2008; II kitab. Bakı, 2009.

• Mehdiyev R. Azərbaycanlılara qarşı soyqırım gerçəkləri. Bakı, 2000.

• Mehdiyev R. Azərbaycanın inkişaf dialektikası. Bakı, 2000.

• Mehdiyev R. XXI əsrdə mili dövlətçilik. Bakı, 2003.

• Mehdiyev R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən. Modernləşmə xətti. Bakı, 2008.

*Rus dilində*

• Алиев И. Каспийская нефть Азербайджана. М., 2003.

• Гасанов Г. Азербайджан – Европа: на пути к интеграции. Баку, 2003.

• Гасанов Г. Письмо в Совет Безопасности ООН. 1992-1993. Bakı, 2004.

• Мамедяров Э. Добрые соседи, надежные партнеры. К-15 летию установления дипломатических отношений между Азербайджанской Республикой и Российской Федерацией. – "Diplomatiya aləmi", Bakı, 2007, № 17.

• Муталлибов А. Карабах – черный сад. Москва, 1994.

*İngilis dilində*

• The Azerbaijan Republic. Address by H.E. Mr. Heydar Alirza oglu Aliyev, Prezident. – THE UN at 50. Statements by World Leaders. New York, 23-24 October 1995. New York, 1996.

## BMT SƏNƏDLƏRİ


***Rus dilində***

• Бутрос-Бутрос Гали. Во имя мира и развития. 1994. Годовой доклад о работе организации. Нью-Йорк, 1994.

• Бутрос-Бутрос Гали. Годовой доклад о работе ООН, посвященный 50-й годовщине. 1995 год. Нью-Йорк, 1996.

• Бутрос-Бутрос Гали. Доклад о работе организации за период с сорок седьмой до сорок восьмой сессии Генеральной Ассамблеи. Сентябрь 1993. Нью-Йорк, 1993.

• Бутрос-Бутрос Гали. Навстречу новым вызовам. Годовой доклад о деятельности ООН. Нью-Йорк, 1995.

• ООН. Генеральная Ассамблея. Совет Безопасности. A\56\62-C\2001\334.

• Права человека. Международный билл о правах человека. Нью-Йорк, 1995.

• Устав Организации Объединенных Наций и статут международного суда. Нью-Йорк, 1994.

***İngilis dilində***

• UN. General Assambly. Security Council.A\56\62-S\2001\334.

• UN. General Assembly. Security Council. 18 April 2001.A\56\62-S\2001\334.

• United States Information Service. 1993.

• Compilation of the UN documents on the Armenia – Azerbaijan Nagorno Karabakh conflict. Baku, 2009.

• Resolution 822 (1993) Adopted by the Security Council at its 3205 th Meeting on 30 April 1993. – Aggression of the Republic of Armenia Against the Azerbaijani Republic. Information Bulletin. 1994. The Ministry of Foreign Affairs of the Azerbaijan Republic. Baku, 1994.

• Resolution 874 (1993) Adopted by the Security Council at its 3292 nd Meeting on 14 October 1993. – Aggression of the Republic of Armenia Against the Azerbaijani Republic. Information Bulletin. Baku, The Ministry of Foreign Affairs of the Azerbaijan Republic, 1994.

• Security Council. Resolution 884. – Aggression of the Republic of Armenia Against the Azerbaijani Republic. Information Bulletin. Baku, The Ministry of Foreign Affairs of the Azerbaijan Republic, 1994.

• U.N.Resolution 853 (1993) Regarding the Armenia/ Azerbaijani Conflict United Nations Security Counci! July 29, 1993. - Aggression of the Republic of Armenia Against the Azerbaijani Republic. Information Bulletin. 1994. The Ministry of Foreign Affairs of the Azerbaijan Republic.

## NƏŞR EDILMIŞ ATƏT SƏNƏDLƏRİ

### *Azerbaycan dilində*

• Avropada Təhlükəsizlik və Əməkdaşlıq Məsələlərinə dair müşavirə. Bakı, 1975.

• Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi. ATƏM Şurasının birinci əlavə görüşü. Helsinki, 24 mart 1992-ci il. Yekun. - “Diplomatiya aləmi” jurnalı. Bakı, 2003, yanvar-mart, N22.

• Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin zirvə görüşü. Budapeşt. 6 dekabr 1994-cü il. II. Regional məsələlər. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ATƏM fəaliyyətinin fəallaşması. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2003, yanvar-mart, Jf°2.

• Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Nazirlər Şurasının 5-ci görüşü. Budapeşt. 8 dekabr 1995-ci il. ATƏT-in Minsk prosesi üzrə qərarı. - “Diplomatiya aləmi” jurnalı. Bakı, 2003, yanvar-mart, Ns 2.

• Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Zirvə görüşü. İstanbul. 19 noyabr 1999-cu il. İstanbul. Zirvə görüşünün bəyannaməsi. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2003, yanavar-mart, Jfs 2.

• Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Zirvə görüşü. Lissabon. 3 dekabr 1996-cı il. Əlavə 1. ATƏT-in fəaliyyətdə olan sədrinin bəyanatı. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2003, yanvar-mart, Ns 2.

• Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Zirvə görüşü. Lissabon. 3 dekabr 1996-cı il. Əlavə 2. Ennənistan nümayəndə heyətinin bəyanatı. -“Diplomatiya aləmi” jurnalı, Bakı, 2003, yanvar-mart, Ns 2.

• Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Nazirlər Şurasının 9-cu görüşü. Buxarest. 4 dekabr 2001-ci il. III. Nazirlər Şurasının bəyanatları. Qərar JS'22 (5) - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2003, yanvar-mart, Jf2 2.

• Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Nazirlər Şui'asının 10- cu görüşü. Porto. 7 dekabr 2002-ci il. Nazirlər Şurasının bəyanatları (4). - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2003, yanvar-mart, N22.

• ATƏT-in fəaliyyətdə olan sədri, Niderlandın xarici işlər naziri Hoop Sxefferin Azərbaycan Respublikasına səfəri. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2003, oktyabr-dekabr, Ns 5.

• Dövlət başçılarının Avropa zirvəsi (8-10 iyul 1992). Bakı, 1992.

*Rus dilində*

• **ВCHCKHH flOKyMeHT 1990 r. neperoBopoB no McpaM yKpenjıeHHa flOBepHH H öesonacHOCTH. Bena, 1990.**

• **XtoKyMCHTbi CTOKPOJibMCKOH KOHcJjepcHUHH oo McpaM yKpcnjıeHHa flOBepna, öeaonacHocTH н pa3opy>KeHHK) в EBpone. CxoKroıibM,** 1986.

*İngilis dilində*

• OSCE. Handbook. Vienna, 1996.

• Rome Declaration on Peace and Cooperation. November 1991

**DİGƏR BEYNƏLXALQ TƏŞKİLATLARIN SƏNƏDLƏRİ**

*Azerbaycan dilində*

• Avropa Birliyinin Dağlıq Qarabağa dair bəyanatı. Brüssel, 3 sentyabr 1993-cü il. - “Azərbaycan” qəzeti, Bakı, 1993, 29 aprel.

• Avropa Birliyinin Dağlıq Qarabağa dair bəyanatı. Brüssel, 9 noyabr 1993- cü il. - “Azərbaycan” qəzeti, Bakı, 1993, 20 noyabr.

• Avropa İttifaqının Dağlıq Qarabağa dair bəyanatı. Brüssel, 22 may 1992- ci il. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2004, yanvar-mart, JM26.

• Avropa İttifaqının Dağlıq Qarabağa dair bəyanatı. Brüssel, 18 iyun 1992-ci il. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2004, yanvar-mart, X26.

• Avropa İttifaqının Dağlıq Qarabağa dair bəyanatı. 7 aprel 1993-cü il. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2004, yanvar-mart, X26.

• Avropa İttifaqının sədrliyi adından Azərbaycandakı vəziyyət ilə bağlı 1994- cü il 17 yanvar tarixində Afina və Brüssel şəhərlərində yayılmış kommünike. Azərbaycan. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2004, yanvar- mart, N26.

• Avropa İttifaqının sədrliyi adından Dağlıq Qarabağa dair 1994-cü il 5 avqust tarixində Brüssel və Bonn şəhərlərində yayılmış kommünike. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2004, yanvar-mart, N26.

• Avropa İttifaqının sədrliyi adından Dağlıq Qarabağa dair 1994-cü il 15 sentyabr tarixində Brüssel və Bonn şəhərlərində yayılmış kommünike. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2004, yanvar-mart, X26.

• Avropa İttifaqı Avropa Siyasi əməkdaşıığı. 24 iyun 2003-cü il. — “Diplomatiya aləmi” jurnalı, Bakı, 2004, yanvar-mart, İN26.

• Avropa Komissiyasının iş sənədi. Avropa qonşuluq siyasəti. Ölkə üzrə hesabat. Azərbaycan. SEC (2005) 286. Bakı, 2005.

• Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 8 iyul 1996-cı il. – "Azərbaycan" qəzeti, Bakı, 1996, 9 iyul

• Avropa Şurası Parlament Assambleyasının Cənubi Qafqazda münaqişələrə dair qətnaməsi. №1119 (1997). – "Xalq qəzeti", Bakı, №89.

• Ermənistan və Azərbaycan arasında münaqişə üzrə qətnamə. Karaçi, 25-29 aprel 1993-cü il. – "Xalq qəzeti", Bakı, 1993, 7 may.

• NATO məlumat kitabı. Brüssel, 2005.

• Sülh naminə tərəfdaşlıq. Çərçivə sənədi. – "Xalq qəzeti", Bakı, 1994, 10 may.

***Rus dilində***

• Декларация сессии Североатлантического Совета. Брюссель, 10-11 января 1994 г. – НАТО Ревиве. Брюссель, 1994, №1, февраль.

• Итоговое коммюнике заседания Североатлантического Совета на уровне министров. Стамбул, 9 июня 1994.

• Устав Совета Европы. – Международное публичное право. Сборник документов. Т.I. М., 1996.

• НАТО: Справочник. Брюссел, 1995

***Türk dilində***

• KEİ Deklarosyonu. – Bilgi. TBMM Enformasyon Merkezi dergisi, 1993, Aralık, sayı №7.

***İngilis dilində***

• Moscow declaration of the heads of state or government of the participating states of the Black Sea Economic Cooperation. 25 October 1996. – PABSEC, Istanbul, 1996, November, vol.6.

## SSRİ VƏ RUSİYA FEDERASİYASININ NƏŞR EDİLMİŞ XARİCİ SİYASƏT SƏNƏDLƏRİ

• Бюллетен международных договоров. М., 1999, №7.

• Ведомости Верховного Совета СССР. М., 1990, № 3; № 15.

• Вестник МИД СССР. М.,1991, № 2, № 5, № 16-18.

• Внешняя политика России. Сборник документов. 1998-2003. М., 2003-2008.

• Верховный Совет Армянской ССР. Созыв 11-й. Сессия 7, Стенографический отчет. 15 июня 1988 г. Ереван, 1988.

• Дипломатический вестник. М., 2001, №2; 2002, №2; 2008, № 8.

• Документы внешней политики СССР. Т.III. М., 1959; Т. X. М., 1965.

• Концепция внешней политики Российской Федерации. – Внешняя политика и безопасность современной России. Т.2. М., 1999.

• Международное право в документах. 2-е издание М., 1997.

• О правовом статусе и экологических проблем Каспийского моря: материалы парламентских слушаний. 19 ноября 2001 года. М., Изд. Государственной Думы, 2003.

• Сборник действующих договоров, соглашений и конвенций, заключенных СССР с иностранными государствами. Вып. X. М., 1956.

• Собрание узаконений и распоряжений Рабочее-Крестьянского Правительства А.С.С.Р. за 1923 г. Баку, Издание Народного Комиссариата Юстиции. А.С.С.Р, 1925.

• Советско – иранские отношения в договорах, конвенциях и соглашениях. Составители С.И. Сычев, В.К.Волков. М., 1946.

• СССР в борьбе за безопасность и сотрудничестве в Европе. 1964-1987. Сборник документов. М., 1988.

## TÜRKİYƏ ARXİVLƏRİNİN NƏŞR EDİLMİŞ MATERİALLARI

***Türk dilində***

• Azerbaycan Cumhurbaşkanı Haydar Aliyev TBMM Genel Kurulu'nda konuştu. – TBMM aylık bülteni, Ankara, 1994, Şubat.

• Azerbaycan Cumhurbaşkanı Haydar Aliyev'in, Türkiye – Azerbaycan dostluğuna ilişkin Genel Kurula hitaben konuşması. – T.B.M.M. Tutanak dergisi. Cilt 53. 69-uncu birleşim. 9.2.1994.

• Azerbaycan Cumhurbaşkanı Haydar Aliyev'in Genel Kurula hitaben konuşması. – T.B.M.M. Tutanak dergisi, cilt 26, 89-uncu birleşim, 6.5. Ankara, 1997.

• Azerbaycan Cumhurbaşkanı Haydar Aliyev'in Amerika resmi gezisi Türkiye matbuatında (27 Temmuz – 5 August 1997). Ankara, T.C. Başbakanlık Basın -Yayın ve Enformasyon Genel Müdürlüğü, 1997.

• Azerbaycan Cumhurbaşkanı Haydar Aliyev'in Genel Kurula hitaben konuşması. – T.B.M.M. Tutanak dergisi. 68-ci birleşim. 13.3.2001.

• Azerbaycan belgelerinde ermeni şorunu (1918-1920). Ankara, T.C. Başbakanhk Devlet Arşivleri Genel Müdürlüğü. Cumhuriyet Arşivi Daire Başkanlığı. Yayın Xs 28, 2001.

• Arşiv belgelerine göre Kafkaslarda ve Anadoluda ermeni mezalimi. I. 1906-1918. I. Hüseyn Nazim Paşa. Ankara, T.C. Başbakanhk Devlet Arşivleri Genel Müdürlüğü. Osmanlı Arşivi Daire Başkanlığı. Yayın 23, Ankara, 1995.

• Dış başınında Azerbaycan Cumhurbaşkanı Haydar Aliyev'in Türkiye ziyareti (9-16 Ocak). - Ankara, T.C. Başbakanhk Basın-Yayın ve Enformasyon Genel Müdürlüğü, 2000.

• Ermeni komiteleri (1891-1895). Ankara, T.C.Başbakanhk Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı. Yayın İNs 48, 2001.

• Ermeni olayları tarihi. I. Hüseyn Nazim Paşa. Ankara, T.C. Başbakanhk Devlet Arşivleri Genel Müdürlüğü. Osmanlı Arşivi Daire Başkanlığı. Yayın 15, 1998; II. Hüseyn Nazim Paşa. Ankara, T.C. Başbakanhk Devlet Arşivleri Genel Müdürlüğü. Osmanlı Arşivi Daire Başkanlığı .Yayın Xs 15, 1998.

• Ermeni ler tarafından yapılan katliam belgeleri (1919-1921). II. Ankara, T.C. Başbakanhk Devlet Arşivleri Genel Müdürlüğü. Osmanlı Arşivi Daire Başkanlığı. Yayın Ns 50, 2001.

• Gürcistan, Azerbaycan ve Türkiye arasında imzalanan terörizm, örgütlü suçlar ve diger önemli suçlarla mücadele anlaşmasının onaylanmasma dair karar. 01.06.2002. - T.C. Resmi gazete, Ankara, 2002, 9 Temmuz.

• Türkiye Cumhuriyeti'nin uluslararası temelleri. Lozan. Montrö. Türkiye'nin komşularıyla imzaladığı başlıca belgeler (Suriye, İrak, İran, SSCB, Bulgaristan, Yunanistan). Lefkoşa, 1987.

• Türkiyə ile türk cümhuriyetleri ve türk toplulukları arasında yapılan anlaşmalar, ilişkiler ve faaliyetler. I. Birinci kitap. 1990-1992. Ankara, 1993; I. İkinci kitap. 1990-1992. Ankara, 1993; I.Üçüncü kitap. 1990-1993. Ankara, 1993.

• Türkiye Cumhuriyeti ile Azerbaycan Cumhuriyeti arasında Azerbaycan doğal gazmm Türkiye Cumhuriyeti'ne sevkiyatına ilişkin anlaşma'nm onaylanmasma dair Bakanlar Kurulunun karan. 09.04.2002. - T.C.Resmi gazete, İstanbul, 2002, 29 Mayıs.

• Türkiye Cumhuriyeti ile Azerbaycan Cümhuriyeti arasında yatırımların karşıhkh teşviki ve korunması anlaşmasının onaylanması. 21.03.1997. — T.C. Resmi gazete, 1997, 26 Mayıs.

• Türkiye Cumhuriyeti ile Azerbaycan Cumhuriyeti Dışişleri Bakanlıklan arasındakı işbirliğine ve siyasal danışmalara ilişkin anlaşmanın kararlaştırılmasma dair Bakanlar Kurulunun karan. 06.10.1997. - T.C. Resmi gazete, Ankara, 1997, 18 Ekim.

• Türkiye Cumhuriyeti, Azerbaycan Cumhuriyeti ve Gürcistan arasında petrolün Azerbaycan Cumhuriyeti, Gürcistan ve Türkiye Cumhuriyeti üikeleri üzerinden, Bakü - Tiflis - Ceyhan ana ihrac boru hattı yoluyla taşm- masına ilişkin anlaşmanın ve Türkiye Cumhuriyeti, Azerbaycan Cumhuriyeti ve Gürcistan toprakları üzerinden petrol taşmmasına dair Türkiye Cumhuriyeti, Azerbaycan Cumhuriyeti ve Gürcistan toprakları üzerinden petrol taşmmasına dair Türkiye Cumhuriyeti, Azerbaycan Cumhuriyeti ve Gürcistan arasındakı anlaşmanın değiştirilmesine ilişkin Türkiye Cumhuriyeti, Azerbaycan Cumhuriyeti ve Gürcistan arasında protokolun onaylanmasma uyğun bulunduğu hakkında kanun. 23.06.2000. - T.C.Resmi Gazete, Ankara, 2000, 24 Haziran.

• Türkiye Cumhuriyeti, Azerbaycan Cumhuriyeti ve Gürcistan arasında petrolün Azerbaycan Cumhuriyeti, Gürcistan ve Türkiye Cumhuriyeti üikeleri üzerinden, Bakü - Tiflis - Ceyhan ana ihrac boru hattı yoluyla taşm- masma ilişkin anlaşma. 1999, 18 Kasım. - T.C.Resmi gazete, Ankara, 2000, 10 Eylül.

• Türkiye Cumhuriyeti, Azerbaycan Cumhuriyeti və Gürcistan arasında petrolün Azerbaycan Cumhuriyeti, Gürcistan ve Türkiye Cumhuriyeti üikeleri üzerinden, Bakü - Tiflis - Ceyhan ana ihrac boru hattıyla taşmmasına ilişkin anlaşmanın kararlaştırılmasma dair Bakanlar Kurulunun karan. 03.08.2000. - T.C.Resmi gazete, Ankara, 2000, 10 Eylül.

• Türkiye Cumhuriyeti, Azerbaycan Cumhuriyeti ve Gürcistan arasında petrolün Bakü - Tiflis - Ceyhan ana ihrac boru hattı yoluyla taşmması hakkında anlaşmanın eklerini teşkil eden ev sahibi hükümet anlaşması, anahtar teslimi müteahhitlik anlaşması ile hükümet garantisine ilişkin tecdit ve değişiklik anlaşmalarının onayma dair karar. 27.03.2003. - T.C. Resmi gazete, Ankara, 2003, 23 Haziran.

• Türk dış politikası. Kurtuluş savaşından bugüne olgular, belgeler, yorumlar. Cilt 11.1980-2001. Editör: Baskın Oran. İstanbul, 2001.

***İngilis dilində***

• Annenians in Ottoman documents (1915-1920). The Turkish Republic Prime Ministry General Directorate of the State Archives. Directorate of Ottoman Archives. Publication As 25, Ankara, 1995.

## NƏRŞ EDİLMİŞ ABŞ XARİCİ SİYASƏT SƏNƏDLƏRİ


*Azərbaycan dilində*

• ABŞ Dövlət Departamentinin bəyanatı. – "Xalq qəzeti", Bakı, 1992, 22 may.

• ABŞ Prezidenti Bill Klintonun Bakı – Supsa ilkin neft xəttinin rəsmi açılışının iştirakçılarına məktubu. 15 aprel 1999-cu il. – "Azərbaycan" qəzeti, Bakı, 1999, 18 aprel.

• ABŞ Prezidentinin məktubu. – "Xalq qəzeti", Bakı, 1993, 20 aprel.

*İngilis dilində*

• Papers Relating to the Foreign Relations of the United States. 1918. Russia ( İn three volumes). Volume II. Washington, 1932.


## STATİSTİK NƏŞRLƏR


*Rus dilində*

• Вестник Министерство Внешнеэкономических связей Азербайджанской Республики. Баку, 1996, №1, 2-3.

• Демографический ежегодник СССР. 1990 год. М., 1990.

• Итоги всероссийской переписи населения 2002 года. В 14 томах. М., 2004.

• Национальный состав населения и владения языками, гражданство. Кн. 1. Т.4. Итоги всероссийской переписи населения 2002 года. В 14 томах. М., 2004.


## ENSİKLOPEDİK NƏŞRLƏR


*Rus dilində*

• Дипломатический словарь. В трех томах. Т. II. М., 1985.
• Кавказский календарь на 1914 год. Под ред. А.А.Эльзенгера, Н.П.Стелмашука. Тифлис, 1915.
• Адрес-календарь Азербайджанской Республики. 1920 год. Под ред. А.И.Ставровского. Баку, 1920.

## II. UMUMI ƏDƏBIYYAT

***Azerbaycan dilində***


• Anxov C. Azərbaycan - Gürcüstan dostluq münasibətlərinin inkişaf dinamikası (1992-2003-cü illər). Bakı, 2008.

• Anxov C. Azərbaycan - Gürcüstan iqtisadi əməkdaşlığında neft amili. Bakı, 2008.

• Aslanlı A. Qarabağ problemi: tarixi, mahiyyəti, həll prosesi. Bakı, 2009.

• Azərbaycan - Almaniya: respublikamız Avropa ölkələri ailəsində öz mövqeyini möhkəmləndirir. Bakı, 1996.

• Azərbaycan diasporu. Ensiklopedik məlumatlar toplusu. Bakı, 2012.

• Azərbaycan - 2003: inkişaf strategiyasında yeni mərhələ. Bakı, 2005.

• Azərbaycan parlamenti və beynəlxalq təşkilatlar. Bakı, 2004.

• Azərbaycan Respublikası. 1991-2001. Bakı, 2001.

• Azərbaycan sərhəd mühafizəsi. Bakı, 2009.

• Babaoğlu H. Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu. Bakı, 2009.

• Baxışov M. Beynəlxalq münasibətlər nəzəriyyəsi. Bakı, 2005.

• Bjezinskiy Z. İkinci şans: üç prezident və Amerika fövqəldövlətinin böhranı. Bakı, 2009.

• Cəfərov V.B. Diplomatik protokol. Bakı, 2002.

• Çin — Azərbaycan: dostluq sərhədləri aşır. Bakı, 2000.

• Darabadi P., Əliyev N. Xəzər bölgəsində geosiyasi rəqabət və Azərbaycan (qədim dövrlərdən XX əsrin sonuna qədər). Bakı, 2001.

• Didərginlər. Tərtib edəni Hidayət. Bakı, 1990.

• Eyyubova S. İslam Konfransı Təşkilatı beynəlxalq münasibətlər sistemində (1969-2007-ci illər). Bakı, 2009.

• Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998.

• Əliyev Z. Dünya diasporaları (nəzəriyyə və təcrübə). Bakı, 2005.

• Əzimli A. Azərbaycan - NATO münasibətləri (1992-2000). Bakı, 2001.

• Hacıyev İ. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan, 2012.

• Hacıyev S. Birinci dünya müharibəsi illərində Türkiyə - Rusiya münasibətlərində erməni terroru. Dissertasiya işinin avtoreferatı. Bakı, 1996.

• Həsənov Ə. Azərbaycan - ABŞ: anlaşılmaz münasibətlərdən strateji

- Həsənov Ə. Azərbaycan və ATƏT. Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Bakı, 1997.
- Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı, 2000.
- Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005.
- Həsənov Ə. Geosiyasət. Bakı, 2010.
- Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, 2011.
- İbadov R. Avropa İttifaqının əsasları. Bakı, 2004.
- İbayev V. İslam Konfransı Təşkilatı. Bakı, 1998.
- İbayev V. Ermənistan - Azərbaycan münaqişəsi beynəlxalq hüququn JUS COGENS prinsipləri prizmasında. Bakı, 1999.
- İsgəndərov A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı. 1918-1920. Bakı, 2006.
- İsmayılov R. Azərbaycan tarixi. Bakı, 1993.
- Kərimov E.Z. Azərbaycan - İtaliya əlaqələri. Roma, 2009.
- Köçərli T.Qarabağ: yalan və həqiqət. Bakı, 1998.
- Köçərli T. Qarabağ. Bakı, 2002.
- Qasımov (Qasımh) M. Bəşəriyyətin sağ qalması naminə. Bakı, 1991.
- Qasımh M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995- ci illər). Bakı, 1996.
- Qasımh M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı, 1997.
- Qasımh M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). 3 hissədə. I hissə (1914-cü il avqust-1917-ci il oktyabr). Bakı, 2000; II hissə (1917-ci il noyabr-1918-ci il noyabr). Bakı, 2001; III hissə. Sənədlər, materiallar, şəkillər. Bakı, 2004.
- Qasımh M. SSRİ - Türkiyə münasibətləri (Türkiyədə 1960-cı il çevrilişindən SSRİ-nin dağılmasmadək). 1 cild. Bakı, 2007; II cild. Bakı, 2009.
- Quluzadə V.Gələcəyin üfüqləri. Bakı, 1999.
- Məmmədli E. Azərbaycan - Böyük Britaniya münasibətləri (1991-2003- cü illər). Bakı, 2003.
- Məmmədov X., Məmmədov N. Türkiyədə və Azərbaycanda erməni millətçilərinin cinayətləri. Bakı, 2006.

• Məmmədov M., İbadov E. Beynəlxalq iqtisadi təşkilatlar. Bakı, 2008.

• Məmmədova H.İ. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Yuxan Qarabağda siyasi vəziyyət: erməni terrorunun güclənməsi (1918-1920). Bakı, 2006.

• Muradova B. Ennənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında ATƏT-in rolu. Siyasi elmlər üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı,
2009.

• Musa İ. Azərbaycanın xarici siyasəti. 111 hissə. Bakı, 2011.

• Nəsibli N. Azərbaycanın geoplotikası və neft. Bakı, 2000.

• Nəsibov E.M. ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası. Bakı, 2006.

• Nəsirov E. Azərbaycan - ABŞ münasibətləri (1991-1997-ci illər). Bakı, 1998.

• Novruzov Q. Müasir beynəlxalq hüquqda öz müqəddəratını təyinetmə hüququ: nəzəri və praktiki problemlər. Hüquq üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2010.

• Novruzova G. Rusiya Federasiyasında Azərbaycan diasporu: tarixi-demoqrafiya problemləri (1989-2002-ci illər). Tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2010.

• Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən ennəni - müsəlman davasının tarixi. Bakı, 1991.

• Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı, 2001.

• Paşayev H. Bir səfirin manifesti. Bakı, 2007.

• Paşayev H. Yüksəkliyə doğru. Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı ilk səfirinin seçilmiş məqalələri. Bakı, 2008.

• Rəcəbli H., İbayev V. Avropa Şurası. Bakı, 1999.

• Ruintən K. Ermənistanın Azərbaycana təcavüzü və dünya siyasəti. Bakı, 2008.

• Ruintən S. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-cı illəri). Bakı, 2005.

• Sadixov F. Diplomatiya və diplomatik xidmət. Bakı, 1993.

• Seyidov E. Azərbaycan - Çin münasibətləri. Bakı, 2007.

• Səfərov P. Azərbaycan Respublikası Rusiya, İran və Türkiyənin geosiyasi maraqlarında. Bakı, 2011.

• Svyatoxovski T. Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə. Bakı, 2000.

• Şükürov K. Türkmənçay-1828: tarixi xronika (ixtisarla). Bakı, 2006.

• Talıblı S. İran İslam Respublikasının Qafqaz siyasətində Dağlıq Qarabağ problemi (1991-2005-ci illər). Tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2010.

• Yaqubova A. Azərbaycanın neft diplomatiyası: əfsanələr gerçəkləşir. Bakı, 2004.

***Rus dilində***

• Аббасбейли А., Гасанов А. Азербайджан в системе международных и региональных организаций. Баку, 1999.

• Авакян Г. Нагорный Карабах: ответ фалсификаторам. Ереван, 1991.

• Алиев И. Нагорный Карабах: История. Факты. События. Баку, 1989.

• Алиев Н. Вопросы международного права в Нагорно-Карабахском конфликте. Тбилиси, 2009.

• Алиев А., Григорян С., Мусабеков Р., Навасардян Б. Карабахский конфликт: понят друг друга. Ереван, 2006.

• Арaслы Э. Полвека на Ближнем Востоке (Воспоминания дипломата). Баку, 2012.

• Арвеладзе Б., Мибчуани Т. Армянский батальон имени Баграмяна и этничистка грузин в Абхазии. Тбилиси, 2009.

• Аракелов Р. Нагорный Карабах: виновники трагедии известны. Б., 1991.

• Арешев А. Нагорный Карабах в региональной и мировой политике. Сб. статей. М., 2006.

• Арутюнян В.Б. События в Нагорном Карабахе: хроника. Ереван, 1993.

• Армяно – татарская смута на Кавказе, как один из фазисов армянского вопроса. Тифлис, Типография Штаба Кавказского Военного Округа, 1915.

• Армяноязычное население всей Грузии и теневые стороны и проблемы возрождения единой грузинской государственности (Материалы научной конференции. Тбилиси, 27 октября). Тбилиси, 2006.

• Аскеров А. Современное дипломатическое и консульское право. Баку, 2007.

• Бабанов И., Воеводский К. Карабахский кризис. Спб., 1992.

• Балаев А. Мартовские события 1918 года в Азербайджане. Тбилиси, 2009.

• Басилая Ш. И. Закавказье в годы первой мировой войны. Сухуми, 1968.

• Бжезинский З. Выбор. Глобальные господство или глобальное лидерство. Пер. с. англ. М., 2005.

• Бжезинский З. Великая шахматная доска. Господство Америки и его геостратегические императивы. М., 1999.

• Бутаев А. Каспий: зачем он Западу? М., 2004.

• Вердиева Х. Переселенческая политика Российской империи в Северном Азербайджане. Баку, 1999.

• Вопросы международного права в Нагорно-Карабахском конфликте. Тбилиси, 2009.

• Галоян Г. и др. Нагорный Карабах: историческая справка. Ереван, 1988.

• Гасымлы М. Азербайджан в международных культурных связях (1946-1990 гг.). Тбилиси, 2005.

• Гасымлы М., Купчик О., Дамиров А. Украинско – азербайджанские политические отношения: история и современност. Киев, 2012.

• Геополитика Каспийского региона. Сборник статей. М., 2005.

• Глинка С. Описание переселения армян Азербайджанских в пределы России, с кратким предварительным изложением времен Армении. М., 1831.

• Горбачев М. Перестройка и новое мышление для нашей страны и для всего мира. М., 1987.

• Гурко-Кряжин В. Армянский вопрос. Баку, 1990.

• Добрынин А. Сугубо доверительно. Посол в Вашингтоне при шести президентах США. М., 1996.

• Исмаилзаде Д. Русское крестьянство в Закавказье. М., 1982.

• Казимиров В. Мир Карабаху. Посредничество России в урегулировании нагорно-карабахского конфликта. М., 2004.

• Квяткевич П. Из войны и хаоса Азербайджан: рождение республики. Торун, 2009.

• Киссинджер Г. Нужна ли Америке внешняя политика? Пер с англ. Под ред. В.Л.Иноземцева. М., 2002.

• Коротко о НАТО: Информативный обзор вопросов и проблем, стоящих перед Североатлантическим союзом в конце в девяностых годов. Брюссель, 1996.

• Лютый И.А., Кулиев Р.А. Инвестиционная деятельность. Баку, 2009.

• Мамедов И., Мусаев Т. Армяно – азербайджанский конфликт: история, право, посредничество. Баку, 2007.

• Мамедов Р. Международно-прававой статус Каспийского моря: вчера, сегодня, завтра. Баку, 2006.

• Мамедов Р. Разграничение Каспийского моря (международно-правовые вопросы). Баку, 2006;

• Мамящ В.Н. Россия и США в Каспийском регионе – XXI век: проблемы и перспективы. Политический анализ. М., 2001.

• Манасян А.С. Карабахский конфликт: ракурсы правового подхода. Ереван, 1998.

• Майендорфская декларация 2 ноября 2008 года и ситуация вокруг Нагорного Карабаха (Сборник статей). М., 2009.

• Мархулия Г. Армяно – грузинские отношения в 1918-1920 годах. Тбилиси, 2007.

• Назарбаев Н.А. Критическое десятилетие. Алматы, 2003.

• Новрузоглу Р. Карабах: "черный рынок" для международного терроризма. Баку, 2003.

• От Майендорфа до Астаны: принципиальные аспекты армяно-азербайджанского Нагорно-Карабахского конфликта (Под ред. Г.М.Алексеева (доктор исторических наук, профессор МГУ им. М.В.Ломоносова). М., 2010.

• Очерки истории Министерства Иностранных Дел России. Т.II. 1917-2002. М., 2002.

• Помпеев Ю. Кровавый омут Карабаха. Баку, 1992.

• Раджабли А.А. Национальные интересы и международноая безопасность (анализ внешнеполитического поведения). Баку, 2004.

• Раджабли А. Международные связи Российской Федерации. Баку, 2005.

• Ричард Никсон. На арене. Воспоминания о победах, поражениях и возрождении. М., 1992.

• Севдималиев Р. Международный терроризм – глобальная проблема современности. Баку, 2004.

• Сейранян П. Карабах и Россия: страницы истории. М.,1997.

• Совет Европы: основные направления деятельности и результаты. М., 1995.

• Талыбов Р. Японо – азербайджанское сотрудничество на современном этапе. Баку, 2005.

• Тетвадзе Ш., Тетвадзе Г. Армяне в Грузии. Тбилиси, 2008.

• Уткин А.И. Единственная сверхдержава. М., 2003.

• Федоров Ю. Каспийская нефть и международная безопасность. Выпуск 1. Аналитический доклад по материалам международной конференции. М., 1996.

• Чингизоглы Т. Внутренная и внешняя политика Азербайджанской Республики на пути вступления в Совет Европы. Баку, 2002.

• Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье и предстоящая распродажа Мугани инородцам. Санкт-Петербург, 1911.

• Шукюров И. Будапешсткий саммит. Баку, 1995.

• Этнополитические конфликты в Закавказье: их истоки и пути решения. Центр международного развития и конфликтологии Мерилендский Университет. Колледж Парк Мериленд. США, 1996, с. 87.

• Эфендиев О. Вооруженные конфликты и военные преступления на Центральном Кавказе. Международно-правовый аспект. Баку, 2006.

• Южный фланг СНГ. Центральная Азия – Каспий – Кавказ: возможности и вызовы для России. Под ред. М.М.Наринского и А.В.Малыгина. М., 2003.

• Шеварднадзе Э. Когда рухнул железный занавес. Встречи и воспоминания. Пер. с. немецкого. М., 2009.

***Türk dilində***

• Ahmet Davutoğlu. Stratejik derinlik. Türkiyenin uluslararası konumu. İstanbul, 2001.

• Aras O.N., Dedeyev B., Yılmaz R., İbayev V. Karabağ savaşı. Siyasi-hukuki-ekonomik analiz. Bakı, 2008.

• Aslanlı A., Hesenov İ. Haydar Aliyev dönemi Azerbaycan dış politikası. Ankara, 2005.

• Atilla Ateş. Dünya meselelerinin kesişme noktasında Türkiyenin stratejik konumu. İstanbul, 1995.

• Azerbaycan Cumhuriyeti'nin bağımsızlığı ve Karabağ olayları. İstanbul, 1992.

• Bilal N. Şimşir. Azerbaycan. Azerbaycanın yeniden doğuşu sürecinde Türkiye – Azerbaycan ilişkileri. Ankara, 2011.

• Cafersoy N. Elçibey dönemi Azerbaycan dış politikası (Haziran 1992 – Haziran 1993). Bir bağımsızlık mücadelesinin diplomatik öyküsü. Ankara, 2001.

• Cemalettin Taşkıran. Geçmişten günümüze Karabağ meselesi. Ankara, 1995.

- Dursun Yıldınm, Cikat Özender. Karabağ dosyası. Ankara, 1991.
- Gökhan Çetinkaya, Taha Özkan. İşğalın ö.yılında Irak. Ankara, SETA, 2009.
- Kamer Kasım. Azerbaycan'ın dış politikası. Emine Gürsoy-Naskali ve Erdal Şahin (Der.). Bağımsızlıklarımn 10 Yılında Türk Cumhuriyetleri, Haarlam, Hollanda: SOTA, 2001.
- Kamer Kasım. Soğuk savaş sonrası Kafkasya. Azerbaycan, Ermenistan, Gürcistan, Türkiye, Rusya, İran ve ABD'nin Kafkasya politikaları. Ankara, 2009.
- Kemal Çiçek. Ermenilerin zorunlu göçü. 1915-1917. Ankara, 2005.
- Qasımlı M. Azerbaycan Türklerinin milli mücadele tarihi. 1920-1945. İstanbul, 2006.
- Mustafa Budak. Ennenistan ilişkilerinde Dağlık Karabağ meselesi ve Türkiye'nin politikası. -"Kafkas araştırmaları" dergisi. II cilt. İstanbul, 1996.
- Onur Öymen. Türkiyenin gücü. 21.Yüzyılda Türkiye, Avrupa ve dünya. İstanbul, 2003.
- Ramazan Özey. Jeopolitik ve jeostratejik açıdan Türkiye. İstanbul, 1998.
- Sedat Laçiner. Ermeni şorunu, diaspora ve türk dış politikası. Ermeni iddiaları Türkiyenin dünya ile ilişkilerini nasıl etkiliyor? Ankara, 2008.
- Tayfun Atmaca. Yirminci yüzyılm sonunda Azerbaycan ve Türkiye münasebetleri (1993-1999). Ankara, 1999.
- Türk dış politikası. 1919-2008. Editör: Prof., Dr. Haydar Çakmak. Ankara, 2008.
- Uras Esat. Tarihte ermeniler ve ermeni meselesi. İstanbul, 1987.
- William Hale. Türk dış politikası. 1774-2000. İstanbul, 2003.


***ingilis dilində***


- Annenia - Azerbaijan conflict. GRS. issue Brief. September 24, 1997.
- Annenian calms and historical facts. Questions and answers. Ankara, Center for Strategic Research, 2005.
- Azerbaijan in Global Politics: Crafting Foreign Policy. Baku, 2009.
- Azeri Foreign ministry sends note to Ankara. - Turan News Agency, 1992, 26 November.
- Bilal N. Şimşir. The genesis of the annenian question. Publicatıons oftheTurkish Historical Society. Serial VII. JTs 84. Ankara, 1992.
- Brenda Shaffer. Borders and Brethren. iran and Challenge of Azerbaijani Identity. Cambridge, The MİT Press, 2002.

• Brenda Shaffer. Iran's Interaal Azerbaijani Challenge: Impli cationas for Policy in the Caucasus. - The Caspian Region A Re-Emerging Region, London, Rotledge, 2004.

• Celeste A. Wallander. Russian transimperialism and its implications. - Global powers in the 21^' centry. Strategies and relations. Edited by Alexander T.J. Lennon and Ananda Kozlowski A. Washington Quarterly Reader, 2008.

• Freddy De Pauw. Turkey's policies in Transcaucasia. Bruno Coppieters, Contested Borders in the Caucasus. Brussels, VUB, 1996.

• Jack F. Matlock, Jr. The former Soviet Union Etnonationalism and US interess and values. - Ethnic conflict and regional instability; implications for missions. Edited by Robert L.Pfaltzgraff, Jr.,Richard H.Shultz, Jr. Washington, U.S.Government printing office,1994.

• John Roberts, Caspian Pipelines. London, The Royal Institute of International Affairs, 1996.

• Jolyon Howorth. Security and Defence policy in the European Union. New York, Palgrave Macmillan, 2007.

• Makili-Aliyev K. Enforcement of International Law in the Nagorno Karabakh Conflict. Tbilisi, 2008.

• Markar Melkonian with Seta Melkonian. My Brother's Road: An American's Fateful Journey to Armenia. London and New York. I.B.Tauris, 2007.

• Martin Griffıths, Terry O' Callaghan and Steven C.Roach. International Relations. The key consepts. London and New York, Rautledge Tay lor and Francis Group, 2008.

• Membership Action Plan.Washington DC.23-24 April 1999.

• Michael P. Crossant. The Armenian - Azerbaijan conflict, causes and implications. London, Praeger, 1998.

• Nadia Kirilova Milanova. The conflict over Nagorno Karabakh 1992-2002: Ten years of missed conflict resolution opportunities. Two volumes. Second volumes. To the University of Excter as a thesis for the degree of doctor of philosophy in politics. November 2002.

• Paul Goble. Georcia's Azerbaijanis: problems and possibilities. - Azerbaijan in the World. Vol.l. Baku 2008.

• Robert O. Freedman. Russia and Azerbaijan. Are relations beginning to Improve. - "Caspian Crossroads", Washington, 1994, Washington, 1997, Nal 2.

• Rodrigo Tavares. Regional security. The capacity of International organizations. London and New York, Routledge Taylor and Francic Group, 2010.

• Russell B.Olwell. The International Atomic Energy Agency. New York, İnfobase Publishing, 2009.

• Salahi Sonyel. The Great War and the tragedy of Anatolia (turks and armenians as the maelstrom of major powers). Ankara, 2000.

• Swietochowski T. Russia and Azerbaijan. A Borderland in Transition. New York, Columbia University Press, 1995.

• The Alliance strategic concept. Washington DC. April 1999.

• The European Union and Conflict Prevention. Policy and legal Aspects. Edited by Vincent Kronberger and Jan Wouters. The Hague, T.M.C. Asser Press, 2004.

• The Military balance. 1993-1994. The International Institute for strategic studies. London, 1993.

• Tim Potier. Conflict in Nagorno Karabakh, Abkhazia and South Ossetia. A Legal Appraisal. Cambrigre, Kluwer Law International, 2001.

• Tomas de Wall. Black Garden. Annenia and Azerbaijan trough Peace and War. New York and London, New York University Press, 2003.

• US humanitarian assistance to Azerbaijan. June 24, 1996.

• Zeynalov F. The Nagorno Karabakh conflict towards a just peace or inevitable law. A historical, geopolitical and legal approach. Paris, 2012.

***italyan dilində***

• Lambusta M. Nagorno Karabakh: Una questione irrisolta. La Mediazone dell OSCE nel Conflitto tra Armenia ed Azerbaijan. Tesi di Laurea in Relazioni İntemazionali, Universita Degli Studi Di Firenze, Anno Academico, 2004-2005.

• Gurbanov T. Le petrole de la Caspienne et la politique exterieure de L’ Azerbaidjan. Tome 1. Paris, 2007.

## III. MƏQALƏLƏR

### JURNAL MƏQALƏLƏRİ

***Azərbaycan dilində***

• Berls R. Qafqazdan və Mərkəzi Asiyadan keçən Qərb - Şərq dəhlizi: ABŞ-ın regiondakı strategiyasının fomıalaşması. - “Dirçəliş-XXI əsr” jurnalı, Bakı, 1998,Xo8-9.

• Cem Oğuz. Azərbaycan beynəlxalq fokusda. - “Azerbaijan Focus”, Bakı, 2009, Rol (1).

• Haqverdiyev O. Zəfərlərlə keçən illər (Prezident seçkiləri ərəfəsində ölkənin sosial-iqtisadi inkişaf meyillərinə bir nəzər). - “İqtisadiyyat və audif”, Bakı, 2003, X°9.

• İnozemtsev V. Kiçik məkanda böyük siyasətlər: Azərbaycanın geosiyasi arenada gələcək planları nədir? - “Azerbaijan Focus”, Bakı, 2009, X°l(l).

• Kojokin Y. Rusiya və Azərbaycan: əməkdaşlıq və qarşılıqlı əlaqələrin perspektivləri. - “Azerbaijan Focus”, Bakı, 2009, Xsl (1).

• Qasımlı M. İkinci dünya müharibəsindən sonrakı ilk illərdə Ermənistanın Azərbaycana ərazi iddiaları. - Qarabağ dünən, bu gün və sabah. I Ümumrespublika elmi-əməli konfransı. Tezislər. Bakı, 2002.

• Qasımlı M. Malenkovun Bağırova məktubu. - “Qanun” jurnalı, Bakı, 1998,X2İ3-14.

• Novruzov V. Yeni Azərbaycan quruculuğunun etibarlı sabahına təminat. - “İqtisadiyyat və audif’jurnalı, Bakı, 2003, X29.

• Nuriyev E. Avrasiyanın müasir geosiyasətində Azərbaycanın strateji rolu. - “Azerbaijan Focus”, Bakı, 2009, X2İ(1).

• Papava V. “Qafqaz tandemi”nin yaradılması və inkişafı. - “Azerbaijan Focus”, Bakı, 2009, X2İ(1).

• Paşayev H. ABŞ-la əməkdaşlığımızın vacib tərkib hissəsi. - “Dirçəliş-XXI əsr”, Bakı, 2003, avqust, X2 66.

• Rayner Fraytaq-Virminqhaus. Azərbaycanın xarici və təhlükəsizlik siyasəti. -“Azerbaijan Focus”, Bakı, 2009, X2İ(1).

• Süleymanov N. Kimyəvi silahların qadağan olunması təşkilatı və Azərbaycan Respublikasının təşkilatla əməkdaşlığı. - “Diplomatiya aləmi”, Bakı, 2006, X214.

• Zeyno Baran. Azərbaycan - gələcəyi dərk edərək . - “Azerbaijan Focus”, Bakı, 2009, X2I (1).

***Rus dilində***

• Алиев Н. Нагорно-Карабахский конфликт: правовые аспекты урегулирования. – Журн. "Центральная Азия и Кавказ" (Швеция) , 2005, №6 3 (39).

• Алиев Н., Юсифзаде Х. Еще раз к вопросу разделения Каспийского моря на экономические зоны. – "Caspian" (London) jurnalının "Xəzərneftqaz-97" sərgi və konfransına həsr olunmuş xüsusi buraxılışı. Bakı, 1997.

• Ахвердиев О. Инвестиционный бум в Азербайджане продолжается. – "Обозреватель", Баку, 2003, 14 ноября.

• Баланчино С. Углубление партнерства – ключ к долгосрочной стабильности в Европе. – "Вестник НАТО", Брюссель, 1997, №5.

• Боде А. Совет Безопасности Организации Объединенных Наций. Определяет ли НАТО его новую роль? – Журн. "İnternationale Politik", Berlin, 2001, №5.

• Гаджиев К. Размышления о последствиях "пятидневной войны" для геополитики Кавказа. – Журн. "Мировая экономика и международные отношения", М., 2009, №8.

• Гарашева С. Кавказ в системе современных международных отношений. – "Diplomatiya aləmi" , Bakı, 2003, №4, iyul-sentyabr.

• Годин Ю. Россия и СНГ: этнополитические вызовы. – Журн. "Мировая экономика и международные отношения", М., 2009, №4.

• Кертман Г. СНГ: между прошлым и настоящим.– Журн. "Политическое исследования", М.,2005, №6.

• Комментарий к поездке президента Исламской Республики Иран в Среднюю Азию и Кавказ. – Информационный бюллетень Центра дипломатического обучения МИД ИРИ. 1993, №3, 22 ноября.

• Мамедов Р. Международно-правовый статус Каспийского моря: вчера, сегодня, завтра (вопросы теории и практики). – Журн. "Центральная Азия и Кавказ", 2000, №2(8).

• Мелкумян Н. Нагорный Карабах: в поисках устойчивого мира. – Централъная Азия и Кавказ. Лулеа, Швеция, 1999, № 3, с.60-64.

• Панин В.Н. Региональная система безопасности: роль России и Армении. – Майендорфская декларация 2 ноября 2008 года и ситуация вокруг Нагорного Карабаха. Сборник статей. М., 2009.

• Пархалина Т. О природе Трансатлантических отношений на современном этапе развития. – Jurn. "İnternationale Politik", Berlin, 2001, №6.

• Пашковская И. Деятельность Евросоюза на Южном Кавказе. – Журн. "Мировая экономика и международные отношения", М., 2009, №9.

• Федоров Ю. Каспийская нефть и международная безопасность. Выпуск 1. Аналитический доклад по материалам международной конференции. М., 1996.

• Фолгер Х. Новые структуры для Организации Объединенных Наций. – Jurn. "İnternationale Politik", Berlin, 2001, №5.

• Халафов Х. Международно-правовая ответственность международных экономических организаций и юридическая природа принципа данной ответственности. – "Diplomatiya aləmi", Bakı, 2003, yanvar-mart, № 2.

• Харрази К. Текст выступления на заседании открытия седьмой конференции Центральной Азии и Кавказа. – Журн. "Аму-Даря", Тегеран, 1999, № 3, с. 19.

• Чернявский Е. Каспийские антиномии. – Журн. "Политические исследования", М., 2006, №6.

• Черняевский С. Внешняя политика Азербайджанской Республики (1991-2005 гг.). – Страны СНГ в системе международных отношений (Сборник статей). М., 2008.

• Шарипов Е.Х. Проблемы международной эксплуатации ресурсов Каспийского моря и внешние связи Казахстана и Туркменистана. – Центральная Азия в системе международных отношений. Сборник научных статей. М., 2004.

• Выступление министра Пеньи на пресс-конференции в Стамбуле 27 мая. – ЮСИА, 1998, 3 июня.

• Выступление посла Морнингстара 28 мая на конференции "Мировые перекрестки". – ЮСИА, 1998, 3 июня.

• Джозеф Меллот. От громких заявлений к упорной работе – таков настрой участников конференции "Мировые перекрестки". – ЮСИА, 1998, 2 июня.

• Джозеф Меллот. Конференция "Мировые перекрестки" завершила свою работу. Начинается претворение ее решений в жизнь. – ЮСИА, 1998, 3 июня

• ОПИК выделяет 30 млн. долларов на поддержку Закавказского фонда. – ЮСИА, 1998, 2 июня.

• Юсифзаде Х. Статус Каспия. – Caspian. The official publication of the Caspian region. M., 1995.

• Хуцишвили Г. Карабахская проблема: взгляд из Грузии. – От Майендорфа до Астаны: принципиалные аспекты армяно-азербайджанского нагорно-карабахского конфликта ( под ред. Г.М.Алексеева, доктор исторических наук, профессор МГУ им. М.В.Ломоносова). М., 2010.

***Türk dilində***

• Aliyarov S. Ermeni genişleme siyaseti ve Dağlık Karabağ. – "Türk dünyası Araştırmaları" dergisi, İstanbul, 1989, Sayı 60.

• Bakü – Ceyhan projesi ve jeostratejisi. – "Jeo ekonomi" dergisi, Ankara, 1999, İlkbahar, №1 (1).

• Gasımlı M. Rusyanın Azerbaycan politikası. – "Avrasiya dosyası" dergisi, Ankara, 2002, cilt 7, sayı 4.

• Mustafa Budak. Azerbaycan – Ermenistan ilişkilerinde Dağlık Karabağ meselesi ve Türkiyenin politikası. – "Kafkas Araştırmaları" dergisi, İstanbul, 1996, № 2.

• Sinan Oğan, Hasan Kanbolat. Kafkasya terazisinde yeni dengeler: Putin'in Azerbaycan ziyareti. – "Stratejik Analiz" degisi, Ankara, 2001, Şubat, cilt 2, sayı 2.

• Sinan Oğan. Azerbaycan' ın Türkiye ile iktisadi münasebetleri ve geleceği. – "Türk yurdu" dergisi, İstanbul, 1992, Eylül, № 12(61).

• Tayfun Atmaca. Azerbaycan – Türkiye münasebetleri ve petrol. – "Türk dünyası tarih dergisi", İstanbul, 1996, Eylül, №117.

***İngilis dilində***

• Aliyev Y. The Nagorno Karabakh Question. UN Reaffirms the Sovereignty and Territorial Integrity of Azerbaijan. – "Azerbaijan International", Washington, 1998 (6.4).

• Altstadt A. Nagorno Karabakh – "Apple of Discord" in the Azerbaijan SSR. – Central Asian Survey. Vol. VII, №4, 1988.

• Amalia Van Gent. Azerbaijan Oil, Armenians, Russians and Refugees. – Swiss Review of World Affairs, No. 2, February 1994.

• Chronology of terrorist acts commited the course of the Armenia-Azerbaijan conflict. – "Diplomatiya aləmi" jurnalı, Bakı, 2008, № 18-19.

• Dmitri Furman. The Evolution of the Karabakh conflict. – "The Iranian Journal of International Affairs", Tehran, 1994-95.Vol VI. No: 3 and 4.

• Ellman M. The NATO economics colloqium on the Soviet economy. – "NATO Review", 1991, №2.

• Freedom Support Act: clause restricting aid to Azerbaijan. - “Azerbaijan International”, Washington, May 1993.

• Imranly K. Armenia - Azerbaijan conflict: origins and consequences. -“Diplomatiya aləmi”jurnalı, Bakı, 2008, FT2İ8-19.

• Kamer Kasım. The Nagorno Karabakh conflict from its inception to the peace process. - “Armenian Studies”, Ankara, 2001, June-Yuly-August, N:2.

• John J. Mereska. A Peace Pipeline to end the Nagorno Karabakh Conflict. -“Caspian Crossroads”, Washington, 1995, Ffal.

• Mamedyarov E. Towards peace in the Nagomy Karabakh region of the Azerbaijan through reintegration and cooperation. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2005, oktyabr-dekabr, J^2İ3.

• Musayev T. From territorial clams to belligerent occupation legal appraisal. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2008, Ffs 18-19.

• Paul Goble. Georgia’s Azerbaijanis: problems and possibilities. - “Azerbaijan in the World”, volume 1, Baku, 2008.

• Robert O. Freedman. Russia and Azerbaijan are relations beginning to İmprove. - “Caspian Crossroads”, Washington, 1997, No: 12.

• Shafıyev F. Armenian - Azerbaijani conflict: roots. Massacres of 1905-1906. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2008, Jf2 18-19.

• Svente E.Cornell. Turkey and the conflict in Nagorno Karabakh: A delicate balance. -“Middle East Studies”, 1999, January, N2I, vol. 34.

QƏZETLƏR

***Azərbaycan dilində***

• “Azərbaycan”, “525-ci qəzet”, “Kommunist” , “Həyat” , “Xalq qəzeti”, “Respublika”.

***Rus dilində***

• **“BaKHHCKirH paöoHHH”, “BaKy”, “KacnHn”**, “Hssecraa”, “Hesaan- **cHMaa** raaera”, **“Tlpasaa”, “Əxo”.**

***Turk dilində***

• “Akşam”, “Dünya”, “Radikal” ,“Hürriyet”, “Zaman”, “Cumhuriyet”, “Akşam”, “Sabah”, “Milliyet”,“Türkiye”, “Star”, “T.C. Resmi Gazete”,“Yeni Şafak”, “Yeni Günaydın”, “Tercuman”, “Sabah”, “Milli Gazete”, “Yeni Yüzyıl”, “Evrensel”, “Star”, “Ortadoğu”, “Öncü”, “Gözlem”, “Vakit”.

***İngilis dilində***

• "The Times", "Washington Post", "Time", "The Washington Times", "The New York Times", "The Boston Globe", The Daily Telegraph", "The Sanday Times", "Turkish Daily News".

### III. İNTERNET RESURSLARI

http://www.azerbaijan/az/economy/strategy;
http://www. azerbaijan.az/portal/World Community/Caspian sea;
http://www.law.edu.ru;
http//www.un.org/webcast/ga/ statements /01111 Azerbaijan;
http://www.un.org/ webcast/ga/57/statements/02091. Azerbaijan.

# ƏLAVƏLƏR

## AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİK ƏLAQƏLƏR QURDUĞU ÖLKƏLƏR (1991-2003)

| | | |
|---|---|---|
| 1 | Türkiyə Respublikası | 14 yanvar 1992 |
| 2 | İsveçrə Konfederasiyası | 21 yanvar 1992 |
| 3 | Lixtenşteyn Knyazlığı | 21 yanvar 1992 |
| 4 | Koreya Xalq Demokratik Respublikası | 30 yanvar 1992 |
| 5 | Ukrayna | 06 fevral 1992 |
| 6 | Meksika Birləşmiş Ştatları | 10 fevral 1992 |
| 7 | İspaniya Krallığı | 11 fevral 1992 |
| 8 | Almaniya Federativ Respublikası | 20 fevral 1992 |
| 9 | Avstriya Respublikası | 20 fevral 1992 |
| 10 | Fransa Respublikası | 21 fevral 1992 |
| 11 | Polşa Respublikası | 21 fevral 1992 |
| 12 | Səudiyyə Ərəbistanı Krallığı | 24 fevral 1992 |
| 13 | Yəmən Respublikası | 25 fevral 1992 |
| 14 | Banqladeş Xalq Respublikası | 26 fevral 1992 |
| 15 | Amerika Birləşmiş Ştatları | 28 fevral 1992 |
| 16 | Flindistan Respublikası | 28 fevral 1992 |
| 17 | BöyÜK Britaniya və Şimali İrlandiya Krallığı | 11 mart 1992 |
| 18 | Qvineya Respublikası | 11 mart 1992 |
| 19 | İran İslam Respublikası | 12 mart 1992 |
| 20 | Liviya Respublikası | 16 mart 1992 |
| 21 | Almaniya Federativ Respublikası | 17 mart 1992 |
| 22 | Koreya Respublikası | 23 mart 1992 |
| 23 | Finlandiya Respublikası | 24 mart 1992 |
| 24 | Kuba Respublikası | 27 mart 1992 |
| 25 | Misir Ərəb Respublikası | 27 mart 1992 |
| 26 | Filippin Respublikası | 27 mart 1992 |
| 27 | Suriya Ərəb Respublikası | 28 mart 1992 |
| 28 | İraq Respublikası | 30 mart 1992 |
| 29 | Niderland Krallığı | 01 aprel 1992 |
| 30 | Çin Xalq Respublikası | 02 aprel 1992 |
| 31 | Danimarka Krallığı | 02 aprel 1992 |
| 32 | Rusiya Federasiyası | 04 aprel 1992 |
| 33 | İsrail Dövləti | 06 aprel 1992 |

| | | |
|---|---|---|
| 34 | Fələstin Milli Muxtariyyəti | 15 aprel 1992 |
| 35 | Monqolustan Xalq Respublikası | 16 aprel 1992 |
| 36 | Estoniya Respublikası | 20 aprel 1992 |
| 37 | Macarıstan Respublikası | 27 aprel 1992 |
| 38 | Cənubi Afrika Respublikası | 29 aprel 1992 |
| 39 | İsveç Krallığı | 08 may 1992 |
| 40 | İtaliya Respublikası | 08 may 1992 |
| 41 | Moldova Respublikası | 29 may 1992 |
| 42 | Tacikistan Respublikası | 29 may 1992 |
| 43 | Böyük Lüksemburq hersoqluğu | 01 iyun 1992 |
| 44 | Norveç Krallığı | 05 iyun 1992 |
| 45 | Bolqarıstan Respublikası | 05 iyun 1992 |
| 46 | Türkmənistan Respublikası | 09 iyun 1992 |
| 47 | Pakistan İslam Respublikası | 09 iyun 1992 |
| 48 | Belçika Krallığı | 17 iyun 1992 |
| 49 | Rumıniya | 19 iyun 1992 |
| 50 | Avstraliya İttifaqı | 19 iyun 1992 |
| 51 | Yeni Zelandiya | 29 iyun 1992 |
| 52 | Tailand Kı-allığı | 07 iyul 1992 |
| 53 | Oman Sultanlığı | 13 iyul 1992 |
| 54 | Sudan Respublikası | 25 iyul 1992 |
| 55 | Portuqaliya Respublikası | 4 avqust 1992 |
| 56 | Kanada | 10 avqust 1992 |
| 57 | Mərakeş Krallığı | 25 avqust 1992 |
| 58 | Qvineya-Bisau Respublikası | 27 avqust 1992 |
| 59 | Qazaxstan Respublikası | 30 avqust 1992 |
| 60 | Birləşmiş Ərəb Əmirlikləri | 01 sentyabr 1992 |
| 61 | Yaponiya | 07 sentyabr 1992 |
| 62 | Qana Respublikası | 11 sentyabr 1992 |
| 63 | Livan Respublikası | 18 sentyabr 1992 |
| 64 | Vyetnam Sosialist Respublikası | 23 sentyabr 1992 |
| 65 | İndoneziya Respublikası | 24 sentyabr 1992 |
| 66 | Efiopiya Xalq Demokratik Respublikası | 02 noyabr 1992 |
| 67 | Seyşel Respublikası | 02 noyabr 1992 |
| 68 | Gürcüstan | 18 noyabr 1992 |
| 69 | Honduras Respublikası | 22 dekabr 1992 |
| 70 | Qırğızıstan Respublikası | 19 yanvar 1993 |
| 71 | Çex Respublikası | 27 yanvar 1993 |
| 72 | İordaniya Haşimilər Krallığı | 13 fevral 1993 |
| 73 | Malayziya | 05 aprel 1993 |

| | | |
|---|---|---|
| 74 | Madaqaskar Demokratik Respublikası | 26 may 1993 |
| 75 | Belams Respublikası | 11 iyun 1993 |
| 76 | Braziliya Federativ Respublikası | 21 oktyabr 1993 |
| 77 | Argentina Respublikası | 08 noyabr 1993 |
| 78 | Zambiya Respublikası | 18 noyabr 1993 |
| 79 | Slovakiya Respublikası | 23 noyabr 1993 |
| 80 | Albaniya Respublikası | 23 dekabr 1993 |
| 81 | Latviya Respublikası | 11 yanvar 1994 |
| 82 | Əlcəzair Xalq Demokratik Respublikası | 22 aprel 1994 |
| 83 | Sinqapur Respublikası | 15 avqust 1994 |
| 84 | Qəmər adaları (Comoros) | 06 sentyabr 1994 |
| 85 | Qatar Dövləti | 14 sentyabr 1994 |
| 86 | Küveyt Dövləti | 07 oktyabr 1994 |
| 87 | Mavritaniya İslam Respublikası | 29 oktyabr 1994 |
| 88 | Qvatemala Respublikası | 01 noyabr 1994 |
| 89 | Çili Respublikası | 03 noyabr 1994 |
| 90 | Qambiya Respublikası | 11 noyabr 1994 |
| 91 | Əfqanıstan İslam Respublikası | 16 noyabr 1994 |
| 92 | Nikaraqua Respublikası | 23 noyabr 1994 |
| 93 | Anqola Respublikası | 01 dekabr 1994 |
| 94 | Kolumbiya Respublikası | 13 dekabr 1994 |
| 95 | Maldiv adaları Respublikası | 20 dekabr 1994 |
| 96 | Kamboca Krallığı | 28 dekabr 1994 |
| 97 | Qayana Kooperativ Respublikası | 09 yanvar 1995 |
| 98 | Malta Respublikası | 09 yanvar 1995 |
| 99 | Uruqvay Respublikası | 11 yanvar 1995 |
| 100 | Xorvatiya Respublikası | 26 yanvar 1995 |
| 101 | Bosniya və Hersoqovina | 09 fevral 1995 |
| 102 | Kamerun Respublikası | 24 fevral 1995 |
| 103 | Nepal Krallığı | 28 fevral 1995 |
| 104 | Burundi Respublikası | 02 mart 1995 |
| 105 | Sierra Leone Respublikası | 13 mart 1995 |
| 106 | Sent Kits və Nevis | 22 mart 1995 |
| 107 | Antiqua və Barbuda | 05 aprel 1995 |
| 108 | Panama Respublikası | 06 aprel 1995 |
| 109 | Venesuela Respublikası | 12 may 1995 |
| 110 | Laos Xalq Demokratik Respublikası | 22 may 1995 |
| 111 | Mozambik Respublikası | 20 iyun 1995 |
| 112 | Makedoniya Respublikası | 28 iyun 1995 |
| 113 | Uqanda Respublikası | 19 avqust 1995 |

| | | |
|---|---|---|
| 114 | Özbəkistan Respublikası | 02 oktyabr 1995 |
| 115 | Niger Respublikası | 10 noyabr 1995 |
| 116 | Y amayka | 22 noyabr 1995 |
| 117 | Bruney Darussalam | 24 noyabr 1995 |
| 118 | Litva Respublikası | 27 noyabr 1995 |
| 119 | Sloveniya Respublikası | 20 fevral 1996 |
| 120 | Seneqal Respublikası | 14 mart 1996 |
| 121 | Andorra Knyazlıgı | 30 aprel 1996 |
| 122 | Şri Lanka Demoki'atik Sosialist Respublikası | 21 may 1996 |
| 123 | Liberiya Respublikası | 22 may 1996 |
| 124 | Peru Respublikası | 25 iyun 1996 |
| 125 | İrlandiya Respublikası | 01 iyul 1996 |
| 126 | Boliviya Respublikası | 08 iyul 1996 |
| 127 | Mavriki Respublikası | 01 oktyabr 1996 |
| 128 | Qabon Respublikası | 01 oktyabr 1996 |
| 129 | Cibuti Respublikası | 22 oktyabr 1996 |
| 130 | Bəhreyn Dövləti | 06 noyabr 1996 |
| 131 | Kod D'ivuar Respublikası | 19 noyabr 1996 |
| 132 | Mali Respublikası | 26 noyabr 1996 |
| 133 | Kosta Rika Respublikası | 15 yanvar 1997 |
| 134 | Serbiya Respublikası | 21 avqust 1997 |
| 135 | İslandiya Respublikası | 27 fevral 1998 |
| 136 | Tunis Respublikası | 01 iyul 1998 |
| 137 | El Salvador Respublikası | 23 mart 1999 |
| 138 | Myanma Birliyi Respublikası | 03 avqust 1999 |
| 139 | Benin Respublikası | 14 oktyabr 1999 |
| 140 | Surinam Respublikası | 11 fevral 2000 |
| 141 | San Marino Respublikası | 19 aprel 2002 |
| 142 | Beliz | 24 iyun 2002 |
| 143 | Haiti Respublikası | 09 may 2003 |
| 144 | Sent Vinsent və Qrinadina | 23 may 2003 |

# XƏRITƏLƏR


AZƏRBAYCAN RESPUBLIKASI
XƏZƏR DƏNIZI
BAKI
SUMQAYIT
TBILISI

# Ermənistanın Azərbaycan Respublikasına təcavüzünün nəticələri

# RESULTS OF ARMENIAN AGGRESSION




## The occupied territories of the Republic of Azerbaijan

*Former Nagorno Karabakh Autonomous Oblast - NKAO (1923-1991)*

| | |
|---|---|
| Territory: | 4.388 sq.km |
| Population (1989): | 189.085 |
| - Armenians: | 145.450 (76,9%) |
| - Azerbaijanis: | 40.688 (21,5%) |
| - Russians: | 1922 (1%) |
| - Others: | 1025 (0,5%) |
| Adm.territorial div.: | Mardakert, Askeran, Shusha, Martuni, Hadrut districts |

### SHUSHA district

| | |
|---|---|
| Territory: | 290 sq.km |
| Population (1989): | 20.579 |
| - Azerbaijanis: | 19.036 (92,5%) |
| - Armenians: | 1.377 (6,7%) |
| Date of occupation: | May 8, 1992 |

### THE OCCUPIED TERRITORIES OF THE REPUBLIC OF AZERBAIJAN OUTSIDE FORMER NKAO

| | date of occup. | area (in sq.km) | popul. at the time of occup. (1989) | current popul. (2011) |
|---|---|---|---|---|
| Lachyn | 18.05.1992 | 1.840 | 51.594 | 70.900 |
| Kalbajar | 02.04.1993 | 3.050 | 57.756 | 83.200 |
| Aghdam | 23.07.1993 | 1.150 | 132.170 | 180.600 |
| Fuzuli | 23.08.1993 | 1.390 | 88.729 | 118.900 |
| Jabrayil | 23.08.1993 | 1.050 | 48.349 | 72.700 |
| Gubadly | 31.08.1993 | 800 | 28.111 | 30.700 |
| Zangilan | 29.10.1993 | 710 | 31.330 | 40.500 |

*after administrative-territorial changes of 1992

### GAZAKH district*

| | |
|---|---|
| Baghanis Ayrym | 24.03.1990 |
| Kheyrymly | 08.03.1992 |
| Ashaghy Askipara | 12.03.1992 |
| Barkhudarly** | 27.04.1992 |
| Sofulu** | 27.04.1992 |
| Gyzylhajyly | 11.05.1992 |
| Yukhary Askipara** | 08.06.1992 |




*the population of the occupied territories of Gazakh dist. was purely Azerbaijanis.
**enclave villages.



### SADARAK dist., NAKHCHYVAN AR

| | date of occup. | population (1989) | ethnic comp. (1989) |
|---|---|---|---|
| Karki enc.village | 15.01.1990 | 333 | 100% aze |

### Refugees and IDPs

| | |
|---|---|
| Refugees from Armenia | 250.000 |
| IDPs from the occupied territories | 686.586 |
| **TOTAL:** | **936.586** |

| *Settlers illegally transfered to the occupied territories* | |
|---|---|
| former NKAO | 8.500 |
| Lachyn | 13.000 |
| Kelbajar | 700 |
| Zangilan | 520 |
| Jabrayil | 280 |
| **Total:** | **23.000** |

| *Armenian Armed Forces in the occupied territories* | |
|---|---|
| Tanks | 350 |
| ACV | 398 |
| Artillery | 425 |
| Personnel | 45.000 |

### DESTRUCTION and DAMAGE

| | |
|---|---|
| Settlements | 890 |
| Houses | 150.000 |
| Public buildings | 7.000 |
| Schools | 693 |
| Kindergardens | 855 |
| Healthcare facilities | 695 |
| Libraries | 927 |
| Temples | 44 |
| Mosques | 9 |
| Historical places | 9 |
| Historical monuments and museums | 464 |
| Museum exhibits | 40.000 |

| | |
|---|---|
| Ind. and agricul. enterprises | 6.000 |
| Motorways | 800 km |
| Bridges | 160 |
| Water pipelines | 2.300 km |
| Gas pipelines | 2.000 km |
| Electricity lines | 15.000 km |
| Forests | 280.000 ha |
| Sowing area | 1.000 000 ha |
| Irregation sys. | 1.200 km |

**The total damage is estimated up to 60 billion $ US**

### Victims of aggression
(approximately)

| | |
|---|---|
| killed: | 20.000 |
| disabled: | 50.000 |
| missing: | 5.000 |

Copyright 2011
Ministry of Foreign Affairs of
The Republic of Azerbaijan
The Department of Foreign Policy Planning
and Strategic Studies
All rights reserved

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTLƏRİ



**Ayaz Mütəllibov**

*(18 may 1990 - 6 mart 1992; 14 may 1992 - 18 may 1992)*



**Əbülfəz Elçibəy (Əliyev)**

*(17 iyim 1992 - 1 senhmbr 1993)*



**Heydər Əliyev**

*(1993- 2003)*



# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLƏRİ



**Hüseynağa Sadıqov**
*(23. 01. 1988-29. 05. 1992)*



**Tofiq Qasr**
*(29. 05. 1992 -*





**Həsən Həsənov**
*(02. 09. 1993 - 16. 02. 1998)*

**Tofiq Zülfüqarov**
*(05. 03. 1998 - 26. 10. 1999}*



**Vilayət Quliyev**
*(26. 10. 1999 - 02. 04. 2004)*

# İKİTƏRƏFLİ VƏ ÇOXTƏRƏFLİ ƏMƏKDAŞLIĞA DAİR FOTOŞƏKİLLƏR




Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev
və Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl (Ankara, 1996)



*Türkiyənin Baş Naziri Məsud Yılmaz ilə (Ankara, 1996)*



Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının
Baş Naziri Con Meycor ilə (London, 1994)



**İran İslam Respublikasının Prezidenti**
**Əkbər Haşemi Rəfsəncani ilə görüş (Tehran, 1994)**




Heydər Əliyev "Əsrin müqaviləsi"nin imzalanması mərasimində nitq edərkən (Bakı, 1994)



BMT-nin baş katibi Butros Butros Qali Bakıda (1994)




Azərbaycan Respublikasının Prezidenti
ATƏT-in Budapeşt zirvə toplantısında (1994)



**Rumıniya Prezidenti İon İliesku ilə göıaiş (Bakı, 1996)**



NATO-nun baş katibi Xavyer Solana ilə göms (Bmssel, 1996)



Heydər Əliyev və AFR-in federal kansleri Helmut Kol (Berlin, 1996)



Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin qarşılanma mərasimi
(Bakı, 1996)



Heydər Əliyev, Fransa Respublikasının Prezidenti Jak Şirak
və İlham Əliyev (Paris, 1997)



Heydər Əliyev və Özbəkistan Prezidenti İslam Kərimov (Daşkənd, 1997)



**Amerika Birləşmiş Ştatlarının Prezidenti Bili Klinton ilə görüş (Vaşinqton, 1997)**



Heydər Əliyev və İsrailin Baş Naziri Benyamin Netanyahu (Bakı, 1997)



İtaliya Prezidenti Oskar Luiçi Skalfaro ilə görüş (Roma, 1997)



Azərbaycan Respublikasının Prezidenti Avropa Şurasına üzv olan ölkələrin dövlət və hökumət başçıları ilə (Strasburq, 1997)



Fələstin Muxtariyyətinin rəhbəri Yasir Ərəfat ilə görüş (Tehran, 1997)



Heydər Əliyev və Yaponiya imperatoru Akixito (Tokio, 1998)

t



Heydər Əliyev və Gürcüstan Prezidenti Eduard Şevardnadze (Bakı, 1998)

Ol



Bakıda Böyük İpək yolunun bərpasına həsr edilmiş beynəlxalq konfransın iştirakçısı olan dövlət və hökumət başçıları (1998)



Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının kraliçası II Yelizaveta ilə görüş (London, 1998)



**Ağ evdə neft müqaviləsinin imzalanması mərasimi (1999)**

Ol



ATƏT-in Minsk qrupu həmsədrlərinin qəbul edilməsi (Bakı, 2001 ]



Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buş ilə görüş (Vaşinqton, 2001)



Heydər Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin
(Moskva, 2002)



Heydər Əliyev və Roma Papası II İohann Pavel (Bakı, 2002)



Azərbaycan Respublikasının BMT yanındakı ilk daimi nümayəndəliyi
(NyuYork. 1992)



C-n

Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin təməlinin qoyulması (Bakı, 2002)

**CT**
O



Azərbaycan Respublikasının Baş Naziri İlham Əliyev BMT Baş Məclisində nitq edərkən (Nyu York, 2003)

Musa Cəfər oğlu Qasımlı
*tarix üzrə elmlər doktoru, professor*

Azərbaycan Respublikasının xarici siyasəti
**(1991-2003)**

*2 hissədə*

II hissə

*Kitab "Mütərcim" Nəşriyyat-Poliqrafiya Mərkəzində*
*yığılmış, səhifələnmiş və çap olunmuşdur.*

Nəşriyyat redaktoru: Əliş Ağamirzəyev
Texniki redaktor: Mətanət Qaraxanova
Üz qabığının dizaynı: Cavid Kişiyev

Çapa imzalanıb: 04.07.2015. Format: 60x90 1/16 . Qarnitur: Times.
Ofset çap. Həcmi: 41.5 ç.v. Tiraj; 1500. Sifariş 19.

**MUTƏRCIM**

**TƏRCÜMƏ**
**VƏ NƏŞRİYYAT-POLİQRAFİYA**
**MƏRKƏZİ**

**Az 1014, Bakı, Rəsul Rza küç., 125**
**596 21 44; 497 06 25; (055)715 63 99**
**e-mail: mutarjim@mail.ru**